AZƏRBAYCAN ƏDƏBİYYATI

İLYAS ƏFƏNDİYEV



SEÇİLMİŞ ƏSƏRLƏRİ



2005
680

46291.

75729

III6
ə34

İLYAS ƏFƏNDİYEV

SEÇİLMİŞ ƏSƏRLƏRİ

ÇAŞIOĞLU
2005

M.F.Axundov adına
Azərbaycan Milli
Kitabxanası

ARXİV

Ш6(2=А3)7 + Ш5(2=А3)7

REDAKSİYA ŞURASI

Misir Mərdanov (sədr)
Anar Rzayev
Ağamusa Axundov
Azad Nəbiyev
Bəxtiyar Vahabzadə
Bəkir Nəbiyev
Cəlil Nağıyev
Elçin Əfəndiyev
Hikmət Hüseynov (naşir)
İsa Həbibbəyli
Kamal Abdullayev
Qara Namazov
Nizami Cəfərov
Pənah Xəlilov
Vasim Məmmədəliyev

REDAKSİYA HEYƏTİ

Əsgər Quliyev (baş redaktor)
Nəcəf Nəcəfov
Bilal Həsənli
Arif Məmmədov
Aida Soltanova
Bəhlul Abdulla
Soltan Əliyev
Teymur Kərimli
Yaşar Həmidov
Zaman Əsgərli

Tərtib edəni və redaktoru: Elçin
Ön sözün müəllifi : Yaşar Qarayev

İlyas Əfəndiyev.
Ə92. Seçilmiş əsərləri. Bakı: Çaşıoğlu, 2005. – 584 s.

Ə $\frac{4702060000-011}{082-05}$

© **"*Çaşıoğlu*"** nəşriyyatı, 2005.

Sənət və sənətkar o zaman doğulur ki, istedad ağ bir vərəqlə təkbətək və üzbəüz qalır. Poeziya ilə ilham və ülviyyət arasında ünsiyyət məhz bu ağ vərəqdə, bu bəyaz qanadlı genişlikdə baş verir. Ən xoşbəxt ədiblər bu ağ qanada saf hava dağıdanlar, qara mürəkkəblə də ağ kağıza ağ işıq artıranlardır...

Adətən, İşıq–«zirvə» və «səma» anlayışlarını yada salır. Lakin sənətdə, poeziyada işıq həmişə Yer, həmişə Torpaq idealı ilə bir yerdə olur. Həmişə, hətta bizim Kosmosun fəthi və elmi, texniki yüksəliş dövründə də! Və bu gün də yazıçı kosmonavta yox... əkinçiyə, taxılçıya, kotançıya bənzəyəndə – sehrli və gərəkli görünə bilər. Məhz torpaq duyğusu, canlı həyat, dirilik hissi müasirliyin nəbzini, ruhunu, əsəbini tapmaqda və bizə çılpaq göstərməkdə sənətkara kömək edir.

Deyirlər, Günəşin işığı və istisi kimi İnsanın əsəbi və ağrısı da mənəvi zərrələrə çevrilib Planetə, Efirə yayılır. Ən etibarlı və əbədi mənəvi qoruqda – Kosmosda bütün dövrlərin ağrı və əsəb impulsları – yaddaşın qısa və uzun dalğaları yaşayır. Odur ki, sənətkar bütün dövrlərin ağrısını qəbul edə və bizə göstərə bilir. Yalnız bu mənada poetik işığı müasir kosmik cihaza – radiolokatora bənzətmək olar: böyük sənət əsəri də sənətkar dünyaya yayılan ağrını və əsəbi səhvsiz ədəbi dalğada tutanda (yalnız bu zaman!) və poetik haraya çevirəndə yaranır.

Sənətdə bədiilikdən də ucada duran, həm işığa, həm də ağrıya həssaslığı eyni vaxtda, vəhdətdə ifadə edən bir keyfiyyət var: insanilik!Yazıçı şəxsiyyətinin miqyası və ölçüləri insaniliyin də ölçülərinə çevrilə biləndə poetik imzalar və ünvanlar, həm də işığın ünvanına, insana həssaslığın və sevginin imzasına çevrilə bilir.

«İlyas Əfəndiyev» ünvanlı belə poetik işıqdan ilk dəfə hələ «*Kənddən məktublar*» və «*Aydınlıq gecələr*» xəbər gətirmişdi. Sonralar bu imza bizim milli-mənəvi tarixin həm keçmişinə, həm də indisinə məxsus işığı və dramatizmi vəhdətdə əks etdirən orijinal, məxsusi, təkrarsız bir bədii aləmin də ünvanına çevrilə bildi.

Bu poetik işığın tarixinin və taleyinin ən yaxşı sənədləri, səhifələri elə İlyas Əfəndiyevin öz əsərləridir. Lakin əsil sənət əsərlərində müəllifin tərcümeyi-halı, bioqrafiyası yox, bəlkə, daha çox daxili «mən»i, mənəvi aləmi, xarakteri açılır; portreti yox, şəxsiyyəti görünür.

Əlbəttə, İlyas Əfəndiyevin heç bir əsərində ayrıca bir İlyas Əfəndiyev yoxdur. Lakin İlyas Əfəndiyevdən bir duz, bir iz onun hər əsərində, hər obrazında var.

«*Emma Bovari mən özüməm!*» – Məlumdur ki, bu məşhur ifadə şəxsən Floberin özünə məxsusdur. Mən İlyas Əfəndiyevlə onun qadın qəhrəmanları arasında bərabərlik işarəsi qoymaq istəmirəm. Lakin maraqlı və mənalıdır ki, məhz qadın surətlərinin bütöv bir silsiləsi onun yaradıcılığında mühüm yer tutur və bu, İlyas Əfəndiyevin özünün bir sənətkar kimi obrazını çox cəhətdən

şərtləndirir, tamamlayır. Səriyyələr, Səlimələr, Nuriyyələr, Sarıköynəklər, Nargilələr, Fərəhlər, Natəvanlar, Ağabəyimlər... – bu böyük silsilədə yalnız qadınlığın mənəvi inkişafında müasir mərhələnin məzmunu yox, həm də müəllifin öz əqidə, əxlaq və etika idealları əks olunmuşdur.

İlyas Əfəndiyevin ən «avtobioqrafik əsəri» hansıdır?–sualına cavab olaraq, adətən, *«Geriyə baxma, qoca!»* əsərinin adını çəkirlər. Yox, onun bioqrafiyasından da çox şəxsiyyətinə, xarakterinə, taleyinə açılan pəncərəyə bənzəyən surətləri İlyas Əfəndiyevin bütün əsərlərində axtarmaq lazımdır.

Yox, balaca Murad ədibin özü deyil, İlyas Əfəndiyevin özündən çox, İlyas Əfəndiyevin İlyas Əfəndiyev haqqında təsəvvürüdür. Bir obraz kimi o, həyatdan çox, yaddaşdan süzülüb gəlib və ədibin uşaqlığı ilə ağsaqqallığı arasındakı vəhdətdən doğulub. Daha doğrusu, o, uşağın yox, uşaqlığına boylanan ağsaqqalın düşüncələrinin təcəssümüdür.

Obrazın özü kimi, əsərin adı – *«Geriyə baxma, qoca»* – sözləri də şərti səciyyə daşıyır. Axı İlyas Əfəndiyev həmişə irəlini görmək üçün geriyə baxmağın tərəfdarı olub, gələcəklə keçmiş arasındakı körpünün üzərində dayanaraq, həyata və insanlara buradan boylanıb baxıb. Geriyə, kökə, əcdada boylanmayanda isə nə şəxsiyyət, nə də xalq irəlini görə bilməz – onun bütünlükdə bədii yaradıcılığının məntiqi ilə ifadə olunan qanunauyğunluq bir də bu həqiqətdən ibarətdir. Bu əsərin özündə də İlyas Əfəndiyev həmin həqiqətə sadiq qalır və geriyə baxa-baxa irəliyə hərəkət edir.

Ədibin bioqrafiyasına yox, bilavasitə şəxsiyyətinə, taleyinə məhrəm və doğma surətlər haqqında düşünəndə mənim yadıma hamıdan əvvəl Həsənzadə düşür. Ömrün, həyatın, həqiqətin mənasını axtaran gənc oğlan və qızlar düşür. Onun nəinki müasir, həm də tarixi mövzuda yazdığı əsərlərin qəhrəmanları düşür. Axı o, tarixi obrazları da öz əxlaq və mənəviyyat aləminin güzgüsündə əks etdirir. Təkcə tarixdəki Natəvanı yox, ölümündən sonra tarixdə (milli-mənəvi yaddaşda!) yaşamaqda davam edən Natəvanı da bizə göstərir! Məhz Natəvandan əvvəlki və sonrakı Natəvanlar da Natəvanın özü ilə birlikdə, vəhdətdə bu obrazı həm tarixin, həm də müasirliyin ifadəsi olan surət kimi qəbul etməyə bizə əsas verir. Eynilə, biz də İlyas Əfəndiyevə yalnız bugünkü qəhrəmanlarından – Həsənzadədən və Nuriyyədən, Valehdən və Qədirxandan baxanda yox, həm də uzaqdan və kənardan – Natəvandan və Xiyabanidən nəzər salanda onu daha tam və bütöv halda görə bilirik...

Müasir Azərbaycan nəsrinin, dramaturgiyasının, bədii-estetik fikrinin görkəmli nümayəndəsi, xalq yazıçısı İlyas Əfəndiyev ədəbiyyatımızda məhz belə parlaq poetik fərdiyyəti ilə seçilən, son yarım əsrin ədəbi-bədii axtarışlarında yaxından və fasiləsiz iştirak edən, narahat, novator sənətkarlarımızdan biridir. Səməd Vurğunun ehtiraslı bədii romantikası, Sabit Rəhmanın bənzərsiz satirası və yumoru ilə yanaşı, İlyas Əfəndiyevin təkrarsız lirikası da son yarım əsrdəki milli ədəbi hərəkatın üslub əlvanlığını və forma zənginliyini qabarıq şəkildə əks etdirir. Altmış ilə yaxındır ki, o, sənətdə müasirliyin çətin yolları ilə hərəkət edir və bu yol həmişə ürəyin, qəlb aləminin dərinliyindən gəlib keçir. Burada mənəviyyat da, sosial mətləb və ictimai əxlaq da məhəbbətdə, sevgiyə münasibətdə öz ifadəsini tapa bilir. Ədib, miqyaslı arzu, düşüncə və qayğılardan da ürək sərhədləri daxilində söhbət açmağı sevir, bizi hisslər dünyasının həqiqətlərinə, səmimiyyət və təmizliyin şeiriyyətinə səsləyir. Təsadüfi deyil ki, o, bizim ən məhsuldar çağdaş dramaturqumuz, ən oxunaqlı realist və novator nasirlərimizdən biridir.

Bu gün ədibin dram və nəsr əsərlərini, hekayə, oçerk, ssenari, povest, roman və pyeslərini keçmiş SSRİ xalqlarının dillərinə, həmçinin ərəb, fars, türk, ingilis, fransız, alman, bolqar, macar, slovak, çex, polyak dillərinə tərcümələrdə oxuyurlar. Onun bir sıra pyesləri yaxın və qonşu Şərq ölkələri xalqlarının (Almatı – red.) Daşkənd, Aşqabad, Səmərqənd, Qazan, Mahaçqala...), həmçinin Avropa ölkələri xalqlarının səhnəsində tamaşaya qoyulmuşdur, Azərbaycan Akademik Milli Dram Teatrının səhnəsində tamaşaya qoyulan «Mahnı dağlarda qaldı» pyesinə görə ona Azərbaycanın Dövlət mükafatı verilmişdir.

İlyas Əfəndiyev–haqqında ən çox yazılan və danışılan sənətkarlarımızdandır. Tənqidçi və alimlərimizin, demək olar ki, bütün nəsillərinin nümayəndələri onun haqqında yazmış, ədibin həyat və yaradıcılığı barədə bir neçə dissertasiya əsəri müdafiə edilmişdir. Azərbaycanın çağdaş ədəbiyyatının tarixi inkişaf mərhələləri, milli bədii-estetik tərəqqimizin yeni dövrdəki hərəkət qanunauyğunluqları, müasirlik və novatorluq axtarışları barədə elmi-nəzəri ümumiləşdirmələrə münbit zəmin olan ən yaxşı bədii nümunələr sırasına İlyas Əfəndiyevin də nəsr və dram əsərləri daxildir.

* * *

İlyas Məhəmməd oğlu Əfəndiyev 1914-cü il may ayının 26-da Azərbaycanın ən səfalı guşələrindən olan Qarabağın Füzuli (keçmiş Qaryagin) rayonunda anadan olmuşdur. İlk təhsilini Füzulidə almış, ilk əlifba kitabı – klassik folklor, ilk sənət mürəbbisi anası olmuşdur: «Anam keçmiş müsəlman qızları kimi evdə mollanüma adamlardan dərs almışdı. Ərəb və rus əlifbalarında yazıb oxuyurdu. Mütaliəni çox sevirdi. Azərbaycan dilində çıxan kitabların, demək olar ki, hamısını oxumuşdu. Mənə ərəb və latın əlifbalarında yazıb oxumağı da o öyrətmişdi. Uşaq vaxtı anam bizə oxuduğu kitablardan hədsiz-hesabsız əhvalatlar danışardı. Onun oxuyub bizə nağıl elədiyi «Ərmənusa», «İngilis xanımı», «Hind racisi», «Rüstəm – Söhrab», «Əlif leyla» və sairə kitablar indi də yadımdadır. Füzulinin «Leyli və Məcnun» əsərini də mən ilk dəfə anamdan eşitmişdim. Ümumiyyətlə, anamız çox incə zövqə malik bir qadın idi. Dövrün ictimai hadisələrindən də baş çıxarırdı. Allahsız olmasa da, mollalardan zəhləsi gedərdi. Məndə güclü mütaliə həvəsi məhz anamın təsirilə oyanmışdır» (Bax: Yəhya Seyidov. «İlyas Əfəndiyev», Bakı, 1975, səh. 10–11).

Ədib ilk əmək fəaliyyətinə də müəllim kimi öz doğma şəhərində başlamışdır. İki il Füzuli şəhər orta məktəbində ədəbiyyat və dil fənlərindən dərs dedikdən sonra Bakıya gəlmiş və burada Azərbaycan Dövlət Ali Pedaqoji İnstitutuna daxil olmuşdur. Lakin Bakıya ilk səfər uğurlu olmamışdır. Atasının vəfatından sonra gənc tələbə ailə vəziyyəti ilə əlaqədar olaraq, təhsilini başa çatdırmadan Füzuliyə qayıtmağa məcbur olmuşdur.

Taleyin hökmü və iradəsi ilə gələcək ədib Füzulidə pedaqoji fəaliyyətini dil-ədəbiyyat yox... coğrafiya müəllimi kimi davam etdirmişdir. Təhsilini başa vurmaq üçün bu dəfə artıq Pedaqoji İnstitutun qiyabi bölməsinə daxil olmuş və burada coğrafiya şöbəsini bitirmişdir. Yaradıcılığa da ilk dəfə kənddə, məktəbdə coğrafiya fənnindən dərs deyərkən başlamışdır:

«Qaryagində müəllim işləyirdim. Uzun qış gecələrindən birində adətim üzrə mütaliə edirdim. Fikirlərim haralardasa dolaşırdı. İçimdən, daxilimdən gələn bir səs mənə yazmağı, ürəyimi əzən, sıxan düşüncələri kağıza köçürməyi əmr edirdi. Bu güclü hissin qarşısında davam gətirə bilmədim. Bir də gördüm ki, hekayə yazıram. Növbəti gün də, ondan sonra da belə oldu. Dalbadal doqquz hekayə yazdım. Qış tətili günlərində Bakıya gəldim. Yazıçılar İttifaqında tələbə yoldaşım, artıq tanınmış şair olan Ələkbər Ziyatayı tapdım. O məni Əbülhəsənin yanına göndərdi. Əynində gödək palto, ayağında uzunboğaz çəkmə olan kənd adamını, yəni məni görəndə Əbülhəsən təəccübləndi:

– Əzizim, nə istəyirsən?
– Hekayə yazmışam, istəyirəm baxasınız.
– Harada çap olunmusan?
– Heç yerdə.
– Nəçisən?
– Coğrafiya müəllimiyəm.
– Əşşi, camaatın işinə təəccüb qalmışam, coğrafiya müəllimi hara, yazıçılıq hara? – deyə o söyləndi.

Bir həftədən sonra təkrar onun yanına gələndə məni tamam ayrı cür qarşıladı:

– Əzizim, məni aldatmısan, sən bişmiş yazıçı imişsən – dedi.

Sonra o məni Yazıçılar İttifaqının sədri Əli Məmmədovun yanına apardı. Əli Məmmədov «Azərnəşr»in direktoruna məktub yazıb kitabımı çap etməyi ondan xahiş etdi. «Azərnəşr»də də məni diqqət və qayğı ilə qarşıladılar. Sabit Rəhman kitabıma redaktor təyin olundu.

Üç aydan sonra «Kənddən məktublar»ım işıq üzü gördü».

Bütün ölkə kimi, o vaxt Qaryagində də hadisələr dramatik şəkildə inkişaf edirdi. Çox çəkmir ki, 1933–37-ci illərin zorakı, qanlı repressiyası öz kölgəsini bu qədim, bəy soylu və familiyalı ailənin də taleyi üzərinə salır. Artıq bolşeviklər «onların mülkünü əllərindən alıb beş ailə arasında bölüşmüş, özlərini isə həyətə tökmüşdülər, doqquz baş ailə çadır qurub yaşamağa məcbur olmuşdu. Valideynləri səs hüququndan məhrum edilmişdi. Mağazada onlara çörək, qənd, çay satmırdılar. Bütün bunlar az imiş kimi, məktəbdə uşaqlar onları «kulak» deyə cırnadırdılar. Orta məktəbi bitirib APİ-nin ədəbiyyat fakültəsinə daxil olanda da, ona «kulak»lığın zərbəsi dəymişdi. Birinci kursun sonunda institutdan çıxmağa məcbur olmuş, böyük fasilədən sonra coğrafiya fakültəsinə qiyabi bərpa olunmuşdu. Həmin il uzun get-gəllərdən sonra xahişlərini nəzərə alıb öz mülklərindən onlara balaca bir otaq verdilər. Doqquz baş ailə çadırdan ora köçəndə bu kiçik səadətciyi qəribə bir nisgillə, ürək ağrısı ilə qarşıladılar. Lakin onlara burda da rahatlıq vermirdilər. İki gündən bir qızıl, tapança axtarırdılar» (Bax: «Azərbaycan» qəzeti, 27 may 1994-cü il).

1938-ci ildə İlyas Əfəndiyev daimi olaraq Bakıya gəlir. Bakıda o, «Yeni yol», «Kommunist», «Ədəbiyyat qəzeti» redaksiyalarında əməkdaşlıq edir. Onun mətbuatla ilk yaradıcılıq ünsiyyəti də bu illərə təsadüf edir. Həmin dövrdən də oxucular ilk dəfə olaraq yeni, təravətli bir ədəbi imza ilə tanış olurlar: *«Gözlənilməyən sevgi»* hekayəsinin müəllifi elə ilk əsərindən gözləmədiyi bir sevgi və rəğbətlə qarşılanır.

1939-cu ildə İlyas Əfəndiyevin ilk hekayələr kitabı nəşr olunur: *«Kənddən məktublar»*. Kitabda eyniadlı hekayədən başqa digər qələm təcrübələri də toplanmışdı: «Qarımış oğlan», «Uxajor», «Qızbəs xala», «Mirzə İman». İlk bədii sınaqlar üçün təbii olan bütün zəif tərəfləri ilə bərabər, bu hekayələr sənət dünyasına inamla və cəsarətlə qədəm qoyan yeni bir istedadın özü ilə gətirdiyi işıqdan xəbər verirdi. Sərt həyat müşahidəsi və kövrək lirika, psixologizm və yumor, sevginin poeziyası və sevgisiz yaşamağın gətirib çıxardığı mənəvi iflas, dil, üslub, mövzu və problem müasirliyi – gələcək poetik fərdiyyətin bu işıqda görünən ilk əlamətləri bunlar idi... Lakin bu cizgilər hələ qızarmamış dan yerinin yalnız ilk işartıları idi. İlyas Əfəndiyevin nəsrə gətirdiyi poetik işıq *«Aydınlıq gecələr»də* (1940) daha qabarıq göründü. Bu, hər şeydən əvvəl, daxili-əxlaqi gözəlliyin, insani məhəbbətin işığı idi. Müəllif aysız və ulduzsuz gecələri, çırpıntısız eşqi, bülbülsüz, nəğməsiz «kimya laboratoriyası» poetik ittihamın hədəfinə çevirirdi. Maraqlı və mənalı da elə o idi ki, hekayədə yalnız hərcayi, yüngül əxlaqlı Surxay yox, həm də işgüzar, ağıllı Kərimin

fanatik və asket həyat idealı tənqid edilirdi: «Kərim onun ruhuna nüfuz edə bilməmişdi. Onun gənc qəlbi isə öz həqiqi haqqını, həyat işığı olan o qüdrətli məhəbbəti istəyirdi. Bu, heyvani bir hiss, ya şəhvani tələb deyildi. Bu, büllur kimi saf qəlbin insanlığın ən ali, ən müqəddəs hisslərinə doğru çırpınışı idi...»

«Aydınlıq gecələr» – İlyas Əfəndiyevin, həm də növbəti hekayələr kitabının (1945) adıdır. Kitaba daxil edilmiş «Durna» (1941), «Kiçik bir poema» (1942), sonrakı nəşrlərdə «Yarımçıq qalmış portret haqqında mahnı» adı ilə getmiş «Sən ey qadir məhəbbət» (1943), «Tar» (1943) əsərlərində də mənəviyyatla məişət, Vətənə məhəbbətlə şəxsi məhəbbət, idealla həyat arasında heç bir uçurum və sərhəd yoxdur. Əxlaqda və davranışda ülviyyətin, həyatda və əməldə mənəvi qəhrəmanlığın tərənnümünü müəllif bilavasitə müharibə mövzusunun materialında da davam etdirir. «Durna» hekayəsinin qəhrəmanları arxa cəbhə adamlarıdır: səngərdə vuruşan əsgərə bəslədikləri ana və gəlin sədaqətində Durna ilə qayınanası sanki bir-birilə yarışırlar. Doğma oğul dərdinə başqa birisinin – gəlinin şərik olmasına bəzən ana hətta qısqanır, bütün iztirabları tək çəkmək, gəlinə öz həyatını yenidən qurmaq üçün sərbəstlik belə vermək istəyir. Lakin Durna məktubu kəsilmiş əsgərə sadiq qalmağı özünün daha uca mənəvi haqqı hesab edir və anaya and içir ki, «məni bu evdən ancaq ölüm çıxara bilər».

Maraqlıdır ki, Durna sənətlə – səhnə ilə bağlı bir surətdir, aktrisadır. Eldarla birlikdə itirdiyi həyat eşqinin, sevgi hissinin diriliyini də ona təbiət və səhnə qaytarır. Məhz özünün həyatda yaşadığı bir faciəni səhnədə təbiilikla yarada bilir. Bir anlığa az qalır ki, səhnədə yaşadığı sevgi həyatında da başlanan yeni bir sevginin özünə çevrilsin. Lakin Durna yalnız bir an tərəddüd göstərir, məhəbbətinin müqəddəsliyini səngərdə qoruyan əsgərə sədaqəti hifz etmək üçün özündə daxili qüvvə tapa bilir. Müəllif ani səhvi–qeyri-iradi zəifliyi üçün Durnanı qəzəb və ittiham hədəfi etmir, hekayəni onun özünü də, oxucunu da düşünməyə və qərar verməyə çağıran sualla qurtarır: «Görəsən, Eldar onu bağışlayacaqmı?»

«Qəhrəman ilə bülbülün nağılı»nda (1942) da nə faşist siması, nə də od-alov ələyən səngər döyüşünün təsviri yoxdur. Bəs nə var? Şəhid qanı ilə qızaran ağ nərgiz gülləri, «kəpənək qanadı qədər» zərif bir yarpaq, gümüşü sulara boylanan sehrli su pərisi, meşədə tənha məzar və... əbədi məhəbbətin mahnısını oxuyan qərib bülbül. Burada əsgərdən də, ordudan da əvvəl poeziya və əfsanə, musiqi və mahnı müharibəyə qalib gəlir! Yeddi düşmən qıran, on səkkiz yara alan igid yıxılır, fəqət ağlamır. Meşədə bülbül səsini eşidəndə isə gözü yaşarır və qəribə, əfsanəvi bir yuxu görür. Gözünü açanda indicə yuxuda onu oxşayan qızın yerində ağ bir göyərçin qalır: «Göyərçin qanadlarını açaraq havaya qalxdı. Oğlan onu tutub saxlamaq istəyirmiş kimi əllərini qaldırdı və birdən bu əllər qartal qanadlarına çevrilib onun ağır vücudunu qəribə bir yüngüllüklə yerdən üzdü.

Onlar getdikcə bir-birinə yaxınlaşıb, nəhayət, qoşalaşdılar. Sonra alov rəngli buludlardan keçərək, göylərin sakit, mavi ənginliklərinə yol aldılar...

Gələn bahar o qərib məzardan yabanı bir qızılgül qalxdı. Bülbül gəlib onun budaqlarında özünə yuva qurdu. İndi o vaxtdan bəri hər bahar o tək məzar üstündə bir bülbül oxuyur. Onun nəğmələri əzəli və qadir məhəbbətin bitmək bilməyən əfsanələrindən danışır». Bu tragik miniatürdə əfsanə və işıq qüssədən daha qüvvətlidir. Özü də bu işıq naməlum şəhidin tənha məzarında yanan əbədi məşəldən ayrılan oda, şəfəqə çox bənzəyir.

«Kiçik bir poema» (1942) adlanan hekayə də məhz bu işıqdan ayrılan növbəti poetik şölədir. Buradakı «poema» sözünü yalnız əsərdəki şairanə hadisəyə yox, həm də şairanə üsluba, dilə işarə kimi başa düşmək olar. Bu hekayə

də müharibə haqqında yox, füsunkar təbiət, ülvi gözəllik və saf məhəbbət haqqında poema olaraq qalır. Müharibənin, faşizmin antiqütbü kimi yazıçı təbiətin öz idilliyasını təsvir edir: «Göl tutqun bir intizar içindəydi. Birdən günəş yaşıl meşələr ardından qalxaraq onun ayna üzünə çəngə-çəngə qızıl lalələr tulladı». Bu hekayələri oxuyan əsgərə hansı torpağı, hansı təbiəti, hansı gözəlliyi düşməndən qoruduğu daha da aydın olurdu. Təbiət və gözəllik qəhvəyi taun və vəba qorxusu qarşısında qalan milli sərvət, insani, mənəvi gözəllik kimi təsvir və tərənnüm edilirdi.

Əgər ilk iki hekayədə eyni bir sərt, amansız müharibəyə poetik əks qütb kimi verilən təbiət, yaxud əsatir özüdürsə, növbəti iki hekayədə bu simvolik mənanı və vəzifəni öz öhdəsinə götürən musiqidir, muğam və tardır. «Tar» (1943) adlanan romantik mahnıda da müəllif cəbhədə, döyüşən orduda hünər göstərən qəhrəman bir qızı yox, arxada onunla ayrılığın qüssəsini çəkən həsrətli, intizar bir atanın səbrini, iradəsini ön xəttə və iri plana çıxarır. Sən demə, şəhid olan qızının son arzusunu yerinə yetirmək üçün qoca ata özündə gizli, daxili, ehtiyat bir qüvvə qoruyub saxlayıbmış; bu son ümid son dəfə inləyib çırpınanda ata sədəfli tarını yaralı sinəsinə sıxır: «Birdən yuxarıdan, qocanın otağından şikayətkar bir tar təranəsi qopub gəldi və sanki bu qara örtüklərin altına sığışmayan müztərib insan ruhu üsyankar bir fəğanla son dəfə çırpındı və qəfəsdən qurtulan quş kimi kainatın əbədi sükunətinə doğru qanad çaldı». Bayaqkı şəhid oğlan kimi, şəhid qızın da ruhu nəğməyə, təranəyə dönüb, müharibə dövrünün ulduzsuz və dibsiz səmasında ağ bir işıq kimi yox olur.

«Yarımçıq qalmış portret haqqında mahnı»da (1943) isə işıq yalnız libasını dəyişir, rənglərdən, boyalardan ayrılıb, «musiqi şüalarına» çevrilir – rəssamın sevgi işığı ilə aşılanan natamam rəsmini bəstəkar tamamlayır. Vəfalı və gözəl Güllər ərinin gözlərində sönmüş işığı onun qəlbində yandırmaq istəyir və buna nail olur: «Pianonun dilləri oğlanın qəlbindəki inamsızlığı duyaraq, üsyankar fəğan qoparıb, dünyada hər şeyə qadir olan böyük məhəbbətin əfsanəsinə keçdi. O zaman oğlan da yerindən qalxaraq, sehrə tutulmuş kimi irəlilədi... O bu ecazkar musiqinin tərənnüm etdiyi hisslərlə özünün yarımçıq qalmış əsərində vaxtilə ifadə etmək istədiyi o qüdrətli məhəbbət arasında heyrətli bir oxşayış gördü».

Təbiətlə, torpaqla, musiqi ilə yanaşı, folklor surətlərini də biz İlyas Əfəndiyevin müharibə dövrü hekayələrinin qəhrəmanı şəklində görürük. «Apardı sellər Saranı» (1940), «Qarı dağı» (1944), həmçinin artıq xatırladığımız «Qəhrəman ilə bülbülün nağılı» hekayələrində folklorun həm ideya-motiv, həm də forma-üslub xüsusiyyətlərindən geniş istifadə edilmişdir. Onlardan birincisində torpaq və Vətən hissinin tərənnümü xüsusilə romantik və tragik bir vüsət alır: Muğan ağsaqqalı Ata Muğan gözəlini yad nəfəsdən qorumaq üçün onu – öz doğma qızını – qolları arasına alaraq Kürün aşıb-daşan sularına atır... İkinci hekayədə isə yenə də eyni yurdun, eyni torpağın ağbirçəyi Ballı ana el-obanın, torpağın qisasını quduz yağıdan aldığı üçün özü də diri-diri torpağa qarışır, «Qarı dağı»na çevrilir.

Gördüyümüz kimi, bu hekayələrin əsas qəhrəmanı ziyalılardır: həkim, bəstəkar, rəssam, aktyor, müğənni... Onların bədii ədası romantik və lirik üslubi çalarla aşılanıb. Eybəcərliyi ifşa eləməyin əsas üsulu ülviyyətin və poeziyanın təsdiqi və təsbitidir. Qırxıncı illərin hekayələrində müəllifin gələcək yaradıcılığı üçün son dərəcə səciyyəvi olan başqa bir ənənənin də əsası qoyulur: Cənub mövzusuna maraq elə bu vaxtdan yazıçı İ. Əfəndiyevin həm bədii zövqünün, həm də vətəndaşlıq mövqeyinin tərkib xüsusiyyətinə çevrilir. «Xəncər»də (1948) Cənubi Azərbaycanın ucqar şəhərlərindən birində müstəqil

milli Azərbaycan hökumətinin devrilməsindən sonrakı bir hadisə təsvir edilir. Onun da qəhrəmanı ziyalılardır: dil müəllimi Südabə və onun sevimli şagirdi İldırım. Elə bir dövrdür ki, «adamlar «ana dili», «milli hökumət» və «Azərbaycan» sözlərini tez-tez və daxili bir məmnuniyyətlə təkrar edirlər. Elə bil onlar bu sözlərin tələffüzündən sonsuz bir zövq duyurlar... Bu sözlərlə öyünür, fəxr edirlər...». Fars və fransız dillərini mükəmməl bilən Südabə atasının iradəsi əleyhinə gedərək məktəbdə ana dilində dərs deyir, daha doğrusu, ana dilini və ana vətəni necə sevmək dərslərini uşaqlara öyrədir. Məhz həmin dərslərlə tərbiyələnən balaca İldırımın təkcə bir şeyə – həmişə qoynunda gizlətdiyi xəncəri işlətməyə, bu dilin, bu torpağın intiqamını atasının qatili olan bir ajandan almağa gücü çatır. Gördüyümüz kimi, qlobal milli-əxlaqi və sosial-ideoloji konflikti yazıçı yenə də ictimai hadisələrin və qüvvələrin baş-başa gəldiyi hərbi səngərdə, inqilab və döyüş meydanlarında yox, adi qəza müəlliminin və kimsəsiz bir çocuğun taleyində əks etdirə bilmişdir.

«Görüş» (1951), «Gülaçar» (1953), «Su dəyirmanı» (1954), «Yaylaq qonşumuz» (1955), «Şəhərdən gələn ovçu» (1956), «Yun şal» (1957), «Qırçı və qızıl çiçək» (1962) İlyas Əfəndiyevin hekayə yaradıcılığında daha sonrakı illərin məhsuludur. «Görüş»–ana ilə oğulun, «Gülaçar» – iki nəsli təmsil edən iki müğənninin görüşünün təsviri olsa da, hər iki lirik hekayənin əsas tərənnüm hədəfi ilhamlı əməyin və halal zəhmətin şeiriyyətidir, qurub-yaradan kənd adamlarının işıqlı daxili aləmidir. Məhz zəhmətin cazibəsi və dirilik gücü qoymur ki, Güllü nənə doğma kəndini tərk etsin və öz «professor oğlunun» ardınca uzaq şəhərə yaşamağa köçsün. Xəstəlik nəticəsində öz sevincini və nəğməsini itirən Sənubər bu mənəvi nemətə gənc bir fəhlənin–qurmaq-yaratmaq ehtirası ilə aşıb-daşan Gülaçarın təbii, fitri istedadında tapır. Hekayədə əməyin, zəhmətin insanı gözəlləşdirən və saflaşdıran gücü də mənəvi sərvət kimi, musiqi, mahnı, şeir kimi tərənnüm olunur.

Başqa bir hekayədə Eyvaz, Bəyim və Humay arasında əxlaqi münasibətlər süjetdəki ikinci planın – «elektrik dəyirmanına» çevrilən köhnə su dəyirmanının və onun sahibinin yaşadığı dramın fonunda verilir. Meşşan ziyalı məişətinin ifşasına həsr olunan «Yaylaq qonşumuz» isə bu lirik etüdlər arasında öz satirik ruhu və istiqaməti ilə seçilir. Müəllif əvvəlki lirik qəhrəmanlardan hər birinin həyatının sehrli işığını, mənəvi mövzusunu təşkil edən nəcibliyə, saflığa həssaslıq mövzusunu burada da davam etdirir, lakin artıq bu dəfə şeiriyyəti, gözəlliyi duymayanların – «hindtoyuğu»nun surətini yaradır: «And içirəm ki, bura gələndən nə bu xala, nə də onun qızı bir dəfə başlarını qaldırıb o meşəyə tamaşa eləməyiblər. Bunlar üçün dünya – doktorun qazandığı pullardan, yağlı hindtoyuğundan ibarətdir».

İlyas Əfəndiyevin iri nəsr formalarına qədərki əsərləri içərisində iki hekayə xüsusi maraq doğurur: «Yun şal», bir də «Qırçı və qızıl çiçək». Hər iki hekayədə sərlövhədən finaladək sanki yalnız işıq və hərarət ifadə edən söz, detal və cizgilər bir yerə toplanmışdır. Əvvəldən axıra qədər oxucu üç adi, lakin həm də simvolik obrazdan – yun şal, ixtiyar qırçı və qızıl çiçəkdən yayılan poetik rayihənin ab-havasında nəfəs alır. «Görüş» hekayəsində anasını həmişəlik öz yanına aparmaq istəyən gənc və məşhur professor onu – Güllü qarını «iş başında», əmək, təsərrüfat, yeni məişət qayğıları və fərəhi ilə aşıb-daşan gördükdə öz niyyətini deməyə belə cəsarət etmir, kənddən şəhərə yenə də tək, anasız qayıtmalı olur. Lakin hər halda qayıdır. Məşhur vəzifə sahibi, şəhərdə, nazirlər sovetində işləyən Cəmil isə kənddə ən ucqar bir təpədə, Südabənin xidmət etdiyi ağılda yanan gur işıqlı tək çıraqdan bir daha ayrıla bilmir: «Özünü gözlə. Əgər yolu itirsəniz, mənim işığımı tuş tutub geri qayıdın. Çırağı səhərə qədər söndürmərəm. Bizim işıqlar lap Bakı yolunacan görünür».

Əlbəttə, Cəmil yolda azmır, lakin o bu dəfə Bakıya kəndə dəyişilməkdən ötrü işlədiyi idarəyə ərizə vermək və nişan üzüyü almaq üçün qayıdır. Yun şal – könlündəki ülfət və ünsiyyət duyğularını isitmək, uzaq dağ kəndindəki o ağıl çırağı isə öz səadətini itirməmək, həyat yollarında azmamaq üçün ona gərək olur. Hekayənin sonunda Cəmili sovxozun mühəndis-mexanizatoruna məxsus maşında fermaya doğru irəliləyən görürük: «Mən irəlilədikcə, səhərə yaxın göydə ulduzlar sönüb, nəhayət, bir dan ulduzu qalana kimi, fermanın da işıqları bir-bir yox oldu. Qaranlıq düzdə tək bir işıq qaldı və mən o tək işığı tuş tutaraq, heç yerdə azmadan düz gəlib fermaya çıxdım».

«Qırçı və qızıl çiçək»də qırmızı şəfəqi heç zaman sönməyən, alışıb-yanan işığı ilə hətta qırı, asfaltı deşib çıxan və həyat eşqini, yanmaq, yaşamaq haqqını elan edən zərif və kövrək bir çiçək obrazı vardır: «Qırın əl boyda bir yeri azca yumurlanıb qalxaraq partlamış və onun ortasından həmin çiçək çıxmışdı. Günəşin təzə işığı altında bu çiçək qırın üstünə düşmüş yaqut kimi alışıb yanırdı. Yenicə açılmış kiçik, incə yarpaqlar onu qayğı ilə dövrəyə almışdı... O, yaz və payız aylarında asfaltı deşib çıxan bu xırda çiçəkləri çox görmüşdü və hər dəfə də qocaya elə gəlmişdi ki bu kiçik çiçək sevinclə ona baxıb nə isə deyir». Müəllif də məhz qızıl çiçəyin qırçıya söylədiklərini qələmə alır və qoca, müdrik qırçı bu hekayədən sonra öz qır tiyanı ilə yenə də tək, yenə də şagirdsiz və ümidsiz qalarkən artıq bir daha öz taleyinin bu qismətinə heyrət etmir, onunla barışıb, «böyük və qüdrətli həyatın qanununu hiss edərək ağır addımlarla gedir». Qırçı ilə oğlan, qırla qızıl çiçək arasındakı hekayənin məzmununda əks olunan bu «həyat qanununda» həm romantika və işıq, həm də tragik bir nikbinliklə aşılanan həzin kədər vardır...

İlyas Əfəndiyevin bu illərdə yazdığı «Dağlar səslənən yerdə» (1948), «Şuşa yollarında» (1949), «Gəray Əsədovun kolxozu» (1949), «Dənizdə» (1950), «Gənc ustalar» (1950), «Yeni kənd, yeni adamlar» (1950), «Fədakar neftçi» (1951), «Əmək adamları» (1951), «Pambıq tarlalarında»(1952), «Pambıqçıların sevinci» (1953) kimi oçerklərində də səmimiyyət o dövrə xas vulqar sosiologiya əlamətlərindən, təbiilik sxemçilikdən güclüdür. Həyat materialı ilə yaxından tanışlıq, ədəbi-bədii «tədqiqatçılıq» baxımından bu oçerklərdə qazanılan təcrübənin yazıçının iri formalı nəsr əsərlərinin, həmçinin müasir mövzulu pyeslərinin meydana çıxmasında müəyyən hazırlıq rolu İ. Əfəndiyevin bütün sonrakı yaradıcılıq yolu ilə təsdiq olundu.

* * *

Ayrı heç yerdə yox, yalnız Qarabağda bitən nadir, təkrarsız və bənzərsiz bir gül var. Adına *«Xarıbülbül»* deyirlər. Onu da deyirlər ki, bu gül təkcə Şuşanın, təkcə Cıdır düzünün torpağındakı məhəbbətdən cücərir. Ayrı heç yerdə belə məhəbbət yoxdur, ona görə də ayrı heç yerdə Xarıbülbül (İlyas Əfədiyevin əsərlərindəki «boy çiçəyi»ni də onun ikinci adı hesab etmək olar) bitmir. Mən bütünlükdə, küll halında İlyas Əfəndiyevin əsərlərini səhnəmizdə və nəsrimizdə Xarıbülbülün mahnıları hesab edirəm, Xarıbülbül kimi təkrarsız və bənzərsiz sayıram.

Xarıbülbülün bir xasiyyəti də var: yad nəfəs dəyəndə qaynağı itən dağ bulağı kimi, yad tapdağı altında Xarıbülbül də boy vermir, bəhər gətirmir. Vətən didərgin olanda, millət pərən-pərən düşəndə Xarıbülbül də qaçqın, qərib, şəhid Xarıbülbül olur! Natəvan olur, ağı deyir, Vaqif və Zakir olur, Üzeyir bəy olur, Bülbül olur, ayrılıq və hicran şikəstəsini–Qarabağ şikəstəsini Şuşadan çox-çox uzaqlarda oxuyur. Bu gün qarabağlı şairlər və nasirlər arasında Xarıbülbül öz mahnısını hamıdan çox İlyas Əfəndiyevin dili ilə oxuyur!..

Sənətkarın şəxsiyyəti və təbiəti ilə doğulduğu mühit arasında bilavasitə əlaqə var və İlyas Əfəndiyevin də mənəvi, bədii, fəlsəfi ovqatı və əhvalı timsalında biz Şuşanın, Cıdır düzünün iqlimi və havası ilə nəfəs alırıq! Təkcə ovqatı və əhvalı timsalındamı? Yox!..

Qarabağın tarixi barədə klassik sənədlər – yeddi «Qarabağnamə» var. Bütünlükdə İlyas Əfəndiyev yaradıcılığını mən səkkizinci «Qarabağnamə» hesab edirəm! Qarabağın taleyi və gələcəyi barədə düşüncə, nigarançılıq və həsrət bu «Qarabağnamə»dən həmişə eşidilib. Hələ altmışıncı illərdə Xan qızı Natəvan («Natəvan» pyesi) Şuşada Təbriz barədə, Azərbaycanın tamlığı və bütövlüyü barədə həyəcanla düşünürdü. Xan qızının Şuşada dediyi Təbriz monoloqu bu gün Şuşasız Azərbaycanda və Qarabağsız Təbrizdə xüsusilə ibrətli və ağrılı səslənir...

Üçtelli durnanın, Xarıbülbülün, Səməndər quşunun yuvası – Şuşam mənim! Keçmişimin – Qala gözəli, bugünümün–«qalaça əsiri!» Mən sənin çiçəyindən dərib səksən yaşlı ədibin yubiley növrağına töhfə gətirə bilmədim. Nə etməli?! Təsəlli odur ki, İlyas Əfəndiyevin öz əsərləri Qarabağın dağlarından, düzlərindən dənələnmiş seçmə, tər çiçək dəmətidir. O dəməti ədibin sənə töhfə gətirəcəyi gün uzaqda deyil, Şuşa!..

«Mahnı dağlarda qaldı!» – Bu mahnının dalınca zirvədə bitən boy çiçəyinin və Xarıbülbülün dalınca səksən yaşlı ədib neçə ildir yol gedir. Zirvədən aşağı boylananda göz qaralar. Ona görə də ədib «Geriyə baxma, qoca!» – deyir, lakin, əslində, yenə də geriyə– kökə, mənşəyə, əcdada baxa-baxa irəli hərəkət edir... Boy çiçəyini dərməyə. Xarıbülbülə yetməyə, Şuşaya, Cıdır düzünə qovuşmağa gedir! Və bizim bu kitabda sizinlə bölüşmək istədiyimiz düşüncələr də, əlinə taxta əsa alan, ayağına dəmir çarıq geyən bu səyyah ədibin zirvəyə səfərdə qət etdiyi, yalnız irəliyə, yüksəyə doğru yürüşdə arxada buraxdığı yollar və yol ayrıcıları barədədir...

* * *

İlyas Əfəndiyevin bir yazıçı kimi poetik fərdiyyətini nəsrimizin və dramaturgiyamızın ümumi mənzərəsində hamıdan ayıran bədii cizgilər onun ilk hekayələrindən başlayaraq özünü qabarıq şəkildə büruzə verir. Ədibin bir neçə hekayəsi üzərində yuxarıdakı konkret müşahidələr də göstərir ki, İlyas Əfəndiyev ilk qələm təcrübəsindən başlayaraq həmişə axtaran, həmişə narahat sənətkardır. Fəal yenilik duyğusu, təzəni, işığı, sabahı ifadə edən hər şeyə şairanə, həssas və heyran bir münasibət bu istedadın zahiri əlaməti deyil, təbii-fitri bir xüsusiyyətidir. Onun yazıçı «mən»inin ən çox və ən tam halda təzahür etdiyi keyfiyyətdir.

Əlbəttə, mübahisə etmək olar ki, İlyas Əfəndiyev daha çox nasirdir, ya dramaturqdur? Hətta mübahisə etmək olar ki, nəsrdə də, dramaturgiyada da o, daha çox ədibdir, yoxsa şairdir? Lakin bir şey mübahisəsizdir: İlyas Əfəndiyev, hər şeydən əvvəl, bir lirikdir, şairanə istedad və üsluba malikdir.

Əslində, İlyas Əfəndiyev şeir yazmamışdır, bədii yaradıcılığa şairanə nəsrlə başlamışdır. O, nəsrə əfsanə, mahnı və nağıl kimi qələmə aldığı ilk hekayələrlə gəlmiş və yaxşı mənada həmin əfsanə, nağıl və mahnı bu üslubu bir daha heç zaman tərk etməmişdir. Çünki İlyas Əfəndiyev əfsanəni də, mahnını da xəyali, əfsanəvi aləmdə deyil, real gerçəklikdə, canlı müasirlikdə axtarır. Əfsanə ilə adi adamların həyatı, məişəti arasında müştərək telləri tapmağa müstəsna həssaslıqla nail olur. Hətta adilikdən danışanda da onu adiliklə ülviyyət arasındakı ünsiyyət və əlaqə düşündürür. Adilikdən ülviyyətə doğru aramsız, fasiləsiz hərəkət və yol! – İlyas Əfəndiyevin əsərləri bu yolun müxtə-

lif məqamları, dönümləri, düyümləri üzərində qurulur. Bu yolla hərəkət edən, bu məqamlar və dönümlər arasında körpü salan qəhrəman və müsafir isə, adətən, müasirlərimiz olan əmək və zəhmət adamlarıdır.

«Körpüsalanlar» – İlyas Əfəndiyevin bu məşhur əsərinin adını rəmzi mənada alıb, onun bütünlükdə qəhrəmanlarına aid etmək olar: çoxusu vəzifə və peşə etibarilə də yol çəkən, buldozer sürən, maşınla, dəzgahla və ya qaldırıcı kranla işləyən bu qəhrəmanların hamısı həm də həyatla arzu, həqiqətlə nağıl arasında körpü salanlardır.

Özü də müəllif «nağıl», «əfsanə» sözlərini zahirən də gizlətmir, onları hətta başlığa, sərlövhəyə çıxarır. Çox maraqlıdır ki, «nağıl» sözü ədibin ilk əsərinin də, ən son əsərlərindən birinin də adında işlədilmişdir. «Sarıköynəklə Valehin nağılı»nda belə səciyyəvi «nağıl ifadələri», təhkiyə və kompozisiya əlamətləri vardır: «Aldı Valeh», «Aldı Sarıköynək» və s. Sanki aşıq dastan danışır. Lakin bu təhkiyə yalnız dastan poetikasını yada salmır, həm də ən yeni, novator təhkiyə üsullarından birini xatırladır: eyni hadisənin dörd şəxs (şahid) tərəfindən, dörd rakursda təqdimi axtarışları ilə vəhdət təşkil edir.

«Qəhrəman ilə bülbülün nağılı» və «Sarıköynəklə Valehin nağılı» – İlyas Əfəndiyevin bütünlükdə bu iki «nağıl» arasına sığışan dünyası, bu iki nağıl arasındakı nəsri sözün rəmzi mənasında qəribə, sehrli, mavi bir nağıla bənzəyir və həm öz poetikası, həm də ideya-məzmun aləmi ilə keçmişi və indini, qədim və müasir «əsatiri» özündə birləşdirir...

Sarıköynəyin, Valehin və Qədirxanın nağılı – burada «körpü» artıq təbiətin, folklorun, «min yaşlı əyri qayaya bənzəyən» qoca Qədirxanın ilkinliyi və əbədiliyi ilə müasir ekoloji böhranın, elmi-texniki inqilabın təzadları və ifratları arasındadır.

İlyas Əfəndiyevin bədii uğurları məhz belə bir vüsətli və fəlsəfi lirika ilə ifadə olunur. Babaların əxlaqı və müasir gənclik, Vətən məhəbbəti və əməyin şeiriyyəti – bu lirikanın əsas mübtədası bunlardır. Fədakarlıqda, sədaqətdə, mənəvi ucalıqda bir-biri ilə yarışan nəcib əxlaqlı insanların daxili zənginliyi – bu lirikanın etik pafosu, emosional məzmunu isə belədir. Bu məzmunu bu üslubda hər şey, ən çox isə bədii dil ifadə edir. Azərbaycan türkcəsində işıq, ülviyyət ifadə edən sözlərin leksikasını, romantik, musiqili, mənsur nitqimizin poetik lüğətini İlyas Əfəndiyevə məxsus nəsrin materialından seçib tərtib etmək olar.

Sənətdə məşhur Cabbarlı təliminin bir məqamı İlyas Əfəndiyevin yazıçı üslubunda xüsusi olaraq gözlənilir: məişətdə, əxlaqda, düşüncədə tərəqqi və yenilik! Yalnız texnikada, sənayedə, paltarda və güzəranda yox, ürəkdə, fikirdə, daxili aləmdə yenilik! Məhz müasirlik – bir keyfiyyət kimi bu yaradıcılığı mövzu-problem baxımından tam xarakterizə edir: o, müasir olmayan pyes, müasirliyə xidmət etməyən nəsr yazmamışdır. Ən başlıcası isə odur ki, ədibin həyatda yenilik, müasirlik axtarışları sənətdə və sənətkarlıqda yenilik axtarışları ilə vəhdət təşkil edir.

Onun tamamilə yeni ruhlu hekayə, povest və romanları Azərbaycanda epik nəsrin inkişafında maraqlı hadisə oldu, pyesləri dramaturgiya tariximizdə ayrıca, «lirik» bir mərhələni təşkil etdi. Ədibin nəsrə gəlişi nəsrimizi, dramatik ədəbiyyata gəlişi dramaturgiyamızı parlaq poetik bir üslubla zənginləşdirdi. Müasirlərimizin əxlaqi simasını mənəvi-psixoloji fəaliyyət və ictimai əmək mühitində dərk etməyin səmərəli, uğurlu bir üsulunu indi bu üslubun timsalında ardıcıl izləmək olar. Bu üslub bütünlükdə türk xalqlarının ədəbiyyatı miqyasında qeyri-empirik, qanadlı və poetik realizmə yaxşı bir nümunədir.

Müasirliyə daimi marağı İ. Əfəndiyevin gəncliyə və gənclərə olan marağının təbii təzahürüdür. O, əsas qəhrəmanı gənclər olan bir yazıçıdır. Vətənə, xalqa məxsus mənəvi nemət və sərvət axtarışlarında onun ən çox güvəndiyi nəsil gənclikdir. Tamamilə yeni bir mühitdə formalaşan müasir oğlan və qızların həyatı, axtarışları və səhvləri, anlayış, rəftar və əxlaq özünəməxsusluğu müəllifin bədii düşüncələrinin əsas predmetini təşkil edir. Cəsarətlə demək olar ki, Azərbaycan qadınının inkişafı tarixində yeni nəslə məxsus müasir psixoloji qəhrəman tipi (məhz nəslin tipini ifadə edən obrazlar silsiləsi səviyyəsində!) bizim nəsrə və dramaturgiyaya İ.Əfəndiyevin əsərləri ilə gəlmişdir. Dramaturgiyada Cabbarlı qadınlarından sonra nəsrdə İ. Əfəndiyevin qadın qəhrəmanları Azərbaycan-türk qadınının mənəvi aləmində növbəti mərhələnin ifadəsidir. Bu hökmü deməyə bizə haqq verən birinci növbədə onun roman və povestləridir.

«Söyüdlü arx» (1958), «Körpüsalanlar» (1960), «Dağlar arxasında üç dost» (1963) – bu əsərlərdə ifadə olunan yenilik, hər şeydən əvvəl, müəllifin «müsbət qəhrəman» və «mənəvi gözəllik» anlayışını o illərin stereotip ölçü, qəlib və normalarından fərqləndirən cəhətlərdə idi. Belə ki, müəllif bilavasitə mövcud ədəbi ənənədən yox, həyatdan, ictimai və mənəvi-əxlaqi inkişafda yeni mərhələnin formalaşdırdığı nəslin üzərində müşahidələrdən çıxış edərək müasir insan, məişət və əxlaq haqqında öz anlayışlarını irəli sürürdü.

Dövrün məişət və əxlaq həqiqətləri üzərində belə bədii «tədqiqat» xüsusi həssaslıq tələb edirdi. Gəncliyin hiss və düşüncə tərzində özünü göstərən bir sıra xüsusiyyətlər mövcud ənənəyə və adətə qarşı «təhlükə», sevgi, nikah və ailə qanunlarının sabitliyi, müqəddəsliyi əleyhinə çevrilən etinasızlıq təsiri də bağışlaya bilirdi. Elə məsələ də onda idi ki, İ. Əfəndiyev çoxlarının mənfilik kimi, əxlaqi naqislik və saxtalıq kimi qəbul etdiyi bir xüsusiyyətdə («Səriyyə mübahisələri»ni xatırlamaq kifayətdir) yeniliyi, əxlaqi tərəqqi və gözəllik əlamətini tanıyır, ona bir yazıçı kimi vaxtında bəraət verirdi. Özü də müəllifin həyatdan seçdiyi və nəsrə gətirdiyi yeni qəhrəman yalnız Nuriyyələr və Səlimələr deyildi, həm də Səriyyələr, Gülabətinlər, Gülcanlar idi. O, hətta Gülabətin-sayağı «ifrat yeniləşmə», «ultra müasirlik» təzahürlərinə də real həyati həqiqət səviyyəsində bədii-psixoloji maraq doğuran hadisə kimi nəzər salır və ona adi karikatura, satira, həcv yox, düşündürən dramatik səhifələr həsr edirdi. «Gəncliyə inam» mövzusu gənclik haqqında ideal təsəvvürdən hələ çox uzaq olan, mürəkkəb və ziddiyyətli surətlərin təsviri xəttində də davam etdirilirdi.

Gerçəkliyin hələ normaya, qəlibə, ölçüyə düşməmiş mürəkkəbliyinə nəzər salmaq, gənc qəhrəmanı mövcud sxem və model əsasında yox, həyat dərslərinin sınağında, həyat məktəbinin «partaları» arxasında təsvir etmək – o dövrün ehkamçı və basmaqəlib «istehsalat romanları»nda çatışmayan elə bu idi və məhz bu cəhət bir yazıçı kimi İlyas Əfəndiyevə məxsus «mövzu islahatları»nı və bədii novatorluğu obyektiv olaraq şərtləndirirdi.

Şəxsiyyətin cəmiyyətdə yüksək ləyaqəti və qiyməti haqqında ideya bu əsərlərdə həyata yeni qədəm qoyan cavan ziyalının taleyi timsalında ümumiləşir. Ömrün və mübarizənin mənası haqqında düşünən və ona dərslikdə, kitabda yox, həyatın sınaq anında, real çətinliklərin və maneələrin dəfi prosesində cavab tapan belə qəhrəmanlardan biri olmaq etibarilə Səlimə surəti İ. Əfəndiyevin nəsri üçün çox səciyyəvidir.

«Dağlar arxasında üç dost» əsərində belə bir səhnə var: Səlimə mal-qaraya baxa-baxa kənddəki köhnə bir tövləyə gəlib çıxır. Palçıq tövləyə gələnlər, adətən, yalnız buradakı heyvanları görürdülər, Səlimə isə ilk dəfə idi ki, həm də burada işləyən insanları görür. Adamların səhərdən-axşamacan heyvanların altını kürüyüb atması (lap orta əsrlərdə olduğu kimi) onun vətəndaşlıq qüruru-

na, müasir mədəni bir adam kimi insanlıq heysiyyətinə toxunur: «Mən adamların bu cür işlərlə məşğul olmasını istəmirdim. Bu əqidədəydim ki, hər bir zəhmətin öz gözəlliyi, öz şeiriyyəti olmalıdır!»

Bugünkü möhtəşəm bilgisayarı, texniki möcüzəni, səma gəmisini idarə edən qızların çağdaşı və bacısı belə düşünür, haqlı olaraq tələb edir ki, bu cür əmək sahələrində də insanı texnika və avtomat əvəz etsin. Bu artıq Almazın (C. Cabbarlı) toxunmadığı bir məsələ idi. Əməyin şeiriyyəti, gözəlliyi məsələsi hələ təzəcə vaxtı çatmış bir problem idi və yazıçı bu barədə vaxtında, həm də cəsarətlə danışırdı.

Ümumiyyətlə, altmışıncı illərin yeni insan, xüsusən, yeni, müasir qadın qəhrəmanı problemi ədibi ciddi düşündürürdü. Nuriyyə, Səlimə, Səriyyə, Sarıköynək – məhz bu düşüncələrin və axtarışların bəhrəsi idi.

İndi artıq çoxdan nəsrimizdə ayrıca bir nəsli təşkil edən bu qəhrəmanlar yüksək kamala və nəcib əxlaqa maliкdirlər. Onlar əsil «səadət» məfhumunun məğzini axtarır, onu «kəşf edir», yalnız vərdişlə təmin olunan «birgə yaşayışdan» deyil, daha böyük mənadan və məzmundan ibarət yeni ailə, əxlaq və sevgi münasibətlərini təcəssüm etdirirdilər. Bu nəcib qızlar xoşbəxtliyi həmişə fədakarlıqda görür və bu mənada bir-birlərinə çox bənzəyirdilər. Fədakarlığı isə onlar həyatdan əl üzmək və küsmək kimi yox, mənəvi intihar kimi yox, mənəvi qəhrəmanlıq (!) kimi dərk edirdilər. Bu qızlar– qadının kişilərlə bərabərliyini məhz qəhrəmanlıqda və hünərdə, mərdlikdə və nəcabətdə təsdiq edən gənclərdir. Onlar bəzən şəxsi həyatda xoşbəxt ola bilmirlər. Lakin öz xoşbəxtlik imkanlarını başqalarının səadəti naminə necə də böyük səxavətlə sərf edirlər! Onlar həyat haqqında, yaşamağın, qəhrəmanlığın gözəlliyi və mənası haqqında lirik suallar verməyi sevirlər. Lakin həyat və xoşbəxtlik haqqında lirik suallardan daha əvvəl onları işlədikləri kəndin vəziyyəti düşündürür. Nuriyyə o zamankı kolxoz kəndinin adamlarını nəzərdə tutaraq deyir: «Gecə-gündüz işləyirlər... amma fərəhsiz, zövqsüz yaşayırlar. İşdən gələn kimi çörəklərini yeyib başlarını qoyurlar yerə.

«Quş uçmaq üçün yarandığı kimi, insan da xoşbəxtlik üçün yaranmışdır» kəlamını təkrar etməyi sevən Səriyyənin də geniş mənada «səadət» anlayışını onun aşağıdakı sözləri yaxşı ifadə edir: «Mənə elə gəldi ki, biz və bütün insanlar o «təzə dünyaya» məhz bizim saldığımız bu körpüdən keçib gedəcəyik...»

Şəxsi səadəti də, sevgini-kini də ağılla «hesablayan», kökündə ürək əvəzinə «dəqiq riyazi hesablamalar»ın modelini gəzdirən bütün meşşanlara qarşı ehtiraslı bir üsyan, etiraz ifadə edən, «mən duyğuların əsarətinə, köləliyə nifrət edirəm!» – deyən bu qızlar yaşamağın fərəhini, zövqünü və gözəlliyini artıran qızlardır! Bu qızlara ümumilikdə məxsus olan yeni əxlaqi sifətləri qabarıq təmsil etmək mənasında Səlimə xüsusilə maraqlı və səciyyəvi bir surətdir.

Qartallı dərəyə mal-qaraya baxmaq üçün gələn bu qız təkcə zootexnik olaraq qalmaqdan nə qədər uzaqdır! Kəndə hər cəhətdən tamam müasir bir qız gəlir və özü ilə yeni hava, yeni bir aləm gətirir. İnsanlarla təmasında o, inəklərin cinsini və sağlamlığını yaxşılaşdırmaqdan daha faydalı işlər görür. Nə vəzifədə olursa, olsun, düşdüyü mühitin adamları, ictimai həyat ilə qaynayıb-qarışmaq fitri bir ehtiyac kimi ona Almazdan irs qalmışdır.

Səlimə «yasli, yoxsa tövlə» mübahisəsini körpələrin xeyrinə həll etməyə nail olur, rəhbərlə kütlə arasında müasir münasibət məsələsinə toxunur, nəzarətdə də, rəhbərlikdə də yeni əxlaqi məzmun tələb edir, «biz özümüzlə eyni ləyaqət» hissinə malik olan insanlara başçılıq edirik», – deyir.

Səlimənin rast gəldiyi ən böyük müqavimət şüurlarda, görüşlərdə yaşayan mənəvi ətalət olur. «Sən maaşını al, otur yerində, heyvandı, həmişə nə

cür, indi də heylə» – o bu «fəlsəfəyə» qarşı döyüşə atılır. Səlimənin fəlsəfəsi: «Həyatın da Štrausun valsları kimi öz ahəngi var. Bizim borcumuz bu ahəngin daha gözəl olmasına kömək etməkdir».

Təsərrüfata, məişətə gözəllik artıra-artıra bu qız sanki özü də gözəlləşir, əməyin və insanın vəhdətdə gözəlliyi və kamilliyi ideyasına bizi bir daha inandırır: «Bütün bu tanışlıq zamanı mənim üçün ən maraqlı cəhət Səlimə xanımın hərəkətləri idi. Qız təsərrüfata baxmağa başlayanda, elə bil ki, birdən-birə dəyişildi. Elə bil ki, hardansa ona bir ilham, bir qüvvət gəldi. O, tövlələrə də, qaraja da, heyvanların doğum evinə də hamıdan əvvəl girir, hamıdan çox soruşurdu. Elə bil ki, bu, səhər çay içdiyimiz zaman sakitcə oturub bizə qulaq asan, gizli bir kədərlə gülümsəyən o ağbəniz incə qız deyildi...»

Bu gözəl qadın, ümumiyyətlə, təmas etdiyi hər yeri və hər şeyi gözəlləşdirir. Səlimənin mənəvi gözəlliyi bir də onun öz sevgisinə münasibətdə meydana çıxır: O, Şahları sevir. Təmiz və nəcib sevgisi yolunda qurban verə bilməyəcəyi heç nə yoxdur. Çünki bu onun «ilk və son sevgisi»dir. Bu məhəbbət onun öz xilaskarını tanıdığı birinci dəqiqədən başlayır, boranlı gecədəki igidliyə, hünərə bir mükafat kimi doğulur, get-gedə ən gözəl, nəcib və ülvi bir hissə çevrilir. Sevginin gözəlliyi səadət duyğuları, uçmaq üçün verdiyi qanad bu münasibətlərin təsvirində təbii boyalarla əks olunur. Sevgi süjeti əsərin ən şairanə, lirik və poetik səhifələrini təşkil edir.

Səlimənin bütün hərəkətlərində mənəvi mənbədən gələn bir sərbəstlik də vardır. O, öz sevgisi və xoşbəxtliyi yolunda fəal olan və mübarizə edən bir qızdır, sevgidə də fəallıq və təşəbbüsü Şahlarla həmhüquq hüdudlarda bölür. O, bu əsil sevgini sevgisiz keçirdiyi bütün illərin həsrəti ilə axtarır, tapanda isə onu «əvvəlinci-axırıncı» sevgiyə çevirir. O, Şahlar uğrunda bir də ona görə mübarizə aparır ki, Şahları, Şahların xoşbəxtliyini Güləbətindən xilas etsin.

Şahlar uğrunda mübarizədə Səlimə iki qorxulu rəqiblə qarşılaşır: Güləbətinlə və Gülnisə xala ilə. Gülnisə xala bütün varlığı ilə inanır ki, onun yeganə oğlunu yalnız «əsli-nəsəbi məlum», hörmətli bir ocaq sahibinin qızı xoşbəxt edə bilər. Məhz bu xoşbəxtlik naminə o, Səlimәyə amansız bir müharibə elan edir.

Gülnisə bu mübarizəyə böyüdüyü dağlardakı ana qartalların ən qorxulusu, aslanların, qəzəbli pələnglərin yaralısı və dişisi kimi atılır. Lakin Gülnisə xala məqsədinə ona görə nail olmur ki, o, Şahları da özü kimi mərd, məğrur, qətiyyətli tərbiyə etmişdir. Səlimə naminə təkbətək döyüşdə, üzbəüzdə qartallaqartal rastlaşır və Şahlar qalib gəlir. O, daha nəcib mərdlikdə, saf və təmiz bir sevgiyə sədaqətdə, halallıq, düzlük və ləyaqətdə qalib gəlir. Qartallı dərədəki mühafizəkar bir adət yox, ən müqəddəs sayılan bir ənənə və qanun qalib gəlir...

Səlimə ilə Güləbətin arasındakı münaqişə, xarakter toqquşması isə daha maraqlı xüsusiyyətlərə malikdir. Demək lazımdır ki, Güləbətin öz əxlaqi məzmunu etibarilə orijinal bir surətdir. Səlimə–Nuriyyənin, Səriyyənin davamı, inkişafıdırsa, Güləbətin yeni bir surətdir. Həyatda coxdan mövcud bir nəslin surəti olan bu qəhrəmanı yazıçı ilk dəfə ciddi planda və yeni münasibətlər mövqeyindən təsvir etməyə çalışmışdır. Yazıçı karikatura çəkməmişdir. Güləbətini bədii əsərə həyat həqiqəti və İlyas Əfəndiyevin yazıçı cəsarəti gətirmişdir. Güləbətinin öz dünyagörüşü, həyata baxışı, çox aydın «fəlsəfəsi» vardır. O, «yüksək sürətlər» əsrində yaşayır və kosmik sürətin ölçülərini öz hisslərinə, eşqin, vəfanın, sədaqətin «müddət»lərinə və «möhlət»lərinə də aid etmək istəyir. Çox mənalıdır ki, bir zamanlar Çıraq dayının uzaq səngərləri müşahidə etmək üçün gəzdirdiyi binoklдan indi o, Şahların və Səlimənin intim hərəkətlərinə baxmaq üçün istifadə edir. Yazıçı da məhz bu simvolik cəhətə toxunur.

46291

M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası

Onun zahirində və daxilində cəlbedici məqamlar da yox deyildir; ilk baxışda dediklərində bir «həyat məntiqi» də duymaq olar. «Onun yanaqları, dodaqları eyni ilə qırmızı çöl laləsitək alışıb yanırdı. Gözləri atasının gözləri kimi ala idi. Adama elə gəlirdi ki, zaman-zaman bu gözlərdən gah mavi, gah da füruzəyi rəngə çalan bir alov çıxır...»

Güləbətinin «həyat məntiqi»ndən nümunələr:

«İyirminci əsrdə «ayıb» sözü yoxdur». «İyirminci əsrdə sürət son dərəcə artmışdır. Bizim Romeo, Cülyetta olmağa vaxtımız yoxdur. Biz bir neçə dəqiqəyə kosmosa çıxa bildiyimiz kimi, bir anda külə də dönə bilərik».

Yaxud:

«–Mən heç nə bilmirəm, bilmək də istəmirəm. Mən doğulub böyüdüyüm üçün yaşamalıyam. Həyatda mənə xoş gələn nə varsa, tez götürməliyəm və ya götürməyə çalışmalıyam».

Realist təhlildə obrazın ruhi aləminə psixoloji bələdliyin rolu barədə yazıçı İlyas Əfəndiyevin öz qənaətləri maraqlıdır: «Əgər həyati bir fakt və ya hadisə yazıçının, dolayısı ilə personajın ruhi-psixoloji aləminə daxil olmayıbsa, bu aləmin hərəkət və inkişafında bir rol oynamırsa, belə həyat materialının bir qəpikliк əhəmiyyəti yoxdur! Məsələn, Balzakın əsərlərindəki həyat materialı bizi ona görə valeh edir ki, insanın ruhi hərəkəti ilə, bütün varlığı ilə bağlıdır... Mənim eşitdiyimə görə Cəfər Cabbarlı kənddə çox az olmuşdur... Bəlkə də uşaq vaxtı olmuşdur. Lakin İmamyar, Hacı Əhməd, ya «Almaz»da təsvir olunan kənd demaqoqları kollektivləşmənin ilk illərində bizim kəndimiz üçün səciyyəvi olan çox real, çox canlı adamlardır.

Əlbəttə, mən görüb-götürməyin əleyhinə deyiləm. Həyatı bilmək lazımdır. Lakin incəsənətin bütün sahələri üçün istedad əsas amildir. Qəti meyardır! Həyat materialı yalnız istedadlı sənətkar üçün mövcuddur!.. Hər şeyi yazıçının istedadı və bununla qaynayıb-qarışmış mədəniyyəti həll edir. O da şübhəsizdir ki, həqiqi sənətkar bilmədiyi, bütün varlığı ilə nüfuz etmədiyi həyatı yazmaz!»[1]

Bu düşüncələr nəzəri bir bəyanat kimi ifadə edilməmişdir. «Dağlar arxasında üç dost»un təhlili də göstərir ki, İlyas Əfəndiyev həmin nəzəri qənaətə bədii təcrübədə əməli şəkildə də sadiq qalır.

Sual oluna bilər: Səlimə cəmiyyətin, qadınlığın əxlaq və mənəviyyatındakı yeniliyi təcəssüm etdirir, lakin axı Güləbətin də yenilikdir? Yox, yeniliyin əsərdə təbliğ olunan təmayülünü təmsil edən Səlimədir. Əlbəttə, real bir surət kimi Səlimə də qüsurlardan xali deyildir. O, bəzən Şahların xudpəsəndliyini, kobudluğunu da ideallaşdırır. Ümumiyyətlə, Səlimənin öz duyğularında yaratdığı Şahlar daha gözəldir. «Dağlar arxasında üç dost» romanında mənəvi aləmlə real məişət arasında ahəng sonralar da sujetin bütün gedişi prosesində izlənilir. Əsərdə bu baxımdan maraqlı bir yer də var. Valsı dinlədikdən sonra Səlimənin mənəvi vəziyyətini müəllif belə təsvir edir: «Sanki mahiyyətini dərk etmədiyi şirin bir aləmdən təkrar əsil həyata qayıdaraq soruşdu: – Arteldə cins inəklər çox azdır, elə deyilmi?» Heç də təsadüfi olmayaraq bir yerdə işlədilmiş «əsil həyat» və «şirin aləm» məfhumlarına diqqəti cəlb etmək istərdik. Artel və cins inəklər «əsil həyat», Ştrausun musiqi düşüncələri və qızın yaşadığı yüksək mənəvi anlar isə yalnız əfsanəvi və xəyali bir «şirin aləm» kimi qarşı-qarşıya qoyulmur. Romanda canlı, diri və müasir kənd həyatı haqqındakı təsəvvür yalnız arteldən və cins inəklərdən ibarət təsəvvür deyildir. Ştrausun musiqi düşüncələri altında Səlimənin yaşadığı yüksək mənəvi anlar da burada

[1] İ. Əfəndiyevin tənqidçi Yəhya Seyidova məktubundan. Bax: Y. Seyidov. İlyas Əfəndiyev. Bakı, 1975, səh. 136–137.

real həyatın özü, onun bir parçası kimi təsvir edilir. Yoxsa «əsil həyat» haqqında yalnız arteldən və cins inəklərdən ibarət bir təsəvvür bədii əsərdə mənəvi yoxsulluğa səbəb olardı. Bütün roman boyu yazıçı heç yerdə və heç nəyin bədii təsvirdə insanları, insani hissiyyatı kölgələməsinə yol vermir. Əsərdə haqqında çox danışılan silos məsələsini də müəllif əsas problemlə – müasir, təbii, canlı–diri İnsan problemi ilə məharətlə bağlaya bilir. Qonşu kənddən ot gətirilməsinin təsviri bir neçə səhifə davam edir. Lakin bu çox maraqlı səhifələrdə də söhbət yenə də, əslində, otdan, silosdan deyil, yatmış pələngə bənzəyən qorxulu gədiyi fəth edənlərdən gedir. Xüsusən dal-dala düzülən maşın karvanı qabağında kürəklə yolu yoxlaya-yoxlaya gedən «ucaboylu oğlan»ın surəti oxucunun hafizəsinə həkk olunur.

Səlimə yeni tövlə tikmək, mal-qaraya xidmət sahəsində mədəni üsullar tətbiq etmək, «dayə sistemi»nə keçmək tədbirlərini irəli sürür. Bütün bunlardan əvvəl isə körpələr üçün münasib bir yasli binası tikilməsinə nail olur. Göründüyü kimi, o, müasir kənddə artıq «sinfi mübarizə» aparmır, zəhmətdə, əməkdə şeiriyyət, gözəllik, rahatlıq və bolluq uğrunda mübarizəyə qoşulur; vaxt bölgüsü, əmək, istirahət və mədəniyyətin təşkili, müasir rəhbərlik üsulunun forması və məzmunu kimi problemlərə toxunur.

Əməkdə, məişətdə, ictimai münasibətlərdə müasirlik mövzusu, yenilikllə ənənə arasındakı əlaqələrin məzmunu bir motiv kimi romanın bilavasitə məhəbbət və əxlaq məsələləri ilə bağlı süjetində də davam etdirilir.

Səlimənin – Şahları və Ştrausun valslarını sevən bu qızın zövqündə, gözəllik duyğularında daxili bir harmoniya vardır. Zahirən qəribə görünə bilər: nə üçün bu ali savadlı, yüksək mədəniyyətli qız Şahları özündən də yüksək tutur, ona bir qəhrəman, xəyalında, könlündə bəslədiyi ideal kimi pərəstiş edir. O, özü oğlanı niyə sevdiyini izah edə bilmir, lakin qəribədir, bu barədə düşünərkən həmişə pəncərəni açır, Qartallı dərənin dağlarına baxır: bu dağlar uca, soyuq, sərt və əzəmətlidir. Qız bu dağların gözəlliyini və Şahların bu dağlara bənzəyən təbiətini sevir.

Hər halda Şahların və Səlimənin – bu iki gəncin simasında biz ənənələrin ziddiyyətini yox, vəhdətini görürük. Səlimənin zərifliyi və həssaslığı oğlandakı fitri, təbii açıqlığa, nəcibliyə, düzlük və təmizliyə yaraşır: yeninin ən yaxşı cəhətləri «köhnə»nin əxlaqi gözəlliyilə ahəng təşkil edə bilir (təsadüfi deyil ki, Şahlarla Güləbətin arasındakı münasibətlər belə ahəngi rədd edir). Səlimə – bu yüksək adətli, ənənəli qız Qartallı dərənin çox adət-ənənəsinə həsəd aparır, onların üstünlüyünü etiraf edir və onlara doğru can atır, çırpınır...

Səlimənin səmimi sevgisi ailə qurmağın köhnə üsulu üzərində öz aşkar üstünlüyü ilə, əsərdəki bədii-fəlsəfi məntiqin təsdiq etdiyi bir üstünlüklə qalib gəlir, rəsmiyyətə, mənafe hаqq-hesabına dözməyən, yüksək əxlaqa əsaslanan nəcib məhəbbəti təmsil edir. Bu məhəbbət gözəldir və insanın, dünyanın, həyatın gözəlliyini artırır...

Əxlaqi gözəllikdə o biri bacıları da Səlimədə oxşayırlar. Nuriyyə öz xoşbəxtliyini Səadətə bağışlayır. Həm də ilk və böyük məhəbbəti Murad olduğu üçün özünü Hümmətin səmimi sevgisinə layiq bilmir. Bəs Səriyyə? Onun tutduğu yol bu qızların birlikdə təmsil etdiyi ümumi əxlaqa bir təfriqə təşkil etmirmi? Əlbəttə, Səriyyə daha mürəkkəb obrazdır. Onun yeni əxlaqi prinsiplərə meylini zahirən əyaniləşdirən cizgi və detallarda ifrat maksimalist məqamlar da vardır. Lakin tam halda, əxlaqi problemin obyektiv bədii həlli prosesində yazıçı yenə də eyni qütbün, milli-əxlaqi meyarın və prinsipin tərəfində dayanır.

Əlbəttə, Səriyyə hələ Nuriyyə kimi, Səlimə kimi mənəvi qəhrəmanlıq etmir. Adillə münasibətlərində o, sadəcə olaraq, öz xoşbəxt olmaq hüququndan istifadə edir, vəssalam. Əsrlərlə davam edən bir ənənəni pozmağı da bəlkə kiçik

bir «qəhrəmanlıq» hesab etmək olar. Lakin Səriyyəni Nuriyyəyə və Səlimə yaxınlaşdıran bu «kiçik qəhrəmanlıq» deyil, onun Adilə yox, Qəribcana olan münasibətidir. Adil-Səriyyənin keçmişdə buraxdığı səhvidir və Səriyyənin mənəvi gözəlliyini yalnız onun öz səhvini düzəltməsində görmək doğru deyil. Adil xətti bütün ziddiyyətləri ilə təsvir olunan Səriyyənin səhvlərini, daha çox zəif tərəfini əks etdirən xətdir. Surətin bütövlükdə ifadə etdiyi əxlaqi gözəllik isə Qəribcan xəttində meydana çıxır. Səriyyə Qəribcanı əsil bir Nuriyyə, Səlimə məhəbbəti, nəcibliyi, fədakarlığı ilə sevir və bu münasibətlərin rədd olunan əvvəlki ailə münasibətləri, onun modeli üzərindəki aşkar üstünlüyü bizi inandırır.

İlyas Əfəndiyev növbəti romanında da bu xüsusiyyətə sadiq qalır, «Sarıköynəklə Valehin nağılı»nda da öz fərdi, ənənəvi nəsr üslubuna sədaqətini qoruyub saxlayır. Romanda mənəvi gözəllik, həssaslıq və onun qorunması problemi, əfsanəvi, lirik, «mavi dünya»nın nağılları mövzusu davam etdirilir. Təsadüfi deyil ki, əsərin qəhrəmanı Valeh məhz mənəvi gözəlliyin keşiyində duranların sırasına gəlməyə – hüquq mütəxəssisi olmağa can atır. Əsərdəki hadisələrin sahillərini birləşdirən körpünün digər tərəfində artıq qara və «qorxulu nağıllar»ın qəhrəmanları – Məcidov, Yusifov, Cavanşir, Rövşən, Rəcəb və başqaları durur. Bu nağıllar artıq «texniki tərəqqi» və «yenidənqurma» deyilən dövrün «nağılları», cəmiyyətimizdə yeni çeşidli və yeni məzmunlu antipodların yayıldığı və onlara qarşı xalqın mübarizəsinin də geniş vüsət tapdığı bir dövrün «nağıllarıdır». Məhz yetmişinci illərin eybəcər, tüfeyli və meşşan tipi kimi yaxşı müşahidə edilmiş və milli-xəlqi bir mənəvi mövqedən, vətəndaş narahatlığı ilə təsvir olunmuş Məcidov obrazı bu baxımdan diqqəti xüsusilə cəlb edir.

Bir nasir kimi İlyas Əfəndiyev həmişə irəli baxır, nəsrin inkişafında hər yeni mərhələnin və hər yeni nəslin yaradıcılıq axtarışlarında yenidən iştirak etməkdən yorulmur. «Geriyə baxma, qoca» bu həqiqətin yeni ifadəsi və növbəti təsdiqi oldu. Roman digər bir cəhətdən də maraq doğurur: məlumdur ki, İlyas Əfəndiyevin bütün nəsri bir «mən»in dilindən deyilən monoloqa bənzəyir. Burada isə həmin monoloq ilk dəfədir ki, birbaşa söylənilir, hər cür şərti, bilavasitə romantik haşiyə və ifratlardan təmizlənərək, «çılpaq» görünür. Üçüncü tərəfdən, burada təhkiyənin tərzi ilə yanaşı, predmeti də dəyişir: müasirlik axtarışlarını bu dəfə o, tarixi keçmişin materialında davam etdirir və ilk dəfədir ki, belə müstəqil şəkildə fərdi tərcümeyi-hala müraciət edir, bilavasitə öz «mən»inin keçmişindən danışır. «Hətta, indi, yəni yaşlı vaxtımda dönüb keçmişə baxmaq istəyəndə, elə bil ki, içəridən bir səs təşvişlə mənə deyir: «Geriyə baxma, qocal» Lakin mən baxmaq istəyirəm. Mən bu keçmişin çox əzablı, çox kədərli olduğunu bilirəm, ancaq yenə də ona təkrar-təkrar tamaşa etmək, nəyi isə anlamaq istəyirəm. Bəlkə də mənim bu «nə isə»m o zaman babamla nənəmin, atamla anamın bir zamanlar yaşadıqları, xoşbəxt olduqları gözəl hissləri əzaba, kədərə, nifrətə döndərən qəddar səbəbi bilmək arzum idi, indi də məndən əl çəkmirdi...»

Yaddaş, xatirə, arxada qalan ömür və tale haqqında düşüncələr, ümumiyyətlə, romanın yalnız məzmununa yox, ifadə, təhkiyə üsuluna da həssas, emosional bir ruh aşılayır. Həm də ömrün zirvəsindən salınan bir nəzərin işığında fərdi keçmiş vüsətli, miqyaslı ictimai məna alır və balaca Murad şəxsi tərcümeyi-halın yox, ictimai mühit və zaman haqqında romanın qəhrəmanına çevrilə bilir. «Mən o uzaq, doğma keçmişə yenidən baxır, orada nəyi isə anlamaq istəyirəm». Məhz bu ehtiras, ədibin «anlamaq istəyi» yaxın keçmişi bədii idrak ehtirası kimi ümumiləşir və oxucu da romanın səhifələrində baş verən bu dramatik aktın iştirakçısına çevrilə bilir.

Maraqlıdır ki, «Geriyə baxma, qoca»da əhatə olunan hadisələr zamanca da «bir ömrün» çərçivəsinə sığışmır. Ədib hadisələrin tarixini çox uzaqdan başlayır, babalar haqda nağılları da özü barədə «kədərli hekayə» ilə birləşdirir. Daha doğrusu, babaların əxlaqını bugünlə birləşdirən cizgilərin qovşaq və düyüm təşkil etdiyi dünyanı müəllif bu dəfə artıq babalarla öz «mən»inin qaynaqları, öz ömrünün mərhələləri arasında axtarır.

Bütünlükdə əsər sənədli, real bir tarix kimi sosializmin təşəkkülü dövrünün bədii nəsrimizdəki portretinə yeni təfərrüat və detal artıran roman-xatirə kimi özünü doğruldur.

İyirmi-otuzuncu illərin Azərbaycan kəndində baş verən hadisələrə müasirliyin daha mürəkkəb sosial-tarixi və mənəvi-məişət problematikası baxımından nəzər salınması «Üçatılan» povestini də həm ideya, həm də forma-poetika cəhətdən «Geriyə baxma, qoca» romanının təbii davamına çevirir. Bu povesti həmin illərin dramatik, psixoloji cəhətdən çox mürəkkəb həyat, məişət və ictimai-sinfi mübarizə dramlarına bu gün yenidən qayıdan bədii düşüncənin nəsr sahəsində səciyyəvi, müasir ənənələrindən birinin də davamı saymaq olar.

Saf və namuslu gəncliyin, canlı müasirliyin və tarixi keçmişin təhlili yollarında ədibin rast gəldiyi digər qəhrəmanlarla biz onun dram əsərlərində tanış oluruq.

Ədibin ilk dram əsəri onun yazıçı Mehdi Hüseynlə birlikdə yazdıqları «İntizar» (1945) pyesi idi. İlyas Əfəndiyevin bir dramaturq kimi müstəqil sənət taleyinin böyük başlanğıcından söz düşdükdə isə, adətən, «İşıqlı yollar» (1948) və «Bahar suları» (1950) pyeslərini qeyd edirlər.

«Bahar suları» və «İşıqlı yollar» teatra yeni hava və yeni meyillər gətirən ilk qaranquşlar kimi qarşılandı. Səhnədə yeni yaradıcılıq intibahına ümid və inamı o zaman çoxları bir də məhz bu meyillərlə bağladılar. Əlbəttə, dövrün estetik ehkamlarının da möhürünü özündə daşıyan bu əsərlərin ən səmərəli və perspektivli məziyyətləri timsalında teatrda ritorik və didaktik üslubu əsaslı şəkildə təshih edə biləcək nümunənin yarandığını tezliklə həyat özü sübut etdi.

Həmin pyeslərdəki ən yaxşı xüsusiyyətlər özünün daha qabarıq və poetik ifadəsini «Atayevlər ailəsi»ndə (1954) tapdı. Pyesdə müasir həyat öz ziddiyyət və mürəkkəbliyi, həm saflığı və işığı, həm də kölgəli cəhətləri ilə birlikdə səhnəyə gətirilmişdi: «İctimai həyatın qüsurlarını əsil realist mövqelərdən açıb göstərən ən yaxşı əsərlər mənfiliyin bu cür təfsiri üsulunun («ifşaçı pyeslər») yanlışlığını bir daha təsdiq etdi. Belə tamaşalardan biri İ.Əfəndiyevin «Atayevlər ailəsi» pyesi idi... Bu tamaşada ifşaçılıq daha güclü idi, lakin o, həyat həqiqətinin təhrifinə, uydurma süjet xətlərinə və süni müsbət surətlərin yaranmasına gətirib çıxaran birtərəflilikdən uzaq bir tamaşa idi».

Müasir inkişafımızın tarixində altmışıncı illərlə başlayan yeni dövr, milli sosial və əxlaqi ideal uğrunda mübarizənin yeni tarixi mərhələsi səhnəmizdə lirik-psixoloji təmayülün tərəqqisinə zəmin oldu. Həmin illərdə teatr həyatın, müasirliyin, gerçəkliyin dərinliyinə aparan yolda irəliyə doğru ən çox məhz «lirik dramaturgiya»nın nailiyyətləri ilə addımlaya bildi.

«Sən həmişə mənimləsən», «Unuda bilmirəm», «Məhv olmuş gündəliklər», «Mənim günahım», «Mahnı dağlarda qaldı», «Qəribə oğlan», «Tənha iydə ağacının nağılı», «Sevgililərin cəhənnəmdə vüsalı»... – bütün bu pyeslərdə toplanan qəhrəmanlar da əksərən, xoşbəxtlik və işıq axtaran narahat gənclərdir.

İlyas Əfəndiyevin dram yaradıcılığında yeni, perspektivli bir istiqamətin uğurlu başlanğıcı olmaq mənasında «Sən həmişə mənimləsən» (1964) pyesi xüsusilə səciyyəvidir. Əsərin əşxası çox məhduddur. Müəllif öz mahnısını oxumaq üçün gur və möhtəşəm bir orkestri səfərbər etmir; burada zərif bir

nəğməni solo tək ifa edir. Süjet, əsasən, iki müsbət qəhrəman arasında lirik münasibətlərin tarixindən ibarətdir. Əsas qəhrəman – gənc, məktəbli bir qız olan Nargilədir. O, özündən 27 yaş böyük bir mühəndisə vurulmuşdur. Belə bir süjeti öz-özlüyündə bəlkə də məlum, qeyri-müasir və qeyri-səciyyəvi hesab etmək olar. Lakin məsələ də ondadır ki, dramaturq bu ənənəvi üsuldan, belə bir süjetin imkanlarından istifadə edib iki həssas, iki zəngin daxili mənəvi aləmi göstərə bilmişdir. Müəllif qəhrəmanlar arasında münasibətləri psixoloji cəhətdən əsaslandırmış, bizi Nargilə və Həsənzadənin təmiz mənəvi ünsiyyətinə və bu ünsiyyətin gözəlliyinə inandırmağa nail olmuşdur.

İnsanlar təbiətcə müxtəlif olurlar. Həsənzadə həyatın gözəlliyini artıran, daxil olduğu mühitə bir işıq və səmimiyyət səpələyən insandır. Fərəclərin şikəst etdiklərinə bələləri məlhəm qoyurlar. Gözəl bir gülüstanın rövnəqi qızılgüllərin bolluğunda olduğu kimi, cəmiyyətin, insan kollektivinin də gözəlliyi belə adamların çoxluğundadır. Həsənzadə öz fədakarlığı üçün mükafat istəmir, səadətdən qorxan və qaçan bir iradəsiz də deyildir. Hətta öz gedişi ilə də o, Nargilənin qəlbində yaratdığı ideala bir əbədiyyət ömrü vermiş olur.

Pyesin konflikti də lirik xüsusiyyət daşıyır. Burada çarpışan qəhrəmanlar açıq meydanda baş-başa gəlmirlər. Mənəvi dramı hər iki qəhrəman daxilən yaşayır.

Pyesdə simvolik bir surət vardır – boy çiçəyi. Boy çiçəyi – insanlar arasında nəcib mənəvi münasibətdir. Boy çiçəyi–yaxşı adamdan yadigar qalan kövrək və işıqlı yaddaş deməkdir. Pyesdə boy çiçəyini biz bir neçə yerdə məhz bu mənalarda görürük.

Həsənzadə öz həyat yoldaşının xatirəsini daim əziz tutur. Bu xatirə də boy çiçəyi kimidir: özü çoxdan xəzəl olsa da, ətri həmişə təzədir.

Nargilənin də öz boy çiçəyi var: atasının xatirəsi ona ləyaqətlə yaşamağa kömək edir.

Boy çiçəyinin ətrini unudanlar, ona xəyanət edənlər isə həyatda xoşbəxt ola bilmir, Nəzakət məhz bu çiçəyi təhqir etdiyi üçün bədbəxtdir.

Boy çiçəyisiz yaşamaq çətindir. Onsuz insan daxilən cırlaşır, mənən kiçilir və eybəcər olur. Sarısaç qızın faciəsi məhz belə faciədir. Ona görə «fərsiz planet»də əbədi olan heç nə yoxdur, demək, boy çiçəyi də mənasızdır. Hər şeyin ömrü bir an qədərdir. Həyat bir içim sudur. Elə isə nə vəfa, nə hünər, nə sədaqət və sevgi? Sarısaçların həyatı məhz buna görə cılızdır. Onların həyatında boy çiçəyi çatmır. Bunsuz isə xoşbəxtlik mümkün deyil. Pyesdə vahid bədii məntiqin ifadə və təsdiq etdiyi bu ideya gözəldir, işıqlı və şairanədir...

Lakin boy çiçəyi yalnız könüldə qorunan xəyal, təkcə mənəvi rayihə və xatirə də demək deyildir. Bizim sadə, sıravi adamların mənəvi gözəlliyi hər yerdə–gündəlik həyatda, işdə və əməllərdə, qayğı və rəftar gözəlliyində təzahür edir. Nargilə belə bir gözəlliyi tam mənası ilə, hörmətli bir zavod direktoru olan Həsənzadənin şəxsində tapır və ilk dəfə rast gəldiyi «ən yaxşı» adamı sevməyə başlayır. Onun bu məhəbbəti məzmunca mürəkkəbdir. Əlbəttə, bu məhəbbət, hər şeydən əvvəl, gözəlliyə, ideala, yaxşı insana məhəbbətdir, təmiz mənəvi bir münasibətdir. Lakin o, həm də tamamilə təbii, dünyəvi, real bir hiss deməkdir. Axı o, gözəl və ülvi şeyləri bir yerdə, ailə sevgisini, kəbin, nikah məhəbbətini isə başqa bir yerdə axtarmır. Bu təmiz, doğruçu və romantik qızın həm idealı, həm də həyatı bir yerdə görmək arzusu məgər qeyri-təbiidir? Nargilənin Həsənzadəyə münasibəti məhəbbətin bütün mənalarını ehtiva edir.

Dramatik süjetin əsasında dayanan məhəbbət düyümünün həllində Nargilə tək iştirak etmir. Həsənzadə özü bu məhəbbətə həmahəng daha güclü bir cavab məhəbbəti yaşayır. Bu ikinci məhəbbətin daxili gücü və sarsıntıları bəlkə də Həsənzadənin təmkin və dəyanəti müqabilində zahirən görünməz

olur. Əslində isə bu məhəbbət daha dramatik və humanist bir səciyyə daşıyır. Əgər Nargilə bütün varlığı ilə işığa və xoşbəxtliyə can atırsa, Həsənzadə öz məhəbbətini həmişə kimi isə xoşbəxt etmək arzusuna və məqsədinə tabe edir. O, Nargiləni tərk edir. Lakin gənc bir qızın qəlbində işıqdan və inamdan yandırdığı məşəl o gedəndən sonra da yana-yana qalır. Qız həyatı və insanları bir zamanlar atasının sevdiyi kimi – böyük insan məhəbbəti ilə sevməyə başlayır. Onun taleyi, varlığında baş verən dönüşün səbəbi onunla şərtlənir ki, qızı əhatə edən mühitdə saf və sadə adamlar tapılır. Fərəclər bu mühitə nə qədər zülmət və riya aşılasalar da, bütövlükdə xəlqi, milli adət-ənənəmizin mənəvi ləyaqətini Həsənzadənin təmsil etdiyi əxlaqi həqiqətlərin gözəlliyi təyin edir.

Pyes forma, poetika baxımından da yeni, novator cizgiləri ilə diqqəti cəlb edirdi.

Öz yeni əsərində İlyas Əfəndiyev, hər şeydən əvvəl, dramı təzələmə təşəbbüsləri ilə maraq doğurmuşdu. Bu təşəbbüslər mənalı idi və bir çox cəhətdən özünü tamamilə doğruldurdu. Səhnəyə gülüşün və təbəssümün zərifi gəlirdi, hissiyyat və ehtirasın şeiriyyəti, poeziyası gəlirdi. Məhz ona görə də teatrda şitliyə, bayağılığa əks-əməl kimi tamaşaçı burada çoxdan darıxdığı nəyi isə görür və rəğbətlə qarşılayırdı. Təsadüfi deyil ki, əsər ədəbi ictimaiyyət tərəfindən də rəğbətlə qarşılandı. Pyes haqqında yazılan resenziyaların hamısında, demək olar ki, hətta bir aludəlik var idi. Lakin biz pyes haqqında deyilən əksər təriflərə şərik olmaqla bərabər, bu tərifləri pyesin özündən çox, bu pyesin bizim teatrda, dramaturgiyada təmsil etməyə başladığı təmayülə, istiqamətə aid etmək istərdik. Elə bir təmayülə ki, «Sən həmişə mənimləsən» əsərində onun hələ yalnız rüşeymləri görünürdü.

Təbiidir ki, hər tənqidçi pyesi bir əsas motivin işığında şərh etmişdir. «Təklik faciədir» məqaləsinin müəllifi (professor Cəfər Cəfərov) isə, bizcə, pyesdə yapışılması mümkün olan motivlərin ən əsasından yapışmışdır. Biz müəllifin təklik haqqında təklikdə başladığı düşüncələri, şübhəsiz, pyesin materialı ilə bağlı bir şəkildə davam etdirmək istərdik. Əlbəttə, bundan məqsəd teatr fikrimizin görkəmli mütəxəssisinin təklik ətrafında monoloqunu dialoqa çevirmək deyil. Məqsəd – pyesin mahiyyətinə nüfuz edən iti bir fikrin uğurlarından təhlili daha da dərinləşdirməyin xeyrinə istifadə etməkdir.

Fərdiyyət və təklik problemi indi müasir modernist dünyanı bütünlükdə düşündürən aktual bir problemdir. XX əsrin doğurduğu fəlsəfələrin çoxu məhz təkliyi dərinləşdirən və mütləqləşdirən fəlsəfələrdir. Təkliyin ictimai-fəlsəfi rəhnini izah edən çoxlu ədəbi məktəblər və estetik cərəyanlar da vardır. Lakin çağdaş ədəbi-ictimai və fəlsəfi fikirdə təklik hələ də problemdir, hələ də düşündürür, narahat edir və şərh olunur. Demək istəyirik ki, təklik bir mövzu kimi mürəkkəb və çətindir. Təkliyi ictimai-fəlsəfi bir problem kimi qoymaq, həll etmək və ona müasir, novator, modern yazıçı platformasından hərtərəfli təhlil vermək dramaturqdan böyük sənətkarlıq məharəti tələb edir.

Dünya ədəbiyyatı təkliyin fərdiyyətçilik məzmununu əks etdirən çoxlu faciələr tanıyır, təkliyin – ictimai məhkumluq, bəşəri zəiflik, gələcəksizlik, zəminsizlik, kollektivsizlik, xudpəsəndlik məzmunu müasir qərb dramlarında geniş yayılıb. Təklik keçmişin çoxlu klassik dramlarının da vahid mənfi qəhrəmanı kimi özünü göstərir. Lakin bizcə təkliyin «Sən həmişə mənimləsən» pyesində ifadə olunan məzmunu bunların hamısından fərqlənir.

Həsənzadə kollektivsiz, zavodsuz və fəhlələrsiz tək görünmür, lakin Xurşid xanımsız, Aydınsız o, tək görünür. Təklik Həsənzadəni təkcə evdə, mənzildə yaxalayır. Biz onu yalnız öz dərdini, öz qayğısını kiminləsə bölüşmək

istəyəndə tək görürük. Bu zamanlar, adətən, Xurşid xanımın xəyalı peyda olur və təklik şərti olaraq silinir. Beləliklə, Həsənzadə üçün təklik «Xurşid xanımsızlıq» kimi mənalanır. Xurşid xanım sağ olsaydı, o, tək qalmazdı.

Ümumiyyətlə, əsərdə qəhrəmanlar cəmiyyətdə yox, şəxsi həyatda tək görünürlər. Nəzakət də belədir. Nargilənin «Tək niyə olurdun, sən ki işləyirdin», – sualına onun cavabı çox səciyyəvidir: «Gündüzlər işləyirdim, gecələr isə...» Demək, Nəzakətin də təkliyi sirdaş və həmdərd yoxluğundan doğan mənəvi bir təklikdir. O, hamımıza aid olan nəyi isə itirdiyi üçün yox, təkcə ona aid olan kimi isə itirdiyi üçün təkdir. Eyni sözləri təkliyi «Həsənzadəsizlik» kimi qavrayan və yaşayan Nargilə haqqında da demək olar. Bu qəhrəmanlar nə üçün təkdirlər? Bu təkliyi əsaslandıran və zərurətə çevirən hansı ictimai, psixoloji və əxlaqi motivlərdir? Doğrudanmı, əsər təkliyi ittiham edir və təkliyin məğlubiyyətini bizə göstərir? Elə isə təkliyin öz konkret motiv və səbəbləri ilə birlikdə süqutunu əsaslandıran sujet hansıdır? Bu təkliyə qələbə nədə təzahür edir? Axı finalda Həsənzadə yenidən tək qalır?! O, birinci dəfə Xurşid xanımdan sonra tək qalmışdı. Nargilədən sonra ikinci dəfə tək qalır. Süjetin ifadə etdiyi məntiq budur. O, bizi iki dəfə tək qalan qəhrəmana məhəbbət bəsləməyə, pərəstiş etməyə hazırlayır.

Əsərdə yalnız müsbət qəhrəmanlar təkdirlər. Həsənzadə «həddindən artıq yaxşı» olduğu üçün təkdir. Nargilə eybəcər bir mühitlə qaynayıb-qovuşmadığı üçün təkdir. Nəzakət Fərəcə mənən yaxınlaşıb doğmalaşa bilmədiyi üçün təkdir. Hətta Sarıtel qız da özü ilə mühiti arasında tam bir uyğunluq gördüyü vaxtlar özünü tək hiss etmir, o da məhz bu mühitdən ayrılanda tək qalır.

Demək, öz səadətindən əl çəkənlər tək qalırlar. İdeala, boy çiçəyinə əbədi sadiq qalanlar tək qalırlar. Axından ayrılanlar, başqa, daha təmiz, yüksək mühitə qovuşmaq üçün əvvəlki mühitdən ayrılanlar əvvəlcə tək qalırlar. Yüksəkdə qalanlar təklikdə qalırlar! Yalnız hər şey adiləşəndə, ümumiləşəndə belə təklik məhv olur.

Yox, təklik düşmən deyil. Təklik bu qəhrəmanların dostudur. Nargilə Fərəclərə, Surikiər mühitinə qarşı mübarizədə təkliyi bir qələbə kimi qazanmışdır. Həsənzadənin təkliyi mənəvi bir qəhrəmanlığı və qələbəni mümkün edən yeganə səbəb olmuşdur.

Odur ki, mən nə Nargilə, nə də Həsənzadə xəttində məhv olan təkliyin məğlubiyyətini görmürəm, tənha qalmağın süqutunu, prozasını hiss etmirəm, öz fədakarlığı, öz qəhrəmanlığı ilə hamıdan yüksəkdə dayanan və məhz yüksəkdə dayandığı üçün təklikdə dayanan iki qəhrəmanın şəninə söylənən bir himni, alqışı, mahnını eşidirəm! Eşidirəm və düşünürəm: nə yaxşı ki, Nargilə öz atasının xəyalı ilə tək qalmış, Fərəclə və Fərəclər mühiti ilə qaynayıb-qovuşmamışdır! Nə yaxşı ki, Həsənzadə təkcə mənəvi məhəbbətin nəşəsi ilə tək qalmış, amma layiq görmədiyi bir səadəti sevdiyi Nargiləyə qıymamışdır.

Odur ki, tamaşa bitir, lakin biz «təklik müsibətdir!» – demirik, «təklik gözəldir», «təklik qəhrəmanlıqdır!» – deyirik.

Bu təklik – əvəzi, dəyəri mənəvi hünərlə ödənən, haqqı fədakarlıq olan, könüllü qazanılan təklikdir. Əsərdə təkliyin məhz qəhrəmanlıq məzmunu boy çiçəyi mövzusu ilə qaynayıb-qovuşa bilir. Yoxsa məhv olan, basılan təklik mövzusu və boy çiçəyi ideyası bir-birini rədd edərdi.

Məgər biz tək qaldığı üçün Həsənzadəni ittiham edirik? Məgər biz Nargiləni təkliyi üçün məşhər ayağına çəkirik? Əksinə, biz onları elə tək qaldıqları üçün sevmirikmi? Finalda təklik Həsənzadəyə yaraşır, üfüqdə ən ucada yanan ulduza, səmada ən ucada uçan qartala yaraşdığı kimi yaraşır! Öz təkliyini o, yalnız öz əzəməti ilə birlikdə itirə bilərdi...

Tək – bütün allahlardan ayrılan Prometeydir; tək – Faustun zamandan ayırıb – «saxlan!» – dediyi bir andır; tək–bəşəriyyətdən ayrılan qəhrəmandır; böyük təklər – bəşəriyyəti arxalarınca aparanlardır...

Qeyd etmək lazımdır ki, burada ictimai təklik, kollektivsizlik və kimsəsizlik mənasında təklik, «kapitalizmdən qalan təklik» ittiham olunmur. Nə müəllif, nə də biz Həsənzadənin təkliyi üçün heç kəsi və heç nəyi ittiham etmirik. (Əlbəttə, kortəbii ədalətsizlikdən – vaxtsız ölümdən başqa).

Burada tək qalmaq – boy çiçəyinə sadiq qalmaqdır. Bu təklik – əslində, ən böyük mənəvi birlik deməkdir. Məhz buna görə Nargilə «Sən həmişə mənimləsən!» – deyir. Məhz buna görə müəllif də öz əsərinə başlıq seçərkən Nargilə ilə birlikdə «Sən həmişə mənimləsən», – deyir. Bu isə «heç zaman tək deyiləm», – demək deyilmi?

Belə təkliyə biz məftun oluruq. Belə təkliyi müəllif də tərənnüm edir. Təklik burada «mənfi qəhrəman»a oxşamır. Yoxsa qəhrəmanları yalnız təklərdən ibarət bu əsər bizə bu qədər xoş təsir bağışlamazdı. Yalnız tək qəhrəmanlardan ibarət bu pyesi tamaşaçı bu qədər sevməzdi. Yoxsa «Həsənzadə niyə təkdir?», «Nargilə niyə tək qalır?» – sualları cavabsız qalardı. Əsərdə təkliyin məhz qəhrəmanlıq məzmunu var, məhv olan təklik mövzusu və onun sosial-fəlsəfi səbəbləri, kollektiv və tək fərd münasibətləri pyesdə yoxdur.

Göründüyü kimi, müəllifin qələmində hətta təklik də şairanələşir. Lakin o, ayrı-ayrı təklərdən danışır, təkləşmə, tənhalaşma bir hadisə, bir proses, bir hərəkət kimi bədii, psixoloji və fəlsəfi təhlilin obyekti olmur: təklik fərd və cəmiyyət arasında əlaqə və bağlarla şərtləşmir. Həsənzadə təkdir. O, bir zavoddan başqa zavoda keçəndə də tək olaraq qalır. Nəzakətin təkliyinin səbəbi ictimai köməksizlik, yaxud Nargilənin yoxluğu demək deyil: odur ki, əsərin sonunda Nargilə qayıdanda da o, yenə tək qalmaqda davam edir. Həmçinin, Nargilə üçün də təklik yalnız «kollektivsizlik» demək deyil ki, onu zavoda gətirməklə məsələ həll olunsun. Bu təklik – «Həsənzadəsizlik» deməkdir. Yəni yalnız sənə məxsus mənəvi işığa, insan qayğısına, ünsiyyətə və təbəssümə olan həsrətdir. Odur ki, məhz belə bir «həsrət» və «zavod» məfhumları o qədər də yaxın məfhumlar kimi səslənə bilmirlər. Şübhəsiz, Sarıtel qızın zavoda gəlməsində bir məna var: o, öz mühitini–təkliyinin mənbəyini dəyişir. Nargilənin, ələlxüsus isə Həsənzadənin ifadə etdiyi təkliyi doğuran dərin əxlaqi, mənəvi-psixoloji ziddiyyətləri həll etmək üçün isə zavod finalı, şübhəsiz, özünü doğrultmur. Finalda zavoda gələn də təkdir, zavoddan gedən də. Şübhəsiz, fərdiyyət və təklik problemini – bizim hərtərəfli, qlobal texniki ünsiyyət əsrini bütünlüklə düşündürən bəşəri bir problemi Nargiləni yalnız zavoda tapşırmaqla həll olunmuş hesab etmək də pyesin bədii məntiqindən doğulan qənaət deyildir.

Nargilə mövzusu işığa və səadətə təşnəlik mövzusu idi. Lakin xoşbəxt olmaq, hər şeydən əvvəl, ləyaqətli və namuslu olmağı nəzərdə tutur. «Boy çiçəyi»ndən, vicdan və məslək bütövlüyündən kənar tam səadət yoxdur. Dramaturqun yeni pyesində – «Unuda bilmirəm» (1968) əsərində də məhz bu düşüncələr davam etdirilir.

Konflikt daxili hisslərin ziddiyyət və toqquşmaları şəklində təzahür edirdi. Burada hər şeydən əvvəl Nərminlə Nərmin, Kamranla Kamranın özü qarşılaşırdı. Dramaturq mənəvi bütövlüyün gözəlliyini məhz daxilən baş verən əxlaqi tərəddüd və büdrəmələr üzərindəki qələbələrin gözəlliyi kimi əyaniləşdirirdi. Nərmin son səhnəni artıq sınaqlardan çıxmış, mənəvi cəhətdən kamala çatmış bir qəhrəman kimi tərk edirdi.

Nərmin daxilən təşəkkül prosesi keçirən, dəyişən dinamik bir obrazdır. İlk səhnələrdə o, sərbəst düşünən, şıltaq, ərköyün bir professor qızıdır. «Nazik

və kəsikburun çəkmə» Nərmini Kamranın «uzaq səfərlər üçün yaranmış» durnalar haqqındakı söhbətindən daha çox əyləndirir.

O, Kamranı oxuduğu kitablardakı qəhrəmanlar kimi sevir, onu canlı, real bir həyat kimi qəbul etməyə isə hələ hazır deyildir. Gözəl hisslərin şərəfinə hələlik yalnız qədəh qaldırmağı bacarır. And içdiyi sağlığı həyata keçirməyə isə onun gücü çatmır. Qız həyatın çətinlikləri ilə addımlayanda yox, rəqsin ritmləri altında fırlananda xoşbəxtdir, zövq duyur, «kosmosa uçur». İlk dəfə Kamrandan o, məhz rəqsin dumanlı havasında ayrılır, ayılıb baxanda isə Kamran artıq yoxdur. Rəsmiyyətlərə meydan oxumaq və sədaqətini sübut etmək üçün gecə Kamranla tək qalmaq Nərmin üçün öz məhəbbətini çətin mənəvi mübarizələrdə qorumaqdan daha asandır. Onun Kamrana təkrar-təkrar «mən səni, yalnız səni sevirəm, ancaq səni» – deməsi də sədaqət andından çox, sevgisi üçün daxili bir qorxunun və şübhənin etirafı kimi səslənir. Qız özü hiss edir ki, Cəmilin onda oyatdığı daxili tələtümə və hisslərə qarşı mübarizədə o, zəif və kövrəkdir. Odur ki, o, Kamrana tez qovuşmaq, onunla birləşmək və «Cəmil» adlı bir təhlükədən bu yolla xilas olmaq istəyir. Cəmil hələ bütün silahları ilə hücuma keçməmiş Kamranınkı olmaq, ehtiyat, qorxu qarşısında imtahanın, sınağın yüngülünü, asanını seçmək istəyir.

Cəmil Nərminə bütün daxili-ruhi aləmi ilə sonradan yadlaşdığı kimi, Kamran da ona əsil mənada sonradan doğmalaşır. Kamran sadəlövh, ərkköyün, lakin ona qarşı həmişə səmimi Nərminin əməli idealı ola bilmir, kamala çatmış, oyanmış Nərminin isə əsil idealına çevrilir.

Cəmil Kamranın təmsil etdiyi əxlaqın əks qütbündə durur. O, kosmosla, Kamran isə hüquq elmi ilə maraqlanır. Kamranın əxlaqi mövqeyi aydındır: insanın vətəndaşlıq vicdanını, əsrin əxlaqi ideallarını tapdayan elm müqəddəs tutula bilməz. Pyesdə əxlaqla və vicdanla hər cür saziş əleyhinə üsyanla dolu sözlərin konkret ünvanı vardır. Həyatda ənənəvi əxlaqın bir sıra ideallarını bu gün üçün gərəksiz və ağır bir yük kimi çiynindən atan və bunu bir fəlsəfə ilə «əsaslandıran» Cəmillər də mövcuddur. Bu cür müasir, «intellektual meşşanlıq» xüsusilə təhlükəlidir. Çünki burada ağıl da, intellekt də meşşanlığın gücünə çevrilir. Təsadüfi deyil ki, Cəmil zahirən heç yerdə gücsüz və silahsız görünmür. Lakin kamala, əxlaq təmizliyinə əsaslanmayan qəhrəmanlıq yoxdur. Sonda nə Nərmin, nə Mövsümzadə, nə də dramaturq Cəmili bağışlamır.

Final Nərminin qələbəsi ilə bitir. Kimin üzərində? Şübhəsiz, əvvəlki Nərmin üzərində! Odur ki, bu qələbədə özünə zəfər çalan bir qəlbin iztirabını, kədərini də hiss etmək çətin deyildi.

Hər şey üçün, ən çox isə ləyaqət və şəxsi hərəkətlər üçün mənəvi cavabdehlik, əxlaqi məsuliyyət və borc hissi bir vətəndaşlıq problemi kimi «Məhv olmuş gündəliklər»də (1969) də davam etdirilir. İlyas Əfəndiyev dramaturgiyasının tanış, ənənəvi ünsürləri burada da vardır: uğursuz sevgi, səhvlər faciəsi, kədərli, lakin nikbin perspektivli final. Daxili psixoloji konflikt «gündəlik»də əksini tapan romantik xəyallarla həqiqi məişət arasında qurulur. «Gündəliklər»lə həyatın, poeziya ilə canlı gerçəkliyin toqquşması hadisəsi baş verir. Sonda gündəliklər yanır, məhv olur, lakin bu «gündəliklər»in məhvi də tragik qəhrəmanların məhvinə bənzəyir: kağızlar, vərəqlər od tutur, sətirlərə həkk olunan arzular, poeziya isə yaşayır, qalib gəlir və daxili, mənəvi bir işıq kimi, həyatın adiliyi, prozası əleyhinə əks bir qütb kimi pyesin təbliğ etdiyi əxlaqi-estetik mövqeyi ifadə edir.

Məhv olan, yanan iki «gündəliyin» işığında görünən iki əsas hadisədə, iki dramatik tarixçədə həm də psixoloji konfliktin əxlaqi məzmunu açılır. Həqiqət arzuları, günlər gündəlikləri təshih edir, «gündəlik» qəhrəmanları həyat qəhrəmanlarına çevrilirlər – konfliktin həllində reallaşan əsas dramatik hadisə, baş verən estetik vaqiə bundan ibarət idi. Xarakterlər, psixologiya, mənəviyyat və ehtiraslar da əsərdə bu vaqiənin gedişi prosesində şərhini tapırdı. Bu prosesdə «gündəliklər»i yazanlar da, onları məhv edənlər də əsil daxili aləmləri ilə görünə, təzahür edə bilirdilər. Əsas qəhrəmanlardan heç biri bu vaqiəyə hazır, formalaşmış qəhrəman kimi daxil olmurdu. İdeal əxlaqi münasibətlər özü-özlüyündə dramaturqu az məşğul edirdi. Onu ən çox düşündürən adi əxlaqi münasibətlərin kamala çatması, bədii-psixoloji bir hadisə kimi bu prosesin, çevrilmənin və kamala çatmanın özü, çətinliyi, mürəkkəbliyidir. Təsadüfi deyildir ki, bu pyeslərin sonunda tamaşaçı həmişə səhvlərdən təmizlənən, daxilən yaşadığı mənəvi təkamüldə yeni bir ərəfənin sərhədində dayanan, sabahlı, gələcəkli qəhrəmanların surətləri ilə rastlaşır. Adətən, belə əsərlərdə final dramatik sonluq kimi yox, yeni bir həyata proloq kimi, daxili bir böhranın həlli, tərəddüd və zəifliyin dəfi, ləğvi kimi mənalanır.

Pyesin maraqlı surətlərindən biri olan Ancel gündəlik yazmır. Lakin onun da tərcümeyi-halı həyatın öz əli ilə yazılan irətli bir gündəliyə bənzəyir. Həm də əsil tragik notlar məhz bu gündəliyin səhifələrində səslənir. Müəllifi hələ gənc ikən həyatın dibinə, çirkabına bulaşmağa məruz qalan bu qadının qəlbinin dərinliyində gizlənib qorunan işıq, dirilik, həyat gücü maraqlandırır. Həm də, bu işığın, diriliyin və həyat nəfəsinin gücü ədalətlərin cinayətlərinə qarşı yönələn qəzəbin və nifrətin gücünə çevrilə bildiyi üçün əsərdə əsas humanist və əxlaqi mündəricəni, ittiham və ifşa pafosunu özündə cəmləyir. Mənəvi acizliyə, ikiüzlülüyə, idealsızlığa qarşı Fəridənin məktəb dostlarının mövqeyini Ancel Fəridədən daha yüksək qiymətləndirir və pyesdə Ədalət konfliktinin həllində əsas rol oynayır.

Əsərdə müasir gəncliyin başqa bir qisminin surəti Savalanın və Qənimətin simasında verilmişdir. Əgər qızlar həyatda şəxsi xoşbəxtlik üçün nə isə axtarır və «özləri üçün səadət» uğrunda mübarizədə səhvlər edirlərsə, bu gənclərin «özüm üçün səadət» şüarı yoxdur. Vətəndən kənar, doğma xalqın mənafeyindən uzaq «səadət» və «gözəllik» anlayışını onlar tanımırlar. Müəllif saf əməyin, namuslu zəhmətin əxlaqını təmsil edən bu əsil həyat qəhrəmanlarını ədalətlər haqqındakı səhv, bəzəkli təsəvvürlərə qarşı qoyur və onları yanılan, sadəlövh yox, kamala çatmış, oyanmış qızların idealına çevirir...

İlyas Əfəndiyevin ilk komediya əsəri olan «Qəribə oğlan» (1973) isə şən, işıqlı boyaların, nikbin rənglərin üstünlük təşkil etdiyi xalis lirik komediya idi. Dramaturq bu əsərdə də öz üslubuna sadiq qalmış, komediyasında da lirikası ilə güclü görünə bilmiş və çağdaş ictimai əxlaqdan bəhs edən müasir ruhlu məzhəkə yarada bilmişdir. Əsərin komik süjeti ilə aşkarlanan həqiqət budur ki, «qoca» və mühafizəkar meşşanlığın «müasirləşmək» iddiası yalnız zahiri dəbdə, modada öz əksini tapa bilir, mahiyyətcə isə o, heç zaman dəyişmir, ideya-əxlaqi bir keyfiyyət kimi meşşanlıq hər yerdə və həmişə elə meşşanlıq olaraq qalır.

Meşşanlıq öz təzahürü üçün üfüq və meydan tapa bildikdə, müəyyən sosial mühitdə ictimai normaya çevrildikdə isə əxlaqi ucalıq və mənəvi təmizlik «qəribəliyə» çevrilir! Bu zaman hələ dərk olunmamış meşşanlıq karyeristə öz karyerizmini, obıvatelə obıvatelliyini gizləməsi üçün pərdə kimi lazım olur, parçalanan, bir kənara tullanan meşşanlığın yırtılan pərdəsi arxasından isə hər şey olduğu kimi görünür: yalan və əyrilik də, riya və ikiüzlülük də. Məhz bu zaman «qəribəliklə» «həqiqət» bir-biri ilə yerlərini dəyişir, hərəsi öz həqiqi mövqeyində və məzmununda görünür. Səhnədə müəyyən maraq doğura bilsə də, «komik ənənə» bu üslubda sabit ənənəyə çevrilmir və İlyas Əfəndiyev məzhəkəyə bir daha qayıtmır.

* * *

İlyas Əfəndiyevin yaradıcılığını zamana münasibətdə bir xüsusiyyət həmişə qabarıq xarakterizə edir – Müasirlik! «Mahnı dağlarda qaldı» pyesi də tarixi mövzuda yazılsa belə, bu ənənənin pozulması demək olmadı.İlyas Əfəndiyev həmin əsərində də öz üslubuna və qüvvətli müasirlik hissinə sədaqətini qoruyub saxladı.

Müasir milli-əxlaqi ideallarımızın tədqiqi bu pyesdə də davam edir. Lakin burada müəllifi artıq həmin idealların ideya-tarixi kökləri, zəmini, bu ideallar uğrunda mənəvi mübarizəmizin qurbanları, inqilabi qəhrəmanlıq mövzusundakı daxili, gizli məna, lirik və tragik notlar düşündürür. Özlüyündə epik hadisələr,, açıq ictimai vuruş səhnələri yox, onun mənəvi aləmdə mənəvi konfliktdə əksi düşündürür. Daha doğrusu, ictimai-siyasi döyüşlərin daxildə, ruhi-mənəvi aləmdə, fərdi talelərdə davamı bu pyesin əsas mövzusuna çevrilir. Fərdi taleyə münasibət mövzusu pyesdə ictimai, kütləvi qəhrəmanlıq mövzusu ilə daha mürəkkəb, psixoloji cəhətdən daha mənalı bir şəkildə qaynayıb-qarışmış olur.

Tarixə münasibətin müasirliyi baxımından Nicat surəti də öz bədii sələflərindən çox fərqlənirdi. Əvvəlki tarixi-inqilabi tamaşalarda kütlənin, xalqın taleyi problemi, adətən, fərdin daxili-mənəvi aləminə marağın zəifləməsinə səbəb olurdu. Fərdi aləmlə ictimai ideallar arasında mürəkkəb, dialektik daxili-mənəvi bağları təhlilə meyil müasir səhnə sənətində daha realist istiqaməti ifadə edən məziyyət kimi qiymətli idi.

«Mahnı dağlarda qaldı» əsəri İlyas Əfəndiyevin məhz müasir mövzulu pyeslərinin nailiyyətləri zəminində yazılmışdır. Böyükbəy və Fəxrəndə surətləri yalnız xarakterlərinin mürəkkəbliyi, yeniliyi ilə yox, mənsub olduqları ictimai dövrü və təbəqəni necə təmsil eləmək mənasında da Azərbaycan mülkədarlığının əvvəlki dram əsərlərindəki surətlərinin eyni deyillər. Böyükbəy amansız, qətiyyətli və qüvvətli bir xarakterdir. Bunun nəticəsidir ki, əsas müsbət qəhrəman kimi verilən Nicat «qırmızı inqilaba» qarşı yalnız öz fitri stixiyası, kortəbii sinfi instinktləri ilə yox, öz məfkurəsi və intellekti ilə də mübarizə aparmağı bacaran daha qorxulu və ləyaqətli bir rəqiblə qarşılaşmalı olur. Bu isə həmin üzbəüz mübarizənin bədii-estetik mənasını və tutumunu çox-çox artırırdı. Sinfi yox, milli idealın bədii ifadəsinin tamlığı üçün yüksək məfkurəli qəhrəmanlar və xarakterlər yaratmaq üsulu özünü doğruldur, «bütöv həqiqət» məqsədinə, mənzilinə doğru yolu yaxınlaşdırırdı.

Məhz bu baxımdan Şahnaz surətində öz sinfindən ayrılmağın əzabları, onun çətin sınaqları və faciəsi daxili-əxlaqi bir qanunauyğunluq kimi açılır və o, qüvvətli fərdi xarakterə çevrilə bilirdi.

«Mahnı dağlarda qaldı» pyesi tarixi mövzuda yazılsa da və yaxın tarixi keçmişimizi əks etdirsə də, əsərin mərkəzində konkret tarixi şəxsiyyət yox, bəlkə, konkret-tarixi epoxa dururdu. Maraqlıdır ki, İlyas Əfəndiyev əsasında konkret tarixi şəxsiyyət dayanan ilk pyesinin qəhrəmanını da Azərbaycan qadınlarının sırasından seçir və qadın qəhrəmanlı ilk Azərbaycan tarixi dramını yaradır. Şairə və dövlət xadimi Natəvanda o, yüksək daxili aləmli, saflıq, xeyirxahlıq və fədakarlıq ehtirasları ilə aşıb-daşan müasir qadın qəhrəmanlarının milli-mənəvi sələfini, əxlaq və mənəviyyat mənşəyinin, Südabə, Səlimə, Nargilə, Şahnaz, Fərəh ənənələrinin qədimliyi və fasiləsizliyi ideyasını ifadə etməyi qarşıya məqsəd qoyur. Əsas tarixi və bioqrafik detallara sədaqət qorunub saxlansa da, müəllif tarixi hadisələrin ifadə etdiyi sosial məntiqi, psixoloji qanunauyğunluqları bədii təxəyyülün imkanları ilə tamamlamaq və başa çatdırmaq yolu ilə gedir. Natəvanı həm doğma və füsunkar Şuşanın, həm də

bütövlükdə məhkum, tragik qismətli, parçalanmış Azərbaycanın taleyi, qayğısı eyni vaxtda və eyni dərəcədə narahat edir. Biz onu həm müdrik, vətənə və xalqa bağlı ictimai xadim, həm də həssas və zərif bir şairə, qadın və ana kimi tanıya və sevə bilirik. İran şahzadəsi Bəhmən Mirzəyə milli qürur və ləyaqət dərsini də, hərbi zabit, canişin yavəri Xasay Usmiyevə vətəndaşlıq və vətənpərvərlik dərslərini də səhnədə eyni qəhrəman– şairə qadın Natəvan verirdi. Bununla belə, bu əsərdə də dramaturq bir tarixçidən çox bir psixoloq olaraq qalır. Güclü müasirlik duyğusu bu pyesdə də İlyas Əfəndiyevi bu günün (və gələcəyin!) ən aktual əxlaqi və sosial problemlərindən uzaqlaşmağa qoymur. Natəvanın Təbriz harayında artıq dramaturqun Şuşa üçün də narahatlığının səsi eşidilməyə başlayır.

Əxlaq və mənəviyyat problemi İlyas Əfəndiyev yaradıcılığının son dövrü üçün səciyyəvi olan digər bir pyesdə – «Bağlardan gələn səs»də yenə də müasirliyin materialında qaldırılır.

Həmişə olduğu kimi, İlyas Əfəndiyevin bu pyesində də sadə, lakin işıqlı bir surət var: Şirin kişi... Şirinin peşəsi dağdan dumanı qovmaqdır. O, vaxtsız çökən qara buludları üfüqdən dağıdır və bağların «buludsuz səması» keşiyində durur. Əslində «bağlardan gələn səs» elə Şirin qocanın səsidir.

Bu buludlardan Vahidin – sovxoz direktorunun hələ xəbəri yoxdur. Özünü namuslu bir ailə və idarə başçısı saydığı üçün hələ məmnun və xoşbəxtdir. İki yubileyi eyni vaxtda qeyd etməyə hazırlaşır: ailə həyatının və uğurlu əmək fəaliyyətinin ildönümünü. Lakin hadisələrin bütün sonrakı gedişi göstərir ki, Vahidin hər bir səadəti bir xəyal imiş.

Planı «cır şəftəlilər»in, ailə həyatını isə «cır məhəbbət»in hesabına təmin etmək olmaz – bütünlükdə ictimai-mənəvi həyatın özündə, real gerçəklikdə sağlamlığın əsas əlamətini ifadə edən bu fikir pyesdə də ideya-bədii leytmotivin əsasında durur.

Əxlaqi təmizlik fərdi məişətdə də, ictimai həyatda da eyni dərəcədə vacibdir. Yalnız bu ahəngə cavab verən şəxsiyyətin səadəti bir həqiqətdir. Pyesdə hər kəsin xoşbəxtliyi həmin meyarın sınağından keçərək təsdiq, yaxud inkar olunur. Vicdan məsuliyyəti, əxlaqi ideallar üçün mənəvi cavabdehlik tamaha, mənfəətgirliyə, saxtakarlığa, meşşanlığa qarşı qoyulur.

Yalnız fərdi mənafedən ucada durmaq insanı yüksəldir. Əsərdə bu bədii niyyəti bilavasitə ifadə edən Kamandar və Fərəh surətləridir. Təsadüfi deyil ki, onların mövqeyi Şirin kişi ilə dərhal birləşir. Hər üçü bağların keşiyində dayanır və Hatəm – Qubuş psixologiyasına qarşı çıxır. Çünki Fərəhgil bilirlər ki, bu «qurumuş adamlar» da bağlardakı qurumuş ağaclar kimidir. Əvvəlcə Qubuşdan və Hatəmdən başlamaq, cəmiyyəti ilk növbədə bunlardan «alaq etmək» lazımdır. Məhz bunlar ətrafın saf havasını pozur, bağların müqəddəs səmasına haramdan və tamahdan duman-çən dağıdırlar.

Cəmiyyətin «cırlaşmış, xəstə meyvələri» sırasına Gülcan da daxildir. Əlbəttə, Qubuş, Hatəm və Gülcan bir-birindən fərqli fərdi surətlərdir. Bir ehtiras kimi tamahkarlığın və nəfsin psixoloji şərhi üçün üç müxtəlif açarı müəllif bu üç surətin timsalında axtarır.

Vahid bu müxtəlif xətlərin süjetdə birləşib kəsişdiyi obrazdır. Lakin yeknəsəqlik, adilik və meşşanlıq əleyhinə həyəcanı, ən fəal, mübariz mövqeyi əsərdə o, ifadə etmir. Şirinin, Kamandarın, Fərəhin təmsil etdiyi cəbhəni meşşanlıqla əksliyin əsas qütbü kimi ön plana çəkməklə müəllif haqlı hərəkət etmişdir. Vahidlə Gülcanın ailə dramı isə həqiqətlə saxtakarlıq arasındakı bu ümumi əxlaqi konfliktin konkret, fərdi təzahürlərindən biridir.

Gülcan dramaturqun Səriyyə, Güləbətin tipli qəhrəmanlarından prinsipcə fərqlənir, o, xislətcə, mahiyyətcə, xaraktercə mənfi qadın obrazıdır.

«Xəyanət» sözü onun Vahidə və Kamandara münasibətinin məzmununu tam və axıra qədər ifadə edə bilmir. Nə ərinə, nə də sənətinə ürəkdən bağlanmadan yaşamaqla əslində o, özünə də, ailəsinə də çoxdan xəyanət etmişdir. Kamandarın gəlişi ilə bu «xəyanət» yalnız dərk olunur və üzə çıxır. Yəni Kamandara münasibətinin işığında onun Vahidə münasibətinin saxtalığı görünür, vəssalam. Vahidin itirdiyi saxta ailə səadəti, qazandığı, dərk etdiyi isə acı, lakin real, doğruçu bir ömür və tale həqiqəti olur.

Şəxsi və ictimai səadətin qaynayıb-qovuşmadığı məhəbbət yarımçıqdır. Məhz bu əxlaqi və estetik həqiqətlərin nəticəsidir ki, Vahid nə ailədə, nə də ictimai həyatda öz səadətini tapa bilmir. Nargilə Həsənzadənin gənc və gözəl oğlunu yox (çünki bu gəncin qurban tələb edən eşqə, təmənnasız, fədakar məhəbbətə ehtiyacı yoxdur), onun özünü sevir; Fəridə Ədalətlə, Nərmin isə Cəmillə xoşbəxt ola bilmir. Namusla qazanılmayan maddi rifah xoşbəxtliyə gətirib çıxaran müqəddəs yol deyil, əksinə, mənəvi misizliyə aparır.

Məhz namuslu yaşamaq əxlaqı bu pyeslərdə mənəvi qəhrəmanlıq təlimi kimi şərh olunur. Məhəbbət və əxlaqi məişət mövzusu vahid bir vətəndaşlıq mövzusu səviyyəsində mənalı görünə bilir. Daxili tamlıq və bütövlük axtarışlarında qət etdikləri yol bu qəhrəmanları öz həqiqi mahiyyət və «mən»lərinə gətirib çıxarır. Əxlaqi konfliktin həlli prosesində ən böyük «xoşbəxtlik» və ən qiymətli nemət kimi bu qəhrəmanlar məhz özlərini, öz ləyaqət və şəxsiyyətlərini dərk edirlər!..

* * *

İlyas Əfəndiyevin gəncləri axtardıqları işığı kənarda tapmırlar: kənarda yanan işıq onlara öz daxillərində gizlənən gözəlliyi görmək, tanımaq üçün lazım olur. Ürəyin daxili, gizli qatları aşkara çıxanda isə həmin pyeslər artıq tamamlanmış olurlar. Həsənzadə məhz belə bir mənəvi vəzifəni yerinə yetirdikdən sonra Nargiləni tərk edir. Müəllif özü də həmişə və hər dəfə məhz belə bir mənəvi vəzifənin icrasından sonra (yalnız bu zaman) öz qəhrəmanlarını tərk edir!

Təsadüfi deyil ki, bu pyeslərin əksəriyyəti mənəvi intibah aktı ilə tamamlanır. Hər şeyi əxlaqi amil, şəxsi mənəvi məsuliyyət, «mən»in daxili iradəsinə inam həll edir. İnzibati tədbir, məhkəmə və iclas finalı, ürəyin, hissin həqiqəti səviyyəsinə qalxmayan şüar, kağız, akt həqiqəti bu pyeslər üçün qeyri-səciyyəvidir, yaddır. Bu pyesləri çox cəhətdən tənqid etmək olar. Təkcə bir cəhətdən başqa – səmimilikdən!..

İlyas Əfəndiyev dramaturgiyasının bütün əsas motiv və ünsürlərinin iştirak etdiyi, dramaturqun bütövlükdə səhnə təcrübəsinin aşkar hiss edildiyi növbəti pyesi – «Büllur sarayda» əsəri həm dramaturgiyamızda, həm də teatr həyatımızda maraqlı bir hadisə oldu. Bu pyesdə dramaturqun səmərəli müasirlik axtarışları, həyata, ictimai məişətə vaxtında, cəsarətlə nüfuz etmək ənənəsi bir daha öz təsdiqini tapdı, hamını narahat edən əxlaqi problem ətrafında dramaturqla ünsiyyət aktı yenə də uğurla başa çatdı...

Budur, ağ, büllur tağlar altında qara bir xəyanətin kabusu gizlənir. Dramatik süjet büllur saraydakı bu qorxulu sakinin – xəyanətin üzə çıxmasının tarixi ilə başlayır. O, yaxına və uzağa, saf, namuslu adamların nəfəs aldıqları təmiz havaya haram və tamah zəhəri dağıdır. Səhnədə vicdan əleyhinə qəsd baş verir və tamaşa bu mənəvi sui-qəsdin ictimai məişətdə, ailədə, məhəbbətdə doğurduğu şüur və əxlaq dramını təsvir edir.

Lakin finalda biz bir yox, iki sarayın süqutuna şahid oluruq. Qədimlə Ağahüseynin rüşvətdən və haramdan tikdiyi saray öz kölgəsini Həbiblə

Aynurun, həqiqətən, büllur sarayı üzərinə salır və pyesdəki «uçulan saraylar» mövzusuna faciə notları aşılamış olur. Üçüncü saray – Qönçə ananın sarayıdır. İşıqla və saflıqla dolu olan, əbədiyyət və sabitlik ifadə edən müqəddəs ana mənzilidir. Səhnədə yalnız lampalar yox, həm də hisslər, ehtiraslar bu sarayların büllurunda sına və hərəsində bir cür əks oluna bilir.

Büllur tifaqın dağılması tarixçəsini bütün sakinlər bir müsibət, təkcə Aynur isə kədərli, faciəli bir qələbə kimi yaşayır. Bütün tamaşa boyu Aynurun və sarayın taleyi kəsişir və qovuşur. Həyatda baş verən və xalqın, millətin ənənəvi əxlaqi, etik idealları əleyhinə çevrilən xəyanətə ən böyük etirazı ədib, məhv olan, nəcib, işıqlı bir sevgini tərənnüm etmək yolu ilə bildirir.

Əsərdə baş qəhrəman memar kimi verilsə də, süjet inşaat problemi ilə bağlı olsa da, artıq gördüyümüz kimi, buradakı tikinti meydanı – insanın mənəvi aləmidir, mətləb və mövzu – ömürdə, taledə tikilən və uçulan binalardır. İlyas Əfəndiyev həmişə rəhbər tutduğu bədii üsluba və əqidəyə yenə də sadiq qalır, əxlaqi problemi vaxtında, cəsarətlə qaldırır və tamaşaçını səhnə ilə aktual dialoqa dəvət edir. Cəmiyyətdə və şəxsiyyətdə müasir mənəvi və əxlaqi sərvətlər, həqiqi və yalançı səadət axtarışı, insanı ucaldan və alçaldan əqidə və ehtiraslar bu dialoqun əsas predmeti kimi seçilir.

«Büllur saray»da yetişən mənəvi irtica ictimai əxlaqa, adamlar arasında vicdani-insani cavabdehlik və borc duyğusuna qarşı çevrilir. Bu havada nəfəs alanlar xoşbəxt ola bilmirlər. Onlardan hərəsinin öz xəyanəti və ona münasib bir müsibəti vardır. Ağahüseyn və Qədim, Sədaqət, Fariz və Cəvahir – hərəsi bir cürə bədbəxtdirlər. Onların hər şeyi, hətta meşşanlığı da saxtadır, yırtıcılığın, oğurluğun, caniliyin büründüyü bir maska, əliəyrilik, xəyanət, tüfeylilik və riya vasitəsilə qazanılan bir «rütbədir».

Səhnədə adi bir meşşanlıq dramı yox, hər hansı mənəvi sərvətə qarşı çevrilən xəyanət aktı baş verir. Və tamaşa bu xəyanət əleyhinə bədii-əxlaqi üsyan, ehtiraslı ittiham aktı kimi davam edir. Onun zirvə məqamında Aynur və onun məhəbbət dramı dayanır. Dramaturq Aynurun səhvini və iztirabını, onun büllur qəfəsdən xilas olmağa təşnəliyini əsas leytmotiv kimi seçir. İlk səhnələrdə o, şən, qayğısız və firavandır. Bütünlükdə həyatı da özü kimi cins şalvarda və tül koftada görür: şəxsi maşını və üç dublyonkası var. Vətənə, xalqa, işə məhəbbəti, namuslu olmağı «köhnə psixologiya» adlandırır. Bir dəfə hətta məclisdə onu «İran şahzadəsi» ilə qarışıq salırlar. Aynuru yuxudan ayıldan itirdiyi məhəbbət olur.Ayılanda isə görür ki, büllur sarayın divarları büllurdan yox, dəmirdəndir. Onu və bacısını həyatdan, dünyadan və cəmiyyətdən ayıran bu dəmir hasarlar olub. Qəfəsdən çıxmaq, ilk sevginin saflığına qayıtmaq üçün Aynur büllur külafirəngidə əsir quş kimi çırpınır. Lakin o, Həbibi axtarırkən Bayandura rast gəlir. Bu qohum gənci atası ilə, büllur sarayla birləşdirən yox, ayıran cəhətlər Aynurda ona maraq doğurur. Maraqlıdır ki, Ağahüseynin qohumunda o, əslində, Ağahüseynlə yox, Həbiblə doğma olan bir varlığı tanıyır və sevir. Məhz Həbiblə, Bayandurla və onun dostu ilə ünsiyyət məqamlarında Aynur ilk dəfə olaraq özü ilə öz doğma kəndi, ölkəsi, Bakısı və Təbrizi arasında təbii, fitri, doğma məhrəmliyin şirinliyini və istisini bu qədər yaxından hiss eləyir; dünyanın «büllur saray»dan daha geniş və işıqlı olduğuna onu inandıran Həbibdən sonra Bayandur olur. Məhz bundan sonra o, öz qəzəbini və qisasını yaşadığı mikromühitin qanun və həqiqətlərinə qarşı çevirir. Büllur saraya ittiham pafosu əsərdə hamıdan kəskin Aynurun dilindən səslənir. Öz ittiham və atmacalarında o ardıcıldır, səhnədən-səhnəyə sərtləşir və dəyişir. Müəllif Aynurda daxili işığın sönmədiyinə, onun təkcə analığı Cəvahirin yox, həm də bütünlükdə «büllur saray»ın ögey qızı olduğuna bizi inan-

dıra bilir. Obrazın çılğın zahiri, amansız üst qatı özünü ona görə doğruldur ki, daxildə ürək kövrəkliyi və təmizlik gizlənir.

Əsas ittihamçı Aynur olsa da, əsərdə daxili əxlaqi konflikt Həbiblə Qədim arasındadır. Onların Aynura münasibətində mənəvi vəzifəyə, ictimai borca və rəsmi cəmiyyətə iki münasibətin sınaq və məhək daşı çarpazlaşır. Pyesdə ülvilik və eybəcərlik bu iki əks qütbdə mərkəzləşir. Gözəlliyə məftunluq, sevgi romantikası və məcnunluq bu qütblərdən birincisində – həqiqət, ikincisində aşkar bir riya və parodiya təsiri buraxır və onlardan hər biri digərinin kölgəsində daha qabarıq görünür.

Həbib az görünüb, çox yadda qalır. Təkcə Aynurun sevgisi, bütünlükdə pyesin estetik idealı bu obrazla möhkəm bağlıdır. Həqiqi büllur saray – Həbibin mənəvi məhəbbətidir. Onun geniş dünyasına hər şey–Aynura olan sevgi, Qönçəyə oğulluq məhəbbəti, xalqa, vətənə, ictimai borca təmənnasız, namuslu münasibət–hamısı sığışır.

Mühitinin həqiqətlərinə Lalənin etirazı Aynurunkundan fərqlənir. O, sevmədiyi, pozğun və əyyaş Farizə ərə verilib. Ona xəyanət edir və bu xəyanətdə özünü haqlı sayır. Lakin Farizə xəyanət hələ «büllur saray»a üsyanın forması və ifadəsi demək deyil. Əksinə, bu saraya məxsus rəftar və vərdişlərin təsdiqidir.

Pyesdə büllur sarayın, həqiqətən, «büllur» bir parçasına, əşyasına və əlavəsinə bənzəyən Cəvahirə əks qütbü Qönçə ana təşkil edir. Pyesin ana ideyası – bugünkü gənclər arasında saxta müasirlik üçün analığın həyəcan və tələşi məhz bu surətdə ümumiləşir. Aynurla son dialoqda o, təkcə Həbibin anası rolunda çıxış etmir. Səhnədə baş verən və neçə-neçə gəncin taleyində əks olunan xəyanət aktına mənəvi cavabdehliyi o, öz şəxsi səlahiyyəti və məsuliyyət borcu hesab edir. Aynura münasibətində o, həmişə daxilən mütəəssir və həyəcanlıdır. Aydın hiss edirsən ki, zahiri analıq təmkini arxasında daşınan iztirabın yükü Aynurun yaşadığı məhəbbət və xəyanət dramından heç də az olmayıb. Və tamamilə qanunauyğundur ki, rüşvət və sərvət ehtirasının məhv etdiyi sevgilər üçün ata və analara–salona xitabla söylənən mənəvi ittiham, ibrətli həqiqət məhz onun dilindən eşidilir: «Brilyantın, qızılın əsiri olan insanlar xoşbəxt ola bilməzlər. Özləri ağırlıqda brilyant sahibi olsalar belə, yenə də xoşbəxt ola bilməzlər».

Bəs əsərdə əsas dramatik hadisəni – cəmiyyətə və xalqa, əxlaqa və gözəlliyə xəyanəti kim icra edir? Zahirən möhtərəm və mədəni görünənlər, planı vaxtında ödəyən, hətta hər il təşəkkür alanlar, arxada isə xalqın sərvətinə divan tutanlar! Nağıllardakı büllur qalalarda divlər, müasir büllur saraylarda isə Qədimlər, Ağahüseynlər yaşayırlar. Onlardan birincisi böyük bir idarə rəisidir. Onun yalnız adı Qədimdir, özü isə tamamilə yeni və müasir bir tüfeyli tipidir. Daha doğrusu, tüfeyli milyonerdir.

Qədim puluna, vəzifəsinə və «adamı»na o qədər əmindir ki, daxilinin xəstə, rəzil mahiyyəti ona əzab vermir. Hətta bu mahiyyətin bəzən açıq, maskasız görünməsindən də qorxmur. Yırtıcı, həyasız və harın Qədimin «yeddi sifəti»ndən yeddisini də birbaşa göstərməyə onun məntiqi və «haqqı» da var: «Sən elə bilirsən mənim kimi hörmətli vəzifə sahibini ləkələmək asandır?» Laqeydlik və mənəvi ətalət mühitində Qədimlər özlərini «fövqəlinsan», torlarına düşən Farizləri, Sədaqətləri isə həşərat hesab edirlər. Əsərin tamaşasında maraqlı bir detal var: Qədim qəflətən əyilir, barmağını ayaqları altına yıxılan obrazın alnında bir nöqtəyə dayayır: «Ağcaqanad!» Bu detal və söz həmin surətin bir anda adi həşərata, heçliyə, ölümə məhkumluğunun etirafı və hökmü kimi yaxşı tapılmışdır.

Maraqlıdır ki, tamaşada bu «fövqəlinsanı» – Qədimi iki dəfə Aynurun ayaqları altında dizin-dizin sürünən görürük. Birincidə o, Aynurdan məhəbbətin, ikincidə məhkəmənin amanını istəyir (müstəntiq Aynurla bir oxuyub). Qədim birinci səcdəyə – eşqdən divanə olduğuna bizi inandıra bilmir: tüfeyliliklə məcnunluq arasında müştərək nə ola bilər? Onun gözəlliyə yox, vəzifəyə sitayişi isə səmimi və həyatidir. O, Aynur yox, mənsəb aşiqi ikən təbii və realdır.

Qədimdən fərqli olaraq, Ağahüseyn bütün tüfeyli təbiəti ilə yanaşı, öz atalıq məhəbbətinin səmimiliyinə bizi inandıra bilir. O, hər şeyi «ailə üçün» edir. Lakin atanın rüşvətdən, haramdan yaratdığı cənnət qızlardan heç birinin səadəti üçün təmələ çevrilə bilmir. Onun vəzifə və sərvət günahının cəzası yalnız xalqın–Qanunun hökmü olmur, həm də iki saf, iki günahsız qızın acı taleyi, faciəsi olur.

Dramaturq Ağahüseynin – bu işbaz və harambaz tüfeylinin rəsmi üçün sakit, təmkinli və plastik boyalar seçir. Axı «Ağahüseynlik»–gizli, daxili xəstəlikdir, onu qışqıra-qışqıra, hündürdən bəyan etmək olmaz.

Bütünlükdə pyes təkcə Ağahüseyni yox, «ağahüseynliyə» laqeydliyi məhv etməyə çağırır. «Ağahüseynliyə» laqeydlik Ağahüseynin yırtıcı ehtiraslarından daha qorxuludur. Çünki həmin ehtiraslar məhz həmin laqeydliyin olduğu yerdə baş verir.

Əsər öz pafosu ilə bu laqeydliyə qarşı çevrilə bilir. Səhnənin önündə qoyulan, bütün tamaşanı müşayiət edən və sanki əli ilə ağzını, gözünü və qulağını qapayaraq «görmürəm, eşitmirəm və demirəm» – deyən üç meymun – kürsünün silueti əsərdəki bu ideyanın ifadəsi kimi düşünülmüşdür.

* * *

Üç sərt, üç realist əsərə eyni vaxtda tamaşa elədim: «Ölüm zolağı» filminə, «Sevgililərin cəhənnəmdə vüsalı» və «Gülüstanda qətl» pyeslərinə. Yaxınlıq yalnız adlarda və sözlərdə deyildi, əksinə, onları daha çox daxili ruh və mahiyyət birləşdirirdi – hər üçü ən yaxın və uzaq tarix haqqında həqiqət və vicdan sənədi idi. Tarixin və sənədin bədiilliklə birləşdiyi belə halal vəhdətə çox az əsərlərdə rast gəlmişəm.

Film – zahirlə, üst qatla, saxta və yalanla əylənib ətrafa yeni mif və növbəti uydurma yaymır; faciənin əsil kökünə və mahiyyətinə burada bizi qondarma süjet, dekorativ cığır və iz yox, bəlkə hələ əl dəyməmiş alt qat, gizli və yasaqlı imza və ünvan gətirib çıxarır.

Oxucunu məhz həqiqətin və həyatın «dibinə» gedən eyni çətin yolla pyesin müəllifi aparır. Birincidə məhv olan fitri və təbii ekologiya (saf hava, təmiz su, təbiət və dəniz), ikincidə məcradan, məhvərdən çıxan əxlaqi və mənəvi ekologiya (milli, insani, vicdani dəyər və sərvətlər) amansız təhlilin və tədqiqatın hədəfi olur.

Nəhayət, bir müştərək detal və uyğunluq da var: pyesdə bütün süjet boyu hadisələri Stalinin donmuş və soyuq təbəssümü, filmdə isə Xruşşovun, Brejnevin tribuna, kortej, təşrif tantənəsi, nazir Kostandovun süni zəhər və qaz səltənəti, kimyəvi işgəncə, ölüm və iflic düşərgəsi müşayiət edir. Üst qatla («inkişaf etmiş sosializm!») alt qat (durğunluq və böhran keçirən sosialist gerçəklik!) arasında miqyaslı, təzadlı paralellər. Hər üç əsərdə sənədli bədii təhlilə həm də sosial qol-qanad və vüsət aşılayır və bir daha belə qərara gəlməyə əsas verir ki, xalqın ağrısına-acısına yox... «yuxarının» ambisiyasına xidmət eləyən səhnə və ekran dövrü qurtardı!

Çılpaq sənəd sərtliyi və həqiqəti hər iki əsərdə bədii-publisist təsiri şərtləndirsə də, pyesdə lirika hər şeyi üstələyir. Axı məhz 1937-də qəsdə, təqibə,

terrora məruz qalan mənəvi sərvət bir də elə lirika özü idi: həyatın ağrılı, göynəkli bir lirik təhlilə ehtiyacı daha çox ikən (məhz onda!) əsil, böyük lirika bir mövzu kimi səhnədən qovulmuşdu. Yalnız səhnədənmi? Bizim yerimizə həmişə «başqası» (ata və rəhbər!) düşündüyü üçün mexaniki bir vərdişlə çoxumuza elə gəlmişdi ki vicdan əzabını, ürək ağrısını da bizim əvəzimizə başqası çəkə bilər. Hətta fərdi ayıblıq hissi, şəxsi xəcalət duyğusu itkiyə məruz qalmışdı!.. Xüsusi mülkiyyətlə birlikdə «xüsusi cavabdehliyi» və «xüsusi məsuliyyəti» də itirmişdik. Hətta o dərəcədə ki, çox uzun müddət xalis milli mənafe üçün narahatlığı və nigarançılığı da başqasının inhisarı hesab etmişdik. Milli düşüncə, vicdan və əxlaqla bağlı dəyərlər əməl və işimizdə heç də həmişə tam, bütün dolğunluğu, vəzni və siqləti ilə iştirak etməmişdi. Pyesin bədii toxumasında ən həssas psixoloji, lirik qat, mətləb də məhz bu məqamla bağlıdır: 1937-də ölkənin, xalqın məruz qaldığı ən böyük itki də ölən yazıçı, kəndli, fəhlə, qulluqçu deyildi, ölənə münasibətdə qalanın nümayiş etdirdiyi mərifət və əxlaq idi – nəinki tutulandan hamı imtina edirdi, hətta onun nəvəsindən, nəticəsindən üz döndərirdilər. Cabbarın əxlaqi güzəşti, qorxu və zor qarşısında mənəvi təslimçiliyi Ayna Turanın intiharından qat-qat qorxulu, total, kütləvi faciə idi! Məhz insanın və xalqın mənəvi sərvətinə ən qorxulu zərbə və zədə idi. Təsadüfi deyil ki, pyesdə yaddaşa atılan güllə Ayna Turandan, Afşar Hüseyndən əvvəl milli dilə və əlifbaya dəyir. Və müəllif də insanı manqurta çevirən inzibati-sosial sistemdə əxlaqi məqamı bədii diqqətin əsas hədəfinə çevirir. Mir Cəfər Bağırov, Səlim Babayev, Mayis – hamısı eyni bir zəhmli qurğuda, vahid, total dövlət maşınında təkərcik və vintciklərdir. Hərəkətə gələn diktatura əyləcsiz, sükansız işləyir və qarşısına çıxan hər şeyi tərəddüdsüz udur. Təsadüfi deyil ki, «vintciklər» təkcə «köhnə dünyanı» yox, həm də yan-yörəsini, bir-birini, özlərini ağına-bozuna baxmadan məhv edirlər. Özü də hadisələr rəhbərin lap yuxarıdan, hamının başı üstdən asılan və vintciklərə gülən portreti fonunda baş verir, hər şey sanki məhz bu təbəssümün soyuq işığında görünür. Madonnanın məşhur təbəssümünü deyil, İblisin qəhqəhəsini xatırladan bu təbəssüm hər dəfə, hər növbəti qətldən və cinayətdən sonra səhnədə yenidən «işıqlanır» və bütün süjet məhz həmin təbəssümdə gizlənən mübhəm, qorxulu, müdhiş mənanın bədii şərhi, açımı kimi davam edir. Dramatik konfliktdə tiranla – repressiya ilə qurban arasında əlaqələr və bunun tarixi və əxlaqi dərsləri əsas vurğu kimi fərqləndirilir. Müəllif sanki cəlladı vaxtında saxlaya bilmədiyi üçün hamını və özünü günahkar sayır, gecikən bədii «başsağlığını» da yaddaşa – bugünkü gənc nəslə verir və qürurla bildirir ki, şəxsiyyət və istedad adlanan qüvvətə, hətta ən despotik dövrən və tiran da qalib gələ bilmir. Elə şəxsiyyətlə qeyri-şəxsiyyət arasında təzad və fərq də məhz zamanla bu üzbəüzdə və əlbəyaxada meydana çıxır!..

Zorakılıq və milli-tarixi yaddaş mövzusunun səhnəmizə bu miqyasda və kəskinlikdə məhz İlyas Əfəndiyevin adı və əsəri ilə daxil olmasında tamamilə təbii bir məntiq, qanunauyğunluq var. Artıq altıncı on ildir ki, o, bədii tərəqqi adlanan marafonda fasiləsiz və tənəffüssüz iştirak edir və öz sənət yürüşünü bu marafona qoşulan hər yeni nəsillə birlikdə, yenidən, yanaşı davam etdirir. Sosial-mənəvi inkişafımızda hər yeni mərhələnin əxlaqi-fəlsəfi problemi və bədii-estetik sualı birinci dəfə deyil ki, məhz bu yaradıcılıqda öz ilk və qabarıq ifadələrindən birini tapır. Bu gün həmin mərhələlərin hamısı bir daha zamanın – bədii yaddaşın imtahanı qarşısında qalır. Bu yaradıcılığın ifadə və təmsil etdiyi mənəvi sərvət və bədii dəyər yeni, suveren, müstəqil təfəkkürün, milli-estetik və inqilabi-etik meyarın sınağından necə çıxır? Axı bizim qocaman dramaturq və ədib özü də ilk əsərlərini hələ vulqar kultun, daha sonrakıları isə durğunluğun at oynatdığı bir səltənətdə qələmə almışdır? Tiranla sənətkar, istedadla dövran və mühit arasında münasibətlər onun öz şəxsi timsalında necə olmuşdur? Tiranlığa haqqın cəzasını səhnədən verməyə, Hüseyn Cavid və Abbas Mirzə kimi müqəddəs əzabkeşlərə yaddaşın borcunu öz əli və qələmi ilə qaytarmağa onun mənəvi haqqı varmı?

Axı indi elə bir dövrdür ki, zamanın bünövrəsi altında yer çox tez-tez gah orda, gah da burda yenidən titrəyib məhvərdən çıxır və hər dəfə də yeni-yeni əxlaqi-ideoloji «sərvətlər», sosial-siyasi postulatlar uçulan, aşan sütunların altında qalır?! «Sosialist realizmi» deyilən bədii fenomenin yetmiş illik çox zəngin, mürəkkəb, təzadlı təcrübəsi tamamilə yeni tarixi dövrün və meyarın sınağına məruz qalır. Məlum olur ki, çox dəqiq layihə ilə ucalan miqyaslı və möhtəşəm bina, sən demə, tam halda o qədər də möhkəm deyilmiş, çox yerdən çatlayıb-uçulubmuş və indi neçə-neçə yazıçını, şairi, ədəbi nəsli bu uçuqlarda məhv olmaq, söküklərdə itib-batmaq qorxusu gözləyir. Nüfuzdan düşən, dəyişən meyarlarla bərabər, neçə-neçə heykəllər, abidələr də pyedestallardan düşür.

Suveren təfəkkürün məfkurə və sənət sınağına yalnız o əsərlər hazır olur, duruş gətirir ki, əbədi mənəvi yaddaşa xəyanət o əsərlərə yol tapmayıb və onlarda iz salmayıb. Axı çox tez-tez yaddaşdan sildiyimiz, həyatda və sənətdə yadırğadığımız meyarlar və prinsiplər, adətən, ən çox əxlaqa və vicdana münasibətlə bağlı olub. Əlbəttə, nəsrimizin və səhnəmizin ən yaxşı nümunələrinin həm kulta, həm də durğunluğa münasibətdə mənəvi vicdanı həmişə saf, ləkəsiz olub. Lakin bunun əksinə dəlalət edən hallar heç də onlardan az olmayıb. Ədəbi təqvimdə tərənnüm mövsümü çox əsərdə bədii ovqata və ab-havaya çevrilib. Lakin söhbət mövsümün iqliminə zidd ab-havadan gedir. Məhz bu mənada İlyas Əfəndiyev sənətdə həmişə əbədi, həmişə sabit mənəvi və insani dəyərlərə, lirikaya və qəlb aləminə inadkar həssaslığı ilə seçilib, yaddaşa da, əxlaqa da onların ən çox yaddan çıxdığı, kiliddə və yasaqda saxlandığı, ən səmimi-insani təbiiliyi, təravəti də qrafoman üslubu və məmur sxolastikasının əvəz etdiyi illərdə də sədaqət göstərib. Bütünlükdə, bu yaradıcılıqda məhz lirik psixologizmdən qiymətli sərvət, sevgidən və ürəkdən böyük mənəvi dəyər yoxdur. Özü də lirikaya, gözəlliyə o, təkcə ideyada yox, həm də formada, üslubda, poetik mətndə və bədii dildə nail olub. Ümumiyyətlə, bütövlükdə bu yaradıcılığı sənətin əxlaqa xidmətinə nümunə hesab etmək olar. Xüsusən, onun altmışıncı illərdə yazdığı əsərlər həm bədii üslubda, həm də həyatda, psixologiyada və məişətdə hakim, dəb stereotipə müxalifəti ifadə edən pyeslər və povestlər idi. Məhz saf bir hissiyyat, bol büllur bir romantika ona səbəb olub ki, ən çox yayılmış müasir xəstəlik – «ürək çatmamazlığı» bu bədii ədaya və üsluba heç zaman doğma olmayıb, mənəvi və əxlaqi dəyərlər bu yaradıcılıqda həmişə fasiləsiz iştirak edib; hətta vulqar kult və amansız repressiya dövründə də ürək İlyas Əfəndiyevin nəsrində və teatrında heç zaman bekar və işsiz qalmayıb. Bu gün məhz bu məziyyət xüsusi dəyər və qiymət kəsb edir və məhz həqiqəti bütöv və axıra qədər demək məqsədinə xidmət göstərir.

Əgər siyasi suverenlik həm də milli-ədəbi bir intibahdırsa, o, üç ünvana «qayıtmaq» əlaməti altında keçir: tarixə, təbiətə, milli təkrarsızlığa! Məhz ən qədim muğamda və folklorda yaşayan milli əxlaq, xalqımızın qəhrəmanlıq və sənət keçmişi, qalalarda, abidələrdə əbədiləşən hünər və qədimlik belə bir intibah üçün «antik təməl» rolunu öz öhdəsinə götürür. Və belə təməli biz bu və ya digər dərəcədə İlyas Əfəndiyevin nəsrinin və dramaturgiyasının bünövrəsində həmişə görürük...

* * *

Dramatizm və dialoq İlyas Əfəndiyevin nəsrində də əsas estetik çaları, xüsusən ona xas təkrarsız dildə, üslubi ədada sabitliyi, qanunauyğunluğu ifadə edir. Təsadüfi deyil ki, son on ildə, ömrünün müdrikliк və yaradıcılığının kamillik çağında da o, daha çox dram janrına müraciət edir. Yazıçı özü bunu yalnız fərdi üslubunun yox, həm də fərdi ovqatının, xasiyyətinin özünəməxsusluğu ilə izah edir: «Həm də dramaturgiya mənim ruhi müvazinətimə uyğun gəlir. Adətən, bir şeydən kədərlənəndə, məyus olanda bu janra müraciət edirəm. Yadımdadır, uşaqlarla Zuğulbada dincəlirdim. Qarşımızdakı bağda bir iydə ağacı var idi. Mənim ona çox tamaşa etdiyimi görən Elçin soruşdu ki, nə çox baxırsan, hekayə yazırsan? Yox, dedim, pyes yazıram. Elə bildi zarafat edirəm. Əslində isə mən, doğrudan da, gələcək pyesim barədə düşünürdüm – «Tənha iydə ağacı» belə dünyaya gəlib».

İlyas Əfəndiyevin son pyesi də onun dramaturgiyaya tükənməz, sabit marağından və sədaqətindən xəbər verir:

«Son əsərim «Hökmdar və qızı» da faciədir. Onu İbrahim xanın həyatına həsr etmişəm. Bu adamın taleyi uzun illər məni düşündürüb. Bir gecədə on səkkiz baş ailəsini ruslar qırdırıblar... Teatrın bədii şurası əsəri bəyənib. Milli teatr onu mövsümün açılışına hazırlayır. Bundan başqa, Mərahim Fərzəlibəyov mənim «Qaçaq Süleyman» adlı ssenarim əsasında film çəkir. Dövrün ictimai-siyasi havasını, insanın hiss və həyəcanlarını daha qabarıq, daha aydın canlandırmaqda roman janrının rolu əvəzsizdir. Ona görə də müxtəlif illərdə «Geriyə baxma, qoca», «Valehlə Sarıköynəyin nağılı», «Üçatılan» kimi romanlar da yazmışam. Əlbəttə, maddi cəhətcə təmin olunsaydım, daha çox roman yaradardım...»

* * *

Gördüyümüz kimi, İ. Əfəndiyevin daxilən ülfət bağladığı, tarixi əsərdə də, müasir mövzuda da sadiq qaldığı «öz mövzusu», «öz qəhrəmanları» var. Ədibimizin əbədi gəncliyinin sirri və sehri də bəlkə elə budur – gənclik mövzusuna, müasirimizin düşüncə və ehtiraslarına əbədi marağıdır?!

İlyas Əfəndiyev sevgi süjetini və lirik etiraf üslubunu sevir. Onun bir neçə romanı və çoxlu hekayəsi birinci şəxsin – gənc və sevən bir aşiqin dilindən yazılmışdır. İlyas Əfəndiyevin öz yaradıcılığı da bütünlükdə belədir: eyni bir aşiqin dilindən söylənilən eyni məhəbbətin etirafıdır. Bu aşiq sevən və sevilən ədibin özü, bu məhəbbət isə oxucuya, xalqa etiraf olunan yazıçı və vətəndaş məhəbbətidir...

Yaşar Qarayev.

HEKAYƏLƏR

GÖZLƏNİLMƏYƏN SEVGİ

Darülfünunda dərslərin başlandığının dördüncü günü idi. Foyedə gənc bir oğlanla yaşlı bir qadın dayanmışdı. Hamı maraqla onlara baxırdı. Uca boyu, enli kürəyi olan bu qadın qara yun parçadan uzun tuman, ətəkli arxalıq geymişdi. Qara, sürməli gözləri sükutla baxır, günəşdən yanmış üzü soyuq bir qayğı ifadə edirdi. O, kimsəyə baxmadan nə haqqında isə düşünür və çubuq çəkirdi. Yanındakı ucaboylu oğlan olduqca şux geyinmişdi, lakin son dərəcə çirkin idi. Üzü çopur, burnunun ortası yəhər kimi yastı idi. Dodaqları qaba surətdə irəliyə doğru uzanmışdı. Cod və bozumtul kimi görünən saçları alnında bir bucaq təşkil edir və az qala burnuna qədər uzanırdı.

Xidmətçilərin biri onlara yaxınlaşaraq:

– Direktor gəldi, – dedi.

* * *

– İmtahanlar qurtarıb, yerimiz dolub, xala, – deyə direktor qadına baxdı.

– Birtəhər elə, ağrın alım... rayonumuz çox uzaqdır. Ona görə gecikmişik, – deyə qadın quru, bir az da amiranə səslə cavab verdi.

Qadının üzü tutuldu. Uzun, enli qara qaşları çatıldı. Çubuğunu dərindən sümürərək fikrə getdi. Pəncərənin qabağında dayanmış oğlan soyuq baxışlarla çölə baxırdı.

O, hamıda təəccüb oyadan bir məharətlə imtahan verib riyaziyyat fakültəsinə daxil oldu. Özünü olduqca sakit və ciddi aparmasına baxmayaraq, az zaman içərisində fövqəladə istedadı ilə hamımızı heyran etdi. Ən güclü riyaziyyatçı, ən yaxşı radist idi. Qırx nəfər yaxşı şahmatçı ilə eyni zamanda oynayar və həmişə də qalib gələrdi. Bütün müəllimlərimiz ondakı səlis, axıcı natiqlik məharətinə qibtə edərdilər. Onun məharəti bunlarla bitmirdi. O, ən gözəl snayperlərdən hesab oluna bilərdi. Həmişə birinci mükafatı o qazanardı. O, az zaman içərisində bizim aramızda təsəvvürə gəlməz bir hörmət qazandı. O, hamıdan gözəl geyinir, başını dik və məğrur tutaraq gəzir, həmişə teatrlarda birinci sırada otururdu. Pul xərcləməyə onda düşkünlük hesab olunacaq dərəcədə şiddətli bir arzu vardı. Onunla aşxanaya, teatra və qeyri yerlərə gedən adam əlini cibinə salıb pul xərcləmək istədikdə, o, dilxor olar və «mənim hesabımadır!» sözlərini o qədər şən və həvəslə söyləyərdi ki, adam onun diləyini pozmaq istəməzdi. İnsan ən sıxıntılı vaxtında belə, onun yanında özünü sərbəst və şən hiss edirdi. Ondakı bu tükənməz fərəh bir çoxlarını təəccübləndirirdi. Sanki öz taleyinin hökmünə tabe olaraq, o, güzgüyə baxıb heç bir zaman gülməməli imiş...

* * *

Darülfünunda yuxarı sinif tələbələrindən tutmuş professorlara, hərbi müəllimlərə qədər hamı ona etimad bəsləyir və hörmət edirdi. Lakin ona yalnız bir adamın münasibəti qəribə idi. Bu, bizim sinifdə oxuyan Gülara adlı bir qız idi. Həsən nə qədər çirkin idisə, Gülara o qədər gözəl idi. İri, qara gözləri tükənməz bir cəsarətlə yanırdı, qəşəng cizgili nazik dodaqları vardı. Üzündən gülüş əskik olmazdı. Özünü şax tutaraq, kimsəyə məhəl qoymadan getdiyi zaman bütün tələbələr arxasınca baxardılar. Hər işdə birinci olmaq üçün bu qızda qarşısıalınmaz bir həvəs var idi. Bilmədiyi bir şeyi başqası izah etdikdə və ya verilmiş bir məsələni sinifdə hamıdan qabaq Həsən həll edib verdikdə, qız utanar, qızarar, bəzən də özünü saxlaya bilməyərək, uşaq kimi ağlamaq dərəcəsinə gələrdi. O, heç bir vəchlə Həsənin itifikirli və qabaqcıl olmasına dözə bilmirdi. Etiraf edim ki, bizim içərimizdə bu qızla rəqabət edə biləcək yalnız Həsən idi. Gülaranın böyük bir həvəslə birincilik qazanmaq istədiyi bir işi Həsən heç bir güc sərf etmədən asanlıqla həll edir və hamını ötüb keçirdi.

Xatirimdədir: bir dəfə yaz imtahanlarından birində Gülaranın yarım saat əlləşərək həll edə bilmədiyi bir məsələni Həsən beş dəqiqənin içində həll etdi. Bu zaman qız, Həsənə kin və qəzəb dolu amansız bir nəzər salaraq, tabaşiri əzib yerə tökdü. Çox vaxt Gülara haradansa elə çətin məsələlər tapırdı ki, bizim başımız taqqıldayırdı. Lakin Həsən soyuqqanlılıqla məsələnin cavabını çıxardıqda, qız dərindən köksünü ötürər, alt dodağını dişləyərək heç kəsin üzünə baxmadan çıxıb gedərdi.

Mühazirədə oturduğumuz zaman mən hiss edirdim ki, onun xəyalı müdərrisdən çox Həsənin ətrafında dolaşır. Əlini çənəsinə söykəyərək, oğrun baxışlarla onun hər bir hərəkətini, geyimini, qalstukunu, saçlarının vuruluşunu nəzərdən keçirirdi. Lakin mən bir dəfə də olsun, Həsənin Gülaranın üzünə dik baxdığını görməmişdim. Şən və zarafatçı olmasına baxmayaraq, o, heç bir zaman bu qız haqqında danışmaz, onun tikanlı zarafatlarına heç bir cavab verməzdi. Bəzən bu qızın gözəlliyi haqqında söhbət düşdükdə, onun üzü birdən-birə tutular, qəti bir hərəkətlə dərhal söhbəti dəyişdirərdi. Bir dəfə hərbi təlim zamanı Gülara əlli mümkün xaldan qırx dördünü toplayaraq, birinci yerə namizəd oldu. Onun bu müvəffəqiyyəti cavan oğlanları heyrətləndirdi. Bu vaxt haradansa Həsən gəlib çıxdı. Bayaqkı küt susqunluq gurultulu bir canlanmaya çevrildi.

– Bircə Həsən qalıb... görək də... Həsən tüfəngi al! – deyə tələbələr oradan-buradan səsləndilər.

Uşaqlar Gülaraya işarə ilə bir-birlərinə göz vururdular. Gülara qızğın bir təbəssümlə Həsənə baxırdı. Həsən tüfəngi götürüb hər

dəfə nişan alarkən, Gülaranın dolaqları xəfifcə tərpənir, ürəyinin döyündüyü nazik paltarla örtülmüş döşünün tez-tez qalxıb-enməsindən bilinirdi. Həsən dördüncü güllədə otuz beş xal yığdı. Araya dərin bir sükut çökdü. Tələbələrdən bəziləri yavaşca sivişdilər. Ehtimal ki, onun qırx dörd xalı keçəcəyinə ümid etmədilər. Gülaranın üzü bir az açıldı, gözləri şən bir həyəcanla parladı. O, bir yerdə dayana bilmir, gah o yana, gah bu yana keçirdi. Doğrusu, burada mən də Həsənə ürək verdim. Bu, deyəsən, ona bir az toxundu. Mülayim bir nəzərlə mənə baxdı. Ani bir nişanla gülləni atdı.

– Ura!!! – deyə hamı birdən qışqırdı.

Güllə tam «10» rəqəminin üstündən dəymişdi. Qəribə burasıdır ki, Həsənin Gülara üzərindəki qələbəsi sanki hamının ürəyindən imiş. Şadlıq hamını bürüdü. Gülara bu istehzalı gurultunu hiss etməyirmiş kimi qəribə bir təbəssümlə Həsənə baxırdı. Heç bir zaman xatırımdan çıxmayacaq bu baxış o qədər dərin mənalar, şəfqətli, incə duyğular söyləyirdi ki, onları sözlə anlatmaq deyil, hiss etmək lazımdı. Mən gözəl qızın bu həzin və incə təbəssümündə, yaşla dolmuş gözlərində birinci dəfə olaraq, qüruru qırılmış, bakirə bir qız könlünün pərişan, əzgin həyəcanını duydum. Qürurlu bir gəncin məğlubiyyətinin nə demək olduğunu hiss etdim... Hamı gənc qıza, onun məğlubiyyətindən mülayimləşmiş zərif təbəssümünə kin və istehza ilə baxırdı. Sanki «hə, indi necəsən?» demək istəyirdilər. Guya ki, Həsənin çirkinliyində bu yazıq günahkar imiş. Mən gözəl qızın o unudulmaz baxışında, birinci dəfə olaraq, çirkin dostuma qarşı mərhəmətmi, yanıqlıqmı, sevgimi, bilmirəm... incə, xoş bir şeyin titrədiyini və bunun xəfif bir ahla qurtardığını sezdim... Bu duyğu mənə həm xoş gəldi, həm də nə üçünsə izzəti-nəfsimə toxundu. «O, bəlkə də bu qəhrəman, lakin çirkin oğlanın yerində gözəl bir gənc görmək istəyirdi. Yoxsa bunun belə olmadığına təəssüf edirdi... Kim bilir, bəlkə də, onun məğlub könlündə cilvələnən aydın, şirin duyğular üzərinə çirkinliyin qara buludu çökürdü... Bəlkə də, gənc qız bu soyuq, eybəcər buludu könlündən qovmaq əzabı çəkir» deyə düşünürdüm.

Həsən ona yaxınlaşaraq, üzünə baxmadan:

– Pərt olmayın, Gülara, – dedi, – bu tamamilə təsadüfi bir işdir.

Gülara boynunu azca sola əyərək, şəfqət qarışıq, bir növ, istehzalı təbəssümlə «doğrudanmı?» deyə kəlməni xüsusi bir əda ilə uzatdı. Həsən heç bir cavab vermədən sakitcə uzaqlaşdı.

* * *

Bu hadisə biz üçüncü kursda oxuduğumuz ilin baharında oldu.

Bundan sonra Həsənin hərəkətlərində kəskin bir dəyişiklik əmələ gəldi. O, birdən-birə soyuq, sakit və fikirli oldu. Hiss edilmədən gəlib yerində əyləşir, dərs qurtaran kimi də hara isə gedirdi. Demək olar ki, kimsə ilə danışmırdı.

Gülara da son zamanlarda büsbütün dəyişmişdi. Gözlərində kədər qarışıq mülayim bir ifadə yaranmışdı. Fikri dağınıqdı, artıq birincilik üçün atılıb-düşməyən sakit bir qız olmuşdu.

Mən hiss edirdim ki, Həsənin həmişə ondan qaçmasına baxmayaraq, Gülara hər bir fürsətdən istifadə edib, onunla danışmaq istəyir, bəzən çox ehtimal ki, özünün də həll edə biləcəyi bir məsələni «çətindir» deyə Həsənə həll etdirir, məzəli sözlərlə onu güldürməyə çalışırdı...

Bütün bunlar bizə qəribə gəlirdi. Təəccüblə bir-birimizdən «bu nə işdir» deyə soruşurduq. Bəzən hamımızın aciz qaldığı bir sualı Həsən öz sakit, şirin sözləri ilə aydın bir şəkildə izah etdikdə, Gülaranın iri gözləri parlayır, müəllimin razılığı onun dodaqlarında isti bir təbəssümə səbəb olurdu... Əvvəllərdə yaraşıqlı gənclərə qarşı o qədər də laqeyd olmayan Gülara, indi demək olar ki, kimsə ilə yaxınlıq etmirdi.

Bir dəfə idman təlimi zamanı beş kilometri hamıdan tez qaçıb, birinci dəfə lenti qıran Həsənə baxan Gülara öz-özü ilə danışırmış kimi «bax, əsl kişi buna deyərlər» deyə pıçıldadı. Eyni zamanda, Həsənin qızarıb tərləmiş üzünə, qabarmış saçlarına baxaraq, təntimiş bir hərəkətlə üzünü çevirdi. Əlində tutduğu çiçəyi dırnaqları ilə didib yerə tökdü. Mənə elə gəldi ki, o, indicə hönkürtü ilə ağlayacaq...

Mən, «çirkinlik buludu» deyə düşündüm.

* * *

Bir gün bərbərxanadan çıxdığımız zaman Həsən güzgüyə ötəri bir nəzər salaraq:

– Ay Bahadır! – dedi. – Görəsən, niyə mən bu qədər çirkin olmuşam?

Onun səsi boğazında titrədi.

Mən, birinci dəfə olaraq, onun varlığında müdhiş bir əzab duydum: çirkinlik əzabı! Nər ürəyinə malik olan bu cavanın belə bir duyğunun məngənəsində inləməsi ürəyimi dağladı. Uzun zaman heç nə söyləyə bilmədim. Nəhayət:

– Nə boş şeylər haqqında düşünürsən, Həsən! – dedim.

O gülümsədi... Ah, bu təbəssümdəki dərin, ümidsiz kədəri duysaydınız...

– Nə etməli, ay Bahadır... Mən də insanam... Məndə də könül var, – dedi.

Mən bu sözlərdən tüklərimin biz-biz durduğunu hiss etdim.

– Gedək bizə, – dedi. – Ürəyim qısılır, bir az oturaq.

Getdik. Açıq pəncərədən yaşıl bağlar, bürkü içində mürgüləyən təpələr görünürdü. Söyüd və qovaq ağaclarının açıq yaşıl, yüngül yarpaqları aramsızlıqla titrəşir, ləkəsiz göy qübbəsi qüruba yaxınlaşmış günəşin zəif şüalarını udur, havada xoş bir sərinlik duyulurdu.

Həsən yanağını şüşəyə söykəyərək çölə baxırdı. Üzünün çirkin cizgiləri solğun, həlim bir məyusluq ifadə edirdi. Bu hal yarpaqların sərin kölgələri ilə birləşir, əbədi və təbii görünürdü. Adama elə gəlirdi ki, onun könlündə dibsiz bir kədər dənizi var...

– Niyə son zamanlarda belə olmusan, Həsən? – dedim.

Üzü qüssə saçdı. Nəzərləri uzaqlara getdi.

– Səncə, bəs nə cür olmalıyam? – dedi.

– Əvvəlki kimi, şən... – dedim.

O, təəccüblə mənə baxdı. Gözləri kinlə parladı.

– Doğrudanmı, belə düşünürsən? – dedi, – indiyə qədər haqqım olmadığı halda şənlik etdiyim bəs deyilmi? Arsızlıq nəyə lazımdır?

– Nə danışırsan, Həsən, – dedim. – Sən lap xarab olmusan. Bu sözlər heç sənə yaraşarmı?

– Çox təəssüf ki, belədir. Bu bədbinlik deyil dostum, həqiqətdir!

O, əli ilə çölləri göstərərək:

– Baxırsanmı? – dedi. – Bu dünyada hər şey öz gözəlliyindən bəhs edir. Hər bir canlı öz zahiri gözəlliyini nümayiş etdirir. Qəribədir... budağa qonmuş o quşa bir bax! Gör bir döşünü necə qabartmışdır. Sanki: «Bir baxın... görün mənim necə əlvan döşüm var...» demək istəyir.

– Nə olsun ki? – dedim.

O, dərin bir nəfəs alaraq güzgüyə baxdı. Dodaqlarını nifrətlə əydi:

– Onu demək istəyirəm ki, bu çirkinliklə mən dünyada kimə lazımam?

– Necə, sən həyatı, məgər gözəl simalardamı görürsən?

– Yo-o-ox... – deyə uzadaraq fikrə getdi.

Axşamın sərin yeli üzümüzü oxşayır, uzaqdan bizə doğru ağ bir bulud parçası üzür, yaşıl budaqlar yavaş-yavaş yırğalanır, insan könlündə xoş bir rahatlıq hiss edirdi.

– Səadətin yalnız üz gözəlliklərində olmadığını bilirəm, –deyə o, arxayın bir ifadə ilə davam etdi. – Ancaq nə edəsən ki, insan insandır. Bu canlı vücud da sevib-sevilmək istəyir. İradən dağ kimi də olsa, yenə görürsən bu tələblər səni sarsıdır. Çünki bu tələblərin tə-

mini həyatın mənası, gələcəyin yoludur. Ancaq onda yazıq olursan ki, bu yola addım basmaq üçün sən özünü haqlı bilmirsən... O zaman sən özünü həyatın bir küncünə qısılmış, mənasız surətdə o yan-bu yana əl-qol atan kimi görürsən... Dostum, sən, bəlkə də, burada məni tənqid edəcəksən... İctimai səadətdən danışacaqsan. Bu, əlbəttə, doğrudur. Lakin bir düşün, könlün təbii ehtiraslarını kim inkar edə bilər? Əgər bunu inkar etmək mümkün olsaydı... Bu qədər çirkin bir sima ilə hasarlanmış könül heç nə ilə hesablaşmaq istəmir... Mən ona qandıra bilmirəm ki, bir düşün, əzizim, bir təsəvvür et ki, xarici görünüşün Viktor Hüqonun Kvazimodasından da eybəcərdir. Sakit ol! Lakin kimə deyirsən... Hiss edirsən ki, sənin yazıq könlün də sevgiyə susayır. O da coşub-daşmaq istəyir... Sən isə öz murdar simana baxıb, qəlbin bu gülünc tələbindən utanırsan.

O, müdhiş bir təbəssümlə gülümsədi. Nəzərləri yarpaqlarda dolaşdı. Günəş sönürdü. Bağlar tünd işıqlı bir görünüş alır, səmadakı bulud parçası getdikcə qaralırdı. Mən dedim...

– Bilmirəm bunlar haradan başına doldu? Sən əvvəllərdə o qədər şən idin ki...

– Çünki məni təhqir etdilər. İzzəti-nəfsimi yaraladılar. Könlümü boş ümidlərlə tələtümə gətirdilər.

Bu sözlərdən sonra o, mənim qarşıma kiçik bir zərf atdı.

– Mənə vicdanla söz ver ki, bu barədə kimsəyə bir söz söyləməyəcəksən, – deyə əsəbi surətdə gözlərimin içinə baxdı.

– Arxayın ola bilərsən, – dedim.

Zərfi açdım, incə bir xətlə belə yazılmışdı: «Həsən! Bu məktubu öz-özümlə uzun mübarizədən sonra yazıram. Sizin geniş, nəcib qəlbiniz qarşısında tab gətirə bilmədim, heç olmazsa, məni qınamayacağınızla təsəlli tapa bilərəm. Əgər, azca da olsa, iradəm çatsaydı, bəlkə də, yazmazdım. Birinci dəfə könlümdə duyduğum narahatlıq əvvəllərdə məni qorxutdu... Bunun nə demək olduğunu uzun zaman anlaya bilmədim... Bunun sevgiyə bənzər şey olduğunu öz-özümə belə təkrar etməyə xeyli zaman cəsarət etmədim. Geniş qəlbiniz şirin bir yuxu kimi məni cəzb etdiyi zamanlar dırnaqlarımla sinəmi didərək, hönkür-hönkür ağladım. Zənn edirəm ki, məni sizə bağlayan hisslər haqqında çox da düşünməyəcəksiniz... Ürəyinizə başqa heç nə gəlməyəcəyinə əminəm. Sizdəki yüksək qəlb mənim üçün dünyada hər şeydən qiymətlidir. Onu məndən əsirgəməyin!»

Məktubun axırında əsəbilikdə yazılmış «Gülara» imzasını gördükdə, mən gözlərimə inana bilmədim. Öz heyrətimi gizləməyə çalışaraq:

– Yaxşı da... daha burada nə təhqir var ki? – dedim.

Üzümə acı təbəssümlə bir nəzər saldı:

– Sanki anlamırsan? – dedi.

– Nə olsun ki, mən də qız olsaydım, sənin kimi qəhrəman bir gəncdən keçməzdim, – dedim.

– Paho... qəhrəmanlıq! Bəs, bu sir-sifəti hara qoyaq... yox! Mən bunun necə sevgi olduğunu anlayıram. O, öz hədəfində yanılmadı. Ən yaralı yerimdən vurdu! Görürsənmi «məni sizə bağlayan hisslər haqqında çox da düşünməyəcəksiniz» deyir... Bunun nəyə işarə olduğunu anlamırsanmı? Yox! O, öz gözəlliyinin qalibiyyət təntənəsini görmək istəyir. O, mənim qırx altı xalıma qarşı əlli xal vurmaq istəyir... Sən necə düşünürsən? O, məni necə sevə bilər? İnsafla danış, hansı bir qız iyrənmədən mənə baxa bilər. Ah, insanın təbiəti... sən nə qədər qəribəsən... onsuz da şikəst olan bir oğlana belə istehza etmək, ürəyindən yaralamaq onun nəyinə lazımmış?

Onun səsi həyəcanlı akkordlardan sonra birdən-birə titrəyib incələn musiqi kimi ötüb susdu. Mənə elə gəldi ki, Həsən öz şübhələrində bir az haqlıdır. Doğrudan da, Gülara kimi bir qızın Həsənə vurulması bir qədər təəccüblü görünə bilərdi. Gülaranın əvvəlki məğrurluğunu da nəzərə aldıqda, bu şübhə daha da qüvvətlənirdi.

Lakin qadın könlünün sirlərini kim olduğu kimi anlaya bilərdi?

– Əziz dostum! – deyə əlavə etdi. – Sən məni bədbinlikdə təqsirləndirmə. Lap uşaqlıqdan hər cürə ah-zara nifrət edirəm. Beş yaşında ikən gözümün qabağında altı qardaşımı, bir atamı xəngəl kimi doğradılar. İllər boyu bir tikə çörək üçün anamın onun-bunun qapısında paltar yuduğunu gördüm. Səkkiz yaşında bir uşaq ikən ayaqyalın, soyuqda, boranda başqalarına quzu otardım. Aclığın nə olduğunu gördüm. Lakin ürəyimə ələm girmədi, dərd çəkmədim... İndi isə... İndi isə ürəyimdə qaynayan kədərin qarşısında durmağa iradəm çatmır... Eh...

O, başını bulayaraq, söyüd ağacının yırğalanan budağına baxdı.

– İstəsəydin, Həsən, – dedim, – mən bu barədə o qızla bir danışardım.

O, fikrə dalaraq, heç bir cavab vermədi.

* * *

Foyedə Gülaraya rast gəldim, salamlaşdıq. Söhbəti hərləyərək, Həsənin məsələsi üzərində dayandım. O, maraqla:

– Nə demək istəyirsiniz? – dedi.

– Bilmək istəyirəm, siz, doğrudanmı, onu sevirsiniz?

Onun üzü ciddi bir hal aldı:

– Özünə söyləmişəm, siz də bilmək istəyirsinizsə, bəli, sevirəm, – dedi.

– Demək, bu, ürəkdəndir?

– Qəribə sualdır? Yəni ürəkdən olmayan sevgi də var?

– Bəlkə burada... Nə bilim... Siz... bir növ.

O, səbirsiz bir hərəkətlə mənim sözümü kəsdi:

– Rica edirəm, heç nə düşünməyin. Şübhələrinizin haranı döydüyünü bilirəm. Guya ki, məhəbbət üçün ancaq qara gözlər lazım imiş...

Onun dodaqları istehza ilə büzüldü.

– Mənə elə gəlir ki, – dedim, – bunu bir fədakarlıq kimi də düşünmək olar...

O, təntimiş, ağlar bir halda:

– Axı, niyə belə düşünürsünüz? – dedi. – Fədakarlıq hər nə qədər nəcib bir duyğu olmuş olsa da, unutmayın ki, könül xudpəsəndliyini də inkar etmək olmaz. Lazımsız bir fədakarlığı onun şəninə necə yaraşdırmaq olar. Yox, belə bir romantika nə ona, nə də mənə lazım olardı...

Sözlərinin axırını öz-özü ilə danışırmış kimi, fikri dağınıq bir halda qurtardı. Bu vaxt gözəl bir gənclə Həsən qapıda göründü. Qızın baxışları soyuqluq və laqeydliklə gözəl gəncdən çevrilərək uzun zaman Həsənə zilləndi. Bu baxışda nəvaziş və məhəbbətlə qarışıq, nə isə, üçüncü bir duyğu da sezilirdi. Bunun nədən ibarət olduğunu təyin etmək çətindir. Lakin bəzən acımaq və təəssüf duyğuları ilə taqətdən düşmüş sevgi belə bir baxışla şəfəqlənir. Onun üzü qürub edən günəş kimi solğun və həlim görünür. Bəzən şikəst oğluna baxan ananın da gözləri, dodaqları beləcə bir ifadə ərz edir, könlünün dərinliklərində ahəstə-ahəstə yanıb tüstülənən bu duyğunu, bəlkə də, o gənc qız öz dili ilə söyləməyə cəsarət etməzdi...

* * *

Həsən yenə də ona inanmadı. Özünə inanmamazlıq duyğusunun bu qədər hökmə malik olduğunu heç təsəvvür etməzdim... O, əsəbi hərəkətlərlə otaqda o yan-bu yana gəzinir, tez-tez saçlarını ovuşduraraq:

– Yalan deyir... yalan... axı, o gözəl qız nə üçün belə bir dramla əylənir... Nə üçün?

* * *

Bir neçə gündən sonra yay tətilinə buraxıldıq. Ayrıldığımız zaman onun gözləri yaşardı:

– Məni unutma, – dedi.

* * *

Üzümüzə gələn il Həsən gəlmədi... Sonralar onun Moskva darülfünununa dəyişilmiş olduğunu öyrəndik. Gülara hiss ediləcək

dərəcə arıqlamış, sakit, eyni zamanda, əsəbi olmuşdu. Biz, demək olar ki, heç danışmırdıq. Nədənsə, bir-birimizdən çəkinirdik. Mən buraxılış imtahanından sonra onu bir daha görmədim.

* * *

Darülfünunu bitirəndən təxminən 4 il sonra bir gün Bakıda küçə ilə getdiyim zaman birisi qolumdan yapışdı. Donub qaldım.

– Həsən! – deyə qışqırdım.

Qucaqlaşdıq. O, daha da böyümüş, kökəlmiş, pəhləvan kimi bir oğlan olmuşdu. Siması indi əvvəlki qədər də çirkin görünmürdü. Adəti üzrə, yenə də çox şıq geyinmişdi.

– Gedək bizə, – dedi.

Yol uzunu onun indi darülfünunda riyaziyyat dosenti olduğunu öyrəndim. Qapını açan yaxşı geyinmiş bir az yaşlı rus qadını oldu. Təxminən üç-dörd yaşında gözəl qaragöz bir oğlan uşağı sürətlə yüyürərək «ata» deyə Həsənin dizlərini qucaqladı. Mən uşağı görərək:

– Demək, sənin belə bir igidin də varmış, – dedim.

O biri otaqdan Həsənin anası gəldi. «Xoşgəldin» etdi. Bütün bu illərdə onun əzəmətli siması, demək olar ki, heç dəyişməmişdi. Yalnız geyimində bir az dəyişiklik vardı. İndi əvvəlki kimi döşlüyü yox idi. Çubuq əvəzində əlində uzun papiros vardı.

– Buradamı olursan, xala? – dedim.

– Yox, – dedi. – Uşaqları görməyə gəlmişəm.

Nəvəsini yanına çağıraraq, günəşdən yanmış iri sümüklü əli ilə saçlarını oxşadı. Üzündə mehriban bir təbəssüm vardı.

Maraq və intizar qarışıq bir həyəcan bütün duyğularımı bürüdü. Həsənin həyat yoldaşını görəcəyim fikri, bilmirəm nə üçünsə, mənə, bir növ, ürkək, utancaq bir hiss təlqin edirdi... Qəribədir... Mənə elə gəlirdi ki, onun həyat yoldaşını görəcəyimdən Həsən utanacaqdı. Bir an tez çıxıb getmək istədim... Lakin bu dəqiqədə zəng vuruldu. Uşaq, «anam gəldi» deyə sürətlə qapıya yüyürdü. Ucaboylu, dolğun gərdənli, ağbəniz, gözəl gənc bir qadın gülümsəyərək mənə yaxınlaşdı.

Bu gənc qadın Gülara idi.

1939.

APARDI SELLƏR SARANI

Ölüm qanadlarını Gülnarın üzərinə gərdiyi zaman o, Soltanını yanına çağırıb, gözlərindən öpdü...

– Mən gedirəm, əzizim, – dedi, – günlərinə qəm qatma. Bu qoca dünya əzəldən belədir. Bilirəm, evlənəcəksən, cavansan. Amma Saramdan muğayat ol. Qoyma ögey ana sitəmi çəksin. Əgər xoşbəxt olsa, qəbrimin üstünə gəl... mənə de.

... Soltanın dərdi böyük oldu. Saçlarına dən düşdü. Lakin o evlənmədi. Könlünü əziz Gülnarının tək yadigarına bağladı.

Saranın süd anası bir qaşqa ceyran oldu. Ata qızını kimsəyə tapşırmadı. Arxasına şəlləyib qoyun otardı, dağ güllərinin arasında yatırtdı.

Sara ceyran südü əmə-əmə, qayalar arasında qaynayan durna gözlü bulaqlardan su içə-içə böyüdü, nazlı bir sona oldu.

Dağlar onun gözəlliyinə heyran qaldı. Çiçəklər ona qibtə etdi. Aşıqlar hüsnünə dastan dedilər. Sorağı ellərə yayıldı. İgidlər dərdə düşdü. Ay dağlar arxasından boylanaraq ona baxdı, məftun oldu... Günəş onu görməyə tələsdi, lakin rəngi saraldı, getdi.

Soltanın dərdi qaçdı. Könlü güldü.

Sara igidlərə yoldaş, quşlara sirdaş oldu, cıdırlarda at çapdı, ox atmaqda taysız oldu.

Güneylərdə oturaq oba qocaları ona baxaraq:

– Qənirsiz gözəldir, – dedilər...

İgidlər vurğunu idilər. Qız onlardan birini seçdi: Xançobana könül verdi.

İgidlər alaçıq tikdilər. İçini pələng dəriləri ilə döşədilər. Aşıq çağırdılar. Məclis qurdular.

Xançobana toy etdilər.

Günəşdən eşq əmən xoş günlər başladı...

* * *

Ay doğdu. El yaylağa köçdü.

Xançoban sıldırım bir qaya başında oturub tütək çalırdı. Yamaca yayılmış qoyunlar başlarını sallayıb, onu dinləyirdilər.

Muğan gözəli dağa çıxıb, Xançobana yanaşdı. Boynunu büküb igidinə baxdı. Baxışları həsrətliydi. Ay onun kədərli üzünə solğun bir nur çiləyirdi.

Çoban çalırdı...

Qızın yanağından mirvari dənələr yuvarlanırdı.

Çoban çalırdı...

Qız qolunu Xançobanın boynuna doladı, başını sinəsinə qoydu.

Çoban soruşdu:

– Sənə nə olub, gülüm?

Qız başını qaldırıb, yana-yana sevgilisinə baxdı:

– Sən yaylağa gedirsən, əzizim, – dedi, – bu ayrılıq mənə ağır gəlir. Elə bil ki, biz bir də görüşməyəcəyik...

Çoban güldü:

– Dərd çəkmə, gülüm, – dedi, – sənə dağ gülləri ilə bəslənmiş gözəl əmliklər gətirəcəyəm.

... Xançoban qoyunlarını dəstələyib yola düşdü.

Qız atası ilə Muğanda qaldı. Yay işləri görəcəkdilər. Qızıl sünbüllər biçəcəkdilər. Lakin bir gün hava tutuldu. Günəş buludlar arasında gizləndi. Araz «qan-qan» dedi.

Yadelli bir şah doğma yurda basqın etdi. Yolu Muğandan düşdü. Sular kənarında bir pəri gördü, atının başını çəkərək:

– Ey gözəl, – dedi, – kimin qızısan?

Sara qara gözlərini şaha zilladi. Qürurla:

– Atama Soltan deyərlər! – dedi.

Şah əmr etdi. Soltan gəldi. Şah ona müraciətlə:

– Mən sənin qızını özümə arvad eləmək istəyirəm,– dedi.

Soltan ürəyindən vuruldu:

– Ey şah! – dedi, – onun yarı var!..

Şah «mərhəmət» göstərdi:

– Mən səni dünya malından qane edərəm, kişi.

Soltan acı-acı güldü:

– Ey şah! – dedi, – dünya malı şahlara lazımdır, bizə bu azad çöllər də bəsdir.

Şah qəzəbindən titrədi. Qızı göstərib:

– Götürün! – dedi.

Yad əllər Muğan gözəlinin gərdəninə dolandı. Qızın dodaqlarından nagahani bir səda qopdu:

– Ata!..

Ata, balası vurulmuş pələng kimi qıvrıldı. Ciyərlərində odlu gürzələr süründü.

İmdad istəyən bir cüt qara göz ataya zillənmişdi. Qız yadlar əlində çırpınırdı. Ata yanırdı.

Ürəklərə od salan o yaralı səs bir də eşidildi:

– Ata!..

Bu zaman göylər qeyzlə guruldadı. İldırım çaxıb, qoca dağın şiş təpəsini parçaladı. Sular qayalara çarparaq hiddətlə səsləndi. Dərələr uğuldadı. Muğan titrədi. Onun gözəli gedirdi...

Təbiətin qüdrətli səsi ataya qalibiyyət yolunu göstərdi. O, əlini qaldıraraq:

– Dayanın, – dedi, – şaha bir sözüm var.

Hamı bir an dayandı.

O zaman ata balasını iki qolları arasına alıb, çaya tulladı. Sular öz həmdəmini bağrına basıb, sürətlə axdı.

Ata şaha baxaraq, müdhiş bir təbəssümlə:

– Sözüm bu idi, ey şah! – dedi.

Günlər keçdi.

Oba qızları dağlara tərəf uçan quşlara baxıb oxudular:

Gedin deyin Xançobana,
Gəlməsin bu il Muğana,
Muğan batıbdır al qana,
Apardı sellər Saranı,
Bir ucaboylu balanı...

1940.

SU DƏYİRMANI

O gecə mən birinci dəfə idi ki, kəndimizin üst tərəfindən keçən dəyirman arxının yanında dayanıb onu gözləyirdim. Göy qübbəsini bəzəyən saysız-hesabsız ulduzlar və onların arasındakı üçgünlük Ay arx boyu düzülmüş söyüdlərin təzə açılan yarpaqlarını zəif-zəif işıqlandırırdı. Aşağı dərənin qaranlığında yalnız taxtapuşu seçilən dəyirmandan işıq gəlirdi. Mənim gözlədiyim qız atasına – dəyirmançı Musa dayıya axşam yeməyi aparmışdı. Mən bunu gündüz özündən öyrənmişdim. Ona görə də, indi burada dayanıb, gözümü dəyirmandan gələn cığıra zilləmişdim. Yarım saatdan bəri idi ki, həyəcan və intizar içindəydim. Əslinə baxsan, yarım saat deyil, düz yarım il idi. Yarım il idi ki, hər gecə mən bu cür həyəcan və intizar içində səhərin açılmasını gözləyirdim. İndi isə burada, ulduzların altında səhəri deyil, onun özünü gözləyirdim. Təzə açılmış söyüd yarpaqlarının xışıltısını, dəyirman çarxının üzərinə tökülən bahar suyunun coşğun şırıltısını dinləyərək onu gözləyirdim.

Mən də, bu gözəl yaz gecəsi də həyəcan və səadət içindəydik. Biz ikimiz də, mən də, bahar da, mənim arzularım da, baharın açdığı bu söyüd yarpaqları da gənc idik. Bizim üzərimizdən fırtına keçməmişdi. Biz həyəcan və coşğunluq içində irəliyə can atırdıq. Biz arzu və ehtiraslar selinə düşmüşdük! Biz təzə gəldiyimiz bu dünyaya nə isə yeni bir şey, yeni bir gözəllik bəxş etmək həvəsi ilə çırpınırdıq. Biz bu barədə düşünmürdük, lakin bu, belə idi. Bizim fərəhimizdəki sirr bundan ibarət idi. Bu, böyük və əzəmətli həyatın əbədi qanunlarından biri idi!..

Deyəsən, o gəlir... bu ahəstə ayaq səsləri onunkudur.

Mən bahar otlarının onun ayaqları altında necə xışıldadığını eşidirəm. Başqa vaxt karsala qulağım indi gör necə həssas olmuşdur. Qaraya çalan böyürtkən kolları arasından onun qara kəlağayılı başı görünür. Mən ona tərəf getmək istəyirəm, lakin yerimdən tərpənmirəm...

Nəhayət, o, yoxuşu qalxıb, mənim dörd-beş addımlığımdakı söyüd ağacına çatараq, əlini qaldırıb, onun bir budağından tutdu və nəfəsini dərə-dərə mənə baxıb gülümsədi. Gözləri eynilə bir cüt qaragilə kimi qaranlıqda parıldayırdı.

– Axşamın xeyir, Eyvaz, sən, doğrudan da, buradaymışsan...

– Necə yəni doğrudan da?

– Gündüz deyəndə, elə bildim zarafat edirsən...

– Eh, Bəyim... Sən hər şeyi zarafat hesab edirsən. Gəl, bir az burada oturaq.

– Yox, gedək, Eyvaz, gecdir... – deyə o, ürkmüş halda ətrafa baxındı.

Mən saatımı işığa tutaraq:

– Gec haradan oldu? Hələ doqquz tamam deyil, – dedim.

– Yaxşı, bir az oturaq...

Biz arxın kənarındakı cavan söyüd ağacının altında, çayırla örtülmüş dikdirdə əyləşdik.

– Bu gün yuxarı tərəfin alağını eləyib qurtardıq. Sabah da dəyirmanın yanındakı bağı eləyəcəyik, – deyə o, həvəslə danışırdı.

Mən bağ aqronomuyam, kənd təsərrüfatı texnikumunu bitirmişəm. O isə bağ briqadiridir. Demək istəyirəm ki, söhbəti yersiz deyil. Dəyirmanın yanındakı bağı mən texnikumu bitirib gələndən sonra salmışıq. Orada əkdiyimiz alma, armud və heyva ağacları hələ körpə olsa da, bu yaz çiçəkləyibdir.

Ata-ana öz uşağına necə bağlanırsa, biz də o bağa eləcə bağlanmışıq. Hətta artel sədri Qədir bir dəfə bizə irad tutaraq deyib ki: «Təzə Ay çıxanda köhnəni doğrayıb ulduz eləməyin. O biri bağlara az fikir verirsiniz...»

– Ağdamdan gətirib əkdiyimiz «Qızıləhmədi»lər yaman tutub, – qız dəyirmandan gələn işığa baxaraq sözünə davam edirdi. – Yadındadırmı, o vaxt deyirdilər, burada «Qızıləhmədi» alma yetişməz...

Ulduzlarla üçgünlük Ayın solğun ziyası onun gözəl üzünü işıqlandırdı. Yavaş-yavaş əsən yel, altında oturduğumuz söyüdün yarpaqlarını hərdən onun üzünə toxundururdu.

– Ay Bəyim, – dedim. – Əkdiyimiz ağaclar bitdi... Bu gün-sabah meyvə gətirəcək... Amma biz...

O, yanakı üzümə baxaraq gülümsədi. Dillənmədi. Mənim nə demək istədiyimi, nəyə işarə vurduğumu duyurdu. Necə də duymaya bilərdi?.. O, kəndimizin ən gözəl, ən ağıllı qızı idi, mənim neçə vaxtdan bəri keçirdiyim halı görmürdümü? Əgər bu vaxta qədər ürəyimi ona açmamışamsa, təqsir özümdə, öz cəsarətsizliyimdə deyildimi? Əslinə baxsanız, buna cəsarətsizlik də demək olmaz. Bilirsinizmi, mən bir az xudpəsənd adamam. Mən onda özümə qarşı güclü, mənim qəlbimdə olduğu kimi güclü bir meyil hiss etmək istəyirəm. Bu mümkündürmü? Bilmirəm... Lakin o, mənə o qədər mehriban, o qədər səmimidir ki, bəlkə başqa biri bundan ürəklənərək çoxdan öz qəlbini ona açardı. Amma mən... Bu gün onu burada gözləyəcəyimi dedikdə, qız gülümsədi və heç bir söz söyləmədi. Demək, indi mənim öz qəlbimi ona açmağa haqqım vardır.

Aşağıda, qaranlıq dərədə dəyirmanın çarxı üzərinə tökülən su aramsız şırıldayır, başımız üzərində isə təzə açılmış söyüd yarpaqları pıçıldaşırdı. Uzaq üfüqdə dağlar qaralır, göydə tez-tez ulduz uçurdu. Onların ardınca uzanan odlu şərid közərib sönürdü. Hava ətirli və mülayimdi...

Yanımda aramla nəfəs alan qızın gözləri bir cüt qaragilə kimi parıldayırdı.

Bütün gücümü, cəsarətimi toplayaraq:

– Bəyim, – dedim, – sən hər şeyi bilirsən. De görüm, mənə cavabın nədir?

O, bir müddət – mənə bir əsr qədər uzun gələn bir müddət – sanki nəfəs belə almadan, kirpiklərini belə qırpmadan daş kimi hərəkətsiz qaldı. Gözlərinin parıltısında bir dalğınlıq və ciddiyyət hiss olunurdu.

Mən onun buz kimi soyuq əlindən tutaraq:

– Niyə dinmirsən, Bəyim? – deyə həyəcanla səsləndim.

O, əlini yavaşca çəkərək, küləyin havada yelləndirdiyi saçını kələğayısının altına yığdı... Sonra üzümə həmişəki kimi mehriban, səmimi bir nəzər salaraq:

– Doğrusu, Eyvaz, – dedi, – bu barədə heç fikirləşməmişəm.

Ürəyim qırılıb ayağımın altına düşdü. Axı, sevgi də bu bahar kimi bizim düşüncəmizdən asılı olmayaraq gəlir.

Mən bunu ona demək istədim. Lakin demədim... Ürəyi dilə tutmaq olmaz!.. Baharı zorla çəkib gətirmək mümkün deyil! Aşağıda novdan tökülən su şırıldayırdı. Bəyim narahat idi. Mən bunu onun yaylığının ucunu oynatmağından hiss edirdim. Lakin susurdum. Deməyə bir sözüm yoxdu. Birdən o, əlini qolumun üstünə qoyaraq, mehriban səslə:

– Eyvaz, – dedi, – kənddə iki yaxşı oğlan varsa, biri sənsən... Ancaq... qoy mən bir az fikirləşim.

– Neynək, – dedim, – fikirləş.

Bu sözlərdən sonra Bəyim sanki öz qəlbində bir rahatlıq hiss etdi... hər iki əli ilə yaylığını düzəldərək:

– Eyvaz, – dedi, – bu gün atam yenə də səni tərifləyirdi. Deyir, bu Bədirxanın oğlu bir-iki il də burada qalsa, kəndi cənnətə döndərəcək. Dəyirmanın altındakı bağı salandan bəri, elə bil, dünyanı ona vermisən.

Mən gülümsəyərək, daha doğrusu, özümü gülümsəməyə məcbur edərək susurdum. Bəyim isə sevinc içində sözünə davam edirdi və mənə elə gəlirdi ki, o, atasının məni bəyənməsindən belə həvəslə danışmaqla həm mənim könlümü almaq istəyir, həm də özünə, öz qəlbinə təsir etməyə çalışırdı...

– Axı, özün bilirsən ki, atam hər adamı bəyənən deyil. Xüsusən də ki, cavan ola... Bu gün demişəm, ata, dəyirmanın üst tərəfini də toxmacarlıq eləyəcəyik, kefi yaman kökəlib.

Zarafatyana dedim:

– Demək, məni tərifləməyi səbəbsiz deyilmiş.

Qız mənim şənliyimə sevinərək dedi:

– Lap dilxor vaxtında dəyirmandan yaxşı bir söz dedin, qurtardı, o saat qaşqabağı açılacaq...

Doğrudan da, Musa dayının dəyirman əhvalatı bütün rayonda məşhur idi. Mən gözümü açandan onu dəyirmançı görmüşəm... Anamın deməsinə görə, atası Qubad da dəyirmançı imiş. Deyilənə görə, bu dəyirmanı da o tikmişdi.

Musa dayı dəyirmanın başına nə həngamələr açmamışdır!.. Daşları yuxarı qaldırmaq üçün mexaniki bir şey icad etmişdi. Ayağını onun üstünə qoyan kimi, o ağırlıqda dəyirmandaşı dərhal yuxarı qalxırmış. Sonra novdan tökülən suyu tənzimləmək üçün yenə də mexaniki bir şey qayırmışdı. Qış, yay, elə bir gün olmamışdı ki, Musa dayının dəyirmanı yatsın. Qonşu kənddə bir «od dəyirmanı» var. İl on iki ay Musa dayı bu dəyirmanla bəhsə girir, hamıya sübut etməyə çalışır ki, onun su dəyirmanı həmin «od dəyirmanı»ndan heç də geri qalmır. Bəzən qış bərk düşüb yolları qar alanda, şəhərdən mazut-filan gətirmək çətinləşəndə, «od dəyirmanı» işləmədiyi üçün o kəndin adamları da bizim dəyirmana gəlirlər. Bu zaman Musa dayının kefi, necə deyərlər, lap doxsan doqquz olur.

– Hə, deyəsən, qazınız yatıb, – deyə, o, qonaqlara sataşır və onların dənini böyük həvəslə, hamıdan qabaq üyüdüb yola salır...

Lakin, deyəsən, mətləbdən uzaqlaşdım. Əlbəttə, əgər Musa dayı Bəyimin atası olmasaydı və onu hamıdan, hətta kеçən il ali məktəb qurtarıb, indi rayon mərkəzində yaxşı bir tikinti mühəndisi olan oğlu Rəşiddən belə çox istəməsəydi, mən həyatımın ən əziz anlarını xatırladığım bir zamanda ondan bu qədər danışmazdım. Bəyimi çox istəyən, sevən hər kəs mənim də əzizimdir.

... Mən təzə-tər söyüd yarpaqlarının pıçıltısında sanki qızın qəlbinin döyüntüsünü eşidirdim. Mən onun gəncliyi ilə üçgünlük Ayın işıqlandırdığı bu körpə söyüd yarpaqları arasında qəribə bir ahəng duyurdum. Mənə elə gəlirdi ki, onun aramla aldığı nəfəs bu bahar gecəsinin canı, ruhudur. Mən hər şeydə xəyali bir sonsuzluq, bir əbədiyyət hiss edirdim. Sanki yanımda oturan, mənə mehriban sözlər danışan bu qızın, ulduzların zərif işığını əks edərək qaranlıqda parlayan qara gözləri ilə bu gecə, bu əzəmətli kainat bir yaranmışdır. Biz Musa dayıdan, onun keçən yay su üstündə mənim anam Bədirxanla savaşmasından (anam bizim kəndin cuvarıdır), sonra hər ikisinin xeyli müddət küsülü qalaraq, yığıncaqlarda bir-birinə tikanlı sözlər atmalarından, daha bilmirəm nələrdən söz salaraq gülür, bir dəfə də olsun, özümüz barədə danışmırdıq.

Birdən ayaq tappıltısı eşidib, geri baxdıq. Qaranlıqda yüklü bir at, onun ardınca da uzunboğaz çəkmə geyib belini enli qayışla qıvraq bağlamış ucaboylu bir oğlan çıxdı. Bu, mənim uşaqlıq yoldaşım Şahlar idi. O, iki çuval yüklənmiş atını dəyirmana enən cığıra salaraq:

– Axşamınız xeyir, – deyə yanımızda ayaq saxladı. – Nə yaxşı yerdə oturmusunuz!

Sonra inci kimi düzülmüş dişlərini ağardaraq gülümsəyib əlavə etdi:

– Gedib Musa dayıya deyəcəyəm...

– Bax, gecə iti açıb buraxaram ha, – deyə mən də eyni zarafatla cavab verdim. (Şahlar bizimlə qapı-qapıya qonşu olan bir qıza nişanlanmışdı. Görüş yerləri də bizim bağçanın alt tərəfi idi).

– Onda susdum, – o, məzəli bir hərəkətlə əlini ağzına qoydu.

Tələsik atın ardınca qaçdı. Sonra yenə ayaq saxlayaraq:

– Eyvaz, – dedi, – sizə qonaq gəlib...

– Kimdir?

– Bilmirəm. Bir cavan oğlandır... Deyəsən, Gəncədəndir... Evinizi göstərdim, getdi...

Şahlar cığırı enərək, böyürtkən kolları arasında gözdən itdi.

– Gedək, Eyvaz! – deyə Bəyim ayağa qalxdı, – yəqin ki, qonaq səni gözləyir.

– Eybi yoxdur, əyləş.

– Yox.

O, daha oturmadı. Mən naəlac qalaraq, ayağa qalxdım. Biz dəyirman arxının üstündən salınmış balaca körpüdən keçərək, kəndə sarı yönəldik. Pıçıldaşan söyüd yarpaqları, novdan tökülən bahar suyunun şırıltısı, aşağı dərədə qaralan dəyirman arxada qaldı. Bu, məni kədərləndirirdi. Elə bil ki, bu gedişlə mən, nə isə əziz bir şeydən ayrılırdım. Sanki mən onları və indi yanımda ürəyinin döyüntüsünü eşitdiyim Bəyimi bir də heç bir zaman bu qədər yaxından görməyəcəkdim. Elə bil ki, bu, mənim həyatımda əvvəlinci və axırıncı gecə idi... Qəribə idi, bu uğursuz hiss mənim ürəyimə haradan girmişdi?

– Bu vaxt sizə gələn qonaq kim ola? – deyə Bəyim kəndin işıqlarına baxaraq soruşdu.

– Bilmirəm. Mənim Gəncədə elə bir tanışım yoxdur.

Kəndimizin işıqları getdikcə yaxınlaşırdı, demək, biz yenə də ayrılırdıq. Yenə də mənim narahat gecəm başlanırdı. Eh... Bəyim, sənsiz keçən bu yaz gecəsinin nə qədər uzun olduğunu, məni nə xəyallarla yorduğunu bircə bilsəydin!.. Odur, qoşa çinar arasından sizin pəncərəniz görünür.

– Bir az dayan, Bəyim...

– Yox, Eyvaz... Gecdir.

– Sabah axşam yenə də həmin yerdə görüşəkmi?

– Bilmirəm... Vaxtımız olsa, görüşərik... Hələlik, sağ ol.

Sonra elə bil ki, mənim könlümü sındırmamaq üçün düz gözlərimə baxaraq, qaranlıqda gülümsədi və çevrilib iti addımlarla darvazalarına tərəf getdi.

– Gecən xeyrə qalsın, Bəyim.

O, başını döndərib, eyni mehribanlıqla:

– Sağ ol, – deyə darvazalarından içəri girdi.

Mən uzun zaman yerimdən tərpənə bilmirdim. Mən bu bahar gecəsi ilə yalqız qalmışdım. Mən pəncərənin tül pərdəsi arxasındakı işıqlı otaqda onun kölgəsinin ora-bura necə hərəkət etdiyini görürdüm. Yəqin ki, o, indi anası ilə danışır və mənim buraya mıxlanıb qaldığımı heç ağlına da gətirmir.

«Eh... tərpən, Eyvaz... qonaq səni gözləyir...». Mən ağır addımlarla uzaqlaşdım. Gecə mənim məhəbbətimi bir əfsanəyə, bir nağıla döndərmişdi. Göydə sayrışan ulduzlar, budaqlarda xışıldayan bahar yarpaqları mənə və mənim iztirablarıma qarşı tamamilə biganə idi. Axı, bu kədər, bu ümidsizlik nə üçündür? O mənə demədimi ki, kəndimizdə iki yaxşı oğlan varsa, biri sənsən... Demədimi ki, qoy bir az fikirləşim... Nə olar, qoy fikirləşsin. Mən bu düşüncələrlə həyətimizə girib, evimizin artırmasına çıxdım. Stolun başında anamla qabaq-qabağa oturub, söhbət eləyən qonaq ayağa qalxaraq, şabalıd rəngində olan iri və canlı gözləri ilə mənə baxıb, xəfifcə gülümsədi. Bir anlıq mənə elə gəldi ki, bu adamı haradasa görmüşəm...

Mən qonaqla əl tutuşaraq:

– Əyləşin, əyləşin, – dedim, – xoş gəlmisiniz.

– Hüseynin yoldaşıdır, – deyə anam bildirdi. – Adı Humaydır. Bizim MTS-ə işləməyə gəlib.

Hüseyn mənim əmim oğludur. Gəncə Kənd Təsərrüfatı İnstitutunun axırıncı kursunda oxuyur. Humay şəhər dəbi ilə tikilmiş təmiz, lakin bir qədər nimdaş boz pencəyinin qoltuq cibindən bir kağız çıxarıb mənə verdi.

Hüseyn yazırdı ki, məktubu təqdim edən oğlan institutu qurtarıb, MTS-ə mühəndis-mexanizator təyin edilmişdir. Daha sonra Hüseyn dönə-dönə xahiş edirdi ki, onun bu dostuna yaxşı hörmət eləyək.

Mən məktubu oxuyub qurtarandan sonra Humay mənə açıq və şən bir nəzər salaraq:

– Kənddə mehmanxana olmadığı üçün bu gecəlik sizi narahat etməyə məcbur oldum, – dedi.

– Bu nə sözdür, gözümüz üstə yeriniz var...

– Ya Hüseyn, ya onun dostu... Elə bil öz evindir, – deyə anam Humayın stəkanını götürərək o biri otağa keçdi.

Biz xeyli müddət ordan-burdan söhbət etdik. Məlum oldu ki, Humay Gəncədə yaşayan qoca bir müəllimin oğludur.

O, ayağa qalxaraq, mənim kitab şkafıma yaxınlaşdı.

– Baxmaq olarmı?

– Xahiş edirəm, burada özünüzü öz evinizdəki kimi hiss edəsiniz.

Humay şkafın qapısını açaraq, kitabları nəzərdən keçirirdi. Mən aqronom olsam da, lap uşaqlıqdan bədii ədəbiyyat maraqlısıyam. Tələbə olanda da əlimə düşən pulu kitaba verərdim. Odur ki, indi balaca bir kitabxanam vardır.

Humay Çexovun külliyyatından bir cild götürüb baxır, mən də onu nəzərdən keçirirdim. Çox arıq olmasına baxmayaraq, yaraşıqlı oğlan idi. Yaşı iyirmi beşdən artıq olmazdı. Orta məktəbi qurtarandan sonra iki il orduda xidmət etdiyi üçün ali məktəbə gec daxil olubmuş. Əlləri və üzü xəstəlikdən yeni qalxmış adamlarda olduğu kimi, arıq və solğun idi. Lakin iri şabalıdı gözlərində canlı, qaynar bir ifadə var idi. Bu da onun üzündəki solğunluğa sanki bir həyat və atəş verirdi. O, gözlərini qırpmadan mənə baxdıqda, mən bu arıq, solğun adamda, nə isə tükənməz bir qüvvə, həyatla güclü bir bağlılıq hiss edirdim. Elə bil ki, o bu saat səni heyrətdə qoyan fövqəladə bir iş görəcəkdi. Elə bil ki, sənin bilmədiyin bir çox sirlər ona məlum idi. Gözləri şabalıdı rəngdə olan, yana daranmış qalın və yumşaq saçları, düz və yaraşıqlı burnu, gülümsəyərkən görünən qar kimi ağ dişləri ilə üzündəki solğunluq arasında bir ahəng hiss olunurdu.

O, Stendalın gündəliklərindən ibarət cildini götürüb vərəqləyərək:

– Bunu oxumusunuzmu? – deyə məndən soruşdu.

– Oxumuşam.

– Romanlarına söz yoxdur. Ancaq gündəlikləri xoşuma gəlmir.

– Nə üçün?

– Hər gün ziyafət, hər gün bal, hər gün gözəl qadınları ziyarət... Adam lap təngə gəlir, – deyə o, üz-gözünü turşutdu.

Sonra qətiyyətlə əlavə etdi:

– Bu böyük adamların fikirləri ilə əməlləri arasında çox zaman qəribə bir ziddiyyət görürsən. Bəzi həkimlər kimi, sənə deyirlər, şərab içmə, amma özləri küpün dibindən əl çəkmirlər. Jan Jak Russo cəmiyyətin ədalətsizliklərindən danışır. Uşaqları tərbiyə etmək haqqında cildlər dolusu öyüd-nəsihət verir. Amma öz övladlarını anadan olan kimi aparıb uşaq evinə verirmiş. Siz buna nə deyirsiniz?

– Bizim üçün onların fikirləri maraqlıdır. Adamlar ölüb gedir, fikirlər, ideyalar isə yaşayır.

– Düzdür. Ancaq irəli sürdüyün ideyanı, birinci növbədə, özünə tətbiq etmək, onun doğru olduğunu öz həyatınla sübut etmək sənin vətəndaşlıq borcundur. Məsələn, biz bilirik ki, həqiqi insan cəmiyyətin xeyrini öz şəxsi nəfsindən həmişə üstün tutmalıdır. Bu, öz-özlüyündə bir ideyadır, elə deyilmi? Lakin bir anlığa təsəvvür edin ki, bizlərdən hər birimiz bu ideyanı təbliğ etdiyimiz halda, gecə-gündüz öz xeyrimiz haqqında düşünsəydik, onda nə olardı?

O, açıq pəncərədən qaranlıq bağçaya baxaraq susdu.

Anam bizim üçün qayğanaq gətirərək:

– Humay, – dedi, – gərək bizi bağışlayasan, vaxtsız oldu.

– Çox yaxşıdır, xala, – deyə Humay təklif gözləmədən gəlib əyləşdi.

Onun özünü bizdə belə sərbəst hiss etməsi mənə olduqca xoş gəlirdi.

Şamdan bir az sonra işıqları söndürüb, mənim otağımdakı çarpayılarda uzandıq.

Humayın gəlişindən duyduğum xoş təəssüratı Bəyim haqqındakı xəyallarım əvəz etdi: «Qoy bir az fikirləşim». Bu sözlərin hər bir hərfi bir ulduz olub, açıq pəncərədən görünən səmadan mənə baxaraq, qəlbimə ümid və səadət işığı salırdı...

Bu sözlər bahar gecəsinin lal musiqisi kimi mənə fərəhli nəğmələr oxuyurdu.

Bu sözlər mənə bir neçə saatdan sonra açılacaq bahar səhəri kimi təzə və parlaq bir həyat vəd edirdi.

«Bəyim sözübütöv qızdır. Əgər o, «qoy bir az fikirləşim» dedisə, demək, ümid çoxdur».

... Səhər çaydan sonra kəndə çıxmağa hazırlaşdığımız vaxt Humayın çamadanını götürdüyünü görərək soruşdum:

– Yoxsa evimiz xoşunuza gəlmədi?

– Əksinə, – dedi. – Bu gecə özümü lap öz evimizdəki kimi hiss eləmişəm. Ancaq daha sizə əziyyət vermək istəmirəm.

– Nə əziyyəti var, – deyə anam mənim əvəzimə cavab verdi, – üç otaqdır, ya sən, ya da Eyvaz...

O, tərəddüd edirdi. Mən çamadanı onun əlindən alıb yerə qoydum.

... Hər ikimiz şad halda bağçadan çıxıb, maşın-traktor stansiyasına tərəf yollandıq. Bizim rayonda iki maşın-traktor stansiyası var... Onlardan biri rayonun mərkəzində, digəri isə bizim kənddə yerləşir.

Küçədə Bəyimə rast gəldik. Onun ağ və göyçək üzündə parlayan qara gözləri bir neçə saniyə Humayın üzünə zilləndi.

– Tanış olun, Bəyim, – deyib Humayı ona təqdim etdim.

Bəyim qızaraq onunla əl tutuşdu.

Biz Bəyimdən ayrılıb yolumuza davam etdikdə, Humay məndən soruşdu:

– Bu qız kimdir?

– Bağ briqadiridir. Dəyirmançı Musanın qızıdır.

Humay daha heç nə demədi. Mən istəyirdim ki, o danışsın. Qızın haqqında nə isə bir söz desin. Lakin susurdu. Üzü qayğılı ifadə almışdı.

Biz maşın-traktor stansiyası yerləşən binanın yanına çatıb dayandıq.

– Acanda birbaş evə getməyi yaddan çıxarmayın.

– Yaxşı, – deyə o, ciddi ifadə ilə cavab verdi.

Mən ondan ayrılaraq, dəyirmanın yanında saldığımız cavan bağa getdim. Günəş üfüqdən xeyli yüksəlmişdi.

Qızlar cərgə ilə əkilmiş körpə ağacların dibindəki alaqları təmizləyirdilər. Bəyim məni görərkən gülümsəyib yanıma gəldi. Təzə yarpaq açmış balaca ağaclara işarə ilə:

– Görürsənmi, – dedi, – necə gümrahdırlar!

Sonra saçlarının qıvrımlarını yaylığının altında gizlədərək tamamilə biganə halda soruşdu:

– O səhərki oğlan nə üçün gəlib?

– MTS-də mexanizator işləyəcək.

– Traktorçudur?

– Yox, mühəndisdir.

Mən Humayın haqqında bildiklərimin hamısını ona söylədim. O, diqqətlə qulaq asıb, daha heç nə soruşmadı.

– Bəyim, – dedim, – bu gecə səni dünənki yerdə gözləyəcəyəm.

– Yox, Eyvaz, mən bu gecə kinoya gedəcəyəm. Təzə film gəlib. Özü də, deyirlər, ancaq bircə gecə göstəriləcək.

– Neynək, mən də ora gələrəm.

– Gəl, – deyə o, fikri dağınıq halda cavab verdi.

Mən ondan ayrılaraq, təzə bağın qurtaracağında saldığımız şitilliyə getdim. Bura balaca bir meşəni xatırladırdı. Beş mindən artıq müxtəlif növ şitilimiz vardı. Bütün qonşu kəndlər gəlib bizdən şitil aparırdılar. Bu da sədrimiz Qədirə ləzzət verirdi: «Qoy bizim sağlığımıza aparıb əksinlər» deyirdi.

Mən tər yarpaqları günəş işığında parlayan bu kiçik ağaclara qarşı qəlbimdə bir ünsiyyət, bir doğmalıq hiss edirdim. Mən onların arasında dolaşır, hər birini diqqətlə nəzərdən keçirirdim. Onlar işıq və səadət içində olan körpə uşaqlara bənzəyirdilər. Biz onları kəndimizin Şahlar kimi zarafatcıl gəncləri ilə, Bəyimlə birlikdə əkib becərirdik. Onlarla birlikdə bizim qəlbimizdə gözəl duyğular, gözəl arzular böyüyürdü. İstər-istəməz düşünürdüm: «Kim bilir, indi baş-başa verən bu körpə şitillərdən hər biri hansı bağda çiçək açıb bar verəcək? Kim bilir, bizim qəlbimizdə indi bala quşlar kimi qanad bağlayan arzular hayana uçub gedəcək?»

Gün günorta yerinə əyilmişdi. Humayı tapıb, nahara aparmaq lazım idi.

Şitillikdən çıxıb, yavaş addımlarla dəyirmana sarı getdim. Hava sakit və isti idi. Dəyirmanın qabağındakı çəmənlikdə bir palanlı atla iki eşşək otlayırdı. Onlardan bir qədər aralıda böyük yük maşını dayanmışdı. Üst tərəfdəki böyürtkən kollarının arasından üzüaşağı sallanan, yanları yaşıl yosun bağlamış nov və ondan tökülən suyun altında qıjıltı ilə hərlənən çarx sərin kölgəlik içində idi. Novun üstündə bənövşə rəngli cırcıramalar uçuşaraq hey səslənirdilər.

Mən dəyirmana çatdığım zaman bizim artel sədri ilə Humayın cığırla aşağı endiklərini görüb dayandım. Onlar köhnə dostlar kimi nə barədəsə ucadan danışıb-gülürdülər. Bizim bu artel sədri Qədir qəribə adamlardan biri idi. Qırx səkkiz yaşı olduğu halda, saçlarında bir dənə də ağ tük yox idi. Baxanda otuz beşdən artıq yaş vermək olmazdı. Əynində sürməyi parçadan köynək və şalvar, ayaqlarında yumşaq xromdan uzunboğaz çəkmə vardı. Həddindən artıq yoğun belini enli kəmərlə möhkəm bağlamış, başına yaşıl furajka qoymuşdu. Kefi kök olanda və ya mühüm bir iş görəndə, furajkanın dalını qaldıraraq, gözünün üstünə endirirdi. Peysəri və üzü qıpqırmızı idi. Çəp olmasa da, adama baxarkən başını buğa kimi azca yana əyib, gözlərini qıyırdı. Ona görə də, ilk dəfə rast gələnlər onu çəpgöz hesab edirdilər.

Yüz on səkkiz kilo ağırlıqda olmasına baxmayaraq, toylarda «Tərəkəmə» oynayır, atı qızğın çaparağında düşüb-minirdi. Nə qədər məxfi söz danışır-danışsın, üç ağaclıqdan eşidilirdi. O, kəndimizdə çoxbilmiş adamlardan biri hesab olunurdu. Lakin, eyni zamanda, uşaq kimi şən və sadədil idi.

Keçmişdə, cavan vaxtında bir dəfə hirslənərək, zəhmindən atlar qulun salan bir bəyi götürüb su arxına basdığına görə, adına «Dəli Qədir» deyirmişlər.

Qədir gecə məktəbində yeddinci sinfi bitirmişdi. «Dumanlı Təbriz», «Qılınc və qələm» romanlarını oxumuşdu. «Koroğlu», «Qaçaq Nəbi» və «Tufarqanlı Abbas» dastanlarını əzbər bilirdi. Texnikaya böyük marağı vardı. Harada təzə bir maşın gördümü, gözlərini qıyıb diqqətlə baxardı. Lakin artelin təzə «Pobeda»sına çox nadir hallarda minir, həmişə atla gəzirdi. Bizim tərəflərdə ən yaxşı at Qədirdə olurdu. At adı eşidəndə, elə bil, kişiyə ilham gəlirdi. Qaşlarını çataraq, öz alapaça ürgəsindən böyük vəcdlə danışmağa başlayırdı...

– Aqronom, ay aqronom, – deyə o, hələ xeyli aralıdan məni səslədi. – Səhərdən bəri qonağını gəzdirməmiş yer qoymamışam. Gətirmişəm, bir Musa kişinin dəyirmanını da görsün.

Qədirin Musa dayıya da, onun dəyirmanına da bərk azarı var idi. Hər iki-üç gündən bir gərək dəyirmana baş çəkib, Musa dayının «ixtira» etdiyi şeylərin necə nəticə verdiyinə diqqət yetirə idi. Kəndə təzə bir adam gəldimi, Qədirin ona, birinci növbədə, göstərdiyi yer üç il bundan qabaq tikdirdiyi balaca «SES» idisə, sonra mütləq dəyirman olurdu.

– Necədir, kəndimiz xoşuna gəlirmi? – deyə mən Humaydan soruşdum.

– Çox xoşuma gəlir, gözəl perspektivi vardır.

– Hələ harasıdır!.. Gedək bir dəyirmana baxın, görün Musa kişi nə işlər düzəldib! – deyə Qədir qabağa keçərək dəyirmana girdi.

Biz də onun ardınca dəyirmana daxil olduq. Sürətlə hərlənən dəyirmandaşının o tərəfində dayanmış Musa dayı, əlinin ununu çırparaq, üçümüzlə də görüşdü. Bu, əlli yaşında, uzun, arıq, lakin dəmir kimi möhkəm bir adamdı. Şən baxışlı gözlərində, arıq, ovurdları batıq üzündə sərt bir ifadə vardı. Müştüyü qırmızı qarağat çubuğundan qayrılmış demisi daim ağzında tüstülənirdi. Paltarı köhnə oldu, təzə oldu, fərqinə varmazdı. Ancaq həmişə ən bahalı gümüşü dəridən qazağı papaq qoyurdu. Bütün yaz, yay, payız nazik corabla yüngül məst geyirdi. Bayaq dediyim kimi, mən gözümü açandan Musa dayını dəyirmançı görmüşəm. Əvvəllər onun əlində həmişə ovxarlanmış dəhrə olardı. Ancaq bir neçə ildir ki, daha dəhrə götürmür.

– Bax, görürsünüzmü, – deyə Qədir Musa dayının düzəltdiyi mexaniki aparatları böyük həvəslə qonağa göstərdi.

Musa dayı demisini tüstülədə-tüstülədə sükut içində dayanıb baxırdı. Qədir izahat verib qurtarandan sonra Humay işgüzarlıqla:

– Vaxta ki, – dedi, – kənddə «SES» var, niyə dəyirmanı elektriklə işlətmirsiniz?

– Elektriklə? – Qədir təəccüblə ona baxdı.

Musa dayının gözlərində qəribə işıltı əmələ gəldi.

– Əlbəttə! – deyə Humay qəti ifadə ilə təsdiq etdi. – Bu, daha çox xeyir verə bilər; kəndiniz də böyükdür.

Musa kişi demisindən dərin bir qullab alaraq, batqın səslə cavab verdi:

– Qonşu kənddə od dəyirmanı var. Ancaq bizimki heç vaxt ondan geri qalmayıb. Bir də ki, onun unu hara, bununku hara! Yerlə göy qədər təfavütü var.

– Hansının unu yaxşı çıxır? – deyə Humay maraqla soruşdu.

– Əlbəttə, su dəyirmanının unu!

– Ola bilməz! – deyə Humay qəti etiraz etdi. – Görünür, o kənddə dəyirmanı yaxşı işlədə bilmirlər.

Musa dayı cavab vermədi. Bu da onun bərk dilxor olduğunu göstərirdi.

Humay Musa dayıya deyirdi:

– Sənin su dəyirmanının bir gündə üyütdüyünü elektrik dəyirmanı iki-üç saatda üyüdər!

– Düzdür, – deyə Qədir təsdiq etdi.

Musa dayı ona acıqlı-acıqlı baxaraq soruşdu:

– Ömründə bir dəfə bizim camaatdan dəyirman barədə şikayət eşidibsənmi?

– Qəribə söz danışırsan, – deyə sədr qızışdı. – Çox da şikayətlənən olmayıb. Vaxt aparmağına nə deyirsən?

Sonra Humaya üz tutdu:

– Doğrusu, indiyə qədər ağlımıza gəlməyib. Heç bilirsən camaatın bu taxıl üyütməyə nə qədər vaxtı gedir? Sən demişkən, böyük

kənddir. Birdən elə olur ki, adam iki-üç gün növbəyə durur. Bir də, axı elektriklə işləsə, bu bir dəyirmanlıq su da havayı axmaz.

– Havayı niyə axır? Bəs o nədir? – deyə Musa dayı təzə salınan bağı göstərdi.

– Oraya ildə cəmi iki-üç dəfə su lazım olur. Amma sən il on iki ay havayı axıdırsan suyu. Qabağında elə bir yer də yoxdur ki, əkib-becərəsən. Axı, yayda bu suyun hər damcısı bir qızıla bərabər olur.

Musa dayı yaşıl qanovuzdan tikilmiş tənbəki kisəsini açıb, demisini hirsli-hirsli doldurараq:

– İndi dediyin nədir? – deyə Qədirdən soruşdu.

– Dediyim budur ki, incinerin sözü ağlıma batır. Dəyirmanı tokla işlətmək lazımdır.

– Mən ölsəm də, o novun suyunu sovmaram, – Musa dayı acıqlı halda dəyirmandaşının o biri tərəfinə keçdi.

– Camaat deyəndən sonra sovarsan, – Qədir furajkasının dalını qaldırdı.

Bu vaxt Bəyim içəri girib salam verdi, atasından soruşdu:

– Çay qoymuşuq, sənə də gətirimmi?

– İstəmirəm! – deyə Musa dayı qəzəblə cavab verdi.

Bu, görünməmiş bir iş idi. Əslində, davakar bir adam olan Musa dayının öz qızına güldən ağır söz dediyini hələ indiyə qədər eşidən olmamışdı. Bəyim qızararaq əvvəlcə Humaya, sonra da atasına baxıb, cəld dəyirmandan çıxdı.

– Bizə acığın tutub, daha qızın üstünə niyə qışqırırsan, – deyə Qədir Musa dayını məzəmmət etdi.

Bayaqdan bəri kənardan söhbətimizə qulaq asan yaşlı bir kəndli:

– Ay Musa, – dedi, – nahaq acıqlanırsan. Düzdür, bu dəyirmanı sənin rəhmətlik atan usta Qubad tikib, ancaq daha indi elektrik zamanıdır.

Musa dayı hirslə yana tüpürdü və qocaya cavab vermədi.

Biz dəyirmandan çıxıb gedəndə, Qədir qaqqıldayıb ucadan gülərək:

– Siz öləsiniz, – dedi, – bu Musa kişi dəsgahlı adamdır. Elə bilirsiniz, o, tokla işləməyin xeyrini başa düşmür?

– Əgər başa düşürsə, niyə etiraz edir? – deyə Humay təəccüblə soruşdu.

– Əvvəla, ona görə ki, bayaq o qoca deyən kimi, bu dəyirmanı onun atası tikib...

– Nə olsun atası tikib, indi ki, camaatındır.

– Nə qədər də olsa, ata yadigarıdır, ayrıla bilmir. İkinci əsas məsələ də odur ki, dəyirmanda işləməyin gəliri çoxdur. Axı, Musa kişi bir az tamahkar adamdır... Közü öz qabağına eşməyi xoşlayır.

Ancaq sən ona qulaq asma. Balaca bir layihə hazırla, əvvəlcə özümüz baxaq, sonra da verək camaatın müzakirəsinə.

Axşam düz səkkizin yarısında mən arxası üstə çarpayıda uzanaraq, qəzet oxuyan Humaydan soruşdum:

– Bu gecə təzə film göstəriləcək, getmək istəyirsinizmi?

– Nə filmdir?

– «Canlı meyit.»

– Gedək, – o, həvəslə ayağa qalxaraq, qəzeti stolun üstünə qoydu.

Bizim «Mədəniyyət sarayı» deyə gurultulu bir ad verdiyimiz üç yüz adamlıq balaca klubumuz kəndin aşağı tərəfindəki açıqlıqda yerləşir. Klubun qabağında saldığımız kiçik bağçanın ağacları indi adam boyu qalxıb, çiçək açmışdır. Ağacların altı yaşıl yoncalıqdır. Ərik ağaclarının çəhrayı çiçəkləri arasında Sabirin yarımbüstü görünür. Biz bu balaca klubumuza o böyük şairin adını qoymuşuq.

Divarları təzə əhənglənmiş klubun qabağına çoxlu adam toplanmışdı. Demək olar ki, bütün cavanlar burada idi. Oğlanlar bizim yerlərin dəbinə uyğun boğazlı çəkmə geymiş, günlüyü uzun furajka qoymuş, köynəklərinin üstündən enli qayış çəkmişdilər. Bizim cavanların hamısı yaxşı geyinməyi, bahalı zabit kəməri bağlamağı, ən gözəl xromdan uzunboğaz çəkmə tikdirməyi sevirdilər.

Qız-gəlinlər sarı, qırmızı, yaşıl parçalardan əlvan paltar geyib, təzə ipək kələğayı örtmüşdülər. Bir dəstə gəncin ortasında dayanmış dostum Şahlar furajkasını yan qoyaraq, yenə nə isə məzəli bir şey nağıl edir, gənclər də gülməkdən uğunub gedirdilər. Təzə mahud frenc geymiş Musa dayı da bir qədər aralıda iki kişi ilə dayanıb, demisini tüstülədirdi. Bütün tərsliyinə baxmayaraq, o, ömründə bir kino buraxmazdı. Bizi görərkən qaşqabağını tökүb, üzünü o yana çevirdi.

Humay buna əhəmiyyət verməyərək:

– Salam, Musa dayı! – deyə gülümsədi.

– Salam! – Musa dayı üzünü döndərmədən, sərt ifadə ilə cavab verdi.

Biz onların yanından keçib kassaya yaxınlaşanda, Bəyimi üç yoldaşı ilə gördük. Bəyim bilet alıb, geri dönəndə, bizi görüb, nə üçünsə qızardı. Sonra gülümsəyərək:

– Eyvaz, – dedi, – bilet almısınız?

Mənim cavabımı gözləmədən təkrar kassaya tərəf dönüb:

– İkisini də verin, – deyə pul uzatdı.

– Sən dayan, Bəyim, – mən mane olmaq istədim.

Lakin o, biletləri alaraq, kassadan aralandı.

– Nə üçün siz zəhmət çəkirsiniz? – deyə Humay ona müraciət etdi.

Bəyim Humayın üzünə baxmadan, ciddi və utancaqlıqla:

– Bir zəhməti yoxdur, – deyib biletləri mənə uzatdı.

Onun əynində krepdeşindən lap son dəblə tikilmiş qolları uzun don, balaca və yaraşıqlı ayaqlarında qara lak tufli, zərif ipək corab var idi. Bir qədər geri sürüşmüş ağ kəlağayısı altından qara saçlarının zərif qıvrımları görünürdü. Gözləri gözəl və ağ üzündə bir cüt qaragilə kimi parıldayırdı.

Bizim kənddən çıxmış ziyalılar çoxdur. Onların içində həkim, mühəndis, hətta elmlər namizədi də vardır. Yay zamanı onlar istirahət üçün çox vaxt öz kəndimizə gəlirlər. Hər axşamçağı biz həmin bu klubun qabağına toplaşır, ordan-burdan söhbət edirik, tar çalırıq, hətta bəzən teatr tamaşaları da hazırlayırıq. Belə zamanlarda hamının diqqətini cəlb edən qızlardan biri, bəlkə də birincisi Bəyim olur. Demək istəyirəm ki, o, çox oğlanlarla tanışdır. Lakin mən heç bir vaxt onu indiki vəziyyətdə görməmişdim. Ən gözəl, ən adlı-sanlı oğlanlarla belə, çox sərbəst deyib-danışan Bəyim indi qəribə bir gərginlik içində idi. Mənə elə gəlirdi ki, o, baxışlarını qəsdən ancaq mənim üzərimdə saxlamağa çalışırdı.

Humayın üzündə isə ciddi və doğrusunu deyim ki, bir az təşəxxüslü ifadə var idi. Biz tamaşa zalına daxil olduqda, o, geri çəkilərək qızları qabağa buraxdı və qəsdən məni özü ilə Bəyimin arasına saldı. Bəlkə, qısqanclıqdan doğan bu müşahidələr mənim gərgin və narahat hisslərimlə bağlı aldanışdır? Biz dinməzcə oturub baxırdıq. Ekranda gördüyüm aləm məni əsəbiləşdirirdi. Orada, nə isə, insanın nəfəsini daraldan, boğucu bir şey var idi. Mən Protasovun faciəsini görmək istəmirdim. Mənə nə olub? Nə üçün hər şey əsəblərimə toxunur?

– Bəyim, – deyə əyilib onun qulağına pıçıldadım, – sabah axşam səni dünənki yerdə gözləyəcəyəm.

O, gülümsəyərək, başını buladı. Bəli, gülümsəyərək... Bu, daha yaxşı idi. Bu, bahar fırtınası başlamazdan əvvəl çaxan şimşək kimi gözəl və cazibədar idi.

– Niyə gəlmək istəmirsən, Bəyim?

– Bir dəfə getdik, bəsdir. Daha nə var? – dedi.

Sonra birdən qulağıma tərəf əyilərək pıçıltı ilə soruşdu:

– Sənin qonağının adı nədir?

– Humay...

O, gülümsəyib dedi:

– Humay ki, qız adıdır.

Onun bu yarıqaranlıqda çətin seçilən üzü mənə hər zamankından daha gözəl, daha təravətli göründü. Mən ürəyimdə həm ağrı, həm də sevgi hiss edirdim. Yoxsa qısqanırdım? Yox! Min dəfə yox! Mən özümə bu qədər yaxın olan səadətin birdən-birə quş kimi uçub getməsini istəmirdim. Mənə elə gəlirdi ki, yanımda döyüntüsünü duyub-eşitdiyim ürək təkcə onun deyil, bütün həyatın qəlbidir! Mən isə

həyatı, yaşamağı sevirəm. Mən onun əlindən tutaraq, demək istəyirdim: «Bəyim!.. Əzizim! Bu dünyada hər kəsin bir ulduzu var. Mənim taleyimə də sən düşmüsən. Sən olmasan, mən yaşaya bilmərəm».

... Biz kinodan çıxanda, saysız-hesabsız ulduzlarla əhatə olunmuş Aypara kəndin yuxarı tərəfindəki bağların üzərində idi. Uzaqdan dəyirmanın səsi və qurbağaların qur-quru eşidilirdi. Adamlar dəstə-dəstə söhbət eləyə-eləyə evlərinə gedirdilər.

Bəyim özünəməxsus sadə, mehriban və şən bir dillə Protasovu zəiflikdə, «bir arvaddan ötrü başını itirməkdə» təqsirləndirir, «kişi gərək möhkəm olsun» deyirdi. O nə üçün belə deyirdi? Nəyə işarə edirdi? Humay isə, Bəyimin əksinə olaraq, Protasovun arvadını təqsirləndirirdi. Bütün bu mühakimələr məni əsəbiləşdirirdi. Mənə elə gəlirdi ki, Humayla Bəyimin danışıqlarında nə isə ürəyimi, izzəti-nəfsimi yaralayan bir şey var...

O gecə Humayla uzun zaman ordan-burdan danışdıq. Humay bayaq kənddəki sükutunun əksinə olaraq, indi söhbətinə ara vermirdi. O, hər şeydən: kəndimizdən, Qədirin məzəli hərəkətlərindən, Musa dayıdan danışırdı, lakin bir dəfə də olsun, Bəyimdən söz salmırdı.

– Bizim qızlar necə, xoşunuza gəlirmi? – deyə zarafatyana soruşdum.

O, qaşlarını çatıb, açıq pəncərədən görünən qaranlıq bağçaya baxaraq, xeyli susdu. Sonra mənə sarı dönərək, eyni ciddiyyətlə soruşdu:

– Bəyim harada oxuyub?

– Bizim onilliyi bu il qurtarıb. İmtahan vaxtı xəstə olduğu üçün ali məktəbə gedə bilmədi.

– Yoxsa atası qoymayıb?

– Xeyr, Musa dayının sizin təklifinizə razı olmadığına baxmayın. Elmlə, mədəniyyətlə arası sazdır... Bizim kənddə ən yaxşı radioqəbuledici, ən yaxşı avadanlıq onun evindədir. Azərbaycan dilində çıxan qəzet və jurnalların çoxuna abunə yazılıb.

Hər zaman olduğu kimi, mən indi də Musa dayıdan, onun ailəsindən böyük həvəslə danışırdım. Humay isə daha heç bir şey soruşmurdu. Yalnız haçandan-haçana:

– Qəribədir, – deyə öz-özünə danışırmış kimi astadan dilləndi:

– Musa dayı qəzet və jurnallara abunə yazılır, amma öz xeyrindən ötrü dəyirmanın elektriklə işləməsinə razı olmur.

O susdu, üzü yenə də fikirli və tutqun ifadə aldı.

Anam içəri girib, bizə axşam yeməyi təklif etdi.

Humay:

– Mən gecələr yemirəm, – dedi.

– Mənim də iştaham yoxdur, ana!..

Sonra gündüzkü əhvalat yadıma düşdü. Dedim:

– Ana, bu gün Musa dayıda dəsgah var idi... Humay deyirdi, vaxta ki, kənddə «SES» var, dəyirmanı nə üçün su ilə işlədirsiniz?

Anam Humaya diqqətlə baxaraq soruşdu:

– Yəni elektriklə işlətmək mümkündür?

– Əlbəttə, – deyə qonağın əvəzinə mən cavab verdim.

– Unu-zadı nə cür çıxar?

– Lap kefiniz istəyən kimi, – deyə Humay gülümsədi.

Sonra mənə müraciətlə əlavə etdi: – Görürsünüzmü, Bədirxan xalanı da, hər şeydən əvvəl, unun nə cür çıxacağı maraqlandırır.

– Daha, bəs dəyirman nə üçündür? – deyə anam gəlib boş stullardan birində oturdu. – Əgər bir elə iş eləsəniz, pis olmaz... O dəyirman bir qol suyu avara eləyib.

– Bilirsinizmi, – deyə mən Humaya izah etdim: – Anam kəndin cuvarıdır. O yay olmaz ki, su üstündə Musa dayı ilə üzləşməsin.

– Siz cuvarsınız? – deyə o, təəccüblə anama baxdı.

Anam bir az tündləşərək, kəskin Qarabağ şivəsi ilə:

– Necə bəyəm? Mən cuvar ola bilmərəm? – dedi və iti baxışlı gözlərini, meydan oxuyurmuş kimi, Humaya zillədi.

– Axı, cuvarlıq çox dava-dalaşlı işdir.

– Davaya qaldı, anama qaldı...

– Sən də qoy görək, – arvad mənə acıqlandı.

Sonra Humaya sarı dönərək:

– Bura bax, qardaşoğlu (o cavan oğlanlara həmişə, kişi kimi, qardaşoğlu deyir), – dedi, – sən lap yaxşı şey fikirləşmisən. Səhər bir yerdə gedib Qədirə deyərik.

– Qədir bilir, özü də razıdır, – dedim.

– Onda qurtardı, getdi... Camaat da razı olar. Musa elə bilir, atası Qubad ki o dəyirmanı tikib, tay heç kəs yaxına gedə bilməz. Qızını gördünüzmü?

Humay bərk qızardı və cavab vermədi.

– Görüb, ana, indicə bizimlə kinodaydı.

– Bir mahala dəyən candır. Göyçək, ağıllı, kamallı, hər sözü-söhbəti yerində...

– Az tərifla, ay arvad, sonra Humayla aramızda dava düşər.

– Eh... bilirəm ki, sizdə elə kəramət yoxdur.

Anam qalxıb, o biri otağa keçdi.

Biz işığı söndürüb, çarpayıya uzandıq. Lakin yata bilmirdik. Humay tez-tez bu böyrü üstündən o birinə çevrilirdi.

Sevgi ilə bahar əkiz yaranmışdır. Sevgi heç bir zaman bahardakı qədər cazibədar, möhtəşəm və narahat olmur. Budur, bütün kəndin yuxuya getdiyi, yalnız dəyirmanın qıjıltısı ilə qurbağaların səsinin eşidildiyi bu bahar gecəsində bəzən olur ki, haradansa ürəyimə tikanlar sancılır... Bəzən bütün ağrılar unudulur, hər sevgi anı bir əbədiyyət qədər uzun, bir əfsanə kimi gözəl olur...

«Lakin bütün bunlar, bu iztirablı dəqiqələr, bu şirin anlar nə üçündür?» deyə mən filosofluq edirəm. Bu zaman pəncərənin pərdəsini yellədərək içəri dolan yaz küləyi sanki özü ilə yeni duyğular gətirir. Sanki bahar mənim bu bədbin düşüncələrimə qarşı üsyan edir. Sanki bahar mənə həyatın, böyük və əbədi həyatın nəfəsini duydurmaq istəyir.

... Səhər çay içib, evdən çıxdıq. Humay artel idarəsinə, mən isə bağlara yollandım. Mən kəndin ayağında Bəyimə rast gəldim. Onun təzəcə yuyulmuş gözəl ağ üzü səhər-səhər açılmış nərgiz kimi zərif və təravətli idi. Saçlarının qabaq tərəfdəki qıvrımları hələ yaş idi. Qara gözlərində sevinc şəfəqləri oynayırdı.

– Sabahın xeyir, Eyvaz! Bu gecə niyə yatmırdın?

– Mən? Mən yatmışdım!..

– Bəs gecə artırmanızda gəzən kim idi?

(Yadımdan çıxıb deyəm ki, Bəyimgilin eyvanından bizim ev aydınca görünür).

– Bilmirəm. Yəqin bizim qonaq imiş.

– Hə... – deyə, o, sözü uzatdı.

Üzü dərhal ciddi ifadə aldı. Mən soruşdum:

– Bəs sən nə üçün o çağacan yatmamışdın?

– Bilmirəm. Elə yaxşı gecəydi ki, heç yuxum gəlmirdi.

– Amma mən daş kimi yatmışdım.

– Yatmayıb nə qayıracaqdın? Cavan oğlansan. Yazın yuxusu da ki, şirin olur...

Onun gülə-gülə dediyi sözlərin hər biri köz kimi ürəyimin başına yapışırdı. Mən istəyərdim ki, «daş kimi» yatdığım üçün Bəyim məni məzəmmət etsin, aramızda giley-güzar olsun. Lakin görünür... yox, deməyə dilim gəlmir... Bir də, axı nə üçün mən ondan belə şeylər umuram? Buna mənim nə haqqım var?

... Axşam Humaydan soruşdum:

– Keçən gecə, deyəsən, bədxab olmuşdunuz?

– Bəli, gördüm yata bilmirəm, durub çıxdım eyvana. Nə bildiniz?

– Mənə Bəyim dedi... O sizi görürmüş...

– Haradan? – Humay dərin heyrət içində mənə baxdı.

– Oradan, bax, qabağında böyük iydə ağacı olan o ikimərtəbə evin eyvanını görürsünüzmü? Oradan!..

Sevənlərin öz adi gözlərindən başqa bir də ürəklərinin gözü olur və bu göz onların sevgisi ilə əlaqədar olan hər şeyi fövqəladə bir doğruluqla görüb duyur. Ona görə də, Humay nahaq yerə iydə ağacı ardından görünən o eyvana baxmamağa cəhd edirdi.

– Bu gün nə ilə məşğul oldunuz? – deyə mən aramızdakı gərgin sükutu pozmaq üçün soruşdum.

O, ağır bir yükdən qurtarmış kimi, dərindən nəfəs alıb, həvəslə söhbətə girişdi:

– Dəyirmanı elektrikləşdirmək üçün balaca bir layihə düzəldib verdim Qədir kişiyə, sonra da MTS-in həyətində olan maşınları nəzərdən keçirdim.

– Dəyirman məsələsində Musa dayı lap dəli olacaq.

O, qaşlarını çatıb, Musa dayının eyvanına tərəf ötəri bir nəzər salaraq:

– Nə etməli? – dedi, – camaatın xeyri dəyirmanın elektriklə işləməsindədir!..

... Səhəri gün, təxminən saat birdə mən qəlyanaltı eləmək üçün velosipedlə evə qayıdarkən, klubun yanından keçən yolda Humayla Bəyimin dayanıb söhbət etdiklərini gördüm... Velosiped altımda büdrədi və mən qeyri-ixtiyari olaraq yerə düşdüm.

Humay nə isə deyir, Bəyim də gözlərini aşağı dikərək, kəlağayısının ucunu oynada-oynada onu dinləyirdi. Hər ikisinin üzündə ciddi, gərgin və həyəcanlı ifadə vardı. Mən özümü danlayaraq: «Qəribə adamsan, – deyirəm, – nə olsun. İki tanış adam küçədə bir-birinə rast gəlib, beş kəlmə söz danışa bilməz? Yaxşı deyil... Burada dayanıb, onlara baxdığını görsələr, ürəklərinə yüz cür şey gələ bilər. Kişi kimi yaxınlaş, salam ver».

Lakin mən öz rəyimin əksinə, velosipedə minib, yavaşca geri dönərək, başqa yolla getdim.

... Anamın gətirdiyi xörəyə əlimi vurmayıb, Humayı gözləyirdim. Yarım saat keçdi, o gəlmədi, bir saat keçdi, gəlmədi. Hava bu gün elə bürkü idi ki, adamın lap ürəyi qısılırdı.

– Sən çörəyini ye. Səhər də dilinə heç nə vurmamısan. Humay gələr, onun da payını qızdırıb verərəm, – deyə içəri girən anam təkid etdi.

Mən qəribə bir narahatlıq içində ayağa qalxıb:

– İştaham yoxdur, – deyə stoldan uzaqlaşdım.

– Sənə nə olub, bala? Çörəkdən-sudan niyə kəsilmisən?

– Mənə nə olacaq, ay arvad? – deyə gülümsədim.– Bayaq düşərgədə bir az yemişəm. Ona görə də indi ürəyim istəmir.

Anam inanıb, o biri otağa keçdi. Mən iradəmin əksinə olaraq, aşağı düşüb velosipedə mindim, birbaş kluba sarı getdim. Tini burulanda Bəyim qarşıma çıxdı. Velosipedi saxlayıb düşdüm. O da istər-istəməz (mən bunu, ani olaraq onun üzündə yaranan narahat ifadədən hiss etdim), ayaq saxladı.

– Haradan gəlirsən, Bəyim?

O, bir az özünü itirərək:

– Klubdan, – deyə astadan cavab verdi.

İkimiz də susduq. İkimiz də gərgin həyəcan içində idik.

Nəhayət, səsimə mümkün qədər mehriban ahəng verməyə çalışaraq:

– Nə oldu, Bəyim, – dedim, – fikirləşdinmi?

Qəribədir, o bu sualı gözləyirmiş kimi, tələsik və soyuq ifadə ilə:

– Bilirsənmi, Eyvaz, – dedi, – bizim evlənməyimiz baş tutan iş deyil.

– Nə üçün?..

– Mən lap uşaqlıqdan səni bir qardaş kimi istəmişəm.

Sonra həyəcanla üzümə baxaraq əlavə etdi:

– Xahiş edirəm, inciməyəsən.

Mən gülümsəyərək:

– Niyə inciyirəm ki? – dedim və yavaşca velosipedə minib, yoluma davam etdim...

Ətrafına ulduzlar düzülmüş Aypara ilə işıqlanan bahar gecəsi həyəcan və fərəhlə nəfəs alırdı. Gecə qızılgüllərin, yasəmənlərin ətri ilə dolu ilıq havası ilə üzümü oxşayaraq, qulağıma təsəlliverici səslər pıçıldayırdı. Gecənin mehribanlığında bir intəhasızlıq, bir ehtişam var idi.

Bayaqdan bəri, köklənmiş tar simləri kimi tarım çəkilən əsəblərim, elə bil ki, boşalırdı. Elə bil ki, cümlə dərdlərin loğmanı olan ana təbiət bizə bəxş etdiyi həyatın gözəllikləri haqqında fərəhli mahnılar bəstələyirdi.

Lakin sən o həyatın özü deyildinmi, Bəyim? Səndən əli üzülən bir adam necə iztirab çəkməyə bilərdi? Evinizin böyründən keçib gedirdim. Sən Ay işığında yarpaqları gümüştək parlayan iydə ağacının ardında, eyvanınızda dayanıb, bizim evə sarı baxırdın. Lakin artıq bunun mənə aidiyyəti yox idi. Mən indi göydəki ulduzlara necə baxırdımsa, sənə də eləcə baxırdım. Yox, mən düz demədim. Əgər sən bir ulduz olub, göylərdə parlasaydın, mən bütün gündüzü gecənin xəyalı ilə yaşayardım. Mən səni tuş tutub, bütün ömrüm boyu fərəh və səadət içində irəliləyərdim. İndi mən sənsiz harada qərar tutub dayana bilərəm? Əgər sən məni mənim yüzdə birim qədər sevsəydin, ömrüm nəhayətsiz bir səadət içində keçərdi. İndi ki, sevmədin, yenə də xoşbəxtəm. Çünki sən xoşbəxtsən! Əgər bu qədər müddətdə sən məni gələcək bir ər kimi sevə bilmədinsə, bu səninmi günahındır? Axı, sevgi də bu gecə, bu bahar kimi gəldiyi zaman bizim rəyimizi soruşmur. Əgər soruşsaydı, and içərəm ki, sən məni sevərdin. Axı, sən bilirdin ki, mənim yüz canım olsaydı, birini də səndən əsirgəməzdim.

Mən xəfif səslərlə dolu zəmilərin arasındakı cığırla gəlib dəyirmanın üst tərəfindəki söyüdlüyə, srağagün axşam Bəyimlə birlikdə oturduğumuz yerə çıxmışdım. Lakin indi bura mənə, obası köçüb getmiş bir yurd kimi yiyəsiz və qərib görünürdü.

Gumbultu ilə arxa tullanan qurbağaların səsində, aşağıda dəyirman çarxına tökülən suyun şırıltısında indi payız çiskinitək kədərli bir şey duyurdum.

Ürəyim elə yaman sıxılırdı ki... Mən özümdə sentimental bir qüssə deyil, tamamilə aydın, fiziki ağrı və iztirab hiss edirdim.

Axı mən bilirdim ki, həyat yalnız bizim bir qıza olan məhəbbətimizdən ibarət deyil... Mən bunu lap yaxşı bilirdim. Mən yaşamağı sevən, cəmiyyətimizə xeyir verməkdən həddsiz nəşə duyan zəhmətkeş bir adamam; atam da, babam da belə olublar. Mən sabun köpüyü kimi boş xəyallara, avara üzüntülərə nifrət edirəm. Lakin... Balzak deyir ki, «sevgi – gənclik ruhunun çiçəklənməsidir». Bu, doğrudan da, belədir. Mənim qəlbimdə bahar coşğunluğu ilə açılmış çiçəklər isə birdən-birə tufana düşmüşdü. Bu tufan o qədər güclü idi ki, özümdə həddsiz fiziki qüvvə hiss etdiyim halda, gələcək güləş yarışlarında birinci çıxmaq arzusu ilə hər səhər ağır daşları oynatdığım halda, uşaq kimi başımı itirmişdim.

Ancaq zərbə nə qədər güclü olursa-olsun, onu mərdliklə qarşılamaq lazımdır! Mənim yeganə təsəllim bu olacaq! Əgər mən bunu, yəni, öz mərdliyimi itirsəm, demək, həqiqətən məhv olmuşam!

Görəsən, Musa dayı bu saat nə edir?

Mən yoxuşu enib, dəyirmana yaxınlaşanda, Musa dayının novun yanındakı dikdirdə demi çəkdiyini gördüm.

– Salam, Musa dayı, burada niyə oturmusan?

– Elə-belə... Sən bu vaxt burada nə gəzirsən?

– Kənddən gəlirəm, dedim görüm dəyirmanda növbət var, ya yox? Səhər bir az dən üyütmək istəyirik.

– Olar...

Bizdən bir az aralıda iki çılpaq at xırıltı ilə otlayırdı. Sıx böyürtkən kolları arasında hərlənən çarxın səpələdiyi soyuq su zərrələri üzümüzə toxunurdu. Havada buğda ununun qoxusu duyulurdu.

Ağzındakı deminin odu közərir, Musa dayının tutqun üzünü və dərində qaralan gözlərini işıqlandırırdı. Mən danışmaq istəyirdim.

– Musa dayı, dünənki söhbətin axırı nə oldu?

O, demini ağzından götürüb, qaranlıqda tüpürdü:

– Bir şey ki, Qədirin başına girdi, fələk gəlsə, çıxara bilməz.

– Camaat da istəyir...

– Cəhənnəmə ki!.. Dədə-babadan yadigar qalan bir budur, qoy bunu da uçurub-dağıtsınlar. Özün bilirsən ki, mən heç vaxt elin xeyrindən-şərindən kənarda qalmamışam. Əgər bu su dəyirmanından indiyə qədər bir adam narazılıq eləmiş olsaydı, bu kənddən bir adam ayrı dəyirmana dən aparsaydı, sabah birinci mən özüm baltanı götürüb, o novu çilik-çilik elərdim. İndi ki, heç bir narazılıq yoxdur, niyə özünüzdən iş açırsınız?

– Vaxt gələcək ki, kənddə hər işi elektrik görəcək, Musa dayı.

– Görəcək, görsün də... Elə gərək bu dəyirmandan başlayasınız?

Musa dayı hirslə əlini yellədi.

Bir xeyli müddət sükutla keçdi. Birdən Musa dayı mənə tərəf dönərək:

– Sən o qonağına deynən ki, farağat otursun, – dedi. – Kəndi bir-birinə qatmasın. Onu göndəriblər MTS-ə, getsin işini görsün.

– Qonaq bizim xeyrimiz üçün deyir.

– Lazım deyil onun xeyri bizə.

Bu zaman dəyirmandan bir kəndli çıxaraq, üzünü qaranlığa tutub:

– Ay Musa! – çağırdı. – Gəl bizi yola sal.

Musa dayı dinməz-söyləməz qalxıb, ağır addımlarla uzaqlaşdı.

Qaranlıqda «dəh» deyə-deyə atları dəyirmana tərəf sürən kəndlinin səsi və ayaq tappıltıları eşidilirdi...

... Mən ulduzların altında dəniz kimi hərəkətə gələn zəmilərin arası ilə kəndə doğru gedə-gedə düşünürdüm: «Bəlkə, mənim bütün bu narahatlığım, bütün bu iztirablarım axmaq bir qısqanclığın nəticəsidir. Bəlkə, mən Don Kixot kimi havayıca özümdən çıxıram?»

Lap qulağımın dibindən kiçik qanadlarını ılıq və ətirli bahar havasına çırparaq bir quş da uçub keçdi. Yəqin ki, qızquşu idi. Qaranlıq zəmilərin arasında şərid kimi ağaran cığırla irəliləyib, balaca təpəni aşandan sonra Bəyimgilin evi göründü.

Birdən, pəncərədən düşən çıraq işığının qabağını kəsən yarpaqların kölgəsində iki nəfərin durduğunu gördüm. Onlar idi. Bəyimlə mənim əziz qonağım! Aradan neçə saniyəmi, yoxsa neçə saatmı keçdi, bilmirəm. Nəhayət, onlar əl tutuşaraq ayrıldılar. Qız dönüb evlərinin darvazasına tərəf qaçdı. Oğlan da çevrilib, yavaş-yavaş yola doğru getdi.

... Mən pillələri qalxıb evimizə girdiyim zaman Humayı otağın içində var-gəl edən gördüm. Onun üzündə xoşbəxt təbəssüm var idi. Bu, məhəbbətin elə böyük bir anı idi ki, insan öz riqqət və nəcibliyi ilə bütün dünyanı ehtiva etmək istəyir.

– Eyvaz, idarədə kim vardı? – deyə o, nəşə ilə soruşdu.

İri şabalıdı gözləri elə parıldayırdı ki, adamın lap xoşu gəlirdi...

– Mən idarəyə getməmişdim, – deyə içərimdəki gərginliyi boğmağa çalışaraq cavab verdim.

Xeyli müddət nə o danışdı, nə də mən dindim.

Birdən Humay heç gözlənilmədən:

– Eyvaz, – dedi, – mən evlənmək istəyirəm.

– Zarafat edirsiniz?

– Xeyr, ciddi sözümdür.

Mən öz-özümə təskinlik verdim:

«Nə olsun, burada təəccüblü nə var ki? Bir-birini istəyəndən sonra niyə evlənməsinlər?» Lakin kürəklərimin arası elə gizildəyirdi ki, elə bil, bədənimə titrətmə gəlirdi. Elə bil, ürəyim qırılıb min arşınlıq quyuya düşürdü.

– Deməli, bizim kəndin suyu şirin imiş, – deyib gülümsədim. – Yaxşı, xeyir işin təqsirkarı kimdir?

O, stul çəkib oturaraq ciddi ifadə ilə:

– Mən Bəyimlə evlənmək istəyirəm, – dedi.

Mən üsulsuz tərpənərək, qrafinin böyründəki stəkanı salıb sındırdım.

– Bax, bu qabın sınmağı yaxşı əlamətdir, – deyə zarafat etdim. – Sonra dünyagörmüş təcrübəli adamlar kimi, təmkin və işgüzarlıqla əlavə etdim. – Bəyim ağıllı qızdır. Onunla yaxşı ailə qurmaq olar. Yəqin ki, siz öz aranızda bir qərara gəlmisiniz.

– Bəli, danışmışıq.

– Daha nə deyirsiniz? (Guya ki, o, bir söz deyirdi). Başqa şeylər asandır. Evlənməyiniz barədə mənə görə hər nə qulluğunuz olsa, hazıram. Gecəniz xeyrə qalsın.

– Çox sağ ol, Eyvaz!

Cəld yatağa girib, yorğanı başıma çəkdim. «Görəsən, Humay niyə mənə belə riqqətlə təşəkkür edir? Yoxsa qız ona bir söz-zad deyib? Eh, deyəndə nə olar ki? Yatmaq lazımdır».

... Səhər yuxudan oyananda Humayı açıq pəncərə qabağında dayanmış gördüm: onun çiyinləri üzərindən Musa dayının evinə tərəf baxdım, sərin kölgəli eyvanda tüstülənən ağ samovarın yanında üzü bəri dayanmış Bəyim gözümə dəydi.

Əlac yox idi. Mane olsam da, salamlaşmaq lazım idi.

– Sabahınız xeyir, Humay!

O, dikşinib geri çevrildi:

– Sabahın xeyir, Eyvaz! Görürsən, nə gözəl havadır...

– Bizim kəndin nəyi gözəl deyil ki...

Əl-üzümüzü yumaq üçün aşağı düşdük. Bahar ömrünün ən coşğun çağlarını keçirirdi. Alma, ərik, şaftalı ağacları tamam çiçəkləmişdi. Qızılgül kolunun üstündə nəlbəki boyda iri güllər açılmışdı. Onların qırmızı yarpaqları üzərinə düzülmüş şeh damlaları səhər günəşinin incə şüalarını göz qamaşdıran parlaqlıqla əks etdirirdi.

Quşların həyəcanlı səsi bir-birinə qarışaraq, coşğun bir simfoniyanı xatırladırdı. Belə bir vaxtda canından artıq sevdiyin bir qızdan əlinin həmişəlik üzüldüyünü hiss eləmək çox ağırdır.

– Eyvaz, rəngin niyə qaçıb, xəstə-zad deyilsən ki?

– Xəstə niyə oluram? – Mən iki pudluq daşı qəsdən sol əlimdə beş dəfə qaldırıb-endirərək xeyli uzağa tulladım.

– Afərin! – Humay uşaq kimi sevindi. – Hüseyn deyirdi ki, sən bir dəfə bura qastrola gəlmiş pəhləvanı dörd dəqiqədə məğlub etmisən.

– Pəhləvanı məğlub etməyə nə var ki? – deyə zarafatla cavab verdim.

... İşə gedəndə Bəyimə rast gəldik. (Yəqin ki, səhər-səhər burada görüşməyi dünəndən sözləşmişdilər). O, hər ikimizə eyni şən və xoşbəxt təbəssümlə baxıb salam verdi.

Mən özümü bacardığım qədər gümrah və şad göstərməyə çalışaraq:

– Əleykəssalam! – deyə keçib getmək istədim.

Lakin o, qolumdan tutaraq, həmişəki sərbəst və mehriban ifadə ilə:

– Eyvaz, – dedi, – lap Aya-günə dönmüsən. Hardasan, görünmürsən?

– Nə bilim, Bəyim, – dedim, – iş, güc...

– Rəşid gəlib. Səni soruşurdu.

– Doğrudanmı? Məndən ona salam de.

– Çox uzaqdasan? Niyə özün gəlib görüşmürsən? Günortaüstü Humayı da götürüb gələrsən.

– Nə olar, götürüb gələrəm... İndi məni bağışlayın, doqquzda sədrlə görüşməliyəm. Hələlik!

Cəld uzaqlaşdım.

– Eyvaz, bax, gözləyəcəyik ha! – deyə Bəyim arxadan səsləndi.

Sözün açığı, yaman qəzəbləndim. «Əgər bütün qızlar sənin kimidirlərsə, lənət sizin hamınıza! Gör bir zərrə qədər də olsa, vicdan əzabı çəkirmi?..» «Humayı da götür, gəl bizə». Bir qədər keçdikdən sonra, «axı, Bəyim nə üçün vicdan əzabı çəkməlidir?» deyə özümü məzəmmət etdim. Onun bir qəlbi var, birini də sevir. Sənə söz-zad verməmişdi ki...»

Ancaq bunu demək asandır. Sən gəl ürək üçün təsəlli, rahatlıq tap!

Mən bir yerdə dayana bilmirdim. Bu bağdan o bağa keçir, qarşıma hər kəs çıxırdısa, söhbətə tuturdum.

Nəhayət, gün günortadan əyildiyi zaman Bəyimin tapşırığını yerinə yetirmək üçün Humayın dalınca MTS-ə getdim. Yolda Şahlarla rastlaşdıq.

O, gülə-gülə:

– Eyvaz, – dedi, – sənə demədim ki, fürsəti əldən vermə?

– Nə olub?

– Guya ki, bilmirsən?

– Bəyimlə Humayın əhvalatını deyirsən?

– Yoxsa sənə təsir eləmir?

– Eh... Nə çoxdur dünyada qız!..

– Afərin, bax, bunu yaxşı dedin. Bir qız ki, məni istəmədi, mən onu heç dünəndən istəmirəm...

– Vəssalam!

– Lap istəyir dünya gözəli olsun!

– Lap istəyir mələk olsun!

– Amma öz aramızdır, mühəndis pis oğlan deyil.

– Bəyim pis oğlanı istəyər?

– Doğrusu, bu məsələdən sonra əvvəllər onu görəndə əllərim yaman gicişirdi.

– Nə danışırsan, Şahlar?

– Amma indi baxıb görürəm, qıyılmalı oğlan deyil. Sən ölməsən, o gələndən bəri MTS-in maşınları saat kimi işləyir. Deyirlər, başı çıxmadığı iş yoxdur. Amma bura bax, Musa dayı ona qız verməyəcək...

– Nə üçün?

– Necə nə üçün? Xəbərin yoxdur? Məsələ qaldırıb ki, dəyirmanı elektrikləşdirsin. Musa dayını da ki, tanıyırsan, dəyirman dədəsindən qalıb, elə bilir, ziyarətgahdır. Sən ölməyəsən, dəsgah olacaq... Belə hara gedirsən?

– MTS-ə.

– Niyə?

– Humayı götürüb, Musa dayıgilə gedəcəyəm. Bəyim bizi qonaq çağırıb.

– Sənin məhəbbətindən qətiyyən baş açmıram. Xudahafiz.

Şahlar acıqlı halda uzaqlaşdı.

Mən onun arxasınca baxaraq gülümsədim: «Burada baş açılmayacaq nə var ki?»

Maşın-traktor stansiyasının geniş həyəti cürbəcür kənd təsərrüfatı maşınları ilə dolu idi. Humay bir dəstə cavan mexanizatorla «S-86» traktorunun açılmış motoru yanında dayanıb, onlara nə isə izah edirdi. Başı söhbətə o qədər qarışmışdı ki, mənim gəldiyimi belə hiss etmədi. Qədir də burada idi. Hamıdan qabaqda dayanaraq, gözlərini qıyıb, mühəndisin sözlərinə diqqətlə qulaq asırdı.

Humay tez-tez əyilib-qalxır, əli ilə motorun yağlı hissələrinə toxunaraq, fikirlərini əyani surətdə başa salırdı. Onun gözləri indi hər zamankından daha parlaq və canlı görünürdü.

Mən mane olmamaq üçün qiraət otağına gedib, qəzetlərə baxdım...

... Biz Qədiri də dartıb özümüzlə birlikdə Bəyimgilə apardıq, o da mənim kimi, Rəşidlə bərk dost idi.

– Qorxuram Musa kişi bizi qova, – deyə o, bərkdən güldü. – Bu gün dəyirmanın tokla işləməyi barədə qərar çıxarmışıq.

Mən Şahların bayaqkı sözlərini xatırladım: «Doğrudan da, onlara niyə gedirəm? Yaxşısı budur ki, bir şey bəhanə elə, geri qayıt». Lakin qayıtmadım.

Biz qoşa çinarın altından keçib, qırmızı darvazadan içəri girdik, taxta pilləkənlə Musa dayının evinə qalxdıq.

Üzərinə ağ süfrə çəkilmiş stolun arxa tərəfində qoyulmuş enli taxta çarpayıda yastığa dirsəklənib kitab oxuyan Rəşid ayağa qalxdı, qabağımıza yeriyərək, hər birimizlə görüşdü. Sonra stulları göstərdi:

– Əyləşin.

Bəyim də gəlib bizə salam verdi və dərhal qayıdıb getdi.

Rəşid ucaboylu, gözəl, gülərüz bir oğlandı. Atasının gözləri kimi bir az dərində olan qara gözləri ilə qonağa diqqət yetirərək dedi:

– Əgər səhv etmirəmsə, siz bizim MTS-in mühəndisisiniz?

Qədir təsdiq etdi:

– Özüdür ki, var.

– Atamın kürkünə yaman od salmısınız. Acığından bu gün hamımızla dalaşıb. Mənə deyir ki, sən ispalkomla danış, qoymasın dəyirmana əl vuralar... Deyirəm, ay ata, dəyirmanın sahibi arteldir, ispalkom nə deyəcək?

Rəşid gülümsəyərək, stolun üstünə qoyulmuş açıq «Kazbek» qutusundan bir papiros götürüb yandırdı.

Eyvanın o biri başındakı kürənin üstündə nə isə bişirən Kəklik xala kök bədənini yırğalaya-yırğalaya gəlib, bizə «xoş gəldin» elədi. Onun əynində qolları enli boz köynəklə qara arxalıq, uzun tuman, başında ağ haşiyəli bənövşəyi kələğayı var idi.

– Necəsən, ay bizim dağların kəkliyi? – Qədir ona sataşdı.

– Hər halda, səndən qıvrağam. – Kəklik xala onun köklüyünə işarə vuraraq, dil altında qalmadı.

– Elə olar da! Kişini qupquru qurudub, özün, maşallah, gündən-günə ətə-cana gəlirsən.

– Bəsdir ha! – Kəklik xala məclisdə yad qonaq oturduğu üçün həya ilə yaylığını ağzına çəkdi.

Qədir gülərək:

– Eybi yoxdur, – dedi, – bunlar da öz uşaqlarımızdır, sirrinizi heç yerdə açmarıq.

– Bizim təzə inciner bu oğlandır?

– Hə, budur, ana, – deyə Rəşid cavab verdi, – adı da Humaydır.

Kəklik xala gülümsədi:

– Deyirəm, a kişi, niyə acıqlanırsan? İndi tok əyyamıdır. Görmürsən, fermanın qoyunlarını da tokla qırxırlar. O gün qız deyirdi ki, bir azdan taxılbiçən maşın da tokla işləyəcək, traktor da...

A kişi, deyirəm, indi ki, belədir, sən bu su dəyirmanı ilə ortada tək qalıb nə qayıracaqsan?

– Elədir, ana, – Rəşid ciddi təsdiq etdi.

Sonra bizə müraciətlə:

– Bilirsinizmi, – dedi, – o dəyirmanı sudan ayırmaq atama ağlasığmaz bir iş kimi görünür. Neçə dəfə olub ki, gecə bu eyvanda oturduğu yerdə birdən çayını yarımçıq qoyub, ayağa qalxıb ki, gedirəm dəyirmana, novun suyu azalıb. Soruşmuşuq, «nədən bildin?», deyib «səsindən».

– Lalın dilini anası bilər, – deyə Kəklik xala dönüb kürənin yanına getdi.

Bəyim stolun süfrəsini dəyişdi, sonra bizə çay gətirdi. O, heç kəsə baxmırdı. Hətta Humaya da... Xoşbəxt istəklilər həmişə belədir. Onların gözlərini bir-birinə zilləmələrinə ehtiyacları yoxdur. Etdikləri əhd-peyman onların qəlblərini birləşdirib bir qəlb etmişdir. Onlar gözləri ilə baxmasalar da, bir-birini görürlər.

Bəyimin öz əlləri ilə dəmləyib tökdüyü çay, çiçək kimi silib təmizlədiyi stəkanlar mənə doğma, eyni zamanda, uzaq və həsrətli duyğular təlqin edirdi. Elə bil ki, içərimdə nə isə şüşə kimi hey sınıb-tökülür, çilik-çilik olurdu. Bəyim mürəbbə qablarından birini mənim qabağıma çəkərək:

– Eyvaz, – dedi, – mürəbbə götür.

– Sağ ol, Bəyim.

Müsahiblərin arasında söhbət qızışmışdı. Humay Rəşidə deyirdi:

– Yeni dəyirman barəsində sədrlə də aramızda mübahisə var. Mən bu fikirdəyəm ki, köhnə dəyirmanın balaca, qaranlıq otağı bizim düşündüyümüz elektrik dəyirmanı üçün yaramaz. Binanın özünü də təzələmək lazımdır.

– Şübhəsiz! Sədr buna niyə etiraz edir ki? – deyə Rəşid soruşdu.

Qədir qırmızı, ətli ovurdlarını şişirdərək nə isə fikirləşdi. Sonra gözlərini qıyıb başını yana əydi:

– Axı, dəyirman gəlin-zad deyil ki, bəzək-düzək vuraq. Maşınları yaxşı işlədi, bəsdir. Bir də filan qədər xərc töküb, təzə bina tikmək nəyə lazımdır?

– Məsələ bəzək-düzəkdə deyil. On il bundan qabağa qədər biz, bax, onun içində olurduq. – Rəşid həyətin sağ tərəfindəki balaca kərpic binanı göstərdi. – Ancaq güzəranımız yaxşılaşandan sonra baxdıq ki, daha ora bizə əl vermir. Təzə aldığımız çarpayıları qoymağa yer tapmırıq. Ona görə də bu evi tikdik.

– Doğrudur, – deyə Humay hərarətlə təsdiq etdi. – Hətta mən deyirəm ki, dəyirmanın əsas binasından başqa, dən üyütməyə gələnlər üçün də bir-iki otaq tikək. Balaca bir qiraətxana düzəldək. Bəs necə?.. İşi görmə, gördün əsaslı gör! Yarımçıqdan mətləb çıxmaz.

– Bəs dəyirmanın köhnə binası nə olsun? – deyə Qədir ondan soruşdu.

– Nə olacaq? Uçurdub daşından istifadə edərik. Yerində də Eyvaz gözəl bir bağça salar.

Qədir dedi:

– Əşi, sən ölməyəsən, onda Musa bizi topa tutar!

Rəşid gülümsəyərək:

– Mən sizin fikrinizə tamamilə şərikəm, – deyə Humaya müraciət etdi.

Sonra o, Qədirə tərəf döndü:

– İstəsəniz, yeni dəyirman binası üçün sizə yaxşı bir layihə düzəldərəm.

– Daha nə deyirsiniz? – Humay sədrə baxdı.

Qədir ağ dəsmalla tərini silərək:

– Görürəm ki, sən Musa kişiyə qənim kəsilmisən, – deyə Humayla zarafat etdi. – Qoyun bir heyətlə məsləhətləşim, görüm nə deyirlər?

– Heyət təsdiq edəcək.

– Təsdiq eləsə, mənim də bir sözüm yoxdur.

Sonra o, məzəli bir ifadə ilə boynunun ardını qaşıyaraq əlavə etdi:

– Ancaq dəyirmanın binası söküləndə, gərək mən alapaça ürgəni minib kənddən qaçam.

Hamımız gülüşdük. Gəlib stəkanları yığışdıran Bəyim:

– Qədir dayı, bax, atama sataşma ha! – deyə onu hədələdi.

– Canım üçün, Bəyim, Bədirxandan o qədər qorxmuram, nə qədər ki, atandan qorxuram.

Humay etiraz etdi:

– Bədirxan xala çox mehriban arvaddır.

– Yaman! – Qədir başını buladı. – Qoy pambığın suyu başlasın. Gör necə mehriban olur!..

Bəyim qab-qacaq düzərək, anasının çəkdiyi plovu gətirib stolun üstünə qoydu. Qardaşı və Qədir nə qədər təklif etdilərsə də, özü gəlib bizimlə oturmadı. Kəndimizin köhnə adətlərindən bir çoxu hələ öz hökmündə idi. Qadınlar, xüsusən ərlik qızlar kişi məclisində oturub, çörək yeməzdilər ki, «ayıbdır».

Kəklik xala gözəl yeməklər bişirməsi ilə məşhur idi. Toylarda asılan qazanlara gərək o, heç olmazsa, bir nəzər salıb, göstəriş verə idi.

Biz çörək yediyimiz zaman Musa dayı eyvana çıxıb ədəblə, lakin quru və sərt bir ifadə ilə:

– Hamınız xoş gəlmisiniz, – dedi.

– Keç, əyləş, əşi, – Qədir qaşıqla dolu düyünü ağzına apararaq, böyründəki kürsünü göstərdi.

– Siz yeyin, mən çay içəcəyəm...

– Deyəsən, ürəyinin yanğısı hələ sönməyib.

Musa dayı Qədirin nəyə işarə vurduğunu hiss edərək, cavab verməyib, dilxor halda otağa keçdi. Qədir çiyinlərini qısaraq xısın-xısın güldü. Rəşid də gülümsədi.

Sonra mən Bəyimin iri nazık stəkana necə səliqə ilə çay töküb içəri apardığını gördüm.

Çörəkdən sonra biz soyuq Qarabağ dovğası içib, ordan-burdan söhbət edirdik. Bəyim söhbətdə iştirak etmir, üzərinə iydə budağı əyilmiş məhəccərə söykənib, həyətə baxırdı. Görəsən, nə düşünürdü?

Köklüyünə baxmayaraq, məclisdə hamımızdan az yeyən Qədir dəsmalla üzünün tərini silib Rəşidə deyirdi:

– Bu Humayı Allah bizə yaxşı yetirib. Gərək toku möhkəm işə salaq. O boyda dəmirçixanamız var, dəhnəmiz var.

– Bütün bunları elektrikləşdirmək üçün siz, hər şeydən əvvəl, mühüm bir tədbir görməlisiniz, – Rəşid əvvəlcə Qədirə, sonra da Humaya baxdı.

Qədir soruşdu:

– Nə tədbir?

– «SES»-i gücləndirmək lazımdır.

– Doğrudur, – deyə mühəndis təsdiq etdi. – İndiki «SES»-in elə böyük işlərə gücü çatmaz.

Qədir gözlərini qıyaraq fikirləşdi. Sonra qəti dedi:

– Böyüdərik. Su var, pul var, mühəndis də var. Daha nə lazımdır? Sərin düşdü, durun enək bağçaya. Musanın ağacları bu il yaman bar gətirib. Eyvaz, aşağı bağlardakı heyvalara qarışqa daraşıb, görmüsənmi?

– Sabah hamısını əhəngləyəcəyik.

Biz bağçaya endiyimiz zaman Humay ayaq saxlayıb, Bəyimə nə isə dedi. Qız lap güclə sezilən bir təbəssümlə altdan-yuxarı ona baxaraq dinmədi.

... Rəşidin verdiyi o kiçik qonaqlıqdan xeyli keçmişdi. Tökülmüş çiçəklərin yerində yaşıl meyvələr görünürdü. Zəmilər biçilirdi, tayalar vurulurdu. Ot çalımı çoxdan qurtarmışdı. Yük maşınları tez-tez dəyirman dərəsinə enərək, daş, qum, ağac boşaldıb qayıdırdı. Yetmiş ildən bəri ara vermədən səslənən su dəyirmanı ömrünün son günlərini yaşayırdı. Daim sükut içində olan Musa dayının demisi ağzından düşmürdü. Bu az müddətdə qonağın şöhrəti bütün rayona yayılmışdı. Onu tez-tez qonşu kəndlərə aparırdılar. Məsləhət alırdılar. İşi nə cür qurmuşdusa, MTS-in maşınları saat kimi işləyirdi.

Bir axşam çörək yeyəndən sonra o:

– Eyvaz, – dedi, – istəyirəm Musa dayının yanına elçi göndərəm, ağlın nə kəsir?

Mən fikirləşdim: «Görəsən, bu dəyirman əhvalatından sonra Musa dayı bizim qonağın elçisinə nə cavab verər?» Və dedim:

– Əlbəttə, göndərmək lazımdır.

– Ancaq bilmirəm kimi göndərək?

Mən heç bir kəsi xatırlaya bilmirdim. Qəribə idi, elə bil ki, kəndimizdəki adamların adları tamam yadımdan çıxmışdı.

– Bədirxan xalanı göndərsək, necə olar?

– Hə... gör heç ağlıma gəlirmi?.. Yaxşı tapmısınız. Musa dayı ilə bacarsa, ancaq anam bacarar. Su üstündə tez-tez dalaşsalar da, bir-birinin xətirlərini istəyirlər. Ay ana, bir bura gəl görək...

Humay həyəcanla ayağa qalxdı. Anam o biri evin qapısını açıb içəri girdi. Mən ona dedim:

– Elçi getmək lazımdır.

Arvad təəccüblə üzümə baxdı:

– Kimin üçün?

– Humay üçün.

– Humay kimin kürəkəni olmaq istəyir?

– Musa dayının?

– Hansı Musa dayının?

– Dəyirmançı...

– Nə olar, Bəyim qızların padşahıdır.

Sonra anam Humaydan soruşdu:

– Bircə de görüm, atan nə iş görür?

– Müəllimdir.

– Hə... Bəs anan?

– Anam yoxdur, ögey anam var.

– Qardaş-bacın necə, var?

– Xeyr, təkəm.

– Ay arvad, – dedim, – belə anket doldurmaqda fikrin nədir?

– Nə olacaq, kimin üçün elçi getdiyimizi gərək biləк, ya yox?

– Doğrudur, doğrudur, – deyə Humay cəld təsdiq etdi.

– Yaxşı, ana, indi nə vaxt gedirsən?

– Nə vaxt məsləhətdir?

– Lap elə sabah!

– Nə olar...

– Ancaq bir az ehtiyatlı danış. Musa dayının xasiyyətini bilirsən.

– Mənə tərslik eləyə bilməz. Qızın «hə»sini almısınız?

– Eh... Göydə!.. Bəs onsuz olar? – deyə mən təəccüblü bir ruh yüksəkliyi ilə cavab verdim. Lakin bununla belə, otağın havası mənə azlıq edirdi. Humayla anamı evdə qoyub, bayıra çıxdım.

Gecə isə həmişəki tək sakit və əzəmətli idi. On dörd gecəlik Ay düz Bəyimgilin evlərinin dalındakı qoşa çinarın üstündə dayanmış-

dı. Yarpaqları Ay işığında gümüş kimi parıldayan iydə ağacının ardındakı eyvanda heç kəs yox idi. «Bir dünyanın işinə bax, Bəyim! Səni başqasına istəmək üçün mən öz anamı elçi göndərirəm... Nə olar ki?.. Yəqin mənim yerimə sən də belə edərdin. Adam düşmən gülləsinin yarasına dözür. Halbuki sən mənim bu dünyada ən çox istədiyim, sevdiyim bir insansan!..»

Səhər bütün günü Bəyimi görmədim. Yalan nə deyim, qəsdən görməməyə çalışdım. Nə qədər də olsa, ağırdır. Görməyəndə yenə birtəhər dözmək olur. Bu bağdan girib, o birindən çıxdım. İki dəfə Şahların mənimlə danışmaq istədiyini hiss edərək, cəld uzaqlaşdım. Nə deyəcəyini gözlərindən bilirdim. Dünyada bu sual-cavabdan da pis şey varmı?!

Axşamçağı camaat işdən qayıdandan sonra anamı geyindirib-gecindirib qonşumuz Tükəz xala ilə birlikdə Musa dayının evinə göndərdik.

Humay yaman həyəcan keçirir, bir yerdə dayana bilmirdi.

– Siz nahaq yerə narahat olursunuz, – mən ona təsəlli verirdim. – Qızın rəyi olandan sonra kim nə deyə bilər?

– Musa dayı məni görəndə üzünü o yana çevirir. Heç ağlım kəsmir ki, razılıq versin. Ancaq yenə də, adam göndərmək lazım idi, – deyə o, gözlərində ciddi və ağıllı bir ifadə olduğu halda otaqda gəzinirdi.

– Çalışarıq razı olsun, olmasa, ayrı bir yol taparıq. – Humay mənim nə demək istədiyimi başa düşərək, eyni ciddi ifadə ilə:

– Yox, – dedi, – razılıq verməsə, çətin olacaq.

– Niyə axı?

– Qız atasının razılığı olmadan ərə getmək istəmir. Yaxşı da eləyir.

– Yaxşı eləyir?

– Əlbəttə.

– Mən sizi anlaya bilmirəm. Tutaq ki, Musa dayı heç razılıq vermədi, qız da onun sözündən çıxmadı. Bəs onda nə olsun?

– Çalışıb Musa dayını razı salmaq lazımdır. Mən bu əqidədəyəm ki, evlənən üçün ata-ananın rəyi əsas şərtlərdən biridir. Tutaq ki, Musa dayı onun ata yadigarını dağıdıb, ayrı bir şəklə saldığım üçün mənə nifrət edir. Biz, yəni Bəyimlə mən, bunu bir gerilik əlaməti hesab edərək, nəzərə almaya bilərik. Çünki cəmiyyətin xeyri dəyirmanın indi su ilə deyil, elektriklə işləməsindədir. Demək, məntiq bu konfliktin bizim xeyrimizə həll olunmasını tələb edir, elə deyilmi?

– Elədir...

– Ancaq, axı Bəyimi böyüdüb boya-başa çatdıran Musa dayıdır. Axı onun ömrünün ən yaxşı çağları Bəyimə, bir də camaat üçün işləyən o su dəyirmanına sərf olunub... İndi bunları onun əlindən alıb, özünü də rədd etmək böyük ədalətsizlik olmazdımı?

Bu zaman anam hirsli-hirsli içəri girdi.

– Nə oldu, ay arvad? – deyə mən həyəcanla soruşdum.

O mənə cavab verməyərək Humaya dedi:

– Lap günü sabah qızın qolundan tutub gətirərsən, eşitdinmi? Qoy ondan sonra dəyirmançı Musa ha atılıb-düşsün.

– Bir başa sal, görək nə dedi?

– Deyir, qızı o dəyirmanın boğazına atıb öldürərəm, amma ona vermərəm. Dedim, heç özündən çıxıb-eləmə. Bu, keçmiş zəmanə deyil... Ondan adam olmaz, vəssalam. Nə qədər eyham vururuq ki, qızla-oğlan alışıb-verişiblər, başa düşmür. Götür gəl, qoy qalsın yana-yana. Onda ağıllanar.

... Ertəsi gün, dəyirmanın qabaq tərəfində saldığımız alma bağının yanında Humayla Bəyimi dayanıb danışan gördüm. Qızın üzü solğun idi. Gözlərində kədər və təlaş var idi. Mən salam verib keçəndə, nəzərləri bir an üzümdə dayandısa da, fikrinin çox uzaqlarda olduğunu hiss etdim. Yəqin ki, bu anda mən onun üçün tamamilə yad bir adam idim.

Nahardan sonra Humay pencəyini geyərək:

– Eyvaz, – dedi, – xahiş edirəm mənimlə bir yerə gedəsən.

– Haraya?

– Yolda deyərəm.

Həyətdən çıxıb sükut içində bir qədər gedəndən sonra Humay dilləndi:

– İstəyirəm Musa dayı ilə şəxsən özümüz danışaq.

Doğrusunu deyim ki, Humayın sözü məni ürkütdü. Çünki evlənmək istəyən oğlanın qız barəsində gedib onun atası ilə danışması (xüsusən atası ilə) indiyə qədər bizim kənddə görünməmiş bir iş idi. Qorxurdum ki, Musa dayı Humaya ağır bir söz deyə, mən də pis vəziyyətdə qalam.

– Bəlkə Qədirə deyək, bir-iki ağsaqqal da götürüb...

O, sözümü kəsərək:

– Yox, – dedi, – özüm danışacağam. Əgər sən getmək istəmirsənsə...

– Nə üçün? Gedək!..

Mən vaxtilə fövqəladə qəhrəmanlıqlar haqqında düşünərdim. İndi öz dostumun işi üçün Musa dayının yanına getmək nədir ki?..

Su dəyirmanı hələ işləyirdi. Onun qabaq tərəfindəki açıqlıqda isə, bizim camaatın dili ilə desək, təzə «tək dəyirmanı» tikilirdi. Binanın layihəsini Rəşid vermişdi. O, hərdən gəlib, işin gedişinə baş çəkirdi. Srağagün də gəlmişdi. Gülə-gülə bizə deyirdi ki, «maşını düz sürdüm dəyirmana. Yaxşı ki, atam orada deyildi...»

Usta Qara ilə şagirdləri hörgünü xeyli qaldırmışdılar.

Musa dayı, adəti üzrə, novun bəri tərəfindəki böyürtkən kollarının kölgəsində oturub demisini tüstülədirdi. Bizi görəndə üzünü o

yana çevirdi. Bir istədim deyəm ki, Humay, gəl sən bu daşı ətəyindən tök, ancaq demədim.

Humay köhnə dost kimi, tamamilə sərbəstcə:

– Salam, Musa dayı, – dedi və kişinin gözlərindəki qəzəbə əhəmiyyət verməyərək, otların üstünə əyləşib, mənim də oturmağıma işarə etdi.

Əyləşdim. Sonra Humay heç tərəddüd etmədən:

– Musa dayı, – dedi, – mən sizinlə danışmağa gəlmişəm.

Musa dayı bir neçə saniyəlik sükutdan sonra bizə tərəf baxmadan soruşdu:

– Nə barədə?

– Mən sizinlə Bəyim barədə danışmaq istəyirəm...

Musa dayı iti və sərt bir hərəkətlə üzünü bizə tərəf çevirib, heyrətlə əvvəlcə mənə, sonra Humaya, sonra yenə mənə baxdı. Sanki kişi Yer üzündə görünməmiş qəribə bir şey eşitmişdi. Birdən barıt kimi açılaraq, dəyirmanın şırıltısını batıran qəzəbli səslə mənim üstümə qışqırdı:

– Ə, Bədirxan oğlu, bunun haradan çıxdığını bilmirəm, bəs sən heç utanıb-qızarmırsan?

Humay pərt, lakin sakit halda dedi:

– Niyə təhqir eləyirsiniz, biz ki, bir pis iş eləməmişik?

Musa dayının dərindən baxan gözlərindən od tökülürdü:

– Üzünüzdə həya olsa, adamı adam yerinə sayarsınız! Mənim qızım sizin üçün su dəyirmanı deyil ki, iclasa qoyasınız. Adam göndərdin, cavabını da aldın.

Humay təslim olmaq istəmirdi:

– Bəyim sizin fikrinizlə razı deyil.

– Mənim qızımın adını tutma! – Musa dayı göy kimi guruldadı. – Eşitdinmi? Mən uşaq böyütməmişəm ki, hər dərədən keçən onun adını tutsun.

– Mən dərədən keçən deyiləm, Musa dayı!

Kişi yanıb-yaxılaraq, bu dəfə cavab verməyə söz tapmadı. Birdən ayağa qalxıb, əsəbi addımlarla uzaqlaşdı. Humay onun ardınca baxa-baxa qaldı.

– Görəsən, dəyirmana görə belə edir, yoxsa, ümumiyyətlə, məndən zəhləsi gedir? – deyə öz-özü ilə danışırmış kimi soruşdu.

– Əlbəttə, Musa dayını ən çox hirsləndirən dəyirman məsələsidir. Ancaq ola bilsin ki, sənin buralı olmamağının da bir az təsiri var. Eşitdiyimə görə, keçmişdə bizim camaat «gəlmə» adama qız verməzmiş.

– Niyə?

– Kim bilir...

Kəndin girəcəyində Qədirə rast gəldik.

– Haraya belə? – deyə gözlərini qıyaraq soruşdu.

Humay Musa dayı ilə olan söhbətimizi nöqtəsinə qədər ona danışdı.

Qədir əllərini bir-birinə vuraraq bərkdən güldü:

– Əşi, – dedi, – bir tərəfdən kişinin ata-baba yadigarını uçurub dağıdırsan, o biri tərəfdən də qızına elçi göndərirsən. Belə şey olar?

– Yaxşı, bəs indi neyləyək? – deyə Humay soruşdu.

Qədir iri ətli əllərini kəmərinə keçirib, ovurdlarını şişirdərək fikirləşdi. Sonra dedi:

– Qızla maşına əyləşib «Zaqs»a getməkdən başqa ayrı çarəsi yoxdur. «Pobeda» sizin qulluğunuzda, ancaq elə tərpənin ki, Musa kişi xəbər tutmasın. Yoxsa mənimlə ömürlük qanlı-bıçaq olar ki, maşın verib, qızımı qaçırtmısan. Yaxşı olar ki, Kəkliklə, Rəşidlə məsləhətləşəsiniz.

– Onlarla kim danışsın?

– Mən danışaram, – deyə Qədir cavab verdi.

... Artıq hər şey hazır idi. Kəklik xala ilə Rəşid razılıq vermişdilər. Sabah Humay ilə Bəyim kəbin kəsdirməyə gedəcəkdilər.

Humay maşın-traktor stansiyasının yaxınlığında özü üçün ev tutdu. Evin sahibi Hüseynəli dayı dünyagörmüş, ürəyiaçıq bir kişi idi. Humayın mənzilini lap gəlin otağı kimi bəzətdirdi. Demək, o, bizdə axırıncı dəfə qalacaqdı. Ayrılıq həmişə kədərlidir.

Humay, adəti üzrə, başını aşağı salaraq, otaqda var-gəl edirdi, nə isə fikirləşirdi. Birdən mənim qarşımda dayanaraq:

– Eyvaz, – dedi, – neçə gündür mən səni birtəhər görürəm.

– Nə cür?

– Elə bil, nə isə bir sıxıntı keçirirsən.

– Ola bilər.

Sonra sakit və ciddi ifadə ilə əlavə etdim:

– Bilirsənmi, ağırdır, birdən-birə unutmaq olmur.

– Nəyi?

– Sevdiyin, istədiyin qızı.

– Sən kimi sevirdin?

– Bəyimi.

Sükut.

O, başını aşağı salaraq ahəstə səslə cavab verdi:

– Mən bunu hiss edirdim. Ancaq niyə əvvəldən demirdin?

– Nə mənası vardı ki?..

Humay dinmədi.

Bəlkə də, mən bunu açmamalı idim. Lakin o mənim dostum, qonağım idi. Mən belə böyük bir sirri ondan gizli saxlaya bilməzdim.

– Səhər saat neçədə şəhərə gedəcəksiniz? – deyə mən uzun və gərgin sükutu pozaraq soruşdum.

O, başını qaldıraraq dərin, ciddi bir nəzərlə üzümə baxdı:

– Saat yeddidə!

... Səhər şəfəq söкülən zaman Qədirin «Pobeda»sı qoşa çinarın altında dayandı. Mən anamla Humayı maşında qoyaraq, düşüb Musa dayının darvazasını üç dəfə yavaşca taqqıldatdım. (Musa dayının dəyirmanda qaldığını dürüst öyrənmişdik). İki dəqiqə çəкmədi кi, Kəкlik xala ilə Bəyim gəldilər. Qızın üzündəкi solğunluq və кədər məni heyrətə saldı. Görünür, ən xoşbəxt dəqiqələrin də özünə görə dərdi olurmuş!

Kəкlik xala da həm кefsiz, həm də həyəcanlı idi. Humay qızı qarşılamaq üçün maşından çıxmaq istədi.

– Lazım deyil. Sən otur, – deyə mane oldum.

Sonra Bəyimin əlindəкi çamadanı alıb, maşına qoydum. Anam qıza dedi:

– Gəl, bala, gəl otur.

Bəyim sanкi bu sözdən diкsinərəк, başını qaldırıb, gözlərini həyəcan içində ona zilləmiş anasına baxdı. Birdən hər iкisi qucaqlaşdı. Qız üzünü anasının geniş, ətli кöкsünə sıxaraq ağlayırdı. Həmişə üzügülər olan Kəкlik xala da uşaq кimi ağlayırdı. Mən üzümü yana çevirdim.

Anam dedi:

– Tay yaxşı, Kəкlik, ağladın, ürəyini boşaltdın, qoy qız otursun.

Kəкlik xala yaylığının ucu ilə gözlərini silib, qızının üzündən öpdü:

– Get, bala, xoşbəxt olasan!

Bəyim dinməz-söyləməz, кimsənin üzünə baxmadan, gəlib maşının dal tərəfində, anamın yanında oturdu.

– Sür! – deyə Humay həyəcanlı səslə şoferə dedi.

Maşın toz qopara-qopara uzaqlaşdı. Gözlərinin yaşı hələ də qurumamış Kəкlik xala ilə mən dayanıb onun ardınca baxırdıq. Maşın isə getdiкcə uzaqlaşırdı. Nəhayət, o, səhər günəşi ilə işıqlanmış mavi üfüqdə gözdən itdi...

Mən biçilmiş buğda zəmilərinin arası ilə yavaş-yavaş irəliləyirdim. Dərz ilə dolu bir maşın gəlib yanımdan кeçdi. Maşının üstündə yabasını dərzə sancmış Şahlar məni görüb gülümsədi:

– Sabahın xeyir, aqronom! – qışqırdı.

Onun gözəl üzü sevinc və xoşbəxtliкlə parlayırdı.

Mənim yolumla çarpaz кəsişən cığırla əyinlərində qırmızı, sarı, yaşıl paltar olan bir dəstə qız-gəlin кeçib gedirdi. Onlar bir-biri ilə zarafatlaşır, bərкdən gülüşürdülər. Məni görərкən dəmirçi Muradxan dayının qızı gözəl Əsmər yoldaşının qulağına nə isə pıçıldadı. Sonra hər iкisi bir an çevrilib mənə tərəf baxaraq, utancaq, mehriban və baкirə bir ifadə ilə gülümsədi. Bir dəfə Bəyim gülə-gülə mənə demişdi кi, «Eyvaz, Əsmər səndən yaman çox danışır».

Dünyada Bəyimin iti və həssas nəzərlərindən nə yayına bilərdi?!

Uzaqdan çaparaq bir atlı gəlirdi. Bu, Qədir idi. O, bir əli ilə cilovdan, digər əli ilə furajкasından yapışaraq, atın üstündə quş кimi oturmuşdu.

Mənə çatanda cilovu çəкdi. Alapaça ürgə iki dəfə şahə qalxıb cilovu gəmirə-gəmirə dayandı.

– Nə oldu? – deyə Qədir gözlərini qıyaraq soruşdu.

– Getdilər!

Sədr daha heç bir söz deməyərəк, bir yerdə aram tapmayan ürgənin cilovunu buraxdı.

Zəminin кənarındaкı yaşıl otluqdan çil-çil turac pırıltı ilə havaya qalxıb, ayrı bir yerə düşdü.

Mən yoluma davam edərəк, dəyirman aşırımını endim. Heç nədən xəbəri olmayan Musa dayı böyürtкən кollarının кölgəsində oturub, üzü o tərəfə, demi çəкirdi.

Usta Qara ilə şagirdləri təzə dəyirmanın divarlarını hörürdülər. Mən onların yanından кeçib, bağa getdim. Bu gün alaq otlarını təmizləyəcəкdiк...

1954.

YUN ŞAL

«ZİL» markalı maşınımız sonsuz kimi görünən geniş çölü keçərək, nəhayət, axşam toran qovuşan vaxt çox da hündür olmayan dikdirin üzərində yerləşmiş üç-dörd balaca, kərpic evdən ibarət fermaya çatdı.

Mən sürücü Mikolaya:

– Düş gör, – dedim, – Südabə adlı qız bu evlərin hansında yaşayır?

– Evdə olsa nə deyim?

Mən bir qədər fikirləşəndən sonra:

– De ki, qohumlarınızdan biri gəlib, sizi görmək istəyir...

İri gövdəli sürücü Mikola maşından düşərək, palçığa bata-bata altdan-yuxarı yüyürdü və yoxuşun başına çatıb, sükut içində divarları ağaran evlərin arasında görünməz oldu, mən papiros çıxarıb yandırdım. Çox çəkmədi ki, dikdirin üstündə sürücü ilə yanaşı ucaboy bir qadın da göründü. O, əlini qaranlıq üfüqə doğru uzadaraq, sürücüyə nə isə dedi. Yavaş yeriməyə hövsələsi çatmayan Mikola qayıdıb üstdən-aşağı yuvarlandı, yoxuşun yarısında sürüşüb şappıltı ilə yerə dəyərək:

– «Çort», – deyə səsləndi.

Dərhal ayağa qalxaraq maşına çatanda səbrsizliklə soruşdum:

– Nə oldu?

– Deyir, evdə yoxdur, o qaralan təpənin dalında, ağıllardadır.

– Maşını döndər oraya.

Evlərlə ağılların arası daha bərk palçıq olduğundan, maşın bir kilometrdən də az məsafəni xeyli çətinliklə gəlib çıxdı.

İri qoyun itləri qəzəblə hürüşərək, tökülüb maşını dövrəyə aldılar.

– Ay it! Ay it... – kərpic hasarın ardından səslər eşidildi.

Sonra iki çoban yüyürüb gələrək, itləri qovub bizə yaxınlaşdı.

– Südabə xanım burada işləyir? – deyə Mikola başını kabinədən çıxarıb soruşdu.

– Bəli, bizim zootexnikimizdir, – başında saçaqlı dəri papaq, çiynində yapıncı olan çoban cavab verdi.

– Deyin şəhərdən qohumları gəlib, onu görmək istəyir.

Yapıncılı çoban yaşca özündən kiçik yoldaşına dönərək:

– Yüyür Südabə bajını çağır, – dedi.

Sonra mənə müraciətlə:

– Düşün, içəri buyurun.

– Sağ olun, – dedim, – yol üstəyik.

Ağıldan boğunuq tüstü qalxır və yuyulmamış yun qoxusu gəlirdi.

Südabə gənc çobanla birlikdə tələsik addımlarla maşına yaxınlaşdı.

– Məni soruşan kimdir?

Maşının qapısını açaraq:

– Mənəm, – dedim.

O, bir neçə saniyə heç nə demədi.

Sonra:

– Sən hara, bura hara? – deyə təəccüblə pıçıldadı.

Mən maşından düşən işıqda onun ağ, qızılgül ləçəyitək zərif üzünə baxaraq:

– Gəl içəri, bayır soyuqdur, – dedim.

Və o, tamam qeyri-şüuri bir hərəkətlə qalxıb yanımda oturanda qapını örtdüm.

Yapıncılı çoban maraqla bizə baxan gənc yoldaşına him elədi və onlar dönüb ağıla getdilər.

– Mən də qoyunlara baxmaq istəyirəm, – deyərək Mikola, yəqin ki, bizi tək qoymaq lazım gəldiyini hiss edib kabinədən çıxdı.

– Get, – dedim. – Ancaq mənim kim olduğum barədə onlara heç nə demə.

Biz tək qaldıq.

– Niyə bu vaxtacan evə getməmisən? – deyə soruşdum...

– Qoyunlarımız doğmağa başlayıblar...

– Sənin üçün burada çox çətin keçmir ki?

– Əvvəllər çətin keçirdi... İndi öyrəşmişəm.

– Evinizdən məktub alırsanmı?

– Alıram, tez-tez alıram.

– Nə üçün mənim məktubuma cavab yazmadın?

Üzümə ani və məyus bir nəzər salaraq dinmədi.

– Niyə susursan, Südabə?

– Axı, nə mənası var idi ki?

Doğrudan da, nə mənası var idi? Cavab yazsaydı belə, bu məktublaşma nə qədər davam edə bilərdi? Mən ki, heç bir zaman evlənməyəcəyimi ona mərd-mərdanə demişdim. Ona görə yox ki, Südabə pis qız idi, yox! O, Bakıda beş qızın biri idi. Ona görə ki, gələcək üçün mənim bir sıra elmi planlarım var idi və o əqidədəydim ki, bunların həyata keçirilməsi üçün, hələlik subay qalmağım lazımdır. Lakin bununla belə, onun «nə mənası var idi ki...» deməsi ürəyimi ağrıtdı.

– Sən inciməkdə haqlısan, – dedim. – Mən sənin şəhərdə qalmağına kömək eləmədim.

– Mən ki, bu barədə sənə heç bir söz deməmişdim.

– Yadındadırmı, son kursda oxuduğun zaman bir dəfə işarə vurmuşdun.

– İşarəni başa düşməmək də olardı, – o, yenə də üzümə ani bir nəzər salaraq, zarafatla cavab verdi.

– Yox, mən başa düşmüşdüm, mən anlayırdım, ancaq... bilirsənmi, o zaman mən ağır bir çətinlik qarşısında qalmışdım. Mən sizin ikinizdən birinizi – ya səni, ya da bacımı şəhərdə işə düzəldə bilərdim. Anam, qohumlar... (Südabə ilə bacım institutu bir yerdə qurtarmışdılar).

O mənim sözümü kəsib, bacımı soruşdu:

– Firəngiz necədir?

– İşləyir. Bu yaxınlarda toyları olacaq.

Südabə mehribanlıqla gülümsədi:

– Bilirəm. Özü yazmışdı.

– Məgər siz məktublaşırsınız?

Qız başı ilə təsdiq etdi.

– Bəs nə üçün Firəngiz heç mənə deməyib?

– Mən xahiş etmişdim ki, deməsin.

– Niyə?

– ...

Mən əsl məqamın çatdığını güman edərək:

– Südabə, – deyə təntənə ilə bildirdim, – sizin nazirlikdən xahiş etmişəm ki, sənin şəhərə dəyişilib, elmi sahədə işləməyinə icazə versinlər. Axı, sən institutu əla qiymətlə bitirmisən.

– Təşəkkür edirəm, ancaq nahaq zəhmət çəkmisən.

– Bəlkə, mənə acığın tutduğu üçün belə deyirsən?

O, kədərlə başını buladı. İkimiz də susub dinmirdik.

O, gözlərini qaldırıb mənə uzun bir nəzər saldı. Sanki üzümdə hər bir cizgini diqqətlə oxumaq istəyirdi.

– Şəhərə bir sözün-zadın yoxdur ki?

– Yoxdur, – deyə eyni mehribanlıqla cavab verdi.

Sonra birdən tərəddüdlə əlavə etdi:

– Anam üçün bir şal toxumuşam. Dedim, bəlkə...

– Ver aparım.

– Əziyyət olmaz ki?

– Nə əziyyət olacaq, sürücü ilə göndərərəm.

– Burada deyil, evdədir.

– Eybi yoxdur, gedərik, götürərəm.

Sıqnalı basdım. Mikola ilə gənc çoban da gəldi və o bu dəfə mənə əhəmiyyət vermədən təmiz Qarabağ şivəsi ilə:

– Südabə bajı, – deyə sevinclə bildirdi. – Qumral qoyunun bir cüt əkiz balası oldu.

Qız yerindən qalxaraq:

– Bir dəqiqə, – o, məndən üzr istəyib maşından düşdü.

Və gənc çobanla birlikdə qaranlıqda palçığı şappıldada-şappıldada ağıla sarı yüyürdü. İki-üç dəqiqədən sonra qayıdaraq:

– Oy, Cəmil, – dedi, – elə qəşəngdirlər, elə qəşəngdirlər, baxsan, xoşuna gələrlər.

O, mənim adımı əvvəllərdə olduğu kimi, mehriban, doğma, əziz bir ahənglə çəkdi və mən onun zərif üzünə həyat və gözəllik verən gözlərinin dərinliklərində alışan qığılcımları yenidən gördüm. Lakin o, mənim baxışlarımı hiss edərək kirpiklərini endirib susdu. Yalnız maşın fermaya çatanda:

– Düş gedək qonağımız ol, – dedi.

– Birdən söz-həkət olar.

– Mən söz-həkətdən qorxmuram!.. Siz bir az dincələrdiniz, mən də anamgilə balaca bir kağız yazardım.

Bu dəfə etiraz etmədim. Maşından düşdük. İndi göz-gözü görməyən bir qaranlıq olduğundan, o, cibindən balaca əl fənəri çıxarıb yandıraraq, yolumuzu işıqlandırdı.

– Sənin fənərin də varmış? – deyə zarafat elədim.

– Burada fənərsiz keçinmək olmaz. Sovxozda balaca bir «HES»imiz var. İndi onu böyüdürük. Ondan sonra işimiz yaxşı olacaq, bizə də işıq verəcəklər.

O sürüşdü, əl atıb qolumdan yapışdı. Mən onun əlinin tanış təmasını hiss edərək, Bakıda, dəniz kənarındakı körpə akasiya ağacları arasında gəzdiyimiz yay axşamlarını xatırladım. O bilirdi ki, biz evlənməyəcəyik. Bununla belə, heç bir zaman mən onu kədərli görməzdim. Yalnız bir dəfə ağlamışdı. Özü də ürəkdən, yana-yana ağlamışdı. Buna səbəb də mən olmuşdum. Mən ona elçi göldiyini və qızın rədd cavabı verdiyini bacımdan eşitmişdim.

Elçi göndərən yaxşı oğlan idi. Ağıllı, gözəl, elmli! Ona görə də, axşam akasiya ağacları yanında görüşdüyümüz vaxt, söhbəti hərləyib bu məsələnin üzərinə gətirərək:

– Nahaq rədd eləmisən, – deyə ürəkdən təəssüf elədim. – O, çox yaxşı oğlandır.

Qız ilan vurmuş kimi dayandı. Diqqətlə üzümə baxdı. Mən heç bir zaman onun gözlərində belə ifadə görməmişdim. Mənə elə gəldi ki, o bu saat qışqırıb dünyadakı pis sözlərin hamısını üzümə çırpacaq.

Lakin o, belə etmədi. Ağaca söykənib ağladı, ağladı... Ürəyi boşalandan sonra bu barədə bir kəlmə də söz demədən, yenə də sakit halda qoluma girdi.

... Biz yoxuşu qalxaraq, Südabənin neft çırağı ilə işıqlanmış balaca və isti otağına daxil olduq. Qapıya yaxın yerdə kiçik dəmir soba yanırdı. Evin ortasında, üzərinə təmiz ağ süfrə salınmış miz, üç-dörd kürsü qoyulmuşdu. Köhnə arakəsmənin arxasında qızın çarpayısı yerləşmişdi. Pəncərənin qabağındakı balaca yazı stolunun üstündə batareya ilə işləyən bir «Rekord» qəbuledicisi, sellüloiddən qayrılmış şəffaf mürəkkəbqabı, «Azərbaycan kənd təsərrüfatı» jurnalının bir neçə nömrəsi və açıq kitab vardı.

Südabə mənim paltomu və papağımı alıb sadə taxta asqıya keçirdi.

– Əvvəlcə çay içmək istəyirsiniz, yoxsa...

– Yaman acıq, – dedim.

Sonra sobanın üstündəki balaca qalaylı qazana işarə ilə:

– Qorxuram, bundan bir şey olmasın, – deyə zarafat elədim.

İçəridəki ucaboylu qadın əyilib Südabənin qulağına nə isə pıçıldadı və qız gülümsəyərək:

– Xala sizin üçün plov bişirmək istəyir, – dedi.

– Çox sağ olun!

– Bu qonağın düyü xörəyindən xoşu gəlmir, – deyə o, stolun üstünə çəngəl-bıçaq qoyaraq qadına cavab verdi.

Sonra təmiz boşqablara çəkilmiş qovurmanı gətirib bizim qabağımıza düzdükdə:

– Bəs özünə? – deyə soruşdum.

– Özüm də oturacağam. Bu gün nahara gəlməyə macalım olmayıb.

Lakin o, bizim kimi həvəslə yemirdi. Ağzını yavaş-yavaş tərpədərək mənim necə iştaha ilə yediyimə tamaşa edirdi. Keçmişlərdə, təsadüfən bir yerdə nahar elədiyimiz zamanlarda olduğu kimi, xəfif, fərəhli bir təbəssümlə tamaşa edirdi.

Çörəkdən sonra Südabə bizə çay töküb verərək, özü evlərinə məktub yazmağa başladı.

Mən onun çoxdan manikürsüz, dibdən kəsilmiş təmiz dırnaqlarına baxırdım. Mən onun soyuqdan azca çatlamış əllərində indi sərt, yabanı bir gözəllik duyurdum. Mən ixtiyarsız olaraq, başımı qaldırıb onun üzünə baxanda isə diksindim... sanki bu mənim indiyə qədər görüb tanımadığım tamam ayrı, yad və uzaq bir sima idi. Lakin bununla belə, çırağın sarı ziyası ilə işıqlanmış həmin bu yad simada mənim dünyada birinci dəfə görüb hiss etdiyim heyrətli bir gözəllik var idi. O, tünd-şabalıdı saçlarını yumrulayıb sancaqlamışdı. Aşağı enmiş kirpikləri gözlərinin altını kölgələndirmişdi. Bu iri kölgədəki əsrarəngizlik, düz burnu, uzun və şəffaf boğazının sol tərəfindəki qara xal onun ağ, qızılgül ləçəyitək zərif üzünün gözəlliyinə qeyri-adi bir ahəng verirdi. Mən əvvəllərdə də bunu hiss edirdim. Lakin indi... qaranlıq düzün ortasındakı bu balaca otaqda, neft çırağının sarı ziyası içində bu gözəlliyin ahəngi mənim üçün tamamilə yeni idi. Yeni bir nəğmə idi... Birdən bayırda, mənim keçib gəldiyim geniş düzənlikdə qalxan küləyin soyuq uğultusu bu sözsüz nəğməmi batırdı. Ürəyimdə ağır, çox ağır bir pərişanlıq hiss edərək, bütün həyat tərəfindən unudulmuş kimi qəribsədim.

O, məktubu bitirərək, qalxıb arakəsmənin dalından təzə toxunmuş bir yun şal gətirdi, zərfi də onun arasına qoyaraq, səliqə ilə qatlayıb balaca çit parçasına bağladı.

Artıq paltolarımızı geymişdik. O, şalı mənə uzatdıqda birdən dayandı. Bir an bayırdakı küləyin uğultusunu dinlədi. Sonra:

– Bəlkə qalıb səhər gedəsiniz, – dedi, – biz xala ilə o biri otaqda yatarıq.

Bu zaman əlində odun parçaları içəri girən ucaboylu qadın da:

– Qalsanız yaxşıdır, – deyə təsdiq etdi. – Yaman qarlayır, bu saat yolu-rizi tutacaq. Allah eləməmiş, birdən düzdə azarsınız.

Mən:

– Heç nə olmaz, – deyə şalı qızdan alıb, balaca əl çamadanına qoydum.

Və qadının təsvir etdiyi təhlükə ehtimalı məndə anlaşılmaz bir ruh yüksəkliyi doğurdu. Südabə daha təkid etmədi və mənim sözümə baxmayaraq, bizi ötürmək üçün yoxuşun ayağına, maşının dayandığı yerə qədər gəldi. Qaranlıq çöldə külək uğuldayır, seyrək qar səpələyirdi. Mikola yerinə keçəndən sonra mən:

– Südabə, – dedim, – nə üçün inad edirsən, nə üçün şəhərə gəlmək istəmirsən?

O mənim əllərimdən tutaraq keçmişlərdə, fərəhli axşam görüşlərindən qayıdıb ayrıldığımız zamanlarda olduğu kimi yaxın, doğma, əziz bir ahənglə:

– Cəmil, – dedi, – mən səndən inciməmişəm.

Nəfəsi daraldığı üçün bir an susdu. Sonra sözünə davam edərək dedi:

– Mən səni həmişə yaxşılıqla xatırlayacağam. Get, ancaq yaman soyuqdur! Özünü gözlə! Əgər yolu itirsəniz, mənim işığımı tuş tutub, geri qayıdın. Çırağı səhərə qədər söndürmərəm. Bizim işıqlar lap Bakı yolunacan görünür.

Mən ondan ayrılaraq iti addımlarla gedib maşına mindim.

– Do svidaniya, – həmişə bizimlə azərbaycanca danışan Mikola bu dəfə qıza rusca müraciət etdi:

– Do svidaniya, – deyə Südabə cavab verdi. Mən onun səsində bir titrəyiş hiss elədim.

Maşın tərpənib qar örtmüş düzləri işıqlandıra-işıqlandıra irəliləmədi. Mən pəncərədən başımı çıxarıb geri baxdım və ağaran qarın üzərində Südabənin qaraltısını seçdim. O hələ də eyni yerdə durub baxırdı. Sonra, xeyli sonra balaca, zəif bir işığın ağır-ağır yuxarı qalxdığını gördüm. Yəqin ki, bu onun əl fənərinin işığı idi.

Daha sonra maşın uzaqlaşdıqca tez-tez pəncərədən başımı çıxarıb geriyə, fermanın işıqlarına baxırdım və zaman keçdikcə onlar da bir-birinin ardınca sönürdü. Nəhayət, qaranlıq düzənliyin ortasında güclə seçilən tək bir işıq qaldı. Sonra o da yox olduqda, «doğrudanmı, o, çırağı söndürdü?» deyə kədərlə düşündüm. Lakin o tək işıq yenə də göründü və yalnız biz gəlib Bakı asfalt yoluna çıxandan bir qədər sonra tamam gözdən itdi.

Elə bil ki, çölü bürüyən qaranlıq daha qatı, soyuq və kədərli oldu. O zaman mən balaca əl çamadanını götürüb dizlərim üstünə qoydum. Lakin onu açıb əllərimlə şala təmas etdikdə, iki saat bundan əvvəl neft çırağının işığında məktub yazan qızın siması bütün o qəribə gözəlliyi ilə qarşımda görünüb və bir anda da məndən uzaqlaşdı. Mən çölü bürüyən soyuq qaranlıq içində ağır, dərin bir ümidsizlik, bir qəriblik hiss edərək yun şalın üzərinə yıxıldım...

Səhər gəlib evimizə çatdığım zaman bütün ailəmiz böyük yemək otağında əyləşib çay içirdi. İnstitutda professor olan və yaşına nisbətən çox gənc görünən atam da, bacım Firəngiz və onun bakenbardlı, çəhrayı bənizli nişanlısı da, həmişə yaxşı geyinməyi sevən qədd-qamətli anam da buradaydı. Hamısı məni xoşbəxt və mehriban təbəssümlə qarşılayıb, ordan-burdan sorğu-suala tutdu. Yalnız bacım Firəngiz susub mənə təəccüblə baxırdı və mən bunu hiss edərək, tələsik öz otağıma keçib qapını örtdüm, daha doğrusu, bağladım. Sonra yun şalı çıxarıb, açarı həmişə özümdə olan böyük kitab şkafında gizlətdim. Axşam saat doqquzda yenə də otağımın qapısını bağlayıb, yun şalı sahibinə göndərmək üçün şkafdan çıxartdım. Çit bağlamanın qırçını arasından təzə, merinos yunundan toxunmuş şalın bir parçası görünürdü.

Bu yun şalı o toxumuşdu və indi mən onu həmişəlik olaraq öz sahibinə göndərməli idim. Mən pəncərədən başımı çıxararaq, aşağıda maşında gözləyən sürücüyə:

– Gedə bilərsən Mikola, bu günlük mənə lazım deyilsən, – dedim.

Maşın səslənib uzaqlaşdıqda, ürəyimdə ani bir yüngüllük hiss edərək, yun şalı çarpayımın böyründəki balaca stolun üstünə qoydum.

Lakin nə olursa-olsun, şalı sahibinə vermək lazım idi və mən o biri axşam yun şalı sürücü ilə göndərmədim, özüm götürüb apardım! Özü də yemək otağından deyil, o biri qapıdan çıxdım. Nə üçün? Bilmirəm. Heç nə bilmirəm.

Mən Südabəni qapılarına qədər çox ötürmüşdümsə də, nə evlərinə girmişdim, nə də ailəsi ilə tanış idim. Lakin bilirdim ki, o, atasının-anasının bircəciyidir. Onu da bilirdim ki, köhnə rus dili müəllimi olan atası üç il bundan qabaq pensiyaya çıxmışdır.

Balaca evin pillələrini qalxıb ümumi şüşəbəndə girdim və kəndirə sərilmiş paltarları yığışdırmaqda olan bir rus qadınından Möhsünzadəgilin hansı otaqda yaşadıqlarını soruşdum. Qadın çox həvəslə gəlib otağı göstərdi. Zəngi çaldım.

– Buyurun, – deyə içəridən kişi səsi eşidildi.

Mən daxil olduğum zaman ortada qoyulan balaca stolun arxasında oturmuş yaşlı kişi qəzet oxuyur, qapı tərəfdə oturmuş yaşlı qadın isə corab toxuyurdu. Onlar heyrət ediləcək qədər bir-birilərinə

bənzəyirdilər. İkisi də bir yaşda görünürdü. İkisinin də saçları dümağ idi. İkisi də balaca, yumru və xoşsifət idi. İkisi də salamımı alıb, eynəklərinin altından maraqla mənə baxdı.

– Bu əmanəti Südabə göndərib, – deyərək bağlamanı stolun üstünə qoyanda ikisi də birdən ayağa qalxıb eynəklərini çıxartdı.

– Siz orada işləyirsiniz? – deyə kişi soruşdu.

– Xeyr, – dedim, – ezamiyyətə getmişdim.

– Əyləşin, əyləşin, – deyə ikisi də bir ağızdan təklif etdi.

Mən kürsü çəkib oturandan sonra özləri də əyləşdilər.

– Necədir, sınıq deyil ki? – deyə ana soruşdu.

– Xeyr, burdakından da yaxşıdır.

– Siz Südabəni burada görmüşdünüz?

– Bəli, görmüşdüm, – deyə cavab verdim.

Və onların maraqla mənə dikilmiş nəzərlərini öz üzərimdən yayındırmaq üçün:

– Şalın arasında məktub var, – dedim.

Ana tələsik bağlamanı açaraq zərfi götürüb cırdı və məktubu nəzərdən keçirmək istərkən ata eynəyini taxıb:

– Ver görüm, – deyə kağızı ondan alıb uca səslə oxumağa başladı:

«Əziz atam və anam!

Məktubunuzu dünən aldım. Məndən nahaq nigaran olursunuz. Lap yaxşıyam. Ana! Xahişini yerinə yetirib otağımda soba da qurmuşam. Xanım arvad yenə də mənimlə olur. Özümü soyuqdan gözləyirəm. Çörəyimi də vaxtında yeyirəm. Bu barədə arxayın olun. Sovxozda məndən çox razıdırlar. Dünən direktorumuz gəlmişdi, mənim işimi tərifladi. Deyir, Möhsünzadə yoldaş gələndən bəri dördüncü ferma birinci yerə keçmişdir. Özümü də fermada yerli komitə sədri seçiblər. İndi mən də sovxoz rəhbərləri qarşısında məsələ qaldırmışam ki, ferma işçiləri üçün balaca bir hamam tikisinlər. Srağagün üç maşın bişmiş kərpic göndəriblər. Ana! Bu şalı öz merinosumuzun yunundan toxumuşam. Mənə mükafat vermişdilər. Yazın axırlarında gəlib sizi gətirəcəyəm, bir az burada qalasınız... Deyirlər, bu yerlərin baharı gözəl olur. Atamın qıçlarının ağrısı necədir? Rütubətli havada qoyma bayıra çıxsın. Bax, darıxmayın. Yazda gələndə sizin üçün televizor alacağam. Özünüzdən muğayat olun. İkinizi də bərk-bərk öpürəm.

Qızınız Südabə».

Ata hələ də məktuba baxırdı. Ana əllərini yun şalın üzərində gəzdirərək, «öz merinosumuzun yunundandır...» deyə şəfqətlə gülümsədi və mənə elə gəldi ki, yun şal ananın balaca bürüşük əllərinin təması ilə canlanır, xoşallanır. Mən yenidən özümü həyatda hər şeyi itirmiş adamlar kimi məyus və unudulmuş hiss edərək, ayağa qalxdım. Qocalar mənə çoxlu təşəkkür etdilər və mən xudahafizləşib çıxmaq istədikdə:

– Siz bir də ora qayıtmayacaqsınız ki? – deyə ana soruşdu.

Dünyada misli görünməmiş bir şey eşitmiş kimi yerimdə donub, gah kişinin, gah da qadının üzünə baxdım. Bu sual arvadın ağlına haradan gəldi? Mən ki, orada işləmirəm! Bayaq dedim ki, ezamiyyətə getmişdim. Bəs, bu qəribə sual ananın ağlına haradan gəldi? Mən bir də ora nə üçün getməliyəm ki?

– Bəli, – dedim. – Qayıdacağam, mütləq qayıdacağam!

– Qız üçün bir az ayın-oyun düzəltsək...

– Apararam.

– Nə vaxt gedəcəksiniz? – Bu dəfə ata soruşdu.

Mən bir qədər fikirləşib:

– Üç gündən sonra, – deyə qətiyyətlə cavab verdim. – Nə göndərəcəksinizsə, hazırlayın, gəlib götürəcəyəm.

... «Bax belə!.. Bax belə!» deyə zehnimdə tez-tez təkrar edərək küçə ilə gedirdim və nədənsə, bu sözləri təkrar etdikcə, yerişimin sürəti də artırdı.

... Səhəri gün Nazirlər Sovetinə ərizə verəndən sonra, kimsəyə demədən şəhərə çıxıb özüm üçün bir nişan üzüyü aldım. Bu, bizim dədə-baba adətimizdir.

... Yenə də qaranlıq bir gecəydi. Yenə də qar yağıb ucsuz-bucaqsız düzənliyi örtmüşdü və ya kim bilir, bəlkə, bu elə beş-altı gün bundan qabaq biz bura gələndə yağan qar idi. Mən əllərim rulda, gözlərim isə uzaqdan görünən ferma işıqlarına dikildiyi halda irəliləyirdim. Lakin mən indi «ZİL»də deyil, sovxozda mənim (baş mühəndis-mexanizatorun) sərəncamıma verilmiş balaca «QAZ-69»da gedirdim.

Mən irəlilədikcə, səhərə yaxın göydə ulduzlar sönüb, nəhayət, bir dan ulduzu qalana kimi, fermanın da işıqları bir-bir yox oldu. Qaranlıq düzdə tək bir işıq qaldı və mən o tək işığı tuş tutaraq, heç yerdə azmadan düz gəlib fermaya çıxdım...

1957.

QIRÇI VƏ QIRMIZI ÇİÇƏK

Qoca qırçı ilə şagirdi cavan oğlan şəhərin lap ucqar yerindəki birmərtəbəli evin damına çıxanda günəş yenicə doğurdu.

Onlar ikisi də ucaboylu, enlikürəkli idi. İkisinin də əynində kobud brezentdən mazuta batmış iş paltarı vardı. Oğlan başıaçıq idi. Zil qara saçları səliqə ilə yana daranmışdı. Qocanın başında köhnə, palıdı kepka var idi. Oğlanın üzü təmiz təraş edilmiş, incə qara bığları şəvə kimi parıldayırdı. Qoca sağ əlində kömür kimi qaralmış köhnə qəlyan tutmuşdu.

Onlar ağır addımlarla damı gəzib hər tərəfini diqqətlə nəzərdən keçirdikdən sonra oğlan soruşdu:

– Başlayaq?

Qoca başını tərpətdi: «Başlayaq».

Oğlan cəld qayıdıb nərdivanla aşağı düşdü. Qoca tənbəki kisəsini çıxarıb tələsmədən qəlyanını doldurdu. Elə bu zaman onun gözləri qırın üstündə bitmiş balaca, qırmızı çiçəyə sataşdı. Günəşin təzə işığı altında bu çiçək qırın üstünə düşmüş yaqut kimi alışıb-yanırdı. Yenicə açılmış kiçik, incə yarpaqlar onu qayğı ilə dövrəyə almışdı.

Qoca, gözləri çiçəkdə olduğu halda, eyni yavaş hərəkətlə qəlyanını ağzına qoyub odladı. O, yaz və payız aylarında asfaltı deşib çıxan bu xırda çiçəkləri çox görmüşdü və hər dəfə də qocaya elə gəlmişdi ki, bu kiçik çiçək sevinclə ona baxıb nə isə deyir...

Lakin nə deyir? Qoca bu barədə fikirləşməmişdi, sadəcə olaraq, çiçəyin zühuru ilə onun dərin qırışları olan çöhrəsindəki sərt ifadə bir qədər yumşalmış, bu qədər balaca, bu qədər zərif bir varlığın qüdrəti onda riqqətli, mehriban duyğular oyatmışdı.

Günəş gömgöy səmanın nəhayətsizliyi içində yüksəlirdi. Qırı deşib çıxmış qırmızı çiçək yaqut kimi alışıb-yanırdı.

Qoca qəlyanını ağır-ağır tüstülədir və baxırdı. Sonra gözlərini çiçəkdən çəkib günəşin qalxdığı uzaq üfüqə zillədi. Elə bil ki, o, dünya bina olunandan indiyədək bu geniş göylərin fonunda bu heykəl sükunəti ilə dayanıb o uzaq və naməlum üfüqlərə baxırdı. Elə bil ki, bundan sonra da, dünya durduqca beləcə dayanıb o uzaq və naməlum üfüqlərə baxacaq.

Onun günəşdən, ayazdan yanıb qaralmış geniş alnındakı qırışlar kotan şumu kimi dərin idi.

Nərdivanla qalxan oğlanın qarasaçlı başı göründükdə, qoca irəliləyib onun qaldırdığı alətləri aldı, oğlan sıçrayıb damın üstünə çıxdı.

Sonra onlar damın qırını söküb yerə tökdülər. Damı tamam təmizləyib aşağı düşəndən sonra qoca döş cibindən bir təkliк çıxarıb oğlana uzatdı. Oğlan:

– Məndə var, – dedi.

– Götür!

Oğlan pulu alıb iti addımlarla getdi.

Qoca divarın kölgəsindəki balaca dikdirdə oturub qəlyanını tüstülədirdi.

Qoca gəlib-keçən adamlara, maşınlara deyil, küçə boyu uzanıb gedən boşluğa baxırdı. Ətrafındakı bu qələbəlik ona çoxdan məlum idi. Elə bil ki, baxdığı uzaqlarda, nə isə, təzə bir şey görmək istəyirdi. Lakin o bu barədə düşünmürdü.

O, sadəcə olaraq baxırdı!

Nəhayət, oğlan tindən çıxaraq iti addımlarla yaxınlaşıb, gətirdiyi kağız torbanı yerə qoydu. Sonra o biri əlindəki qəzeti açdı.

Qoca soruşdu:

– Təzədir?

– Təzədir... Ancaq elə bir şey yoxdur. Baxmaq istəyirsən?

Qoca, qəlyanını ağzının yanında tutmuş olduğu halda, qəzeti alıb nəzərdən keçirməyə başladı.

Oğlan isə, torbadan bir dəstə qırmızı turpla bir dəstə vəzəri çıxardı:

– Bunları yuyum, gətirim, – deyib yandakı qapıdan həyətə girdi.

Qoca qəzetə baxandan sonra onu süfrə kimi yerə sərib, torbadakı çörəyi, pendiri, kolbasanı və iki şüşə pivə ilə karton stəkanları çıxarıb üstünə qoydu.

Oğlan göyərtini gətirib əyləşdi, şüşələrin ağzını açdı. Qoca tələsmədən cibindən sümük saplı çox qədim bir bıçaq çıxarıb açdı, pendirlə kolbasanı səliqə ilə doğradı.

Oğlan soruşdu:

– Axşam saat yeddiyə qədər damın qırını salıb qurtararıq?

– Qurtararıq, – qoca, oğlana ani bir nəzər salıb çörəyi götürdü, ehtiramla kəsdi.

«Saat yeddiyə qədər... Cavanlar üçün belə dürüst vaxtların əhəmiyyəti var.»

O özü də vaxtilə usta Qaradan soruşardı: «Görəsən, axşam saat yeddiyəcən qurtararıq?»

O vaxtdan, az qala, altmış ilə yaxın bir zaman keçir. Vaxtilə ona uzaq görünən gələcək, əslində, nə qədər yaxın imiş...

... Onlar qəlyanaltı eləyib qurtarandan sonra oğlan qırıntıları qəzetə büküb zibil qutusuna atdı. Sonra, dünən gətirib asdıqları qır qazanının altını yandırdılar.

Altmış ilə yaxın idi ki, cəhənnəm kürəsi kimi zəbanə çəkib yanan bu ocaq qocaya tanış idi.

Əlli-əlli beş il bundan qabaq o da bu oğlan kimi, kürəyin qulpundan yapışaraq sallanır, ərimədə olan qırı bu cür nəşə ilə qarışdırırdı. O zaman usta Qara da beləcə divarın kölgəsində oturub qəlyanını tüstülədə-tüstülədə ona, öz cavan şagirdinə baxırdı.

Qoca qırçı, yenə də vaxtın aldadıcılığı barədə düşünürdü. Aşağılarda, şəhərin gur yerində akademiyanın yerləşdiyi böyük binanın qədim zərləri qızıl kimi parıldayırdı. Bu bina öz incə, şairanə arxitekturası ilə qocanın gözəl vətəninin hər yerində məşhur idi.

Düz əlli beş il bundan əvvəl çərşənbə günündə usta Qara ilə o, həmin binanın damına qır salmağa başlamışdılar. Çərşənbə günü. Novruzun axırıncı çərşənbəsi. Onlar gün qalxana qədər işlədilər. Sonra o gedib xaşxaşlı təzə çörək, motal pendiri, vəzəri, göy soğan, bir çaynik də yaxşı dəmlənmiş çay alıb gətirdi.

Axşam isə, usta Qara onu qonaq apardı. Qapılarda tonqallar yanırdı. Uşaqlar sevinclə qışqıraraq bu tonqalların üstündən tullanır, göyə rəngli fişənglər buraxırdılar. Usta Qaranın arvadı Gülsüm bacı (Allah ona rəhmət eləsin, ustaya layiq adam idi) gətirib turşuqovurmalı plovu çəkdi. Üçü də qırmızı-ağ zolaqları olan döşəkçələrin üstündə oturub ləyaqət və hörmətlə plovu yedilər. Sonra Gülsüm bacı balaca, armudu stəkanlarda çay və xüşgəbar gətirdi... Elə bil ki, bütün bunlar dünən olmuşdu. Halbuki artıq bu dünyada nə usta Qara var idi, nə də Gülsüm bacı.

Oğlan kürəkdən sallanaraq, pıqhapıq qaynayan qır qazanını qarışdırır, qoca isə, divarın kölgəsində oturub baxırdı. Oğlanın günəşdən yanıb mis kimi qızarmış canlı qollarının tez-tez yumrulanıb qalxan əzələləri, tər damlaları yuvarlanan enli kürəyi qocanı fərəhləndirirdi: «Qırçılar nəsli möhkəm nəsildir».

Qoca, qəlyanının külünü yerə çırpdı, təzədən doldurub odladı. Sonra oğlana dedi:

– Yaxşıdır. Qoy qaynasın. Gəl otur, dincini al.

Oğlan bir-iki dəfə qırı qarışdırandan sonra kürəyi buraxdı, qazandan geri çəkilib cibindən yaylıq çıxardı.

Qoca birinci dəfəydi ki, oğlanda bu cür səliqə ilə yuyulub ütülənmiş yaylıq görürdü (oğlanın, yaşı səksəndən ötmüş nənəsindən başqa heç bir kəsi yox idi). Oğlan yaylıqla boyun-boğazının tərini silib:

– Mən, – dedi, – gedim bir stəkan limonad içim...

– Get! – deyə qoca həvəslə cavab verdi.

– Sənə də gətirimmi?

– Yox. Mən susamamışam.

Oğlan çevrilib sürətlə getdikcə qoca arxadan səsləndi:

– Buzlu içmə. Boğazın təzə yaxşı olub.

* * *

Oğlan aşağıda vedrələri, əriyib maye halına gəlmiş qırla doldurur, qoca isə, onları çəkib damın üstünə tökürdü.

... Artıq günəş qürubda idi, dam isə, hələ qırlanıb qurtarmamışdı. Qoca boşalmış vedrəni aşağı buraxaraq, şalvarının qabaq cibindən qədim iri saatını çıxarıb baxdı. Yeddi tamama on beş dəqiqə qalmışdı. Bir saat da işləsələr, qurtararlar.

Lakin qoca damın kənarına yaxınlaşıb, aşağıda vedrəni götürən oğlana xitabən:

– Doldurma, – dedi. – Bəsdir. Qalanını sabah eləyərik. Qolum ağrıyır.

Qoca, ürəyindəki incə hissləri dilinə gətirməyi sevmirdi. Qoca, oğlanın sifətindəki qayğını dərhal necə bir sevincin əvəz elədiyini və onun vedrəni yerə qoyub, brezent pencəyini necə cəld götürdüyünü gördü.

Qocaya başqa şey də lazım deyildi.

– Daha mənimlə ayrı işin yoxdur ki, – deyə oğlan altdan-yuxarı qışqırdı.

Qoca sakit səslə cavab verdi:

– Yoxdur.

– Onda mən getdim. Səhər tezdən buradayam.

Oğlanın axırıncı sözləri deməsi ilə tini burulub gözdən itməsi bir oldu.

... Lakin qoca, damı bu gün mütləq qırlayıb qurtaracaqları barədə ev yiyəsinə söz vermişdi (o, heç vaxt yalan danışmamışdı).

O, tələsmədən, nərdivanla enib qır qazanının yanına gəldi. Vedrələrin ikisini də doldurdu, təkrar dama qalxdı. Sonra vedrələri yuxarı çəkdi. O, bu minvalla işləyərək, çıraqlar yananda damı tamam qırlayıb qurtardı.

... Qoca qəlyanı damağında, ağır addımlarla sahilə çatıb oleandr kolları arasındakı skamyaların birində oturdu. Sahil adamla dolu idi. Lakin qoca dənizə baxırdı. İri, çıraqban gəmilər limanda lövbər salıb dayanmışdı. Bir dəstə gənc oğlan, qız, təkadamlıq qayıqlarda avar çəkərək ötüşürdü. Uzaqda mayaklar yanıb-sönürdü. Dəniz isə asta-asta yırğalanırdı. Dənizin bu tərpənişində hər şeyə qarşı bir biganəlik var idi və qoca həmişə bu məğrur biganəliyi hiss edirdi.

Qoca iki dəfə daha qəlyanını doldurub çəkəndən sonra qalxdı. Onun yolu bayaq damına qır basdıqları evin yanından idi. O, bu evin küçəyə baxan pəncərəsi qarşısından keçəndə tül pərdə arxasından içərini gördü. İri elektrik çırağı altındakı ağ örtüklü stolun ətrafında ortayaşlı bir kişi ilə gənc qadın və iki oğlan uşağı oturub şam edirdilər. Radioda şən bir hava oxunurdu...

... Qoca, şəhər kənarındakı balaca otağına gəldi. Abajursuz lampanın tutqun işığında yeganə pəncərənin qabağına qoyulmuş dəmir çarpayı, ortada üzərinə köhnə müşəmbə çəkilmiş stol, onun ətrafındakı dörd stul və əhənglə ağardılmış divarlar göründü. Hər şey, çarpayının üzərindəki nimdaş yorğan-döşək kimi köhnə, lakin təmiz idi. Qoca tələsmədən pencəyini çıxarıb qapının yanındakı taxta asılqana keçirdi. Balaca mətbəxə gedib əl-üzünü yuyaraq, ağ məhrəba ilə qurulandı. Sonra taxçaya qoyulmuş bir banka qatığı götürdü (bu qatığı hər gün qonşudakı satıcı arvad gətirib buraya qoyardı), oturub dünəndən qalmış boyat çörəklə yedi.

... Qoca otağa qayıdıb balaca radioqəbuledicini qurdu və qəlyanını doldurub alışdırdı, oturub son xəbərlərə qulaq asdı.

Sonra diktor Xanın «Segah» oxuyacağını elan etdi. Vaxtilə o, Xana qulaq asmağı heç bir şeyə dəyişməzdi. Ancaq indi radionu bağladı. Oğlu Cahangir müharibədə həlak olandan sonra, qoca, «Segah»a qulaq asa bilmirdi. Ona görə yox ki, əsəbləri zəif idi... Ona görə ki, qocanın qəlbində əlavə kədərə yer yox idi.

... O, radionu söndürdü. Daha nə qalırdı? Heç bir şey... Əvvəllər oğlan tez-tez gecələr onunla söhbətə gələrdi. İndi on gündür... Düz on gündür ki, daha gəlmir. Qoca da səbəbini soruşmur. Cavan adamdan belə şeyləri soruşmaq olarmı?

... O soyunub işığı söndürdü, arxası üstə çarpayısına uzandı. Gözləri xeyli müddət otağın zülmətinə zillənib qaldı. Elə bil ki, bu zülmət bir əbədiyyət idi və o, bu əbədiyyətə qovuşmuşdu. Lakin onun şüuru işləyirdi. Bu şüur isə, işıq və ümidlər silsiləsindən ibarət idi. Qoca düşünürdü: «Oğlan səhər damın tamam qırlanıb qurtardığını görəndə, yəqin ki, təəccüb edəcək.»

Sonra onlar qonşudakı evlərin damlarını qırlayacaqlar. Üç gün bundan qabaq ev sahibləri ilə danışıq aparıblar. Hələ indiyə qədər heç kəs onun işindən narazı qalmamışdır. Buna görə də ona hörmət edirlər. Onun üçün növbəyə dururlar. Usta Qara da beləydi. İndi isə... O, cavan şagirdi haqqında düşündü və qır qazanını qüvvətlə, nəşə ilə qarışdıran oğlanın qədd-qaməti gözləri qarşısında olduğu halda yuxuya getdi.

... Səhərisi onlar ikinci evin damını qırlayırdılar. Yenə də qoca yuxarıda, oğlan aşağıda işləyirdi. Günün axırında oğlanın yanında ortaboylu, lap cavan bir qız peyda oldu. Əynində əhəngə bulaşmış kombinezon var idi. Bədəni dolu olduğundan, kombinezonun şalvarı ona dar gəlirdi.

Son dəbdə kəsilmiş saçlarının üstündən (yəqin ki, işdə mane olmasın deyə) qırmızı lent bağlamışdı. Üzünü təzəcə yumuş olduğundan saçlarının qabaqdakı qıvrımları hələ yaş idi. O, əlləri arxasında dayanıb, vedrəyə qır dolduran oğlana baxırdı.

Qoca əvvəl elə güman etdi ki, bu qız elə-belə yoldan keçəndir. Lakin sonra gördü ki, oğlan çevrilib ona nə isə dedi və qız gözəl, ağ dişlərini göstərib gülümsədi.

Qoca daha baxmadı... Damı qırlayıb qurtarandan sonra tələsmədən düşüb onların yanına gəldi. Oğlan qızı göstərərək:

– Usta, tanış ol, – dedi.

Qız qocaya yaxınlaşdı, altdan-yuxarı ona baxıb əlini uzatdı. Qoca onun balaca, təmiz əlini əzəcəyindən qorxurmuş kimi astaca sıxdı. Qız gülümsəyərək adını dedi.

Qoca qəlyanını çıxardıb odluğunu təmizləyə-təmizləyə qızdan soruşdu:

– Harada işləyirsən?

– Təzə tikilən kinostudiya binasında, – deyə oğlan qızın əvəzində cavab verdi, – elə işdən birbaşa bura gəlib.

Qız isə, yenə əlləri arxasında, qocaya baxaraq biaram gülümsəyir və sanki onun daha nə deyəcəyəni gözləyirdi.

Lakin qoca daha heç nə soruşmadı. Oğlan pencəyini götürərək:

– Yaxşı, usta, – dedi, – tay bir işin yoxdursa, biz gedək.

– Gedin.

Oğlan tərəddüd içində ona daha nə isə demək istədi, lakin heç nə deməyərək, geri dönüb qızla birlikdə getdi.

– Rəşid! – deyə qoca arxadan səsləndi və oğlan geri çevrildikdə, əli ilə yaxınlaşmasını işarə elədi.

Qoca cibindən bir üçlük çıxarıb xəlvətcə oğlana verdi.

Oğlan qara gözləri ilə gülümsəyərək soruşdu:

– Bəyəm almısan?

– Yox, hələ almamışam.

– Sağ ol.

Oğlan çevrilib yüyürərək qıza çatdı.

Bundan sonra hər gün işin axırında, saçlarına qırmızı lent bağlamış o qız gəlir və oğlanla gedirdi... Qoca, oğlandan heç nə soruşmurdu. «Lazım olanda özü danışacaq.»

... Lakin bu qız peyda olandan bəri qoca tamam bir xəyal aləminə dalmışdı. O, demək olar ki, hər gün şagirdinə necə toy edəcəyi, sonra, əgər, oğlanları olarsa, ona usta Qaranın adını qoyacağı barədə düşünürdü. Hər gün, bu gələcək gənc ailə bütün aydınlığı ilə qocanın gözləri qarşısında canlanırdı. O, bu məhəllədəki evlərin qırını təzələyəndən sonra nə qədər pulları olacağını dəfələrlə haqq-hesab edir, toy üçün alacağı şeyləri bir-bir gözünün qabağına gətirirdi.

Oğlanın xəbəri olmadan qoca təmir idarəsindən əlavə sifarişlər qəbul edirdi. ... Lakin bir istirahət günü onun heç gözləmədiyi bir əhvalat oldu. Qoca hamamdan yenicə gəlib özünə çay dəmləyirdi. Elə bu zaman qapı yavaşca vuruldu. Qoca səsindən bildi ki, oğlandır.

Lakin oğlan bu dəfə tək deyildi. O, qızla gəlmişdi. Saçlarına qırmızı lent bağlayan həmin qızla! Uzun illərdən bəri birinci dəfə olaraq qoca yaman sevindi.

– Əyləşin. Xoş gəlmisiniz. – O, qıza müraciət elədi və təmiz hava gəlsin deyə tələsik otağın yeganə pəncərəsini taybatay açdı.

Oğlan da, qız da təzə paltar geymişdilər. Oğlan ağ köynəyin üstündən mavi qalstuk bağlamışdı. Qızın qolunda balaca qızıl saat var idi.

Birdən qoca hiss elədi ki, oğlan əvvəlki kimi qayğısız və sərbəst deyil. Günahkar adamlara oxşayır.

Qocanın sevincinə anlaşılmaz bir qorxu qarışdı.

– Bu gün yaxşı havadır, – deyə o gülümsədi.

Oğlan diqqətlə qocaya baxdı. O heç vaxt ustadan bu cür mənasız sözlər eşitməmişdi. Heç vaxt onun belə gülümsədiyini görməmişdi.

Sonra qoca tələsik mətbəxə keçib, qədim, güllü podnosun içində üç stəkan çay gətirdi.

Oğlan:

– Niyə zəhmət çəkirsən, ay usta, – dedi. – Qız gətirərdi.

– Zəhmət... nə zəhməti var, – qoca eyni təbəssümlə cavab verdi.

Sonra nəzərlərini oğlanın diqqətli baxışlarından yayındıraraq əlavə etdi:

– Siz oturun, mən bu saat gəlirəm.

Oğlan onun qolundan yapışaraq:

– Usta, – dedi, – biz çörək yemişik. Heç bir şey lazım deyil. Sən ac deyilsən ki?

Qoca eyni mülayim və çəkingən ifadə ilə «yox» mənasında başını tərpətdi.

– Onda, əyləş.

Birlikdə işlədikləri bu üç ildə oğlan birinci dəfəydi ki, onun bu cür ürkək, bu cür narahat oturduğunu görürdü.

– İçin, – deyə qoca stəkanlara baxdı. – Çay, isti yaxşıdır.

Birinci dəfəydi ki, oğlan onun səsində bu qədər mehribanlıq, nəvaziş hiss edirdi və bu hiss onun ürəyini ağrıdırdı.

Oğlan kəskin hərəkətlə balaca armudu stəkanı götürüb üç-dörd qurtuma boşaldaraq, təkrar nəlbəkiyə qoydu. Qoca əlini cəld stəkana uzatdı. Oğlan onun əlindən tutaraq:

– Tay içmirəm, – dedi.

Qoca, oğlana ani bir nəzər saldı:

– Bu səhər, – dedi, – İçərişəhərdən yenə iki nəfər gəlmişdi. Dedim işimiz çoxdur. Ayın on beşindən sonra...

Qız oğlana baxdı. Oğlan qaşqabaqlı halda nəzərlərini endirdi. Araya gərgin bir sükut çökdü. İndi qocanın təbəssümü daha narahat görünürdü.

Birdən oğlan başını qaldırıb düz onun gözlərinə baxaraq qəti və sərt ifadə ilə:

– Usta, – dedi, – mən tay sabahdan gəlməyəcəyəm.

Usta batqın səslə soruşdu:

– Hara gəlməyəcəksən?

– Qır salmağa.

– Niyə?

– Oxumağa gedirəm.

– Hara gedirsən?

– Oxumağa. Yol texnikumuna.

– Çətin olmaz?

Oğlan, onun nəyə işarə elədiyini anladı:

– Birtəhər dolanarıq, – dedi.

– Mən işləyəcəyəm, o oxuyacaq, – deyə saçlarına qırmızı lent bağlayan həmin qız amansızcasına əlavə etdi. – Bilirsinizmi, usta, tay qırçılığın dövrü keçib. Görürsünüz ki, indi təzə tikilən evlərin üstünə qır basmırlar.

Qoca düşündü: «Bəli... doğrudur... Təzə evlərin damına qır basmırlar.»

Qız eyni amansızlıqla davam edirdi:

– Sizə baxmayın. Rəşid çox cavandır. O, gələcək haqqında düşünməlidir.

Qoca düşünürdü: «Elədir... Əlbəttə...»

– Doğrusu, Rəşid heç sizdən ayrılmaq istəmirdi. Ancaq...

Qız cümləsini bitirmədi. Buna ehtiyac da yox idi.

O, saçlarına qırmızı lent bağlamış həmin qıza baxaraq mehribanlıqla gülümsədi. Qız ona həddindən artıq balaca və həddindən artıq güclü görünürdü. Oğlan eyni sərt ifadə ilə gözlərini bir nöqtəyə zilləmişdi.

Qız çayını arxayınlıqla içib qurtarandan sonra özünün və oğlanın stəkanını götürüb (qoca çayını içməmişdi) mətbəxə apardı, tərtəmiz yuyub taxçaya qoydu və o geri qayıdanda oğlan dərindən nəfəs alaraq qalxdı, qoca da durdu.

Oğlan ona baxıb dedi:

– Tay biz gedək.

– Gedin.

– Sağ ol.

– Siz də sağ olun.

Onlar qapıdan çıxarkən, birdən qız geri dönüb qocaya yaxınlaşdı və onun qollarından tutaraq, ayaqlarının ucunda qalxıb cod saqqallı üzündən öpdü. Sonra bahar küləyitək otaqdan çıxdı.

... Qoca bir neçə saniyə durduğu yerdə dayandı. Otağın yarıqaranlığı içində o, çox sakit və qəddi-qamətli görünürdü. Qoca birdən sanki nəyi isə xatırlayaraq, başını qaldırıb pəncərədən bayıra baxdı. Onlar çoxdan getmişdilər.

Qoca tələsmədən qəlyanını çıxarıb doldurdu, odladı. Onun üzündə bayaqkı mehribanlıqdan əsər-əlamət yox idi. Kepkasını götürüb başına qoydu, otaqdan çıxdı.

O, ağır addımlarla gedirdi.

O, həmişə istirahət günləri qırçıların yığıldığı bağa tərəf gedirdi.

Yaz günəşi gömgöy səmanın sonsuzluğu içində yüksəlir, aşağılarda isə akademiya binasının zər naxışları qızıl kimi parıldayırdı. O, sabah qırlayacağı damlar haqqında düşünərək gedirdi.

O, həyatın – böyük və qüdrətli həyatın qanununu hiss edərək ağır addımlarla gedirdi.

1962.

DAŞ HASAR

Firəngizi heç bir şey təzə bir pyesin primyerası, ya tərifi yayılmış təzə bir roman, ya yeni açılmış bir rəsm sərgisi qədər maraqlandırmırdı. Belə hadisələr həmişə onda bir bayram əhvalı yaradırdı. O, məşhur kino artistlərinin, məşhur rəssamların, dəbdə olan yazıçıların adlarını, tərcümeyi-hallarını əzbər bilirdi. Xüsusən də müasirlərin. Əlbəttə, bunların sənətindəki gözəlliyin mahiyyəti ona məlum deyildi. Bu barədə düşünmək heç onun ağlına da gəlmirdi. Amma o bu sənətdəki yeni ruhu (əgər bu var idisə), yeni maneranı hiss edirdi və bu ona fövqəladə dərəcədə cazibədar görünürdü. Bu cazibədə bir fərəh, bir irişilməzlik vardı. Bir yaz gözəlliyi vardı. Ya mənasını dərk edə bilmədiyi adi bir pərişanlıq vardı. Elə pərişanlıq ki, bəzən onun ürəyini nəhayətsiz, lakin qəmgin yüksəkliklərə aparırdı. Belə anlarda onun məftunluğunun həddi-hüdudu yox idi. Orta məktəbdə oxuduğu zamanlar o, şirin xəyallara dalardı. Kaş, o da məşhur bir rəssam, ya Jorj Sand kimi, Merdok kimi bir yazıçı olaydı. Eh... heç kəs bilmirdi ki, o, məsələn, Konsuelanın, ya Romeo və Cülyettanın iztirablarını nə qədər dərindən hiss etmişdi. Nə qədər ürək yanğısı ilə yaşamışdı... Və məhz belə dəqiqələrdə onun kədərinin gözəlliyini heç nə əvəz etməzdi...

Lakin orta məktəbin son sinfində qız dərin bir kədərlə dərk elədi ki, ondan nə rəssam olar, nə bəstəkar, nə yazıçı. Bəlkə... bəlkə artist olaydı. O, güzgünün qarşısında dayanaraq özünə tamaşa edirdi. Boy-buxun, orijinal gözəllik, zəriflik. O, ata-anasının narazılığına baxmayaraq, İncəsənət İnstitutunun aktyorluq fakültəsinə ərizə verdi və... kəsildi. İmtahan götürən müəllim eyhamla andırdı ki, aktyorluq üçün lazım olan cəhətlər onda yoxdur. Qız o qədər sarsıldı ki, heç olmazsa, bu cəhətlərin nədən ibarət olduğunu soruşub bilmək ağlına da gəlmədi.

... O, bir neçə ay bekar gəzdi... Əlbəttə, təzə filmlər, primyeralar tez-tez olmurdu. Firəngiz darıxırdı.

Atası iyirmi beş ildən artıq idi ki, statistika idarəsində işləyirdi. Bir gün qızına dedi ki, bekar gəzmək yaxşı deyil, öz idarəmizdə sənə balaca bir iş düzəldək, gir, işlə. Anası da bu fikrə şərik çıxdı:

– Onsuz da, – dedi - gələn il ali məktəbə girmək üçün sənə iş barədə kağız lazım olacaq.

Və qız, istər-istəməz, statistika idarəsində işə girdi. Ah, bu statistika idarəsi... Bu rəqəmlər... Sarımtıl kağızlar... Daşlarının rəngi getmiş məhsəbələr... Hər biri otuz-qırx il işləyən yaşlı mühasiblərin eynək arxasından adama dikilən soyuq baxışları... Ucuz kolbasa ilə çay içən yaşlı qadınların kobud fincanları... Saçlarını rəngləyən müdirin iyirmi il bundan qabaqkı dəbdə olan solğun qalstuku...

... Gələn yay Firəngiz universitetin filoloji fakültəsinə ərizə verdi. Fikirləşdi ki, nə qədər də olsa, incəsənətə yaxın sahədir. Bəlkə... bəlkə təzə ruhlu müasir bir tənqidçi oldu.

Ancaq hələ orta məktəbdə oxuduğu zaman bərk zəhləsi getdiyi qrammatikadan olan sualların heç birinə cavab verə bilmədi və kəsildi...

Və birdən öz taleyi onu qorxutmağa başladı. Bu qorxu onun gözəlliyini gözündən salırdı. Həyata qarşı onda anlaşılmaz bir yadlıq, bir şübhə baş qaldırdı. Lakin bununla belə, o özünü ləyaqətlə aparmağı bacaran bir qız idi. Sözsüz-hərəkətsiz təmiz ailədən idi.

Ordan-burdan elçilər gəlirdi. Telefon zəngləri olurdu. Lakin qız hamısını rədd edirdi. Bu da, xüsusən anasını əsəbiləşdirirdi. «İllər keçir...» deyə arvad deyinirdi. Firəngiz də cavab verirdi ki, «mən ali məktəbi qurtarmayınca ərə getməyəcəyəm».

Ancaq qızın elçiləri rədd etməsinin əsl səbəbi bu deyildi. Məsələ orasında idi ki, onu istəyən oğlanların biri iqtisadçı, biri baş mühasib, biri riyaziyyat müəllimi, biri, nə bilim, kim idi. Bu adamların hamısı da ona yabançı görünürdü. Onların içində yaraşıqlı olanları, necə deyərlər, həyatda özlərinə möhkəm yer tutanları da var idi. Lakin onlar qıza tamam yabançı idilər.

... Nəhayət, o, ata-anasının təkidi ilə və yenə də, istər-istəməz, Xalq Təsərrüfatı İnstitutunun gecə şöbəsinə daxil oldu. İndi o, gündüzlər sevmədiyi statistika idarəsində işləyir, gecələr sevmədiyi institutda oxuyur və yenə hər dəfə güzgüdə öz gözəlliyinə tamaşa eləyəndə həsrətlə yazıçı haqqında, rəssam haqqında, bəstəkar haqqında düşünürdü.

O, yenə də incəsənət xəbərlərini acgözlüklə izləyirdi, yeni sərgilərin, yeni tamaşaların heç birini buraxmırdı, yazıçıları, şairləri, rəssamları, artistləri yaxından görüb-tanımaq üçün fürsət düşdükcə, onların yığıncaqlarına, iclaslarına gedirdi. İndi onun ürəyində hamıdan gizli saxladığı yeni bir arzu da baş qaldırmışdı: indi ki, onun özünə incəsənət qismət olmadı, heç olmasa... ah, heç olmasa, əri o aləmdən olaydı. Qız heç vəchlə ürəyini o sehrli aləmdən qopara bilmirdi. O aləmdən ayrılmaq ona həyatdan, dünyanın ecazkar gözəlliklərindən ayrılmaq kimi gəlirdi.

Və tale bu dəfə ona yar oldu, qız bir toyda bir qədər aralıdakı stolda ultra dəbdə geyinmiş, qabaqdan seyrəlməkdə olan saçlarını arxadan xeyli uzatmış, barmağına iri platin üzük taxmış bir oğlan görüb pıçıltı ilə yanındakı qızdan soruşdu ki, kimdi o?

Qız oğlana ötəri bir nəzər salıb cavab verdi ki, toy yiyəsinin qohumu, rəssam Mürşüddür.

Bu rəssam xalq arasında məşhur olmasa da, Firəngiz bayram təntənələrində, rəsmi yığıncaqlarda oxunan və ya çap olunan siyahılarda onun adına rast gəlmişdi. Muzeylərdə, sərgilərdə bəzi rəsmləri-

ni də görmüşdü. Doğrudur, bu rəsmlər onda elə bir təsir oyatmamışdı. Ancaq nə olsun? Pikassonun da tablolarını çox adam başa düşmürdü. Bəlkə, Mürşüdün də əsərlərində elə sirlər var ki, Firəngiz, ya başqaları onu dərk eləyə bilməyib yanından soyuq keçirlər.

Mürşüd qızdan azı iyirmi yaş böyük idi, ancaq nə olsun ki, məşhur dramaturq O'Nilin qızı Una əlli altı yaşlı Çarli Çaplinə ərə gedəndə on yeddi yaşında idi. Pikassonun arvadı özündən nə qədər kiçik idi...

Mürşüd elə bir yaraşıqlı adam deyildi, ancaq rəssamlığı qızın gözündə ona orijinal bir görkəm vermişdi. Barmağındakı qara qaşlı iri platin üzük qıza əsrarəngiz təsir bağışlayırdı. Köynəyi, qalstuku da heç kəsinkinə bənzəmirdi. Toydakı kişilərin hamısı kostyumda olduğu halda, o, yaşıl məxmər şalvarla, şabalıdı, tumac pencək geymişdi. O, demək olar ki, heç nə yemirdi. Elə hey konyak içir, siqaret çəkir və Firəngizə baxırdı. Ona müraciət eləyən adamlara qarşı üzündə elə bir təbəssüm yaranırdı ki, elə bil, o bu təbəssümü ilə sənə böyük bir iltifat göstərirdi. Elə bil, bu toya gəlişi ilə hamını şərəfyab etmişdi. Bütün bunlar da Firəngizə hədsiz dərəcədə yeni və maraqlı görünürdü. Rəssamın mərhəmətli baxışları altında qız bilmirdi neyləsin. Qız fərəh və səadət içindəydi. Qız rəssamın gözlərinə baxmağa cəsarət eləməsə də, bütün fikri onun yanında idi. Onun bütün hərəkətlərini görürdü...

Sonra qəribə bir hadisə oldu. Toy sovuşub, adamlar foyedə paltolarını alanda, rəssam qıza yaxınlaşıb, tamam bir açıq-saçıqlıqla pıçıldadı:

– Xahiş edirəm, mənə zəng eləyəsiniz...

Ancaq o, telefon nömrəsini vermədi. «Yəqin, bilir ki, onun nömrəsini tapmaq asandır» deyə qız ürəyində gülümsədi... O gecə uzun zaman gözünə yuxu getmədi. Səhər dərin bir həyəcan içində Mürşüdə zəng elədi. Hər şey sürətlə həll edildi və iki aydan sonra toyları oldu.

Qız göyün yeddinci qatındaydı. O, rəssamlar haqqındakı xəbərləri böyük maraqla izləyir, qəzetlərdə, radioda, televiziyada eyzən nişanlısının adını axtarır, rast gəldikdə, sevinclə ata-anasına xəbər verirdi. Ərinin emalatxanasını özü səliqəyə saldı. Elektrik çaynikі, armudu stəkan, zərif nəlbəki, gümüş çay qaşığı, təmiz əl-üz dəsmalı, ətirli sabun qoydu. Balaca stolun üstünə kraxmallanmış süfrə saldı... Lakin Mürşüdün bu işdən xoşu gəlmədi, yarım saatın içində emalatxananın əvvəlki səliqəsizliyini bərpa etdi və qız bundan heç bir şey başa düşmədisə də, səbəbini soruşmadı, yəni bunu soruşmaq heç onun ağlına da gəlmədi. Qız özünü xoşbəxt sayırdı. Düzü, qız ərinin rəssamlığı ilə o qədər məşğul idi ki, öz səadəti haqqında düşünməyə vaxtı çatmırdı... Onun işləməyinə sevinclə tamaşa edir,

yarımçıq rəsmlərin tez çəkilib qurtarması üçün tələsirdi. Bir dəfə o, statistika idarəsindən işdən çıxmaq istədiyini bildirdi.

Mürşüd dedi:

– Niyə? Ayda yüz manat çölə tökülməyib ki...

Qız bunu ürəyinə salmadı. O, evlərində, idarələrində elə hey Mürşüdün rəsmlərindən danışırdı, özü də o qədər həvəslə danışırdı ki, qulaq asanların üzündə yaranan biganə təbəssümün fərqinə də varmırdı. Bir dəfə emalatxanada ərinin işləməyinə tamaşa edərkən dedi:

– Bu gün qızlar Nərimanın təzə rəsmlərini yaman tərifləyirdilər.

Əri soruşdu:

– Hansı qızlar?

– Nərminə, Turac, Şəfiqə...

(Bunlar Firəngizin yoldaşları idi. Ultra dəbdə geyinən Firəngiz kimi, heç bir primyeranı, heç bir təzə konserti buraxmayan, məşhur artistlərin adlarını, həyatını əzbər bilən şən qızlar idi və Mürşüd onları tanıyırdı).

– Onlar tərifləyərlər... – deyə Mürşüd gözünü işindən çəkməyərək cavab verdi.

Və Firəngiz ərinin sözlərindəki istehzanı başa düşdü və bu, onun xətrinə dəydi, o, ilk dəfə olaraq, ərinə etiraz etdi:

– Onlar çox mədəni qızlardır, Mürşüd.

– Baxır necə mədənidilər, – deyə Mürşüd gülümsədi.

Firəngiz dinmədi. Firəngizə elə gəldi ki, bu təbəssüm ərini birdən-birə xeyli yaraşıqsız göstərdi.

Havalar isti keçdiyindən qərara aldılar ki, bağa köçsünlər. Firəngiz buna çox sevindi. Yayda Bakı bağları onun ən çox xoşladığı yerlər idi. O bu bağların xüsusən axşamlarını, gecələrini yaman sevirdi. Heç bir yerin sərinliyi Bakı bağlarının sərinliyi qədər ona ləzzət vermirdi. Her bir yer ona Bakı bağlarının qurtaracağından başlayan dənizin mavi genişliyi kimi nəhayətsiz görünmürdü. Elə bil ki, bu genişlikdə ömrün heç bir zaman adama əyan olmayacaq sirri gizlənmişdi. Ancaq heyif ki, Mürşüdgilin bağı dənizdən xeyli uzaq idi və ətrafına uca daş hasar çəkilmişdi. Ev özü isə daima sükut içində olan kiçik qalaya bənzəyirdi. Hər şey, hətta birinci mərtəbədən ikinci mərtəbəyə qalxan pilləkən belə, binanın dörd divarı arasında, yəni içindəydi. Pəncərədən isə dəniz görünmürdü. Heyif ki, evin dörd tərəfinə və iri dəmir darvazaya gedən cığıra asfalt salınmışdı. Asfalt isə həmişə qızda xoşagəlməz bir hiss doğururdu. Heyif ki, yasəmənlərin, oleandr güllərinin başları da bulvardakı bitkilərin başları kimi kəsilib bir bərabərdə edilmişdi. Yalnız qumun üstünə sərilmiş tənəklərin pərakəndəliyində, bir də alma, nar ağaclarının qol-budağında, böyük əncir ağacının enli yarpaqları arasındakı köl-

gələrdə, bir də pırıltı ilə hey ağacdan-ağaca qonub, səs-küy salan quşların həyəcanında, nə isə, bir fərəh, bir azadlıq vardı. Yəni Firəngizə belə gəlirdi. Ancaq ərinin bağını gözəl hesab etmək üçün qıza elə bu da kifayət edirdi. Və Firəngiz özünü xoşbəxt sanırdı.

Mürşüdün anasından başqa yaxın bir kəsi yox idi. Müxtəlif təsərrüfat idarələrində işləyən atası bir neçə il qabaq vəfat eləmişdi. Onun dədə-baba evində tək yaşayan anası vaxtilə dərzi atelyesinin müdiri, hamam müdiri kimi vəzifələrdə olmuş, keçən il təqaüdə çıxmışdı. Boylu-buxunlu, yaraşıqlı bir qadın idi. Ancaq heyif ki, yaşının altmışı haqlamasına baxmayaraq, hələ də kosmetik bəzəklə çox ciddi məşğul olurdu. Firəngizin isə yaşlı arvadların qaşlarını aldırıb, dodaqlarını qızartmalarından zəhləsi getsə də, qayınanasının təmiz-tarıqlığını, son dəbdə geyinməsini rəfiqələrinə tərifləyər, arvadın kosmetik bəzəklə-filanla məşğul olmasını fikrinə gətirməkdən çəkinərdi.

Bir axşam çay içdikləri zaman televizorda xəbər verdilər ki, rəssam Nərimanın təzə sərgisinin açılışı böyük müvəffəqiyyət qazanmışdır. Onun «Qız və oğlan» əsəri qarşısında hər gün dəstə-dəstə tamaşaçı dayanır və sairə...

– Oy, Mürşüd! – deyə Firəngiz həyəcanla səsləndi. – Sabah biz də gedək baxaq.

– İndi şəhər yaman istidir. Havalar bir az sərinlənsin, gedərik.

Mürşüdün quru cavabı qıza toxundu:

– Yox, yox, sabah gedək, onsuz da gecikmişik, mən teatr tamaşalarına, sərgilərə həmişə birinci gün baxmaq istəyirəm, – dedi.

– Axı nə təfavütü var, birinci gün olmasın, onuncu gün olsun, – Mürşüd, bir növ, üstüörtülü və əsəbi cavab verdi.

Qayınanası da aypara qaşlarını dartaraq, qəribə bir təbəssümlə dedi:

– Axı birinci gün adam çox olur. Rəssamın özünü görürsən...

Firəngiz qayınanasının cavabındakı soyuqluğunu hiss elədisə də, bunun səbəbi barədə düşünməməyə çalışaraq:

– Mütləq sabah gedək! – dedi.

Onlar gələndə sərgi salonu ağzına qədər dolu idi. Firəngiz bu cür qələbəliyi həqiqətən sevirdi. Bu ona, doğrudan da, bayram təsiri bağışlayırdı. Ən gözəli də o idi ki, indi bu adamların çöhrəsində bir şadlıq, bir razılıq hiss edirdi. Rəsmdə qızla oğlan arasında başlayan məhəbbətin lap ilk qığılcımları təsvir olunurdu və Firəngiz özünü də, ərini də tamam unudaraq, bu yeni doğan məhəbbəti seyr edirdi. Firəngiz dünyada belə gözəl duyğular olduğuna heyran qalırdı, yəni rəsmə tamaşa etdikcə, bu duyğular qızın öz qəlbində yaranırdı. Bunların nədən ibarət olduğunu soruşsaydılar, bəlkə də, izahda aciz qalardı. Orası da çox qəribə idi ki, bu duyğularla birlikdə onun qəlbində anlaşılmaz bir kədər də baş qaldırırdı.

Nəhayət:

– Gedək! – deyə Mürşüd onun qolundan tutdu.

Qız dərindən nəfəs alıb ona baxdı. Ərinin qızarıb pörtmüş üzü bir an ona təəccüblü dərəcədə yad göründü və tamam qeyri-şüuri bir hərəkətlə çılpaq qolunu çəkib Mürşüdün əlindən qopardı və dərhal da bu hərəkətinin namünasib olduğunu hiss edərək özü ərinin qoluna girdi. Sonra Firəngiz rəssamın başqa rəsmlərinə baxmaq istədikdə, Mürşüd həmin qızarıb-pörtmüş çöhrəsilə:

– Yaxşı, sən bax, mən foyedə papiros çəkirəm, – deyib salondan çıxdı.

Qız ərinin əhvalında nə isə bir anlaşılmazlıq hiss edərək, onunla çıxmaq istədi. Lakin Nərimanın o biri rəsmlərinə də baxmamış çıxa bilmədi.

Çıxanda o, ərini yenə də eyni gərgin vəziyyətdə gördü.

Və onlar bağa qayıtmaq üçün Mürşüdün «Jiquli»sinə əyləşmək istədikdə, Firəngiz gülümsəyərək dedi:

– Qoy bu dəfə mən sürüm...

– Otur yerində!

Firəngiz ərinin bu sərt cavabından da bir şey başa düşmədi və bir qədər sükut içində gedəndən sonra soruşdu:

– Nə olub, Mürşüd?

– Nə olacaq, heç nə...

– Bəs niyə pərtsən?

Elə bil, rəssama od vurdular.

– Pərt niyə oluram, – deyə açıldı. – Sən də qəribə adamsan. Sənətdən başın çıxmır, hər sözü danışırsan.

Qız təəccüblə ərinə baxdı:

– Sənət barədə mən heç bir söz danışmadım.

Rəssam çox kobud hərəkət etdiyini başa düşərək, elə bil ki, qorxdu. Çox mülayim bir ifadə ilə dedi:

– Bu yolda gediş-gəliş çoxdur. Ayrı yerdən sürərsən.

Firəngiz qətiyyən maşın barədə düşünmürdü. Hərçənd maşın sürməyi Firəngizə Mürşüd özü öyrətmişdi; bir yay gecəsi idi onda... kimsəsiz dəniz sahilində...

Firəngiz dinmədi. Ona görə yox ki, pərt olmuşdu. Ona görə ki, içində oturduğu bu maşın bir anda onun üçün yabançı, maraqsız olmuşdu. Elə bil ki, ərinin maşınında deyil, taksidə gedirdi və elə bil ki, əri məhz bu mülayim sözləri ilə birdən-birə kiçilib bir tikə oldu. O bu yazıqlığı, eyni zamanda, özündə – öz varlığında hiss etdi. «Jiquli» bağa doğru sürətlə irəlilədikcə, qız məyus nəzərlərlə, yanlarından gəlib keçən, bəlkə də, bağlardan şəhərə qayıdan maşınlara baxırdı.

Axşam Firəngiz heç kəsdən heç nə soruşmadan, bura gəldikləri vaxtdan bəri ilk dəfə stol-stulları çıxarıb həyətə qoydu. Üzərinə də ağ süfrə saldı.

– Belə nə üçün? – deyə qayınanası soruşdu.

– Evdə nə var axı, yayın günüdür.

– Sonra küləк qalxıb qumu dolduracaq ağzımıza-burnumuza.

– Külək qalxar, кeçərik içəri, – deyə Firəngiz qayınanasına baxdı.

Qayınana aypara qaşlarını narazı halda yuxarı dartıb dinmədi.

Firəngiz çay, mürəbbə, tort, filan gətirdi. Sonra tranzistoru gətirdi. (Televizor otaqda idi). Abşeronun axşam sərini başlamışdı. Əncir, alma, nar ağacları, isti qumun üzərinə sərilmiş tənəklər bu yarıqaranlıq içində sanki xəfif mehdən xoşlanırdılar. Uzaqdan dənizin şırıltısı eşidildi. Heyif ki, dəniz özü görünmürdü. Heyif ki, bu daş hasar nə dənizi, nə də bu tərəfdəki qum təpələrini görməyə imкan verirdi. Ancaq göy qübbəsi ulduzlarla dolu idi. Və elə bil ki, bu ulduzlar sevinc içində işıq saça-saça tərpəşirdilər.

Əvvəl ordan-burdan söhbət etdilər. Gündüzkü sərgi barədə nə Mürşüd danışdı, nə Firəngiz. Nə də qayınana o barədə bir söz soruşdu. Ancaq sərgi barədəki bu sükutun özündə soyuq bir gərginlik vardı. Və Firəngiz bunu hiss edirdi, yəni bu gərginliyi hiss edirdi, amma səbəbini yox. Düzü, səbəb barədə düşünməkdən ehtiyat edirdi.

Heyif ki, bu daş hasar isti qumun üzərinə enmiş bu sərin yay axşamını hər tərəfdən sıxışdırırdı.

Mürşüd dedi:

– Son xəbərlərin vaxtıdır. Aç görək nə deyir.

Firəngiz əqrəbi hərlədi və diktor danışmağa başladı:

– Bütün istedadlı sənətkarlar kimi, Nərimanın da rəsmlərində yenilik hissi ilə Azərbaycan xalqının, Azərbaycan təbiətinin koloriti fövqəladə bir incəliklə birləşmişdir. Onun tabloları hər cür konyukturdan, hər cür sünilikdən uzaq, həqiqi sənət əsərləridir.

Mürşüd çayını yarımçıq qoyaraq, əsəbi halda qalxıb stoldan uzaqlaşdı, qayınana da aypara qaşlarını dartaraq oğlunun ardınca getdi. Firəngiz diktorun Nəriman haqqında dediklərinə axıra qədər qulaq asdı, sonra yavaş qurtumlarla çayını içdi. Abşeron gecəsinin sərinliyindən ləzzət alan əncir, alma, nar ağaclarına baxdı. Sonra dənizin uzaqdan eşidilən şırıltısına qulaq asdı. Heyif ki, bu hündür daş hasar dənizin, o qaranlıq təpələrin qabağını kəsmişdi. Heyif ki, bu hündür daş hasar, bu nəhəng dəmir darvaza adamı hər tərəfdən az qala məngənə kimi sıxıb nəfəsini daraldırdı. Heyif ki, Nərminə, Turac, Şəfiqə burda deyildilər. Bu saat bu geniş, ulduzlu göyün altında dənizin ilıq suyunda çimməyin ləzzəti var – Firəngiz bunu fikirləşdi və... ağladı...

... O gecə Mürşüd əcaib və rabitəsiz bir yuxu gördü.

Gördü ki, iyrənc bir çamıra bata-bata hara isə gedir.

Sonra da birdən gördü ki, yenə də Nərimanın həmin tablosunun qabağında dayanıb. Amma şəkildəki oğlanın əlindən tutduğu qız Firəngizdir! Mürşüd isə qışqırıb demək istəyir ki, Nəriman nə haqla onun arvadını bu cür, yad oğlanla çəkib? Ancaq nə qədər qışqırırsa, səsi çıxmır ki, çıxmır... O zaman Mürşüd yerdən bir ovuc çamır götürüb çırpdı şəkilə. Belə olduqda, şəkildəki oğlan çərçivədən çıxıb Mürşüdün boğazından yapışaraq başladı boğmağa.

... Mürşüd çapalayıb yuxudan ayılanda gördü ki, həqiqətən az qalır boğulsun. Özünə gələndən sonra Firəngizin üzü divara tərəf sakit halda yatdığını, heç nədən xəbəri olmadığını görüb, rahat nəfəs alaraq bayıra çıxıb siqaret yandırdı.

Səhəri gün Firəngiz şəhərə getmək istədiyini bildirdi.

– Bu istidə nə var şəhərdə? – Mürşüd soruşdu.

– Həkim məsləhətxanasına getmək lazımdır.

Firəngiz hamilə idi.

O, bir qədər susub, bir növ, ötəri ifadə ilə əlavə etdi:

– Bir də ki, burada darıxıram.

– Sən ki, bağdan ötrü sinov gedirdin... – deyə Mürşüd zarafat eləmək istədi. – İndi nə olub?

– Heç nə olmayıb. Ancaq darıxıram.

Mürşüd onun əlindən tutub mülayim ifadə ilə:

– Bəlkə, – dedi, – bir şeydən incimisən?

Yenə də əri bu mülayimliklə, bu qorxaq təbəssümlə (ondakı bu qorxaq mülayimlik hardan idi və bunu Firəngiz sonralar da anlaya bilmədi) onun gözləri qarşısında lap aşkar kiçildi. Kiçildi... Bir tikə oldu və Firəngiz kəskin hərəkətlə əlini ərinin əlindən çəkərək sərt ifadə ilə dedi:

– Heç bir şeydən inciməmişəm, Mürşüd!

O, belə dedi. Amma o incimişdi. Bu hündür daş hasar da, bu iri dəmir darvaza da, qalaya bənzəyən bu örtülü ev və qayınanasının kənarları alınıb-düzəlmiş aypara qaşları da bir tərəfdən onu sıxırdı, lap məngənə kimi sıxırdı. Ən pisi də o idi ki, o bunların belə olduğuna daha əvvəlki kimi heyifsilənmirdi. O bunlardan qaçmaq istəyirdi.

Lakin şəhərin qələbəliyi, yay kinoteatrları, konsertlər, pəncərələrdən görünən dənizin genişliyi də onun ürəyindəki ağırlığı yüngülləşdirə bilmirdi. Mürşüd də daha bağa getməyib onunla birlikdə şəhərdə qalırdı. Və hamilə qadınına hər cür qulluq göstərirdi. Onun bu xidmətində, mehribanlığında suçlu bir hal var idi, elə bil ki, o, daima nədənsə ehtiyat edirdi. Və bu, səbəbi özünə də məlum olmadığı halda, Firəngizi əsəbiləşdirib haldan çıxarırdı, Firəngiz indi nə ərinin emalatxanasına gedir, nə də onun nə üzərində işlədiyi ilə maraqlanırdı. O da qəribə idi ki, Mürşüd bu vəziyyəti görüb duyduğu halda səbəbini soruşmurdu. Daha doğrusu, soruşmaqdan çəkinirdi.

Firəngiz saatlarla pəncərə qarşısında oturur və gələcək uşağı haqqında düşünürdü.

... Uşaq isə bir neçə aydan sonra sağlam bir oğlan olaraq dünyaya gəldi. Onun dünyaya gəlişi ilə, elə bil ki, Mürşüd də birdən-birə dönüb ayrı cür adam olmuşdu. Elə bil ki, o, rəssamlığını da və o qorxaq mülayimliyini də büsbütün unutdu. Elə bil ki, indi daha təbii, daha canlı bir adam olmuşdu, ayağını yerə indi daha möhkəm dirəmişdi. Elə bil ki, ondakı o daxili gərginlik də birdən-birə yox olub getmişdi.

Lakin bu körpə sağlam oğlanın dünyaya gəlişi ilə Firəngizdə yeni bir təşviş peyda olmuşdu. Gənc ana bu ilkinə diqqətlə baxmaqdan və onun kimə oxşadığını təyin etməkdən çəkinirdi. Ultra dəbdə geyinmiş Nərminə, Turac və Şəfiqə səs-küylə rəfiqələrini təbrikə gəldilər. Uşağın beşiyi başına toplaşıb onu diqqətlə nəzərdən keçirdilər.

Nərminə dedi:

– Oy, lap atasının kopyasıdır.

Turac təsdiq etdi:

– Ağız-burnu, yumru alnı lap atasınınkıdır ki, durub.

Şəfiqə isə dedi:

– Amma gözləri eynilə anasının gözləridir.

Nərminə və Turac sevinclə təsdiq etdilər:

– Düzdür... düzdür. Lap anasının gözləridir.

– Anasınınkı kimi dupduru...

Firəngiz elə bil diksindi. Onun gözləri oğlunun gözlərinə zilləndi və yalnız bu zaman o, diqqətlə, məhəbbətlə oğluna tamaşa etdi.

1976.

PYESLƏR

SƏN HƏMİŞƏ MƏNİMLƏSƏN, YAXUD "BOY ÇİÇƏYİ"

İŞTİRAK EDİRLƏR

Həsənzadə – zavod direktoru
Xurşid – onun arvadı
Aydın – onun oğlu
Nargilə – cavan qız, orta məktəbi bitirib
Nəzakət – onun anası
Fərəc – Nəzakətin ikinci əri
Fərəcov – zavodda kadrlar şöbəsinin müdiri
Sarısaç qız – Nargilənin rəfiqəsi
Yaşlı kişi
Birinci oğlan
İkinci oğlan
İşçilər

Vağzal. Məlum olur ki, hər kəs öz adamını yola salır. Ön planda dayanmış Həsənzadə kiməsə baxıb gülümsəyir. Lakin o, çox həyəcanlıdır. O, bütün xarici aləmdən təcrid olunaraq, yalnız gözlərini zillədiyi adamla məşğuldur. Qarşıdan gələn Nargilə onu görüb dayanır. Həsənzadə bunu hiss etmir.

Aydının səsi. Daha durma, ata, istidir.

Həsənzadə. Yatanda pəncərəni ört.

Aydının səsi. Arxayın ol.

Həsənzadə. Soyuq su içmə. Anginan təzə sağalıb.

Aydının səsi *(səbri tükənmiş halda)*. Dedim ki, arxayın ol.

Nargilə sürətlə gözünü səs gələn tərəfdən çəkib, Həsənzadəyə baxır. Lakin Həsənzadə oğlunun sərt cavabından inciməmişdir.

Həsənzadə. Yolda konserv yemə.

Aydının səsi. Yaxşı, ata, get. *(Axırıncı zəng. Qatar tərpənir)*. Salamat qal, ata. Çatan kimi teleqram vuracağam. Məndən arxayın ol.

Həsənzadə daha dinmir. O, çox mütəəssirdir. Əlini havada zəif-zəif tərpədərək oğlu ilə səssizcə vidalaşır. Qatarın səsi getdikcə uzaqlaşır. Həsənzadə dərindən nəfəs alaraq, başını aşağı salır və geri dönür. Bütün bu müddətdə gözləri Həsənzadədə olan Nargilə sanki bu saat ona, nə isə həyəcanlı bir söz deyəcək. Lakin Həsənzadə onun varlığını hiss etməyərək, yanından keçib gedir. Qız onu eyni həyəcanlı, pərişan nəzərlərlə müşayiət edir... Səhnə hərlənir... Həsənzadə eyvana çıxıb papiros yandırır. O, tez-tez papiros çəkir və budaqları eyvana əyilmiş söyüd ağacına baxır... Qarşıdakı binanın artırmasında isə Nargilə dayanmışdır. Onun gözləri Həsənzadəyə zillənmişdir. Elə bil ki, qız onun baxışlarını tutub öz üzərində saxlamaq istəyir. Lakin Həsənzadə onu görmür... Həsənzadə öz dərdi ilə məşğuldur. Bu vaxt uzaq musiqi eşidilir... və ətrafın səssizliyi içində adama elə gəlir ki, bu musiqi naməlum zamanlardan indiyə qədər davam edib gəlir və bundan sonra da əbədi olaraq davam edəcəkdir... Səhnə tədriclə qaranlıqlaşır və qaranlıqlaşdıqca həmin musiqi də uzaqlaşır...

Sonra mavi işıq içindən Xurşid çıxır.

Xurşid. Niyə bu qədər bikefsən? Aydın indi böyük oğlandır. Nə olacaq?..

Həsənzadə. Bu iyirmi iki ildə birinci dəfədir ki, mən ondan belə uzun müddətə ayrılıram.

Xurşid. Hansı ata-ana həmişə öz övladı ilə bir yerdə olub?

Həsənzadə. Elədir.

Xurşid. Bilirəm... təklik sənin üçün çətin olacaq.

Həsənzadə. Nə etməli... Təki canı sağ olsun. *(Pauza. Musiqi davam edir)*.

Xurşid. Gərək evlənəydin.

Həsənzadə. O dəhşətli gecədə sən özün dedin ki, evlənmə.

Xurşid *(təqsirkar kimi)*. Mən səhv etmişdim...

Həsənzadə. Fərqi yoxdur... O zaman sən «Evlən!» deməydin də, mən bunu bacarmazdım...

Xurşid. Gərək evlənəydin... *(Qısa pauza. Musiqi davam edir)*. Aydın səni çox incidirdi. Axı, o, elə körpəlikdən nadinc idi...

Həsənzadə. O, tez-tez xəstələnirdi.

Xurşid. Mən sənin bir gecə yuxusuz qalmağına dözmürdüm... Amma o səni aylarla yuxusuz qoyurdu...

Həsənzadə. Başqa cür mümkün deyildi. Onu soyuqdan gözləmək lazım idi.

Xurşid. O, körpəlikdə də həmişə narahat yatırdı.

Həsənzadə *(düşüncə içində)*. Sonra da məktəb həyatı. *(Gülümsəyir)*. Bir gün olmurdu ki, direktor zəng vurub ondan şikayət eləməsin... Nə isə... bunlar artıq keçmişdə qalıb. O bizim zəhmətimizi itirmədi.

Xurşid. «Bizim» yox, sənin! Mən vəfat edəndə onun iki yaşı var idi.

Həsənzadə. Elədir. Ancaq mən sənin yerini verə bilmirdim. Tez-tez əsəbiləşirdim. Səhvlər edirdim. *(Qısa pauza. Musiqi davam edir)*. Sənin vəfatından üç-dörd ay sonra biz təzə binaya köçmüşdük. Bir gün o mənə, səni aşağıda, darvazanın yanında görmüş olduğunu söylədi. Deyir, «anama dedim ki, bax, burada oluruq, niyə gəlmirsən?»

Xurşid. Mən həmişə sənin güclü təbiətinlə fəxr edərdim. Niyə belə şeyləri yadında saxlamısan?

Həsənzadə. Görünür, insan həmişə bir cür qalmır...

Xurşid. Evlən!

Həsənzadə. Gecdir.

Xurşid. Qırx altı yaş hələ qocalıq demək deyil.

Qısa pauza.

Həsənzadə. Sən mənim üçün həddindən artıq yaxşı olmusan...

Xurşid. Deyirlər, məhəbbət də canlı orqanizm kimi qocalır və nəhayət, ölür...

Həsənzadə. Bəlkə də... Ancaq, yəqin ki, bunun üçün iyirmi il azdır...

Xurşid. Evlənib özünə təzə həyat qurmağa sənin çoxdan haqqın var idi. Saçların ağaranda, iyirmi səkkiz yaşın hələ tamam deyildi...

Həsənzadə. Bunun üçün mən kimsəyə minnət qoymuram. Çünki heç bir zaman ürəyimin ziddinə hərəkət eləməmişəm... Özümü heç bir səadətdən məhrum etmək fikrində olmamışam. Demək istəyirəm ki, mən, sadəcə olaraq, öz vəzifəmi yerinə yetirmişəm... Burada təəccüblü və ya fövqəladə nə var ki...

Xurşid. Elə demə... sən gənc idin... gözəl idin... Biz evlənəndən sonra da qızların telefon zəngləri kəsilmək bilmirdi...

Həsənzadə. Bəlkə də, mənim yerimə bir başqası olsaydı, sənin vəfatından bir-iki il sonra evlənərdi... Sən deyən kimi, özünə təzə həyat qurardı... Bəlkə bu, Aydın üçün yaxşı olardı... Ancaq... Mən bunu bacarmadım. Hər dəfə bu barədə düşünəndə... Yox, bu mümkün deyildi və mən bu cür hərəkət etmədiyim üçün özümü məzəmmət eləmirəm!.. Mən çəkdiyim əziyyətlərdən, məhrumiyyətlərdən narazı deyiləm...

Qapının zəngi çalınır. Musiqi tamam susur. Xurşidin üzərinə düşən işıq sönür.

Həsənzadə qapını açır. Nargilə əlində bir yığın qəzet və jurnal daxil olur.

Nargilə *(həyəcanını boğaraq)*. Bunları qapıda poçtalyon verdi... Özü sancılanmışdı. Ona görə də mən alıb gətirdim...

Həsənzadə. Çox sağ olun. *(Qəzet və jurnalları ondan alıb, dəyirmi həsir stolun üstünə qoyur)*. Siz bizim bu qonşudakı mühasibin qızı deyilsiniz?

Nargilə. Xeyr... O mənim atalığımdır.

Həsənzadə. Oxuyursunuz?

Nargilə. Bu il onilliyi qurtardım. Ancaq ali məktəbə girə bilmədim.

Həsənzadə. Nə üçün?

Nargilə. Bir balım çatmadı... *(Birdən qızışıb özündən çıxaraq)*. Dil müəllimi kifir bir qız idi, «dörd» əvəzinə, götürüb «üç» verdi.

Həsənzadə *(gülümsəyərək)*. Məncə, müəllimə haqqında belə danışmaq yaxşı deyil.

Nargilə *(tutularaq)*. Bağışlayın...

Həsənzadə. Eybi yoxdur, yaxşı hazırlaşıb gələn il girərsiniz.

Nargilə. Yaman da girərəm...

Həsənzadə. Hər halda, ruhdan düşmək lazım deyil. Bəs indi nə edirsiniz?

Nargilə. Heç nə.

Həsənzadə. İşləmək istəmirsiniz?

Nargilə. İş yoxdur. Anamla sizin zavodun kadrlar şöbəsinə getdik. Bir şey çıxmadı.

Qısa pauza.

Həsənzadə. Naryadçı vəzifəsində işləyərsiniz?

Nargilə. Siz deyəndən sonra niyə işləmirəm...

Həsənzadə. Mənim deməyim başqa, sizin ürəyinizdən olmağı başqa.

Nargilə. İşləyərəm.

Həsənzadə *(zəng edir)*. Allo, Fərəcov.

İşıq eyni zamanda telefon xəttinin o biri ucunda olan Fərəcovu işıqlandırır.

Həsənzadə. Ora bir qız gələcək, adı... *(Nargiləyə)*. Adınız nədir?

Nargilə. Nargilə.

Həsənzadə *(telefonla)*. Adı Nargilə xanımdır. Onu sağagün orduya gedən oğlanın yerinə naryadçı təyin edərsiniz.

Fərəcov *(narazılığını gizlədərək)*. Ba-ba-baş üstə, yoldaş direktor.

Həsənzadə dəstəyi asır. Fərəcovun üzərinə düşən işıq sönür.

Nargilə. Görürsünüz... Amma dünən bizə deyirdi, oğlanın yerinə adam götürmüşük.

Həsənzadə. Sabahdan gedərsiniz, əlli manat da maaşıdır...

Nargilə *(qürurla)*. Onun əhəmiyyəti yoxdur.

Həsənzadə *(zarafatyana)*. Yəni o qədər dövlətlisiniz?

Nargilə. Altmış manat da atamın təqaüdünü alıram.

Həsənzadə. Atanız vəfat eləyib?

Nargilə. Bəli... Mən bir yaşında olanda... Müharibədə vurulub. Baş leytenant imiş. *(Həsənzadə papiros yandırır)*. Oğlunuzu hara yola salırdınız?

Həsənzadə. Başqırdıstana.

Nargilə. Orda işləyəcək? *(Həsənzadə başı ilə təsdiq edir)*. Həmişə?

Həsənzadə. Kim bilir... Hələlik üçillik vaxta gedib.

Nargilə. Gərək ki, mühəndisdir...

Həsənzadə. Bəli. Neft İnstitutunu qurtarıb.

Nargilə. Darıxırsınız?

Həsənzadə. Darıxdım nə olacaq...

Qısa pauza.

Nargilə *(mütəəssir halda)*. Bəlkə sizin üçün bir iş görmək lazımdır?

Həsənzadə. Sağ olun. Lazım olan işləri özüm görməyə adət etmişəm.

Nargilə. Bilirəm... oğlunuz kanikula gələndə hər səhər ondan əvvəl durub çay qoyurdunuz. Qəlyanaltı hazırlayırdınız...

Həsənzadə. Elədir...

Nargilə. Mən saatlarla o tək pəncərənin qabağında oturub, sizə tamaşa edirdim... Sizin isə bundan xəbəriniz yox idi.

Həsənzadə. Xəbərim var idi.

Nargilə *(sevinclə)*. Doğrudan?.. Amma elə bilirdim siz bir dəfə də olsun məni görməmisiniz...

Həsənzadə. Nə üçün... Qonşu deyilik...

Nargilə *(məyus halda)*. Elədir... qonşuyuq... *(Qısa pauza)*. Həmişə sizin oğlunuz gələndə mən sevinirdim.

Həsənzadə *(zarafatyana)*. Doğrudanmı?

Nargilə *(Həsənzadənin ahəngindəki mənanı duyaraq)*. Mən sizə görə sevinirdim!

Həsənzadə. Mənə görə?

Nargilə. Bəli. O gələndə sizin kefiniz yaxşı olurdu. Danışırdınız, gülürdünüz... O olmayanda isə, saatlarla bu həsir kresloda oturub elə hey papiros çəkirdiniz. Hey düşünürdünüz...

Həsənzadə *(gülümsəyir)*. Qocalara başqa daha nə qalır ki...

Nargilə. Siz qocasınız?

Həsənzadə. Əlbəttə.

Nargilə *(acıqlanır)*. Yoxsa siz məni yüngülbeyin bir qız hesab edirsiniz?

Həsənzadə. Qətiyyən!

Nargilə. Onda nə üçün heylə deyirsiniz?

Həsənzadə. Mənim özüm haqqımda elə deməyimin sizə nə dəxli ola bilər?

Nargilə. Çox sağ olun. Mən sizdən belə kobud sözlər gözləməzdim.

Həsənzadə. Bağışlayın.

Nargilə. Yox, siz məndən üzr istəməyin... lap ürəyimi parça-parça eləsəniz də, mən sizin üzr istəməyinizə razı olmaram.

Həsənzadə. Təşəkkür edirəm. *(Qısa pauza)*. Siz çox roman oxuyursunuz?

Nargilə. Nə üçün soruşursunuz?

Həsənzadə. Elə-belə...

Nargilə. Xeyr, mən Robinzon Kruzodan başqa heç bir roman-zad oxumamışam. *(Təşəxxüslə)*. Mən riyaziyyatçıyam. Fizika, riyaziyyata aid əlimə nə keçdi, buraxmaram.

Həsənzadə. A... belə deyin.

Nargilə. Nə qədər çalışdım, o kifir qızı başa sala bilmədim ki, riyaziyyatçı olmaq istəyirəm. Qrammatikadan üç alsam da, yola gedərəm.

Həsənzadə. Bəs, axı dedik, müəllim haqqında belə hörmətsiz danışmaq yaxşı deyil...

Nargilə. Bağışlayın... Yadımdan çıxdı. Söz verirəm. *(Pauza. Həsənzadə papiros çəkir, qız baxır)*. Təbiətin qəribə sirləri var...

Həsənzadə. Necə bəyəm?

Nargilə. Oğlunuz sizə o qədər oxşayır ki...

Həsənzadə. Hə... bir az oxşayır.

Nargilə. Bir az yox, lap çox!.. Gözləri, yerişi, duruşu, hətta papiros çəkməyi...

Həsənzadə *(təəccüblə)*. Məgər o, papiros çəkir?

Nargilə *(özünü itirərək)*. Yox... Bəlkə... elə-belə məşğuliyyət eləyirmiş. Mən bircə dəfə görmüşdüm. Bir-iki ağız çəkəndən sonra üz-gözünü bürüşdürüb tulladı. Doğru deyirəm.

Həsənzadə. Yəqin ki, doğru deyirsiniz...

Nargilə *(ona diqqətlə baxaraq)*. Yox! Yalan deyirəm! Papirosu axıra qədər çəkdi!

Həsənzadə *(zarafatyana)*. Üz-gözünü də bürüşdürmədi.

Nargilə. Yox! *(Üsyankar)*. Axı çəkəndə nə olar... Maşallah, pəhləvan kimi oğlandır. Papiros ona neyləyəcək?! *(Yavaş və mütəəssir səslə)*. Mən istəyirəm ki, siz heç bir şeyin fikrini eləməyəsiniz...

Həsənzadə. Başa düşürəm... Sağ olun...

Nargilə. Xoşbəxtlik gün kimi onun başı üzərində hərlənir.

Həsənzadə *(birdən canlanaraq)*. Siz eləmi güman edirsiniz?

Nargilə. Əlbəttə. Ali təhsilli, ağıllı, gözəl... sağlam... Sizin kimi də atası!.. Xoşbəxtlik üçün daha ayrı nə lazımdır ki?!

Həsənzadə *(dərindən nəfəs alaraq)*. Yox... Həqiqi xoşbəxtlik üçün sizin dediklərinizlə çox azdır. Əsil məsələ bu sifətlərdən necə istifadə eləməkdə, insanlar üçün, özün üçün nə kimi xeyirli işlər görməkdədir.

Nargilə *(pərişan halda)*. İnsanlar üçün...

Həsənzadə. Doğru deyilmi?

Nargilə *(birdən)*. Yox!

Həsənzadə. Bəlkə, siz hamıya kin bəsləyirsiniz?

Nargilə. Sizdən və yazıqlardan başqa!

Həsənzadə. Yazıq kimlərə deyirsiniz?

Nargilə *(xəyal içində)*. Surikə, anama...

Həsənzadə. Surik kimdir?

Nargilə. Yoldaşımdır... Onilliyi bir yerdə qurtarmışıq. Doğrudur, bir az yüngülbeyinliyi var... ancaq yazıqdır. Anam da yazıqdır, çünki iradəsizdir, qorxaqdır. Rica edirəm, gəlin bu barədə danışmayaq... Mən sizin ürəyinizin qısılmasını istəmirəm.

Həsənzadə. Eybi yoxdur. Mənim ürəyim o qədər də nərmənazik deyil.

Nargilə *(riqqətlə)*. Mən oğlunuzdan ayrıldığınız bu ağır dəqiqələrinizdə sizə, nə isə ürəkaçan bir şey danışmaq istərdim.

Həsənzadə. Təşəkkür edirəm. Siz bir az öz həyatınız haqqında söhbət eləsəydiniz...

Nargilə. Mənim həyatımın bir qiyməti olsaydı, onu sizə yüz dəfə danışardım.

Həsənzadə. Kim deyir ki, sizin həyatınızın qiyməti yoxdur?

Nargilə *(birdən əsəbiləşərək)*. Kim! Anam! Atamın yerini tutan o köstəbək! Üzümə baxıb şit-şit gülümsəyən, məni tovlayıb yoldan çıxarmağa can atan fərsiz oğlanlar! Qrammatikadan «üç»ü verib mənim ali məktəbə girməyimə mane olan o qız! Hamı... hamı!..

Birdən kresloya yıxılaraq, hönkürüb əlləri ilə üzünü tutur.

Həsənzadə. Sakit olun... ağlamaq nədir...

Pauza. Bayaqkı musiqi yenidən başlayır. Yenidən adama elə gəlir ki, bu musiqi min illərdir elə-belə davam edir...

Nargilə *(birdən əlini üzündən çəkərək)*. Doğrudanmı, siz mənim həyatım haqqında eşitmək istəyirdiniz?!

Həsənzadə. Bəli. Danışın.

Nargilənin gözləri sanki yol çəkir... Həmin musiqi yenidən başlayır və musiqinin ahənginə uyğun olaraq, səhnə yavaş-yavaş qaranlıqlaşır.

Nargilə. Anamın ikinci dəfə ərə getməyi yadıma gəlmir. Deyirlər, onda mən kök, sağlam, güləyən bir uşaq imişəm. Lakin illər keçir, mən böyüdükcə, bu şənlik də silinib gedirdi. *(Musiqi susur. Səhnə tamam qaranlıqlaşır... və qaranlıqda Nargilənin bu sözləri eşidilir)*. Mənim həyatımda fərəhsiz, sıxıntılı günlər başlanırdı...

Səhnə yenidən işıqlananda Nargilənin ata evində yemək otağı görünür, artıq yetkin bir qız olan Nargilə tez-tez mətbəxdən qab-qacaq gətirir. Lakin bu işin onun üçün son dərəcə xoşagəlməz bir hal olduğu hiss edilir. Nəzakət xanım yemək stolunun üstünü düzəldir. Nargilə qrafini gətirib qoyanda su süfrənin üstünə tökülür.

Nəzakət. Niyə üsullu hərəkət eləmirsən... İndi bir də süfrəni dəyişim?

Nargilə. Lazım deyil. Bir damcı tökülüb.

Nəzakət. Sən onun xasiyyətini bilirsən. Şoraba da yadımızdan çıxıb. *(Tələsik mətbəxə gedir. Qız anasının ardınca təngə gəlmiş adam kimi nəzər salır. Sonra dərindən nəfəs alaraq, yaxınlaşıb radionu açır. Otağa zərif bir musiqi dolur. Nəzakət həyəcanla daxil olub, şorabanı stolun üzərinə qoyaraq radionu bağlayır)*. Nə qayırırsan?.. Bilmirsən, o, ac olanda belə şeylərə dözmür?! *(Bayırdan ayaq səsləri eşidilir)*. Gəlir...

Və yalvarıcı bir ifadə ilə qızına baxır. Nargilə onun nə demək istədiyini başa düşərək, səhnənin ikinci otağı əvəz edən hissəsinə keçir. Fərəc ağır addımlarla daxil olur. Nəzakət xanımın ona dikilən nəzərlərində bir vahimə vardır. Fərəc həsir şlyapasını çıxarıb Nəzakətə verir və mətbəxə yönəlir... Nəzakət də onun ardınca gedir. Sonra Fərəcin fınxıra-fınxıra, suyu üzünə şappıldada-şappıldada necə yuyunduğu eşidilir və bütün bu səslərin Nargiləyə olduqca xoşagəlməz bir təsir bağışladığı, onu əsəbiləşdirdiyi duyulur. Nəzakət yeməklə dolu boşqabı çox ehtiyatla gətirib stolun üstünə qoyur. Fərəc yaş əllərini havada tutaraq gəlir.

Fərəc. Məhrəba! *(Nəzakət yüyürüb məhrəba gətirir, Fərəc məhrəbanı alıb qurulanaraq yenə də arvadına qaytarır. Sonra təntənə ilə irəliləyib yemək stolunun arxasına keçir. Nəzakət məhrəbanı qoyub qayıdır, ayaq üstündə dayanıb ərinə tamaşa edir. Onun baxışlarında mütilik və qorxu hiss olunur)*. İstiot!

Nəzakət. Görürsən... Yenə də yaddan çıxıb...

Gedib gətirir. Pauza. Bütün bu müddətdə Nargilə o biri otaqda əvvəlcə kitab götürüb oxumaq istəyir, lakin oxuya bilmir. Sonra kitabı yerə qoyaraq, yarımçıq qalmış əl işini götürüb tikmək istəyir. Lakin tikə bilmir və onu da kənara atır. Hiss olunur ki, o biri otaqdan gələn çəngəl-bıçaq səsləri onu əsəbiləşdirir.

Fərəc. Kompot! *(Nəzakət bir stəkan kompot gətirir. Fərəc bir qurtum alıb arvadına baxır)*. İstidir.

Nəzakət *(təqsirkarcasına)*. Bu gün işdən gec çıxdıq...

Fərəc *(Nargilə olan otağa işarə ilə)*. Bəs o neyləyirdi?

Nəzakət. O da yoldaşigilə getmişdi...

Fərəc. Demək, bura mehmanxanadır...

Nargilə acığından barmağını dişləyir.

Nəzakət *(kompotu götürür)*. Qoyum soyuducuda bir az qalsın.

Fərəc. Çay!..

Nəzakət. İki dəqiqəyə qaynayar.

Fərəc *(qəzəblə)*. Qaynayar!.. *(Qalxıb əsəbi halda başdakı qapıya tərəf yönəlir və birdən geri dönür. Nargilə olan otağa işarə ilə)*. Sən onunla danışdın?

Nəzakət *(müqəssir kimi)*. Hələ yox.

Fərəc. Danış! *(Baş tərəfdəki qapıdan çıxır. Nəzakət onun ardınca baxır, üzü yazıq, köməksiz bir ifadə alır. Nargilə o biri otaqdan gəlir)*.

Nargilə. Nə olub?

Nəzakət *(tərəddüd içində)*. Heç bir şey.

Nargilə. Axı o mənim haqqımda nə isə deyirdi. *(Qısa pauza)*. Niyə susursan? Niyə dinmirsən?

Nəzakət. Bir az yavaş...

Nargilə. Yavaş danışmıram! Bura mənim atamın evidir.

Nəzakət. Nargilə... qızım...

Nargilə *(indi yavaş səslə)*. Ah!.. Bircə başa düşsəydim ki, sən... vaxtilə gözəl-göyçək bir gəlin olan sən, onun nəyinə aşiq olmusan?

Nəzakət. Mən indiyə qədər bu sirri heç kəsə açmamışam, amma indi böyük qızsan, sənə deyirəm, mən onu sevmirəm. Heç bir zaman da sevməmişəm!..

Nargilə. Elə isə... Bəs neçə ildir o, burada nə gəzir?

Nəzakət. Atandan sonra mən bu damın altında tək qaldım... Sən isə körpəydin...

Nargilə. Tək niyə olurdun? Sən ki, işləyirdin...

Nəzakət. Gündüzlər işləyirdim... gecələr isə... dünya gözümdə qaralırdı. Elə bil ki, bu evdə hər şey... divarlar da, stullar da dil açıb mənə deyirdi: «O daha yoxdur... O daha heç bir zaman gəlməyəcək».

Yenə də birinci səhnədəki musiqi eşidilir. Yenə də adama elə gəlir ki, bu musiqi dünya bina olunandan indiyə qədər davam edir.

Mən hər yerdə... Hər yerdə onun yoxluğunu hiss edirdim. Mənə elə gəlirdi ki, onunla birlikdə bütün həyat məni tərk edib getmişdir. Sən isə dilbilməz bir körpə idin. Sən dünyadan xəbərsiz gözlərini mənə zilləyib gülümsədikcə, vahimə məni basırdı. Mənə elə gəlirdi ki, müharibə indicə səni də aparıb udacaqdır. Elə bil ki, soyuq əsgər süngüsünün ucu sənin dodaqlarına dirənmişdi. Sən isə onu əmzik bilib sorursan... Mən hər gecə dəhşətli yuxular görürdüm. Mən hər gecə sənin hansı uzaq, yiyəsiz səhradasa düşüb qalmış yaralı atanın çağırışını eşidirdim. *(Musiqi davam edir).* Təklik dəhşət idi. *(Ağlayır).* Mən yaşaya bilmirdim. Başa düş...

Nargilə *(mülayim).* Yaxşı, sakit ol.

Nəzakət *(daha yanıqlı şəkildə ağlayır).* Yoxsa... Mən sənin atanın xatirəsini bu dünyada heç bir səadətlə əvəz etməzdim.

Pauza. Musiqi davam edir. Musiqi susur. Səhnə qaranlıqlaşır. İşıqlananda Həsənzadə papiros çəkərək dinləyir. Nargilə həyəcanla söhbətinə davam edir.

Nargilə *(aramla).* Mən anama inanırdım... Bir dəfə mən onun xəlvətcə atamın şəklinə baxıb ağladığını görmüşdüm. Mən onun halına yanırdım. Lakin onun zəifliyi, iradəsizliyi məni dəli edirdi.

Həsənzadə. Bəs sonra nə oldu?

Nargilə. Sonra da belə oldu ki...

Səhnə yenidən qaranlıqlaşır. İşıqlananda axşamçağıdır. Fərəc arvadının qabağında dayanmışdır. Nargilə isə o biri otaqda çarpayısının üstündə yarıuzanmış halda yuxulamışdır. Oxuduğu kitab sinəsi üzərinə düşüb qalmışdır. Onun üzündə həyəcanlı bir ifadə var.

Fərəc *(arvadına).* Nə oldu, danışdın?

Nəzakət. Axı bu evlər onun atasınınkıdır. Mən necə deyim ki, sən get ayrı yerdə ol?!

Fərəc. Xalası tək arvaddır. Getsin onun yanında qalsın.

Nəzakət *(təqsirkarcasına).* Deyə bilmərəm... Ürəyim gəlmir...

Fərəc. Demək, o sənin üçün doğmadır, amma bu biriləri ögey?

Nəzakət. Ögey nə üçün?

Fərəc. Bəs niyə onların da qayğısına qalmırsan? Tək qız bir otağı tutub... Amma biz beş baş külfət iki balacasına sığınmışıq...

Uşaqların dərs oxumağa da yerləri yoxdur. *(Hirslənir).* Bu isə sənin vecinə deyil.

Nəzakət. Qız heç vaxt uşaqların onun otağında dərs hazırlamalarına mane olmur... Əksinə... özü həmişə onlara kömək eləyir.

Fərəc. Bu nağılları qoy dursun. *(Birdən).* Mən onun burada olmasını istəmirəm, vəssalam, ya o, ya mən!

Fərəc otaqdan çıxır. Nəzakət onun ardınca uzun bir nəzər salır. Sonra Nargilə olan otağa girərək, gəlib onun yanında oturur. Gözü qızına zillənib qalmışdır. Yenə də həmin musiqi səslənir. Yenə də zaman dayanır... Nargilə ayılır. Anasına baxaraq, sanki xəyalını uzaqlardan qaytarmağa çalışır.

Nargilə *(dikəlir).* Elə qəribə yuxu görürdüm ki...

Nəzakət. Nə yuxu idi?

Nargilə. Görürəm, mən yaşıl bir meşə ilə harasa tələsirəm. Birdən qarşıma saçları ağarmış qədd-qamətli bir zabit çıxır. İkimiz də dayanırıq. Sən də gəlib çıxırsan... Zabit kədərli gözləri ilə hey mənə baxıb susur... Mən özümü itirirəm. Sən mənə deyirsən: bunu tanımırsan? Sənin atandır da... Mən də ürəyimdə deyirəm: bir gör mənim atam necə yaraşıqlıdır...

Nəzakət. O, müharibəyə gedəndə iyirmi üç yaşında saçları qapqara bir oğlan idi.

Nargilə *(qalxıb güzgüdə özünə uzun bir nəzər salır. Gözləri güzgüdə olduğu halda oxuyur).*

Sən şahin kimi cəsur, mələk kimi gözəl idin.
Sən igidlər içində bir igid idin.
Səni uzaq bir səhrada sinəndən vurdular...
Dağlardan bir qartal uçub sənin yanına gəldi.
Başın üzərində hərlənən qarğalar
Onu görüb qaçdılar.
Düşməni məhv edib qayıdan yoldaşların səni
Bir palıd altında dəfn eləyib getdilər.
O vaxtdan həmin qartal hər axşam, səhər
Sənin qəribə məzarın üzərində dövrə vuraraq
Göylərin dərinliklərində gözdən itir.

Fərəc gəlib o biri otağa keçir. Hiss olunur ki, qızın mahnısı onu daxilən özündən çıxarır. O, acığından stulları bir-birinə vurur.

Fərəc *(yemək otağında stula otururaq qışqırır).* Borjom!.. *(Nəzakət diksinərək, qalxıb mətbəxdən ona bir şüşə borjom aparır).* Nə oldu, danışdın?

Nəzakət. Yox.

Fərəc. Niyə?

Nəzakət. Mən danışa bilmirəm!

Pauza. Fərəc sakit halda borjomu töküb içir. Sonra qalxıb, arvadının qabağında dayanır.

Fərəc. Ya mən, ya o! Bu gecə evə gəlməyəcəyəm. Soruşsalar, əmioğlugildəyəm. Səhər zəng edib qərarını mənə bildirərsən.

Həsir şlyapasını götürüb təntənəli şəkildə çıxır. Nəzakət yerində donub qalmışdır.

Nargilə *(gəlir)*. Yenə niyə stulları bir-birinə çırpırdı?

Nəzakət. Nargilə! Qızım! Sən köç xalanla ol. Tək arvaddır.

Nargilə. Aha... demək belə...

Nəzakət. Yenə də əvvəlki kimi gözüm üstündə olacaq.

Nargilə. Yox, mən heç yerə getməyəcəm. Bura mənim atamın evidir. Zəhmət çəkib siz getsəniz, mən özümü çox yaxşı hiss edərəm.

Nəzakət *(acıqlı halda)*. Sən bir adamsan, amma biz beş nəfər!

Nargilə *(onun sözünü təkrar edir)*. Biz! Bəs sən deyirdin onu istəmirsən?

Nəzakət *(qışqırır)*. Mənim uşaqlarım var!

Nargilə. Uşaqlar.

Nəzakət. Bu nə hərəkətdir?! Sən ananla danışırsan!..

Nargilə. Yox. Mən Fərəcin arvadı ilə danışıram.

Nəzakət *(mülayim tərzdə)*. Axı sən indi böyük qızsan... Hər şeyi başa düşürsən. Mən ki, sənə izah elədim.

Nargilə. Mən səni ərə getməkdə təqsirləndirmirəm.

Nəzakət. Yoxsa mənim səni istəməyimə şübhə edirsən?

Nargilə. Mən buna da şübhə etmirəm.

Nəzakət. Bəs onda sən məni nədə təqsirləndirirsən?

Nargilə. Köləlikdə!

Nəzakət. Mən kimin köləsiyəm?

Nargilə *(qışqırır)*. Bir köstəbəyin! İnsanlıqda haqqı olmayan bir rəzilin. Sən bu neçə ildə onun yanında mənimlə bir kəlmə danışmamısan! Qorxursan ki, köstəbək hirslənib səni atar.

Nəzakət *(sarsılmış halda)*. Sən ananın bədbəxtliyinə acımaq əvəzinə, gör ona nələr deyirsən!

Nargilə. Mən bütün üzvləri sağlam olduğu halda, özlərini yalnız acımağa layiq bilənlərə...

Nəzakət. Nifrət edirsən, eləmi?

Nargilə. Bağışla, sən məni o qədər yandırıb-tökürsən ki...

Nəzakət. Bəlkə də, lənətə gəlmiş müharibə olmasaydı, bizim aramızda bu sözlər olmazdı...

Nargilə. Nə isə... Bu söhbətlər artıq gecdir. Demək, sən də, ərin də mənim bu evdən çıxıb getməyimi istəyirsiniz.

Nəzakət. Mən yox... başa düş...

Nargilə. Başa düşürəm... Heç sən özün də təsəvvür eləyə bilməzsən ki, nə qədər aydın başa düşürəm.

Nəzakət. O getdi. Əgər sən burada qalsan, bir də qayıtmayacaq. Mənim isə ondan üç uşağım var...

Nargilə. Sən uşaqların adını az çək. Dünyada heç nədən xəbərləri olmayan körpələri bir ehtiras alətinə çevirmək yaxşı deyil. Bunu o eləyir, heç olmazsa, sən eləmə.

Nəzakət. Mən sənin qarşında təqsirkaram.

Nargilə. Xahiş edirəm, yalvarıram, belə sözləri qoy bir kənara. Get deyirsən, gedirəm. *(Çamadanını yığışdırır)*.

Nəzakət *(göz yaşları içində)*. Allah bilir ki, mən səni nə qədər çox istəyirəm... Sən mənim ilkimsən. Sən onun yadigarısan...

Nargilə *(qışqırır)*. Sənə dedim ki, bu sözləri qoy bir kənara! Yoxsa, bax, getmərəm. O köstəbək bilir ki, hökumətə düşsə, bu otaqların, heç olmasa, biri qanuni surətdə mənə çatır.

Nəzakət *(qorxmuş halda)*. Əlbəttə... *(Pauza. Birinci səhnədəki musiqi yenə də eşidilir. Yenə də adama elə gəlir ki, bu musiqi dünya bina olandan indiyə qədər davam edir. Nargilə atasının şəklini divardan alıb çamadanına qoyur. Sonra şifonerdən bir neçə kişi qalstukunu çıxarır, havada silkələyərək tozunu çırpır...)* Qoy onun qalstukunun biri mənə qalsın...

Nargilə *(qalstukları çamadana qoyaraq)*. Onun bu boyda evi sənə qalır, bir qalstuk nəyinə lazımdır ki...

Nəzakət. Niyə sən mənə qarşı bu qədər amansızsan? *(Lakin Nargilə daha onu dinləmir. Çamadanını götürür, musiqi davam edir)*. Mən hər gün sənin yanına gələcəyəm.

Nargilə *(onu dinləməyərək divarları nəzərdən keçirir. Öz-özünə danışırmış kimi)*. Gövhər nənəm deyərdi ki, mənim atam bu otaqda doğulub, sonralar da bura onun iş otağı olub...

Nəzakət. Elədir...

Musiqi susur.

Nargilə *(təhdidlə)*. Əgər siz buranı yataq otağı eləsəniz, mən hökumətin əli ilə bunu təkrar sizdən alacağam. İndi isə xudahafiz.

Çıxır. Nəzakət qızın ardınca uzun bir nəzər salır. İşıq tədricən tutqunlaşır. Nəzakət vahimə içərisində otağı nəzərdən keçirir. Elə bil ki, divar yerindən tərpənərək ona tərəf hərəkət edir. Yarıqaranlıq içində hər tərəfdən sıxlaşan divarlarla birlikdə Fərəc də irəliləyib Nəzakətin qarşısında dayanır. Nəzakət alacalanmış gözləri ilə ərinə baxaraq, dəhşət içində pıçıldayır.

Nəzakət. Getdi!

Fərəcin Nəzakətə zillənmiş nəzərləri altında səhnə qaranlıqlaşır. İşıq yananda Nargilənin yeni mənzili görünür. Bu, balaca, dar, yarıqaranlıq bir otaqdır. Bir tərəfdə üzərinə ucuz, lakin çox təmiz adyal çəkilmiş dəmir çarpayı, köhnə divan qoyulmuşdur. Çarpayının yanındakı divara Nargilənin gənc atasının şəkli vurulmuşdur. Ortada təmiz, ağ örtüklü stol və iki köhnə stul vardır.

Nargilə əynində xalat, evini səliqəyə salır. Telefon zəng vurur. Nargilə irəliləyib dəstəyi götürür və bu zaman işıq yalnız onun, bir də telefon xəttinin o biri tərəfindəki avtomat köşkünün üzərinə düşür. Köşkdə ultramoda ilə geyinmiş sarısaç bir qız telefon dəstəyini qulağına tutmuşdur. Onun yanında yenə də ultramodada geyinmiş iki gənc oğlan dayanmışdır, oğlanlardan biri qızın əlindən tutmuşdur.

Sarısaç qız. Nana, səni təzə mənzildə təbrik edirik.

Nargilə. Çox sağ olun. Ancaq mənim təzə mənzilim bu təbrikə dəyməz.

Sarısaç qız. Nə danışırsan, Nana. Sən indi azad quşsan... Heç kəs səndən soruşmayacaq, niyə tez getdin, niyə gec gəldin? Bu ki, dünyaya dəyər... Mən sənə həsəd aparıram.

Nargilə *(gülümsəyir)*. Doğrudanmı?

Sarısaç qız. Vicdan haqqı. *(İkinci oğlana baxaraq gülümsəyir)*. Nana!

Nargilə. Nədi?

Sarısaç qız. Tez geyin gəl. «Nərgiz» kafesinin yanında gözləyirik.

Nargilə. Kiminlə?

Sarısaç qız. Gələrsən, görərsən. *(İkinci oğlana baxaraq gülümsəyir)*. Sənin üçün sürpriz var. *(İkinci oğlan gülümsəyir)*.

Nargilə. Nə sürpriz?

Sarısaç qız. Dedim ki, gələrsən, görərsən.

Nargilə. Sən kiminləsən?

Sarısaç qız. Mən Dodiklə.

Nargilə. Hansı Dodiklə?

Sarısaç qız. Çapıq Davudu tanımırsan?

Nargilə *(bərkdən gülərək)*. Nə üçün oğlanın üzünə heylə söz deyirsən?

Sarısaç qız. Sən də... oğlanın... *(Davud onun əlini bərk sıxır, qız qışqırır.)* Oy...

Nargilə. Nə oldu?

Sarısaç qız. Sən ki bunun vəhşiliyini bilirsən... *(Davud vəhşi bir görünüş alaraq, dişlərini bir-birinə sürtüb qıcırdadır)*. Oy, Dod... bəsdir... *(Telefona)*. Qurtar! Sürprizin bağrı çatladı.

İkinci oğlan *(ağzını telefon dəstəyinə yapışdıraraq oxuyur)*.

Zaman keçir... günlər quş kimi uçur.
Həyat bir stəkan sudur,
Tələs, tez iç.
Yoxsa bizim bu fərsiz planetimiz
Hər bir an bir ovuc kül ola bilər.
Həyat bir stəkan sudur,
Tələs, tez iç...

Sarısaç qız *(oxuyur)*.

Taleyindən narazı eybəcər bir qız
Bizi kəsdi, «üç» verdi,
Ali məktəbə girməyə qoymadı,
Biz həyatdan və eybəcər qızdan
İntiqam alacağıq.
Biz eşq badəsini sona qədər içib,
Dünyanın bütün zövq-səfasını dadacağıq...
Biz həyatdan və eybəcər qızdan
İntiqam alacağıq.

Hər üçü *(oxuyur)*.

Biz həyatdan və eybəcər qızdan
İntiqam alacağıq.

Sarısaç qız. Nana, tez ol, gözləyirik.

Köşk qaranlıqlaşır. İndi yalnız Nargilənin otağı görünür. O, yavaş-yavaş xalatını çıxarır, təzə paltarını geyir. Üzü ciddi və fikirlidir. Əvvəl dodaqlarına pomada, üzünə pudra vurur. Sonra nə fikirləşirsə, əsəbi hərəkətlə hamısını silir. Yalnız saçlarını darayıb otaqdan çıxır. Səhnə qaranlıqlaşır, işıq yananda ikinci şəklin ardı davam edir. Həsənzadənin eyvanı, qapıdakı söyüd ağacının yuxarısı günəş şüaları ilə işıqlanmaqdadır. Həsənzadə ayaq üstə papiros çəkir. Nargilə onun qarşısında dayanaraq, bir əli ilə söyüd ağacının yarpaqlarını oynadır. O, həyəcanlıdır.

Həsənzadə. Demək, siz rəfiqənizin çağırışına getmədiniz?

Nargilə *(onun üzünə baxmadan)*. Mən bura gəldim.

Pauza.

Nargilə *(söyüdün budağını buraxır)*. Nə üçün səbəbini soruşmursunuz?

Həsənzadə *(gülümsəyir)*. Məgər sizlərdə adamdan qonaq gəlməyinin səbəbini soruşurlar?

Nargilə. Mən qonaq gəlməmişəm. Mən sizi yaxından görmək, səsinizi eşitmək üçün gəlmişəm. Dünyadakı adamların hamısından çox mənim xoşuma siz gəlirsiniz!

Həsənzadə. Təşəkkür edirəm. Ancaq siz dünyada hələ o qədər az adam görmüsünüz ki...

Nargilə. Hər halda, görmüşəm. *(Birdən acıqlanır)*. Mən hər şeyi, hətta Surikin öz çuvakları ilə məni çağırdığını belə sizə danışdımsa, bu, heç də o demək deyil ki, mən axmaq və sadəlövh bir qızam.

Həsənzadə. Əksinə... Mən sizi çox ağıllı qız hesab edirəm.

Nargilə *(ona dərin və sınayıcı bir nəzər salaraq)*. Mən sizdən ancaq səmimi söz gözləyirəm...

Həsənzadə. Mən səmimi deyirəm.

Nargilə. Uşaqlıqda bir dəfə rəhmətlik Gövhər nənəm də bu sözü mənə demişdi.

Həsənzadə. Yəqin ki, yeri düşməyib. Yoxsa bu sözü sizə çox adam deyərdi.

Nargilə. Ancaq mən çox zaman bu sözün əksini eşitmişəm.

Həsənzadə. Məsələn, kimdən?

Nargilə. Məsələn, atalığımdan... O, həmişə mənim yüngülbeyin, axmaq bir qız olduğumu söyləyirdi... Sonralar... Mən on altı-on yeddi yaşına çatanda isə anamı inandırmağa çalışırdı ki, mənim evdə qız qalmağım təhlükəlidir. Mümkün qədər tez bir adam tapıb, məni başdan eləmək lazımdır.

Qısa pauza. Həsənzadə papiros yandırır.

Həsənzadə. O bu sözləri sizin yanınızda deyirdi?

Nargilə. Bəzilərini mənim lap gözümün içinə deyirdi, bəzilərini isə mən öz otağımdan eşidirdim.

Həsənzadə. Bəs ananız nə cavab verirdi?

Nargilə. Mən sizə nağıl elədim ki, anam ondan necə qorxurdu.

Həsənzadə *(qısa pauzadan sonra)*. Həyatda belə şeylər çox olub... Siz ananızdan inciməyin.

Nargilə. Əgər onun əri adam olsaydı, mən anamdan incimməzdim. Üzünə baxırsan, qusmağın gəlir. *(Getdikcə qızışır)*. Xəsis, xırdaçı, qeybətcil, qorxaq, alçaq... rəzil... hər nə desəniz, ondan!..

Həsənzadə. Sakit... axı siz söz verdiniz ki, daha əsəbiləşməyəcəksiniz.

Nargilə. Bağışlayın... *(Ağlamsınır)* O məni o qədər yandırıb ki...

Həsənzadə. Hər şey olub keçib. Siz indi ayrı yaşayırsınız.

Nargilə. Ayrı yaşasam da, onun bərəlmiş qoyun gözlərini hər yerdə görürəm...

Həsənzadə. İşləyərsiniz... Başınız qarışar... Hamısını unudarsınız.

Nargilə. Məgər mən anamgildə olanda işləmirdim? Məgər o üç otağın döşəməsini, altı adamın bütün pal-paltarını mən yuyub təmizləmirdim?!.

Həsənzadə. Mən sizin hər gün nə qədər paltar yuduğunuzu, nə qədər zibil atdığınızı görürdüm.

Nargilə. Ah, heç olmasa, bunu bir nəfərdən eşitdim...

Həsənzadə. Ancaq, bilirsinizmi, heylə işləmək başqa, cəmiyyət içində başqa... Zavodda siz təzə adamlar görəcəksiniz. Təzə sözlər eşidəcəksiniz...

Nargilə. Mən sizdən başqa heç kəsi görmək də istəmirəm, eşitmək də!

Həsənzadə. Nə üçün?

Nargilə. Çünki heç kəsə inanmıram!

Həsənzadə. Bəs nəyə görə məhz mənə inanırsınız?

Nargilə. Bilmirəm. *(Qısa pauza)* Ancaq bu belədir. Əgər bu iki ildə hər gün mən o pəncərədən sizi görməsəydim, heç bilmirəm nə edərdim. Bayaq mən sizə yalan dedim... Poçtalyon kefsiz deyildi... Mən özüm küçədə dayanıb onu gözləyirdim. Gəlib çıxanda aldatdım ki, Həsənzadəgilə gedirəm, verin qəzetləri mən aparım...

Həsənzadə. Nə olar ki... Tanış olmağıma çox şadam.

Nargilə. Təşəkkür edirəm.

Həsənzadə. Təşəkkür nə üçün...

Nargilə. Sizin kimi bir adam, əgər mənimlə tanış olduğuna da şaddırsa...

Həsənzadə. Məgər siz pissiniz?

Nargilə. Bilmirəm... hər halda, tale mənim haqqımda bir az insafsızlıq eləyib...

Həsənzadə. Səhv edirsiniz... Əgər «tale» deyilən bir şey varsa, sizin ondan inciməyə haqqınız yoxdur. O, xoşbəxt olmaq üçün sizə hər şeyi vermişdir... Ağıl, gözəllik, sağlamlıq... daha nə istəyirsiniz... Bayaq siz özünüz bu sözləri mənim oğlum haqqında deyirdiniz.

Nargilə. O başqa... mən başqa! O sizin oğlunuzdur.

Həsənzadə. Bunun dəxli yoxdur... Oğul, qız ömrü axıra qədər ata-ana ilə bir başa vurmur...

Nargilə. Ah, siz nə yaxşısınız... Mən sizi elə belə də təsəvvür edirdim...

Həsənzadə. Siz də yaxşısınız... Axı biz nə üçün pis olmalıyıq? Pislikdə nə var ki...

Nargilə. Elədir... *(Qısa pauza)*. İcazə verin evinizi təmizləyim...

Həsənzadə *(zarafatyana)*. Mən sizə zəhmət vermək istəmirəm.

Nargilə. Mən gözümü açandan bəri həmişə pis adam üçün zəhmət çəkmişəm. İndi isə... dünyada hamıdan çox istədiyim, hamıdan yaxşı sandığım bir adam üçün zəhmət çəkmək istəyirəm. Sizin məni məhrum etməyə haqqınız yoxdur.

Həsənzadə *(zarafatyana)*. Elə isə mənim bu kitab şkafımı səliqəyə salın. Aydın tökük-dağıdıb. Mən də işə dəyim... Getmək istəsəniz, qapını bərk çəkin, özü bağlanacaq.

Nargilə. Baş üstə. *(Həsənzadə evə girir. Nargilə şkafa yaxınlaşaraq, səliqəsiz halda üst-üstə qalaqlanmış kitablardan ilk əlinə keçənin əvvəl üstünü oxuyur, sonra açıb baxmaq istərkən kitabın arasından qurumuş bir çiçək düşür. Qız əyilib çiçəyi yerdən götürür,*

burnuna tutub qoxlayır, bu zaman Həsənzadə, əlində iri qovluq, içəridən çıxır). Bu, nə çiçəyidir?

Həsənzadə. Ona «Boy çiçəyi» deyirlər. Yuxarı dağlarda bitir.

Nargilə. Nə qəribə çiçəkdir... qupquru quruyub, amma elə gözəl ətri var ki, elə bil indicə dərilib.

Həsənzadə *(dərindən nəfəs alaraq)*. «Boy çiçəyi» elədir... Quruyub xəzan olsa da, ətri həmişəkitək qalır. Hələlik.

Gedir. Nargilə yenə çiçəyi kitabın arasına qoyur. Şeylərin tozunu alır. Çaydanı doldurub qazın üstünə qoyur.

Nargilə *(oxuyur).*

Onun saçları gümüş kimi ağdır...
Onun gözlərində daima bir kədər vardır...
Mən onun nəcib əllərinə baxaraq soruşdum:
Əzizim, nə üçün həmişə pərişansan...
O gülümsəyib cavab verdi:
«Məgər ürəkdə hər nə ki var...
Açıb deməkmi olar...»

Qapının zəngi çalınır. Nargilə qapını açır. Nəzakət daxil olur. Gərgin pauza.

Nəzakət *(acıqlı)*. Burada nə edirsən?

Nargilə. Elə-belə gəlmişəm.

Nəzakət. Qız uşağının subay kişinin evində nə işi var?

Nargilə *(sakit halda)*. O məni işə düzəldir.

Nəzakət. Nə münasibətlə? O səni hardan tanıyır?

Nargilə. Mən özüm onunla tanış olmuşam.

Nəzakət. Qələt eləmisən. Onun sən boyda oğlu var.

Nargilə *(sakit halda)*. Səhv edirsən, onun oğlu məndən üç yaş böyükdür.

Nəzakət *(qorxu içində)*. Sən onunla çoxdan tanışsan?

Nargilə. Yox... bir saat bundan qabaq.

Nəzakət *(təkrar qəzəblənir)*. Bu dəqiqə buradan çıx, cəhənnəm ol!

Nargilə *(gülümsəyir)*. Cəhənnəmdə çox olmuşam, indi də cənnətə köçmək istəyirəm.

Nəzakət. Demək, sən öz doğma ananı ələ salırsan?

Nargilə *(sakit halda)*. Yox, ələ salmıram.

Nəzakət *(mülayim tərzdə)*. Heç fikirləşmirsən ki, camaat nə deyər? Yoxsa səni Həsənzadə qulluqçu tutub?

Nargilə. Qulluqçuluğun daşını daha atmışam. Onun evini yığıb-yığışdırmağımı mən özüm xahiş etdim.

Nəzakət. Sənin dəli olduğunu deyirdilər, inanmırdım.

Nargilə. Eh... inanmamağının nəticəsi nə oldu ki...

Nəzakət. Əgər sən bu saat burdan çıxıb getməsən, mən milis idarəsinə zəng edəcəyəm!

Nargilə *(bərkdən gülür)*. Mən on yeddi yaşından başlayaraq, düz doqquz il atamın təqaüdü ilə dolanıb, Fərəc Sərdarova qulluqçuluq elədim. Axırda da məni öz atamın evindən qovdu, bəs niyə onda milisə zəng eləmədin?

Nəzakət. Sənin kimi cavan qızın, təkcə yad kişinin evinə getməyi əxlaqsızlıqdır.

Nargilə. Bəs əzab... işgəncə... ədalətsizlik necə?!

Nəzakət *(kövrəlir)*. Niyə heylə deyirsən... Məgər səni döyüb-söyürdülər?!

Nargilə. Elə zülm var ki, döymək onun yanında muştuluqdur. Bir cüt ağarmış göz buz kimi soyuq, iyrənc baxışları ilə məni gündə yüz dəfə təhqir edirdi. Mən, on üç-on dörd yaşında qız, onun kirli tuman-köynəyini yuyurdum. Uşaqlarına dayəlik edirdim... Səhərdən axşamacan ilan kimi qabıqdan çıxırdım. Bütün bunların müqabilində isə, qulağım nələr eşitmirdi! Eh... nahaq gəlmisən, ana...

Nəzakət *(ağlayır)*. Nar... qızım... ağlını başına yığ. Məni ikinci dəfə bədbəxt eləmə.

Nargilə. Mən səni bağışlayıram, ana, sən də məni yaddan çıxar. Üç uşağın var... Onlar sənə bəsdir.

Nəzakət. Nargilə, qızım!..

Nargilə. Get, ana.

Nəzakət. Söz ver ki, sənin ayağın bir də bu evə dəyməyəcək.

Nargilə. O barədə fikirləşərəm.

Nəzakət *(təhdidlə)*. Söz ver!

Nargilə. Dedim ki, fikirləşərəm.

Nəzakət. Onu bil ki, ana üzünə ağ olanın qəbirdə də sümüyü od tutub yanar.

Nəzakət çıxır. Pauza. Həsənzadə gəlir.

Həsənzadə. Siz hələ burdaymışsınız. Nə olub? Niyə belə qəmginsiniz?

Nargilə. Görəsən, elə bir vaxt olacaqmı ki, köləlik deyilən şey Yer üzündən silinəcək? Yoxsa bu, həyatın qanunlarından biridir?

Həsənzadə *(zarafatyana)*. Nə danışırsınız... Biz ki, köləliyi çoxdan ləğv etmişik...

Nargilə. Mən ürək, xarakter köləliyini deyirəm. Lənətə gəlmiş qorxu hissini deyirəm.

Həsənzadə *(ciddi)*. Əlbəttə, min illərdən bəri insanların qanına, iliyinə işləmiş pisliklərin hamısını birdən çıxarıb atmaq mümkün deyil... Lakin...

Nargilə *(həyəcanla onun sözünü kəsərək)*. Ah... Bircə bilsəydiniz ki, mən birinin o birindən qorxmağına, ona yaltaqlanmasına nə qədər nifrət edirəm...

Həsənzadə. Başa düşürəm... Lakin təkcə nifrət etməkdən nə çıxar... *(Kəskin şəkildə)*. Adamları qorxaqlığa, yaltaqlığa öyrədən səbəbləri tapıb məhv etmək lazımdır! *(İlhamla)*. Siz bizim zavodda kimsədən qorxmayan, kimsəyə yaltaqlanmayan, öz namuslu zəhmətləri ilə hər şeyə qalib gələn oğlanlar, qızlar görəcəksiniz və o zaman inanacaqsınız ki, qorxaqlıq heç də həyatın qanunlarından biri deyil!

Nargilə. Çünki onların rəisi sizsiniz!..

Həsənzadə. Bunun əhəmiyyəti yoxdur, ya mən, yaxud da...

Nargilə *(onun sözünü kəsir)*. Əhəmiyyəti çoxdur. Mən oradan, o pəncərədən sizə, sizin iri və gözəl əllərinizə tamaşa elədikcə, öz-özümə deyirdim; görəsən, bu adam həyatında bir kəsdən, bir çətinlikdən qorxmuşdurmu? Sizin bu əlləriniz mənə əsil kişiliyin, cəsarətin, mərdliyin, iradənin, alicənablığın canlı bir timsalı kimi göründü.

Qısa pauza.

Həsənzadə *(sözü dəyişir)*. Buraları nə yaxşı yığışdırmısınız?

Nargilə *(fərəhlə)*. Xoşunuza gəlirmi?

Həsənzadə. Əlbəttə... belə səliqə kimin xoşuna gəlməz...

Nargilə. Divanın yerini dəyişdirdim. Etiraz eləmirsiniz ki?

Həsənzadə. Əksinə... onun əsil yeri buraymış *(zarafatyana)*, uzan, söyüd budaqları arasından səmaya tamaşa elə.

Nargilə. Aha! Xüsusən aydınlıq gecələrdə.

Həsənzadə. Siz nə şairanə qız imişsiniz...

Nargilə *(tutularaq)*. Doğru deyirsiniz... yoxsa...

Həsənzadə. Doğru deyirəm...

Nargilə. Sağ olun, mən indiyəcən kimsədən özüm haqqında belə yaxşı söz eşitməmişəm.

Həsənzadə *(zarafatyana)*. Bəs kavalerinizdən necə?

Nargilə. Kavalerim nə gəzir?!

Həsənzadə. Necə nə gəzir? Belə gözəl qız...

Nargilə. Biri var idi, dalından dəydim, getdi...

Həsənzadə. Niyə?

Nargilə. Sifəti qız üzünə oxşayırdı. Özü də elə şit gülümsəyirdi ki, elə bil, bu saat axıb töküləcək...

Həsənzadə *(gülümsəyir)*. Ağlı-zadı necəydi?

Nargilə. Ağlı... *(Ovcunun içini üfürür)*. Saman tozu! Özünü də müasir Don Juan hesab eləyirdi.

Həsənzadə. Bəs necə olmuşdu ki, siz əvvəllər onu xoşlamışdınız?

Nargilə. Gördüm ki, bəzi qızların xoşuna gəlir, mən də maraqlandım. İndiki ağlım olsaydı, heç onun üzünə də tü... *(«tüpürməzdim» demək istəyir, lakin sözünü dəyişir)* belə baxmazdım. Siz bura köçəndən qabaqkı əhvalatdır... Onda mənim on altı yaşım var idi.

Həsənzadə. Bəs rəfiqənizin sürprizi?

Nargilə. Boşlayın. Mən sizə dedim ki, getmədim... Nə üçün bir də soruşursunuz? Yoxsa mənə inanmırsınız?

Həsənzadə. İnanıram. Tamamilə inanıram.

Nargilə *(qürurla)*. Mən sizə heç bir zaman yalan söyləmərəm. Ümumiyyətlə, mənim yalandan acığım gəlir. O da qorxaqlıq kimi bir şeydir. Elə deyilmi?

Həsənzadə. Elədir.

Nargilə. Mən sizin üçün çay dəmləmişəm.

Həsənzadə. Nə danışırsınız!.. Siz hardan bildiniz ki, mənim ürəyim bu saat yaman çay istəyir?

Nargilə *(sevinclə)*. Gətirim?

Həsənzadə. Gətirin.

Nargilə mətbəxdən bir stəkan çay, qənd, peçenye və başqa şeylər gətirir.

Nargilə. Yaxşı dəm alıb?

Həsənzadə. Əla. Bəs özünüzə niyə gətirmirsiniz?

Nargilə *(tutularaq)*. Özüm sizin yanınızda çay içəcəyəm?

Həsənzadə. İçəndə nə olar? *(Nargilə tərəddüd içində susur)*. Xahiş edirəm, özünüz üçün də gətirin.

Nargilə gedib özünə çay gətirir və stul çəkib Həsənzadə ilə qabaq-qabağa oturur. Gah gülümsəyir, gah ciddi görkəm alır.Həsənzadə bunu hiss edir. Özünü nə cür aparmağını bilmir.

Nargilə. Siz atalığımla anamın mənim başıma açdıqları oyuna baxmayın, ümumiyyətlə, mənimki həyatda gətirir.

Həsənzadə. Doğrudanmı?

Nargilə. Doğrudan. *(Qısa pauza. Cəsarətlə)*. Məsələn, bu eyvanda, bu söyüd ağacı altında sizinlə belə qabaq-qabağa oturmaq, sizə qulaq asmaq, sizin üçün bir iş görmək mənim ən böyük arzum idi. *(Göz qapaqlarını endirərək, yavaş səslə)*. Bu iki ildə elə bir gecə olmayıb ki, mən sizdən qabaq yatım.

Həsənzadə. Sizin kimi ağıllı bir qızdan belə sözlər eşitmək mənim üçün xoşdur. *(Qısa pauza)*. Bilirsinizmi, biz insanlar qəribəyik. Nə qədər böyük iradə sahibi olursan-ol, həyatın hansı əziz xatirələrlə bağlı olursa-olsun, yenə də kiminsə sənin haqqında düşünməsini, az da olsa, sənin taleyinlə maraqlanmasını istəyirsən.

Nargilə. Bəs necə... İnsanlarla əhatə olunduğun halda, Robinzon Kruzo kimi yaşamaq olmaz ki...

Həsənzadə *(papiros yandırır)*. Doğrudur.

Nargilə. Təklik dəhşətdir. Anamgildə olanda da mən həmişə özümü yalqız hiss edirdim...

Həsənzadə. Başa düşürəm...

Telefon zəngi. Nargilə sıçrayıb dəstəyi götürür.

Nargilə. Kimi istəyirsiniz? Həsənzadəni? Bu saat.

Həsənzadə qalxıb aparata yaxınlaşır. Nargilə dəstəyi elə bir sevinclə ona uzadır ki, elə bil, bu, qız üçün tam bir səadətdir.

Həsənzadə *(telefona)*. Yaxşı, qoyun boşaltsınlar, mən də yarım saata gəlirəm. *(Dəstəyi asır)*.

Nargilə. İşdəndir?

Həsənzadə. Bəli. Təzə maşınlar gəlib, təhvil almaq lazımdır.

Nargilə *(tərəddüdlə)*. Onda... mən gedim...

Həsənzadə. Demək, sabahdan işə başlayırsınız... Əlbəttə, sement zavodunda işləmək o qədər də asan deyil.

Nargilə. Nə olsun çətindir... Siz ki, orda işləyirsiniz.

Həsənzadə *(gülümsəyir)*. Mən ayrı... bizim ciyərlərimiz sementin tozuna öyrəşib.

Nargilə *(jaketini geyərək)*. Hərdən bura gəlməyimə icazə verərsiniz?

Həsənzadə. Əlbəttə...

Nargilə. Hərdən yox, tez-tez! Hər gün!

Həsənzadə. Gəlin.

Nargilə. Mənim haqqımda pis düşünməyin ha!..

Həsənzadə. Bəyəm, siz pis qızsınız?

Nargilə *(qəti şəkildə)*. Yox, pis qız deyiləm!

Həsənzadə. Onda nə üçün mən sizin haqqınızda elə düşünməliyəm?

Nargilə *(öz-özünə danışırmış kimi)*. Doğrudan da... *(Qısa pauza)*. Siz mənim indiyə qədər bir yad kişi ilə tək otaqda qalmadığıma inanırsınızmı?

Həsənzadə. İnanıram. Bir də ki, qalanda nə olar?.. Kişilər adamyeyən deyillər ki?

Nargilə. Yox... Bu, qeyri-səmimi söz oldu.

Həsənzadə. Nə üçün?

Nargilə *(acıqlı)*. Çünki adamyeyənləri var!

Həsənzadə. Biz həmişə yaxşını əsas götürməliyik... Pisin ömrü az olur.

Nargilə. Əksinə, pislərin ömrü acı bağırsaq kimi hey uzanır... *(Qısa pauza)*. Deyirlər, mənim atam ağılda, yaraşıqda, qanacaqda iki oğlanın biriymiş. Amma müharibədən qayıtmadı. Fərəc isə qayıtdı. Özünün də hələ yüz il bundan sonra ölmək fikri yoxdur.

Həsənzadə. Məsələ tez və ya gec ölməkdə deyil. Ömür, onsuz da nisbi şeydir. Ancaq... Boy çiçəyini yadınıza salın. Özü neçə vaxtdır ki, xəzan olub gedib, amma ətri indi də bizi heyran edir... Yaxşı insanlar da belədir... Özləri məhv olsalar da, xatirələri həmişə bizim ləyaqətlə yaşamağımıza kömək edir. Bizim üçün təsəlli olur.

Nargilə *(pıçıltı ilə)*. Doğrudur... Əgər atamın əziz xatirəsi olmasaydı... *(Ağlayır)*. Allaha şükür ki, mən hələ indiyə qədər onun adına layiq olmayan bir iş tutmamışam. Heç bir fırıldaqçı oğlanın hop-gopuna aldanmamışam. Buna birinci səbəb yad yerlərdə həlak olmuş cavan atamın adıdırsa, ikinci səbəb bilirsinizmi kimdir? *(Həsənzadə sual ifadəsilə ona baxır)*. Siz! *(Qısa pauza)*. Mən oradan sizə tamaşa elədikcə, həyatımda tez-tez təsadüf elədiyim pisliklər mənə o qədər kiçik görünürdü ki, bir az qabaq onların məni incidə bildiklərinə təəccüb edirdim. Elə bil ki, mən onların hamısına – bütün o Fərəclərə, Dodiklərə ulduzların yanından baxırdım! Elə bil ki, mənim bu balaca sinəmə dünya sığmırdı. Mən zavodda, qəsəbədə sizin haqqınızda eyzən yaxşı sözlər eşidirdim. Və bunlar məni xoşbəxt edirdi. Mən sizin bizə qonşu olduğunuzu hamıya iftixarla söyləyirdim...

Telefon zəngi. Dəstəyi Həsənzadə götürür.

Həsənzadə. Eşidirəm. Gəlirəm, gəlirəm. *(Dəstəyi yerinə qoyur)*.

Nargilə. Oy... mən sizi ləngitdim. Bağışlayın...

Həsənzadə. Eybi yoxdur.

Nargilə *(riqqətlə)*. Sağ olun. Çox sağ olun...

Həsənzadə. Siz də sağ olun.

Nargilə. Hələlik.

Həsənzadə. Hələlik.

Nargilə gedir. Həsənzadə onun ardınca uzun bir nəzər salır. Səhnə qaranlıqlaşır və bu qaranlıqda Nargilənin acıqlı səsi eşidilir.

Nargilənin səsi. Mən elə bilirdim Fərəc bizim evdədir...

İşıq Nargilə və onun qarşısında dayanmış Fərəcovun üzərinə düşür.

Nargilə. Məni direktor Həsənzadə göndərib, başa düşürsünüzmü?

Fərəcov. Ba...ba... başa düşürəm... A... ancaq gecikmisiniz, siz dünən gəlməli idiniz... gö... gözlədim, gəlmədiniz.

Nargilə *(onu yamsılayır)*. D...de...dedim ki, xəstələnmişdim.

Fərəcov. O öz işinizdir.

Nargilə. Xəstələnmək öz işimdir?

Fərəcov. Ə...əlbəttə. Sizi mən xəstələndirməmişəm ki.

Nargilə. Siz xəstələndirmişsiniz! Mənim əsəblərimi siz Fərəclər çeynəyib əldən salmısınız. Mən sizlərlə vuruşmaqdan *(boğazını göstərir)* bura gəlmişəm.

Fərəcov. Mə...mə...mənim adım Fərəc deyil, Bədəldir.

Nargilə. Xeyr! Sən Fərəcsən!..

Nargilə yaxındakı telefonun dəstəyini götürür. Fərəcov mane olmaq istəyir.

Fərəcov. Telefona to...toxunmayın, gedin ayrı yerdən zəng eləyin.

Nargilə. Əlinizi çəkin! Bura sizin eviniz deyil. Mən direktora zəng eləyirəm!

Fərəcov əlini çəkir. Nargilə zəng edir.

Nargilə. Bağışlayın... narahat edirəm... Burda da bir Fərəc var... Məni işə götürmür, deyir yer tutulub...

Nargilə dəstəyi verir Fərəcova.

Fərəcov. E...e...eşidirəm yoldaş di...rektor. Siz bunun dünən gələcəyini söyləmişdiniz... Ö...ö...özü də bi... birtəhər qızdır... Bi... bir az dəlisoydur.

Nargilə *(özündən çıxır)*. Dəli, gic, nenormalnı hamısı sizsiniz! *(Fərəcov dəstəyi dərhal onun ağzına tərəf tutur ki, sözlərini Həsənzadə eşitsin)*. Siz Fərəclər adamyeyənsiniz!

Fərəcov. Bacı, mənim adım Bədəldir.

Nargilə. Xeyr, sizin hamınızın bir adınız var!

Fərəcov *(telefonda)*. Yo...yoldaş direktor, eşidirsiniz? Necə? Ə...əmrini verim? Ba...baş üstə...

Dəstəyi qulağından aralayır, lakin hələ asmır.

Nargilə. Hə... Necədir? Siz Fərəclərlə hələ mənim işim çoxdur.

Fərəcov *(özündən çıxaraq)*. Lənət sənə şeytan...de... dedim ki, mənim adım Bədəldir.

Nargilə. Keçməz! Fərəcsiniz!

Fərəcov əsəbi halda dəstəyi yerinə çırpır. İşıq sönür. İşıq yananda Həsənzadənin otağı görünür. Birinci şəkildəki musiqi davam edir. Həsənzadə əlində papiros, pəncərə qarşısında dayanıb uzaqlara baxır. Sonra dərindən nəfəs alaraq geri çevrilir.

Xurşid gəlir.

Həsənzadə. Aydın gedəndən ancaq bir teleqram vurub ki, sağ-salamat gəlib çıxdım. İndi on səkkiz gündür ondan heç bir xəbər yoxdur.

Xurşid. Darıxma. Yəqin hələ yerini-yurdunu əməlli müəyyən eləməyib.

Həsənzadə. Darıxmaya bilmirəm, adamın başına yüz cür fikir gəlir. *(Qısa pauza)*. Bəlkə də bu ondandır ki, sən bizi çox tez tərk eləyib getdin. Sən sağ olsaydın, yəqin ki, mən ona bu qədər bağlanmazdım.

Xurşid. Sən öz borcunu yerinə yetirmisən... İndi Aydın sənin haqqında düşünməlidir.

Həsənzadə. Yox... Mən heç kəsin mənim haqqımda narahat olmasını arzu etmirəm. Mən bunları elə-belə ürəyimdə düşünürəm. Kimsənin eşitməsini də istəmirəm.

Xurşid. Mən sənin bu tək vaxtında sağ olmağımı hər zamankından çox istərdim.

Həsənzadə. Sən məni zəiflikdə təqsirləndirmə. Doğrudur, mən tək deyiləm. İşləyirəm, özü də pis işləmirəm. Zavodda məni istəyirlər. Xalq, hökumət mənim əməyimi qiymətləndirib. Lakin mən... bunların hamısını sənin, mənə ən yaxın bir adam olan sənin görüb eşitməyini istərdim...

Xurşid. Mən səni elə belə də tanımışdım.

Birinci şəkildəki musiqi davam edir. Həsənzadə yorğun halda divanda oturur.

Həsənzadə. Bu gün zavoddakı şənlik məni yaman yorub. *(Gülümsəyir)*. Axı biz bu il keçən ilkindən xeyli artıq sement istehsal eləmişik...

Xurşid. Sənin zavoddakı hər qələbən mənim üçün bir bayrama çevrilərdi. Belə vaxtlarda sənin üzündə elə xoşbəxt, elə mehriban ifadə olurdu ki...

Həsənzadə. O zamanlar mənim iki qanadım var idi... biri sən, biri də işim. *(Qısa pauza)*. Lakin sonralar da mən ruhdan düşmədim. Mənə elə gəlirdi ki, sən mənim hər bir müvəffəqiyyətimi görüb sevinirsən... *(Yavaş-yavaş mürgüləyir. Musiqi davam edir)*. Yadındadırmı... sən bəzən bu mahnını oxuyardın...

İşıq azalır və azaldıqca musiqi cavan Xurşidin oxuduğu mahnıya çevrilir. Və sanki bu mahnı uzaqlardan, tamam başqa aləmdən gəlir. İşıq güclədikcə biz Həsənzadəni divanda yatmış görürük. Onun üzündə xoşbəxt bir ifadə var. Xurşid yoxdur. Eyvanın qapısı açılır. Nargilə əlində bükülü bir kağız daxil olur. Dayanıb uzun müddət Həsənzadəyə baxır, sonra böyük ehtiyatla ona yaxınlaşaraq, əyilib dodaqları ilə onun üzünə toxunmaq istəyir. Həsənzadə yuxuda tərpənir. Qız sıçrayıb kənarda dayanır... Həsənzadə hələ də yatır. Nargilə içəridən adyal gətirib üsulluca onun üstünə salır. Sonra stolun üstündə çayı yarımçıq qalmış stəkanı aparıb mətbəxə qoyur. Süfrəni götürüb çırpır və yenidən salır. Sonra ehtiyatla gəlib divanda Həsənzadənin yanında oturur. Bayaqkı bükülü kağızı jaketinin cibindən çıxarıb baxır. Sonra səliqə ilə qatlayıb əlində

saxlayır. Nəzərləri təkrar Həsənzadənin üzərində dayanır. O biri əli ilə onun saçlarına toxunur. Birinci şəkildəki musiqi davam edir. İşıq təkrar azalır. Sanki hava qaralır. Bayırda tez-tez şimşək çaxdığı görünür. Nəhayət, tamam qaranlıq olur və birdən gur işıq, qucağında bələkli bir uşaq içəri otaqdan çıxan Nargilənin üzərinə düşür. Həsənzadə qaranlıqdan çıxaraq, əyilib körpəyə baxır və gülümsəyərək barmağı ilə ona toxunmaq istəyir. Lakin Nargilə uşağı geri çəkir. Barmağı ilə Həsənzadəni hədələyir, yəni ki, «olmaz!» Sonra əlini üzünə qoyub, körpənin yatdığını başa salır və onu beşiyə qoyur... Sonra başını qaldırıb təkrar Həsənzadəyə baxır. Gözlərini yumaraq, üzünü onun üzünə yaxınlaşdırır. Şiddətli göy gurultusu eşidilir. İşıq qaralır, güclənəndə Nargilə sıçrayıb divandan qalxır. Həsənzadə diksinib gözlərini açır. Ayaq üstündə dayanmış Nargiləni görəndə əvvəl sanki heç nə başa düşmür... Sonra özünə gələrək, təkrar Nargiləyə baxıb gülümsəyir. Adyalı kənar edərək, qalxıb oturur.

Həsənzadə. Bəzən adam elə xoşbəxt yuxular görür ki...

Nargilə. Nə görürdünüz?

Həsənzadə *(zarafatyana)*. Yuxunu danışsan, kəsərdən düşər... Yaxşısı budur, siz deyin, görüm haradan gəlirsiniz?

Nargilə *(məyus halda)*. Nə üçün yuxunuzu danışmaq istəmirsiniz?

Həsənzadə papiros yandırır. Göy bir də şiddətlə gurlayır. Külək söyüd yarpaqlarını tərpədərək uğuldayır.

Həsənzadə. Bərk yağacaq. O əlinizdəki nədir?

Nargilə *(daldığı mükəddər xəyaldan ayrılaraq, sevinclə)*. Məktubdur. Oğlunuzdan gəlib. *(Zərfi ona verərək)*. Poçtalyon məni yamanca tanıyıb... Bura gələndə... qapıda gördüm...

Lakin Həsənzadənin artıq onu dinləməyərək, məktubu açıb nəzərdən keçirdiyini görüb susur. Həsənzadə məktubu oxuyub qurtararaq, ehtiyatla qatlayıb zərfə qoyur.

Nargilə. Nə yazır?

Həsənzadə. Yaxşıdır. Neft mədənlərindən birində baş mühəndisdir.

Nargilə. Ev tutub?

Həsənzadə. Tutub.

Nargilə. Yaxşı olar. Ağıllı oğlandır.

Həsənzadə. Bu adyalı mənim üstümə siz salmısınız?

Nargilə *(«hə» mənasında başını tərpədir)*. Başqa kim salacaqdı ki?

Həsənzadə. Dedim, bəlkə Ayna xala salıb... O bu gün gəlib paltar yuyası idi. Niyə oturmursunuz? Gəlin əyləşin.

Nargilə *(acıqlı)*. Oturmuram.

Həsənzadə. Nə üçün?

Nargilə. Çünki siz məni istəmirsiniz...

Həsənzadə *(səmimi təəccüblə)*. Mən sizi istəmirəm?..

Nargilə. O cür istəmək demirəm.

Həsənzadə. Bəs nə cür deyirsiniz?

Nargilə *(acıqlı)*. Mənim kimi!

Həsənzadə *(zarafatyana)*. Mən sizin kimi istəyə bilmərəm... Siz cavansınız...

Nargilə. Siz qocasınız?

Həsənzadə. Hər halda, sizdən iyirmi altı yaş böyüyəm.

Nargilə *(acıqlı)*. İyirmi altı yox, iyirmi beş! Mən srağagün on doqquzu bitirdim.

Həsənzadə. Demək, biz bir gündə anadan olmuşuq... srağagün mən də qırx altıya adladım.

Nargilə. Nə olsun? Qırx altı nədi ki... *(Birdən acıqlanaraq)*. Heç bilmirəm bu nə yaş məsələsidir, salmısınız ortalığa.

Həsənzadə *(gülümsəyir)*. Yaş faktdır. Faktla hesablaşmamaq olmaz.

Nargilə. Sevən adam yaşa baxmaz.

Həsənzadə. Cavanlıqda adama elə gəlir... Mən də on səkkiz-on doqquz yaşlarında olduğum zaman özümdən iyirmi dörd yaş böyük bir qadına vurulmuşdum.

Nargilə. Bəs sonra nə oldu?

Həsənzadə. Sonra... *(Qısa pauza)*. Sonra Aydının anası ilə evləndim.

Nargilə. Sevib evləndiniz?

Həsənzadə. Bəli.

Nargilə. Demək... əvvəlki qadına olan məhəbbətiniz əslində sabun köpüyü imiş...

Həsənzadə. Bilmirəm... Bəlkə də...

Nargilə. Bəs o qadın necə oldu?

Həsənzadə. Durur, indi yetmiş yaşlı bir qarıdır.

Nargilə *(qısa pauzadan sonra birdən özündən çıxaraq)*. Siz bununla nə demək istəyirsiniz?

Həsənzadə. Heç nə... Söz-sözü gətirdi.

Nargilə *(gəlib onun yanında otururaq, mehriban tərzdə)*. Siz məni istəməsəniz də, mən sizi həmişə... yetmiş yox, lap yüz yaşınız da olsa, sevəcəyəm. Özü də mən sizdən tez qocalıb öləcəyəm. Özünüz görəcəksiniz... *(Qısa pauza)*. Xahiş edirəm, bir də bundan sonra mənimlə yaş barədə danışmayasınız... Yaxşımı?

Həsənzadə. Yaxşı. Danışmaram. *(Papiros yandırır və bu zaman bayırda ürəyə yatan bir səslə oxunan «Qaragilə» mahnısı eşidilir. Nargilənin üzü soyuq bir ifadə alır. Həsənzadə dinləyir).*

Gəlmişəm otağına oyadam səni,
Qaragilə, oyadam səni.

Nə gözəl xəlq eləyib yaradan səni,
Qaragilə, yaradan səni.

Həsənzadə. Bizim ekskavatorçu Rəşiddir.

Nargilə *(soyuq tərzdə)*. Tanıyıram.

Həsənzadə. Haradan tanıyırsınız?

Nargilə. Zavodda görmüşəm. Özündən müştəbehin biridir.

Həsənzadə. Özündən müştəbeh? Yox, onda tanımırsınız.

Nargilə. Tanıyıram. İki dəfə onun üçün naryad yazmışam. Bir az yaraşıqlıdır, bir az da səsi var deyən, elə bilir alçacıq dağları bu yaradıb.

Mahnı davam edir.

Qızıl gül əsdi,
Səbrimi kəsdi...

Nargilə *(mahnının qurtarmasını gözləməyərək qalxır)*. Bayaq dediniz ki, yuyulası şeylərimiz var.

Həsənzadə. Siz zəhmət çəkməyin. Ayna xala gəlib aparar. Bir dəfə tünd bir türk kofesi hazırlarsınız, içərik.

Nargilə *(sevinclə)*. İstəyirsiniz lap bu saat hazırlayım.

Həsənzadə. Yox, zavodda istehsalat müşavirəsi çağırmışam.

Nargilə. Həmişə mən gələndə sizin ya işiniz olur, ya iclasınız. *(Gülür)*. Məktəbdə «iclas var» deyən kimi «c»nin yanına «r» qoyurdum.

Həsənzadə. Neyləyirdiniz?

Nargilə *(bərkdən gülərək)*. Qaçırdım!.. *(Rəşidin oxuduğu mahnının ardı eşidilir. Nargilənin üzü dərhal soyuq və ciddi ifadə alır)*. Deyəsən, bu ekskavatorçu bu gün bizə konsert vermək fikrindədir.

Həsənzadə. Cavan oğlandır, kefi gəlir, oxuyur.

Nargilə. Bah... bah... cavan oğlan...

Həsənzadə. Bəs necə... gənclik – nəğmə deməkdir.

Nargilə *(tutqun halda)*. Bilmirəm! Belə obrazlı ifadələr barəsində fikirləşməmişəm. Hələlik. *(Getmək istəyir)*.

Həsənzadə. Dayanın. Nə üçün acıqlanırsınız?

Nargilə *(sərt şəkildə)*. Çünki siz mənim sözlərimi bir qəpiyin yerində qoymursunuz.

Həsənzadə. Nə danışırsınız!.. Hansı sözlərinizi?

Nargilə. Hansı sözlərinizi... Mən sizə dedim ki, bu cavanlıq-qocalıq məsələsini az ortaya salın! Siz də söz verdiniz...

Həsənzadə. Bağışlayın, yadımdan çıxdı... Skleroz...

Nargilə *(yanıb tökülərək)*. Bax, görürsünüz?! Siz düzəlməzsiniz, vəssalam. Necə sklerozzusunuz ki, zavodda olan səkkiz yüz işçinin hamısını uşaqlarına qədər adbaad tanıyırsınız?!

Həsənzadə. Nə bildiniz?

Nargilə. Camaat danışır, mən də eşidirəm. Qulaqlarımı tutum?

Həsənzadə. Yox, qulaqlarınızı nə üçün tutursunuz? Yaxşı sözü həmişə eşitmək lazımdır.

Nargilə *(birdən qəhqəhə ilə gülərək)*. Görürsünüz... Yaxşı olduğunuzu özünüz də təsdiq edirsiniz...

Həsənzadə. Mən, ümumiyyətlə, deyirəm...

Nargilə. Qurtardıq! Bir də bu mövzuya qayıdanı qurd yesin. Mən getdim.

Sürətli addımlarla qapıya tərəf yönəlir. Birdən geri dönərək Həsənzadəyə yaxınlaşır. Qarşısında dayanıb, ona baxır... Nəhayət, nəzərlərini endirərək Həsənzadənin əlini sol əli ilə bərk-bərk sıxıb tələsik çıxır. Həsənzadə qızın sıxmış olduğu əlini qeyri-iradi bir hərəkətlə qaldırıb baxır. Lakin onun fikrinin uzaqlarda olduğu görünür. Birinci şəkildəki musiqinin ardı davam edir. İşıq yavaş-yavaş zəifləyir, nəhayət, sönür. Yananda Nargilənin otağı görünür. Qız öz mahnısını zümzümə eləyə-eləyə stolun üstündə xəmirdən yuxa açır, sonra doğrayıb nə isə hazırlayır. Onun üzündə xoş bir ifadə var. Telefon zəng vurur. Nargilə yüyürüb dəstəyi götürür. İndi işıq yalnız onun və telefon xəttinin o biri ucunda olan Sarısaç qızla tanış iki oğlanın üzərinə düşür.

Sarısaç qız. Salam, Nana. Harda itib-batmısan?

Nargilə. Harada olacağam, zavodda... evdə... indi mən iş adamıyam.

Sarısaç qız. Bah... bah... iş adamı.

Nargilə *(zarafatyana)*. Bəs necə?

Sarısaç qız. Nana, doğrudurmu ki, deyirlər, sən sement zavodunun direktoru Həsənzadə ilə gəzirsən?

Nargilə. Gəzmirəm, mən onu istəyirəm... sevirəm, aydındırmı?

Sarısaç qız *(işvə ilə)*. Başa düşürəm, Nana, gümüşü saçlar... hələ təravətini itirməmiş çöhrə!... Maşın... vəzifə... pul... bir sözlə: xalis Amerika zövqü! *(Səsini alçaldaraq)*. Naverno, on bolşoy razvratnik...

Nargilə *(ciddi şəkildə)*. Mən onun haqqında sənin belə danışığına icazə vermirəm.

Sarısaç qız *(eyni işvəkarlıqla)*. Yox a... deyəsən, gerçəklə-misən. Bəlkə sən ona ərə getmək istəyirsən?

Nargilə. Əlimdə işim yarımçıq qalıb, xahiş edirəm sonra zəng edəsən...

Oğlanlar Sarısaç qıza mətləbə keçməyi him edirlər.

Sarısaç qız. Nana, bu gün dənizçilər evində tans var.

Nargilə. Tans?

Sarısaç qız. Ahaaa... *(Qısa pauza)*. Gəlirsən?

Nargilə. Yox, gələ bilməyəcəyəm.

Sarısaç qız *(ikinci oğlana baxaraq işvə ilə)*. O hələ də gözləyir ha...

Nargilə. Kim?

Sarısaç qız. O gün demədim?..

Nargilə. Gələ bilməyəcəyəm...

Sarısaç qız. Ah, sən nə qədər staromodnı olmusan, Nana! Yaxşı... hələlik...

Nargilə ilə görüşmək istəyən oğlan ağzını telefon dəstəyinə tutaraq.

İkinci oğlan. Əlvida, Nana!

Çapıq Davud isə dişlərini bir-birinə sürtərək vəhşi görünüşlə ağzını uzadıb Sarısaç qızın qulağını dişləyir. Qız qışqıraraq dəstəyi asır. Onların üzərinə düşən işıq sönür. Nargilə dəstəyi yerinə qoyaraq, işinin üstünə qayıdır. Nəzakət xanım əlində ağ salfetə bükülmüş qab gəlir.

Nəzakət *(qabı stolun üstünə qoyaraq)*. Salam, qızım.

Nargilə. Salam, ana.

Nəzakət. Sənin üçün kotlet gətirmişəm.

Nargilə. Fərəc ezamiyyətə gedib? *(Nəzakət nəzərlərini ondan qaçıraraq, başının hərəkəti ilə təsdiq edir)*. Nə zəhmət çəkirdin...

Nəzakət. Nə üçün belə sözlər danışırsan? Məndən qisas alırsan?

Nargilə. Mən heç bir zaman səndən qisas almaq fikrində olmamışam, ana. Əgər belə bir qüvvəm olsaydı...

Nəzakət. Hələ əvvəlcə öz həyatın haqqında düşün, qalsın dünyanı düzəltməyin. Fərəcin rəisi, oğlu üçün sənə elçi gəlmək istəyirmiş. Həsənzadə ilə olan əhvalatı eşidəndən sonra gəlməyib.

Nargilə. Bunu sənə Fərəc dedi?..

Nəzakət. Tutaq ki, o deyib, nə olsun?

Nargilə. Heç... Elə-belə soruşuram...

Nəzakət. Fərəc and içib, rəisi inandırıb ki, heylə şey yoxdur.

Nargilə. Nə üçün Fərəc məndən ötəri yalan danışırdı?

Nəzakət *(mülayim tərzdə)*. İnsan cavanlıqda səhv eləyə bilər, ancaq bu dərəcədə yox. Mən bura sənin lə söz güləşdirməyə gəlməmişəm... Ağlını başına yığ, cavanlığının, gözəlliyinin qədrini bil. Ola bilsin ki, Fərəcin rəisi bu günlərdə bizə gəlsin... Oğlunu da tanıyırsan, pis oğlan deyil. Ali təhsilli, əlində yaxşı işi...

Nargilə. Əgər o, yaxşı oğlan idisə, bəs niyə cavan arvadını iki uşağı ilə qovub salırdı küçəyə?

Nəzakət. Qovmaq nə üçün... istəməyib, boşayıb... Bu, tək onun başında görünməyib ki... Ailə sirrinə əl aparmaq çətindir.

Nargilə. Surik onun dabbaqda gönünə bələddir.

Nəzakət. Sən məni o vəziyyətə gətirəcəksən ki, gedib özümü atacağam poyezdin-zadın altına.

Nargilə *(səmimi təəccüblə)*. Məndən ötəri?

Nəzakət. Sən mənim qızımsan... Səni mən doğmuşam.

Nargilə *(kədərlə)*. Eh, ay ana... Mən doğulmaya da bilərdim. Gərək ki, uşaq olub-olmaması çox zaman insanların iradəsindən asılı olmur. Yaxşısı budur, Fərəcə deyəsən ki, mən onun rəisinin oğluna getməyəcəyəm!

Nəzakət *(əsəbi halda qalxaraq)*. Getmə... Əgər bu qəsəbədə bir oğlan sənin üzünə baxsa, mən adımı dəyişərəm.

Nargilə *(bərkdən gülür)*. Bir gör sən məni nə ilə qorxutmaq istəyirsən...

Nəzakət. Yaxşı... Axırını görərik...

Çıxır. Nargilə işinə davam edir. Səhnə yavaş-yavaş qaranlıqlaşır. İşıqlananda Nargiləni Həsənzadənin eyvanında görürük. O, yemək stolunun üzərinə ağ süfrə çəkir. Qrafini su ilə doldurur. Balaca vazaya çiçək qoyur. Bu zaman qapı zəngi vurulur. Qız yüyürüb açır. Həsənzadə daxil olur. O, çox yorğundur. Lakin bunu büruzə vermək istəmir.

Həsənzadə *(yemək stoluna nəzər salaraq)*. Bu nə dəsgahdır...

Nargilə. Mən sizin üçün türk kofesi hazırlamışam. *(Yüyürüb gətirir)*.

Həsənzadə *(ürəkdən)*. Yaxşı qızsınız.

Nargilə. Nə barədə?

Həsənzadə. Hər barədə: ağılda, gözəllikdə, hazırcavablıqda...

Nargilə *(ona iti bir nəzər salaraq, həyəcanla)*. Yalvarıram, oğlunuzun əziz canına and verirəm: siz bu sözləri ürəyisınıq bir qız olan mənim xətrim xoş olmaq üçün deyirsiniz, yoxsa, doğrudan da, belə düşünürsünüz?

Həsənzadə *(ciddi)*. Mən həmişə düşündüyümü deyirəm... Bir də, sizin kimi həyatın isti-soyuğunu görmüş mərd bir qızın başsığallanmasına nə ehtiyacı var?..

Nargilə *(çox mütəəssir)*. Sağ olun, çox sağ olun!

Rəşidin mahnısı eşidilir:

Gəlmişəm otağına oyadam səni,
Qaragilə, oyadam səni.
Nə gözəl xəlq eləyib yaradan səni,
Qaragilə, yaradan səni.

Nargilə dikşinərək bayıra sarı əsəbi bir nəzər salır. Onun bu ani hərəkəti Həsənzadənin diqqətindən qaçmır. Qısa pauza. Mahnı davam edir...

Həsənzadə *(qızın üzünə baxmaqdan çəkinərək)*. Bu gün Rəşidin bayramıdır.

Nargilə *(dalğın)*. Qəzetlərdə şəkli çıxdığına görə?

Həsənzadə. Yalnız buna görə deyil... Dünən ona güllə atmaqda respublika çempionu adı veriblər.

Nargilə. Bah... bah... *(Mahnı davam edir)*. Siz bu mahnını oxumağı ona qadağan eləyin!

Həsənzadə. Niyə?

Nargilə. Çünki o bunu oxumaqla mənə sataşır...

Həsənzadə. Nə bilirsiniz?

Nargilə *(acıqlı halda)*. Yüz dəfə ona demişəm ki, mənim adım Nargilədir... Yenə də başlayır. Qaragilə, Qaragilə...

Həsənzadə. Nə olar ki, qoyun Qaragilə desin.

Nargilə. İstəmirəm.

Mahnı davam edir.

Qızıl gül əsdi,
Səbrimi kəsdi...
Sil gözün yaşın, Qaragilə,
Ağlama, bəsdi...

Həsənzadə *(öz-özü ilə danışırmış kimi)*. Yaxşı oğlandır.

Nargilə. Məncə, sərrast güllə atmaq və ya bir gündə dörd günün işini görmək hələ tamam yaxşı adam olmaq deyildir...

Həsənzadə *(ciddi şəkildə)*. Doğrudur. Lakin Rəşidin yaxşılığı eyni zamanda onun insanlara münasibətindədir. Bizim ümumi işimizə, dövlətə sədaqətindədir. *(Zarafatyana)*. Bunun üzərinə onun gözəl nəğmələrini, igidliyini də gəldikdə...

Nargilə. Bah... bah, saxlayın, yoxsa özümdən gedərəm.

Həsənzadə *(xəyal içində)*. Bəlkə də, mən onda öz keçmiş gəncliyimi gördüyüm üçün bu qədər xoşuma gəlir.

Nargilə *(gərgin istehza ilə)*. Yoxsa siz də onun kimi oxuyardınız?

Həsənzadə *(gülümsəyir)*. Siz sataşırsınız, amma mən, doğrudan da, oxuyardım...

Nargilə *(eyni istehza ilə)*. Bəs indi niyə heç oxumursunuz?

Həsənzadə *(dərindən nəfəs alaraq)*. Yadırğamışam. Mənim nəğməmin susduğu vaxtdan xeyli zaman keçibdir.

Nargilə *(əsəbi halda)*. Belə sentimental sözlər sizə yaraşmır.

Həsənzadə. Doğrudur. Ancaq, görünür, həmişə susmaq da mümkün deyil. Siz o gün doğru deyirdiniz: insanların içində Robinzon Kruzo kimi yaşamaq olmaz.

Rəşid oxuyur:

Boynuma salmısan zülfündən zəncir,
Qaragilə, zülfündən zəncir.

Nargilə *(təkrar əsəbiləşərək)*. Xahiş edirəm, bir də onu mənim yanımda tərifləməyəsiniz...

Həsənzadə. Söz düşdü, dedim... Bir də, tərifləyəndə nə olar?

Nargilə. İstəmirəm. Sizin üçün yenə kofe tökümmü?

Həsənzadə. Bəsdir. *(Qəsdən)*. Təşəkkür edirəm. *(Pauza. Nargilənin üzü düşkün və pərişan bir ifadə alır)*. Nə üçün birdən-birə bikeflədiniz?

Nargilə. Çünki siz məni sevmirsiniz! *(Həyəcanla)*. Qətiyyən sevmirsiniz! Mən həmişə bu barədə söhbət salanda siz araya söz qatırsınız... Elə bilirsiniz ki, mən bunu başa düşmürəm. *(Pauza. Həsənzadə papiros yandırır)*. Əlbəttə, istəmək, sevmək sifarişlə qəbul olunan bir şey deyil. Mən ancaq öz bəxtimdən küsməliyəm.

Həsənzadə. Bayaq siz məni təqsirləndirdiniz... Amma indi özünüz bəxtinizdən şikayətlənirsiniz.

Nargilə. Çünki mən haqlıyam. *(Qızğınlıqla)*. Nə təfavütü var ki, əvvəllər mənim günümü Fərəc qara eləmişdi, indi siz eləyirsiniz?.. Nə şəkildə? Bunun əhəmiyyəti yoxdur... Heç olmazsa, Fərəcin əsarətindən bir gün xilas olacağıma ümidim var idi... *(Qısa pauza. Həsənzadə papiros çəkir)*. Papirosu az çəkin, zəhərlənərsiniz! *(Pauza)*. Sizi başa düşmək mümkün deyil... Bəzən, elə bil ki, siz də məni sevirsiniz... Ancaq söhbət ciddi hal alanda...

Həsənzadə. Siz ağıllı qızsınız... Səbəbini...

Nargilə. Xahiş edirəm, bu köhnə havaları qoyun dursun. Mən əvvəl də sizə demişəm, indi də deyirəm: yaş məsələsinin buna dəxli yoxdur. Həqiqi sevgi belə boş şeyə baxmaz. *(Birdən həyəcanlanaraq)*. Nə üçün siz özünüzü fədakar olmağa layiq bilirsiniz, başqalarını yox?

Həsənzadə. Həyatda hər şey kimi fədakarlığın da öz yeri var... *(Qısa pauza)*. Sevgi də canlı bir orqanizm kimi qocalır... və bir gün ölür...

Nargilə. Yəni demək istəyirsiniz ki, mən gələcəkdə sizi sevməyə də bilərəm? Qorxmayın, belə şeylər ömründə olmaz.

Həsənzadə *(gülümsəyərək)*. Mən özüm üçün qorxmuram...

Nargilə. Mənim üçün isə heç qorxmayın... Sizin həsrətinizi o qədər çəkmişəm ki... *(Onun əlindən tutaraq)*. Mənim əzizim! Mənim qəhrəmanım!..

Həsənzadə *(əlini nəzakətlə çəkərək)*. Gəlin əyləşin. Sizdən bir şey soruşmaq istəyirəm.

Nargilə *(çox şən və gülməli bir əda ilə stulu çəkib onun qabağında oturur)*. Hə... soruşun!..

Həsənzadə. Adamların söz-hərəkətindən, tənəsindən qorxmursunuz?

Nargilə *(eyni şən və gülməli bir əda ilə)*. Yox, qorxmuram!

Həsənzadə. Nə üçün?

Nargilə. Heç «nə üçün»ün yeridir?! Yaxşı adamlar yaxşı hissləri söz-hərəkət eləməzlər. Pisləri isə qoy cəhənnəm olsunlar!

Həsənzadə *(bərkdən gülərək)*. Bəzən elə ağıllı söz deyirsiniz ki...

Nargilə *(bərk inciyərək)*. Bəzən?! Demək... Bəzən dəlidən doğru xəbər, heyləmi?

Həsənzadə. Bəzən yox, həmişə!

Nargilə *(onu dinləyərək öz-özü ilə danışırmış kimi)*. Bəlkə, Fərəc haqlı imiş?.. Bəlkə, doğrudan da, mən dəliyəm?

Həsənzadə *(həyəcanla)*. Mən zarafat eləyirdim...

Nargilə *(eyni fikridağınıqlıqla)*. Sizin zarafatınız havayı olmaz.

Həsənzadə *(böyük bir nədamət hissi ilə)*. Nə üçün olmur? Bəzən ən ağıllı adamlar belə, ən axmaq sözlər danışa bilərlər... *(Nargilə gözləri onda olduğu halda «yox» mənasında ağır-ağır başını bulayır və Həsənzadəyə elə baxır ki, elə bil, onun ağarmış saçlarını, gözünün ətrafındakı qırışları yalnız indi görür. Elə bil ki, Həsənzadə onun nəzərləri altında saniyə-saniyə qocalır)*. Min dəfə üzr istəyirəm. Mən, sadəcə olaraq, ehtiyatsızlıq elədim.

Nargilə *(kədərlə gülümsəyərək)*. Ehtiyatsızlıq...

Həsənzadə *(özünü büsbütün itirərək)*. İnanın ki, siz mənim nəzərimdə həmişə ağıllı... həssas bir qızsınız.

Rəşid oxuyur.

Mən sənin əsirinəm, bir məni dindir,
Qaragilə, bir məni dindir...

Nargilə *(qulaqlarını tutaraq qışqırır)*. Çıxın onu susdurun! *(Və bərkdən hönkürərək divana yıxılır. Həsənzadə özünü itirmiş halda ona su verir. Qız suyu alıb ürək yanğısı ilə içir. Sonra dikəlib eyni həyəcanla bayıra qulaq asır və nəğmənin susması ilə yavaş-yavaş sakit olur. Nəhayət, gözünün yaşını silərək, ayağa qalxıb paltarını düzəldir)*. Bağışlayın... Sizin qanınızı qaraltdım, hələlik...

Həsənzadə *(həyəcanla)*. Dayanın, nə tələsirsiniz... Gedirsiniz...

Nargilə. Özümü çox yorğun hiss edirəm. Gedim bir az dincəlim. Sağ olun. *(Çıxır)*.

İşıq, gah dayanıb həyəcanla baxan Həsənzadənin, gah da sürətlə səhnəni dolanıb evinə tələsən Nargilənin üzərinə düşür və bütün bu müddətdə Rəşidin oxuduğu mahnı yenidən eşidilir. Adama elə gəlir ki, bu mahnı qızı hər yerdə addım-addım təqib edir. Qız gözdən itib, mahnı uzaqlaşdıqca, işıq da azalır və nəhayət, sönür. Yananda isə biz Həsənzadəni eyni həyəcanlı vəziyyətdə dayanıb pəncərədən baxan görürük. Bu zaman dalbadal şimşək çaxır. Göy gurultayır. Və birdən bu göy gurultusu telefon zəngi ilə əvəz olunur. Həsənzadə hövlnak gedib dəstəyi götürür. Sanki o bu telefon zəngindən, nə isə xoş bir şey gözləyirdi. Lakin işıq telefon xəttinin o biri ucunda əsəbi görünüşlə dəstəyi qulağına tutmuş Nəzakət xanımı və onun yanında dayanmış Fərəci işıqlandırır.

Həsənzadə. Eşidirəm.

Nəzakət. Özünüzü yığışdırın!

Həsənzadə. Necə?

Nəzakət. Mən sizdən xahiş etmirəm, mən sizə əmr edirəm: özünüzü yığışdırın!

Həsənzadə. Danışan kimdir?

Nəzakət. Danışan Nargilənin anasıdır.

Həsənzadə. Ah, anası...

Nəzakət. Sizin ondan böyük oğlunuz var. Mən sizi biabır edərəm.

Həsənzadə. Nə üçün xanım, mən neyləmişəm?

Nəzakət. Neylədiyinizi yaxşı bilirsiniz! *(Fərəc başı ilə təsdiq edir)*. O uşaqdır, ağlı kəsmir, sizə nə düşüb? Nə üçün öz mövqeyinizdən, vəzifənizdən istifadə eləyib cavan qızı yoldan çıxarırsınız? *(Fərəc başı ilə təsdiq edir)*. Utanın! Əgər vicdanınız yoxdursa, qorxun. Mən şikayət edərəm! Sizi küçənin ortasında daşa basaram!

Həsənzadə. Sizin belə danışmağınız mənasızdır. O, çox ağıllı qızdır. Mən də heç bir zaman onun haqqında pis fikirdə olmamışam.

Nəzakət. O sizə uyduğu üçün bütün elçiləri geri qaytarır.

Həsənzadə. Ürəyi istəyən adam olanda geri qaytarmayacaq.

Nəzakət. Nə üçün siz onu evə dəvət edirsiniz? *(Qısa pauza)*. Görürsünüzmü, cavab verə bilmirsiniz!

Həsənzadə *(sakit)*. Siz bu barədə qızın özü ilə söhbət eləmisiniz?

Nəzakət. Siz onu elə yoldan çıxarmamısınız ki, mənə bir söz danışa...

Həsənzadə. Əgər siz yaxşı ana olsaydınız, o, sizdən heç bir şey gizlətməzdi...

Nəzakət. Mənim yaxşı-pis ana olmağımın sizə dəxli yoxdur.

Fərəc başı ilə təsdiq edir.

Həsənzadə. Yox, dəxli var. Çünki mən onun taleyi ilə maraqlanıram.

Nəzakət. Axı siz kimsiniz, onun taleyi ilə maraqlanırsınız?

Həsənzadə *(özünü saxlaya bilməyərək)*. Bəs siz kimsiniz?

Nəzakət. Mən onun anasıyam! Eşidirsinizmi! Anası!

Həsənzadə. Yalnız ona görəmi ki, onu siz doğmusunuz? Əgər belə düşünürsünüzsə, səhv edirsiniz... Uşağı doğmaq hələ işin

lap başlanğıcıdır. Əsil məsələ onu böyütmək, insan arasına, həyata çıxarmaqdır. Siz isə onu, həyatının köməyə, insan ünsiyyətinə möhtac olduğu ən vacib dövründə, ərinizlə dilbir olub, atasının evindən bayıra salmısınız!

Nəzakət. Bunu sizə o özü deyib?

Həsənzadə. Kimin deməsinin əhəmiyyəti yoxdur... Əgər Nargilənin atası birdən dirilib gəlsəydi, siz ona nə cavab verərdiniz? Onun üzünə necə baxardınız? Əlbəttə, siz cavan idiniz... Bütün ömrünüz boyu dul oturmayacaqdınız... Heç kəs, hətta onun özü də bunu sizdən tələb eləyə bilməzdi. Ancaq ərə getmək analıq hüququnu, analıq məsuliyyətini tapdalamaq, atasız, köməksiz bir qız uşağını illərlə dindirməmək, axırda da əsəblərini korlayıb qapılara salmaq demək deyildi? Əgər əriniz yanınızdadırsa, qoyun özü də eşitsin. Siz də, o da ədalət qarşısında cavabdehsiniz!.. *(Əsəbi halda).* Bir az açıq desəm, cinayətkarsınız... Öz uşağını öldürmək istəyənlərlə sizin heç bir fərqiniz yoxdur. Bəziləri bunu birdən-birə edirlərsə, siz tədricən eləmisiniz! Aydındırmı? Siz onda özünə inam hissini məhv eləmisiniz!

Nəzakət telefon dəstəyini yerinə çırparaq, hönkürüb ağlayır, bərkdən, yana-yana ağlayır. Fərəc arvadına qəzəbli bir nəzər salır və o biri otağa keçir. Nəzakət xanımın üzərinə düşən işıq sönür, Həsənzadənin üstünə düşən işıq güclənir. Bayırda şiddətli göy gurultusu eşidilir. Şiravan yağış tökür. Tez-tez şimşək çaxaraq gah Həsənzadəni, gah da öz balaca evinin pəncərəsinin qabağında dayanmış Nargiləni işıqlandırır. Və birdən sanki qız nədən isə vahimələ gəlir. Pəncərə qabağından çəkilərək öz otağına qorxmuş, ürkək bir nəzər salır. Sonra cəld irəliləyib radionu açır, otağa gurultulu bir musiqi dolur, qız cihazı eyni sürətlə də bağlayaraq, bir an sükut içində dayanıb qulaq asır. Tufan eyni şiddətlə davam edir. Qız telefon aparatına yaxınlaşaraq dəstəyi götürüb nömrəni yığır. Həmin anda işıq hələ də bayıra tamaşa eləyən Həsənzadəni işıqlandırır. Həyəcanlı telefon zəngi. Həsənzadə çevrilib dəstəyi götürür.

Həsənzadə. Eşidirəm. *(Qız dəstəyi qulağına tutmuş halda susur. Lakin onun üzündəki vahimə getdikcə mülayim bir ifadəyə çevrilir).* Eşidirəm. *(Qız susur).*

Həsənzadə eyni səbirlə telefon dəstəyini asır və onun üzərinə düşən işıq sönür. Nargilə, istər-istəməz, dəstəyi yerinə qoyur və onun çöhrəsi birdən-birə ümidsiz, pərişan bir ifadə alır. Göy bir də guruldayır, lakin Nargilə daha qorxmur... Artıq dünya dağılsa da, dağılmasa da, onun üçün birdir. O, ağır-ağır irəliləyib divanda oturur. Pauza. Bayırda tufan eyni şiddətlə davam edir. Telefon zəngi. Nargilə dikinərək qalxıb dəstəyi götürür. İşıq eyni zamanda telefon xəttinin o biri ucunda dəstəyi əlində tutmuş sarısaç qızı və onun olduğu otağı işıqlandırır. Patefonda son dəbli bir oyun havası çalınır. Sarısaç qızın bizə tanış oğlan dostlarının hərəsi bir qızla, iki başqa oğlan isə bir-biri ilə rəqs edir. Stolun üzərində şərab şüşələri və başqa şeylər görünür. Sarısaç qız telefon dəstəyini elə tutmuşdu ki, Nargilə musiqini eşitsin. Nargilə qulaq asır.

Sarısaç qız. Nana, hello...

Nargilə. Salam.

Sarısaç qız. Eşidirsən?

Nargilə. Eşidirəm.

Sarısaç qız. Sənin sevdiyin tansdır.

Nargilə. Bilirəm.

Sarısaç qız. Çapıq Dodikgildə yığışmışıq.

Nargilə. Nuş olsun.

Sarısaç qız. Sən də gəl!

Nargilə. Mən də?

Sarısaç qız. Ahaaaa...

Nargilə *(zəif müqavimətlə)*. Yox...

Sarısaç qız. Vallah, sənin dərdin az qalıb məni dəli eləsin...

Nargilə. Mənim nə dərdim var?..

Sarısaç qız. Hələ bir soruşursan da. *(Mütəəssir halda).* Nanacan. Nə üçün belə edirsən? Nə üçün qızıl vaxtını o cür keçirirsən? Biz nə qədər cavan olacağıq?.. *(Gözləri yaşarmış).* Vicdansız! Bilirsən sənə nə qədər ürəyim yanır?! İndi də ha istədim zəng eləməyim, bacarmadım... Sənsiz heç nə canıma yatmır... Başa düş...

Nargilə *(eyni zəif səslə)*. Sağ ol, Surik.

Sarısaç qız. «Sağ ol»u qoy bir kənara, özün dur gəl bura.

Nargilə *(tərəddüdlə)*. Bayırdan xəbərin var?

Sarısaç qız. Mənim bu saat heç nədən xəbərim yoxdur, olmasını da istəmirəm... Sənə dedim, dur gəl! *(Qısa pauza).* Nə oldu?..

Nargilə *(yavaş səslə)*. Yaxşı...

Sarısaç qız. Gəlirsən?

Nargilə *(qəti şəkildə)*. Gəlirəm.

Sarısaç qız. Öpürəm səni, Nanacan! *(Dəstəyi asır, sevinclə yoldaşlarına xəbər verir).* Nana gəlir!

Oğlanlar *(bir yerdə)*. Gəlir?!

Onların üzərinə düşən işıq sönür, indi yalnız Nargilə görünür. O, dəstəyi yerinə qoyur və geyinməyə başlayır. Üzünə pudra, dodaqlarına pomada sürtür. Redikülünü götürüb otaqdan çıxmaq istərkən, telefon təkrar zəng çalır. Qız qayıdıb dəstəyi götürür. Telefon xəttinin o biri ucunda Həsənzadə görünür.

Həsənzadə. Nargilə...

Nargilə *(həyəcanını boğmağa çalışaraq)*. Buyurun.

Həsənzadə. Təksiniz?

Nargilə. Bəli. *(Acıqlı halda).* Başqa kim olacaqdı ki?

Həsənzadə *(olduqca mehriban)*. Dedim, bəlkə yoldaşlarınızdan-zaddan...

Nargilə *(nəfəsini dərərək)*. Heç kəs yoxdur.

Həsənzadə. Qorxmursunuz?

Nargilə. Nədən?

Həsənzadə. Axı deyirdiniz ki, uşaqlıqda həmişə göy gurultusundan qorxarmışsınız.

Nargilə. İndi ki uşaq deyiləm.

Həsənzadə. Elədir... *(Pauza. Bayırda tufan davam edir).* Deyəsən, hələ də acığınız soyumayıb?

Nargilə. Soyumayanda nə olar ki...

Həsənzadə. Mən sizdən təkrar üzr istəyirəm. *(Pauza).* Nə üçün dinmirsiniz?

Nargilə. Siz məni incitməmək üçün üzr istəyirsiniz?

Həsənzadə. Yox. Mən kobud bir səhv elədiyim üçün üzr istəyirəm.

Nargilə. Yaxşı... Daha bu barədə danışmayaq.

Həsənzadə. Deməli, bağışlayırsınız.

Nargilə *(mülayim tərzdə)*. Siz də təksiniz?

Həsənzadə *(zarafatyana)*. Mən elə anadangəlmə təkəm.

Nargilə *(mehribancasına)*. Darıxmırsınız?

Həsənzadə. İnsan hər şeyə öyrəşir.

Nargilə *(mütəəssir halda)*. Yenə də sentiment...

Həsənzadə. «Sentiment» nə üçün... Demək istəyirəm ki, darıxmamağa öyrəşmişəm.

Nargilə *(daha da mütəəssir)*. Bilirəm... Sizin belə sözləriniz mənə çox pis təsir edir... Mən sizin özünüzü tək hiss etmənizə dözə bilmirəm.

Həsənzadə. Təşəkkür edirəm.

Nargilə. Oh... *(Qışqırır)*. Mən sizdən təşəkkür istəmirəm, başa düşürsünüzmü, istəmirəm!..

Həsənzadə *(zarafatyana)*. Yavaşın, qulağım batdı...

Nargilə. Qoyun batsın...

Həsənzadə *(eyni zarafatla)*. Nə üçün? Axı onda sizin səsinizi eşitməzdim...

Nargilə. Yoxsa ki, eşitmək istəyirdiniz...

Həsənzadə. Mən sizin səsinizi həmişə... dünya durduqca eşitmək istərdim...

Nargilə. Bəsdirin... Bəsdirin... Mən belə ümumi... mücərrəd sözlər eşitmək istəmirəm. *(Təmkinlə)*. İyirminci əsr qəti hərəkət tələb edir... Bildinizmi?! *(Pauza. Sanki Həsənzadə qəflətən Çin səddi qarşısında qalır. Onun üzü birdən-birə sarsılmış, düşkün bir ifadə alır. Bəlkə o, ömründə ilk dəfə həyatının nə qədər kədərli olduğunu, ta uzaq üfüqlərinə qədər görür...)* Nə oldu? Nə üçün susdunuz?

Həsənzadə *(dərindən nəfəs alaraq)*. Heç... Mən sizə qulaq asıram...

Nargilə. Mən sözümü dedim, eşitmədiniz?

Həsənzadə. Eşitdim...

Qısa pauza.

Nargilə. Yaxşı... Sağ olun...

Dəstəyi asır. Həsənzadə dəstəyi gözünün qabağına tutaraq ona uzun və ümidsiz bir nəzər salır və yerinə qoyur... Onun üzərinə düşən işıq sönür. Nargilə telefon aparatından aralanaraq otağın ortasında dayanır. Bayaqdan bəri əlində tutmuş olduğu redikülü qeyri-şüuri bir hərəkətlə qaldırıb baxır. Nəyi isə xatırlayır və ani əsəbi hərəkətlə onu kənara tullayır, sonra eyni qəzəblə plaşını, jaketini çıxarıb tullayaraq divana yıxılıb, əllərilə üzünü tutur. İşıq sönür. Digər işıq yananda Həsənzadə kağızları bir-bir oxuyub dərkənar yazır... Uzaqdan Rəşidin oxuduğu «Qaragilə» mahnısı eşidilir. Həsənzadə bir an əl saxlayaraq mahnıya qulaq asır. Sonra yenə işinə davam edir.

Birdən mahnı kəsilir.

Pauza. Fərəcov tələsik gəlir.

Fərəcov. Yo... yoldaş direktor... O... qız...

Həsənzadə *(başını kəskin hərəkətlə qaldırır)*. Hansı qız?

Fərəcov. O günü işə götürdüyümüz... Nargilə...

Həsənzadə. Hə, neyləyib?...

Fərəcov. İ...İ... indicə az qalmışdı Rəşidi öldürsün!..

Həsənzadə. Nə üçün?

Fərəcov. De... De... deyir, niyə oxuyursan... Rəşid də bi... bi... bilirsiniz, zarafatcıl oğlandı... De... deyir, sizin kimi qə...qəşəng qız da mahnıya daralarmı? Qız bayağıdı çilingərin bıçağını... götürüb düz oğlanın üzünə atasan!.. Ba... başını qaçırmasaydı... bi... bi... birtəhər olacaqdı...

Həsənzadə *(sakit)*. Sonra?

Fərəcov. Sonra da qız... yaman pərt oldu... Az qaldı ağlasın...

Həsənzadə. Bəs Rəşid nə dedi?

Fərəcov. Nə desin... Əvvəl bir xeyli durub baxdı... So... Sonra «bağışlayın, Nargilə xanım, – dedi. – Vaxta ki, mənim mahnım sizi bu dərəcədə əsəbiləşdirir, bir də ömrümdə oxumaram...» Çox... çox xatalı qızdı...

Pauza. Həsənzadə papiros çıxarıb yandırır.

Həsənzadə. Yaxşı, siz gedin... *(Fərəcov çıxır. Həsənzadə qalxıb kabinetdə var-gəl edir. Telefon zəngi. Həsənzadə dəstəyi götürür.)* Eşidirəm...

Telefon xəttinin o biri başında Nəzakət xanım görünür.

Nəzakət. Yəqin ki, danışanın kim olduğunu tanıdınız.

Həsənzadə. Tanıdım.

Nəzakət. Siz bizim söhbətimizi Nargiləyə demisiniz?

Həsənzadə. Xeyr, deməmişəm. Necə məgər?

Nəzakət. Xahiş edirəm deməyəsiniz... Son günlər o, tez-tez əsəbiləşir... Qorxuram...

Həsənzadə. Qorxmayın, heç nə olmaz.

Nəzakət. Mən sizin işinizə mane olmuram ki?

Həsənzadə. Xeyr. Mane olmursunuz.

Nəzakət. Srağagün sizinlə kobud danışdım...

Həsənzadə. Eybi yoxdur.

Nəzakət. O gündən bəri mən sizə kin bəsləyə bilmirəm. Sizin səsinizdə elə bir doğruluq, elə bir ürək yanğısı hiss edirdim ki...

Həsənzadə *(səbirsiz halda)*. Bu sözlər artıqdır...

Nəzakət. Siz məni məzəmmət eləməkdə haqlısınız. Mən qəddar və qorxaq olmuşam. *(Qısa pauza)*. Ancaq... Doğrudanmı, mən ona qarşı analıq haqqımı itirmişəm?

Həsənzadə *(sərt şəkildə)*. Bilmirəm... Bəlkə də, itirməmisiniz...

Nəzakət. Onun ürəyi mənə qarşı buz kimi soyuqdur... O mənim onu yaddan çıxarmağımı tələb edir!.. Ancaq and içirəm ki, mən onu həmişə o üç uşağımın üçündən də çox istəmişəm.

Həsənzadə. Mən buna inanıram. Gəlin biz bir də bu barədə danışmayaq. «İstəmək» çox sürtülmüş sözdür.

Nəzakət *(göz yaşları içində)*. Bu dünyada mənim ən böyük arzum onun xoşbəxtliyi olmuşdur. Mən heç bir zaman ona gözünün üstündə qaşın var deməmişəm.

Həsənzadə *(əsəbi halda onun sözünü kəsir)*. İş də orasındadır ki, siz ona heç nə demirdiniz... Onun isə insanla danışmağa ehtiyacı var idi... Başa düşürsünüzmü, insanla?! Siz ana idiniz... Siz ona çox şey deyə bilərdiniz... *(Qısa pauza. Bu sözlərlə sanki Həsənzadənin üzərindən ağır bir yük götürülür. Yavaş səslə)*. O, hələ insan həyatının isti-soyuğunu görməmişdi... Xudpəsənd deyildi. Qanadları hələ bərkiməmişdi. O özünə qarşı başqalarında qayğı, fədakarlıq görmək istəyirdi... *(Qısa pauza)*. Lakin siz ərinizin yanında onunla danışmağa belə qorxurdunuz...

Nəzakət. Mən zəif bir qadın idim. Mən azad deyildim.

Həsənzadə. Nə üçün? Sizi zirzəmiyə salıb ağzınızı bağlamamışdılar ki?..

Nəzakət. Mən həmişə qorxu içindəydim.

Bu zaman Fərəc arxadan daxil olur. Nəzakətin son sözlərini eşidib ayaq saxlayır. Nəzakət onu görmür.

İndinin bu saatında da mən bütün ciddi-cəhdimə baxmayaraq, özümü onun əsarəti altında hiss edirəm.

Həsənzadə. Nə üçün? Bəyəm o sizi döyüb-incidirdi?

Nəzakət. Yox...

Həsənzadə. Bəlkə... Açıq danışdığım üçün üzr istəyirəm, bəlkə siz onu çox sevirsiniz?

Nəzakət *(qəti)*. Yox. Mən, sadəcə olaraq, qorxurdum. Mənə elə gəlirdi ki, əgər bu adam məni tərk edərsə, əlim yerdən, göydən üzülər!

Həsənzadə *(əsəbi)*. Çünki siz əsil həyatdan kənarda idiniz. Ölkə, xalq ağır günlər keçirdiyi halda, siz yalnız özünüzlə məşğul idiniz! Yalnız öz canınız üçün titrəyirdiniz! Əgər iş daha bərkə düşsəydi, bəlkə siz körpə qızınızı da atıb qaçardınız!

Nəzakət *(qəzəblə)*. Siz nə haqla bu cür sözlər deyirsiniz?

Həsənzadə. Nə üçün hirslənirsiniz? Siz ki, doğrudan da, onu atdınız!

Fərəc öskürür. Nəzakət diksinərək geri çevrilib onu görür. Qeyri-iradi bir hərəkətlə dəstəyi arxasında gizlədir.

Fərəc. Söhbət kimlə və nə haqqındadır? *(Nəzakət iri-iri açılmış gözləri ilə ona baxıb durur. Fərəc eyni əda ilə təkrar edir)*. Söhbət kimlə və nə haqqındadır?

Nəzakət. Söhbət... Mənim qızım haqqındadır...

Fərəc. Trubkanı qoy yerinə!

Nəzakət *(birdən təəvvürəgəlməz bir qəzəblə)*. Qoymuram!.. Bəsdir eybəcər kabus kimi məni gecə-gündüz təqib elədiyin! O mənim qızımdır! Onu mən doğmuşam! O mənim dünyada əvvəlinci və axırıncı dəfə sevdiyim bir adamın yadigarıdır!

Fərəc. Necə?

Nəzakət. Mən sənə nifrət edirəm!

Fərəc. Nifrət edirsən?

Nəzakət. Mən heç bir zaman səni istəməmişəm!..

Fərəc. Trubkanı qoy yerinə!

Nəzakət *(dəstəyi ağzına daha da yaxın tutaraq)*. Qoymuram! Neçə illərdi sən məni analıq hüququndan məhrum eləmisən! *(Göz yaşları içində)*. Sən məni məcbur eləmisən öz qızımı onun doğma atasının evindən çıxarıb bayıra salım... Sən!..

Bu zaman Nargilə Həsənzadənin kabinetinə daxil olur. Həsənzadə dərhal dəstəyi yerinə qoyur. Nəzakət xanımla Fərəcin üzərinə düşən işıq sönür.

Nargilə. Deyin mənim haqq-hesabımı versinlər, daha zavodda işləmək istəmirəm.

Həsənzadə. Nə üçün? Rəşid ki, sizə söz verib bir də o mahnını oxumasın...

Nargilə. Mən onunla bir yerdə işləyə bilməyəcəyəm.

Həsənzadə. Axı nə üçün?

Nargilə *(həyəcanla)*. Çünki mən sizdən başqa heç kəsi sevmək istəmirəm!..

Həsənzadə *(gülümsəyir, zarafatyana)*. Heç kəsi sevmək istəmirsiniz, yoxsa sevmirsiniz?

Nargilə *(Həsənzadəyə uzun və diqqətli bir nəzər salır)*. Mən sizdən başqa heç kəsi sevmirəm və sevmək də istəmirəm. İndi aydındırmı?

Həsənzadə *(üzü ciddi və kədərli ifadə alır. Güclə eşidilən yavaş səslə)*. Aydındır!..

Bu zaman üç nəfər cavan işçi daxil olur.

Birinci işçi *(Nargiləyə)*. Doğrusu, biz sizdən heylə hərəkət gözləmirdik.

İkinci işçi. Bəs adam da Rəşid kimi oğlana bıçaq atar?

Üçüncü işçi. Bəlkə, siz onu yaxşı tanımırsınız?.. Bütün zavod onun başına and içir...

Birinci işçi. Bu neçə ilin ərzində birinci dəfədir ki, bizim kollektivdə belə hadisə baş verir.

Nargilə *(əsəbi halda)*. Axı sizə nə dəxli var?

İkinci işçi. Necə yəni sizə nə dəxli var?

Həsənzadə. Nargilə xanım təzə gəldiyi zavod həyatı ilə yaxşı tanış deyil... *(İşçiləri göstərərək)*. Bunlar Rəşidin yoldaşlarıdır. Bir briqadada işləyirlər. Ona görə də maraqlanırlar...

Birinci işçi. Bəlkə, o sizi təhqir eləyib?

Nargilə *(acıqlı halda)*. Yox!

Birinci işçi. Bəlkə onun mahnısı nəyi isə sizin yadınıza salıb?

Nargilə *(özündən çıxaraq)*. Siz burada mənə məhkəmə qurmağa gəlmisiniz, nədir?

Birinci işçi. Məhkəmə də qurmaq olar. Siz onu öldürə bilərdiniz!..

Həsənzadə *(stuldan qalxaraq)*. Yaxşı, uşaqlar, ümid edirik ki, o hadisə bir də təkrar olmayacaq. İndi isə, gəlin bununla qurtaraq. Mən özüm Rəşidlə danışaram. *(Zarafatyana)*. Hələ desəniz üzr də istərəm.

Nargilə *(həyəcanla)*. Necə? Üzr istərsiniz? Heç vaxt!

Həsənzadə *(eyni zarafatyana ifadə ilə)*. Madam ki, sizi işə mən götürmüşəm, demək, hərəkətlərinizə mən də cavabdehəm. Elə deyilmi?

Qısa, gərgin pauza.

Nargilə *(yavaş səslə)*. Mən özüm üzr istərəm...

Birinci işçi. Vaxta ki, öz günahınızı hiss etməyə başlayırsınız, üzr istəmək lazım deyil...

İkinci işçi *(Nargiləyə)*. Siz gələcəkdə görəcəksiniz ki, Rəşid də, onun dostları da necə oğlanlardır...

Üçüncü işçi *(zarafatyana)*. Onda siz Rəşidə bıçaq yox, gül atarsınız.

İşçilər çıxmaq istəyərkən birinci işçi ayaq saxlayır və Nargiləyə sarı dönür.

Birinci işçi. Ancaq onu bilin ki, Rəşid ömründə heç bir kəsi sizin qədər istəməyib!

Nargilə kəskin hərəkətlə başını döndərib, oğlana nə isə acıqlı bir şey demək istəyir, lakin cavan işçilər çıxırlar. Gərgin pauza.

Nargilə *(yavaş və təqsirkar ifadə ilə)*. Bağışlayın. *(Çevrilib tələsik çıxır)*.

Həsənzadə *(qızın ardınca uzun bir nəzər salaraq)*. Nə üçün həmişə o gedəndən sonra mən özümü bu qədər yalqız, bu qədər qəmgin hiss edirəm? Elə bil ki, o, bir də qayıtmayacaq... *(Qısa pauza)*. Əgər bütün bunlar belədirsə, nə üçün mən qəti qərara gələ bilmirəm? Yoxsa qarşımda açılan bu yeni bahar səhərinin qeyri-adi gözəlliyi məni qorxudur? Yoxsa mən böyük insan məhəbbətinin qüdrətinə inanmağı yadırğamışam? Bəlkə, mən işıqdan qorxub qaranlığa çəkilirəm?

İşıq yavaş-yavaş azalır və nəhayət, sönür. İşıq yananda Nargilənin otağı görünür. Nargilə nə isə tikir və radioda oxunan mahnıya qulaq asır. Qapının zəngi çalınır.

Nargilə *(işindən ayrılmayaraq)*. Gəl.

Sarısaç qız daxil olur.

Sarısaç qız. Salam, Nana... *(Onu öpür)*. Vicdansız... Görürsənmi, ürəyim durmadı, yenə də mən səni axtarıb tapdım. *(Ətrafa göz gəzdirərək)*. Nə qəşəng mənzilin var!

Nargilə. Xoş gəlmisən, əyləş...

Sarısaç qız. Bu nədi, yoxsa özünə cehiz düzəldirsən?

Nargilə *(gülümsəyərək)*. Aha...

Sarısaç qız. Nana, sən, doğrudan, Həsənzadəyə gedirsən?

Nargilə. Sən bu sualı bir dəfə də mənə vermisən. Bəli, mən onu istəyirəm!

Sarısaç qız. Görünür ki, sizin aranızda mənim bilmədiyim, başa düşmədiyim nə isə var...

Nargilə. Ola bilər...

Sarısaç qız. Yaşlı da olsa, çox yaraşıqlıdır. Yerişi, duruşu... sifəti...

Nargilə. Məsələ yalnız yaraşıqda deyil...

Sarısaç qız. Yaraşıqda deyil, yaşda deyil, pulda, varda deyil, bəs nədədir?

Nargilə. Bilmirəm.

Sarısaç qız *(mənalı bir təbəssümlə)*. Çox yaxşı bilirsən. Dünən zavoddan çıxıb evinə gedirdi... Kişi məni nə cür cəlb etmişdisə, Dodik bayağıdı özündən çıxdı. *(Bərkdən gülərək)*. Sən qısqanmırsan ki?

Nargilə. Əksinə... Mən istəyirəm ki, bütün qızlar, qadınlar onu görəndə yerlərində quruyub qalsınlar... Çünki o buna layiqdir.

Sarısaç qız. Doğru sözündür?

Nargilə. Mən indiyə qədər onsuz necə yaşadığıma təəccüb edirəm. Çünki o mənim üçün havadır, sudur, bütün bir həyatdır. *(Sarısaç qızın üzü birdən-birə qüssəli bir ifadə alır.)* Səninlə Dodikin əhvalatı nə yerdədir?

Sarısaç qız. Eh...

Nargilə. Necə «eh?»...

Sarısaç qız *(yavaş səslə)*. Mən ondan büsbütün təngə gəlmişəm... Hər gün eyni anekdotlar, eyni şit zarafatlar...

Nargilə. Bəs evlənmirsiniz?

Sarısaç qız. Əvvəllər o, gündə qulağımı dəng elədi ki, «evlənək», indi isə susur. Mənə nə düşüb, yoxsa ki, ondan ötrü gözüm uçurdu... *(Pauza. Nargilə tikir. Sarısaç qız pəncərədən bayıra baxır)*. Nana...

Nargilə. Eşidirəm.

Sarısaç qız. Həsənzadəyə de, zavodda mənim üçün də bir iş düzəltsin.

Nargilə. Doğru sözündür?

Sarısaç qız *(başı ilə təsdiq edir)*. Düzəldər?

Nargilə *(həyəcanla)*. Əlbəttə. Ancaq... bilirsənmi, ordakılar çox ciddi adamlardır...

Sarısaç qız *(gülümsəyərək)*. Qorxma... Özün bilirsən ki, istəyəndə mən də ciddi olmağı bacarıram.

Nargilə *(zarafatyana)*. Gərək işə gecikməyəsən...

Sarısaç qız. Bilirəm... Onsuz da hər gün saat on ikiyəcən yatmaqdan bezaram.

Nargilə *(tikişi bir kənara qoyaraq, aludəliklə)*. Həsənzadə mütləq düzəldər. Bir yerdə işləyərik... Elə maraqlıdır ki, adam heç bilmir gün necə gəlib-keçir.

Qısa pauza.

Sarısaç qız. Nar, mən çox bədbəxtəm.

Nargilə. Nə üçün? Sənə nə olub ki?

Sarısaç qız. Bilmirəm, gecələr gəzmək... tans... şərab... Elə bil ki, yaşamaqda heç bir fərəh, heç bir məna yoxdur... Ata-ana işdə... Ev bomboş... qalıram avara, bilmirəm neyləyim. Bir donu

neçə dəfə söküb təzə modaya salarsan?! *(Ağlamsınır)*. Çapıq Dodiklə nə qədər öpüşmək olar?.. Birdən az qalıram onun da baş-gözünü vuram əzəm, özümü də atam dənizə.

Nargilə. Bir az yavaş...

Sarısaç qız. Sən zarafata salma, Nar... *(Pauza)*. Ah... Məktəb nə gözəl idi. Nar... Heç olmasa, sabah nə iş görəcəyini, nə edəcəyini bilirdin... Qarşında onilliyi qurtarmaq kimi bir məqsəd var idi... İndisə...

Nargilə. Məktəb ona görə gözəl idi ki, bizi bir-birimizə hələ pozulmamış, təhrif olunmamış duyğular bağlayırdı... Evdə günümüz nə qədər qara olsa da, məktəbdə hər şeyi unudurduq...

Sarısaç qız. Bizi kəsib ali məktəbə girməyə qoymayan o qızın qanını içərdim.

Nargilə. Bir gün gələcəkdi, ali məktəbi də qurtaracaqdıq, məsələ onda deyil.

Sarısaç qız. Bəs nədədir?

Nargilə. Həsənzadə deyir ki, bizim quruluşumuzda insan cəmiyyətdən, onun mübarizəsindən kənarda qalarsa, heç bir zaman xoşbəxt ola bilməz.

Sarısaç qız *(qulaqlarını tutur)*. Oh, yenə də təbliğat...

Nargilə. Yox, mən indi hiss edirəm ki, bu, doğrudan da, belədir... Axı hamı, bütün xalq böyük bir məqsədə doğru irəliləməkdə ikən sən bu axından necə kənarda qala bilərsən?

Sarısaç qız *(dalğın)*. Mən heç nə istəmirəm. Heç nəyi sevə bilmirəm, Nar... Atom əsri hara, sevgi hara... Əgər bir düyməni basmaqla yüz milyonlarla insanı bir anda külə döndərə bilərlərsə, onda nə sevgi?

Nargilə. Boşla bu bədbin fikirləri. Səni inandırıram ki, hər şey yaxşı olacaq. Bir yerdə işləyərik, məktəbdəki kimi, yenə də hər gün görüşərik... Zavodun yaxşı klubu da var... Hər gecə film göstərirlər. Lap qiyabi instituta da girərik. Həsənzadə kömək eləyər. *(Qürurla)*. İndi biz daha əvvəlki kimi köməksiz deyilik!

Sarısaç qız. Heç kəsə ürəyim qızmır, Nar... Mənə elə gəlir ki, adamlardan milyon verst uzağa düşmüşəm. Atam işdən sonra bütün günü aşnasının yanında olur. Anamı da qısqanclıq əldən salıb, gündə qanqaralığı, gündə dava, eh...

Nargilə. Darıxma, biz onlar kimi yaşamarıq... Biz özümüz üçün tamam yeni bir həyat quraraq. İstəyirsən Həsənzadəyə deyək, zavodda Dodik üçün də bir iş düzəltsin.

Sarısaç qız. Qoy cəhənnəm olsun. Bəyəm o, işləyəndir?

Nargilə. Nə vaxtacan atasının əlinə baxacaq?

Sarısaç qız. Narahat olma. O, darmayedliyə öyrənib. *(Qalxır)*. Mən getdim, Nar...

Nargilə. Nə tələsirsən?

Sarısaç qız. Partnixaya gedəcəyəm.

Nargilə. Təzə paltar tıkdirirsən?

Sarısaç qız. Sən də, təzə paltar üçün pul hardadır... Qırmızı donumu söкdürüb ayrı formada tıkdirirəm... Demək, mənim məsələmi çuvakınla danışarsan...

Nargilə. Surik!

Sarısaç qız. Bağışla... Zəhrimar dilim öyrənib... *(Güzgüdə özünü səliqəyə salaraq).* Nar, üçüncü dəfədir ki, qiyamət bir oğlanla qabaq-qabağa çıxıram. Üzünə baxıram, az qalır yerişini itirsin. Məni gülmək tutur, o isə qulaqlarının dibinə qədər qızarır. Görünür, çox üzüsulu uşaqdır... *(Qəhqəhə ilə gülür. Nəzakət gəlir. Sarısaç qıza soyuq bir nəzər salır. Sarısaç qızın gülüşü arvadın bu soyuq nəzərləri altında donur).*

Sarısaç qız. Yaxşı, Nar. Mən getdim. Sağ olun.

Nargilə. Xoş gəldin. *(Sarısaç qız çıxır).* Sən nə üçün onunla salamlaşmadın?

Nəzakət. Sən bunlarla əlaqəni kəs, o günü də dedim... *(Gərgin pauza).* Özün də qayıt evinə.

Nargilə. Mən bir də Fərəcin yanına qayıdım?

Nəzakət. Dedim ki, öz evinə!

Nargilə. Belə söhbətlər daha nəyə lazımdır? Hər şey olub-keçib.

Nəzakət. Mən onun stol-kürsüsünü sənin otağından çıxarmışam.

Nargilə. Soruşmaq ayıb olmasın, bu gün hardan doğub?

Nəzakət. Sən mənə cəhənnəm əzabı verirsən! Heç yerdə qərar tuta bilmirəm... Mən Fərəcə də, özümə də nifrət edirəm. Mən bunu ona demişəm... Daha neyləməliyəm?!. *(Göz yaşları içində).* On iki ildən artıq idi ki, mən sənin atanı yuxuda görmürdüm. Amma indi hər gecə görürəm. Mənimlə bir kəlmə danışmır. Siz məndən nə istəyirsiniz? Bir canım var, əgər onu verməklə bu əzabdan qurtara bilərəmsə, alın, vallah, sizə minnətdar olaram. Heç olmasa, qəbirdə rahat yataram. Mən pisəm... ancaq mən, heç bir şeyi bilə-bilə, öz iradəmlə eləməmişəm. Heç olmazsa, sən bunu başa düş.

Nargilə *(yaxınlaşıb əlini onun başına çəkir).* Sakit ol, ana!

Nəzakət. Qızım! *(Ona qısılır).*

Nargilə *(mütəəssir halda).* Sakit ol, ana!

Nəzakət. Mən sənin məhəbbətini qaytarandan sonra ayrı cür yaşamaq istəyirəm...

Nargilə *(mehribancasına).* Belə ürəyinazıklık nəyə lazımdır...

Nəzakət. Yox, qayıtmalısan... Mən sənin nəfəsini atanın evində, öz yanımda hiss etməyincə rahat ola bilməyəcəyəm.

Nargilə *(zarafatyana).* Elə fərz elə ki, ərə getmişəm.

Nəzakət. Ərə getmək başqa, mən səni bir ana kimi bütün qayda-qanun ilə köçürmək istəyirəm. Mən bunun üçün illər uzunu Fərəcdən gizlin, öz maaşımdan qəpik-qəpik kəsib pul yığmışam. Mən səni ləyaqətlə ərə verəcəyəm.

Nargilə *(zarafatmı və ya həqiqətmi olduğu bilinməyən bir sevinclə).* Demək, mənim cehizim də olacaq. *(Anasını öpür).*

Nəzakət *(təəccüblü bir ruhi sakitliklə).* Bu neçə ilin ərzində birinci dəfədir ki, sən ananı öpürsən... Mən də sənə analıq xeyir-duası verirəm, qızım... Səni görüm dünyalarca xoşbəxt olasan.

Nargilə *(ürəyinin dərinliklərindən qopub gələn bir istək və ehtiramla).* Amin! (*Pauza. Nargilə anasına qısılır və indi işıq yalnız onların üzünə düşür. Sanki hər ikisinin gözü nəhayətsiz uzaqlara... eyni məchul nöqtəyə zillənmişdir. Hər ikisinin çöhrəsində eyni sakit ifadə vardır).* Yadındadırmı, mən dörd-beş yaşlarımda olduğum zaman qıçımı it tutmuşdu. Fərəc kurorta getmişdi...

Nəzakət *(pıçıltı ilə).* Yadımdadır.

Nargilə. Yaram simlədiyi üçün sən neçə gecə yuxusuz qalmışdın. Mən isə hey sənə nağıl dedirdirdim. Yorulub əldən düşmüşdün. Bir gün də mahnı oxumağını tələb elədim... Sən oxudun... Birdən susdun... Baxdım ki, yuxuya getmisən... *(Pauza. Anasına daha da qısılaraq).* O mahnının yadında qalan yerlərini mənim üçün oxu.

Qısa pauza. Birinci şəkildəki musiqi davam edir. Ananın xəyalı uzaqlara uçur.

Yenə də zaman dayanmışdır.

Nəzakət. Yox, o mahnını yadıma sala bilmirəm.

Nargilə *(ürəkdən).* Fikir eləmə, ana... Hər şey yaxşı olacaq...

Nəzakət. Mən ömrümə on ömür calayıb sənin xoşbəxtliyin üçün dişimlə-dırnağımla çalışacağam.

Nargilə. Sağ ol ana. *(Onu öpür).* Neçə illərdir ki, mən sənin nəfəsini belə yaxından hiss etməmişdim.

Nəzakət *(qalxır).* Bu gün yığışıb gələrsən. Sabah gedərik dərziyə.

Nargilə. Nə var ki?

Nəzakət. Sənin üçün də, özüm üçün də kostyumluq almışam.

Nargilə *(ürəkdən, lap uşaq kimi sevinir).* Nə danışırsan?.. Yaxşı materialdır?

Nəzakət. Gərək xoşuna gəlsin... Məncə, çox yaxşıdır...

Nargilə *(eyni uşaq sevinci ilə).* Axır ki, mənim də əynim bir təzə kostyum üzü görər...

Nəzakət. Anan sənin üçün hələ ayrı şey də alıb.

Nargilə. Nə?

Nəzakət. Gələrsən, görərsən...

Nargilə. Bəlkə... *(Məzəli bir əda ilə ayağına işarə edir).* Dünən univermağa gələn tuflilərdəndir? *(Nəzakət başı ilə təsdiq edir).* Sağ ol, ana. Bir gün mən də heylə bahalı tufli ayağıma geyəcəyimi heç ağlıma da gətirməzdim. Ancaq... ana, bir məsələ var...

Nəzakət. Yenə nə məsələdir?

Nargilə. Axı mən o kişinin üzünü bir də görmək istəmirəm.

Nəzakət. Sən onun üzünü görməyəcəksən. Mən aralıq qapını bağlamışam.

Nargilə. Qoy elə mən burda qalım.

Nəzakət. Təzədən başlayırsan?

Nargilə. Yaxşı...

Nəzakət. Hələlik...

Nargilə. Hələlik, ana!

Nəzakət çıxır. Nargilə onun ardınca uzun bir nəzər salır. İşıq tədricən azalır, nəhayət, Nargilənin həyəcanlı, xoşbəxt nəzərləri altında sönür. Həsənzadənin eyvanı. Ətrafda bir tör-töküntülük nəzərə çarpır. Həsənzadə şeylərini çamadanlara yığır. Telefon zəngi. Həsənzadə dəstəyi götürür. İşıq eyni zamanda telefon xəttinin o biri ucunda dəstəyi qulağına tutmuş Nəzakətin üzərinə düşür.

Həsənzadə. Eşidirəm.

Nəzakət. Sizi bir də narahat elədiyim üçün üzr istəyirəm.

Həsənzadə. Eybi yoxdur, buyurun...

Nəzakət *(həyəcanını güclə boğaraq)*. Bilirsinizmi, biz barışdıq...

Həsənzadə. Təbrik edirəm... Mən bunu gözləyirdim...

Nəzakət. İcazə verin sizə dünyalar qədər təşəkkür edim.

Həsənzadə. Mənə?

Nəzakət. Əlbəttə... Sizin təsiriniz olmasaydı, biz ana-bala arasındakı əhvalat, kim bilir, haralara gedib çıxardı... Bəlkə də heç ölənəcən barışmazdıq. *(Qısa pauza).* Ancaq sizdən böyük bir xahişim var.

Həsənzadə. Buyurun...

Nəzakət *(həyəcan içində)*. Deməyə cəsarət eləmirəm.

Həsənzadə. Üreyinizə nə gəlirsə, deyin.

Nəzakət. Elədiyiniz yaxşılığı axıra qədər aparın.

Həsənzadə. Başa düşmürəm.

Nəzakət. Siz nə qədər yaxşı insan olsanız da, mən onun sizə ərə getməsinə razı deyiləm.

Həsənzadə. Mən bunu bilirəm.

Nəzakət. Siz Allah inciməyin...

Həsənzadə. İncimirəm...

Nəzakət. Özünüz deyin, insafdırmı ki, o cür gənc qız...

Həsənzadə *(səbirsiz onun sözünü kəsir)*. Aydındır.

Nəzakət. Rica edirəm, məni səhv başa düşməyin... Biz çalışmalıyıq ki, övladlarımızın xoşbəxtliyi bütöv olsun. Elə deyilmi?

Həsənzadə. Elədir... Əlbəttə, elədir...

Nəzakət. Biz xoşbəxt olmadıq, heç olmasa, onlar olsunlar... Yalvarıram, bir vasitə ilə onu özünüzdən uzaqlaşdırın. Elə edin ki, bir də sizin barənizdə düşünməsin... Siz alicənab adamsınız... Siz bunu bacararsınız...

Həsənzadə. Mən o barədə fikirləşərəm. Ancaq siz öz səhvinizi işdə düzəldin... Nargilə sizin bilib-tanıdığınızdan çox-çox yüksək bir qızdır. *(Pauza. Dərin böhran içində).* Siz onun xoşbəxt olmasına çalışın!.. Bunun üçün, əgər bir çətinliyə rast gəlsəniz, mənə müraciət eləməyi unutmayın!.. *(Qısa pauza).* Mənim ünvanımı zavoddan soruşsanız, deyərlər...

Nəzakət. Necə bəyəm, siz bir yerə gedirsiniz?

Həsənzadə. Bəli, gedirəm.

Nəzakət. Neçə vaxta?

Həsənzadə. Həmişəlik.

Nəzakət. Nə danışırsınız...

Həsənzadə *(artıq danışmaq onun üçün çətindir)*. Başqa sözünüz yoxdur ki?

Nəzakət *(mütəəssir halda)*. Gedin, işiniz həmişə avand olsun. Siz dəyərli insansınız.

Həsənzadə dəstəyi asır və dərhal papiros yandırır. O, heç bir zaman indiki qədər həyəcanlı görünməmişdir. Birinci şəkildəki musiqi yenidən qalxır. Pauza. Həsənzadə papiros çəkdikcə onun həyəcanı sonu görünməyən bir kədərə çevrilir. Yaşlı bir kişi, Fərəcov və keçən dəfə Həsənzadənin kabinetində gördüyümüz üç cavan oğlan daxil olurlar.

Yaşlı kişi. Salam.

Həsənzadə. Əleykəssalam, buyurun, əyləşin...

Gələnlər otururlar.

Yaşlı kişi. Bu nə əhvalatdır, əşi, deyirlər gedirsən?

Həsənzadə *(zarafatyana)*. Elə deyirlər.

Yaşlı kişi. İyirmi ildir bir yerdə işləyirik, üzümüz-gözümüz öyrəşib...

Fərəcov. Ba...a... balaca bir sexi böyüdüb o cür zavod eləmisiniz... İ... i... indi ən ya... ya... yaxşı vaxtında qoyub gedirsiniz.

Birinci işçi. Harada işləyəcəksiniz?

Həsənzadə. Gəncə tərəfdə təzə zavod tikmək lazımdır.

Yaşlı kişi. Deyir, özün ərizə vermisən?

Həsənzadə *(qəsdən kişinin sözünün üstündən keçərək)*. Eh, ay Muradxan dayı, sənlə mənə bu dünyada tikməkdən başqa ayrı nə qalıb ki...

Yaşlı kişi. Tikmək yaxşı şeydir. Ancaq sən niyə özünü mənimlə bir tutursan?.. Mən yetmişi vurub keçmişəm. Amma sən.

Birinci işçi. Rəşid bayaq kəndlərindən zəng eləmişdi. Sizin getməyinizi biləndə yaman pərt oldu...

Həsənzadə. Məzuniyyətini nə cür keçirir?

Birinci işçi. Deyir, darıxıram... Sabahda, birigündə qayıdacaq...

İkinci işçi *(mənalı təbəssümlə)*. Darıxmağının səbəbi var.

Həsənzadə *(gülümsəyir)*. Nədi eylə?

Birinci işçi. Bilmirsiniz?

Həsənzadə *(qəsdən)*. Yox, bilmirəm, nə olub bəyəm?

İkinci işçi. Naryadçı qız gələndən bəri nə gecəsi gecədi, nə gündüzü gündüz...

Üçüncü işçi. Lap Məcnun olub.

Həsənzadə. Nargiləni deyirsiniz?

Birinci işçi. Ancaq qızın onunla ulduzu barışmır ki, barışmır... Rəşidi görəndə, elə bil, cini qalxır. İllah da ki, oxuyanda.

İkinci işçi *(mənalı təbəssümlə)*. Bunlar Rəşidin xeyrinədir.

Birinci işçi. Xeyrinədir?

İkinci işçi *(filosofanə bir görkəm alaraq)*. Bəs necə...

Üçüncü işçi *(hərarətlə)*. Sən də ağ eləmə! Nəyi xeyrinədir, az qalmışdı kişini vurub öldürsün...

İkinci işçi. Siz hələ uşaqsınız. Mən belə romanları çox oxumuşam.

Üçüncü işçi. Qız nervinnidi, vəssalam...

İkinci işçi. Xeyr a... nervin bura dəxli yoxdur. *(Bilici əda-sı ilə)*. Psixoloji!

Pauza. Həsənzadə ikinci işçiyə baxır. Sonra gözlərini ondan çəkərək papiros yandırır. O öz dərin kədərinə qalib gəlməyə çalışır.

Birinci işçi. Biz gərək onu həmkarlar ittifaqına götürək.

İkinci işçi. Götürməyinə götürək, ancaq həmkarlar ittifaqının məhəbbətə nə dəxli var?

Birinci işçi *(ötkəm)*. Çox dəxli var!.. Əgər o, bir təşkilatın üzvü olsa, kollektivə daha tez isinişər. Adamlara dəvə nalbəndə baxan kimi baxmaz.

Üçüncü işçi. Təzə gələn vaxt söz demək olmurdu. İndi xeyli dəyişib.

Yaşlı kişi. Qızın ağlı olsa, çəm-xəm eləməz. Bu mahalda Rəşid kimi oğlan yoxdur.

İkinci işçi. Əlbəttə.

Fərəcov. Rəşidi vu... vu... vurar, öldürər... Də... dəli şeydir.

Həsənzadə *(sərt)*. Bura bax, Fərəcov, əgər bir də sənin o qız barəsində bu cür sözlər danışdığın qulağıma çatsa, birinci növbədə, mənə cavab verməli olacaqsan... Elə bilmə ki, mən ayrı planetə köçürəm. Həmişə zavodla əlaqə saxlayacağam.

Yaşlı kişi. Əlbəttə... zavod sənin balandır.

Həsənzadə. Əgər mənim xatirimi istəyirsinizsə, o qızdan muğayat olun. Ağıllı qızdır. Çalışın xoşbəxt olsun. *(Qısa pauza. Papiros çəkir)*. O, başqa şəraitdə böyümüşdür.

Yaşlı kişi. Sən bizə pis adam tapşırmazsan. O qızı gözümüz üstə saxlayacağıq.

İkinci işçi. Lap arxayın olun.

Həsənzadə *(qısa pauza. Həsənzadə ağır düşüncədən başını qaldıraraq)*. Bilirsiniz ki, Rəşidi mən də çox istəyirəm.

Birinci işçi. Siz onu politexnik institutunacan aparıb çıxarmısınız.

Həsənzadə. Əgər Nargilə ilə ulduzları barışsa, mən də şad olaram.

Birinci işçi. Yəni demək istəyirsiniz ki...

Üçüncü işçi. Hə... də...

Həsənzadə *(birinci oğlana xitabən)*. Mənə də elə gəlir ki, bu mümkündür və sizdən xahiş edirəm, o barədə mənim də rəyimi Rəşidə bildirəsiniz.

Birinci işçi. Baş üstə.

Qısa pauza.

Həsənzadə. Mən taleyə inanıram. Mənə elə gəlir ki, bizim xoşbəxtliyimiz əksər hallarda bir-birimizdən asılıdır.

Yaşlı kişi. Elədir, qardaş, elədir. Əgər hamı sənin kimi düşünsəydi, dünya cənnət olardı. *(Qısa pauza)*. Yaxşı adamlar həmişə yaxşı işlər yadigar qoyub gedirlər. *(Əvvəl o, sonra da o birilər qalxırlar)*. Sənin bizim boynumuzda haqqın çoxdur. Get, işin həmişə avand olsun...

Həsənzadə. Sağ olun...

Yaşlı kişi. Sənə yaxşı yol...

Həsənzadə hamı ilə əl tutuşur. Adamlar çıxırlar. Həsənzadə bir neçə saniyə hərəkətsiz dayanır. Onun görünüşü çox kədərlidir. Birinci şəkildəki musiqi yenidən başlayır. Həsənzadə şeylərini yığışdırmaqda davam edir. Otağın

işığı azalır və yarıqaranlıqdan Xurşid çıxır. İşıq onun və Həsənzadənin üzərinə düşür.

Xurşid. Nə üçün evlənmədin? Axı o səni sevir.

Həsənzadə. Doğrudur... Lakin bu, qeyri-adi bir məhəbbətdir. *(Qısa pauza).* Təbiət sevənlər arasında qəribə tənasüb yaradır; bu tənasüb pozulduqda isə, ikisindən birində məhəbbət daha tez qocalır. Daha tez məhv olur ki, bu da çox kədərli bir haldır...

Xurşid. Sən cavanlıqda məhəbbət barəsində bu cür sakit, bu cür soyuq mühakimə yürütməzdin...

Həsənzadə. O zaman bu duyğular hamısı torpaqdan təzə-təzə baş qaldıran körpə otlar üzərinə düzülmüş bahar şehləri idi. Yay günəşi onları çoxdan qurudub! Qışda düşən şeh isə donub buz olur...

Xurşid. Sən gedirsən, bəs o yazıq qızın halı necə olacaq? Məgər bu, sənin tərəfindən xudpəsəndlik deyil?

Həsənzadə. Yox! Mənim getməyim ədalətin hökmüdür. *(Qısa pauza).* Dünyada ata-ana nəvazişi görməyən o gənc qız mənə göydəndüşmə bir məxluq, bir Allah kimi baxır. *(Zarafatyana).* İndi, əgər bu «Allah» öz qüdrətindən sui-istifadə eləyib onun səadətini oğurlasa, bəs insafı harda qaldı?

Xurşid. Axı o öz xoşbəxtliyini səndə görür...

Həsənzadə. Doğrudur... Lakin bu duyğunun ömrü o qədər qısadır ki... *(Pauza).* Yox, sonrakı peşmançılıqdan indiki əzab min dəfə yaxşıdır! *(Qısa pauza).* Bir vətəndaş olaraq mənim üçün əsas məsələ onun həyatı, insanları düzgün dərk etməsidir!

Xurşid. Sən bu məsələni artıq həll etmiş olduğunu güman edirsən?

Həsənzadə. Mən bunun üçün əlimdən nə gələ bilirdisə, hamısını elədim. Ardını isə... həyat özü davam etdirəcək! Mən onu yaxşı insanlar arasında qoyub gedirəm!

Maşın siqnalı. Qapı zəngi. Şofer daxil olur. Xurşid çəkilir.

Şofer. Hazırsınız?

Həsənzadə. Bəli, hazıram.

Şofer iki çamadanı götürüb çıxır. Həsənzadə pencəyini geyərək, boş otağa nəzər salır. İşıq tədricən sönür. İşıq yananda isə Nargilənin otağı görünür. Nargilə eyni həvəslə tikir. Qapının zəngi çalınır. Qız yüyürüb qapını açır. Həsənzadə otağa daxil olur. Nargilə bir an donub qalır.

Nargilə. Gözlərimə inana bilmirəm. Siz də mənim otağıma gələrmişsiniz. *(Özünü Həsənzadənin üstünə ataraq, hər iki əli ilə ondan yapışıb, üzünü sinəsinə yapışdırır).* Ay Allah... Mən nə qədər xoşbəxtəm!.. Mənim əzizim, həyatım... *(Sevincdən gah gülür... gah gözləri yaşarır).* Bu gün mənim nə xoşbəxt günümdür!.. Sizdən bir az qabaq da anam gəlmişdi.

Həsənzadə *(birdən canlanaraq).* Doğrudanmı?

Nargilə. Bəs necə!.. Uzun işdir... Elə indicə sizə zəng edəcəkdim. Anam təkidlə mənim geri qayıtmağımı istəyir. Hətta Fərəcin stul-mustulunu da mənim otağımdan çıxarıb, aralıq qapını bağlayıb.

Həsənzadə. Bəs sən nə cavab verdin?

Nargilə. Mən sizinlə məsləhətləşmək istədim... Qayıdım, yox...

Həsənzadə. Əlbəttə, qayıtmaq lazımdır...

Nargilə. Fərəcin acığına mən də qayıtmaq istəyirəm.

Həsənzadə. Fərəcin acığına nə üçün? Ananın xatirinə qayıtmaq lazımdır. Madam ki, peşman olub...

Nargilə. Eh... bilirsiniz necə peşman olub... Deyir, mən səni öz ata evindən gəlin köçürmək istəyirəm, yaman dəyişilib.

Həsənzadə. Belə də gözləmək olardı... Ana anadır.

Nargilə. Görünür, elədir. *(Qısa pauza. Həsənzadəyə həyəcanla baxaraq).* Mən sizi bu kiçik, yoxsul otağıma heç yaraşdıra bilmirəm. Elə bil ki, Aydan gəlmisiniz. Gəlin əyləşin... Mənim Aydan gələn əzizim. *(Hər ikisi oturur).* Mən evimizə qayıdandan sonra da tez-tez gələrsiniz... Eləmi?

Həsənzadə. Vaxt olar, gələrəm.

Nargilə. Vaxt olar nədir... hər gün gələcəksiniz. *(Bir sirr açırmış kimi yavaşcadan).* Anam daha sizin kölgənizi qılınclamır...

Həsənzadə *(mükəddər bir təbəssümlə).* Doğrudanmı?

Nargilə. Bir kəlmə də pis söz demir.

Həsənzadə. Mən buna çox şadam.

Nargilə. Mən bilirdim ki, anam əvvəl-axır başa düşəcək... *(Onun əlindən yapışaraq).* Axı sizə necə pis demək olar? Eh... bu gün... Surik də gəlmişdi...

Həsənzadə. Nə deyirdi?

Nargilə. İşləmək istəyir. Zavodda onun üçün bir iş tapılar?

Həsənzadə. Tapılar.

Nargilə. Vallah, pis qız deyil.

Həsənzadə bloknot və qələm çıxarıb nə isə yazaraq kağızı çıxarıb Nargiləyə verir.

Həsənzadə. Verərsiniz Fərəcova, düzəldər...

Nargilə. Məktub nə üçün? Sabah özünüz çağırıb tapşırarsınız...

Həsənzadə *(özünü toplayaraq)*. Özüm gedirəm.

Nargilə *(birdən tutularaq)*. Hara? *(Yalnız indi Həsənzadənin yol paltarında olmasının fərqinə vararaq)*. Olmaya Aydını görməyə gedirsiniz? *(Həsənzadə «yox» mənasında başını bulayır)*.

Həsənzadə. Təzə iş yerinə.

Nargilə. Başa düşmürəm, necə «təzə iş yerinə»?

Həsənzadə. Gəncə tərəfdə böyük sement zavodu tikilməlidir, məni ora dəyişiblər...

Nargilə *(qeyri-ixtiyari)*. Bəs mən?!

Həsənzadə *(onun əlindən tutaraq)*. Siz burada qalırsınız...

Nargilə *(dəhşət içində əlini Həsənzadənin əlindən qopararaq qışqırır)*. Yox... yox... İstəmirəm! Qalmaq istəmirəm! Mən... Sizsiz yaşaya bilmirəm. *(Birdən böhran içində gülərək)*. Yoxsa? Siz məni sınamaq istəyirsiniz?

Həsənzadə. Sizin sınanmağa ehtiyacınız yoxdur.

Nargilə *(öz-özünə danışırmış kimi)*. Demək, gedirsiniz...

Qısa və gərgin pauza.

Həsənzadə *(onun əlindən tutaraq)*. Qulaq asın, görün mən nə deyirəm.

Nargilə *(əlini onun əlindən qopararaq)*. Lazım deyil!.. Heç nə deməyin!.. Heç nə... *(Gözlərindən sakit-sakit yaş axır)*. Siz getməli idiniz... Siz həddindən artıq yaxşı adamsınız. Siz qala bilməzdiniz...

Həsənzadə. Elə deməyin...

Nargilə. Yox, narahat olmayın. *(Göz yaşları sakit-sakit axır)*. Siz getsəniz də, hər şeyi özünüzlə aparmırsınız... Siz mənim həyatımda çox şey qoyub gedirsiniz.

Həsənzadə. Rica edirəm, həyəcanlanmayın.

Göz yaşları daha da şiddətli tökülür.

Nargilə. Dedim ki, narahat olmayın... Madam ki, siz belə edirsiniz, demək, belə də lazımdır. Qoy mənim göz yaşlarım sizin səfərinizi kədərli eləməsin. Siz onsuz da bu dünyada az dərd çəkməmisiniz. *(Göz yaşları içində gülümsəyir)*. Mən Səməndər quşu kimi sizin odunuza yanmaq istəyirdim. Siz bunu istəmədiniz. Çünki siz həddindən artıq yaxşı adam idiniz... *(Bayırda maşın siqnalı. Həsənzadə qalxır)*. Yox, bircə dəqiqə də dayanın... Əgər bu dünyada insaf, ədalət varsa, qoy sizin bircə oğlunuz yer üzünün ən xoşbəxt adamı olsun. Sizin qəlbiniz bir də qəm görməsin. Siz həmişə... gecə də, gündüz də mənim yanımda olacaqsınız. Mənimlə olacaqsınız. *(Şiddətli göz yaşları içində gülümsəyir)*. Axı mən sizsiz necə yaşaya bilərəm?

Həsənzadə *(həyəcanla)*. Nargilə...

Nargilə. Yox, susun. Siz öz sözünüzü demisiniz. Mənim isə sizə sözüm çox idi... Sizin vaxtınız yoxdur... Lakin siz harda olursunuz-olun, mən hər gün bu sözləri sizə deyəcəyəm.

Həsənzadə. Rica edirəm, həyəcanlanmayın.

Nargilə *(göz yaşları içində gülümsəyir)*. Kim deyir ki, mən həyəcanlanıram?! Əksinə... Mən heç bir zaman özümü bu qədər sakit hiss etməmişəm! Mənim məhəbbətim əbədiyyətə qovuşmuşdur! Mən onun sabitliyini, gözəlliyini, əbədiliyini heç bir zaman bu qədər aydın hiss etməmişdim... *(Onun qollarından yapışaraq)*. İndi isə gedin, qatara gecikirsiniz...

Həsənzadə çıxır. Birinci şəkildəki musiqi yenidən başlayır. İşıq tədriclə azalır və sönür...

PƏRDƏ

1963.

1990-cı il yanvar ayının 20-də Bakıda qəfildən güllələbaran edilmiş Azərbaycan şəhidlərinin əbədi xatirəsinə ithaf edirəm.
İlyas ƏFƏNDİYEV.

HÖKMDAR VƏ QIZI

İŞTİRAK EDİRLƏR

İbrahim xan
Tubu xanım
Ağabəyim ağa
Saday bəy
Səltənət bəyim
Əbülfət ağa
Mirmöhsün ağa
Cavad xan
Kəlbəli xan
Məhəmməd xan
Hüseynqulu xan
Haykanuş
Sisyanov
Lisaneviç
Vanya
Xidmətçilər,
rus əsgərləri
yavərlər

BİRİNCİ ŞƏKİL

Şuşa qalası. İbrahim xanın iqamətgahı. Ağaməhəmməd şahın Şuşanın istilası zamanı Balakəndən qaçmış İbrahim xanın Ağa Məhəmməd şah öldürüləndən sonra təkrar sağ-salamat Şuşaya qayıtması münasibətilə sarayda şadyanalıq. Musiqi. Cavanlar rəqs edirlər. Xanın qızları Ağabəyim ağa və Səltənət bəyim də, Cavad xanın oğlu Hüseynqulu xan da, Qaradağ atlılarının gənc sərkərdəsi Saday Şirxan oğlu da onların arasındadır. Axund Mirmöhsün ağa zərif parçadan tikilmiş ağ libasda, ağ əmmamədə səhnənin yuxarısında görünür.

Mirmöhsün ağa. Camaat! Əlahəzrət hökmdarımız İbrahim ağa Balakəndən bütün ailəsilə sağ-salamat qayıdıb təkrar öz taxt-səltənətinə sahib olması münasibətilə xalqa əfvi ümumi əta eləyib zindandakı məhbusların azadlığı barədə sərəncam verir.

Səslər. Allah xanın ömrünü uzun eləsin!

Səslər. Allah xanı həmişə öz taxt-səltənətində bərqərar eləsin!

Səslər. Adil hökmdarımız İbrahim xana eşq olsun!

İbrahim xan ağır addımlarla səhnənin hündürlüyündə görünərək camaata əl edir.

İbrahim xan. Camaat, mən sizin sədaqətinizə həmişə əmin olmuşam. Qəhrəman Qarabağ camaatı heç bir zaman satqın olmamışdır. Azərbaycan türkləri heç bir zaman namərd olmamışdır. Onu da sizin nəzərinizə çatdırmaq istəyirəm ki, mənim və ailəmin Balakəndən bura sağ-salamat gəlib çıxmağımız ancaq Qaradağ atlılarının və onun cavan sərkərdəsi Saday Şirxan oğlunun igidliyi sayəsində mümkün olmuşdur. Saday Şirxan oğlu üç dəfə şəxsən özü özünü ölüm təhlükəsinə məruz qoyaraq, bizi xilas etmişdir.

Səslər. Yaşasın Saday Şirxan oğlu!

Səslər. Sağ olsun Qaradağ igidləri!

İbrahim xan. Ona görə də, mən, ədalət naminə, Saday Şirxan oğluna və onun bütün törəmələrinə bəylik rütbəsi verirəm.

Saday bəy. Sağ olsun adil hökmdarımız İbrahim xan.

İşıq sönür.

İKİNCİ ŞƏKİL

Ağabəyim ağa və Saday bəy.

Ağabəyim ağa. Saday bəy, biz səni dübarə təbrik edirik. Çox şadam ki, sənə birinci dəfə mən Saday bəy deyirəm.

Saday bəy. Təşəkkür edirəm, Ağabəyim ağa. Ancaq mən əlahəzrət xanı və ailəsini düşməndən mühafizə edərkən, «bəylik» rütbəsi barədə düşünməmişəm.

Ağabəyim ağa. Saday bəy, mənim bacım da, hətta Hüseynqulu xan da bilirlər ki, mən səni öz atlılarınla Balakənə – bizim köməyimizə gəldiyin vaxtdan qabaq tanıyıram. Onda sən bəy deyildin.

Saday bəy. Rica edirəm, mənə bəy deməyin, sadəcə, adımı deyin.

Ağabəyim ağa. Yox. Deyəcəyəm. Uca, sarp qayalar arasında düşmənlərlə vuruşa-vuruşa bu gözəl Şuşa qalasını tikdirən Xan babam Pənah xanın da əvvəli Qarabağın Sarıcallar obasından çıxmış adi–sadə igid bir oğlan idi. O da xanlıq rütbəsinə gedən çətin yolları öz qılıncı ilə açmışdır. Sən də o adı öz igidliyinlə almısan.

Saday bəy. Pənah xanın igidlikləri haqqında bizim Qaradağ mahalında da əfsanələr danışırlar.

Ağabəyim ağa. Saday bəy, böyük bir dəstə Qaradağ atlısı Balakənə – bizim köməyimizə gələndə, mən eyvanda durub tamaşa edirdim. Qabaqda gələn ucaboylu, boz atın üstündəki arıq oğlanın dəstənin sərkərdəsi olduğunu biləndə, əvvəl nə üçünsə təəccüb elədim... Sonra birdən-birə mənə elə gəldi ki, bu oğlanı harada isə görmüşəm... Və sevmişəm...

Saday bəy. Siz şahlara layiqsiniz, Ağabəyim ağa.

Ağabəyim ağa. Saday bəy, sən mənim nişanlım olmaq istərdin?

Saday bəy. Ağabəyim ağa, siz dünyanın ən nəcib xanımısınız. Xan atanız, bizim hökmdarımız sizi adi bir tərəkəmə oğluna verməz. Bunu bildiyim üçün mənim böyük məhəbbətim qəlbimin dərinliklərində taleyinə tabe olub.

Ağabəyim ağa. Danış, Saday bəy. Mənim səadətim olan bu hissin sənin qəlbinə haradan, necə daxil olduğunu danış.

Saday bəy. Keçən yay siz Topxana meşəsində dincəlirdiniz. Mən bir dəstə atlı ilə Qaradağ xanından hökmdarımız İbrahim xana hədiyyə gətirirdim. Siz də böyük ipək çadırın qapısında uca palıdın kölgəsində dayanıb fikirli-fikirli Kirs dağlarına baxırdınız. Siz o qədər gözəl görünürdünüz ki, mən Peyğəmbərimiz Rəsul Allahın «Əhsənülxaliqin» sözlərini bilaixtiyar təkrar etdim.

Ağabəyim ağa. Peyğəmbər əleyhissalam sonra Ayişə ilə izdivac etdi. Demək...

Saday bəy. Dedim ki, siz şahlara layiqsiniz, Ağabəyim ağa.

Ağabəyim ağa. Sən indi adi bir tərəkəmə oğlu deyilsən. Sən hökmdarın ailəsini və özünü üç dəfə ölümdən qurtarmış igidlər igidi Saday bəysən. Mən yolda sənin düşmən nəfərlərilə necə qılınclaşdığını gördüm. Mənə elə gəlirdi ki, sən bizi xilas etmək üçün Allah tərəfindən göndərilmiş fövqəlbəşər bir məxluqsan.

Saday bəy. Mən son nəfəsimə qədər sizin keşikçiniz olacam.

Ağabəyim ağa. Yox. Sən mənim nişanlım olacaqsan. Xan atasının əziz xələfi olan Ağabəyim ağanın iradəsi belədir. *(Uzaqlara baxaraq).* O nə karvandır? Bizim yerlilərə oxşamırlar.

Saday bəy *(diqqətlə baxaraq).* Tehran karvanına oxşayır.

İşıq sönür.

ÜÇÜNCÜ ŞƏKİL

Səltənət bəyim və Hüseynqulu xan gəlirlər.

Hüseynqulu xan. Səltənət bəyim, sənin nişanlın sağ-salamat gəlib çıxdığınız üçün, öz gözəl sevgilisini təbrik etməyə əliboş gəlməyib... Yerişinə, duruşuna vurulduğun «qumral ürgəsini» sənə hədiyyə gətirib.

Səltənət bəyim *(heyranlıqla).* O... Hüseynqulu xan. Mən inanmaram ki, mənim cavan nişanlım dünyada bütün gözəllərin gözəli olan «qumral ürgədən» ayrıla bilsin.

Hüseynqulu xan. Mən «qumral ürgədən» ayrılmıram. Mən onu sənə, öz sevgilimə bağışlayıram.

Səltənət bəyim. Sağ ol, mənim igidim... Gedək. Qumral ürgənin üstündə qızıl quş kimi uçacam. *(Səltənət bəyimlə Hüseynqulu xan getmək istəyirlər. Tubu xanım daxil olur).*

Tubu xanım. Qızım, mən eşidirəm ki, sən Cavad xanın gənc oğlu Hüseynqulu xanı nişanlı adlandırırsan...

Səltənət bəyim. Bəli, ana, adlandırıram. Axı mən hiss edirəm ki, sənin də, Xan atamın da meyliniz belədir. Səndən nə gizlin, mən də... onu çox sevirəm.

Tubu xanım. Mən bunu bilirəm. Ancaq nəzərə al ki, biz sizi hələ rəsmi nişanlamamışıq. Qabaqda böyük bacın Ağabəyim ağa var... Dədə-baba adətimizə görə...

Səltənət bəyim. Başa düşürəm ana: «Əvvəl böyük bacı, sonra kiçik bacı».

Tubu xanım. Hüseynqulu xan ləyaqətli övladdır, mənim də xoşuma gəlir.

Səltənət bəyim. Atası Cavad xan kimi igiddir, uzaq şimaldan bizim gözəl vətənimizə göz dikən düşmənlərin gözlərinə güllə

sıxmağa hazırdır. O da mənim kimi vətənimizin gözəllıklərinə, igid atlarına heyrandır.

Tubu xanım. Əlbəttə, igid nəslinə çəkər... Cavad xanın qəhrəmanlığına nə söz ola bilər? Ancaq həddindən artıq inadkardır.

Səltənət bəyim. Bilirəm, nəyə işarə vurursan, ana. Cavad xan qoşun çəkib vətənimizi işğal etməyə gələn çar generalı Zubovu xan atamın duz-çörəklə qarşılamasına dözə bilməzdi...

Tubu xanım *(əsəbi)*. Xan atan nə etdiyini bilirdi... Cavad xan uzun illərdən bəri ölkəni ağılla idarə eləyən İbrahim xanla hesablaşmalı idi. Xan atanın siyasətini mühakimə etmək yaramaz. Sənin isə, belə düşünməyin heç yaramaz. Eşitdinmi: yaramaz. *(Tubu xanım əsəbi halda çıxır)*.

İşıq sönür.

DÖRDÜNCÜ ŞƏKİL

İbrahim xanın iqamətgahı. İbrahim xan və Mirmöhsün ağa səhnəyə daxil olurlar.

Mirmöhsün ağa. Əlahəzrət! Çapar İran şahənşahı Fətəli şahdan sizə namə gətirib.

İbrahim xan. Maraqlıdır. Mirmöhsün ağa, oxu görək nə məsələdir?

Mirmöhsün ağa *(naməni açıb oxumağa başlayır)*. Əzəmətli, şöhrətli Qarabağ hakimi İbrahim xan həzrətlərinə şahənşah İran – əzəmətli Fətəli şahdan salam. İbrahim xan, hökmdarımız Ağa Məhəmməd şah Qacarın cənazəsini hörmətlə Tehrana göndərməyinizdən xeyli məmnunam. Şöhrətli Qarabağ xanlığı ilə dostluq və himayədarlıq münasibətini daha da möhkəmləndirmək üçün İbrahim xanın gözəl qızı Ağabəyim ağa ilə izdivac arzusunda olduğumu bildirirəm. Ağabəyim ağanın ağlı, fərasəti mənə məlum olduğundan və o, məhz sizin – İbrahim xanın qızı olduğundan, onu özümə baş hərəm etmək fikrindəyəm. Oğlunuz Əbülfət ağanı da öz sarayıma dəvət edirəm.

Qısa pauza.

İbrahim xan. Mirmöhsün ağa necə fikirləşir?

Mirmöhsün ağa. Əlahəzrət! Sizin taxt səltənətinizin İran şahı ilə qohumluğu, əlbəttə ki, Azərbaycan xalqı üçün xeyli xeyirli olar. Bir halda ki, şah özü də Azərbaycan türküdür. Anca q...

İbrahim xan. Ancaq...

Mirmöhsün ağa. Ancaq, əlbəttə ki, əgər, qızınız bu izdivaca razılıq verərsə... Ağabəyim ağa vəzir kimi ağıllı bir qızdır. Onun şah sarayında olması, güman edirəm ki, sizin səltənətinizlə

İran şahı arasındakı dostluğun daha da rövnəq tapmasına kömək edər.

İbrahim xan. Mən istərdim bu dostluq gözəl Azərbaycan torpağını yüz yerə parçalamış, bir-birinə düşmən kəsilmiş bədbəxt xanlarımızı birləşdirib vahid, müstəqil bir dövlət yaratmaqda mənə kömək eləsin. Lakin İran şahı özünə bitişik ikinci, qüvvətli bir müsəlman dövlətinin yaranmasına razı olarmı?

Mirmöhsün ağa. Əlahəzrət! Fətəli şah özü də türk olduğu üçün başqa millətin padşahı ilə qonşu olmaqdansa, özünə qohum olan, öz millətindən olan bir dövlətlə qonşu olmağı üstün tutar.

İbrahim xan *(əsəbi)*. Mirmöhsün ağa, İran şahları – Nadir də, Ağa Məhəmməd də, Fətəli şahın özü də türk olduqlarını çoxdan unutmuşlar. Axı sən bunu bilirsən.

Mirmöhsün ağa. Bəli, əlahəzrət, unutmuşlar. Fəqət bunun təqsiri bizim bəzi məhdud düşüncəli ruhanilərimizdə olmuşdur. Onlar heç bir zaman ərəbin ərəb, farsın fars, türkün türk olduğunu dillərinə, fikirlərinə gətirməmişlər. Milli təfəkkürü, milli səciyyəni, milli ruhu unudaraq, hamını müsəlman adlandırmaqla kifayətlənmişlər. Axı böyük Allah havayı yerə bəşəriyyəti müxtəlif millətlər şəklində yaratmamışdır.

İbrahim xan. Allah rəhmət eləsin Şah İsmayıl Xətaiyə. İran şahlarından yalnız o, türk olduğunu unutmadı.

Mirmöhsün ağa. Əlahəzrət! Elə zənn edirəm ki, Ağabəyim ağanın ağlı, fərasəti Fətəli şaha türk olduğunu təlqin edər. Siz, Fətəli şah taxta çıxan kimi Ağa Məhəmməd şahın cənazəsini hörmətlə Tehrana göndərməkdə çox ağıllı hərəkət elədiniz. Fətəli şah ağıllı adamdır. O bilir ki, yalnız Qarabağ deyil, Şirvan, Şəki, Gəncə, İrəvan, Naxçıvan, Xoy, Qaradağ, Təbriz, Ərdəbil, Marağa, əsasən, sizə tabedirlər. Onu da bilməmiş deyil ki, Dağıstan və Avar hakimi Ümmə xanın bacısı ilə izdivacınız hakimiyyətinizi daha da qüvvətləndirmişdir. Əlahəzrət, güman edirəm ki, Fətəli şahla dostluq münasibəti bütün Azərbaycan xanlıqlarını sizin hakimiyyətinizdə qəti birləşməyə kömək edər.

İbrahim xan. Mən buna şübhə edirəm, Mirmöhsün ağa. İran şahı Təbrizdən, Xoydan, Marağadan əl çəkməz. Ona görə də, rus padşahı Yekaterinanın əmri ilə general Zubov gəlib Dərbəndi alanda, mən oğlum Əbülfət ağanı böyük hədiyyələrlə onun yanına göndərib öz ixlasımı ona izhar etdim.

Mirmöhsün ağa. Əlahəzrət, Zubov Dərbənd qalasını bir dost kimi yox, bir istilaçı padşah generalı kimi silah gücünə almışdı.

İbrahim xan. Mən İran şahı ilə də, rus padşahı ilə də dostluq tərəfdarıyam.

İşıq sönür.

BEŞİNCİ ŞƏKİL

İbrahim xanın iqamətgahı. İbrahim xan və Ağabəyim ağa.

İbrahim xan. Mənim istəkli, ağıllı qızım, özün bilirsən ki, sənin hər bir arzun mənim üçün əziz olmuşdur. Budur, indi Allahın köməkliyi ilə böyüyüb boya-başa yetmisən. Allahın buyurub, Peyğəmbərin xəbər verdiyi kimi, daha ərə getmək yaşına çatmısan. Fətəli şah elçi göndərib, səni özünə baş hərəm etmək istəyir. (Pauza). Şah qardaşın Əbülfət ağanı da öz sarayına dəvət edir.

Ağabəyim ağa. Xan atam! Sən lap körpəliyimdən məni o qədər nazlandırmısan ki, heç bir arzumu, heç bir istəyimi səndən gizlətməmişəm. İndi də gizlətmək istəmirəm.

İbrahim xan. Əlbəttə, gizlətməməlisən.

Ağabəyim ağa. Mən Fətəli şah həzrətlərinə zövcə olmaq istəmirəm.

İbrahim xan. Nə üçün? Gərək ki, şəklini görmüsən. Bir kişi kimi xoşuna gəlmir?

Ağabəyim ağa. Məsələ onda deyil, xan ata.

İbrahim xan. Bəs nədədir? Çəkinmə. Ürəyində hər nə varsa, de.

Ağabəyim ağa *(birdən xanın qarşısında diz çökərək)*. Xan ata, sənin mənə olan məhəbbətindən qüvvət alıb, deməyə cəsarət edirəm ki, mənim ürəyim başqa bir şəxsdədir.

İbrahim xan. Xub. Kimdir o xoşbəxt insan ki, mənim əziz qızımın ürəyi ona belə bənd olub.

Ağabəyim ağa. O, Qaradağ atlılarının sərkərdəsi Saday bəydir, xan ata...

Qısa pauza.

İbrahim xan. Saday bəy ləyaqətli oğlandır. Üç dəfə məni və mənim ailəmi ölümdən xilas etdiyi üçün ona çox borcluyam. Lakin, qızım, Şirxan oğlu Saday neçə minillik İran taxt-səltənətinin şahı deyil.

Ağabəyim ağa. Xan ata, sənin nə ləl-cəvahiratın, nə səltənətinin əzəməti İran şahınınkından əskik deyil. Azərbaycan igidləri sənin başına and içirlər. Ona görə də, güman etmirəm ki, şöhrətli xan atam məni ancaq Fətəli şah olduğu üçün ona vermək istəyir.

İbrahim xan. Mənim ağıllı qızım. Sənin fəxrlə yad elədiyin Azərbaycan igidləri bilirsən ki, həmişə mənim də iftixarım olublar. Mən də həmişə Qarabağ, Qaradağ igidlərilə, Təbriz, Naxçıvan, Şəki, Şirvan igidlərilə fəxr etmişəm. Lakin bizim faciəmiz ondadır ki, bu igidlər bütün bir xalq halında birləşməyiblər. Ayrı-ayrı xanlıqlara bölünüblər. Sən onu da bilirsən ki, mənim həmişə ən yüksək amalım bu xanlıqları birləşdirib Azərbaycan türklərinin yenilməz, qüdrətli dövlətini yaratmaq olmuşdur. Mən böyük Şah İsmayılın əkdiyi toxumları göyərtmək istəyirəm...

Ağabəyim ağa. Ax, xan ata, sənin bu böyük amalın həmişə mənim də şirin xülyalarım olub.

İbrahim xan. Nə eləyəsən ki, bizim xanları bir amal ətrafında birləşdirmək mümkün deyil, hərəsi bir tərəfə çəkir. Hərəsi bir hökmdar olmaq istəyir.

Ağabəyim ağa. Onları birləşməyə məcbur etmək lazımdır.

İbrahim xan. Doğrudur. Lakin mənə kömək lazımdır. Mən Fətəli şahla ona görə qohum olmaq istəyirəm ki, Azərbaycan xanlıqlarını birləşdirib, vahid bir dövlət yaratmaqda o mənə kömək eləsin. Əgər sən onun zövcəsi olarsansa, o bu köməyi mənə vəd edər.

Ağabəyim ağa. Xan ata, o oğlan adi tərəkəmə içindən çıxmış bir igiddir. Sənin kimi qüdrətli hökmdarın istəkli qızı olan mənim onu istəməyim məni öz gözümdə göylərə qaldırmışdı. Mənə fövqəladə, azad bir səadət kimi görünmüşdü. İndi onu atıb şaha ərə getmək...

İbrahim xan. Vətən borcu, vətən şərəfi o qədər böyük, o qədər müqəddəs bir hissdir ki, ona əmr etmək olmaz. O gərək insanın öz qəlbindən gəlsin. Ona görə də mən səni məcbur eləyə bilmərəm. Rus padşahının generalı Dərbənd qalasını alıb oturub orda. Bu, yəqin ki, onun Qafqaz yürüşünün sonu deyil, hər şey öz ixtiyarındadır, qızım. *(Çıxır)*.

Ağabəyim ağa. Ey böyük Yaradan! Nə üçün sən məni bu qədər çətin imtahana çəkirsən? Əgər belə olacaq idisə, nə üçün o igidin məhəbbətini mənim qəlbimə bu qədər hakim edirdin? Vətən məni köməyə çağırır. Mən onun övladıyam. Mən onun çağırışına əməl eləməsəm, cəhənnəmlərə layiq bədnam bir məxluq olaram. İlahi! Bu imtahandan mənim mərd çıxmağıma kömək elə. *(Göz yaşları içində divana yıxılır)*.

İşıq sönür.

ALTINCI ŞƏKİL

Eyni məkan. Ağabəyim ağa ilə Saday bəy.

Ağabəyim ağa. Saday bəy, bir Allah bilir ki, mən sənin məhəbbətinlə özümü nə qədər xoşbəxt sanırdım. Necə xoşbəxt xəyallara dalırdım. Sən igidsən, dözəcəksən. Ancaq o qürbətdə səndən, bu gözəl Qarabağdan həmişəlik ayrı düşmək mənim üçün çətin olacaq... Çox çətin olacaq, Saday bəy. Vətənin gələcəyi dardadır. Rus padşahı Yekaterina Qafqazı və eləcə də Azərbaycanı istila etmək, Osmanlı imperiyasının yolunu kəsmək cəhdini artıq gizlətmir. İbrahim xa-

nın, atamın isə, güclü bir arxası, köməyi yoxdur. Yəqin ki, sən mənim nə demək istədiyimi...

Saday bəy. Başa düşürəm. Siz başqa cür hərəkət eləyə bilməzdiniz.

Ağabəyim ağa. Qoy böyük Allah hər ikimizin qəlbinə qüvvət versin.

Saday bəy. Amin! Əgər yeddi canım olsaydı, yeddisini də vətənimiz uğrunda qurban verərdim, məhəbbətimdən keçməzdim. Lakin böyük Yaradan bizə bir can verib. Siz düz buyurursunuz, vətənsiz o can bizi xoşbəxt eləyə bilməzdi. Əmin ola bilərsiz, Təbriz, Xoy, Qaradağ igidləri hər an sizin qulluğunuzdadır. Siz özünüzü Tehranda yalqız hiss eləməyin. Tərəkəmə oğlu Saday və onun dostları həmişə sizinlədir.

Ağabəyim ağa. Böyük Allah sizin qılınc çalan qolunuza qüvvət versin.

Saday bəy. Böyük Yaradan sizi vətənimizin azadlığı ilə xoşbəxt eləsin, Ağabəyim ağa.

İbrahim xanın imarətgahı.

Böyük toy məclisi. Ağabəyim ağanı Fətəli şaha gəlin köçürürlər. Cavanlar rəqs edirlər. Səltənət bəyim də, Hüseynqulu xan da, başqa cavanlar da buradadırlar. Hamı böyük şənlik içindədir. Yalnız Qaradağ atlılarının sərkərdəsi Saday bəy xeyli aralıda təkcə dayanıb bu şənliyə tamaşa edir. İbrahim xanın arvadı Tubu xanım və gəlinlik paltarında olan gözəl Ağabəyim ağa saray xadimlərinin müşayiətilə saraydan çıxırlar. Əbülfət ağa İbrahim xana yaxınlaşır.

İbrahim xan. Oğlum Əbülfət, sən neçə minillik tarixi olan İran taxt-səltənətinə Azərbaycan xalqının bir nümayəndəsi kimi gedirsən. Sən atan İbrahim xanın adına layiq hərəkət etməlisən.

Əbülfət ağa. Bilirəm, xan ata. Amma, xan ata, mən vaxtilə Altay dağlarından tutmuş Karpat dağlarına qədər uzanan ölkələrə hökm etmiş Çingiz xanın, Şərqdən Qərbə qədər bütün dünyanı titrədən Əmir Teymurun nəslindən olduğumu unutmamışam.

İbrahim xan. Əhsən! Əhsən, oğlum! Amma çalış ki, düşmənlər öz işləri üçün səndən istifadə etməsinlər.

Əbülfət ağa. Baş üstə, xan ata. Mənimçün hər şey aydındır.

İbrahim xan. Yaxşı, bəs biz neyçün dayanmışıq? Axı sən yola hazırlaşmalısan.

İbrahim xan və Əbülfət ağa gedirlər. Tubu xanımla Ağabəyim ağa səhnəyə daxil olurlar.

Tubu xanım. Qızım, indi səni Tehrana yola salarkən, yeganə təsəllim odur ki, o qərib şəhərdə ağlın, kamalın hər zaman sənə kömək olacaq. Nə etməli, qızım, biz xanzadə qadınların taleyi çox



zaman belə olmuşdur. Bizə xoşbəxtlik, sevinc müjdəsi gətirən məhəbbət göyərçini taleyin hansı oxuna isə hədəf olmuşdur. O oğlanı unut. Mən də qadınam, bilirəm ki, bu asan deyil. Ancaq çalış unut. Qoy bu köməksiz vətənimizin səadəti uğrunda göstərdiyin fədakarlıq sənin təsəllin olsun. Səni xoşbəxt eləsin. Bilirsən ki, əgər sən özün vətənimizin böyük taleyi üçün məhəbbətini fəda eləyib bu izdivaca razılıq verməsəydin, xan atan səni məcbur eləməyəcəkdi. Sənin sevdiyin oğlanın da xətri xan atanın yanında əzizdir... Ancaq nə etməli...

Ağabəyim ağa. O, mərd igiddir, ana. Bu nisgilli ayrılığa o da mənim kimi dözəcəkdir. O mənim xan atamdan da rəncidəxatir olmadı. Çünki bizim məhəbbətimizi Allah vətənimizə qurban elədi.

Tubu xanım. Qoy böyük Allah vətənimiz üçün hər cəfaya hazır olan igidlərimizin himayədarı olsun.

İbrahim xan, Mirmöhsün ağa və başqa saray əyanları saraydan çıxırlar. Ağabəyim ağa xan atasının qarşısında diz çöküb əlindən öpür. Xan onu qaldırıb alnından öpür. Sonra Əbülfət ağa yaxınlaşıb atasının qarşısında diz çökür. Xan onu da qaldırıb alnından öpür. Musiqi sədaları altında səhnə dəyişir. Şuşa qalasının Ağdama baxan tərəfində qala divarlarının üstündə tək-tənha dayanmış Saday bəyi görürük. O, arana gedən yola baxaraq, Ağabəyim ağanın çox uzaqdan eşidilən məşhur bayatısına qulaq asır:

Əzizinəm Qarabağ,
Şəki, Şirvan, Qarabağ,
Tehran cənnət də olsa,
Yaddan çıxmaz Qarabağ.

İşıq sönür.

YEDDİNCİ ŞƏKİL

İbrahim xanın iqamətgahı. İbrahim xan taxtda əyləşib. Mirmöhsün ağa da buradadır. Xidmətçi daxil olur.

Xidmətçi. Əlahəzrət, Naxçıvan xanı Kəlbəli xan, İrəvan hakimi Məhəmməd xan hüzurunuza təşrif gətiriblər.

İbrahim xan. Buyursunlar.

Xidmətçi çıxır. Kəlbəli xanla Məhəmməd xan daxil olub, İbrahim xana xanlıq təmkini ilə təzim edirlər.

İbrahim xan. Qarabağa təşrif buyurduğunuzu eşidib, şad oldum, ağalar. Nə əcəb sizdən?

Kəlbəli xan. Biz sənin məsləhətləşməyə gəlmişik, İbrahim xan. Rus padşahının böyük generalı Sisyanov gəlib Tiflisdə əyləşib.

Məhəmmədxan. O, Naxçıvan xanlığından da, bizim İrəvan xanlığından da tələb edir ki, padşahına tabe olaq.

Pauza.

İbrahim xan. Mən bunu iki gün bundan qabaq bilmişəm. Bəs siz nə fikirdəsiniz?

Kəlbəli xan. Naxçıvan xanlığı heç bir padşaha tabe olmaq istəmir.

İbrahim xan. Siz necə düşünürsünüz, Məhəmməd xan?

Məhəmməd xan. İrəvan xanlığı da heç bir padşaha tabe olmaq istəmir, İbrahim xan. Bilirsiniz ki, nə siz, nə də biz heç vaxt xaçpərəst tayfasına düşmən münasibət göstərməmişik. Yekaterinanın vaxtında onun böyük generalı Qafqaza gələndə sən hörmətli elçilərlə generala hədiyyələr göndərdin. Öz ixlasını bildirdin. Mən də dünyanın müxtəlif yerlərindən İrəvana gələn, yer-yurd istəyən ermənilərin heç birini rədd etməmişəm. Lakin biz öz istiqlaliyyətimizi itirə bilmərik.

Kəlbəli xan. İbrahim xan, sən İran şahı Fətəli şahla qohum olmusan. Oğlun Əbülfət ağa da hal-hazırda onun sarayında xanlıq vəzifəsindədir. Deyirlər ki, şah, qızınız Ağabəyim ağanın ağıl-fərasətinə valeh olub, onu baş hərəm təyin eləyib. Deyirlər, şah hər bir dövlət tədbirini də Ağabəyim ağa ilə məsləhətləşir. Əgər Fətəli şah bizə kömək eyləyəcəyini vəd edərsə, biz də Sisyanovun təklifini rədd edərik.

Məhəmməd xan. Mən də Kəlbəli xanla həmfikirəm. Bizə özü də türk olan İran şahının köməyi lazımdır.

Mirmöhsün ağa. Xanlar! Bağışlayın ki, mən sizin işlərinizə müdaxilə edirəm.

Kəlbəli xan. Buyurun, axund. Sizin sözləriniz bizim üçün qiymətlidir.

Mirmöhsün ağa. Mütəşəkkirəm, cənab Kəlbəli xan. Hörmətli ağalar, İbrahim xan dəfələrlə siz Azərbaycan xanlarına müraciət eləyib, təklif elədi ki, gəlin nə şərtlərlə istəyirsinizsə, bütün xanlıqları birləşdirib vahid Azərbaycan dövləti yaradaq, hətta İbrahim xan onu da buyurdu ki, istəyirsiniz biz də, Nadir şah Əfşarın vaxtilə Muğanda çağırdığı kimi, məclis çağırıb bu məsələni orada, bütün xalq nümayəndələrinin iştirakı ilə həll eləyək. Heç kəs əlahəzrət İbrahim xanın ağıl səlimilə elədiyi bu təklifə qol qoymadı. Əgər siz xanlıqlar birləşib vahid bir dövlət təşkil etsəydiniz, indi sizin güclü bir ordunuz olardı. Siz xanlar birləşmək istəmədiniz. Hörmətli ağalar, siz unutdunuz ki, Peyğəmbər əleyhissalam yüzlərcə yerə bölünmüş ərəb qəbilələrini birləşdirməsəydi, islam dünyası o qədər vüsətli qələbələrə nail ola bilməzdi.

Məhəmmədxan. Mirmöhsün ağa, sizin sözləriniz həqiqətdir. Ancaq indi bu barədə düşünmək daha gecdir. Rus generalı bizim rus padşahına tabe olmağımızı tələb edir. Biz isə bunu istəmirik.

Kəlbəli xan. Biz öz azadlığımızı itirmək istəmirik.

Cavad xan daxil olur.

Cavad xan. Salam, ağalar.

İbrahim xan. Əleykəssalam, Cavad xan. Bu gün mənə xəbər çatdı ki, general Sisyanov səndən Gəncə qalasının təslim olmasını tələb edir.

Cavad xan *(acıqlı)*. Bəli, tələb edir. Bu, rus padşahının istila siyasətinin davamıdır... Yekaterinanın əmri ilə general Zubov Qafqaza yeriyib, Dərbəndi mühasirə eləyəndə, mən sizə dedim ki, təcili surətdə qoşunlarımızı birləşdirib Dərbəndin köməyinə getməliyik, heç kəsdən səs çıxmadı. Zubov Dərbəndi alandan sonra bizim ağsaqqalımız İbrahim xan ona hörmətli elçilərlə qiymətli hədiyyələr göndərib rus padşahına ixlasını bəyan etdi. Budur, indi də Sisyanov... Ağalar, böyük türk sərkərdəsi Ağa Məhəmməd şah da rus padşahının Azərbaycanı istila etmək siyasətinin qarşısını almaq üçün Qarabağa, Tiflisə hücum etmişdi. İbrahim xanın çar generalı Zubovu o cür ixlası, hədiyyələrlə qarşılamağı, rus padşahına tabe olmağa hazır olduğunu bildirməsi Ağa Məhəmməd şahı əsəbiləşdirmişdi. Qarabağlıların onu öldürməyi böyük tarixi səhv idi. Ancaq, ağalar, biz öz səhvlərimiz barədə mübahisəyə başlasaq, uzun çəkər. Vaxt gözləmir. Mən yenə də sizə müraciət edirəm. Gəlin bir dəqiqə itirmədən, döyüş qüvvələrimizi birləşdirib, Sisyanova cavab verək. Mən sizi inandırıram ki, çarın istilaçı qoşununun dalı gəlib çıxana qədər biz Sisyanovu qovub Azərbaycan sərhədlərindən xeyli uzaqlaşdıra bilərik.

Ağır sükut.

İbrahim xan. Cavad xan mənə ağır ittihamlar verir. Ancaq, ağalar, gəlin ədalətlə danışaq, hər cürə silahı, böyük qoşunu olan iki böyük dövlətin arasındayıq. Ona görə, mən çalışırdım ki, biz bütün Azərbaycan xanlıqlarını birləşdirib, vahid, güclü bir dövlətə çevirək.

Mirmöhsün ağa. Əlahəzrət İbrahim xan düz buyurur, ağalar. Min dəfə təəssüf ki, heç bir xan dünya siyasətini nəzərə almadı. Öz məhdud hakimiyyətinə uyaraq, beş ildən, on ildən sonra onu nə gözləyə biləcəyi haqqında düşünmədi.

İbrahim xan. Ona görə də, indi biz bu iki dövlətdən birinə iltizam eləməliyik. Çox fikirləşəndən sonra mən bu qərara gəlmişəm ki, biz rus padşahıyla daha tez dil tapıb dost ola bilərik.

Cavad xan. Nəyə görə?

İbrahim xan. Ona görə ки, bütün Azərbaycan ölkəsinə sahib olmaq, onu İran dövləti ilə birləşdirmək İran şahlığının çoxdankı arzusudur. Bizim hər ikimiz müsəlman ölkəsiyik. Biz rus padşahından daha asan istiqlaliyyət ala bilərik.

Kəlbəli xan. İbrahim xan, İran şahının özü də türkdür. İran xalqının əksəriyyəti türkdür, türkcə danışır. Bizim adət-ənənələrimiz, dinimiz birdir. Elə güman edirəm ки, biz İranla, xüsusən Fətəli şahla daha tez dil taparıq.

Məhəmməd xan. Biz demək olar ки, bir torpaqda yaşayırıq. Rus padşahının paytaxtı ilə bizim aramızda üç min verstə qədər məsafə var. Dinimiz ayrı, dilimiz ayrı...

Cavad xan. Ağalar, əgər siz gələcək istiqlaliyyət haqqında düşünürsünüzsə, bu, xam xəyaldır. Gəlib torpağımızda kök salan, qalalarımızda hakim olan heç bir dövlət təzədən bizə istiqlaliyyət verməz. Ona görə də, nə rus padşahı, nə də İran şahı.

İbrahim xan *(ani dərin düşüncədən sonra)*. Cənab xanlar, siz uzaq yoldan gəlib yorulmusunuz. Buyurun, bir az istirahət eləyin, sonra söhbətimizi davam etdirərik.

Kəlbəli xan, Məhəmməd xan, Cavad xan və Mirmöhsün ağa gedirlər.

İbrahim xan *(tək)*. Heç kəs məni başa düşmür. Xalqımızın həqiqi azadlığı çətin tilsimə düşmüşdür. Azərbaycan xalqı qəvidir, igiddir. Lakin onun qılıncı nə qədər iti olsa da, iki divin pusqusunda dayandığı bu tilsimi qan tökməklə sındıra bilməz. Mən igidlərin qılıncını sülh siyasəti ilə əvəz etmək istəyirəm. Bizim nicat yolumuz budur. Ona görə də, gözümün işığı olan ağıllı qızımı İran şahına ərə verdim. Ona görə də, rus generalı Zubova qiymətli hədiyyələr göndərib, rus padşahına öz ixlasımı bəyan etdim. İndi eyni siyasəti general Sisyanovla da aparmaq istəyirəm. Nə üçün məni başa düşmürlər? Nə üçün?.. Nə üçün?..

İşıq sönür.

SƏKKİZİNCİ ŞƏKİL

İranda Fətəli şahın iqamətgahı. Ağabəyim ağanın otağı. Ağabəyim ağa həyəcanla səhnəyə daxil olaraq, pəncərənin pərdəsini qaldırıb bayıra baxır.

Yarın gecə vaxtında xoş əhvalını gördüm,
Vurmuşdu könül şişəsinə balını gördüm.
Naz eyləməyin hər cürə minvalını gördüm,
Açdım sinəsin, sinədəki xalını gördüm.
Yasər bu imiş, bəs, niyə aləm Həccə getdi,
Əfsus ки, yarım gecə gəldi, gecə getdi,
Heç bilmədim ömrüm necə gəldi, necə getdi.

Ağabəyim ağa *(pıçıltı ilə)*. Odur, Saday bəy... Bu nə deməkdir, ilahi, bu gecə mən o oğlanı yuxumda görmüşdüm... İndisə özünü barigahda görürəm... O nə üçün gəlmişdir? Ey böyük Allah, mənim onu yuxuda görməyimi ərimə xəyanət hesab etmə. Sənə əyandır ки, mən həmişə onun haqqında düşünməməyə çalışıram. Ərimlə aramızda heç bir gizli sirr qalmasın deyə, mən vaxtilə o oğlanı sevdiyimi şaha bəyan etdim. Şah alicənab insandır, gülümsəyib dedi ки: «Eybi yoxdur. Qız vaxtı belə hallar olar...» Ey böyük Allah. O oğlan barədə heç bir fikrin, heç bir hissin mənim qəlbimə yol tapmamasına kömək elə.

Saday bəy daxil olur və Ağabəyim ağanın qarşısında diz çökərək təzim edir.

Ağabəyim ağa. Qalx, Saday bəy. Mən bu gecə səni yuxumda görmüşdüm. İndi sarayda sağ-salamat gördüyümə çox şadam. Əyləş. Azərbaycandan, Qarabağdan həyəcanlı xəbərlər alırıq, Saday bəy... Deyir, çar generalı Sisyanov gəlib Azərbaycan sərhədinə çatıb...

Saday bəy. Sisyanov sərhədimizi keçib, Gəncə qalasının açarını və Cavad xanın rus çarına tabe olmasını tələb edir.

Ağabəyim ağa. Cavad xan nə cavab verir?

Saday bəy. Cavad xan Sisyanovun tələbini qəzəblə rədd edərək, onunla vuruşmaq üçün hökmdarımız İbrahim xandan kömək istədi...

Ağabəyim ağa *(səbrsiz halda)*. Nə cavab verdi xan atam?

Saday bəy *(soyuq tərzdə)*. İbrahim xan üstüörtülü bildirib ки, rus padşahına tabe olmaq lazımdır...

Ağabəyim ağa *(əsəbi halda)*. Ola bilməz! Daima bütün xanlıqları birləşdirib müstəqil Azərbaycan dövləti yaratmaq və bu işdə İran şahlığına arxalanmaq fikrilə hərəkət edən xan atam necə oldu ки, birdən-birə rus çarına tabe olmaq qərarına gəldi? Ola bilməz! Ola bilməz!

Saday bəy. Təəssüf ки, həqiqətən, belədir. Mənim bura gəlməkdə məqsədim sizin köməyinizlə Fətəli şah həzrətlərindən kömək istəməkdir. Biz Qaradağ atlıları da Cavad xanın köməyinə gedirik. Cavad xan nə qədər ağıllı, igid olsa da, ağır silahlı, top-tüfənglə silahlanmış, sayca çox olan çar qoşununun qabağını kəsə bilməz. Biz Cavad xanla birlikdə son nəfəsimizə qədər vuruşacağıq. Biz şimaldan gəlib, vətənimizə, torpağımıza hakim olmaq istəyən rus çarına kölə ola bilmərik.

Ağabəyim ağa. Saday bəy, biz mənim xan atamın iradəsilə canımızdan əziz olan məhəbbətimizi vətənimizin azadlığına, onun arxasız, tək qalmamasına qurban vermişik. Fətəli şah həzrətləri bunu bilir. Mən hər şeyi ona danışmışam. Fətəli şah namərd hökm-

dar deyil. O, Azərbaycana kömək edəcəkdir. O, bunu mənə vəd etmişdir.

Saday bəy. Bu kömək böyük İran dövlətinin özünə də çox vacibdir.

Ağabəyim ağa. Fətəli şah bunu da bilir. Fətəli şah rus çarının şimaldan gəlib İranın qapıbir, dinbir qonşusu olan Azərbaycana hakim olmasına yol verməz.

Əbülfət xan həyəcanlı halda gəlir.

Əbülfət xan *(Saday bəyi görərək)*. O... Saday bəy, səni gördüyümə çox şadam. *(Ağabəyim ağaya)*. Bu saat Azərbaycandan mənim yanıma təcili qasid gəlib xəbər verdi ki, çar generalı Sisyanov Gəncə qalasını mühasirəyə alıb, Cavad xandan açarı tələb edir.

Ağabəyim ağa *(qızğın)*. Və bizim hökmdar atamız İbrahim xan Cavad xana kömək etmək istəmir.

Saday bəy. Bəli, istəmir. O biri xanlar da, yəqin ki, əlahəzrət hökmdarımıza baxdılar... *(Ağabəyimə)*. Ağabəyim ağa, icazənizlə mən getdim. Atlılarım məni gözləyirlər. Gəldim hər şeyi olduğu kimi sizə çatdırım. Biz bilirik ki, sizin fikriniz şah həzrətləri üçün qiymətlidir. *(Təzim edərək çıxır)*.

Ağabəyim ağa. Əbülfət xan, qardaşım, xan atamız çox böyük, tarixi səhv edir. Azərbaycanı rus çarının hakimiyyətinə vermək... bu dəhşətdir, qardaşım, gələcək nəsillər bizi lənətləyəcəklər.

Əbülfət ağa. Buna görə mən təcili sənin yanına gəlmişəm. Şah həzrətləri ilə tez danışmaq lazımdır. Bir dəqiqə gecikmədən şah Azərbaycana kömək üçün qoşun göndərməlidir.

Ağabəyim ağa. Sən də mənimlə gedək şahın hüzuruna. *(Gedirlər)*.

İşıq sönür.

DOQQUZUNCU ŞƏKİL

İbrahim xanın iqamətgahı. Vanya daxil olur.

İbrahim xan. Nə xəbərlə gəlmisən, Vanya yüzbaşı?

Vanya. Gecə-gündüz əlahəzrətin kölgəsində dolanıb, onun böyük səltənətinə xidmət eləmək səadətini Allah Vanya yüzbaşıya çox görməsin. Siz və sizin qəhrəman atanız Pənah xan, Qarabağın Domu, Tuğ, Hadrut, Xankəndi, Daşaltı kimi səfalı yerlərində biz erməni gəlmələrinin yerləşib, ev-eşik tikib, kəndlər salmağımıza kömək eləmisiniz.

İbrahim xan *(səbirsiz halda)*. Yaxşı, Vanya yüzbaşı, sən bu sözləri mənə çox ərz eləmisən. Sonra?

Vanya. Əlahəzrət! İnsan gərək yaxşılığı unutmasın. Əlahəzrətə məlumdur ki, mənim gətirdiyim xəbərlər Allahın köməkliyilə həmişə düz çıxıb.

İbrahim xan. Hələ ki, düz çıxıb.

Vanya. Mərhəmətli hökmdarımıza məlum olsun ki, Fətəli şahın xeyli böyük qoşun dəstəsi gecələrin bərk qaranlıq keçməsindən istifadə edərək, Naxçıvan və İrəvan xanlıqları sərhədlərinə tərəf hərəkət etməkdədir.

İbrahim xan. Sonra?

Vanya. Sonrasını deməyə cəsarət etmirəm, əlahəzrət...

İbrahim xan *(qalxaraq, qəzəbli halda)*. Qorxma, söylə.

Vanya. Sizin oğlunuz Əbülfət xanın başçılığı ilə beş min nəfərlik şah qoşunu da Qarabağın Tuğ kəndinə tərəf yeriyir.

İbrahim xan. Hardan bildin ki, o qoşunun başçısı mənim oğlum Əbülfət xandır?

Vanya. Əlahəzrət, mənim xəbərçilərim çox bic dığalardır. Özləri də əlahəzrətin övladlarını yaxşı tanıyırlar... Onlar Tuğ, Kirs meşələrilə sürünə-sürünə, ağacdan-ağaca dırmaşa-dırmaşa qoşunun qərargahına xeyli yaxınlaşıb Əbülfət xanı aydın görüb tanıyıblar. Bizim Karapet keşişin oğlu...

İbrahim xan *(əsəbi halda)*. Nə deyir keşişin oğlu Ərtün?

Vanya. Deyir, mənim ağlımca Əbülfət xanın qoşunu Qarabulağı keçib Şuşa və Gəncə qalalarına tərəf gedəcək.

İbrahim xan. Səncə, İran qoşununun Quzey Azərbaycana bu cür yeridilməsindən Fətəli şahın məqsədi nə ola bilər?

Vanya. Əlahəzrət, siz biz erməni xalqına o qədər böyük iltifat göstərmisiniz ki, gərək sizin sadiq qulunuz Vanya yüzbaşı görüb hiss elədiklərini, ağlının dərk elədiyini olduğu kimi sizə ərz eləsin. Cənabınıza məlumdur ki, Fətəli şah əslən türk olsa da, Ağa Məhəmməd şah zamanında olduğu kimi, onun da bütün dövlət işləri farsca gedir. Özü farsca danışır. Demək, şah özü, bir növ, farslaşmışdır. O da əlahəzrətə məlumdur ki, farsların qədim dövrdən bəri türklərlə araları yoxdur. Onlar türkləri öz mədəniyyətlərindən xeyli aşağı hesab edirlər.

İbrahim xan *(qəzəbli halda)*. Onlar bunu açıq etiraf eləməyə cəsarət eləməzlər.

Vanya. Əlbəttə ki, əlahəzrət, açıq etiraf eləməzlər. Ancaq əlaltından işlərini görürlər. Şah da tamamilə fars təsirində olduğu üçün, istəyir ki, həm Güney Azərbaycanı, həm də Quzey Azərbaycanı istila eləyib, tamam İran «şiri-xurşidinə» tabe eləsin. Əlahəzrət, İranda farslar türklərdən az olsalar da, hökumətin siyasətinə təsirləri güclüdür. Ərz elədiyim kimi, dilləri İranda hakim dövlət dilidir. Bu isə çox mühüm məsələdir.

İbrahim xan *(öz-özü ilə danışırmış kimi)*. Bəs, şahın bütün dövlət işlərində iştirak eləyən ağıllı qızım Ağabəyim, qəhrəman oğlum Əbülfət nə düşünür? Məgər onlar bilmirlərmi, mənim yeganə arzum bütün xanlıqları birləşdirib müstəqil Azərbaycan dövləti yaratmaqdır? *(Qəzəblə.)* Necə olub ki, Fətəli şah məhz mənim oğlumun komandası ilə Quzey Azərbaycana beş min qoşun göndərir? Doğrudanmı, istila məqsədilə?

Vanya. Yəqin, əlahəzrətə məlumdur ki, Fətəli şah da Nadir şah kimi, Ağa Məhəmməd şah kimi tamam fars təsirində olduqları üçün heç vaxt razı olmazlar ki, Azərbaycan İrandan tamam ayrılıb, müstəqil bir dövlət olsun... Əlahəzrət, qulluğunuza ərz edim ki, mən bu barədə düşünərkən, həm də bizim erməni xalqının taleyini nəzərdə tuturam. Yenə də təkrar edirəm ki, siz bizim yazıq ermənilərin İranda, Qarabağda yerləşib, özlərinə güzəran düzəldib yaşamalarına imkan yaratmısınız... Əgər, Allah eləməmiş, bütün Azərbaycan İran şahının əlinə keçsə, onlar buna razı olmazlar.

İbrahim xan *(öz-özünə)*. Bu xristian haqlıdır. Fətəli şah Quzey və Güney Azərbaycanın birləşib, onun qulağının dibində müstəqil bir dövlət olmasına dözməz. *(Pauza. Vanyaya)*. Sən bu gün təğyiri-libas olub, xəlvətcə Əbülfət xanın qərargahına gedib, ona deyərsən ki, mən təcili onu görmək istəyirəm.

Vanya *(bərk qorxaraq)*. Mənim çox zirək, yol-yolağa bilən xəbərçi dığalarım var. Əlahəzrətin icazəsilə onlardan lap bacarıqlısını bu saat göndərərəm.

İbrahim xan. Bu görüşü heç kəs bilməməlidir. Özün getməlisən. Əbülfət xana deyərsən ki, mənimlə məxfi görüşməlidir. Tərpən.

Vanya *(bərk qorxaraq)*. Əlahəzrət, Əbülfət ağanın qərargahına çatana qədər qoşun əhli məni tanıyıb tuta bilər.

İbrahim xan. Elə et ki, tanıya bilməsinlər. Farsca da, azərbaycanca da təmiz danışırsan.

Vanya *(bərk qorxaraq)*. Əlahəzrət, ədəbsizlik eləyirəm, o qızılbaş hərbiyyəlilər çox amansız olurlar. Məndən şübhələnib, soyundurub görsələr ki, müsəlman deyiləm...

İbrahim xan. Elə et ki, şübhələnməsinlər.

Vanya *(dili topuq vura-vura)*. Əlahəzrət...

İbrahim xan. Qurtardıq... Gedə bilərsən.

İşıq sönür.

ONUNCU ŞƏKİL

İbrahim xanın iqamətgahı. Mirmöhsün ağa ilə Cavad xan səhnəyə daxil olurlar.

İbrahim xan. Getdikcə çox mürəkkəb vəziyyət yaranır. Biz Ağa Məhəmməd şahın törətdiyi dəhşətlərdən sonra yenə fəlakətlərə düçar ola bilərik. Aldığım məlumata görə, Qızılbaş qoşunu Naxçıvan, İrəvan və Qarabağ sərhədlərinə doğru irəliləməkdədir. *(Gizli əsəbilikllə)*. Cavad xan, hal-hazırdakı vəziyyətdən çıxmaq üçün sən nə təklif edərdin?

Cavad xan. Əgər siz və eləcə də Şəki, Şirvan xanları – hər bir xanlıqdan mənə iki min nəfər atlı versəniz, ha eləyib Sisyanova əlavə kömək gəlib çatınca, mən onu ölkədən qovub çıxarardım.

İbrahim xan. Sərhədimizə çatan Qızılbaş qoşunu ilə neylərsən?

Cavad xan. Bu, sonrakı məsələdir. Mən elə zənn edirəm ki, sənin kürəkənin Fətəli şahla biz vətənimizin xeyrinə dil tapa bilərik. Mən qızınız əlahəzrət Ağabəyim ağanın ağlına inanıram. O bizə kömək edər.

Mirmöhsün ağa. Mən şimalda yaşayan rus milləti haqqında fəna bir söz deyə bilmərəm. Çünki bütün millətləri bir olan Allah yaradıb. Lakin rus padşahının Qafqaza və eləcə də, Azərbaycana ağır toplarla, yeni əsləhə ilə silahlanmış qoşun yeritməsi ciddi şübhə doğurur. Mən əlahəzrət hökmdarımız İbrahim xanın icazəsi ilə bu şübhəmi bəyan etməyi özümə borc bilirəm. Əgər rus generallarının bu yürüşü sülh naminədisə, nə üçün Zubov da, Sisyanov da, birinci növbədə, bizim ata-babalarımızın tikdirdikləri qalaların açarlarını tələb eləyib, orada öz qoşunlarını yerləşdirmək istəyirlər? Nə üçün bütün xanların rus generallarına tabe olmağını istəyirlər? Ağır silahlarla, güclü qoşunla gəlib bizim qalalarımızda yerləşəndən sonra, çar generallarının hökmranlıq eləmələrinin bizi nə vəziyyətə salacağını təsəvvür eləyin. Allah-təala hər cürə köləliyin əleyhinədir, əlahəzrət İbrahim xan. Siz xalq qarşısında, gələcək nəsillər qarşısında məsulsunuz. Onu da bilin ki, bizim behişt kimi gözəl vətənimizə, onun məhsuldar torpağına, bitməz-tükənməz sərvətlərinə silahla sahib olan hər hansı hökmdar ondan daha əl çəkməz. Gələcək nəsillər bu ağaların zülmünü, sitəmini gördükcə, onları vətənə buraxan bizlərə lənətlər oxuyar...

İbrahim xan. Mən rus padşahlığının himayəsi haqqında danışarkən, Azərbaycanın öz istiqlaliyyətindən əl çəkib, sözsüz ona tabe olmaq fikrindən çox uzağam. Mən, birinci növbədə, rus çarına bildirməliyəm ki, «biz onunla ancaq bərabər hüquqda səmimi dost ola bilərik».

Cavad xan *(əsəbi)*. İbrahim xan, rus generalları Azərbaycanı işğal eləyəndən sonra rus padşahı səninlə dostluq mükaliməsinə girməz.

İbrahim xan. Mən günü sabahdan bu barədə təşəbbüsə başlayacağam. Mən o vaxt general Zubovla da bu dostluq barədə danışmışdım. O mənim fikrimi təkzib etmişdi...

Cavad xan. İbrahim xan, axırıncı dəfə təklif edirəm: təcili surətdə hazır atlılarımızı birləşdirib, Sisyanovu qovmaq üçün, lazım gəlsə, sərhədimizdə olan Fətəli şah qoşunları ilə də birləşmək lazımdır.

İbrahim xan. Mən general Sisyanovla görüşüb danışmamış heç bir qərara gələ bilmərəm.

Cavad xan *(əsəbi halda qalxaraq)*. İbrahim xan, mən görürəm ki, məsələnin nə qədər ciddi olduğu nə sizi, nə də sizin nüfuzunuza hörmət eləyən möhtərəm xanları mənim qədər narahat eləmir. Ona görə də mən gedirəm və sizi xəbərdar edirəm ki, mən son nəfəsimə qədər rus padşahının qoşunu ilə vuruşacağam. Mən Mirmöhsün ağanın dediyi gələcək nəsillərin əbədi lənətinə məruz qalmaq istəmirəm. Mən türk namusunu, Azərbaycan torpağını axırıncı gülləmə qədər müdafiə edəcəyəm. *(Sürətlə çıxır)*.

İşıq sönür.

ON BİRİNCİ ŞƏKİL

İbrahim xanın iqamətgahı. On səkkizinci əsrin hərbi paltarında olan gənc Hüseynqulu xan iti addımlarla daxil olur.

Hüseynqulu xan *(qonşu verandaya)*. Səltənət bəyim.

Səltənət bəyim *(yüyürərək, sevincli halda gəlir)*. Ah, ilahi! Kaş mənim bütün arzularım belə çin olaydı. Daşaltıdan qırxpillə-kənlə Cıdır düzünə qalxırdıq. Mən kənizlərimə deyirdim: «Qızlar, nə olardı, gedib görəydik Hüseynqulu xan gəlib...» *(Hüseynqulu xanın geyiminə diqqət yetirərək)*. Bu nədir, məgər müharibəyə gedirsən?

Hüseynqulu xan *(ötkəm gənclik sevinc və qüruru ilə)*. Gedəcəm. General Sisyanov atam Cavad xana ultimatum göndərib ki, qalanı ona təhvil verib, rus padşahına tabe olaq. Biz də müharibə eləyib, ona öz həddini bildirəcəyik.

Səltənət bəyim. Allah sizə kömək olsun, mənim cavan xanım. Yəqin ki, xan atam da, ona tabe olan xanlıqlar da sizə kömək eləyəcək?..

Hüseynqulu xan. Yox. Kömək eləməyəcəklər. Atam onlara müraciət elədi. Amma heç birindən səs çıxmadı. Biz tək vuruşacağıq. Sisyanovun qoşunu Gəncə qalasına gedən yolları tutub. Mən dağlarla, meşələrlə səninlə görüşməyə gəldim. Fikir elədim ki, müharibədi, birdən vurarlar, səni görmərəm.

Səltənət bəyim. Oy, Allah eləməsin. Sənə gələn qada mənə gəlsin. Mənim nişanlım. Mənim igid xanım. Mən sənin hicranına bir dəqiqə də dözmərəm. Bir ucu Təbriz, bir ucu Dərbənd, neçə xanlıq atamın bir sözü ilə nə qədər qoşun çıxara bilər... Doğrudanmı, xan atam bu dar gündə Cavad xana kömək etmək istəmir?

Hüseynqulu xan. İbrahim xan rus padşahına tabe olmaq istəyir. Onun ürəyi rus padşahı ilədir.

Səltənət bəyim. Nə üçün? Axı rus padşahı neçə min verst bizdən uzaqda – buzlar ölkəsindədir. Biz heç rusu nə görmüşük, nə də tanıyırıq. Axı nə üçün onlar şimaldan gəlib bizə ağalıq eləməlidirlər?

Hüseynqulu xan. Biz heç kəsə qul olmayacayıq, Səltənət bəyim. Biz son nəfəsimizə qədər vuruşacayıq. Türk xalqı heç bir zaman heç bir yadelli padşaha qul olmayıb.

Səltənət bəyim. Bəs nə üçün mənim hökmdar atam bizim gözəl vətənimizin rus padşahına tabe olmağını istəyir? Yox. Mən buna inanmaram. O, Ağa Məhəmməd şaha tabe olmaq istəmədiyi halda, indi rus padşahına tabe olmaq istəyir? Ola bilməz.

Hüseynqulu xan. Artıq bu barədə düşünmək gecdir, Səltənət bəyim. Salamat qal. Mən düşmənlə vuruşduqca, sən daima gözümün qabağında olacaqsan.

Səltənət bəyim. Yox. Mən sənin yanında olmaq istəyirəm. Mən də səninlə birlikdə düşmənlə vuruşmaq istəyirəm. Sən məni də özünlə apar. Özün bilirsən ki, nişana atmaqda heç bir igiddən geri qalmıram. Mən də gedirəm.

Hüseynqulu xan *(gülümsəyir)*. Bu, mümkün deyil.

Səltənət bəyim. Sənin mənə bağışladığın qumral ürgəni minib kənizlərimlə birbaşa Gəncə qalasına çapacam. Qarabağdan Gəncəyə gedən dağ yollarına mən də bələdəm. Xan atam o yerlərdə ov eləyəndə, mən də onun izdihamında olardım. Mənim kənizlərim də çox igid bəy qızlarıdır. Mütləq gələcəyik.

Hüseynqulu xan *(gülümsəyir)*. Sənin qəhrəman təbiətin məni düşmənlə vuruşa tələsdirir. Hələlik, mənim nişanlım. Xan atalarımız bizi, hələlik, rəsmi nişanlamasalar da...

Səltənət bəyim. Biz özümüzü nişanlamışıq. Qoy böyük yaradan bu günahsız nişanı uğurlu eləsin.

Hüseynqulu xan. Mən bilirəm ki, sən bir sözü dedin, eləyəcəksən. Amma bizim davaya gəlmək istədiyini qoy zarafat hesab eləyək.

Səltənət bəyim. Yox... gələcəm.

Hüseynqulu xan. Sən mənim canım, heylə şey eləmə.

Səltənət bəyim. Oy, canına qurban kəsilim. Mənim igid nişanlım!

Hüseynqulu xan Səltənət bəyimə təzim edərək iti addımlarla gedir.

İşıq sönür.

ON İKİNCİ ŞƏKİL

İbrahim xan öz otağında təkdir, hiss olunur ki, fikri uzaqlardadır. Səltənət bəyim daxil olub, atasının qarşısında diz çökərək, əlindən öpür.

Səltənət bəyim. Dedilər, məni soruşmusan. Biz Cıdır düzündə oğlanlarla qaçmaqda ötüşürdük.

İbrahim xan. Oğlanlarla?

Səltənət bəyim. Bəli. Oğlanlarla ötüşməyə özün icazə vermisən...

İbrahim xan. Elədir.

Səltənət bəyim. Sabahdan oğlanlarla nişana atmaq yarışı da keçirəcəyik.

İbrahim xan *(gülümsəyir)*. Ohoo... Yoxsa siz düşmənlə vuruşmağa hazırlaşırsınız...

Səltənət bəyim. Nə olsun ki, hazırlaşırıq... Deyirlər ki, sən zəhləm gedən çar qoşunlarının Azərbaycana, Qarabağa... hətta basılmaz Şuşa qalasına daxil olmasına icazə vermisən?

İbrahim xan *(ciddi)*. Bilirsən, qızım, sənin siyasətlə məşğul olmaq vaxtına hələ çox var. Səni dövlət sirlərini müzakirə üçün çağırmamışam. Deyirlər, sən Cavad xanın oğlu Hüseynqulu xana qədərindən artıq hüsnü-təvəzzöh göstərirsən, elədirmi?

Səltənət bəyim *(ötkəm)*. Bəli... elədir.

İbrahim xan. Afərin. Sənin mərdanə cavabın həmişə mənə xoş gəlir. Bilirəm, sizin dostluğunuz o oğlanla dərs aldığınız zamandan başlayıb.

Səltənət bəyim. Elədir, bəli...

İbrahim xan. İndi istəyirəm biləsən ki, sizin münasibətiniz, sadəcə, bu dostluqdan o yana gedə bilməz.

Səltənət bəyim. Mən bunu necə başa düşüm, ata?

İbrahim xan. Yəni, biz Cavad xanla qohum ola bilmərik.

Səltənət bəyim. Nə üçün, ata?

İbrahim xan. İcazə ver, «nə üçünlüyünü» mən özüm bilim.

Səltənət bəyim *(həyəcanla)*. Ata, Cavad xanın igidliyi, vətənpərvərliyi dillərdə deyilir. Onun general Sisyanova verdiyi cavab hamını, biz Qarabağ camaatını da heyran etmişdir.

İbrahim xan *(qəzəblə)*. Bəsdir. Sən onun oğlu ilə izdivac etməyəcəksən! Qurtardıq! Gedə bilərsən!

Səltənət bəyim çıxır. İbrahim xan tək qalır.

İşıq sönür.

ON ÜÇÜNCÜ ŞƏKİL

General Sisyanovun qərargahı. General böyük çadırda var-gəl edir. Mayor Lisaneviç daxil olaraq hərbi təzim edir.

Lisaneviç. Bizim kəşfiyyatçılar bir nəfər erməni tutublar. Onun verdiyi məlumata görə, İbrahim xan Cavad xana kömək göstərməkdən imtina eləyib.

Sisyanov. Nə səbəbə?

Lisaneviç. Səbəbini bilmir.

Sisyanov. Belə çıxır ki, İbrahim xanın rus padşahına tabe olmaq arzusu həqiqətə uyğundur?

Lisaneviç. Belə görünür. İbrahim xan bu arzusunu general Zubova da bəyan etmişdi.

Sisyanov. Çağır o ermənini bura.

Lisaneviç çıxır. General papiros yandırır. Lisaneviç iki əsgərlə Vanyanı gətirir.

Sisyanov *(Vanyaya)*. Sən Qarabağdan niyə qaçmısan?

Vanya. Mən əlahəzrət rus padşahına xidmət eləmək istəyirəm.

Sisyanov. Nə üçün?

Vanya. Əlahəzrət, ona görə ki, rus padşahı ilə dinimiz, məzhəbimiz birdir. Türklər isə bizim düşmənimizdir.

Sisyanov. Nə üçün? Türklər sizin Qarabağda, İrəvanda yerləşib kəndlər-obalar salmağınıza imkan veriblər. Sizə toxunmurlar.

Vanya. Əlahəzrət...

Sisyanov. De görüm, bizim qərargaha səni kim göndərib?

Vanya *(qorxmuş halda)*. Mənim bura gəlməkdə yeganə məqsədim əlahəzrət rus padşahına qulluq eləməkdir. Axı əlahəzrətin ordusunda erməni millətindən də vəzifəli şəxslər olub.

Sisyanov *(Lisaneviçə)*. Qoy bu qoçağa həqiqəti dedirtsinlər.

Vanya *(bərk qorxaraq dalbadal xaç çevirir)*. Astvas du bahi, astvas du bahi. *(Əsgərlər onu döyürlər)*. Əlahəzrət, mən gəlmişəm sizin Gəncə qalasını almağınıza bələdçilik eləyəm. Mən Qalaya gedən bütün gizli yolları bilirəm.

Sisyanov *(gülümsəyir)*. A... yoxsa sən məlik olmaq istəyirsən?

Vanya. Mən əlahəzrət generalın bu mərhəmətinə ona edəcəyim xidmətimlə nail olmaq istəyirəm. Qoy gələcək erməni məlikləri bilsinlər ki, bu şərəfli adı onların babasına mərhəmətli rus generalı verib.

Sisyanov. Oho... Sən tarixə düşmək istəyirsən...

Vanya. Əlahəzrət, tarix barədə bizimki heç vaxt gətirməyib. Biz tarixə həmişə məyus halda düşmüşük.

Sisyanov. Təqsir özünüzdədir. Ayağınızı yorğanınıza görə uzatmırsınız. Siz Armeniya ideyası üçün ağlasığmaz dərəcədə böyük coğrafi sahə nəzərdə tutursunuz. Siz Böyük Don Kixotdan ağıl götürsəydiniz, yaxşı olardı. Bizdə məlumat var ki, sən İbrahim xana xidmət edirsən. Nə oldu ki, qaçdın?

Vanya. Əlahəzrət, məlumatınız doğrudur. Ancaq mən ermənilərin bir lideri kimi çalışıram Fətəli şahla İbrahim xanın arası dəysin, yəni İbrahim xan Fətəli şaha inanmasın, düşmən olsun ona.

Sisyanov. Nə üçün? Bu, ermənilərə nə xeyir verə bilər?

Vanya. Əlahəzrət, ərz elədim ki, türklər bizim ənənəvi düşmənimizdir. Fətəli xan da türkdür. Əgər o, İbrahim xanın Xəzər dənizi sahilində, Təbrizdən tutmuş Gürcüstana qədər olan böyük bir ərazidə Azərbaycan dövləti yaratmasına kömək eləsə, Qafqaz ermənilərini tamam məhv olarlar. Bir tərəfdən Osmanlı türklərinin, o biri tərəfdən də Qafqaz türklərinin hakimiyyəti... Biz istəyirik ki, rus padşahı Fətəli şahla İbrahim xanın arasındakı düşmənçilikdən istifadə eləyib, Qafqazı istila eləsin.

Sisyanov. Və siz ermənilərin İranda erməni dövləti yaratmağına kömək göstərsin. Eləmi?

Vanya. Bəli... Bəli. Əlahəzrət, bəli.

Sisyanov *(əsgərlərə)*. Aparın bu qonağı yedirdin-içirdin. *(Vanyaya)*. Əgər sənin bələdçiliyin dürüst olmazsa...

Vanya. Astvas du bahi. O zaman boynum sizin şöhrətli qılıncınız altındadır, əlahəzrət. Ancaq sizə bir məsləhətim var.

Sisyanov. Nə məsləhətdir o?

Vanya. Bu gün müsəlmanların orucluq bayramıdır. Axşam molla minarədən azan verən kimi, bütün müsəlmanlar süfrə başında əyləşib cürbəcür yeməklərlə oruclarını açacaqlar. Sizin üçün bu, çox əlverişli hücum məqamı olar.

Sisyanov. Molla saat neçədə oxuyacaq?

Vanya. Axşam saat yeddidə, əlahəzrət.

Sisyanov. Yaxşı. *(Əsgərlərlə Vanya çıxırlar. Mayor Lisaneviçə)*. Tapşır bu hərifin heç bir hərəkətini gözdən qoymasınlar. Demək, Qalaya qəti hücum üçün hər şey hazırdır?

Mayor. Tamamilə, əlahəzrət.

Sisyanov. Cavad xan Azərbaycan xanlarının ən barışmazı, imperator hökumətinin ən amansız düşmənidir. Deyirlər, özü də çox igiddir, cəsarətli adamdır. Bu vuruşda biz onu məğlub etsək, başqa xanların gözünün odunu almış olarıq. Bütün yaxın-uzaq Şərqə yol açmaq üçün Dağıstanı, Azərbaycanı, Gürcüstanı, bir dəqiqə də vaxt itirmədən istila eləyib, rus padşahına tabe etmək lazımdır. Cavad xandan sonra yolumuz birbaşa Bakıyadır. *(Saatına baxır)*. Müsəlmanların oruclarını açmalarına az qalır. Qoy döyüş şeypuru çalınsın.

Mayor Lisaneviç sürətlə çıxır. Döyüş şeypuru guruldayır. Səhnə arxasından zabitlərin komanda səsləri eşidilir.

İşıq sönür.

ON DÖRDÜNCÜ ŞƏKİL

Səhnə od-alov saçan döyüş cəbhəsinə çevrilir. İşıq gah vuruş meydanında qəzəblə atışan cavan Hüseynqulu xanı, gah düşmən cəbhəsində topun arxasında dayanmış Sisyanovu, gah da gizli yolla rus əsgərlərinə bələdçilik eləyən Vanyanı işıqlandırır.

Səltənət bəyim Hüseynqulu xanı axtarır.

Səltənət bəyim. Hüseynqulu xan... Hüseynqulu xan...

Hüseynqulu xan səhnə arxasından daxil olur.

Hüseynqulu xan. Səltənət bəyim. Axı mən səndən xahiş etmişdim ki, gəlməyəsən.

Səltənət bəyim. Mən gəlməyə bilməzdim. Biz bir bölük Qarabağ cavanları sizin köməyinizə gəlmişik. *(Səhnənin arxasına işarə ilə)*. Odur, yoldaşlarımız da qalaya doğru çapırlar. Ah, dəhşətdir. Hüseynqulu xan, fikirləşirəm ki, əgər şimal generalları vətənimizi işğal eləsələr, biz buna necə dözəcəyik?

Hüseynqulu xan. Onu atan əlahəzrət İbrahim xandan soruşmaq lazımdır. Atam Cavad xan İbrahim xandan kəskin rədd cavabı alandan sonra özü xalqa müraciət etdi. Bütün gənclər atamın çağırışı ilə gəlib son damla qanlarına qədər düşmənlə vuruşacaqlarına and içdilər. Rus padşahının generalı arvad-uşaqlarımızı əsgərlərinə qırdırır. Minarədən azan çağıran mollamızı top atəşinə tutdurur. Qardaşlar, əgər qonşu xanlar bizə kömək üçün arxadan qoşun göndərsəydilər, biz bu cəlladların öhdəsindən gələ bilərdik. Sən burda qal. Qardaşlar, mən Hüseynqulu xan atam Cavad xanla, sizinlə birlikdə son damla qanımıza qədər vuruşacayıq.

Səltənət bəyim. Hüseynqulu xan, mənim cavan nişanlım, mən də sənin son nəfəsimə qədər vuruşacağam.

Atəş yenə dəhşətlə guruldayır. Hüseynqulu xana güllə dəyir. Səltənət bəyim ona tərəf atılır. Ona da güllə dəyir. Bir an başını qaldırıb nə isə demək istəyir və yenidən ona güllə dəyir. Tüstü içində hər şey görünməz olur.

İşıq sönür.

ON BEŞİNCİ ŞƏKİL

İbrahim xanın iqamətgahı. Hiss olunur ki, İbrahim xan həyəcan içindədir. Tubu xanım dərin kədər içində əllərilə üzünü qapamışdır.

İbrahim xan *(qəzəblə)*. Təqsir Cavad xanın özündə oldu. Mən dəfələrlə ona dedim ki, rus padşahına tabe olmaq lazımdır. Biz onun top-tüfənglə mükəmməl silahlanmış böyük qoşununa cavab verə bilmərik. Mənim qızım Səltənət bəyim də onun səhvinin qurbanı oldu.

Tubu xanım *(əllərini üzündən götürərək qışqırır)*. Yox, mənim qızım bütün o igidlərlə birlikdə sənin qurbanın oldu. Cavad xan əsil türk oğlu idi. O, min verstlərlə uzaqdan qoşun çəkib arvad-uşağımızı qırmağa – namusumuzu hərrac eləməyə, torpağımıza sahib olmağa gələn çar cəlladlarına təslim ola bilməzdi.

İbrahim xan. Xanlar mənim şah olacağımdan qorxurdular... Mən dəfələrlə onları inandırmağa çalışırdım ki, mən şah olmaq fikrindən uzağam. Mən Azərbaycanın müstəqil, azad dövlət olmasını istəyirəm.

Tubu xanım. Allah-təala haqqın tərəfdarı olduğu üçün, Qurani-şərif bizi haqqa, ədalətə çağırdığı üçün, mən də həqiqəti sənə deməyə borcluyam. Cavad xan da, bizim qızımız da, Gəncə qalasındakı şəhidlər də siz xanların arasındakı təfriqəçiliyin qurbanı oldular.

İbrahim xan. Mən Cavad xana dedim ki, səbir eləsin, mən əvvəlcə Sisyanovla görüşmək istəyirəm...

İşıq sönür.

ON ALTINCI ŞƏKİL

Vanya yüzbaşının evinin yaşıl tənəklər arasında görünən eyvanı. Vanya libasını dəyişib, özünü azərbaycanlı kəndli şəklinə salıb. Güzgü qabağında dayanaraq, üzünə qoyduğu uzun saqqalı düzəldir. Arvadı Haykanuş daxil olur.

Vanya *(gözünü güzgüdən çəkməyərək)*. Ətrafda bir səs-səmir eşidilmir ki?

Haykanuş. Gecənin yarısıdır, hamı yuxudadır...

Vanya. Adam qaraltısı-zadı görünmür ki?

Haykanuş. Elə qaranlıqdır ki, göz-gözü görməz... Niyə demirsən ki, yenə hansı cəhənnəmə hazırlaşırsan?

Vanya. Haykanuş, sənə demişəm ki, Vanya yüzbaşı neyləyirsə, erməni xalqının gələcəyi üçün eləyir.

Haykanuş. Gah ruslara işləyirsən, gah türklərə, gah iranlılara. Bir gün də keçəcəksən türklərin cənginə, boğazını üzüb tullayacaqlar, kim bilir, hansı dərəyə. Axı türklər bizə neyləyir? Oturmuşuq arxayınca ev-eşiyimizdə... Heç kəs bizə gözün üstə qaşın var demir. İbrahim xan səni yüzbaşı elədi...

Vanya. Haykanuş, bilirəm xankəndli Hacı Mehdinin oğlu Xasaya aşiq olduğun üçün həmişə türklərin tərəfini saxlayırsan... Karapet keşiş olmasaydı, gedəcəydin ona ərə... Onlar da səni döndərib eləyəcəydi müsəlman...

Haykanuş *(acıqla)*. Lap yaxşı eləyərdim... Karapet keşişi Allah öldürsün.

Vanya. Mayor Lisaneviçin səndən yaman xoşu gəlir. Deyir, Vanya tvaya jena oçen vkusnaya... Mən də dedim «peşkəşdir sizə».

Haykanuş. Neynirəm onu, ağrım ürəyinə, donuza oxşayır.

Vanya *(gülür)*. Haykanuş, donuz ətinin kababını məndən çox yeyirsən, amma özünü pisləyirsən?

Haykanuş *(nazlana-nazlana)*. General olsaydı, başqa məsələ.

Vanya. Haykanuş, pillə-pillə də... Əvvəl mayor, sonra general. *(Gülür)*.

Haykanuş. Kül başına, yaman da kişisən...

Vanya. Haykanuş, siyasət lazımdır, ruslar bizim dinbir köməyimizdir.

Haykanuş. Kim olurlarsa-olsunlar... Mənim o donuzsifət mayordan zəhləm gedir.

Vanya. Görürəm... İndi də Xasayı görəndə özünü itirirsən. Heç vəchlə səni başa sala bilmirəm ki, türklər bizim dədə-baba düşmənimizdir. Onu bil ki, mənim – banazurlu Vanyanın bu gün erməni xalqı barədə elədiyim işlər üçün iki yüz il bundan sonra gələn balalarımız dua eləyəcəklər. *(Saata baxır)*. Yaxşı, Haykanuş, vaxt keçir, mən gedirəm.

Haykanuş *(acıqlı)*. Hara?

Vanya. Tuğa, Əbülfət xanın hüzuruna. Soruşan olsa, deyərsən, «gedib Qəcər kəndinə...». Di salamat qal. *(Gedir.)*

İşıq sönür.

ON YEDDİNCİ ŞƏKİL

Əbülfət xanın qərargahı. Əbülfət xan çadırdadır. Yavər daxil olur.

Yavər. Bir kəndli gəlib, deyir xan üçün vacib xəbər gətirmişəm.

Əbülfət xan. Qoy gəlsin.

Yavər çıxır, Vanya daxil olur. Əbülfət xan ona diqqət yetirir.

Əbülfət xan. Vanya yüzbaşı, nəyə gəlmisən?

Vanya. Böyük hökmdarımız əlahəzrət İbrahim xanın buyuruğu ilə gəlmişəm. Xan həzrətləri sizi təcili görmək istəyir.

Əbülfət xan. Nəyə görə?

Vanya. Xan həzrətləri, siz bir tikə vaxtınızdan mənim gözümün qabağında böyümüsünüz. Mənim böyük hökmdarımız İbrahim xana olan sədaqətim də cənabınıza məlumdur. Ona görə də, böyük atanızın taxt-tacı xeyrinə nə düşünürəmsə, onu deməliyəm.

Əbülfət xan. De, qulaq asıram.

Vanya. Mən hiss elədim ki, əlahəzrət İbrahim xanın meyli ruslara sarıdır. Ona görə də, Sisyanovu Azərbaycandan çıxarmağa kömək üçün Fətəli şahın sizin komandanlığınızla Azərbaycana beş min qoşun göndərməsinə əsəbiləşmişdir.

Əbülfət xan *(qızğın)*. Yalan deyirsən. Xan atam rus padşahının tərəfdarı ola bilməz.

Vanya. Xan həzrətləri, atanızın sadiq rəiyyəti olan Vanya yüzbaşı sizə yalan söz deyə bilməz. Rus generalı Zubov gəlib Dərbənd qalasını alanda, əlahəzrət İbrahim xan sizi gözəl hədiyyələrlə onun hüzuruna göndərib, rus padşahına tabe olmağa hazır olduğunu bildirməmişdi?

Əbülfət xan *(acıqlı)*. Xan atam sonra öz fikrini dəyişib, Fətəli şahla dostluq istəyirdi. Əgər elə olmasaydı, bacım Ağabəyim ağanı ona ərə verməzdi. Məni şahın sarayına buraxmazdı.

Vanya. Xan həzrətləri, mən necə yalan danışa bilərəm? Böyük hökmdarımız İbrahim xan biz ermənilərin həmişə himayədarı olmuşdur. Məni yüzbaşı etmişdir. Mən can-dildən Xan həzrətlərinə ərz edirdim ki, Azərbaycanın səadəti İran şahı ilə dostluqdadır. Axı deyirdim, Fətəli şah özü də, İran camaatının əksəriyyəti də türkdür.

Əbülfət xan. Yaxşı, çıx, gözlə, mən fikirləşməliyəm.

Vanya. Əlbəttə. İndi elə mürəkkəb vaxtdır ki, fikirləşmək lazımdır.

Əbülfət xan *(səbirsiz halda)*. Yaxşı, qurtardıq. *(Vanya çıxır)*. İlahi! Sən mənim xan atamın düzgün yol tutmağına kömək elə! Azərbaycan xalqı rus padşahına kölə ola bilməz!

İşıq sönür.

ON SƏKKİZİNCİ ŞƏKİL

İbrahim xanın iqamətgahı. Yavər daxil olur.

Yavər. Əlahəzrət, oğlunuz Əbülfət xan hüzurunuza müntəzirdir.

İbrahim xan *(sərt)*. Qoy buyursun.

Yavər çıxır. Əbülfət xan hərbi geyimdə daxil olub, diz çökərək təzim edir.

İbrahim xan. Nə cəsarətlə sən beş min Qızılbaş qoşunu ilə Qarabağ sərhədini keçib Tuğ kəndində dayanmısan? Nədir Fətəli şahın məqsədi?

Əbülfət xan. Fətəli şah general Sisyanovun Quzey Azərbaycanı istila etməsinə imkan verməmək üçün mənim komandam altında olan həmin qoşunu sizə kömək üçün göndərib. Naxçıvan, İrəvan sərhədinə gedən qoşuna özü komandanlıq edəcək.

İbrahim xan *(qəzəblə)*. Sizi kim dəvət eləyib?

Əbülfət xan. Ərz elədim ki, biz köməyə gəlmişik. Təəssüf ki, gecikmişik. Biz vaxtında özümüzü yetirsəydik, yəqin ki, qəhrəman Cavad xanın, o igid şəhidlərin, yazıq cavan bacımın başına o faciə gəlməzdi. Biz general Sisyanovdan onların qanını alacayıq. Xan ata, sən məndən soruşursan ki, «sizi kim dəvət eləyib?» Bəs iki-üç min verst bizdən uzaq, bizə tamam yad rus padşahını Azərbaycana kim dəvət eləyib?

İbrahim xan. Mən rus padşahına tabe olmağı İran şahənşahına tabe olmaqdan üstün tuturam. Mənim qəbul etdiyim son qərar bundan ibarətdir.

Əbülfət xan. Xan ata, soruşmağa cəsarət edirəm: sən nəyə görə bu qərara gəlmisən?

İbrahim xan. Ona görə ki, rus padşahı Azərbaycan xanlıqlarını birləşdirib, vahid bir dövlət yaratmaqda mənə kömək edəcəyinə söz verib. Fars təsirində olan İran şahları isə ona bitişik sahədə vahid, müstəqil türk dövlətinin yaranmasına razı olmazlar.

Əbülfət xan. Xan ata, sən elə bilirsən rus generalları Azərbaycan xanlıqlarını birləşdirib vahid dövlət yaratmaqda sizə kömək eləyəndən sonra, onu sənə təhvil verib gedəcəklər? Yox, əziz xan ata. Getməyəcəklər. Onlar Azərbaycanı müstəmləkə eləyəcəklər. Necə ki, ingilislər böyük Hindistanı elədilər. Onlar Azərbaycanın sərvətlərini, varını daşıyıb aparacaqlar şimala. Siz xanların da onlara bir söz deməyə ixtiyarınız olmayacaq.

İbrahim xan. Yox, ruslar o dərəcədə namərdlik eləməzlər. Mən rus padşahının səmimiyyətinə inanıram.

Əbülfət xan. Xan ata, neçə illik təcrübəyə malik hökmdarsınız. Bilirsiniz ki, siyasət yalnız səmimiyyətə, əhd-peymana, hətta müqavilələrə də arxayın ola bilməz.

İbrahim xan. Biz vahid, müstəqil dövlət olandan sonra, əgər rus padşahı əhdinə vəfa eləməsə, namərdlik elәsə, biz onunla ölüm-dirim vuruşuna başlarıq. Və Allahın köməkliyi ilə qalib gələrik.

Əbülfət xan. Ata, axı o vaxtacan onlar da bəkar oturmayacaqlar. Bu gözəl ölkəmizin azadlığını, açar-kilidini yadelli qəsbkara tapşırmaq olmaz. Bu, Azərbaycan xalqına xəyanət olar.

İbrahim xan *(birdən qəzəblənərək)*. Mən sənə əmr edirəm: qoşunu Azərbaycan sərhədindən çək geri.

Əbülfət xan. Mən bunu eləyə bilmərəm. Mən öz xalqıma köməyə gəlmişəm. Mən qəsbkar Sisyanovdan Cavad xanın, cavan Hüseynqulu xanın, bacım Səltənət bəyimin, Gəncə qalasında şəhid olan qəhrəmanların intiqamını alacam.

İbrahim xan *(daha qəzəblə)*. Əmr edirəm, qoşunu çək geri!

Əbülfət xan. Sənin bu əmrin xalqa xəyanətdir, xan ata. Mən xain ola bilmərəm. Allah divanından qorx, xan ata. Bacım Səltənət bəyimin günahsız axıdılan qanı hələ qurumayıb.

İbrahim xan *(Əbülfətə qışqırır)*. Rədd ol! Rədd ol! Qoy mənim igid Qarabağ atlılarım sənin beş min Qızılbaş qoşununa divan tutsun. Qoy sənin boynunu onların qılıncı vursun! İtil gözümdən, rədd ol!..

İşıq sönür.

ON DOQQUZUNCU ŞƏKİL

Kürəkçay sahilində general Sisyanovun qərargahı. Böyük çadır. General Sisyanov, mayor Lisaneviç və Vanya.

Sisyanov. Vanya Hamparsimoviç, Cavad xanla vuruşumuzda və onu məğlub etməyimizdə öz bələdçiliyinlə bizə çox kömək elədiyin üçün əlahəzrət rus padşahı adından səni və bütün nəslini «məlik» titulu ilə təltif edirəm.

Vanya. General həzrətlərinə ərz olsun ki, mən və mənim yeddi arxa dönənim həmişə böyük imperatorun sadiq nökərləri olacayıq.

Sisyanov. İbrahim xanla Fətəli şah arasındakı münasibət barədə verdiyin məlumatlar da dürüst olduğu üçün səni beş qızılla təltif edirəm.

Mayor qızılları verir.

Vanya *(təzim edərək)*. Əlahəzrət, sizin mərhəmətiniz o qədər böyükdür ki, sevincdən ağlamaq istəyirəm. *(Ağlayır)*.

Sisyanov. O... Məlik Vanya. Sən nə emosional adamsan...

Vanyaya araq tökүb verir. Vanya içir.

Sisyanov. Necədir rus arağı?

Vanya. Bizim tut arağından da tünddür.

Sisyanov. Onda birini də iç.

Vanya içir və hiss olunur ki, dəmlənir.

Vanya *(sərxoş gülüşlə)*. Hi-hi... Əlahəzrət, «Məlik Vanya» sözünü birinci sizin ağzınızdan eşitmək məni o qədər sevindirir ki, şadlığımdan oxumaq istəyirəm...

Sisyanov. Nə olar, oxu. Mən ermənilərin necə oxumaqlarını eşitmək istəyirəm.

Vanya Sayat Novanın azərbaycanca olan qoşmalarından birini oxuyur.

Sisyanov. Məlik Vanya, bu ki türk mahnısıdır?

Vanya. Xeyr, əlahəzrət, Sayat Nova xalis ermənidir. Ancaq bu evi tikilmiş gözəl mahnılarının çoxunu türk dilində yazıb... *(Oxuyur)*. Eh, əlahəzrət, biz erməni xalqının dərdi böyükdür. Öz vətəni, öz əli, öz başı olan başqa millətlərə nəsib olan xoşbəxtlik bizə qismət olmayıb. Dünyanın hər yerinə səpələnmiş biz ermənilər yurdsuz-yuvasız olmuşuq. Heç özüm də bilmirəm, niyə belə olmuşuq.

Sisyanov. Ona görə ki, siz axmaqlar həmişə boş xülyalarla yaşayırsınız. Bilmirsiniz ki, «Velikaya Armeniya» yaratmaq lazımdır.

Vanya. Qoymurlar, əlahəzrət, türklər dənizlərdən dənizlərə hər yeri tutublar. Əlahəzrət, onlar bizə düşməndirlər.

Sisyanov. Məlik Vanya, sən Qafqazda yaşayan ermənilərin liderlərindənsən. Xalqını başa sal. Qoy onlar İrəvan xanlığında, Karsda, Ərzurumda birləşib Ermənistan dövləti yaratmağa təşəbbüs etsinlər. O zaman əlahəzrət rus imperatoru da sizə kömək edər. İndisə İbrahim xan mənimlə görüşmək üçün bura gələcək. O səni burda görməməlidir. Xanın bütün hərəkətlərini, İran hökumətinə və bizə münasibətini dürüst izləməyi sənin kəşfiyyatına tapşırıram. Diqqətli ol, Məlik Vanya. Unutma ki, bizə verdiyin məlumatlar düz olmasa...

Vanya. Astvas du bahi... Astvas du bahi... Astvas du bahi.

Sisyanov. Sənin bütün əlaqən mayor Lisaneviç ilə olacaq. Yaxşı, qurtardıq. *(Vanya gedir. Lisaneviçə)*. İmperatorun çoxdankı

fikridir ki, Türkiyə ilə Azərbaycan, ümumiyyətlə, bütün Qafqaz sərhədi ilə Türkiyə sərhədi arasında bir erməni dövləti yaratsın. Bu barədə təbliğatı gücləndirmək lazımdır.

Lisaneviç. Əlahəzrət, bu, hər şeydən əvvəl, bizim bütün Qafqaza, o cümlədən gedib Farsistana bitişən Azərbaycana hakim olmağımızdan asılıdır.

Yavər daxil olur.

Yavər. Əlahəzrət, İbrahim xanın karvanı artıq görünməkdədir.

Sisyanov *(Lisaneviçə)*. Xanı çox hörmətlə qarşılamaq lazımdır. *(Yavərə)*. Deyin mənim rəsmi libasımı, qılıncımı gətirsinlər.

Yavər sürətlə çıxır.

İşıq sönür.

İYİRMİNCİ ŞƏKİL

Sisyanovun qərargahı. General Sisyanov Şəki hakimi Səlimxan və üç nəfər əyanın müşayiətilə gələn İbrahim xanı təntənə və hörmətlə qarşılayır.

Sisyanov. Cənab İbrahim xan, sizin rus dövlətinə olan ixlasınız əlahəzrət imperatoru xeyli məmnun etmişdir. Sizin və Şəki xanının böyük rus padşahına müharibəsiz tabe olmağınızı biz həmişə yüksək qiymətləndirəcəyik.

İbrahim xan. Əlahəzrət rus padşahı və onun böyük generalı bizim sədaqətimizə həmişə əmin ola bilərlər.

Sisyanov. Əlahəzrət rus padşahı və onun generalları sizin bu sədaqətinizi qoruyacaq və hökmdar İbrahim xanın bütün xanlıqları birləşdirərək, Azərbaycan dövləti yaratmağına kömək edib, həmişə onunla dost olacaq.

İbrahim xan. Cənab general, siz də bizim, vahid, müstəqil bir dövlət olandan sonra rus padşahının sədaqətli dostu olacağımıza arxayın ola bilərsiniz. Cənab general, Azərbaycan xalqı igiddir, mərddir. Azərbaycan xalqı heç bir zaman dosta xəyanət etməmişdir.

Sisyanov. Cənab xan, sizin qızınız Ağabəyim ağa Fətəli şahın baş hərəmidir. Özü də böyük ağıl-zəka sahibi olduğu üçün, deyirlər, hər işdə, hətta daxili-xarici siyasətdə də Fətəli şaha böyük təsiri var. Fətəli şah özü də sizin kimi türkdür. Deyirlər, Ağabəyim ağa İngiltərə kraliçası ilə, hətta Napoleonun arvadı ilə də məktublaşır...

İbrahim xan. Cənab general, nə demək istədiyinizi başa düşürəm. Lakin cənabınıza məlum olsun ki, hələ böyük imperatriça Yekaterina həzrətlərinin vaxtında mən gəlib Dərbənd qalasını alan

general Zubova məktub yazaraq, rus padşahına tabe olmağa hazır olduğumu bildirmişəm.

Sisyanov. Doğrudur, bu, mənə məlumdur.

İbrahim xan. Onda Ağabəyim ağa sarayda qız idi. Fətəli şahın hərəmi olacağı da heç kəsin ağlına gəlmirdi.

Sisyanov *(zarafatyana bir tonla)*. Bu da mənə məlumdur. Lakin, cənab xan, deyirlər hər zamanın bir hökmü var... Naxçıvan hakimi Kəlbəli xanla İrəvan hakimi Məhəmməd xan rus imperatoruna tabe olmaq haqqında mənimlə bağladıqları əhdnaməni pozaraq, Babaxanoğlunun komandanlığı altında bizə hücum eləyən Fətəli şah qoşununa yardım elədilər.

İbrahim xan. Yəqin cənabınıza məlumdur ki, şah onun sarayında xan vəzifəsində olan oğlum Əbülfət xanın komandası altında, sizə qarşı vuruşda mənə kömək üçün beş min qoşun göndərmişdir. Mən ona qoşunu geri çəkməyi əmr etdim. Əməl etmədikdə müharibə elədim. Mənim qəhrəman Qarabağ atlılarım Qızılbaş qoşununu məğlub eləyib pərən-pərən saldı. Əbülfət xan da qaçıb Arazın o tayına keçdi. Cənab general, mən sizin kəlamınızda bəzi şübhə kölgəsi hiss edirəm. Biz Azərbaycan türkləri namuslu adamlarıq. Mən sizdən gizlətmirəm. Əgər Şah İsmayıl Xətai ikinci dəfə dünyaya gəlib, İranda şah olsaydı, mən başda olmaqla, biz Azərbaycan türkləri məmnuniyyətlə onun dövlətilə birləşməyə razı olardıq. Çünki Şah İsmayıl Xətai öz xalqının oğlu idi. Öz dilinin, öz milli ənənələrinin sahibi idi. Hakimiyyətə keçən kimi Azərbaycan türklərinin dilini dövlət dili elan etdi. Dövlət müəssisələri xalqın öz dilində fəaliyyət göstərməyə başladı. Təəssüf ki, əslən türk olan o biri şahlarda biz bunu görmədik, onlar fars əfsunundan xilas ola bilmədilər, millətcə türk olan böyük sərkərdə Ağa Məhəmməd şah ölərkən son sözünü də farsca dedi. Əlahəzrət! Biz öz dilimizin, öz torpağımızın sahibi olmaq istəyirik. Təkrar edirəm ki, rus padşahı bu böyük amalımızda bizə kömək edərsə, biz də onun sadiq dostu olarıq.

Sisyanov. Cənab xan, mən də təkrar edirəm ki, siz bu barədə əlahəzrət rus imperatorunun hər cürə köməyinə arxayın ola bilərsiniz.

İbrahim xan. Cənab general, mən əminəm ki, sizin sözünüz alicənab zadəgan sözüdür.

Sisyanov. Əlahəzrət imperator sizə general-leytenant, oğlanlarınız Məhəmmədhəsən xana və Mehdiqulu xana general-mayor, kiçik oğlunuz Xanlar xana polkovnik rütbəsi əta etmişdir.

İbrahim xan susur. Hiss olunur ki, Sisyanovun bu iltifatı onun izzəti-nəfsinə toxunur.

Sisyanov. İcazənizlə sizi ilk dostluğumuzun şərəfinə düzəlmiş ziyafətə dəvət edirəm. Müsəlman adətlərini bildiyimdən, sizin üçün əlavə türk aşpazları gətirtmişəm. Buyurun.

İbrahim xan tutulur. Onlar ziyafətə gedirlər. Sisyanovun qərargahı. Lisaneviç, Sisyanov, Saday bəy, İbrahim xan.

Sisyanov. Cənab xan, gərəkdir ki, diplomatiyada hər şey aydın olsun... Ona görə də, icazə verin mayor Lisaneviç bizim, yəni rus padşahlığının şərtlərini sizə bəyan etsin.

Lisaneviç *(rus hökumətinin şərtlərini oxuyur).*

1. İbrahim xan bütün dövlətlərlə əlaqəsini qəti kəsib, tamam dünya miqyasında yalnız rus dövlətinə tabe olur.

2. İbrahim xan qonşu hökumətlərlə ancaq rus sərdarının icazəsi ilə münasibət saxlaya bilər. Onların məktublarına ancaq rus sərdarının icazəsi ilə cavab verə bilər.

3. Qarabağda olan rus qoşunu üçün xan ucuz qiymətə buğda aldırmalı və qoşunu mənzil ilə təmin etdirməlidir.

4. Xan ildə rus xəzinəsinə 80.000 əşrəfi xərac verməlidir.

5. Rusiya Qarabağ camaatının və xanın mühafizəsini öz üzərinə götürür. Bu məqsədlə, daimi olaraq, Qalada 500 nəfərdən ibarət rus qoşunu olacaqdır.

Saday bəy irəli yeriyərək İbrahim xana təzim edir.

Saday bəy. Xan ağa, mayorun sizə təqdim etdiyi bu əhdnamədən belə çıxır ki, Qarabağ, bütün Azərbaycan rus padşahının müstəmləkəsi olmalıdır. Sizin qırx il hökmdarı olduğunuz müstəqil Azərbaycan xalqı bunu qəbul eləyə bilməz. Qoy rus padşahı bilsin ki, Azərbaycan xalqı heç bir zaman heç bir dövlətə qul olmamışdır, heç bir dövlətə müstəmləkə olmamışdır. Biz bura gələrkən, mən və mənim atlılarım elə güman edirdik ki, bu Sisyanov biz azərbaycanlılarla zəhmətkeş rus xalqı arasında dostluq, əməkdaşlıq əlaqəsi yaratmağa gəlib.

İbrahim xan *(qəzəblə).* Sus! Sənə kim icazə verib ki, öz hökmdarının hüzurunda belə qələtlər eləyəsən?

Saday bəy. Xan ağa, əgər bu əhdnaməni qəbul eləsən, sən daha hökmdar deyilsən. Sən rus padşahının əmrinə tabe, onun gücsüz bir əyalət məmurusan.

İbrahim xan. Çıx bayırda mənim hökmümü gözlə.

Saday bəy. Yox, xan ağa, mən daha sənin hökmünü gözləməyəcəm. *(İti addımlarla çıxır).*

Sisyanov. Mayor Lisaneviç, çıx gör bu qoçaq üsyançı nə etmək fikrindədir? Cənab xan, qoy bu oğlanın bu cür ötkəm danışığı

sizi çaş-baş salmasın. Rus çarı bütün Azərbaycan xanlıqlarını birləşdirib, sizin hökmranlığınız altında vahid bir dövlət yaranmasını istəyir. Əmin ola bilərsiniz ki, o zaman Rusiya sizin böyük dostunuz kimi daha qalalarınızda rus qoşun hissələri saxlamağa da lüzum görməyəcək. Siz buna inanın, cənab İbrahim xan.

İbrahim xan *(sarsılmış halda).* Mən rus padşahının alicənablığına inanıram.

İşıq sönür.

İYİRMİ BİRİNCİ ŞƏKİL

Sisyanov böyük ipək çadırda tək var-gəl edir. Mayor Lisaneviç daxil olur.

Sisyanov. Getdilər?

Lisaneviç. Bəli. Cənab general, mən həmişə bu əqidədə olmuşam ki, bu türk xanlarına heç bir zaman etibar eləmək olmaz.

Sisyanov. Doğrudur. Çünki bizim işimiz ədalətin hökmüdür. Əgər biz bu türk xanlıqlarını öz himayəmizə almasaq, onlar daima bir-birlərini didib parçalamaqla böyük sivilizasiyanın inkişafına mane olacaqlar. Ona görə də, tabe olmaq istəməyənə divan tutmaqla o birilərinə də dərs vermək lazımdır. Biz Cavad xana rəhm eləyə bilməzdik.

Lisaneviç. General həzrətləri! Böyük dövlətlər üçün rəhm şərti bir şeydir. Böyük dövlətlər, birinci növbədə, öz qüdrətinin qayğısına qalmalıdır. Uşaqlıqda mən «heyvanat parkında» şirlərin nə qədər ət yediklərinə baxıb fikirləşirdim ki, burada bu qədər ətlə doymayan bu şirlər bəs meşədə marallar, ceyranlar olmasaydı, nə edərdilər? Demək, zəiflər güclülərə tabe olmalıdır.

Sisyanov. Yox, mayor. Biz zəifləri parçalayıb udmuruq... Məhz biz – böyük rus dövləti onları daha qəddar yırtıcılardan mühafizə edirik.

Lisaneviç. Məlik Vanya deyir ki, İbrahim xanın Fətəli şahla gizli əlaqəsi var. Bir erməni arvadı gecə xan qərargahına yad bir adamın gizlincə daxil olduğunu görüb. Məlik Vanyaya əmr etdim ki, bu əlaqənin nədən ibarət olduğunu təcili surətdə dürüst öyrənib mənə xəbər versin.

Sisyanov. Məlik Vanyadan başqa siz özünüz də son dərəcə sərvaxt olun. Xan tərəfdən xəyanət gördükdə, ona dərhal amansız divan tutmaq lazımdır. Mən Bakının üstünə gedirəm. İmperator bizi tələsdirir. Qafqazın işğalını tezliklə başa çatdırmalıyıq. Böyük Yekaterinanın başladığı işi sürətləndirməliyik. Rusiya gözləyə bilməz.

İmperator ordusu ikibaşlı qartalın hakim baxışları zillənən uzaqlara doğru ildırım sürətilə irəliləməlidir.

Gurultulu istila musiqisi.

İşıq sönür.

İYİRMİ İKİNCİ ŞƏKİL

Böyük ipək çadır. İbrahim xan və Ağabəyim ağa.

İbrahim xan. Sən nə üçün gələcəyini qabaqcadan xəbər verməmisən, qızım. Biz səni Araz qırağında şahın baş hərəminə layiq təntənə ilə qarşılardıq.

Ağabəyim ağa. Mən Gəncə qalasında həlak olan şəhidlərin məzarını ziyarətə gəlmişəm, xan ata. Onların yası içində mənə təntənə lazım deyil.

Ağır pauza.

İbrahim xan. Cavad xan özü təqsirkar oldu, qızım, mənim məsləhətimə baxmadı.

Ağabəyim ağa. Cavad xan sizin məsləhətinizə baxıb, rus padşahına tabe ola bilməzdi.

İbrahim xan. Başqa yol yox idi.

Ağabəyim ağa. Yox, xan ata. Yol var idi. Əgər siz və sizin təsiriniz altında olan xanlar birləşsəydiniz...

İbrahim xan *(onun sözünü kəsir)*. «Birləşsəydiniz...» *(Qışqırır)*. Birləşmək istəmirdilər! Başa düşürsənmi, istəmirdilər!

Ağabəyim ağa. Xan ata, siz məni öldürə də bilərsiniz. Amma mən həqiqəti deməyə bilmirəm. Əgər şəxsən siz, birinci olaraq, əvvəl general Zubovu, sonra da cəllad Sisyanovu duz-çörəklə qarşılamağa, igidlərin mindiyi Azərbaycan atlarını onlara hədiyyə verməyə qədər tənəzzül etməsəydiniz, xanları birliyə, qəti mübarizəyə çağırsaydınız, onlar sizi eşidərdilər. Siz İrəvan hakimi Məhəmməd xana, Naxçıvan hakimi Kəlbəli xana məsləhət görmüşdünüz ki, onlar da çara tabe olsunlar. Onlar da Sisyanovla tabe olmaq barədə müqavilə bağladılar. Ancaq tezliklə səhvlərini başa düşüb bu əhdnaməni pozaraq, Sisyanovla vuruşub onu məğlub etdilər.

İbrahim xan. Mən bilirəm, hiss edirəm ki, sən Fətəli şahın siyasətilə danışırsan. *(Qəzəblə)*. Mən Fətəli şahın Azərbaycan türklərini adam hesab eləməyən, onlara yuxarıdan aşağı baxan siyasətini qəbul eləyə bilmərəm. Əgər Fətəli şah səni bunun üçün bura göndəribsə, nahaq zəhmət çəkmisən.



Ağabəyim ağa. Xan ata, ərz elədim ki, mən rus generalının topa tutduğu şəhidlərin məzarını ziyarətə gəlmişəm və bu gün Gəncəyə gedəcəyəm. Ancaq, xan ata, Fətəli şah da, Nadir şah da Qacar kimi Azərbaycanı şimal padşahının istilasından qorumaq istəyir. Onlar özləri də türkdürlər.

İbrahim xan. Fars təsiri onlarda türklükdən əsər qoymayıb.

Ağabəyim ağa. Düz deyil, ata. Şah İsmayıl Xətaini xatırlayın. Nə üçün unudursunuz ki, İran xalqının yarıdan çoxu türkdür. Xan ata, cəsarət edirəm soruşmağa, əgər cənabınız Fətəli şaha ürək qızdırmırdısa, nə üçün... nə üçün mənim məhəbbətimi onunla izdivacıma qurban verdiniz?

İbrahim xan. Zənn edirəm ki, izdivac sənin üçün uğursuz olmayıbdır. İran şahının hərəmini indi bütün dünya tanıyır. Onun siyasətə müdaxiləsilə böyük diplomatlar maraqlanır. Kraliçalar onunla dostluq yaratmağı arzu edirlər...

Ağabəyim ağa *(dərin kədərlə)*. Xan ata, hüzurunuzda belə açıq danışmağımı əfv buyurun. Əgər vətənimizin taleyilə bağlı olduğuna inanmasaydım... Məhəbbətimizi yüz belə şahzadəliyə dəyişməzdim. Ancaq siz məni inandırmışdınız.

İbrahim xan *(mülayim)*. Nə etməli, qızım... siyasət gündə yüz dəfə istiqamətini dəyişən küləyə bənzəyir...

Ağabəyim ağa. Bəlkə də elədir... Ancaq mən Cavad xan kimi xalq qəhrəmanını, yenilməz azəri igidlərini, arvadları, körpə uşaqları top atəşinə tutub güllələbaran etdirən cəllad bir generalın görüşünə getməyi, onun şadlıq məclisində iştirak etməyi Azərbaycan xalqına qarşı dəhşətli bir xəyanət hesab edirəm. İlahi, vətənimiz bu həqarətə necə dözdü? Nə üçün ildırımlar çaxıb o şadyanalıq məclisini kül eləmədi? *(Qışqırır)*. Gələcək nəsillər siz xanlara lənətlər oxuyacaq! Sizin ruhlarımız ədalət məngənəsində daima əzab çəkəcək! Sizin nəsilləriniz Azərbaycan analarının üzlərinə baxa bilməyəcəklər!

İbrahim xan *(qəzəblə)*. Rədd ol! Rədd ol burdan!

Ağabəyim ağa. Vurdur mənim boynumu, xan ata! Hər halda, bu, bütün bir xalqı yadelli bir qəsbkarın çəngəlinə keçirmək qədər ağır cinayət deyil!

İbrahim xan *(qəzəblə)*. Sus!

Ağabəyim ağa. Yox, xan ata! Susmayacağam! Gələcək nəsillərin bizə lənətlərlə verəcəyi dəhşətli ittihamı eşidirəm. Onlar sizə deyirlər ki, siz, şəxsən siz, İbrahim xan, Azərbaycanda şahlıq səviyyəsində qüdrətli bir hökmdar idiniz. Qarabağ, Gəncə, Şəki, İrəvan, Lənkəran, Naxçıvan, Qaradağ, Təbriz, Xoy, Ərdəbil, Marağa sizin hökmünüzə tabe olan varlı xanlıqlar idi. Siz qırxıllıq hakimiyyətiniz müddətində mükəmməl silahlanmış güclü bir ordu yarada bilərdiniz. Buna nümunə Türkiyə, İran kimi mükəmməl orduya malik

dövlətlər var idi. Nəhayət, siz, heç olmazsa, rus padşahı Yekaterinanın Qafqazı istila üçün göndərdiyi ilk generalın Azərbaycana doğru hərəkət etdiyini eşidən kimi bütün Azərbaycan xalqını ayağa qaldıra bilərdiniz. O zaman qəhrəman ləzgi, çeçen, inquş xalqları da sizə qoşulacaq idi. Siz bunu etmədiniz. Siz Azərbaycanı, gözəl Qarabağı müstəmləkə etməyə gələn rus generallarını duz-çörəklə qarşıladınız. Siz dünyanın müxtəlif yerlərinə səpələnmiş paxıl, qorxaq bir tayfa olan ermənilərı töhfə təbərciyi eləyib, Azərbaycanın mənzərəli torpaqlarını onlara bağışladınız. Ermənilər isə o yerlərdə kənd salıb ruslara casusluq etdilər. Ax, xan ata. Gələcək nəsillər Gəncəni, qəhrəman Cavad xanı top atəşinə tutan cəllad rus generalının sizə, oğlanlarınıza general rütbələri verməsini, sizin bunu minnətdarlıqla qəbul etmənizi həqarətlə xatırlayacaqlar.

İbrahim xan *(birdən ölgün səsilə)*. Yaxşı, kifayətdir. *(Ağabəyim ağa kəskin hərəkətlə çıxır. Ağır pauza)*. Doğrudanmı, mən Azərbaycana xəyanət edirəm? Mənim bu ağıllı qızım nə haqla mənə bu qədər ağır ittiham verir? *(Qışqırır)*. Nə haqla? Doğrudanmı, mən xalqıma xəyanət etmişəm?

Xan dəhşət içində qapıya tərəf addımlayır. Birdən gözünə ölmüş qızı Səltənət bəyim görünür.

Səltənət bəyimin xəyalı. Mən səndən incimişəm, ata. Axı mən sənin sevimli qızın idim. Sən həmişə mənə gözəl hədiyyələr bəxş edərdin... Nə üçün mənim cavan nişanlımın atası Cavad xana kömək eləmədin? Cavad xan igidlər içində bir igid idi. Əgər sən də ona kömək eləsəydin, namərd düşmən ona qalib gələ bilməzdi. Mən də səndən, gözəl Qarabağdan belə uzaq düşməzdim. Burada cavan nişanlım Hüseynqulu xanı hey axtarıram, tapa bilmirəm...

İbrahim xan *(qışqırır)*. Mən aldanmışam, qızım! Yox, dayan! Getmə!

İşıq sönür.

İYİRMİ ÜÇÜNCÜ ŞƏKİL

Vanyanın evi. Vanya güzgü qabağında özünü keşiş qiyafəsinə salır. Haykanuş gəlir.

Haykanuş. Vartan, özünü indi də keşiş donuna salıb bu qaranlıqda hara cəhənnəm olursan?

Vanya *(gülür)*. Hi-hi... qaranlıqda görənlər elə biləcək keşiş Karapetəm... Axı o, dua oxumaq üçün tez-tez Lisaneviçin qarnizonuna gedir.

Haykanuş. O donuza oxşayan mayor, yenə nə isə bir qazan qaynadır...

Vanya. Ağzını xeyirliyə aç, Haykanuş. Mən bizim yazıq erməni xalqımız üçün çox böyük işlər görürəm, başa düş. Erməni xalqı Vanya yüzbaşını unutmayacaq.

Haykanuş. Bah... bah... gözlə, tarixə düşəcəksən...

Vanya. Əlbəttə, düşəcəm.

Haykanuş. Sənə məktub var. *(Yeşikdən məktub çıxarıb verir. Vanya açıb baxır)*.

Vanya *(həyəcanla)*. Bah. Katalikosdandır. Başa düşürsən, katalikosdan.

Haykanuş. Nə yazır?

Vanya *(məktubu oxuyur)*. «Böyük Allahımız İsus Xristosun sadiq bəndəsi, erməni xalqının namuslu oğlu Vartan Ambarsumoviç, sən xalqımız üçün fədakarlıqlar göstərirsən. Gələcək nəsillər bunu unutmayacaqlar.

Əziz oğlumuz Vartan. Bu saat tarixin elə anıdır ki, gərək sən və yoldaşların hər vasitədən istifadə edib, çalışasınız ki, İbrahim xan hakimiyyəti ilə Fətəli şah hakimiyyəti dost olmasınlar. Həmçinin rusları da Qafqaz türklərinin əleyhinə təhrik etmək lazımdır. Bunun üçün sən təcili general Sisyanovla görüşməlisən. Qafqazdakı ermənilərin sayı hələlik heç otuz minə də çatmır. Biz bununla Qafqazda müftəçi erməni dövləti düzəldə bilmərik. Dünyanın hər tərəfindən ermənilərı Qafqaza dəvət etmək lazımdır». *(Vanya məktubun ardını səssiz oxuyur)*.

Haykanuş. Bərkdən oxu.

Vanya. Gerisi sənə lazım deyil. *(Gedir)*.

İşıq sönür.

İYİRMİ DÖRDÜNCÜ ŞƏKİL

Gecədir. Lisaneviç və Vanya gizli yerdə görüşürlər.

Vanya *(hərarətlə)*. Cənab mayor, mən dediklərimə başımla cavabdeham. İbrahim xanın «Xan bağına» köçməsindən məqsədi Arazın o tayına qaçaraq, Fətəli şahın qoşunu ilə birləşib, Azərbaycana daxil olmuş rus qoşun hissələrini qəfil hücumla qırmaqdır. Məndə dürüst məlumat var ki, Fətəli şahın oğlu Abbas Mirzənin başçılığı altında İran qoşunu Gəncəyə doğru hərəkət edir.

Lisaneviç. Xan mənə dedi ki, özünü yaxşı hiss etmədiyi üçün Şuşadan bir az aşağı yenib, bir neçə gün açıq havada istirahət etmək istəyir.

Vanya. O sizi aldadır. Əgər elə isə, nə üçün oğlanları Məhəmmədhəsən xanla Mehdiqulu xanı seçmə atlıları ilə qalada gözətçi qoyub, bütün ailəsini, hətta körpə uşaqlarını da özü ilə götürüb?

Lisaneviç. Əgər xanın bizə qarşı bu cür cinayətkar niyyəti var idisə, oğlu Əbülfət ağanın komandası ilə Fətəli şah ona beş min nəfərdən ibarət qoşun kömək göndərəndə niyə onlarla birləşib bizə hücum etmirdi?

Vanya. Cənab mayor, İbrahim xan əvvəl rus padşahına tabe olmaq istəyirdi, bunun üçün, siz buyuran kimi, şahın köməyə göndərdiyi qoşunu qəbul etməyib, hətta onunla vuruşdu. Amma Fətəli şah bic adamdır. İşi belə görəndə, çox hiyləgər diplomat olan öz baş hərəmi Ağabəyim ağanı atasını yola gətirmək üçün dərhal Qarabağa göndərdi. O da iradəsi o qədər də güclü olmayan İbrahim xanı istədiyi kimi sizin əleyhinizə döndərdi. O hiyləgər gözəlin dərhal Qarabağa gəlməsini eşidəndə arvadım Haykanuşa dedim: «Astvas du bahi. O, yəqin burada bir qazan qaynadacaq...» Cənab mayor, o biz ermənilərin də düşmənidir. Yekaterina həzrətləri bizim Eçmiadzində əyləşən ruhani atamıza söz vermişdi ki, İrəvanda erməni dövləti yaratmaqda bizə kömək edəcək. O böyük imperator vəfat eləyəndən sonra məhz Ağabəyim ağanın siyasəti ilə Fətəli şah İrəvan, Naxçıvan xanlıqlarını gücləndirməyə başladı.

Lisaneviç. Mənə tarix açma, Məlik Vanya. Qısa de görüm, bu saat biz neyləməliyik? İndiki vəziyyətdə İbrahim xanın qaçıb Fətəli şahın qoşunu ilə birləşməsi bizə kömək gələnə qədər mənim buradakı qarnizonum üçün çox təhlükəli olar...

Vanya. Bəli. Onlar sizi hər tərəfdən mühasirəyə alıb qırarlar. Ona görə də, bir dəqiqə vaxt itirmədən İbrahim xanı ailəsi ilə birlikdə son nəfərinə qədər qırmaq lazımdır.

Lisaneviç. Sənin sözündən belə çıxır ki, indi biz onları dərhal ortadan götürməsək, xan qaçıb Fətəli şahın qoşunu ilə birləşsə, onlar bizi qıracaqlar?

Vanya. Son nəfərinizə qədər. Türklər çox amansız millətdir. Gecənin qaranlığında güllə səslərinin eşidilməməsi üçün onları doğramaq lazımdır.

İşıq sönür.

İYİRMİ BEŞİNCİ ŞƏKİL

Gecədir. İbrahim xanın iqamətgahı. İbrahim xan ibadət paltarındadır. Bu zaman Tubu xanım daxil olur.

Tubu xanım. Niyə yatmırsan, İbrahim? Gecədən xeyli keçir.

İbrahim xan. Bu gecənin dərdi çox böyükdür, Tubu. Elə bil ki, onun bizim çadırları bürüyən qaranlığı mənə dəxli olmayan tamam yad bir dünyadır. Bu, mənim ürəyimi sıxır... sıxır.

Tubu xanım. Bu, o uğursuz Kürəkçay hadisəsinin sənin mərd qəlbinə çökən ağırlığıdır, İbrahim. O çar generalı o cür həyasızlıqla qüdrətli Azərbaycan hökmdarına müstəmləkə təkliflərini bəyan edəndə, ellər igidi Pənah xanın oğlu İbrahim xanın onun düz ağzının içinə bir güllə sıxmadığına mən təəccüb edirəm.

İbrahim xan. Bir an mənim ağlıma gəldi. Ancaq onun top-tüfənglə mükəmməl silahlanmış ordusunun Qarabağ camaatını uşaqdan-böyüyə qılıncdan keçirəcəyini düşünüb susdum...

Tubu xanım. Kürəkçay hadisəsi bütün Qarabağı ayağa qaldırmışdır. Xalq həyəcan içindədir. Mən hiss edirəm ki, hətta arvadlar da bu saat düşmənlə vuruşa hazırdır. Mirmöhsün ağa mənə dedi ki, sən o həyasız generalla vuruşa hazırlaşırsan. Onu bil ki, Fətəli şah da sənə bu işdə kömək edər.

İbrahim xan *(qızğın)*. Mən heç bir hökumətin ikiüzlü köməyini istəmirəm. Mən sayca farslardan çox olan bütün Azərbaycan xalqını son ölüm-dirim vuruşuna çağıracağam. Azərbaycan xalqı Cavad xan hadisəsinin də, şimaldan gələn düşmənin də nə demək olduğunu gördü.

Tubu xanım. Mən bu son, qəti döyüşdə sənə xeyir-dua verirəm. Mən də sənin ordunun qabağına düşüb onları qəti intiqama çağıracağam. Adi bir düşmən generalı Azərbaycan xalqının böyük hökmdarı İbrahim xanı təhqir etmişdir. İndi isə, xahiş edirəm, yat, dincəl.

İbrahim xan. Sən get. Mən bir az tək qalmaq istəyirəm.

Tubu xanım gedir. İbrahim xan diz çöküb Allaha ibadət edir.

İbrahim xan. Ah, mən aldanmışam. Mən xalqıma xəyanət etmişəm. Ar olsun sənə, İbrahim, 40 ildən çox Qarabağın – Azərbaycanın ən böyük bir hissəsinin hökmdarına rus generalı özündən də kiçik rütbə verəndə bildim ki, aldanmışam. Nə üçün mən Kürəkçayda qılıncımı çıxarıb onun boynunu vurmadım, nə üçün? Ah... Aman, Allahım... İndi mənim ruhum gələcək nəsillər qarşısında nə cavab verəcək? İlahi, sən böyük olduğun üçün böyük günahları da bağışlayansan. Mən elə edəcəyəm ki, sən məni bağışlayasan...

Atam Pənah xan ölərkən məni yanına çağırıb dedi: «Oğul, vətən, torpaq darda olanda qılınc qında qalmaz...» Hələ mən sağam, hələ ölməmişəm, indi mən bütün Azərbaycan xalqını ayağa qaldıracağam, ölüm-dirim mübarizəsinə... Ey böyük Yaradan, intiqamımı qəbul et...

İşıq sönür.

İYİRMİ ALTINCI ŞƏKİL

Gecə. İbrahim xan ailə üzvlərilə birlikdə böyük ipək çadırdadır. Xidmətçi həyəcanla daxil olur.

Xidmətçi. Xan həzrətləri, əsgərlər çadırı əhatə eləyirlər.

Çadırda həyəcan... Qarmaqarışıqlıq, İbrahim xan irəli yeriyir. Lisaneviçin komandası eşidilir.

Lisaneviç. Doğra!

Əsgərlər siyirməqılınc çadıra dolub birinci xanı vururlar, sonra ailə üzvlərini doğrayırlar. İşıq Tubu xanımın üstünə düşür.

Tubu xanım *(Lisaneviçə)*. İnsafın olsun, heç olmasa, bu uşağa rəhm elə.

Lisaneviç *(qışqırır)*. Doğra! İkisini də! *(Əsgərlər Tubu xanımı da, uşağı da vururlar).*

İşıq İbrahim xanın üzərinə düşür.

İbrahim xan *(güclə dikəlib qışqırır)*. Ey mənim qəhrəman millətim! Eşit! Mən yadelli düşmənə inanıb, sənə xəyanət etdiyim üçün...

Lisaneviç (qışqırıb onun sözünü kəsir). Doğra!

Əsgər xanı qılıncla təkrar vurur. Bayırda at ayağının tappıltıları, güllə səsləri eşidilir. Səhnə tüstü içində görünməz olur və dəyişir.

İbrahim xanın çadırı.

Ağabəyim ağa gözlərini yarı qapayaraq sükut içində dayanmışdır.

Bayırda səslər. Saday bəy, ortadan çıxmaq istəyən iki əsgəri də tutduq.

Səs. Mayor Lisaneviç qaçıb özünü erməni kəndinə saldı. Kəndi nə qədər axtardıqsa, tapılmadı. Ağdam, Qarabulaq yollarına da atlılar çapdı.

İşıq sönür.

İYİRMİ YEDDİNCİ ŞƏKİL

Ağabəyim ağa qara paltarda kənizləri ilə birgə səhnəyə daxil olur. Saday bəy ilə Əbülfət xan da oradadırlar.


Ağabəyim ağa. Bu nə dəhşətdir, ilahi! Azərbaycan torpağında axıdılan bu günahsız qanlar bəs deyilmi? Ey böyük Yaradan, sənin dərgahında mənim günahım necə böyükdür ki, mənə bu qədər əzab verirsən? Gör neçə ildir ki, mən bu qara libasdan çıxa bilmirəm? Əvvəl bu dünyadan nakam köçmüş bacım Səltənət bəyim... Sonra da... Yerlər, göylər bu dəhşətə necə dözdü, necə? Elə bil, məni dəmir məngənə arasına qoyub sıxırlar. Qoy böyük Yaradan sizin kimi Azərbaycan igidlərinin qılıncını əlindən salmasın. Bu, yalnız bizim faciəmiz deyil. İbrahim xanın rus padşahının sözlərinə inanıb, ona tabe olması bizim gələcək nəsillərimizin də faciəsidir. İbrahim xanın bu səhvi onları da tarixin müşkül tilsiminə saldı. Mənim əziz həmvətənlərim, Azərbaycan türkləri heç bir zaman yadelli padşahın zülmünə tabe olmayacaq. Həmişə vətənin azadlığı uğrunda vuruşacaq.

Dalbadal atılan güllə səsləri altında səhnə qaranlıqlaşır.


Pərdə.

1991.





POVESTLƏR



KÖRPÜSALANLAR

SƏRİYYƏ

Biz bir ilə yaxın idi ki, evlənmişdik. Mən yol texnikumunu qurtaran kimi də toyumuz olmuşdu. Baş yollar idarəsində mühəndis olan ərim Adil hər gün səhər saat doqquz tamama on dəqiqə qalmış işinə gedər, mən də bazardan ayın-oyun alıb gətirər, biş-düş edərdim. Dörd ay bundan qabaq bizə üçotaqlı təzə mənzil vermişdilər. O zaman mən otaqları gəzərək:

– Ay Adil, – deyə zarafat eləmişdim, – biz bu boyda evlərə nə qoyacayıq?

Adil də gülümsəyərək:

– Qəm çəkmə, düzələr, – demişdi.

Sən demə, çox ehtiyatlı oğlan imiş. Subay vaxtı əmanət kassasına azdan-çoxdan qoyubmuş... Atasıgil də kömək elədi. Qərəz, iki qarniturla bərabər, müasir dəbdə olan lazımi şeylər alıb otaqları ürəyimiz istəyən kimi düzəltdik.

Həyatımdan razı olmamağa haqqım yox idi. Adil kimi adama ərə getmişdim. Ortaboylu, yaraşıqlı bir oğlan idi. Olduqca təmiz-tarıx, səliqəli geyinərdi. Köynəyinin boynu həmişə qar kimi ağ olardı. Məclislərdə, cəmiyyət içində özünü ləyaqətlə aparardı, artıq-əskik danışmazdı. Hamı onun çox ağıllı, hər şeyin yerini bilən bir adam olduğunu, çox irəlilərə gedəcəyini söyləyirdi. Onun hər işində, hətta gülüşündə və zarafatında belə ciddi, sərvaxt bir ağlın hökm sürdüyü duyulurdu. Heç bir yerə, heç bir kinoya, teatra mənsiz getməzdi. Yad adamların yanında, məclisdə özümü necə aparmağım barəsində mənə tez-tez məsləhətlər verərdi. Mən öyüd-nəsihət sevməsəm də, incimәzdim. Əksinə, aramızda on bir yaş fərq olduğundan (o vaxt mənim on doqquz, onun isə otuz yaşı var idi), bunu qanuni bir şey hesab edirdim. Məsələn, o deyirdi ki, kimin üzünə gülümsəmək lazım olduğunu, kimə heç fikir verməməyi gənc qadın bilməlidir. Mən də onun bir tanışına rast gələndə dərhal bütün diqqətimi toplayaraq çalışırdım ki, müəyyən edim, görüm, mən bu adama qarşı nə cür mövqe tutmalıyam.

Etiraf edim ki, bəzən bu hal məndə bir əyləncəyə, bir zarafata dönürdü. Filan tanışın yanında özümü qəsdən tox tutmağım sonra Adillə mən tək qalanda qeyri-ixtiyari bir qəhqəhəyə çevrilərdi. Bu zaman o, təəccüblə üzümə baxar və qaşlarını çataraq heç bir söz deməzdi. Mən də onun xətrinə toxunduğum üçün könlünü almağa çalışardım. O, evdə olmadığı zamanlar güzgünün qarşısında dayanıb, məsələn, onun xoşu gəlməyən filan oğlanı gördükdə nə cür ciddi görkəm almaq lazım olduğunu məşq edərdim. Mən təqsirkar deyildim. Evimizdə bişməmişdi, qonşudan gəlməmişdi. Mən adicə bir zavod çi-

lingərinin qızı idim. Anam da azsavadlı, lakin sağlam, deyib-gülən, məzəli bir qadın idi. Ərimin istək və tələblərindən asılı olaraq, başqa kişilərə münasibətimdə öz hərəkətlərimi daim nəzarət altında saxlamaq mənim üçün o qədər də asan deyildi. Lakin bu məni qorxutmurdu. Ərimin məni istədiyini, mənə etibar elədiyini bilirdim.

Mən həyatımdan razı idim. Mən görmədiyim günə düşmüşdüm. Atamgildə yeddi baş ailə iki balaca otaqda yaşayırdıq. İndi isə... bayaq söylədiyim kimi, geniş, işıqlı otaqlar, televizor, soyuducu, paltaryuyan maşın, tozsoran... Ərimin atası adlı-sanlı həkim, yaxın bir qohumu nazir, başqa bir qohumu isə böyük bir trestin rəisi idi. Hər gecə kino, teatr, qonaqlıq... İndi bu sətirləri yazarkən, bir an dayanıb «filosofanə» xəyallara dalıram. «İnsan həyatı nə qəribədir, – deyə düşünürəm, – bəzən tuş tutub getdiyin yol haradan başlayır və səni haralara aparıb çıxarır... Əvvəl söyüd salxımlarının zərif kölgəsi ilə sakit-sakit axan çay birdən nə amansız burulğanlar yaradır... Başqasına bəxş etdiyin səadət bəzən necə sərt bir tikan olub onun qəlbinə sancılır. Sən isə buna qarşı biganə olursan. Kim deyər ki, bunların hamısı bizim iradəmizdən asılıdır... Kim deyə bilər ki, mən Adil üçün və ya o mənim üçün yaxşı olmaq istəmirdik... Kim deyə bilər ki, ya mən ondan, ya da o məndən öz ömrümüzü əsirgərdik...»

Biz, yəni mən və tələbə yoldaşlarım texnikumda oxuyanda, sanki daim bir yerdə uçub civildəşən, bir ağacda gecələyən bir dəstə quş idik. İndi isə mən o dəstədən ayrılıb tamam yeni bir aləmə düşmüşdüm. Etiraf edim ki, bəzən axşamçağları (məhz axşamçağları!) onlar üçün, vaxtilə mənimlə birlikdə civildəşən o quşlar üçün darıxardım, qəribsəyərdim. Belə anlarda, gündə on dəfə tozunu sildiyim güzgü kimi parlaq mebellərim mənə soyuq və yabançı görünərdi və mən «ah» çəkib pəncərədən məchul uzaqlara baxardım. Bəzən gecələr Adilə texnikumdakı oğlan uşaqları ilə etdiyimiz zarafatlardan danışıb, onun da bu məzəli əhvalatlara gülməsini istərdim. Lakin o, ancaq mənim könlümü sındırmamaq üçün xəfifcə gülümsər və tamam ayrı şeylərdən, ayrı aləmdən danışardı. Mən də öz yüngüllüyümü düşünüb özlüyümdə xəcalət çəkərdim. Adil böyük şeylərdən, insanın ali vəzifələrindən danışardı. Deyərdi ki, insan dünyaya daim inkişaf etmək, daha üstün «yaxşı»ya çatmaq üçün gəlmişdir.

Mən də özümü bir şey bilən kimi göstərərək:

– Adil, – deyərdim, – bilmirəm, hansı rus yazıçısı isə deyib ki, quş uçmaq üçün yarandığı kimi, insan da xoşbəxtlik üçün yaranmışdır...

O, ciddi bir görkəm alıb:

– Bilirsənmi, Səriyyə, – deyə cavab verərdi, – xoşbəxtliyin özünün nə demək olduğunu düzgün təyin etmək lazımdır. Əsl məsələ bundadır.

Onun bu sözlərini unutmadım. Lakin o sözlərin mahiyyətini dərk etmək, əsl xoşbəxtliyin nədən ibarət olduğunu anlamaq mənim gücüm çatan iş deyildi. Məni isə mühakimədən artıq duyğular cəlb edirdi. Mən təzə peyda olmuş yaz böcəyi kimi özümdən asılı olmayan bir həvəslə, daim günəşə-işığa, səhər-səhər otlar üzərində parıldaşan şeh damlalarına doğru qanad çalırdım və nə üçünsə mən bu ruhi vəziyyətimi öz dostumdan, həyat yoldaşımdan gizlədirdim. Mən mümkün qədər özümü sakit və ağıllı göstərməyə çalışırdım. Çünki o belə xoşlayırdı. O. hər şeyi diqqətlə, dürüst ölçüb-biçərək irəliləyir və mənim də belə etməyimi istəyirdi. Madam ki, biz həyat yoldaşı idik, demək, belə lazım idi!

Bir gün nahardan sonra o:

– Səriyyə, – dedi, – deyəsən, biz bir neçə müddətə rayona getməli olacağıq.

– Nədən ötrü? – deyə maraqla soruşdum.

– Təzə şose yolu çəkilməyə başlayıb, məni ora rəis təyin edirlər.

– Necədir? Ürəyincədirmi?

– Bilirsənmi, – deyə hərarətlə izah etməyə başladı, – bizim üçün çox yaxşı perspektivi olan bir işdir. Əgər yolu müvəffəqiyyətlə çəkib qurtarsaq...

O nə üçünsə susub sözünün ardını demədi və bir qədər var-gəldən sonra əlavə etdi:

– Sən də ali məktəbə girmək üçün. heç olmazsa, iki il işləməlisən. Özün də texnik adam, – deyə gülümsədi. – Söz verirlər ki, yolu çəkib qurtarandan sonra məni yenə də aparata qaytarsınlar. Əlbəttə...

O. yenə də bir an duruxdu:

– Əlbəttə, – dedi, – indikindən daha mühüm bir vəzifəyə...

Adilin müvəffəqiyyət qazanacağına şübhə ola bilməzdi. Baş yollar idarəsində işlədiyi bu neçə müddət ərzində o il olmamışdı ki, təşəkkür – mükafat almasın.

– Mən belə bir təsadüfü çoxdan gözləyirdim...

– İndiki vəzifən bəyəm pisdir? – deyə təəccüblə soruşdum.

– Pis deyil... Ancaq bir var, sən işləyəsən, ad özgənin ola, bir də var ki, öz əlin, öz başın! Bu elə vəzifədir ki, nə qədər gücün var, göstərə bilərsən. Hamı da görər ki, sən nə eləyirsən... Nəyə qadirsən...

Sonra mehriban səslə soruşdu:

– Bəlkə sən rayona getmək istəmirsən?

– İstəyirəm.

– Onda hazırlaş, qapıları bağlayıb gedərik, özümüz də tez-tez gəlib ev-eşiyə baş çəkərik.

... Kim istəyər ki, gənc əri ad-san qazanmasın, yaxşı işdə olmasın? Məgər Adil dediyi kimi, həyat daim yüksəlişdən, inkişafdan ibarət deyil? Bizim hər birimiz daha yüksəklərə can atmırıqmı? Mən onun qarşısında açılan yolda büdrəməyəcəyinə əmin idim. Mən onun gücünə inanırdım. Buna görə də, hardansa qəlbimə çökən və səbəbi mənə məlum olmayan ağırlığı üzərimdən ataraq, həvəslə tədarük görməyə başladım. Adilə də, özümə də su keçirməyən plaş, rezin uzunboğaz çəkmə, gələcək mənzilimiz üçün balaca radioqəbuledici, çoxlu foto lenti, cib fənəri, iki yüngül qatlama çarpayı, yemək və çay termosları aldım. Hər ikimiz üçün möhkəm nazik parçadan yay idman kostyumu tikdirdim. Boş vaxtlarımızda oxumaq üçün Adilin kitablarından seçib bir çamadan götürdüm. Nəhayət, may ayının axırlarında Baş Yollar İdarəsindən verilən «QAZ-69»la Bakıdan çıxıb «K» rayonuna getdik. Adilin də, mənim də maşın sürmək hüququmuz olduğundan şofer götürmədik. Adil işləri yoluna qoyana qədər mehmanxanada qaldıq. Bu müddətdə rayon işçiləri gecə-gündüz Adilin başına yığılır, hazırlıq məsələlərini müzakirə edirdilər. Sonra rayon mərkəzini tərk etdik. Yol rayondan başlayaraq, meşə ilə örtülü dağların o tərəfindəki yaylaqda təşkil edilmiş böyük maldarlıq sovxozuna çəkilməli idi. Adilin də deməsinə görə, o sovxozun bütün respublika üçün böyük əhəmiyyəti var idi. Yol çox uzun olmasa da, çətin yerlərdən keçməli idi. Tez-tez sıldırım qayaları partlatmaq, üzüaşağı axan dağ çayları üzərindən balaca körpülər salmaq lazım gələcəkdi. Maşınımız qədimlərdə yaylağa gedib-gələn el-oba tərəfindən salınmış köç yolu ilə irəliləyərək, meşəyə girib yavaş-yavaş yuxarı, dağlara qalxmağa başladı. Qoca palıd, yemişan, vələs ağacları üstümüzə kölgə salırdı. Bəzən yol qıvrılaraq hər yerdə palıd rəngli qayaların dibi ilə qalxırdı. Tez-tez daş yonan, iri gövdəli qocaman ağacları kökündən çıxaran fəhlələrə rast gəlirdik. Ara-sıra qabağımızdan yük maşınları gəlib keçirdi. Adil əlləri rulda, bunların hamısını diqqətlə nəzərdən keçirirdi. O, gələcək iş haqqındakı fikirləri ilə məşğul idi. Adil cəbhəyə təzə gəlmiş zirək, gözüaçıq bir komandan kimi bütün şəraiti öyrənirdi. O mənim ərim idi. Mən onunla fəxr edirdim. O, ağıllı və yaraşıqlı idi...

Mayın axırları olmasına baxmayaraq, meşə ağaclarından bəziləri çiçəyini tökməmişdi. Meşədə hələ bahar nəfəsi duyulurdu. Yaxın dağların zirvəsində qar görünürdü. Qayalardan göz yaşı kimi şəffaf sular sızırdı. Mən tez-tez yanımda oturmuş Adilə baxır, ona nə isə xoş bir söz demək istəyirdim. Meşə arası ilə dağlara qalxan yolda hər şey fərəhli idi. Hər şey mənə səadət, sevinc təlqin edirdi. Bax, ağ buludların altında gümüş kimi parlayan o dağları aşıb, tanımadığım adamların mənzilinə gedəcək yolun komandanı mənim ərimdir! Mühəndis Adil... Adil Cəfərzadə! Həyatda hər şey necə gözəl, necə könülaçandır! Nə üçün mən əvvəllər bunu o qədər də aydın hiss etmirdim?.. Bir neçə gün bundan qabağa qədər bu bahar, bu duyğular haradaydı? Məgər Adil əvvəllər də belə ağıllı, belə işgüzar, belə yaraşıqlı deyildi? Məgər mən onu bir neçə gün bundan qabağa qədər indiki kimi istəmirdim? Birdən mən ona:

– Adil, – dedim, – bilirsənmi, yadımdan çıxıb sənin gümüş portsiqarını götürməmişəm.

O. mənə baxaraq gülümsədi:

– Eybi yoxdur, – dedi, – bu dağların arasında gümüş portsiqarsız da ötüşərik.

Sonra o, yenə də gözlərini qabağa zilləyərək öz fikirlərinə daldı.

Mən dil qəfəsə qoymayaraq hey danışırdım:

– Adil, bəs səndən qabaqkı rəis necə olub?

– Onu ayrı, böyük işə keçiriblər.

Mən tutuldum. Mənə elə gəldi ki, xəyalımda ərimin surəti birdən-birə kiçildi. Birdən-birə adi və soyuq oldu: «Nə üçün həmin böyük işə səni deyil, onu qoyublar?» Bu nə axmaq, nə boş fikirdir?.. Yoxsa mən yüngülbeyin bir xudpəsəndəm? Kim birdən-birə nazir olub?!

Biz dolama yolla qalxıb, alt tərəfi göz qaraldan uçurum, üst tərəfi isə qalın meşəli dağ olan açıqlığa çıxdıq. İçərisindən dumduru su axıb şırıltı ilə uçuruma tökülən və sal daşdan çapılıb qayrılmış kimi görünən dar, lakin dərin selab bu açıqlığı tən ortadan kəsirdi. İki cavan oğlan kənarda dayanmışdı. Üçüncü oğlan isə parçalanıb yolun ortasına tökülmüş iri-iri daşları buldozerin ağzı ilə itələyib lap uçurumun kənarına gətirir, buradan üzüaşağı itələyirdi. Daşlar yuvarlandıqca uçurumun şiş qayalarına dəyib atlanır və dəhşətli gurultu qoparırdı. Buldozerçi üzü o tərəfə olduğundan, mən ancaq onun şax və enli kürəyini görürdüm. Buldozer uçurumun kənarına o qədər yaxın gedirdi ki, təkərin yarısı az qala kənara çıxır və mən yol texniki olmağıma baxmayaraq, qorxudan qışqırmaq istəyirdim. Birdən buldozerçi qanrılıb məni gördü. Yəqin bərk qorxduğumu duyduğu üçündür ki, qəribə bir qayğısızlıqla gülümsədi. Sonra iri bir qaya parçasını maşının qabağına ataraq sürətlə gətirib uçuruma itələdi və bir an mənə elə gəldi ki, bu dəqiqə maşın da qayanın ardınca dərəyə yuvarlanacaq. Lakin mən gözümü yumub-açınca gənc oğlanın eyni sakit və qayğısız təbəssümlə buldozeri geri verdiyini görüb, onun bir-birinə qarışmış sarı saçlarına, dağ havasında yanıb qaralmış gözəl üzünə qəzəblə baxaraq: – «Bu ki xuliqanlıqdır!» deməkdən özümü güclə saxladım.

Adil digər iki oğlanla söhbətini kəsib, mənə sarı döndü və bir qədər aralıda ağacların arasında ağaran çadırı göstərdi:

– Bəlkə biz də orada düşək?

Mən isə uçurumun kənarındakı tək palıd ağacını göstərib:

– Bura yaxşıdır, – dedim.

Şeylərimizi maşından boşaltdıq. Palıd ağacının altında çadırımızı qurub, çarpayıları, qatlama stol və stulları açaraq mənzilimizi səliqəyə saldıq. Evin içində döşəmə əvəzinə yaşıl dağ otları və onların arasına səpələnmiş al lələləri görmək adama qəribə gəlirdi.

Hələlik bura yol rəisinin qərargahı üçün ən əlverişli yer idi. Yol irəlilədikcə məskənimizi də dəyişə bilərdik. Adildən əvvəlki rəis isə rayon mərkəzində qalırmış.

Hər ikimiz paltarımızı dəyişəndən sonra məhrəba, sabun götürüb çaylağa endik. Qollarımızı, boyun-boğazımızı sərin, şəffaf dağ suyu ilə yuyub quruladıq. Heç birimiz yorulmamışdıq. İkimiz də gənc, gözəl və təravətli idik. İkimiz də özümüzü bu yerlərin köhnə sakinləri kimi hiss edirdik. Elə bil ki, burada, bu almaz kimi saf dağ havasında doğulmuşduq. Elə bil ki, bu uçurumlu sərt qayalarla, onların üzərində qıvrılan qarağat kolları ilə əkiz yaranmışdıq. Elə bil ki, biz bu coşğun təbiətin bir parçası, bir hissəsi idik.

– Adil, çay istəyirsənmi? – deyə soruşdum.

Öz səsimin ahəngindən, mehribanlığından dərin bir məmnuniyyət, zövq duydum. Mənə elə gəlirdi ki, heç bir zaman onu özümə bu qədər yaxın, bu qədər doğma hiss eləməmişəm. Və elə bu andaca buldozerçinin bayaqkı xuliqansayağı hərəkətini, mənə baxıb istehza ilə, qayğısızlıqla gülümsəyən gözlərini xatırlayıb əsəbiləşdim. Sonra eyni mehribanlıqla sualımı təkrar etdim:

– Adil, çay qoyummu?

O, nəzərlərini bir az aralıdakı tikinti materialından çəkərək:

– Pis olmazdı, – dedi.

Mən neft pilətəsini çölə çıxarıb yandırdım. Balaca nikel çaydanı doldurub üstünə qoydum. Stolun üzərinə ağ süfrə saldım. Şəkərçörəyi, konfet qoydum. Sonra körpüsalanları da çay içməyə dəvət elədik.

Əvvəl ortaboylu, qara-şirin bir oğlan olan Soltanla enlikürək, iri, qaraqaş, qarabığ Kərəmxan gəldilər. Sonra ağır addımlarla buldozerçi Qəribcan gəldi. Məni əsəbiləşdirən o laübalı təbəssüm yenə də üzündəydi. Mən ciddi görkəmlə onun qabağına çay qoydum, sonra:

– Sizin adlarınız bir-birinə nə yaxşı yaraşır, – deyə Soltana müraciətlə gülümsədim.

– Bunun əsl adı Qəribdir, – deyə Soltan buldozerçiyə işarə elədi, – burada Qəribcan eləmişik.

Lakin buldozerçiyə tərəf baxmadım. Adil nəzakətlə gülümsəyərək:

– Qərib yoldaş bu rayondandır? – deyə soruşdu və onun üç nəfərdən yalnız buldozerçinin haralı olması ilə maraqlanması mənə qəribə göründü. Həm də düşündüm ki: «Nə üçün Qəribcan yox, Qərib?!»

– Bəli, – deyə Soltan cavab verdi, – üçümüz də bu rayondanıq, ancaq kəndlərimiz ayrıdır. Qəribcan ordudan təzə buraxılıb.

– Eləmi? – Adil buldozerçiyə baxdı. – Hansı hissədəydiniz?

– Tank qoşunları hissəsində, – deyə buldozerçi cavab verdi. Mənə elə gəldi ki, ömrümdə bu cür səs eşitməmişəm... Qeyri-adi bir hərəkətlə başımı döndərib ona baxdım. Bu dəfə o gülümsəmirdi.

Adil yenə soruşdu:

– Sıravi idiniz?

– Kiçik leytenant idim.

– Çox gözəl... Çayınızı soyutmayın.

Mən onların stəkanlarını yenidən doldurdum. «Qəribcan...» Mən heç belə ad eşitməmişdim. Yalnız çox sonralar... indi bu sətirləri yazarkən, yadıma düşdü ki, mən o vaxtacan heç «Kərəmxan» adına da rast gəlməmişdim.

Adil yolda işlərin necə getdiyini soruşdu.

– Hamısı materialın vaxtında verilməsindən asılıdır, – deyə Soltan cavab verdi, – işçilər əllərindən gələni eləyirlər.

Sonra o, keçmiş yol rəisini tərifləmədi:

– Od-alov idi. Elə bil, quş kimi ağacda yatırdı. Onda görürdük ki, bu «QAZ-69»da (Soltan biz gələn maşına işarə elədi) böyürdən çıxdı.

– Dəsgahlı adam idi, – deyə Kərəmxan əlavə etdi, – hər ay maaşının yarıdan çoxunu Qəribcana uduzub gedirdi.

– Necə? Bəyəm qumar oynayırdınız? – Adil, elə bil ki, qorxdu.

– Bilirsinizmi, – deyə Soltan izah elədi, – həmişə maşında özü ilə bir tir tüfəngi gəzdirirdi... hər bura gələndə Qəribcanla bəhsə girib, mərclə nişan atırdılar...

– Nə bilim, bir dəfə ipək köynəkdən, – Kərəmxan Soltanın sözünü kəsdi, – bir dəfə on paçka «Kazbek»dən.. Bir dəfə konyakdan... hamısını da Qəribcan aparırdı, naçalnik də dilxor olub gedirdi... Deyirdin, tay bir də əlinə tüfəng almaz. Ancaq bir neçə gündən sonra görürdün, budur, uduzduğu şeyləri də alıb, bir qutu güllə ilə gəldi.

– Demək, belə «od-alov imiş»... – deyib Adil Soltanın bayaqkı sözlərinə işarə ilə gülümsədi.

– İşləməyinə söz yox idi, – Soltan cavab verdi, – dediyini eləməli idi. Bu günün işini sabaha qoymazdı.

– Əhli-hal oğlan idi, – Kərəmxan təəssüflə başını tərpətdi, – deyirdim, «yoldaş naçalnik, bir dəfə də mənimlə, bu Soltanla nişan atsana...». «Yox, – deyirdi, – gərək bu Qəribin dərsini verim, sonra... Məni bərk yandırıb».

– Nə yaman məzəli rəis imiş, – deyə mən gülümsəyərək, birinci dəfə Qəribcanın gözlərinə baxdım.

– Yaman da rəis imiş, – körpüsalanlar gedəndən sonra Adil narazılıqla dedi, – gənclərin tərbiyəsini elə belə rəhbərlər korlayırlar. (Körpüsalanlar, doğrudan da, çox gənc idilər. İyirmi üç-iyirmi dörd yaşları ancaq olardı).

– Nə üçün ki?

– Bilirsənmi, Səriyyə, rəis, idarə başçısı hər bir hərəkəti ilə, hətta danışığı və təbəssümü ilə də öz işçilərinə nümunə olmalıdır. Bir də ki... bir də ki, rəis rəisdir, fəhlə də fəhlə. Aradakı pərdəni götürdün, heç nə. Rəis öz işçisi ilə konyakdan mərc gəlib, güllə atanda, orada nə intizam olacaq, işçinin yanında rəisin nə hörməti olacaq?

Bunlar hamısı ağıllı sözlər idi və bu ağıllı sözləri mənim rəis olan ərim deyirdi. Lakin qəribədir, bəzən ağıllı hesab elədiyimiz sözlər biz gənclərin yadında yaxşı qalmır. Ürəyimizdə ehtiras alovlandırmır. Əksinə, bizdə anlaşılmaz, soyuq bir hissə çevrilir və biz onları tezliklə, elə həmin dəqiqə unuduruq. İndi də belə idi. Mən ərimin sözlərini təsdiq etdiyim halda, buldozerçinin keçmiş rəisi necə məğlub etdiyini, onun (rəisin) hər dəfə mərci uduzaraq, necə özündən çıxdığını gözümün qabağına gətirib gülümsəyirdim. Mən orada olmaq, o məzəli rəisi görmək istərdim.

– Niyə gülürsən? – Adil ciddi ifadə ilə soruşdu.

– Heç... keçmiş rəisin yüngüllüyünə.

Mən birinci dəfə olaraq, öz duyğularımı ərimdən, mənim ağıllı və işgüzar ərimdən gizləyirdim.

– Doğrudan da gülməlidir, – deyə o qalxıb körpüsalanların yanına getdi.

... Meşəli dağların ardındakı o varlı sovxoza çəkilən yolda qızğın iş gedirdi. Mən körpüsalanlarla birlikdə həm vəzifəmi yerinə yetirir, həm də özümüz üçün yemək-içmək hazırlayırdım. Adil isə «QAZ-69»da hər gün iş sahələrini gəzir, göstəriş verir, lazım olan materialları daşıdırırdı. O, qonşu rayonla əlaqəyə girib, yolun üstünə iki yeni ekskavator gətirtmişdi. Havalar yaxşı keçdiyindən, biz tələsir, payız yağışları başlayana qədər ağır işləri görüb qurtarmağa can atırdıq. İki dəfə, hərəsində də dörd fəhlə bizə köməyə gəldi. Lakin sonra daha kömək istəmədik. Bizdən bir qədər yuxarıda, Dəvəboyu deyilən dağın ətəyindəki iki selab üzərində də kiçik körpülər salınmasına başlanmışdı. Həftədə üç-dörd dəfə səhər tezdən mən «QAZ-69»a əyləşib, azuqə almaq üçün rayon mərkəzinə gedərdim. Bu zaman Soltan da mənə pul verib:

– Səriyyə xanım, – deyərdi, – bizim üçün də ayından-oyundan alın.

– Məsələn, nə cür ayın-oyun?– deyə mən də zarafatyana soruşardım.

– Nə bilim, ətdən, yumurtadan...

– Aydındır, – deyə maşını işə salıb tərpənirdim...

Əvvəllər özümüzlə yanaşı, onlar üçün də xörək asardım. Sonra bunun Adilə xoş gəlmədiyini hiss edib, vaz keçdim. Lakin, bununla bərabər, onun bu hərəkəti mənə yaxşı təsir bağışlamırdı. Məsələn, mən özümüz üçün kotlet hazırlarkən, qonşumuz körpüsalanların naharа bir şey bişirmədiklərini görüb vicdan əzabı çəkirdim. Sizdən nə gizlədim, hərdən Adil evdə olmayanda, onların çadırına gedir, könülləri nə istədiyini soruşur və cəld bişirib qayıdırdım. Bir gün də onların çadırına gedəndə buldozerçinin qapıda oturub üst köynəyinin yaxasına düymə tikdiyini gördüm. Mən onun bütün diqqətini toplamasına baxmayaraq, iynəni necə bacarıqsız işlətdiyinə gülümsəyərək:

– Verin mən tikim, – dedim.

O bunu gözləyirmiş kimi, darıxmış halda ayağa qalxaraq, köynəyi mənə uzatdı:

– Bu hazır paltarları elə başdansovma tikirlər ki, əyninə geyən kimi düymələri qırılıb tökülür.

Mən qopmuş düyməni tikib qurtarandan sonra o birilərini də bərkitdim.

– Deyəsən, köynəyi özünüz yumusunuz?..

– Bəli, özüm yumuşam. Bu həftə macal tapıb kəndə gedə bilmədik.

Mən ayağa qalxdım:

– Bu saat ütüləyib gətirərəm.

– Lazım deyil. Nə zəhmət çəkirsiniz ki...

– Bir zəhməti yoxdur.

Mən ütünü qızdırıb buldozerçinin köynəyini ütüləyirdim. Hər dəfə əlim köynəyə toxunarkən özümdə qəribə bir duyğu hiss edirdim. Elə diqqətlə, elə həvəslə ütüləyirdim ki, elə bil, hamı onun köynəyinə baxıb mənə afərin deyəcəkdi. Onun həmişə yaxasının yuxarıdakı düymələrini açıq qoyduğunu bilirdim. Ona görə də köynəyin yaxalığını buna uyğun tərzdə ütülədim ki, əyində qəşəng dursun. Mən köynəyin enli kürəyinə baxıb özümdə anlaşılmaz bir fərəh duyurdum. Mən köynəyin üzərində incə bir qırışın da qalmamasına səy edirdim. Birdən «QAZ-69» siqnal verərək sürətlə gəlib qapıda dayandı. Mən tələsmədən köynəyi səliqə ilə qatladım. Və elə bu zaman Adil çadıra girdi.

– Bu kimindir, Səriyyə?

– Buldozerçinin.

– Buldozerçinin köynəyini niyə sən yuyursan?

– Yumamışam, ütüləmişəm. Bir də... bir də, düyməsi qırılmışdı, tikmişəm...

– Axı, nə münasibətlə...

– Heç... elə-belə.

O, daha bir söz demədən sabun və dəsmal götürüb çadırdan çıxdı. Mən onun necə tez-tez addımladığına arxadan baxaraq, buldozerçinin köynəyini aparıb çadırlarında özünə verdim. Sonra eyni sakit addımlarla geri qayıdıb, çadırın qabağına sərin kölgə düşdüyündən, stolu bayıra çıxararaq, üstünə salat, göy-göyərti, çəngəl-bıçaq qoydum. Sonra təzə mal ətindən bişirdiyim xörəyi və qızartmanı boşqablara çəkib gətirdim. Bakıdan aldığım balaca qrafini soyuq su ilə doldurdum. İşdən qayıdarkən dağın döşündən dərdiyim çiçəkləri də stəkanda stolun üstünə qoymuşdum. Adil yuyunub qurulandıqdan sonra ikimiz də üzbəüz əyləşib nahar elədik. Stolun üstündə hər şey təmiz və təravətli idi, dağdan sərin və ətirli meh əsirdi. Bir qədər aralıdan meşə ağacları arasındakı körpüsalanların deyib-gülmələri eşidilirdi. Birdən Kərəmxan:

Uca barıdan aşaram mən,
Yarıma kəniz qoşaram mən,
O qızı mənə versələr,
Hacının qızını boşaram mən...

sözlərilə başlayan qədim və məzəli bir mahnı oxudu. Oğlanlardan hansı isə bərkdən çırtıq vururdu. Kərəmxan çırtığa uyğun tərzdə təkrar edirdi:

O qızı mənə versələr,
Hacının qızını boşaram mən...

Mən qeyri-iradi gülümsəyərək:

– Adil, – dedim, – nə olub, niyə qanın qaradır?

– Heç bir şey olmayıb... Sən də nahaq yerə hər axmaq sözə gülürsən...

Mən birinci dəfə idi ki, Adildən belə sərt sözlər eşidirdim. Birinci dəfə idi ki, o qızarıb-bozararaq, özünü saxlaya bilməyib mənə belə sözlər deyirdi. Nə olar, bəlkə mən, doğrudan da, yüngüllük eləmişdim. Bəlkə, doğrudan da, gülmək lazım deyildi. Bu körpüsalanlar da qəribə adamlardır! Belə sözləri haradan tapıb oxuyurlar? Necə yəni «o qızı mənə versələr, hacının qızını boşaram?» Ürəyimdə Adilə deyirdim: «Məni bağışla, əzizim, sənin məni tənqid eləməyə haqqın var... Axı biz həyat yoldaşıyıq. Lakin, əgər bir də o buldozerçinin, ya da məsələn, Kərəmxanın köynəyinə ütü çəkmək lazım gəlsə, mən bunu edəcəyəm. Sən də mənim bu cür hərəkətlərimə adət etməlisən. Başqa sayaq mümkün deyil...»

– Dur bir az uzan, Adil, yəqin ki, yorğunsan. Mən də stolu yığışdırıb körpüsalanların yanına gedəcəyəm.

– Körpüsalanların yanında nə var? İş vaxtı qurtarıb ki? – deyə o, üzümə baxmadan yavaş səslə soruşdu.

– Elə-belə, adam darıxır...

– Darıxırsan, götür kitabdan-zaddan oxu.

– Kitab oxumaq istəmirəm.

O, bir söz demədən qalxıb çadıra girdi. Mən də qab-qacağı təmizləyib yerbəyer elədim. Çaydanı doldurub pilətənin üstünə qoydum. Adil nahardan sonra iki saat dincəlib çay içəcəkdi. Bu, onun adəti idi.

Mən əl-üzümü yuyub qurulandıqdan sonra balaca stolun üstündəki güzgünün qabağında dayanaraq, saçlarıma ətir səpdim.

Adil arxası üstə çarpayıda uzanıb qəzet oxuyurdu.

Məni əhatə edən və hələ çiçəyini tökməmiş meşələrdən, bir az aralıda şırıldayan büllur kimi şəffaf dağ suyundan tutmuş, üzərində daim ağ bir qartal hərlənən uçuruma, ondan o yana görünən yaşıl dağlara qədər hər şey gözəl idi. Mən də gözəl və təravətli olmaq istəyirdim. Mən təbiətin bu coşğun ahəngindən, bu gözəllik təntənəsindən kənarda qalmaq istəmirdim. Mənim «sirrim» bundan ibarət idi.

Adil qəzeti üzündən kənar edərək acıqla soruşdu:

– Körpüsalanlar konsert verirlər?

– Yox, Adil, konsert vermirlər, tennis oynayırlar. Dünən o buldozerçi iki dəfə məni aparıb, gərək ondan qisasımı alım. Sən də uzan dincəl. Bir azdan çay dəmləyəcəyəm.

O, bir söz deməyərək yenə də qəzetə baxdı.

– Hələlik, Adilcan!

Çadırın qapısında Soltanla Kərəmxan tennis oynayırdılar. Buldozerçi isə yosunlu bir daşın üstündə oturub, bıçaqla əl çubuğu qayırırdı, məni görərkən üçü də gülümsədi. Buldozerçi cəld qalxıb, içəridən kətil gətirdi.

– Səriyyə xanım, gəl dostunun halını xəbər al, – deyə Kərəmxan qızarıb pörtmüş Soltana işarə elədi. (Tanışlığımızın lap ikinci günündən Kərəmxan da, Soltan da mənə «sən» deyə xitab edirdilər. Yalnız buldozerçi «siz» deyirdi). – Hələ iki dəfə birtəhər olub.

– Cücəni payızda sayarlar, – deyə Soltan gözünü oyundan çəkməyərək cavab verdi.

– Baxma, söz son gülənindir...

Bu dəfə, doğrudan da, Soltan qalib gəldi və hesab dörd ilə iki oldu. Kərəmxan alnının tərini silə-silə zarafatında davam edirdi:

– Bu iki xalı elə-belə qəsdən uduzdum, dedim, Səriyyə xanımın yanında pərt olmayasan...

Mən nazik parusin jaketimi çıxarıb kənara, otların üzərinə tullayıb, raketkanı götürdüm və buldozerçiyə:

– Durun, – dedim.

O, ayağa qalxaraq mənim jakетimi yerdən götürüb yandakı palıd ağacının budağına keçirdi. Sonra üzümə baxmadan:

– Başlayın! – dedi.

Kərəmxan oyunu diqqətlə izləyərək:

– Qəribcan, – deyirdi, – özünü gözlə, Səriyyə xanım bu dəfə yaman girişib...

Doğrudan da, mən yaman girişmişdim. Hətta gecə yerimin içində xeyli oyaq qalaraq, dünən buraxdığım səhvləri bütün aydınlığı ilə xəyalımdan keçirir və yanıb-tökülürdüm. Axı mən texnikumda ən yaxşı tennisçilərdən biri sayılırdım. İndi neçə dəfədir ki, bu buldozerçi dalbadal məni məğlub edir. Mən Soltanla Kərəmxana asanlıqla qalib gəldiyim halda, ona uduzurdum. Halbuki onlar təkbətəkdə buldozerçini dəfələrlə məğlub etmişdilər.

Bu gün həmişəkindən yüngül geyinmişdim. Ayaqlarımda məs, əynimdə qolları çiynimə qədər açıq nazik və qısa don var idi. Mən oyuna o qədər ehtirasla girişmişdim ki, bəzən özümü unudaraq:

– Yox, düz deyil, düz deyil, – deyə uşaq kimi qışqırır, cığallıq edirdim.

Soltan mənim tərəfimi saxlayırdı, Kərəmxan isə buldozerçinin. Bir dəfə buldozerçi ilə mübahisə elədiyimiz vaxt Kərəmxan onun sözünü təsdiq etdikdə, mən hirslənib özümdən çıxaraq az qala raketka ilə onu vurmaq istədim. Kərəmxan kənara sıçrayıb bərkdən güldü:

– Aya, sən ölmüyəsən, bu Səriyyə xanımdan qorxmaq lazımdır.

Buldozerçi isə nə dinir, nə də gülümsəyirdi. Üzündə elə bir ifadə vardı ki, elə bil, oyunu aparacağına qətiyyən şübhəsi yox idi. Bu da məni hər şeydən çox yandırırdı. Bu dəqiqələrdə mən onu məğlub etsəydim, ürəyimdən tikan çıxardı. Mənim özümə və ona acığım tuturdu. Onun üzündəki o qəribə ifadə və əlinin arxayın, sərbəst hərəkəti diqqətimin bir hissəsini oyundan yayındırırdı. Bəzi anlarda tennisdən ziyadə öz hisslərimin anlaşılmaz gərginliyinə uyurdum. Oyunda onu aldatmaq əvəzinə özüm aldanırdım. Belə hallarda o, xəfifcə gülümsəyir və sərrast zərbə endirirdi.

Bütün cidd-cəhdimə baxmayaraq, mən yenə də dünənki kimi məğlub oldum. Heç olmazsa, bir oyun da apara bilmədim. Saçlarımı düzəldərək, əlim çatmadığı üçün:

– Jaketi alıb mənə verin, – deyə acıqla buldozerçiyə müraciət etdim.

O, eyni sakit, sərbəst hərəkətlə jaketi budaqdan götürüb, geymək üçün iki əli ilə tutdu, mən də bu xidməti kibrli bir təşəxxüslə qəbul edib, ona təşəkkür etmədim.

– Bəs turu davam etdirməyək? – deyə Soltan məndən soruşdu.

– Bu günlük bəsdir, – dedim.

Daha oynamağa marağım qalmamışdı.

Kərəmxan içəridən bir boşqab təzə gilas gətirdi:

– İndi ki, oynamırsınız, gəlin novbar eləyin.

Mən yerdə otların üstündə oturub, onlarla birlikdə gilas yeyir və ağzımı büzüb çəyirdəyini uzağa üfürürdüm. Buldozerçi isə yenə də çubuğa naxış vururdu. Birdən o mənə baxaraq gülümsədi.

– Hə, nə var, – dedim, – yoxsa öyünürsünüz?

– Yox, – dedi, – sizin gilasın çəyirdəyini elə tullamağınız uşaqlıq günlərimi yadıma saldı. Bəhsə girib ağzımızı su ilə doldurardıq ki, görək kim uzağa atacaq...

– Demək istəyirsiniz mən də indi uşaqlıq dövrü keçirirəm?

– Yox, elə deməz, – Kərəmxan dostunun əvəzinə cavab verdi.

Buldozerçi gözləri əlindəki işində olduğu halda:

– Bəyəm uşaqlıq pisdir? – dedi, – indi uşaqlığımı mənə qaytarsaydılar...

– Nə edərdiniz? – deyə maraqla soruşdum.

Lakin o, qaşlarını çatıb cavab vermədi. Birdən-birə bütün acığım soyudu. Meh əsib onun yumşaq, sarı saçlarını hərdən tərpədir və bu zaman o mənə haradansa, uzaq, çox uzaq yerdən gəlmiş naməlum bir adam kimi görünürdü. «Nə üçün mən Kərəmxan və ya Soltanla olduğu kimi ona da «sən» deyə xitab eləmirəm. Nə üçün Adil də, mən də onu yoldaşlarından ayırırıq?.. Açıq olmasa da, ürəyimizdə ayırırıq...»

Elə bu zaman üçtonluq böyük yük maşını körpünün altına qoyulacaq boruları gətirdi. Dördümüz də qalxıb maşının qabağına yeridik. Oğlanlar köməkləşib, boruları maşından endirdilər.

Soltan şoferə düşüb dincəlməyi təklif etdi. Lakin o:

– Yox, gecdir, gərək tez qayıdam. Səhər tezdən sizin üçün sement gətirəcəyəm, – deyib maşını döndərdi.

Sərin axşam kölgəsində, çiçəkli otların içində yanaşı qoyulmuş üç paslı boru mənə üç təzə qonaq kimi qəribə bir təsir bağışlayırdı. Elə bil ki, onlar bu saat dil açıb bizə bir xəbər verəcəkdilər. Elə bil ki, onlarla bizim aramızda bir ünsiyyət, bir yaxınlıq vardı. Bu qara çuqun borular tər otlar içində sanki sevinirdi. Sanki onlar gülümsəyir və pıçıldaşırdı.

«Görəsən, uşaqlığı geri qayıtsaydı, bu buldozerçi nə edərdi? Ax, lap yadımdan çıxıb ki, Adilin duran vaxtıdır. Gecikmişəm...»

– Sağ olun, uşaqlar, mən qaçdım!

... Adil bayırda oturub, ucu həmişə səliqə ilə yonulmuş karandaşla dəftərçəsinə nə isə yazıb-pozurdu.

– Adil, çoxdan durmusan?

– Bir az olar...

– Bu saat çay dəmləyim. Bilirsənmi, borular gəldi...

– Gördüm.

– Adil, maraqlıdır, elə deyilmi?

– Nə maraqlıdır?

– Bu meşələrin, otların, çiçəklərin arasında çuqun borular görmək adama birtəhər gəlir...

– Necə yəni birtəhər gəlir?

– Heç özüm də bilmirəm. Ancaq buldozerçi yenə də məni apardı.

– Doğrudanmı?

– Lap yanıb-tökküldüm, bu gün onu elə məğlub etmək istəyirdim ki... Sənin üçün mürəbbə də gətirimmi?

– Gətir...

Mən balaca rozetkanı şəhərdən gətirdiyim gilənar mürəbbəsi ilə doldurub, stolun üstünə qoydum. Sonra çaylarımızı tökərək (mən rəngli çayın əsəbləri sakit etdiyini bildiyim üçün Adilin çayını tünd elədim):

– Adil, – dedim, – bu gün elə işləmişik ki, belə getsə, körpünü lap tez salacağıq.

Bir qədər susaraq əlavə etdim:

– Demək, bunu qurtarandan sonra yuxarıda, Qızılqayanın altındakı körpünü başlayırıq?

O, çayından bir qurtum alaraq, başı ilə təsdiq etdi.

– Bu yol, bu körpülər bizdən yadigar qalacaq. Kim bilir, bu yol ilə dağların o tərəfindəki o varlı fermalara nə qədər adam, maşın gəlib-gedəcək! Elə deyilmi, Adil?

– Elədir...

– Biz hələ cavanıq, hələ əsl işə yenicə başlayırıq. Eh, hələ nə qədər bu cür yollar, körpülər salacağıq... Bilirsənmi, bu Soltangil çox yaxşı oğlanlardır. O buldozerçi ki var, qiyabiçidir, Politexnik İnstitutunun mexanika fakültəsində oxuyur. Mühəndis olacaq...

– Nə bildin, özü dedi?

– Yox, yoldaşları dedilər. Dünən işdən sonra gördüm, fizika öyrənir. Adil, mən də qiyabi oxuyaram. Bu, daha yaxşıdır, elə deyilmi?

– Madam ki, sən istəyirsən, demək elədir. Ancaq o buldozerçi çox yaraşıqlı oğlandır... Bəzən dayananda elə bilirsən dahi bir rəssam tərəfindən çəkilmiş portretdir.

O bu sözləri mənim üzümə baxmadan, çayına mürəbbə saldığı zaman dedi. Mən heç ürəyim istəmədiyi halda, qalxıb özümə yenə çay tökdüm, sonra mən də ona baxmadan:

– Əvvəllər, – dedim, – mənə elə gəlirdi ki, o buldozerçi özündən bədgümandır.

– Nə barədə?

– Bilmirəm. Elə-belə. Ancaq bayaq hiss elədim ki, mənim düşündüyüm kimi deyilmiş... Adil, sən orduda olmusan?

– Yox, olmamışam. Ancaq institutda hərbi dərs keçmişik. Nə üçün soruşursan ki?

– Heç, elə-belə. Bu kiçik leytenant rütbəsi nəyə lazımdır? Ola bilməzdi ki, elə serjantdan sonra birbaşa leytenant rütbəsi gələydi?

– Bu suala cavab verməkdə çətinlik çəkirəm. Məncə, ola bilərdi...

– Məncə də ola bilərdi. Axı, kiçik leytenantla leytenantın arasında nə böyük fərq varmış ki... Mən hərbi nazir olsaydım, bu barədə düşünərdim... Adil, müharibə zamanı, məsələn, bir kiçik leytenant general rütbəsinə çata bilərdi?

– Çata bilərdi.

– Yox, Allah eləməsin müharibə olsun... Mən müharibəyə nifrət edirəm. Ona görə yox ki, qorxuram. Ona görə ki, müharibə sözünün özündə nə isə dəhşətli bir soyuqluq var, elə deyilmi, Adil?

– Elədir...

– Sabah körpü divarlarının bünövrəsini qoyacağıq. Mən istəyirəm bu yol tez çəkilib qurtarsın. «QAZ-69»a oturub birbaşa dağların arxasındakı o fermalara sürüm.

– Tək? – deyə o gülümsədi.

– Yox, əlbəttə, sənlə.

Mən indicə nə demək istədiyimi yadıma salmaq üçün bir neçə an susdum. Sonra:

– Hə, – deyə sevinclə davam etdim, – bilirsənmi, Adil, dağların dalındakı o fermalar bəzən mənə qəribə, əfsanəvi bir aləm kimi görünür. Mənə elə gəlir ki, orada həyat başqa cürdür...

– Yəni nə cür?

– Yəni... yəni daha sərbəst, daha xoşbəxt...

– Məgər biz burada sərbəst, xoşbəxt deyilik?

Mən susdum. Gözüm yol çəkdi.

– Əlbəttə, məncə, xoşbəxtik. Ancaq elə bil ki, burada çatmayan nə isə orada vardır. Elə bil ki, orada nə isə daha fərəhli bir şey görəcəyik...

Adil mənə cavab verməyərək uçuruma tərəf baxırdı... Günəş çoxdan batmışdı. Uçurumdan o yana dəniz kimi qaralan tək-tək işıq gəlirdi. Dərənin göz işlədikcə uzaq qurtaracağında güclə seçilən dağın döşündə isə yüzlərlə başqa işıqlar yanmışdı və elə görünürdü ki, elə bil, havada nəhəng bir gəmi dayanıb. Sanki bu gəmi məchul bir aləmdən gəlib, hara isə yenə də baş alıb gedəcəkdi. Hərdən körpüsalanların danışıq və gülüşləri eşidilirdi. Körpüsalanlar... demək, biz, yəni mən və onlar körpüsalanlarıq. Ancaq bu buldozerçi iki gündür, dalbadal məni tennisdə yaman aparır. Demək, əgər müharibə olsaydı, bu kiçik leytenant buldozer əvəzinə tankda oturardı. Kim bilir, bəlkə də qəhrəman olardı. Yox, mən müharibəyə nifrət edirəm. «Müharibə» sözü adamı üşüdür.

... Gecə çarpayıda arxası üstə uzanıb, gözlərimi qaranlıq çadırın qapısından görünən ulduzlarla dolu göyə zilləmişdim. Elə bil, ya-

nımızdan üzüaşağı sürətlə axan balaca çay öz gümrah şırıltısı ilə hey təkrar edirdi: «Biz körpüsalanlarıq... Biz körpüsalanlarıq...»

... Səhər tezdən ikimiz də eyni vaxtda qalxdıq. Məhrəba, sabun, diş fırçası götürüb suyun üstünə endik. Körpünün tikilişinə mane olmasın deyə, hələ biz gəlməmiş Soltangil digər fəhlələrlə birlikdə balaca çayı öz axarından başqa səmtə döndərmişdilər və bu yeni məcra o qədər də dərin olmadığından, su yayılaraq axırdı. Saysız-hesabsız xırda, rəngarəng daşlar bu şəffaf suyun içində muncuq kimi işıldayırdı. Haradansa zərqanadlı böcəklər uçub gəlmişdi. Günəş uçurumdan o yana, ta uzaq dağlara qədər uzanan dərəni parlaq işıqla doldurmuşdu. O ağ qartal yenə də uçurumun üzərində hərlənərək, aşağıları sakit və məğrur baxışlarla süzürdü. Dərənin dibindən orada-burada boz tüstü burumları qalxırdı. Yaxındakı ağacların yarpaqları arasında quşlar səs-küy salmışdılar. Biz yuyunub qayıtdıqda, Soltan, Kərəmxan və Qəribcanın rayona tərəf gedən yolda, əyinlərində qolsuz köynək, başıaçıq dayanıb yüyürməyə hazırlaşdıqlarını gördük. Mən məhrəba-sabunu tələsik Adilə verib körpüsalanların yanına yüyürdüm və onlarla yanaşı duraraq:

– Mən də ötüşürəm, – dedim.

Kərəmxan:

– Lap yaxşı, – dedi. – Ancaq şərtimiz budur ki, kim birinci çıxsa, dalda qalanların hərəsinə on beş lopuq vuracaq.

– Olsun! – dedim.

– Bax, yolun qırağındakı o yemişan ağacına qədər qaçacağıq.

Kərəmxan bunu deyib komanda verdi:

– Hazır ol! Bir, iki, üç!

Mən təxminən yüz metr məsafəni necə qaçdığımı bilmədən, ağaca çatıb, dərhal geri döndüm. Körpüsalanlar yalnız indi gəlib yetişdilər. Azı, on beş-iyirmi saniyə sonra...

– Sağ ol, vallah, – Kərəmxan tövşüyə-tövşüyə mənə baxdı.

– Hə, – dedim, – uzun söz nə lazım, sıraya durun, ovurdlarınızı hazırlayın.

Onların üçü də yanaşı durub ovurdlarını şişirtdi. Soltanla Kərəmxana lopuq vurandan sonra buldozerçiyə yaxınlaşıb:

– Boyunuz çox ucadır, bir az əyilin, – dedim.

O, uşaqla rəftar edirmiş kimi, gülümsəyib başını aşağı əydi, üzünü mənə yaxın tutub ovurdlarını şişirtdi. Bir bu üzünə, bir o üzünə elə vurdum ki, yazığın gözləri yaşardı.

Soltan bərkdən gülərək:

– Vur, Səriyyə, – dedi, – tennisdəki heyfimizi al.

Lopuqları vurub qurtarandan sonra buldozerçinin qızarmış üzünə baxdım:

– Hə, necədir, istəyirsiniz bir də qaçaq?

– Qaçaq, qaçaq! – deyə Soltan qışqırdı.

– Mənim işim deyil, – buldozerçi üzünü ovuşdurdu.

– Amma nə vurdu, – deyə Soltan ona nəzər saldı.

Bu vaxt «QAZ-69» sürətlə gəlib yanımızdan keçdi. Mən sükan arxasında oturmuş Adili görüb, çığırdım: «Bay, Adil niyə belə tez getdi?» Sonra dönüb tələsik çadıra gəldim. Adil çay içməmiş çıxıb getmişdi. Mən bir neçə saniyə hərəkətsiz dayanıb, onun stolun üstünə atılmış pencəyinə baxdım. Bu, dörd-beş ay bundan qabaq məhz mənim zövqümlə tikilmiş idmançı formasında açıq rəngli kostyumun pencəyi idi. Mən onun bu paltarını çox xoşlayırdım. Bu kostyumda o mənə daha yaxın və daha sadə görünürdü. Elə bil ki, bu kostyumu geyəndə, onun özünü ciddi və tox tutmaq cəhdi birdən-birə yox olub gedir, əvəzində mənim çoxdan tanıyıb-xoşladığım, gülüb-zarafat elədiyim gənc oğlan zahir olurdu və mən həmin bu səmimi oğlanın ərim olmasından məmnun qalırdım.

İndi mən bunları düşünərək pencəyə baxarkən, birdən o mənə bütün bizi əhatə eləyən varlıqdan təcrid olunub sonsuz boşluqda dayanmış kimi görünürdü. Bu yaxınlarda Mars haqqında yazılan bir məqalədə oxumuşdum ki, əgər Yer kürəsi daim sıfırdan aşağı filan temperaturda qalsaydı, o zaman bütün dənizlərin, okeanların yuxarı hissəsi, üzərini toz basmış bərk bir maddəyə çevrilərdi. Mən ürəyimdə nə isə soyuq və darıxdırıcı bir şey hiss edib, gözümü Adilin pencəyindən çəkdim. Sonra tamam qeyri-şüuri bir hərəkətlə irəlilədim, çaydanı götürüb özümə çay tökdüm. Eyni donuq hərəkətlə çörək kəsib üstünə yağ çəkdim. Lakin birdən-birə heç iştaham olmadığını hiss etdim və çörəyi süfrəyə qoydum, Adilin pencəyini stolun üstündən götürüb, burada meşə ağaclarından düzəltdiyim asqıya keçirtdim. Qəribədir, mən pencəyi əlimə alanda, sanki o, birdən-birə canlandı və elə bil, özü mənim əlimdən aralanıb asqıda bənd aldı. Bu gözəl yaylaq sabahında, yaşıl kol-kos altındakı qayalardan çıxaraq, günəşin brilyant şüalarını əks etdirib gümrah şırıltı ilə uçuruma tökülən suyun yaxınlığında, çadırın içindəki sükut dözülməz, ağır bir şeyə çevrildi. Mən heç nə düşünməməyə çalışaraq, cəld çadırdan çıxdım. Buldozerçi körpü salınan yerə gedirdi, üzünü təzə yumuşdu, saçları hələ yaş idi. Məni görərkən gülümsədi.

Mən yuyunandan sonra saçlarımı yaxşı səliqəyə salmadığımı xatırlayaraq, təkrar dönüb çadıra girdim və balaca stolun üstündəki güzgünün qabağında dayandım. Mənim sol yanağımda uşaqlıqdan ilyarasının yeri qalmışdı. Dünən biz tennis oynayanda iki-üç dəfə buldozerçinin nəzərlərini, ani olaraq, öz üzümdə hiss eləmişdim. O, həmin bu ilyarasının yerinə baxırdı.

Təbiətin qəribə işləri var. Vaxtilə məni çox incitmiş, əzab vermiş o yaranın yeri indi mənim üzümə, necə deyim, qəribə bir yaraşıq verirdi və bunu başqa birinin duyub-hiss etməsi, gizli olaraq, mənim xoşuma gəlirdi.

Mən özümü quş kimi yüngül və təravətli hiss edirdim. İşin üstünə getdim. Üç yoldaş buradaydı. Onlara yaxınlaşarkən Soltan bir kağızla avtomat qələmi uzadıb:

– Səriyyə, – dedi, – al, qol çək.

Mən kağızı alıb orada yazılmış bu sözləri oxudum: «Biz dörd yoldaş – Soltan, Kərəmxan, Qəribcan və bir də mən Səriyyə 1959-cu il mayın otuzunda həmin bu körpünün bünövrəsini qoyduq».

Mən onların imzasının yanından qol çəkib kağızı Soltana qaytardım. Sonra bünövrə yerini təkrar-təkrar nəzərdən keçirdim, hörüləcək divarların arasını təkrar ölçdüm. Hər şeyin layihədəki kimi olduğunu bir daha dürüst yoxlayandan sonra:

– İndi başlaya bilərik! – dedim. Mən fövqəladə bir iş görən adamlar kimi ciddi və həyəcanlı idim.

Soltan kağızı şüşəyə salıb, ağzını tıxacla möhkəm bağladı, sonra şüşəni bünövrəyə qoydu.

– Əmr olunsun, iyirmi bir topdan yeddi yaylım atəşi açılsın! – deyə Kərəmxan körpünün divarını hörməyə başladı.

Buldozerçi ilə Soltan bir-bir ona daş verirdilər. Bu bünövrəyə kağız yazıb qoymaq məsələsi heç mənim ağlıma gəlmədiyindən, özümü birtəhər hiss edirdim. Elə bil ki, mən nə isə tamam yeni bir aləmə daxil olmuşdum. Lakin bu «sirr» və bu «aləm» nə idi, nədən ibarət idi – mənə məlum deyildi. Qəribədir, mən Soltanla, Kərəmxanla danışıb güldüyüm halda, buldozerçiyə tərəf baxmırdım. Yalnız bir anlığa mənim başımdan son dərəcə xoşagəlməz bir fikir keçdi... Mənə elə gəldi ki, subay qızam və indicə həmin bu buldozerçiyə ərə getdim! Elə bil, o bünövrəyə qoyulan bizim nikah kağızımız idi. Mən əsəbi bir həyəcanla bu hissi özümdən qovaraq, başımı qaldırıb, cəsarətlə buldozerçiyə baxdım və ona müraciətlə:

– Heyif ki, – dedim, – Adil burada olmadı, yoxsa məktubda onun da adını yazardıq...

– Doğrudan da... – deyə buldozerçi ciddi ifadə ilə cavab verdi, – gərək naçalnik də olaydı.

Lakin onun sözləri məni təskin etmək əvəzinə, daha da əsəbiləşdirdi. Onun üzündə həddindən artıq ağıllı ifadə var idi. Cavabı da həddindən artıq ləyaqətli və ciddi idi. Mən boş vedrəni qapıb, bir kənarda düzəldilmiş palçığın yanına yüyürdüm və beli götürüb vedrəni doldurmağa başladım. Lakin buldozerçi yaxınlaşıb:

– Verin bura, – dedi, – sizin işiniz deyil.

– Yoxsa ki, siz göydən gəlmisiniz? – deyib, mən beli vermək istəmədim.

O, heç bir söz demədən zorla barmaqlarımı belin sapından qoparıb, onu məndən aldı...

Mən ona acıqlı bir nəzər salıb kənara çəkildim. Ona demək üçün, onu da özüm kimi hirsləndirmək üçün acı bir söz axtarırdım.

Lakin o sözü tapmadım. O, vedrəni doldurub apardı. Mən də əlacsız halda onun ardınca getdim.

Kərəmxan daşları üst-üstə qoyaraq, mənə müraciətlə:

– Sən, – dedi, – naçalnikin burada olmadığına görə darıxma. Hələ o qədər körpülər salacağıq ki...

«Lakin mən bir də bünövrəyə qoyulan kağızda adımın yazılmasına icazə verməyəcəyəm... Belə romantika nə mənə lazımdır, nə də Adilə! Qoy bu buldozerçi ilə yoldaşları öz adlarını yazsınlar! Lakin mən... mən istəmirəm. Buldozerçi ilə birlikdə istəmirəm. Bu mənə pis gəlir. Nə üçün pis gəlir?» O zaman mən bu suala cavab verə bilməzdim. Mən bu cavab haqqında heç düşünmürdüm də. Mən yalnız ruhi bir gərginlik və iztirab hiss edirdim. Hətta mən bu iki daşın arasında Adilin də qarasına deyinirdim.

«Mənim bu ərim nə qəribə adamdır! Çay içmədən, mənə heç bir söz demədən çıxıb gedir...»

Kərəmxan Soltanın verdiyi guşə daşını alıb hörgüyə qoyaraq:

– Səriyyə xanım, – dedi, – gələcəkdə bu Zoğallı körpüdən (körpü salınan yerdə çoxlu meşə zoğalı olduğu üçün biz ona «Zoğallı körpü» adını qoymuşduq) gəlib keçəndə bizi yada salarsan.

Soltan da dərindən nəfəs alaraq:

– Kim bilir, – dedi, – biz onda harada olacağıq...

Buldozerçi isə mənə baxmadan:

– Səriyyə xanım elə o zaman da bizimlə olacaq, – dedi.

– Doğrudan? – deyə mən qəzəblə ona baxdım.

– Doğrudan, – deyə o məni yandırıb-tökən bir arxayınlıqla cavab verdi.

Sonra bünövrəyə işarə ilə əlavə etdi:

– Adımız bir kağızda yazılıb bünövrəyə qoyuldu. Tay bizi bir-birimizdən ayırmaq olmaz.

Birdən ürəyimə anlaşılmaz bir vahimə çökdü. Mənə elə gəldi ki, «biz» dedikdə, buldozerçi məhz ikimizi, yəni özü ilə məni nəzərdə tutur və elə bil ki, onun bu sözlərində nə isə sehrli bir qüvvə, bir hökm vardı. Sonra belə bir mövhumata qapıldığıma bərkdən gülərək:

– Amma yaman da çoxbilmişsiniz, – deyə ona baxıb başımı buladım.

O isə mənə ciddi və sürəkli bir nəzər salıb dinmədi. «Yoxsa zarafat eləmir? Yoxsa bu buldozerçi bizim heç zaman bir-birimizdən ayrılmayacağımıza, doğrudan da, əmindir? Yox, mənim özünü belə əsrarəngiz göstərən adamdan xoşum gəlmir (halbuki indiyə qədər mən belə bir adama rast gəlməmişdim). Bu Soltan, Kərəmxan necə açıqürəkli, necə sadə oğlanlardır! Amma bu buldozerçi! Özünü elə aparır ki, elə bil, cadugərdir. Tutaq ki, həyatda, doğrudan da, belə

bir fövqəladəlik mümkündür. Lakin onun məni tilsimə salmağa nə haqqı var? Qəribədir... Bu boş şeylər haradan mənim ağlıma gəlir?»

Mən soruşdum:

– Usta Kərəmxan, səncə, divarları ayın on ikisinə qədər qurtara biləcəyik?

– İnşallah, qurtararıq, – deyə Kərəmxan keçmiş qocaların dili ilə cavab verdi.

Onun səsindəki inam və arxayınlıq sanki məni o üzüntülü xəyallardan ayırıb, təkrar öz adi vəziyyətimə qaytardı. Mən işgüzar bir ifadə ilə:

– Soltan, – dedim, – məncə, divarlar hörülüb qurtaran kimi boruları qoyub, bərkidə bilərik. Sonra da...

Bu vaxt dünənki üçtonluq maşın siqnal verə-verə düşərgəyə yanaşdı.

Soltangil maşında gəlmiş üç nəfər cavan fəhlə ilə birlikdə sement çəlləyini və başqa tikinti materiallarını yerə boşaltdılar. Sonra maşın həmin üç nəfər fəhlə ilə birlikdə qayıdıb getdi, mən də istirahət saatı olduğu üçün (biz hər gün saat on ikidən birə qədər tənəffüs edirdik) çadıra getdim. Naharın yaxşı olmasına hər zamankından daha artıq səy etdim. Adilin çaysız-çörəksiz çıxıb getməsi xoşuma gəlmirdi. Əlbəttə, əgər mən səhər oğlanlarla qaçışmasaydım, çadıra tez qayıtsaydım, Adil belə etməzdi. Lakin əgər sabah onlar yenə ötüşmək fikrinə düşsələr, mən mütləq o yarışda iştirak edəcəyəm.

Mənim plovum Adilin çox xoşuna gələrdi. Ona görə də düyü arıtlayıb, turşuqovurmalı plov bişirib dəmə qoydum. Stolun üstünə təzə ağ süfrə saldım. Badımcan şorabası çıxarıb doğradım (Adil bu məzəni çox sevdiyi üçün Bakıdan bir balon gətirmişdim), nazik, ağ yuxadan bir neçəsini sulayıb süfrəyə qoydum. Onu da deyim ki, bu yuxanı özüm bişirirdim. Kərəmxan mənə balaca bir sac gətirmişdi. Özüm xəmir yoğurub kündələyirdim. Sonra çadırın qapısında ocaq qalayıb sac asırdım. Bəzən Kərəmxan da yuxaları çevirməkdə mənə kömək edirdi, yəni mən yuxanı oxlovla yayıb sacın üstünə qoyurdum, o da dəmir şişlə çevirirdi. Belə vaxtlarda buldozerçi də çadırlarının qabağındakı balaca dikdirdə oturub, dinməz-söyləməz bizə tamaşa edirdi. Sağ olsun anam, mənə hər şeyi öyrətmişdi. Hər nə desəniz, bişirə bilirdim. Stolun üstünü tamam düzəldəndən sonra təkrar işin üstünə qayıtdım. Qəsdən heç nə yemədim. Mən istəyirdim ki, Adillə birlikdə iştaha ilə nahar edim.

Hələlik başqa işimiz olmadığından, üçümüz də hörgü işində Kərəmxana kömək eləyirdik. Körpünün divarı yüksəldikcə bizim həvəsimiz də artırdı. Kərəmxan:

– Biri kitab yazır, biri maşın çıxarır, – deyə hey danışırdı, – biri, nə bilim, nə icad eləyir... Bu körpü də bizim əsərimizdir. Elədir, yox?

– Elədir, – deyə Soltan təsdiq etdi. – Zarafat deyil, biz təzə bir dünya qururuq!

«Biz təzə bir dünya qururuq!» deyə mən ürəyimdə təkrar etdim və mənə elə gəldi ki, biz və bütün insanlar, o «təzə dünya»ya məhz bizim saldığımız bu körpüdən keçib gedəcəyik. Dağların o tayındakı varlı fermalar yenə də parlaq ulduzlarla dolu əfsanəvi bir aləm kimi qarşımda canlandı. «Oraya gedən insanlar bu körpüdən keçəcəklər. Körpünün bünövrəsinə isə bizim adımız qoyulmuşdur. Bizim! Buldozerçinin və mənim! Nə üçün buldozerçi ilə mənim? Bəs Soltan?.. Bəs Kərəmxan? Biz iki yox, dörd yoldaşıq! Biz körpüsalanlarıq!..»

Bu sözlər qəlbimdə gərgin duyğular və məchul intizar ifadə edən bir mahnının nəqəratı kimi təkrar olunurdu.

– Uşaqlar, – Soltan ruh yüksəkliyi ilə sözünə davam edirdi, – biz bu Zoğallı körpünü qurtaranda yuxarı Qızılqaya meşələrinin qiyamət vaxtı olacaq.

– Nə cür? – deyə mən maraqla soruşdum.

Bu dəfə Kərəmxan cavab verdi:

– Moruq yetişəcək, qarağatlar qızarıb qaralacaq...

– Bundan başqa, – deyə Soltan əlavə etdi, – aşağılarda, aranda isti düşəndə, Qızılqaya meşələri cənnətə dönür. Deyirsən, bəs havaya ətir səpmisən. Qızılqaya körpüsündən sonra Dəli Alı keçidində işə başlarıq. Ordakı körpünü də salıb qurtarandan sonra daha sovxoza çatırıq. Təzə naçalnik də ki, belə başlayıb (naçalnik dedikdə onlar Adili nəzərdə tuturdular), yol lap tez çəkilib qurtaracaq. Ondan sonra buyura bilərsiniz.

– Hə, – deyə Kərəmxan şirin bir nağıl başlayırmış kimi davam etdi. – Bir də görəcəksən böyründən qəşəng bir maşın keçdi. Səriyyə xanım oturub sükanın dalında, naçalnik də böyründə. Gedirlər fermalar olan yaylağa...

Bayaqdan bəri kimsənin üzünə baxmadan sükut içində Kərəmxana daş-palçıq verən buldozerçi gözünü hörgüdən çəkməyərək:

– Nə bilirsən, – dedi, – bəlkə rulun dalında naçalnikin özü oturacaq.

– Yox, – Kərəmxan etiraz etdi, – bilirəm ki, Səriyyə xanım rulu heç kimə verməz. Elə döyül, Səriyyə xanım?

– Elədir! – mən, buldozerçiyə meydan oxuyurmuş kimi bir nəzər salaraq, qətiyyətlə cavab verdim. – Mən oturduğum maşının rulunu başqasına verməyi xoşlamıram.

– Naçalnik ki, başqası deyil, – buldozerçi yenə də gözləri hörgüdə olduğu halda gülümsədi.

Mən tutularaq bir neçə saniyə susdum. Sonra özümü topladım:

– Əlbəttə, başqası deyil, – deyə qürurla cavab verdim.

Yalnız bu zaman o, gözlərini hörgüdən çəkib mənə ciddi bir nəzər saldı. Etiraf edim ki, onun belə gözlənilməyən ani baxışları çox

təsirli olurdu. Sanki mən qəlbimdə gizlənən hansı bir sirri isə onun görüb-duyduğunu hiss edərək, dərhal mülayim və qorxaq bir vəziyyət alırdım. Bəlkə bu mənə belə gəlirdi.

Soltan:

– Uşaqlar, – dedi, – işimiz bu cür getsə, körpünü vaxtından azı on beş-iyirmi gün qabaq qurtaracağıq. Siz nə fikirdəsiniz?

– Mən lap srağagündən o fikirdəyəm, – deyə Kərəmxan cavab verdi.

– Mən zarafat eləmirəm.

– Kim deyir ki, mən zarafat eləyirəm...

– Yaxşı, siz nə deyirsiniz? – deyə Soltan buldozerçi ilə məndən soruşdu.

«Bu oğlan nə üçün məhz ikimizə birlikdə müraciət edir?» deyə mən, sanki diksindim və özümü onda qoymayaraq, dərhal Kərəmxan kimi zarafatyana cavab verdim:

– Mən srağagündən o fikirdəyəm.

– Elə isə, yaşasın körpüsalanlar!

Saat dördə az qalmış Adil işdən qayıtdı. «QAZ-69»u çadırın qapısında qoyaraq, düşüb bizim yanımıza gəldi. Onun kefi kök idi. Doğrusu, bu gün mən belə gözləmirdim...

– Hə, uşaqlar, işlər necə gedir?

– Pis deyil, yoldaş naçalnik, şikayətimiz yoxdur.

– Bu gün nazir özü mənə zəng eləmişdi... İşimizdən çox razı qaldığını bildirdi.

Mən buldozerçiyə baxdım. Birinci dəfə biz bura gələrkən gördüyüm və məni əsəbiləşdirən o məğrur təbəssümü yenə də üzündə idi. Elə bil ki, o, buldozeri yenə də lap uçurumun kənarına qədər sürür və mənim qorxmağımdan ləzzət alırdı...

– Yaxşı işləyənlərin haqqında danışdım. Sizin də adınızı dedim (o, Soltana müraciətlə «sizin də» sözünü xüsusi vurğu ilə dedi). Özüm də xahiş elədim ki, redaksiyalardan biri ilə danışsın, adam göndərsinlər, gəlsin baxsın, oçerkdən-zaddan yazsın...

Lakin Soltanın da, Kərəmxanın da üzü birdən-birə ciddi və soyuq ifadə aldı. Buldozerçi eyni təbəssümlə Adilə deyil, mənə baxırdı.

– Oçerk yazsalar da olar, yazmasalar da, – deyə Soltan cavab verdi.

– Nə üçün? – Adil təəccüblə soruşdu. – Qabaqdan respublikanın böyük bayramı gəlir. Orden-zad məsələsi olacaq.

Kimsə dinmədi. Araya dərin sükut çökmüşdü. Ayrı vaxt dil qəfəsə qoymayan Kərəmxan da bir söz deməyərək, pərgar götürüb, hörgünün düz qalxıb-qalxmadığını təkrar yoxladı.

– Nazir dedi, bəlkə, özüm də gəldim...

– Gedək, Adil, yəqin ki, sən bərk acsan, səhər də heç nə yeməyib getmisən.

O, heç bir şey başa düşməyən adamlar kimi, oğlanlara və mənə baxdı. Sonra bir söz demədən mənimlə birlikdə dönüb çadıra getdi. Geyimini dəyişdi. Yuyunub-qurulanaraq gəlib əyləşdi.

Körpüsalanlar nə isə danışıb bərkdən gülüşdülər. Mən bir boşqab plov çəkib Adilin qabağına qoydum.

– Özünə nə üçün çəkmirsən?..

– Özüm hələ acmamışam.

– Bəs, mən tək...

– Eybi yoxdur. Tək yeyəndə nə olar ki?

– Nazir bizdən çox razıdır...

Körpüsalanlar nə isə danışıb-gülüşürdülər...

– İşin başlanğıcı üçün bu yaxşı əlamətdir, elə deyilmi?

– Elədir, Adil.

– Bilirsənmi, bizim nazir çox avtoritetli adamdır, – deyə o, eyni ruh yüksəkliyi ilə davam edirdi. – Yuxarılarda bir sözü iki deyil...

Kərəmxan oxuyurdu:

Pəncərədən daş gəlir,
Ay bəri bax, bəri bax.
Xumar gözdən yaş gəlir,
Ay bəri bax, bəri bax...

Sonra üçü də birlikdə təkrar edirdi:

Ay bəri bax, bəri bax...

– Sən bunların üstündə möhkəm dur, – Adil körpüsalanlar tərəfə işarə elədi.

– Necə yəni «üstündə möhkəm dur»?

– Yəni qoyma vaxtlarını laqqırtı ilə keçirsinlər.

– Onlar, onsuz da, vaxtlarını laqqırtı ilə keçirmirlər. Dünəndən soyuq dovğa var, gətirimmi?

– Sağ ol, hələlik bəsdir.

O, naharını bitirib stulunu geri çəkdi. Mən qalxıb süfrəni yığışdırdım. Onun üzünə baxmasam da, tutulduğunu, qayğılı görkəm aldığını hiss edirdim. Mən qabları ehtiyatla götürmürdüm, bir-birinə vurub səs salırdım. Bu dəqiqə bu qablardan mənim xoşuma ən çox gələni, məsələn, incə çinidən olan bu zərli salat qabı düşüb sınsaydı, çox yaxşı olardı.

Kərəmxan isə oxuyurdu:

Pəncərədən daş gəlir,
Ay bəri bax, bəri bax...

Adil nahardan sonra qəzet oxumaq istədi. Lakin tezliklə onu kənara ataraq, qalxıb çadıra girdi və arxası üstə çarpayıya uzanıb, sağ əlini gözünün üstünə qoydu.

Mən süfrəni yığışdırıb çaydanı plitənin üstünə qoyandan sonra körpüsalanların yanına getmədim. Çadıra da girmədim. Qapıda oturub gözümü uçurumdan o tərəfdə görünən mənzərələrə dikdim. Dərə dəniz kimi dərin, geniş və mavi idi. Dərədən o yanda, uzaqlarda xəfif duman altındakı meşəli dağlar bir xəyala bənzəyirdi. Uçurumun üzərində hərlənən o cəsur qartal, yəqin ki, istədiyi vaxt bu ucsuz-bucaqsız dərənin üstündən süzüb keçər və uzaq dağların zirvəsinə qona bilərdi.

Mən ağlamaq istəyirdim. Mənim həyatım və bizim yerə mıxlanmış bu brezent çadırımız son dərəcə durğun və cılız idi. Mən təbiətin bu əzəməti içində ikən ondan uzaq və pərişan idim. Mən nə istəyirdim? Bilmirdim. Lakin mən bu dəniz kimi dərin və mavi dərədən axıb gələn səssiz simfoniyanı dinlədikcə, taleyimin həm də fərəhli olmadığını acı-acı hiss edirdim. Mənə elə gəlirdi ki, kim tərəfindənsə təhqir olunmuşam, alçalmışam. Halbuki dünyada uçurumun üzərində hərlənən, sərt qayaları hakim nəzərləri ilə süzən bu ağ qartal kimi yaşamaq mümkündür! Kim deyir ki, mən acizəm? Kim deyir ki, mən koramal kimi güneylərdə sürünmək üçün yaranmışam?! Təbiətin bu təntənəsinə qovuşmaqda kim mənə mane ola bilər? Nahaq yerə bu Qəribcan buldozeri lap uçurumun kənarına sürməklə məni qorxutmaq istəyirdi. Mən duyğuların əsarətinə, köləliyinə nifrət edirəm!..

Mən bu mavi dərənin oxuduğu mahnıda əsl insan ləyaqətinin nəhayətsiz və azad yüksəlişini hiss edirəm.

Yox, mən ağlamaq istəmirəm!

... Mən çayı dəmləyib, təkrar işin üstünə getdim və bu dəfə onların məni necə soyuq qarşıladıqlarına, özlərini necə məğrur tutduqlarına təəccüb etmədim!.. Mən belə də gözləyirdim. Onlar həmin bu dəniz kimi dərin dərənin üstündən süzüb keçərək, gümüşü duman altındakı o dağlara çata bilən cəsur qartallar idi! Mənim kimi, onlar da duyğuların köləliyinə nifrət edirdilər. Lakin onlar mənim kim olduğumu bilmirdilər. Bu dəqiqələrdə onlar məni özlərinə yad hesab edirdilər. Onlarla mənim aramdakı sədd nədən ibarət idi və bu səddi necə vurub uçurtmaq olardı? Buldozerçi gör necə qaşqabaqlıdır! O, bir dəfə də olsun mənə tərəf baxmır. O mənə nifrət edir.

– Bu gün tennis oynayırıqmı? – deyə nəvazişlə gülümsəyərək ondan soruşdum. Və birdən-birə özümün qırx səkkiz kilo gələn çəlimsiz, yazıq bir qız olduğumu hiss etdim (çox qəribədir, hələ də mənə elə gəlirdi ki, qadın deyiləm, bakirə bir qızam). Lakin bu duyğu yalnız bir an davam etdi.

– Bu gün mənim vaxtım yoxdur, – o mənə baxmadan təşəxüslə cavab verdi:

– Doğrudan? – deyə başımı azca yana əyərək kinayə ilə sözü uzatdım. – Yəni sizin vaxtınız o qədər qiymətlidir?

O mənə nifrət və qəzəb dolu uzun bir nəzər salaraq:

– Yox, – dedi, – elə bircə sizin ərinizin vaxtı qiymətlidir.

«Afərin buldozerçi!»

– Qərib! – Soltan ona acıqlandı.

Lakin buldozerçi sanki onu eşitməyərək:

– Bilirsinizmi, – deyə mənə müraciətlə sözünə davam etdi, – yaxşısı budur, siz ona deyin ki, öz nazirinin mərhəmətindən az danışsın. Biz nə onun, nə də nazirin «sağ ol» deməsi üçün işləmirik.

Mən kirpiklərimi qırpmadan düz onun gözlərinə baxırdım.

– Yaxşı! – deyə Soltan təkrar məzəmmətlə səsləndi, – sən də qəribə adamsan. Səriyyə xanımın nə günahı var?

Mən gözlərimi buldozerçidən çəkməyərək, işgüzar bir məsələdən danışırammış kimi, sakit və arxayın ifadə ilə:

– Yaxşı, – dedim, – mən sizin sözlərinizi olduğu kimi Adilə çatdıraram.

– Çatdırın, yoxsa...

– Qərib, daş ver! – deyə Kərəmxan onun sözünü kəsdi.

Mən axşamçağı Adillə oturub çay içdiyimiz zaman buldozerçinin sözlərini olduğu kimi ona söylədim. Sonra onun boşalmış stəkanına yenidən çay tökərək:

– Hələlik, Adil, – deyib körpüsalanların yanına tennis oynamağa getdim.

Mən buldozerçinin sözlərinə qarşı Adilin nə deyəcəyini soruşmadım, çünki bunu soruşmaq mənim üçün çox çətin idi. Bir də ki, buna ehtiyac yox idi.

... Soltanla Kərəmxan oynayırdılar. Buldozerçi isə əllərini başının altına qoyaraq, arxası üstə uzanıb göyə baxırdı. Mən gələn kimi qalxıb oturdu. Lakin mənə deyil, uçuruma tərəf baxdı.

Kərəmxanla Soltan qurtaran kimi mən raketkanı aldım və buldozerçiyə amiranə:

– Durun, görək, – dedim.

Sonra düz onun gözlərinə baxıb əlavə etdim:

– Mən sizin sözlərinizi olduğu kimi rəisə söylədim.

– Çox sağ olun!

Onun kefi birdən-birə kökəldi və o, çevik hərəkətlə qalxıb oynamağa başladı. Hiss edirdim ki, o, indi mənim qalib gəlməyimə çalışır, qəsdən səhv edir. Ona görə də əl saxlayıb, eynilə bayaq körpünün üstündə onun söylədiyi sərt ifadə ilə:

– Bilirsinizmi, – dedim, – mən kimsənin mərhəmətinə möhtac deyiləm. Xahiş edirəm, nə qədər bacarırsınız, ciddi oynayın.

O mənə baxaraq:

– Doğrudur, – dedi və yenə də məni apardı.

Sonra biz Soltanla Kərəmxanın yanında, göy otların üstündə əyləşib söhbət elədik. Soltan:

– Səriyyə xanım, – dedi, – siz Qəribcanın bayaqkı sözlərindən inciməyin.

– Mən inciməmişəm.

– İnciməyiniz də lazım deyil. Siz də bizim yoldaşımızsınız. Bu balaca körpü bizi bir ailə kimi etmişdir. Əgər bizim işimizdən nazirin, ya da rəisin xoşu gəlirsə, lap yaxşı. Ancaq gərək onlar elə düşünməsinlər ki, biz özümüzü gözə dürtmək üçün, kiminsə «sağ ol»unu qazanmaq üçün əlləşirik.

O, bir qədər susub yoldaşlarına baxdı. Kərəmxan da, buldozerçi də gözlərini yerə dikib onu dinləyirdilər.

Soltan qəddini düzəldib, tanışlığımızdan bəri birinci dəfə onda görüb-hiss etdiyim məğrur, ötkəm bir əda ilə:

– Biz, – dedi, – xalq üçün, ölkəmiz üçün işləyirik. Biz istəyirik ki, dağların o tərəfindəki fermalara gedən yol tez salınsın. Yəqin yoldaş rəis özü də bunu istəyir. İnsafən, işdən çox möhkəm yapışıb.

– Əlbəttə! – deyə mən buldozerçiyə baxdım. – Adilin işləməyinə nə söz ola bilər?

Soltan:

– Biz rəisi də, lap naziri də öz yoldaşımız hesab edirik, – dedi.

«Lakin biz istədiyimiz vaxt bu qorxulu uçurumun, dəniz kimi dərin və ucsuz-bucaqsız olan bu mavi dərənin üzərindən süzüb keçərək, zirvəsində ulduzlar yanan o qəlbi dağlara qona bilərik» deyə mən qəlbimdə, xəyalımda onun nitqini davam etdirirdim. «Biz kirdə duyğuların cəbrinə nifrət edirik! Görəsən, Adil durub gedib? Adilə çay vermək lazımdır. Adil məni gözləyir».

Birdən Kərəmxan başını qaldırıb:

– Yaşasın körpüsalanlar! – deyə nəşə ilə səsləndi.

– Sabah istirahət günüdür. Yəqin ki, evinizə gedəcəksiniz? – qüssə ilə soruşdum.

– Yox, – Soltan cavab verdi, – sabah ova gedəcəyik.

– Ova? – deyə sevinclə səsləndim. – Mən də gedəcəyəm...

– Sizin üçün çətin olar. Biz ayı ovuna gedəcəyik.

– Ayını neyləyirsiniz?

– Ətini satacağıq, dərisini də, püşk atacağıq, kimə düşsə, o götürəcək.

– Mən də gedəcəyəm.

– Qorxmursunuz?

– Yox, qorxmuram.

– Yaxşı, gedək.

– Ayının yerini bilirsiniz?

– Bilirik.

– Səhər nə vaxt çıxacaqsınız?

– Lap tezdən.

– Hələlik.

Mən qalxıb öz çadırımıza getdim.

... Adil yolun xəritəsini bayırdakı stolun üzərinə sərərək baxır və başqa bir kağızda nə isə haqq-hesab edirdi. Mən çadıra gedib fənəri yandırdım, çarpayıların üstünü açdım. Adilin gecə yeməsi üçün balaca kasada çaldığım qatığın necə uyuşduğunu yoxladım və sərin olsun deyə qabı üstündən götürdüm. Paltarımı çıxarıb xalat geydim. Daha görüləcək bir işim olmadığından çıxıb Adilə mane olmamaq üçün ondan bir az aralı, kətilin üstündə oturdum. Hava qaralmışdı. Çadırın ortasından asdığımız fənər Adilin üzünü və qabağındakı kağızları işıqlandırırdı.

Qaranlıq meşədən ara-sıra yuvalarına gecikmiş quşların səsi eşidilirdi. Texnik olduğuma baxmayaraq, Adilin yazdığı, haqq-hesab elədiyi rəqəmlər mənə birdən-birə son dərəcə cansıxıcı göründü. Mənə elə gəldi ki, bizi əhatə eləyən qaranlığın sonu yoxdur. Elə bil ki, min ildir biz bütün işıqlı və canlı aləmdən ayrı düşərək bu cür sükut edirik. Min ildir Adil bu quru rəqəmləri yazıb-pozur. Mən əllərimi qoynumda «çarpazlayıb» dərindən «ah» çəkdim (bu, necə oldu bilmədim, çünki mənim «ah» çəkməkdən zəhləm gedərdi). Adil başını kağızların üzərindən qaldırıb, işıqdan qaranlığa – mənə baxdı və çox qəribə bir təbəssümlə:

– Nə olub, Səriyyə? – dedi.

Sonra mənim cavabımı gözləmədən yenə də haqq-hesabını davam etdirdi.

«Nə olacaq? Heç bir şey!» deyə mən ürəyimdə cavab verdim.

Doğrudan da, nə olmuşdu ki? Mən heç nə bilmirdim. Mənim nəzərlərim və xəyalım bizi əhatə eləyən bu qatı qaranlıq içində itib-gedirdi. Uzaqlarda, dərədən o yandakı dağların döşündə hava gəmisinin çıraqları kimi görünən işıqlar isə mənim əsəblərimə toxunurdu. Qaranlıqda gizlənmiş çiçəklərin ətri mənə soyuq, dözülməz kədər təlqin edirdi. Birdən hardansa bir daş qoparaq, qaranlıqda gurultu ilə qayalara dəyib uçurum aşağı yuvarlandı. Gurultu getdikcə uzaqlaşaraq, dərənin dibində boğuq bir uğultuya çevrildi.

Adil başını kağızın üstündən qaldırmayaraq:

– Yəqin, – dedi, – yuxarıda, haradansa əlikdən-zaddan keçdi.

Mən birdən-birə sanki canlanaraq fövqəladə ruh yüksəkliyi ilə:

– Adil, – dedim, – sabah biz ayı ovuna gedəcəyik.

O, işıqdan qaranlığa – mənə baxaraq bir neçə saniyə dinmədi və sonra olduqca arxayın cavab verdi:

– Nə olar, gedin. Deyirlər, ayı ovu çox maraqlı olur.

Adil başını aşağı salıb yenə də işləri ilə məşğul oldu. Lakin biz insanlar anadan qəribə doğulmuşuq. Bizim kim olduğumuzu duyub-dərk edə bilmək üçün dünyaya bir yox, yüz minlərlə loğman gəlib-getməlidir. Ərimin mənim körpüsalanlarla ayı ovuna getməyimə bu qədər asanlıqla, bu qədər arxayınlıqla razı olması məndə ona qarşı amansız bir acıq, bir qəzəb oyadırdı.

Mən durub çadıra girərək soyundum. Əynimdə yalnız qolsuz ipək köynək qalanda, balaca güzgüdə öz əksimə baxdım. Üzümün, boy-buxunumun, bədənimin yaraşığından bu vaxta qədər hiss eləmədiyim bir məmnuniyyət duydum. Özümə məftun nəzərlərlə baxdım. Sonra şıltaq, xudpəsənd bir ləzzətlə çarpayıma uzandım. Qapıdan dolan sərin meh üzümə toxunub saçlarımı tərpətdikcə, mən öz gözəlliyimi daha dərindən hiss edirdim. Hiss edirdim ki, mən özüm bu sükut edən kainatın, bu qaranlıq gecənin sevinci, səadətiyəm. Mən əsl və qüdrətli həyatın özüyəm! Mənsiz bu dünyada yaşamaq heç nəyə dəyməz. Körpüsalanların qüruru, çadırımızın böyründən axıb uçuruma tökülən suyun şırıltısı mənimlə tamamlanır, mənimlə həmahəng olur. Dünyanın bütün dahi şairləri məni tərənnüm etmişlər.

Mən acıqlı halda belə düşünür, belə hiss edirdim. Lakin mənim bu xudpəsənd bəxtiyarlığımda nə isə çatmırdı. Sanki yatağıma saysız-hesabsız balaca tikanlar dolmuşdu və hər dəfə o tərəf-bu tərəfə çevriləndə bu tikanlar bədənimə batır, məni zəhlətökən bir ağrı ilə incidirdi.

Nəhayət, Adil durub işığı söndürdü, soyunub yerinə girdi və elə bil ki, çadırda qaranlığın hakim olması ilə, Adilin çarpayısının xəfifcə səslənməsi ilə bayaqdan bəri məni göyün yeddinci qatına çıxaran səadətim də uçub getdi. Mən yenə də bu ucsuz-bucaqsız qaranlığın içində yalqız qaldım. Mən sabahkı ov barəsində düşünərək yuxuya getdim.

Səhər hava işıqlanar-işıqlanmaz qalxıb ayağı büzməli şalvar və qısa corabla yüngül məs geydim, çayda əl-üzümü yuyub qayıtdığım zaman Adil də oyanmışdı. O, əllərini başının altında çarpazlayıb, çadırın qapısından görünən və hələ qaranlıq olan meşəyə baxırdı. Mən jaketimi geydim və balaca çamadanıma dörd adamlıq çörək, kotlet qoyaraq:

– Hələlik, Adil, – dedim, – termosda kakao var, kotlet də bişirmişəm.

– Termosu sən götürsən yaxşıdır, mən bu gün kakaosuz da ötüşərəm.

– Yox, hələlik, Adil!

– Hələlik, Səriyyə!

Onun termosu mənim götürməyimi təklif etməsi ürəyimi kövrəltdi və mən ağlayacağımdan qorxaraq, tələsik çadırdan çıxdım.

Körpüsalanlar geyinib məni gözləyirdilər.

– Üçünüzün də tüfəngi var. Bəs mən?

Kərəmxan:

– Eybi yoxdur, – dedi, – mən öz tüfəngimi sənə verərəm... Əgər ayıdan qorxmasan, gələn dəfə sənə də bir qoşalülə alarıq.

Soltan qabağa düşdü:

– Getdik!

Biz fermalara gedən qədim köç yolundan ayrıldıq, qərbə burulan cığırla meşəli dağa çıxıb o biri üzə aşdıq. Bura göz işlədikcə uzanan qalın meşə, sərt qayalı sıldırım dağ idi. Adama elə gəlirdi ki, bu yerlər ömründə insan üzü görməmişdir. Elə bil ki, bura heç kəsə məlum olmayan yeni bir aləm idi. Hava işıqlandıqca quşların səs-küyü də artırdı. Biz dar cığırla irəliləyirdik. Soltan ilə Kərəmxan qabaqda, mən ortada, buldozerçi isə arxadan gəlirdi. Hava sərin və ətirli idi. Yolun o tərəf-bu tərəfində şehli otlar arasında tez-tez sarı-qırmızı çiçəklər nəzərə çarpırdı və onlar yarıqaranlıq içində yuxulu kimi görünürdü.

Biz sarıçiçəklə örtülü yamaca çatanda günəş çıxdı. Meşə birdən-birə min rəngə boyandı. Yamacdakı çiçəklər isə eynilə limon ətri verirdi. Dar cığır bu yamacı qalxıb o biri tərəfə aşırdı. Lakin biz köndələninə irəliləyib, yenə də qalın ağaclığa girdik. Burada heç bir cığır, heç bir iz yox idi.

– Azmarıq ki? – deyə qabaqda gedənlərdən soruşdum.

– Azmarıq. Ancaq sən yorulmamısan ki? – deyə Soltan dilləndi.

– Nə vaxt siz yorulsanız, bilin ki, mən də yorulmuşam. Yorulmasanız, demək, mən də yorulmamışam.

– Səriyyə bacı qız deyil, oğul qırığıdır! – Kərəmxan zarafat elədi.

– Yaxşı! Mənim tərifdən xoşum gəlmir. Yaxşısı budur, sən vədinə əməl elə. Tüfəngi ver bəri!

– Hələ ayı olan yerə çox qalıb, səni yorar.

– Yormaz.

– İndi ki, yormaz, onda al. Nə cür atıldığını bilirsənmi?

– Doludur?

– Əlbəttə. Ancaq nə zaman atmaq lazım olduğunu bizə Soltan işarə eləyəcək.

– Bildim.

Soltan geriyə dönərək:

– Buradan o yana, səssiz! – deyə əmr verdi. Soltanın xəbərdarlığı məni qorxutmadı. Əksinə, özümdə heç bir zaman duymadığım bir cəsarət hiss elədim. Mən ayını tez görmək, mənə aydın olmayan təhlükə ilə tez qarşılaşmaq istəyirdim.

Mən buldozerçinin heç dinib-danışmaması haqqında düşünürdüm. Elə bil, ağzına su almışdı. Adamı lap darıxdırırdı. Başımı geri döndərərək, mülayim bir ifadə ilə:

– Sizində tüfənginiz doludur? – deyə ondan soruşdum.

Sualımın mənasız olduğunu bilirdim. Ayı ovuna boş tüfənglə getməzlər ki... O, başı ilə təsdiq etdi və elə bil ki, bu hərəkəti ilə mənə karlı bir sillə tutuzdurdu. Mən hirsləndim:

– Bir batman başınızdansa, iki misqal dilinizi tərpətsəniz olmaz? – Kərəmxan da çiyinlərini qısıb xısın-xısın güldü.

– Sss... – Soltan geri dönüb bizə gözlərini ağartdı.

Bu zaman şıqqıltı eşidildi. Elə bil, kimsə budağı əyib sındırdı. Buldozerçi sürətlə qabağa keçib Soltana yanaşdı. Sonra ayaq saxlayıb diqqətlə qulaq asdılar. Daha heç bir səs-səmir yox idi. Üçümüz də tüfəngimizi hazır tutaraq, ehtiyatla irəlilədik. Kərəmxan kəmərindən asdığı iri ov bıçağını qınından çıxartdı. Birdən Soltan əyilib yerə diqqətlə baxaraq:

– Görürsünüz? – deyə pıçıldadı.

– Düzdür, – deyə buldozerçi təsdiq etdi.

– Nə olub? – mən Kərəmxandan soruşdum.

– Ot ayaqlanıb... Deməli, buradan nə isə keçib...

Mən çox diqqət elədikdən sonra yumşaq meşə otlarının, doğrudan da, bəzi yerlərdə ayaqlandığını seçə bildim. Soltanla buldozerçi qabaqda, mənimlə Kərəmxan isə arxada, izi tuş tutub dağ yuxarı dikləməyə başladıq. Oğlanlar çox sərvaxt yeriyirdilər. Ən kiçik bir şıqqıltı belə eşitdikdə, dayanıb diqqətlə qulaq asır, aşağı əyilib ətrafı nəzərdən keçirirdilər. Yoxuşun yarısında təkrar qərbə tərəf yol aldıq. Bu cür dik və qayalıq yoxuşu düzünə çıxmaq dolayı getməkdən asan olur. Biz yıxılmamaq üçün tez-tez budaqlardan, qayalardan yapışaraq səssizcə irəliləyirdik. Nəhayət, qabağımıza qalın qarağat kolluğu çıxdı. Mən ayıların armudu, qarağatı çox sevdiyini uşaq vaxtı qoca nənəmin nağıllarından eşitmişdim. Qarağat kolluğunu keçib bir az da getdik və arxa tərəfi hündür və sıldırım qaya olan balaca meşə açıqlığına çatanda, çox qəribə bir mənzərə ilə üz-üzə gəldik; iri, boz bir ayı adam kimi dal ayağı üstündə dik qalxaraq bizə baxırdı. Mənə ən çox təəccüblü görünən onun üzündəki ifadə idi. Ayı elə baxırdı ki, elə bil, bizi gördüyündən məmnun olmuşdu. Onun balaca, bulanıq gözlərində mülayim bir ifadə var idi. Elə bil pişvazımıza çıxmışdı. Soltan ilə buldozerçinin tüfəngləri açıldı. Əvvəlcə mən heç nə seçmədim. Barıtın tüstüsü çəkiləndə ayının yerə yıxıldığını gördüm. Yalnız bu zaman hazır tutduğum tüfəng yadıma düşdü və elə bu vaxt başqa bir dəhşətli hadisə oldu. Buldozerçi dörd-beş addım irəlilədi.

– Dayan! – deyə Soltanın səslənməsi ilə yerə yıxılmış ayının qəzəblə qalxıb buldozerçini qucaqlaması bir oldu. Mən hələ indi də yadıma düşəndə utandığım, əcaib bir səslə qışqıraraq, tüfəngi atıb, onların yanına yüyürdüm. Buldozerçi ayının çənəsindən tutub var gücü ilə altdan yuxarı qaldırır, onun ağız atmasına imkan vermirdi. Ayının və oğlanın hərəkətləri ildırım sürətilə gözümün qabağından sanki zahir olub keçir və mən ayıdan başqa heç bir şey seçmirdim. Birdən heyvanın oğlanı buraxıb, nərilti ilə yerə yıxıldığını, Kərəmxanın isə tələsmədən iri ov bıçağını onun böyründən dartıb çıxardığını gördüm. Sonra bir güllə daha açıldı. Tüstü çəkiləndə buldozerçi əl yaylığı ilə üzündən axan qanı silirdi. Soltan və Kərəmxan onun üzünü, boyun-boğazını diqqətlə nəzərdən keçirirdilər.

Nəhayət, Soltan:

– Bir şey yoxdur, – dedi, – azca cırmaqlayıb.

Kərəmxan mənə baxıb qəhqəhə ilə güldü.

Mən də əvvəlcə gülümsədim. Sonra birdən əllərimlə üzümü tutub ağladım. Soltan:

– Bay, Səriyyə xanım, – deyə zarafatla səsləndi, – yoxsa qorxdun?

Mən heç bir söz demədən əllərimi üzümdən götürüb, gözümün yaşını sildim və buldozerçiyə baxmamağa çalışdım. Kərəmxan dəsmalından bir az cırıb yandıraraq, külünü onun qan axan yerlərinə basdı. Yod və spirt olmayanda, təzə külün yaralanmış yer üçün ən yaxşı dezinfeksiya vasitəsi olduğunu bilirdim. «Lakin görəsən, ayının dırnaqlarında infeksiya yox idi ki...» Mən heyvana baxaraq, bir az qabaq bizi qarşılarkən, onun üzündəki xoşhallığı xatırlayırdım. Bəlkə də, o bizi dost hesab edirdi. Lakin biz onu öldürdük.

Oğlanlar ayının ətini necə aparmaq barədə məsləhətləşirdilər. Nəhayət, bu qərara gəldilər ki, buldozerçi gedib yeddi-səkkiz kilometr buradan aralıda, meşədə olan arıçılıq fermasındakı tanışlarından bir at alıb gətirsin. Buldozerçi tüfəngini doldurub gedəndə:

– Orada yaralarınıza da yod vurun, – deyə sərt ifadə ilə arxadan səsləndim.

O, geri qanrılaraq, mənə ani bir nəzər salıb yoluna davam etdi.

Soltan ilə Kərəmxan isə biləklərini çirməyib ayını soyurdular. Mən onların necə cəld və həvəslə işlədiklərinə tamaşa edirdim. Kərəmxan:

– Qışdan çıxmağına baxma, kökdür, – dedi.

– Yaxşıdır, – deyə Soltan sakit halda təsdiq etdi.

Onlar həm işləyir, həm də zarafat edərək, mənim kefimi açmağa çalışırdılar. Buldozerçinin ayaq səsləri eşidilməz olduqda, mən gəlib onların yanında yerə çökdüm, gülümsəyərək zarafatyana soruşdum:

– Birdən yolda buldozerçinin qabağına belə yekə bir ayı çıxsa neyləyər?

– Atasını yandırar, – deyə Kərəmxan cavab verdi, – qoşalüləsi doludur.

Soltan isə:

– Ayı adamın qabağına asanlıqla çıxmır, – dedi, – bu da bir təsadüfdür. Bəzən on-on beş dəfə ova gedirsən, amma bir dəfə də rast gəlmirsən.

– Amma nəhəng şeydir, – deyə mən sözümü dəyişdim.

Heç yarım saat çəkmədi ki, onlar heyvanın dərisini, başını, hətta pəncələri də üstündə, soyub bütöv çıxardılar. Sonra Soltan xəncərini siyirib ayını şaqqaladı. Ətinin yaxşı yerlərini daşıyıb vələs ağacının kölgəsindəki balaca qayanın üstünə yığdılar və milçək qonmasın deyə yarpaqlı budaqlardan kəsib üzərinə döşədilər. Sonra dərəyə enib çayda əllərini yuyub qayıtdılar. Kərəmxan:

– Hə, indi toqqanın altını bir az bərkitmək olar, – deyib ov heybəsini açdı. – Səriyyə xanım, gəlin əyləşin.

Biz sərin kölgədə yumşaq otların üstündə oturduq. Mən öz qadınlıq vəzifəmi unutmayaraq, çörək büküdüyüm balaca, təmiz süfrəni əl çamadanından çıxarıb kotletləri, çörəyi ortalığa qoydum. Onlar da balıq konservi və bu yerlərdə məşhur olan axtarma motal pendiri gətirmişdilər. Soltan yeməklərin hərəsindən bir az götürərək, eynilə mənim tələffüz elədiyim kimi:

– Bu da buldozerçinin payı, – dedi.

– Siz məndən çox yaşayacaqsınız, – dedim, – elə mən də bu saat o barədə düşünürdüm.

Üçümüz də iştaha ilə yeyib qurtarandan sonra oradan-buradan söhbət elədik.

– Ora qoyduğunuz nə qədər olar? – mən vələs ağacının altına işarə ilə soruşdum.

Soltan cavab verdi:

– Altmış-yetmiş kilo, bəlkə də çox...

– Harada satacaqsınız?

– Yuxarı dağ kəndlərində...

– Bizlərdə ayının əti yeyilmir...

– Amma bu tərəflərdə ayı əti dərman hesab olunur.

Soltan:

– Dərisini sənin üçün qurudacağıq, – dedi.

– Sağ olun, istəməz.

– Götürəcəksən. Qışda çarpayının qabağına salarsan. Zoğallı körpüdən yadigar qalar.

– Mən yadigar xoşlamıram.

– Onda elə-belə... Götürərsən, axı bu ovda sənin də zəhmətin var?!

– Yaxşı, elə-belə götürərəm.

Sonra bir qədər aralıda qayanın altında, qarağat kolları arasında qaranlıq ağzı görünən mağaranı göstərib:

– Bəlkə, – dedim, – ora ayının yuvasıdır?

– Ola bilər, – deyə Soltan diqqətlə baxıb cavab verdi.

– Durun gedək baxaq.

– Nə olar, gedək.

Soltan tüfəngini doldurdu.

Kərəmxan da açılmamış dolu tüfəngini götürdü.

– Belə hazırlaşmaqda, deyirsiniz, bəs orda yenə ayı ola bilər?

– Ağlım kəsmir, – deyə Soltan cavab verdi, – ancaq yenə də ehtiyat yaxşıdır.

Biz mağaraya yaxınlaşanda mən birdən-birə qorxmağa başladım. Mənə elə gəldi ki, bu saat qaranlıq mağaradan dəhşətli bir heyvan çıxıb üçümüzü də parçalayacaq və buldozerçi gəlib bizi də vələsin kölgəsindəki ayının vəziyyətində görəcək.

Soltan:

– Səriyyə xanım, sən hələ gəlmə, burada dayan.

– Nə üçün? Gələcəyəm.

– Yox, belə lazımdır.

O, əl fənərini çıxarıb yandırdı. İkisi də çox ehtiyatla mağaranın ağzına yaxınlaşdı. Kərəmxan qoşalüləni qaldırıb hazır saxladı. Soltan fənəri qabağa tutaraq, mağaranı işıqlandırıb, diqqətlə baxdı. Kərəmxan tüfəngi çiyninə salaraq, geri qanrılıb:

– Bir şey yoxdur, – dedi. – İstəyirsən, gəl bax.

Mən cəld irəliləyib içəri girdim. Dib tərəfə quru ot və balaca ağac budaqları tökülmüşdü. Demək, ayı bütün qışı bunların üstündə yatırmış və günlərin birində körpüsalanların gülləsinə rast gələcəyi barədə heç düşünmürmüş. İçərinin havası pis və rütubətli olduğundan, mən qayıdıb bayıra çıxdım. Meşə gur günəş işığında min rəngə çalırdı. Hava sarı çiçəklərdən qalxan limon ətri ilə dolu idi.

– Görəsən, buldozerçi niyə gecikdi? – Mən bunu ürəyimdə düşündüyüm halda, tamam qeyri-şüuru olaraq, ucadan dedim və öz səsim mənə tanınmayacaq dərəcədə qəribə gəldi.

Soltan:

– Gələr, – dedi.

Sonra Kərəmxana baxıb gülümsəyərək əlavə etdi:

– Yəqin başı söhbətə qarışıb...

– Oradakı tanışı kimdir?

– Bir qəşəng qız, – deyə Kərəmxan cavab verdi, – özü də bal aqronomudur...

– Bal aqronomu?

– Hə, bal aqronomu...

– Yamanca özündən quraşdıransan. Bal aqronomu...

Mən bərkdən qəhqəhə ilə güldüm.

– Doğrudan qəşəng qızdır?

– Doğrudan!

Mən qolumdakı balaca saata baxıb, fikirli halda:

– Gecikəcəyik,– dedim, – yəqin ki, indi Adil də bərk darıxır.

– Gecikmərik, – deyə Soltan cavab verdi, – odur, bax, buldozerçi gəlir.

Mən diksinərək geri döndüm. (Adilin bəzən məni tənqid eləməyə haqqı var. Çox zaman mən öz hərəkətlərimi ölçüb-biçmirəm. Məsələn, burada nə üçün diksinirdim ki?)

Buldozerçi qıvraq bir atın üstündə, tərkində də bir oğlan uşağı gəlirdi. Biz onların qabağına yeridik.

Buldozerçi atdan düşəndə:

– Bal aqronomunun kefi necədir? – deyə birdən soruşdum.

O, təəccüblə üzümə baxaraq:

– Yaxşıdır, – dedi. – Siz onu tanıyırsınız?

– Bəli, tanıyıram.

Soltanla Kərəmxan bərkdən güldülər. Buldozerçi məsələnin nə yerdə olduğunu anlayaraq, onlara məzəmmətlə baxıb başını buladı.

– Eybi yoxdur, – dedim, – pərt olmayın, biz bir briqadayıq. Briqada üzvlərinin bir-birindən ayrı sirri olmamalıdır.

– Sirri ha! – deyə o, xəfifcə gülümsədi.

– Bəli, sirri.

Mən elə danışırdım ki, elə bil, xalqın oğluna meydan oxuyurdum. «Bütün bunların sizə nə dəxli var?» deyə o, məndən soruşa bilərdi. Lakin o soruşmadı. Mən bunu hiss edirdim, soruşmazdı. Çünki biz bir briqadanın üzvləri idik...

Soltan yoldaşlarına:

– Səriyyə xanım tələsir, – dedi, – tez olun.

Onlar ayının ətini buldozerçinin gətirdiyi xaşalara doldurub ata yüklədilər. Sonra şeylərimizi götürüb yola düzəldik.

Biz Zoğallı körpüyə çatanda günəş qüruba enirdi. Körpüsalanlar yükü götürüb, atı uşaqla geri göndərdilər.

– Yolda qorxmazsan ki? – deyə balaca oğlandan soruşdum.

O, gülümsəyərək heç bir söz demədən ata mindi və tezliklə ağaclar arasında görünməz oldu.

– Qorxmaz! – Soltan oğlanın ardınca baxmadan cavab verdi.

Sonra ayının dərisini duzlayıb günə sərdik. Mən onlarla xudahafizləşib çadıra qaçdım. Adil çarpayısına uzanıb kitaba baxırdı. Məni görərkən kitabı kənara qoyub çarpayıdan qalxdı:

– Hə, ovunuz nə cür keçdi?

Mən onun səsinin ahəngindən pərt olmayaraq:

– Çox gözəl, – dedim, – heç belə uğurlu ov olmazdı. Yekə bir ayı vurduq.

O, daha heç nə soruşmadı.

– Yəqin ki, acmısan, Adil, naharının vaxtından keçib.

– Mən nahar eləmişəm.

– Afərin. Mən bir az uzanmaq istəyirəm, yorulmuşam...

Lakin mən xalatımı yenicə geyinmişdim ki:

– Yoldaş naçalnik, olarmı? – deyə bayırdan Soltanın səsi eşidildi.

Adil qapıya yeriyərək sakit halda soruşdu:

– Nə olub?

– Dedik, əgər mümkünsə, maşını bir-iki saatlığa verəsiniz, ayının ətini qonşu kəndə aparaq, tez satıb qayıdarıq.

– Maşını yolun işi üçün veriblər, kəndlərdə ayı əti satmaq üçün yox.

– Elədir. Bir də ayı vursaq, nəzərə alarıq... Ancaq bu dəfə.

Mən içəridən səsləndim:

– Adil zarafat eləyir...

– Yox, zarafat eləmirəm.

– İki saatlığa heç nə olmaz, Adil, onsuz da evdəsən. İstirahət günüdür.

– İcazə ver bunu mən bilim, – o, hövsələdən çıxmış halda dönüb mənə cavab verdi.

– Eybi yoxdur, Səriyyə xanım, özümüz birtəhər eləyərik, – Soltan bərk incimiş halda qayıdıb getdi.

– Nə üçün vermədin, Adil? Maşını yeməyəcəkdilər ki...

– Mən ilk dəfədir səndən belə kobud söz eşidirəm. Səriyyə, eyib deyilmi?

Mən düz onun gözlərinin içinə baxaraq dinmədim.

O, birdən-birə yumşaldı:

– Səriyyə, axı sən işin birini bilirsən, birini yox. Tutaq ki, mən maşını verdim. Yolda və ya kənddə onlara bir avtomobil müfəttişi rast gəldi. Onda necə olar? Mən kimə sübut eləyə biləcəyəm ki, bu işdə mənim heç bir şəxsi marağım yoxdur? Səni inandırıram ki, götürüb birbaş nazirə yazarlar ki, filan yolun rəisi işləmək əvəzinə, ov eləyib dövlətin maşınında ət satdırmaqla məşğuldur. Sən adamları tanımırsan...

– Qoy yazsınlar. Biz ki, həqiqəti bilirik...

– Biz bilirik. Amma nazir bilmir. Kimlərinsə beş şahı qazanması üçün mən özümü şübhə altında qoya bilmərəm. Aydındırmı?

– Aydındır.

– Birinci dəfədir ki, mənə bu cür müstəqil, məsul iş tapşırıblar. Bilirsənmi, Səriyyə, bu yol, bu körpü, eyni zamanda, bizim, yəni sənin və mənim gələcəyimiz üçün salınır. Biz indidən özümüz öz gələcəyimizi korlaya bilmərik... Gərək sən özün də razı olmayasan ki...

– Yaxşı, Adil. Mən sənin karyeranın yüksəlməsinə mane olmayacağam.

– Nəinki mane olmayacaqsan, sən gərək buna kömək edəsən!

– Əlbəttə.

– Onda gəl barışaq... Sən bu gün elə qəşəng yanmısan ki, – o, əlimdən tutaraq məni özünə sarı çəkdi. Lakin mən onun əlini ehmallıca kənar edərək çadırdan çıxdım. Mən artıq dincəlmək meylində deyildim. Mən palıd ağacının kölgəsində oturub, uçuruma baxırdım və ilk dəfə biz bura gələrkən buldozerçinin yolun ortasına tökülmüş qayaları maşının döşünə verib, bu uçurumdan üzüaşağı necə yuvarlatdığını xatırlayırdım. Mənə elə gəlirdi ki, o vaxtdan düz bir əsr keçmişdir və bu müddət ərzində nə isə çox qüssəli hadisələr baş vermişdir. Mən xeyli qocalmışam, xeyli incimişəm. Bakıdakı günlərimiz yadıma düşdü. Orada yaxşı idik. «Qu» desən qulaq tutulan bu meşələrdə isə mən çox yalqız və mükəddərəm.

Tennis oynamaq, ov... Bunlar hamısı mənasız, boş işlərdir. Bizim xoşbəxtlik üçün doğulmağımız haqqındakı aforizm adi şair xəyalının ani uydurmasıdır.

Pəncərədən daş gəlir,
Ay bəri bax, bəri bax.
Xumar gözdən yaş gəlir,
Ay bəri bax, bəri bax...

Körpüsalanların birdən ağız-ağıza verib oxuduqları bu mahnı məni dikindirdi. «Bunlar nə qəribə adamlardır?!»

Səni mənə versələr,
Hər görənə xoş gələr... –

deyə onlar təkrar edirdilər. Birdən mən qəribə bir arsızlıqla gülümsədim və bu saat subay bir qız olmadığıma təəssüf elədim. Yox, mən subay deyiləm. Mən ərimin gələcəyi üçün məsuliyyət daşıyan bir qadınam. Ərimin gələcəyi, gələcək böyük vəzifələri üçün! Əlvida, subaylıq, əlvida, azadlıq... Mən daha azad deyiləm! Onlar, körpüsalanlarsa azad və xoşbəxtdirlər. Onlar kimsənin gələcək vəzifələri üçün narahat olmurlar. Onlar körpünü, dağların o biri tayındakı fermalara tez getmək üçün salırlar və bundan zövq alırlar. Lakin onlar nə üçün mənim adımı da öz adlarının yanına qoşub bu körpünün bünövrəsinə qoydular? Mən ki, onlardan deyiləm. Mən ki, Adilin həyat yoldaşıyam. Həyat yoldaşı, həyat yoldaşı!.. Biz, yəni mən və mənim həyat yoldaşım bu körpünü başqa məqsəd üçün salırıq. Biz, yəni mən və mənim hörmətli, istedadlı həyat yoldaşım bu körpüdən keçib daha yüksək vəzifələrə, daha ali mövqelərə çatmaq istəyirik. Bu körpüsalanlarsa gələcəkləri barədə düşünmək əvəzinə, hey oxuyurlar:

Səni mənə versələr,
Ay bəri bax, bəri bax...

Onlar susdular. Sonra dünyada zərrəcə dərdi-qəmi olmayan Kərəmxan, çiynində ov tüfəngi, çadırlarından aralanıb üzüyuxarı, meşəli dağa dikləndi. Yəqin arxadan onu səsləyib nə isə dedilər və o, geri qanrılıb yoldaşlarına cavab verərkən məni görüb gülümsədi, sonra əlini havada yelləyərək dönüb yoluna davam etdi. Ona cavab olaraq necə kədərlə gülümsədiyimi hiss elədi. Mənə elə gəldi ki, şən, dərdsiz-qəmsiz Kərəmxan həmişəlik çıxıb getdi. Elə bil ki, köç gedib məni burada yalqız qoymuşdu. Mən o ki var, ağladım və bunu Adilin bilməməsi üçün qalxıb üzümü yudum. Mərcantək xırda daşların üzəri ilə axan dağ suyu günəşin şüalarını güzgü kimi əks etdirirdi. Təzə ağ çiçək açmış böyürtkən kollarının sərin kölgəsində zərqanadlı böcəklər uçuşurdu.

Təbiətin gözəlliklərində heç bir təbəddülat yox idi.

Axşamçağı Adillə çadırın qapısında oturub çay içdiyimiz zaman yük maşını yanımızdan sürətlə körpüsalanların çadırına tərəf getdi. Kərəmxan da kabinədə oturmuşdu. Heç on dəqiqə çəkmədi ki, maşın təzədən geri qayıtdı. Bu dəfə körpüsalanların üçü də maşında idi. Adil onların ardınca baxaraq, mürəbbəli çayından bir qurtum alıb, tamam sakit:

– Əgər, – dedi, – sabah onlar geciksələr, üçünü də işdən qovacam. Biz hər bir intizamsızlığın qarşısını dərhal almalıyıq.

«Biz!» Məni maraq götürdü. Mən Adilin bu üç oğlanı işdən necə çıxaracağını və bu zaman buldozerçinin nə deyəcəyini və üzündə necə ifadə olacağını eşidib görmək istərdim. Bu mənim üçün təzə bir aləm olardı. Lakin ertəsi gün düz saat səkkizdə onlar işin üstündə deyib-gülür və ikinci hörgünü başa çatdırırdılar.

Adil çay-çörəyini yeyib-içdikdən sonra «QAZ-69»a əyləşib işinə getdi.

«Doğrudanmı, Adil heç nə görüb-hiss etmir?» – Zehnimdən, cavabı özümə də aydın olmayan bir sual keçdi və mən ev-eşiyi yığışdırıb, xörəyi asaraq körpüyə getdim.

Körpüsalanlar məni şən səs-küylə qarşıladılar. Kərəmxan:

– Səriyyə xanım, – dedi, – dünən ayı ətini verdik xırda-xırda getdi. Düz mincə manatımız var.

– Nə çox çıxarıb...

– Hələ ucuz verdik. Lap müftə...

Soltan:

– Bilirsiniz? Biz toxunulmaz fond düzəltmək istəyirik, ağlınız nə kəsir?

– Necə yəni toxunulmaz fond?

– Yəni ovdan gələn pulu yığıb saxlayaq. Elə ki, on beş-iyirmi min oldu, ondan sonra nəyə sərf eləmək lazım olduğu barədə fikirləşərik.

Kərəmxan:

– Təklif var ki, – dedi, – xəzinədarımız da sən olasan.

– Mən?

– Hə, sən.

– Yəni ovdan nə qədər pul yığacaqsınız ki, ona bir xəzinədar da lazım olsun?

– Biz köhnə ovçuyuq, yığarıq, – Kərəmxan özünü çəkdi.

«Köhnə... guya ki, hərəsinin neçə yaşı varmış...»

Soltan:

– Gələn istirahət günü qabana gedəcəyik; ən azı, iki min beş yüz-üç min başının altındadır.

– Doğrudan? Yaxşı, mən sizin bölünməz fondunuzun xəzinədarı.

– «Sizin» niyə? Bəs sən şərik olmaq istəmirsən? – deyə Kərəmxan soruşdu.

– Mən? Mən nə haqla şərik ola bilərəm? Ovu eləyən siz...

Buldozerçi gülümsəyərək soruşdu:

– Yoxsa daha bizimlə ova getmək istəmirsiniz?

– İstəyirəm, əlbəttə, istəyirəm, – deyə heç düşünmədən cavab verdim, – ancaq bu şərtlə ki, qoyun mən də atım. Mənim də gülləm dəysin.

– Şübhəsiz.

– Bilirsiniz, məsələn, əgər qılınc işi olsaydı, onda sizə göstərərdim. Ancaq güllə atmaq...

Buldozerçi eyni təbəssümlə:

– Güllə atmaq çətin deyil, öyrənərsiniz, – dedi.

– Yaxşı. Mən xəzinədar.

Kərəmxan:

– Təklif var ki, Soltan briqadanın başçısı olsun.

– Ovçuluqdamı?

– Ovçuluqda da, körpü salmaqda da, yoldaşlıqda da.

– Başçının hər bir ədalətli əmrini yerinə yetirəcəyimə and içirəm! – deyə mən zarafatmı, həqiqətmi olduğunu bilmədiyim bir təntənə ilə əlimi yuxarı qaldırdım.

– Biz də and içirik! – Kərəmxanla buldozerçi də birlikdə səslədilər.

Kərəmxan qışqırdı:

– Yaşasın briqadanın başçısı!

Soltan əlavə etdi:

– Yaşasın briqada!

Sonra bərkdən gülüşdük. Soltan dedi:

– Briqadanın ən mühüm şərtlərindən biri budur ki, gərək üzvlərdən heç biri öz sirrini yoldaşlarından gizlətməsin. Kim bu cəsarəti özündə hiss eləmirsə, indidən desin. Yoldaş yoldaşa tən gərək, tən olmasa, gen gərək. Heç kəsə məcburiyyət yoxdur. Əgər biz ürəyimizdəkini bir-birimizdən gizləyəcək olsaq, demək, həqiqi yoldaş deyilik. Demək, ikiüzlülük edirik.

«Yoxsa bunlar mənə tələ qururlar?»

Hamımızın üzü ciddi bir ifadə almışdı. Hamımız susurduq.

«İkiüzlülük... oğlan nə yaman dedi! Afərin! Gülləni atma, atdın, düz hədəfə vur. Doğrudan da, nə vaxtacan biz insanlar ürəklərimizi bir-birimizdən gizlədəcəyik?! Nə vaxtacan ikiüzlülük eləyəcəyik?! Kifayətdir!»

– Mən bu cəsarəti özümdə hiss edirəm! – dedim.

– Mən də!

– Mən də!

– Doğrudan da, uşaqlar, – deyə Soltan davam edirdi, – sirlər həmişə insanların arasında bir böyük sədd olmuşdur. Bu səddi uçurub dağıtmaq lazımdır. Həqiqi birlik, həqiqi yoldaşlıq ancaq bu zaman ola bilər. O səddi uçurmaq nə qədər çətin olsa da, biz bunu bacarmalıyıq! Biz bilirik ki, inqilab asanlıqla yaranmır.

Kərəmxan buldozerçinin verdiyi daşı hörgüyə qoyub palçıqla suvayaraq:

– Uşaqlar, – dedi, – mən kimə aşiq olsam, o saat gəlib sizə deyəcəyəm ki, məni intihar-zad eləməyə qoymayasınız.

Yoldaşları gülüşdü. Lakin mən:

– Aşiq olursunuz-olun, daha intihar nə üçündür? – deyə maraqla soruşdum.

– Birdən qız məni istəmədi, ya da istəyib sonra atdı, onda nə cür yaşayaram?

– Hə, – mən də onun kimi zarafatyana cavab verdim, – doğrudan da, çətin olar...

Kərəmxanın bu zarafatı mənə pis təsir elədi. Özümü nəyi isə salıb itirmiş adam kimi narahat hiss elədim.

«Bu buldozerçi nə üçün belə qaşqabağını tökük?» deyə əsəbi halda düşündüm. «Yoldaşları danışıb-gülür, bu isə dünyanın haqq-hesabını çəkir». Mən buldozerçini acılamaq, hirsləndirmək üçün bir söz axtarırdım. Mən dostlarının sevincinə biganə adamları xoşlamıram, bunu xudpəsəndlik hesab edirəm. Axı, mən bilirəm ki, buldozerçinin heç bir dərdi yoxdur. Bilirəm, gözəl bir anası var, arteldə işləyir. Özü də, deyirlər, üç dəfə Moskvaya Kənd Təsərrüfatı Sərgisinə gedib. Deyirlər, buldozerçinin özü kimi boylu-buxunlu gözəl bacısı da Gəncədə Kənd Təsərrüfatı İnstitutunu bitirib və həmin institutun müəllimi olan yaxşı bir oğlana ərə gedib. Kefi kök, damağı çağ yaşayırlar. Qaldı ki, özü... Maşallah, deyirsən, bəs buz baltası-

dır. Gündə dörd adamın işini görür, heç yoruldum demir. Amma o gün mən ovurdlarına vurduqca kirpiklərini necə qırpırdı... Mən bu saat onun ovurdlarına məmnuniyyətlə yüz zərbə vurardım.

Soltan saatına baxaraq:

– Tənəffüs! – deyə elan etdi. – Səriyyə xanım, gedək bizə. O gün deyirdiniz ki, kabab xoşlayırsınız. Axşam kənddən təzə qoyun əti gətirmişik.

– Doğrudanmı? Yaxşı. Siz gedin, mən də körəyə baş çəkim, gəlim.

– Bunu da qoyun xəzinəyə, – Soltan kağıza bükülü pulu mənə uzatdı.

Mən min manatı çamadana qoyub, körəyin soğanını tökdüm. Nahara hazır olsun deyə, stolun üstünü düzəltdim. Sonra əl-üzümü yuyub, körpüsalanların çadırına getdim.

Buldozerçi qapıda yekə bir ocaq çatmışdı. Soltan stolun üstündə kənddən gətirdikləri pomidorlardan, göy-göyərtidən salat düzəldirdi. Kərəmxan isə ağac budaqlarından kəsib qayırdığı şişlərə kabab çəkirdi. Doğranıb mis qaba yığılmış ətdən kəklikotu ətri gəlirdi:

Kərəmxan:

– Səriyyə xanım, elə bir basdırma düzəltmişəm ki, ləzzətindən doymayacaqsınız.

Mən də bir iş görüb, kömək eləmək istədim.

– Yox, sən əlini bulama, – deyə Kərəmxan qoymadı, – kabab çəkməyin elmi var.

Başımı buladım:

– Pah-pah!

– Bu, borş-sup deyil ki, sən biləsən. Kabab bişirmək oğul işidir.

O, ilk şişləri gətirib boşqablara çəkəndən sonra:

– Səriyyə xanım, – dedi, – Allahdan gizli deyil, səndən nə gizlin, bir çaxırımız var. İcazə versəydin, onu da gətirərdik.

– İcazə verirəm, gətirin.

– Sağ ol, vallah, – deyib Kərəmxan çadırdan bir şüşə çaxır və dörd stəkan gətirib birini də mənim qabağıma qoydu.

– Etiraf edim ki, heç bir zaman bu qədər ləzzətli kabab yeməmişdim...

– Yaşasın briqada, – deyə Soltan zarafatyana əda ilə qırmızı şərabla dolu stəkanı yuxarı qaldırdı.

Biz də stəkanlarımızı qaldırıb toqquşdurduq. Onlar birnəfəsə stəkanlarını boşaltdılar. Mən bir qurtum alıb, qoydum yerə.

İkinci stəkandan sonra buldozerçinin üzü o qədər mülayim və nəzakətli bir ifadə aldı ki, mən gözümü ondan çəkə bilmirdim. Bu, mənim ilk etirafım idi...

Şüşə boşaldıqda, oğlanlar bir-birinin üzünə baxdılar. Sonra Kərəmxan:

– Səriyyə xanım, – dedi, – Allahdan gizli deyil, səndən nə gizlin, çadırda bir şüşə də var.

– Gətirin!

Mənim birinci stəkanım isə hələ yarısına qədər idi. Lakin kababda onlardan geri qalmırdım. Doğrusu, onların içməyi xoşuma gəlirdi. Elə bil ki, şərab məsum uşaqlıq ifadələrini yenidən geri qaytarırdı. Qədd-qamətli, məğrur buldozerçi iynənin ulduzundan keçəcək dərəcədə incə olmuşdu. O mənə baxmamağa çalışsa da, mən tez-tez baxırdım. Mən ikiüzlülük etməməyə – briqadadan heç nə gizlətməməyə and içmişdim. Kərəmxan axırıncı stəkanını yuxarı qaldıraraq:

– Uşaqlar, – dedi, – arzumuz budur ki, briqada xoşbəxt olsun. Ürəyimiz dərd-qəm görməsin. Körpüləri tez salaq, dağın o tərəfindəki fermalara gedən yolu tez qurtaraq. Maşınların Zoğallı körpüdən qıjıltı ilə necə keçdiklərinə baxıb ləzzət alaq.

– Sağ olsun körpüsalanlar! – deyə mən həyəcanla əlavə edərək, stəkanımı onların stəkanları ilə toqquşdurdum.

Bir saatlıq tənəffüs tamam olan kimi Soltan ayağa qalxaraq:

– İndi isə, briqada, iş başına! – deyə nəşə ilə komanda verdi.

Biz düz saat beşə qədər qızğın işlədik. Körpünün hörgüləri artıq hazır idi. Biz bu işi nəzərdə tutduğumuzdan dörd gün tez qurtarırdıq. Kərəmxan hörgünün təzə divarlarına baxaraq:

– Körpəmiz, deyəsən, yavaş-yavaş ayaq üstə durur, – dedi.

Biz körpünü zarafatla «körpəmiz» adlandırırdıq. İşi tez qurtaraq deyə üç-dörd gün bundan qabaq Adil bizə iki nəfər əlavə işçi vermək istəyirdi, lakin briqada buna razı olmadı.

Mən:

– Öz körpəmizi özümüz böyüdəcəyik! – dedim.

– Yaxşı, etiraz eləmirəm, – deyə Adil cavab verdi, – ancaq körpü, mərkəzə vəd etdiyimiz vaxtda qurtarmalıdır.

Soltan da gülümsəyərək:

– Narahat olmayın, – dedi, – sizi mərkəzin yanında xəcalət eləmərik.

Sonra daha ciddi ifadə ilə əlavə etdi:

– Balaca selav körpüsüdür. Dördümüz öhdəsindən gələ bilərik.

Adil razı halda maşına minib getdi.

Bu əhvalatdan bir neçə gün əvvəl, biz öz aramızda məsləhətləşib söz qoymuşduq ki, körpünü vaxtından iyirmi beş gün tez qurtaraq. Soltan da bunu yol rəisinə xəbər vermək əvəzinə, «qorxmayın, sizi mərkəz yanında xəcalət eləmərik» dedi. Buldozerçi isə səbirsiz halda üzünü yana çevirdi.

Körpü tikildikcə, onunla bizim aramızda qəribə bir ünsiyyət yaranırdı. Sanki o, yenicə ayaq tutan körpə bir məxluq kimi, yosunlu qayadan çıxıb tökülən balaca çayın şırıltısını, bizim nəşəli səs-küyümüzü, gülüşümüzü sevinclə dinləyir, ətrafdakı qalın meşələrə maraqla baxıb gülümsəyirdi...

... Axşam saat yeddiyə işləyəndə Adil işdən çox nəşəli qayıtdı. Naharını böyük iştaha ilə yedi.

– Saata nə tez-tez baxırsan, Adil? Yoxsa bir yerə gedəcəksən?

– Səkkizə on beş dəqiqə işləyəndə yol barəsində açerk veriləcək. Radionu aç.

– Nə bildin? – deyə mən radioqəbuledicini açaraq, onun üzünə baxmadan soruşdum.

– Gündüz Bakıdan zəng eləmişdilər.

Açerkin adı «İstedadlı mühəndis» idi.

Əvvəlcə Adilin xarici görünüşü, hətta geyimi və müəlliflə necə nəzakətli bir təbəssümlə söhbət elədiyi təsvir olunurdu. Sonra institutda oxuduğu illərdən, nazirlikdəki fəaliyyətindən danışılırdı.

... «O, təbiətin işgüzar bir adamıdır. Nazirlikdə işlədiyi dörd il müddətində bir dəqiqə də olsun işə gecikməmişdir. O, həmişə irəliyə can atır. Heç bir zaman bugünkü işini sabaha qoymur...» Mənim tanımadığım diktor qız çox aydın və təbii danışırdı.

Mühəndis qaşlarını çataraq dinləyirdi.

Sonra diktor onun «K» rayonundan dağlardakı fermalara çəkilən yola rəis təyin olunmasına keçərək dedi:

«Gənc mühəndis gələn kimi sanki burada həyat görünməz bir qüvvə ilə qaynamağa başladı. Onu ayaqlarında brezent çəkmə, əynində qolları qısa köynək, daim bu və ya digər sahədə görmək olar...»

İndi onun qaşlarının çatılışında və uçurumdan o yana, dərəyə zillənən gözlərində məmnun bir ifadə oxunurdu. Hiss edirdim ki, ərim öz taleyindən razıdır. Hiss edirdim ki, onun uzaqlara baxan gözləri qarşısında gələcək fəaliyyətinin təntənəsi canlanmışdır. Birdən diktor: «Onun həyat yoldaşı gənc texnik Səriyyə Musabəyli də hazırda Zoğallı körpünün salınmasına rəhbərlik edir» dedi və mən diksinərək, Adilə baxdım. O mənim baxışıma cavab olaraq, məhəbbətlə gülümsədi. Adil öz taleyindən razı idi. Lakin onun təbəssümü sanki minlərcə iynəyə çevrilib mənim əsəblərimə sancılırdı. Diktor məni tərifləyirdi:

«Səriyyə uzaq və qalın meşələrdə, sıldırım dağlar arasında körpüsalanlara məharətlə başçılıq edir. Onun təşəbbüsü ilə yoldaşları əlavə işçi istəməyərək, körpünü öz qüvvələri ilə salıb qurtarmağa söz vermişlər. Səriyyə işləməklə barabər, ali məktəbə girməyə də hazırlaşır.

Mühəndis Adildə güclü təşkilatçılıq bacarığı vardır. O...»

Diktor daha bir neçə dəqiqə danışdı. Lakin mən daha qulaq asmırdım. Mühəndis Adilin fəaliyyəti artıq mənə məlum idi...

Onun uzaqlara, öz şöhrətinin təntənəsinə zillənmiş baxışları dözülməz idi. «Yəqin ki, körpüsalanlar da indi öz balaca radioqəbuledici aparatlarında qulaq asırlar» deyə düşünürdüm.

Açerk oxunub qurtarandan sonra o, dərindən nəfəs alaraq, yenə də məhəbbətlə mənə baxdı...

Mən:

– Bilirsən, Adil, – dedim, – biz bu gün körpüsalanlarla şərab içdik, heyif ki, sən olmadın.

– Körpüsalanlarla nə içdiniz? – deyə o, təəccüblə soruşdu.

– Şərab. Gözəl Azərbaycan şərabı...

Onun baxışlarındakı təəccübü dərin düşüncə kölgəsi əvəz etdi. Yavaş və mülayim səslə soruşdu:

– Nə əcəb? Sən ki, içməyi sevmirsən...

– Yoldaşlarım təklif etdilər, mən də içdim!

– Nə olar, yaxşı eləmisən...

«Ax... demək, belə...»

Mən başqa zəhərli bir söz axtardım və bunu tapmadıqda, ona kinli bir nəzər salaraq, qalxıb çadıra girdim.

ADİL

... Mən o dəhşətli fırtına buludlarının sıxlaşa-sıxlaşa bizim çadırımızın üzərinə yeridiyini görürdüm... Mən, hər şeydən əvvəl, öz hərəkətlərimi diqqətlə təhlil edirdim.

Açerkdə deyilənlərin hamısı həqiqət idi. Mən dağların o biri tərəfindəki fermalara gedən yolu bacardıqca tez qurtarmağa can atır və bunun üçün əlimdən nə gəlirdisə eləyirdim. İş sahələrinə baş çəkmədiyim bir gün də olmurdu. Fəhlələrin məəttəl qalmaması üçün bütün materialları həmişə vaxtından bir neçə gün qabaq daşıtdırırdım. Adamların maaşını bir gün də gecikdirmirdim. İstər yerli idarələr, istərsə də mərkəz mənim işimdən çox razı idi. Mən hər ikimizin (Səriyyənin və özümün) həyatı qarşısında məsul idim. Bilirdim ki, bu çəkdiyimiz yol, eyni zamanda, bizim gələcəyimizə gedir. Sadəcə desək, əgər mən pis işləsəm, yolu vaxtında qurtarmasam, bir də heç bir zaman bu cür müstəqil, məsul iş üzü görmərəm. Mən fatalist deyiləm. Bilirdim ki, hər gənc ailənin gələcək səadəti, birinci növbədə, ailə başçısının ağıllı hərəkət etməsindən asılıdır. Mən boş xəyallara, təsadüflərə bel bağlayanlardan deyildim. Mən bütün şahmat fiqurlarının qabaqcadan əsaslı surətdə düşünülmüş möhkəm plan üzrə hərəkət etməsini istəyirdim, həyata qarşı həmişə hücumçu olmaq fikrindəyəm. Daha doğrusu, bu mənim prinsipim, əqidəm idi. Mən müdafiə mövqeyində dayanmağa nifrət edirdim. Ona görə də yola

rəis təyin olunub gəldiyim lap ilk gündən işi elə qurdum ki, adi idarələrin qarşısında mən yox, idarələr mənim qarşımda başlarını itirirdilər. Mən smeta üzrə yola lazım olan materialları, məsələn, sementi, betonu, boruları dərhal daşıtdırır, qalanını isə vaxtından azı bir ay qabaq tələb edirdim. Onlar materialı tələb etdiyim vaxtdan gec verdikdə isə aləmi bir-birinə vururdum.

– Yoldaş Adil, xahiş edirəm, üçcə gün də dözəsəniz...

– Yoldaş Adil, siz nazirə nahaq şikayət eləmisiniz. Biz həmişə əvvəlcə sizin sahənizi təmin etməyə çalışırıq.

– Yoldaş Adil, olub-qalan taxtanı sizə verdik. Bir az səbir elə-yin.

Lakin mən səbir eləmirdim. Bu barədə özümü tamamilə haqlı hesab edirdim: «Əgər hamı mənim kimi işləsə, vaxtında tələb eləsə, heç nəyə «yox» deyilməz. Vaxtında tələb etməmisənsə, vaxtında almamısansa, onda zəhmət çək cavab ver!»

Beləliklə, yolun çəkilişində, körpülərin salınmasında hər iş, mənim üslubuma uyğun olaraq, öz qaydası ilə gedirdi. Plan hər həftə nəzərdə tutduğumdan da artıq həyata keçirilirdi. Bununla belə, mən narahat idim. Çox narahat idim...

Biz Səriyyə ilə bir-birimizi istəyərək, neçə ay gəzib-dolanaraq evlənmişdik. Doğrudur, anam-atam bu işə narazı idilər. Onlar deyirdilər ki, mən adlı-sanlı ailədən olan, yaxşı təhsil görmüş bir qızla evlənə bilərəm. Xüsusən, anam ipə-sapa yatmırdı. Lakin evlənmək barədə mənim ancaq özüməməxsus gizli mülahizələrim var idi. Mən belə güman edirdim ki, istər ailə cəhətincə, istərsə də təhsildə, hətta xarici görünüşdə də qız oğlana nisbətən bir pillə aşağıda dursa yaxşıdır. O zaman sənin sözün (əlbəttə, əgər sən ədalətli və ağıllı bir ailə başçısısansa) daha kəsərli olar. Sən ailə barəsində öz fikirlərini (əlbəttə, haqlı fikirlərini) daha asanlıqla həyata keçirə bilərsən. Sən öz arvadına qarşı son dərəcə həssas və diqqətli olmalısan. Hər bir kiçik səhvi dərhal duyub ləğv etməyi bacarmalısan. Əks təqdirdə...

Bura gələndən bir neçə gün sonra mən onun buldozerçinin köynəyinə düymə tikdiyini görərkən əvvəlcə təəccüb etdim. Sonra anamın «yaxşı ailədən olan, yaxşı təhsil görmüş qız...» haqqındakı fikirlərini xatırlayaraq, ürəyimdə gülümsədim, «aha, yavaş-yavaş mətləb üstünə gəlirik» dedim.

Sonra o, körpüsalanlarla tennis oynamağa gedəcəyini söylədikdə, mümkün qədər sakit tərzdə narazılığımı bildirdim. Buna baxmayaraq, o getdi. Qayıdanda isə mən bu barədə ona heç bir söz demədim. Mən bilirdim ki, belə işlərdə ehtiyatla hərəkət etmək, aradakı pərdəni götürməmək lazımdır. Həyat çılpaqlığı sevmir. Səhəri gün o yenə də tennis oynamağa getdi və mən yenə də bir söz demədim...

Mən onun buldozerçini görərkən narahat vəziyyət aldığını hiss edirdim. Lakin bu barədə düşünməyi belə özümə ar bilirdim. Mənim arvadım... buldozerçi haqqında ayrı nə fikirdə ola bilərdi?!.

Mən Səriyyənin körpüsalanlarla ova getməsinə də etiraz eləmədim. Mən zor tətbiq eləyə bilməzdim, hər şeyi onun özünün başa düşməsi lazım idi. Doğrudur, onun öz iş yoldaşları ilə tennis oynamasında və ya ova getməsində heç bir qəbahət yox idi. Lakin mən onun getməsini istəmirdim. Mən yol rəisi idim. Həyat yoldaşım bunu anlamalı idi. Madam ki, mən getmirdim, demək, onun da getməsi lazım deyildi. Həkim xəstəni müşahidə eləyən kimi, mən də onun hərəkətlərinə fikir verir, haradan başlayacağımı bilmirdim. Hər şeydən əvvəl, xəstəliyin özünü düzgün müəyyən etmək lazım idi. Bunsuz müalicə mümkün olmazdı. Əgər mənim haqqımda oçerk oxunan zaman onun keçirdiyi ruhi vəziyyəti görməsəydim, əgər o, körpüsalanlarla şərab içdiyini mənə elə kinli-kinli söyləməsəydi, bəlkə də, mən indi bu çətin düşüncələrə qərq olmazdım. Oçerk oxunub qurtarandan sonra onun necə qızardığını, mənə necə baxdığını və körpüsalanlarla şərab içdiyini ağlasığmaz, heç gözlənilmədən, nə cür gizli bir qəzəblə söylədiyini indi də yadıma salanda ürəyim ağrıyır. Bu nə qəribə hal idi? O nə üçün birdən-birə mənə qarşı bu qədər kinli olmuşdu? Mən nə etmişdim? Qəbahətim nə idi? Əgər məni tərifləyirdilərsə, burada pis nə var idi? O nə üçün bunun əvəzində məni yandırmaq istəyirdi? Mən ki, onun əri, həyat yoldaşı idim. Mənim tərifləmək onun tərifləməyi deyildimi? Bir də, axı məni havayı yerə tərifləmirdilər! Mən bu haqqı öz zəhmətimlə, işimlə qazanmışdım. Məgər, mən onun və onun gələcək uşaqlarının səadəti üçün əlləşib-vuruşmurdummu?

Birdən nəğmə səsi eşidildi. Arsız və yüngülxasiyyət oğlan olan Kərəmxan nə isə gülməli bir şey oxudu, sonra yoldaşları ağız-ağıza verib dedilər.

Ay Dadaş,
Atma daş –
Mən yaralıyam,
Şəkinin, Şirvanın
Mən maralıyam.

Onlar bu axmaq nəqəratı təkrar edib bərkdən gülüşdülər. Səriyyə içəridən çıxıb qapının ağzında dayanaraq, körpüsalanların çadırına tərəf baxdı və onun üzündəki gərgin ifadəni xoş bir təbəssüm əvəz elədi. Mən oxuyanlara tərəf işarə edərək kəskin istehza ilə:

– Deyəsən, içdiyiniz şərabın təsiri özünü indi göstərir, – dedim.

Lakin o, əvvəlcə, elə bil, məni eşitmədi. Sonra üzümə elə qəribə, soyuq bir nəzər saldı ki, elə bil, məni ilk dəfə görür və kim oldu-

ğumu xatırlamağa çalışırdı. Elə bil, mən tamamilə uzaq, yad bir adam idim. Bayaqkı şərab söhbətindən sonra bu, mənə ikinci ağır zərbə idi. Mən bir anlığa özümü alçalmış, təhqir olunmuş kimi hiss elədim. Mənə elə gəldi ki, hələ iyirmi yaşı tamam olmamış, orta təhsilli bir çilingər qızı mənə xeyli yuxarıdan baxır!..

Lakin bu duyğunun mənim üzərimdəki hökmü yalnız bir an çəkdi. Mən qətiyyətlə ayağa qalxaraq:

– Bilirsənmi nə var, – dedim, – işdən sonra onlara getməyi sənə qadağan edirəm.

O gülümsədi və birdən-birə mənə fövqəladə dərəcədə gözəl göründü. Onun təbəssümündə dərin bir məmnuniyyət var idi. Ona sillə vurmaqdan özümü güclə saxladım.

– Yox, Adil, – dedi, – mən «qadağan» sözünü xoşlamıram.

– Yaxşı, onlara getməyi sənə məsləhət görmürəm.

– Nə üçün? – deyə o elə arxayınlıqla soruşdu ki, elə bil, sualın cavabı ona əvvəlcədən məlum idi. O, dəhşətli dərəcədə cazibədar və qəddar idi!

– Bir özün düşün: cavan qadın subay oğlanlara qoşulub...

– Nə olsun? Yoxsa qısqanırsan?

Hiddətimi boğaraq:

– Əgər onlar mənim tayım-bərabərim olsaydılar, bəlkə də, qısqanardım...

O, təkrar gülümsədi, məmnun göründü.

– İndi ki, tayın-bərabərin deyillər, bəs niyə deyirsən?

– Sən mənim mövqeyimin tələb etdiyi yüksəklikdə dayanmağı bacarmalısan!

– Sənin mövqeyinin... Yox, Adil, mən sənin tələb etdiyin yüksəklikdə dayana bilmərəm. Mən onların yoldaşıyam. Biz dördümüzün də adını bir kağıza yazıb, hörgünün bünövrəsinə qoymuşuq. Biz bir briqadayıq.

– Sonra söz-söhbət olar. Gedər yuxarılara-zada çatar.

– Çatsın! Sən ki, məni tanıyırsan. Briqada ki, məni tanıyır.

– Bilirsənmi, Səriyyə, – deyə bu dəfə mülayim ifadə ilə izaha çalışdım, – biz həyatda hələ təzə-təzə ayaq tutub yeriyirik. Bizim haqqımızda pis bir fikrin əmələ gəlməsi bütün gələcəyimizə təsir elə-yə bilər. Məni pilləkənin yarısından qayıdıb təkrar aşağı düşməyə məcbur edərlər, bir də yuxarı qoymazlar. Sən bunu başa düşməlisən!

– Başa düşürəm.

– Odur ha... Əsas məsələ budur. Yoxsa onlar kimdirlər ki, səni onlara qısqanım?

– Onlar körpüsalanlardır!

– Nə olsun körpüsalanlardır! Müftə işləmirlər ki? Körpü salıb, pul alırlar.

– Sən də pul alırsan.

– Elədir. Ancaq mən mənəm. Onlar da onlar!

– Hər halda, onlar sənin kimi qorxaq deyillər.

– Mən qorxağam?

– Bəli, qorxaqsan!

– Mən nədən qorxuram?

– Rəislikdən çıxarılmaqdan! Karyerandan!

– Rəislik mənim vəzifəmdir. Mən öz ailəm qarşısında, cəmiyyət qarşısında məsulam, mən sənin kimi yelbeyin qadına xoş gəlmək üçün özümü uçuruma ata bilmərəm... Sən... Sən...

Mən qəzəbimi ifadə etmək üçün söz tapa bilmirdim. O isə mələk donuna girmiş iblis kimi gülümsəyib:

– Doğrudur, – dedi, – buna görə də hər yerdə özünü gözə dürtmək istəyirsən... Özün haqqında oçerklər yazdırırsan.

– Oçerkləri mən yazdırmıram! – deyə qışqırdım.

– Sən yazdırırsan! Əgər sən yazdırmasaydın, yanına gələn müəllifə deyərdin ki, məndən də artıq zəhmət çəkən adamlar var. Get, əvvəlcə onlardan yaz.

– Məsələn, kimdi onlar?

– Məsələn, onlar iki ayda görüləcək işi iyirmi beş gündə yerinə yetirən Soltan, Kərəmxan...

– Bəs o yekəpər buldozerçini niyə demirsən? Sən öz ərini gör kimlərlə müqayisə edirsən...

– Onlar «kimlər» deyil, Adil! Onlar mənim yoldaşlarımdır. Biz bir briqadanın adamlarıyıq. Mən onları çox istəyirəm. Sən onların heç birini təhqir eləyə bilməzsən.

Cavab vermədim. Daha doğrusu, cavab vermək iqtidarında deyildim. O, bütün gözəlliyi və amansızlığı ilə qarşımda dayanmışdı. Mən subay çağlarımda ideal ailə həyatı haqqında çox düşünərdim. Bu da sənə ideal ailə! Bu da sənin müqəddəs həyat yoldaşın! Sən onun səadəti üçün özünü oda-közə vurursan, o isə səni vəzifəbazlıqda, saxtakarlıqda təqsirləndirir. Bundan sonra gəl səmimiyyətdən, məhəbbətdən danış!

... Mən onu ilk dəfə texnikumun buraxılış imtahanında görmüşdüm. Əynində qolları dirsəkdən yuxarı idman köynəyi, ayaqlarında qısaboğazlı corab, yüngül məs var idi. Mən nazirlik tərəfindən imtahanda nümayəndəydim. Onun cavabları o qədər tərifli olmasa da, aydın və cəsarətli idi. O, tez-tez mənə baxaraq, yanındakı qıza nə isə deyirdi. Riyaziyyatdan şifahi imtahan verdiyi zaman orta məktəbdə mənimlə birlikdə oxumuş müəllim:

– Adil, – dedi, – bizim bu Səriyyə xanım almanca yaman bilir. Hötenin şerlərini sənə əzbərdən deyər.

– Doğrudanmı? – deyə mən gülümsəyərək qıza baxdım.

Sonra almanca soruşdum:

– Yol texnikumunda oxumaq sizin haradan ağlınıza gəlmişdir?

– Mən əvvəlcə, – deyə o da eyni dildə cavab verdi, – atamın məsləhəti ilə neft texnikumuna daxil olmaq istəyirdim. Ancaq orada riyaziyyatdan kəsildim. Sonra elə oldu ki, bura gəldim.

Almanca bilməyən müəllim dostum maraqla qulaq asaraq:

– Hə, necədir? – soruşdu.

– Çox gözəl bilir, – dedim.

Birdən qız:

– Siz də yaxşı danışırsınız, – deyə mənə baxıb gülümsədi. Və elə bil, bu bir cümlə ilə birdən-birə məni öz hökmü altına aldı. Mən almanca ondan haralı və kimin qızı olduğunu soruşdum.

O:

– Neyləyirsiniz?

– Elə-belə, maraqlanıram.

Mən başqalarını şübhəyə salmamaq üçün ciddi və işgüzar bir görünüş alaraq, yenə də almanca öz telefon nömrəmi ona söyləyib, xahiş elədim ki, buraxılış imtahanlarını verib qurtarandan sonra mənə zəng eləsin.

O, mənə baxmadan:

– Yaxşı, – deyə cavab verdi.

– Telefon nömrəsi yadınızdan çıxmadı ki?

O, telefon nömrəsini təkrar etdi.

«Siz də yaxşı danışırsız» sözləri o gecə yüz dəfə fikrimdən gəlib keçirdi və hər dəfə də mən onun əsmər bənizini bütün aydınlığı ilə görürdüm. Onun gülümsəyən qara gözlərinin dərinliklərində indiyə qədər mənə məlum olmayan bir aləm var idi. Bu aləmdə hər şey təzə və maraqlı idi. Mən çarpayımda uzanaraq gözlərimi qaranlıq divara zilləyib, bu aləmi həsrətlə seyr edirdim. O biri otaqda yatmış atam-anam sanki çox uzaqlarda qalmışdılar. Elə bil, mən bir də onları görməyəcəkdim. Mən özümdən başqa heç nə duymurdum, yalnız öz varlığımı və onun şiddətli arzusunu hiss edirdim. Mən bu arzuya qovuşmaq üçün hər şeyi vurub-dağıtmağa hazır idim. Mən acmış pələng kimi qəzəbli və narahat idim. Başımın altındakı balışı dönə-dönə o tərəf-bu tərəfə çevirirdim. Balışımın yumşaqlığı məni hirsləndirirdi. Birdən xatırladım ki, bu balışın içinə doldurulan quş tüküdür. Vaxtilə həyatda olmuş, yaşamış quşların tükü!

Lakin o həyatın artıq mənə dəxli yox idi. Mənim indi görüb-duyduğum ailəmdə nə quşlar var idi, nə də bu mənfur yumşaq yastıqlar. Qalxıb işığı yandıraraq, güzgünün qabağına keçdim və diqqətlə özümə baxdım. Gündüz «almanca yaman bilir» deyə Səriyyəni mənə təqdim eləyən müəllim dostumu xatırlayaraq, onun kimi çirkin olmadığımdan dərin bir məmnuniyyət duydum. Səriyyənin almanca mənim telefon nömrəmi necə pıçıldadığını təkrar-təkrar eşidirdim. Mən həyəcanla otağın içində var-gəl edərək səhərin tez açılmasını istəyirdim. Damarlarımdakı həyat qüvvəsi heç bir zaman bu qədər tələbkar və amansız olmamışdı.

İşıqda tək qalmaq mənə ağır görünürdü. Elə bil, kimin qarşısında isə ifşa olunurdum. Əsəbi addımlarla irəliləyib çırağı söndürdüm. Təkrar qaranlıq divarlarla üz-üzə qalanda qədim yunanların sevgi allahlarını xatırladım. «Qəribədir, görəsən, insanlar bu allahları nə üçün uydurmuşlar? Onları buna nə məcbur etmişdir?»

Biz evlənən zaman mən növbəti məzuniyyət götürdüm və düz iyirmi dörd gün, demək olar, evdən çıxmadım.

Sonra... hər şey öz qaydası ilə getməyə başladı. Mən daha yunanların eşq allahları haqqında düşünmürdüm. Mən onları unutmuşdum. Lakin bu gün oçerk oxunandan sonra, Səriyyə körpüsalanlarla şərab içdiyini söyləyərkən, onu birinci dəfə gördüyüm günü yenidən xatırladım. Qanım yenidən coşdu, yenidən mənə elə gəldi ki, onu indicə görürəm, ona nə qədər bağlı olduğumu, onsuz bir gün də yaşaya bilməyəcəyimi bu qədər aydın hiss edirəm. Lakin onun bu lənətə gəlmiş körpüsalanlara münasibəti mənim üçün müəmma idi... Mən bütün gücümü toplayaraq bunu açıb-ağartmamağa çalışırdım. Ona görə də, onun hər axşam körpüsalanlarla tennis oynamasına, hətta onlarla ova getməsinə mane olmurdum. Bu maneçilik vəziyyəti daha da tündləşdirə bilərdi. Onun gözündə bu körpüsalanların əhəmiyyətini daha da artırardı. «Körpüsalanlar» dedikdə isə, istər-istəməz, gözümün qabağına dərhal buldozerçi gəlirdi. Yuxarıda dediyim kimi, mən Səriyyənin bu istefaya çıxmış kiçik leytenantı hər dəfə görəndə nə üçünsə narahat bir vəziyyət alaraq, tez mənə baxdığını duyur və bunu səbəbsiz hesab etmirdim. Lakin gerisini düşünmürdüm. Elə bil, qarşımda dərin bir uçurumun açıldığını hiss edərək geri qayıdırdım. Hətta bu gün o, körpüsalanlarla şərab içdiyini söyləyəndə də, mən şübhələrimdə uzaqlara getməkdən çəkindim. Mənə elə gəldi ki, bu sözü acığı tutduğu üçün deyir. Ancaq onun mənə nə üçün acığı tutmalı idi?

Burada çox ehtiyatlı hərəkət etmək lazım idi. Ona görə də mən səhər durub işə gedəndə özümü axşam aramızda heç bir şey olmamış kimi şən apararaq:

– Səriyyə, – dedim, – bu gün bəlkə Gəncəyə getdim, sənə nə alım gətirim?

O da heç bir şey olmamış kimi:

– Nə istəyirsən, – deyə cavab verdi.

– Bilirəm, yəqin ki, «Mişka» yadına düşüb, – deyə zarafatla onun üzünə toxundum.

– Yox, yox, lazım deyil.

– Nə üçün? Sən ki, konfet xoşlayırsan.

– Daha istəmirəm. Şirin şeydən acığım gəlir.

Buna baxmayaraq, Gəncədən qayıdanda dörd-beş cür konfet və Səriyyə üçün yaxşı bir paltarlıq alıb gətirdim. O bu hədiyyələri əvvəlki həvəslə almasa da, hər halda, yaxşı qarşılayıb, təşəkkür elədi. Nahardan sonra mən mümkün qədər sakit bir ifadə ilə:

– Səriyyə, – dedim, – hər gün bura gəlib-getmək mənim üçün çətin olur. Ona görə də, bu qərara gəlmişəm ki, hələlik köçüb rayonun mərkəzində qalaq. Havalar da o qədər isti keçmir.

O mənə iti bir nəzər saldı:

– Bəs mənim işim nə olsun?

– İşin nə olacaq? Körpü sənsiz də salınar, – deyə mən qəsdən əsnəyərək cavab verdim.

– Yox, Adil, – dedi, – körpünü salıb qurtarmayınca heç yerə getmərəm.

Mən yenə də əsnəyərək biganəliklə:

– Özün bil, – dedim, – burada sənin üçün də narahat keçir.

– Eybi yoxdur. Mən heç bir çətinlik çəkmirəm.

Mən qəzəbimi güclə saxlayaraq gülümsədim:

– Yəni körpünün taleyi səni məndən çox maraqlandırır?

– Səni körpünün taleyi maraqlandırmır, Adil.

– Bəs nə maraqlandırır?

– Öz taleyin!

– Səriyyə, – deyə mehribanlıqla soruşdum, – niyə sən mənim gözümün içinə belə sözlər deyirsən?

– Mən ikiüzlülük eləməmək üçün briqada qarşısında and içmişəm, Adil! Ona görə də hiss elədiyimi deməliyəm.

– Hansı briqada qarşısında and içmisən?

– Körpüsalanlar briqadası qarşısında. Bizim qanunumuz belədir.

– Yaxşı, sözüm yoxdur. Məgər mənim taleyim sənin taleyin deməк deyil?

– Bilmirəm, ancaq biz hələ bu körpüdən sonra yuxarı dağlarda ayrı bir körpü də salmalıyıq. Sən özün deyirdin ki...

«Doğrudan, mən deyirdim, lakin mən bu körpülərin bizim aramızda bu cür vəziyyət yaradacağını bilmirdim. Bu körpü səni məndən uzaqlaşdırır. Bu isə dəhşətdir... Sənin indiki əhvali-ruhiyyən mənim yuxuma da girməzdi. Sən nə yaman soyuq olmusan?! Nə yaman amansız olmusan?! Briqada qabağında and içmişəm... Briqada...»

SƏRİYYƏ

... Mən körpüsalanlar briqadasından ayrılmayacağımı qəti bildirəndən sonra, Adil bir də bu barədə danışmadı. Mənə qarşı daha mehriban, daha şən oldu. Tez-tez zarafat edir, axşamçağları mənimlə birlikdə meşəyə gəzməyə çıxırdı. Nə körpü barədə, nə də bizim briqada haqqında heç nə soruşmurdu. Lakin rayona köçmək söhbətindən dörd gün sonra biz körpünün böyük borularını bərkitdiyimiz zaman, motosikletdə bir oğlan gəlib buldozerçiyə bir zərf verdi. O da cəld açıb, içindəki balaca kağızı gözdən keçirdi. Buldozerçi gülümsəyərək kağızı Soltana uzatdı. O da alıb bərkdən oxudu. Bu, buldozerçinin birinci sahəyə dəyişilməsi barədə yol rəisi Adil tərəfindən verilmiş əmr idi. Soltanla Kərəmxanın nəzərləri bir anlıq mənə dikildi.

– Bəyəm bizə buldozerçi lazım deyil? – deyə Kərəmxan soruşdu.

– Necə lazım deyil? – Soltan acıqla cavab verdi. – Naçalnik bizimlə məsləhətləşə bilməzdi?

Buldozerçi:

– Yaxşı, uşaqlar, – dedi, – mübahisə yersizdir. Vaxta ki, naçalnik belə məsləhət bilir, demək, əməl olunmalıdır.

– Düz demirsən, – deyə Soltan etiraz etdi, – biz uşaq-zad deyilik ki, hər bir əmrə kor-koranə tabe olaq. Axı, əslində bu körpüdə dörd yox, yeddi-səkkiz adam işləməli idi. Biz özümüz istəmədik. Gördülər ki, sözümüz sözdür. Yeddi-səkkiz adamın bir ayda görəcəyi işi biz iyirmi gündə başa vurduq. Bəs, niyə belə eləyirlər?

Sonra mənə müraciətlə əlavə etdi:

– Biz yoldaşıq. Bundan qabaq Girdmançayın üstündə salınan körpüdə də birlikdə işləmişik, bir-birimizin xasiyyətinə bələd olmuşuq. Birlikdə təşəkkür almışıq. İndi rəis götürüb belə edir.

Buldozerçi:

– Məncə, – dedi, – bu giley-güzar mənasızdır. – Sonra zərfin üstünə qol çəkib, motosikletdə gələn oğlana qaytardı.

Mən də həmin oğlana:

– Rayon mərkəzinə qədər məni də apararsınızmı?

– Əlbəttə, buyurun.

Sonra mən Soltana zarafatyana:

– Yoldaş briqadir, – dedim, – mənim rayon mərkəzində çox vacib bir işim var, səhər yadıma düşməyib Adilə deyim, icazə olarmı?

Soltan qaşqabaqlı tərzdə:

– Gedin, – dedi.

Mən paltarımı belə dəyişmədən motosikletdə gələn oğlanın tərkinə əyləşdim...

Yol idarəsi rayon icraiyyə komitəsi binasının ikinci mərtəbəsində yerləşmişdi. Adilin on yeddi-on səkkiz yaşlı göyçək bir qız olan katibəsi məni başdan-ayağa süzərək:

– Naçalnik məşğuldur, – deyib üzünü o yana çevirdi.

– Nə ilə məşğuldur?

– Hər gələnə haqq-hesab verəsi deyilik ki! Sizdən başqa da gözləyənlər var, – deyə katibə, o tərəfdə əyləşmiş üç kişini göstərdi.

Mənimlə motosikletdə gələn oğlan yaxınlaşıb, onun qulağına nə isə dedi və qız cəld ayağa qalxıb gülümsəyərək:

– Bağışlayın, – deyə məndən üzr istədi.

Sonra qapıya işarə ilə:

– Buyurun, – dedi.

Adilin səliqəsinə nə söz! Heç nazirin özünün də bu cür kabineti ola bilməzdi. Qoz ağacından qayrılmış təzə yaraşıqlı yazı stolu. Ağ mərmər ləvazimatı. Səliqə ilə çərtilmiş rəngarəng karandaşlar. Büllur qrafin və stəkan. Qar kimi ağ örtüklü stullar, məxmər pərdələr...

Adili yaxından tanımayan bu az zaman içində onun bütün bunları necə düzəltdiyinə təəccüb edərdi.

O, stolun arxasında oturub nə isə yazırdı.

Başını qaldırıb məni görəndə bir neçə saniyə diqqətlə üzümə baxdı, sanki nəyi isə aydınlaşdırmağa çalışdı.

Sonra gülümsəyib qələmi yerə qoydu.

– Nə əcəb?

– Elə-belə gəldim, – dedim və stul çəkib oturdum.

– Nə ilə gəldin?

– Motosikletlə. Sən göndərdiyin oğlanın tərkində...

O, qıpqırmızı qızardı:

– Axı, yaxşı deyil, camaatın içində belə iş eləyirsən. Əgər gəlməyin bu cür vacib idisə, sifariş eləyəydin, maşın göndərəydim.

– Eybi yoxdur.

– Sənin üçün eybi yoxdur, amma mənim üçün...

– Briqada sənin əmrinə etiraz edir.

– Hansı əmrimə?

– Buldozerçinin başqa yerə dəyişilməsi haqqındakı əmrinə.

– Sən bundan ötrü gəlmisən?

– Bundan ötrü.

O, dərindən nəfəs alaraq, stulun arxasına söykəndi. Sonra yavaş səslə:

– Briqadanın nə ixtiyarı var, – dedi, – rəisin əmrinə etiraz eləsin?! Anarxiya-zad deyil ki...

– Doğrudur, anarxiya deyil, ancaq rəis haqsız olduqda, etiraz eləmək olar.

– Nədən bilirsən ki, rəis haqsızdır?

– Özün də bilirsən ki, haqsızsan!

– Sən nə üçün belə işlərə qarışırsan? Buldozerçinin başqa yerə dəyişilməsinin sənə nə dəxli var?

– Mənə dəxli var, çünki biz bir briqadanın üzvüyük! Əgər sən əmrini geri götürməsən, mən bu saat nazirliyə zəng edəcəyəm, gəlib kimin haqlı olduğunu ayırd eləsinlər. Biz körpünü birlikdə başlamışıq, birlikdə də qurtaracağıq. Buldozerçi bizə hamıdan çox lazımdır.

– Sonra ayrısını göndərərəm.

– Ayrısını Qəribi təyin elədiyin yerə göndərsən nə olar?

– Səni bura onlar göndərib?

– Yox, özüm gəlmişəm.

O, nəzərlərini yerə dikib bir neçə saniyə susdu və bu zaman gözlərinin küncündəki, alnındakı incə cizgilər mənə həddindən artıq dərin və qaranlıq göründü. Mənə elə gəldi ki, bu cizgilərin altında mənim yaxşı anlaya bilmədiyim ağır, lal bir əzab gizlənmişdir. Elə bil ki, bu cizgilərin dərinliyindən mənə yüzlərcə müztərib göz baxırdı.

Mən mümkün qədər mülayim səslə:

– Adil, – dedim, – axı sən gərək bu cür briqadaların yaranmasına, onların arasındakı dostluğun möhkəmlənməsinə kömək eləyəsən. Axı biz dörd yoldaş adımızı yazıb o körpünün bünövrəsinə qoymuşuq.

Axırıncı sözləri deyərkən, buldozerçinin siması bütün aydınlığı ilə gözlərimin qarşısında canlandı. Mən anlaşılmaz bir qorxu hiss edərək tələsik soruşdum:

– Nə deyirsən, Adil?

– Yaxşı, Səriyyə, qoy sən deyən olsun.

– Tək mən deyən nə üçün? Bu, bütün briqadanın arzusudur.

– Etiraz eləmirəm.

– Çox sağ ol, Adil, – deyib sevinclə onun əlindən tutdum.

O, üzümə ani bir nəzər salıb, əlini üsulluca geri çəkdi. Mən onun bu hərəkətindən incimədim. Elə bil ki, bu cür ifadə ilə baxan adama birinci dəfə rast gəlirdim. Elə bil ki, o, nə isə böyük bir sirri məndən gizləyirdi. Kabinet birdən-birə mənə qaranlıq və cansıxıcı gəldi.

– Yayın günündə bu pərdələr nəyə lazımdır, Adil?

– Toz-zad olur, – deyə o, pəncərəyə baxmadan cavab verdi.

Mən qalxdım:

– Gedim bazara, bir az ayın-oyun alım. Sən, yəqin ki, iş qurtaranda gedəcəksən...

– Sən tez getmək istəyirsən?

– Yox, nə üçün? Birlikdə gedərik...

– Yaxşı, get, nə alırsan al, gəl.

Mən kabinetdən çıxanda katibə ayağa qalxaraq gülümsəyib, məni gözləmə otağının qapısına qədər müşayiət etdi. Mən qəsdən özümü dartaraq təşəxxüslə:

– Xudahafiz, – deyib ondan aralandım və pilləkəni düşərkən öz hərəkətimə özüm də güldüm.

Bazarda əvvəlcə böyük bir zənbil alıb içini göy-göyərti, meyvə və tər xiyarla doldurdum. İri qırmızı pomidor və kabablıq qoyun əti aldım. Sonra kitab mağazasına gedib, mərkəzi və respublika jurnal-

larının son nömrələrini götürdüm. Bazarlığım çox xoşuma gəldi. Aldığım şeylərin hamısı təzə və təravətli idi. Hamısında nə isə könülaçan bir şey vardı. Geri qayıtdığım zaman qapıları taybatay açıq balaca bir dükanda birisi cavan, digəri nisbətən yaşlı iki manikürçünün müştəri gözlədiyini görüb içəri girdim.

Cavan qadın dırnaqlarımı açıq çəhrayı rəngdə manikür edir, yaşlı isə ordan-burdan danışırdı. İkisi də bir-birinə oxşayırdı. Məlum oldu ki, ana-baladırlar. Qışı Bakıda yaşayır, yayı isə buraya gəlirlər. Anasının qırx iki-qırx üç, qızın isə iyirmi dörd yaşı olardı. İkisi də yaraşıqlı və xoşrəftar idi. Manikürçü qadın saçlarını tünd-qəhvəyi boyadaraq, buruq-buruq eləyib arxasına atmışdı. Danışdıqca tez-tez gülümsəyir və bu zaman yanlardakı qızıl dişləri görünürdü. Qızı isə nazik, incəbel bir gəlin idi, mənim kimi, alçaqdaban tufli geymişdi.

Mənim də Bakıdan gəldiyimi və yol rəisi Adilin arvadı olduğumu bilib çox sevindilər. Manikürçü qadın dedi:

– Bütün şəhər sizin ərinizdən danışır...

– Nəyindən?

– Deyirlər, çox ağıllı oğlandır. Yuxarılarda bir sözü iki deyil.

Sonra gülümsəyərək əlavə etdi:

– Özü də çox gözəldir. Siz xoşbəxtsiniz.

Manikürçü qadın axırıncı sözü elə səmimi dedi ki, elə bil, özü dünyanın ən dərdsiz-qəmsiz və xoşbəxt adamı idi.

Qızı isə:

– Maşını da özü sürür, başqa naçalniklər kimi şofer saxlamır, – dedi.

Manikürümü qurtarandan sonra məni çaya dəvət elədilər. Bərk susadığımdan, məmnuniyyətlə razı oldum. Dükanın arxasında balaca, işıqlı bir otaqda olurdular. Otağın pəncərə və arxa qapısı birbaş həyətə açılırdı. Bayırda pəncərənin qabağında çoxlu qərənfil, ətirşah və zanbaq əkilmişdi. Ev-eşik, qapı-baca çiçək kimi tərtəmiz və sərin idi.

Məni şəkərçörəyi və təzə gilənar mürəbbəsi ilə çaya qonaq elədilər. Sonra biz yeni kinofilmlərdən, musiqi əsərlərindən söhbət elədik.

... Mən əlimdə böyük, dolu zənbil, kefi kök halda təkrar Adilin kabinetinə daxil oldum.

– Nə çox bazarlıq eləmisən, – deyə o, gülümsədi.

– Yarısını körpüsalanlar üçün almışam.

– Özləri tapşırmışdı?

– Yox.

O, üzünü yana çevirib:

– Bəs bu vaxta qədər elə bazarda idin? – deyə tutulmuş halda soruşdu.

– Manikürçügildəydim...

– Hansı manikürçügildə?

– Bu küçənin aşağısındakı manikürçülər yoxdurmu?

– Sən onları haradan tanıyırsan?

– Dırnaqlarımı düzəltdirəndə tanış olduq. Məni evlərinə dəvət etdilər.

– Axı bilmədiyin-tanımadığın evə nə üçün gedirsən?

– Adamlar anadan tanış olmurlar ki, Adil?

– Sən nə vaxtacan mənə bu cür cavablar verəcəksən?

– Bilmirəm!

– Bilməyin lazımdır.

Mən ona diqqətlə baxaraq:

– Amma, – dedim, – manikürçülər səni tərifləyirdilər.

– Mənim elələrinin tərifinə ehtiyacım yoxdur.

– Bəs kiminkilərinə ehtiyacın var?

Adil gözlərini üzümə dikərək bir neçə saniyə susdu. «Yəqin ki, məni vurmaq istəyir» deyə düşündüm. Əlbəttə, o belə şey eləməzdi. Lakin mən onun nəzərləri altında özümü narahat hiss edirdim. Elə bil ki, bu baxışlar ağır bir yük olub məni sıxırdı.

– Saat altıya işləyir, getmək istəmirsən? – deyə mən səbirsiz halda qalxdım.

– Gedək.

O, zənbildən yapışmaq istədikdə:

– Yox, Adil, özüm götürərəm, – deyib ağır zənbili qaldıraraq, qapıdan çıxdım.

Zənbili maşının dal tərəfinə qoyub özüm sükanın arxasına keçdim.

– Burada niyə otururşan?

– Mən sürəcəyəm.

– Lazım deyil, o yana keç.

– Yox, Adil, bu dəfə mən sürəcəyəm.

O keçib mənim yanımda əyləşdi.

Mən maşının sürətini artırıb rayon mərkəzindən çıxdım.

«Nə üçün bizim duyğularımız getdikcə bir-birindən bu cür uzaqlaşır? Nə üçün o, mənim isinişdiyim, dost və yoldaş hesab elədiyim adamlara bu qədər yaddır? Bəlkə mən heç işləməyəydim? Lakin bu necə ola bilərdi? Mən özümü vətəndaşlıq hüququndan necə məhrum eləyə bilərdim?

Yox, Adil, bu mümkün deyil! Mən bunu bacarmaram. Mən özümü sənin və körpüsalanların gördüyü işdən təcrid eləyə bilmərəm. Bəlkə sən özün bir yol tapasan? Nə üçün sən heç öz hərəkətlərin barədə düşünmürsən? Axı sən ağıllı, işgüzar oğlansan... Nə üçün sən mənim kölgədə sürünməyimi istəyirsən? Mən sürünməyə nifrət edirəm».

Mən uçmaq... hey uçmaq istəyirdim. Mən meşəli dağların, sıldırım qayaların, dibi görünməyən dərin dərələrin yanından qıjıltı ilə vurub keçdikcə, daha iti sürətlə uçmaq istəyirdim. Mən sürəti artırdıqca, tez-tez görünüb qeyb olan mavi üfüqlər də uzaqlaşırdı. Mən meteor, fövqəladə bir raket kimi yüz min kilometrləri bir anda qət etmək istəyirdim. Mən ərimin varlığını büsbütün unutmuşdum. Mən hər şeyin necə amansız bir sürətlə arxada qalmasından aldığım zövqdən başqa heç nə duyub-dərk etmirdim.

Mən pəncərə şüşəsi kimi çərçivəyə salınmış «əqlisəlimin» pedant soyuqluğuna nifrət edirdim! Əsrləri bir anda vurub-keçən dahilərə eşq olsun! Əgər biz koramal kimi yerlərdə sürünəcəkdiksə, manikürçü qadın demişkən, bəs bu dünya kimin üçünmüş? Əgər biz fərsiz, məhdud arzuların əsiri olacaqdıqsa, bəs bu əzəmətli dağlar, bu uçurumlu yollar nə üçünmüş? Bütün məxluqatın əşrəfi olan insanın ləyaqətinin mənası nədən ibarət imiş?.. Mən insan əli, insan dühası ilə düzəldilmiş maşının gedib Aya çatdığını eşitdiyim gecə uzun zaman yata bilmədim. Mən uçmaq, uçmaq istəyirdim.

– Yavaş, nə edirsən? – deyə o, qolumdan yapışdı, – sürəti azalt, görmürsən, yol xarabdır?

– Qorxma, heç nə olmaz.

– Yox, azalt!

– Yaxşı, Adil, bu dəfə sən deyən olsun, – deyə zarafatyana cavab verib sürəti azaltdım.

– Necə yəni «bu dəfə»?

– Yoxsa həmişə sən deyən olmağını istəyirsən? – mən eyni zarafatla yanakı ona baxdım.

Adil də mənə baxdı. Biz qadınlar xarici görünüşümüzün kişilərə nə cür təsir bağışladığını dərhal duyuruq. Bu anda mənim ona çox cazibədar göründüyümə şübhə yox idi və bunu hiss etmək mənə zövq verirdi. Elə bil ki, mən bununla ondan nəyin isə qisasını alırdım.

Yolun alt tərəfi hər yerdə uçurum idi. Əgər maşın aşsa, tikəmiz də tapılmazdı. Ona görə xüsusi döngələrdə çox ehtiyatlı olmaq lazım gəlirdi. Buna baxmayaraq, sürəti artırmaq həvəsi ilə yanırdım. Mən, hətta tez-tez siqnal verməyi belə unutmuşdum. Ona görə də çətin döngələrin birində qəflətən qabağımıza çıxan yük maşını ilə az qala toqquşmuşduq.

Lakin mən özümü itirməyərək, maşını dərhal sağa burub, saxladım. Qabaq təkərlər lap uçurumun üstündə dayanmışdı. Vəziyyət o qədər qorxulu olmuşdu ki, yük maşınının şoferi də maşını saxlayaraq, kabinədən başını çıxarıb acıqlı-acıqlı mənə baxırdı. Mən gülümsəyərək «QAZ-69»u yavaşca geri verdim və bu zaman buldozerçini ilk dəfə gördüyüm anı xatırladım...

Adilin rəngi azca qaçmışdısa da, özü heç bir şey olmamış kimi sakit oturmuşdu.

– Bağışla, Adil, – dedim, – bir də belə iş görmərəm.

O mənə cavab verməyərək, eyni soyuqqanlılıqla üzünü yana çevirdi. Onun bu hərəkəti ilə mənim maşını qanadlandırmaq həvəsim də sönüb getdi. Mən həyatda hər bir coşğun qəzəb və ehtirasın axırda necə cansıxıcı bir adilikla nəticələnə bildiyini acı-acı düşünərək maşının sürətini lap azaltdım. Bəlkə Adilə necə xoş gəlirsə, elə yaşamaq lazımdır? Axı, deyirlər, keçmiş analarımız belə edirmişlər... Aramızda baş qaldıran bu örtülü çəkişməyə bu cür son qoymaq olmazmı? Bəlkə mən Adili heç istəmirəm?! İndi onunla yanaşı oturduğumuz bir zamanda bu fikrin ağlıma gəlməsi mənə dözülməz dərəcədə ləyaqətsiz göründü. Mən özümü onun qarşısında ikiüzlü bir miskin kimi hiss elədim. Mənim əqidəmcə, dünyada ən böyük alçaqlıq namərdlikdir. Sənin bir yastığa baş qoyduğun adamdan heç nə gizlətməyə haqqın yoxdur! Ona görə də mən tezliklə öz hisslərimi aydınlaşdırmalıyam.

Mən heç kəsin qarşısında ikiüzlülük eləməmişəm. Bundan sonra da etməyəcəyəm. İndi bizim zəmanəmizdə «ər-arvad» sözləri çox zaman «həyat yoldaşı» ifadəsi ilə əvəz olunur. «Yoldaş yoldaşa tən gərək, tən olmasa gen gərək!» Çox gözəl deyilmişdir! Ataların hər sözü qızıla bərabərdir.

... Buldozerçinin dəyişilməyib yerində qalmasını briqada arasındakı birliyin ilk qələbəsi kimi qiymətləndirərək, işə daha qızğın girişdiyimizdən, körpü sürətlə qurulmaqda idi. Yolun körpü üzrə mühəndisi üç-dörd dəfə gəlib işimizi diqqətlə yoxlayaraq, çox razı qalmışdı. Lakin Adil özü səhərdən axşamacan iş sahəsini gəzdiyi halda, son zamanlar bir dəfə də olsun, nə bizim körpünün üstünə gəlmiş, nə də o barədə bir söz soruşmuşdu. O, körpüyə sarı heç baxmırdı da. Elə bil ki, bizim Zoğallı körpü onun ögey oğlu idi, bu, əlbəttə, mənim xətrimə dəyirdi. Elə bil ki, o, körpüyə deyil, mənim doğma balama biganəlik göstərirdi. Onun briqada üzvlərinə bu soyuq, məğrur münasibəti məni yoldaşlarımın yanında utandırırdı. Onlar bunu hiss etdikləri üçün Adil barəsində mənimlə bir kəlmə də danışmırdılar... Lakin mən istəyirdim ki, onlar bu barədə danışsınlar! Rəisin yad münasibətini pisləsinlər! Mən bunu şiddətlə arzulayırdım. Mən öz qəzəbimi ifadə üçün bir vasitə, bir münasibət axtarırdım.

Hamısından da çox mənə Adilin məhz buldozerçini ayrı yerə dəyişmək istəməsi qəribə görünürdü... Özü etiraf etməsə də, mən onda bu oğlana qarşı, nə isə bir kin hiss edirdim. Lakin mən o zaman buldozerçinin nədə təqsirkar olduğunu bilmirdim. Sonralar da onda heç bir günah yox idi. Mən bu barədə onun əvəzindən indi də and içə bilərəm. Lakin hələ o zamanlar, yəni arada hələ heç nə yox imiş, Adilin buldozerçini görmək istəməməsi məndə ona qarşı xoşagəlməyən bir duyğunun getdikcə güclənməsinə səbəb olurdu. Mən haqlı-haqsız onun qarasına əsəbiləşir, onu acılamaq istəyirdim. Onun buldozerçi-

ni dəyişmək təşəbbüsü isə bu duyğunu daha da tündləşdirdi, buldozerçi ilə mənim aramda tamamilə yeni və lal bir münasibətin yaranmasına sanki təkan verdi. Çünki mən buldozerçinin nələr keçirdiyini hiss edirdim. Buldozerçi namərdlik etmirdi. Adil bunu bilməli idi! Adil mənə şillə vuraydı, danlayaydı, lakin körpüsalanların böyük səmimiyyətinə yuxarıdan aşağı baxmayaydı. Adil yalnız o zaman məni itirməzdi.

... Buldozerçinin dəyişilməyib yerində qalması xəbəri körpüsalanların böyük sevincinə səbəb olmuşdu. Onlar bunu məndən gizlətmirdilər, lakin buldozerçi özü əvvəlkinə nisbətən daha qaşqabaqlı olmuşdu. Onun öz baxışlarını mənim nəzərlərimdən yayındırmağa indi daha çox cəhd etdiyini hiss edirdim. İş zamanı ikimiz də tək qalanda o, bir bəhanə ilə məndən uzaqlaşırdı. Mən də onu daha əvvəlki kimi cürbəcür zarafatlarla sancmırdım...

Tennis oynayanda onun məni aparmasından əvvəlki kimi yanıb-yaxılmırdım. Mən öz baxışlarımla, gülüşümlə, ona nə isə mehriban sözlər deyirdim. Mən onun soyuq və hətta acıqlı rəftarından qəzəb deyil, fərəh duyurdum. Mən onun üst köynəklərini və dəsmallarını zorla alıb özümüzünkülərlə bərabər yuyub ütülədiyim zaman özümü fövqəladə dərəcədə səmimi, ləyaqətli bir insan kimi hiss edirdim.

Biz artıq körpünün dəmir-beton tağını düzəltməkdəydik. Bizim «körpəmiz» keçmiş nağıllardakı qəhrəmanların uşaqlığı kimi görünməmiş bir sürətlə böyüməkdəydi.

Dağ günəşi qollarımızı, üzümüzü yandırıb qaraltmışdı. Buldozerçi isə sarıbəniz olduğundan, boyun-boğazı mis kimi qızarmışdı.

Oğlanların əynində mayka, mənim əynimdə isə yüngül, qolsuz don olurdu. İndi daha tənəffüsdə çadırlarımıza getmir, dördümüz də körpüdən bir azca yuxarıda, böyük palıdın kölgəsində oturub qəlyanaltı eləyirdik. Yemək hazırlamaq üçün baş aşpaz mən, müavinim isə Kərəmxan idi. Bəzən oğlanların vurduqları quşları qızardırdıq. Bəzən mən onlar üçün ət qutabı bişirirdim ki, bunu hamısından artıq xoşlayırdılar. Axı qutab ən çox Bakıda dəbdir. Bu yerlərdə, demək olar ki, heç bişirmirlər. Mən qutabları bişirib sumaq vura-vura üst-üstə yığdıqca, Kərəmxanın necə ləzzətlə baxdığını görüb qəhqəhə ilə gülür, sonra bir-ikisini büküb ona verirdim:

– Al bir dadına bax, gör yaxşı bişibmi?

O, qutabları ötürdükcə başını tərpədərək:

– Sağ ol, vallah, Səriyyə bacı, – deyirdi, – ömrümdə belə dadlı şey yeməmişəm.

Mən də öz sənətimdən dərin bir zövq duyaraq:

– Hələ bu gün sən deyən yaxşı deyil, – deyirdim, – gör gələn dəfə necə bişirəcəyəm!

Biz qəlyanaltı etdikdən sonra mən çadıra qaçıb öz bişmişimizə baş çəkir, yuyunub saçlarımı düzəldir və təkrar işin üstünə qayıdırdım. Tənəffüsdən sonra dördümüz də özümüzü daha şən və daha gümrah hiss edirdik. Etiraf edim ki, mən bu tənəffüs saatlarını həmişə böyük həvəslə gözləyirdim. Həmin saatlarda duyduğum istirahəti, xoşhallığı heç nə ilə dəyişməzdim. Tənəffüsdə biz istədiyimiz qədər zarafatlaşırdıq. Tənəffüsdə mən öz baxışlarımla buldozerçiyə daha səmimi sözlər deyirdim, o isə bunları eşitmək istəmirdi. O öz biganəliyi ilə məni ürkütmək istəyirdi, lakin buna müvəffəq ola bilmirdi. Əgər o zaman biri məndən soruşsaydı ki, bu nə oyundur sizin aranızda başlayıb, nə ilə nəticələnəcək, cavab verə bilməzdim. Bu oyunun böyük bir təbəddülatın başlanğıcı olduğunu ağlıma gətirməzdim.

Sən demə, buldozerçi gələcəyi məndən aydın görürmüş...

... Bir gün tənəffüsdə Soltan:

– Uşaqlar, – dedi, – briqadanın işindən narazılıq etmək olmaz. Körpəyə pis baxmırıq, ancaq briqada mənəvi aləmlə məşğul olmur...

Kərəmxan onun sözünü kəsdi:

– Bəs körpü salmaq özü, bəyəm mənəvi aləm deyil?

– Zarafatı burax, əməlli söz deyirəm.

– Elə isə danış, – deyib Kərəmxan mənə göz vurdu.

Buldozerçi onun bu hərəkətini görüb qızardı və bu mənə hədsiz dərəcədə xoş gəldi.

– Bizdə, ancaq bircə buldozerçi qiyabi institutda oxuyur. (Mən Qəribcana həmişə buldozerçi deyə xitab elədiyim üçün onlar da çox vaxt zarafatyana məni təqlid edirdilər). Bəs biz? Təklif var ki, bu il biz də instituta ərizə verək.

Kərəmxan:

– Siz ölmüyəsiz, – dedi, – institut adı çəkiləndə, o imtahan gəlir dağ kimi durur gözümün qabağında...

Soltan onun sözünü ağzında qoydu:

– İş stajı düşür. Qaldı imtahan, ona da hazırlaşarıq. Bəs, bu buldozerçi nə cür daxil olub? Səriyyə, sən necə, qiyabi oxumaq istəyirsənmi?

– Necə ola bilər ki, briqada istəsin, mən yox? Buldozerçi riyaziyyatdan bizə kömək eləsə, hazırlaşa bilərik.

– Riyaziyyat... Riyaziyyat, – Kərəmxan yana-yana təkrar elədi, – bir də ədəbiyyatdan yazılı imtahan...

– Ədəbiyyatdan qorxma. O barədə mən hazırlaşmağımıza kömək eləyə bilərəm, – dedim.

Soltan:

– Yaxşı da... tay nə istəyirsiniz? Riyaziyyatdan buldozerçi, ədəbiyyatdan da Səriyyə. Qaldı tarix...

– Onda da müəllimimiz sən. Axı bizim bu Soltan yaman tarixçidir. Napoleonun davalarını soruş, sənə əzbər desin. Deməli, siz üçünüz müəllim, mən də şagird, bax, yaxşı öyrədin ha... Siz ölmüyəsiniz, imtahanda kəsilsəm, biabır olarsınız.

Soltan:

– İndidən kəsilmək barədə danışma, – dedi, – imtahan verəcəyik, vəssalam!

Mən:

– Buldozerçi dinmir, – dedim, – bəlkə heç o bizə kömək eləmək fikrində deyil?

Kərəmxan:

– Briqada tələb eləyəndən sonra necə öyrətməz? Ə, buldozerçi, bir dinsənə! Başa düşmürəm, Səriyyə bacı bura gələndə niyə ağzına su alıb durursan?

Buldozerçi sanki diksinərək, tələsik əvvəl mənə, sonra da Soltana baxdı və birdən qıpqırmızı qızararaq, Kərəmxana acıqlandı.

– Yekə oğlansan, hər zarafatın yeri var.

Mən qəhqəhə ilə gülərək:

– Tənqiddən inciмək lazım deyil, yoldaş buldozerçi.

Soltan:

– Təklif var, – Səriyyə sinif rəhbəri olsun, etiraz yoxdur ki?

– Yox! – deyə Kərəmxan bərkdən səsləndi.

Soltan:

– Hər gün işdən sonra altı ilə yeddi arasında bir saat məşğələ keçirilsin. Etiraz yoxdur ki?

– Yoxdur! – Kərəmxanla mən orta məktəb şagirdləri kimi birdən cavab verdik.

– Məşğələ cədvəlini tutmaq Soltana tapşırılsın, etiraz yoxdur ki?

Kərəmxanla mən bu dəfə daha bərkdən:

– Yoxdur! – dedik.

– Bir sual olar? – Kərəmxan şəhadət barmağını yuxarı qaldırdı.

– Olar!

– Bəs dərs kitablarını tapmaq kimə tapşırılır?

– Sinifkoma! – deyə mən əlimi döşümə qoydum.

Soltan əsl başçı kimi mənə müraciət edib:

– Kitab-dəftərimiz üçün nə qədər pul lazım olsa, ümumi fondumuzdan götürərsən, – dedi.

– Bir şey deyil, mən öz maaşımdan alaram.

– Yox, – Soltan eyni ciddiyyətlə etiraz elədi, – ümumi fonddan!

– Oldu! – deyə mən gülümsəyərək, əsgər kimi əlimi yuxarı qaldırdım, – sabah istirahət günüdür. Gedib nə lazımsa, alıb gətirərəm.

– Əsas onuncu sinfin kitablarıdır.

– Yeddinci-səkkizinci siniflərin riyaziyyat kitabları da lazımdır, – deyə Kərəmxan qayğı ilə cavab verdi, – gərək başdan təkrar eləyək.

Soltan:

– Yaxşı, heç demirsiniz, kim hansı instituta girmək xəyalındadır?

Araya uzun bir sükut çökdü.

Nəhayət mən:

– Gərək ki, – dedim, – buldozerçi institutun mexanika şöbəsində oxuyur.

– Elədir. İnstitutun tikinti fakültəsində yol-körpü şöbəsi də var.

– Mən oranın həvəsindəyəm. Ancaq...

Kərəmxan məzəli bir əda ilə boynunun ardını qaşıdı.

Soltan qətiyyətlə:

– Mən yol-körpü şöbəsinə girəcəyəm, – dedi.

Mən qaşlarımı yuxarı dartaraq:

– Qaldı yoldaş Səriyyə... – deyə sözü xeyli uzatdım, – vaxta ki, briqada üzvlərinin hamısı gələcəkdə də körpülər salmaq fikrindədir...

– Yox, – Soltan sözümü kəsdi, – hər kəsin öz həvəsi ilədir...

– Şübhəsiz. Mənim də həvəsim yol-körpü şöbəsidir.

Soltan:

– Bununla da məsələ qurtarır.

– İndi isə, xahiş edirəm, balaca bir konsertə qulaq asasınız.

Sonra o, oynaq bir hava üstündə, eynən estrada artisti kimi komik hərəkətlərlə oxumağa başladı:

Biz dağları yarırıq,
Dəmir körpü salırıq,
İnstituta baş vurub,
Dörd nədir, beş alarıq.
Ancaq bizim Qəribcan
Yaman dinməz olubdur.
Bilmirik nə dərdi var,
Nəyə peşman olubdur?
Bəzən xəyala dalır,
Bəzən ulduza baxır.
Yoxsa ki, bu binəva
Dönüb şair olubdur?!

Soltan gülümsəyərək əvvəlcə yerə, sonra da uçurumdan o yanda görünən dağlara baxdı. Buldozerçi məzəmmət dolu gözlərini Kərəmxana zilləmişdi. Kərəmxan isə ona fikir vermədən təkrar edirdi:

Yoxsa ki, bu binəva
Dönüb şair olubdur?!

Mən bir an tutuldum, sonra dərhal özümü ələ alıb, bərkdən güldüm:

– Şair sən özün olmusan ki.

Dərhal raketka götürüb:

– Yoldaş buldozerçi, gəl görək, – deyə torun arxasına keçdim. Oğlan da mənə baxmadan, dinməz-söyləməz, oyuna başladı. Şarı sərrast vurmasına, özünü sakit aparmasına baxmayaraq, mən onun kefi olmadığını hiss edirdim.

ADİL

O bu dəfə tennis oyunundan qəribə əhvali-ruhiyyə ilə qayıtmışdı. Elə bil, nə isə itirmişdi, nəyi isə xatırlamağa çalışırdı... Mənim suallarıma fikri dağınıq halda cavab verir, bunun xətrimə dəyə biləcəyini, yəqin ki, düşünmürdü. Buraya gəldiyimiz gündən bəri mən birinci dəfə idi ki, aramızda soyuq, qaranlıq bir divarın yavaş-yavaş qalxdığını aydınca hiss edirdim.

Əli yanan ağzına təpər. Mən qəzəbin, acığın, gücün mənasız olduğunu anlayaraq gülür, zarafat edir, onun xoşuna gələcək sözlər danışmağa çalışırdım. Mən qapıda stolun dalında oturmuşdum. O da yanımda dayanıb sağ əlinin qeyri-iradi, yavaş hərəkəti ilə saçını darayır və uçurum üzərində hərlənən ağ qartala baxırdı.

Mən:

– Səriyyə, – dedim, – yolu çəkib qurtarandan sonra bir aylıq məzuniyyət götürüb gedərik səyahətə... Eləmi?

O, gözlərini qartaldan çəkməyərək, könülsüz halda başını tərpətdi.

– Bir pud ağırlığında başını tərpədincə, altı misqal dilini tərpətsənə... – deyə mən zarafat elədim.

Lakin o, cavab vermədi. O zaman mən onun əlindən tutub çəkərək yanımdakı kətildə oturdum:

– Niyə bikefsən, nə olub?

O, mənə diqqətli bir nəzər salaraq, əlini geri çəkdi:

– Mənə nə olduğunu bilmirəm, Adil, bilməndə sənə deyəcəyəm.

Bu, çox qəribə cavab idi. Lakin mən daha heç nə soruşmadım. Ürəyimin necə sıxıldığını ona hiss etdirmədim. Bunun mənası yox idi. Dişim bağırsağımı kəsirdi. Bununla belə, mən onu indiki qədər istəməmişdim. Həm də mən onu tikə-tikə doğramağa hazır idim. Mən onun Madonna Sikstinskayanın üzünə bənzəyən üzünün, dodaqlarının xəncərlə parça-parça olunmasını istərdim. Mən bu dərəcədə vəhşiləşdiyim anda onun bu dərəcədə gənc və gözəl göründüyünə

yana-yana baxırdım. İndiyə qədər bu gözlər, bu nazik və elastik bel, əzələli, çiyninə qədər çılpaq olan bu qollar yalnız və yalnız mənə məxsus idi. Mənimki idi. İndisə mən bu hüququn sarsıldığını duyurdum. Lakin bununla bərabər, heç bir fənalıq etmək iqtidarında deyildim. Mən özümü çox yorğun hiss eləyərək, çadıra girib çarpayıma uzandım. Nə qədər yatdığımı bilmirəm. Birdən elə bil ki, yuxuda mənə «dur!» dedilər. Gözlərimi açıb, onu çarpayısının üstündə büzüşüb oturaraq, bayıra baxan gördüm. Mən oyandığımı hiss etdirməyərək, onun nəyə baxdığını bilmək üçün gözlərimi bayıra zillədim və körpüsalanların çadırı tərəfdə nöqtə boyda bir işığın qaranlıqda közərdiyini gördüm. Bu odlu nöqtə tez-tez havada yarımdairə cızıb dayanırdı. Yəqin kim isə papiros çəkirdi...

Lakin burda qəribə nə var idi? Onun gözləri nədən bu odlu nöqtəyə bənd olub qalmışdı?

O, niyə yatmamışdı?

Birdən sanki qanım damarlarımda dondu və mən dəhşətlə xatırladım ki, körpüsalanlardan yalnız bir nəfər papiros çəkir... Yalnız bir nəfər... Buldozerçi!

Biz institutda oxuyanda Şekspiri təqsirləndirib deyirdik ki, nə üçün Otello bir dəfə də olsun, dəsmalı haradan aldığını Kassiodan soruşmurdu... Lakin burada Kassiodan heç bir şey soruşmağa lüzum yox idi...

Nəhayət, odlu nöqtə havada daha böyük bir yarımdairə cızaraq qeyb oldu. Səriyyə daha bir müddət qaranlığa tamaşa etdi. Dərindən nəfəs alıb, arxası üstə yastığa uzandı və bir dəfə də olsun mənim çarpayıma sarı baxmadı.

Çadırımızın yanından axan su həmişəki incə ahəngi ilə şırıldayırdı. Qapıdan görünən göy parçasında ulduzlar sevinclə sayrışırdı. İlıq bahar havası çiçəklərin ətri ilə dolu idi. Təbiət həmişəki kimi gözəl və dərdsiz, qəmsiz idi. Mən isə bu qaranlıq çadırda əzab çəkirdim.

Cəhənnəm əzabı! Bir vaxt mən gəncliyimdən, namus və ləyaqətlə yerinə yetirdiyim işimdən gizli bir fərəh duyurdum. İndisə bunlar hamısı bir heç olmuşdu. Bir an mənə elə gəldi ki, həyat saysız-hesabsız aldanışlardan ibarət olub, uşaq oyuncağı kimi bir şeydir. Lakin yox! Madam ki, mənim içərimdə bu cəhənnəm zəbanə çəkir, demək, həyat yalnız aldanışlardan ibarət deyil. Demək, duyan, düşünən cəmi məxluqatın əşrəfi olan insanın əzəmətli bir taleyi olduğu həqiqətdir. Mən onun necə aramla nəfəs aldığını eşidir, lakin nələr düşündüyünü bilmirdim. Birdən körpüsalanların çadırı tərəfdə kiçik alov görünüb yox oldu. Sonra yenə nöqtə boyda işıq közərdi. Səriyyə təkrar qalxıb yerində oturdu. Mən onun bayıra zillənən gözlərinin qaranlıqda necə parıldadığını görürdüm.

Yenə də yadıma Otellonun dəsmal əhvalatı düşdü. Yox, hər halda, Otello dəsmalı haradan aldığını Kassiodan soruşmalı idi. Ədalət bunu tələb edirdi.

Mən özümü indi oyanmış kimi göstərərək yerimdə qurcalandım. Sonra çarpayımdan qalxıb yuxulu səslə soruşdum:

– Sən hələ yatmamısan?

– Yox.

– Nə üçün?

– Elə-belə, yuxum qaçıb.

– Uzan, beş yüzəcən say, yuxun gələr.

Sonra tələsmədən pijamamı geyinib bayıra çıxdım və çadırdan bir qədər aralanandan sonra ağaclığa girib səssiz addımlarla meşə yuxarı qalxmağa başladım. Madam ki, Səriyyə və mən çadırda uzanmış olduğumuz halda o odlu nöqtəni görürük, deməli, papiros çəkən adam körpüsalanların çadırı yanındakı qayalı təpənin döşündə oturmuşdur və ya dayanmışdır.

Mən tez-tez havada yarımdairə cızan odlu nöqtəni nəzərdən qaçırmamağa çalışaraq, ehtiyatla, kiçik bir şaqqıltı belə salmadan irəliləyirdim. Çox həyəcanlı olduğumdan, tez-tez ayaq saxlayıb nəfəsimi dərirdim. Nəhayət, üstünü kol-kos basmış qayanın yanına çatıb dayandım. Çünki artıq burada, papirosun közərən zəif işığında buldozerçinin üzünü tanıya bildim... O, balaca daşın üstündə oturub, dalbadal papiros çəkirdi.

Bu da sənə Kassionun cavabı.

Mən dönüb bizim çadıra tərəf baxdım. İçərisi qətiyyən görünmürdü. «Bəlkə bu kişi də, Səriyyə kimi bədxah olub, yata bilmədiyi üçün çıxıb burada oturmuşdur... Bəlkə mən də yazıq ərəb kimi aldanıram... Bəs Səriyyə? Bu qaranlıqda közərən papiros odu nə üçün onun yerinə qor doldurub? Axı mən bunu öz gözlərimlə gördüm. Bunu başa düşməmək üçün mən nə qədər axmaq bir sadədil olmalıyam...»

Mən dönüb yenə də buldozerçiyə baxdım. O mənim üçün əlverişli yerdə oturmuşdu. Otuz-qırx metr də qalxaraq, yuxarıdakı qayalardan birini tərpədib ona tərəf yumalatmaq kifayətdir. Sonra da arxayınca hərlənib çadıra gedərəm, dinməz-söyləməz çarpayıya uzanaram. Əgər Səriyyə soruşsa ki, «o nə gurultudur», mən tamam biganə ifadə ilə deyərəm ki, «görəsən, yenə yuxarıdan heyvandan-zaddan keçib, nədir... yıxıl yat...»

Bununla da hər şey qurtarar. Məni təqsirləndirmək kimin ağlına gələr? Sonra?! Sonra nə olsun? Uçub tar-mar olmuş bir sarayın xarabaları mənim nəyimə lazımdır? Mən lap uşaqlıqdan bayquşa nifrət edirəm.

«Mənə nə olduğunu bilmirəm, Adil! Biləndə sənə deyəcəyəm» – gündüz o belə dedi və mən onun doğru danışdığına zərrəcə şübhə elə-

mirdim. Görünür, böhran təzə-təzə başlayır. Nə etmək lazımdır?! Bunun qarşısını necə almaq olar?

Nəhayət, buldozerçi papirosu tulladı, qalxıb öz çadırlarına tərəf getdi. Mən də ağır addımlarla geri qayıtdım. Səriyyə nazik adyalı üstünə çəkərək üzünü o biri tərəfə çevirmişdi. Mən içəri girəndə nə tərpəndi, nə də bir söz dedi. Mən də heç nə demədim. Səssiz-səmirsiz yatağa uzandım və səhərə qədər yatmadım.

Səhər çaydan sonra o:

– Adil, – dedi, – biz qərara almışıq ki, bu il institutun qiyabi şöbəsinə imtahan verək.

– Siz, yəni kimlər?

– Biz, yəni mən, Soltan, bir də Kərəmxan.

– Bəs buldozerçi?

– O, institut tələbəsidir, qiyabi oxuyur – deyə soyuq bir ifadə ilə cavab verdi.

Və sonra birdən başını qaldırıb, gözlərimin içinə şax baxaraq əlavə etdi:

– Gərək ki, bir dəfə mən bunu sənə demişdim.

– Bağışla, yəqin unutmuşam. Ancaq sən qiyabi instituta nə üçün girirsən? Şəhərə qayıdanda əməlli-başlı oxuyarsan.

– Yox, Adil, mən qiyabi oxumaq istəyirəm.

– Niyə axı?

– Ona görə ki, biz briqadada bu cür qərara almışıq. Biz həm oxuyacağıq, həm də işləyəcəyik.

Mən acığımı güclə saxlayaraq:

– Əşi, – dedim, – briqadanın dediyi qanun-zad deyil ki...

– Mənim üçün qanundur. Biz uzun illər bir yerdə işləyəcəyik.

– Demək, sən gələcəkdə də onlarla birlikdə işləmək fikrindəsən.

– Əlbəttə!

– Bəlkə, bu yolu çəkib qurtarandan sonra mən yenə də nazirliyə qayıtdım.

– Nə olar ki... Sən qayıdarsan, mən qalıb işlərəm.

– Bu necə ola bilər?

– Nə üçün olmur ki?

– Sən, doğrudan, belə düşünürsən?

– Doğrudan.

– Daha onda bu nə ər-arvadlıq oldu ki...

– Adil, yaxşı olar ki, «ər-arvad» əvəzinə ayrı bir söz işlədəsən. Bu ifadə adama birtəhər təsir eləyir.

– Bağışla, – deyə mən bir neçə saniyə susdum.

Sonra:

– Yaxşı, Səriyyə, – dedim, – tutaq ki, sabah məni təkrar şəhərə qaytardılar. Bəs sən burada üç oğlanla necə qala bilərsən?

– İndi necə qalıram?

– İndi mənimlə qalırsan.

– Sən gedəndə də yoldaşlarım çadırlarını söküb gətirib burada, mənim qonşuluğumda qurarlar. Briqada məni tək qoymaz. Burada çətin nə var ki?

– Çətin bir şey yoxdur. Ancaq sən elə danışırsan ki, elə bil, indicə ayrı bir planetdən gəlmisən.

– Ola bilər.

– Bəlkə sən daha mənimlə yaşamaq istəmirsən?

– O barədə fikirləşməmişəm, Adil. Səndən xahiş edirəm, əgər mümkündürsə, hələlik bu haqda məndən heç nə soruşmayasan.

– Demək, hələlik...

– Bəli, hələlik!

– Baş üstə, soruşmaram.

– Çox sağ ol, Adil! Nahara nə bişirəcəyəm?

– Hər nə istəyirsən.

– Onda ətin bir hissəsini körək asım, qalanını da gəlib qızardaram.

– Sən hara gedəcəksən ki?

– İki-üç saatlığa rayon mərkəzinə dəyəcəyəm. İmtahanlara hazırlaşmaq üçün lazım olan kitabları almağı briqada mənə tapşırıb.

– Madam ki, briqada tapşırıb, gərək yerinə yetirəsən.

– Ancaq sən hərdən bax, körəyin suyu çəkilməsin.

– Narahat olma, əti bişəndən sonra götürüb qoyaram yerə. Qalan şeyini özün gəlib düzəldərsən.

– Yaxşı!

O, neft plitəsini yandıraraq, körək qazanını rahatlayıb üstünə qoyandan sonra cəld əl-üzünü yuyub paltarını dəyişdi. Sonra «QAZ-69»a əyləşib getdi.

Mən onun ardınca baxaraq, «briqada... briqada» deyə pıçıldadım. Şəhərdə keçirdiyimiz o sakit günlərdə mən onu bu qədər istədiyimi bilmirdim. Heç mən bu barədə düşünmürdüm də. İşdən gəlib stolun üstünü səliqə ilə düzəlmiş görərək, paltarımı dəyişir, yuyunur, sonra onunla birlikdə nahar edirdim. Nahardan sonra isə, divanda uzanıb qəzetə baxırdım. Hər şeydə bir rahatlıq, bir arxayınlıq var idi. İndisə bütün həyatımı daim irəliyə, əbədiyyətə sövq edən məhəbbətin yaz seli kimi qopub gəldiyi bir zamanda mən onu həmişəlik itirmək qorxusu qarşısında idim. Birdən mənim ağlıma qəribə bir fikir gəldi. O, maşını bərk sürür. Ola bilər ki, yolda qəzaya uğrayıb maşınla birlikdə dərəyə yuvarlansın. Bu yolda elə qorxulu uçurumlar var ki... Onun heç tikəsi də tapılmaz. Bəlkə o zaman mən... mən onun bu həyatda olmadığını və bir zaman olmayacağını, başqası ilə deyib-gülməyəcəyini düşünüb təsəlli tapa bilərəm! Yoxsa, əgər biz

ayrılırıqsa, ikimizin də bu dünyada yaşamağımız mənim üçün dəhşət olar...

Lakin bu vəhşi arzunun zühuru yalnız bir an çəkdi. Sonra mən həmin qorxulu uçurumu öz daxilimdə hiss elədim. Məni həyatla bağlayan duyğular sanki ağır bir cismə çevrilib, içərimdə dibsiz bir boşluğa yuvarlanmaqda idi.

O dediyi kimi, düz dörd saatdan sonra qayıdıb gəldi. Kitab bağlamasını maşından çıxardıb çadırın qabağına qoyan kimi paltarını dəyişib körəklə məşğul oldu. Kartofu doğraya-doğraya:

– Manikürçü qadının əlindən güclə qurtarmışam, – deyə gülümsədi, – buraxmırdı. Deyirdi, axşamçağı gedərsən.

– Nə olardı ki, qalıb axşamçağı gələydin!

– Körəyi bişirib getsəydim, qalardım.

«Mənim narazılığıma baxmayaraq, o yenə də manikürçülərlə görüşmüşdü və bunu məndən gizlətmədi... Bəlkə manikürçü qadın da, qızı da yaxşı adamlardır. Lakin, əgər mən öz arvadımın onlara getməsini istəmirəmsə, demək, o, bununla hesablaşmalı idi. İctimai həyatda olduğu kimi, ailədə də böyük-kiçik olmalıdır. «Nə üçün bu böyük məhz o yox, sən olmalısan?» deyə soruşa bilərdilər. İndi keçmiş patriarxal həyat-zad deyil ki?! Doğrudur. Amma ona görə mən olmalıyam ki, yaşım da, savadım da, düşüncəm də onunkundan artıqdır! Aydındırmı? Heç bir ağıllı kapitan sükanı təcrübəsiz, gənc bir adamın əlinə verməz. Lakin mən nahaq yerə əsəbiləşirəm. Mənim sükandan bərk-bərk yapışmağımın artıq bir qara qəpiklik əhəmiyyəti yoxdur. Həyat öz işini görməkdədir. Məndə gənc bir qadına lazım olan cəhətlərin hamısı: sağlam gənclik, gözəllik, ağıl, namuslu əmək qabiliyyəti var idi. Mən daha nə etməli idim?! Mən istəsəydim, Səriyyədən də yaxşısı ilə evlənə bilərdim, lakin bu «yaxşı» mənim üçün ancaq ondan, onun bütün varlığından ibarət idi. Əsl məsələ də burasında idi. Əgər mən bir çarə tapıb, bu lənətə gəlmiş hissi məhv edə bilsəydim, başqa dünyaya, şübhəsiz, yol tapardım. Əgər mən min bir gecə qəhrəmanları kimi dəmir qapıları sındırmaq, cadugərləri parçalamaq iqtidarında olsaydım, bu tilsimdən çıxa bilərdim. Təəssüf ki, bunların heç biri mümkün deyildi. Mən cəmi bir neçə il ömrü olacaq məlun bir hissə qalib gələ bilmirdim. Mən ona mehriban, şirin sözlər söyləməyə çalışdıqca, öz-özümə gülür, öz gücsüzlüyümə istehza edirdim. O, tamam sakit halda qaşıqla körəkdən az-az götürüb ağzına apardıqca mən yanıb tökülürdüm... Onun hər hərəkəti cazibədar və amansız idi.

Nahardan sonra o soruşdu:

– Daha bir şey lazım deyil ki?

– Çox sağ ol, heç nə lazım deyil.

– Onda hələlik, – deyə rayon mərkəzindən gətirdiyi bağlamanı götürüb getdi.

Mən bilirdim ki, hər bir gənc adamın ictimai pillələri qalxması müəyyən dərəcədə onun ailə həyatı ilə əlaqədardır. Bilirdim ki, minlərlə ağıllı adamları cəmiyyət gözündən salan, onu yüksəlməyə qoymayan ailədə baş verən rəzalətlər olmuşdur. Ona görə də mümkün qədər soyuqqanlı hərəkət etmək, yüz ölçüb, bir biçmək, onun hər bir davranışını, hərəkətini dərindən təhlil edib dürüst nəticə çıxararaq, xəstəliyin qabağını vaxtında almaq lazım idi. Bu saat mənim üçün ən düzgün yol Səriyyədən rəsmi surətdə ayrılmaq idi. Lakin bu mümkün deyildi. Birincisi, ona görə ki, Səriyyə körpüsalanlardan ayrılıb getmək fikrində deyildi... İkincisi, ona görə ki, məndən ayrılandan sonra onun buldozerçi ilə nə münasibətdə olacağını bilmirdim. Üçüncüsü, ona görə ki, sadəcə olaraq, ondan əl çəkməyə gücüm çatmırdı.

SƏRİYYƏ

... Onun son vaxtlar mənə həddindən artıq qayğı göstərdiyini, hər cür vəziyyətdən istifadə edərək mənə xoş sözlər deməyə çalışdığını hiss edirdim... Bu isə məni hər şeydən çox acıqlandırırdı. Çünki mən uşaqlıqdan ikiüzlülüyə, qorxaqlığa nifrət edirəm... Biz körpüsalanlar öz kiçik briqadamızda söz qoymuşduq ki, ürəyimizdən keçənləri bir-birimizdən gizlətməyək.

Bəs ər-arvad necə?

Mənim köhnə neft ustası olan qoca babam həmişə deyərdi ki, insan dünyaya bir dəfə gəlir. Ona görə də həmişə namusla yaşamalıdır. Başqasının yanında alnıaçıq olmalıdır. Mən indi babamın sözlərini xatırlayıb düşünürəm ki, əgər bu dünyada namusla yaşamaq, aldatmamaq mümkündürsə, nə üçün belə etməyəsən?! Nə üçün bir damın altında yaşadığın halda, bir-birini aldadasan? Mən aldatmaqdan bir zövq duya bilmirdim. Mən ikiüzlülüyün, yaltaqlığın necə yarandığını hiss edirdim... və bu məndə ikrah hissi doğururdu.

Mən körpüsalanlarla birlikdə ilk məşğələni keçib qayıtdığım zaman Adil soruşdu:

– Bu gün nə öyrəndiniz?

Mən düz onun gözlərinin içinə baxdım və o, dərhal nəzərlərini aşağı saldı. Onun gülümsəyən üzü qızarıb pörtmüşdü.

– Hələ, elə-belə, kitablarla tanış olurduq... – deyə mən soyuq cavab verdim.

Birdən yuxarı dağlardan sərin külək əsdi. Sonra hava qaraldı, göy guruldayıb dalbadal ildırım çaxdı. Əvvəlcə tək-tək, sonra şiddətli dolu yağmağa başladı. Biz stolun üstündəki şeyləri yığışdırıb çadıra qaçdıq. Sonra qapının ağzında dayanıb tufana tamaşa etdik. Meşələr və uçurumlu dərə şaraqhaşaraqla dolmuşdu. Qoz boyda dolu dənələri daşlara, qayalara çırpılıb elə səs çıxarırdı ki, elə bil, minlərlə pulemyotdan birdən atəş açılırdı. Yerə düşmüş dolu tez-tez çaxan ildırım işığında şüşə kimi parlayıb qeyb olurdu. Üç-dörd dəqiqədən sonra dalı yağışa döndü. Çox çəkmədi ki, sellərin qıjıltısı eşidildi. Bizim çadırımız balaca dikdirdə olduğundan, içinə su dolmurdu. Lakin o tərəf-bu tərəfindən ağ köpüklü sel sürətlə axıb uçuruma tökülürdü. Mən özümdə qəribə bir ruh yüksəkliyi hiss edirdim.

Təbiətin qüdrəti məni heyran qoyurdu. Mən tufanın gurultusunu dinləyərək bir az qabaqkı düşüncələrimi xatırlayırdım və sanki mənim açıq, qəti və aydın yol tutmağımı təbiət öz gücü ilə məndən tələb edirdi. Hər cür ikiüzlülük, yalançılıq bu qüdrət qarşısında son dərəcə kiçik və mənasız görünürdü.

Birdən haradansa lap yaxında iki-üç dəfə bərk şaqqıltı eşidildi.

– Bu sel körpünün divarlarını uçurub dağıtmasa yaxşıdır, – deyə Adil yavaş səslə dilləndi və elə bu zaman mən yarıqaranlıqda üç nəfərin üzüaşağı, körpüyə sarı qaçdığını gördüm, mən də dərhal plaşımı başıma ataraq yüyürdüm.

– Hara? – deyə Adil arxadan qışqırdı.

Mən cavab vermədim.

– Divarlar oğul kimi dayanıb! – Yağışın və sellərin gurultusu içində Kərəmxanın şən səsi eşidildi.

Sel körpünün iri borularından güllə kimi çıxaraq qıjıltı ilə uçuruma tökülürdü.

Biz dördümüz də dayanıb «körpəmizə» baxırdıq.

Bizim plaşlarımızdan şırıltı ilə su axırdı. Mən borulardan çıxan selin uçuruma necə töküldüyünü yaxından görmək üçün irəli getmək istədim.

– Yaxına getməyin, – Soltan qolumdan yapışdı.

Mən yerimdə dayandım.

Selin yuxarıdan uçurub gətirdiyi qayalar gurultu qopara-qopara uçuruma yuvarlanırdı. Yağışdan nə dərənin dibi, nə də yandakı dağlar görünürdü. Biz körpü divarlarının və yenicə bərkidilmiş boruların möhkəm dayandığına əmin olandan sonra, onlar öz çadırlarına, mən də özümüzünkünə qaçdım. Adil qapının ağzında dayanıb papiros çəkirdi. Məni görən kimi üzündəki acıq dərhal mülayim bir ifadə ilə əvəz olundu və o, qəsdən gülümsəməyə çalışaraq soruşdu:

– Hə... necədir?

– Yaxşıdır... – deyə mən qısa cavab verib, böyürdən sivişərək çadıra girdim. Sonra su içində olan plaş və ayaqqabılarımı çıxardıb, saçlarımı, üzümü quruladım.

Yağış eyni şiddətlə davam edirdi. Meşənin içində körpüsalanların işığı bəzən görünür, bəzən də dörd-beş dəqiqə yox olurdu. Biz adama bir stəkan kofe ilə bir-iki şəkərçörəyi yeyəndən sonra işığı söndürərək, soyunub çarpayımıza uzandıq. Qapının açıq yerlərindən üzümə sərin su zərrələri səpələnirdi.

Mən uzun zaman oyaq qaldım.

Adilin də oyaq olduğunu hiss edirdim.

Biz susurduq.

Yağış eyni şiddətlə çadırı tarap-turup döyəcləyirdi. Çadırın o tərəf-bu tərəfindən axıb uçuruma tökülən sellərin iti qıjıltısı eşidilirdi. Biz hər yandan tufanla əhatə olunmuş halda susurduq.

Mən təbiətin qüdrətli səsini dinləyirdim. Yəqin ki, Adil də o səsi dinləyirdi. Bəlkə də dinləmirdi. Bəlkə də Adil tamam ayrı şey haqqında düşünürdü. Biz bir-birimizdən bixəbər idik. Yağış isə yarpaqları eyni qüvvətlə vururdu. Sellər axıb uçuruma tökülürdü. Tufanın şiddətində bir ahəngdarlıq vardı və mən bu ahəngin xoş təsiri altında yuxuya getdim. Gecənin bir aləmi dəhşətli gurultuya oyandım.

– O nə idi?! – deyə çadırın qapısında dayanmış Adildən soruşdum.

– Deyəsən, bizdən bir az aşağı, üstündə böyük yemişan ağacı olan qaya uçdu...

– Sən yatmamışdın?

– Yox.

– Nə üçün?

– Elə-belə, yuxum qaçmışdı.

– Üstündə yemişan olan qaya uçsa, yolu bağlayar ki...

– Elədir...

– Gecən xeyrə qalsın!

– Sağ ol!

Mən dərhal yenə yuxuya getdim.

... Səhər tezdən oyandığım zaman Adil çadırda yox idi. Geyinib bayıra çıxdım. Göyün üzü zanbaq kimi gömgöy idi. Günəş yaş yarpaqları, çiçəkləri, otları və körpünün divarlarını gur işığa qərq eləmişdi, çaylaq dolusu köpüklü su axırdı.

Lakin dərədən o yana uzaq dağlar qaramtıl duman içindəydi. Görünür, ora hələ də yağırdı.

... Uçuruma tökülən suların şırıltısı dərənin dibindən axan dağ çayının qıjıltısına qarışırdı.

... Bizdən bir qədər aşağı, üzərində tək yemişan ağacı olan əyri qaya uçub yolu tutmuşdu. Adil və körpüsalanlar dayanıb sükut içində baxırdılar. Dağların o tərəfindəki fermalara gedən yeganə yol bağlanmışdı.

... Böyük bir yük maşını gəlib yol kəsilən yerdə dayandı. Həddindən artıq kök və gülərüzlü şofer oğlan düşüb yola tökülmüş qayaların üstündən aşaraq bizim yanımıza gəldi.

– Naçalnik, – deyə o, gülümsəyərək Adilə müraciət elədi, – biz neyləyəcəyik? Fermalara un aparıram. Camaat gözləyir.

– Düzələr, – deyə Adil sakit halda cavab verdi.

Sonra buldozerçiyə tərəf dönərək onun üzünə baxmadan soruşdu:

– Maşın sazdırmı?

– Bəli!

– Yolu təmizləmək lazımdır.

– Oldu!

– Tək siz öhdəsindən gələ bilərsinizmi? Bəlkə rayondan başqa buldozer də gətirdək...

– Məncə, lazım deyil, – buldozerçi yola tökülmüş daş qalağına baxa-baxa cavab verdi.

Bu qısa söhbət zamanı mən Adilin buldozerçi ilə mülayim söhbətindəki gərginliyi hiss edirdim. Hiss edirdim ki, bu mehribanlıq sünidir və Adilə çox baha başa gəlir. «Öz hisslərimizi bir-birimizdən gizlətməyə bizi nə məcbur edir? Dünya bina olandan indiyə qədər davam edib gələn bu ikiüzlülük insanları təngə gətirməmişdirmi?»

... Buldozerçi iri-iri qaya parçalarını qabağına qatıb düz uçurumun qırağına gətirir və oradan aşağı yuvarladırdı. Daşlar dəhşətli gurultu qopara-qopara, nəhəng qayaların üzərindən atlana-atlana dərəyə gedirdi.

Bu eynilə ilk dəfə mənim bura gəldiyim zaman gördüyüm mənzərə idi. Lakin buldozerçi ondakı kimi hər dəfə uçuruma yaxınlaşdıqca, mənə baxıb istehza ilə gülümsəmirdi.

İndi buldozerçinin üzündə işgüzar qayğıdan başqa heç bir ifadə yox idi. Adil bir qədər tamaşa eləyəndən sonra dönüb çadıra getdi. Yol bağlı olduğundan, yəqin ki, bu gün işə gedə bilməyəcəkdi. «QAZ-69» o biri tayda qalmışdı.

Buldozerçi düz üç saat aramsız işlədi. Yolun ortasında təll atılmış qayalar qurtarmaq bilmirdi.

– Düş, bir tikə çörəkdən-zaddan ye, – deyə Soltan buldozerçiyə müraciət etdi.

O, maşını saxlayıb düşdü. Sonra yaylığını çıxardıb onu təzə görürmüş kimi bir neçə saniyə baxdı, alnının və boynunun tərini sildi. Bu yaylığı, o birilərininki ilə birlikdə mən yuyub-ütüləmişdim.

– Gedək balaca bir qəlyanaltı eləyək, – Soltan yeni gəlmiş yük maşınının şoferinə də təklif etdi.

– Nəyiniz var? – Kök oğlan körpüsalanlarla yüz ilin dostuymuş kimi açıq-saçıqlıqla soruşdu.

– Ev yiyəsinin olanından, – deyə Soltan gülümsədi, – çay, pendir, təzə buğda yuxası.

– Yox, dadaş, mən sizi qonaq eləməli oldum...

Şofer azı yüz iyirmi kilo ağırlığına uyuşmayan bir cəldliklə daşların üstündən tullana-tullana o taya keçib yük maşınına qalxdı. Sonra böyük bir zənbillə geri qayıdıb, üç iri parça kolbasa, iki balıq konservi, beş şüşə pivə və bir kömbə çörək çıxartdı.

Kərəmxan:

– Ə, qardaşlıq, – dedi, – sən dünyanı yığıb gətirmisən ki.

– Nə olacaq? Gəlin oturun.

Şofer cibindən bükülü bir qəzet çıxarıb ora-burasına baxaraq:

– Təzə olsa da, maraqlı bir şey yoxdur, – deyə otun üstünə sərdi.

Soltan:

– Bəlkə çadıra gedəydik?

Buldozerçi:

– Lazım deyil, bura yaxşıdır, – deyib hamıdan əvvəl əyləşdi.

Kərəmxan:

– Onda mən gedim stəkandan-zaddan gətirim.

Şofer:

– Dayan, stəkan da var, – deyə göy, sətin pencəyinin cibindən balaca bir stəkan və çəngəl-bıçaqdan tutmuş konserv qutusu, şüşə ağzı açana qədər, azı, on beş-iyirmi ağzı olan bıçaq çıxartdı.

– Sən ölmüyəsən! Səndə dəsgah var, qardaşlıq, adın nədir? – deyə Kərəmxan soruşdu.

– Adım Səməndər! – deyə şofer cavab verib, kolbasaları, çörəyi səliqə ilə doğradı, konserv qutularını açdı.

Sonra mənə müraciətlə:

– Bəlkə, – dedi, – siz də əyləşəsiniz...

– «Bəlkə» nə üçün? – dedim. – Sizinki döndü... «Qonaq, çörək yeyirsiniz?»

Şofer bərkdən güldü.

Hamımız otların üstündə oturduq, mən bir-iki tikə alandan sonra əlimi süfrədən çəkib:

– Çox sağ ol, Mirzə Səməndər, – dedim, – indisə xahiş edirəm mənə icazə verəsiniz, qaçım yoldaşımın yanına, görüm neyləyir.

– Hansı yoldaşınızın?

– Necə yəni hansı yoldaşımın? Həyat yoldaşımın!

– Bağışlayın.

Adil qapıda yemək stolunun yanında oturub, körpünün borularından çıxaraq gurultu ilə uçuruma tökülən selə baxırdı. Mən cəld stolun üstünə təzə ağ süfrə salıb göy-göyərti qoydum. Sonra qayğanaq bişirib iki qaba çəkdim və özüm də əyləşib böyük iştaha ilə yeməyə başladım.

O, bir-iki tikə götürüb çəkildi. Mən payımın hamısını eyni iştaha ilə yeyib qurtardım.

– Sənə çay tökümmü, Adil?

– Tök!

– Yəqin ki, yol təmizlənənəcən evdəsən.

– Yəqin ki...

Mən onun üçün bir stəkan tünd çay töküb, yenə də körpüsalanların yanına getdim. Onlar da təzəcə yeyib qurtarmışdılar.

Buldozerçi öz maşınına əyləşib, yolu tutmuş qayaları yenidən tərpədərək uçuruma yuvarlatmağa başladı. Biz dayanıb tamaşa edirdik.

Üzərində iri yemişan ağacı olan qayalıq elə parçalanmışdı ki, elə bil, dinamitlə partlatmışdın. Yemişan ağacı tikə-tikə olub torpağa qarışmışdı. Dünən tağ kimi yola sarı əyilmiş qayalığın üzərində tək dayanan bu yemişan ağacının romantik bir gözəlliyi var idi. Onun duruşu şahanə bir vüqar, qayğısız bir gözəllik təlqin edirdi. Adama elə gəlirdi ki, o min ildir elə beləcə qürurla dayanıb... Və min illər bundan sonra da elə beləcə dayanacaqdır.

Dünyanın işi əzəldən belədir. Təbiət böyük bir eşqlə yaratdığını eyni təntənə ilə də məhv edir.

Buldozerçinin bütün diqqəti maşının qarşısında idi. Onun çılpaq qolları, boynu-boğazı mis kimi qızarmışdı. Saçının qıvrımları bir-birinə qarışmışdı. Kimsəyə baxmırdı. Kimsə ilə bir kəlmə kəsib danışmırdı. «İnsan nə qəribə məxluqdur...» – deyə mən öz-özümə filosofluq edirdim. Heç elə bil bu buldozerçi birinci dəfə mən bura gələndə gördüyüm o saymaz oğlan deyil... O zaman o, maşınını qəsdən hər dəfə uçurumun lap kənarına qədər gətirir və istehza ilə mənə baxıb gülümsəyirdi. Heyif ki, rəssam deyiləm. Yoxsa o zaman onun üzündə olan ifadəni elə çəkərdim ki...

İndisə, Kərəmxanın mahnısında deyildiyi kimi, tamam qaradinməz olubdur. Elə bil ki, danışmağa ağzından kirə istəyir. Elə bil ki, Soltanla Kərəmxandan başqa hamıdan zəhləsi gedir...

Lakin yox... O, şofer Səməndərlə də çox həvəslə danışırdı. Hətta, onun zarafatlarına gülürdü də. Adili görəndə isə, demək olar ki, əməlli-başlı qəzəblənirdi. O, üzünü yana çevirməklə bu hissini gizlətməyə çalışırdı. Lakin ovçu yanında göz qırpmaq olmaz. Mən onun hər bir hərəkətini bütün incəliklərinə qədər görüb-duyurdum. Mən ona qarşı son dərəcə həssas olduğumu gizlətmirdim. Biz bir-birimizdən heç bir şey gizlətməyəcəyimiz barədə briqadada and içmişdik. Lakin biz öz andımızı pozuruq. Mənə elə gəlir ki, Soltan da, Kərəmxan da, buldozerçi də, mən də nə isə bir şey bilirik. Nə isə hiss edirik, lakin bu «hiss etdiyimizi» bir-birimizə deməkdən çəkinirik.

İndi işimiz çoxdur. Baş açılan kimi mən bu barədə briqadada danışacağam... Mən hər şeyi... hər şeyi danışacağam. Bəlkə, hətta ağlayacam da. Mənim deməyə sözüm çoxdur. Mən onlara deyəcəyəm: «Bura baxın, əzizlərim, gəlin, nə qədər çətin olsa da, andımıza əməl eləyək... Gəlin dünən qopan tufan kimi biz də öz böyük həqiqətimizlə hər şeyi alt-üst eləyək. Yüz min illərdən bəri insanlara çətin görünən mətləbi biz asan eləyək!..»

İndi günəş düz buldozerçinin üzərinə şaxıyırdı. Onun alnında, üzündə tər damlaları parıldayırdı. Yağışdan-tufandan sonra dağ günəşi qızğın olur.

– Bəlkə bizim qəhrəmana bir stəkan pivə verəsiniz... – deyə mən zarafatyana bir əda ilə şofer Səməndərə müraciət elədim, – yoxsa daha yoxdur?..

– Mənim, bax, bu gözüm üstə! Nə üçün yoxdur?! – Şofer daşların üzərindən sıçraya-sıçraya gedib bir şüşə pivə gətirərək, ağzını açdı.

Mən:

– Bəs stəkan?

– Stəkanı neyləyir? – deyə o, yaxınlaşıb şüşəni buldozerçiyə uzatdı.

O da alıb birnəfəsə hamısını içərək, şüşəni uçuruma tulladı. Sonra bizə baxmadan yenə də işinə davam etdi.

– Birini də gətirimmi? – deyə şofer Səməndər ona sarı qışqırdı.

Buldozerçi başını buladı.

Kərəmxan zarafat elədi:

– Deyəsən, pivənin hamısını bizə içirtmək fikrindəsən.

– İçirdəndə nə olacaq, dədəm döyməyəcək, nənəm söyməyəcək. Qurbandır sizə!

Soltanla Kərəmxan qaya parçalarını linglə tərpədib irəli yuvarladırdılar ki, buldozer yaxşı ala bilsin. Səməndər də onlara kömək edirdi.

Etiraf edim ki, onun qonaq elədiyi şeylər mənə həmişə yediklərimdən ləzzətli gəlirdi. Yaxşı deyiblər: qonşu payı şirin olar.

– Sizin yuxarı fermalarda nə var, nə yox? – deyə mən ondan soruşdum.

– Hər nə desəniz. Sağlıq olsun, körpüləri salıb qurtarandan sonra gəlib görərsiniz.

Buldozerçi ara vermədən işləyirdi. Şofer Səməndər iki dəfə ona təklif etdi ki, sən düş, bir az dincəl, mən işləyim. Razı olmadı. Onun üzündən, əzələləri yumruqlanmış qollarından su axırdı. Dağ günəşi elə yandırırdı ki...

O, bir az dincəlsəydi, pis olmazdı. Keçmə bu oğlanların inadından.

Təxminən saat üçə yaxın yolun əsas hissəsi açıldı. Şofer Səməndər maşınına əyləşib uzaq dağlara yol aldı və tezliklə meşədə görünməz oldu.

Günün axırına yaxın buldozerçi yolu tamam təmizləyib qurtardı.

Biz, briqada üzvləri onu ortaya alıb, hərəmiz könül açan bir söz dedik.

– Tərlisən, sənə soyuq olar... – deyə Kərəmxan öz nazik pencəyini onun çiyninə saldı.

Mən çadıra gəlib:

– Adil, – dedim, – sən bizim rəisimizsən! Xahiş edirəm, buldozerçini təbrik eləyəsən.

O, sakit halda soruşdu:

– Nəyə görə?

– Yolu təmizləyib qurtardı.

Adil gülümsədi:

– Baş üstə, təbrik edərəm. Ancaq, axı bu onun vəzifəsidir.

– Əvvəla, onun vəzifəsi körpü salmaqdır. İkincisi, bir var, tək öz vəzifəni yerinə yetirəsən, bir də var, bir gündə on günün işini görəsən. Sən gördün ki, yola nə qədər daş-qaya tökülmüşdü...

Adil dinmədi. Haçandan-haçana mənim üzümə baxmadan:

– Əgər, – dedi, – ayın axırında imkan olarsa, tapşıraram, bugünkü işini nəzərə alıb, ona bir az artıq pul yazsınlar.

– Heç o, pul barədə düşünmür...

– Pul barədə düşünmürsə, burada nə gəzir?

– Bəs sən, mən burada nə gəzirik?

– Mən pul barədə düşünürəm!

Mən deməyə söz tapmadım və bu məni daha da qəzəbləndirdi.

Axşama yaxın hava yenə də tutuldu. Gecədən bir az keçmiş təkrar yağış başladı.

Səhər biz oyananda yağış kəsməmişdi. Mən körpü tərəfdə səs-küy eşidərək cəld geyinib bayıra çıxdım. Soltan, Kərəmxan və buldozerçi yağışın altında nə isə edirdilər. Mən plaşı başıma atıb onların yanına yüyürdüm. Sel üst tərəfdən böyük bir qaya parçasını yumalayıb suyun körpünün borularına dolduğu yerinə salmışdı. Borunun ağzı tutulduğundan, su yuxarı qalxaraq güc verib təzə divarı uçurmaq istəyirdi. Körpüsalanlar, dizlərinə qədər suyun içində, linglə qayanı qaldırıb kənara yıxmağa çalışırdılar.

Mən də lingin yuxarı tərəfindən yapışdım. Yağış üzümüzə çırpdığından, gözümüzü açmağa imkan vermirdi.

– Bir də!

– Ay gözünə dönüm, bir də! – deyə Kərəmxan tufanın içində ahəngdar səslə komanda verdi.

– Tərpənir! Bir də!

Və biz bir də güc verəndə qayanı qaldırıb kənara aşırdıq. Sel qəzəblə boruya doldu. Biz sudan çıxanda, yuxarı tərəfdə gurultu eşidildi və bu anda onlarca daş parçası o yandan yumalanaraq böyrümüzdən, başımızın üstündən atlandı.

– Qərib nə oldu? – deyə Soltan birdən səsləndi və mən tələsik dönüb baxanda, buldozerçini körpünün divarına söykənərək gözlərini yumub sağ ayağını yuxarı qaldırdığını gördüm. Üçümüz də bir anda onun yanına yüyürdük.

Soltan təkrar soruşdu:

– Nə oldu?

Buldozerçi ağrının şiddətindən zorla cavab verdi:

– Daş dəydi.

Onun yanında iri bir daş düşüb qalmışdı. Ayağından isə qan axırdı. Soltanla Kərəmxan onun qoltuğuna girdilər və biz çox çətinliklə onu çadırlarına aparıb çarpayısının üstündə oturtduq. Sonra mən:

– Dayanın, yaraya əl vurmayın, bu dəqiqə gəlirəm! – deyib öz çadırımıza yüyürdüm. Və Bakıdan gətirdiyim balaca əczaxananı götürdüm. Adil nə isə soruşdu. Lakin mən ona cavab vermədən körpüsalanların yanına qaçdım. Buldozerçinin ayağından qan sel kimi axıb çadırın ortasında göllənmişdi. Mən onun qanlı corabını qayçı ilə kəsib tulladım. Yaranın ətrafını spirtlə yuyub təmizlədim. Bir parça cunaya yod töküb yaraya basdım. Mən çiliklənmiş sümükləri əlimin altında hiss edirdim. Buldozerçi dinmirdi. Mən yaranı sarıyıb qurtarandan sonra Kərəmxan soruşdu:

– Qərib, yenə ağrıyır?

– Ağrıyır.

Soltan bir qədəh konyak töküb ona uzatdı:

– Al, vur getsin. Deyirlər, cəbhədə yaralılara hərdən belə şey verirmişlər.

Buldozerçi konyakı alıb içdi.

Mən:

– İndisə, paltarınızı dəyişin. Yaş paltarda olmaz, – deyib bayıra çıxdım.

Yağış hələ də tökürdü. Bir-iki dəqiqədən sonra:

– Səriyyə, gələ bilərsən... – deyə Soltan içəridən səsləndi. Mən çadıra girərək buldozerçiyə:

– Bir az dincəlin, sonra rayon mərkəzinə, həkimə getmək lazımdır, – dedim.

– Əşi, orada nə var ki, həkimə getsin... – Kərəmxan zarafatyana cavab verdi.

Mən:

– Yox, – dedim, – getmək lazımdır.

– Düzdür, həkimsiz olmaz, – deyə Soltan təsdiq etdi.

Mən öz çadırımıza gəlib:

– Adil, – dedim, – buldozerçinin ayağı bərk yaralanıb, onu rayon mərkəzinə aparmaq lazımdır. Sən işə gedəcəksən?

– Gedəcəyəm.

– Onda buldozerçini də maşına qoyarıq.

– Mən yolda iş sahələrinə baş çəkəcəyəm. Telefon olan yerdə zəng edərəm, xəstəxanadan maşın göndərərlər.

– Yox, Adil, gec olar, onu tez, lap bu dəqiqə aparmaq lazımdır.

– Yaxşı, sən deyən olsun.

Adil etiraz eləmədi və o geyinib qurtarana qədər mən çayını-çörəyini hazırlayıb stolun üstünə qoydum. Sonra özüm də paltarımı dəyişib «QAZ-69»a əyləşərək, ağacların arasından keçib lap körpüsalanların çadırına yaxınlaşdım.

Soltanla Kərəmxan buldozerçinin qoltuğuna girərək, maşına çıxartdılar.

– Qəriblə kim gedəsidir? – deyə Kərəmxan Soltandan soruşdu.

– Mən! – deyə cavab verdim.

– Bəlkə bizdən də birimiz gedək? – Kərəmxan Soltana baxdı.

Buldozerçi mənə müraciətlə:

– Sizə əziyyət olar, – dedi, – qoyun uşaqlardan biri getsin.

– Mənə heç bir əziyyəti yoxdur, – dedim, – uşaqlar burada qalmalıdırlar. Bu tufanda yarımçıq körpünü yiyəsiz qoymaq olmaz.

– Doğrudur, – deyə Soltan təsdiq etdi, – Səriyyənin getməsi yaxşıdır.

Mən təkrar maşını öz çadırımızın qabağına gətirdim. Adil sükanın arxasında oturmaq istədi. Lakin mən durmadım.

– Nə təfavütü var, – dedim, – ya sən, ya mən.

O dinmədi. Buldozerçidən də heç nə soruşmadı. Biz tərpəndik. Yağış eyni şiddətlə tökürdü. Yolda tez-tez dumana düşüb çıxırdıq. Mən yaralını incitməmək üçün mümkün qədər ehtiyatla sürürdüm.

Rayon mərkəzinə çatanda, Adil düşüb öz idarəsinə getdi və gedərkən:

– Xahiş edirəm, – dedi, – maşını tez qaytar, bəlkə mənə lazım oldu.

Mən onun arxasınca baxaraq, heç bir söz demədim və birbaş rayon xəstəxanasının qabağına sürdüm.

İnstitutu təzə qurtarmış cavan bir oğlan olan baş cərrah şəfqət bacısının müşayiətilə yaranı müayinə etdikdən sonra dərhal infeksiya əleyhinə iynə vurdu. Sonra məni öz otağına apararaq:

– Bilirsinizmi, – dedi, – yara çox ağırdır. Barmaq sümükləri də sınıb.

Sonra özünə güvənən ötkəm bir ifadə ilə əlavə etdi:

– Eybi yoxdur, sağaldarıq. Cərrahiyyə əməliyyatı çox mürəkkəb olacaq. Ancaq çalışarıq müvəffəqiyyətlə qurtarsın.

– Cərrahiyyəni kim eləyəcək?

– Mən!

Əvvəl heç bir söz demədim. Lakin o, həddindən artıq gənc idi... Utanmaq yeri deyildi.

– Bəlkə Bakıdan professor çağıraq?

Həkim bərk qızararaq, mənə acıqlı bir nəzər salıb:

– Əvvəla, – dedi, – o şeyi ki, özümüz eləyirik, ondan ötrü şəhərdən adam çağırmırıq. İkincisi, bu cür havada aeroplan gələ bilməz. Aydındırmı?

– Yox, aydın deyil.
– Nə aydın deyil?
– Cərrahiyyənin müvəffəqiyyətlə keçəcəyinə siz əminsinizmi?
– Əminəm. Daha nə soruşursunuz?
– Daha heç nə.
– Yaralı sizin nəyinizdir?
– Yoldaşım.
– Onun üçün bu qədər narahat olursunuz? – deyə o gülümsədi.

Görünür, kinli oğlan deyilmiş. Özü də mənim «yoldaşımdır» sözünü «ərimdir» mənasında başa düşüb... Mən də onun səhvini düzəltməyərək:

– Yaxşı, – dedim, – əməliyyatı nə vaxt başlamaq fikrindəsiniz?
– Sabah səhər saat doqquzda.
– Bəlkə bu gün...
– Bu gün iki cərrahiyyə əməliyyatı aparacağam, – deyə o, qürurla cavab verdi, – vaxtım yoxdur.

Sonra zəngi basaraq, gələn şəfqət bacısına əmr verdi:

– Yaralını qəbul eləyin.

Şəfqət bacısı ilə birlikdə mən də çıxdım.

Buldozerçini palatada yerləşdirikdən sonra soruşdum:

– Bəlkə ürəyin bir şey istəyir, Qərib?
– Heç nə lazım deyil...

Sonra şəfqət bacısına:

– Su istəyirəm, – dedi.
– Su yaxşı deyil, – şəfqət bacısı gedib bir stəkan çay gətirdi.

Sonra termometr qoydu. Mən səbirsizliklə on dəqiqə gözlədim. Şəfqət bacısı termometri götürüb əvvəl özü baxdı, sonra mənə verdi. Otuz doqquzdan xeyli ötmüşdü. Buldozerçi hərarət barədə heç nə soruşmadı, biz də demədik.

– Siz çox zəhmət çəkdiniz, sağ olun, – deyə o mənə müraciət elədi, – uşaqlara deyin nigaran olmasınlar.
– Mən hələ qayıtmıram.
– Bu gün getmirsiniz?
– Yox.
– Nə üçün?
– Burada bir-iki günlük işim var. Hələlik, sağ olun! Səhər gələcəyəm.

Mən təkrar baş cərrahın yanına qayıdıb, hərarətin çox yüksək olduğunu söylədim. Cavan həkim gülümsədi:

– Eybi yoxdur, əlbəttə, hərarəti olacaq. Çox ağır yaradır. Bu saat tapşıraram, penisillin vurarlar.
– Hələlik, doktor, – deyib çıxdım və maşına oturub, Adilin idarəsinə getdim.

Əhvalatı ona danışıb əlavə etdim ki:

– Mən bu gün evə qayıda bilməyəcəyəm. Buldozerçini tək qoyub getmək olmaz.
– Nə üçün? Bəyəm xəstəxanada adam-zad yoxdur?
– Adam var. Ancaq mən cərrahiyyə əməliyyatının nəticəsini bilməmiş getmək istəmirəm.

O, dərindən nəfəs alaraq, mənim üzümə baxmadan:

– Yaxşı, – dedi, – nə cür istəyirsən... Ancaq harada qalacaqsan?
– Hələlik manikürçü qadıngilə gedərəm. Ya onlarda qalaram, ya da mehmanxanada. Sən get evə, narahat olma. Səhər birlikdə qayıdarıq.

Mən gözləyirdim ki, o deyəcək: «İndi gedək evə, səhər yenə gələrsən. Onsuz da mən hər gün işə gəlib-gedirəm». Lakin o belə demədi. Mən onun çox pərt olduğunu hiss edirdim.

– Hələlik, Adil! Bu gün naharı burada yeyib gedərsən.

O dinmədi.

Məni görərkən dərhal ayağa duran gənc katibənin böyründən keçib pillələri düşdüm.

Manikürçü qadının evi həmişəki kimi sərin, təmiz və səliqəli idi. Biz gilənar mürəbbəsi ilə çay içib, oradan-buradan söhbət elədik. Manikürçü qadının qızı baş cərrah Eyvazlını çox tərifləyirdi.

– Cavanlığına baxmayın. Yaman istedadlıdır. Hələ əlindən bir xata çıxmayıb, deyirlər, çox yüngül əli var.
– Görək sabah bizim buldozerçinin başına nə gətirir, – deyə mən zarafat elədim.

Axşam mən mehmanxanaya getmək istədim. Ev sahibləri buraxmadılar. Qonşudan xəstəxanaya zəng eləyib buldozerçinin vəziyyətini soruşdum. Gündüz gördüyüm şəfqət bacısı telefona gəlib cavab verdi ki:

– Vəziyyəti elə siz gördüyünüz kimidir.
– Ağrıdan şikayət eləyir?
– Heç bir şeydən şikayət eləmir. Gözünü yumub sakit uzanıb.
– Penisillin vurdunuzmu?
– Vurduq.

O gecə mən səhərə qədər Qəribi yuxuda öz buldozerinin üstündə oturub selin-suyun içində əlləşən gördüm.

Səhər manikürçünün qızı ilə birlikdə xəstəxanaya getdik. Tanış şəfqət bacısı mənə dedi ki:

– Baş cərrah sizin yaralı barəsində o biri həkimlərlə konsilium edir.
– Məgər vəziyyəti nə cürdür ki?
– Bilmirəm... – deyə şəfqət bacısı tutularaq cavab verdi.

Mən icazə-filan almadan otağa girdim. İçəridə qızğın mübahisə idi. Məni görərkən susdular.

Baş cərrah mənə ciddi bir nəzər salaraq:

– Bilirsinizmi, – dedi, – biz sizin yoldaşınızın ayağını pəncədən kəsmək qərarına gəlmişik.

– Nə üçün?

– Çünki barmaq tərəfindən qanqren başlanıb. Ayrı çarə yoxdur. Əgər gözləsək, sonra qıçını kəsmək lazım gələcək.

– Yaralı sizin qərarınızı bilirmi?

– Bilir.

– Nə deyir? Razılıq verir?

– Yox, razılıq vermir. Bu saat onun fikri ilə hesablaşmaq olmaz. Qızdırması çox yuxarıdır.

– Kəsilməyə mən də razılıq vermirəm! – dedim.

Baş cərrah:

– O zaman məsuliyyət bizim üzərimizdən götürülür.

– Ancaq mən xəstəni Bakıya aparmaq istəyirəm.

Aradan qısa bir sükut keçdi.

– Nə vaxt aparmaq istəyirsiniz? – deyə həkim soruşdu.

– Lap bu saat.

– Nə ilə?

– Maşınla.

Yenə də sükut.

– Nə olar, – madam ki, istəyirsiniz, aparın. Amma gecikməyin. Yaralının vəziyyəti çox ciddidir. Bir saat belə ləngitmək olmaz.

– Mən xəstəni görə bilərəmmi?

– Görə bilərsiniz, – deyə baş cərrah üzümə baxmadan cavab verdi.

... Buldozerçinin rəngi pörtmüşdü. Məni görərkən gülümsəyib:

– Səriyyə, – dedi, – deyəsən, bu həkimlər mənim ayağımı tutub kəsmək istəyirlər...

– Eşitdim. Mən sizi bu saat Bakıya aparıram. Orada təcrübəli professorlar baxarlar.

– Bakıya getmək olar. Ancaq...

O, dişlərini bir-birinə sıxaraq, bir neçə saniyə susdu. Görünür, ayağı bərk ağrıyırdı.

– Ancaq sizinlə getmərəm. Gedin uşaqlardan birini göndərin. Ya da, mənim anamgil qonşu rayonda olurlar, onlara teleqram vurun gəlsinlər.

– Heç nə lazım deyil! O gec olar. Siz mənimlə gedəcəksiniz. Uşaqlarla qərarımız belə olub. Onlar işləyirlər.

O, quru atəşlə yanan gözlərini bir an üzümdə saxlayaraq, daha nə isə demək istədi. Lakin söhbət məqamı deyildi. Onun vəziyyəti, doğrudan da, ciddi idi.

Palatadan çıxıb, bayırda məni gözləyən manikürçünün qızı ilə birlikdə Adilin idarəsinə getdik. Katibə xəbər verdi ki, Adil rayon

icraiyyə komitəsinin sədri ilə sahələrə gedib. Axşam saat beşdə-altıda qayıdacaq... Dedi ki, siz onu gözləyəsiniz.

Lakin mən onu gözləyə bilmədim. Mən bir qədər fikirləşəndən sonra katibədən soruşdum:

– Adil öz maşınında gedib?

– Xeyr, ispalkomun «Volqa»sında getdilər.

Biz Adilin maşını dayanan qaraja getdik. Orada məni tanıyırdılar. Müdirlə salamlaşıb dedim:

– Bir neçə saatlığa maşın mənə lazımdır. Adil soruşsa, deyərsən.

Qaraj müdiri:

– Baş üstə! – deyib darvazanı taybatay açdı.

Biz maşına qalxdıq. Mən əvvəlcə aptekə sürüb, «valerian» və sair xırda-xuruş dərman götürdüm. Sonra bazara sürüb, bir qədər gilənar, gilas, alma aldım. Daha sonra manikürçü qadıngilə gəldik.

– Buradan Bakıya dörd yüz kilometrə qədər yoldur. O cür ağır yaralı ilə tək getmək sizin üçün çətin olar, – deyə manikürçü qadın etiraz elədi. – Heç olmazsa, bir yoldaş da lazımdır.

Qızı dilləndi:

– Yoldaş – mən!

– Yox, sizə zəhmət olar, – dedim.

– Nə zəhmət olacaq?! Vaxta ki, getmək istəyir, qoyun getsin. Bakıda ev-eşiyimizə də baş çəkər. Biz hələ iki ay buradayıq.

Qız anasının razılıq verməsinə sevinib getməyə hazırlaşdı. Mən axşam da bir şey yeməmişdim, onlarla birlikdə qəlyanaltı elədim. Sonra manikürçü qadın böyük termosu çayla doldurdu. Soyutma yumurta bişirdi. Pendirdən-çörəkdən zənbilə yığıb maşına qoydu. Özü də əyləşib bizimlə xəstəxananın həyətinə gəldi.

... Biz rayon mərkəzindən çıxanda hələ də yağış çiskinləyirdi. Ətraf xəfif duman içindəydi.

Mən tez-tez dönüb arxaya baxırdım. Buldozerçi gözlərini yummuşdu. Qonşu rayonun poçt idarəsinin qabağında maşını saxlayaraq, düşüb Adilə bu məzmunda bir teleqram vurdum: «Adil! Buldozerçinin ayağı qanqren elədiyindən, kəsmək istəyirdilər. Qoymadım. Onu təcili Bakıya aparası oldum. İdarəyə gəldim ki, səndən icazə alım. Dedilər, axşam qayıdacaqsan. O vaxta qədər gözləmək olmazdı. Çarəsizlikdən sənin maşınında getdik. Hələlik! Səriyyə».

Biz sürətlə dağbasardan arana enirdik. Bu yerlərdə yağışdan əsər-əlamət yox idi. Asfalt qupquru idi. Göydən od yağırdı. Mən saatda yetmişdən az getməməyə çalışırdım. Tez-tez bir-iki dəqiqəliyə maşını saxlayıb, Qəribə çay və meyvə verirdim. Çox susayırdı. Huşu özündə olsa da, hərarətinin yüksək olduğunu hiss edirdim. Biz maşının içini elə düzəltmişdik ki, o, ayağını həmişə uzatmış vəziyyətdə saxlaya bilsin. Buna baxmayaraq, qanqren başlamış yaralı üçün bu

qədər uzun yolun, maşının silkələnməsinin nə demək olduğu məlum idi. Lakin o dinmirdi.

Ağdaş şəhərinin yaxınlığında, dörd yüz əlli ildən artıq yaşı olan çinarın altında yaxşı bir çayxana var. Mən çinarın kölgəsində maşını saxladım. Məhrəbanı isladıb Qəribin üzünün tozunu sildim. Sonra təzə gilənar mürəbbəsiylə çay verdim. Manikürçünün qızı ilə mən də bir-iki stəkan çay içəndən sonra ona dedim:

– Bəlkə siz keçib burada oturasınız. Qəribin başına tez-tez cuna qoymaq lazımdır.

O mənim təklifimi həvəslə qəbul etdi.

Mən sükanın arxasına, o isə Qəribin yanına keçdi.

Mən bu dəfə sürəti bir az da qaldırdım. Yaralıya əziyyət də olsa, şəhərə mümkün qədər tez çatmaq lazım idi. Mən maşınımı kiçik bir daş qırığının üstündən də olsa atlandırmamağa çalışırdım. Tənzifi tez-tez təzələyirdik. Nəhayət, məşhur Ağsu keçidi göründü.

– Daha az qalmışıq, Qəribcan, – deyə mən geri döndüm.

Birinci dəfə idi ki, ona Qəribcan deyə müraciət edirdim. O, gözlərini açıb bir an mənə baxdı, sonra yenə yumdu.

Biz Ağsu keçidinə çatanda hava birdən-birə tutuldu və bərk yağış başladı. Biz keçidin başına qalxanda yağış o qədər şiddətləndi ki, yoldan şırıltı ilə sel axır və üç-dörd addım qabağı görmək olmurdu. Bəzən yolu kəsib uçuruma tökülən su maşının ayaq qoyulan yerinə qədər qalxırdı. Mən suyun motoru söndürəcəyindən qorxub, ehtiyatla irəliləyirdim. Orada-burada dalbadal ildırım çaxıb meşəni və dərələri işıqlandırırdı. Mən qorxurdum ki, sel motoru söndürər, güc verib maşını uçuruma yuvarladar. Ən pisi də bu idi ki, yağış o yandan bəri düz üzümə çırpdığından, gözlərimi açmağa imkan vermirdi. Hər otuz-qırx metrdən bir isə döngələri burulmaq lazım gəlirdi.

Yol ilə o qədər sel axırdı ki, elə bil, biz dəhşətli bir dağ çayının içi ilə irəliləyirdik. Elə bil ki, «QAZ-69» canlı bir məxluqa çevrilərək, mənimlə birlikdə bu sellərin əlindən salamat xilas olmaq üçün fövqəladə güc və cəsarət göstərirdi. Öz-özümə deyirdim: «Bircə motor sönməyəydi!» Afərin! Tormoza söz yoxdur! Göylərdə bəyəm nə qədər su olarmış... Birdən mən bir anlığa geri çevrildim. Qərib gözlərini açaraq diqqətlə qabağa baxırdı. Bu zaman maşın təkrar yolu ortadan kəsən gur selə rast gəldi.

– Bərk keçin! – deyə buldozerçi arxadan səsləndi. Mən maşının sürətini artırıb seli qıjıltı ilə keçdim və dərhal geri çevrildim. Buldozerçi yenə də gözlərini yummuşdu.

Nəhayət, biz Ağsu keçidini enib yağışdan çıxdıq və bir az gedəndən sonra yenə isti başladı.

Mən qol saatıma baxdım. Çinarın altındakı on beş-iyirmi dəqiqəni nəzərə almasaq, düz altı saat idi ki, yol gəlirdik. Keçiddə xeyli ləngimişdik. Şamaxıdan sonra təxminən yüz kilometr yolumuz qalırdı. Mən sürəti artırdım. Özümdə yorğunluq hiss eləmirdim. Yalnız qollarımın yuxarısı, birtəhər, keyiyən kimi olmuşdu.

Axşam saat yeddiyə işləyəndə Bakıya çatıb, maşını düz Azərbaycan travmatologiya və ortopediya institutuna sürdüm. Ora yaxşı xəstəxana hesab olunurdu. Baş həkim də köhnə neftçi olan atamın dostu idi. Lakin maşını qapıda qoyub, yüyürə-yüyürə pilləkəni çıxdığım zaman lap göydən düşmüş kimi baş həkimə rast gəldim.

– Salam, doktor, – deyib tövşüyə-tövşüyə qabağını kəsdim.

– Salam... – deyə həkim ayaq saxlayıb təəccüblə mənə baxdı.

– Deyəsən, tanımırsınız, Səriyyəyəm də, usta Ağabalanın qızı.

– Bay, salam... salam... – altmış beş-yetmiş yaşlı xoşsifət bir kişi olan baş həkim mənimlə əl tutdu.

– Nə olub, üzün-gözün niyə belə torpaq içindədir?..

– Yeddi saatdır ki, maşın sürürəm... Rayondan ağır bir xəstə gətirmişəm.

– Bəs sən Bakıda olmursan? Rayonda nə işin var idi?

– Xeyr, Adil də, mən də rayonda işləyirik. Müvəqqəti getmişik. Bizim yaxşı bir buldozerçimiz var; daş düşüb, ayağını əzib. Rayonda kəsmək istəyirdilər, götürüb qaçmışam bura.

– Kəsmək nə üçün? Nə olub bəyəm?

– Deyirlər, guya qanqren başlayıb...

Doktor bir neçə an fikirləşib:

– Yaxşı, – dedi, – deyərəm xəstəni qəbul etsinlər.

– Çox razıyam, – mən onun əlindən yapışdım. – Mən rayondan sizi deyib gəlmişəm. Axı siz mənim əmimsiniz... Yadınızdadır, həmişə mənə «Mişka» konfeti gətirərdiniz?..

Doktor gülümsəyib:

– Gedək, – deyə geri qayıtdı.

Kabinetdə stolun arxasına keçərək zəngi basdı:

– Yaxşı ki mənə rast gəldin. Çıxıb gedirdim bağa.

– Səltənət əmidostum bağdadır? – Mən özümü yaxın göstərmək məqsədilə qəsdən Səltənət xanım əvəzinə, «Səltənət əmidostum» dedim. (Səltənət xanım onun arvadı, köhnə fransız dili müəlliməsi idi).

– Bəli, bağdadır. Mən özüm də bağda oluram. Məzuniyyətdəyəm. Bu gün elə-belə gəlmişdim.

Bu zaman daxil olan şəfqət bacısına:

– Xəstəni tez götürsünlər, – dedi. – Üçüncü palataya. Doktor Möhsünzadə buradadırmı?

– Xeyr.

– Yaxşı, sən işində ol!

– Çox sağ olun, doktor, – deyib mən də şəfqət bacısının ardınca getmək istədim.

– Sən hara? Sənlik iş yoxdur. Özləri götürəcəklər...

Mən, istər-istəməz, dayandım. Həkim bir az fikirləşəndən sonra soruşdu:

– Deyirlər, qanqren başlayıb?

– Bəli...

– Oradan çıxdığınız neçə saatdır?

– Düz altı saat yarımdır.

Baş həkim zəng vurub xahiş elədi ki, professor Möhsünzadəni telefona çağırsınlar və bir dəqiqəyə qədər gözlədikdən sonra:

– Salam, salam, – dedi. – Yatmışdın? Yox? Sənə yaman əziyyət verməli olacağam.

Sonra əhvalatı ona danışaraq:

– Bilirəm, bu gün sənin növbən deyil... Ancaq çox xahiş edirəm... Bəlkə bir yarım saatlıq vaxt tapıb özün ona baxasan. Nə vaxt?! Çox sağ ol! İnşallah, oğlunun toyunda bir at çaparıq...

Baş həkim zarafat eləyib dəstəyi asdı. Sonra mənə müraciətlə:

– Buldozerçinin işi düzələr, – dedi. – Narahat olma, ərin neyləyir?

– İşləyir.

– O gün radioda yaman tərifləyirdilər. Deyəsən, ağlı başında oğlandır.

– Bəli!

– Qardaşqızı pis oğlana getməz ki...

Baş həkim təkrar güldü.

– Professor nə vaxt gələcək?

O, divar saatına baxaraq:

– Səkkizdə. Dedim ki, narahat olma.

– Narahat olmuram...

Bir neçə dəqiqədən sonra şəfqət bacısı gəlib, yaralının palataya götürüldüyünü xəbər verdi.

– Növbətçi həkimə tapşırarsan ki, axşam saat səkkizdə professor gəlib həmin yaralıya baxacaq.

– Bəlkə icazə verəsiniz, professor baxanda mən də iştirak eləyim...

Həkim təəccüblə üzümə baxdı:

– Sənin nə işin var ki?! Möhsünzadə bizim ən yaxşı cərrahımızdır.

– Bilirəm!

– Baxacaq, lazım bilsə, kəsəcək. Lazım bilməsə, kəsməyəcək. Sən, yaxşısı budur, gedib bir yaxşı-yaxşı yuyunasan. Üz-gözünü o qədər toz basıb ki, dəyirmançıya oxşayırsan. Buldozerçi sənin nəyindir?

– Heç nəyim?

– Yaxşı, bunun əhəmiyyəti yoxdur. Gedək.

Həkim qalxdı. Qapıda «QAZ-69»u görüb soruşdu:

– Bunda gəlmisiniz?

– Bəli.

Manikürçünün qızına işarə ilə:

– Şofer budur?

– Xeyr, şofer mənəm.

– Oradan buracan özün sürmüsən?

– Nə var ki?.. Gəlin əyləşin sizi aparım.

– İstəməz, mən evə dəyəcəm. Sonra öz maşınım gəlib bağa aparacaq. Evə piyada getmək istəyirəm. Olmaya bu qız buldozerçinin arvadıdır?

Manikürçünün qızı güldü:

– Xeyr, bu mənim yoldaşımdır.

– Aha, çox gözəl! Hələlik, sabah sənin buldozerçinin xətri üçün bəlkə bir də xəstəxanaya gəldim. Zəng edərsən!

– Baş üstə!

Mən qəsdən ləngidim. Baş həkim bir daha:

– Hələlik, – deyərək bizdən ayrılıb getdi.

O, döngəni burulub gözdən itən kimi:

– Ay qız, mən bu dəqiqə gəlirəm, – deyərək təkrar qayıdıb xəstəxanaya çıxdım.

Şəfqət bacısını tapıb, məni üçüncü palataya aparmasını xahiş etdim. Şəfqət bacısı bir qədər tərəddüddən sonra gedib mənə bir xalat gətirdi və biz üçüncü palataya getdik. Cavan bir növbətçi həkim də oradaydı. Palata geniş, təmiz və işıqlı idi. Buldozerçidən başqa üç nəfər də ayrı xəstə var idi.

Qərib gözlərini yummuşdu.

Növbətçi həkim termometri götürüb baxdı və narahat halda başını buladı.

Mən heç bir söz soruşmadan şəfqət bacısı ilə birlikdə otaqdan çıxdım, ondan telefon nömrəsini öyrəndikdən sonra maşının yanına gəldim və yalnız indi yadıma düşdü ki, Bakıdakı evimizin açarlarını götürməmişəm.

Manikürçünün qızı:

– Nə təfavütü var, gedərik bizə, – dedi, – evimiz yayda pis olmur.

Biz maşına minib tini burulanda sanki arxadan məni çağırdılar. Maşından başımı çıxarıb geri baxdım. Heç kəs yox idi. Xəstəxana binası bir an mənə soyuq və cansıxıcı göründü. Sürəti artırıb tini buruldum. Başqa küçəyə keçəndə hava birdən-birə mənə sərin və xoş bir təsir bağışladı. Elə bil ki, nəfəsim genişləndi. Sonra palatada uzanmış buldozerçi gözlərim qarşısında canlandı və mən özüm-özümə məyus – mənasız bir canlı kimi göründüm. «Bütün bunlar... Altı-yeddi saat birnəfəsə maşın qovmaq, Ağsu keçidində bizi aşırıb uçuruma yuvarlatmağa can atan o sel-su, baş həkim... Nə üçün-

dür?.. Yəqin ki, Adil indi gəlib əhvalatdan hali olur, əsəbiləşir, əzab çəkir... Nə üçün? Nə üçün məndən ötrü başqa birisi əzab çəkməlidir... Eh, Adil!.. Mənim ağıllı dostum». Birdən qız «oy» deyə qışqırdı. Əlində dolu zənbil küçəni keçən kök bir qadına toxunhatoxunda maşını saxladım. Qadın hirslənib söydü, sonra:

– Milis! Milis! – deyə çığırdı.

Mən qazı basıb aradan çıxdım və dərhal başqa küçəyə buruldum... Qaç ki, qaçasan! Manikürçü qadıngilin evləri Qaraşəhər körpüsünün yaxınlığında, ikinci mərtəbədə, iki balaca otaqla bir mətbəxdən ibarət kiçik və sadə bir mənzil idi. Pəncərələri açdıq. Axşam yeli içəri dolub otağın havasını təzələdi. Mən o qədər yorulmuşdum ki, mətbəxdə əl-üzümü güclə yuya bildim. Sonra gəlib çarpayılardan birinin üstünə yıxıldım və həmin anda da yuxuya getdim.

Oyananda gecə saat on bir idi. Bərk acmışdım. Qız stolun üstünə ağ süfrə salıb, pomidor salatı, göy-göyərti, kolbasa qoymuşdu.

– Dur gəl, – deyə o məni süfrəyə dəvət etdi, – yaxşı yatdın... Mən də bir az yatdım.

Mən də qalxıb üzümə su vurdum. Sonra keçib oturaraq, yeməyə başladım və şam etdiyim müddətdə gözüm otağın aşağı tərəfinə qoyulmuş telefona zillənib qaldı. Elə bil ki, bu balaca qara qutunun içində mənə məlum olmayan başqa bir aləm var idi və o aləm böyük səbirlə mənim yeyib qurtarmağımı gözləyirdi. Elə bil ki, mən o aləmdə hər şeyin yalnız həyəcan, qorxu və iztirabdan ibarət olduğunu hiss edir, onları qarşılamağa, onlarla əlbəyaxa olmağa hazırlaşırdım. Bununla bərabər, mən özümdə təəccüblü bir arxayınlıq duyurdum. Mən təzə pomidor və tər xiyar dilimlərini duza batırıb yavaş-yavaş yeyir və buldozerçinin bu saat nələr çəkdiyini hiss edirdim. Bir an mənə elə gəldi ki, sağ ayağım o qədər bərk ağrıyır ki, elə bil, bu saat sümüklərim çilik-çilik olacaq və mən ayağımı qeyri-şüuri tərpədib irəli uzatdım. Ağrı-zad yox idi.

Qəribədir... Qız buldozerçi barədə bir kəlmə də danışmırdı. Lakin o mənimlə elə üsullu rəftar edirdi ki, elə bil, yaralı Qəribcan deyil, mənəm, hətta mən özüm də buldozerçi barədə danışmaq istəmirdim.

Gözlərim isə telefon aparatında idi.

Yeyib doyandan sonra üstündən bir stəkan «Badamlı» içdim və öz aləmimdə bir qətiyyətlə qalxıb telefon aparatına yaxınlaşdım. Zəng eləyib şəfqət bacısı Cəvahir xanımı telefona çağırdım və Qəribin vəziyyətini soruşdum.

– Saat səkkizdə professor Möhsünzadə gəlmişdi... – deyə gənc qadın qətiyyətsiz səslə cavab verdi.

– Nə oldu? Professor nə dedi? – deyə mən sakit səslə soruşdum.

– İstəyirsiniz növbətçi həkimi çağırım... Onunla danışın.

– Çağırın.

Növbətçi həkim dəstəyi aldı:

– Allo... kimdir?

Mən cavab verdim...

– Professor hələlik qəti bir qərara gəlməmişdir. Səhər başqa professorla məsləhətləşəcək.

– Sizcə, ayağını kəsmək lazım gələcək?

– Məlum deyil.

Həkim bir qədər ara verdikdən sonra əlavə etdi:

– Professor Möhsünzadə kəsməyin tərəfdarı deyil. Səhər görək o biri həkimlər nə deyəcək.

– Yara nə vəziyyətdədir?

– Professor qanqrenin qarşısını almaq üçün hər nə lazım idisə elədi.

– Yaxşı! Sağ olun!

– Sağ olun!

Mən dəstəyi yerinə qoyub qıza baxdım. O da əllərini qoynunda çarpazlayaraq, başını azca yana əyib mənə baxırdı. Mən sakit halda pəncərənin qabağına keçdim. Dəniz tərəfdən sərin meh əsirdi. Şəhərdə saysız-hesabsız əlvan elektrik çıraqları yanırdı. «İnsan qanadsız quşdur, – deyə mən düşünürdüm, – srağagün bu vaxt biz, – mən, körpüsalanlar, bir də Adil Zoğallı meşəsindəydik. Qəribə də yaralanmamışdı...»

«Qəribə də yaralanmamışdı...» – mən öz-özümə təkrar etdim və birdən o günlər... tufan başlayana qədər keçən həmin günlər o vaxt fərqinə varmadığım bir aləm kimi təkrar qarşımda canlandı. Mən buldozerçinin hər bir hərəkətini, acığını, gülüşünü, təkəbbürünü, mehribanlığını heyrətli bir aydınlıqla təkrar-təkrar görürdüm. Mən bunların hamısını o günlərdən bütün xırda təfərrüatı ilə birlikdə görürdüm. Mənim zehnimdə Soltan da, Kərəmxan da, buldozerçi də, hətta, şofer Səməndər də bir saniyənin yüzdə, mində biri sürəti ilə bir-birini əvəz edirdi. Sonra onlar Zoğallı meşənin, bizim hələ yarımçıq olan cavan körpümüzün, dəniz kimi dərin, mavi dərənin, ondan o yana görünən dağların fonunda bir-birinə və mənə baxırdılar. Eynilə kino lentində olduğu kimi min cür vəziyyətdə baxırdılar. Min cür vəziyyətdə...

Sonra tufan başladı... və... və buldozerçi yaralandı. Qanqrenin nə demək olduğunu mən bilmirəm!.. Professor səhərə konsilium təyin etmişdir. Demək... Qız pəncərənin qabağına, mənim yanıma gələrək xəstə ilə danışırmış kimi yavaş və qorxaq səslə:

– Səriyyə xanım, – dedi, – çay dəmləmişəm, gəlin bir stəkan için.

– İçək! – Mən möhkəm addımlarla irəlilədim, stul çəkib oturdum.

Görünür, mənim gümrah cavabım qızın kefini açdı. O, ətirli çayı götürüb mənim qabağıma qoyaraq:

– Yaxşı ki, – dedi, – mən gəlmişəm... Paltarlarımıza güvə düşürmüş... şifonerin ağzını bağlayıb getmişdik.

– Gedəndə naftalin vursaydınız...

– Yadımızdan çıxıb, vurmamışıq. Gərək sabah hamısını havaya sərim... sonra da dərmanlayım.

Qızın bu sözləri mənə buradakı – Bakıdakı evimizi xatırlatdı. Biz yığışıb rayona gedəndə, şəhərdə qalan qış paltarlarımıza naftalin vurmaq lazım olduğunu Adil mənim yadıma salmışdı. Mən də onları çox həvəslə dərmanlayıb şifonerə yığmışdım. İndi mənə elə gəlir ki, bu iş çox uzaq bir zamanda olmuşdur. Elə bil ki, mən o paltarları cansıxıcı bir payız günündə dərmanlayıb getmişdim. O günün xatirəsi indi ağır bir daş kimi ürəyimi sıxırdı. Doğrudanmı, hər bir həvəsdən, xeyirli hesab elədiyin işdən axırda bu cür ağır, kədərli xatirədən başqa heç nə qalmır?! Doğrudanmı, məyusluq bizim son mənzilimizdir... Birdən bütün varlığıma qəribə bir hiss hakim oldu: mənə elə gəldi ki, əgər buldozerçi sağalıb qalxsa, əgər onun ayağını kəsməsələr, mən yenə də əvvəlki həvəslə gedib Adilin də, özümün də paltarlarımızı çıxarıb günə sərəcəyəm... Təzədən bir də dərmanlayacağam və Adilə hər şeyi bağışlayacağam... hər şeyi! Axı mən nə zaman demişəm ki, Adil pisdir? Onu ağıllı, səliqəli eləyən mən olmamışammı? Dağların o tayındakı fermalara gedən yolun üstündə saldığımız o körpü nə üçün bizim bir-birimizdən soyumağımıza, hətta... hətta bir-birimizə düşmən kəsilməyimizə səbəb olsun? Heç bu, ağlabatan işdirmi?!

Qoy bircə bu Qəribcan sağalıb qalxsın. Hər şey o qədər yaxşı, o qədər fərəhli olacaq ki... Qoy bircə onun ayağı kəsilməsin... Mən Qəribcanı da götürüb gedəcəyəm univermağa... Adilə də... Soltana da... Kərəmxana da sovqat alacağam... Manikürçü qadını unutdum... Nə sevimli qadındır... Qəribcan sağ-salamat qayıdanda o necə sevinəcək... Hamımız sevinəcəyik... Biz bir briqadayıq... Qəribcan bizim bir hissəmiz, bir parçamızdır. Ona bir şey olsa...

Mən qızın üzünə baxaraq fikrimə davam edirdim. «Biz dördümüz də adımızı bir kağıza yazıb, Zoğallı körpünün bünövrəsinə qoymuşuq. Dünənki o dəhşətli tufan bizim cavan körpümüzdən heç nə qoparıb apara bilmədi. Dördümüzün də adımız yazılmış o kağız bu saat şüşənin içində qupquru qalmaqdadır. Kim bilir, daha nə qədər bu cür dəhşətli tufanlar olacaq... Daha nə qədər sellər... sular axıb gedəcək. Lakin o kağıza heç nə olmayacaq. Hər zaman olduğu kimi, bu dəfə də o kağızın gözlərim qarşısında canlanması ilə birdən-birə ürəyimə anlaşılmaz bir vahimə çökdü və mənə elə gəldi ki, buldozerçiyə bir şey olsa, mən bədbəxt olaram. Uğursuz olaram. Həyatım qara bağlar. Kağızda onun adından sonra mənim adım gəlir.

Demək, bu cür: «Soltan, Kərəmxan, Qəribcan və Səriyyə!» Hamı bilir ki, mövhumatçı deyiləm! Heç bir mövhumi şeyə də bənd olmaram. Lakin hər dəfə o kağız yadıma düşəndə, bu buldozerçi bütün qədd-qaməti ilə qarşımda canlanaraq, dərin və mükəddər baxışlarla düz gözlərimin içinə baxır və mənə elə gəlir ki, bu saat onun enli, qüdrətli sinəsindən bir «ah» qopub onu da, məni də məhv edəcək!

Vaxt olur ki, əllərimlə üzümü qapayaraq, başımı yastığın altına soxub onun bu nəzərlərindən qaçmağa can atıram... Halbuki adi həyatda bizim baxışlarımız çox nadirən qarşılaşır... Bəs bu məlun hiss haradan mənə qənim kəsilmişdir?.. Nə üçün onun hər bir hərəkəti, məsələn, gecədən xeyli keçənə qədər çadırlarının yanında oturub papiros çəkməsi məni narahat edirdi?

Nə üçün mən ondan oddan-sudan qorxan kimi qorxurdum? Bu, çox anlaşılmaz, qəribə və əsassız bir qorxu idi... Bəzən onu qaşqabaqlı oturub papiros çəkən görəndə mənim vəziyyətim çox gülməli olurdu. Elə bil ki, kiçik, gücsüz bir heyvan, qəzəbli nəzərlərlə uzaqlara baxan bir pələngə rast gəlmişdir və əgər bu pələng onun bir hərəkətindən xoşlanmazsa, onu parça-parça eləyər. Buna görə də həmin məxluq gülür, zarafat edir, pələngin kefini açmağa çalışırdı. O, pələngdən aralanmağa, qaçıb yaxasını qurtarmağa cəsarət eləmirdi.

O qorxurdu...

Lakin budur: indi pələngin yaralanması ilə bu qorxu da anlaşılmaz bir narahatlığa, dəhşətli bir qeyri-müəyyənlik hissinə çevrilmişdir. Elə bil ki, nə isə ağır bir dərd, bir faciə, siyirməqılınc qarşımda dayanaraq, mənim öz həyatımı və aqibətimi təhdid edir!

Ərim, qohum-qardaşım, hətta yaxın tanışım belə olmayan bu adamla aramdakı bu qəribə münasibətin səbəbi, sirri nədə idi? Bilmirdim... heç nə bilmirdim və bu dünyada onun sağalmasından, ayağının salamat qalmasından başqa heç nə istəmirdim. «Səadət» məfhumunun nə demək olduğunu, çox dumanlı şəkildə də olsa, indi hiss edirdim. Hiss edirdim ki, mənə heç bir qohumluq münasibəti olmayan bu adamın sağalması, ayağının kəsilməməsi mənim üçün həmin «səadət» deyilən şey ola bilər. Bu, mənim üçün bir kəşf idi və mən bu kəşfi gizlətməyəcəyimə and içirdim! «Təki o salamat qalsın! Gündüz yolda bir-iki dəqiqəliyə keçib onun yanında oturdum... Mən onun alışıb-yanan əlinə toxundum. Mən... ərli qadın olan mən, əsl səadətin və onu itirmək qorxusunun nə demək olduğunu həmin bu bir-iki dəqiqədə dərk etdim. Mən heç bir zaman, heç bir kəsi özümə bu qədər yaxın, bu qədər doğma hiss etməmişdim. Elə bil ki, mən Zoğallı körpüdəki həyatımızın ən əziz, ən qiymətli bir hissəsini – onun fərəhini, gözəlliyini özümlə birlikdə götürüb gedirdim... Və əgər bunu itirsəm, məhv olaram. Nə üçün qız buldozerçi haqqında heç nə danışmır? Heç nə soruşmur?» – deyə mən, təkrar-təkrar düşünürdüm. «Məgər qız bilmir ki, buldozerçi mənim heç nəyim deyil və

o (qız) bu barədə hər bir şeyi soruşa bilər? Lakin onunla bərabər, mən özüm də buldozerçi barəsində heç nə danışmırdım. Danışmaq istəmirdim. Bayaq o tufanda Ağsu kеçidini düşərkən zehnimdən, bir neçə anlığa da olsa, çox məsuliyyətsiz bir xəyal gəlib-kеçdi; sel maşını yumalayıb uçuruma salsa, o buldozerçi də, mən də məhv olsaq, daha gözəl olmazmı?

«Bəs bu qız? Məgər o bunun üçünmü bizə qoşulub?» Daha sonra düşündüm ki, «sel bizi aparaydı... Bu qız isə sağ qalaydı...»

Bu dünyada bizim xəyalımızdan gəlib-kеçənlərin hamısı ağıllı, əsaslı fikirlər olsaydı, nə vardı ki...

... Səhər düz saat doqquzda xəstəxananın qapısını kəsdirdim. «Mən buldozerçini selə axıtmaq üçün gətirməmişəm» deyə əsəbiliklə düşünür və konsiliumun qurtarmağını gözləyirdim.

Nəhayət, tanış şəfqət bacısı Cəvahir xanım gəlib mənim yanımdan kеçdi.

– Professor Möhsünzadədir... – deyə Cəvahir xanım pıçıldadı və mən dərhal durub professorun ardınca yüyürdüm.

O, qayıdıb məni görərkən ayaq saxladı:

– Nə buyurursunuz? – deyib eynəyini gözündən götürdü.

Bu, otuz yeddi-otuz səkkiz yaşlarında çox yaraşıqlı bir adam idi.

– Professor, – dedim, – sizi saxladığım üçün üzr istəyirəm.

– Eybi yoxdur... Eybi yoxdur, – deyə o, sağ gözünü tez-tez qırpdı.

– Üçüncü palatadakı xəstənin vəziyyətini soruşmaq istəyirdim...

– Hansı xəstənin, Qərib Muradbəylininmi?

– Bəli.

– Siz onun nəyisiniz?

– Tanışı. Biz bir briqadada işləyirik. Onu Bakıya mən gətirmişəm. Rayonda ayağını kəsmək istəyirdilər.

– Bilirsinizmi, – professor əlində tutduğu eynəyinə baxaraq cavab verdi, – onlarda təqsir yoxdur... Qanqren çox sürətlə başlayıb. Buradakı professorlardan da kəsmək təklif eləyəni oldu... Ancaq... əksəriyyəti kəsilməsinə razı olmadı... Oğlanın çox güclü orqanizmi var... Mənim yeganə ümidim dava-dərmandan çox onun özünədir. Görək nə olur?! Biz nə lazımsa eləyəcəyik...

– Çox sağ olun, professor.

– Dəyməz. Borcumuzdur! Hələlik, – o, dönüb məndən aralandı.

Bəzən xarici görünüşün adama qəribə təsirinedici təsiri olur. Professorun qəşəngliyi və çox səmimi danışması məndə birdən ruh yüksəkliyi və ümid doğurdu.

Mən xəstəxanadan çıxıb taksiyə əyləşərək bazara getdim. Bir neçə cür meyvə alıb təkrar xəstəxanaya qayıtdım, Cəvahir xanımdan xahiş etdim ki, gətirdiklərimi xəstəyə çatdırsın.

O günün axşamı səbrimi basıb xəstəxanaya getmədim. Zəng də eləmədim. Gecədən xeyli kеçənə qədər otaqda gəzinib, manikürçünün qızının baş-beynini apardım. Sonra soyunub çarpayıma uzandım və yalnız səhər açılanda yarım saata qədər mürgüləyə bildim. Mən artıq öz sirrimi özümdən gizləmirdim. Mən yeri-göyü köməyə çağıraraq, buldozerçinin sağalmasını istəyirdim.

Gündüz saat on birdə xəstəxanaya getdim və bütün cəsarətimi toplayaraq Cəvahir xanımı tapdım...

O məni görərkən:

– Bilirsinizmi, – dedi, – dünən xəstənin ayağını kəsdilər.

– Kəsdilər? – Mən alacalanmış gözlərimi ona zilladım.

– Bağışlayın... demək istəyirəm ki, professor Möhsünzadə onun ayağının şişini bir neçə yerdən yardı. O qədər zərdab tökküldü ki... İndi vəziyyəti yaxşıdır, hərarəti bir dərəcə düşüb. Bu səhər qəhvə içdi.

Mən birdən əllərimlə üzümü qapayaraq ağladım.

– Bay, nə oldu? Nə oldu? – deyə Cəvahir xanım təəccüblə soruşdu...

Donumun cibindən yaylığımı çıxarıb:

– Heç nə... – deyə gözümün yaşını sildim...

Cəvahir xanım mənim əlimdən tutaraq:

– Onu görmək istəyirsinizsə, gedək...

– Axı bu gün görüş vaxtı deyil...

– Eybi yoxdur. Beş dəqiqəliyə olar...

O, arxası üstə uzanıb, əllərini başının altına qoymuşdu. Məni görərkən xəfifcə gülümsədi. Çoxdan idi ki, mən onun üzündə özümə aid mülayim ifadə görməmişdim.

– Hə, necəsiniz, yoldaş buldozerçi?..

– Deyəsən, daha kəsəsi olmadılar.

– Elə deyirlər...

– Amma yaman qaçdıq ha... – deyə o, təkrar gülümsündü.

Ordakı üç xəstə maraq içində mənə baxırdı.

Onlardan yaşlı bir kişi mənə müraciətlə:

– Deyir, Ağsu kеçidində az qala sizi sel aparırmış...

– Elə bir şey var idi, – deyə mən zarafatyana cavab verdim, – ancaq qaçıb qurtardıq.

– Bizimki qaçmaqdan gəlib... – Qəribcan eyni təbəssümlə mənə baxırdı.

Həmin yaşlı xəstə:

– Vallah, qoçaq qızsanmış, – dedi.

– Çox tərifləməyin, nəzərlərsiniz...

– Allah eləməsin! Mənim gözümdə elə şey olmaz.

Onunla yanaşı yatan oğlan gülümsədi. Digər xəstə rus olduğundan, görünür, bizim söhbətimizi başa düşmürdü.

Birdən o, yastığa dirsəklənərək, buldozerçidən soruşdu:

– Vaşa jena?

Qəribcan qulaqlarına qədər qızarıb məzəmmətlə rusa baxdı.

Mən gülərək:

– Net, – dedim. – Ne jena.

– Prostite, – o, təkrar yerində uzandı.

– İndi ayağınız ağrımır?

– Ağrıyır. Ancaq... dünənki ilə müqayisə eləyəndə babatdır.

Yaşlı xəstə:

– Elə deməyinə baxmayın, – dedi, – o cür yara yaman bərk ağrıyar... Sizə zarafat gəlir...

Mən beş dəqiqə əvəzinə on dəqiqədən artıq oturaraq, palatadan çıxdım.

– Amma yaman oğlanmış, – deyə Cəvahir xanım nağıl edirdi. –Ayağını bir o qədər doğradılar, bir dəfə «uf» demədi. Bihuşdarı verməyə də qoymadı. Özü də gərək ki, mühəndisdir... Eləmi?

– Xeyr, buldozerçidir.

– Sizin qohumunuzdur?

– Yox! Mənim heç nəyim deyil.

«Qəribədir... Nə üçün hamı bu sualı verir? Nə üçün hamı onu mənim nəyimsə hesab edir?»

Mən Cəvahir xanımdan ayrılandan sonra poçta gedib Adilə belə bir teleqram vurdum:

«Mən sağ və salamatam. Xahiş edirəm Soltanla Kərəmxana deyəsən ki, Qəribin vəziyyəti yaxşıdır. Narahat olmasınlar. Mənim ünvanım belədir...»

Sonra bazara gedib, ət, pomidor, göy-göyərti, meyvə alıb taksidə qızgilə gəldim.

O mənə diqqət yetirib:

– Deyəsən, oğlan yaxşıdır?

– Yaxşıdır, – deyə mən çox ürəklə cavab verdim.

Biz yaxşı bir yemək hazırladıq. Buldozerçinin payını çəkib soyuducuya qoyduq və səhər tezdən götürüb xəstəxanaya getdik. Bu gün görüş vaxtı olmadığından, Qəribin yanına buraxmadılar. Dostum Cəvahir xanım da bu gün istirahətdəydi. Apardığımız şeyləri başqa bir şəfqət bacısı ilə göndərdik. O, Qəribdən balaca bir məktub gətirdi. «Nə üçün zəhmət çəkirsiniz... Burada bizə hər şey verirlər. Qılçam yaxşıdır. Sağ olun!»

Mən məktubu bərkdən oxuyub qurtaranda, qız buldozerçiyə müraciət edirmiş kimi, sevinclə səsləndi:

– Siz də sağ olun!

Axşamçağı biz gülüb, danışa-danışa dəniz kənarındakı açıq kinoteatra getdik. «Vaterloo körpüsü...» adlı ingilis filmi göstərilirdi. Filmdə iki gənc bir-birini sevir. Sonra oğlan qızdan ayrılaraq,

cəbhəyə gedir və hiss edirsən ki, bu gediş əbədidir. Yəni sevgililər bir də heç vaxt görüşməyəcəklər. Oğlan müharibəyə gedəndən sonra qız tək qalıb onu xatırlayır. Bu an manikürçünün qızı özünü saxlaya bilməyib ağladı. Mən gülümsəyərək:

– Dava vaxtı bundan da dəhşətli şeylər olub.

O, gözünün yaşını silərək:

– Çox acı xatirədir, – dedi, – yazıq qız...

Mən:

– Eybi yoxdur, – dedim, – Jorj Sand deyib ki, xatirə bizim ruhumuzun ətridir.

– Daha indi elə deyil! Əgər Jorj Sand bu dünyada necə xatirələr olduğunu bilsəydi, bəlkə də elə deməzdi.

Qız dərindən nəfəs alıb susdu. Sonra həyəcanla davam etdi:

– Elə xatirələr var ki, onlar ömrümüz boyu bizə əzab verir. Qarşımıza çıxan hər şirin günə bir damcı zəhər qatır. Eh... Jorj Sand...

Mən dinmədim. Doğrusunu söyləsəm, mənim həyatımda «ruhumun ətri» sanacağım elə bir xatirə də yox idi. Mənim indiyə qədər olub keçmiş ömrümdə hər şey lap adi və sadə idi. Lakin, doğrudan da, dünyada çox ağır xatirələr olduğunu eşitmişdim. Və and içmişdim ki, əgər özümdən asılı olsa, həyatımda heç bir acı xatirəyə yol verməyəcəyəm. Mən nənələrim kimi eləməyəcəyəm. Mən tamam ayrı cür yaşayacağam. Mən tamam başqa bir zamanın qızıyam. Mən süni peyk düzəldib səmaya buraxıram və bu peykin sürəti qarşısında zaman-məkan öz hökmünü itirir. Biz gələcəyə körpüsalanlarıq. Biz hələ çox körpülər salacağıq! Mən gələcəyə doğru hərəkət edərkən yaşayıram. Mən bu işin, bu fəaliyyətin bir hissəsiyəm.

Birdən, elə buradaca, mənim qəlbimi hələ səbəbini dərk etmədiyim bir fərəh bürüdü. Sonra buldozerçinin bayaqkı məktubu yadıma düşdü. Daha sonra onun tezliklə sağalacağını və hər ikimizin yenidən körpü salmağa qayıdacağımızı düşündüm.

Mənim xatirələrim başqa planetlərə göndərdiyimiz peyklərin saçdığı işığa bənzəyir...

Səhəri gün Adildən belə bir teleqram aldım:

«Sənin hərəkətlərin çox təəccüblüdür. Maşınla birlikdə dərhal geri qayıtmağını tələb edirəm».

– Kimdəndir? – deyə qız soruşdu.

Mən teleqramı ona verərək, güzgünün qabağına keçib saçlarımı düzəltdim. Mən güzgüdən qızı görürdüm. O, teleqramı nəzərdən keçirəndən sonra onu üsulluca stolun üstünə qoyub mətbəxə getdi və iki stəkan çayla geri qayıdaraq, bu barədə bir kəlmə belə soruşmadı. Ağıllı, həssas adamlara eşq olsun!.. Deyirlər ki, tünd çay əsəbləri müəyyən dərəcədə sakit edir... Mən çayımı isti-isti içdim. Sonra özüm qalxıb birini də tökdüm.

Mən çaydan sonra respublika yollar idarəsinin rəisinə zəng eləyib buldozerçinin başına gələn əhvalatı və mənim onu götürüb Bakıya gəlməyə məcbur olduğumu söylədim.

– Siz çox yaxşı hərəkət eləmisiniz, Səriyyə xanım, – deyə rəis cavab verdi, – mən sizə ayrı nə deyə bilərəm ki... Əgər xəstəyə bir şey-zad lazım isə...

– Xəstəyə heç nə lazım deyil. Bircə mən sizdən onu xahiş etmək istəyirdim ki, bizim idarə maşınında gəlməyimizi üzürlü hesab edəsiniz.

– O barədə sizə kim bir söz deyir ki?

– Heç kim.

– Deməli, işinizi ehtiyatlı tutursunuz... – deyə rəis telefonda güldü. – Mən sizin «QAZ-69»da gəlməyinizi üzürlü hesab edirəm. Bir də ki, maşının sahibi sizin yoldaşınızdır...

– Mən istəyirəm ki, bu işin üstündə Adilə bir söz deyilməsin...

– Deyilməz.

... Sonra dərhal poçta gedərək Adilə bir teleqram vurdum: «Mən buldozerçinin sağalmasını gözləyirəm. Onunla birlikdə gələcəyik. Maşın barədə narahat olma. Körpüsalanlara salam».

... Mən bilirdim ki, Adilin ixtiyarında başqa maşınlar da var... Bizim «QAZ-69»u gətirməyimiz onun işlərinə maneçilik törətməz. Lakin bununla bərabər, Adil kimi işgüzar adamın maşınının burada olması məni sıxırdı. Ona görə də istədim maşını elə lap bu gün qaytarıb aparım. Lakin aparmadım... Buldozerçini bu böyük şəhərdə o cür ağır halda qoyub gedə bilmədim. Bəlkə bu mənim tərəfimdən bir zəiflik idi... Bilmirəm...

Qız özünün və anasının paltarlarını sərib naftalin vuraraq yenidən şifonerə yığdı. Sonra biz birlikdə ev-eşiyi ürəyimiz istəyən kimi təmizlədik. Əyin paltarlarımızı yuyub ütülədik. Axşam xəstəxanaya zəng eləyib dostum Cəvahir xanımı telefona çağırdım. Əvvəlcə onun kefini soruşdum.

– Çox sağ olun! Təşəkkür edirəm, – dedi.

O, mənim ikinci sualımı gözləmədən əsl mətləbə keçdi:

– Xəstənizin kefi lap yaxşıdır. Ayağının şişi tamam yatıb. Bu gün hərarəti normal olub... Daha nə istəyirsiniz!?.

– Sizin sağlığınızı!

Cəvahir xanım şaqqıldayıb güldü:

– Qəribcana nə deyim?

Mən zarafatyana:

– Siz onun adını nə yaxşı öyrənmisiniz!

– Mən qəşəng xəstələrin adını çox tez öyrənirəm...

– Doğrudanmı?

– Doğrudan. Yoxsa qısqanırsınız?

– Qısqanmıram.

– Qəribcana deyəcəyəm ki, siz yaman qısqancsınız.

– Sizdən inciyərəm...

Cəvahir xanım təkrar bərkdən gülərək:

– Qorxmayın, – dedi. – Biz şəfqət bacıları sirr saxlayan oluruq.

– Bizim heç bir sirrimiz yoxdur.

Cəvahir xanım məzəli bir əda ilə sözləri uzadaraq cavab verdi:

– Məsəl üçün deyirəm. Bu gün baş həkim özü də gəlib sizin xəstənizi yoxladı.

– Çox sağ olun! Xahiş edirəm məndən Qəribə salam deyəsiniz.

Sonra mən qızgilin telefon nömrəsini söyləyərək xahiş etdim:

– Bəlkə, bir şey-zad lazım oldu, zəng elətdirsin.

– Bunlar hamısı baş üstə! Sonra nə qulluğunuz var?

– Qulluq sahibi olasınız.

Qız divanda uzanıb mənə qulaq asırdı. Mən telefonun dəstəyini yerinə qoyub, onun yanında əyləşdim. Sonra dedim:

– Dur gedək Dağüstü parka.

O mənə uzun bir nəzər salaraq gülümsədi. Sonra əlimdən tutaraq, özünə tərəf çəkib çənəmdən öpdü və rus dilində:

– Sən çox gözəlsən, – dedi.

– Yalan demə, sən məndən gözəlsən, – deyə mən onun qəşəng, çılpaq qoluna bir şapalaq çəkdim.

– O! – deyə o, şapalaq dəyən yeri ovuşdurdu.

Mən sıçrayıb kənara qaçdım.

– Dur... dur gedək Dağüstü parka, mənim mələyim, – mən kavaler rolu oynayaraq, yaxınlaşıb onun qolundan yapışdım.

Rayondan gələndə paltar gətirmədiyimdən, qız özününküləri göstərib:

– Hansını ürəyin istəyir, gey, – dedi.

İkimiz də qolları çiyninə qədər açıq, nazik don geyib yüngül ətir vurduq (təxminən bir boyda, bir biçimdə olduğumuzdan paltarlar mənə yaxşı gəlirdi). Həyətdə saxladığımız «QAZ-69»a baş çəkəndən sonra dəniz kənarı ilə gəzə-gəzə gəlib funikulyorla Dağüstü parka qalxdıq. Gün batıb, axşamın qara sərini düşmüşdü. Biz oleandr, akasiya ağacları arasında xeyli gəzəndən sonra yay binasında verilən estrada konsertinə getdik. Əvvəlcə parlaq qara saçları, qara bığı olan bir artist səhnəyə çıxıb, Üzeyir Hacıbəyovun məşhur «Məşədi İbad» operettasından Məşədi İbadın Rüstəm bəyin qızını görüb-bəyənməyə gəldiyi yeri oxudu. Artistin ifası ikimizin də xoşuna gəldi.

– Qara kostyumla ağ köynək, ağ qalstuk ona çox yaraşır, – deyə qız gülümsəyərək hərarətlə əl vurdu.

Sonra o zaman çox dəbdə olan gənc xanəndə qadın gəldi. Tamaşaçılar onu böyük sevinclə qarşıladılar. Qadın gülümsəyərək zalı mehriban nəzərlərlə süzdü. Sonra qədim Azərbaycan xalq mahnıla-

rından «Küçələrə su səpmişəm»i oxudu. Camaat uzun zaman əl vurdu. Xanəndə qadın bu dəfə müasir Azərbaycan bəstəkarlarının əsərlərindən oxudu. Onun səsi təravətli və cazibədar idi. Ürəkdən oxuyurdu. Lakin doğrusunu deyim ki, özü həddindən artıq kök olduğundan, mahnıları mənə o qədər güclü təsir bağışlamırdı. Mən kök qadınları sevmirəm. Mənə elə gəlir ki, onların bədənləri ilə bərabər ruhları da piylənir.

Konsertdən sonra biz yenə parkda gəzdik. Hava sərin və ətirli idi. Ətrafda çoxlu qərənfil, ətirşah əkilmişdi. Dənizin üzərində tez-tez əlvan işıqlar yanıb-sönürdü. Lap uzaqda, tamam çilçıraq içində olan bir gəmi dayanmışdı. Mən bərk acmışdım. Açıq havadakı restorana işarə ilə:

– Gəlsənə, gedək şam eləyək, – dedim.

– Nə olar, gedək!

Restoranın dənizə baxan tərəfindəki stullarda əyləşdik. Çox göyçək xidmətçi oğlan dərhal bizə yaxınlaşıb gülümsədi və menyunu qabağımıza qoyaraq, nəzakətlə dayanıb gözlədi.

Menyunu götürüb nəzərdən keçirərək, qıza uzatdım. O, menyunu kənara qoyaraq:

– Sən nə istəyirsən, mənə də ondan gətirsin, – dedi.

– Kabab necədir?

– Yaxşıdır.

Mən:

– Dörd pomidorlu kabab, təzə salat, iki şüşə də mineral su, – dedim.

– Baş üstə, – deyə oğlan yazıb götürdü.

Sonra məndən soruşdu:

– Kababı qanlı istəyirsiniz, yoxsa quru?

– Kabab qanlı, igid canlı! – deyə mən zarafatyana cavab verdim.

Oğlan gülümsəyərək:

– Bəs siz? – deyə qızdan soruşdu.

– Mənim üçün quru.

– O da baş üstə, – xidmətçi oğlan qaça-qaça getdi.

Bizim yaxınlığımızdakı stolun arxasında iki cavan oğlan oturub kababla qırmızı şərab içirdi. İkisi də son dəbdə geyinmişdi... Qabaqlarında üç boş şüşə vardı. Bizi görərkən, onlardan sarı, qıvrım saçlarını yandan ayıraraq Peçorinsayağı daramış qırmızısifət oğlan, əyilib yoldaşına nə isə pıçıldadı. Sonra ikisi də bizə baxıb gülümsədi. Biz özümüzü o yerə qoymadıq.

Oğlan bizim üçün kabab və mineral su gətirdi. Biz yeyir və dənizə baxırdıq. Sərin yel əsirdi. On üç-on dörd gecəlik Ay sanki dənizdən qalxırdı. Doğrusu, əgər qonşularımız olmasaydı, biz özümüzü çox yaxşı hiss edərdik. Lakin qırmızısifət oğlan bizə göz verib işıq

vermirdi. Biz mineral su tökdüyümüz stəkanları ağzımıza aparanda qırmızısifət oğlan da öz qədəhini yoldaşının qədəhi ilə bərkdən toqquşdurur, sonra yuxarı qaldıraraq, bizə baxıb, bir az çıxıq gözlərini süzdürüb gülümsəyir və «sağ olun» mənasında başını tərpədirdi. Biz öz aramızda danışıb-gülərkən o da gülümsəyir, gözəl qadınlar yaradan təbiətin sağlığına bərkdən tost deyirdi.

Qız üz-gözünü turşudaraq:

– Bu oğlan heç xoşuma gəlmir, – dedi, – başa düşmürəm bizi kim hesab edir.

– Fikir vermə, – dedim, – qoy cəhənnəm olsun!

Birdən qırmızısifət oğlan işarə ilə bizim xidmətçini çağırıb qulağına nə isə dedi. O bizə baxıb, bir neçə saniyə tərəddüd içində dayandı. Qırmızısifət oğlan daha nə isə pıçıldadı. Xidmətçi oğlan onlardan ayrılıb getdi və əlində bir şüşə konyakla bir boşqab konfet, geri qayıdıb bizə yaxınlaşaraq pıçıldadı:

– Bunları sizin stola göndəriblər.

Mən də eyni yavaş səslə:

– Qaytar! – deyə ona əmr etdim.

O, heç bir söz demədən dərhal qayıdıb getdi. Mən güman etdim ki, qırmızısifət oğlan bərk utanacaq, lakin o, qızarmış çıxıq gözləri ilə mənə baxıb gülümsəyərək, guya incimiş halda başını buladı. Mən qəsdən tələsmədən yeyirdim. Sonra haqq-hesab tələb edərək, cavan xidmətçinin pulunu verdim. O bizə təşəkkür edib, utancaq bir ifadə ilə üzr istədi:

– Bayaqkı konyak məsələsində məndən inciməyin, mən onlara dedim ki, yaxşı deyil... ancaq...

– Eybi yoxdur, – dedim, – sağ olun.

... Biz restorandan çıxıb xiyabanla bir az getmişdik ki, oğlanlar arxadan özlərini yetirdilər.

Qırmızısifət oğlan gülümsəyərək:

– Gözəl xanımlar, – dedi, – konyakı rədd elədiniz, heç olmazsa, sizi şəhərə qədər ötürmək şərəfinə nail olmağımıza icazə verin.

Biz cavab verməyib, yolumuza davam etdik. Lakin qırmızısifət oğlan qırsaqqız olub əl çəkmədi:

– İkiniz də incəbel... ikiniz də gözəl. İnsafdırmı ki, bu romantik gecədə... tək gəzəsiniz...

Sonra o zaman dəbdə olan bir mahnını asta-asta doğramağa başladı. O, arada mahnını kəsib bir söz atır, sonra yenə oxuyurdu. Mən qəflətən ayaq saxlayıb geri döndüm və başını Peçorinsayağı daramış oğlanın içkidən daha da pörtmüş üzünə dalbadal, tapança kimi açılan iki karlı sillə vurdum. O, gözlərini ağardaraq, bir neçə saniyə təəccüblə mənə baxdı. Sonra:

– Siz gözəl xanım yox, bəşəriyyətin xuliqan üzvüsünüz, – dedi.

Biz bir qədər aralanandan sonra mən onun bu qəribə ifadəsinə bərkdən güldüm. Qız da gülüb dedi:

– Amma vurdun ha...

Sonra biz Dağüstü parkdan düşüb sahillə gəzə-gəzə evə getdik. Şəhər isti idi. Mən bir az sərinləmək üçün pəncərənin qabağında oturdum. Küçədə gediş-gəliş azalırdı. Artırmalarda açılıb-bükülən çarpayılarda uzanmış adamlar görünürdü. Hər tərəfdə şəhər kənarına məxsus bir sakitlik var idi. Yuxarıda, Dağüstü parkda isə saysız-hesabsız işıqlar eyni təntənə ilə yanırdı. Bayaq bizim əyləşdiyimiz restoranın işıqları da aydınca seçilirdi. Yəqin ki, adamlar hələ yeyib-içməkdəydilər. Bizim küçədə isə, demək olar ki, hamı yatmışdı. Həyat həmişə qəribə ziddiyyətlərdən ibarətdir. Buldozerçi də yatağındadır... Bəlkə də, ayağı bərk ağrıyır. Başını Peçorinsayağı daramış oğlan təkrar gözlərim qarşısında canlandı. Onun bizimlə tanış olmaq üçün elədiyi gülünc hərəkətlər birdən-birə mənə yazıq göründü. «Nə üçün biz insanlar bu həyatdan bir şey qoparmaq üçün bu cür ikiüzlülük edirik... Yalançı, bayağı sözlər danışırıq... Yalandan gülümsəyirik... Yalandan tərifləyirik... Doğrudanmı, bunlarsız mümkün deyil?..» Madam ki, mən bütün bunlara nifrət edirəm, demək, mümkündür. Məgər mən öz-özlüyümdə həqiqi deyiləmmi? Məgər mənim intibahlarımla da hesablaşmaq olmazmı? Doğrudur, mən nə aliməm, nə də filosof. Lakin mən hər şeyi aydınca görüb-duymağı bacaran normal bir insanam. Mən öz hisslərimlə hesablaşmaya bilmərəm. Buna görə də mən bayaqkı qırmızısifət oğlanı sillələməkdə özümü tamamilə haqlı hesab edirəm. Saxtakarlığı, rəzilliyi, ikiüzlülüyü sillələmək lazımdır. Çünki bunlar təbiətin ahənginə ziddir. Bunlar əvvəllər yox idi. Gec-tez də olmamalıdır. Adəmin oğlanları əvvəl kin, intiqam, acgözlük kimi hisslərin nə demək olduğunu bilmirdilər. Saxtakarlığa da ehtiyacları yox idi. Bu, əfsanə də olsa, yaxşı düşünülmüşdür.

... Mən səhər gedib Qəribcan üçün meyvəylə bərabər iki ağ tor köynək, bir neçə əl yaylığı aldım. Havalar bərk isti keçirdi. Xəstəxana köynəyinə nisbətən tor köynəklər sərin olardı. Buldozerçinin isti ilə arası olmadığını bilirdim.

Görüş növbəsi gözləyirdik. Əyinlərində ağ xalat olan baş həkimlə professor Möhsünzadə otaqların birindən çıxıb yanımızdan keçdikləri zaman baş həkim məni görüb ayaq saxladı. Möhsünzadə də dayanıb bizə baxdı.

Baş həkim:

– Salam, kişi qızı, – deyə bərkdən səsləndi.

Sonra:

– Sizin oğlan yaxşılaşır, – deyə əlavə etdi.

– Çox sağ olun!..

– Professora təşəkkür eləyin, – o, Möhsünzadəni göstərdi, – ancaq professora!

– Professor bizim boynumuza elə bir haqq qoyub ki...

– Doğrudur! Tamamilə doğrudur, – deyə baş həkim təsdiq etdi.

Professor qızarıb uşaq kimi gülümsədi.

Baş həkim soruşdu:

– Usta necədir?

«Yaxşıdır. Sizə salamı var» demək istədim. Yalan satmağa üzüm gəlmədi.

– Atamgili hələ görə bilməmişəm...

– Nə üçün? – Baş həkim təəccüblə üzümə baxdı.

– Bağdadırlar. Xəstəyə başımız qarışdı...

– Xəstənin kefi doxsan doqquzdur. Get atangili gör.

On beş dəqiqədən sonra bizim görüş növbəmiz çatdı.

Qəribcan bizi görəndə dikəlib oturdu. Əllərini yanlardan yerə dirəyib qalxarkən üzünün qızarmasından yaralarının hələ ağrıdığını hiss elədim. O biri xəstələrlə də köhnə dost kimi salamlaşdım. Sonra əlimizdəki şeyləri dolabçanın üstünə qoyaraq stul çəkib oturduq.

– Yaman isti keçir, – deyə Qəribcan şikayətləndi.

– Eybi yoxdur, – dedim, – Bakının istisi xeyirlidir.

– Uşaqlardan nə xəbər var?

– Hələlik bir şey yoxdur.

– Yəqin ünvanı bilmirlər.

– Yox. Mən Adilə yazmışam.

– «QAZ-69» buradadır?

– Buradadır.

– Bəlkə siz qayıdasınız...

– Biz bir az gəzmək istəyirik. Mən Bakı sarıdan çox qəribsəmişəm..

– Siz bakılısınızmı? – deyə yaşlı xəstə soruşdu.

– Bəli!

– Qayıtsanız yaxşıdır, – deyə Qəribcan təkrar etdi. – Maşın işdə lazım olar.

– İşdə maşın çoxdur. Mən burada rəisin özündən də icazə almışam. Nə üçün sən bizi Bakıdan qovmaq istəyirsən?.. (Mən birinci dəfə ona «sən» dedim).

– Siz öz evinizə düşmüsünüz?

– Yox! Qızgilə!

Yaşlı xəstə bizim söhbətimizə çox maraqla qulaq asırdı.

– Tələsik gəldiyimiz üçün mən evin açarını götürməmişəm.

O susdu. Üzündəki qayğı və kədər məni darıxdırdı.

– Nə vaxt çıxırsan?

– Məndən olsa, bu gün.

Qız:

– Yox, – dedi, – qoyun yaranız əməlli sağalsın.

– Əlbəttə... Ancaq bura yaman isti olur.

Yaşlı xəstə əlavə etdi:

– Bakı – Bakıdır.

– Bu səhər professor dedi ki, iki gündən sonra ağacla gəzmək olar.

– Xəstəxananın yaxşı bağçası var.

– Bircə tez sağalaq, gedək, – deyə yaşlı xəstə cavab verdi. – Bağçasını-zadını istəmirik.

Qərib soruşdu:

– Bütün günü neyləyirsiniz?

– Gəzirik, – dedim, – istirahət edirik. Dünən axşam Dağüstü parka getmişdik.

Birdən qız gülərək əli ilə ağzını tutdu. Mən də güldüm.

– Nə olub? Deyəsən, sizdə bir iş var...

– Heç bir şey.

– Yenə...

– Mən bir oğlana bir-ikisini çəkmişəm... – deyə ancaq onun eşidəcəyi yavaş səslə cavab verdim.

– Nə üstə?

– Zəhləmizi aparırdı, söz atırdı.

– Nə cür çəkdin? – Qərib birdən-birə mənə «sən» deyə müraciət edərək, maraqla soruşdu.

– Yaxşı qırmızı sifəti var idi. İki sillə tutuzdurdum.

– Dağüstü park sərin olur.

Mən gətirdiyim əl yaylıqlarından birini çıxarıb ona verərək:

– Üzünü sil, – dedim, – tərləmisən.

O, yaylığı alıb alnını, boynunu sildi:

– Dünyada bu tərləməkdən də dilxorçu şey yoxdur.

Yaşlı xəstə:

– Elə demə, oğlum, bu dünyada mənasız şey yoxdur. Tərləmək də lazımdır.

– Elədir, – deyə mən təsdiq etdim.

Sonra qalxıb ayrıca kağız torbada gətirdiyim gilas və gilənarı digər üç xəstənin arasında böldüm.

– Lazım deyil. Nə zəhmət çəkirsiniz... – deyə cavan xəstə etiraz etdi.

– Zəhməti yoxdur! Burada yenə var.

– Çox sağ ol, qızım!

– Papiros çəkəniniz var?.. – deyə yaşlı xəstədən soruşdum.

– Qriqori İvanoviç çəkir.

Mən Qəribcan üçün aldığım «Kazbek»dən üç qutu götürüb ona verdim.

– O, spasibo, – Qriqori İvanoviç gülümsədi və bir papiros çıxarıb ağzına qoyaraq yandırdı. – Siz haradan bildiniz ki, bizim papirosumuz qurtarıb?

– O, sehrkardır, hər şeyi bilir... – deyə Qəribcan da papiros çıxarıb yandırdı.

– Təəssüf ki, – yavaş səslə cavab verdim, – mən çox şeyi bilirəm... Ancaq bilməsəydim, yaxşı olardı.

Onun üzü dərhal ciddi ifadə aldı.

Biz qalxdıq.

– Nə tələsirsiniz... – deyə yaşlı xəstə mənə baxdı.

– On dəqiqəliyə icazə almışıq... Oturduğumuz iyirmi dəqiqədən artıqdır. Sağ olun!

– Siz də sağ olun!

Biz palatadan çıxdıq. Evə gələndə qonşu mənə balaca bir məktub verdi. Adil yazırdı:

«Mən bu səhər gəlmişəm. Saat üçə qədər evdə olacağam».

Qızla nə vaxt görüşəcəyimizi şərtləşəndən sonra «QAZ-69»a əyləşib öz evimizə getdim. Maşını həyətdə qoyub yuxarı çıxdım. Əvvəl dediyim kimi, biz təzə tikilmiş binalardan birində olurduq. Öz qapımıza çatıb dayananda mənə anlaşılmaz soyuq bir hiss hakim oldu və səbəbsiz halda hirsləndim. Mən yuxarı mərtəbədən enən yaşlı qadının salamına qaşqabaqla cavab verib düyməni basdım. İçəridə yavaş ayaq səsləri eşidildi. Sonra qapı üsulluca açıldı.

Mən içəri daxil olub eyni soyuq ifadə ilə:

– Salam, Adil, – dedim, – nə vaxt gəlmisən?

– Bu səhər. Sənə yazmışdım ki...

– Hə, yazmışdın.

Mən hansı bir ağır duyğunun təsiri iləsə otaqda heç nəyə nəzər salmırdım. Divanda əyləşib saçlarımı darayır və pəncərədən görünən Dağüstü parka baxırdım. Lakin mən Adilin necə həyəcanla var-gəl elədiyini görürdüm. O, birdən bufetin qabağında ayaq saxlayıb, kəskin hərəkətlə mənə sarı döndü. Mən də nəzərlərimi Dağüstü parkdan çəkib ona baxdım. O, görünür, qəzəbini zorla boğmağa çalışaraq:

– Bu nə işlərdir sən mənim başıma gətirirsən? – dedi.

– Mən onun ayağının kəsilməsinə razı ola bilməzdim, Adil!

– Cəhənnəm olsun onun ayağı da... sən də!

Mən düz onun gözlərinin içinə baxıb, cavab vermədim.

– Nə üçün onu yoldaşlarından biri gətirmirdi, sən gətirirdin?

– Mən də onun yoldaşlarından biri deyiləm?

– Sən, hər şeydən əvvəl, ərli qadınsan! Mən sənin ərinəm! Sən, heç olmazsa, məndən icazə almalı idin!

– Sən yox idin, dedilər axşam qayıdacaqsan.

– Niyə gözləmirdin?

– Gec olardı. Qanqren çox sürətlə artırdı.

– Bəs nə üçün ölmədi?

– Həkimlər və mən qoymadıq.

– Sən əclafların əclafı imişsən.

– Bu sözlər mənasızdır. Adil, mən səni sevmirəm.

O, yemək stolunun üstündəki büllur vazanı qapıb var gücü ilə başıma tolazladı. Əgər başımı bir an gec qaçırsaydım, şübhəsiz, işim bitmişdi. Vaza divara dəyib çilikləndi. Mən qalxıb ona tərəf bir-iki addım ataraq dayandım.

– Bunlar hamısı nahaqdır, Adil! Mən heç bir zaman səni qəhrəman hesab eləməmişəm. «QAZ-69» aşağıdadır. Bu ev-eşikdən isə, öz əyin paltarımdan başqa heç nə istəmirəm.

Sonra tələsmədən yataq otağına keçərək şifoneri açıb paltarlarımı vaxtilə evimizdən gətirdiyim böyük çamadana yığmağa başladım. Mən Adilin divanda oturub iki əli ilə başını tutduğunu güzgüdə görürdüm. Bu paltarları mənə Adil almışdı. Lakin bunların əvəzində mən evimizdən gətirdiyim şeyləri götürmürdüm.

Çamadanı və qış paltomu götürüb təkrar yemək otağına keçdim.

– Hələlik, Adil!

O, başını qaldırıb əvvəl mənə, sonra çamadana, sonra yenə də mənə baxdı. Onun gözlərində birdən-birə yaranan qorxmuş, mülayim ifadə məndə ikrah hissi doğurdu.

– Yaxşı, çamadanı yerə qoy. Lazım olsa, sonra gedərsən.

– Yox, Adil, elə indi getmək lazımdır.

– Sən məni camaat içində, təşkilatlar qarşısında biabır elədin! Mən sənə nə eləmişdim?

– Mən səni biabır edəcək heç bir pis iş görməmişəm, Adil!

O, acı-acı gülümsədi.

– Hələ bir danışırsan da...

– Görünür, mən sənin tələb etdiyin kimi hərəkət eləyə bilmirəm. Heç bir zaman da eləyə bilməyəcəm.

– Sən mənə öz xoşunla gəlmişdin... Səni heç kəs məcbur eləməmişdi.

– Doğrudur!

– Sən, hətta özünü elə göstərirdin ki, guya... guya məni sevirsən də...

– Mən özümü elə göstərmirdim, Adil! Mən, doğrudan da, elə güman edirdim.

– Bəs sonra nə oldu? – deyə məzlum bir ifadə ilə soruşdu.

Mən ona uzun və kəskin bir nəzər salaraq:

– Sonra nə olduğunu bilmirəm, Adil! Ancaq mən səni daha istəmirəm.

– Mən sənə nifrət eləməliyəm.

– Ola bilər.

– Sənin bədbəxtliyin orasındadır ki, gələcəyini görə bilmirsən.

– Bizdən hər birimiz gələcəyi ayrı cür görürük. Mən hiss edirəm ki, biz heç bir zaman gələcəyə eyni gözlə baxa bilməyəcəyik.

Bir qədər susaraq əlavə etdim:

– Gələcək isə həyat deməkdir. Ona görə də biz ayrılmalıyıq. Sağ ol!

Mən çamadanı götürüb qapıdan çıxdım.

QƏRİBCAN

Mən Səriyyənin gətirdiyi tor köynəklərdən birini geyərkən özümdə qeyri-adi bir fərəh hiss elədim. Səriyyə bizim iş yoldaşımızdır. Bizim briqadanın üzvüdür. O, ayağımı kəsilməyə qoymayaraq, məni götürüb Bakıya qaçdığı kimi, burada mənə lazım olan şeyləri də alıb gətirə bilərdi. Burada təəccüblü heç nə yox idi. Bununla bərabər, tor köynəyi geyərkən mən özümdə qeyri-adi bir fərəh hiss elədim. Elə bil ki, mənə fövqəladə səadət üz vermişdi. Elə bil ki, mən daha xoşbəxt bir dünyaya qədəm qoymuşdum. Tor köynəyin təması məndə tamam yeni bir duyğunun yaranmasına səbəb olurdu.

Mən xəstə yoldaşlarımla gülür, zarafat edir, tez-tez yaralı ayağıma toxunaraq, ağrıyıb-ağrımamasını bilmək istəyirdim.

Bir dəfə Zoğallı körpüdə, Səriyyə öz paltarları ilə bərabər bizim də əl yaylıqlarımızı yumuşdu. Bir dəfə də mənim köynəyimin düyməsini tikmişdi. Sonra bir dəfə də həmin köynəyi özü yuyub ütüləmişdi. Lakin o zaman bütün bunlar məni kədərləndirmişdi. Məndə anlaşılmaz bir ümidsizlik doğurmuşdu. Mən yaylıqlarımı, köynəklərimi gecələr xəlvətcə özüm yuyub qurudurdum. Mən Səriyyənin onlara toxunmasını istəmirdim. Çünki onun yuyub ütülədiyi köynəyi geymək məni çox qüssələndirirdi. O köynəyin içində mən özümü həyatda hər şeyi itirmiş adamlar kimi bədbəxt hiss edirdim. Mənim ona da, özümə də acığım tuturdu.

İndisə onun tor köynəyi məni oxşayırdı. Məni fərəhləndirirdi. Mənə təravətli, xoş bir sərinlik verirdi. Məni mehriban, üzügülər edirdi. Mən onun içində, ayağımın tez sağalmasını, həyata, Zoğallı körpüyə tez qayıtmağımı istəyirdim. Mən, biz dörd yoldaşın – Soltanın, Kərəmxanın, Qəribcanın və Səriyyənin adlarının yazılıb Zoğallı körpünün bünövrəsinə qoyulmuş o kağızı yüz dəfə, min dəfə xatırlayırdım. Biz dörd yoldaşın tikdiyi o balaca körpü gündə yüz dəfə gözlərim qarşısında canlanırdı. O zaman yoldaşlarım o körpünü «bizim körpəmiz» adlandıranda mənim acığım tuturdu. «Körpəmiz» sözü məni əsəbiləşdirirdi. İndisə bu sözdən acığım gəlmir. «Körpəmiz» sözünü dilimə gətirmək istəmirdimsə də, acığım da tutmurdu.

Biz xəstələr söhbətdən yorulduğumuz zaman mən gözlərimi yumub Zoğallı körpü haqqında düşünürdüm və onun hissələri tamam

bir aydınlıqla xəyalımdan gəlib-keçirdi. Sonra mən körpü texniki Səriyyənin göstərişlərini bütün detallarına qədər xatırlayırdım. Onun təcrübəsizlikdən elədiyi səhvləri, məsələn, Soltanın necə zarafatyana düzəltdiyini, Səriyyənin heç də pərt olmayaraq, onun sözlərini təsdiq etdiyini və belə hallarda yalnız mənim təbəssümümdən dilxor olduğunu yadıma salıb gülümsəyirdim. Bir dəfə çadırların qabağından keçirdim... (Mən onların çadırlarının yanından yalnız ikicə dəfə keçmişdim). Səriyyə qapıda oturub kitab oxuyurdu. Yanında qələm-kağız da var idi. Mən cildindən kitabı tanıdım. Bu, Azərbaycan mühəndislərindən birinin körpü salmaq haqqında tədris kitabı idi.

Səriyyə başını qaldırıb məni gördü və dərhal kitabı örtüb adının görünməməsi üçün əllərini üstünə qoydu. Mən gülümsəyərək keçdim. Həmin gün iş üstündə o məni məzəmmət edərək:

– Bayaq niyə gülürdünüz? – dedi. – Öyrənmək eyib deyil. Mən unutduğum şeyləri yadıma salmaq istəyirdim.

Mən təkrar gülümsəyərək, cavab vermədim və bu onu daha da acıqlandırdı.

– Keçmə bu oğlanın dişini ağartmağından... – deyib, məndən uzaqlaşdı.

Belə hallar çox olurdu və mən indi xəstəxanada, bu istidə onları xatırlamaqdan dərin bir zövq duyurdum. Onun bütün zarafatları, mənə sataşmaları, incitmələri yadımdaydı. Tor köynəklərlə yaylıqları gətirəndən sonra o, iki gün nə gəldi, nə də zəng etdi. Mən bərk darıxmağa başladım. Mən həyatımda heç bir zaman bu qədər darıxmamışdım. Üçüncü gün o gəldi. Qız yanında yox idi. Bizim üçün meyvə və papiros gətirmişdi. Rəngi azca qaçmışdı.

– Nə olub, – dedim, – xəstə-zad deyilsən ki?..

– Yox. Mən heç vaxt xəstələnməmişəm. Bu haradan ağlına gəldi?!

– Elə-belə. Maşın hələ də buradadır?

– Yox, apardılar.

– Kim apardı?

– Mən aparıb Adilə verdim.

– Bəyəm sən rayona getmişdin?

– Yox, Adil özü bura gəlmişdi.

Biz xeyli susduq.

– Adil getdi?

– Bilmirəm.

– Necə yəni bilmirəm?

– Mən maşını aparıb öz evimizdə qoyub qayıtmışam. Daha ondan sonra Adili görməmişəm.

O bu sözləri, gözləri mənim çarpayımın qabağındakı tumboçkada olduğu halda, yavaş səslə dedi. Sonra başını qaldırıb pəncərədən bayıra baxdı. Mən papiros yandırdım. Sükut.

– Yaran necədir? – deyə o, üzünü pəncərədən döndərib, eyni yavaş səslə məndən soruşdu.

– Yaxşıdır! Professor bu gündən ağacla gəzməyə icazə verib. Ancaq mən elə-belə, ağacsız da gəzə bilərəm.

– Bəs niyə zəng eləmirdin?

– Telefon nömrəsini bilmirdim.

– Mən qızgilin telefonunu Cəvahir xanıma vermişdim.

– Mənə deməyib. Yəqin yadından çıxıb. Desəydi, zəng edərdim.

– Nə vaxt çıxırsan?

– Üç-dörd gündən sonra. Bəlkə sən tez getmək istəyirsən?

O, «yox» mənasında başını buladı.

– Onda bir yerdə gedərik.

O, nəzərlərini endirib cavab vermədi.

Xəstələr nə hiss etmişdilərsə, bizə tərəf baxmırdılar. Rus qəzet oxuyurdu. Cavan mühəndis bu şəhər nişanlısının gətirdiyi rəngli jurnala baxırdı. Yaşlı xəstə isə gözlərini pəncərədən görünən şəhərə zilləyib papiros çəkirdi.

– Görəsən, Zoğallıda nə var-nə yox? – deyə mən zarafatyana soruşdum.

– Xəbərim yoxdur.

O, təkrar pəncərədən bayıra baxdı. Sükut.

– Bizim çadırın yanından axan bulaq indi burada olaydı...

– Susamısan?

– Yox, elə-belə deyirəm. Təbiətin də qəribə işləri var. Bir yeri o cür sərin, səfalı, soyuq bulaqlı yaradır... bir yeri də bu cür...

O mənə baxaraq, birdən gülümsədi:

– Nə yaxşı natiq olmusan... Zoğallı körpüdə danışmağa ağzından kirə istəyirdin...

– Hər zamanın bir hökmü var. Deyəsən, indi də sən danışmaq istəmirsən...

O, göz qapaqlarını endirərək cavab vermədi.

Mən dedim:

– Professor icazə versəydi, sabah çıxardım.

– Lazım deyil! Nə vaxt deyib, o vaxt da çıxarsan.

Mən papirosumdan dərin bir qullab alaraq ona baxdım. O, üzünü pəncərəyə tərəf döndərdi.

– Bu gün çox istidir. Axşam çıxın Dağüstü parka.

– İstəmirəm!

– Qızgilin evi sərin olur?

O, «yox» mənasında başını buladı.

– Bəs niyə parka çıxmaq istəmirsən?

– Sonra o günkü qırmızısifət oğlanla yenə vuruşmalı olarıq... – deyə o gülümsədi.

– Nə olar, lazım gələr, vuruşarsınız...

O, stolun üstündəki boş badamlı şüşələrinə işarə ilə soruşdu:
– Bunları kim gətirib?
– Xidmətçi qadından xahiş eləmişəm, o alıb gətirib.
– Burada soyuducu var?
– Var.
– Sizin istifadə eləməyinizə icazə verirlər?
– Verirlər.
Səriyyə gedəndən üç-dörd saat sonra günün lap isti vaxtında xidmətçi qadın beşlitrlik böyük bir termos gətirib:
– Bunu sizin üçün göndəriblər, – dedi.
Mən bərk susadığım üçün dərhal termosu açdım. İçəridən pıqqıltı ilə qaz çıxdı. Buz kimi soyuq mədən suyundan dalbadal iki stəkan töküb içdim. Sonra xidmətçi qadından xahiş etdim ki, sudan xəstə yoldaşlarıma da versin.
Qriqori İvanoviç dolu stəkanı başına çəkib yerə qoyandan sonra gülümsəyib dedi:
– Ona umnisa...
Mən özümü bilməməzliyə vuraraq rusca zarafatyana soruşdum:
– Kimi deyirsiniz?
– Bu suyu kim göndərib?
– Bilmirəm.
– Yox, bilmirsən...
– Bir stəkan da için.
Yaşlı xəstə ilə gənc mühəndis də hərəsi bir stəkan içdilər. Bizim heç birimizin hərarəti yox idi. Lakin hava çox isti keçdiyindən, suyu suya yetirmirdik.
Xidmətçi qadın termosun ağzını bağlayıb stolun üstünə qoydu. Sonra mənə müraciətlə:
– Səriyyə xanım tapşırdı ki, termos boşalanda göndərəsiniz qalsın növbətçinin yanında. Özü gəlib, aparıb dolduracaq.
Səhər həkim gəlib-gedəndən sonra mən qalxıb axsaya-axsaya arakəsməyə çıxdım və qızgilin nömrəsinə zəng elədim. Dəstəyi dərhal Səriyyə götürdü.
– Deyəsən, sən elə zəng gözləyirmişsən? – deyib, onunla üzbəüz danışırammış kimi gülümsədim.
– Qərib... – deyə o, həyəcanla səslənib susdu.
Mən də susdum. Mən onu görürdüm... O, birinci dəfə idi ki, mənim əsl adımı bu cür ciddi və həyəcanla söyləyirdi.
Mən onu görürdüm. Nəhayət, o, sakit və yavaş səslə soruşdu:
– Ayağın necədir?
– İstəyirsən lap «Tərəkəmə» oynayım.
O, telefonda güldü.
– Nə yaxşı zarafatcıl olmusan...
– Dünən Dağüstü parka getdiniz?

– Dedim ki, getməyəcəyik.
– Qız necədir?
– Salamı var. Termosu növbətçinin yanına göndərdin?
– Yox.
– Nə üçün?
– Əziyyət olar... Bu istidə bizə su daşımayacaqsan ki...
– Termosu göndər növbətçinin yanına! Eşitdin?
– Eşitdim... Qaçmaq istəyirəm. Bura yaman isti olur.
– Onsuz da üç gündən sonra özləri səni buraxacaqlar.
– Nə bildin?
– Professor Möhsünzadə dedi.
– Professoru harada gördün?
– Axşam evinə zəng eləmişdim.
– Demək, hələ üç gündən sonra...
– Çoxdur?
– Çoxdur.
– İsti səni nə yaman karıxdırıb...
Mən cavab vermədim.
– Nə üçün dinmirsən?
– ...
– Allo, Qərib...
– Eşidirəm.
– Ayağının nömrəsi neçədir?
– Neyləyirsən?
– Bəs xəstəxanadan çıxanda nə geyəcəksən? Ayaqqabının bir tayı yadımızdan çıxıb rayonda qalıb.
– Doğrudan da...
– Neçədir nömrən?
– Qırx iki. Məsdən-zaddan ucuz bir şey olsun...
– Onsuz da bahasını almağa pulum çatmaz...
– Pul bir az məndə də var.
– Lazım olanda deyərəm. Qız soruşur ki, sənin üçün nə bişirib gətirək?
– Heç nə. Çox sağ olun!
– Bilirsən, qızın da mənim kimi təşəkkürdən acığı gəlir.
– Burada bizə hər şey verirlər.
– Bunu bir dəfə demisən. Bilirik. Dovğa istəyirsən?
– İstəyirəm!
Qız nə isə dedi. Səriyyə telefonda güldü.
– Ancaq Bakı dovğası olacaq ha...
– Eybi yoxdur. Bir az göyərti də tökərsiniz, olar əla.
Səriyyə mənim sözlərimi qız üçün təkrar etdi.
Gülüşdülər.
– Hələlik. Sağ olun!

– Niyə tələsirsən?
– Burada danışmaq üçün gözləyən var.
– Yaxşı, hələlik.

Mən dəstəyi yerinə asandan sonra xəstəxana mənə birdən-birə həbsxana kimi cansıxıcı və dözülməz göründü. Mən telefondan uzaqlaşıb aynabənddə qoyulmuş palma ağacının altında oturdum. Palmanın dibinə yenicə su tökülmüş olduğundan, torpaq hələ yaş idi. Ağacın başı qalxıb tavana dəyirdi. Ona görə də qəddi azca əyilmişdi. Yarpaqlar iri, yamyaşıl və təravətli idi. Elə bil ki, onlar gümrah nəzərlərlə ətraflarına baxır, bura haradan gəlib düşdüklərinə təəccüb edirdilər. Mən Zoğallı körpünü və yoldaşlarımı xatırladım. Mən onları görmək üçün özümdə şiddətli bir arzu hiss edirdim. Mən nə Zoğallı körpünü, nə Soltanla Kərəmxanı, nə də son tufanı Səriyyəsiz təsəvvür edə bilmirdim. Mən salmaqda olduğumuz o balaca körpü və onun yanından axan soyuq bulaq haqqında düşünərkən, eynilə kinofilmlərdə olduğu kimi, ön planda Səriyyəni görürdüm. Sonra körpünün bünövrəsinə qoyulmuş o balaca kağız parçasını xatırladım. O zaman mən zarafatla Səriyyəyə demişdim ki, siz daha bizdən ayrıla bilməyəcəksiniz. Biz bu kağızı bünövrəyə qoymaqla sizi tilsimə saldıq...

Ancaq mən bu ana qədər hisslərimi çox bacarıqla cilovlamışam. Mənim özünü öyənlərdən, özündən bədgüman olanlardan zəhləm gedir. Mən belə adamları yarımçıq və hətta vicdansız hesab edirəm (çünki vicdanla xudpəsəndlik heç bir zaman qaynayıb-qarışa bilməz). Mən, daxilimdəki «mən»in şiddətli hücumuna mətanətlə tab gətirdiyim üçün özümdən, öz vicdanımdan razı idim. Mən öz gözümdə ucalırdım. Mənim əzablarım tez-tez ən yüksək nöqtəyə çatırdı. Lakin mən davam gətirirdim. Bu əzablar isə Səriyyəni lap birinci dəfə gördüyüm vaxtdan başlamışdı. O, ərli qadın idi. Mənim isə heç zaman ərli qadınlarla işim olmamışdır. Mən həmişə «nə çoxdur dünyada gözəl qadınlar, qızlar! Qoy ərlilər cəhənnəm olsun!» demişdim. Mən Səriyyəni görəndən sonra da bu sözləri yüz dəfə, min dəfə öz-özümə təkrar etmişəm. Ona kobud cavablar vermişəm. Onun ucbatından gecələr yuxusuz qaldığım halda, gündüzlər görəndə qaşqabağımı töküb uzaqlaşmışam. Onun ərinə qarşı soyuq olması (mən bunu hiss edirdim) məni əsəbiləşdirirdi. Halbuki mənim bu hörmətli rəis oğlanı görməyə gözüm yox idi. Mən öz-özümə Səriyyəni məzəmmət edərək hirslə: «Siz qadınlar, – deyirdim, – çox nankor vücudsunuz. Adilin nəyi pisdir?» Bəzən mənə elə gəlirdi ki, Adili Səriyyədən böyük məmnuniyyətlə müdafiə edərdim... Mən ağrının şiddətindən ən yaxın adamına belə acığı tutan yaralı vəziyyətində idim. Bir dəfə tennis oynadığımız zaman o, mənə sataşaraq, bərkdən güldü və bu zaman o qədər gözəl, o qədər cazibədar göründü ki, mən onu döyməkdən özümü güclə saxladım. Bir an mənə elə gəldi ki, çılpaq qolları günəşdən yanıb qaralmış bu kəsik saçlı qız (mən heç vaxt onu qadın kimi təsəvvür edə bilmirdim) mənim taleyimlə oynayır. Nəinki mənim, hətta Adilin də. «Gəl, Adil, dostum, gəl bir çarə tapaq, bu oğlan xasiyyətli qızdan yaxamızı qurtaraq». Mənim o dəqiqələrdəki duyğularımın mənası beləydi.

Sonra o, mənim köynəyimi və əl yaylığımı yudu, ütüləyib gətirdi...

Mən xeyli vaxt nə köynəyi geydim, nə də yaylığı işlətdim (sonra ancaq o görsün deyə bircə dəfə həmin köynəyi geydim, iki-üç saatdan sonra çıxarıb çamadanımda gizlətdim). Mən Səriyyəyə kin bəslədiyim halda, onun yuyub-ütülədiyi bu köynəklə yaylığı yadigar saxlayırdım və hər dəfə çadıra girəndə, onların çamadanda olduğunu xatırlayıb kədərlənirdim. (Yadigar həmişə kədər doğurur). Mən düşünürdüm ki, vaxt gələcək, mənə ancaq bir köynəklə yaylıq qalacaq... O isə, kim bilir, haralarda olacaq...

Mən onların Zoğallıya gəldikləri günə lənətlər yağdırırdım. Mən onu hər gün bizim yanımızda qoyub getdiyi üçün Adilin qarasına qəzəblənirdim. Mən acığımdan on günlərlə üzümü təraş etmirdim. Heç kəslə kəlmə kəsib danışmaq istəmirdim. Mən, eyni zamanda, özünü dartmasına, bizə yuxarıdan-aşağı baxmasına görə yol rəisi Adilə nifrət edirdim. Mənə elə gəlirdi ki, o, qalstukunu bağlayanda da öz rəisliyi barədə düşünür və belə bir adama ərə getdiyi üçün Səriyyəyə daha çox acıqlanırdım. Mən nəyi isə əzmək, vurub-dağıtmaq istəyirdim. Beləliklə, mənim mənəvi aləmim bir qarma-qarışıqlıqdan ibarət idi...

Bütün bunlara baxmayaraq, mən öz daxilimdəki «mən»in, gecə səhərə qədər Səriyyə haqqında düşünüb əzab çəkən «mən»in «hakimiyyət başına» keçməsinə qarşı mərdanəliklə vuruşurdum və hər dəfə də ona qalib gəlirdim.

«Madam ki, sən öz xoşuna Adilin arvadı olmusan, madam ki, indi də onunla bir çadırda yaşayırsan, mənim sənin lə işim yoxdur!» – deyə ürəyimdə Səriyyəyə xitabən qəzəblə danışırdım (guya ki, Səriyyə bu barədə mənə bir söz-zad demişdi!) «Mən başqasının haqqına əl uzadanlardan deyiləm. Ona görə yox ki, mən müqəddəs adamam, yaxud Adilin halına yanıram, ona görə ki, mən başqasının xoşbəxtliyində gözü olanlara nifrət edirəm. Mən bunu acizlik, qorxaqlıq, rəzillik sanıram. Başqasının payı nə qədər cəzbedici olsa da, mənə lazım deyil».

Mən Adilin həyat yoldaşı haqqında düşünməmək üçün əlimdən nə gəlirdisə, eləmişdim. Dünən isə Səriyyə öz əri haqqında çox qəribə danışırdı... Doğrudanmı, ayrılıblar?..

... Üç gündən sonra mən Səriyyənin gətirdiyi ayaqqabıları və köynəyi geyərək, xəstəxanadan çıxdım və biz qızgilə getdik. Ayağım tamam sağalmışdısa da, azca axsayırdım. Professor bunun da tezliklə sovuşacağını söylədi.

Qızgildə əvvəl özümü çox pis hiss elədim. Səriyyənin öz evlərində deyil, burada qalması, əri ilə münasibəti və mənim onun yaşadığı bu otağa gəlməyim mənə ağır, kədərli təsir bağışlayırdı. Mən öz səadətimin arxasında çiskinli payız havası kimi qüssəli bir şey duyurdum. Elə bil, kim isə qarşımızda dayanaraq, məzəmmət, töhmət dolu nəzərlərini mənə zilləmişdi. Adil, mənim onu xoşlayıb-xoşlamamağımdan asılı olmayaraq, gənc, bacarıqlı, işgüzar bir oğlan idi...

Lakin insanda elə duyğular var ki, onlara başqasının müdaxilə etməsi, «nə üçün belə edirsən, filan cür etmirsən?» kimi moizə oxuması çox zəhlətökən bir işdir. Ona görə də mən Səriyyədən əri barədə heç nə soruşmurdum. Mən öz səadətimdə nəyin isə çatmadığını hiss edərək susurdum.

Bir az əvvəl biz bu otağa daxil olanda, deyəsən, o da özünü yaxşı hiss eləmirdi. Lakin üzündəki gərgin ifadə tezliklə keçib getdi. O deyib-gülür, zarafat edirdi.

Birdən o, diqqətlə mənə baxaraq:

– Nə olub? – dedi. – Xəstəxanadan çıxan kimi yenə də qaşqabağını tökmüsən.

Mən sanki ağır yuxudan ayılaraq, dərindən nəfəs alıb gülümsədim:

– Heç nə olmayıb... nə olacaq ki...

– Bəlkə bizim məclisimiz səni darıxdırır?

– Yox...

– Yəqin?

– Yəqin.

– Onda qaşqabağını tökmə.

– Ayaqqabı ilə köynəyə neçə vermisən?

– Üç yüz əlli manat.

Mən cibimdə olan beş yüz manatı çıxarıb, üç yüz əllisini ona uzatdım.

– Sonra verərsən.

– Lazım olsa, istəyərəm. Götür, səndə qalsın.

O, pulları alıb rediküluna qoydu və onun bu hərəkəti mənə xoş təsir bağışladı. Eyni hiss məndə, biz ayının pulunu saxlamaq üçün ona verdiyimiz zamanda da yaranmışdı. Qız mətbəxdə olduğundan, biz otaqda tək idik. Biz bir-birimizin üzünə baxmadan susurduq. «Kaş biz bir-birimizə sənin subay vaxtlarında rast gələydik, – deyə ürəyimdə ona xitab edirdim. – Bəlkə də o zaman mən özümü bu cür hiss etməzdim». Mən həm xoşbəxt, həm məyus idim. Deyəcək sözüm yox idi. Onsuz da hər şey aydın idi. Mənim Adildən xoşum gəlmirdi. Zoğallı körpüdə ona rast gəlməməyə çalışırdım. Mən bilirdim ki, o, arvadını çox istəyir... O vaxt bu məndə ona qarşı kin və qəzəb doğurdu. İndi isə mən ona acıyırdım. Mən özümü başqasının yuvasına soxulub, ləzzət çəkən canavar kimi hiss edirdim. Canavar isə yırtıcıların ən namərdidir!

Mən daha özümü saxlaya bilməyib soruşdum:

– Adil buradadır, yoxsa gedib?

– Bilmirəm.

– Necə yəni bilmirəm?

– Nə üçün belə əsəbi soruşursan?

– Deyirsən, bilmirəm...

– Bilmirəm, çünki bir neçə gündür ki, ayrılmışıq.

– Nə üçün? (Mən bu sualın bir az əvvəlki düşüncələrimə zidd olduğunu bilirdim. Lakin bununla bərabər, soruşmamağı bacarmadım). Yoxsa sənin məni bura gətirməyinə acığı tutub?

– Acığı tutub, ancaq bizim ayrılmağımızın səbəbi təkcə bu deyil.

– Bəs nədir?

O, başını qaldırıb sərt nəzərlə mənə baxdı.

– Bu ancaq Adillə mənə aid olduğu üçün sən bilməsən də olar.

– Doğrudur!

– Nə vaxt gedirik?

– Hara?

– Necə hara? Zoğallı körpüyə.

– Sən yenə də ora getmək istəyirsən?

– Əlbəttə, istəyirəm... Yoxsa sənin sözlərin yadından çıxıb?..

– Hansı sözlərim?

– O vaxt Soltan bizim adlarımızı yazıb körpünün bünövrəsinə qoyanda, sən mənə dedin ki, daha bizdən ayrıla bilməyəcəksən. Bu kağızla biz səni tilsimə saldıq.

– Yadımdadır. Ancaq sən nahaq yerə mənim zarafatımı indi təkrar edirsən.

– Nə üçün?

– ...

O mənə uzun bir nəzər salaraq, birdən-birə dəyişilən mülayim səslə:

– Sən, – dedi. – Heç bir şeydə təqsirkar deyilsən, Qərib.

– Mən təqsirkar olmaqdan qorxmuram...

– Bilirəm. Ancaq təqsirkar deyilsən.

– Əgər sənin burada bir işin yoxdursa, sabah gedək.

– Gedək. Heç bir işim yoxdur.

Mən qalxdım.

– Qız da gedəcək?

– Əlbəttə!

– Onda səhər gedib avtobusa üç bilet götürərəm.

– Yaxşı. Nə üçün oturmursan?

– Mehmanxanaya gedirəm. Səhər zəng elərəm.

Onun üzü birdən sarkı soldu. Pilləkənin başında mən dayanıb təkrar ona baxdım.

– Hələlik!

O susurdu. O, heç bir zaman mənə bu qədər solğun və gücsüz görünməmişdi.

– Hələlik, – deyə mən təkrar edib, onun əlindən tutdum.

Onun əli gözəl və oğlan əli kimi möhkəm idi.

Birdən o biri əli ilə üzünü tutub ağladı.

Mən susurdum.

O isə ağlayırdı. O, əli mənim əlimdə olduğu halda ağlayırdı.

– Gedək içəri.

Lakin o, əlini mənim əlimdən çəkib altdan-yuxarı üzümə baxaraq:

– Yaxşı, Qərib, – dedi, – get. Səhər zəng elərsən.

– Yox, getmirəm, – dedim və onun qolundan tutaraq içəri apardım.

Mən çox həyəcanlı idim. Mən onunla əlaqədar hər cür fədakarlığa hazır idim. İndi bu dəqiqələrdə deyil, çoxdan hazır idim!

Səhəri gün tezdən biz üçümüz də avtobusla «K» rayonuna yola düşdük.

Axşam gün batanda ora çatıb, gecəni qızgildə qaldıq. Səhər isə Səriyyə ilə mən taksiyə oturub Zoğallı körpüyə getdik.

Bakı, 1960.

XAN QIZI GÜLSƏNUBƏRLƏ TARZƏN SADIQCANIN NAĞILI

Üçüncü yay gecəsi idi ki, şəhərin sakitliyi içində Xan qızı Gülsənubər tarda çalınan o muğamı eşidirdi. Və üçüncü yay gecəsi idi ki, Xan qızı Gülsənubərin yuxusu göyə çəkilmişdi. O tarçalan oğlanın gözlərindəki qəribə ifadə ilə çaldığı muğamın söylədiyi hekayət arasında ayrılmaz bir bənzərlik var idi. O hekayətin nədən ibarət olduğunu qız dərk eləyə bilmirdi. Lakin hiss edirdi ki, bu, nə isə, uzaqlarda və uzaq zamanlarda olub getmiş bir hekayət idi. Bəs, onda nə üçün o əhvalatı indi tarında hekayə edərkən oğlanın baxışları bu qədər pərişan, bu qədər əlacsız olurdu? Qız onu da hiss edirdi ki, muğamın danışdığı o əhvalatda nəhayətsiz bir kədər, bəlkə də, dünyada heç kəsin duya bilmədiyi bir nisgil var. Və indi bu cavan tarzən o pərişan, o nisgilli əhvalatı çaldığı muğamın gücü ilə hamıya nəql etmək istəyirdi. O qəmli əhvalatın sirri, yəqin ki, bu oğlana aydın idi. Yoxsa böyük Allahın onun gözlərinə bəxş etdiyi işıq muğamı çalmağa başladığı zaman birdən-birə bu qədər gözəl, bu qədər cazibədar, bu qədər dərin görünə bilməzdi.

Güllərin, çiçəklərin ətriylə dolu bu aylı gecənin nəhayətsizliyi harada, hansı yalçın qayalıqda isə qurtarırdı. Lakin cavan tarzənin gözlərindəki o işıqlı, anlaşılmaz dünya, muğamı çaldıqca, həm dərinləşir, həm də əsrarəngiz və qavranılmaz olurdu... Və qız, bütün bu düşündüklərinin, hiss etdiklərinin boş bir xəyal olduğuna özünü nə qədər inandırmaq istəyirdisə, ürəyini o aləmdən qoparıb, o cavan tarzəni özündən uzaqlaşdıra bilmirdi...

Özü kimi gənc və gözəl bir qız olan freylina Fatimə xanım qapını açıb içəri girəndə onu açıq pəncərənin qabağında oturub, aydınlıq içində olan bağçaya tamaşa eləyən gördü. Bağça ağ, qırmızı, çəhrayı güllər ilə, sənubər gülünün ətriylə dolu idi. Bağçada bülbüllər bir-birinə aman vermədən hey oxuyurdular. Əsli Kürdüstandan olan məşhur Bağdad bəyin qızı gənc Fatimə xanım Xan qızı Gülsənubərə freylina olmaqdan savayı, həm də onun yaxın dostu və sirdaşı idi.

Fatimə Xan qızına baxıb:

– Xanım, – dedi, – gecdir, deyəsən, quşların haray-həşiri səni yatmağa qoymur... Həkimlər sənə deyib ki, həmişə vaxtında yatmaq lazımdır.

– Yata bilmirəm, Fatimə... O tarzəni görəndən bəri yuxum ərşə çəkilib, özümə gələ bilmirəm.

– Onu unut, xanım! Siz hara, tarzən hara... Nə olsun, çox gözəldir?!

– Unuda bilmirəm onu... o tayda, o mənə baxanda, nə üçünsə diksindim. Elə bil, nədənsə, duruxdum. Elə bil, tilsimə düşmüşəm...

Sonra Xan qızı zarafatyana əlavə etdi:

– Gözlərinin tilsiminə...

Lakin bu zarafat dərhal onun gözəl çöhrəsində, nə isə anlaşılmaz, həyəcanlı bir ifadəyə çevrildi.

Xan qızı soruşdu:

– Deyəsən, o evlidir?

– Bəli, iki qəşəng oğlu var...

– Nə tez evlənib? Deyirdin, iyirmi beş yaşı var... Böyük uşağı neçə yaşındadır?

– Böyüyü dörd, kiçiyi iki yaşında. Yaman çox istəyir oğlanlarını.

– Arvadı gözəldir?

– Demək olmaz ki, gözəldir... Ancaq yaraşıqlı gəlindir. Ucaboy, əsmər bənizli, qaraqaş-qaragöz... İnsafən, özü də çox qabiliyyətli, ağayana gəlindir...

– Yaxşı... Yaxşı... Az təriflə, göz deyər, – deyə Xan qızı freylinanın sözünü kəsdi və eyni anda da özünün belə qısqanclığı özünə həqarət kimi göründü.

Xan qızı Gülsənubərin on səkkiz yaşı var idi. Evdə dərs deyən müəllimlər vasitəsilə qız fars və fransız dillərini öyrənmişdi. Atası, rus mayoru Lisaneviçin on yeddi baş ailəsi ilə gülləbaran etdiyi İbrahim xanın qohumu idi. Xan çarizmə dərin kin bəslədiyi üçün uşaqlarının rus dilini də öyrənmələrinə əhəmiyyət verməmişdi.

Gülsənubər bir tərəfdən Firdovsinin, Hafizin, doğma Füzulinin, bir tərəfdən də Bayronun və Viktor Hüqonun əsərlərini oxuya-oxuya böyümüşdü. Allah ona, məhz sənubər gülü kimi həssaslıq vermişdi. Şuşa qalasının dağlarında, onun igidlərinin məşhur Cıdır düzündə, Xəzinə qayasının uçurumlarında çoxlu kəklikotu, yabanı nanə bitər, bağçalarda tabaq boyda iri qızılgüllər açardı. Qalanın havası bu otların, güllərin, çiçəklərin ətri ilə dolu olardı. Və elə bil ki, Xan qızı Gülsənubərin zərif, həssas gözəlliyi ilə bu ətirli dünya bir yaranmışdı. Elə bil ki, o rayihəli gözəlliklər bir-birini tamamlayırdı.

Hər bahar Şuşa qalasının Cıdır düzündə, «Ərimgəldi» deyilən yerdə axşamlar daş-qaş içində, zər-xara libaslarda gəzməyə çıxan qız-gəlinin gözəllikləri, Cıdır düzündə cıdıra çıxan cavan igidlərin mindikləri qaragöz atların mərdanə yürüşü orda-burda oxunan muğam təsniflərində tərənnüm olunurdu... Və elə bil ki, bütün bunlar gənc qız Gülsənubərin həssas qəlbində, özünün də dərk etmədiyi, fərqinə varmadığı səssiz, sözsüz mahnılara hay verirdi...

Ata-anasının ərköyün qızı olan Gülsənubər, ayları-illəri qayğısız, eyni zamanda, fərqinə varmadığı şirin həyəcanlarla yola salaraq və sanki bilmədiyi nəyi isə gözləyərək böyüyürdü... Avropasayağı geyinərək, açıq-azadə gəzir, kişilərdən yaşmanmırdı. Və heç kəs də bunu ona ayıb tutmurdu. Hamıya elə gəlirdi ki, bu gözəl Xan qızı elə belə də olmalıdır.

* * *

Tarzən Sadıqcan lap ilk çağlardan qızın ona qarşı biganə olmadığını hiss etmişdi. Lakin, əlbəttə, bu qədər gözəl Xan qızı adi bir tarzənlə bu qədər açıq maraqlanmışdısa, onun gənc izzət-nəfsini oxşamışdısa da, oğlan buna o qədər əhəmiyyət verməmişdi. O, çox gözəl qızların, gəlinlərin onunla maraqlandıqlarını, ona qarşı biganə olmadıqlarını görmüşdü. Xarici gözəlliyi və bütün dinləyiciləri valeh edən çalmaq qabiliyyəti onda özünə qarşı xudpəsənd bir inam yaratmışdı. Digər tərəfdən də, o, artıq «evli kişi» idi. Hörmətli bir kişi olan atası altı il qabaq onu evləndirmişdi. Bu izdivac əhvalatı çox sadə olmuşdu. Özü kimi hörmətli dostunun qızı atasının çox xoşuna gəldiyindən bir gün arvadına dedi:

– Hacının qızı çox xoşuma gəlir... Onu Sadıqcana almaq istəyirəm, ağlın nə kəsir?

Arvadı dedi:

– Sən məndən çox yaşayacaqsan. Neçə vaxtdır mən özüm sənə demək istəyirdim. Hacının qızı, Allah saxlasın, çox qabiliyyətli, mərifətli uşaqdır. Sadıq razılıq versəydi, Hacı ilə qohum olmaq mənim də ürəyimdən olardı. Qız həm də yaraşıqlıdır.

Kişi dedi:

– Biz razı olandan sonra, o, nə deyəcək?!

– Yox, ay kişi, sən deyən zaman deyil... Əyyam dəyişib. İndi oğlanlar-qızlar bir-birini yaxından görüb, sevib evlənmək istəyirlər. Özü də ki, ola Sadıqcan kimi gözəl oğlan... Qızlar onun dərdindən ölür.

Kişi dilxor oldu:

– Sən Allah, şit-şit danışma. Nə gözəl oğlanbazlıqdır... Deynən, sənətini yaxşı bilən, ağlı başında oğlandır, vəssalam.

Bir qədər susub, sonra əlavə etdi:

– Sən Sadıqcanın özü ilə danış. Deynən, mənim də məsləhətim belədir.

Və ana oğlu ilə danışdı.

– Ay bala, – dedi, – şükür Allaha, tay vaxtdı. Yaşın iyirmiyə çatır. Ev-eşik, oğul-uşaq sahibi olmaq vaxtındır. Atayın da fikri belədir...

Sadıqcan soruşdu:

– Atam nə deyir? Kimlərlə qohum olmaq istəyir?

Sadıqcan bilirdi ki, onu evləndirmək üçün atasının gözaltısı olmasa, anası belə deməz.

Ana da oğlunun bu sualının mənasını başa düşərək dedi:

– Atan dostu Hacı ilə qohum olmaq istəyir. Qızından çox xoşu gəlir. İstəyir elçi getsin. Sənin cavabını gözləyir. Qızı toylarda görmüsən... Yaraşıqlı, qabiliyyətli cuvanəzəndi. Evlərinə gedəndə göz

qoymuşam. Hacının arvadı həddindən artıq kökdür, cəld tərpənən deyil. O gözəl xalılar döşənmiş otaqların o çiçək kimi tər-təmizliyi, səliqəsi var, qızın öhdəsindədir. Özü də savadlıdır. Neçə il evdə, mollalardan fars-türk dilində dərs alıbdı.

Bir qədər sükutdan sonra ana soruşdu:

– Nə deyirsən? Atana nə deyim?

Oğlan dedi:

– Atam necə bilir, elə də eləsin...

Atası bütün şəhər əhlinin hörmət elədiyi mötəbər bir kişi olduğu kimi, Sadıqcanın özünün də dünyada ən çox hörmət eylədiyi insan idi. Hələ indiyə qədər bir sözünü iki eləməmişdi. Onun yanında heç saçını daramamış, papiros çəkməmişdi. Heç bir zaman ondan gec yuxudan qalxmamışdı.

Atasının dostu, qızın atası Hacıya da Sadıqcanın böyük hörməti var idi. Qızı da toylarda, Cıdır düzündə, Ərimgəldidə qız-gəlin arasında görmüş və onun özünə qarşı bir hərəkəti nəzərindən qaçmamışdı. Bunun bir gizlini yox idi ki, onu görən, onunla qarşılaşan qızlar yaraşığı, gözəlliyi və misilsiz çalğısı qarşısında sanki özlərini itirirdilər. Ərəb qızlarına oxşayan o ucaboy, şirin, əsmər bənizli qız isə onun yanından elə keçirdi ki, elə bil, bu heç qızları dəli eyləyən Sadıqcan deyil. Qız gözünün ucuyla da ona nəzər salmırdı. Bu hal o qızı oğlanın gözündə maraqlı edirdi, böyüdürdü. Bütün bunlara görə də, Sadıqcanla o qız indiki qızlar-oğlanlar kimi bir-birilə görüşüb-gəzmədən, bir-biri ilə yaxından tanış olmadan evləndilər. Qalada o zamanın yüksək dəbiylə toyları oldu.

Atalar da, analar da onların ər-arvadlıq həyatından çox razı qalıb, övladlarının belə uğurlu izdivacı üçün böyük Allaha min təşəkkür elədilər.

* * *

İndi budur, altı ildir ki, onlar söz-söhbətsiz, dava-dalaşsız, əqli-səlimlə mehriban yaşayıb, iki gözəl oğlanlarını böyüdürlər.

Hacılar da, dizə qədər qarla örtülü olan uzun qış gecələrində bir-birinə qonaq gedib «Şahnamə»dən, Sədinin macəralı həyatından, qadınların günahlarını öyrənib yazma cəhdindən söhbətlər edirdilər. Və bütün bu aləm Xan qızı Gülsənubərdən uzaq idi. Bu həyatın daxili aləmi ona məlum deyildi, onun üçün yox idi. O, hətta tarzənin körpə balaları barədə də düşünmürdü. Sanki bütün bunların onun məhəbbətinə dəxli yox idi. O da qəribə idi ki, əgər ona desəydilər ki, sən tarzənə aşiq olmusan, qız buna təəccüb edərdi. Çünki o, tarzənə o qədər aludə olmuşdu ki, ona o qədər vurulmuşdu ki, bunu ifadə üçün təkcə «eşq», «məhəbbət» sözləri kifayət eləməzdi.

Tarzənin bütün varlığı, gözəlliyi, çaldığı muğamlarla birləşərək qızı uzaq, anlaşılmaz hisslərlə dolu aləmə aparanda, qız nəhayətsiz bir şirinliklə hey onun gözlərinə tamaşa etmək və bu gözəllik içində yuxuya getmək istəyirdi. Şirin... əbədi yuxuya... O, muğamın hər nidasında, hər çırpıntısında özünü uzaq və məchul bir aləmdə görüb hiss edirdi. Bəzən «Min bir gecə» nağıllarında təsvir edilən tilsimli bir qalaçada oturub, ondan ayrı düşmüş sevgilisinin hicranını çəkir, bəzən qupquru bir səhrada Məcnun kimi gəzib sevgilisini axtarır, bəzən dünyanın gözəl gülləri, çiçəklərilə dolu əsrarəngiz bir bağçada dolaşaraq, ondan ayrı düşmüş sevgilisinin həsrətilə göz yaşı tökürdü... Lakin heç bir zaman o da Məcnun kimi sevgilisinə çata bilmirdi... Və nəhayət, muğam qurtarır və qız təzədən real həyata qayıdaraq, nə olursa-olsun, o, tarzəni görməyə can atırdı.

Və o, freylinası Fatiməyə dedi:

– Məni o tarzənlə tanış elə. Deyirsən, atası əminlə dostdur, özünüz də qonşusunuz.

Fatimə dedi:

– Yaxşı, xanım, tutaq ki, mən sizi tanış elədim, sonra?

– Sonrasına baxarıq.

Fatimə ciddi ifadə ilə:

– Xanım, – dedi, – sən o oğlana o qədər bağlanmısan ki, mən sizi tanış eləməyə qorxuram.

Gülsənubər zarafata saldı:

– Qorxma, bizim aramızda heç bir şey ola bilməz, mən haqq aşiqiyəm, o mənə toxunsa, od tutub yanar.

Sonra freylinanı onları tanış etməyə razı salmaq üçün əlavə elədi:

– Ürəyinə başqa şey gəlməsin. Mən Xan qızıyam! Çox təsirli çaldığı üçün onunla tanış olmaq istəyirəm.

Və onlar axşamçağı Fatimə xanımgilin küçəyə baxan eyvanlarında oturub çay içdikləri zaman, gəlib öz darvazalarına dönən tarzəni görəndə, Fatimə bərkdən dedi:

– Sadıq qağa, buyur çaya qonağımız ol, Gülsənubər xanım da səninlə tanış olmaq istəyir.

Sadıqcan bir an ayaq saxlayıb, tərəddüd etdi. O, Gülsənubərin Xan qızı olduğunu bilirdi. Yalnız buna görə yox, ümumiyyətlə, gənc dinləyicilərin sözünü yerə salmamağı adət etmişdi. Bu dəfə də Fatimə xanımgilin həyətinə daxil olub pilləkənləri qalxdı və qonaq otağından keçib qızlar əyləşən eyvana çıxdı. Və ayağa qalxaraq onu qarşılayan qızlar oturandan sonra özü də əyləşdi. Görünür, Gülsənubər, doğrudan da, Allahın vəhy elədiyi haqq aşiqi idi. Ürəyi elə çırpınırdı ki, qız özünü ələ ala bilmirdi. Fatimə rəfiqəsinin qəfil ağarmış çöhrəsindən keçirdiyi həyəcanı hiss edərək tarzənə dedi:

– Sadıq qağa, Gülsənubər xanım sənin çalmağının vurğunudur.

Tarzən sakit, hörmətkar ifadə ilə dedi:

– Minnətdaram. Allah Xan qızını xoşbəxt eləsin.

Elə bil ki, tarzənin bu sözləri Gülsənubərin əsəblərini birdən-birə sakitləşdirdi və o öz-özünə təəccüblə fikirləşdi: «Cavan oğlan mənə qoca kişilər kimi təşəkkür edir».

Və qız indi tamam sakit ifadə ilə tarzənə dedi:

– Sizin çalmağınız çox xoşuma gəlir.

Oğlan cavab verdi:

– Ömrünüz uzun olsun, xanım. Sizin kimi nəcib insanlara xoş gəlmək biz tarzənlər üçün xoşbəxtlikdir.

Gülsənubər bu dəfə özünü saxlaya bilməyib gülümsəyərək zarafatyana dedi:

– Sizlər qoca kişilər kimi təşəkkür edirsiniz...

Tarzən də eyni təbəssümlə dedi:

– Sizə nisbətən, əlbəttə, qocayam, xanım. Bu gün-sabah oğlanlarımın gələcək xeyir işləri haqqında düşünməli olacağam.

Xan qızı dedi:

– Nə qayğıkeş atasınız.

Tarzən dedi:

– Atalar üçün onlardan başqa nə var ki?!

Fatimə balaca stəkanda gətirdiyi çayı tarzənin qabağına qoyaraq dedi:

– O barədə Sadıq qağama heç kəs çatmaz. Oğlanları atalarını görəndə quş kimi hərəsi bir çiyninə qonur.

Gülsənubər qəribə bir daxili gərginliklə Sadıqcana dedi:

– Yəni siz bu çalmağınızın təsirinə qarşı bu qədər biganəsiniz? Axı hər gecə mən şəhər yatandan sonra Cıdır düzündə təkcə çaldığınız muğamları eşidirəm...

Sadıqcan dedi:

– Gecənin elə gec vaxtı sizin mənim çaldığım muğamları eşitməniz mənim üçün, həqiqətən, xoşbəxtlikdir, xanım. Təşəkkür edirəm.

Gülsənubər eyni gərginliklə dedi:

– Təşəkkür lazım deyil. Mən özüm üçün qulaq asıram. Ancaq nə üçün siz elə gecələrdə eyzən tək çalırsız? Axı siz həmişə Hacı Hüsünü müşayiət edirsiniz...

Sadıqcan dedi:

– Hacı Hüsü o qədər gözəl oxuyandır ki, xanım, mən onu müşayiət eyləyəndə avazına o qədər aludə oluram ki, elə bil, özüm də onun səsinin bu avazıyla, bu nisgiliylə birləşib hey uzaqlara, anlaşılmaz, naməlum aləmlərə gedirəm...

Tarzən birdən-birə bikef halda susdu. Xəyalı o aləmlərəmi getdi? Sonra çox mülayim və bir az da məlum ifadə ilə əlavə etdi:

– Bilirsiniz, xanım, arada mən özümlə tək qalıb ancaq öz çalğımı dinləmək istəyirəm ki, görüm muğamın hekayə elədiyi sözsüz əhvalat nə üçün getdikcə bu qədər dərinləşir, xanım, bu qədər dərinlik ki var, harada qurtarır? Mən bunu dərk etmək istəyirəm! Hacı Hüsü Füzulinin qəzəllərinin dili ilə ürəyini boşaldır. Amma mən çaldıqca nə qədər dərinə gedirəmsə, Allahın bizə vəhy elədiyi bu dərin iztirabların dilini başa düşə bilmirəm. Onun nəhayətinə çatmaq istəyirəm. Eh! Xanım, görünür, insan iztirabının sonu yoxdur. Biz üzüqara bəndə bu sonu heç bir zaman görməyəcəyik. Başa düşmürəm, nə üçün böyük Allahın vəhyi, bizə bəxş etdiyi istedad bizi, biz sənətkarları insan iztirabını, insan hicranını, nisgilini daima daha dərindən, daha təsirli ifadə eləməyə sövq edir. Biz heç bir zaman özümüzdən razı qalmırıq...

Bu cavan, bu yaraşıqlı oğlanın belə bir dildə danışması, belə sözlər deməsi, elə bil ki, bu gənc xanımları birdən-birə bir sehrə salmışdı. Handan-hana Fatimə səsini çıxartdı:

– Qağa, sən, məsələn, «Mirzə Hüseyn segahı»nı çalanda, bəyəm, görmürsən ki, adamlar necə yerlərində quruyub qalırlar?

Tarzən dedi:

– Görürəm, o çəpikləri də eşidirəm, xanım... Amma...

– Nə amma? – deyə, Gülsənubər, nəhayət ki, sehr aləmindən çıxıb hövsələsiz soruşdu.

– Amma, xanım, mənə elə gəlir ki, adamlar uşaq kimi aldanırlar. Mənim öz ürəyimi soyutmayan musiqi başqasını necə mütəəssir eyləyə bilər?

– Siz bizi, öz dinləyicilərinizi təhqir edirsiniz, cənab tarzən, – deyə Xan qızı məzəmmətlə ona baxdı. – Bizə məlumdur ki, neçə vaxtdır siz tarın üzərində işləyib onu daha da mükəmməlləşdirmək istəyirsiniz. Zənnimcə, buna da müvəffəq olmusunuz. Məsələn, indiyəcən tarı diz üstə qoyub çalırdılar, amma sizin kəşfinizdən sonra tar sinəyə qalxdı. Demək, siz onu yerdən qaldırıb ürəyinizə... qəlbinizə daha da yaxınlaşdırmısınız... Onun da insafı olsa, gərək sizdən heç bir sirrini gizləməsin. İndi gərək o sizin hökmünüzdə olsun.

Fatimə:

– Məncə, heç bir tarzən tara Sadıqcan qağa qədər hakim deyil.

Sadıqcan:

– Yox, elə deməyin, ustad tarzənlərimiz çoxdur...

Və sonra Gülsənubər xanıma müraciətlə səmimi etirafla cavab verdi:

– Xeyr, xanım, mən özüm-özümü təhqir olunmuş sanıram. Mənə elə gəlir ki, bizim ifamızda, nə isə bir saxtalıq var ki, sadədil adamlara bu qədər xoş gəlir.

– Görürsünüzmü? Demək, biz sadə adamlar, ancaq «saxta» gözəlliyə malik işləri sevirik?

Tarzən dedi:

– Bağışlayın, xanım. Bəlkə, «saxta» sözü sərt çıxdı. Mən «ürəyin dərinliklərindən gələn» demək istəyirdim. Məsələn, mənə elə gəlir ki, heç bir muğam məni təmin edəcək dərəcədə ürəyimin dərinliklərindən gəlmir. Bilirsiniz, xanım, hər dəfə muğam çalmağı məndə, məsələn, sizə qəribə görünə bilən fikirlər oyadır.

Qız maraqla soruşdu:

– Məsələn, nə cür fikirlər?

– Məsələn, mənə elə gəlir ki, bütün canlılar kimi, cansızların da ruhu var, xanım. Onlar da nə isə hiss edirlər. Onların daxili fəaliyyəti də idarə olunur, nizama salınır. Məsələn, torpaq öz-özlüyündə cansız bir şeydir. Ancaq necə olur ki, öz-özünə o boyda meşələr, bağlar yetirir? Niyə çiçəklərin hamısı bir rəngdə olmur? Niyə quşların, heyvanların erkəkləri dişilərindən gözəl olur?

Fatimə dedi:

– Doğrudan da, qəşənglikdə xoruz hara, toyuq hara.

– Mənə elə gəlir ki, – deyə tarzən davam etdi, – milyon illərdən bəri yaşayıb gələn cansız cisimlərdə də vaxtilə onlarla uğraşan, məşğul olan insanların xatirələri, iztirabları, sevinçləri yaşayır. Ona görə də, mən tarın üzərində bu qədər çalışıram ki, bu cansız görünən simlər şahidi olduqları insan iztirablarını daha dərindən ifadə eyləyə bilsinlər... O aləm yenidən canlansın!

Gülsənubər soruşdu:

– O aləm sizin özünüzə məlumdurmu?

Tarzən dedi:

– Mən o aləmi hiss edirəm. Mən ərz elədim ki, muğamın avazındakı nisgil, pərişanlıq, bəzən mehribanlıq, mərdanəlik atəşində sonsuzluq hiss edirəm. Ona görə də, imkanım olduqca, tək özümə çalıram ki, görüm, mən o aləmi nə dərəcədə ifadə edirəm? Nəhayət, onun axırına çata bilərəmmi?

Fatimə təəccüblə dedi:

– Qağa, vallah, mən başa düşə bilmirəm ki, sən nə istəyirsən? Çaldığın hər muğam bizə o qədər təsir etdiyi halda, nə üçün özünə əzab verirsən ki, guya sən onun dərinliklərinə girə bilmirsən?

Gülsənubər sanki öz-özü ilə danışırmış kimi yavaş səslə dedi:

– Görünür, Sadıqcan çaldığı muğamın hekayə elədiyi əhvalatı olduğu kimi ifadə etdiyindən razı qalsaydı, onda Sadıqcan olmazdı.

Qız bu sözləri sanki bir teht içində dedi. Sanki tarzənin zahiri gözəlliyi, onun bu müəmmalı daxili aləmi ilə birləşərək qızı eləcə sehrləmişdi. Qız özündə bu oğlana qarşı şiddətli bir istək hiss edirdi və eyni zamanda da bu hiss onu ürküdürdü. Əlbəttə, Xan qızı Gülsənubər on səkkiz yaşında başqa yaraşıqlı, aristokrat oğlanları üzdən çox görmüşdü, lakin onların heç biri onun əqli-səlimini bu qədər alt-üst eləməmişdi. Onların heç biri onu bu qəribə bir maqnit qüvvəsi

ilə özünə tərəf çəkməmişdi. Qıza elə gəlirdi ki, o bu saat, nə isə ağılsız bir hərəkət edər, səfeh bir söz danışa bilər və o, Fatimədə dedi:

– Gedək, gecdir.

Və onlar qalxıb çıxanda anlaşılmaz bir ürək çırpıntısı ilə tarzənə dedi:

– Sağ olun!

Lakin oğlanla əl tutuşmağa cəsarət eləmədi. Elə bil, nədənsə, qorxub çəkindi.

* * *

Onlar axşam olub çıraqlar yananda Xan qızıgilin imarətinə daxil oldular. Gülsənubər öz otağına çəkilib Fatimə ilə də heç nə danışmadan qapını örtdü. O, tək qalmaq, o oğlan haqqında düşünmək istəyirdi. Əslində Xan qızının o tarzən barədə düşünməli, aydın olmayan bir fikri yox idi. Lakin bununla belə, o, özünü oğlandan qoparmaq, onun haqqında düşünməmək iqtidarında deyildi.

Qız oğlanın evli olması, uşaqları barədə düşünmürdü. Sanki onların varlığı heç yadına da düşmürdü.

Qəribə bir halsızlıq içində, şam eləmədən yuxu onu tirmə divan üstündə aparmışdı. Və gecənin bir aləmi qız diksinərək yenə də Cıdır düzündə tarda çalınan o muğamı eşitdi. Və eşitdikcə, sanki muğamın min cürə iztirab ifadə eləyən nidaları o oğlanın mükəddər üzü ilə birləşərək, qızı da özü ilə birlikdə, hara isə uzaqlara, anlaşılmaz nisgilli uzaqlara aparırdı. Və qız artıq heç nə düşünmədən qalxıb ipək örtüklü miz arxasına keçərək ona belə bir məktub yazdı:

«Əzizimiz Salıqcan! Sənin əsil adın Sadıq olduğu halda, elə bil ki, xalq bu adı məhz mənə görə, «Sadıqcan» deyə çağırır. Elə bil ki, Sadıq mənim öz canım olub... Mən sənin aləminə o qədər giriftar olmuşam ki, özümü səndən, bir anlığa də olsa, ayrı bir can, ayrı bir ruh kimi təsəvvür eləyə bilmirəm. Öz-özümdən soruşuram:

«Bu nədir? Sevgidirmi? Məhəbbətdirmi? Məcnun eşqidir, nədir?» Ey Allah, – deyirəm, – mən Xan atamın yeganə qızıyam! Məni xilas elə, məni o oğlanın tilsimindən xilas elə!

Mən özümü tilsimə düşmüş kimi hiss edirəm. İndi bu sətirləri qorxudan titrəyə-titrəyə yazıram. Mən səni insanların fövqündə dayanmış gözəllik, nəciblik timsalı, alicənab, anlaşılmaz bir məxluq kimi hiss edirəm. Mən dəli-zad deyiləm. Bəlkə sən yenidən zühur etmiş həzrət Yusifsən? Mən səni təklikdə görmək istəyirəm. Ancaq cəsarət etmirəm. Rica edirəm, bu məktubu oxuyub mənə bir söz de. Bəlkə mən dəli olmuşam? Bəlkə gecənin bir aləmində Cıdır düzündə tək oturub çaldığın muğamlar məni sehrləyib? Bilmirəm, heç nə bilmirəm!»

Xan qızı daha ayrı bir söz yazmayaraq, əynində çərkəz çuxa, belində gümüşqəbzəli balaca xəncər, ayaqlarında uzunboğaz çəkmə

olan on beş yaşlı saray buyruqçusu Cəmili çağırıb, məktubu ona verərək dedi:

– Bu kağızı aparıb xəlvətcə tarzən Sadıqcana verərsən. Ancaq heç kəs görməsin, ağzından bir kəlmə söz qaçırsan, öldürərəm.

Saray pajı Cəmil cavan xanımın axırıncı hədəsindən inciməyərək, şən bir əhvalla məktubu alıb götürüldü.

Sonra qız biləyində ləl-cəvahirlə işlənmiş bilərzik, barmaqlarında brilyant üzüklər olan gözəl əllərini göyə qaldıraraq:

– Ey böyük Allah, ey hər sirrimizə vaqif olan, Ərhəmərrahimin Allahımız! Əgər günah edirəmsə, məni bağışla! Mənə kömək et! – deyə pıçıldadı.

* * *

Cəmil tarzəni güdüb, o, evlərinin darvazasına təkcə yaxınlaşanda, yüyürək qabağını kəsib, ipək zərfdə olan məktubu ona verərək, özündən bu sözləri də əlavə etdi:

– Bax, bu barədə ağzından bir kəlmə söz çıxmasın!

Sadıqcan ani təəccüblə məktubu alıb, nə isə demək istədi. Lakin Cəmil döngəni burulub gözdən itdi. Sadıqcan məktuba ani bir nəzər salaraq, cibinə qoyub darvazanı açaraq, həyətə daxil oldu. Səhər-səhər yuxudan yenicə qalxıb, tabaq boyda açılmış qızılgüllərin arasında oynayan oğlanları səs-küylə yüyürüb gənc atalarının dizini qucaqladılar. Sadıqcan ikiyaşlı balaca oğlunu qucağına alaraq balkona çıxdı. Cibindəki məktubun nə barədə olacağını təxmin edirdi. Başqa qızlardan belə məktublar almışdı. Ona görə otaqlarında açmadı. Ona görə yox ki, arvadı soruşa bilərdi ki, «nə məktubdur?» Ona görə ki, yad qadının eşq məktubunu arvad-uşağın yanında oxumağı özünə rəva bilmədi. Səhər yeməyindən sonra dincəlmək üçün külafirəngiyə qalxıb divanın üstündə uzanaraq, zərfi açdı (yəqin ki, Xan qızı Gülsənubər tarzənin onun məktubunu belə qarşıladığını bilsəydi, çox sarsılardı).

Və məktubu sakit halda oxudu. Sonra bir əlini gözünün üstünə qoyub, eyni sakitliklə xəyala getdi. Əlbəttə, Gülsənubər onunla tanış olmaq istəyən başqa qızların tayı deyildi.

Kor Şeytan tarzənin ürəyinə girib dedi:

– Düzdü, Gülsənubər hara, o qızlar hara?! Gülsənubər Şuşa qalasında tək gözəldir. Avropa təhsili görmüş, şah sarayına layiq qızdır! Sənin arvadın isə bozbaş bişirən sadəlövh qadındır...

Söz bura çatanda tarzən sanki diksindi. Kor Şeytanı qovmaq üçün arvadının səhər onun naharı üçün gətirdiyi Turşsudan bir stəkan içdi. Sonra məktubu zərfi ilə birlikdə didik-didik eləyib, Üçmıx dağından əsib gələn yelə verdi və kəklikotu, yabanı nanə ətrilə dolu yel də onu – Gülsənubərin bu ilk məhəbbətini – bağçada açılmış tabaq boyda qızılgüllərin, mavi yasəmən çiçəklərinin üstünə səpələdi. Və günorta tarzən külafirəngidən düşüb evə çıxaraq, arvadı və balaca uşaqlarıyla birlikdə Allahın verdiyindən nahar elədi.

* * *

İkinci gün idi ki, Gülsənubərin məktubuna cavab gəlmirdi. Və qız bir yerdə qərar tutub dayana bilmirdi. Otaqları, bağçanı bir-birinə vurub, qərarsız gəzib-dolaşır, heç kəslə, hətta istəkli freylina Fatimə ilə də bir kəlmə kəsib danışmırdı. Tarzənə məktub göndərdiyini də Fatiməyə demirdi. İki gecəydi ki, Cıdır düzündən tarzənin tarının səsi də gəlmirdi. Bu isə qızı lap dəli edirdi. Üçüncü gecənin bir aləmi Cıdır düzündə tarzənin çalmağa başladığı muğamın ilk nidaları eşidiləndə, qız qeyri-iradi hövlnak bir hərəkətlə qulaqlarını qapadı və bir neçə saniyə bu cür dayandı və bu bir neçə saniyə ona bir əbədiyyət qədər uzun göründü. Sonra qulaqlarını açaraq, gecə paltarında yarıqaranlıq bağçaya düşdü və güllərin arasına qoyulmuş kətilin üstündə oturub dinləməyə başladı. İndi qıza elə gəlirdi ki, bu muğamı çalan tamam yad bir adamdır və bu yad adam onun zavala gəlmiş nakam məhəbbətinin, nakam qəlbinin iztiablarını bu qədər nisgillə hekayə edir, ona bu qədər dərindən acıyır...

Və qız səhərə yaxın qeyri-şüuri, tələsik paltarını dəyişib, saray əhlindən gizlin bağçanın Cıdır düzünə tərəf açılan qapısından çıxaraq, sərt qayaların arasıyla qıvrıla-qıvrıla yuxarı qalxan dar cığırla Cıdır düzünə doğru getməyə başladı. Yaxındakı fənərlər sönmüşdü. Şuşa qalası ulduzlarla dolu, ləkəsiz, nəhayətsiz göyün altında şirin yuxuda idi. O, heç nə görmürdü. Elə bil ki, bu qaranlıq, dolama cıdırlarla onu tarzənin çaldığı o muğamların nidaları, fəryadları çəkib aparırdı.

* * *

Tarzən birdən başını qaldırıb ulduzların işığında onu görəndə, çalğını saxlayıb, həyəcanla ayağa qalxdı. Musiqinin kəsilməsilə sanki qız da birdən-birə özünə gələrək, yerində dayandı. Və elə bil ki, bütün vücuduna qəfil, yeni bir həyat qüvvəsi daxil oldu və məhz bu neçə saniyədə o, xalq arasında igidliyilə məşhur olan Xan atasının qızı olduğunu xatırladı və sərt, amiranə bir səslə qışqırdı:

– Çal!..

Və bu dəfə qız tarzənə «siz» deyə yox, «sən» deyə müraciət etdi. Lakin tarzən, sanki yerində quruyub qalaraq, çalmadı. O zaman Xan qızı, bu dəfə cəsarətlə ona yaxınlaşaraq, eyni amiranə səslə soruşdu:

– Nə üçün mənim məktubuma cavab vermədin? Yəni sənin nəzərində mən o qədər mənasız bir vücudam?

Tarzən durduğu yerdə dayanmış halda dilə gəlib:

– Allah eləməsin, xanım! – dedi. – Mən adi bir tarzən, nə haqla sizin barənizdə o cür düşünə bilərəm.

Elə bil, tarzənin bu nəzakətli mülayimliyi qızın ixtiyarını yenidən əlindən aldı. Və o, taqətsiz halda yaxındakı qaya parçasının üstündə əyləşərək, öz-özü ilə danışırmış kimi, pıçıltıyla soruşdu:

– Mənim məktubum sənin ürəyinə zərrə qədər də təsir eləmədi?

– Xanım! – deyə tarzən bir addım irəli atdı. – Sizin sözləriniz mənim üçün Allah vəhyi qədər əziz və müqəddəsdir. Ancaq mən sizin gözəlliyinizə, hisslərinizə, açılmamış buta olan Gülsənubərə layiq olmayan, evli-uşaqlı bir kişi olduğum halda, sizin məktubunuza nə cavab verə bilərdim? Buna mənim nə haqqım var idi? Mən belə hörmətsizliyə necə cəsarət edə bilərdim? Yox, xanım, bu, mümkün deyildi!

Qız birdən-birə, sanki canlanaraq, aydın bir əhvalla soruşdu:

– Əgər evli olmasaydın, məni sevə bilərdin?

Tarzən dedi:

– Xanım, əgər mən subay oğlan olsaydım, yeddi canım olsaydı, yeddisini də sizin yolunuzda qurban verməyə hazır olardım! Mən bu sözləri sizi sakit eləmək üçün demirəm. Siz o qədər gözəl, o qədər təmiz, o qədər günahsız bir məxluqsunuz ki, mən «uf» demədən bunu edərdim. Ancaq nə etməli ki, mənim bir canım var, onu da o iki körpə oğluma, onların sadə, köməksiz analarına vermişəm. Mən öz ixtiyarımda deyiləm!

Qəribədir, tarzənin bu səmimi ürək sözləri qızın əldən getmiş ixtiyarını, həyat qüvvəsini yenidən onun özünə qaytardı. Və o təəccüblü bir açıq-saçıqlıqla dedi:

– Mən atamın təkcə övladıyam. Atamın bütün ləl-cəvahiri mənə qalıb. Gəl, biz onların yarısını qoyaq sənin gənc arvadının-uşaqlarının yanında, qalanını özümüzlə götürək, hansı ölkəyə istəyirsən, gedək. Elə bir ölkəyə ki, bizi tapa bilməsinlər.

Tarzən bir neçə saniyə susaraq, uzaq baxışlarla qıza baxdı. Həqiqətən də, müqəddəs hesab elədiyi qızdan bu dərəcədə amansız sözlər eşitməyi onu bərk sarsıtmışdı.

– Xanım, – dedi, – neçə il bundan qabaq, mən subay olduğum zaman bizi İran şahının sarayına, böyük bir toyu aparmağa dəvət etmişdilər. Toy qurtarandan sonra əlahəzrət şah özü mənə təklif elədi ki, qalım şah sarayında çalım. Mən əlahəzrətə dərin təşəkkür edərək dedim: «Əlahəzrət, mən Qarabağsız çala bilmərəm, istəsəm də, çala bilmərəm. Mənim canım ordadır». İndi, xanım, mənim iki uşağım və qanuni arvadım da var.

Gülsənubər dərindən nəfəs alıb dedi:

– Ürəyin də daşa dönüb.

Sonra anlaşılmazlıq içində əlavə elədi:

– Bəs necə olur ki, sən çaldığın muğamlarda o qədər nakam məhəbbət, o qədər nisgil, o qədər sonu görünməyən kədər ifadə eləyə bilirsən?

Elə bu anda həmin sübh çağı Kirs dağlarından sərin bir yel əsdi. Tarzən başını qaldırıb göyə baxdı və Üçmıx dağının zirvəsi tuşundan qapqara, nazik bir buludun ilan kimi qıvrıla-qıvrıla onların başı üzərinə gəldiyini görüb, həyəcanla qıza dedi:

– Xanım, bərk fırtına olacaq, tez qaçın evinizə.

Sonra səmaya işarə ilə əlavə etdi:

– O nazik, qara bulud həmişə fırtına gətirir.

Həqiqətən, aləm birdən-birə qapqaranlıq oldu. Soyuq küləк gücləndi, dalbadal göy gurultusu eşidildi. Xəzinə qayası tərəfdən şiddətli şaqqıltı ilə şimşək çaxdı.

– İldırım düşdü, – deyə tarzən səsləndi. – Gəlin tez düşək şəhərə. Sonra sizin üçün çətin olar.

– Qoy olsun! – deyə, Xan qızı sakitcə cavab verdi. – Mən istəyirəm bu saat məni ildırım vursun.

Və birdən dalbadal göy şaqqıltısıyla elə şirə-boran yağış başladı ki, göz açmaq mümkün olmadı. Üçmıx dağından gurultu ilə sellər axdı.

– Dayanmaq vaxtı deyil, xanım! – deyə tarzən sol əlində tarı, sağ əli ilə qızın qolundan yapışıb onu qayaların arasıyla burula-burula şəhərə doğru enən dar cığırla üzüaşağı çəkdi.

Gülsənubər incəbel, zərif bir qız idi. Əynindəki nazik ipək donu şiddətli yağış çırpıb vücuduna yapışdırmışdı. Hücumla axan dağ seli onun ayaqlarını tez-tez yerdən üzüb, cığırın yanındakı qayalara çırpırdı.

– Yeriyə bilmirəm! – deyə qız yağışdan gözlərini açа bilməyərək qışqırdı.

Tarzən sol əli ilə tarını tutmuş olduğu halda, sağ əlini qızın belinə dolayaraq, onu qaldırıb qoltuğuna vurdu. O, ucaboylu, çox qüvvətli bir oğlan olsa da, bu daşlı cığırla üzüaşağı getməli idi. Arxadan qəzəblə gələn sel isə onun kürəyinə şiddətlə zərbələr endirirdi. O, qızla bərabər üzüstə selin altına yıxılmaqdan özünü zorla saxlayırdı. Qoltuğundakı qızdan səs çıxmaması onu qorxudurdu. Selin yuvarlayıb gətirdiyi daşlardan baş-gözünə dəymiş olardı. Tez-tez şimşək çaxıb, bu dəhşətli fırtına zülmətini qılınc kimi parçalasa da, heç nə görmək olmurdu. Tarzən Gülsənubərgilin imarətgahı olan məhəlləyə doğru düz getdiyini fəhmlə hiss edirdi. Və nəhayət, o, qaranlıqda tək-tək əl fənərinin ora-bura qaçdığını gördü. «Yəqin xanımı axtarırlar» deyə düşündü. Və son gücünü toplayaraq, addımlarını yeyinlətməyə cəhd etdi. Və birdən:

– Cəmil hey! – deyən Fatimənin həyəcanlı səsini eşitdi.

– Axtarıram, axtarıram! – deyə Cəmil eyni təşvişlə bərkdən səsləndi.

Və tarzənin qoltuğundakı qızdan iniltiyə bənzər bir səs eşidildi...

– Fatimə! – deyə tarzən bərkdən qışqırdı.

Fatimə ilə Cəmil özlərini onlara yetirdilər.

Tarzən heç bir söz demədən:

– Tutun qızı! – deyə nə üçünsə acıqla səsləndi.

Fatimə ilə Cəmil hərəsi bir tərəfdən yapışaraq, Xan qızını tarzənin qoltuğundan aldılar. Tarzən heç bir söz demədən çevrilib yağışın altında sürətlə uzaqlaşdı. Və o, evinə çatmamış Şuşa qalası öz möcüzəsini göstərdi. Dolu qarışıq yağış qəfil necə başlamışdısa, eləcə də birdən kəsdi. Göy üzünü örtən qara bulud sanki gözəgörünməz nəhəng bir qılıncla parçalandı. Və parçalar sürətlə bir-birindən uzaqlaşdı. Günəş doğub Şuşa qalasını təravətli, aydın bir nura qərq etdi. Və tarzən düşündü: «Elə bil ki, təbiət Xan qızını günahkar hərəkətinə görə tərbiyə etmək istəyirmiş».

Tarzən, Gülsənubər kimi gənc, subay qızın evli-uşaqlı kişiyə eşq yetirməsini, hətta onu, ailəsini, uşaqlarını atıb getməyə təhrik etməsini dözülməz günah hesab edirdi. Və o, düşünürdü: «Bu cür qəddar ürək sahibinin eşqi Leyli eşqi, Məcnun eşqi ola bilməz!»

Tarzən bu fikirlə evinə qalxıb, əlvan xalılar döşənmiş böyük zala daxil olduqda, arvadı Mina xanımın, balaca oğlanlarının qorxu və həyəcan içində onun yolunu gözlədiklərini gördü.

Böyük oğlu Əsədulla gülümsəyərək soruşdu:

– Dədə, sel yaman axırdı?

– Yaman! – deyə tarzən birdən-birə hiss etdiyi xoş əhvalla cavab verdi.

* * *

Başına yığılan saray xidmətçiləri və freylinası Fatimə Xan qızının islanmış paltarını dəyişib, çarpayıda uzandırandan sonra Gülsənubər nə üçünsə acıqlı ifadə ilə (elə bil ki, onlar nədə isə təqsirkardırlar) dedi:

– Ürəyim yaman darıxdı, bir az hava almaq üçün Cıdır düzünə qalxmışdım. Qəfil fırtına başlayanda, mən də qaçmaq istəyəndə, yaxşı ki, tarzənə rast gəldim. O olmasaydı, yəqin ki, o tufandan salamat qurtara bilməyəcəkdim.

– Oy, xanım! Allaha şükür ki, tarzənə rast gəlmisən,– deyə aşpaz qadın Xeyransa dilləndi. – O cür tufandan salamat qurtarmağın möcüzədir.

– Yaxşı, – deyə qız dilləndi. – Gedin, mən yatmaq istəyirəm.

Gülsənubərin anası keçən il vəfat eləmişdi. Xan atası da Qarabağ kəndliləri üçün xaricdən gətirdiyi kənd təsərrüfatı alətlərini özü

nəzərdən keçirmək üçün beş-altı gün bundan qabaq Cəbrayıl, sonra da Qarabulaq (Füzuli) rayonlarındakı kəndlərinə getmişdi.

Gülsənubər bir tərəfdən daşlara dəyib əzilmiş ayaqlarının ağrısından, digər tərəfdən isə əsəbilikdən yata bilmirdi. Bu tufandan sonra Kor Şeytan ürəyinə girib deyirdi: «Sən Xan qızısan! Qara camaat içindən çıxan o tarzən səni rədd edib təhqir etdi, sənin məhəbbətini alçaltdı. O, sənin ən ağır intiqamına layiqdir. Hamısı birdir. Sən onsuz yaşaya bilməyəcəksən, o, səni sehrləyib. Öldür özünü, özün də yaz qoy ki, atangil bilsin, sənin ölümünə səbəb onun eşqidir».

Kor Şeytanın bu sözlərilə qıza şiddətli qızdırma gəldi. Və o, üç gün huşsuz yatdı. Fransada təhsil alıb gəlmiş cavan doktor müəyyən elədi ki, ona bərk soyuq dəyib. Doktorun cidd-cəhdindən sonra dördüncü gecə onun huşu özünə gəldi. Bu zaman həyatda eşitdiyi ilk səs tarzənin uzaqda çaldığı «Çahargah» muğamı oldu. Kor Şeytan, elə bil, onun ürəyinə girib dedi: «Eşitdinmi, sən bu cür xəstə olduğun halda, o, yenə də tar çalır».

Lakin qız o muğamdan qulağını çəkə bilmədi. Və bu zaman Allahın xeyir xəbərlər carçısı həzrət Cəbrayıl onun ürəyinə daxil olub dedi: «Sən Kor Şeytanın sözünə qulaq asma! Onu qov! O səni Allahla düşmən eləmək istəyir. Tarzən özünü, illərdən bəri üstündə əlləşərək təkmilləşdirmək istədiyi tarını məhv olmaq təhlükəsi qarşısında qoyaraq, səni dəhşətli ölümdən xilas elədi! O gecənin xatirəsi səni yüz il yaşatmağa layiqdir».

Və Gülsənubər «ah» çəkərək o muğamı dinləməyə davam etdi. Bu «Çahargah» muğamında sanki dəvə karvanı zınqrov səsləri altında uzaqlara, ayrı bir dünyaya, bəlkə də, əbədiyyətə yol almışdı. Və qız özünün, o tarzənin də əbədiyyətə gedən o karvanla yol yoldaşı olduqlarını və bu yolda onları əbədi bir sükutun müşayiət elədiyini qəribə bir aydınlıqla hiss edirdi. Muğam axıb getdikcə, həzrət Cəbrayıl ona pıçıldayırdı: «Axı o gün Allah səninlə, o tarzənlə birlikdə, sənin məhəbbətini xilas etdi».

İndi «Çahargah» o məhəbbətin də o karvanla birlikdə əbədiyyətə getdiyini təmkinlə, yüksək ruhla hekayə etdikcə, qəlbində ülvi bir rahatlıq hiss edirdi. Və qız onu da düşünürdü ki, yəqin tarzənin onu (qızı) o dəhşətli ölümdən xilas etməyi, onun (tarzənin) özünü də sevindirəcək. Bu düşüncə qızda bir sevincə, bir ruh yüksəkliyinə çevrildi. Tarzən həmişə xatırlayacaq ki, onu sevən qızı ölümdən xilas etdi.

Və səhər gənc doktor onu diqqətlə müayinə eləyib təhlükənin sovuşduğunu xəbər verdikdə, qız eyni sevinclə dedi:

– Doktor, mən sağalacağam! Axı o tarzən məni Allahın köməyi ilə ona görə xilas etməyib ki, təzədən ölüm. Ona görə xilas eləyib ki,

yaşayım. Onun muğamlarında hekayə olunan kimi, əbədi yaşayım. Elə deyil?!

Gənc doktor qızın bu müəmmalı sözlərindən bir şey başa düşməyərək dedi:

– Əlbəttə, xanım!

Və qız sonralar, hər dəfə tarzənin çaldığı o muğamları dinlədikcə hiss edirdi ki, onun nakam məhəbbəti əbədiyyətə qovuşmuşdur. Və o muğamlar bu nakam məhəbbətin iztirablarını, ələmlərini tərənnüm edir. Onu da hiss edirdi ki, böyük Allahın seçib, ülvi ruh bəxş elədiyi o tarzən özü də bu nakam məhəbbətin nisgili ilə mütəəssirdir...

1996.

ROMAN

GERİYƏ BAXMA, QOCA!

MÖHNƏT QOCANIN NAĞILLARI

Kürdobadakı Səkinə ilə Mahal Murovunun əhvalatı

Uca dağlı, bağlı-bağatlı, aranlı-yaylaqlı Qarabağda «Kürdoba» deyilən bir tərəkəmə obası var idi. Adamları təmiz azərbaycanlı olan bu tərəkəmə obasına niyə «Kürdoba» deyirdilər, məlum deyildi.

Kürdobalılar «Qarabağ cinsi» adlanan quyruqlu qoyunlar, hər biri iyirmi pud yük götürən nərlər saxlayardılar, ceyran ayaqlı Qarabağ atları minərdilər.

Qışda qışlaqda olardılar, yazda hər tərəfi qıpqırmızı lalə olan, min cür çiçək dolu otu dizə çıxan, göz işlədikcə uzanıb gedən Haramılara köçərdilər. Qoyunlar südlü-sünbüllü otlardan yeyib doğardılar, arvadlar pendir tutardılar, nehrə çalxardılar, bulama, suluq bişirərdilər. Yay yaxınlaşanda, Haramıların otları saralanda fərməşlər qovlanıb dəvələrə yüklənərdi, atlar yəhərlənərdi və el yaylağa köçərdi. On gün-on gecə köç yol gedərdi. «Gəyən» deyilən düzdə igidlər cıdıra çıxardılar. Bütün atları ötüb-keçən at mahalda ad çıxardardı, sorağı ellərə yayılardı.

– Ə,– deyərdilər – Hacıquluoğlu Şahbazın səmənd atı yüz seçmə atı yarı yolda qoyub.

Səmənd ata elçilər gələrdi, amma Hacıquluoğlu:

– Cəmənd atı min ərkəyə də vermərəm, – deyib onları boş yola salardı.

Köç yollarında bəzən hamilə gəlinlərdən doğan da olardı.

Sonra Dəliçay yaylağına çatıb, «Eşşək bulağı» deyilən yurdda keçə alaçıqlar – komalar qurardılar. Yurd hündürdəydi, Eşşək bulağı aşağı dərədə. Eşşək bulağı dünyalar yola salmış sarı qayalardan qaynayıb çıxırdı. Yaşıl baldırğanların, ətirli yarpızların arasıyla göz yaşı kimi dumduru su axırdı. Suyun içində muncuq kimi rəngbərəng daşlar görünürdü, amma onu da heç kəs bilməzdi ki, bu zərif bulağa niyə «Eşşək bulağı» deyirlər? Kim bilir ki, Eşşək bulağı yurdundan xeyli yuxarıdakı yaylağa nə üçün «Qızıl boğaz», ondan daha yuxarıda, dağın döşündəki ərimər qara niyə «Əyri qar» deyirlər? Ya da «Eşşək bulağı» yurdundan aşağıda göylə yer birləşənəcən uzanıb gedən laləli düzənliyə niyə «Altıntaxta» deyirlər?..

Hər obada böyük ağ keçədən qurulmuş bir ağ alaçıq, onun yan-yörəsində də qara keçəli komalar olardı. Ağ alaçıqda obanın sayılan varlı adamı, qara keçəli alaçıqlarda kasıblar yaşayardı, varlı gərək kasıbdan seçiləydi, obaya gələn yad atlı gərək biləydi ki, «bax,

bu ağ alaçıq Hacı filankəsindir». Hacı filankəs də bütün obanın başçısı, ağsaqqalı olardı. Obanın bir adamına ayrı bir obadan sataşan olsaydı, demək, o, oba başçısına sataşmış olurdu. Beləydi tərəkəmələrin qanunu...

Eşşək bulağı yurdundakı qara keçəli komalardan azca yuxarıda iri bir ağ alaçıq görünürdü. O ağ alaçıq kürdobalıların sayılan adamı Kərbəlayı İbixanın idi. Kərbəlayı İbixan on min qoyunu, səkkiz yüz atı olan Hacı Alış qədər dövlətli olmasa da, ondan ağıllı, çörəkli, qonaq-qaralı bir adam idi. Qapıya gələn aşığı boş yola salmazdı, köməksizə kömək olardı, kasıba əl tutardı. Mahal murovu, Kərbəlayı İbixanın ad-sanını eşidib, onu Arazboyu tərəkəmələrinə vəkil təyin elədi.

Kürdobanın komaları, alaçıqları yaz vaxtı Haramılarda qurulanda murov Haramılara gəlib Kərbəlayı İbixanın alaçığına düşdü və onun qızı Səkinəni görüb ağlı zayıl oldu, ona görə «zayıl oldu» deyirəm ki, murovun 60 yaşı, dörd arvadı vardı, gözünün də biri mayıf idi, amma Səkinə on yeddi yaşında, ağ üzündə qoşa xalı, bir dünya gözəli idi. Varlı yerdən neçə-neçə igid ona elçi düşmüşdü, amma Səkinə öz qohumları Gülməmmədə sevgi yetirmişdi və Kərbəlayı İbixan da bunu bilib, qızını ona nişanlamışdı. Gülməmmədin atası Uzun Həsən, kasıb da olsa, sayılan igidlərdən idi, neçə-neçə xəncər-bəlgə davasında şücaət göstərmişdi, bir sözünü iki eləyən olmamışdı.

Murov başlamışdı Kürdobaya, vəkil Kərbəlayı İbixanın evinə yol açmağa. Axırda bir gecə Səkinə nişanlısı ilə xəlvət görüşəndə əhvalatı açıb ona dedi. Dedi ki, murov məni görəndə qoca yabı kimi dişini ağardır, özü də o günü bizə gələndə dədəm obada yox idi, mən aparıb alaçıqda qabağına süfrə salanda biləyimdən yapışdı, güclə əlindən çıxıb qaçdım.

Gülməmməd dedi:

– Görünür, buynuzunun dibi gicişir.

Sonra Gülməmməd Səkinənin anasına dedi:

– Bibi, Kərbəlayı dayıma denən, əgər o kor murov bir də bu evə gəlsə, öldürəcəm onu.

Səkinənin anası Gülməmmədin dəli-dolu oğlan olduğunu bilirdi, bilirdi ki, öldürər! Ona görə də, əhvalatı açıb ərinə dedi. Kərbəlayı İbixan hələm-hələm yerindən oynayan adam deyildi. Bir az fikirləşib arvadına dedi:

– Sən Gülməmmədə yetir ki, onun işi yoxdur, murovla mən özüm təhər çəkərəm.

Atalar deyib: abırlı abrını gözləməsə, axırı it axırına dönər. Günlərin birində murov Kürdobaya gəlib yenə Kərbəlayı İbixanın evinə düşdü. Kərbəlayı da iki cavan çağırıb dedi:

– Murovun atının quyruğu çox uzundu, gedin onu bir az gödəldin.

Cavanlar da başa düşdülər ki, Kərbəlayı nəyə işarə edir.

Murov bu dəfə gözəl Səkinəni görə bilmədi, ürəyində qərar verdi ki, gedib qız üçün elçi göndərsin. Amma gedəndə gördü ki, atının quyruğunu kəsib lümə toyuğa döndəriblər.

Murov qəzəblə soruşdu:

– Kərbəlayı, bu nə işdi?

Kərbəlayı İbixan dağdan ağır adam idi, murova sakit tərzdə baxıb dedi:

– Ağa, altmışında yorğalamaq istəyən yabını bizlərdə belə eləyərlər ki, bir az yüngülləssin, bəlkə yolunu azmaya!

Murov dedi:

– Yaxşı, Kərbəlayı İbixan!

Kərbəlayı İbixan da cavab verdi ki:

– Ağa, Allaha şükür elə ki, Kürdobadan salamat gedirsən.

Murov xoruzlansa da, qorxağın biri idi. Bilirdi ki, Kərbəlayı İbixana bir şey eləsə, kürdobalılar torpağını at torbasında aparar.

Ona görə də hesabı içəri verib, bir də Kürdobaya ayaq basmadı. Amma igiddən qada, canlıdan cəfa əskik deyil, deyərlər. Bir gecə İrandan keçən quldurlar «Mandılı» deyilən qışlaqda qoyun sürüsü saxlayan binələrə basqın eləyib, Gülməmmədgilin sürüsünü atdöşü eləyəndə, atası kimi ucaboylu, enlikürək, zorlu bir oğlan olan Gülməmməd çomağı qapıb başladı atlıları budamağa ki:

– Köpək uşağı, çıxın qoyundan!

Quldurbaşı atının başını çəkib:

– Əyə, – dedi, – itil o yana, qoyundan ötrü özünü güdaza vermə.

Gülməmməd:

– Ə, anasının oğlu, mənə Uzun Həsənin oğlu Gülməmməd deyərlər, çıxın qoyundan! – deyib çomağını endirəndə, quldurbaşı da qılıncını endirdi, Gülməmməd gördü ki, çomaq tutan əli birdən-birə qov kimi yüngül oldu, təəccüblə baxıb gördü ki, nə əli var, nə də çomaq. Zalım oğlu qılıncı necə endiribsə, çomaq tutan əlini biləyindən qələmə kimi kəsib tullayıb.

Ballı qarı kərə yağı dağ eləyib Gülməmmədin yarasını bişirdi, məlhəm qayırıb sarıdı, Gülməmmədin biləyini sağaltdı. Mərdlər onu tayqol görüb heyifsiləndilər, namərd yağılar sevinib dedilər:

– Qoşa xallı Səkinə daha tayqol Gülməmmədə getməz.

Amma ona da Kərbəlayı İbixan qızı deyərdilər. Mərd kişinin belindən gəlmişdi, halal anadan süd əmmişdi. Xəlvətə salıb Gülməmmədə dedi:

– Heç ürəyini qısma! Sən iki gözümdən də əzizsən, pərvanə olub başına hərlənəcəm, qul olub qulluğunda duracam!

Eşşək bulağının üstündə böyük mağar quruldu, neçə cöngə, neçə erkək kəsildi. Göyçə mahalından aşıq Vəli dəstəsilə gəldi. Zən-

gəzurdan zurnaçı Nikolay dəstəsilə gəldi. Səkinə ilə Gülməmmədə üç gün, üç gecə bir toy elədilər ki, gəl görəsən.

... Onların dörd oğlu, bir qızı oldu, Gülməmməd Xorasana gedib Məşədi Gülməmməd oldu. Amma Kərbəlayı İbixandan bir neçə il sonra Məşədi Gülməmməd də rəhmətə getdi. Kürdobanın başbiləni, qonaq qabağına çıxanı, qan bağlayanı, elçi gedəni Səkinə arvad oldu. Dünyagörmüş kişilər deyərdilər, «Səkinə ağılda, kamalda atası Kərbəlayı İbixana çəkib».

Səkinə gördü ki, xanların, bəylərin uşaqları böyük-böyük məktəblərdə oxuyub rusun, firəngin dilini bilirlər, poqon taxıb böyük «nəçərnik» olurlar. Öz-özünə dedi: «Kərbəlayı İbixan bəy olmasa da, bəylərdən əskik kişi deyildi ki, niyə onun nəvəsi də oxuyub nəçərnik olmasın?»

Səkinə bunu fikirləşib, oğlu Bayramı bir dəvə yükü sovqatla apardı Şuşa qalasına. Qarabağ xanzadələrindən olan Nəcəf ağa Kərbəlayı İbixanı yaxşı tanıyırdı, Araz qırağındakı rəiyyətlərinə baş çəkməyə çıxanda həmişə Kərbəlayı İbixanın alaçığına düşərdi. Onun üçün ceyranlar, turaclar vurulardı, erkəklər kəsilərdi.

Səkinə dedi:

– Kərbəlayı İbixanın nəvəsini sənə tapşırıram, ağa! Özün bilirsən ki, biz haqq-say itirən döyülük, iltimasımız budur ki, onu böyük rus məktəbinə qoyasan, oxusun, zamana adamı olsun.

Nəcəf ağa əzazil adam olsa da, bilirdi ki, Səkinəyə hörmət eləmək havayı getməz, bütün Arazboyunda deyəcəklər ki, «Nəcəf ağa Kərbəlayı İbixanın duz-çörəyini tapdamadı». Ona görə də Bayramı qoydu gimnaziyaya.

Bayram gimnaziyanı qurtarandan sonra da Nəcəf ağa onu nəçərnikin idarəsində qulluğa düzəltdi. Arazqırağı tərəkəmələrin arasında Səkinənin hörməti-izzəti birə on oldu, zarafat deyildi, onun oğlu, Kərbəlayı İbixanın nəvəsi «qızıllı poqon» taxıb, padşahın idarəsində qulluq eləyirdi, rusun dilini bilirdi, özünə də «Bayram bəy» deyirdilər.

İndi sizə başqa bir əhvalat danışım... Görün ki, insanlar haralarda dünyaya gəlib, haralarda qovuşurlar. Görün taleyin nə qəribə işləri olur.

XANIM ARVADLA DAMLICA MÜLKÜNÜN ƏHVALATI

Dünyaya çox igidlər, nəcib atlar verən gözəl Qarabağın «Kirs» deyilən qalın meşələrində Alyanlı adlı bir oba vardı. Alyanlı obasında hamıdan çox sayılan bir adam vardı ki, onun da adı Bağdad bəy idi. Məlum deyildi ki, dünyanın qurtaracağında, bu qalın meşələrin, bu sıldırımlı dağların arasına «Bağdad» adı haradan

gəlib çıxmışdı. Bağdada kim bəylik vermişdi? Ancaq onu da deyim ki, Bağdad bəylə rəiyyətin fərqi ancaq onda idi ki, onun (yəni Bağdad bəyin) içində su dəyirmanı olan «Damlıca» adlı bir mülkü vardı. Bağdad bəy də başqa kəndlilər kimi, patavalı çarıq geyib, uzuntüklü qoyun dərisindən basma papaq qoyardı, dəyirmanda şahıdı özü alardı, Damlıca mülkündəki torpaqları özü şumlardı, özü də qabağından yeməyən igid bir adam idi, mahalda ən yaxşı at onda olardı.

Siz taleyin işinə baxın ki, Bağdad bəyin də Kərbəlayı İbixan kimi gözünün ağı-qarası bircə qızı vardı və onun adı Xanım idi.

Alyanlı meşələrinin o biri tərəfindəki dağlarda fələyə bəndəlik eləməyən Şahmar bəy yaşayırdı. Bu, savadlı da olsa, qızıl vəznəli çuxa, güzgü kimi parıldayan uzunboğaz çəkmə geyib, qəbzəsi daş-qaşa tutulmuş qızıl xəncər bağlasa da, qaba, azğın bir adam idi. Onun meşələri gəlib Bağdad bəyin Damlıca mülkünə dirənirdi. Şahmar bəy bir dəfə Bağdad bəyi çağırtdırıb dedi:

– Kasıb adamsan, Damlıcanı sat mənə. Yaxşı pul verərəm, özünə əməlli gün-güzəran düzəldərsən.

Bağdad bəy də, dediyim kimi, qabağından yeyən deyildi. Əlini babasından qalmış xəncərin qəbzəsinə qoyub cavab verdi ki:

– Şahmar bəy, bu sözü mənə bir dedin, bir də desən, yaxşı olmayacaq.

Şahmar bəy namərd adam idi, ancaq baxıb gördü ki, Bağdad bəyin əli xəncərin qəbzəsindədi, ona görə də zarafata salıb dedi:

– Bağışla, bilmədim xətrinə dəyər.

Bu əhvalatdan bir neçə ay sonra Damlıca meşəsində Bağdad bəyi doğrayıb öldürdülər. Alyanlılar təəssübkeş camaat idi, amma sübut tapa bilmədilər. Bağdad bəyin arvadı Gülnisə də, qızı Xanım da bilirdilər ki, yüzü yüz söz deyə, bu, Şahmar bəyin işidi. Hamı bilirdi ki, o, namərd adamdır, öz gədələrinə gizlincə adam öldürtmək onun peşəsi idi, kimdən ki bir balaca korası oldu, gərək o adam yox ediləydi.

Bağdad bəy öldürüləndən bir-iki il sonra Şahmar bəy saxta qəbələ çıxarıb divanda sübut elədi ki, Damlıca mülkü onun babasınındır. Atalar deyib ki, «arxalı köpək qurd basar». Şuşada oturan qəza naçalniki, Gəncədə oturan qubernator Şahmar bəyin dostları idi, həmişə Kirs meşələrinə ova gələndə onun evinə düşərdilər, sonra bəy onları qiymətli hədiyyələrlə yola salardı. Ona görə Şahmar bəyin kəsdiyi başın sorğusu yox idi. Qərəz, Damlıca mülkünü alıb verdilər Şahmar bəyə, Gülnisə ilə qızına köhnə bir damla, bir qulac yer qaldı.

Gülnisə yana-yana dedi:

– Viran qalsın bu dünyanı, əgər Bağdad bəyin oğlu olsaydı, qanı yerdə qalmazdı, Şahmar bəy də Damlıcada at oynatmazdı.

Xanım anasının bu sözlərini eşidirdi, amma ürəyi daş kimi bərk olduğundan ağlamırdı, hələ desəniz, anasına da irad tutub dedi:

– Ah-vay eləmə!

Anasına belə desə də, Xanımın ürəyinin odu sönmürdü, anasının oğul barədəki sözləri onu yandırırdı.

Günlərin birində Dünyamalı kişinin arvadıyla Şuşa bazarında satmağa yavanlıq apardığını Gülnisə eşidib, çoxdan çirişlərə yığıb saxladıqları yağı, motalları yüklədi ata. İki də öyəc erkək ayırıb qızına dedi:

– Sən də Dünyamalı kişigillə bunları apar sat, özünə paltarlıq al, çəkmə al. Ərgən qızsan...

... Xanım apardığı şeyləri Şuşa bazarında satıb-sovandan sonra köhnə müştəriləri baqqal Tağıya dedi ki, onlar üçün bir tapança alsın. Tağı istədi desin ki, «sizdə kişi xeylağı yoxdur, neyləyirsən tapançanı?» Amma fikirləşdi ki, «deyərəm, birdən qızın ürəyinə toxunar». Baqqal Tağı onu da bilirdi ki, Alyanlı arvadlarından kişi kimi tüfəng-tapança atanı olur. Qızın pulundan neçə manat verib, «Aynalı» tüfəngin vaxtındakı tapançalardan birini aldı. Sonra da Xanım özünə bir dəst ipək paltarlıq, qırmızı ipək kəlağayı, bir cüt çəkmə alıb Dünyamalı kişigillə qayıtdı obalarına. Gülnisə arvad tapançanı görəndə heç təəccüblənib-eləmədi, ancaq qızından soruşdu ki:

– Sən bunu atmağın qaydasını bilirsən?

Qız da dedi ki, bilir. Gülnisə daha bu barədə bir söz danışmadı, Alyanlı obasından da heç kəsin bu tapançanın alınmağından xəbəri olmadı.

... Şahmar bəy hər axşamçağı atlı gəlib Damlıca mülkünü gəzməyə adət eləmişdi. Bir dəfə də gəlib alt tərəfi dərin uçurum olan meşəli dağın döşündəki dar cığırla atını sürdüyü zaman Xanım qarağat kollarının arasından qəfil çıxıb şax dayandı onun qabağında. Şahmar bəy onu görüb təəccüblə atın başını çəkdi.

Xanım soruşdu:

– Bəy, məni tanıyırsan?

Şahmar bəy dedi:

– Bağdadın qızı döyülsən?

(Bağdad bəy kasıb olduğu üçün Şahmar bəy onu «bəy» adlandırmağı şəninə sığışdırmadı).

– Bəli, sənin namərdliklə öldürüb mülkünə yiyə durduğun Bağdad bəyin qızıyam.

Qız bunu deyib, Şuşadan aldığı, ipək çarqatın altında gizlətdiyi tapançanı çıxarıb Şahmar bəyin düz sinəsinə sıxdı.

Şahmar bəy, ürəyindən vurulmuş qarğa kimi, atdan səssizcə aşıb uçurum aşağı yuvarlandı. Xanım onun ardınca uzun bir nəzər salıb özünü verdi meşənin qalınlığına.

Xanım əvvəl istəyirdi, Şahmar bəy cığırı gəlib-keçəndə onu xəlvətcə kolların arasından vursun, ancaq sonra fikirləşdi ki, bu əsil intiqam olmaz, onu öldürənin kim olduğunu gərək Şahmar bəyin özü görsün.

Şahmar bəyin düşməni çox idi, ona görə də oğlanları, qardaşları tapa bilmədilər ki, onu kim vurub. Bağdad bəyin isə nə oğlu, nə qardaşı, nə də əmisi, dayısı oğlu olmadığından, yurdunda bircə arvadla qız uşağı qaldığından, güllənin onlar tərəfdən atıldığı ağıllarına gəlmədi.

Şahmar bəy öldü, amma Damlıca mülkü yenə də onun oğlanlarına qaldı.

... Sonra Gülnisə Xanımı ərə verdi. Özü isə bir neçə ildən sonra vəfat etdi. Xanımın üç qızı, üç oğlu oldu. Özü də başladı Şahmar bəyin oğlanlarından Damlıca mülkünü tələb eləməyə. Şuşaya gedib naçalnikə şikayət elədi, qulaq asmadılar, Gəncəyə gedib qubernatora şikayət elədi, qulaq asmadılar. Axırda Xanım arvad dəmir çarıq geyib, dəmir əsa götürüb neçə gün, neçə gecə yol gedib çatdı Tiflis şəhərinə, axtarıb, soraqlaşıb Qafqaz canişininin iqamətgahını tapdı.

Canişin dilmancı vasitəsilə arvada diqqətlə qulaq asıb dedi:

– Ərizəni qoy get, baxarıq.

Xanım Alyanlı meşələrinə qayıdıb gözlədi, gözlədi, ərizəyə cavab çıxmadı, yenə də Xanım neçə gün, neçə gecə yol gedib çatdı canişinin iqamətgahına və məlum oldu ki, ərizə yaddan çıxıb qalıb kağızların arasında, baxılmayıb. Canişin dedi:

– Get, baxarıq.

Xanım arvad Alyanlıya qayıdıb yenə də gözlədi və günlərin birində cavab gəldi ki, Xanım arvadın tutarlı bir dəlili olmadığı üçün ərizəsi rədd olunur. Ancaq ona da Xanım deyərdilər, Şuşadakı vəkil Fərəc bəyə neçə manat verib uzun bir ərizə yazdırdı. Alyanlı ilə qonşu olan kəndlərin mötəbər qocalarını şahid göstərdi, babasından qalmış qəbələnin təkrar üzünü çıxartdırdı və yenə də neçə gün, neçə gecə yol gedib çatdı Tiflis şəhərinə.

Canişin onu görəndə tanıyıb təəccüb etdi, ərizəsini, kağızlarını bu dəfə özü alıb baxdı. Xanım arvad dilmanca dedi:

– Ağaya de ki, əgər bu dəfə də mənim ərizəmi rədd eləsə, gedəcəm lap padşahın yanına.

Canişin gülümsədi, acığı tutmadı. Xanım arvadın xəbəri yox idi ki, canişin padşahın yaxın qohumudur. Uzaq Qarabağ meşələrindən gələn bu qarayanız, arıq arvadın təmkinindən, cəsarətindən, iradəsindən canişinin xoşu gəldi və o, xoş əhvalla da dilmanca dedi:

– Onu başa sal ki, mən özüm əlahəzrət imperatordan xahiş eləyəcəm onun mülkünü özünə qaytarsınlar.

Xanım arvad yenə də qayıtdı Alyanlıya, gözlədi. Canişinin vədi düz çıxdı. Damlıca mülkünü Şahmar bəyin oğlanlarından alıb qaytardılar Bağdad bəyin qızı Xanıma.

... İndi sizə kimdən deyim, Xanım arvadın qızlarından.

Bağdad bəy özü çox gözəl, yaraşıqlı kişi idi, xoşbəxtlikdən nəvələri də gözəllikdə ona çəkmişdilər. Həmişə bu barədə söz düşəndə, tək-tək hallarda üzü gülən Xanım arvad gülümsəyib deyirdi:

– Nə yaxşı ki, qızlar babalarına oxşayıblar, mənim kimi qarayanız olmayıblar.

Xanım arvad qızlarına əməlli-başlı cehiz düzəltdi, əvvəl böyük qızı Bəyazı yaxşı, hörmətli bir oğlana ərə verdi. Bu oğlan qonşu kənddən çıxmış cavan Hacı Şükür idi. Hacı Şükür kasıb bir kəndlinin oğlu idi, molla məktəbində yaxşı oxuyan ağıllı bir oğlan olduğu üçün kənd camaatı pul yığıb onu göndərdi Bağdada. Hacı Şükür ordakı böyük mədrəsələrdə neçə il təhsil alıb qayıtdı Şuşa şəhərinə, cavan olsa da, hörməti-izzəti o biri ruhaniləri kölgədə qoydu. Atalar deyib ki, ağıl yaşda deyil, başdadı. Cins adam olmaq dövlətdə, varda döyül! Hacı Şükür o biri mollalar kimi acgöz deyildi, kasıblardan pul almazdı. Hər gün adi kəndli paltarı geyib Cıdır düzündə tikdirdiyi evin həyətində işlərdi, cürbəcür ağaclar əkərdi, dirrik becərərdi. Minbərdə danışarkən camaatı öz halal zəhmətilə dolanmağa, namsaf, əyri iş dalınca getməməyə, fəqir-füqəraya əl tutmağa çağırardı. Ona görə də kasıblar həmişə Hacı Şükürün yanına məsləhətə gələrdilər, çətinliklərini, sirlərini ona açıb deyərdilər. Cavan Hacı Şükür bir gün Alyanlıdakı qohumlarına qonaq gedəndə Xanım arvadın böyük qızı Bəyazı görüb ona elçi düşdü. Qızın da cavan Hacı Şükürdən xoşu gəldi və onlar evləndilər.

CAVAN BAYRAMLA GÖZƏL FATMANIN ƏHVALATI

Bu əhvalatdan üç il sonra Qara Əmrah Xanımın ən gözəl qızı Fatmaya elçi göndərdi. Qara Əmrah sayılan nəsildən deyildi. Özünün də bir qatırla, beş-on keçidən başqa heç nəyi yox idi. Ona görə də Xanımı od götürdü, elçiləri söyüb qapıdan qovdu, ancaq Qara Əmrah bir könüldən min könülə qıza aşiq idi, dedi öldü var, döndü yoxdu! Cavan tay-tuşlarını başına yığıb bir gün qız bulaqdan qayıtdığı zaman onu götürüb qaçdı. Bir ildən sonra Fatmanın bir oğlu oldu, adını qoydular Cəlil.

Ancaq Xanım sakit olmurdu ki, olmurdu. Hər gün Fatmanı xəlvəti çağırtdırıb öyrədirdi ki, boşan o qara köpək oğlundan, gözəl-göyçək qızsan, yüz müştərin olacaq.

Axırda Fatma uşağı da götürüb gəldi, oturdu evlərində. Amma Qara Əmrah Fatmanı boşamaq istəmədi. Xanım arvad papirosunu tüstülədə-tüstülədə divan-dərəni qatdı bir-birinə və axır ki, Fatmanı boşatdırdı.

Bu əhvalatdan iki il sonra yay vaxtı Fatma Şuşaya, bacısı Bəyazgilə qonaq getdi. Axund da baldızının gəlişinə çox şad oldu, onun

üçün Ay-ulduz çarqat, qızıl boyunbağı, zərxara paltarlıq aldı. Bəyaz da bu parçaları şəhərsayağı tikdirdi, gözəl əndamlı, alagözlü, qıvrımsaçlı Fatma geyinib-gecinib bacısıyla Cıdır düzünə gəzməyə çıxanda handa bir bəy qızı ona həsəd aparırdı. Cıdır düzü qız-gəlinlərin, oğlanların seyr-səfa yeri idi. Qız-oğlan bəyənmək istəyənlər Cıdır düzünə çıxardılar. Cıdır düzünün bir tərəfi şəhər, o biri tərəfi «Xəzinə qayası» deyilən dərin uçurum idi. Uçurumun dibilə Daşaltı çayı axırdı. Cıdır düzündən üzüaşağı baxanda çayın qırağındakı adamlar güclə seçilirdi. Çaydan o tərəfdə – ta uzaqlarda gümüşü duman içində görünən Ziyarət, Kirs dağlarına qədər qalın meşələr uzanıb gedirdi. Daşaltı çayının qırağında, sıldırım qayaların arasında qədim bir qalaça vardı. Deyilənə görə, bu qalaçanı Qarabağ hakimi İbrahim xan tikdirib ki, yadelli şahlar güc gələndə xan köçüb orada sakin olsun. Qalaçanın gizli yeraltı yolu vardı ki, ondan savayı başqa yerdən ora girmək mümkün deyildi. Şuşa qalasının o biri tərəfində, Arana gedən yolun üstündə qədim qala hasarının yanında başqa bir gəzmək yeri də vardı. Bura «Ərimgəldi» deyirdilər. Ona görə «Ərimgəldi» deyirdilər ki, yayda aran kişiləri arvad-uşaqlarını gətirib dünyanın ən səfalı yaylaqlarından olan Şuşa qalasında qoyub, əkin-biçinlərini yığıb-yığışdırmaq üçün, kimi də ticarət işləri üçün arana qayıdardı. Cavan gəlinlər də axşamçağı Ərimgəldidə oturub göz işlədikcə uzanıb gedən arana tamaşa eləyə-eləyə ərlərinin yolunu gözləyərdilər.

Qarabağ xanəndələr, sazəndələr yurdudur. Yayda Şuşa qalasının hər gəzməli yerində bir dəstə sazəndə çalıb-oxuyurdu. Onda görərdin ki, Xəzinə qayasının ən uca zirvəsi olan Üçmıxdan kimsə zil səslə bir «Qatar» oxudu. Buna cavab olaraq, Ərimgəldidən kimsə bir şikəstə çağırdı. Qulaq asardın, deyərdin, bəs, bu səslər dünyanın o tayından, yəni bizə məlum olmayan ayrı bir dünyadan gəlir. Özü də nə qədər möhkəm adam olsaydı, ürəyini yumşaldıb muma döndərərdi. Eh... sizi inandırıram ki, Xəzinə qayasının uçurumunda, Topxana meşəsində, Ərimgəldiyə gələn aran yollarında o səslər hələ də durur... Bəli... bəli, durur! Mən o səsləri zaman-zaman eşidirəm.

Hə... Deyəsən, mətləbdən uzaq düşdüm.

Gözəl bir yay axşamında, yəni gün Ziyarətin üstündən o tərəfə aşanda, Fatma da, bacısı Bəyaz da zərxara geyən, müşk-ənbər saçan qız-gəlinlə Cıdır düzündə seyrə çıxmışdı. Bir də gördü ki, vallah, ucaboylu kəhər ürgənin üstündə bir oğlan gəlir, yemə, içmə, tamaşasına dur. Ayaqlarında güzgü kimi parıldayan uzunboğaz çəkmə, əynində qızıl vəznəli sürməyi çuxa, belində gümüş xəncər, başında sur dərisindən papaq, sağ yanağında qoşa xal, qumralbığlı, qumralsaçlı bir oğlan... Fatma ürəyində dedi: «İlahi! Bu, Həzrət Yusifdi, kimdi?..»

Oğlan gəlib yanlarından keçəndə Fatma qanavuz çarşabının yaxasını açıb, alagözlü, qələmqaşlı üzünü oğlana göstərib gülümsədi. Oğlan ona baxıb ürəyində dedi: «İlahi, bu buluddan çıxan Aydı, nədi?..»

Oğlan kəhər ürgəni neçə dəfə dolandırıb alagözlü, qələmqaşlı gözəlin yanından keçdi. Hər dəfə də gəlin üzünü açıb ona göstərdi. Şuşa balaca şəhərdi. Hamı bir-birini tanıyırdı. Bəyaz dedi:

– Bu oğlan Arazqıraxlıdı. Adı Bayram bəydi. Özü də nəçərnikin idarəsində qulluq eləyir. – Sonra gülümsəyib əlavə elədi:

– Keçən yay Şuşaya yaylağa gələn gürcü knyazın qızı Tamara buna bənd olmuşdu. Gecə-gündüz oğlana dinclik vermirdi.

Conra Fatma öyrəndi ki, oğlan Hacı Axundgilin məhəlləsində Zarıslı Cavadın evində olur.

Bayram bəy də öyrənib bildi ki, bu alagözlü, qələmqaşlı, qıvrımsaçlı gözəl Hacı Axundun baldızıdır, özü də duldur. Sonra Bayram bəy dul gəlinləri cavan oğlanlara, cavan qızları dul kişilərə calayan, aradüzəldən, sözgəzdirən Güllübəyimi salışdırdı Fatmanın üstünə. Dedi ki, «gecə adamlar yatandan sonra çıxsın Cıdır düzünə, söhbət eləyək». Güllübəyim yağlı dilini işə salıb nə qədər elədisə, Fatma dedi:

– Yox, iki dünya bir ola, biri də heç, mən naməhrəmlə görüşmərəm. Məni istəyirsə, Hacı Şükürün yanına elçi göndərsin.

Fatmanın eşqi Bayramı Kərəmdən də betər günə salmışdı, bir gün onu görməyəndə dəli olurdu, odur ki, Kürdobaya sifariş elədi ki, evlənirəm, anam gəlsin.

Səkinə bir dəvə yükü sovqat götürdü, kəhər madyanı özü mindi, kəhər atı da oğlu Eyvaz, gəldilər Şuşaya. Səkinə əvvəl Fatmanın cins nəsildən, özü də Hacı Şükürün baldızı olduğunu eşidib şad oldu. Ancaq biləndə ki, duldur, hələ üstəlik o biri kişidən bir oğlu da var, az qaldı dünyanı dağıtsın: «Xanların, bəylərin, hampaların qızları Bayramın həsrətindədi, küçəyə çıxanda tamaşasına dururlar... Heylə bir oğlan indi gəlib yanı küçüklü dul arvad alsın?!»

Ancaq Səkinə baxıb gördü ki, xeyr, bu alagözlü gəlin oğlanın ağlını yaman oğurlayıb, oğlan ondan əl çəkməyəcək, ona görə də Səkinə acıq eləyib qayıtdı Kürdobaya. İş belə olanda Bayram Şuşadakı dostunun atasını iki ağsaqqalla Hacı Şükürün yanına elçi göndərdi və bir aydan sonra kürd qızı Fatma oldu Bayram bəyin haqq-halal arvadı.

... Sonra onların bir qızı oldu, adını qoydular Yaqut, sonra da bir oğulları oldu, adını qoydular Nuru.

NADİRİ TAXTDA GÖRMÜŞ KAMIRXAN QARININ ƏHVALATI VƏ BAYRAM BƏYİN QARABULAĞA GƏLMƏSİ

İndi sənə kimdən danışım, Kamırxan qarıdan...

Qarabağda bir adamın çox yaşlı olduğunu bildirmək istəyəndə zarafatyana deyərdilər: «Filankəs Nadiri taxtda görüb». Amma Kamırxan qarı, doğrudan da, Nadiri taxtda görmüşdü, yəni Nadir şah Qarabağa hücum eləyəndə o, nişanlı qız imiş. Amma mən Kamırxanı görəndə qarı o qədər qocalmışdı ki, balacalaşıb olmuşdu bir tikə, gözləri də olmuşdu noxud boyda. Kamırxan qarıgil Güney Güzdək kəndində olurdular. Kənd ərgünəş meşələrinin yaxınlığında idi. Kamırxan qarı nağıl eləyirdi ki: «Mən nişanlı qız idim, bir gün səs düşdü ki, İran şahı Nadir qoşun çəkib, gəlib Qarabağın üstünə, kəndləri dağıdır, adamları qılıncdan keçirir. Biz də ayın-oyunumuzu ata-eşşəyə yükləyib qaçdıq Ərgünəş meşəsinə. Mənim babam ağır xəstə idi. O bizə dedi ki, hamısı birdi, mən sizinlə gedə bilməyəcəm. Yanıma bir bardaq su, bir az da çörəkdən-zaddan qoyun, gedin.

Biz də naəlac qalıb onun yanına bir bardaq su, bir tabaq da çörək qoyub qaçdıq. Neçə müddət Ərgünəş meşələrində qaldıq. Nadirin qoşunu çəkilib gedəndən sonra gəlib gördük ki, damın qapısı qoyub getdiyimiz kimi örtülüdü. Amma qoca yoxdu. Kişilər gedib meşələri, çölləri qarış-qarış gəzdilər ki, bəlkə babamdan əsər-əlamət tapsınlar, amma heç nə tapmadılar. O vaxt ağsaqqallar fikirləşib dedilər ki, kişi Allahın mömin bəndəsi olduğu üçün mələklər gəlib onu aparıblar göyə.

Kamırxan qarının neçə qızı, neçə oğlu olmuşdu. Ancaq mən qızı Xəlsə barədə demək istəyirəm.

Xəlsə tez-tez danışan, bir yerdə duruş gətirib dayanmayan bir qız idi. Onu aldılar Qarabağda hamının tanıdığı, hamının hörmət elədiyi Abdulla Əfəndinin qardaşı Ağa Məhəmməd Əfəndiyə.

Xəlsə nənənin dörd oğlu, bir qızı oldu. Ancaq uşaqlar lap körpə ikən Ağa Məhəmməd Əfəndi vəfat etdi, cavan, gözəl-göyçək bir gəlin olan Xəlsə də, Kürdobadakı Səkinə kimi, Alyanlı meşələrindəki Xanım kimi, dünyanın bütün zövq-səfasından gözünü çəkərək ərə getməyib, başladı uşaqlarını böyütməyə. Güneylərdə oturan qocalar başlarını ağır-ağır tərpədib onun haqqında dedilər:

– Sağ olsun, kişi qızıymış...

Nə qədər uşaqlar körpə idi, qonşu kişilər:

– Qorxma, bacı, – deyirdilər. Yerini şumlayıb əkirdilər. Hov eləyib taxılını biçib döyürdülər.

Ortancıl oğlu Abdulla çox fərasətli, zirək uşaq olduğu üçün əmisi Abdulla Əfəndi məsləhət gördü ki, onu Güney Güzdəkdən sək-

kiz kilometr aralıdakı Qarğabazar kəndində açılan beşillik rus-tatar məktəbinə qoysunlar.

Abdulla hər gün qarda, tufanda səkkiz kilometrlik Qarğabazar kəndinə ayaq döyüb bu məktəbi qurtardı.

Yaşda özündən böyük bacısı Şirinin əri Əbdüləziz Qarabulaq kəndində tikinti şeyləri satan böyük mağaza açmışdı, gödək, savadsız bir kişi idi. Güclə qol çəkə bilirdi, amma biclikdə şeytana papış tikərdi. Abdullanı götürdü öz mağazasına satıcı. Abdulla rus dilini bildiyi üçün Moskva, Xarkov kimi şəhərlərdən mal alıb gətirməyə yeznəsi onu göndərirdi. O da, çox cavan olsa da, bu cür işləri böyük məharətlə yerinə yetirirdi. Bilmirəm, necə oldusa, üç-dörd ildən sonra Abdulla mağazaya şərik çıxdı. Sonra yeznəsindən ayrılıb özü o cür mağaza açdı. Az zamanda əli elə gətirdi ki, yeznəsini sıxışdırıb bazardan çıxardı. Ona görə də yeznəsi Əbdüləziz Abdulla ilə oldu həmişəlik düşmən.

Söhbəti yenə də hərləyək kürdobalı Bayram bəyin üstünə. O, bir müddət Şuşada qulluq eləyəndən sonra onu Qarabulaq şəhərinə pristav təyin elədilər.

Bayram bəy oğlu Nurunu gimnaziyaya götürdüb qoydu ki, poçt naçalniki olan dostu İvanovun evində qalıb oxusun. Arvadı Fatma xanımla qızı Yaqutu da götürüb gəldi Qarabulaq şəhərinə. Arazboyuna səs düşdü ki, kürdobalı Səkinənin oğlu Bayramı Qarabulağa pristav göndəriblər. Obalardakı dövlətli ağsaqqallar dəstə-dəstə bəyin görüşünə gəlirdilər, özləri də, əlbəttə ki, əliboş gəlmirdilər, bahalı-bahalı sovqatlarla gəlirdilər. Kimi at, kimi dəvə, kimi qiymətli xalı... Bayram bəy də atları, dəvələri verirdi qardaşı Eyvaz aparıb Kürdobada qatırdı öz dövlətinə. Buna da Fatma xanımın acığı tutmağa başlayırdı:

– Ay kişi, – deyirdi, – hər şeyi verirsən qardaşına, bəs fikirləşmirsən ki, axı bizim də oğlumuz, qızımız var?

Bayram bəy də arvadına acıqlanıb deyirdi:

– Sənin borcuna qalmayıb, arvadsan, otur arvad yerində.

O vaxtdan da Fatmanın ürəyində ərinin anasına, qardaşına qarşı bir kin düyümləndi. Səkinənin Fatma ilə arası olmasa da, tez-tez oğlunun görüşünə gəlirdi, hər gələndə də Bayram bəy onu payla, sovqatla yola salırdı.

Bayram bəy istəyirdi ki, qardaşının qoyunu, atı, dəvəsi o biri dövlətli tərəkəmələrinkindən əskik olmasın, el yaylağa, arana gedəndə Məşədi Gülməmməd oğlu Eyvazın köçü o birilərinkindən kasıb görünməsin. Çox çəkmədi ki, Bayram bəyin hörməti-izzəti lap naçalnikin özündən də artıq oldu.

Bunun bir səbəbi də o idi ki, Arazboyundakı adlı-sanlı qaçaqlar kürdobalı Bayram bəyi öz adamları hesab edirdilər, onun başına and içirdilər. Çünki Bayram bəy onların öz içindən çıxmışdı, yəni onlar kimi rəiyyət oğlu idi, özü də cins nəsildən idi. Bir dəfə belə bir əhvalat oldu. Qəzaya Volkov adlı təzə naçalnik gəlmişdi. Bir az keçəndən sonra o gördü ki, camaatın bütün işi-sözü pristav Bayram bəylədi, onu heç sayan yoxdu. Başladı Bayram bəyi burunlamağa. Xəbər getdi çatdı Qaçaq Süleymana. Qaçaq Süleyman padşahdan qaçmışdı. Camaatla işi olan deyildi. Kasıblara, əlsiz-ayaqsızlara kömək eləyərdi, igidliyi də Qaçaq Nəbi kimi dillərdə dastan olmuşdu. Qaçaq Nəbi Aynalı tüfəngin zamanında ad almışdı, Qaçaq Süleyman da onatılanın...

Bir gecə naçalnik evində əyləşib xanımı ilə şıdırğı söhbət elədiyi zaman qapı taybatay açıldı, Qaçaq Süleyman əlində onatılan içəri girdi. Naçalnikin arvadı qışqırdı. Süleyman tapançasını qobura qoyub arvada dedi:

– Qorxma, xanım, biz adamyeyən deyilik.

Xanım bu solğun, sarıbəniz, arıq oğlanın nə dediyini başa düşməsə də, onatılanı qobura qoyduğunu görüb sakit oldu. Qaçaq Süleyman naçalnikə dedi:

– Qospadin komandor (o, poqonlu çar naçalniklərinin hamısını «komandor» adlandırırdı), əgər bu mahaldan sağ-salamat getmək istəyirsənsə, kürdobalı Bayram bəylə işin olmasın!

Naçalnik azərbaycanca yaxşı bilməsə də, Qaçaq Süleymanın nə demək istədiyini başa düşüb dedi:

– Yaxşı... yaxşı!

Qaçaq Süleyman naçalnikə dedi:

– Komandor, dediklərimi yaddan çıxarsan, yaxşı olmayacaq!

Sonra naçalnikin cavan arvadına:

– Bağışla, xanım! – deyib qapıdan çıxdı.

Bu əhvalatdan sonra naçalnikin yanında Bayram bəyin bir sözü iki olmadı.

CAVAN TACİRLƏ PRİSTAV QIZININ ƏHVALATI

Bayram bəyin qızı böyüyüb mina gərdənli, uzunsaçlı, bulaq suyu kimi şəffafgözlü bir gözəl olmuşdu. Qocası Səkinədən gələn bir xal qar kimi ağ boğazının yanına qonmuşdu. Müəllimlər gəlib ona evdə dərs vermişdilər. Kürdobalılarla yaylağa, arana köçəndə qız at minib oğlanlarla cıdıra çıxardı, nişana atardı, «Şahnamə»nin rəvayətlərini, Füzulinin, Natəvanın qəzəllərini oxuyardı. Anası Fatma xanımın tütünündən götürüb xəlvətcə çəkə-çəkə öyrənmişdi papirosa. Qulluqçularına o vaxtın ən bahalı papirosundan aldırıb atasından gizlədərdi, anası Fatma xanım qızının papiros çəkdiyini bilirdi, amma bir söz demirdi. Çünki özü də elə bu yaşlarında anası Xanımdan papiros çəkmək öyrənmişdi, özü də anası Xanım kimi əzazil deyildi, ürəyiyumşaq arvad idi. Bayram bəyin hər ay

oğluna kifayət qədər pul göndərməsinə baxmayaraq, Fatma xanım da ərindən gizlin eyzən ona pul göndərərdi. Ucaboylu, alagözlü, Həzrət Yusif kimi gözəl bir oğlan olan Nuru bəy də pulları sağa-sola səpələyib kef çəkərdi. Şuşa qalasının ermənilər yaşayan hissəsində olan klublarda səhərəcən qızlarla rəqs edərdi...

Yaquta hər tərəfdən elçilər gəlirdi, amma Bayram bəy anası Səkinənin, Kürdoba ağsaqqallarının məsləhətilə Muradxanlı obasından olan Hacı Hüseynin oğlu Məhərrəm üçün gələn elçilərə söz verdi. Hacı Hüseynin dörd-beş min qoyunu, neçə yüz atı, neçə dəvəsi var idi. Özü də tikanlı tayfadan idi. Obanın yarısı onun qohum-qardaşı olub, hamısı da sayılan, karlı adamlar idi. Hacı barmağını qaldırsaydı, yüz atlı, tüfəngli adam hazır olardı. Məhərrəm də at minib tüfəng tutan boy-buxunlu, yaraşıqlı bir oğlan idi. Neçə dəvə yükü yağ, motal, neçə qaradiş erkək, neçə mötəbər ağsaqqal gəldi, nə qədər qızıl, zinət, zərxara, parça gətirdilər. Yaquta nişan taxdılar.

Sonra Hacı Hüseyn, Bayram bəyi bütün ailəsilə Haramıya qonaq çağırdı. Qonşu obalardan da adlı-sanlı adamlar gəldi, erkəklər kəsildi, hərəsi iki vedrə su tutan iri qazanlar asıldı. Böyük qonaqlıq oldu, sonra ən qaçağan atların cıdırı başlandı. Nişanlı oğlan atın qızğın qaçarağında beşatılanla dalbadal səkkiz nişana vurub igidliyini göstərdi. Yaqut da alaçıq çətənəsinin arasından baxıb gülümsədi, zarafatcıl gəlinlər də bunu görüb biclikla bir-birinə göz vurdular. Oğlanın boy-buxunu, at minməyi qızın xoşuna gəlirdi. Amma heç bir dəfə də üz-üzə əyləşib söhbət eləmədilər. Atalar qərara aldılar ki, payızda, yəni el dağdan qayıdanda toy eləsinlər. Ancaq bu dünyada azmı qəribə işlər olur?!

Qarabulaq şəhərinin şimal tərəfində, bir-birindən aralı olan Quruçayla Köndələnçayın arasında başıkəsik ehrama oxşayan Qarı dağı var. Qoy əvvəlcə ondan danışım.

Şəhər otuz doqquz gün mühasirədə qalaraq, uzaq məmləkətdən qoşun çəkib gəlmiş şahla vuruşdu. Qırxıncı gün şahın iyirmi yaşlı cəsur oğlu Malikтac beş yüz nəfər seçmə pəhləvanla hasarın bir tərəfindən hücum edib şəhərə girdi. Onun ardınca bütün qoşun yol tapıb şəhərə doldu.

Yerli əhalinin inadından, təslim olmaq üçün dəfələrlə edilmiş təklifi rədd etməsindən qəzəblənmiş şah vəziri Taygöz Yusifi çağırıb kimsəyə aman verməməyi əmr etdi.

Taygöz Yusif şəhərin sağ qalmış yeddi min əhalisini uşaqdan böyüyə qılıncdan keçirdi. Evlər dağıdıldı. Qan su yerinə axdı.

Üçgünlük qırğından sonra şah şəhərdən çıxıb yaşıl bir təpə üstündə çadırlar qurdurdu. Üç gün, üç gecə şadyanalıq etməyi, qalibiyyət bədələri qaldırmağı qoşun əhlinə əmr etdi.

Qızıl işləməli, firuzə rəngli küzələr yeddiillik Şiraz şərabları ilə doldurulduq. Əti məcun olan beşillik qara erkəklər kəsildi. Ovçular

Qarabağ meşələrindən tükləri alov kimi yanan qırqovullar gətirdilər.

Hökmdar yeddi dirəkli çadırında, yeddi tirmə döşək üstündə əyləşdi. Atlas geyimli Nişapur sazəndələri gəldi. Süfrələr döşəndi, qızıl qədəhlər düzüldü. İlk badələr qaldırılan zaman yetmiş yeddi şeypur şahlar şahının qələbəsi şərəfinə gurladı.

Lakin elə bu vaxt şahın qorxunc vəziri Taygöz Yusif içəri girib hökmdarın hüzurunda yerə qədər təzim etdi. Şah boşalmış qədəhini yanındakı qara qula verib qaşlarını çatdı.

– Haradasan, vəzir? – Yoxsa mənim qələbəmin təntənəsi, səncə, mənasızdır?

Taygöz Yusif bir daha yerə qədər təzim edib:

– Qibleyi-aləm, – dedi, – mən aciz Yusif sənin sadiq qulunam. Şahlar şahının hüzuruna gecikməyimin səbəbi var.

Hökmdar vəzirinin səsindəki qara xəbər əlamətini duyaraq:

– Nə olub, vəzir? Tez söylə! – dedi.

Vəzir üçüncü dəfə təzim edib:

– Qibleyi-aləm yüz illər sağ olsun! Oğlun Malikтac xəstələnmişdir, – dedi.

– Nə danışırsan, vəzir? – deyə şah ayağa qalxdı.

Şahzadə Malikтac qonşu çadırda, qızdırma içində yatırdı. Hər tərəfində yeddi qara qul, əlləri döşündə, sükut içində dayanıb gözlərini ona zilləmişdi.

Hökmdar vəzirin müşayiətilə çadıra daxil olduqda qullar yerə döşənib alınlarını torpağa qoydular. Sonra qalxıb dalı-dalı on addım geri çəkildilər. Şah oğluna yanaşıb, barmaqlarında lal-cavahir sayrışan ağ əlini onun alnına qoydu.

– Oğlum, Malikтac! – deyə həyəcanla səsləndi.

Lakin xəstədən cavab gəlmədi. O zaman şah rəngi ağarmış üzünü vəzirə sarı çevirib qorxulu və titrək səslə:

– Bu saat hər tərəfə çaparlar göndərilsin. Qoy dünyanın bütün biliciləri buraya toplansın, – dedi.

Şah bütün günü oğlunun başı üstündən tərpənmədi, gözlərini yummadı. Heç nə yemədi.

Səhəri vəzir qayıdıb:

– Qibleyi-aləm, – dedi, – şəhərdə ancaq tək-tək qocalar, uşaqlar qalıb, qırılan qırılıb, sağ qalanlar da gecə ikən meşələrə qaçıb. Çox axtarandan sonra bir falçı qarıya rast gəldik.

– Bəs falçı nə oldu? – deyə şah qəzəblə soruşdu.

– Gəlmədi. Şahzadənin yanına gətirilməsini istədi. Mən onu ocağa atdırıb yandırardım, qibleyi-aləm, ancaq...

Şah vəzirin sözünü kəsib:

– Taxt-rəvan hazırlansın, – dedi.

Hökmdar öz rəiyyəti ilə birlikdə insan cəsədləri ilə dolu xaraba küçələrdən keçib, balaca bir komanın qabağında dayandı. Taxt-rəvanı qulların çiynindən alıb yerə qoydular. Şahzadəni ehtiyatla içəri gətirdilər. Yarıqaranlıq evin içində ucaboylu bir qarı durmuşdu. Şah daxil olan zaman o, yerindən qımıldanmadı, təzim etmədi, bir heykəl sükunəti ilə dayanıb durdu.

Şah keçib xəstənin baş tərəfində qoyulmuş döşək üstündə əyləşərək:

– Qarı, – dedi, – deyirlər, sən cinlərin, uğursuz ruhların dilini bilirsən. Sağalmaz dərdlərə dava edirsən. Budur, mənim oğlum Malikтac od tutub yanır. Məşum ruhlar onun huşunu oğurlayıb aparmışlar. Səndən əlac istəyirəm, qarı! Əgər onu sağaltsan, evinin dirəklərini qızıla tutduracağam. Əgər xəyanət etsən, cəhənnəm kimi zəbanə çəkib yanacaqsan.

Qarı:

– Mən anayam, – dedi və bir qab su alıb taxt-rəvanın qarşısında yerə çökdü. Sonra dodağının altında nə isə oxuyub suya üfürdü və bir an kasaya diqqət edərək ağır zəhmli nəzərlərini qaldırıb:

– Ey şah, – dedi, – mən burada minlərlə qəzəbli ruh görürəm. Onlar xəbər alırlar: «Şah oğlunu çoxmu sevir?»

– Nə danışırsan, qarı? – dedi. – O mənim yeganə varisimdir. Böyük bir məmləkət gözünü ona dikmişdir. Mən yeddi il dua edib, yeddi min qurban kəsəndən sonra böyük Yaradan onu mənə ata etdi. O böyüdü, Kəyan mülkündə birinci pəhləvan oldu.

Falçı təkrar suya baxıb:

– Ağsaçlı bir qarı soruşur: «Şahzadənin anası varmı?»

– Var, qarı, – dedi, – onun anası Xədicəbanu yer üzündəki arvadların ən xoşbəxtidir. Çünki o mənə Malikтac kimi oğul bəxş etmişdir. Tez ol, qarı, oğlumun dərdinə əlac et. İndi Xədicəbanunun yuxusuna qara ilanlar girir.

Qarı bayaqdan bəri ilk dəfə olaraq başını qaldırıb xəstə şahzadəyə baxdı və elə bil ki, oğlanın solğun gözəlliyi onun gözlərini qamaşdırdı. Qarının kirpikləri qırpındı, bəbəkləri böyüyüb quru bir parıltı ilə yandı. Qarı qalxıb xəstəyə yanaşdı. Damarları çıxmış quru və kobud əlini onun sinəsinə qoydu.

Xəstə göz qapaqlarını qaldırdı. Yaralı ceyran gözlərinə bənzər bir cüt qara, məlul göz arvada zilləndi. Qarının günəşdən və dərddən yanıb qaralmış heybətli üzü qəribə bir nurla işıqlandı. Axı, o, ana idi.

Sonra qarı dağlara gedib bir ətək çiçək gətirdi. Onların şirəsini çəkib qaşıq-qaşıq xəstənin boğazına tökdü. Gecə-gündüz yanından tərpənmədi.

Şəhərdə sağ qalmış yerliləri ona lənət yağdırdılar. Güneylərdə oturan qocalar onu gördükdə, gözlərini endirib ayaqlarının ucuna

baxdılar, yadellilərin nəzərindən iraq yerdə görüşən arvadlar başını bulayıb:

– Eh, Ballı qarı, imansız oldu, – dedilər.

Xəlvətə düşəndə uşaqlar onun ardınca düzülüb:

– Ay falçı, bəs qızıl başmağın hanı? – deyə tənə etdilər.

Qarı həmyerlilərinin bütün bu nifrətini sükutla qarşılayır, hər gün dağlara gedir, qucaq-qucaq çiçək gətirir, xəstəni müalicə edirdi.

Nəhayət, yeddi gündən sonra şahzadə gözlərini açıb yemək istədi. On birinci gün isə onun tamamilə sağalıb ayağa qalxdığını qoşun əhlinə xəbər verdilər.

Şah falçıya bir kisə qızıl verib:

– Qarı, – dedi, – o çiçəklərin hikmətini aç mənə söylə.

Qarı başını bulayıb:

– O sirri mən heç kəsə açа bilmərəm, hökmdar, – dedi. – Ancaq oğluna o çiçəklərdən çəkilmiş elə dərman verərəm ki, bir də azar üzü görməz.

Bu sözlərdən sonra qarı qızılgül rəngli maye ilə dolu bir kasa gətirdi. Şah kasanı alıb burnuna tutdu:

– Bu müşkdür, ənbərdir, nədir, qarı? Ətri insanı bihuş edir.

– O dünyanın ən nadir çiçəklərindən çəkilib, – deyə qarı cavab verdi.

Hökmdar dərmanın yarısını özü içib qalanını da oğluna verərək:

– And içirəm ki, mən ömrümdə bu şirinlikdə şərbət görməmişəm, – dedi.

Şahzadə qalan şirəni son damlasına qədər içib, kasanı qaytardığı zaman falçı rahat nəfəs aldı. Şah qarının üstünə daha bir kisə qızıl tullayıb, yanında dayanmış Taygöz Yusifə müraciətlə:

– Vəzir, – dedi, – o vaxt uğursuz ruhlar mənim şənliyimi pozmuşdu. İndi dünyada heç bir dərdim yoxdur. Qoşun əhlinə tapşır, üç gün, üç gecə elə bir şadyanalıq etsinlər ki, göydə günəşin üzü tutulsun.

– Atılan ox bir daha geri qayıtmaz, hökmdar, hər dəqiqənin bir hökmü var! – Ballı qarı astadan dilləndi.

– Dəlimi olmusan, arvad? Nə danışırsan? – deyə şah qəzəblə yerindən qalxdı və birdən mədəsində hiss etdiyi ağrıdan sarsılaraq əl atıb vəzirin çiynindən yapışdı.

Elə bu anda şahzadə də kökündən qırılmış sərv kimi silkələnib, arxasında dayanmış qara qulun qucağına aşdı.

– Zəhər! – Hökmdarın sinəsindən vəhşi bir səs qopdu.

– Bəli, zəhər... – deyə Ballı qarı arxayınlıqla təkrar etdi.

Şah yerdə ilan kimi qıvrılan oğluna baxıb:

– Vəzir, əlac! – deyə qışqırdı.

Və ayaq üstündə dayana bilməyib, döşəyin üstünə yıxıldı. Sonra başını qaldırıb:

– Qarı, – dedi, – heç olmasa, oğluma bir çarə elə. Axı, sən onu ölümdən qurtarmışdın, axı sən deyirdin mən anayam.

– Bəli, qibleyi-aləm! – deyə Ballı qarı «ah» çəkdi. – Mən anayam!..

Şah ilə oğlu dəhşətli əzablardan sonra öldülər...

Taygöz Yusifin əmri ilə qarını öz otağında qoyub qapını bağladılar. Sonra qoşun əhlinin hər biri onun komasının üstünə bir at torbası torpaq tökdü. Günün axırında günəşin son işığı Savalanın zirvəsindəki buludlarda saralıb sönən zaman qarının koması üstündə böyük bir təpə qalxdı. Sonra yağan yağışlar onun torpağını bərkitdi. Gələn bahar təpədə sarı tikanlı boz qanqallar bitdi. Təpəyə «Qarı dağı» dedilər.

Sonrakı əsrlərin küləkləri, selləri şəhərin xarabalıqlarından heç bir əsər qoymadı. Onun yeri hər bahar qızıl lalələrlə örtülən bir düzənlik oldu. Şəhərdən yadigar yalnız Qarı dağı qaldı. O vaxtdan bəri Qarı dağının altından bir çeşmə qaynayır. Uzaq mənzildən gəlib-keçən yolçular onun suyundan içib ürəklərinin yanğısını söndürürlər...

Yaz-yay axşamlarında şəhər əhli Qarı dağına, Quruçayın kənarlarına, çaydan bir az bəridəki Molla Yaqub bağına gəzməyə çıxardılar. Molla Yaqub malakan olub, əsl adı da Yakov idi. Uzunsaqqal, xoşsifət bir kişi idi. Yerli əhali Yakovu azərbaycanlılaşdıraraq Yaqub eləyib yanına da molla sözünü əlavə eləmişdi. Vaxtilə çarın bu yerlərə sürgün elədiyi malakanların dövlətli ağsaqqallarından idi. Molla Yaqub da öz qaydası ilə yerli əhalinin, yəni biz azərbaycanlıların bütün xeyrində, şərində iştirak eləyib, hörmətli bir şəxs kimi yuxarı başda əyləşdirilirdi.

Molla Yaqub şəhərdən aralı, həmin Quruçayın yaxınlığında saldığı bağda nadir ağaclar əkmişdi. Yazda bu ağacların hərəsi bir cür çiçək açır, bir cür ətir saçırdı. Molla Yaqub bağını çəpərləməmişdi, yəqin ona görə ki, yazda-yayda gəzməyə çıxan adamların ayağını bağdan kəsmək istəmirdi. Öz qaydası ilə adamlar da Molla Yaqubun bir ağacına, bir meyvəsinə də toxunmazdılar, ancaq dəcəl uşaqlara görə bağın qoca bir qarovulçusu var idi, o da bağın aşağı tərəfində hündür bir talvar qurub, gecələr orada yatardı...

Bir yaz axşamı əynində bahalı tünd parçadan kostyum, belində qızıl toqqa, ayaqlarında par-par parıldayan şibilit çəkmə, başında qiymətli sur dərisindən papaq, qaragöz, qaraqaş, enlikürək bir oğlan olan Abdulla öz dostlarıyla Molla Yaqubun bağına gəzməyə çıxdığı zaman orada bir dəstə qız-gəlinin içində pristav Bayram bəyin qızı gözəl Yaqutu görüb bir könüldən min könülə vuruldu ona. Əynində uzun qanovuz tuman, ayaqlarında dikdaban tufli, zərxara arxalığının üstündən incə belinə daş-qaşa tutulmuş enli qızıl kəmər çəkilən, boğazının altında qızıl silsilə, ağ biləklərində qızıl bilərzik olan gözəl Yaqut da cavan tacirə baxıb gülümsədi. Bu vaxt yenicə daşmış Quruçay güdrətli nəşə ilə qıjıldayırdı, yenicə açılmış ərik çiçəkləri arasında quşlar sevinclə çığırışırdı, qurşağa qədər qalxmış yaşıl buğda zəmilərinin üzərilə əsib gələn ətirli meh Yaqutun geriyə sürüşmüş ağ, ipək kələğayısı altından çıxan xurmayı saçlarını xəfif-xəfif tərpədirdi. Bağın üst tərəfindən keçən və ətrafında sarı, firuzəyi, qırmızı çiçəklər bitən cığırda dayanmış qızlar cavan tacirin Yaquta necə baxdığını görüb gümüş qəhqəhələrlə gülürdülər.

... Sonra cavan tacir pristav Bayram bəyin ailəsi yaşayan ikimərtəbəli binanın qabağından gündə on dəfə belədən-beləyə keçməyə başladı. Hər dəfə də nişanlı qız ona baxıb gülümsəyirdi. ...Tacir oğlan da gülümsəyirdi. İkisi də gözəl idi, ikisinin də mirvari kimi dişləri görünürdü. Cavan tacir heç malakan qızı Katya ilə görüşəndə belə olmurdu.

Yaqut da nişanlısı Məhərrəmi görəndə belə olmurdu.

Cavan tacir bilirdi ki, pristavın qızı ondan da dövlətli bir oğlana nişanlıdır. Bir gün tacir ucaboylu, təzə qazağı yəhərli qəşəng ürgənin üstündə həmin nişanlı oğlanın pristav yaşayan evin həyətindən çıxdığını görüb xeyli pərişan oldu. Ancaq nişanlı oğlan ona əhəmiyyət vermədən ayaqlarını yavaşca tərpədərək cavan ürgəni çapıb gedəndən sonra qız yenə də eyvana çıxaraq Abdullaya baxıb gülümsədi.

Səhər cavan tacir gözəl xətlə, ipək kağızda pristav Bayram bəyin qızına aşiqanə bir namə yazıb axırını da Füzulinin qəzəlindən bu misralarla qurtardı:

Ah eylədiyim sərvi-xuramanın üçündür,
Qan ağladığım qönçeyi-xəndanın üçündür.
Sərgəştəliyim kakili-mişkinin ucundan,
Aşüftəliyim zülfi-pərişanın üçündür.

Sonra Bayram bəyin Kürdobadan gətirdiyi on altı-on yeddi yaşlı ev nökəri dələduz Bünyada bir qızıl beşlik bağışlayaraq, məktubu onun vasitəsilə göndərdi qıza. Yaqut da məktubu alıb gül-sənubərə bürünən dal eyvana qaçaraq ürəyi atlana-atlana oxudu. Gözəlliyi haqqında, məhəbbəti haqqında qız öz nişanlısından belə sözlər eşitməmişdi, nişanlısı onun «yay qaşları», «ox kirpikləri» haqqında, «müşkü-ənbər saçan qulac-qulac saçları» haqqında ona bir kəlmə də deməmişdi. Onu Bakı, Tiflis, Peterburq kimi şəhərlərə aparıb gəzdirməyini vəd eləməmişdi. Cins qadın tayfası cins madyan kimidi. Nə qədər oxşanıb tumarlansa, o qədər mehriban olar...

Sonra Yaqut özü də bir namə yazıb Bünyad vasitəsilə göndərdi cavan tacirə. Oğlanın şadlığı yerə-göyə sığmırdı. O saat yenə bir namə yazıb verəndə, dələduz Bünyad dedi:

– Gərək mənə bir dəst diaqonal paltarlıq alasan, sonra kağızı aparım.

Ayrı vaxt qəpiyin haqq-hesabını çəkən cavan tacir bu dəfə çək-çevir eləmədən sövdəgər Məşədi Qaradan bir dəst paltarlıq alıb Bünyada verdi. Bünyad da gətirib paltarlığı zirzəmidə odunların arasında gizlədərək, məktubu aparıb verdi Yaquta.

Oğlan bu məktubunda Yaquta təklif edirdi ki, gəlsin ona. Ancaq qız cavabında qəmgin-qəmgin yazdı ki, bu, mümkün deyil, çünki o, başqasına nişanlıdı. Özü də kəbinləri kəsilib, bu gün-sabah toyları olasıdır və qız bu dərdli naməni «Leyli və Məcnun»dan götürdüyü bu nisgilli misralarla qurtardı:

Ey möhnəti eşqdən xəbərdar,
Gör tanrı üçün nə möhnətim var!
Qıl taleyi-ahimə nəzarə,
Gör var isə rəhmin, eylə çarə!

O zaman cavan tacir qıza uzun bir namə yazıb dedi ki: «Gəl, səni götürüm qaçım». Oğlanın bu təklifi qızın gözləri qabağında bir aləm açdı. Bu aləmdəki qorxular qıza bir nağıl kimi cazibədar göründü, lap Kərbəlayı İbixandan da o yana, şahlarla vuruşan qaçaq-quldur babalarının, at minib tüfəng atan Səkinə nənəsinin, atasının düşmənini güllə ilə vuran Xanım nənənin qanı qızın damarında qaynamağa başladı və o, oğlana yazdı ki, «sənin lap tilsimli Qaf dağına da gedərəm».

Cavan tacir ağıllı oğlan idi, bilirdi ki, arxası Kürdoba, Arazqıraği tərəkəmələrinə bağlı olan, divan-dərədə sözü ötən pristav Bayram bəyin nişanlı qızını götürüb qaçmaq nə deməkdir. Bilirdi ki, Hacı Hüseynin kəbinli gəlinini götürüb qaçmaq nə deməkdir. Ona görə də, bu qorxulu işə diqqətlə hazırlaşdı. Özü kimi zirək bir oğlan olan kiçik qardaşı Fərhadı kənddən gətirdib mağazada oturdaraq şeylərin qiymətini, alverin yol-yolağasını ona başa saldı. Sonra ora-bura gedəndə həmişə faytonuna əyləşdiyi uzunburun, qumarbaz Çarvadar Həbibi çağırıb dedi:

– Gərək gecə ikən bizi çatdırasan Ağdama!

Belə işlərdən Çarvadar Həbibin sümüyü oynağa gedərdi. O, qiymət-filan danışmadan əlini sağ gözünün üstünə qoyub dedi:

– Sənin kimi oğlandan ötrü lap Fitilbörkə də gedərəm, özü də belə xeyir iş üçün.

Çarvadar Həbib bilirdi ki, cavan tacir faytonçudan, hamamçıdan, bir də dəlləkdən pul əsirgəyən deyil. Çarvadar Həbib Şuşa qalasından idi. Dumanlı dağlarda, gözəl səsli xanəndələrin «Segah»ını, «Rast»ını, «Çahargah»ını eşidə-eşidə böyümüşdü. Məhəbbətin nə demək olduğunu bilirdi, özü də pəsdən oxuyan lotu bir oğlan idi.

Gecə bütün şəhər yatandan sonra Abdulla Çarvadar Həbibin üç saz atlı faytonuna əyləşərək sürdürdü qızla vədələşdikləri yerə. Yaqut da pal-paltarla, zinət şeylərilə dolu çamadanını xəyanətkar Bünyada götürdərək xəlvətcə evdən çıxdı. Onu da deyim ki, qız ona nişan gələn şeylərdən birini də götürmədi. Brilyant nişan üzüyünü də çıxarıb qoydu stolun üstünə.

Fayton tərpənəndə dələduz Bünyad fürsəti fövt eləməyib cavan tacirə dedi:

– Bəs mənim salamatım?

Cavan tacir bu barədə əvvəldən düşünmədiyi üçün xırda pul götürməmişdi. Qızdan utanaraq, elə bütöv bir qızıl çıxarıb verdi Bünyada. Bünyad da qızılı alan kimi götürüldü. Çarvadar Həbib:

– Yaman bic gədədi, – deyib güldü. Sonra çamadanları faytonun arxasına qoyub, diqqətlə bağladı. Sonra qozlaya qalxaraq:

– Ya Allah! – deyib atları tərpətdi.

Fayton səssizcə şəhərdən çıxıb şose yola düşdükdə, Çarvadar Həbib atların cilovunu boşaltdı, bütün günü möhkəm yeyib dincələn harın atlar Ağdama doğru həvəslə götürüldü. Onlar bu yolu çox getmişdilər, bilirdilər ki, onları qabaqdakı dayanacaqlarda ağ arpa, sərin bulaq suyu gözləyir.

Fayton gecənin səssizliyində şəhərdən çıxaraq bir qədər gedib əvvəl xoş şırıltı ilə axan Hacılı arxını keçdi. Sonra köpükləri Ay işığında ağaran, qızmış nər kimi nərildəyən Quruçaya yaxınlaşdı. Çarvadar Həbib atların cilovunu çəkib dayandıraraq, düşüb keçalatı diqqətlə nəzərdən keçirdi. Abdulla da faytondan qalxıb baxdı. Adama elə gəlirdi ki, dağlardan hücumla gələn bu çayın qabağında heç nə dayanmaz. Ancaq Çarvadar Həbib sakitcə qozlaya qalxıb:

– Ya Allah! – deyərək cilovunu tərpətdi.

Atlar özlərini cəsarətlə vurdular çaya, cavan tacir istəklisinə pıçıldadı:

– Qorxmursan ki?

Qız, Ay işığında oğlana yanakı baxıb gülümsədi:

– Nədən qorxacam?..

Bu onların arasında olan ilk mükalimə idi.

Su faytonun ayaq qoyulan yerinə qədər qalxmışdı. Əlbəttə, bu keçalat çayın ən dayaz yeri idi. Ancaq su iti axdığı üçün az qalırdı faytonu aşırsın.

Kürdoba camaatı yaylağa köçəndə qız atla, dəvə ilə belə daşqın çayları çox keçmişdi. Ona görə də, cavan istəklisinin narahatlığı qızı əyləndirirdi.

Çarvadar Həbib atları ürəkləndirmək üçün cürbəcür səslər çıxarırdı. Çayın ortasına çatdıqda cavan tacirə elə gəldi ki, düz-dünya Ayın işığında ağaran bu harın çaydan ibarətdir. O, diqqətlə istəklisinə baxdı, amma gördü ki, qızın Ay işığında gülən gözlərində zərrə qədər də qorxu yoxdur. Atlar sahilə yetib yamaca qalxanda Çarvadar Həbib axırıncı dəfə:

– Ya Allah! – deyib şallağı havada şaqqıldatdı.

Həmişə onları tumarlayıb əzizləyən, bəzən arpalarına kişmiş qatan sahiblərinin bu səsindən atlar cuşa gəlib çayın sahilindəki yoxuşu dörddəmə çıxdılar.

Fayton dolayları enərək Köndələnçayı da keçdikdə, Çarvadar Həbib bir papiros yandırıb qoydu damağına. Fayton Dövlətyarlı kəndinin içindən keçəndə xoruzlar banlayırdı. Həmişə belə gecəyarısı xoruz banlayanda, nə üçünsə, Yaqutun ürəyindən bir qəmginlik keçərdi. İndi də belə oldu. Qıza elə gəldi ki, ata-anasından, doğulduğu yerlərdən ayrılıb tamam başqa bir aləmə gedir... Onun ürəyi kövrəldi. Oğlan əyilib usdufca qızın üzündən öpdü.

Atlar yüngül yorğa ilə gedirdi. Ay batmışdı. Bəzən yolun bu tərəfindən o tərəfinə gözləri yaşıl fənər kimi parıldayan tülkü, ya canavar qaçıb keçərək adam boyu qalxmış zəmilərin arasında yox olurdu. Atların zınqırovları xoş avazla səslənirdi, dan yerindən sərin yel qalxırdı. Qız ilə oğlan faytonçudan həya edərək danışmırdılar. Ancaq məlum məsələdir ki, bir-birilərini hiss edirdilər. Bir-birilərinə baxıb gülümsəyirdilər.

Dediyim kimi, yaxşı pəsdən oxumağı olan Çarvadar Həbib də həya eləyib susurdu. Amma faytondakılar ancaq kişi tayfası olsaydı, Çarvadar Həbib bütün yol boyu gah «Rast» üstündə, gah da «Segah» üstündə zümzümə edərdi. Qarabağ toylarında Çarvadar Həbibin çırtıq vura-vura məzəli oynamağı da var idi. Hətta bu barədə:

Bu havanın adı ənzəli, Çarvadar Həbib,
Bir addım da tullan irəli, Çarvadar Həbib,
Çal çuxanı, vur çırtığı, Çarvadar Həbib! –

deyə başlayan gülməli bir mahnı da qoşmuşdular.

Dan yeri qızarırdı. Bir azdan gün çıxıb Qarabağ çöllərini işıqlandırdı. Fayton az getdi, üz getdi, çatdı Pirağbulaq dərəsinə. Bu o dərə idi ki, burada Güney güzdəkli Bayandur öz igidlərilə axta Ağa Məhəmmədin qoşunlarına divan tutmuşdu. Bu o dərə idi ki, Gəncə qaçağı dəli Alı burada namərd Şiralı xanı öldürüb həmyerlilərinin qisasını almışdı. Fayton dərəyə girəndə Çarvadar Həbib dərənin o tayında köhnə günbəzin qabağındakı tək ağacın kölgəsində dayanmış bir adam görüb atları qovmaq istədi. Ancaq dar yolun o tərəf-bu tərəfindən ona tuşlanan tüfəngləri görüb atların cilovunu çəkdi. Kolların dalından çıxan iki tüfəngli qaçaqdan biri Həbibə əmr etdi:

– Ə, uzunburun köpəkoğlu, döndər faytonu, sür günbəzin yanına!

Ona da Çarvadar Həbib deyərdilər! Qaçağa qəzəblə baxıb dedi:

– Ağzını dağıtma, ə, adam oğlusan! Sür deyirsən, sürərəm!

– Sür! – deyə qaçaq qışqırdı.

Cavan tacir qaçaqlara dedi:

– Qoy qız otursun faytonda, biz gedək.

Qaçaq ona qulaq asmayıb yenə də Çarvadar Həbibə qışqırdı:

– Ə, heyvərə! Sənə demirəm, döndər faytonu?!

Həbib faytonu döndərib köhnə günbəzin qabağına sürdü.

Faytonu saxlayanda ağacın kölgəsində dayanan oğlan bir-iki addım irəli yeriyib, Çarvadar Həbibdən soruşdu:

– Kimdi apardıqların?

Cavan tacir faytondan düşüb, sakit səslə oğlana dedi:

– Mən Abdulla Əfəndinin qardaşı oğluyam. Faytondakı qız da mənim nişanlımdır.

Qaçaqbaşı soruşdu:

– Güney güzdəkli Abdulla Əfəndinin qardaşı oğlusan?

Abdulla dedi:

– Bəli.

Qaçaq soruşdu:

– Bəs bacı kimlərdəndi?

Abdulla dedi:

– Kürdobalı pristav Bayram bəyin qızıdır.

Qaçaqbaşı soruşdu:

– İndi səfəriniz hayanadı?

Abdulla dedi:

– Gedirik Ağdama.

Sonra qaçaqbaşı portmanatından bir üzük çıxarıb faytona yaxınlaşdı:

– Bunu sənə boygörüncəyi verirəm, bacı! Qoy Qaçaq Xanmuradan sənə yadigar olsun.

Yaqut nişanlısına baxdı. Cavan tacir təmkinlə dedi:

– Boygörüncəyini rədd etmək olmaz. Götür.

Yaqut üzüyü alıb taxdı barmağına və lap köhnə tanışlar kimi qaçaqbaşıya dedi:

– Sağ ol, Xanmurad.

Qaçaqbaşı dedi:

– Bacı, Bayram dayı məni yaxşı tanıyır. Bağışla ki, uşaqlar səni yoldan saxlayıblar.

Sonra qaçaqbaşı cavan tacirə dedi:

– Sizə yaxşı yol, qardaşlıq!

Fayton tərpənib Pirağbulaq dərəsindən çıxdı, bu vaxt bayaqkı yerə başqa bir fayton gəldi.

Abdulla diqqət yetirib gördü ki, faytonun içində əyləşən barmağında iri brilyant üzük olan lopabığ, xəsis milyonçu Nersesdi. Qaçaqlar o faytonu da döndərib apardılar Qaçaq Xanmuradın hüzuruna.

Çarvadar Həbib gülümsəyib dedi:

– Allah yaxşılığı əvəzsiz qoymaz, – deyərlər. Nersesin barmağındakı brilyant üzüyün min qızıl qiyməti var.

Çarvadar Həbib papağının dalını qaldırıb atları tərpətdi, qaçaqlar onun atlarını tutub almadıqları üçün Çarvadar Həbibin kefi doxsan doqquza qalxmışdı. Fayton Pirağbulaq dərəsindən uzaqlaşanda Çarvadar Həbib əlavə etdi:

– Qaçaq Xanmurad deyilmişcən varmış... Sağ olsun.

Qaçaq Xanmurad təzə meydana çıxmışdı. Özünün də iyirmi iki-iyirmi üç yaşı ancaq olardı. Onun da Qaçaq Süleyman kimi, kasıb-kusubla işi yox idi. Çox əli iti igid idi.

Nişanlısının cavan qaçaqbaşıya necə maraqla baxdığını fikirləşəndə, ayaqlarında uzunboğaz çəkmə, başında bahalı buxara papaq, belində üç qatar patron, böyründə qırmızı ağac qoburlu onatılan olan qaçaqbaşının uca qədd-qamətini gözlərinin qabağına gətirəndə cavan tacir özünü birtəhər hiss elədi.

... Axşam gün batanda fayton Ağdamın yeddi-səkkiz kilometrliyindəki Novruzlu kəndinə daxil oldu. Bəndalı yüzbaşı kürsülü artırmada əyləşib ov tüfənginin gilizinə barıt-qırma doldururdu. Atların zınqırov səslərini eşidib, başını qaldıranda gördü ki, darvazanın ağzında bir fayton dayandı. Kişi əlini işindən çəkməyib bərkdən səsləndi:

– Qonaq, darvaza açıqdı!

Əvvəlcə Çarvadar Həbib çamadanları götürüb girdi həyətə. Sonra cavan tacir, ardınca da nişanlısı daxil oldular həyətə. Qız tamam yaşınmasa da, yaşmağı burnunun qabağına qədər çəkmişdi. Bəndalı yüzbaşı zənən xeylağı ilə cavan oğlanı görən kimi gilizi stolun üstünə qoyub ayağa qalxdı:

– Xoş gəlmisiniz, – dedi, – buyurun yuxarı!

Bəndalı kişinin ətli-canlı arvadı qızın qolundan tutub apardı evin qadınlar olan hissəsinə.

Abdulla da artırmaya çıxıb kişiylə əl tutuşdu. Bəndalı yüzbaşı dedi:

– Həbib, sən də çıx yuxarı!

(Qarabağda Çarvadar Həbibi kim tanımırdı ki?..)

Çarvadar Həbib dedi:

– Allah razı olsun, Bəndalı dayı, atların arpa vaxtıdı, gərək gedim.

Bəndalı yüzbaşı cavan tacirə dedi:

– Qardaşoğlu, buyur içəri.

Onlar xalı-gəbə ilə döşənmiş zala daxil olub ipək döşəkcələrin üstündə əyləşdilər. O saat arvad-uşaq olan tərəfdəki mətbəxdə qazanlar asıldı. Çay qoyuldu. Kəklikli-turaclı plov bişirildi. (Qarabağlıların kəklikli-turaclı plovuna nə söz?)

Yeyib-içəndən sonra Bəndalı yüzbaşı dedi:

– Hə, qardaşoğlu, indi danış görək hansı qohumlardansız?

Abdulla hər şeyi olduğu kimi danışıb qurtaranda Bəndalı yüzbaşının üzü tutuldu. O, bir qədər sükutdan sonra dedi:

– Buranı öz eviniz hesab eləyin. Heç bir şeydən də ehtiyatlanma.

Sonra Bəndalı yüzbaşının neçə il qaçaqlıq eləyib, keçən il üzə çıxan kiçik qardaşı Çıraq da gəlib qonaqlara «xoşgəldin» elədi.

Bəndalı yüzbaşının gülöyşə nar, peyvənd əzgil, iri heyva ağacları ilə dolu qalın kölgəli bağı, kürsülü evin sütunlarına sarılan enliyarpaqlı üzüm tənəkləri Yaqutun xoşuna gəlirdi. O, burada özünü qərib hiss eləmirdi.

Bəndalı yüzbaşı çoxdan yüzbaşılıq eləməsə də, Qarabağda sayılan karlı adamlardan idi. Cavan tacirin nişanlı qızı götürüb onun evinə qaçmağı havayı deyildi. Cavan tacir bilirdi ki, quş olub göyə uçsalar da, Hacı Hüseynin, Bayram bəyin adamları Qarabağda onların yerini tapacaqlar. Ona görə də gərək elə adamın evinə getsinlər ki, ordan onları bir qoşun da çıxarda bilməsin.

Onlar gələndən üç gün sonra Bəndalı yüzbaşı Ağdam şəhərindəki çayxanalardan birinin qabağında, böyük tut ağacının kölgəsində əyləşib Xanlıq Muxtarla nərd oynayırdı. Xanlıq Muxtar da Bəndalı yüzbaşı kimi karlı adam idi, tapançası həmişə pencəyinin qoltuq cibində dolu olardı. Əgər Xanlıq Muxtar belə sayılan adam olmasaydı, Bəndalı yüzbaşı camaatın gözü qabağında oturub onunla nərd oynamazdı. Hər kəsin öz tayı var!

Elə bu zaman balacaboylu, cırtdaqoz, davakar pristav İsmayıl bəy dalında iki nəfər yasavul nərd oynayanların yanına gəlib dedi:

– Bəndalı yüzbaşı! Bizdə məlumat var ki, Qarabulaqdan bir oğlan, pristav Bayram bəyin nişanlı qızını qaçırdıb gətirib sənin evinə.

Bəndalı yüzbaşı zərləri tulladı, daşları götürüb yerinə qoyandan sonra sakit səslə soruşdu:

– Tutaq elədi, sonra?

Pristav İsmayıl bəy dedi:

– Sonrası budur ki, gərək qızı alıb geri qaytaraq, oğlanı da tutaq!

Bəndalı yüzbaşı dedi:

– Qız öz xoşu ilə qoşulub qaçıb.

İsmayıl bəy ona cavab verdi ki:

– Onun bizə dəxli yoxdur. Öz yerlərində aydınlaşdırarlar.

Bəndalı yüzbaşı dedi:

– Bu nainsaflıq olar, bəy. Onu da nəzərə al ki, oğlan qızı mənim evimə gətirib.

İsmayıl bəy dedi:

– Sənin evin ziyarətgah-zad döyül ki?.. Nə olsun gətirib?

Bəndalı yüzbaşı ağır-ağır qalxdı:

– İsmayıl bəy! İndi ki, belə oldu, mən gedirəm evə. Sən də yasavullarını göndər, gəlib o oğlanla qızı mənim evimdən çıxarsınlar, görək necə çıxarırlar?!

Bəndalı yüzbaşı bu sözü deyib tələsmədən getdi. Xanlıq Muxtar, Bəndalı yüzbaşının ardınca baxa-baxa papiros çıxarıb yandırdı, bu o demək idi ki, Xanlıq Muxtar özü də məhz Bəndalı yüzbaşı kimi edərdi...

Evinə gəlib Abdullaya heç nə hiss etdirmədən qardaşı Çırağı, iki cavan əmisi oğlunu, üç yeniyetmə bacısı oğlunu çağırtdırıb əhvalatı onlara qısaca bildirdi. Tapşırdı ki, tüfənglərini hazır saxlasınlar. Əgər pristav İsmayıl bəyin yasavulları qızı oğlanın əlindən almağa gəlsələr, atışacaqlar.

«Atışacağıq» sözünü eşidib cavanların sümüyü oynağa getdi.

Onların ağsaqqalına pənah gətirən oğlanın nişanlısını heç kəs bu evdən, bu Novruzlu kəndindən çıxarıb apara bilməz! Uzaq olsun!.. Uzaq olsun, əgər qızı tutub oğlanın əlindən alsalar, bu, bütün Bəndalı yüzbaşının tayfası üçün, bütün Novruzlu kəndi üçün həmişəlik baş töhməti olardı!

Ona görə də tüfənglərini doldurub söykədilər bucağa, patrondaşı da asdılar üstündən.

Ancaq İsmayıl bəy gəlmədi. İsmayıl bəy davakarlığı ilə bərabər, həm də bic adam idi. Bilirdi ki, davasız-atışmasız Bəndalı yüzbaşının evindən qız çıxarmaq olmaz. Bir də fikirləşdi ki, başqa qəzadan gətirilmiş bir qızdan ötrü nə üçün Bəndalı uşağı kimi bir tayfa ilə qanlı-bıçaq olsun?..

Ancaq səhəri, gecə xoruzun ikinci banında itlərin bərk hürüşməsinə qulaq verib, Bəndalı yüzbaşı dərhal başa düşdü ki, evin ətrafında yad adamlar var! Tək bir adam yox, bir neçə adam, çünki itlərin səsi bağın bir neçə yerindən gəlirdi. Bu, pristav adamlarına oxşamırdı. Hökumət adamı gecənin bu vaxtında gəlməzdi. Demək, məsələ başqa cürdür. Bəndalı yüzbaşı cəld geyindi, tüfəngi qapıb, qapını usdufca açıb ehtiyatla çıxdı bayıra. Elə bu anda da qardaşı Çıraq qaranlıqdan səsləndi:

– Kimsiniz, ə?

Qaranlıqdan kimsə ona qışqırdı ki:

– Bəndalı yüzbaşıya denən çıxsın çölə!

Özünü təndirxananın böyrünə verib atışmağa hazır dayanan Bəndalı yüzbaşı sakit səslə cavab verdi:

– Bəndalı yüzbaşı çöldədi, nə sözünüz var?

Qaranlıqdan gələn səs dedi:

– Əşi! Əgər qan tökülməyini istəmirsənsə, o haramzada oğlanı da, qızı da ver!

Bəndalı yüzbaşı dedi:

– Ə, bilmirsiniz ki, Bəndalı yüzbaşı heylə binamus işə qol qoymaz! Qayıdın gedin evinizə-eşiyinizə. Bir işdi olub.

Qaranlıqdan gələn səs dedi:

– Qızı aparmasaq, getməyəcəyik.

Bəndalı yüzbaşı sakit səslə dedi:

– Məsləhətdi qayıdasınız!

Qaranlıqdan gələn səs dedi:

– Əşi, əlli-altmış versti at sürüb gəlməmişik ki, əliboş qayıdaq?! Xoşluqla sənə deyirik ki, qızı da, oğlanı da verəsən!

Cavabında Bəndalı yüzbaşı səs gələn tərəfə deyil, havaya bir güllə atdı. Səs-küyü eşidib səngərlərində hazır dayanan bacıoğlular, əmioğlular, bir də Bəndalı yüzbaşının qardaşı Çıraq o tək güllə atılan kimi, səs gələn tərəfi basdılar gülləyə. Kəndin hər tərəfində itlər hürüşdü, hər tərəfdən qarasına atılan güllə səsləri eşidildi.

Bəndalı yüzbaşı qız üçün gələnlərə qışqırdı:

– Ə, özünüzü havayı qırdırmayın, çıxın gedin!

Cavabında bir neçə güllə birdən atıldı. Evin pəncərələrinin şüşələri çiliklənib töküldü.

Qaranlıqdan təzə bir səs eşidildi:

– Əşi, Bəndalı yüzbaşı bu köpəkuşağının bir təkini də salamat buraxmayacağıq. Üst tərəflərini kəsmişik!

Bəndalı yüzbaşı dedi:

– Adama atmayın. Qoyun çıxıb getsinlər.

Səs-küyə yuxudan ayılıb bayıra çıxan Abdullanın lap qulağının dibindən güllələr vıyıltı ilə keçib qapı-pəncərəyə dəyirdi. Oğlan qorxaq adam deyildi. Ancaq işin nə yerdə olduğunu bilib xalqa bu cür əngəl açdığı üçün ürəyində xəcalət çəkirdi. Qızı qaytarmağa gələnlər gördülər ki, xeyr, Bəndalı yüzbaşı batmalı kol deyil, qayıdıb getdilər. At ayaqlarının səsləri tamam uzaqlaşıb, itlər susandan sonra Bəndalı yüzbaşı səngər elədiyi yerdən çıxıb bərkdən soruşdu:

– Ə, uşaqlar, ziyanlıq-zad olmayıb ki?!

Çıraq öz qapısından dedi:

– Bir şey yoxdu.

Bəndalı yüzbaşı təkrar soruşdu:

– O biri tərəfdən necə?

Çıraq dedi:

– Salamat getdilər.

Bəndalı yüzbaşının vurub-yıxmaq üçün həmişə bir girəvə axtaran bacıoğlusu İrşad öz qapılarından dedi:

– Ay dayı, qoymadın o it uşağının hamısını qıraq, dayna!

Bəndalı yüzbaşı cavab verməyib artırmaya qalxanda Abdullanı orda görüb, gümrah səslə dedi:

– Ə, qardaşoğlu, sən niyə yuxudan olmusan?

Oğlan xəcalətlə dedi:

– Sizə iş açmışıq...

Bəndalı yüzbaşı dedi:

– İşi-zadı yoxdu, yeri soyun yat.

Abdulla onun üçün ayrılmış otaqda elə paltarlı uzanıb səhərə qədər gözünü yummadı.

Səhər çaydan sonra Abdulla Bəndalı yüzbaşıya dedi:

– İcazə versəydiniz, bu gün biz gedərdik Yevlağa.

Bəndalı yüzbaşı təəccüblə soruşdu:

– Yevlağa?

– Bəli, oradan da Bakıya gedəsiyik.

Bəndalı yüzbaşı gülümsəyib zarafatyana dedi:

– Yoxsa gecəki əhvalat qorxutdu səni?

– Xeyr. Elə əvvəldən fikrim Bakıya getməkdir.

Amma cavan tacir düz demirdi. Əslində istəmirdi ki, onların üstündə burada başqaları davaya düşsün.

Bəndalı yüzbaşı dedi:

– Qardaşoğlu, sənə əvvəl də dedim, indi də deyirəm, bura öz evinizdir. Lap bir il də qala bilərsiniz! Heç kəs də yel olub böyrünüzdən ötə bilməz.

Ancaq kişi baxıb gördü ki, cavan tacir qalmaq istəmir. Səhərisi gün özü şəhərdən fayton gətirtdi. Bəndalı yüzbaşının arvadı Yaquta iri firuzə qaşlı bir üzük boygörüncəyi bağışladı. Kişi özü də oğlana əla bir buxara dərisi ilə bir dəst diaqonal kostyumluq bağışladı. Yolları üçün cürbəcür yeməklər qoydular, Bəndalı yüzbaşı bacısı oğlu İrşadla əmisi oğlu Cəmilə tapşırdı ki, onları aparıb lap Yevlağacan ötürsünlər. Oğlanlar da tüfənglərini götürüb atlandılar və faytonu lap Yevlağacan ötürüb qayıtdılar.

Yolda Abdulla fikirləşdi ki, Bakıdansa Gəncəyə getmək daha məsləhətdir, çünki Gəncə Qarabulağa yaxındır. Ona görə də Gəncəyə gedib düşdülər mehmanxanaya.

... İndi sizə kimdən deyim, Bağbanlar Ələkbərdən.

Bağbanlar Ələkbər otuz beş-otuz altı yaşlarında üzündə tək-tək çopuru olan qarabuğdayı, yaraşıqlı bir adam idi, yüzlərlə düşməni olduğu üçün həmişə çuxanın altında iki tapança gəzdirərdi. Çayxanalarda nərd oynayanda o da həmişə qarabağlı Xanlıq Muxtar kimi kürəyi divara tərəf oturardı, düşmənləri də onunla üzbəsurət atışmağa cürət eləməzdilər, bilirdilər ki, Bağbanlar Ələkbərin bir gözü

nərdə baxırsa, bir gözü ətrafındakı adamlardadır. Özü də hər iki əli ilə sərrast atandır.

Abdullagilin düşdüyü mehmanxananın qapıçısı qoca kişi idi. Şeylərini mehmanxanaya daşıyanda cavan tacir ona bir abbası əvəzinə bir manat vermişdi.

Abdulla fikir eləyirdi ki, bir qədər də Gəncədə qalıb ara sakitləşəndən sonra qayıdarlar Qarabulağa, ancaq bir gün qoca xidmətçi onu kənara çəkib dedi:

– Oğul, görürəm, sən yaxşı adamsan, ona görə də sənə bir sirr açmaq istəyirəm, ancaq gərək öz aramızda qalsın.

Abdulla bu sözə bərk təəccüb eləyib and içdi ki, dünyasında onun ağzından sirr çıxmaz. O zaman qoca soruşdu:

– Hər gün gəlib mehmanxananın bağçasında nərdtaxta oynayan Bağbanlar Ələkbəri tanıyırsanmı?

Abdulla dedi:

– Tanımasam da, haqqında eşitmişəm, hər gün bura gəldiyini də bilirəm.

– Yəqin onu da eşitmisən ki, Bağbanlar Ələkbərin kəsdiyi başın sorğu-sualı yoxdur.

Abdulla dedi:

– Eşitmişəm.

Qoca ətrafına baxıb pıçıltı ilə dedi:

– O sənin külfətinə aşiq olub, məsləhətdir ki, lap bu gecə Gəncədən çıxıb gedəsiniz, yoxsa yaxşı olmaz, heyifsiniz...

Bu əhvalatı Abdulla da, Yaqut da öz-özlüyündə duymuşdular, onlar görürdülər ki, ayaqlarında güzgü kimi parıldayan uzunboğaz çəkmə, başında ən bahalı papaq, qastor çuxalı, qızıl vəzniəli, qızıl toqqalı adam hər gün gəlib saatlarla bağçada, nərdtaxta oynaya-oynaya eyzən onlar olan otağın pəncərəsinə baxır, ancaq bu barədə bir-birilərinə heç nə demirdilər. İlk dəfə o, Yaqutu görəndə Abdulla otaqda yox idi, ayın-oyun almaq üçün şəhərə çıxmışdı. Yaqut isə sinəsi açıq, zərxara köynəkdə pəncərə qabağında dayanıb qulac-qulac saçlarını hörə-hörə şəhərə tamaşa edirdi. Elə bu vaxt nərd oynamaq üçün bağçadakı üstüaçıq çayxanaya gedən bağbanlar Ələkbərin tamam təsadüfi halda gözü qız dayanan pəncərəyə sataşdı, Yaqutu görəndə yerində mıxlanıb qaldı. Pəncərə ikinci mərtəbədə olduğundan Bağbanlar Ələkbər, hətta Yaqutun durna boyu kimi uzun ağ boynundakı qara xalı da aydınca gördü, bu an kənardan Bağbanlar Ələkbərə baxan olsaydı, deyərdi ki, bu adam yəqin ömründə belə gözəl görməyib. Birdən Yaqut gözlərini şəhərdən çəkib bağçaya baxanda heyran-heyran ona tamaşa eləyən cavan kişini görüb bir an, ancaq bir an ona diqqət yetirib pərdənin arxasına çəkildi, elə bu andan sonra Bağbanlar Ələkbər, hətta Abdulla evdə görünəndə də gözünü o pəncərədən çəkmirdi.

Qoca xidmətçi məsləhət gördü ki, xoruzun birinci banı Gəncədən çıxsınlar.

Abdulla şəhərə getdi, fayton tutub beh verdi. Onlar hələ dan yeri ağarmamış Gəncədən çıxdılar, bu tələsik gedişin səbəbini oğlan Yaquta açmadı, ancaq qızda şübhə yeri qoymamaq üçün dedi:

– İstəyirəm ki, sən Bakını görəsən, hələ desən səni teatra da aparacağam.

Qız teatr haqqında eşitmişdisə də, görməmişdi, ona görə də Bakıya getmək xəbərinə sevindi. Ancaq Yevlağa çatana qədər saatlarca gözünü onların pəncərəsinə dikən yaraşıqlı, qarabuğdayı, üzündə tək-tək çopuru olan, güləndə sədəf kimi ağ dişləri görünən, qızıl vəznəli, qızıl toqqalı oğlan xəyalından çəkilmirdi. Sözün düzü, Abdulla mehmanxanada olmayanda elə Yaqut da maraqdan özünü saxlaya bilməyib, tül pərdə arxasından oğrun-oğrun o oğlanın hərəkətlərinə diqqət yetirirdi, cavan tacirin də belə geyinmədiyinə heyifsilənirdi. Dünən həmin oğlan yenə də bağçada nərd oynayırdı, başına beş-altı adam yığışmışdı. Yaqut da həvəsini boğa bilməyib yenə də tül pərdə arxasından onlara tamaşa edirdi. Bu zaman Bağbanlar Ələkbərin başına toplaşmış cavanlardan biri:

– Ley! Ley! – deyə göyə işarə ilə səsləndi.

Yaqut da baxıb gördü ki, bir ley xeyli yüksəkdə dövrə vurur, Bağbanlar Ələkbər tapançasını çıxarıb ancaq bir an nişan alıb atdı, ley bir-iki metr yuxarı qalxıb daş kimi ağacların arasına düşdü, oğlan da tapançanı qoburuna qoyub heç bir şey olmamış kimi oyununa davam etdi. Əlbəttə, qız atası Bayram bəyin və onun dostlarının Novruz bayramında, toylarda nişana atdıqlarını çox görmüşdü, ancaq bu dəfə nazik bığı şəvə kimi parıldayan bu ədalı oğlanın quşu bu qədər sərrast vurmağı və üzündəki sakit qürur qıza ayrı cür təsir elədi.

Burada aşıq yaxşı deyib:

– Ay dünya, nə qəribə işlərin var sənin...

Amma bütün bu xəyallar qızın birinci dəfə gördüyü qatara əyləşəndə yox olub getdi, qız ley vuran oğlanı bir də xeyli sonralar – tacir əri Abdulla ilə tez-tez dalaşanda, onun hərəkətlərindən xoşu gəlməyəndə yad edərdi.

... Bakıda Təbriz mehmanxanasına düşdülər, bu mehmanxananın sahibi Hacı Hacıağa etibarlı, mömin bir şəxs olduğundan qəza şəhərlərindən gələn tacirlərin əksəriyyəti onun mehmanxanasına düşərdi, özü də Cənubi Azərbaycandan idi. Yaqut dənizi birinci dəfə görürdü, ancaq dəniz ona Qarabağın qıjov çayları kimi təsir eləmirdi. Yaylağa getdikləri zaman hüştürümlə axan o harın çayları ucaboylu, yəhərli atla keçərkən qız özündə də bir coşğunluq, göylərə pərvazlanan bir həyəcan hiss eləyirdi. Bozumtul göylə birləşən dəniz ona soyuq, qüssəli görünürdü. Amma gecə Opera Teatrında tamaşa

elədiyi «Leyli və Məcnun» indiyə qədər onun hiss eləmədiyi qəmli bir dünya idi. Məcnunla Leylinin nakam məhəbbətində əlacsız, dərdli, bu fani dünyaya sığmayan ayrı bir gözəllik vardı, bu, qızın heç bir zaman duymadığı, indi heyran qaldığı, göz yaşı tökdüyü bir məhəbbət idi! Bu dərdli məhəbbətin yanında onların, yəni pristav qızı Yaqutla cavan tacir Abdullanın məhəbbəti çox solğun görünürdü, bu da qızı məyus edirdi, qız bu anda istəyərdi ki, onu da belə sevsinlər, onun özünün də məhəbbəti Leylinin məhəbbəti kimi belə dərdli olsun. Bir an qıza elə gəldi ki, o özü, kimi isə Leyli təkin sevir, ancaq onu İbn Salama ərə veriblər və bu cavan tacir Abdulla elə o İbn Salamın özüdür...

Fasilədə Abdulla bufetdən bahalı konfetlər, şəkərçörəyi alıb gətirdi, elə bil, qız bu işə təəccüb elədi, acığı tutdu, konfetlər də ona lap mənasız göründü, qız onlara əlini də vurmadı.

Amma tamaşadan sonra onlar mehmanxanaya gələndə bütün bu duyğular yaz vaxtı Qarabağ meşələrinin üzərində tez-tez zahir olan buludlar kimi yox olub getdi. Yenə də nişanlısı ilə şən zarafatlar başladı, amma nə ki, düzdü – düzdü, ilk dəfə gördüyü o məhəbbət faciəsi qəlbinin dərinliklərində nisgilli bir xatirə olub qaldı, özü də zaman-zaman ona elə gəldi ki, bu elə onun öz xatirəsidir...

Abdullanın isə, əlbəttə, bu haldan xəbəri yox idi. Oğlan narahat idi, ona görə narahat idi ki, ticarət işləri tökülüb qalırdı, hər gün onun filan qədər qazancı itib gedirdi, o biri tərəfdən də Bakı qoçularının hərəkətləri onu qorxudurdu, nişanlısı sarıdan qorxurdu. Dünən lap mehmanxananın yaxınlığında günün günortaçağı qoçu Fərəclə qoçu Baloğlan düz bir saat atışdılar. Polis də bunu görməməzliyə vurdu. Qoçu Fərəci çox binamus deyirdilər, küçədə gözəl bir qıza, bir gəlinə gözü düşdümü, qurtardı, gərək həmin gün oğurlayaydı.

Bakıya gələnə qədər qoşulub qaçdığı cavan tacirin varı-dövləti haqda düşünmək heç Yaqutun ağlına da gəlmirdi. Amma teatrlarda, küçələrdə rast gəldiyi xanımların daş-qaşını, geyimini gördükdə, burada Hacı Zeynalabdin Tağıyev kimi, Musa Nağıyev kimi milyonerlərin olduğunu bildikdə, qoşulub qaçdığı cavan tacirin varı – mağazası onun nəzərində xeyli kiçildi. Elə bil, cavan tacirin özü də birdən-birə balacalandı. Eh! Dünyada işlər varmış... Dövlətlilər varmış... Brilyantlar, daş-qaşlar varmış... Gözəl binalar varmış... Qız gecə oğlanla küçədə gəzərkən, iri pəncərələrdə yanan gur işıqları gördü... Yəqin ki, o zinətli lampalarla işıqlanan zallarda ayrı cür həyat vardı... Birdən qıza elə gəldi ki, əgər onun qoşulub qaçdığı oğlan da o Gəncədəki Bağbanlar Ələkbər kimi geyinsəydi, onun kimi bir göz qırpımında uçan quşu tapança ilə havada vuran olsaydı, bəlkə Bakıdakı bu milyonerlər, bu göz qamaşdıran brilyantlar onun gözünə görünməzdi. O, nişanlısı ilə öyünərdi.

... Qarabulağın yeddi-səkkiz kilometrliyində Alıqulular obası vardı. Onlar da kürdobalılar kimi tərəkəmə idi. Kişilərdən oğru olmayanı tapılmazdı, oğurluq bacarmayana qız verməzdilər, deyərdilər, əfəldir. O tərəflərdə məşhur bir məsəl də vardı, deyərdilər: «Alıquluların şahidi sarımərdanlılar olar». Alıqululardan bir adamı oğurluqda təqsirləndirəndə and içərdi ki, oğurluq olan gecə Sarımərdanlıda filankəsin evində idi. O da and içib təsdiq edərdi.

Həmin Alıqulular obasında böyük mülkədar Həsən bəy yaşayırdı. Obadan aralı çayın qırağında bəyin, divarları, sütunları firuzə rəngində, ikimərtəbəli gözəl bir imarəti vardı. Evin hər tərəfi böyük bağ idi. Xalq arasında Həsən bəyə «oğru bəyi» deyirdilər, çünki çar polisi o ətrafda kimi oğurluqda ittiham eləyib həbsə alsaydı, Həsən bəy qurtarardı. Qəza rəisi özü Həsən bəyin dostu idi. Ona görə də, kim böyük oğurluq eləsəydi, tutuldu-tutulmadı, gərək Həsən bəyin payını xəlvətcə verəydi.

Həsən bəyin adlı-sanlı ruhanilərə, o cümlədən də Abdullanın əmisi Abdulla Əfəndiyə böyük hörməti vardı, o, belə nüfuzlu ruhanilərə tez-tez bəxşişlər göndərirdi. Hörmətli ruhanilər də fərqinə varmazdılar ki, bu hədiyyələr oğrulardan gələn pulların hesabınadır. Bəyin ehtiramına qarşı minnətdar olduqlarını bəyan eləyib, ona dua edərdilər...

Cavan tacir uzun-uzadı fikirləşəndən sonra nişanlısı ilə Qarabağa qayıdıb, düz gəldi Həsən bəyin evinə. Həsən bəy boy-buxunlu, tənumənd bir adam idi. Tacir tayfası ilə yaxın olmadığı üçün onların ancaq adlı-sanlılarını tanıyırdı. Ona görə də cavan taciri əvvəl tanımadı, ancaq Abdulla Əfəndinin qardaşı oğlu olduğunu və Bayram bəyin qızını götürüb qaçdığını biləndən sonra tapşırdı onlara hörmət etsinlər.

Sonra bəy fayton göndərib qəza qazısı Axund Mirzə Qələndəri evinə qonaq dəvət eləyib, əhvalatı ona danışıb dedi:

– Vaxta ki, oğlan qızı mənim evimə gətirib, gərək onu Bayram bəylə barışdıraq.

Qazı Mirzə Qələndər gödək, yoğun, qırmızısifət bir kişi olub, tubulku ağacından qayrılmış iri, qırmızı müştükdə papirosu papirosun oduna yandırardı. Özü də çox söhbətcil, bamәzə, arvadbaz bir adam idi. Getdiyi uzaq kəndlərdə saz, dul arvadları sığə eləməyi savab iş hesab edərdi. Həsən bəyin də, Bayram bəyin də dostu, həmsöhbəti idi. Əlbəttə, əgər qız Bayram bəyin qızı olmasaydı və cavan tacir də Abdulla Əfəndinin qardaşı oğlu olmasaydı, hamısından da mühümü qızı götürüb Həsən bəyin qapısına gəlməsəydi, qazı ağa bu izdivaca çətin icazə verərdi. Amma indi nə etmək olardı?..

Həsən bəylə qazı ağa böyük qonaq otağında stolun ətrafında əyləşmişdilər. Özü də orucluq vaxtı idi. Həsən bəyin qəribə işləri vardı. Onlardan biri də bu idi ki, heç vaxt orucunu keçirməzdi. Yəqin məsələdir ki, qazı ağa da oruc idi. Stolun üstünə ət, cücə soyutması, cürbəcür məzələr, göyərtilər düzülüb, bir qrafin də araq qoyulmuşdu. Bəylə qazı ağa oturub, iftarı gözləyirdilər. Qazı ağa arağa işarə ilə gülümsəyib zarafatyana dedi:

– Bəy, görünür, araqla iftar açmağın ayrı ləzzəti var.

Həsən bəy qazı ağanın zarafatından rəncidəxatir olmayıb dedi:

– Oruc öz yerində, araq da öz yerində. Bu azançı zalım oğlu da dillənəcək ki...

Səhərdən dilinə içki, körək dəymədiyi üçün indi bəyin hövsələsi bir tikə olmuşdu. Qalxıb otaqda səbirsizliklə var-gəl eləyirdi. Birdən ayaq saxlayıb pəncərədən görünən minarəyə xitabla, yəqin ki, azançının qarasına acıqla dedi:

– Nu çort, kriçi da!

Qazı ağa ləzzətlə güldü. Azançı dillənən kimi bəy araqla dolu qədəhi götürüb dedi:

– Qazı, sağ ol.

Bəy qədəhi birnəfəsə boşaldıb yerə qoyaraq əyləşib tələsik yeməyə başladı. Qazı ağa da «bismillah» deyib səliqə ilə orucunu açdı.

Bir qədər yeyəndən sonra bəy qədəhini doldurub dedi:

– Qazı ağa, gəlsənə bir qədəh meyil eləyəsən.

Qazı ağa gülümsəyib cavab verdi ki:

– Xeyr a... mən ləziz təamlardan, pürrəng çaydan, bir də zərif tütündən zövq alıram.

Bəy qədəhini boşaldıb soruşdu:

– Bəs topuğu girdə gəlinlərdən necə?! Hallıca-dulluca arvadlardan necə?

Bəy qəhqəhə ilə gülüb qədəhini doldurdu. Qazı ağa qırqovulun plovun altında qızarmış zərif budunu götürüb boşqabına qoyaraq dedi:

– Qadın dünyanın ən şirin nemətidir. Ondan necə ləzzət almamaq olar? Siğəni də şəriət ona görə buyurub ki, dul qadınlar özləri də bu ləzzətdən binəsib olmasınlar.

Bəy dəmlənmişdi:

– Ay lotu, – dedi, – əməllərinizi pəkə çıxarmağı bacarırsınız.

Qazı ağa ürəyində bilirdi ki, bir az lotuluğu var. Ona görə də zarafatyana dedi:

– İnsan gərək özünü Allahın yaratdığı ləziz nemətlərdən məhrum eləməsin.

Bəy bir qədəh də vurub soruşdu:

– Deyirlər, sən Kürdobada kor bir qadın siğə eləmisən.

Qazı ağa gülümsünüb dedi:

– Ona baxsan, deməzsən kordur. Çox cazibədar, iri, qara gözləri var, di gəl ki, görmür. Özü də o qədər gözəl, ətli-canlıdır ki, o yandan bəri yeriyəndə deyirsən, bəs, bir ağ maya gəlir.

Bəyin hərəmi özü kimi yaşlı, arıq, uzunburun bir arvad idi. Ona görə də qazı ağanın tərifindən vəcdə gəlib dedi:

– Gecələr lüt soyundurub alırsan qucağına...

Qazı ağa gülüb dedi:

– Daha onu deməzlər ki. Sən araqdan ləzzət alırsan, mən də şux cananlardan.

Bəy qızarıb pörtmüş halda dedi:

– Yaxşı eləyirsən. Bu axmaq dünyada bacardıqca kef çəkmək lazımdır. Qazılığa da bir qoz, bəyliyə də! Qoy nə deyirlər, desinlər. Bilirəm, düşmənlərim məni daldada «oğru bəyi» də adlandırırlar. Amma bilmirlər ki, mənim «oğru bəyi» olmağım onların doğru bəy olmağından yüz dəfə artıq xeyir verir camaata.

Qazı ağa güldü.

Bəy dedi:

– Gülmə, Mirzə Qələndər, düz deyirəm. Məsələn, mən həmişə oğrulara deyirəm ki, a köpəkuşağı, kasıb-kusubla işiniz yoxdur. Kasıb it oğlundan Allah da bezardır, bəndə də! Gedin o kəslərdən aparın ki, kürdobalı Hacı Qara kimi, on min qoyunu var. Yeriyin sodayar Məşədi Sülünün topdağıtmaz mağazalarına ki, İsveçrə bankında milyonları var! Heylələrindən nə qədər aparsanız halaldır. Mən ölüm beləsi, belə döyül, Mirzə Qələndər?

Qazı ağa ayaq üstə güclə dayanan bəyə baxıb, yenə də kişmişi güldü. Bəy bu dəfə özünü çox tox tutub dedi:

– Odur ki, kasıb adamın heyvanını aparan oğru tutulanda onu qurtarıb-eləmirəm, deyirəm, qoy gedib yatsın, köpəkoğlu! Amma başın üçün, Mirzə Qələndər, hampadan, dövlətlidən aparan oğruların hələ indiyəcən birini də qoymamışam qəzəmətə girsin.

Qazı ağa gördü ki, bu dəfə də gülsə, bəy özündən çıxacaq, ona görə də balaca irişməklə kifayətlənib, nökərin gətirdiyi soyuq dovğadan iki çömçə götürüb öz boşqabına tökdü.

Bəy kefli-kefli birdən dərdlənib dedi:

– Rəiyyət köpəkoğlu xeyrini başa düşən döyül, Mirzə Qələndər. Qulağıma çatır ki, kasıblar da daldada mənim qeybətimi eləyirlər ki, «bəy oğrularla əlbirdi», tay demirlər ki, Həsən bəy olmasa, həmən oğrular onların arvadlarının tumanını da aparar! Sən yaxşı eləyib bu rəiyyət arvadlarının gündə birini siğə eləyirsən.

Qazı ağa dedi:

– Bəy, mən şəriətin buyurduğuna xilaf iş görmürəm.

Bəy əlini çənəsinə çəkib dedi:

– Mirzə Qələndər, mənə yox də... Mən gimnaziya qurtarmışam. Özüm də Allaha inanıram, amma siz mollaların alimibiəməlliklərinizi də bilirəm axı.

Bəy bərkdən gülüb əlini qazı ağaya tərəf uzadaraq dedi:

– Mən ölüm, vur gəlsin.

Qazı ağa hal əhli idi. Gülümsəyib şappıltı ilə vurdu bəyin əlinə, bəy nəşəyə gəlib çırtıq vurub oxudu:

Aç xurcunu, kəs almanı,
Ver yara dilim-dilim,
dilim-dilim...

Sonra da divana uzanıb o saat da şirin-şirin xoruldadı.

Qazı ağa da onun üçün ayrılmış otaqda namazını qılandan sonra soyunub yaylı çarpayıda, təzə ipək yorğan-döşəkdə ləzzətlə gərnəşib Kürdobada siğə elədiyi kor qadının suluq kimi ağ, yumşaq bədənini xatırlaya-xatırlaya yuxuya getdi. Dan yerinə işıq düşəndə durub yenə də namazını qıldı. Sonra bəylə qonaq otağında əyləşib axşamdan hazırlanmış cürbəcür yeməklərlə obaşdanlıq elədilər. Bəy həmişə yanında saxladığı qoçaq oğlanlardan birini göndərdi Qarabulağa, Bayram bəyə xəbər versin ki, qazı ağa ilə Həsən bəy axşam gələcəklər onlara.

Həmin bu vaxtlar Yaqut Həsən bəyin qızları ilə, Abdulla da, oğlanları ilə olurdu. Olurdu deyəndə, yəni yemək-içmələri onlarla olurdu. Bəyin iki oğlu, iki də qızı vardı. Qızlarının böyüyü nişanlı idi. Kiçiyi də elə Yaqutla yaşdaş olardı. Bəyin böyük oğlu Kərim bəy Xarkov şəhərində vəkillik oxuyurdu. Kiçik oğlu Əmir bəy də Şuşada realnı məktəbdə oxuyurdu. İndi yay vaxtı olduğundan tətilə gəlmişdilər. Yaqut fikir verib gördü ki, bu oğlanlar səhərdən-axşamacan nişana atırlar, kart oynayırlar, ov eləyirlər. Özü də onların kartda oynadıqları oyunlar tamam başqa cürdü. Onları nə Abdulla bilir, nə Yaqut. Qız onlara fikir verdikcə özünü birtəhər hiss eləyirdi. Elə bil ki, qız bu oğlanı çoxdan tanıyırdı, elə bil ki, bunlara qarşı qızda çoxdan bir doğmalıq varmış. Onlar hər nə eləyirdisə, qıza qəribə görünürdü. Bəyin böyük oğlu çox zorlu idi. Bir dəfə Yaqutla Abdulla pəncərədən baxıb gördülər ki, beş-altı cavan oğlan həyətdə dayanıb bərkdən gülüşürlər. Bəyin böyük oğlu Kərim bəy yekə bir eşşəyin quyruğundan yapışıb, oğlanlardan biri də ağacla eşşəyi «çu!» deyə-deyə döyəcləyir ki, yerisin. Ancaq heyvan nə qədər güc verirsə, yerindən tərpənə bilmir. Yaqut da oradakı oğlanlar kimi qəhqəhə ilə güldü. Amma Abdullanın qıza acığı tutdu.

– Onlar axmaq-axmaq işlər tuturlar, sən də gülürsən.

Ancaq cavan tacirin sözləri qızın xoşuna gəlmədi, ürəyində o, zarafatcıl bəy oğlanlarını heç də axmaq hesab eləmədi. Cavan tacir ağıllı da olsa, qadın tayfası barədə təcrübəsiz idi, elə bildi ki, bu qızıl vəznəli, gümüş xəncərli, yaraşıqlı oğlanların axmaqlığı barədə onun dediklərinə nişanlısı inandı. Tay bilmədi ki, sözləri qızın ürəyində onun, yəni cavan tacirin zərərinə oldu. Tapışdıqları vaxtdan birinci dəfə olaraq nişanlısının belə bir bəy oğlu olmadığına qız ürəyinin də-

rinliklərində heyifsiləndi. Cavan tacirin geyimi də, ağırbaşlı hərəkəti də qıza indi birdən-birə xoş gəlmədi. Ancaq, necə deyərlər, iş-işdən keçmişdi.

Həsən bəy axşam iftardan sonra üçatlı faytonunu qoşduraraq qazı ağa ilə birlikdə əyləşib getdilər Qarabulağa, Bayram bəyin evinə. Bayram bəy o saat başa düşdü ki, bunlar nəyə gəlib. O biri otaqda Fatma xanım bildi ki, Həsən bəylə qazı ağa nəyə gəlib. Ancaq iki dünya bir olub, biri də heç olsa, Bağdad bəyin nəvəsi Fatma xanımın ürəyi heç zaman bu işlə barışmayacaq. Qozsatan Güney güzdəkli gədəsi pristav Bayram bəyin kürəkəni olsun?! Qızın əvvəlki nişanlısının atası Hacı Hüseyn rəiyyət də olsa, adlı-sanlı tərəkəmə idi. Vurub-tutan, sayılan adam idi, qoyun sürülərinin, at ilxılarının, bir ucu buradaydı, bir ucu harada... Güney güzdəkli gədəsi kimdir?! Tərəzi gözünə baxan bir çərçi, (Fatma xanımın ticarət əhlindən zəhləsi getdiyi üçün hamısını «tərəzi gözünə baxan çərçi» adlandırırdı), özü də irtməkli sünni. Ancaq Bayram bəy başqa cür fikirləşirdi, Bayram bəy uzaqgörən adam idi, baxıb gördü ki, indi dünya ticarətindir. Abdulla da, insafən, çox ağıllı, zirək tacirdir. Az vaxtda əməlli-başlı mağaza sahibi olub, hörmət, etibar qazanıb, Moskva, Kiyev, Xarkov kimi şəhərlərlə ticarət edir. Qaldı sünni olmağı... Bayram bəy heylə şeylərə fikir verən döyül. Nə sünni-şiəbazlıqdı? Bunlar hamısı lotu-potu mollaların uydurmalarıdır.

Bütün bunlara görə də qazı ağa ilə Həsən bəy barışıq məsələsini açanda Bayram bəy çox ustalıqla özünü tox tutub dedi:

– Vaxta ki, siz gəlmisiniz, nə deyə bilərəm?

Qazı ağa dedi:

– Allah xeyir versin!

Həsən bəy dedi:

– Gərək bu xeyir işin sağlığına bir qədər qırmızı Hadrut şərabı vuraq.

Bayram bəy də gülümsəyib dedi:

– Qazı ağa icazə versə, vurmaq olar.

Həsən bəy dedi:

– Qazı ağa ilə sövdalaşmışıq, biz onun arvadbazlığının üstünü vurmuruq, o da bizim şərab istemal eləməyimizin.

Bayram bəy gülüb Bünyadı çağırıb əmr verdi ki, o biri otaqda süfrə açıb, zirzəmidən də şərab çıxarsınlar.

Bayram bəyin razılığını alandan sonra Güney Güzdəkdən cavan tacirin əmisi Abdulla Əfəndi, başqa qohum-qardaşı gəldi. Qızın kəbini kəsildi, sonra da oğlanla qızı gətirib, Bayram bəylə barışdırdılar.

Fatma xanım nə qızının üzündən öpdü, nə də kürəkəninin üzünə baxdı, ancaq Bayram bəy razılıq verəndən sonra nə eləyə bilərdi?

Cavan tacir külfətini apardı Məşədi Cəlilin mülkündə kirayə tutduğu evə...

... Yazda sənin dayın Nuru ilə Haramıda, alaçığın qabağında söhbət edirdik. Xaynamaz Qarabulaqdan gəlib xəbər gətirdi ki:

– Yaqutun bir gilasgöz oğlu oldu, yəni sən dünyaya gəldin, ay Murad! Nuru dayın ona üç manat muştuluq verdi. Sənin babalarının, nənələrinin əhvalatları belə olub, əlbəttə ki, mən ancaq yadıma düşənləri danışdım, kim bilir, onların həyatında daha nə qədər əhvalatlar olub... Neyləmək?.. Bu dünyada igid babalardan, nənələrdən yadımıza düşənlərdən başqa nə qalır ki?..

Möhnət qoca qəlyanından bir nəfəs alıb, üfüqdə gümüş bir xətt kimi parıldayan Araza baxdı...

MURADIN SÖYLƏDİKLƏRİ

Madam ki, körpəlikdə məni «əllamə» adlandırırdılar, qoy indi də bu əsərdə yaşımdan əvvəl danışmaqda oxucu məni qınamasın. Düzünü deyim ki, lap iki-üç yaşında görüb-duyduqlarımı elə aydın xatırlayıram ki, elə bil, bu zaman mənim on üç-on dörd yaşım varmış... Və bu məni həmişə əsəbiləşdirirdi, çünki mən keçmişləri xatırlamaq istəmirdim. Ancaq bu keçmişlər hər yaşda məni təəccüblü bir aydınlıqla təqib edib, məndən əl çəkmirdi, o qəribə uşaqlıq haqqında bir adama danışmaq ehtiyacı Makedoniyalı İsgəndərin dəlləyi kimi məni rahat buraxmırdı.

İndi soruşa bilərsiniz ki, nəyə görə mən, babalarım, qocalarım, atam-anam, dayım haqqındakı bu nağılları özüm haqqında yazdığım bu kədərli hekayətə daxil edirəm? Ona görə ki, mən nə üçünsə öz həyatımı onlardan təcrid olunmuş halda təsəvvür eləyə bilmirdim. Mən qapalı, daxili aləmimdə eyzən onları görürdüm və mənə elə gəlirdi ki, Kərbəlayı İbixanın, Səkinə qocanın, Xanım nənənin, Bayram babamın yaşamış olduqları hissləri, həyəcanları olduğu kimi duyuram və xüsusən kədərli vaxtlarımda bu mənə anlaşılmaz, şirin bir təskinlik olurdu. Mənə elə gəlirdi ki, onların hamısını daim görürəm, onların əhvalatları daim mənimlə yaşayır. Mən atamla anamın bir-birilə tez-tez dalaşmalarını, aylarla bir-birilə küsülü qalmalarını gördükdə, onların qoşulub qaçdıqları yollarda keçirdikləri xoşbəxt anları təəccüblü bir aydınlıqla xatırladıqda, həyatın nə üçün belə olduğuna, nə üçün Bayram babamın bir zaman aşiq olduğu alagözlü, qələmqaşlı Fatma nənəmi indi aylarla dindirmədiyinə cavab tapa bilmirdim və bu, mənimçün gizli bir qüssəyə çevrilirdi.

Hətta indi yəni, yaşlı vaxtımda dönüb keçmişə baxmaq istəyəndə, elə bil ki, içəridən bir səs təşvişlə mənə deyir: «Geriyə baxma, qoca!» Lakin mən baxmaq istəyirəm. Mən bu keçmişin çox əzablı, çox kədərli olduğunu bilirəm, ancaq yenə də ona təkrar-təkrar tama-

şa etmək, nəyisə anlamaq istəyirəm. Bəlkə də bu, mənim «nə isə»ni o zaman babamla nənəmin, atamla anamın bir zamanlar yaşadıqları, xoşbəxt olduqları gözəl hissləri əzaba, kədərə, kinə, nifrətə döndərən qəddar səbəbi bilmək arzum idi ki, indi də məndən əl çəkmirdi...

Mən indi də keçmişsiz yaşaya bilmirdim. Bu keçmiş daim mənimlə idi, zehnim hal-hazırın ən mürəkkəb hadisələrilə çox aydın tərzdə uğraşanda da mənimlə idi. Bəzən ağlım çaşırdı və mənə elə gəlirdi ki, həyat ancaq bu xatirələrin intəhasız davamından ibarətdir, elə bil ki, bu xatirələr özləri daim yaşayan qəribə bir aləmdir, elə bil ki, hər şey ancaq mənim zehnimdən gəlib-keçən xəyallar silsiləsidir və mən əgər əzab, kədər doğuran əhvalatları görməsəm, hər şey gözəl olar. Ancaq təəssüf ki, mən bu əhvalatları görürdüm və adamın əli oda toxunanda diksinib şirin yuxudan ayıldığı kimi, bu əhvalatlar da məni günlərin, illərin adi... çox adi təfərrüatına qaytarırdı.

ELƏ İSƏ GÖRƏK YAQUT XANIMIN GİLASGÖZ OĞLU İLƏ ADİ GÖRÜNƏN BU HƏYAT NECƏ ƏLBƏYAXA OLDU...

Güclə yadıma divarları firuzə rəngində kürsülü bir ev gəlir. Biz bu evin iki balaca otağında olurduq. Evin geniş artırması, firuzə rəngli məhəccəri var idi. Məhəccərin üstünə içində qırmızı, sarı qərənfil bitmiş güldanlar qoyulmuşdu və bu qərənfillər mənim yadıma gələn ilk gördüyüm çiçəklər idi, bunlar təbiətin gözəlliyi ilə mənim ilk təmasım idi; bəlkə buna görə idi ki, sonralar da mənim ən çox sevdiyim çiçək qərənfil idi.

Bizim Maral adlı on altı-on yeddi yaşlı bir qulluqçumuz vardı. Göyçək, şən bir qız idi, mən də, demək olar ki, anamdan çox mehrimi ona salmışdım. Bir gün başında tüklü, basma papaq, əynində köhnə yamaqlı çuxa, ayaqlarında çarıq bir kişi gəlib Maralı apardı. Mən gözlədim, Maral gəlmədi, gözlədim, gəlmədi. Sonra: «Maralı istəyirəm!» – deyə ağlamağa başladım. Atamla anam məni ovutmağa çalışaraq dedilər:

– Dilənçi gəlib Maralı apardı.

Beləliklə, mən yeni qədəm basdığım bu dünyada ilk dəfə olaraq ayrılıq acısını duydum və bu, mənim ürəyimi uzun zaman kövrəldən ilk kədərim oldu.

Mən bir az böyüyəndə bildim ki, bu «dilənçi» Maralın atası imiş və atamgilin onu «dilənçi» adlandırmaları ürəyimdə mənə toxundu.

... Anam, ya əl maşınında tikiş tikər, ya xörək hazırlayar, mən də yerə döşənmiş xalının üstündə oturub, özüm-özümlə oynayardım. Anam iş görəndə astadan zümzümə edərdi. Bekar vaxtlarında isə içində atlı-qılınclı pəhləvan şəkilləri olan kitablar oxuyardı. Ya da qonşu otaqda yaşayan Bəyim xala ilə söhbət edərdi. Bəyim xala saçları kömür kimi qapqara, arıq, ortaboylu, nəzakətli, zərif bir qadın idi. Evdə də həmişə bütün qızıl zinətlərini taxıb, elə geyinərdi ki, elə bil, toya gedəcəkdi.

Bəyim xala da, əri Daşdəmir əmi də cavanlıqda Xan qızı Natəvanın sarayında xidmət edərmişlər, orada aşiq-məşuq olub, qoşulub qaçıblar. Ona görə qoşulub qaçıblar ki, Xan qızı Bəyimi çox istəyirmiş, fikri də bu imiş ki, onu versin bəy oğlanlarından birinə. Amma Bəyim də vurulub Daşdəmirə. Daşdəmir əmi kök, qırmızı bir kişi idi, özünün də baqqal dükanı var idi. Bəyimlə evlənəndən sonra Şuşada Bayram babamın köməyi ilə Daşdəmir əmi əvvəl uryadnik olub, uzunboğaz çəkmə geyib, furajka qoyub, qılınc asıb, paqon taxıb. Bir az maya düzəldəndən sonra keçib ticarətə.

Onların məndən iki-üç yaş böyük bir oğlu vardı. Özü də ağıldan kəm idi. Onunla oynamaq üçün mən tez-tez onlara qaçırdım. Ancaq oğlan mənimlə oynamayıb, qıyıq gözləri ilə eyzən boşluğa baxaraq öz-özünə anlaşılmaz sözlər danışırdı. Məndən iki yaş kiçik olan bacım Mahtab ondan qorxurdu. Bəyim xala oğlu ilə elə danışırdı ki, elə bil, oğlan ağıllı-başlı adam idi. O, nadinclik eləyəndə Bəyim xala sakit, mehriban səslə deyirdi:

– Fazil, ağıllı ol.

Fazili həmişə təmiz, qəşəng geyindirərdilər. Daşdəmir əmi hər gün onun üçün konfet, şəkərçörəyi alıb gətirərdi. Mən dayanıb Fazilin öz-özü ilə oynamağına tamaşa edərdim. O da mənə baxmadan:

– Ay qutu... qutu, – deyə-deyə əlindəki balaca ətir qabını hey o tərəf-bu tərəfə çevirərdi.

Fazil xəstələnəndə Bəyim xala ilə Daşdəmir əmi əldən-ayaqdan gedərdilər. Gecə səhərə qədər uşağın çarpayısının böyründə oturub keşiyini çəkərdilər. Onların, yəni Daşdəmir əmi ilə Bəyim xalanın Fazili bu qədər əzizləmələri, onunla ağıllı uşaq kimi rəftar etmələri mənim ürəyimi kövrəldirdi, mənim Fazilə daha çox yazığım gəlirdi.

Bu, mənim həyatda insan faciəsi ilə ilk tanışlığım idi.

Atam şəhərin kənarında, səfalı bir yerdə özümüz üçün ikimərtəbə, böyük ev tikdirirdi. Anam da tez-tez üstündə qırmızı güllər olan qanovuz çarşabını örtərək bizi də götürüb təzə evimizə baxmağa gedərdi. Atam bizim gəlişimizlə fərəhlənib evin ayrı-ayrı otaqlarını, mətbəxin necə olacağını anama izah edərdi. Anam da çarşabını açıb, artıq hörgü işi qurtarmaqda olan otaqları, böyük sahəli bağımızda atamın əkdirdiyi meyvə ağaclarını, gülləri həvəslə nəzərdən keçirərdi, artırmanın geniş, pəncərələrin iri olmağını istəyirdi. Mən də balaca bacımla bağda ora-bura qaçıb, quşların bizdən hürküb pırıltı ilə uçmağından, sağsağanın sevinclə səslənməsindən ləzzət alırdım.

Kirayədə olduğumuz evin dar, yarıqaranlıq həyətindən sonra, elə bil ki, zanbaq kimi gömgöy səmanın altındakı bu geniş, cavan bağımızda azadlığa çıxırdıq. Təzə-təzə boy atan alma, armud, gilənar

ağacları, yenicə qalxan təzə yoncalıq bizə hədsiz sevinc gətirirdi. Biz nəşə ilə qışqıraraq alabəzək kəpənəklərin ardınca yüyürürdük.

Mən ilk dəfə olaraq təbiətin gözəlliyini, quşların, kəpənəklərin, yeni-yeni yarpaqlayan cavan ağacların, təzə qalxan yoncaların sevincini hiss edirdim. Amma öz təzə bağçamızdan ayrılıb kirayə tutduğumuz evə gələndə ürəyimə məyusluq çökürdü. Hər şey mənə bu balaca, yarıqaranlıq həyət kimi tutqun görünürdü. Bəyim xalanın döşəkcəsinin üstündə əyləşib sükut içində nə isə tikməsi, Fazilin gözlərini boşluğa zilləyərək, «ay qutu, qutu» deyə-deyə əlindəki balaca qutunu oynatmaqdan usanmaması məni kədərləndirirdi, mən heç bir səbəb olmadan ağlamaq istəyirdim. Atamın da öz mədaxilini, məxaricini ciddi ifadə ilə hesablayıb yaşıl karandaşla balaca dəftərçədə səliqə ilə qeydlər eləməsi məni darıxdırırdı. Mən bir guşəyə çəkilərək təzə bağçamız haqqında, zanbaq kimi mavi göy haqqında, nəşə ilə uçuşan quşlar haqqında, bizimlə oynaşan kəpənəklər haqqında xəyallara dalırdım.

Bunlar müəyyən bir əhvalat ətrafında birləşməyərək, müxtəlif boyalarla, müxtəlif sözsüz kadrlarla gözümün qabağından gəlib-keçirdi. Həyatımda birinci dəfə olaraq mən quşların, kəpənəklərin azadlığını və bu azadlığın nəşəsini hiss edirdim. Birinci dəfə olaraq bu azadlığa həsəd aparırdım. Birinci dəfə olaraq mənim qəlbimdə ata-anama məlum olmayan qapalı bir dünya yaranmağa başlayırdı. Birinci dəfə olaraq mən tez-tez təklənərək, real həyatdan uzaqlaşıb bu xəyal aləminə qapanırdım və bu xəyal aləmi mənə real həyatdan daha şirin, daha gözəl görünürdü. Mənimlə çox az gülüb-danışan və anamla daima öz işləri haqqında söhbət eləyən atamın ciddiliyinə qarşı məndə bir soyuqluq əmələ gəlirdi. Onun geniş alnı mənə həddindən artıq sərt görünürdü. Və mən tez-tez Maralı xatırlayırdım. Onun məni sevməsi, gülüşü, zarafatları, Qaçaq Nəbi haqqında oxuduğu mahnıları artıq geriyəqayıtmaz, xoşbəxt günlərim kimi acı xatirələrə çevrilirdi. İndi içində yaşadığımız otaq mənə həddindən artıq darısqal və boğucu görünürdü. Mən tez-tez gecələr qorxulu röyalar görüb yuxuda ağlayırdım.

BİZİM TƏZƏ EVƏ KÖÇMƏYİMİZ VƏ DƏFTƏRXANA KAĞIZLARININ GÖYƏ SOVRULMASI

Nəhayət, atamın tikdirdiyi binanın bir tərəfi hazır olandan sonra biz kirayədə olduğumuz evdən ora köçdük. Hamımız bayram içindəydik. Mən də, bacım da, anam-atam da təzə paltar geyinmişdik. Anam brilyant qaşlı qızıl bilərziklərini, aypara şəklində olan qızıl silsiləsini taxıb ortasında göz kimi iri yaqut olan enli, qızıl kəmərini bağlamışdı, ayaqlarında dikdaban lak tufli var idi və bütün bunlar mənim, onsuz da gözəl anama fövqəladə bir yaraşıq verirdi. Onun gözəl, duru gözlərində bir sevinc duyulurdu və bu, məni xoşbəxt edirdi. Mən həmişə anamı şən görəndə özümü xoşbəxt hiss edirdim. Həmişə çox ciddi, işgüzar bir adam olan atam da bu gün deyib-gülürdü. Təzə evimizin, bağçamızın barəsində anamın tərifinə məmnuniyyətlə qulaq asırdı. Atamın bu cür şadlığı, tez-tez gülüb zarafat eləməyi məni sevindirirdi.

Bir də gördük ki, adamlar səs-küylə dəftərxanaya sarı yüyürürdülər.

Atam, anam, ustalar söhbətlərini kəsib təəccüblə ora baxdılar. Sonra gördük ki, adamlar dəftərxanaya doluşdular. Sonra daha qəribə bir hadisə oldu: adamlar dəftərxananın kağız-kuğuzunu pəncərədən, qapılardan bayıra tullayırdılar, kağızlar da havada uçuşaraq ətrafa səpələnirdi. Sonra çinovniklər bayıra çıxaraq poqonlarını qoparıb atırdılar.

– Bu nə əhvalatdır? – deyə anam təəccüblə soruşdu.

Atam ona cavab verməyərək, pilləkəni tez-tez düşüb dəftərxanaya tərəf yüyürdü. Sonra gördük bir kişi içəridən gətirdiyi kətilin üstünə çıxıb əllərini ölçə-ölçə nə isə danışmağa başladı. Sonra bütün izdiham birdən-birə hərəkətə gəlib qışqırdı:

– Urra!!!

Pəncərələrdən hey atılan kağızlar havada ağarışırdı.

Nəhayət, atam da, ustalar da qayıdıb gəldilər. Atam həyəcanla anama dedi:

– Nikolayı taxtdan salıblar!

– Heylə şey olmaz, – deyə anam təəccüblə səsləndi.

Binamızın o başında işləyən erməni usta Qara dedi:

– Niyə olmur?! İnqilabçılar çoxdan əlləşirdilər ki, ikibaşlı qartalın boğazını üzsünlər.

Mən ustanın sözünü düzünə başa düşərək: «Qartalın da iki başı olarmı?» deyə təəccüblə düşündüm. Lakin mən bu barədə heç nə soruşmağa cəsarət eləmədim, çünki atam dəfələrlə mənə acıqlanmışdı ki, böyüklərin söhbətinə qarışmayım, bu tapşırıq da mənimlə böyüklər arasında getdikcə bir səddə çevrilirdi, saysız-hesabsız suallarım ürəyimdə qalırdı.

Atam papiros büküb yandıraraq dedi:

– Yəqin kişi də bu gün-sabah gələr.

Atam Bayram babama həmişə «kişi» deyirdi.

Nikolay taxtdan yıxılanda Bayram babam qonşu qəza rəisinin müavini idi.

Anam qayğı ilə dedi:

– Yəqin ki, yollar qarışıqlıq olacaq.

Atam dedi:

– Kişiyə nə qarışıqlıq, onu aləm tanıyır.

Anam dedi:

– Az düşməni yoxdur ki?..

Atam dedi:

– Heç nə olmaz.

Mən Bayram babamın gələcəyini eşidib sevinclə soruşdum:

– Nə vaxt gələcək babam?

Atam mənə sərt bir nəzər salıb acıqlı-acıqlı dedi:

– Sənə yüz dəfə tapşırmışam ki, böyüklər söhbət eləyəndə dayanıb gözünü onların ağzına dikmə! Uşaqsan, get oyna.

Həmişə atam mənə acıqlananda anam məni müdafiə edirdi, indi də mənim pərt olduğumu görüb atama dedi:

– Uşaq söz soruşur də... Pis şey eləmir ki?..

Mən ağlayacağımı hiss edərək iri daş pilləkəni düşüb bağdakı tut ağacına söykəndim. Burada məni heç kəs görmürdü, mən də heç kəsi görmürdüm. Mən ağaca söykənib ağladım. Hər dəfə atamın danlağına qarşı anamın məni müdafiə eləməsi ürəyimi kövrəldirdi. Sonra mən gözümün yaşını pencəyimin qolu ilə silib bayaq dəftərxananın qabağındakı hadisəni xatırladım. Sonra ikibaşlı qartalın necə olduğunu təsəvvürümə gətirməyə çalışdım və bunun padşaha nə dəxli olduğunu təəccüblə düşündüm. Sonra onu da düşündüm ki, axı padşahı taxtdan kimlər və necə yıxırlar? Mən elə bilirdim ki, padşah anamın danışdığı «Min bir gecə» nağıllarındakı kimi, tilsimli bir qalada qızıl taxt üstündə əyləşmişdir. Onun o tərəf-bu tərəfində isə bir əlində qalxan, digər əlində uzun nizə tutmuş pəhləvanlar dayanmışdılar və bu pəhləvanlar da Rüstəm Zal kimi güclüdürlər. Ona da təəccüb edirdim ki, adamlar mənim həmişə həsədlə tamaşa elədiyim qızıl zərli poqonları niyə qoparıb atırdılar? Nə üçün sevinirdilər? Elə bu zaman altında dayandığım tut ağacına bir sağsağan qonaraq mənə baxıb sevinclə səsləndi. Həmişə sağsağan gəlib Bayram babamgilin bağında elə səslənəndə Fatma nənəm şadlanıb deyirdi:

– Xeyir xəbər sağsağan, oğlunun oğlu olub, qızının da oğlu olacaq.

Tut ağacına qonmuş sağsağan mənə baxıb susur, sonra yenə sevinclə səslənirdi. «Yəqin ki, sağsağan babamın gələcəyini mənə xəbər verir!» – deyə mən şadyanalıqla düşündüm.

... Dəftərxananın kağızları cırılıb göyə sovrulandan sonra bizim balaca şəhərin küçələrində silahlı, patrondaşlı adamlar peyda oldular. Mən evimizin küçə qapısında oturub saatlarca onlara tamaşa edirdim. Onlar iri, hündür atlarını ora-bura çapır, bərkdən danışıb-gülüşürdülər. Sonra evimizdə iki tüfəng və çoxlu patron gördüm. Gecələr isə bizim böyük qonaq otağımız qonaqla dolu olurdu. Bu zamanlar evimiz tamam tikilib qurtarmışdı. Böyük zalı qiymətli xalı-gəbə ilə döşəyərək qonaq otağı eləmişdilər. On dörd-on beş yaşlı nökərimiz Qüdrət balaca armudu stəkanlarda qonaqlara çay, çini boşqablarda cürbəcür xuşgəbər aparırdı. Anam da qonaq otağına bitişik otaqda oturub onların söhbətinə qulaq asır, bizi, yəni bacım Mahtabla məni səs eləməyə qoymurdu. Mən böyük zalda hey «hürriyyət, Rusiya, məşrutə» sözlərini eşidirdim, axır səbir eləməyib anamdan soruşdum ki, onlar nə barədə danışırlar?

– Sən bilən şeylər deyil, – deyə anam qısa cavab verdi. Nökərimiz Qüdrətdən iki-üç yaş böyük olan qulluqçumuz Zinyət pıçıltı ilə məni başa saldı ki, «onlar padşahın yıxılmağından danışırlar».

Bütün bu işlər isə mənim zehnimdə tamam bir qarmaqarışıqlıq əmələ gətirmişdi. Mən gecələr yerimə girəndən sonra gündüz görüb eşitdiyim bu həyəcanlı hadisələri dərk etməyə çalışırdım, lakin hər şey məndən uzaq və anlaşılmaz idi, ata-anamın bu əhvalatlar barədə mənə heç nə deməmələri, məni saymamaları ürəyimi ağır hisslərlə sıxırdı, bütün xarici mühiti, hətta ata-anamı belə, özümə qarşı biganə hiss edirdim.

Sonra evimizdəki söhbətlərdən bilirdim ki, yollarda, kəndlərdə soyğunlar başlayıb, gecə evlərə hücumlar olur, hökumət olmadığı üçün hər kəs bildiyini eləyir.

... Bir gün də atam şəhərdən gəlib, həyəcanla anama xəbər verdi ki, Nikolayın İran sərhədində olan qoşunları gəlib gedir Yevlağa ki, oradan da qatarlarla daşınıb getsinlər Rusiyaya.

– Nə üçün? – deyə anam soruşdu.

Atam papiros bükə-bükə dedi:

– Bizimkilər dinc oturmurlar, yolları kəsiblər ki, İran sərhədindən qayıdan çar qoşununu qırsınlar, yəqin işdir ki, bu, asan məsələ deyil, qoşunun topu var, pulemyotu var, onunla bacarmaq olar?!

Atam papirosunu yandırıb əlavə etdi:

– Çarın qisasını qoşundan almaq istəyirlər.

Anam dedi:

– Qoşun özbaşına deyildi ki?.. Yazıq soldatların nə günahı var?

– Onu kimə başa salmaq olar?.. Özü də qoşun gəlib burdan keçəcək! – Atam əli ilə bizim evin yaxınlığından keçib Yevlax stansiyasına gedən şose yola işarə elədi.

– Əgər qoşunla atışmağa başlasalar, onlar da şəhəri topa tutacaqlar, ona görə də siz burda qala bilməzsiniz.

– Burada qalmayıb hara gedəcəyik? – deyə anam soruşdu.

– Biz üç-dörd adam qərara almışıq ki, qoşun gəlib-keçənə qədər arvad-uşaq yığılsın Məşədi Qurbanın evinə. Ora daldadır. Yevlax yolundan atılan güllələr oranı tutmaz.

Anam papiros yandırıb dinmədi. Mən hiss elədim ki, anam bu məsələdən narazıdır, görünür, Məşədi Qurbanın evinə sığınmaq onun xoşuna gəlmirdi.

Məşədi Qurban ucaboy, enlikürək, qartalburun bir kişi idi. Özü qəssab olsa da, şəhərdə sayılan adam idi. Qoyun sürüləri, çobanları

var idi. Bizlərdə o adama sayılan deyərdilər ki, atıb-vuran olsun, heç kəs onun bir sözünü iki eləyə bilməsin, əlsiz-ayaqsızları müdafiə elə-sin.

Məşədi Qurbanın beş-altı otaqdan ibarət birmərtəbəli evinə bizdən başqa qohum-qonşudan da üç-dörd ailə yığılmışdı. Ev qalın bağın içindəydi. Ev sahibi qoyun kəsir, arvadlar da qapıda qalanmış ocaqların üstündə iri mis qazanlarda xörək bişirirdilər. Hamı həyə-can içində idi, kişilər topa dayanıb söhbət edirdilər. Məşədi Qurban hamıdan sakit görünürdü, qısa çubuqlu qəlyanını tüstülədə-tüstülə-də adamların söhbətinə qulaq asırdı. O öz sakitliyi ilə mənə əzəmətli görünürdü. Bağın qalınlığında zəncirə bağlanmış atlını atdan salan iri itlər, adamların həyəcanlı üzləri və Məşədi Qurbanın təmkini mə-nim xəyalımı çəkib Möhnət qocanın söylədiyi nağıllara aparırdı. Mən atamın arxa tərəfində hərlənərək kişilərin söhbətinə qulaq asırdım və atam hərarətlə deyirdi:

– Canım, bizimkilər ağılsız hərəkət eləyirlər, axı. Niyə qoy-murlar qoşun çıxıb getsin yerinə-yurduna?! Niyə xalqı qırğına verir-lər?!

– Düzdür, canım, – deyə baqqal Daşdəmir əmi həyəcanla səslən-di, – tutaq ki, üç-dörd yüz soldat qırdılar, nə olacaq?

– Axı niyə qırasan? Soldat olanda nə olar? – deyə atam həyə-canla dedi. – Onun da ata-anası var, vətəni var. O durub öz xoşu ilə gəlməyib ki, bura.

Qarnı özündən yarım metr qabağa çıxan erməni dərzi Santi təs-diq etdi:

– Elədi, elədi... A balam, yazıq deyillərmi?..

Səhərdən bəri uzaqdan səs-küy, at ayağının tappıltıları eşidilir-di. Sonra bu səslər bir-birinə qarışıb boğuq bir uğultuya çevrildi... Sonra getdikcə yaxınlaşan güllə səsləri eşidildi.

Atam dedi:

– Yəqin ki, qoşun girdi şəhərə!

Məşədi Qurban qəlyanını ağzından götürüb sakit səslə nökərlə-rinə əmr etdi:

– Tüfənglərinizi götürün çıxın yola.

Sonra bağdan o tərəfdəki hündürlüyü göstərib dedi:

– Yoldan keçən qoşuna güllə atmayın. İşdir, əgər görsəniz ki, evlərə hücum-zad olur, onda bir təkini də sağ buraxmayın. Heylə olsa, biz də gələcəyik!

Hərəsi iki-üç patrondaş bağlamış beş oğlan tüfənglərini götürüb sevinclə yüyürdülər yala, elə bil ki, toya gedirdilər.

Sonra Məşədi Qurban nə fikirləşdisə, qəlyanının külünü yerə çırpıb, uzun, şal pencəyinin cibinə qoyaraq iti addımlarla evə girib, iki kəmər patron və gödək bir beşatılan götürüb onların ardınca get-di. Atam arxadan səsləndi:

– Məşədi, biz də gələkmi?

– Yox, – deyə kişi cavab verdi, – siz arvad-uşağın yanında olun.

Atışma getdikcə şiddətlənirdi. Dərzi Santi lap dilxor olmuşdu:

– Keçmə siz türklərin də belə işlərindən. Ay canım, qoyun ya-zıqları çıxıb getsinlər dayna...

Baqqal Məşədi Əlibala yana-yana təsdiq etdi:

– Vallah, düz deyirsən, Santi. Hökumət ki, yıxıldı, gədə-güdə-nin öhdəsindən gəlmək olar? Hərə bir tüfəng götürüb qalxıb atın be-linə, qorxumuzdan dükanımızda oturub çax-çuxumuzu da eləyə bilmirik.

Mənim isə gözüm Məşədi Qurban əmigilin tüfənglənib getdiyi yalda idi, gözləyirdim görək nə vaxt onlar atışmağa başlayacaqlar... Amma onlar atışmırdılar.

Atam dedi:

– Görünür, qoşun atışa-atışa yoluna davam edir, şəhərlə işləri yoxdur.

Dərzi Santi hərarətlə dedi:

– Canım, o yazıqlar öz başlarının hayındadır. Axı şəhərlə nə iş-ləri var?.. Sizinkilər dinc durmurlar da.

Məşədi Qurbanın Xorasandan alıb gətirdiyi arvadı Zəhra xala da arvad-uşağa ürək-dirək verib deyirdi:

– Qorxmayın, heç nə olmayacaq.

Zəhra xala milliyyətcə fars olub, ucaboylu, qaragözlü, əsmər bir qadın idi, özünün də azərbaycanca qəribə, şirin ləhcə ilə danışma-ğı hamıya xoş gəlirdi, qonum-qonşu xətrini çox istəyirdi.

Axşama yaxın atışma tamam kəsildi. Məşədi Qurban əmigil yal-dan qayıdıb gəldilər.

Həmin günün səhəri dəhşətli bir hadisə oldu. Anam bağın aşa-ğısında, çəpərin yanında durub o biri həyətdə dayanmış özü kimi ca-van bir qadınla söhbət edirdi. Böyüklərin hər söhbətini eşitməyə marağım olduğu üçün mən də onların yanında oynayıb nə barədə da-nışdıqlarını bilmək istəyirdimsə də, heç nə başa düşmürdüm. Birdən elə bir gurultu eşidildi ki, yer titrədi, evin şüşələrindən bir neçəsi sı-nıb tökküldü.

– Ora bax, ora bax! – deyə anam çəpərin o biri üzündəki cavan qadına qışqıraraq, əli ilə göyü göstərdi və mən də baxdım: tüstü bas-mış şəhərin üstünə daş, torpaq, aydın seçə bilmədiyim cürbəcür şey-lər tökülürdü. Anam mənim əlimdən tutub evə tərəf qaçdıqda, indicə düz onun dayandığı yerə gurultu ilə yekə bir daş düşdü. Əgər anam ikicə saniyə oradan gec aralansaydı, daş düz onun üstünə düşəcək-di... (Görünür, tale onu daha dəhşətli əzablar üçün saxlayırmış).

Şəhərdən qorxunc səslər eşidilirdi. Bir azdan gördük ki, Məşədi Qurban əminin nökərlərindən kimi çiynində bir yeşik patron, kimi

dörd-beş tüfəng, kimi cürbəcür parça topları gətirdi. Nökərlərdən birinin isə qaşları, kirpikləri odda ütülmüşdü, üzündə, əllərində yanıq yerləri vardı. Amma paltarından su axırdı. Atamgil onları dövrəyə alıb sorğu-suala tutmuşdular. Məlum oldu ki, çar zamanından qalmış silah anbarını adamlar dağıtdıqları zaman kiminsə papirosundan dinamit çəlləyinə od düşüb, anbar partlayıb... Üz-gözü yanıb ütülmüş oğlan deyirdi:

– Camaat anbardakı şeylərin üstünə elə tökülüşmüşdü ki, ağız deyəni qulaq eşitmirdi. Adamlar bir-birinə macal verməyib, nə bacarırdı, dartışdırıb aparırdı. Bu vaxt birdən elə bir gurultu eşidildi ki, mən əvvəlcə nə olduğunu başa düşmədim. Gördüm ki, od-alov dünyanı bürüdü, sonra elə bil ki, məni bu cəhənnəmin içindən göyə tulladılar. Göydə alovlanan adamlar «Allah, sən saxla! Ya Allah» deyə qışqırırdılar. Hiss eləyirdim ki, mənim də çuxam yanır... Sonra, elə bil, məni yerə çırpdılar. Qalxıb özümü atdım Çərəkənə (həmin hərbi anbar Çərəkən deyilən arxın qırağında tikilmişdi), yoxsa yanacaqdım.

... Sonra atamgil şəhərdən xəbər gətirdilər ki, hərbi anbarın partlaması nəticəsində yüzlərlə adam həlak olub... Sonra həlak olanlar arasındakı tanışları sadalayırdılar...

Sonra biz öz evimizə qayıtdıq. İkinci mərtəbəyə çıxanda gördük ki, artırmaya açılan qapıların yuxarı tərəfləri güllədən dəlmə-deşikdir. Atam qapıları nəzərdən keçirib anama dedi:

– Fikir verirsən, bütün güllələr qapıların yuxarı tərəfinə dəyib, soldatlar gülləni havaya atırmışlar. Demək, qoşun bizim adamları vurmaq fikrində olmayıb, başlarının üstündən havaya atırmışlar ki, çıxıb getmələrinə mane olmasınlar.

Mən düşüb bağımızın qalın yerindəki həmin iri tut ağacının yanına qaçaraq onun da xeyli yarpağının dəlik-deşik edildiyini, bəzilərinin qırılıb yerə töküldüyünü gördüm. «Demək, bunları da qoşunun atdığı güllələr qırıb töküb» – deyə düşündüm və birdən mənə elə gəldi ki, tut ağacı da sükut içində dayanıb kədərlə mənə baxır. Elə bil ki, məndən soruşur: «Axı, bu nə işdi?» Elə bu gündən də mənimlə bu tut ağacı arasında mehriban ünsiyyət başladı. Mən də heç vəchlə başa düşmürdüm ki, nə üçün o soldatlar uzaq-uzaq yerlərdən gəlib İranla bizim aramızda olurdular. İndi niyə çıxıb gedirdilər? Niyə bizim camaat onları qırmaq istəyirdi? Nə üçün o qədər barıtı, dinamiti, patronu yerin altındakı anbarda gizləyib saxlayırdılar ki, onlar da partlayıb adamları göyə sovursun? Yazıq adamlar... Lakin elə bu anda da mənim həmin həlak olan adamlara acığım tutdu. Axı onlar nə üçün anbarı dağıdırdılar? Oradakı şeylər ki, onların deyildi. Məşədi Qurban əminin öz nökərlərini anbardan qarət şeyləri daşımağa göndərməsi buradaca yadıma düşdü və bu əhvalat mənim gizli bir maraqla tamaşa elədiyim ucaboylu, enlikürək, qartalburun Məşədi

Qurbanı sanki gözümdən saldı. Sanki onun təmkini, əzəməti yox olub getdi. Mən həyatımda birinci dəfə olaraq adamların daxilində nə isə mənə məlum olmayan yırtıcı – qorxulu bir şeyin varlığını hiss eləyirdim... Və mən bu gərgin hisslərlə yarpaqları güllədən deşik-deşik edilmiş tut ağacına baxırdım. Mənə elə gəlirdi ki, o da mənim fikrimdən keçənləri düşünür... O da təəccüb edir və elə yenə buradaca aşıqların Qaçaq Nəbi haqqında oxuduqları bir mahnı yadıma düşdü:

Nəbinin bığları eşmə-eşmədi,
Papağı güllədən deşmə-deşmədi...

Demək, Nəbinin düşmənləri buradan gəlib-keçən soldatlar kimi, gülləni havaya atırmışlar, düz onun başına atmırmışlar! Sonra da... Sonra da öz yoldaşı Nəbini yatdığı yerdə namərdliklə vurub öldürüb... Namərdliklə! Tez-tez Bayram babamdan eşitdiyim «mərdlik», «namərdlik» sözləri mənim xəyalımda sehirli bir qüvvəyə malik idi. Amma indi, elə bil, o sözləri bürüyən duman yavaş-yavaş çəkilirdi: mən mərdliyin, namərdliyin nə demək olduğunu anlamağa başlayırdım. Nağıllarda eşitdiyim mərd qəhrəmanlar bütün faciəvi çalarları ilə xəyalımda canlanırdı və onlar mənim ürəyimi məhəbbətlə kövrəldirdi.

Qardaşlarının Məlikməmmədi quyuya salmaları məndə onlara qarşı sonsuz bir nifrət doğururdu, zümrüd quşunun Məlikməmmədi zülmət dünyasından belində gətirib işıqlı dünyaya çıxarması məni sevindirirdi. Mən igid Nəbinin də, Məlikməmmədin də çöhrələrini gözümün qabağına çox aydın gətirdiyim halda, Nəbini yatdığı yerdə vuran, paxıllıq ucundan Məlikməmmədi quyuya salan namərdlərin nə şəkildə, nə üzdə adamlar olduqlarını heç vəchlə təsəvvür eləyə bilmirdim. Onlar xəyalımda bəzən əcaib, eybəcər məxluqlar kimi, bəzən buynuzlu divlər şəklində, bəzən də vahiməli bir tüstü içində canlanırdılar, amma mən Məlikməmmədin, Qaçaq Nəbinin, kasıblara əl tutması ilə məşhur olan igid Qaçaq Süleymanın nəinki gözəl çöhrələrini (mənə elə gəlirdi ki, onlar ancaq gözəl ola bilərlər) aydın görürdüm, hətta mən onları özümə olduqca yaxın adamlar hesab edirdim. Mən saatlarla onlar haqqında düşünüb xəyala dalırdım. Mən bu qəhrəmanları həmişə də, nə isə, fövqəladə bir fədakarlıq göstərdikləri halda, məsələn, divlərin tilsimə salıb dustaq elədikləri halda, gözəl bir qızı, ya xəyanətlə quyuya salınmış cavan oğlanı xilas etmələri şəklində təsəvvür edirdim.

SUÇU İMAN KİŞİ

Bizim alt otaqlardan birində İman kişi adlı suçumuz olurdu. O, həm bizə, həm də yaxın qonşulara kəhrizdən iri mis sənəkdə su daşıyırdı, bunun da əvəzində ona hər sənəyin suyu neçə qə-

piyə isə, pul, ya da xörəkdən-zaddan verirdilər. İman kişi evdə də, çöldə də eyzən öz-özünə danışırdı. Evdə olanda cındır keçə parçasının üstündə əyləşib kürkünü, ya şalvarını yamaya-yamaya hey özü-özü ilə danışırdı, mən də qabağında çömbəlib ona qulaq asırdım. O isə mənə fikir vermədən deyirdi:

– Yer oğlu bir qıy vurub qalxdı göyə.

Mən soruşurdum:

– İman kişi, kimdir Yer oğlu?

O mənə cavab vermədən bu cür anlaşılmaz şeylər danışır, bəzən gülməkdən qəşş edirdi. Haradansa əlinə keçmiş, vərəqləri saralıb didik-didik olmuş bir kitabı gözünün qabağına tutub, guya oxuyurdu:

– Quranın Quran olsun...

O, bu kitabı Quran hesab eləyərək həmişə başının altına qoyurdu. İman kişinin başqa qəribə işləri də vardı; məsələn, onun yanında qara daşın adını tutmaq olmazdı. Hirslənib həmişə əlində gəzdirdiyi ağacla adamın baş-gözünü əzərdi. Bunu bilən uşaqlar da küçədə onu görən kimi:

– İman kişi, qara daşa lənət! – deyə qışqırışıb ona sataşardılar.

İman kişi də onları qovub tuta bilmirdi, qara daşı belə müqəddəs hesab elədiyi halda qara toyuqla düşmən idi. Harada qara toyuq görsə idi, selbə ilə vurub qılçını sındırırdı. Ona görə də adamlar İman kişini görən kimi, qara toyuğu qovub onun gözündən uzaqlaşdırırdılar. Mən bir dəfə soruşdum ki:

– İman kişi, niyə qara toyuqla düşmənsən?

Dedi:

– Qızbəs qara toyuğa cadu eləyib.

Qızbəs xala «harda aş, orda baş» olan, xeyirdə, şərdə həmişə birinci iştirak eləyən, qız-gəlinin qaşını alan, qadın toylarında məzəli sözlər danışıb qaravəlli çıxaran, gəlinlərə yengə olan bir arvad idi.

Bir dəfə biz artırmada oynadığımız zaman küçədə arvad qışqırığı eşidib, dal qapıya yüyürdük. Gördük İman kişi Qızbəs xalanın qolundan yapışıb ağacla budayır, arvad da bağırır. İman kişi qəzəblə deyirdi:

– Köpək qızı, camaatın toyuqlarına niyə cadu eləyirsən?

Qonşu kişilər yüyürüb Qızbəs xalanı güclə onun əlindən aldılar.

Bizim alt evlərdən birində də Kəklik xala adlı, saçları, kirpikləri, bütün bədəni dümağ, kasıb dul bir qadın olurdu. Kəklik xalanın dörd oğlu vardı. Kiçiyi on bir-on iki, böyüyü isə iyirmi yeddi-iyirmi səkkiz yaşlarında olardı. Arvad özü də, oğlanları da ona-buna günəmuzd işləyərək birtəhər dolanırdılar. İman kişi indi də Kəklik xalanı qaralamışdı. Nə üçünsə kişiyə elə gəlirdi ki, Kəklik xalanın gözləri görmür. Hey öz-özünə danışırdı:

– Zalım qızına deyirəm sən öləsən, öz sidiyindən tök, gözünü sidiklə yu, açılsın. Eləmir ki, eləmir...



İman kişinin xoşu gələn bir məxluq vardısa, o da mənim kiçik bacım Mahtab idi. O zaman Mahtabın üç-dörd yaşı olardı. İman kişi qonşuların suyunu verib evə gələn kimi biz də yüyürürdük onun yanına. Görürdün ki, İman kişi mənim anamın, qonşuların verdikləri xörəklərin hamısını saxsı çanaqda bir-birinə qatıb ağac qaşıqla yeyir. Bacım Mahtabı görən kimi:

– Gəl, papılı balam (bu «papılı» İman kişinin özünün icad elədiyi söz idi), gəl otur, – deyirdi.

Mahtab da onun qarşısında, köhnə keçə parçasının üstündə oturandan sonra İman kişi yeməkdən bir qaşıq onun ağzına qoyurdu, birini də öz ağzına. Evdə anamgilin zorla yemək yedirtdikləri Mahtab İman kişinin bu əcaib xörəyini ləzzətlə yeyirdi. Anam bunu görəndə özündən çıxırdı. Qızı qucağına götürərək qulağını çəkib, İman kişiyə acıqlanırdı:

– Sənə yüz dəfə demişəm, uşağa yemək vermə.

Ancaq İman kişi evə gələn kimi Mahtab yenə də gözdən oğurlanıb onun yanına qaçırdı. Yenə də İman kişi «papılı balam» deyə-deyə öz qaşığı ilə qıza həftəbecər yedirdirdi.

İman kişinin həyatı mənim üçün tamamilə yeni bir aləm idi. Bu aləm məni ona görə o qədər maraqlandırırdı ki, mənim özümün də bu həyatdan xaricdə bir aləmim yaranırdı. İman kişinin heç kəsi yox idi. Heç kəs onun haradan gəldiyini, harada, hansı ölkədə, hansı obada doğulduğunu bilmirdi. Hamı onu dəli hesab eləyirdi. Ancaq İman kişinin hey öz-özünə danışmağı, bəzən gülməyi, bəzən qəzəblənməyi mənə nağıllarda eşitdiyim cadugərlərin hərəkətlərini xatırladırdı. Fikirləşirdim ki, bəlkə bu kişi ayrı, tamam başqa bir dünyadan gəlib? Bəlkə, doğrudan da, qara daşa lənət oxumaq olmaz?! Bəlkə, Qızbəs xala həqiqətən də cadugərdir? Bəlkə, arvad, doğrudan da, qara toyuğa cadu eləyib? Əlbəttə, mən cadunun nə demək olduğunu bilmirdim. Ancaq bununla belə, o elə öz anlaşılmazlığı ilə məni vahimələndirirdi. Bu vahimələri qulluqçumuz Zinyətin Cin dərəsi haqqında danışdığı şeylər də gücləndirirdi.

Azca çopur, uzunburun bir qız olan Zinyət Bayram babamgilin obası Kürdobadan idi. Kürdobanın qışlağında «Cin dərəsi» adlanan yiyəsiz bir dərə vardı. Zinyət danışırdı ki, gecələr cinlər o dərəyə yığılıb toy çalıb oynayırdılar. And içirdi ki, qoca Mustafaoğlu Mehdi gecələr Haramılardan qışlağa qayıdanda neçə dəfə onları gözü ilə görüb, cinlər kişini tutub oturdublar ki, qonaq olub onların xörəklərindən yesin. Mustafaoğlu da əlini xörəyə uzadıb, «bismillah» deyən kimi cinlər də, xörəkləri də yox olub. Çünki cinlər Allahın adından qorxurlar.

Zinyət onu da deyirdi ki, cinlər hər adamın gözünə görünməz. Mən də fikirləşirdim ki, bəlkə bizim görmədiyimiz cinlər İman kişinin gözünə görünür və İman kişi eyzən onlarla danışır?

MƏN VƏ AĞACLAR

Evimizin qabağında atamın saldırdığı və indi hər gün, heç olmasa, bir-iki saat həvəslə qulluq elədiyi, öz əli ilə suvardığı cavan bağla mənim aramda gizli bir ünsiyyət yaranırdı. Buradakı alma, ərik, tut, gilənar, əncir, gavalı, qoz, armud, heyva ağaclarının hərəsinin öz görünüşü vardı və bunların hər biri mənə bir cür təsir eləyirdi. Ərik ağacının çəhrayıya çalan çiçəkləri mənə nə üçünsə əsrarəngiz təsir bağışlayırdı, gilənar, gavalı ağaclarının ağ çiçəkləri mənə zərif bir şadlıq gətirirdi. Ağ şahtutun günəş işığında zümrüd kimi parıldayan enli, ipək yarpaqları bu şənliyə bir cəsarət, daha güvvətli bir şadyanalıq çaları verirdi. Qoz yarpağının soyuq ətri məni qüssələndirir və anamın tez-tez xəstələnməsini xatırladırdı. Bəlkə də bu ondan idi ki, bir dəfə anam malyariyadan bərk qızdıranda Zinyətə dedi ki, «get, bir qoz budağı qır gətir». Zinyət budağı gətirib verəndən sonra anam gözlərini yumub onu xeyli qoxladı... və anamı yuxu tutanda mən də balaca qoz budağını götürüb qoxladım və onun enli, tər yarpaqlarından qalxan ətir mənə soyuq və həsrətli göründü.

Anamın xəstələnməsi həmişə mənim üçün son dərəcə qəmgin bir hadisə olurdu. Onun gözəl, şəffaf gözləri qızdırmadan alışıb-yananda mən özümü dünyanın ən bədbəxt adamı sayır və saatlarca yastığının böyründən uzaqlaşmırdım. Anam xəstəlikdən sağalıb ayağa qalxanda isə ürəyimdəki fərəhin həddi-hesabı olmurdu. Lakin kədərim kimi, fərəhim də həmişə ürəyimdə gizli qalırdı. Yəni mən onları izhar eləməkdən çəkinirdim. Ona görə çəkinirdim ki, mənim ortaboylu, enlikürək, qaraqaş, qaragöz, gözəl və çox güvvətli bir oğlan olan atam başqa adamlarla zarafat eləməyi, deyib-gülməyi sevdiyi halda, biz uşaqlarla, xüsusən mənimlə çox sərt rəftar edirdi. Nə üçünsə, mənim zarafatım, deyib-gülməyim həmişə onu acıqlandırırdı. Ona görə də yavaş-yavaş məndə bir qapalılıq əmələ gəlirdi. Mən heç bir sirrimi, sevinc və kədərimi biruzə verməməyə çalışırdım və atamın yanında öz hərəkətlərim özümə yöndəmsiz görünürdü. Özümə, öz hərəkətlərimə inamım azalırdı, mən, bir növ, fağır, çəkingən olurdum, bu isə atamı acıqlandırırdı və onun mənə qarşı daha sərt rəftarına səbəb olurdu. Mən üsulsuz bir hərəkət eləyəndə, məsələn, nahar elədiyimiz zaman stəkana toxunub çayı süfrəyə dağıdanda, o, qəzəblənib, məni «maymaq», «filinti», «çolaq» adlandırıb danlayardı. Bu zaman:

– Yaxşı... Dünya dağılmadı ki? – deyə anam məni müdafiə edərdi.

Mən də anamın məni bu cür müdafiə eləməsindən kövrələrək bağımıza qaçıb böyük tut ağacının yanına gələrək ona söykənib o ki var, ağlayardım və əgər hava tutqun, çiskinli idisə, tut ağacının pərişan sükutu mənim dərdimin üstünə dərd artırardı. Əgər hava buludsuz, çiskinsiz idisə, şah tutun günəş işığında mərdanə bir şadlıqla parıldayan enli, ipək yarpaqlarından sanki qəlbimə anlaşılmaz bir təsəlli, bir sakitlik, məchul bir ümid axıb gözümün yaşını qurudurdu. Ağacların arasından atamın bazara, öz mağazasına getdiyini görəndən sonra mən də qayıdıb evimizə qalxırdım və anamın iri bədənnüma güzgünün qabağında dayanaraq nə isə zümzümə eləyə-eləyə uzun, qara saçlarını hördüyünü görüb şadlanırdım. Atamdan dörd-beş yaş kiçik, boylu-buxunlu bir gəlin olan anamın gözəlliyi, zinəti, paltarı həmişə məni fərəhləndirir, atamın sərt rəftarını, danlaqlarını mənə unutdururdu. Mən anamın üzərində qızıl zərli güllər olan gilənar rəngli uzun məxmər tumanına, qolları enli qanovuz arxalığına, ortasında iri yaqut yanan enli qızıl kəmərinə, boynundan asılmış aypara şəkilli qızıl silsiləyə və bütün bunların ona necə gözəl yaraşdığına heyranlıqla tamaşa edirdim. Lakin belə zamanlarda anamın zümzümə elədiyi qəmli mahnı məni kədərləndirirdi. Mən istəyirdim ki, anam belə qüssəli şeylər oxumasın. O, biş-düşdən, işdən sonra divan yastıqlarına dirsəklənərək Füzulinin, Natəvanın kitablarını, ya da Firdovsinin «Şahnamə»sindən Rüstəmlə Söhrabın əhvalatını (əlbəttə, bu kitabların kimlərin olduğunu mən yazı-oxu öyrənəndən sonra bildim) ahəstə, lirik bir səslə öz-özünə zümzümə eləyəndə də mən eyni halları keçirirdim. Lakin o, «Ərmənusa», «Hind racisi», «Şahnamə», «Min bir gecə» və sairə kimi kitablardan oxuduğu əhvalatları bizə danışanda mənim xəyalımda heyrətli bir aləm yaranırdı və bu aləmin qəhrəmanları, onların igidlikləri uzun zaman gözümün qabağından getmirdi. Mən onların iztirabları ilə həyəcanlanıb pərişan olur, qələbələrinə sevinirdim və getdikcə xəyalımda yaranan bu aləm mənə real həyatdan, təsadüf elədiyim insanlardan (yalnız anamdan başqa!) daha artıq xoş gəlirdi. O aləm məndə real həyata qarşı bir soyuqluq, bir bədbinlik yaradırdı. O aləm mənə daha şirin, daha cazibədar görünürdü. Ona görə də mən getdikcə öz evimizdə daha qaradinməz, adamayovuşmaz olurdum. Mən öz evimizdə deyirəm, çünki Bayram babamgildə dönüb tamam başqa adam olurdum... Öz evimizdə atamın mənimlə həddindən artıq sərt rəftarı mənim öz daxilimə çəkilməyimin, hər şeyin mənə soyuq, yapışıqsız görünməyinin, əlbəttə ki, əsas səbəbi idi.

... Sərhəddəki qoşun çəkilib gedəndən bir neçə gün sonra bir səhər Zinyət sevinə-sevinə yüyürüb anama xəbər verdi ki, Fatma xanım (yəni anamın anası) indicə gəldi.

Bizim bağın qurtaracağında bir malakanın qalın çəkilliyi vardı. Çəkillikdən o tərəfdə isə Bayram babamgilin üç otaqdan ibarət birmərtəbə evi idi. Evin qabağında böyük bağ var idi. Bayram babam bu evi Nikolay taxtdan düşəndən iki il əvvəl Rusiyaya köçüb gedən bir

malaкandan almışdı və təzə ev tiкdirmək üçün bağa çoxlu hörgü daşı töкdürmüşdü.

Mən və bacım Mahtab anamla getdiк babamgilə. Fatma nənəm artırmada qoyulmuş enli taxtın üstündə əyləşib həmişəкi кimi uzun müştüyündə papiros çəкirdi. Anamdan qabaq bacımla mən yüyürüb getdiк yanına. İкimizin də üzündən öpdü. Nə atam, nə də anam heç bir zaman mənim üzümdən öpməzdilər, bəlкə də buna görə idi кi, başqasının və o cümlədən nənəmin də üzümdən öpməsi xoşuma gəlmirdi.

Fatma nənəm dedi:

– Allaha şüкür кi, gəlib sizi sağ-salamat gördüm. Ara yaman qarışıb.

– Bəs dədəm niyə gəlmədi? – deyə anam soruşdu.

Fatma nənəm müştüyündən dərin bir nəfəs alıb dedi:

– Camaatı başlı-başına buraxıb gəlmək istəmədi. Ağsaqqallar da yığılıb dedilər: «Əşi, sən getsən, burda papaqaldıqaç olacaq». Məni də Qızılbaşoğlu Alı ilə üç atlıya qoşub göndərdi.

Qızılbaşoğlu Alı, yarısı Arazın İran tayında olan qədim Şahsevən obalarından idi. Çox igid bir oğlandı. Həmişə Bayram babamın yanında olardı. Nənəmlə birgə Güllü adlı qulluqçuları və İmaş adlı nöкərləri də gəlmişdi. Güllü Kürdobadan Vəli adlı кasıb tərəкəmənin qızı idi. On doqquz-iyirmi yaşlarında, yanaqları lalə кimi alışıb-yanan, sağlam, ətli-canlı bir gəlin idi, uşağı olmadığı üçün toylarından üç il sonra əri boşayıb qovmuşdu. O vaxtdan Fatma nənəm gətirib qulluqçu saxlayırdı. Hamı Güllünün zirəкliyini, təmizкar olmağını, deyib-gülməyini tərifləyirdi, ancaq ondan həmişə əl-üz sabununun iyi gəlirdi кi, mən də bundan bərк dilxor olurdum. Məni qucaqlayıb üzümdən öpəndə «burax» deyə qışqırıb acıqlanırdım. O da qəhqəhə ilə gülüb, zorla təкrar öpürdü.

Babamgilin nöкəri İmaş isə Cənubi Azərbaycandan idi. Təxminən Güllü yaşında, nazıк, yaraşıqlı bir oğlan idi. Bir il qabaq Şimali Azərbaycana fəhləliyə gələn bir dəstə həmyerlisinə qoşularaq Arazı кeçmişdi. Cənubi azərbaycanlıların geydiyi sərdarisi ilə кeçə araqçını hələ də başında idi.

Məni görəndə Güllü yenə də qucaqlayıb o üzümdən, bu üzümdən bərк-bərк öpdü. Yenə də mən ondan sabun iyi gəldiyini duyub, dartınaraq qucağından çıxdım. Anam bərкdən güldü. Fatma nənəm də gülümsəyib:

– Ay batmış, – dedi, – sən qızıxmısan, uşağı utandırma.

Güllü qəhqəhə ilə güldü. Fatma nənəm taxta qutusunu açaraq zəfəran кimi sapsarı, saçaqlı tütündən papiros büкə-büкə anamdan soruşdu:

– Nurudan bir xəbər yoxdu кi?

– Məşədi Qara dünən Şuşadan gəlib. Bunların atasına deyirmiş кi («bunların» dediкdə, anam mənə işarə elədi. Anam heç bir zaman nə təкliкdə, nə də adam yanında atamın adını deməzdi. Həmçinin, atam da anamın adını deməzdi. Bu da mənim üçün qəribə bir sirr olaraq qalırdı), Nurunu görüb, özünə də qızıl onluq verib.

– Nuru özü istəyib pulu? – Nənəm soruşdu.

– Özü istəməyəndə, Məşədi Qara durduğu yerdə ona pul verməyib кi...

Fatma nənəm dedi:

– Kişi ona beş gün bundan qabaq bir at yüкü yavanlıq, nə qədər pul göndərib, Allah saxlamış pulu pul кimi xərcləmir кi...

– Hamısını sən eləmisən! – deyə anam acıqlı cavab verdi. – Həmişə bir tərəfdən кişi bəsdi deyincə pul göndərib, bir tərəfdən də sən əlinə düşəni gizlin göndərib onu pis öyrətmisən, xalqın da uşağı oxuyur, кim o qədər pul göndərir?

Nənəm papirosunu müştüyə qoyub dərindən sümürüb susurdu. Mən ona baxıb hiss eləyirdim кi, anamın sözlərinə etiraz eləməsə də, ürəyində oğluna da acıqlanmır.

Anam isə sözünə davam eləyib deyirdi:

– Neçə dəfə ümumxanada görüblər. Onun nə vaxtıdı кi, arvad-qız dalınca düşsün?

Əlbəttə, mən bu söhbətdən heç nə başa düşmürdüm, ancaq nə isə hiss edirdim.

Güllü onların qabağında dayanaraq qəribə bir maraqla anama qulaq asırdı.

Birdən nənəm acıqlı-acıqlı dedi:

– Onsuz da atanın qazandığını qardaşı gülləyəgəlmiş yeyir.

Bu artıq mənə məlum idi. Fatma nənəm Bayram babamın qardaşı Eyvaz əmini nəzərdə tuturdu. Eyvaz əmi Kürdobada adlı-sanlı tərəкəmə idi. Yaşda Bayram babamdan кiçiк idi. Fatma nənəmin öz-özü ilə qəzəbli-qəzəbli danışmağından, anamla olan söhbətlərindən bilirdim кi, Bayram babam gah bir dəvə alıb bağışlayır Eyvaz əmiyə, gah at verir, gah pul. Bu da Fatma nənəmi yandırıb-töкürdü.

– Axı, – deyirdi, – кişi fiкirləşmir кi, özünün də oğlu var; bu gün-sabah evlənəcəк, ona da bir gün ağlamaq lazımdı.

Anam dedi:

– Dədəm qardaşını atmayacaq кi?.. Nə olsun oğlu var?

Anam cavan, gülərüz, yaraşıqlı bir oğlan olan əmisi Eyvazın xətrini çox istəyirdi.

Fatma nənəmi od götürdü:

– Sən dilini farağat qoy! – dedi. – Vələdüzna Eyvazın tərəfini az saxla. Sizi görəndə yağlı dilini salır işə, elə bilirsiniz bir düzəməlli adamdı. Bayram məni Şuşadan gətirəndə anası Səкinə ilə heç üzümə baxmırdılar, daldada da eyzən кişinin qarasına danışırdılar

ki, «gedib Şuşanın gözünü çıxarıb. Dul gəlini alıb, bizə töhfə təbərcehi gətirib».

Anam gülümsəyib dinmədi.

QIZILBAŞOĞLU

Bir azdan Fatma nənəmi gətirən Qızılbaşoğlu Alı da gəldi. Bu, uzunboylu, xına rəngində saçları boynunun ardına tökülmüş, ayaqlarında uzunboğaz çəkmə, əynində sərdari çuxa, başında gümüşü papaq olan bir oğlan idi. Belində ağac qoburlu onatılan tapança var idi.

– Necəsən, bacı? – deyə anamla hal-xoş eləyib Güllünün içəridən gətirdiyi stulda əyləşdi.

Anam ona müraciətlə gülümsəyib dedi:

– Kişini tək qoyub gəlmisiniz?

Qızılbaşoğlu dedi:

– Tək niyə olur? Camaat kişinin başına and içir.

Sonra əlavə etdi:

– Mən indi qayıdıram.

Anam dedi:

– Gecəyə düşəcəksən.

Qızılbaşoğlu sakit cavab verdi:

– Gecə yaxşıdı, Şpartı çölləri indi gündüz isti olur.

Mən təəccüblə soruşdum:

– Tək gedəcəksən?

– Əlbəttə! – deyə o, mənə baxıb gülümsədi.

Mən dedim:

– Bəs qaçaq-quldurdan qorxmursan?

O, eyni xoş təbəssümlə cavab verdi:

– Qaçaq da adamdı dayna. Qaqaş, niyə qorxum ki?

Anam zarafatyana mənə dedi:

– Bəyəm, Alı dayın özü az qaçaq olub?..

Qızılbaşoğlu qalxıb bağın içi ilə axan arxın qırağındakı yoncalıqda qolbənd elədiyi atını açıb gətirdi.

Nənəm dedi:

– Alı, otur, çörək ye, sonra.

Alı dedi:

– Şəhərdə yemişəm.

Sonra Güllüyə dedi:

– Bacı, içəridən mənim tüfəngimi gətir.

Güllüdən qabaq mən yüyürüb onun gödək beşaçılanını və patronla dolu kəmərini gətirdim.

Alı:

– Salamat qalın! – deyib kəmərlə tüfəngi çiyinlərindən aşıraraq cəld hərəkətlə qalxdı ucaboylu alapaça ürgənin üstünə.

Sonra soruşdu:

– Kişiyə sözünüzdən, sovunuzdan?

Anam dedi:

– Sözümüz odur ki, kişidən muğayat olasan!

Qızılbaşoğlu ciddi cavab verdi:

– Arxayın ol, bacı.

Fatma nənəm Güllüyə dedi:

– Gətir, oğlanın dalınca su at.

Qulluqçu içəri qaçdı. Qızılbaşoğlu isə ayaqlarını balaca tərpədən kimi at sıçrayıb yola düzəldi, Güllü yüyürüb gələrək suyu onun ardınca atdı.

Qızılbaşoğlu ağacların arasından keçib yox olduqda birdən-birə mənə elə gəldi ki, o bizdən ayrılıb tamam ayrı bir dünyaya getdi. Bir azdan gün batıb gecə düşəcək, Qızılbaşoğlu yiyəsiz çöllərlə tək-tənha gedəcək. Kim bilir, bəlkə, birdən qabağına bir dəstə qaçaq çıxacaq?.. Eh, kim bilir, bəlkə qaranlıq dərələrin birində cin yığıncağına rast gələcək...

Deyirlər, bir dəfə qaranlıq gecədə Qızılbaşoğlu Alı Haramı ilə atlı gedirmiş. Birdən xapaxap üç qaçaqla çıxır üz-üzə. Qızılbaşoğlu özü ilə silah götürməyibmiş, sapı ceyran ayağından qayrılmış qamçısını qaranlıqda qəfil tapança kimi atlılara tuşlayaraq qışqırır:

– Ə, tökün tüfənglərinizi, yoxsa onatılanla hamınızı qırdım!

Qaçaqlar bilirdilər ki, Qızılbaşoğlu onatılanın tətiyini çəksə, üçünü də bir anda biçəcək. Ona görə də tüfənglərini sivirib tullayırlar yerə... Qızılbaşoğlu deyir:

– İndi kənara sürün atlarınızı.

Özü isə atdan yerə tullanır, tüfənglərdən birini götürüb nəşə ilə atlılara deyir:

– Gedin, amma heç kəsə deməyin ki, Qızılbaşoğlu Alı bir qamçı ilə bizim tüfənglərimizi aldı.

Qaçaqlar mətləbi başa düşürlər, onlardan biri deyir:

– Ə, Qızılbaşoğlu! Deyilmişkən varmışsan, amma igid igidi el içində xar eləməz, mən Əhmədallar Xanalıyam, ver tüfənglərimizi, bu gündən sənin lə qardaşam.

Qızılbaşoğlu deyir:

– Düşün, götürün tüfənglərinizi!

Özü isə alapaça ürgənin üstünə tullanıb bir göz qırpımında yox olur...

Anam qalxaraq mənə dedi:

– Gedək.

Mən bu xəyallarımdan və Fatma nənəmgildən ayrılıb öz evimizə getmək istəmirdim. Mən bilirdim ki, evimizdə məni atamın sərt ba-

xışları, danlaqları gözləyir. Mən heç bir zaman özümü evimizdə babamgildə olduğu kimi sərbəst hiss eləmirdim. Yalvarıb anamdan xahiş elədim ki, qoysun gecəni qalım babamgildə.

Anam dedi:

– Qalırsan, qal, amma dədənin acığı tutacaq.

Nənəm dedi:

– Mağıl dayna... tay dabanıçatdaq Xəlsənin oğlunun acığı tutdu, dünya dağılacaq, uşağın üzünü o qədər danlayır ki, evdən-eşikdən də perikir.

İMAŞ VƏ GÜLLÜ

Həmişə nənəm, ya anam məni müdafiə eləyəndə ürəyim kövrəlirdi. İndi də Fatma nənəm belə deyəndə gözlərim doldu və mən bağa qaçdım. Gördüm ki, İmaş su arxının qabağında oturub üst köynəyini yamayır, əldə toxunan kobud yun şaldan tikilmiş sərdarisini isə alt köynəyinin üstündən atıb çiyninə. Həmişə olduğu kimi, indi də məni görəndə gülümsədi. Onun arvad kimi köynək yamaması mənə qəribə göründü, mən ondan soruşdum:

– Niyə köynəyini özün yamayırsan?

– Bəs kim yamasın, qaqaş? – dedi. – Anam yox, bacım yox.

Onun sözləri məni kədərləndirdi, düşünmədən soruşdum:

– Heç anan-bacın olmayıb?

O gözü tikişində:

– Niyə olmayıb? – dedi, – daş deşiyindən çıxmamışam ki?.. Anam da vardı, atam da... bacım, qardaşım da... Hələ desən, babam, nənəm də vardı. Özləri də məni çox istəyirdilər, necə ki, səni baban, nənələrin çox istəyirlər.

Mən onun yanında yerə çökərək soruşdum:

– Bəs necə oldular?

O, dərindən nəfəs alıb yamağını tikə-tikə dedi:

– Bir qonşu xan bizim kəndi qarət eləyib dağıdanda, qırılan qırıldı, qırılmayan da hərə başını götürüb bir tərəfə qaçdı. Kimi acından, kimi azardan öldü. Mən də qoca bir dayımla qaçqınlara qoşulub bu taya keçdim. Dayıma da Arazda güllə dəydi.

Mən sükut içində İmaşa tamaşa edirdim. Mən bu qədər dərdə onun necə dözdüyünə təəccüb edirdim. Nəhayət, mən ondan soruşdum:

– O qonşu xan sizin kəndi niyə dağıdırdı?

– Çünki bizim xanla düşmən idi. Qəfil bir-birinin kəndlərinə hücum eləyib çapıb-talayırdılar.

– Bəs şah niyə qoyurdu?

– Şahın canındandır ki, bizim xanlar bir-birlərini didib-parçalasınlar.

– Niyə axı?

– Eh, qaqaş... sən hələ uşaqsan, belə şeyləri başa düşməzsən.

– Yox, sən danış, başa düşərəm!

– Bilirsənmi, qaqaş, şah farsdır, amma biz də, xanlarımız da azərbaycanlıyıq...

– Nə olsun?

– Şah fars olduğu üçün istəyir bizim Azərbaycan xanları bir-birilərilə boğuşub, başları qarışsın ki, Azərbaycan xalqı şahdan hürriyyət istəməsin.

Mən nəyi isə dumanlı halda dərk etməyə başlayırdım, öz xalqımın taleyi haqqındakı həqiqəti birinci dəfə babamgilin nökəri İmaşdan eşidirdim.

Mən xeyli sükutdan sonra soruşdum:

– Niyə sizin qəhrəmanlarınız gedib şahı öldürmürlər?!

İmaş qüssə ilə gülümsədi:

– Çünki, – dedi, – qoşun, silah şahın əlindədir.

Elə bu zaman Güllü bizim yanımıza gəlib məzəmmətlə İmaşa dedi:

– Ədə, ədə, xarabalıqda-zadda deyilsən ki?.. Köynəyini niyə özün yamayırsan? Biz burada adam döyülük?

İmaş qızardı:

– Sənə əziyyət vermək istəmədim...

Güllü onun yanında yerə çökərək:

– Nə olub, – dedi, – xanım-zad olmamışıq ki?.. Ver bura.

Güllü köynəyi İmaşın əlindən alaraq onun yamadığı yeri nəzərdən keçirib bərkdən güldü.

– Yaman da tikmisən.

Sonra ayağa qalxaraq nə üçünsə pıçıltı ilə dedi:

– Tikib, yuyub gecə gətirərəm...

– Yaxşı, – deyə İmaş da lap yavaşdan cavab verdi.

Güllü gedəndən sonra mən, elə bil, nəyinsə ağırlığı altında İmaşdan soruşdum:

– Niyə özünə təzə köynək almırsan?

İmaş gülümsədi:

– Çünki pulum yoxdu, qaqaş!

Mən dinmədim. Suçlu adamlar kimi, qalxıb səssizcə uzaqlaşdım. Mən nədə isə özümü təqsirkar kimi hiss edirdim. Birdən, elə bil ki, zehnim ayazıdı. Həyatımda birinci dəfə olaraq İmaşın bu qədər yoxsul, bizim isə varlı olmağımıza qarşı qəlbimdə xoşagəlməz, ağır hisslər oyandı, elə bil ki, varlı olduğumuz üçün mən İmaşdan xəcalət çəkirdim. Birdən addımlarımı yeyinlədərək gəlib, hələ də taxtın üstündə oturub, papirosu tüstülənən müştüyünü əlində tutaraq öz-özünə danışan nənəmin böyründən keçib evə girdim. Mən bilirdim ki, Fatma nənəm həmişə pullarını döşəyin altına qoyur. Mən əsil

oğru kimi ehtiyatla o yan-bu yana baxa-baxa döşəyi qaldırıb iri bir kağız pul götürərək qaçdım bağa. İmaş üzüqoylu uzanıb əllərini alnının altında çarpazlamışdı. Mən əyilib onun üzünə baxdım ki, görüm yatıb, yoxsa oyaqdı? O, gözlərini açaraq soruşdu:

– Nə var, qaqaş?

Mən iri kağız pulu onun gözünün qabağına tutdum. O, pula bir an nəzər salaraq dikəlib oturdu:

– Bu pul səndə nə gəzir, qaqaş?

Mən dedim:

– Sənin üçün gətirmişəm, al, get özün üçün təzə paltar al.

O, pulu alıb o tərəf-bu tərəfinə baxaraq soruşdu:

– Bunu sənə kim verib, qaqaş?

– Heç kəs... özüm götürmüşəm.

– Haradan?

– Fatma nənəmin pullarının içindən, istəyirsən yenə gətirim.

İmaş pulu fikirli-fikirli bir də nəzərdən keçirərək mənə qaytarıb dedi:

– Apar, haradan götürmüsənsə, qoy yerinə, mənə oğurluq pul lazım deyil!

Mən özümü pis hiss edərək dedim:

– Oğurluq niyə olur, nənəmin puludur də...

O gülümsədi. (O güləndə dümağ dişlərinin görünüşü xoşuma gəlirdi).

– Nənən bilir ki, sən bunu götürmüsən?

– Yox.

– Demək, oğurlamısan! Tez apar, necə götürmüsənsə, heylə də qoy yerinə.

Sonra dərindən nəfəs alaraq əlavə etdi:

– Sən yaxşı oğlansan, qaqaş, ancaq onu bil ki, kasıb da olsaq, bizim nəslimizdə oğru-əyri olmayıb. Mənim atam da, babam da kişi adamlardı!

O ayağa qalxıb, iki qolumdan tutaraq, çevik hərəkətlə məni qaldırıb ayaq üstə qoydu:

– Tərpən, qaqaş! Bax, yerinə qoymasan, Fatma xanıma deyəcəyəm.

Mən özümü alçaldılmış hiss edərək gəlib pulu yerinə qoymaq istəyəndə, nənəm içəri girib gördü.

– Nə qayırırsan, ədə? – deyə təəccüblə soruşdu. – O pulu niyə götürmüsən?

– Baxırdım.

– Yalan danışma! De görüm, səni kim öyrətmişdi?

– Heç kim.

– Qələt eləmə. İmaş öyrətmişdi?

– Yox! – deyə mən həyəcanla səsləndim.

Nənəm bu dəfə məni dilə tutdu:

– Bəs kim dedi, get pul gətir? Güllü?

– Yox! – deyə mən qışqırdım.

– İmaş?

– Yox! Yox!

– Yalan danışma! Sünnünün küçüyü. O həmşəri köpəkoğlu öyrədib səni! (Bizim tərəflərdə Arazın o tayında yaşayan azərbaycanlılara «həmşəri» deyirdilər.)

Mən pəncərədən gördüm ki, İmaş dəhlizdə sütuna söykənib bizə qulaq asır. Mən bərkdən ağlayaraq nənəmə qışqırdım:

– Dedim ki, heç kəs öyrətməyib!

Nənəm dedi:

– Yaxşı, ağlama, get otur, çörək ye.

Mən gözümün yaşını əlimin dalı ilə silərək:

– İstəmirəm! – dedim.

– Yaxşı, dəli olma, səhərdən heç nə yeməmisən.

– İstəmirəm.

Nənəm hirsləndi:

– Ay irtməkli oğlu! Tay dünya dağılmadı ki, bir söz soruşduq.

(Nənəm həmişə atamın qarasına acıqlananda onu «irtməkli sünnü» adlandırırdı. Mən də bir dəfə Güllüdən soruşdum ki, doğrudan, sünnilərin irtməyi olur? O da qəhqəhə ilə gülərək:

– Əlbəttə, – dedi... keçi kimi irtmələri olur).

Həmişə nənəm mənə acıqlanıb «irtməkli oğlu» deyəndə yanıb-tökülərək ya çeşməyini, ya müştüyünü, ya da yaylıqdan-zaddan bir şeyini götürüb gizləyərdim və nənəmin hirslənə-hirslənə axtarışından ləzzət alıb qəhqəhə ilə gülərdim. Bu dəfə də göz-göz eləyib müştüyünü gizlədim. Bir azdan nənəm başladı müştüyünü axtarmağa və tapmayıb qışqırdı:

– Ağız, Güllü! Gəl gör bu zəhrimar necə oldu?

Güllü içəri yüyürüb gülüşünü güclə saxlayaraq soruşdu:

– Hansı zəhrimar, xanım? Müştük, ya çeşmək?

– Müştük! – deyə nənəm qəzəblə cavab verdi. – Allah lənət eləmiş cinlərin işidi. Eyzən mənə satışırlar.

Məni gülmək tutdu. Çöpəgülən Güllü də mənə baxıb qaqqıldadı, nənəm yana-yana dedi:

– Ay qızıxmış qancıq, uşaqdı gülür, sən nəyə gülürsən?

Güllü səsini içinə salıb xısın-xısın gülərək, nəhayət, müştüyü tapıb verdi.

Nənəm papiros qayırıb çəkəndən sonra mənə dedi:

– İndi ki, yemək istəmirsən, çıx get evinizə! Mən irtməkli sünnünün nazıyla oynaya bilmərəm.

Güllü mənim tərəfimi saxladı:

– Xanım, bu yaxşı oğlandı, bunun irtməyi yoxdu, anası şiə olanın irtməyi olmur ha...

Mən dinməz-söyləməz gedib dəhlizdəki taxtın üstünə salınmış süfrənin yanında oturdum, nənəm də Güllünün gətirib qoyduğu qazandan bir boşqab mənə, bir boşqab da özünə yarpaq dolması çəkəndən sonra Güllüyə dedi:

– Götür qazanı apar, İmaşa da ver, özün də ye.

Güllü qazanı götürüb apardı. Nənəm mənim dolmamın üstünə sarımsaqlı qatıq töküb mehriban səslə dedi:

– Bismillah elə, ye!

Mən nə üçünsə həmişə nənəmin dediyi duaları bərkdən deməyə utanaraq, ürəyimdə təkrar edirdim, mən bu duaların mənasını başa düşmürdüm. Nənəm deyirdi ki:

– Bismillah deyəndə cinlər qaçır.

Mən xörəyimi tələm-tələsik yeyib qurtaran kimi, qalxıb yüyürdüm İmaş olan otağa. O, torpaq döşəməyə salınmış keçənin üstündə oturub Güllünün gətirdiyi dolmanı yeyirdi. Güllü ağ qalaylı mis parçla bir su gətirib, İmaşın qabağına qoyaraq dedi:

– İç, təzə sudu.

Sonra oğlanın boşqabına işarə ilə soruşdu:

– İstəyirsən yenə gətirim, qazanda var.

İmaş mənə qəribə gələn bir cür asta, mülayim səslə dedi:

– Bəsdi, sən get, çörəyini ye.

Gözləri eyzən oğlanda olan Güllü, onda birinci dəfə gördüyüm ciddi, hətta bir az da qəmgin ifadə ilə dərindən nəfəs alaraq dinməz-söyləməz qayıdıb getdi.

İmaş da xörəyini yeyib qurtarandan sonra parçdakı suyu götürüb içdi.

Mən dedim:

– Güllü yaxşı qızdı, heyləmi?

O, təəccüblə mənə baxıb soruşdu:

– Necə bəyəm?

– Səni çox istəyir.

– Nə bildin, qaqaş, xanımlar deyirdi?

– Yox. Özüm deyirəm... Güllü yaxşı gəlindi, amma üzündən, əlindən eyzən sabun iyi gəlir.

İmaş güldü:

– Neyləsin, qaqaş, – dedi, – qulluqçu adamdı, sənin anan kimi bahalı ətirləri haradan alsın?

Mən tutuldum, yenə də səbəbini bilmədiyim halda xəcalət çəkdim, sonra çəkinə-çəkinə dedim:

– Hamı dövlətli olsaydı, yaxşı olardı, heyləmi?

İmaş dərindən nəfəs alıb dedi:

– Nə qədər ki, padşahlar var, hamı dövlətli ola bilməz, qaqaş!

– Nə üçün? Padşahlar neyləyir ki?

– Padşahlar dövlətliləri, bəyləri, xanları əzizləyirlər, amma yazıq rəiyyətin qanını sorurlar.

– Nə üçün? – dedim. – Rəiyyət padşaha neyləyir ki?

– Rəiyyət heç nə eləmir, qaqaş, hər nə eləyir, padşahlar eləyir!

İmaş bir qədər susub sonra öz-özü ilə danışırmış kimi, kinli-kinli əlavə etdi:

– Rus fəhlələri, kəndliləri öz padşahlarını yıxdılar, bir gün gələr, bizimkilər də İran padşahını çəkib taxtdan salarlar, onda biz də öz qisasımızı alarıq.

– Kimlərdən?

– Bizi əsir-yesir eləyənlərdən. Eh, qaqaş! Sən belə şeyləri sonra başa düşəcəksən, – deyib qalxdı. – Gedək, sərin düşdü. Mən gərək ağacları suvarım.

İmaş bağın ortasından keçən böyük arxdan bel ilə xırda arxlar ayıraraq ağacları suvarır, mən də tamaşa eləyirdim. Mən hələ də padşahlar haqqında, onların rəiyyətin qanını necə sormaqları barədə düşünürdüm. Mən Fatma nənəmdən eşitmişdim ki, adamlar xəstələnəndə bəzən onlara zəli qoyurlar ki, artıq qanı sorub çəksinlər. Sonra Kürdobadan babamgilə gətirilən bir xəstəni həkim müalicə elədiyi zaman zəlini görüb iyrəndim, çox murdar həşərata oxşayırdı...

Mən təzə göyərib qalxmış göy otların arası ilə ağacların dibinə axan dumduru suyun incə parıltılarıyla bu düşüncələrim arasında qəribə bir ziddiyyət hiss edirdim və bilmirəm, anamın söylədiyi hansı nağıldansa yadımda qalmış Zöhhak padşah dəhşətli bir qiyafədə xəyalımda canlanırdı. Deyir, Zöhhak ilana sitayiş edirmiş və ilanların mərhəmətini qazanmaq üçün onlara körpə uşaq beyni yedirdirmiş. Mən anamın söylədiyi nağıllarda yaxşı padşahlar haqqında da eşitmişdim, ona görə də İmaşa dedim:

– Yəqin sizin padşah pis padşahdı?..

O, sakit şırıltı ilə axan suyu bir ağacın dibindən o birinin dibinə bağlaya-bağlaya dedi:

– İlanın ağına da lənət, qarasına da, qaqaş, hamısı bir köpəkoğludu, hamısı!

Doğrusu, İmaşın bütün şahlar haqqında bu cür deməsi mənə xoş gəlmədi. Mən əlimdəki çubuqla, dizə qədər qalxmış yaşıl keşnişi vura-vura gəldim Fatma nənəmin yanına. Nənəm yenə də uzun müştüyü əlində tüstüləyə-tüstüləyə gözlərini bir nöqtəyə zilləyərək qaynı Eyvazın qarasına deyinirdi:

– Kişinin boş damarından yapışıb qazandığını çəkir kamına, nə Allahdan qorxur, nə də bəndədən utanır.

Mən bir qədər ona qulaq asandan sonra dedim:

– Padşahlar da rəiyyətin qanını sorur! Amma sən deyirdin padşah Allahın dostudur, Allahın dostu da qan sorar?

Nənəm təəccüblə üzümə baxıb soruşdu:

– Nə bildin, padşah rəiyyətin qanını sorur?

– Odur ey, İmaş deyir... Deyir ki, padşahların hamısı köpəkoğludur.

Nənəm kənar bir adama müraciət edirmiş kimi, acıqlı-acıqlı dedi:

– Görürsən bu həmşəri vələdüznanı?! Yaxşı deyiblər ki, yetimin fağırı olmaz.

Nənəm ağacları suvara-suvara bəri gəlmiş İmaşa qışqırdı:

– Ədə ey! Qələtini elə, sarsaq-sarsaq danışıb uşağın başını doldurma! Sənin padşahla nə işin var?!

İmaş nənəmə heç bir söz deməyərək mənə baxıb xəfifcə gülümsədi, ancaq onun bu güclə sezilən gülüşü məni pərt elədi. Mən öz qəbahətimi hiss eləyərək ağlamsınmış səslə nənəmə qışqırdım:

– İmaş düz deyir də! Bəs niyə rus fəhlələri Nikolay padşahı taxtdan yıxdılar?

– Kəs səsini! – deyə nənəm qışqırdı. – Padşahı yıxdılar ki, indi olub papaqaldıqaç də... Padşahın üzünə ağ olan Allahın üzünə ağ olur!

Bu zaman babamgilin Qumaş adlı, palıdı rəngli ov tulası gəlib qabağımda dayanaraq mehriban-mehriban üzümə baxıb, ətəyimi, əllərimi qoxladı, pərtliyim dərhal sovuşdu. Güllü yuyub sərdiyi paltarları ipdən yığıb gedəndə qulağıma tərəf əyilib pıçıldadı:

– Adam xəbərçi olmaz.

Mən yenə öz hərəkətimdən xəcalət çəkərək bilmədim Güllüyə nə cavab verim. O gündən sonra İmaş mənimlə daha əvvəlki kimi həmsöhbət olmadı. «Hə», «yox» deyə, ancaq suallarıma qısaca cavab verirdi. Hətta mənə əvvəlki kimi «qaqaş» da demirdi, lazım olanda, soyuq ifadə ilə adımı çağırırdı. Bu da məni pərt edirdi. Fikirləşdim, neyləyim ki, İmaş yenə də əvvəlki kimi mənimlə həvəslə söhbət elə-sin.

... Biz ikilikdə olanda da Fatma nənəm eyzən Bayram babamın qardaşı Eyvaz və onun ailəsi haqqında, bəzən də atam haqqında öz-özünə danışırdı. Həmişə mənə elə gəlirdi ki, nənəm kimi isə görür, kimə isə müraciət edir. Bu gecə yenə də nənəm öz-özü ilə danışanda mən soruşdum:

– Nənə, sən cinlərlə danışırsan?

Nənəm diksinərək:

– Bismillah!.. Bismillah! – dedi.

Sonra: – Ay irtməkli oğlu, – dedi, – gecə vaxtı o Allah lənət elə-mişlərin adını niyə tutursan?!

Mən təkrar soruşdum:

– Nənə, sən onları görürsən?

Nənəm yenə də «Bismillah» deyib yanındakı sap əyirən iylə qoluma vurdu. Sonra İmaşa dedi:

– Dur, bu irtməkli oğlunu apar evlərinə.

Mən qışqırdım:

– Getmirəm!

Fatma nənəm mənimlə nə qədər dalaşsa da, lap hirslənib vursa da, yenə də onlarda olmaq öz evimizdə olmaqdan mənə xoş gəlirdi. Çünki mən hiss edirdim ki, nənəm nə qədər acıqlansa da, yenə məni çox istəyir. Ancaq mənə elə gəlirdi ki, Bayram babam məni hamıdan çox istəyir. Mən onlarda özümü son dərəcə sərbəst, azad hiss edirdim, onlarda heç kəs məni atam kimi hər şeyin üstündə danlamırdı, heç kəs atam kimi məni «küt» adlandırmırdı. Əksinə, Bayram babam həmişə mənim «ağıllı oğlan» olduğumu söyləyirdi.

... Biz gecədən xeyli keçənə qədər dəhlizdə nənəmin taxtının üstündə oturduq. Güllü də taxtın qabağına salınmış palazın üstündə əyləşərək, Kürdobadakı əhvalatlardan nənəmə söhbət eləyirdi: kimin qızını kimin oğluna nişanlayıblar, kim neçə ildir ki, əriylə danışmır, on min qoyunu olan Hacı Qaranın qızı üçün kimlər elçi gəlib...

İmaş isə səhər çox tez durduğu üçün gedib erkən yatmışdı. Şəhərimizin şimal tərəfindən axan Quruçay bərk daşmışdı, onun qıjıltısı bağın ilıq qaranlığında mənə əsrarəngiz təsir bağışlayırdı. Elə bil ki, hər şeydə, hər əşyada mənim anlamadığım uzaq, lakin gözəl bir sirr var idi və bu sirdəki məchul fərəh – cazibədarlıq məni həyəcanlandırırdı, mən bu fərəhi öz evimizdə hiss eləyə bilmirdim.

Həmişə babam evdə olmayanda mən onun çarpayısında yatırdım. Bu dəfə də elə oldu. Güllü kəllayı otaqda, nənəmlə mən də babamgilin yataq otağında yatmalı olduq. Nənəm qapını bağlayandan sonra əyilib çarpayıların altına baxdı, mən də təəccüblə soruşdum:

– Nənə, taxtların altına niyə baxırsan?

Cavab verdi ki:

– Kişinin nə çox düşməni!.. Gəlib taxtın altında gizlənib gecə başımızı kəsərlər.

Əlbəttə ki, bu mənim özümü də qorxutdu və mən soyunub babamın çarpayısına çıxaraq soruşdum:

– Yəni nə cür düşmən, nənə?

Nənəm də soyunub işığı söndürərək çarpayısına girib dedi:

– Mən nə bilim nə cür?.. O qədər bic, haramzada var ki, dünyada.

Sonra nənəm pıçıltı ilə dua oxudu, sonra Şuşa qalasında realnı məktəbdə oxuyan oğlu Nuruya dua elədi.

– Allah, – deyirdi, – sən mənim oğlumu yerin-göyün bəlasından, mərdimazardan, yolkəsəndən uzaq elə.

Mən bilirdim ki, bu dualarında nənəm «oğlum» dedikdə ancaq dayım Nurunu nəzərdə tuturdu. Nənəmin qabaqkı ərindən də bir

oğlu var idi və onun harda olduğu mənə məlum deyildi. Nənəm öz dualarında nə onun adını çəkərdi, nə də anamın, ancaq dualarında bəzən «Allah, sən mənim balalarımı...» deyirdi. Yəqin ki, buna anam da, nənəmin o biri oğlu da, hətta biz nəvələri də daxil olurduq. Mən yanı üstə çevrilərək pəncərə pərdəsinin yanından bağa tamaşa edirdim. Hər şey sükut içində idi, hərdən Qumaş görünüb, sonra yenə ağacların arasında yox olurdu. Quruçayın şırıltısı, elə bil, indi bu aydınlıq içində daha uzaqdan gəlirdi. Nənəm astadan xoruldamağa başladı, həmişə anamla, ya da nənəmlə bir otaqda yatanda onların məndən qabaq yuxuya getmələri nə üçünsə ürəyimdə həzin, kövrək bir yalqızlıq hissi doğururdu, mənə elə gəlirdi ki, hamıdan, bütün dünyadan ayrı düşmüşəm.

Mən pəncərədən çölə baxarkən, bir də gördüm ki, Güllü əlində ağ bir şey o yana-bu yana baxa-baxa iti addımlarla getdi girdi İmaş qalan otağa, yəqin ki, əlindəki İmaşın köynəyi idi.

Mən Güllünün oğru kimi belə xəlvəti getməyinə təəccüb eləyərək gözlədim ki, görüm Güllü oradan nə vaxt çıxacaq, ancaq Güllü çıxmırdı ki, çıxmırdı, nəhayət, məni yuxu apardı.

Səhər oyananda ilk yadıma düşən əhvalat gecə Güllünün İmaş yatan otağa xəlvətcə getməsi oldu və yerimin içində xeyli bu barədə fikirləşdim, işin mahiyyəti mənə aydın deyildisə də, qadının yad kişinin yataq otağına xəlvəti gedib girməsinin yaxşı şey olmadığını hiss edirdim. Ona görə də bu hadisə əllərindən, üzündən eyzən sabun iyi gələn, çöpəgülən, qırmızıyanaq Güllüyə qarşı məndə bir düşmənçilik hissi oyatdı.

Güllü səhər kəhrizdən doldurub gətirdiyi iri mis səhəngi çiynindən yerə qoyanda mənə elə gəldi ki, o, dünəndən bəri daha gözəlləşmişdir. Yanaqları lalə kimi parıldayır, gözləri alışıb-yanırdı. O mənə baxaraq həmişəki tək gülümsəyib:

– Gəl, qaqaş, – dedi, – təzə su töküm əl-üzünü yu.

– Lazım deyil! – deyə mən qəzəblə cavab verdim.

O qəhqəhəylə gülüb dedi:

– Qaqaş yuxuda şeytan görüb.

– Şeytanı yuxuda sən görmüsən! – Acıqlı cavab verdim.

– Mən mələk görmüşəm, qaqaş! – deyib o, təkrar qəhqəhə ilə güldü.

Onun lalə kimi qızarmış yanaqlarına baxaraq yanıb-tökküldüm, mən özümü saxlaya bilməyərək yerdən bir daş götürüb onun qılçına atdım, o keçi kimi kənara sıçradı və yüyürüb məni qucaqlayaraq o üzümdən, bu üzümdən bərk-bərk öpdü.

– Ay ölmüş, uşağı ayı kimi basmarlama, – deyə dəhlizə çıxan Fatma nənəm zarafat elədi.

– Yeyəcəm onu! – deyə Güllü təkrar məni öpmək istəyəndə əlindən çıxıb kənara qaçdım.

...Mən nənəmlə oturub çay-çörək yeyəndən sonra bostan suvaran İmaşın yanına getdim. O mənə soyuq bir nəzər salıb:

– Qaqaş, – dedi, – adam arvad xeylağına daş atar?

Mən dedim:

– Güllü pis qızdı.

– Nə üçün? – deyə o, görünür, mənim qiymətimə o qədər də əhəmiyyət verməyərək soruşdu. – Sabun iyi gəlir, ona görə?

– Sabun iyi də gəlir, özü də adamı ayı kimi qucaqlayıb marçhamarç öpür.

İmaş xəfif gülümsədi:

– Nə olar, öpmək pis şey deyil ki...

– İstəmirəm.

Mən onun suyu sarı çiçək açmış xiyar tağlarının arasına bağladığına tamaşa eləyə-eləyə soruşdum:

– Nə üçün Güllü gəlib gecə səni yuxudan oyadırdı?

O, dərhal dikəlib təəccüblə üzümə baxdı:

– Nə bildin?

– Pəncərədən gördüm. Gördüm ki, tələsik getdi girdi sən yatan evə.

– Nənən də gördü?

– Yox. Nənəm xoruldayırdı.

– Sən ona dedin?

O bu sualları qorxmuş kimi verirdi, mən onun nə üçün qorxduğunu, rənginin niyə saraldığını anlamayaraq dedim:

– Yox, nənəmə deməmişəm.

Nənəmə deməmiş olduğuma görə ürəyimdə sevindim. İmaş dərindən nəfəs alaraq suyu indi də yaşıl pamidor kolları olan ləkə döndərə-döndərə dedi:

– Güllü mənim köynəyimi yuyub qurutmuşdu, onu gətirib verirdi.

– Bəs nə üçün adamlar yatandan sonra?.. Özü də oğru kimi xəlvəti, ora-bura baxa-baxa?

İmaş dikəlib mənə uzun bir nəzər salaraq dedi:

– Qaqaş, mən burada kimsəsiz, qərib bir oğlanam, xahiş eləyirəm, onu heç kəsə deməyəsən.

– Deyəndə nə olar?

– Pis olar, qaqaş, demə, yaxşımı?

Onun özünü kimsəsiz, qərib adlandırması, üzündə zahir olan qorxu ürəyimi kövrəltdi və mən böyüklər kimi ciddi ifadə ilə dedim:

– Arxayın ol, heç kəsə demərəm.

– Çox sağ ol. Bostanı suvarım qurtarım, sənə tüfəng qayıracam, ancaq, qaqaş, gərək kişi sözünün üstündə dursun.

İmaşın məni kişi sayması qürurumu artırdı.

... Günorta naharından sonra Fatma nənəm, adəti üzrə, dəhlizdəki taxtın üstündə uzanıb yuxuladı, mən də İmaşın qarğıdan hazırladığı atımı minib, «tüfəngimi» çiynimə salaraq ağacların arasıyla ora-bura çapırdım. Qumaş da mənim yanımca yüyürürdü. Mən gah Qaçaq Nəbi, gah Qaçaq Süleyman olurdum. Sonra da coşaraq atımı çapdım bağın lap qaranlıq yerinə. Qumaş da mənimlə getdi. Birdən yarıqaranlıqda gilənarlıqda pıçıltı eşidib, bərk qorxaraq atımın başını çəkib dayandım, sonra dönüb qaçmaq istədim, ancaq birdən yadıma düşdü ki, qəhrəmanlar qorxub qaçmazlar, mən qılıncımı siyirib pıçıltı gələn kolluğa işarə ilə Qumaşı qısqırtdım.

Başqa vaxt yad adamın hənirtisini belə duyanda qəzəblə hürüb ora tərəf atılan Qumaş bu dəfə mənim qılıncımla işarə elədiyim gilənarlığa tərəf biganə bir nəzər salıb, qısqırtmağıma əhəmiyyət vermədi. Mən ürəklənib yavaş-yavaş bir az da irəlilədim, aşağı əyilərək ağacların arasından baxdım. İmaşla Güllü qalın kolluqda yanaşı oturmuşdular. Güllü İmaşın əlini tutub köynəyinin arasından sinəsinə yapışdırmışdı. Birdən İmaş nə isə pıçıldadı. Güllü də üzünü onun üzünə yapışdıraraq bərk-bərk öpüb qalxdı. Güllü ucaboylu idi, amma İmaş ondan da uca idi. Birdən mən «ehey!» deyə qışqıraraq atımı onlara tərəf çapdım və ağacların arasından zahir olduqda qəhrəmanlar kimi soruşdum:

– Deyin görüm, nə cəsarət eləyib pərilər padşahının bağına girmisiniz?!

Güllü qəhqəhə ilə gülərək məni qaldırıb marçıltı ilə öpdü.

– Burax! – deyə qışqırıb çabaladım. – Gərək sabun iyi verə-verə hamının üzündən öpəsən?

O məni yerə qoyaraq:

– Ay şərəşür, dedi, – səndən başqa kimin üzündən öpmüşəm ki...

– Odey, İmaşın! Yazığı basmarlayıb öpmürdün?!

Güllü məni dilə tutdu:

– Qaqaş, qurban olum, nə olar öpəndə? İmaş qərib, yetim oğlandı, anası yox, bacısı yox... Bəs mən də öpməyim, kim öpsün onu?

Doğrusu, Güllüdən nə qədər zəhləm getsə də, bu sözləri ürəyimi birtəhər elədi. Atımı çapıb qaçdım.

NURU DAYIMIN GƏLİŞİ VƏ ANAMIN XALASI OĞLU ƏHMƏDİN ÜÇ ARVADI ÖLDÜRMƏYİ

Səhəri gün Nuru dayım Çarvadar Həbibin üçatlı faytonunda gəldi. Çarvadar Həbib dayımın çamadanlarını faytonun dalından götürüb yerə qoydu. İmaş yüyürüb dayıma «xoş gəldin, ağa»

deyərək çamadanları qaldırıb apardı evə. Çarvadar Həbib Fatma nənəmə:

– Xoş gördük, xanım! – deyib mənə baxaraq gülümsədi (güləndə onun uzunburunlu, bir az da pərtdəgözlü üzü çox gülməli görünürdü, elə bil ki, bu saat, nə isə komik bir hərəkət eləyəcəkdi).

– Necəsən, ə, bacıoğlu?

Cibindən saçaqlı bir konfet çıxarıb mənə verərək dayıma dedi:

– Bəy, mən müraxxəs olum?

Dayım lakli portmanatını açıb, ona pul verdi. Çarvadar Həbib pulu saymadan cibinə qoydu:

– Allah bərəkət versin! – deyərək faytona qalxıb getdi.

Nuru dayım ucaboylu, nazikbelli, qıvrımsaçlı, alagöz, sarıbəniz, olduqca gözəl bir oğlan idi. Bu dəfə gələndə daha məktəbli libası geyməmişdi, başında bahalı buxara dərisindən təpəsi gen gümüşü papaq, ayaqlarında nazik xromdan uzunboğaz çəkmə var idi. Zərif yun parçadan tikilmiş köynəyinin üstündən belinə qızıl körpülü nazik Qafqaz kəməri bağlamışdı. Beli o qədər incə idi ki, elə bil, heç çörək-zad yemirdi. O, heç birimizlə görüşməyərək gülümsəyib mənə dedi:

– Tay yekə oğlan olmusan... Yaqut necədir?

– Yaxşıdı, – deyə mən ona tamaşa eləyə-eləyə cavab verdim.

Onun parlaq görünüşü, gözəlliyi məni heyran edirdi, mən ürəyimdə onunla qürrələnirdim: «Görün mənim necə dayım var!»

Sonra o, dəhlizdə papağını çıxarıb taxtın üstünə tullayaraq, soyuq ifadə ilə nənəmdən soruşdu:

– Kişi gəlib?

– Yox. Camaat qoymadı, – deyə, Fatma nənəm cavab verdi. – Dedilər, sən getsən, papaqaldıqaç olacaq.

Mən birinci dəfə olaraq Fatma nənəmdə dayıma qarşı, nə isə qeyri-adi bir münasibət hiss edirdim: elə bil ki, gecə-gündüz oğlunun salamatlığı üçün Allaha dua eləyən nənəm ondan qorxub çəkinirdi. Mən, eyni zamanda, dayımda da nənəmə qarşı qəribə, qəddar bir hal duyurdum, onun gəlişilə nənəmin sərbəstliyi, təbiiliyi, elə bil ki, bir anda yox olub getmişdi. Nənəmə yazığım gəldi, birinci dəfə olaraq məndə dayıma qarşı soyuq bir hiss yarandı. Onun zühuru ilə İmaş da tutqun olmuşdu. Güllü isə köynəyinin altından qabaran iri döşlərini yırğalaya-yırğalaya ora-bura qaçır, gah çay hazırlayır, gah həyəti süpürürdü. Hiss edirdim ki, dayıma xoş gəlmək üçün canfəşanlıq eləyir. Bu da məni acıqlandırır, ona qarşı kinimi artırırdı.

– Yeməyə nə var? – deyə dayım nənəmdən soruşdu.

– Bozbaş asmışıq, – deyə nənəm çəkinə-çəkinə cavab verdi. – İstəyirsən, ayrı bir şey bişirək...

– Hə... Denən, gədə bir-iki çolpa tutub kəssin, tez çığırtma eləyin, yumurtasız.

Sonra o, qonaq otağına girdi, pəncərədən onun neylədiyinə mən maraqla tamaşa edirdim. Toqqasını açıb üst köynəyini çıxartdı, sonra güzgünün qabağında dayanıb diqqətlə özünə baxdı. Balaca qayçı ilə nazik bığlarının artıq tüklərini kəsdi. Sonra gözlərini güzgüdən çəkməyərək bərkdən səsləndi:

– Güllü, su hazırla, üzümü yuyacam!

– Su hazırdı, qağa! – Güllü cavab verdi. – İndicə kəhrizdən gətirmişəm!

Həyətdə, böyük iydə ağacının altında Güllü ağ qalaylı mis parçla su tökür, dayım da sabunu köpükləndirə-köpükləndirə üzünü, boyun-boğazını yuyurdu.

İmaş həyətdə toyuqları qovub iki çolpa tutaraq kəsdi. Dayım da üzünü silib qurulayandan sonra məhrəbanı xəfif təbəssümlə Güllünün çiyninə tulladı. Güllü də gülümsədi və mən bir sövq-təbiilə Güllünün bu təbəssümünü İmaşa qarşı xoşagəlməz bir hal kimi hiss elədim və Güllünün qırmızı yanaqlarını bıçaqla kəsmək üçün özümdə amansız bir arzu duydum.

Elə bu zaman anam bacım Mahtabın əlindən tutaraq gəldi və hələ bizə çatmamış gülümsəyib dayıma dedi:

– Xoş gəlmisən!

Dayım gülə-gülə onların qabağına yeriyib, bacımın saçlarını qarışdırdı, anama baxıb dedi:

– Gözüm dəyməsin, Yaqut, çox yaxşısan.

Sonra onlar İmaşın çıxarıb dəhlizə qoyduğu və Güllünün üzərinə ağ süfrə saldığı stolun ətrafında əyləşərək çarın taxtdan salınmağından, böyük hərbi anbarın partladılmasından, Fatma nənəmgilin Şuşa qalasındakı qohumlarından söhbət etdilər. Dayım nənəmin kürd qohumlarından (Fatma nənəmgilə «kürd» deyirdilər) olan Ağakişinin qalın Alyanlı meşələri arasından çıxıb, Şuşaya – onun görüşünə gəlməsi haqqında məzəli şeylər danışıb anamı bərkdən güldürürdü. Ağakişini mən də görmüşdüm: ucaboylu, gözləri çəpə mayil, həddindən artıq iri burnu olan və həmişə gülümsəyən bir oğlan idi. Dayım nağıl eləyirdi ki, öz paltarımdan bir dəst geyindirdim Ağakişiyə, boynuna bant bağladım, başına şlyapa qoyub dostum gürcü balası İlya ilə apardım gecə klublarından birinə. Ordakı tanış qızlardan birini öyrətdik Ağakişiyə mehribanlıq eləsin, yarıçılpaq qız Ağakişinin qabağında əzilib-büzüldükcə Ağakişi də irişə-irişə bilmirdi neyləsin. Birdən qız Ağakişinin dizinin üstündə oturub boynunu qucaqladı, başladı burnundan öpməyə. Ağakişi qızın əlindən zorla çıxıb vəhşi buğa kimi qaçanda zaldakılar qəhqəhə ilə gülüb əl çaldılar.

Anam qəhqəhə ilə gülürdü. Fatma nənəm isə həyətdə qalanmış ocağın üstündə xörək bişirirdi, dayımın söhbətini, yəqin ki, eşidirdi, ancaq elə görünürdü, elə bil, eşitmir, axı, Ağakişi onun qohumu idi... Nənəmin yanında ayaq üstə durub dayımın söhbətinə qulaq asan Güllü də gülürdü. Ancaq Fatma nənəm kimi, mən də gülmürdüm. Mən Ağakişinin o anlardakı vəziyyətini gözümün qabağına gətirib özümü nə üçünsə pis hiss edirdim.

Güllü stolun üstünə nazik yuxa, motal pendiri, kərə yağı, göy-göyərti düzdü, sonra Fatma nənəmin boşqablara çəkdiyi xörəyi gətirdi. Dayım:

– İrəli oturun! – deyə bizi də dəvət elədi. Amma anamla mən yemək istəmədik. Fatma nənəm bacım Mahtabı yanında oturdub yedirdirdi. Beli üzükdən keçən dayım yemək yeməkdə möhkəm idi, ac olanda iki-üç adam qədər yeyirdi. Yaxşı xörəklərdən dərin zövq alırdı. Özü də elə tez-tez yeyirdi ki, deyirdin, bəs, hara isə bərk tələsir.

Anam onun necə iştaha ilə yeməyinə tamaşa eləyə-eləyə soruşdu:

– Xanım nənəmgili Əhməd vuranda sən Şuşadaydın?

Nuru dayım toyuğun budunu dişinə çəkib dedi:

– Bəs hardaydım?

Sonra gülümsəyib, yəqin ki, Fatma nənəm eşitməsin deyə astadan əlavə etdi:

– Xanım nənəmgili Əhməd elə mənim tapançamla vurmuşdu dayna.

Anam qorxmuş kimi təəccüblə soruşdu:

– Doğru deyirsən?

Nuru dayım eyni nəşəli təbəssümlə yeyə-yeyə «hə» mənasında başını tərpədib dedi:

– O əhvalatdan bir gün qabaq mən tapançamı satmışdım Əhmədə, o da arvadları həmin tapança ilə vurmuşdu.

Əhməd, Fatma nənəmin bacısı Bəyaz xanımın kiçik oğlu idi. Özü də Nuru dayımla oxuyurdu. Fatma nənəmin qardaşı Mehdi bəyin qızı Minaya aşiq olmuşdu. Arıq, əsəbi bir oğlan idi. Bir dəfə acıqlanıb özündən böyük qardaşı Mirzə Məhəmmədi güllə ilə vurmuşdu. Ancaq güllə qardaşının ürəyinin yanından keçdiyi üçün sağ qalmışdı. Bir gün Əhməd Mehdi dayısıgilə gəlib bağçadan görür ki, Fatma nənəmin anası Xanım nənə, Hacı Axundun böyük arvadı – yüz yetmiş kilo ağırlığında Yasəmən Xanım, bir də Minanın anası Sənəm xala şüşəbənd artırmada əyləşib yarpaq dolması bükə-bükə söhbət edirlər. Əhməd Minanın adını eşidərək pilləkəndə ayaq saxlayır, eşidir ki, Xanım nənə deyir:

– Əhməd dəli şeydi, Minanı ona vermək olmaz.

O biri arvadlar da, Xanım nənəmin sözlərini təsdiq edib deyirlər ki, Əhməd, onsuz da, özümüzünküdür. Minanı vermək lazımdı sövdəgər Hacı Bəşirin oğluna, ağıllı oğlandı, dövləti də başından aşıb-daşır.

Əhməd bunu eşidən kimi artırmaya qalxaraq tapançanı çıxarıb arvadların üçünü də necə vurursa, yerlərindəcə qalırlar. Deyirlər ki,

Bəyaz xalamın günüsü Yasəmən xanım çox gödək olduğu üçün elə oturduğu halda qalıbmış.

Anam qaşqabaqla soruşdu:

– Sən niyə tapançanı ona satırdın? Bilirdin ki, əsəbi oğlandı.

Nuru dayım ildırım sürətilə yeyə-yeyə kefi kök halda cavab verdi:

– Özü istədi, mənim də pulum qurtarmışdı, dedim satıram.

Anam narazı halda dedi:

– Səndə də pul dayanmır ki...

Nuru dayım iki çolpanın çığırtmasını yeyib qurtararaq, ağzını təmiz, ağ dəsmalla silib nəşə ilə dedi:

– Eh, ay Yaqut, bilsən ki, Cavad ağanın, Soltan bəyin oğlanları nələr xərcləyirlər, nə keflər eləyirlər, məni qınamazsan.

Sonra dayım taxtda uzanaraq Güllüyə dedi:

– O gədəni çağır, gəlsin çəkmələrimi çəksin.

Mən bilirdim ki, dayım «gədə» dedikdə İmaşı nəzərdə tutur. Əlbəttə, bizdə də atam-anam nökərə «gədə» deyirdilər. Lakin indi dayımın İmaşa «gədə» deməyi mənə pis təsir bağışladı.

Güllü dedi:

– Qağa, qoy mən çəkim.

– Yeri onu çağır! – deyə dayım sərt təkrar etdi.

Güllü bağa yüyürdü.

İmaş gəlib heç kəsin üzünə baxmadan dinməz-söyləməz dayımın uzunboğaz çəkmələrini zorla çəkib çıxardı (qəşəng görünsün deyə dayım həmişə ayağına güclə pərçim olan uzunboğaz çəkmə geyirdi), sonra çəkmələri aparıb tərtəmiz sildi, gətirib dayım uzanan taxtın böyrünə qoyub getdi. Dayım onun ardınca soyuq bir nəzər salıb dedi:

– Bu həmşəri gədəsindən gözüm heç su içmir.

Anam dedi:

– Niyə, pis oğlan deyil.

Dayım dedi:

– Adamın yerə baxanından düz əməl baş verməz.

Mən başa düşmürdüm ki, nə üçün dayımın İmaşdan xoşu gəlmir? İmaş bu cür dinməz-söyləməz onun qulluğunda durur, dayım taxtda uzanır, İmaş onun uzunboğaz çəkmələrini zorla çəkib çıxarır, aparıb silir, amma İmaşın özünün isə ayaqlarında dabanları əyilmiş cırıq bir çust var.

Əhmədin arvadları necə öldürdüyünü danışdığı zaman dayımın üzündəki təbəssüm gözümün qabağından getmirdi. Axı Əhməd onları dayımın tapançasıyla, özü də lap nahaqdan öldürmüşdü. Axı onlardan biri dayımın da, mənim də qoca nənəmiz idi. İndi anamın da, hətta Fatma nənəmin də bu söhbətə tamamilə sakit qulaq asmaları, dayımın bu təbəssümündən dəhşətə gəlməmələri məni təəccübləndirirdi. «Təəccübləndirirdi» demək mənim o anlarda keçirdiyim sarsıntını ifadə etmək üçün çox zəif sözdür. Mən bir-birlərilə ən yaxın qohum olan bu insanların əsilində bir-birlərindən nə qədər uzaq olduqlarını, birinci dəfə, təhtəlşüurla da olsa, hiss edirdim. Bayaq İmaş çolpaları qışqırda-qışqırda kəsdiyi zaman da dayım belə xoşhal ifadə ilə baxırdı. Bütün bunlar məni üşəndirirdi, zehnimdə bir xaos yaradırdı, dumanlı meşədə azan adam kimi mən gedib hara çıxacağımı, nə görəcəyimi, nədən şadlanacağımı, hiss elədiklərimi kimə deyəcəyimi bilmirdim.

Dayım gələndən sonra gecə babamgildə qalmaq istəməyərək anamla qayıtdım evimizə. Bağı keçib enli daş pilləkənlərlə yuxarı qalxanda mən özümü anlaşılmaz, cansıxıcı bir ümidsizlik içində hiss edirdim.

ƏFƏNDİ BABA VƏ BEŞAÇILAN TÜFƏNG

Biz evə gələndə Zinyət xəbər verdi ki, Abdulla Əfəndi nökərilə gəlib, atlarını tövlədə qoyub, ağa ilə (yəni mənim atamla) çıxıblar şəhərə. Atamın əmisi Abdulla Əfəndi İstanbulda təhsil almışdı. Qar kimi ağ, uzunsaqqallı, nurlu bir kişi idi. Qarabağın cənub tərəfindəki sünnilərin çox hörmətli ruhanisi idi.

Artırmada qırmızı güllü bir xurcun, yanında da divara söykənmiş gödək bir beşaçılan tüfəng vardı. Mən bilirdim ki, xurcun Əfəndi babanındır.

Zinyətdən soruşdum:

– Bəs bu tüfəng kimindir? Əfəndi babanın nökərinindir?

– Yox, – dedi, – Əfəndi babanın özününküdü.

Mən təəccüblə anamdan soruşdum:

– Əfəndi baba tüfəng niyə götürür?

Anam dedi:

– Çünki dədəngilin kəndində Əfəndi uşağıyla Hacı Vəli uşağının arasında qanlılıq var. Əfəndi baban yoldan ehtiyat eləyir.

– Məgər düşmənləri ilə qabaqlaşsalar, Əfəndi baba da atışacaq?!

– Əlbəttə!

– O cür qoca adam?..

– Qocalığına nə baxırsan? Zirək kişidi baba.

Bir azdan əynində tünd şal parçadan tikilmiş çuxanın altında tünd rəngli, zərif parçadan uzun arxalıq, arxalığın üstündən ağ ipək qurşaq, başında qaragül dəridən uzun papaq, ayaqlarında şibilit çəkmə olan Əfəndi baba cavan nökərinin və atamın müşayiətilə yaşının səksəni adlamasına baxmayaraq, çevik hərəkətlə pilləkəni qalxıb, anama:

– Xoş gördük bala – deyərək mənim və bacımın üzündən öpdü.

Onun nökəri dərhal mis aftafanı su ilə doldurub pilləkənin başında hazır durdu, Əfəndi baba da çuxasını, corablarını çıxarıb, ayaqlarını yuyub dəstəmaz alandan sonra bizim qonaq otağımıza gedib xalının üstündə namaza başladı. Anam mənə və bacıma tapşırdı ki, səs salmayaq. Mən pəncərənin qabağında dayanıb babamın namaz qılmağına tamaşa eləyirdim, onun pıçıltı ilə nələr dediyi mənə məlum olmasa da, bəzən yarıqapalı, bəzən tavana zillənən gözlərində, uzun, ağsaqqallı üzündə duyduğum sakit, işıqlı ifadə mənim üçün sirli bir aləm idi. Mən öz-özümə deyirdim: «Baba Allahla danışır...» Fatma nənəm deyir ki, Allah gözəgörünməzdir. Bəs nə üçün Əfəndi baba tez-tez göyə baxaraq danışır? Orada nə görür?

Mən onu da başa düşmürdüm ki, nə üçün şiə olan Fatma nənəm namaz qılarkən əllərini yanına salır, amma sünni olan Əfəndi baba əllərini döşündə bir-birinin üstünə qoyur? Bunların mənası nədir? Və nə üçün yaşı səksəni keçmiş Əfəndi baba hər namazda bu qədər əyilib-qalxır? Əlləriylə bu cür hərəkətlər eləyir?

Sonra Əfəndi baba sakit, xoş bir avazla Quran oxudu, sonra salavat çevirərək qalxıb ipək döşəkcənin üstündə əyləşdi. Atam da gəlib onun yanında, döşəkcənin üstündə oturdu. Cavan nökər o saat xurcundan balaca, ağ bir süfrə çıxararaq gətirib babamın qabağına saldı, sonra yenə oradan armudu bir stəkan çıxarıb, aşağı başda dızıldayan samovardan tünd çay tökərək gətirib qoydu babanın qabağına. Əfəndi baba atamla söhbət eləyə-eləyə iki stəkan çay içəndən sonra həmin oğlan heç nə soruşmadan xurcundan acıtmalı çörək, soyutma toyuq, yumurta, pendir çıxararaq gətirib düzdü babanın qabağına.

Əfəndi babanın qabaqkı gəlişlərindən mənə məlum idi ki, anam şiə olduğu üçün o bizdə xörək yemir.

Mənim anam vasvasılıq dərəcəsində təmizlik sevən bir qadın idi. Niyə, hansı səbəbə görə Əfəndi baba onun əli dəyən xörəyi yeməyi günah hesab edirdi? Və bu günah nədən ibarət idi? Madam ki, anamı da, Əfəndi babanı da bir Allah yaradıb, bəs bu ayrı-seçkilik nə üçündür? Orası da qəribə idi ki, Əfəndi babanın bu hərəkəti anamın xətrinə dəymirdi, elə bil ki, o bunu təbii şey hesab edirdi. Mənim üçün bir də o çox maraqlı idi ki, atam Əfəndi babanın yanında özünü xalis bir xidmətçi kimi aparırdı, onun yanında papiros da çəkmirdi, onunla ehtiyatla danışırdı.

Əfəndi baba ilə atamın söhbətindən başa düşürdüm ki, kəndimizdəki ədavət padşah hökumətinin yıxılması ilə indi hökm sürən «hürriyyətlikla» əlaqədar olaraq daha da qorxulu olmuşdur. Tez-tez tayfalar arasında atışmalar olur, kəndin bu tərəfindən o biri tərəfinə keçmək mümkün deyil. Əfəndi baba neçə dəfə barışıq eləmək istəyibsə də, bir nəticəsi olmayıb. Yenə də açıq və ya gizlin şəkildə adam vurmaq davam edir. İş o dərəcəyə çatıb ki, qənd-çay, ayın-oyun almaq üçün Əfəndi baba özü gəlməyə məcbur olub, oğlanlarını göndərməyə ürək eləməyib.

Sonra Əfəndi baba atama tapşırdı ki, o da sərvaxt olsun. Gecə artırmada çıraq işığında oturmasın.

Səhər atam Əfəndi babanın bazara getməsinə razı olmayaraq, özü gedib hər nə lazımdısa aldı. Əfəndi baba anama razılıq eləyərək nökərilə yola düşüb getdi. Mən də babamgilə qaçdım. Fatma nənəm artırmada, taxtın üstündə bikef-bikef oturub qarşısına baxırdı. Müştüyü əlində tüstülənirdi. Mən təəccüb edirdim ki, dayım Şuşada olanda nənəm gecə-gündüz ona dua elədiyi halda, bəs niyə indi onun gəlişinə sevinmir? Əgər sevinirsə, niyə bunu izhar eləyə bilmir? Niyə ondan çəkinir? Elə bil ki, arvad eyzən bir xof içindəydi.

Mən onlara gedəndə dayım evdə yox idi. İmaş bağda, bostanda işləyirdi. Güllü evləri silib yığışdırırdı. Birdən dayım tələsik gəlib mənə də əhəmiyyət vermədən nənəmdən pul istədi. Arvad da evdən iki kağız pul gətirib verdi. Dayım pulları alıb dedi:

– Bu azdır, yeri yenə gətir.

Nənəm gedib bir kağız pul da gətirdi. Dayım bu pulu da alıb arvadın üstünə qışqırdı:

– Niyə qəpik-qəpik gətirirsən? Qıymırsan mənə? Yeri yenə gətir!

Nənəm and içdi ki:

– Ta yoxdu.

Dayım arvada acı sözlər deyərək iti addımlarla getdi və bu hadisə mənə o qədər pis təsir elədi ki, uzun zaman nənəmin gözlərinə baxa bilmədim, ancaq arvad taxtın üstündə oturaraq müştüyünü tez-tez dərindən sümürürdü, üzündə də elə bir ifadə vardı ki, elə bil, heç nə olmamışdı. Mən ona bir söz deməyərək qaçdım bağa, İmaşın yanına. İmaş ağacların dibini belləyir, balaca arxların içini təmizləyirdi. Dayım gələndən bəri o da tutqun olmuşdu. Mənə soyuq bir nəzər salıb soruşdu:

– Nə olub, qaqaş, dayın niyə acıqlanırdı?

Nə üçünsə mən özümü günahkar hiss edərək yavaş səslə dedim:

– Pul istəyirdi.

İmaş daha heç nə demədi. Birdən mən ondan soruşdum:

– Axı dayım pulu neyləyir? Evdə yeməyə hər şeyi var, pal-paltarı da bəsdi deyincədi.

İmaş gözləri işində olduğu halda dərindən nəfəs alıb:

– Necə neyləyir, qaqaş? – dedi, – cavan ağadı, şəhərdə gözəl malakan qızları var, gözəl restoranlar var...

Mən hərarətlə soruşdum:

– Qızlara niyə pul verir?

Deyəsən, İmaş dediyinə peşman oldu:

– Zarafat eləyirəm, qaqaş... Sən uşaqsan, böyüklərin işinə qarışma, yaxşısı budu atana de, sənə dəftər-karandaş alsın, gətir sənə oxuyub-yazmaq öyrədim.

Mən İmaşa cavab verməyərək uzaqlaşdım. Dayımın nənəmə acıqlanmağı mənə o qədər ağır gəlirdi ki, qayıdıb arvadın yanına gedə bilmirdim. Həyətdə veyillənir və aralıdan gözaltı nənəmə tamaşa edirdim, o, hey papiros çəkir və öz-özünə danışırdı.

Sonra nənəm mənə dedi:

– Get evinizə, axşam düşür.

Nənəm mənə heç vaxt deməzdi «get evinizə», ancaq indi deməyinə də pərt olmadım. Mən dərk edirdim ki, arvad bunu məhz Nuru dayım burada olduğu üçün deyir. Nənəm hiss edir ki, dayımın gəlişilə burada yaranan ab-hava məni sıxır.

Mən evimizə gələrək dayımın nənəmə acıqlandığını anama danışdım. Anam əsəbiləşdi:

– Təqsir arvadın özündədir, – dedi, – niyə onun törətdiyi işləri kişiyə demir? Niyə gizlədir? Nə qədər deyirdim, – bunu az ərköyün elə, elədiyi işləri dədəmə de, qoy qabağını alsın, – hesabı içəri verirdi.

Mən dedim:

– Fatma nənəm dayımdan qorxur.

Anam dedi:

– İndi, əlbəttə, qorxar, gərək uşağın vaxtında qabağını alasan.

Birdən fikrimə gəldi ki, bəlkə atam buna görə mənimlə həmişə sərt rəftar edir, hər şeydən ötrü məni danlayır? Ancaq mən heç bir pis iş görmürdüm. Mən onu da heç cürə təsəvvür eləyə bilmirdim ki, bir zamanlar mən də anamı söyə bilərəm. Anam heç zaman məni öpüb-oxşamazdı, məni nazlandırmazdı. Ancaq bununla bərabər, ürəyimin dərinliklərində mənim üçün ondan əziz adam yox idi. Mən bir də Bayram babamı çox istəyirdim. Lakin Bayram babamsız aylarla qalırdım, anamdan dörd-beş gün ayrı qalmağı ağlıma gətirə bilmirdim. Son vaxtlar anam tez-tez xəstələnirdi, bu da mənə gizli bir dərd olmuşdu. Anamın titrətməsi, Zinyətin yorğanları onun üstünə tökməsi, sonra qızdırmaya düşüb gözlərinin alışıb-yanması, üzünün qızarıb pörtməsi, bəzən sayıqlaması mənim həyatımın ən qüssəli, ən sıxıntılı anları idi. Mən bir küncdə qısılıb anamın qızdırmadan necə əzab çəkdiyinə tamaşa eləyə-eləyə göz yaşı tökürdüm və çalışırdım ki, bu göz yaşlarımı heç kəs, birinci növbədə, atam görməsin.

DOKTOR İVAN SERGEYEVİÇ QULİYEV

Ən çox xətrini istədiyim adamlardan biri də doktor İvan Sergeyeviç Quliyev idi. Ona görə ki, anamı həmişə o, müalicə edirdi. Özünün də, deyirdilər ki, ayağı sayalıdır. Doğrudan da, o, müalicəyə başlayan kimi anam sağalırdı. Ortaboylu, çənəsində balaca saqqalı olan, həmişə yaxşı geyinən, xoşsifət bir kişi idi, hələ mən bu dünyaya gəlməmiş Bayram babamın dostu imiş. Anamı, Nuru dayımı lap uşaqlıqdan o, müalicə edərmiş. Ona görə də anam, hətta Fatma nənəm də ona ev adamı kimi baxırdılar. O, Qarabulaqda çoxdan yaşadığı üçün azərbaycanca təmiz bilirdi. Həmişə bizə gələndə, mənə də, bacıma da, ya balaca oyuncaq, ya konfet gətirərdi. Bizim bayramımızda anam da həmişə öz bişirdiyi şirin şeylərdən doktora göndərərdi. Kürdobadan, ya babam naçalnik olduğu yerdən bizə ceyran, kəklik, turac gələndə, anam mütləq doktor üçün də pay göndərərdi...

Anam bərk xəstə olanda doktor Quliyev gəlib mənimlə, bacımla zarafatlaşa-zarafatlaşa anamı müayinə eləyib deyərdi:

– Bir şey yoxdur, bir az soyuq dəyib... Dörd-beş günəcən keçib gedər.

Onda, elə bil, mən dünyaya təzədən gəlirdim. Mən inanırdım ki, anam sağalacaq. Bir də doktor Quliyevi mən ona görə ürəyimdə çox istəyirdim ki, həmişə bizə gələndə qızıl eynəyi ardından mənə baxıb, gülümsəyərək:

– Yaqut xanım, – deyirdi, – sizin bu oğlunuzun necə ağıllı gözləri var.

Həmişə də doktorun bu sözü ürəyimi kövrəldirdi, çünki mənə elə gəlirdi ki, atam məni səfeh hesab eləyir. Anamın ən yaxın rəfiqəsi Məhbub xanım da həmişə anama deyərdi ki, «Muradın gözləri elə bil səninkidir». Həmişə atam «fərsiz, heç zadın otu» deyib məni danlayanda, mən doktor Quliyevin və Məhbub xanımın sözlərini xatırlayardım və bu da mənə gizlin bir təsəlli olardı.

Nikolay padşahın taxtdan salındığı günlərdə doktor Quliyev həyəcanla bizə gəlib atamgilə dedi:

– Bəlkə siz mənə kömək eləyəsiniz, çıxım gedim Rusiyaya.

Atam soruşdu:

– Nə üçün, doktor?

Həkim dedi:

– Sizin camaat çarın əlindən çox acıqlıdır, mən də ki rus, qorxuram...

Atam onun sözünü yarımçıq kəsib dedi:

– Nə danışırsınız, doktor? Siz hara, çarın çinovnikləri hara?.. Bəyəm çarı taxtdan yıxan elə rusların özü döyül?!

Anam da əlavə etdi ki:

– Nə üçün ürəyinizə heylə şey gəlir, doktor? Bizim camaat sizə öz doğma adamı kimi baxır, sizin xətrinizi istəyir.

Atam dedi:

– İstəyirsiniz, köçün bizim evlərin birinə...

Doktor dərindən nəfəs alıb dedi:

– Mən özüm də bilirəm ки, xalq məni sevir, ancaq dedim... birdən...

Atam dedi:

– O barədə ürəyiniz buz кimi olsun, doкtor, sizə toxunmaq heç кəsin ağlına da gəlməz.

Anam dedi:

– Siz heç кasıblardan pul-zad almırsınız.

Doкtor dedi:

– Mən sizin xalqınızı sevirəm.

Anam dedi:

– Buna heç кəsin şübhəsi olmaz, özünüz görürsünüz ки, burada olan malaкanlara heç qaçaq-quldur da toxunmur, çünки biz onlardan pisliк görməmişiк, camaata hər nə eləyib naçalniклər, pristavlar eləyib.

Doкtoru mən özümüzə o qədər yaxın bilirdim ки, indi onun bizim adamlar sarıdan təşvişə düşməsini anlaya bilmirdim. Mən dilimizin, dinimizin ayrı olduğunu bilsəm də, xalqların – azərbaycanlıların, rusların, gürcülərin, daha nə bilim, кimlərin bir-birindən tamam ayrı olduqları barədə heç zaman düşünməmişdim.

Mən heç vəchlə bizim camaat arasında doкtor İvan Sergeyeviçi inciдəcəк adam təsəvvür eləyə bilmirdim. Mən «sizin xalq», «bizim xalq» sözlərini birinci dəfə eşidirdim. Zehnimdəки bu qarmaqarışıqlığa baxmayaraq, atamgillə söhbətindən sonra doкtorun rahat nəfəs aldığını hiss eləyib çox sevindim. Doкtor gedəndə atam ona təкrar dedi:

– İvan Sergeyeviç, ürəyiniz lap arxayın olsun. Heç кəsin sizinlə işi olmaz.

Atamın bu sözləri məni fərəhləndirdi. Atamın bu sözləri möhкəm inamla, doкtoru ürəкdən istəyərəк dediyini mən hiss edirdim.

Doкtor arxayın halda qalxıb getdi.

İMAŞLA GÜLLÜ NECƏ QAÇDILAR...

Dayım şəhərdən fışdırıq çala-çala кefiкök gəldi, hətta mənə baxıb gülümsədi də. Sonra artırmada, stulda oturub:

– Güllü, su gətir, – deyə çağırdı.

Deyəsən, Güllü eşitmədi, dayım bir də çağırdı. Bu dəfə Güllü İmaş yatan evdən çıxaraq, hövlnaк yüyürüb gəldi, dayım ona diqqətlə baxıb soruşdu:

– Orada nə qayırırdın?

Güllü qorxmuş halda cavab verdi:

– Heç nə.

Dayım yenə soruşdu:

– O gədə də oradadı?

Birdən, elə bil ки, Güllüyə bir cəsarət gəldi, dayımın düz gözünün içinə baxıb dedi:

– Oradadı.

Onsuz da sarıbəniz adam olan dayımın rəngi qaçdı.

– Yeri çağır bura.

Güllü dayıma baxmaqda davam edərəк yerindən tərpənmədi.

– Səninlə deyiləm? – deyə dayım qəzəblə səsləndi.

Güllü iti addımlarla İmaş olan otağa gedəndə Fatma nənəm də taxtın üstündən düşdü. Dayım qalxıb yun çırpmaq üçün qayrılmış zoğal çubuğunu bucaqdan götürdü. İmaş ağır addımlarla irəli gəldi. O, üç-dörd gün idi ки, titrədib qızdırırdı. Ancaq xəstəliyini elə ayaq üstündə кeçirirdi. Neçə dəfə nənəm demişdi ки, uzan yat. Amma İmaş yatmırdı. Qızdırması düşən кimi yenə də durub bağda-bostanda işlərini görürdü. Fatma nənəm də dayımdan xəlvət ona кinə, çay, xörəк verirdi.

O, yaxınlaşan кimi dayım qabağına yeriyib bət-bənizi qaçmış halda dedi:

– Ə, köpəкoğlu, İrandan bura eşqbazlığa gəlmisən?

Və onun ağzını açmağını gözləməyib saldı ağacın altına, Fatma nənəm vahimə ilə pıçıldadı:

– Allah, sən saxla.

İmaş qırpımsız nəzərlərlə dayıma baxır, o da oğlanın harası gəldi, budayırdı. Evin divarına söyкənib tamaşa eləyən Güllü birdən özünü irəli ataraq İmaşla dayımın arasına girib qışqırdı:

– Niyə öldürürsən yazığı?!

Dayım əl saxlayıb təəccüblə Güllüyə baxanda, İmaş eyni saкitliklə:

– Sən o yana get, Güllü! – dedi. – Qoy ağa ürəyini soyutsun.

– Yox! – deyə Güllü qışqırdı.

Bu dəfə dayım çox pis söyüşlə Güllünü saldı zoğal çubuğunun altına. İmaş irəli soxulub görünməmiş bir qüvvətlə çubuğu tutub dayımın əlindən alaraq:

– Ağa, – dedi, – məni şil-кüt elədin, dinmədim, axı bu zənən xeylağıdır.

Dayım evə yüyürərəк mauzer tapançasını götürüb ayağa çəкəndə Fatma nənəm yaylığını başından sivirib onun qabağına ataraq dəhşətlə qışqırdı:

– Allahdan qorx, ay bala!

Dayım sanки donaraq bir an dayandı və elə bu anda anam gəlib çıxmasaydı, кim bilir, neyləyəcəкdi... Anam qorxmuş halda soruşdu:

– Nə olub, Nuru?

Dayım ona cavab vermədən tapançanı qaytarıb qoydu yerinə, mən daha orada dayana bilməyərək qaçdım bağa. Gördüm ki, İmaş arxın qırağında oturub, gözlərini zilləyib suya. Mən ona yaxınlaşa bilmədim. Mənə elə gəlirdi ki, onun yanında mən də günahkaram. Onun üsyanla ağacı tutub dayımın əlindən alması məndə mərdanə bir əhval yaratmışdı, indi ayrı vaxtlarda olduğu kimi, mənim İmaşa yazığım gəlmirdi, indi o mənim nəzərimdə böyüyüb, hətta dayımdan da cəsarətli, qoçaq olmuşdu. Onun qızdırmadan saralıb-solmuş arıq üzü indi mənə bir igid çöhrəsi kimi görünürdü. O, Qaçaq Nəbi, Qaçaq Süleyman haqqında eşitdiklərimi yadıma salırdı: onlar da əvvəllər İmaş kimi kasıb, sakit oğlanlarmış. Ancaq bu anlarda mənim Fatma nənəmə yazığım gəlirdi, arvadın ağ saçlarını açaraq vahimə içində oğluna: «Allahdan qorx!» – deməsi hey xəyalımda dolanırdı. Əgər nənəm bu sözləri başqa, kənar bir adama deəydi, bəlkə də, mənə bu qədər ağır gəlməzdi. İndi mənim Güllüdən də acığım gəlmirdi, onun İmaşı o cür mərdliklə müdafiə eləməsi mənə Bayram babamın anası Səkinə qocanı, Fatma nənəmin anası Xanım nənəni xatırladırdı və mən Güllüdə onların cəsarətini, mərdanəliyini duyurdum və əgər indi Güllü mənim üzümdən öpsəydi, daha hirslənməzdim.

Mən ona təəccüb edirdim ki, Güllü ilə İmaşın dostluğu nə üçün dayımı bu qədər əsəbiləşdirmişdi? O dostluqdan dayıma nə zərər dəyə bilərdi? Məgər adamların bir-birini istəməsi pis şeydir?

... Səhər mən babamgilə gələndə gördüm ki, Fatma nənəm dayımın köynəklərini yuyur, soruşdum:

– Bəs Güllü hanı, nənə?

Məlum oldu ki, İmaşla Güllü gecə bir-birinə qoşulub qaçıblar. Dayım da hər dərəyə bir od vurub, amma heç yerdə «onları gördüm» deyən olmayıb.

İmaşgilin yoxluğu ilə mən babamgilin bağında da, evində də bir soyuqluq, bir boşluq hiss elədim. Mən «İmaşgilin» deyirəm, çünki indi Güllünün də yoxluğu məni sıxırdı. Onların bir də bura qayıtmayacaqlarını düşündükcə, az qalırdım ağlayım. Hey fikirləşirdim ki, görəsən, onlar necə oldular? Hara getdilər? Mən həyatımda ilk dəfə olaraq yoxsul insanların üsyanını görürdüm. Elə bil ki, bu üsyan mənim varlığımda da nəyinsə qaynayıb-coşmasına səbəb olmuşdu. Mən ürəyimdə Güllü kimi İmaşın tərəfini saxlayaraq dayımın qarasına qəzəblənirdim. Həyatımda birinci dəfə olaraq varlıların ədalətsizliyini hiss edərək məzlumların müdafiəsinə qalxırdım. Əlbəttə, bunlar hamısı mənim ürəyimdə idi və bunlardan heç kəsin xəbəri yox idi. Mən İmaşın yanında özümü Fatma nənəmin yanında olduğu kimi sərbəst, yüngül hiss edirdim. Dayımın təhqirini, danlağını nənəmin dinməz-söyləməz qəbul etməsi mənim izzəti-nəfsimə toxunurdu. Amma anam, nənəm kimi deyildi, atam birini deyəndə, anam ikisini

deyirdi və bu da mənim ürəyimdən olurdu. Mən istəyirdim ki, nənəm də dayıma qarşı anam kimi olsun.

Belə vaxtlarda, özümdən asılı olmayaraq, böyüklərin keçmiş həyatlarında baş vermiş keçmiş hadisələr daim xəyalımda, özü də, necə deyərlər, arxa planda baş qaldırır, sonra mən tamamilə o aləmə dalırdım, o aləm mənim üçün qəribə nağıllara çevrilirdi və mən o aləmdə nəyə isə heyran olurdum, nəyə isə təəssüf edirdim. İndi atamın mənimlə sərt rəftarına, anamın həmişə atama qarşı məni müdafiə eləməsinə fikir verəndə bilaixtiyar onların keçmişinə gedirdim, düşünürdüm ki, görəsən, anam əvvəlki nişanlısına getsəydi, bizim günümüz necə olardı? O atam mənimlə necə rəftar edərdi?

BİZİM YAYLAĞA KÖÇMƏYİMİZ, O TAYLI QAÇAQLAR... CAVAN ƏHMƏDALININ BİR TOĞLUNU TƏK YEMƏYİ, NURU DAYIMIN TÖRƏTDİYİ İŞLƏR VƏ ONUN ACIQ ELƏYİB ARANA QAYITMAĞI

Yay isti gəldiyindən anam təkid edirdi ki, biz də Kürdoba yaylağına gedək. El çoxdan köçmüşdü yaylağa, demək, bizim ailə tək getməli idi. Fatma nənəm razı deyildi, «yollar doludur qaçaqla» deyirdi, anam da cavab verirdi ki, «bir ucu Kolqarabağı, bir ucu da Zəngəzur mahalı, hər yerdə kişini tanıyırlar, neyləyəcəklər bizə». Ancaq Fatma nənəm öz təşvişi barədə Nuru dayımın yanında bir kəlmə də danışmırdı, nənəm bilirdi ki, əgər danışsa, dayımın cini qalxacaq. Mən onu da hiss edirdim ki, nənəm yolların qorxulu olduğunu dedikdə, ən çox Nuru dayım sarıdan ehtiyat edir, bilir ki, əgər bir şey olsa, dayım dinc durmayacaq.

Qarabulaqla Kürdoba yaylaqlarının arası üç yüz kilometrdən çox olardı. El köçü bu yolu qoyun-quzu, mal-qara otara-otara on-on iki günə gedib çıxırdı, ancaq biz üçatlı faytonla gedirdik. Atamla Nuru dayım isə faytonun yanınca atlı gedirdilər. Dayımın atı kürən, atamınkı isə boz idi. İkisi də cavan, qaçağan atlar idi. Dayım uzunboğaz çəkmə geyib, belinə üç patrondaş çəkərək zağlı, gödək beşaçılan, taxta beşaçılan, taxta qoburlu onatılan tapança götürmüşdü. Atam isə elə öz tacir paltarında idi, ancaq belində tapançası var idi. Atamın bu cür həşəri – boz ata minib tapança bağlaması mənə uyğunsuz görünürdü, çünki mən heç bir zaman onu Nuru dayım kimi at çapan, güllə atan görməmişdim.

Biz gün çıxanda yola düşüb, axşama yaxın Dədələr adlı kəndə çataraq, Bayram babamın köhnə dostlarından olan Hacı Fərhadın evinə düşdük. Hacı Fərhad neçə min qoyunu, at ilxısı olan bir tərəkəmə idi. Özü bütün ailəsilə çoxdan yaylaqda idi. Evdə qapı-bacaya baxan qoca bir kişi ilə onun qoca qarısı qalmışdı. Onlar babamgillə Hacının dostluğundan xəbərdar olduqları üçün bizə olmazın hörmət

elədilər, neçə çolpa kəsib çığırtma bişirdilər, neçə dəfə samovar qaynatdılar, gecə birmərtəbəli evin meydan kimi geniş artırmasında hamımız üçün ipək yorğan-döşək açdılar. Səhər çay-çörəkdən sonra düzəldik yola. Obadan bir xeyli aralanmışdıq ki, hansı yolla getmək üstündə atamla dayımın arasında mübahisə düşdü. Dayım deyirdi ki, Gəyən yolu ilə gedək, çünki kəsədi, şose yolla otuz-qırx verst təfavütü var, mənzərəli yerlərdən keçir.

Atam deyirdi: «Yayın bu isti vaxtında Gəyən düzü, yəqin ki, cəhənnəm kimi od tutub yanır, özü də bu qarmaqarışıqlıqda qaçaqsız-quldursuz olmaz».

Dayım istehza ilə güldü:

– Denən qorxuram, vəssalam.

Atam bərk tutuldu:

– Sənin də elə bir igidliyini görməmişik.

Dayımın göy gözləri qəzəblə parladı:

– Sənin kimi tərəzi dibi kəsdirənin tapança bağlamağını görəndə adamın gülməyi tutur.

Sonra o, faytonçu Cümşüdə əmr etdi:

– Gəyənlə get!

Cümşüd Qarabulağın yaxınlığındakı kəndlərdən idi. Çəkinə-çəkinə dayıma dedi:

– Abdulla doğru deyir, Gəyənlə getmək bu saat qorxuludu.

Dayımı cin götürdü:

– Axmaq oğlu, axmaq! – deyə faytonçuya qışqırdı. – Sür, Gəyən yoluna! Siz kəndlilərin qorxaqlığı aləmdə məşhurdu.

Dayımın axırıncı sözlərində atamın da payı var idi. Bizim tərəflərdə köçəri tərəkəmə camaatının oturaq kənd əhli ilə arası olmazdı, tərəkəmələr oturaq kəndliləri qorxaq, aciz-avara hesab edərdilər.

Faytonçu, yəqin ki, dayımın xasiyyətini bilirdi, ona görə də dinməz-söyləməz atların ağzını döndərdi Gəyən düzünə tərəf. O zaman atam da atını şose yolla dördəmə çaparaq, bizdən uzaqlaşdı. Qarabağın cənub tərəfindən ta Araza qədər uzanan Gəyən düzü, atam deyən kimi, od tutub yanırdı. Günəş işığında qızıl kimi parıldayan ilanlar faytonun qabağında o tərəf-bu tərəfə şütüyüb keçirdilər. Daşlıqlarda istidən ağızlarını ayırıb baxan boz kəkliklər görürdük. Dayımın deməyinə görə, gərək biz bu yolla Kürdoba yaylaqlarının yaxınlığındakı şəhərə – Gorusa daha tez çataydıq, ancaq hey gedirdik, heç bir kənd, şəhər əlaməti görünmürdü. Susuzluqdan dilimiz ağzımızda yanırdı. Bacım Mahtab «su!» deyə qışqırırdı. Dayım binoklla hər tərəfi nəzərdən keçirirdisə də, heç nə görmürdü, məlum oldu ki, azmışıq. Dayım tez-tez alnının tərini silərək faytonçunu söyüb danlayırdı ki, nə üçün azıb? O da hirsini udaraq heç bir söz deməyib, istidən, susuzluqdan yorulub taqətdən düşən atları şallaqlayırdı. Bacım Mahtab susuzluqdan tamam bihal olmuşdu. Fatma

nənəm hey müştüyünü tüstülədib susurdu. Anam da tez-tez papiros çəkirdi, mən bərk susasam da, səsimi çıxarmırdım. Bu qızmar gün işığında ancaq cırcıramaların aramsız, yeknəsəq səsi eşidilirdi. İndi fayton atları da, dayımın atı da addım-addım gedirdi, birdən dayım diqqətlə üfüqə baxaraq, faytonçuya dedi:

– Bir saxla görək, ə!

Cümşüd atların cilovunu çəkib dayandırdı. Anam da, mən də dayımın gözləri zillənən istiqamətə baxaraq güclə seçdik ki, toz qopara-qopara o yandan bəri bir topa qaraltı gəlir.

Dayım toz qopara-qopara irəliləyən qaraltını binoklla bir neçə saniyə nəzərdən keçirib, sakit, quru səslə dedi:

– İran atlılarıdır!

Sonra əlavə etdi:

– Səkkiz nəfərdilər.

Fatma nənəm pıçıldadı:

– Allah, sən saxla!

Dayım tələsik atdan düşərək faytonçuya əmr etdi:

– Düş, fərməşi, çamadanları aç yığ bura.

Fatma nənəm çəkinə-çəkinə dayıma dedi:

– Bala, güllə atarsan, tökülüb bizi qırarlar.

Dayım acıqlı-acıqlı cavab verdi:

– Yoxsa ki, güllə atmasam, bizə rəhm eləyəcək İran qaçaqları? Tez! – deyə faytonçuya qışqırdı.

Cümşüd faytonun arxasından iri fərməşi, iki çamadanı düşürən kimi dayım yenə əmr etdi:

– Faytonu döndər, atları qov geri!

Özü isə, faytondan düşürülən şeyləri səngər kimi düzəldərək arxasına yıxılıb indi artıq açıq seçilən atları basdı gülləyə. Cümşüd isə atları döndərib geriyə çapdı. Dayımın atı bir qədər faytonun böyrüncə dördəmə gedib birdən geri döndü. Dayanıb dayıma tərəf baxaraq kişnədi. Biz dayımdan təxminən bir kilometr aralananda anam faytonçuya qışqırdı:

– Saxla!

Deyəsən, faytonçu qəsdən özünü eşitməməzliyə vurub atları qovmağa davam etdikdə, anam cəld hərəkətlə faytonun içində ayağa qalxıb arxadan Cümşüdün pencəyindən dartaraq qəzəblə səsləndi:

– Demirəm saxla? Nurunu qoyub hara qaçırsan?

Cümşüd atların cilovunu çəkib faytonu dayandırdı. Anam da, mən də faytondan düşüb geri baxdıq! Dayım güllələyir, atlılar isə buna əhəmiyyət verməyərək toz qopara-qopara o yandan bəri çapırdılar. Güllə mənzilinə çatanda lap qabaqda gələn at şahə qalxaraq yıxıldı. O biri atlılar da ona çatıb dayandılar. Neylədiklərini aydın seçə bilmirdik. Ancaq görürdük ki, dayıma tərəf üç dəfə yaylım atəşi açdılar. Dayımın ətrafında toz qalxıb, bir an onu görünməz etdi.

Fatma nənəm hey deyirdi:

– Allah, sən saxla! Allah, sən saxla!

Deyəsən, quldurlar dayımı vurulmuş hesab edərək yenə də üzübəri çapdılar, indi onların ağ keçə araqçınlarını da aydınca görürdük. Yenə də dayım pulemyot kimi dalbadal atəş açdı. Onlar yenə də bir an dayanaraq, bir yerə toplaşdılar. Sonra bir-birindən aralanaraq seyrəklənib yenə də dayıma tərəf çapdılar. Elə bu anlarda bir də gördük ki, bizdən təxminən üç yüz metr sağ tərəfdəki təpənin dalından bir dəstə tüfəngli atlı çıxaraq atlarının başını çəkib atışma gedən tərəfə baxdılar. Anam qabaqdakı qırmızı çuxalı boz atlıya diqqətlə baxıb faytonçuya qışqırdı:

– Səslə onları! Bizim tərəfin adamlarıdı!

Faytonçu bir anda dəsmalını şallağın başına keçirib təpənin üstünə qalxan atlılara tərəf yelləyərək qışqırdı:

– Ayə, kömək eləyin, İran qaçaqlarıdı qabağımızı kəsən. Onlarla atışan Kürdobalı Bayram bəyin oğludur!

Təpənin üstündəki atlılar güllə ata-ata iranlılara tərəf çapdılar. Bunu belə görən Nuru dayım da qalxdı, yüyürərək atına minib onların dəstəsinə qoşuldu, iranlılar atlarının başını döndərib geriyə çapdılar, bəlkə də bu ondan oldu ki, İran qaçaqları bu yerlərə nabələd idilər. Bəlkə də qorxdular ki, hansı tərəfdənsə yenə də dayımgilə kömək gələr.

Bütün bu müddətdə Fatma nənəm bir dəqiqə də ara verməyib, hey dayıma dua eləyirdi. Dayımgil iranlı qaçaqların dalınca çapa-çapa gözdən itəndə anam qızıl suyuna çəkilmiş və ağzında iri yaqut olan qutusunu açdı, bir papiros çıxarıb yandıraraq faytonçuya əmr etdi:

– Sür şeylərin yanına!

Fayton dayım səngər eləyən yerə çatıb dayandı. Biz faytondan düşüb şeylərə baxdıq: çamadanlar, fərməş deşik-deşik olmuşdu. Fatma nənəm heç bir şeyə əhəmiyyət verməyərək hey bizim atlılar gözdən itənədək üfüqə baxıb dua edirdi.

Faytonçu anama dedi:

– Siz beş-on dəqiqə burada dayansaydınız, mən o təpəyə çıxıb baxardım, bəlkə bir yol-riz göründü.

Anam dedi:

– Yaxşı, get.

Qorxu sovuşduğu üçün susuzluq, isti yenidən bizə divan tutmağa başladı. Bacım Mahtab bihuş halda faytonda uzanmışdı. Fatma nənəm gözlərini üfüqə zilləyib hey dodağının altında nə isə pıçıldayırdı. Nə istini hiss edirdi, nə də susuzluğu.

Faytonçu təpəni yüyürə-yüyürə enib yanımıza gələrək dedi:

– O biri tərəfdə bir bina görünür, yəqin çayxanadı, gedək ora.

Fatma nənəm bayaqdan bəri birinci dəfə dillənib dedi:

– Bəs Nuru nə biləcək biz ordayıq?

Faytonçu cavab verdi ki, «yəqin o atlılar həmin evi tanıyırlar. Görsələr burada yoxuq, ora dəyməmiş olmazlar». Biz qızmar günəş altında zəbanə çəkən düzün ortasında torpaq yolun üstündəki balaca kərpic çayxanaya çataraq faytondan tökülüşüb girdik içəri. Şüşələri hisdən saralmış tək pəncərədən işıq güclə sızdığı üçün içəri yarıqaranlıq da olsa, sərin idi. Torpaq döşəməyə təzəcə su çiləmişdilər, başlarında tüklü qoyun dərisindən basma papaq, əyinlərində şal çuxa, ayaqlarında yun corabla çarıq olan iki kəndli skamyanın üstündə oturub tər tökə-tökə çay içirdi. Bu istidə onların bu cür geyinməyi məni heyrətləndirirdi. Bacım Mahtaba su içirdib özünə gətirəndə qız iri su parçını qucaqlayıb heç kəsə vermirdi.

Biz doyunca su içib sərinləyəndən sonra döşəndik çaya. Bu zaman dayımgil girdilər içəri.

Dayıma kömək eləyənlərin başçısı anama dedi:

– Xoş gördük, bacı.

– Xoş günün olsun, Xanmurad, Allah səni lap vaxtında yetirdi, yoxsa iranlılar bizi qıracaqdılar.

His basmış pəncərədən sızan zəif işıqda Qaçaq Xanmuradın yaraşıqlı sifəti çox solğun görünürdü. O, xəfifcə gülümsəyib dedi:

– Nuru kimi oğul olan yerdə onlar bir qələt eləyə bilməzdi.

Sonra qaşlarını çatıb əlavə etdi:

– Sizə görə qayıtdıq, yoxsa onların birini də sağ buraxmazdıq.

Nuru dayım mis parç dolusu su içib nəşə ilə dedi:

– Mən vurduğum, deyəsən, başçıları idi, amma bilmədim sağ qaldı, yoxsa...

Qaçaq Xanmurad dedi:

– Deyəsən, sağ idi, çünki yoldaşlarının tərkində iki adam oturmuşdu: biri atı vurulan, biri də yəqin güllə dəyən...

Nuru dayım eyni nəşə ilə əlavə etdi:

– Qəsdən adama atmırdım... Yoxsa bir-bir hamısını dənləyərdim.

Çay içən kəndlilərdən biri dayıma dedi:

– Adama atmamaqda yaxşı eləmisən, bala, axı onlar da bizim kimi türkdülər dayna.

Qaçaq Xanmurad dedi:

– Nə təhər – türkdürlər ki, keçib bu taya çapovulçuluğa gəlirlər?

Kişi:

– Ay Xanmurad, – dedi, – keflərindən gəlmirlər ha. Odey, biri sən özün, bəyəm, durduğun yerdə qaçaq olmusan?!

Qaçaq Xanmurad qaşqabaqlı cavab verdi:

– Mən padşahın ucbatından qaçaq olmuşam.

Kişi dedi:

– Onlar da İran şahının ucbatından dərələrə düşürlər.

Qaçaq Xanmurad dedi:

– Mən heç vaxt kasıb-kusuba, arvad xeylağına dəyməmişəm...

Kişi dərindən nəfəs alıb dedi:

– Hər yerdə mərd də var, namərd də...

Elə bu zaman bayırda at ayağının tappıltısı eşidildi, sonra atam içəri girib salam verdi. Qaçaq Xanmurad onu tanıyıb gülümsədi:

– Bu necə işdi, qardaşlıq, sən niyə köçdən ayrı düşmüşdün?

Atam dedi:

– Mənim bir balaca işim var idi.

Sonra Qaçaq Xanmurad qalxaraq anama dedi:

– Bacı, tay biz mürəxxəs olaq. Buradan o yana ehtiyat eləməyin, Gorusa az qalıb.

Fatma nənəm dedi:

– Sağ ol, Xanmurad, ömrün uzun olsun.

Qaçaq Xanmurad atlanıb yoldaşları ilə getdi, lakin mən bütün yolboyu onun haqqında düşünürdüm. Anam atama qoşulub qaçanda Pirağbulaq dərəsində ona necə rast gəldiklərini və Qaçaq Xanmuradın anama boygörüncəyi üzük də bağışladığını Möhnət qarı danışmışdı, bunu anam rəfiqələrinə nağıl eləyəndə də eşitmişdim. Həmin üzük indi də anamın barmağında idi. Qaçaq Xanmuradın həyatı mənim üçün bir müəmma idi. Özü də cazibədar müəmma idi. İndi bizdən ayrılanda da mənə elə gəlirdi ki, o, hara isə əfsanəvi bir aləmə gedir və o aləmdə onu, kim bilir, nələr gözləyir... Qaçaqların ardınca biz də çayxanadan çıxıb yolumuza davam etdik. İndi atam da atını faytonun yanınca sürürdü, özü də heç kiminlə kəlmə də kəsmirdi. Faytonçu Cümşüd iranlılarla olan əhvalatı, bizim azmağımızı ona danışanda, atamın üzündə istehzalı bir təbəssüm yarandı. Bu, o demək idi ki, əgər dayım tərslik eləməyib onun sözünə baxsaydı və biz ümumi köç yolu ilə getsəydik, başımıza bu əhvalatlar gəlməzdi.

Çəkdiyimiz əziyyətlərə baxmayaraq, köç yolu ilə gəlmədiyimizə mən təəssüf eləmirdim. Od tutub yanan Gəyən düzü ilə gəlməyimiz də, iranlı quldurlarla rastlaşmağımız da, dayımın onlarla o cür atışması da, sonra Qaçaq Xanmuradın öz dəstəsilə gəlib bizim harayımıza çatması da məndə qəribə bir qürur hissi doğururdu. Elə bil ki, bütün bu hadisələrdə mən özüm də mühüm bir rol oynamışdım, elə bil ki, Qaçaq Xanmuradda, nə isə, mənə yaxın, doğma olan bir şey var idi. Onun yaraşıqlı üzünün solğunluğu, gülərkən görünən ağappaq dişləri, gilənar rəngli diaqonal çuxası, qırmızı ağac qoburlu onatılan tapançası məndə söz ilə ifadə edə bilmədiyim şairanə hisslər yaradırdı. Qaçaq Xanmurad gedəndən sonra atam da, dayım da mənə soyuq, yapışıqsız, hətta yad kimi görünürdülər. Mən istəyirdim ki, anam eyzən onun haqqında danışsın. Hiss edirdim ki, anam onun xətrini istəyir. Mənim duyğularımı anam da duyur. Əlbəttə, mən

bütün bunları təhtəlşüur hiss edirdim, yəni bu hisslərim barədə aydın heç nə deyə bilməzdim.

Biz dağlar arasındakı balaca Gorus şəhərinə çatdıqda, Cümşüd şəhərin girəcəyində qolbənd edilib otlağa buraxılan bir neçə yəhərli at görüb faytonu dayandırdı. Yəhərli atların yanında uzanan iki oğlan qalxıb bizə tərəf yüyürdü. Dayım ortaboylu, enlikürək, qumral bığlı oğlandan soruşdu:

– Əhmədalı, çoxdan burdasınız?

Əhmədalı dedi:

– Çoxdan, bir az da gec gəlsəydiniz, gedəcəydik qabağınıza, dedik görən nə olub.

O biri qarabığ, qarasaç, nazik oğlan dayımdan soruşdu:

– Qağa, patrondaşların niyə qabaqdan boşalıb?

Dayım dedi:

– İran qaçaqları ilə davaya düşmüşdüm, Hacı.

Hacı dedi:

– Gərək lap aranacan gələydik qabağınıza.

Dayım nəşə ilə dedi:

– Onsuz da, vaylarını verdik, əvvəl tək özüm bir saat vuruşub qabaqlarını saxlamışdım. Ancaq qəfil Qaçaq Xanmurad dəstəsilə gəlib çıxdı. Mən başçılarını, birinin də atını vurmuşdum.

Hacının gözləri parladı:

– Deməli, qağa, möhkəm atışmısınız...

– Möhkəm. Başıkəsik günbəzəcən qovmuşuq. Uşaqlar günün qabağında qalmasaydı, əl çəkən deyildik.

Əhmədalı soruşdu:

– Neçə nəfər idilər?

Dayım dedi:

– Səkkiz.

Hacı dedi:

– Heyif, orada olmamışıq.

Əhmədalı da, Hacı da tüfəngli, patrondaşlı idilər, ikisinin də ayaqlarında uzunboğaz çəkmə, əyinlərində tərəkəmə arvadlarının əldə toxuduqları yun şaldan pencək, şalvar, başlarında buxara papaq vardı. İkisinin də yaşı iyirmi beşdən artıq olmazdı.

Daha Gorusdan Kürdoba yaylağına, ümumiyyətlə, yaylaqlara fayton yolu yox idi, ona görə də, Bayram babamın qardaşı Eyvaz əmi qabağımıza at göndərmişdi.

Atam faytonçu Cümşüdün haqqını verəndən sonra fayton Gorusa getdi ki, gecəni karvansarada qalıb səhər qayıtsın geri.

Biz çəmənlikdə bir qədər dincələndən sonra qalxdıq. Əhmədalı üstündə yumşaq yastıqlı qazağı yəhər olan kəhər madyanı Fatma nənəmin yanına çəkərək bir əli ilə cilovdan, digər əli ilə üzəngidən yapışıb dedi:

– Gəl, bibi!

(Əhmədalı Bayram babamın uzaq qohumu idi. Ona görə nənəmə «xanım» əvəzinə «bibi» deyirdi). Fatma nənəmin ata minməyi həmişə mənə maraqlı görünürdü, elə bil ki, arvadın hey öz-özü ilə danışmağı, dayımdan qorxmağı bu anda yox olub gedirdi, elə bil ki, birdən-birə cavanlaşırdı, zirək olurdu.

Nənəm ayağının birini üzəngiyə qoyub, ondan gözlənilməyən yüngüllüklə qalxdı atın belinə.

Hacı da belində təzə ingilis yəhəri olan ürgəni anamın yanına çəkərək dedi:

– Gəl, bacı!

(Hacı da Bayram babamgilin qohumlarından idi. Ona görə «Yaqut xanım» əvəzinə «bacı» deyirdi.)

Sonra Əhmədalı atını minib, məni aldı qucağına. Hacı da bacım Mahtabı götürdü və biz Gorusun qabağındakı qəlbi dağın dolaylarını qalxmağa başladıq.

Biz bu dağı qalxdıqca, Möhnət qocanın «Gorusun qaşı» haqqında, Qaçaq Nəbi haqqında danışdığı əhvalatı xatırlayırdım.

Mən Əyriqayanın üstündə dayanıb, aynalı tüfəngi əlində silkələyərək üzüaşağı Gorusa tərəf qışqırıb naçalniki hədələyən, qara bığları eşmə-eşmə olan Qaçaq Nəbini görürdüm! Əyriqayadan bir qartal qalxıb Gorusun üzərində dövrə vurdu, mən qartalı göstərib, Əhmədalıdan soruşdum:

– Sən onu buradan güllə ilə vura bilərsən?

Əhmədalı ağ buludların altında dövrə vuran quşa bir neçə saniyə baxıb dedi:

– Mən qartala güllə atmaram, qaqaş!

– Niyə?

– İgid quşdur. İgidə güllə atmağa adamın əli gəlmir.

Mən dedim:

– Nəbi də igid idi, amma Möhnət qoca deyirdi ki, yoldaşı onu yatdığı yerdə vurub.

Əhmədalı kinli-kinli dedi:

– Çünki yoldaşı tülkü kimi qorxaq, mərdimazar köpəkoğlunun biri idi.

Biz dolayları çıxa-çıxa mən soruşdum:

– Nəbinin heç basıldığı vaxt olmayıb?

Əhmədalı dedi:

– Olub... Niyə olmayıb?.. Ancaq igid elə basılanda da igiddi!

Sonra Əhmədalı əvvəl «Qaçaq Nəbi» havasını fışqırıqda çaldı, sonra papağının dalını qaldırıb oxudu:

Bozat, səni sər tövlədə bağlaram,
And içirəm, səni məxmər çullaram.

Qızıldan, gümüşdən səni nallaram,
Əgər məni bu davadan qurtarsan.

Mən gözümü Əyriqayadan çəkmirdim. Mənə elə gəlirdi ki, bir zamanlar igid Nəbinin səngər elədiyi bu qaya əsrarəngiz, canlı bir məxluqdur, elə bil ki, o axşamın toranında əbədi susmağa məhkum edilmişdir.

Mən Əhmədalıdan soruşdum:

– Sən heç adam öldürmüsən?

Əhmədalı güldü:

– Neyləyirsən, qaqaş?

– Elə-belə soruşuram, öldürmüsən?

– Öldürməmişəm, amma yaralamışam.

– Güllə ilə?

– Yox, xəncərlə.

– Bu belindəki xəncərlə?

– Hə, – deyə Əhmədalı güldü.

– Nə cür? – Mən əl çəkmədim.

Əhmədalı dedi:

– Nə cür olacaq?.. Zarafatlaşırdıq, sözümüz çəp gəldi, xəncəri çıxarıb yeritdim böyrünə. Amma ölmədi.

– Bəs sonra oğlan necə oldu?

– Odur ey, kürən dayın üstündə gedir!

Mən təəccüblə dedim:

– Hacı?!

– Hə... – deyib Əhmədalı gülümsəyərək ayaqlarını usdufca tərpətdi.

Sonra atını Hacının atına yaxınlaşdıraraq zarafatyana mənə dedi:

– İnanmırsan, özündən soruş.

Mən dedim:

– Hacı dayı, o düzdür ki, Əhmədalı dayı xəncəri soxub sənin böyrünə?

Hacı gülümsəyib dedi:

– O düzdü, amma sən ondan soruş ki, bəs Hacı sənin böyrünə neçə güllə ilişdirdi?

Mən qanrılıb təəccüblə Əhmədalıya baxdım. O gülümsəyib dedi:

– Səfeh güllələr idi, qaqaş, üçü də dərini üzdən deşib keçmişdi.

Hava qaralmışdı. Biz dolayları çıxıb dağın döşündən keçən dar cığırla bir-birimizin ardınca gedirdik. Cığırın alt tərəfi qaranlıq uçurum idi. Sonra çiskin başladığından bir addım qabağı görmək olmurdu. Ancaq atlar rahatca gedirdilər. Biz dağı dolanıb düzənliyə çıxanda, anam atını yorğaladaraq bizə yaxınlaşdı, qaranlıqda üzümə diqqətlə baxıb soruşdu:

– Yuxulamırsan ki?

Mən bu çiskinli qaranlıqda onun səsindəki mehribanlıqdan fərəhlənərək:

– Yox, – dedim.

Anam atının tərkinə bağlanmış keçə xurcundan mənim gödəkçəmi çıxarıb Əhmədalıya verərək dedi:

– Al bunu, geyindir Murada.

Əhmədalı gödəkçəni mənə geyindirdi.

Biz bir qədər gedəndən sonra çiskin kəsdi, qara buludlar arasından Ayın bir parçası görünüb, yanlarından keçdiyimiz sıldırımlı qayaları, təpələri işıqlandırdı. Havada kəklikotu, yabanı nanə ətri duyulurdu. Biz qabaqda gedirdik, arxadan bəzən dayımla atamın, anamın danışıqlarını eşidirdim, yalnız Fatma nənəmin səsi çıxmırdı. Mən aydınlıq içində olan bu dağlara baxdıqca, anamgilin mülayim söhbətində, nə isə anlaşılmaz bir ümid, sevinc və şirin qayğı duyurdum və bu duyğu, elə bil, ağ ipək kələgayı kimi üzümə toxunaraq məni xoşallandırırdı. Mən Əhmədalının qolumdan yapışan əlində etibarlı, doğma bir qüvvət hiss edirdim. Mənə elə gəlirdi ki, biz nə zamandan bəri elə hey belə gedirik... gedirik...

– Qaqaş, yatma, az qalıb, indi çatırıq.

Mən diksinib gözlərimi açdım, Ay yenə də buluda girmişdi. Elə qaranlıq idi ki, göz-gözü görmürdü. Birdən üzümə yağış çiləyərək məni tamam ayıltdı. Bizdən xeyli yuxarıda tək-tək işıqlar göründü. Elə bil ki, bu işıqlar göyün bir parçasına səpələnmişdi və biz də eyzən onlara tərəf qalxırdıq; mən atların yoxuşa dikləndiklərini hiss edirdim. Və mənə elə gəlirdi ki, dünya bu intəhasız qaranlıqdan, bir də ucalıqda görünən o işıqlardan, bir də mənim hiss elədiyim xoş duyğulardan ibarətdir. Sonra, sanki o işıqlar göydən yerə enib bizimlə bərabərləşdilər. Sonra uzaqdan itlərin səsini eşitdim, elə bil ki, bu səslər hardansa tamam ayrı bir aləmdən, naməlum, gözəl bir aləmdən gəlirdi. Ancaq biz irəlilədikcə, o səslər də güclənib reallaşırdı və reallaşdıqca bayaqdan bəri ağ ipək kələgayı kimi üzümü, bütün varlığımı oxşayan duyğular da sanki uçub gedirdi və mən anlaşılmaz bir məyusluq hiss edirdim...

Nəhayət, biz alaçıqlara yaxınlaşanda iri qoyun itləri qəzəblə hürə-hürə bizi dövrəyə alıb az qalırdı atların üstünə tullansınlar.

– Ə, kimsiniz?

Bu səsin ardınca tüfəng çaxmaqlarının şaqqıltısı eşidildi.

Əhmədalı sakit səslə dilləndi:

– Bizik, ə! İtlərin qabağına durun!

Həmin səs qaranlıqdan soruşdu:

– Əhmədalı, sizsiniz?

Əhmədalı dedi:

– Ay tanrısız, itin qabağına dur!

Kişilər itlərə acıqlandılar. Atamla dayım qabaqca düşdülər. Eyvaz əminin arvadı Gülzar, bacımı Hacının qucağından alıb üzündən öpərək alaçığa apardı, Əhmədalı məni yəhərdən qaldırıb yerə qoyaraq özü də düşdü.

Bir oğlan yüyürüb anamın, digəri isə nənəmin atının başını tutaraq üzəngisini basdılar, anamgil də atdan düşdülər.

Sonra hamımız ortasında ocaq alovlanan iri keçə alaçığa girdik. Alaçığın çubuğundan zəif işıqlı fənər asılmışdı. Bayram babamın anası Səkinə qarı Fatma nənəmlə anamdan başqa hamımızın üzündən öpdü. Ucaboylu, enlikürək, ağ üzündə qoşa xalı olan göyçək bir arvad idi. Yaşı səksəni çoxdan keçməsinə baxmayaraq, qəddi dümdüz, dişləri ağappaq idi. Əynində tünd parçadan uzun tuman, arxalıq var idi. Kişi kimi bərkdən və dolğun səslə danışırdı. Mənə gülümsəyə-gülümsəyə baxıb deyirdi:

– Gözləri lap Yaqutun gözləridi.

Bayram babamın qardaşı Eyvaz əmi də kişilərlə əl tutuşdu. Onun arvadı Gülzar ocağın qırağında keçənin üstünə güllü döşəkcələr saldı, hava soyuq olduğu üçün ocağın istisi bizə ləzzət verirdi. «Yəqin indi aranda Zinyət tər tökür» deyə mən düşündüm və onu qoyub gəldiyimizə heyifsiləndim.

Bizə dərhal çay gətirdilər.

Eyvaz əmi bardaşqurma oturub, üzərində ceyran şəkli olan qara rəngli taxta qutusundan papiros bükə-bükə dedi:

– Səhərdən qoymamışıq samovarın odu sönsün ki, indi gələrsiniz, bir hovurdan gələrsiniz...

Nuru dayım yoldakı əhvalatı danışdı. O danışdıqca, Eyvaz əminin üzü ciddi bir ifadə alırdı. Kişi Nuru dayıma diqqətlə baxaraq, sanki onun nə dərəcədə düzgün hərəkət eləmiş olduğunu təyin eləmək istəyirdi. Bu vaxt Hacı ilə Əhmədalı da bayırda alaçığın qapısından düşən işıqda yekə bir erkək kəsib soyurdular. Hər biri, az qala, bir öküz boyda olan itlər bir qədər aralıda dayanıb gözlərini soyulmaqda olan erkəyə zilləmişdilər. Əhmədalı hərdən ətin orasından-burasından kəsib onlara atır və itlər tikəni havada qapıb yedikcə bacım Mahtab qəhqəhə ilə gülürdü. Səkinə nənə də «başına dönüm...» deyə onu sevib oxşayırdı. Eyvaz əminin təxminən mən yaşda olan ərköyün oğlu Güloğlan da qızın itlərə belə gülməyinə təəccüblə tamaşa edirdi.

Sonra Hacı ilə Əhmədalı biş-düş üçün qurulmuş o biri komadan dalbadal kabab, bozartma bişirib gətirdilər...

Yeməkdən, söhbətdən sonra atam, anam, mən, bir də bacım bu alaçıqda yatdıq, Fatma nənəmlə Nuru dayım o biri alaçığa keçdilər, Eyvaz əmigil də komada yatdılar.

Biz yerimizə girəndə atam arxa tərəfdən alaçıq keçəsinin böyrünü azca yuxarı atdı ki, hava gəlsin, sonra atam asma fənəri

söndürdü. Mən yenicə huşa getmişdim ki, alaçığın lap böyründə, bayırdan xışıltıya bənzər bir səs eşidib:

– O nə səsdi? – deyə böyrümdə yatmış anamdan soruşdum.

– Dəvədi, – deyə anam yuxulu cavab verdi, – gövşəyir.

Atam da mənə dedi:

– Gözünü yum, yat.

Mən gözümü yumdumsa da, uzun zaman yuxuya gedə bilmədim. Yadıma gələn zamandan bu ana qədər görüb eşitdiklərim mənə nağıl kimi görünürdü. Və mənə elə gəlirdi ki, hansı zamandasa mən bütün bu hadisələrin iştirakçısı olmuşam. Elə bil ki, hansı vaxtdasa içində yatdığım bu alaçıqda yatmışam.

Mən alaçıq keçəsinin açıq yerindən buludsuz göyü və Ayı görürdüm və yenə də mənə elə gəlirdi ki, bəlkə də, yüz, ya min il bundan qabaq alaçıq keçəsinin açıq yerindən göyü və Ayı elə beləcə görmüşəm və indi nəyəsə hürən itlərin səsini eşitmişəm.

... Səhər mən geyinib alaçıqdan bayıra çıxanda gömgöy səmaya qalxan Günəşin almaz kimi iti işığında bütün çölü bürüyən qıpqırmızı lalələri meh tərpədirdi. Qoruqda cidarlanmış erkək at başını dik tutaraq uzaqda otlayan çılpaq madyanlara baxırdı. Boz qayalı dağın döşünə yayılmış qoyun sürüləri görünürdü. Ayaqyalın oba uşaqları şehli otun içində səs-küylə ora-bura qaçışıb oynaşırdılar. Bir az böyükləri, analarının sağdıqları inəkləri aparıb dağın döşündə otlayan heyvanlara qatır, ya da çılpaq atları minib aşağı dərədən çıxan bulağa suvarmağa aparırdılar.

Eyvaz əmigilin ağ alaçıqlarının ətrafında qara keçələrdən qurulmuş komalar düzülmüşdü. Bunlar kasıbların idi. Bunlar alaçıq kimi uca və geniş deyildi. Kürdoba bir neçə oymaqdan ibarət idi. Hər oymağın öz yurdu və öz başbiləni var idi. Başbilən isə, sayılan adam hesab olunurdu və bütün oymağın təəssübünü çəkirdi. Eşşək bulağının üstündəki dağın döşünə düşən bu oymaq Kərbəlayı İbixanlıların idi. Bir qədər aralıda «Əyri qar» deyilən dağın döşündə görünən Karlar oymağı idi. Kürdobanın Uzunhəsənlilər, Hacıqululular adlanan oymaqları dağın o biri üzünə düşdükləri üçün görünmürdülər.

Səkinə nənə alaçıqdan çıxaraq mənə dedi:

– Qadan alım, itlər səni tanıyanacan uzağa getmə.

Sonra Səkinə nənə üzünü komalardan birinə tərəf tutub çağırdı:

– Qaraca, ay Qaraca!

On bir-on iki yaşında qarabəniz, ayaqyalın, əynində əldətoxuma kobud şaldan köhnə şalvar-pencək olan bir oğlan komadan çıxıb, mismar deşiklərinə bənzəyən xırda gözlərini ovuşdura-ovuşdura batqın səslə soruşdu:

– Nədi, əşi?

Səkinə nənəm ona mehriban bir nəzər salıb dedi:

– İndiyəcən niyə yatmısan, ay tanrısız?

Sonra məni göstərib əlavə etdi:

– Murad qağanı apar, sapand hör, şaqqıldayan sapand... alabəzək...

Qaracanın burnu uzun və yana tərəf əyri idi. Ona görə də yandan baxanda, burnu qılınc kimi görünürdü. Mənə qıyqacı bir nəzər salıb, Səkinə nənəyə dedi:

– İpim hardaydı?..

Səkinə nənə dedi:

– Gəl bəri, ip verim.

Qaraca Səkinə nənə ilə alaçığa girərək əlində qırmızı, sarı, narıncı ip bayıra çıxıb mənə bir söz demədən getdi öz komalarına, mən də onun ardınca getdim. Komada torpağın üstünə köhnə bir keçə salınmışdı, ortalıq ocağında qoyun qığı tüstüləyirdi, komanın bir bucağında bir neçə mis qab-qacaq, o biri bucağında isə üstünə köhnə kilim çəkilmiş yük yığılmışdı.

Qaraca (sonra bildim ki, onun əsil adı Yusifdir) keçənin üstündə oturub ipləri tökdü qabağına, sonra altdan yuxarı mənə qiyqacı baxıb dedi:

– Ay tanrısız, niyə durmusan, otur dayna.

Sonra o ipləri komanın çubuğuna keçirib, cəld hörməyə başladı, mən də çömbəltmə oturub ona baxırdım. Sonra ucaboylu, çox yaraşıqlı, sağlam bir gəlin olan anası Qızyetər his basmış mis qazanda süd gətirib, ocağın ətrafında düzülmüş daşların üstünə qoydu və gülümsəyib mənə dedi:

– Sən bizim bu kasıb komamıza xoş gəlmisən, qadan alım.

Sonra Qaracaya dedi:

– Bacın gələndə süd tökük çörəklə içərsiniz.

Qızyetər yaxasındakı gümüş pulları cingildədə-cingildədə iti addımlarla komadan çıxdıqda mən Qaracadan soruşdum:

– Hara gedir anan?

O, gözünü işindən çəkməyərək quru tərzdə cavab verdi:

– Əmimgilə nehrə çalxalamağa gedir.

Qaraca Bayram babamın neçə il qabaq vəfat eləmiş qardaşının oğlu idi, ancaq mən lap ilk görüşdən hiss eləmişdim ki, onlarla babamgilin, Eyvaz əmimgilin həyatları bir deyil, yəni Qaracagil çox kasıbdılar. Qaracanın əlinin iki axırıncı barmağı bükülmür, ancaq bu, onun sürətlə sapand hörməyinə mane olmurdu.

Sonra anam məni səhər yeməyinə səslədi. Mən durub böyük alaçığa getdim. Fatma nənəm, Nuru dayım, atam, anam, Eyvaz əmi və onun ərköyün oğlu Güloğlan böyük süfrənin ətrafında əyləşmişdilər. Eyvaz əminin arvadı Gülzar samovarın böyründə oturub çay tökürdü. Süfrədə sarı buğda unundan papiros kağızı kimi nazik ağ yuxa, qaymaq, beçə balı, üzlü motal pendiri, nehrədən təzə çıxmış kərə yağı var idi.

Mən bu yeməklərə baxdıqca, Qaracagilin kasıb komaları gözümün qabağından getmirdi və Eyvaz əmimin şənliyi, zarafatları məni acıqlandırırdı. Axı Eyvaz əmi Qaracanın doğma əmisi idi. Bəs onun ürəyi necə dözürdü ki, özləri belə yeyib-içdikləri halda, vəfat etmiş qardaşının uşaqları o cür olsunlar? Elə həmin bu andan da mən Eyvaz əminin ərköyün oğlu Güloğlanı sevmədim, onun totuq, qırmızı yanaqları məni əsəbiləşdirirdi, yanıma gələndə xəlvətcə acıqlanıb qovurdum. Uşaq da (o məndən bir yaş kiçik idi) həmişə mənim onunla bu cür rəftarıma təəccüb edirdi.

Mən könülsüz yeyib-içirdim, gözümü alaçığın açıq qapısından Qaracagilin komasına zilləyirdim, mənə elə gəlirdi ki, onların balaca, kasıb komalarının qabağında bizim bu cür yeyib-içməyimiz ayıb işdir. Qaracanın mənə sapand toxuması da indi məni əvvəlki kimi sevindirmirdi.

Birdən Qaraca bayıra çıxaraq bizə tərəf qıyqacı bir nəzər salıb, alabəzək sapandı mənə göstərdi və süfrədəki yeməklərə bir dəfə də olsun baxmadı. Onun bu hərəkəti, elə bil ki, bizim aramızda birdən-birə lal bir ünsiyyət yaratdı. Süfrə ətrafında əyləşənlər Qaracanı gördülər, amma əhəmiyyət vermədilər. Mən südü tələsik içərək qalxıb onun yanına yüyürdüm.

– Gəl bəri! – deyə o, qabağa düşdü.

Biz obadan bir qədər aralanıb, boz qayalığa qalxdıq, daşların aralarında bitmiş kəklikotunun, yabanı nanənin ətri indi səhərin bu təravətli havasında daha kəskin duyulurdu. Qaraca sapanda bir daş qoyaraq hərləyib atdı dərənin o biri üzünə, sapandın şaqqıltısı qayalıqda əks-səda verdi. Sonra Qaraca sapanda bir daş qoyub verdi mənə:

– Al, at!

Mən onun kimi uzağa ata bilmədim, sapand da şaqqıldamadı. Qaraca mənə məzəmmətlə baxıb:

– Ay tanrısız, – dedi, – heylə niyə atırsan, çolaq-zad döyülsən ki?..

Yenə də özü lap dərənin o tərəfinə daş atıb sapandı şaqqıldatdı:

– Gördün?! Al, mənim kimi at.

Mən yenə də daşı nə uzağa ata bildim, nə də sapandı şaqqıldatdım.

Qaraca mənə sərt, qıyqacı bir nəzər salıb, dağ yuxarı qaçaraq gedib quzu otaran uşaqlara qoşuldu, mən də özüm-özümə aciz-avaranın biri kimi görünərək qayıtdım alaçığın qabağına.

Qız-gəlin yığılmışdı anamın başına. Babamın ətli-canlı, döşlərinin hər biri balaca bir qarpız boyda, zarafatcıl bacısı qızı Güləndam nə isə məzəli bir əhvalat danışır, anamgil də gülüşürdü. Onlardan bir az aralı güneydə Səkinə nənə, atam, bir də Eyvaz əmi oturub söhbət edirdilər. Fatma nənəm isə alaçığın ağzında təkcə oturub, bir əlində papirosu tüstülənən müştüyü, uzaq üfüqdəki dumanlı dağlara baxırdı. Hiss olunurdu ki, arvadın fikri də uzaqlardadır. «Kim bilir... Bəlkə, nənəm Kirs meşələri arasındakı bacı-qardaşlarını, qohum-əqrəbalarını xatırlayır». Ürəyimi anlaşılmaz qəm-qüssə bürüdü, nə üçünsə «yazıq nənə...» deyə düşündüm. Bəlkə də, bu ondan idi ki, Fatma nənəm bu obada qərib görünürdü, hiss edirdim ki, hamı arvada yad kimi baxır, bunu büruzə verməsələr də, mən hiss edirdim. Fatma nənəm də söhbətlərə qoşulmağa, adamlarla qaynayıb-qarışmağa can atmırdı.

Eşşək bulağının üstündəki qayanın kölgəsində oba cavanları Nuru dayımın başına yığışmışdı, bərkdən danışıb gülürdülər. Mən Fatma nənəmə nə isə mehriban bir söz demək istədim, amma bir söz tapmadım, bəlkə tapsam da deyə bilməzdim. Çünki atam-anam (xüsusən atam) heç bir zaman mənimlə mehriban danışmadıqları üçün, məni sevib oxşamadıqları üçün mən də başqasına mehriban bir söz deməkdən çəkinirdim. Elə bil ki, bunu həqarət hesab edirdim. Mən insanlar haqqında yaxşı hisslərimi qeyri-şüuri olaraq gizləməyə çalışırdım. (Bu hal məndə çox-çox sonralar da davam elədiyi üçün kişi tayfası məni «yekəxana», «eqoist», qadın tayfası isə «daşürəkli», «qəddar», daha nə bilim, nə adlandırırdı.)

Mən Fatma nənəmin yanında darıxaraq qaçdım dayımgilin yanına, ona görə ki, mənim xoşuma gələn Əhmədalı oradaydı, Hacı oradaydı, onların hərəkəti, danışığı məni maraqlandırırdı, məndə isti, səmimi duyğular oyadırdı.

Nuru dayım başına toplaşan cavanlardan soruşdu:

– Kim üçaylıq toğlunu təkbaşına yeyə bilər?

Araya ani bir sükut çökdü, sonra Əhmədalı qabarıq döşünü irəli verərək dedi:

– Mən!

Dayım onu qızışdırmaq üçün dedi:

– Yeyə bilməzsən!

Əhmədalı əlini ona uzadıb dedi:

– Gəl, mərcləşək!

– Mərcləşək! – deyə dayım onun əlindən tutdu. – Nədən?

Əhmədalı dedi:

– Sən durbindən. (Dayımın binoklu obada ən maraqlı şey hesab olunurdu...)

– Sən də boz ürgədən! – deyə dayım Əhmədalının cidarlanmış atını göstərdi.

Boz ürgə obanın ən qaçağan cins atlarından hesab olunurdu.

Əhmədalı bir az fikirləşib:

– Yaxşı, – deyə, dayımın əlini qüvvətlə sıxdı.

Dayım iki cavan oğlana dedi:

– Yüyürün, əmimgilin sürüsündən bir toğlu gətirin.

... Beş dəqiqənin içində toğlunu Əhmədalı özü kəsdi, soyub, doğradı. Sonra böyük bir ocaq çatdılar. Mərcin şərtinə görə, toğlunun baş-ayağından başqa heç nəyi qalmamalı idi. Əhmədalı əvvəlcə toğlunun budlarını şişə çəkib qoydu təll atmış közün üstünə, sonra üzünü öz komalarına tərəf tutub bərkdən dedi:

– Az! Ordan bir parç ayran gətir!

Əhmədalının belində enli gümüş kəmər, əynində güllü çitdən tuman-kofta olan on altı-on yeddi yaşlı gəlini, mis parç dolusu ayran gətirib verərək, heç kəsin üzünə baxmadan qayıdıb getdi. O, iti addımlarla yeridikcə, yaxasına düzülmüş gümüş pulların cingiltisi eşidilirdi.

Əhmədalı kabab olmuş budları balta kimi sağlam, ağappaq dişlərinə çəkəndən sonra sacı tərsinə ocağın üstünə qoyub, doğranmış əti tökdü içinə, başladı qovurduqca yeməyə.

Qərəz, Əhmədalı ayrandan içə-içə toğlunu axırıncı tikəsinəcən yedi, sonra ayağa qalxaraq boz ürgəsini cidardan açıb üstünə tullanaraq üzüaşağı çapdı və çapa-çapa tapançasını qoburdan çıxarıb dalbadal havaya üç güllə sıxdı. Güllələr qayalarda «şaraqq-şaraqq» əks-səda verdi. Komanın ağzında dayanmış qoca Mustafaoğlu Mehdi uzunçubuqlu demisini ağzından götürüb dərindən nəfəs alaraq dedi:

– Atası Tanrıqulu da belə igid idi.

Haçandan-haçana Əhmədalı qayıdıb yerə tullanaraq boz ürgəni yenə də cidarladı. Mən heyrətlə ona baxırdım, elə bil ki, o heç nə yeməmişdi. Dayım mənə dedi:

– Yüyür, alaçıqdan mənim durbinimi gətir.

Mən də həvəslə yüyürüb durbini gətirdim və dayım onu Əhmədalıya uzadaraq dedi:

– Halal malındı.

Əhmədalı durbini alıb gözünə tutaraq dedi:

– Bundan ötrü lap iki toğlu da aşırmaq olar.

Mən ona da təəccüb edirdim ki, Əhmədalının cavan arvadı komalarının qapısında qurulmuş əl dəzgahında şal toxuduğu halda, bir dəfə də olsun, başını qaldırıb ərinin bir toğlunu necə yediyinə fikir vermədi. Yalnız Əhmədalı çılpaq ürgəni sıldırımlı dağdan üzü enişə çapdıqda, gəlin əl saxlayıb bir neçə saniyə onun ardınca baxaraq, sonra yenə də işinə davam elədi.

Sonra Əhmədalı oradakı adamlara dedi:

– Ə, bu heç yaxşı olmadı ki, siz durub baxdınız, mən yedim.

Sonra orada olan kiçik qardaşı Qaçaya dedi:

– Yüyür, bizim sürüdən bir toğlu gətir!

Nuru dayım nəşə ilə dedi:

– Hə, bax buna varam!

Təzədən ocaq çatdılar. Bu dəfə qoyunu Hacı kəsib soydu. Əhmədalının gəlini yuxa, pendir, ayran gətirdi. Xırman kimi yastı qayanın üstündə halay vurub oturdular.

QARACA

Mən Qaracanı görüb, onun yanına yüyürdüm, biz dərənin qırağına gedib sapandla daş atdıqda, mən ona dedim:

– Gördün, Əhmədalı çılpaq-cilovsuz atı üzüaşağı çapanda heç yıxılmadı.

Qaraca mənə təəccüblə baxaraq dedi:

– Niyə yıxılır?

Mən soruşdum:

– Sən də yıxılmazdın?

– Yox.

– Yalan demə!

– Yalan niyə deyirəm, ay tanrısız. İstəyirsən, gedək çapım.

– Gedək!

Biz daş atdığımız dərəni keçib Dəvəuçan dağının döşündə otlayan ilxının yanına qalxdıq.

Qaraca atlardan birinə yaxınlaşaraq yalından tutdu.

At başını qaçırmaq istəyəndə Qaraca bir anda tullandı onun belinə. At bir-iki dəfə yerində o yana-bu yana sıçrayaraq birdən üzü enişə – Əhmədalının çapdığı Altıntaxta düzünə tərəf götürüldü. Qaraca əyilib hər iki əli ilə atın yalından yapışmışdı. At Altıntaxtaya çatmamış uca qayanın dalına burularaq görünməz oldu. İlxının qabağında otlayan ayğır başını dik tutaraq Qaracanın minib çapdığı atın dalınca baxırdı. Birdən məni vahimə basdı, mənə elə gəldi ki, ayğır indicə başını döndərib mənim üstümə cumacaq. Mən çevrilib obaya tərəf qaçmaq istədikdə, dağın bu biri tərəfindən Qaraca atın üstündə yoxuşu qalxaraq ilxıya çatıb yerə tullandı. Bu vaxt Qaracadan bir az böyük bir oğlanın bizə tərəf yüyürdüyünü gördüm. O, bizim otuz-qırx addımlığımıza çatdıqda:

– Ə, qancıq oğlu, – dedi, – niyə bizim atı minib qaranəfəs elə-yirsən?!

Qaraca dedi:

– Qancıq oğlusan da, köpək oğlusan da.

Oğlan əlindəki sapanda daş qoyub atdı. Sapand tapança kimi şaqqıldadı, daş Qaracanın lap qulağının dibindən keçdi. Qaraca da yerdən daş götürüb ona tərəf cumdu. Oğlan yerindən tərpənməyib yenə də sapandla Qaracanın başını tuşlayıb atdı və bu dəfə daş tappıltı ilə Qaracanın alnına dəyib yerə düşdü. Qaracanın üz-gözünü qan bürüdü, bunu görən oğlan çevrilib qaçdı. Qaraca qanı axa-axa onun ardınca yüyürüb iki daş atdısa da, heç biri oğlana çatmadı. Qaraca

dayanıb bir xışma at peyini götürərək yarasına basdı, sonra yerə çömbəlib bir dəstə ot qopararaq üzünün qanını sildi.

Mən ona dedim:

– Nahaq yaranın üstünə peyin basdın, gedək anam yod vursun.

Qaraca qıyqacı baxıb soruşdu:

– Yod nədi?

– Dərmandı.

– Lazım deyil. Sən heç kəsə demə.

– Nə üçün?

– Ay tanrısız, dedim, demə dayna!

Sonra biz qayaların arası ilə enib getdik Eşşək bulağına. Bulağın səhər işığında şəfəq saçan soyuq suyu qayadan çıxıb, muncuq kimi rəngbərəng xırda daşların üzərinə tökülərək yabanı yarpızların, nanələrin, baldırğanların arası ilə axıb gedirdi. Qaraca yarasının üstündəki peyini götürüb tullayaraq üz-gözünün qanını yudu, sonra biz balaca cığırla obaya tərəf qalxdıq. Qaraca yolda quzuqulağı, yemlik yığıb mənə də verirdi, özü də yeyirdi.

Biz obaya çatanda mən komanın açıq qapısından gördüm ki, Əhmədalı içəridə oturub tapançasını təmizləyir, Qaracadan ayrılıb onlara getdim. Xaynamaz da komada oturub Əhmədalı ilə zarafatlaşa-zarafatlaşa öküz gönündən çarıq tikirdi.

Əhmədalı məni görəndə gülümsəyib dedi:

– Hə, qaqaş, gördün ki, dayının durbinini necə uddum?

Mən soruşdum:

– Sən bu gün yenə xörək yeyəcəksən?

Əhmədalı da, Xaynamaz da bərkdən güldülər.

Əhmədalı dedi:

– Niyə yemirəm, qaqaş.

Sonra bayırda şal toxuyan gəlinini səsləyib dedi:

– Az, gəl uşağa qaymaq qoy!

Lakin elə bu zaman onun əlindəki tapança açıldı, barıtın tüstüsü komaya dolduğu üçün mən bir neçə saniyə heç nə görmədim.

– Ə, mənə güllə dəydi! – deyə Xaynamazın heç də həyəcanlı olmayan səsi eşidildi və tüstü çəkilən kimi gördüm ki, o, iki əli ilə qarnından yapışıb çıxdı bayıra.

Adamlar yüyürüb yığıldılar onun başına. Eyvaz əmim Xaynamaza yaxınlaşıb, heç nə olmamış kimi, sakit halda dedi:

– Əlini qarnından çək görüm!

Sonra yaranı nəzərdən keçirib dedi:

– Bekara şeydi, güllə dərini üzdən deşib keçib...

Obada ən kasıb adam olan Xaynamaz ortaboylu, sarıbəniz, qumralbığlı bir adam idi. «Xay» sözünün nə demək olduğunu heç kəs bilmirdi. Hamı da Xaynamazla zarafat edirdi, məni də Əhmədalı qaldırıb, Namazın eyzən aralıqda otlayan kor atının üstünə qoyurdu,

kor at da mənim onun üstündə olub-olmadığıma əhəmiyyət verməyərək gəzə-gəzə otlayırdı. İndi də cavanlar zarafatla Namaza sataşırdılar:

– Ə, Əhmədalı, kişinin qarnını dəlik-deşik eləmisən, su-zad dayanmayacaq.

Amma Namaz da qorxaq adam deyilmiş, arvadına dedi:

– Aaz, yeri, Ballı qarını çağır, gəlsin, bu yaraya məlhəmdən-zaddan qoysun.

Bunu deyib Namaz getdi öz komalarına, birdən anam mənim yaxası açıq pencəyimə baxıb, həyəcanla dedi:

– Bura baxın! Bura baxın, güllə uşağın pencəyinin yaxasından keçib.

Atam qəzəblə mənə dedi:

– Axı sən niyə gedib xalqın komasına dürtülmüşdün?

Səkinə nənə atama dedi:

– Danlama uşağı, Allaha şükür ki, salamat qurtarıb.

Sonra qarı mənim üzümdən öpüb dedi:

– Səkinə nənən sənə qurban kəsəcək!

İndi hamı mənim başıma yığılmışdı. Qarnına güllə dəyən oğlan yaddan çıxmışdı.

Fatma nənəm əlindəki gümüş pulları mənim başıma dolandırıb dodağının altında nə isə pıçıldadı.

Doğrusu, bütün bunlar məni sıxırdı. Hamının güllə dəyən adamı kənarda qoyub mənimlə maraqlanması məni heç də şad eləmirdi. Hətta mən öz-özümdən utanırdım, ona görə də adamların arasından çıxıb komaların dövrəsinə balaca qarım çəkən Qaracanın yanına qaçdım. (Belə qarımı ona görə çəkirlər ki, yağış yağanda sel komaya dolmasın).

Mən pencəyimin güllə deşən yerini Qaracaya göstərib dedim:

– Bura bax, Qaraca, gör güllə haradan keçib?

Qaraca güllə deşən yerə çəpəki bir nəzər salıb:

– Nə olsun, – dedi, – verərsən, anan gözüyər.

Onun bu işə təəccüb eləməməsi məni pərt elədi. Sonra o, pıçıltı ilə məndən soruşdu:

– Anangilin qayçısı var?

– Var, neyləyirsən?

O mənim sualıma cavab verməyib dedi:

– Get, qayçını xəlvətcə gətir, sonra aparıb qoyarsan yerinə.

Mən soruşdum:

– Axı neyləyirsən qayçını?

– Ay tanrısız, – dedi, – görəcəksən dayna neyləyirəm, yeri gətir.

Mən yüyürüb anamın iynə-sap qutusundan qayçını xəlvətcə götürüb gəldim.

Biz obadan çıxıb, dar cığırla bir xeyli gedərək dağın o biri üzündə otlayan ilxıya çatdıq. Qaraca diqqətlə o yana-bu yana baxandan sonra arxadan atlardan birinə yaxınlaşıb ehtiyatla quyruğundan bir çəngə tük kəsərək üzü geri götürüldü, mən də onun ardınca qaçmağa başladım. Biz dağı hərlənib uzaqlaşandan sonra Qaraca daşlıq bir yerdə dayanıb yerə oturdu, mən də onun yanında yerə çöküb təngnəfəs soruşdum:

– Niyə qaçırdın?

– Bəs qaçmayıb neyləyəydim? At İmamverdinindi, görsə, güllə ilə vurardı, quduz adamdı.

– Axı niyə kəsirdin atın quyruğunu?

O, tükləri üçbir, dördbir ayıraraq dedi:

– Cələ qayıracağam.

– Neyləyirsən cələni?

O mənə qıyqacı baxıb dedi:

– Cələni neyləyərlər?

Sonra xoş ifadə ilə əlavə etdi:

– Sənin üçün kəklik tutacağam, burda çox olur.

Mən sevinclə soruşdum:

– Doğru deyirsən?

Qaraca bu dəfə mənə cavab verməyərək dörd-beş halqadan ibarət bir cələ qayırıb, yerə iki balaca ağac basdıraraq hər ucunu birinə bağladı, sonra cibindən bir ovuc çörək qırıntısı çıxarıb səpdi halqaların arasına. Elə bu zaman uzaqdan atamın məni çağırdığını eşitdik. Qaraca atama tərəf qaşqabaqlı baxıb dinmədi, mən qalxıb yüyürdüm.

Atam qulağımdan yapışıb elə dartdı ki, mən qışqırdım, sonra məni elə qulağımdan darta-darta alaçığa aparıb qəzəblə dedi:

– Vejələnin biri vejələ, çolaq Qaraca sənin tayın-tuşundu?

Qulağımın dibində atamın silləsi tapança kimi səsləndi, gözümdən od parladı, anam əsəbi halda məni tutub kənara çəkərək atama qışqırdı:

– Az döy-danla uşağı! Qaraca yetim olanda nə olar?! Onun atası səndən əskik adam deyildi!

Anamın məni və Qaracanı müdafiə eləməsi mənə təsir elədi, mən yana-yana ağladım; axı Qaraca mənə şaqqıldayan sapand hörmüşdü, mənim üçün kəklik tutmaqdan ötrü xalxın atının quyruğundan tük kəsərək cələ qurmuşdu!

Eyvaz əminin oğlu Güloğlanı yaxşı geyindirib-gecindirirdilər, ancaq o mənə yapışmırdı ki, yapışmırdı, duzsuzun biri idi. Ona görə də yanıma gələndə xəlvətə salıb qırmızı yanaqlarını çimdikləyirdim, o, gözləri yaşarsa da, ağlamırdı, təəccüblə mənə baxırdı.

Anam mənim üstümdə atamla dalaşandan sonra alaçıqdan çıxıb, yastı qayanın üstündə Nuru dayımın başına toplaşmış oba cavanlarının yanına getdi, mən də onun ardınca. Anam deyib-gülməyi, zarafatı, qonaq gedib-gəlməyi xoşlayırdı, oba cavanları ilə açıq-saçıq zarafatlaşır, gülüşür, saatlarca söhbət edirdi. Belə vaxtlarda atam da qaşqabaqlı halda ya alaçıqda əyləşib papiros çəkir, ya da yaşca özündən xeyli böyük kişilərin yanına gedib onların söhbətinə qulaq asırdı, özünün cavan olmasına baxmayaraq, obanın bu şən gənclərilə qaynayıb-qarışmırdı, gənclər də atamın onlara uyuşmamasına, kənar gəzməsinə əhəmiyyət vermirdilər.

Qaraca onunla oynamağımın üstündə atamın məni danlayıb döyməsini görəndən sonra mənimlə heç danışmaq da istəmirdi, məni görəndə soyuq, məğrur bir görkəm alıb uzaqlaşırdı. Amma mən də ondan əl çəkmirdim. Onun bu hərəkəti də, mənim həmişə təzə paltar geyinməyimə, yaxşı yeyib-içməyimə, obada hamının məni əzizləməyinə zərrə qədər əhəmiyyət verməməsi də ona olan marağımı artırır, onu mənim nəzərimdə, nə isə əsrarəngiz bir məxluqa döndərirdi, məndə ona qarşı qəribə bir ehtiram hissi doğururdu. Mən onda yazıqlıq, yetimlik deyil, möhkəm qürur hiss edirdim. Bir dəfə mən ona konfet vermək istədim, o mənim uzatdığım konfetə ani, soyuq bir nəzər salıb dedi:

– Bəbə döyüləm ki, şirni yeyim?

Mən görürdüm ki, heç kəs Qaracaya əhəmiyyət vermir, heç kəs ona xoş bir söz demir, heç kəs onun nə yeyib-içdiyi ilə maraqlanmır, sanki o da bunların hamısına tüpürüb heç nəyi vecinə almırdı, heç kəsdən heç nə ummurdu, heç kəsdən kömək, mərhəmət gözləmirdi. Sözün düzü, mən yaxşı şeylər yeməyi, həmişə təzə paltar geyməyi xoşlayırdım, mən istəyirdim ki, hamı məni sevsin, amma Qaracanın bütün bunlara bir qəpiklik əhəmiyyət verməməsi mənə toxunurdu, məni öz gözümdə kiçildirdi, mən özüm-özümə zəif bir məxluq kimi görünürdüm.

QAÇAQ XANMURAD VƏ SELBASARLILARIN OBAMIZA BASQINI

Yastı qayanın üstündə cavanlar dayımın öz qohumu Ağakişi haqqındakı məzəli söhbətinə qulaq asıb, qəhqəhə ilə gülürdülər. Bir də gördük dağın dalından bir dəstə atlı çıxıb obaya girdi. Qabaqda da Qaçaq Xanmurad. Dayımgil qalxıb onların qabağına yeridilər, Qaçaq Xanmuradın rəngi ağappaq idi, havanın isti olmasına baxmayaraq, çiynində yapıncı var idi. O, atdan düşən kimi dayım soruşdu:

– Nə olub, Xanmurad, birtəhər görünürsən?

Qaçaq Xanmurad başını bulayıb cavab verdi ki:

– Qızdırma əhədimi kəsib.

Dayım soruşdu:

– Soyuq dəyib?

Qaçaq Xanmurad dedi:

– Bilmirəm. Neçə gündür titrədib-qızdırıram.

Dayım dedi:

– Malyariyadır.

Qaçaqlardan nisbətən yaşlı bir kişi dedi:

– Gətirdik, beş-altı gün yatıb dava-dərman eləsin.

Cavanların hamısı qaçaqların gəlişinə sevindi. Əhmədalı Qaçaq Xanmuradın qoluna girib apardı öz komalarına. Mən sonra bildim ki, o, Qaçaq Xanmuradın dostudur.

Obanın başbiləni Eyvaz əmi dərhal öz sürüsündən bir toğlu gətirdib kəsdirərək qaçaqları qonaq elədi, sonra həmin yaşlı qaçaq Eyvaz əmiyə dedi:

– Tapşır, uşaqlar Qaçaq Xanmuradın burada yatdığını qonşu obalara deməsinlər, yüz düşməni var.

Eyvaz əmi dedi:

– Düşmən köpəkoğlu bir qələt eliyə bilməz, arxayın olun.

Sonra qaçaqlar üç-dörd gündən sonra gəlib Xanmurada baş çəkəcəklərini söyləyərək, atlanıb getdilər.

Anam çox malyariya keçirmişdi, ona görə də özü ilə ehtiyat üçün kinə-filan götürmüşdü, ümumiyyətlə, anamın çox xəstəliklərdən başı çıxırdı, dostumuz doktor Quliyev zarafatla deyərdi ki:

– Yaqut xanım yarıdoktordur.

Anam hər gün səhər-axşam Qaçaq Xanmurada kinə, daha bilmirəm, hansı dərmanlar isə verir, onun üçün toyuqdan, dana ətindən yüngül xörəklər bişirirdi. Anamın bu hərəkəti obada hamının – qocaların da, cavanların da, qohumların da, yadların da xoşuna gəlirdi, hamı qaçağa bacardıqca hörmət eləmək istəyirdi. Eyvaz əmim, hətta Nuru dayım da saatlarla onun yanında olurdular. Anamın xəstə qaçağa bu cür görüm-baxım eləməyi yalnız atamın xoşuna gəlmirdi. O, qaşqabaqla anama deyirdi:

– Axı sənə nə düşüb, bu qaçağın qulluğundan əl çəkmirsən? O, sənin qardaşın deyil, əmin oğlu deyil?!

Anam da cavab verirdi ki:

– Nə olsun əmim oğlu deyil? Bəs o bizi ölümdən qurtaranda yaxşı idi?

Anamın Qaçaq Xanmurada göstərdiyi xidmət məni fərəhləndirirdi, ürəyimdə mən anamı tamam haqlı bilib, onunla fəxr edirdim. Bir dəfə Qaçaq Xanmurad mənə işarə ilə anama dedi:

– Yaqut bacı, o vaxt Pirağbulaq dərəsində səni tutub Abdullanın əlindən alsaydıq, indi bu gözəl oğlan da olmazdı.

İkisi də güldü.

Gündə bir neçə dəfə atamın gözündən oğurlanaraq, Qaçaq Xanmuradın yatdığı komaya gedirdim. Anamın verdiyi dava-dərman öz təsirini göstərirdi. Qaçaq Xanmurad indi əvvəlki kimi şiddətli titrədib-qızdırmırdı, qızdırması günaşırı, özü də yüngül gəlirdi. Oba cavanları tez-tez onun başına toplaşırdılar, söhbət... zarafat.

... Nuru dayım da onun üçün Gorus şəhərindən həkim gətirtdi. Əlbəttə, Qaçaq Xanmuradın kim olduğunu həkim bilmədi, yəni indi bilməyinin də bir əhəmiyyəti yox idi, çünki «hürriyyətlik»di. Yəni rəsmi hökumət yox idi. (Camaat hökumətsizliyi belə adlandırırdı).

... Mən komaya girəndə Qaçaq Xanmurad gülümsəyib dedi:

– Hə, qaqaş, gəl otur, söhbət elə görək.

Mən Bayram babamla, Fatma nənəmlə olduğu kimi, onun da yanında özümü çox sərbəst hiss edirdim, elə bil ki, biz lap çoxdan dost imişik.

Qaçaq Xanmurad arxası üstə, əllərini başının altında çarpazlayaraq uzanmışdı. Mən ondan soruşdum:

– Sən nə üçün qaçaq olmuşdun?

O, komanın qapısından görünən və zirvəsində həmişə qar olan Qızılboğaz dağına baxaraq sakit halda dedi:

– Adam öldürmüşdüm.

Mən təəccüblə soruşdum:

– Kim idi o adam?

O, gözlərini Qızılboğazdan çəkməyərək dedi:

– Bir səfeh naçalnik idi.

– Niyə öldürdün onu?

O, qaşqabaqlı dedi:

– Murdar adam idi.

– Yəni neyləmişdi, axı?

O, dərindən nəfəs alıb dedi:

– Mənim atam kasıb bir kişi idi, qaqaş, gözümüzün ağı-qarası bir atımız var idi, ancaq yaxşı at idi, bütün mahalda adla deyilirdi. Bilirsən, biz nəsillikcə at həvəslisi olmuşuq, dədə-babadan həmişə yaxşı at saxlamışıq. Mən atamın təkcə oğlu idim, amma kişi o atı məndən az istəmirdi. Bizdə məsəl var, deyərlər: «Arvadı əriylə, kişini atıyla sayarlar». Həmin dediyim naçalnik bir gün kəndə gələndə gözü düşdü ata. Nə qədər atamı dilə tutdu ki, atı sat mənə, atam razı olmadı. Dedi: «O atsız mən nəyə lazımam?» Bir gün atamla mən qonşu kənddə muzduna zəmi biçdiyimiz zaman naçalnikin yasavulları gəlirlər, anam da nə qədər haray-həşir salır, olmur – atı çəkib aparırlar. Biz axşam biçinindən yorğun-arğın evə qayıdıb əhvalatı biləndə, elə bil ki, atamı qəfil güllə ilə vurdular, kişinin danışmağa nitqi olmadı. Kişi elə sarsıldı ki, səhər biçinə də gedə bilmədi. Amma mən biçin adı ilə getdim şəhərə, atın yerini öyrənib gecənin bir aləmi qara oğurluqla yeridim tövləyə, kilidi sındırıb atı apardım.

Qaçaq Xanmurad bura çatanda dərindən nəfəs alıb, bir az susdu, sonra:

– Eh, qaqaş, – dedi, – sən uşaqsan, başa düşməzsən, dünyada çox nainsaf köpəkoğlular var.

Mən yenə də səbir eləməyib soruşdum:

– Bəs sonra nə oldu?

– Atam dedi ki, Xanmurad, bala, naçalnik əl çəkməyəcək, qorxuram, üstəlik səni də tutub göndərə Sibirə.

Mən dedim:

– Tapsa, tutub göndərsin!

Atam dedi:

– Neyləmək fikrindəsən?

Kirs meşəsinin lap dərin yerində olan Alyanlı obalarında bizim dədə-baba qonağımız var idi. Dedim:

– Atı aparacağam Alyanlıya, hələlik qoyarıq qalar orada, görək sonra nə olur.

Atam dedi:

– Hamısı birdi, yenə naçalnik bizdən yapışacaq.

Mən dedim:

– Deyərsən, bizim xəbərimiz yoxdur.

Kişi qalmışdı naəlac, nə atdan keçə bilirdi, nə də mənim cəncələ düşməyimə razı olurdu.

Mən dedim:

– Əşi, ölsəm də atı o it oğluna verməyəcəyəm.

Mən Qaçaq Xanmuraddan soruşdum:

– İndi mindiyin at həmin atdı?

Qaçaq Xanmurad yenə də dərindən nəfəs alıb dedi:

– Həmin atdı, onda lap cavan ürgə idi.

Mən yenə soruşdum:

– Sonra nə oldu?

– Sonra da belə oldu ki, anam heybəmə çörəkdən-zaddan qoydu, atama dedim ki, məni soruşanda, deyərsən gedib Bakıya, fəhləliyə. O vaxt bizim kəndlərdən Bakıya çox adam gedirdi fəhləliyə. Qərəz, qaqaş, elə gecə ikən kənddən çıxıb, çöl yolu ilə gedib gün günorta yerinə qalxanda girdim Kirs meşələrinə...

Mən yenə də səbir eləməyib soruşdum:

– Sənin onda neçə yaşın olardı?

– On səkkiz, on doqquz...

– Tüfəngin vardı?

– Yox.

– Bəs ayıdan, canavardan qorxmurdun? Deyirlər, Kirs meşələrində yaman ayı olur.

Qaçaq Xanmurad təbəssümlə dedi:

– Yox, qaqaş, onlardan qorxmaq heç ağlıma da gəlmirdi, çünki çarın naçalnikləri onlardan da quduz idi.

– Demək, gedib qaldın Alyanlıda?

– Yox, çox qala bilmədim. Əmim oğlu xəbər gətirdi ki, məndən sonra naçalnik kəndə gəlib günün günorta çağı camaatın gözü qabağında atamı meydanda yıxdırıb döydürüb, özünün də dilindən kağız alıb ki, gərək oğlunu üç günəcən gətirdəsən. Bunu eşidəndə ağlım başımdan çıxdı. Dost-düşmənin gözü qabağında atamı o cür bihörmət eləmişdilər. Alyanlıdakı qonağımızın elə mən yaşda dəliqanlı bir oğlu vardı, indi də durur. Ona dedim: «Ə, Məhər, mənə bir tapança tap, meşə yeridi, ora-bura gedirik...» Əsl fikrimi demədim. Məhər də Şuşa qalasına satmağa erkək aparanda mənə bir naqan alıb gətirdi, mən də qaşqa dayı minib düz getdim Qarabulağa, atı qapıda bağlayıb qalxdım naçalnikin idarəsinə. Qapıda duran yasavul istədi məni buraxmasın, dedim «məni naçalnik özü çağırıb». Girdim içəri, naçalnikin başına üç güllə çaxıb, pəncərədən tullandım, ha eləyib yasavullar əl tərpədincə, qaşqa day məni aradan çıxartdı. Beləliklə də oldum qaçaq.

Bu söhbət zamanı Səkinə nənə komaya girib:

– Qadan alım, Xanmurad, necəsən? – dedi.

– İndi babatam, nənə, – dedi. – Yaqut bacının dərmanları, deyəsən, harayıma çatır.

Səkinə nənə dedi:

– Allaha şükür. Mən də Bayramdan yaman nayranam. Sifariş göndərib ki, bu günlərdə gələsidi... Yollar da ki, qarmaqarışıq....

Qaçaq Xanmurad dedi:

– Əşi, Bayram dayını aləm tanıyır, nədən narahat olursan?..

Səkinə nənə dedi:

– Orası heylədi, amma düşmən də düşməndi.

Sonra Qaçaq Xanmurad gülümsəyərək mənə işarə ilə dedi:

– Nəvən (əslində mən Səkinə nənənin nəticəsi idim) qaçaqlarla, atıb-tutmaqla yaman maraqlanır.

Səkinə nənəm bərkdən güldü:

– Amma heç öz dədəsindən soruşmur ki, güllə ata bilir?

Nənəmin atam haqqında belə zarafatı xətrimə dəydi, çünki mənim atamın da Qaçaq Xanmurad kimi, bu oba cavanları kimi atıb-vuran olmaması sarıdan həmişə xəcalət çəkirdim, istəyirdim ki, mənim atam da, lazım olanda, Bayram babam kimi, Nuru dayım kimi, üç patrondaş bağlayıb, beşaçılan götürsün, qaçaqlarla vuruşsun, nişana atsın.

Qaçaq Xanmurad mənim pərtliyimi hiss eləyib, zarafatyana dedi:

– Güllə atmaq atasının nəyinə lazımdır, tacir adamdı!

Ancaq qaçağın sözü mənə daha bərk toxundu. Mən görürdüm ki, oba cavanları tacirlər, alverçilər haqqında eyzən rişxəndlə danışırlar, onları «tərəzi dibində oturan», «yumurtadan yun qırxan», «kölgəsindən qorxan», daha bilmirəm nə adlandırırdılar. Ona görə

də mən «tərəzi dibində oturan» alverçilərə nifrət edirdim. Məlum idi ki, mənim atamın böyük mağazası var və o, «tərəzi dibində oturan» baqqallardan, əllaflardan deyil, amma kimə deyirsən?.. Hiss eləyirdim ki, bu oba cavanları mənim atama da Qarabulaqdakı baqqal Məşədi Əlibala kimi baxırlar.

Səkinə nənə dedi:

– Yox, Xanmurad dayısı, mənim bu qəşəng nəticəm Bayram babasına, Nuru dayısına oxşayacaq. At minən, güllə atan olacaq, sünnülərə çəkməyəcək.

Bilirdim ki, nənəm «sünnülər» dedikdə, mənim ata tərəfimi nəzərdə tutur, ona görə də üsyanla dedim:

– Bəyəm sünnülər tüfəng ata bilmirlər? Odur ey, Əfəndi babam bizə gələndə özü ilə tüfəng də götürmüşdü.

Səkinə nənə bərkdən güldü, Qaçaq Xanmurad da gülüb dedi:

– Səkinə nənə zarafat eləyir, sünnülərin içində də o qədər igid oğlanlar var ki.

Səkinə nənə dedi:

– Amma, dayısı, sünnülərin bir pis işləri var ki, keçi kimi irtməklidirlər, ona görə də höcət olurlar.

Mən lap ağlamaq dərəcəsinə gələrək həyəcanla dedim:

– Yalandı, sünnülərin irtməyi-zadı yoxdur!

– Özünə baxma, axı sənin anan şiədi, qadan alım, ona görə sənin irtməyin yoxdu.

Mən yenə də üsyanla nə isə demək istəyirdim, elə bu zaman bayırda səs-küy qalxdı, arvadlardan kimsə həyəcanla qışqırdı:

– Selbasar atlıları qoyunları aparırlar!

Səkinə nənə yaşına uyuşmayan bir cəldliklə qalxıb bayıra çıxdı. Mən də onun ardınca qaçıb gördüm ki, Eşşək bulağından o yana Altıntaxta deyilən düzənlikdə dörd-beş atlı-tüfəngli adam çobanları şallaqla döyüb qovaraq, sürüdən bir dəstə qoyunu atdöşü eləyib aparırlar.

Dayım burda yox idi – cavanları başına yığıb Qaradolaqlar obasına toya getmişdi, yoxsa selbasarlıların qabağına durardı.

Səkinə nənə kişi kimi gurultulu səslə onlara tərəf qışqırdı:

– Ehey, ey selbasarlılar, cahıllar obada yoxdur deyin kişiləşmisiz? O qoyunların birinin əvəzinə onunu verəcəksiniz!

Qaçaq Xanmurad gilənar rəngli çuxasını çiyninə ataraq bayıra çıxıb, diqqətlə atlılara baxdı, sonra çuxasını cəld əyninə geyərək təkrar komaya girib, bir əlində tüfəng, o biri əli ilə patrondaşı çiyninə aşıra-aşıra bayıra çıxıb Yastıqayaya tərəf yüyürdü və ayağının birini daşa dirəyərək atlılara sarı bir güllə atdı.

Yarım güllə mənzilində olan atlılar çevrilib güllə atılan tərəfə baxdıqda, Qaçaq Xanmurad qışqırdı:

– Ə, binamus iş tutmayın! Çıxın qoyundan!

O zaman atlılardan ikisi Qaçaq Xanmurada tərəf iki güllə atdı.

Anam bayıra yüyürüb mənə qışqırdı:

– Gir selava! Güllə dəyər.

Mən yurdun böyründən keçən selava girərək xəlvətcə oradan başımı çıxarıb tamaşa eləməyə başladım, oba uşaqları da yüyürüb doldular selava.

Atlılar qoyunu qovurdular. Qaçaq Xanmurad nişan alıb atdı. Bu dəfə atlılardan üçü qanrılıb Qaçaq Xanmurada tərəf atəş açdı.

Qaçaq Xanmurad onlara qışqırdı:

– Ə, mən qan tökmək istəmirəm, rədd olun, gedin!

Ancaq atlılar onu veclərinə almadılar, Qaçaq Xanmurad yenə də nişan alıb atdı. Atlılardan biri aşdı, ancaq həmin dəqiqə də durdu. Sonra da məlum oldu ki, güllə onun qoltuğundan dəyib, yenə atın belinə qalxdı. Qaçaq Xanmurad yenə də atdı, bu dəfə onlardan bir atlı da yıxıldı, adam dərhal qalxdı, amma at tərpənmədi. Qaçaq Xanmurad yenə də onlara qışqırdı:

– Ə, zalım uşağı, özünüzü qoyundan ötrü qırğına verməyin, Qaçaq Xanmuradın gülləsi yayınan döyül, çıxın qoyundan! Sizə dedim ki, qan tökmək istəmirəm.

Atlılardan biri yerində aram tutmayan atın başını geri döndərib bərkdən səsləndi:

– Qaçaq Xanmurad, qurban olsun sənə o qoyunlar! Güllə atma, özün bilirsən ki, selbasarlı Hüseynin də gülləsi havayı gedən döyül. Bilsəydik sən obadasan, gəlməzdik.

Atı vurulan adam mindi yoldaşlarından birinin tərkinə və atlılar qoyun sürüsündən çıxıb dolaylanaraq dağın dalında görünməz oldular. Qaçaq Xanmurad komaya girib yenə də arxası üstə uzanaraq əllərini başının altında çarpazladı, mən dedim:

– O atlılar səndən qorxub getdilər?

Qaçaq Xanmurad dedi:

– Yox, qaqaş, o Hüseyn deyilən qorxan canavar döyül, ancaq gördülər ki, girəvə məndədi, mən səngərdəyəm, onları açıqda bir-bir dənləyə bilərəm.

Qaçaq Xanmurad bir az susub, sonra asta səslə, lap öz-özü ilə danışırmış kimi, əlavə etdi:

– Ola bilsin ki, Hüseyn qəsdən davaya girmək istəmədi.

Səkinə nənə bayırda obanı başına götürüb selbasarlıların qarasına deyirdi:

– Namərd köpəkuşağı. Biliblər ki, kişilər obada yoxdu, əllərinə girəvə düşüb!

... Axşamçağı oba kişiləri toydan qayıdanda, Səkinə nənə onlara əhvalatı danışıb dedi:

– Qeyrətiniz varsa, gərək bu acığı yerdə qoymuyasınız! Günün günorta çağı selbasarlılar Kərbəlayı İbixanın obasına basqın eləsinlər?!

Eyvaz əmi taxta qutusundan papiros bükə-bükə dedi:

– Darıxma, ay ana...

Səkinə nənə dedi:

– Gərək Qaçaq Xanmurad o binamusların birini də sağ buraxmayaydı.

Sarısaqqal Mustafaoğlu dedi:

– Elə onların o cür əliboş qovulmaları onlar üçün ölümdü. Qaçaq Xanmurad istəməyib qoyundan ötrü it uşağının qanını tökdün.

Bu zaman həmin yastı qayanın üstündə Nuru dayım başına yığılan cavanlara həvəslə nə isə deyirdi. Mən onlara yaxınlaşanda sözünü kəsib mənə acıqlandı:

– İtil, get o yana!

Əhmədalı da gülüb dedi:

– Qaqaşın xətrinə dəymə.

Sonra məni yanına çağırdı:

– Gəl bura, qaqaş.

Getmədim. Adamların yanında dayımın mənə elə deməyindən bərk inciyərək qayalığın obadan görünməyən tərəfinə qaçdım. Mən həmişə inciyəndə tək qalmaq istəyirdim. Bu vaxt dağdan enən duman ətrafı elə bürüdü ki, heç nə görünmədi. Mənə elə gəlirdi ki, bütün dünyada öz pərtliyimlə yalqızam, elə bil ki, bir an qabaq gördüyüm dayım da, onun başına yığılan oba adamları da, Qaçaq Xanmurad da, Əhmədalı da ayrı dünyadadırlar. Ancaq heç mən özüm də bilmirdim ki, nə istəyirəm? Nə üçün özümü, hətta deyib-gülən, şən adamların da yanında yalqız hiss eləyirəm? Elə bil ki, üzlərinə baxdığım, söhbətlərinə qulaq asdığım adamlar məni görmürdülər. Hətta bəzən mənə elə gəlirdi ki, anam özü də məndən xəbərsizdir, əlbəttə, mən bu xəbərsizliyin nədən ibarət olduğuna aydın cavab verə bilməzdim, mən ancaq bunu hiss edirdim və bu hiss mənim daxilimdə həmişə mənimlə olan bir kədər idi.

Belə böhranlı anlarımda atamın Qaçaq Xanmurad kimi, Nuru dayım kimi, Əhmədalı kimi tüfəng-tapança gəzdirməməsi də, onun «tərəzi dibində oturan tacir» olması da, bu obada hamının Fatma nənəmə qarşı biganəliyi də qəribə bir ağırlıq kimi, qüssəli bir şey kimi mənim ürəyimə çökürdü. Qaracanın şikəst barmaqları, həddindən artıq uzun, əyri burnu, mismarla açılmış xırda deşiklərə bənzəyən gözləri, yoxsulluqları, heç kəsin onunla maraqlanmaması, onun mənə soyuq bir şübhə ilə qıyqacı baxması mənim kədərimi artırırdı. Son vaxtlar, yəni mənim dünyada bir şey başa düşməyə başladığım zamandan bəri atamla anamın tez-tez dalaşıb küsülü qalmaları mənim kədərimi artırırdı! (Özü də bu dalaşmalar, küsülülüklər həmişə

boş şeylər üstündə olurdu). Mən gülləri, çiçəkləri çox xoşlayırdım, amma sarı güllər, sarı çiçəklər mənə soyuq, qüssəli hisslər təlqin edib, həmişə mənimlə olan kədərimi artırırdı! Ona görə də mən Qarabulaqda, bağçamızda atamın əkmiş olduğu sarı qızılgüllərdən nəinki dərməzdim, heç yaxınlarına da getməzdim.

Qaraca məni kənara çəkib pıçıltı ilə dedi:

– Bu gecə Nuru əmigil Selbasar obasına basqın eləyəcəklər.

Mən soruşdum:

– Nə bildin?

– Daşlıqda danışırdılar, mən də aşağıda sapand atırdım. Amma sən heç kimə demə ha.

Mən də heç kəsə deməyərək səbirsizliklə gecənin düşməsini gözləyirdim. Bilmək istəyirdim ki, dayımgil basqına necə gedəcəklər?

Günortaya yaxın Qaçaq Xanmuradın qaçaq yoldaşları gəldilər.

Onlardan biri Qaçaq Xanmuradın üzünü isti su ilə isladıb, qatlama ülgüclə qırxdı. Qaçaq Xanmurad üz-gözünü yuyub başını daradı. Uzunboğaz çəkmələrini, gümüşü atlas arxalığını geyib patrondaşlarını bağladı, ağac qoburlu onatılanı böyründən asdı, gilənar rəngli çuxasını geyib gümüşü papağını qoydu. Bənizi əvvəlki kimi solğun idi. O hamı ilə görüşdü, mənimlə də əl tutuşaraq gülümsəyib zarafatla dedi:

– Yəqin sən də qız götürüb qaçanda Xanmurad dayın dəstəsi ilə çıxacaq qabağına.

Anam, hətta atam da gülümsədi. Bu, Pirağbulaq dərəsindəki əhvalata işarə idi.

Sonra qaçaqlar atlanıb getdilər. Elə bil, ürəyimdə boşluq açıldı. Onlar obadan çıxıb Qızılboğaz dağına dikləndilər, sonra yana burulub uçurumlu dağın döşündən keçən dar cığıra düşərək təklənib sıralandılar və getdikcə uzaqlaşaraq dağı dolanıb bir-bir gözdən itdilər, elə bil ki, onlar dərin, mavi fəzaya dalbadal düşüb yox oldular.

Mən ürəyimdə qüvvətli bir ağrı hiss edərək Möhnət qocanın «Ovçu Pirimlə qızıl quş» haqqındakı nağılını xatırladım.

Bütün quşların dilini bilən ovçu Pirim Camal qalasının uçurumlu qayalarının arasında yaralı bir qızılquş görüb soruşdu:

– Nə olub sana?

Qızılquş «ah» çəkib:

– Məni bir namərd ovçu vurdu, – dedi.

Ovçu Pirim qızılquşu öz komasına gətirdi, cürbəcür otlardan dərman qayırıb yarasını sağaldıb özünə ov quşu elədi. Qızılquş ovçu Pirimə sədaqətlə qullluq eləyirdi, onun ürküdüb havaya qaldırdığı kəklikləri, qırqovulları ildırım kimi şığıyıb caynağına alaraq gətirirdi, ovçu Pirim də ona doyunca təzə ət yedirdirdi, amma görürdü ki, heç qızılquşun kefi açılmır...

Ovçu Pirim bir gün ondan soruşdu:

– İndi nəyin dərdini çəkirsən?

Qızılquş yenə də «ah» çəkib dedi:

– Qəlbi dağlar, dibindən qıjıltı ilə çaylar axan dərin dərələr yadıma düşür...

Ovçu Pirim təəccüblə soruşdu:

– Məgər hər dəfə biz ova gedəndə sən yenə də o dağları, dərələri görmürsən?

Qızılquş dedi:

– Görürəm... ancaq...

Qızılquş sözünün gerisini demədi, amma ovçu Pirim hər şeyi başa düşdü. Qızılquşu əlinə götürüb dedi:

– Get, əzizim, uç istədiyin yerlərə, bu gündən azadsan!

Qızılquş getmək istəmədi:

– Mən, – dedi, – sənin yaxşılığını necə əvəzsiz qoyub gedə bilərəm?!

– Mən elədiyim yaxşılığı sənə halal edirəm, uç istədiyin yerlərə!

Qızılquş qanadlarını çırparaq havaya qalxıb uzaqlarda zirvəsi ağaran qarlı dağlara tərəf uçaraq əlvan buludlar arasında gözdən itdi...

Sonra mən qaçaqlar gedən tərəfə işarə ilə anamdan soruşdum:

– İndi onlar hara gedirlər?

Anamın əvəzinə atam cavab verdi:

– Hara gedəcəklər, soyğunçuluq etməyə, yol kəsməyə.

Mən atamın səsində gizli bir acıq hiss edərək bu dəfə onun qabağında cəsarət göstərib dedim:

– Xanmurad dayı kasıblara, arvadlara dəymir ha. Özü də, anama hələ üzük də bağışlayıb.

Atam mənə soyuq nəzər salıb dedi:

– Yaşından böyük danışma, uşaqsan, get uşaq işinə.

Anam gülümsəyib dedi:

– Doğru deyir də...

Mən onlardan aralanıb eynilə dalbadal dayanmış dəvələrə oxşayan qayaların yanına gedərək fikirləşdim: «Atam başqasına nişanlı olan anamı götürüb qaçanda Qaçaq Xanmurad həmin Pirağbulaq dərəsində onları soya da bilərdi, hətta faytonun atlarını alıb onları şənlikdən uzaq dərədə piyada da qoya bilərdi, bəlkə, lap ayrı adamın nişanlısını qaçırdığı üçün acıqlanıb atamı öldürə də bilərdi. Amma o, bunların heç birini eləməyib. Hələ üstəlik, anama qiymətli üzük də bağışlayıb. Demək, Qaçaq Xanmurad atamgilə yaxşılıq eləyib. Bəs niyə atam onun haqqında belə kinli danışır? Amma anam onu müdafiə eləyir... Obanın Əhmədalı kimi, Hacı kimi qoçaq oğulları da onu çox istəyir...»

Belə düşüncələr atama qarşı məndə olan gizli soyuqluğu artırırdı. Mən onun haqlı olduğunu heç vəchlə qəbul eləyə bilmirdim. Mənim təhtəlşüurum heç bir fənalığı Qaçaq Xanmurada yaxın qoymaq istəmirdi.

Bu dəfə Qaraca ilə mən qılınc kimi uçurumdan qalxan sivri qaya üstündə iri bir qartal gördük. Onun boyun-boğazı, ayaqlarının bükümləri cadar-cadar olub eybəcər bir hala düşmüşdü, o, qayanın lap sivri ucunda qanadlarını sallayaraq oturub aşağıdakı dərələri dəhşətli bir acgözlüklə nəzərdən keçirirdi. Gözləri sanki od tutub yanırdı, hiss olunurdu ki, acdır, elə bil ki, bədəninin ora-burasından tükünü də yolmuşdular. Onun bu çirkin görünüşü məndə xoşagəlməz hiss doğurdu. Mən Qaracadan soruşdum:

– Bu necə qartaldı?

Qaraca quşa əhəmiyyətsiz bir nəzər salıb dedi:

– Necə olacaq, qaraquşdu dayna.

(Bizim tərəflərdə qartala qaraquş deyirlər). Mən gərgin əhvali-ruhiyyə ilə soruşdum:

– Axı o niyə belə pis olub?

Qaraca dedi:

– Ay tanrısız, üçtoqqa Vəli kişi kimi qocalıb dayna.

Mən çox məyus oldum. Qartalı həmişə gümrah, məğrur, gözəl, cavan təsəvvür edirdim. Mən qartalın, qızılquşun timsalında cəsurluqla gözəlliyi bir-birindən ayrılmaz bilirdim. İgid qartalın da bu cür ac, eybəcər hala düşə biləcəyi heç ağlıma da gəlməzdi...

Gecə Nuru dayımgilin basqına necə getdiklərini görə bilmədim. Səhəri gün obada bir canlanma var idi. Əhmədalı, Hacı komalarının qabağında oturub tüfənglərini silib təmizləyirdilər. Gəlinlər bir-biriləri ilə pıçıldaşıb gülüşürdülər. Yalnız Fatma nənəm alaçığın dalında oturub gözlərini bir nöqtəyə zilləyərək öz-özünə həyəcanla danışırdı. Həmişə olduğu kimi, indi də mən nənəmin nə barədə deyinməyi ilə maraqlanıb, guya oynayırmışam kimi, əlimdəki çomağı çobansayağı tovlaya-tovlaya onun arxasında dayanaraq qulaq asırdım. Nənəm Nuru dayımın qarasına deyinirdi:

– Ay sağ olmuş, obanın cahıl-cuhulunu başına yığıb, gecə gedib xalqın obasını gülləyə basırsınız? Heyvanını yedəkləyib gətirirsiniz... Demirsən, iraq olsun, iraq olsun, güllə dəyər sana. Selbasarlılar da quduz tayfadır, gecənin birində qəfil gəlib bizi qırarlar?! Axı sən cavan uşaqsan, elm oxumusan, rusun dilini bilirsən, niyə o güllə dəymiş Eyvazın fitnəsinə uyursan? Eyvaz atanın qazandığını kamına çəkir, doymur, indi istəyirsən səni də biləyinə dolasın, niyə başa düşmürsən, axı?! Gedib xalqın qoyun-quzusunu, atlarını gətirib verirsən Eyvaza?!

Nuru dayım isə yastı qayanın üstündə ətrafına toplaşan oba cavanlarına, nə isə hərarətlə deyirdi... Eyvaz əmi papiros çəkə-çəkə

yaşlı kişilərlə danışırdı, Səkinə nənə də bu gün həmişəkindən kefikök və gümrah görünürdü.

... Qaraca mənə dedi:

– Bu gecə obada atışma olacaq.

– Nə atışma? – deyə mən soruşdum.

Qaraca mənə çəpəki baxaraq məzəmmətlə dedi:

– Ay tanrısız, xalq malından əl çəkəcək? Bizimkilər keçən gecə selbasarlıların bir heylə heyvanını gətiriblər...

Mən soruşdum:

– Haradadı o heyvanlar?

– Mən nə bilim?.. Yəqin gecə ikən pay-püş eləyiblər.

... Lakin üç gün heç bir hadisə baş vermədi. Qaracaya dedim:

– Bəs niyə atışma olmadı?

– Eyvaz əmim hər gün oba cahıllarına tapşırır ki, sərvaxt olun, onlar bizi ala qoyurlar ki, arxayın salıb, qəfil hücum eləsinlər.

Amma Eyvaz əmi özünü elə tuturdu ki, elə bil, bu işlərin heç birindən xəbəri yox idi. Həmişəki kimi, üstündə ceyran şəkli olan qutudan papiros bükə-bükə, alaçığın qabağında oturub ağsaqqallarla tamam ayrı şeylər haqqında – arandan gələn xəbərlər haqqında, yollarda, o biri obalarda olan soyğunlar, basqınlar haqqında söhbət edib deyirdi:

– Dünyada düzlükdən yaxşı şey yoxdu.

Fatma nənəm havayı yerə mənə «əllamə» demirdi, mən Eyvaz əmidən soruşdum:

– Bəs siz nə üçün selbasarlıların heyvanlarını gətirmisiniz?

Eyvaz əmi gülümsəyib dedi:

– Ona görə ki, onlar da fürsət tapanda bizimkini aparırlar, o günü gördün ki...

Mən təslim olmayıb dedim:

– Oğurluq da əvəzə əvəzdi?

Eyvaz əmi eyni təbəssümlə yanındakı kişilərə dedi:

– Görürsünüz... Əyyam uşağıdı də...

Sonra mənə cavab verib dedi:

– Peyğəmbər əvəzə əvəz deyib!

Mən yenə də əllaməlik eləyib dedim:

– Peyğəmbər bəlkə yaxşılıq barədə əvəzə əvəz deyib?

Eyvaz əmi bu dəfə ciddi ifadə ilə:

– Yox, qaqaş, sən uşaqsan, bilmirsən ki, əgər biz bu üzümüzə sillə vurulanda o biri üzümüzü çevirsək, torpağımızı at torbasında daşıyarlar. Buynuzlu qoçun qabağına gərək buynuzlu qoç çıxarasan!

Mən nə qədər əllamə də olsam, burda fikrim dolaşdı, nəyin düz olub-olmadığını təyin eləyə bilmədim. Uzaqda, dağın döşündə Qaracanı görüb onun yanına qaçdım. O, quşəppəyi yığıb yeyirdi, dedim:

– Gəl «gizlənqaç» oynayaq.

O, mənə cavab vermədi, mən təkrar etdikdə, əlində dəstə ilə tutduğu yemliyin torpağını çırparaq acıqla dedi:

– Ay tanrısız, oynamıram dayna!

Qaraca mənə yemlik vermədi, çünki keçən dəfə atam bizim çöldən quzuqulağı yığıb yediyimizi görərək, Qaracaya bərk acıqlanıb demişdi: «Uşağı öyrətmə belə zir-zibil yığıb yeməyə».

Hər gecə Nuru dayım cavanlardan obanın ucqarlarına tüfəngli qarovulçular qoyurdu. Mən onu da hiss edirdim ki, atam Nuru dayımın bu işlərindən bərk dilxor olub, bizim yaylağa gəlməyimizə peşmandır, anamın isə vecinə deyildi, hətta mənə elə gəlirdi ki, anam bu basqınlardan, atışmalardan zövq alır. Dayımın selbasarlılara etdikləri gecə basqını haqqındakı söhbətinə həvəslə qulaq asırdı. Onu da deyim ki, bir əhvalatı şirin nağıl eləməkdə heç kəs Nuru dayıma çatmazdı.

Eyvaz əminin sözü düz çıxdı, qaranlıq, çiskin gecədə selbasarlılar bizim obanı basdılar gülləyə, ancaq bizimkilər əvvəlcədən hazır dayandıqları üçün selbasarlılar heç nə apara bilmədilər, heç kəsə də güllə dəymədi.

Bu atışma zamanı atamın da o adamların arasında olmamağı, qaranlıq alaçıqda bizim yanımızda oturmağı məni səhəri gün utandırdı. Əhmədalı, Hacı, Nuru dayım gecəki əhvalatdan həvəsilə danışdıqları zaman mən ürəyimdə xəcalət çəkirdim. Halbuki belə basqınların heç də yaxşı iş olmadığını mən ürəyimin dərinliklərində hiss edirdim... Selbasarlıların yenə də əliboş qayıtmağı oba adamlarına ləzzət verirdi. Səkinə nənə qürurla, bərkdən deyirdi:

– Köpəkuşağı... Kişilər olmayanda gəlib qoyunu dəstələyirdilər, elə bilirdilər bir də eləyə bilərlər!

Kürdobalıların həyatında baş verən bu hadisələr atamla anamın münasibətinə, dediyim kimi, pis təsir eləyirdi, onlar, demək olar ki, bir-birləri ilə heç danışmırdılar. Mən də bunun səbəbini heç başa düşə bilmirdim.

BAYRAM BABAMIN OBAYA GƏLMƏSİ VƏ QIZYETƏRİN ƏHVALATI

Səhəri gün heç gözlənilmədən Bayram babam Qızılbaşoğlu Alı ilə gəldi. Babam qaçarağı və nəcib cinsdən olmağı ilə məşhur kəhər atını minmişdi. Belində onatılan tapança, ayaqlarında zərif xromdan tikilmiş uzunboğaz çəkmə var idi. Babam həmişə yaxşı geyinərdi, uzun, təpəsi gen papağı ən bahalı dəridən olardı.

O, atdan düşən kimi birinci mənim üzümdən öpdü və onun çallaşmış, qumral bığlarından gələn papiros iyi məndə sevincli bir hiss oyatdı. Babam bacım Mahtabı qucağına götürüb üzündən öpdü. Atamın, anamın kefini soruşdu. Ancaq nə Fatma nənəmlə salamlaş-

dı, nə də dayımla... Babamın gəlişi az qala bütün obada bayram şənliyi əmələ gətirdi, кişilər onun başına toplaşdılar.

Səкinə nənə:

– Qabağında ölüm, ay Bayram, – dedi, – nə yaxşı gəldin.

Obadaкı bütün ahıl arvadlar da, кişilər кimi, gəlib Bayram babamla görüşdülər.

Eyvaz əmi dərhal sürüdən bir erкək gətirdib кəsdirdi. Sacı tərsinə qoyub, tərəкəmə camaatının ləzzətli xörəyi olan saciçi bişirdilər. Obanın ağsaqqalları da Bayram babamla bir məclisdə əyləşib yedilər, çay içdilər, arandaкı hadisələr barədə sorğu-suallar verdilər. Sonra selbasarlıların obanın qoyununu çəкib aparmaq istədiкlərindən söhbət düşdü. Səкinə nənə selbasarlıları qəzəblə söyüb deyirdi:

– Binamus köpəкuşağı, arvad-uşaq üstünə gəlmişdilər, qadasın aldığım Qaçaq Xanmurad azarlı-azarlı təкbaşına onları it sürüsü кimi qovub qoyundan çıxartdı, ölsəydilər, ondan yaxşı idi. Demirdilər кi, axı bu, Kərbəlayı İbixan tayfasının, Bayramın, Eyvazın obasıdı! Heylə köpəкuşağının gərəк nəfəsini кəsəsən!

Bayram babam dedi:

– Ay ana, axı Kərbəlayı İbixan tayfası da dinc oturmur.

Səкinə nənə кinli-кinli dedi:

– Kərbəlayı İbixan tayfası heylə namərdliк eləyib arvad-uşaq üstünə getməz, кişisiz obaya girməz!

Mən hiss elədim кi, məclisdəкi кişilər Cəкinə nənənin sözlərini ürəкlərində təsdiq edirlər.

Birdən Əhmədalı dedi:

– Əşi! Dahı sənin hüzurunda boynumuz tüкdür, tüкdən də naziкdi. Lap başımıza güllə vursan da, ixtiyarın var, amma, axı selbasarlılar bizi nə yerinə qoyurlar кi, günün günorta çağı gəlib arvad-uşağın gözü qabağında obanın qoyun-quzusunu yığırlar?! Bəyəm bizim başımızdaкı papaq döyül? Sabah elatın qabağına nə üzlə çıxarıq?!

Babam bu dəfə bir qədər yumşaq tərzdə dedi:

– Yaxşı, selbasarlılar bir axmaqlıq elədilər, Qaçaq Xanmurad da heyvanı saldırdı, tay nə istəyirsiniz?

Əhmədalı qaşqabaqla cavab verdi:

– Qaçaq Xanmurad Əhmədalılardandı, dayı, Kürdobadan döyül.

Bayram babam onun nə demək istədiyini başa düşərəк əsəbiləşdi:

– Əl çəкin bu işlərdən! Arazın o tayındaкılara İran şahı divan tutur, bu tayında da siz çarın əlindən dünən qurtarmısınız! Didməyin bir-birinizi! Yolda mənə dedilər кi, siz də selbasarlılara basqın eləmisiniz, nə vaxtacan davam eləyəcəк bu avam işlər?!

Heç кəs dinmədi. Bayram babam Mustafaoğluna dedi:

– Bunlar selbasarlılardan nə qədər heyvan gətiriblərsə, hamısını qatarsan bir çobanın qabağına, aparıb verərsən özlərinə!

Mustafaoğlu toxtaq səslə dedi:

– İxtiyar sahibisən, apar deyirsən, aparıb verəriк.

Səкinə nənə dedi:

– Heylə şey eləmə, Bayram, selbasarlılar nanəcib adamlardı, deyəcəкlər, bizdən qorxdular.

Eyvaz əmi gözü büкməкdə olduğu papirosda, əlavə etdi:

– Onlar bizim heyvanı aparsaydılar, qaytarmazdılar.

Bayram babam dedi:

– Siz qaytarın, qoyun onlara da dərs olsun. O vaxt bizimкilər onlardan adam vurmasaydı, bu ədavət də ortaya düşməzdi.

Səкinə nənə dedi:

– Adamları dinc oturaydı, vurulmayaydı, bilmirdi кi, Kürdobaya sataşanın anasını ağlar qoyarlar?!

Adamlar dağılışandan sonra Bayram babam Fatma nənəmi alaçığa çağırıb acıqlı-acıqlı tapşırdı:

– Oğluna deyərsən, bir də mənim gözümə görünməsin! Cəhənnəm olsun, lap günü sabah getsin arana!

Bir xeyli süкutdan sonra Fatma nənəm təəccüblü bir cəsarətlə dedi:

– Getməк lazımdı, niyə qardaşın Eyvaza demirsən?! Nuru uşaqdı, niyə yoldan çıxarıb obanın cahılları ilə basqına göndərirdi?! Niyə fiкirləşmirdi кi, Bayramın gözünün ağı-qarası bircə oğlu var, gedər, – uzaq olsun, uzaq olsun, – güllə-zad dəyər?! Yoxsa canından idi?

Babam acıqlandı:

– Sən atanın goru, sarsaq-sarsaq danışma, sənə dedim кi, tapşır çıxıb getsin arana.

Mən Bayram babamı nə qədər çox istəsəm də, onun Fatma nənəmlə belə rəftarı ürəyimə toxundu, onsuz da obada heç кim Fatma nənəmi istəmirdi. Hətta mənə elə gəlirdi кi, heç anam da onu istəmir.

... Nuru dayım ayaqlarında son dəbdə tiкilmiş uzunboğaz, belində patronla dolu iкi кəmər, əlində beşaçılan, başında qabardin gümüşü papaq, şən halda alaçıqdan çıxıb öz atına yaxınlaşaraq, cilovu geri qaytarıb, qəsdən ayağını üzəngiyə qoymadan sıçradı yəhərə. Əhmədalı ilə Hacı da tüfəngli, patrondaşlı atlandılar, Fatma nənəm əlində su ilə dolu parç tutaraq vahimə və həyəcanla dayıma baxırdı, dayım isə bir dəfə də olsun ona tərəf baxmadı.

– Qoy Əhmədalı ilə Hacı səni lap Qarabulağacan ötürsün.

Nuru dayım cavab verməyərəк və heç кəslə xudahafizləşməyərəк кefiкöк halda ayaqlarını yavaşca tərpətdi, at bunu gözləyirmiş кimi, dördəmə götürüldü. Fatma nənəm dodağının altında dua oxuya-oxuya suyu onun ardınca atdı. Əhmədalı ilə Hacı da dayımın da-

lınca çapdılar. Oraya toplaşmış oba adamları öz komalarına getdilər, yalnız Fatma nənəm bütün dünyadan ayrılmış kimi, dayanaraq oğlunun ardınca baxırdı. Mən, nə isə nənəmə təsəlliverici bir söz demək istədim, amma tapa bilmədim. Dayımgil dağın dalında gözdən itdikdə Fatma nənəm heç kəsin üzünə baxmadan gedib girdi alaçığa, Bayram babam isə saçaqlı yapıncısı çiynində, yuxarı – Qızılboğaza tərəf gəzməyə çıxmışdı. Dayımın həmişə mənimlə soyuq rəftarına və mənim də onu istəməməyimə baxmayaraq, onun indi bu cür çıxıb getməsi məni qüssələndirirdi. Elə bil ki, Fatma nənəmin dərdi mənə də sirayət edirdi. O da mənə təsir edirdi ki, dayım bir dəfə olsun anasına tərəf baxmadı və atını eynilə cıdırlarda olduğu kimi nəşə ilə çapıb getdi.

Mən alaçığa girəndə gördüm ki, Fatma nənəm oğluna dua eləyir. O ağlamırdı, ancaq mən onun ala gözlərinə baxaraq, içərisindəki yanğını hiss edirdim. O, sanki mənim gəlişimi hiss etməyərək öz-özünə deyirdi:

– Allah, sən mənim oğlumu yerin-göyün bəlasından uzaq elə! Allah, sən quldurun, biinsafın yolunu bağla!

Mən daha alaçıqda dayana bilməyərək bayıra qaçıb dəvə karvanı kimi dal-dala düzülmüş qayaların dalında ağladım. Elə bu vaxt gecədən bəri göyü qaplamış buludlar parçalandı, gün çıxaraq çiçəkli yaşıl çölləri, yosunlu qayaları, Altıntaxtada otlayan çılpaq atları, uzaqda – dağın döşünə səpələnmiş, göbələk tək görünən qoyun sürülərini sevincli işığa qərq etdi. Yosunlu daşların çalalarında axşamkı yağışdan qalmış sular güzgütək parladı. Mən gözümün yaşını pencəyimin qolu ilə silərək indi dərin, mavi dəniz kimi görünən göyə baxıb fikirləşdim ki, «görəsən, bu saat Allah harada əyləşib? Fatma nənəmin yalvarışlarını eşidirmi? Əgər eşidirsə, nənəmin mətləbini hasil eləyəcəkmi?» Mən ürəyimdə Allaha qarşı kövrəlmiş bir məhəbbət hiss edərək göyə elə məzlum-məzlum baxırdım ki, əgər Allah mənim bu baxışlarımı görsəydi, yəqin ki, nənəmə rəhm eləyib onun iltimasına əməl edərdi. Birdən yadıma düşdü ki, Fatma nənəm həmişə deyir: «Allah ərrəhmanirrəhimdir», yəni rəhm eləyəndir.

Mən ürəyimdə bir toxtaqlıq hiss eləyərək, günəş istisindən qızmış daş «dəvələrdən» birinin belinə mindim. Bu vaxt Qaraca məni görərək ocaq üçün çöldən yığdığı təzəkləri komalarının qapısına qoyub, yanıma gəldi. Mən ona dedim:

– Qaraca, min daldakı dəvəyə.

Qaraca təəccüblə soruşdu:

– Hanı dəvə?

Mən dedim:

– Bəs bu dal-dala düzülən dəvələri görmürsən?

Mən tərəkəmələr kimi «hey! hey!» deyə-deyə, guya dəvələri yeyin getməyə səsləyərək nəşə ilə dedim:

– Bu mənim dəvə karvanımdır, gedirik Naxçıvandan duz gətirməyə.

(Kürdobalılar dəvələrlə gedib Naxçıvandakı böyük duz mədənindən duz və quru ərik gətirərdilər). Qaraca altdan yuxarı mənə qıyqacı baxıb gülümsədi. O, çox nadir hallarda gülümsəyərdi.

Mən dedim:

– Yaxşı, indi ki dəvəyə minmirsən, sarvan ol, keç qabaqdakı nərin ovsarından yapış.

Lakin Qaraca irişə-irişə altdan yuxarı mənə baxıb dururdu.

– Hey! Hey! – deyə mən «dəvələri» səsləyib, eyni zamanda, fikirləşirdim ki, Fatma nənəm gecə-gündüz namaz qılıb dayıma dua edir, özü də elindən-obasından ayrı düşmüş yazıq bir arvaddır, yəqin ki, Allah onun yalvarışlarını eşidəcək, çünki Allah ərrəhmanirrəhimdir!

Əslinə baxsan, mən bu düşüncənin məzmununu hiss edirdim, yəni o dəqiqələrdə bir adam məndən soruşsaydı ki, nə fikirləşirsən, əlbəttə ki, nə düşündüyümü belə aydın ifadə eləyə bilməzdim.

Nəhayət, mən «dəvələri» haylamaqdan yorularaq, düşüb Qaracanın yanına gəldim. O, məni inandırmışdı ki, neçə dəfə sapandla kəklik vurub, neçə dəfə onun cələsinə kəklik düşüb... Mən dedim:

– Gedək, sənin qurduğun cələyə baxaq. Bəlkə kəklik düşüb.

Biz dağın o tərəfindəki qayalığa getdik, cələnin içindəki çörək qırıntıları yox olmuşdu, amma cələ özü olduğu kimi dururdu, kəklik-zad yox idi.

Qaraca dedi:

– Yaman bicləşib buranın kəklikləri.

O cələni qurduğu yerdən çıxarıb dedi:

– Aparaq bu dəfə Dəvəuçanda quraq. Orada kəklik buradan çox olur.

Biz dolayı cığırla, Dəvəuçan dağına tərəf bir qədər yüyürmüşdük ki, birdən qabaqda gedən Qaraca dayandı. Mən də ona çatıb gördüm ki, Qaracanın anası Qızyetər çoban Mahmudla bir çökəkdə oturub danışırlar... Onlar bizi görmürdülər. Qaraca mənə bir söz demədən geri döndü, onun rəngi qaçmış, üzündə nə isə yazıq bir ifadə əmələ gəlmişdi.

Mən soruşdum:

– Bəs niyə geri qayıdırsan?

O, cavab vermədi. Mən təkrar çoban Mahmudla Qaracanın anasına baxdım. Gəlin gülə-gülə çobana nə isə deyirdi. Qaracanın birdən-birə bikefləməsi məni mütəəssir elədi. Bilirdim ki, bu qırmızısifət, qarabığ, cavan çoban Qaracanın atası deyil. Heç bir zaman onun Qaraca ilə danışdığını da görməmişdim. Məndən savayı Qaraca ilə heç kəs danışmırdı. Özündən böyük bacısı, qardaşı olmasına, anası, əmiləri olmasına baxmayaraq, Qaraca yalqız idi, yəni mən

belə hiss edirdim. Mən onun yalqızlığını indi daha təsirli hiss edirdim... Onun özündən dörd-beş yaş böyük qardaşı Qulu Eyvaz əminin çobanlarından biri idi. Dan yeri sökülməmiş qoyuna gedir, bir də gecə gəlirdi. Əgər qoyun sürüləri uzaqda otarılırdısa, Qulu bəzən heç gecə də gəlmirdi, «cürcünəsinə» bürünüb qoyunun içində yatırdı. Özündən böyük bacısı Firuzə də gecə-gündüz Eyvaz əmigildə işləyirdi, nehrə çalxalayırdı, itlərə yal bişirirdi, bulaqdan gündə azı dörd-beş səhəng su gətirirdi. Bulaq isə, dediyim kimi, aşağı dərədə idi. Mis səhəng də otuz-otuz beş litr su tuturdu. Amma bütün bunlar Firuzənin halına təfavüt eləmirdi. Yanaqları lalə kimi qıpqırmızı idi. Özü də Qaraca kimi eybəcər deyildi, gözəllikdə o da, böyük qardaşı Qulu da analarına oxşamışdılar. Mən Firuzənin bir dəfə də olsun bikef olduğunu görməmişdim. Bulağa gedəndə qız-gəlinlərlə zarafatlaşa-zarafatlaşa, bir-birini çimdikləyə-çimdikləyə, yaxalarındakı gümüş pullar cingildəyə-cingildəyə dağı üzüaşağı uçurlanardılar. Bulaqdan qayıdanda hansı qızın kimə gedəcəyi barədə, hansı nişanlı oğlanın daha qoçaq olması barədə şirin söhbət eləyə-eləyə gələrdilər. Amma Qaracanın üzü gülməzdi.

Biz Qaracanın anasıgilin gizlin söhbət elədiyi yerdən xeyli uzaqlaşandan sonra mən təkrar soruşdum:

– Axı niyə geri qayıtdın?

O yenə də dinmədi. Mən elə burdaca xatırladım ki, Qaraca mənə neçə dəfə sapand toxuyub, mən onları itirmişəm, neçə dəfə Nuru dayım onun öz sapandını tutub alıb mənə verib, amma mən ona heç nə verməmişəm. Mənim pencəyimin yaxasında, ulduz şəklində balaca gümüş bir sancaq vardı, onu mənə anamın rəfiqələrindən biri bağışlamışdı. Qaraca da həmişə ulduza böyük maraqla baxırdı. Mən həmin ulduzu çıxarıb Qaracanın əldə toxunan şaldan tikilmiş köhnə pencəyinin yaxasına taxdım. O, təəccüblə soruşdu:

– Belə niyə eləyirsən?

Mən qürurla dedim.

– Sənə bağışlayıram.

Onun mismar deşiklərinə oxşayan gözləri işıqlandı, məndən soruşdu:

– Doğru sözündü?

Dedim:

– Hə, bağışlayıram sənə.

O, bir qədər susdu. Sonra pencəyinin cibindən bərk şaqqıldayan, alabəzək sapandını çıxarıb mənə uzadaraq dedi:

– Al, mən də bunu bağışlayıram sənə.

Mən böyük adamlar kimi özümü çəkib dedim:

– Yox, istəmirəm.

Həqiqətdə isə istəyirdim, amma əvəz-əvəz eləməyi şənimə sığışdırmadım. Qaraca dedi:

– A tanrısız, götür dayna.

Mən sapandı aldım, biz obanın qənşərinə çatanda gördük ki, Bayram babam çiynində yapıncı Qızılboğazdan enib gəlir. Babam indi də gözəl idi, üzünün sağ tərəfindəki qoşa, qara xal və bozarmaqda olan qumral bığı, qonur gözləri indi də qəşəng görünürdü. Uca qədd-qaməti indi də yaraşıqlı idi.

O, bizi görüb gülümsədi:

– Üşümürsən ki? – deyə məndən soruşdu.

– Yox, üşümürəm, – dedim.

Qaracanın əyni mənimkindən də nazik, çarığı, patavaları tamam su içində olmasına baxmayaraq, babam ondan üşüyüb-üşümədiyini soruşmadı. Ancaq onun da üzünə gülümsədi.

Mən alabəzək sapandı göstərib həvəslə dedim:

– Baba, Qaraca verdi!

– O... – deyə babam sapandı tərifləndi. – Bəs sən Qaracaya nə verdin?

– Mən də gümüş ulduz, – deyə Qaracanın köhnə pencəyinin yaxasındakı nişana işarə etdim. – Qaraca mənim üçün kəklik də tutacaq.

Babam dedi:

– Qaraca yaxşı oğlandı.

Sonra babam Qaracadan soruşdu:

– Eyvaz əmingil sizə yavanlıq-zad verirmi?

Qaraca gözünü babamdan çəkib yerə baxaraq yavaş səslə dedi:

– Verirlər.

Mən həyəcanla dedim:

– Baba, bunlar çox kasıbdırlar, heç bişmiş-zad bişirmirlər.

Babam dərindən nəfəs alıb mehriban səslə dedi:

– Eybi yoxdur, Qaraca da, qardaşı da böyüyüb qazanc gətirərlər, onda işləri də yaxşı olar.

Mən hiss elədim ki, babamın sözləri Qaracada bir canlanma əmələ gətirdi. Bayram babam pul çıxarıb Qaracaya verərək dedi:

– Anana denən, getsin Qarakilsə bazarından sizə ayın-oyun alsın.

Mən dedim:

– Baba, qoy Qaracaya təzə paltar da alsın.

Babam dedi:

– Qaracaya təzə paltar almağa da çatar.

– Yox, baba, birdən çatmaz, yenə ver.

Babam çıxarıb bir pul da verdi.

Babam yeganə adam idi ki, mən onun yanında ərköyünlük eləyirdim. Yəqin məsələdir ki, mən heç bir zaman atamdan Qaraca üçün, ya lap özüm üçün pul istəyə bilməzdim. Kim bilir, bəlkə istə-

səydim, atam mənə acıqlanmazdı, ancaq mən atamla öz aramda, elə bil ki, həmişə soyuq, lal bir divar hiss edirdim.

Babam bizdən aralanıb alaçığa gedəndən sonra mən Qaracadan soruşdum:

– Bayram babamı sən də çox istəyirsənmi?

Qaraca cavab verdi:

– Niyə istəmirəm, ay tanrısız?

Sonra Qaracanın anası iti addımlarla gəldi. Onun üzü qızarıb pörtmüşdü, gözlərində elə həyəcanlı ifadə vardı ki, elə bil, heç nəyi, heç kəsi görmürdü. Qaraca da onu görəndə üzünə baxmayıb gözlərini yerə dikdi, mən Qaracaya dedim:

– Apar, pulları ver anana də...

O, dinməz getdi komalarına, mən də onun ardınca getdim. Qızyetər balaca, dəyirmi əl güzgüsündə üzünü diqqətlə nəzərdən keçirirdi. Onun tər yanaqları lalətək qızarırdı. Qaraca pulları cibindən çıxararaq, altdan-yuxarı anasına qıyqacı baxıb, soyuq ifadə ilə dedi:

– Bayram əmim verdi.

Qızyetər tez balaca güzgünü arxalığının cibinə qoyub, pulları Qaracadan aldı. Gördüm ki, Qaraca daha bir söz demir, ona görə də mən dedim:

– Qızyetər xala, Bayram babam ayrı pul da verdi ki, Qaracaya paltar alasan.

Qızyetər gülümsədi və onun qar kimi ağ dişləri mənim xoşuma gəldi. Qızyetər xala dedi:

– Bayram babanın ömrü uzun olsun, ancaq qadan alım, Qaracadan qabaq ərgən bacısı var, əvvəl gərək onun əyin-başını düzəldək.

Gördüm Qaraca da anasının bu sözünün üstündən bir söz demir. Ona görə mən də dinmədim. Mən görürdüm ki, Qaracanın anası kimi gözəl, boy-buxunlu bacısı həmişə ayaqyalın gəzir. «Gəzir» demək də düz deyildi. Firuzənin gəzməyə bir dəqiqə də vaxtı yox idi. Eyvaz əmigilin işləri qoymurdu ki, o, gözünü açsın. Amma Firuzənin həmişə kefi kök olurdu, həmişə məni görəndə gülümsəyirdi. Bəzən də əyilib o üzümdən-bu üzümdən bərk-bərk öpürdü və onun öpməyi məni İmaşa qoşulub qaçan Güllünün öpüşü kimi acıqlandırmırdı, onun öpməyi mənim xoşuma gəlirdi. Onun ağzından yemlik qoxusu gəlirdi. Yemlik dağların döşündə bitirdi və onu yeməyi mənə Qaraca öyrətmişdi. Mən onu da görmüşdüm ki, Firuzə Nuru dayıma necə baxır və onun qabağından neçə dəfə belədən-belə gəlib keçir, dayım isə, elə bil, heç Firuzəni görmürdü. Amma bir dəfə məzəli bir iş oldu.

Nuru dayım gəzməkdən gəlib alaçıqda ayaqlarını soyunmaq istəyirdi, ancaq uzunboğaz çəkmələri şehdən islandığı üçün ayağından çıxmırdı, alaçıqda da məndən başqa heç kəs yox idi. Bu vaxt Firuzə içəri girib dayımın əlləşdiyini görəndə dedi:

– Qağa, qoy gəlim çəkim çəkmələrini.

Dayım da dedi:

– Gəl çək.

Firuzə çəkmənin ikinci tayını daha bərk çəkib çıxaranda özünü saxlaya bilməyib arxası üstə yıxıldı və tumanı geri çirmənəndə ağ, qəşəng qılçaları göründü. Firuzə qəhqəhə ilə gülərək dikəldikdə dayım onun biləyindən yapışıb özünə tərəf çəkərək yanağından öpdü və bir də öpmək istəyəndə:

– Oy, qağa! – deyə Firuzə qəribə bir səs çıxardı.

Bu vaxt alaçığa girən Fatma nənəm bu əhvalatı gördü. Dayım da fışqırıq çala-çala zər qotazlı mütəkkəni başının altına çəkib, təzə, ağ keçənin üstündə uzanaraq yarımçıq qoyduğu rus kitabını götürüb tutdu gözünün qabağına. Mən də bayıra çıxıb gördüm ki, alaçığın böyründə Fatma nənəm qəzəblə Firuzəyə deyir:

– Ay ləçər, görürəm, sən də anan kimi qızıxmısan, uşağı yoldan çıxarma!

Firuzə də and içir ki:

– Bibi, vallah, mən heç nə eləmirdim...

Fatma nənəmin dayıma uşaq deməyi mənə gülməli göründü və eyni zamanda, nənəmin Firuzəni bu cür danlamağı da mənə pis təsir elədi, axı, doğrudan da, Firuzə heç nə eləməmişdi. Sonra nənəmin Qızyetərin haqqında dediyi «qızıxmaq» sözü də mənə qəribə göründü. Mən bilirdim ki, nər dəvə yazdamı, ya payızdamı qızır, ağzından köpük daşlanır. Yad adam bu zaman onun həndəvərinə hərlənə bilmir. Əgər vaxtilə lap sahibi belə onu vurubsa, qızdığı zaman qarşısına çıxsa, nər onu alıb dizinin altına qoyub əzər. Birinin haqqında kim kimə deyər ki, «filankəsdə dəvə kini var...» Amma arvadın «qızmağını» birinci dəfə eşidirdim və bu «qızmağın» nədən ibarət olduğunu anlaya bilmirdim. Elə həmin günün səhəri Qızılboğazdan duman yeriyib bütün obanı bürümüşdü, bir addım irəlini görmək olmurdu. Qızyetər xala Eyvaz əmigildə nehrə çalxalayırdı, mən ondan soruşdum ki:

– Haradadı Qaraca?

Dedi:

– Yəqin komada olar, ölüm qabağında.

Mən onların komasına yaxınlaşanda, içəridə danışıq eşidib dayandım, gördüm Firuzə deyir:

– Qağa, başına dönüm, burax, gəlib görən olar, sonra bibim öldürər məni.

Nuru dayım da deyirdi:

– Dəli olma az, heç kəs sənə bir söz deyə bilməz.

Mən heç özüm də bilmirəm, nədənsə, utanaraq qapıdan aralanmaq istəyirdim ki, qucağında bir xəlbir təzək, dumanın içindən çıxan Qaraca ilə qarşılaşdım. O dedi:

– Təzəyi komaya atıb gəlirəm. Gedək, cələyə baxaq, belə havada olsun ki, kəklik düşər.

Elə Qaraca bu sözü deyib qurtarmamışdı ki, Firuzə komadan hövlnak çıxıb yanımızdan yel kimi keçərək qaçdı, sonra da dayım çıxaraq mənə acıqlandı:

– Bu dumanda obadan uzaqlaşmaq olmaz, itil alaçığa.

Sonra da Qaracaya acıqlanıb dedi:

– Demirsən, canavar-zad düşər üstünüzə? Uşağı da öyrədib aparırsan!

... Mən alaçığa girəndə atam diqqətlə məni nəzərdən keçirib soruşdu:

– Bəs ulduzun hanı?

O, sərt soruşduğu üçün mən susurdum. O, təkrar soruşdu:

– İtirmisən?

Dedim:

– Yox.

– Bəs hanı?

Dedim:

– Vermişəm Qaracaya.

– Niyə vermisən? Dəli olmuşdun?

Mən dedim:

– O mənə bəzəkli sapand verib.

Atam dedi:

– Yerə soxum sənin kimi maymaq uşağı, gümüş şeyi aparıb bir qəpiklik sapanda dəyişirsən?!

Anam dedi:

– Nə olsun, dəyişib dəyişib də. Üç misqal gümüşdən ötrü uşağı niyə danlayırsan?

Mən ağladım, atam qəzəblə anama dedi:

– Belə danışa-danışa sən də bunu heç nəyin otu eləyəcəksən, uşaq gərək öz şeyinin qədrini bilsin. Maymaq olmasın, onsuz da bu, acizin biridi...

Anam mənə dedi:

– Ağlama, get üzünü yu, şəhərə qayıdanda zərgər Stepana deyərəm, sənə ondan da yaxşısını qayırar.

Atam əsəbi hərəkətlə papiros yandıraraq qalxıb alaçıqdan çıxdı. Xüsusən biz Kürdoba yaylağına gələndən bəri atamla anamın münasibətində anlaşılmaz bir gərginlik hiss edirdim. Nuru dayım gedəndən sonra da anam oba cavanları ilə alaçığın qabağında, ya da yastı qayanın üstündə söhbət edir, zarafatlaşırdı. Atam isə heç vaxt onlara yaxınlaşmırdı. Anamla-atam gündüz bir yerdə az olurdular. Bayram babam da gündüzlər obada az görünürdü. Qızılbaşoğlu ilə gedib o biri obalara da baş çəkirdilər. Evdə olanda da kənar ellərdən beli qurşaqlı hacılar, ağsaqqallar görüşünə gəlirdilər, oturub saatlarla söhbət edirdilər. Onlar üçün qoyun kəsilirdi, çay qoyulurdu və onların bütün məclislərində Səkinə nənə də iştirak edirdi, bu da Fatma nənəmə acıq gedirdi, amma bu barədə bir söz demirdi. Yeganə adam idim ki, Fatma nənəm dərd-sərini məndən gizlətmirdi. Mən qəsdən tez-tez onun uzaq Kürdüstan meşələrində qalan qardaşları, bacıları haqqında soruşurdum, nənəm də «ah» çəkib onlardan şirin həsrətlə danışırdı və elə bil ki, bu zaman arvadın dərdi dağılıb onu yüngülləşdirirdi. Nuru dayım gedəndən sonra arvadın ürəyi lap kövrək olmuşdu. Mən kədərlə düşünürdüm ki, Nuru dayım gedəndə heç bir dəfə də olsun başını döndərib anasına tərəf baxmadı, amma Fatma nənəm saatlarla alaçığın böyründə oturub o gedən yollara baxırdı. Elə bil ki, yollar oğlunun ardınca onun da ürəyini çəkib, dumana qarışan uzaqlara aparırdı. Görəsən, nə üçün dünya bu qədər qüssəlidir? Nə üçün Qaraca bircə dəfə də olsa, atasını xatırlamır? Bir dəfə də olsa, onun haqqında danışmır? Nə üçün Qızyetər uşaqlarının atası olmayan çoban Mahmudla heylə şirin-şirin deyib-gülür? Nə üçün onların belə gizlində görüşünün Qaracanı necə qəmgin etdiyini Qaracanın anası hiss eləmir? Nə üçün anam bir dəfə də olsun, öz anasının, yəni Fatma nənəmin dərdini-sərini soruşmur? Heç onlar diz-dizə oturub ürəkdən söhbət eləmir? Bütün bu suallar dumanlı halda mənim zehnimdən gəlib keçir və məni qüssələndirirdi.

... Sonra qəribə bir əhvalat oldu... Dedilər ki, Qızyetər gecə obanı yuxuya verib, çoban Mahmudla qaçıb.

Eyvaz əmi qəzəbindən dünyanı dağıdırdı. Səkinə nənənin üstünə qışqırıb deyirdi:

– Vaxtında sən qoymadın o qancığı mən öldürüm! Bizi binamus elədi!

Eyvaz əmi hər dərəyə bir od vurdu. Bacısı oğlu Gəməndi bir tərəfə göndərdi, maması oğlu Dadaşı bir tərəfə, Əhmədalını bir tərəfə, Hacını bir tərəfə, özlərinə də tapşırdı ki, «harda tapdınız, hərəsinin təpəsinə bir güllə vurun, it kimi murdar olsunlar!» Ancaq ikisi də yağlı əppək olub göyə çəkildi. Kimi xəbər gətirdi ki, deyirlər, Təhlə yaylağına tərəf getdiklərini görüblər, kimi xəbər gətirdi ki, arana sarı gedirmişlər, kimi də xəbər gətirdi ki, Arazbasara yollanıblar.

Mən key kimi oturmuşdum. Qaracanın üzünə baxa bilmirdim. O özünü elə aparırdı ki, elə bil, nədəsə müqəssirdi. Heç kəsə, hətta mənə də yaxın gəlmirdi, biz olan alaçığa tərəf də çıxmırdı.

Eyvaz əmi qışqırıb deyirdi:

– O qancığın uşaqları da özü kimi olacaq! Qovun, çıxıb getsinlər!

Eyvaz əmi bu sözləri deyəndə, gördüm ki, Firuzə öz komalarının dalında ağlayır. Qaraca da o tərəfdə qayanın böyrünə qısılıb durub. Sonra da Eyvaz əminin arvadı, Firuzənin yanına gəlib dedi:

– Niyə gözünün yaşını tökürsən, ay qaragün, yeri səhəngi götür, su gətir.

Elə bil ki, qız arvadın bu buyruğuna sevindi, güllü yaylığının ucu ilə cəld gözünün yaşını silərək iti addımlarla gedib iri mis səhəngi götürüb yollandı bulağa.

Ananın uşaqlarını bu cür qoyub qaçmağı mənə ağlasığmaz bir iş kimi görünürdü və eyzən düşünürdüm ki, bu yazıq Qaraca anasız neyləyəcək? Ana belə işi necə bacardı? Səkinə nənə də acığından bilmirdi neyləsin. İndi o, mənim gözümdə dağ kimi olmuşdu. İndi mənə elə gəlirdi ki, o da, onun oğulları da dünyanın ən xoşbəxt adamlarıdır, çünki o, ərindən sonra Qızyetər kimi heç kəsə qoşulub qaçmayıb, oturub uşaqlarını böyüdüb. O, alaçığın qapısında dayanıb gurultulu səslə deyirdi:

– Binamus köpəkqızı! Mən iyirmi beş-iyirmi altı yaşımdan dünyanın zövq-səfasından nəfsimi çəkib beş uşaq böyütdüm. Bayram kimi, Eyvaz kimi oğul anası oldum, amma bu qancıq üç il ərsiz dayana bilmədi!

Sarısaqqal Mustafaoğlu da öz komasının qabağında dayanıb deyirdi:

– Ay Səkinə, sən Kərbəlayi İbixanın qızısan! Halal süd əmmisən, amma o, bic Gülmalının belindən gəlib... Kimi kimə tay tutursan?!

Arvad yana-yana əlavə elədi:

– Mənə də Səkinə deyərlər, ömrümə bir gün də qalsa, onu qoşulub qaçdığı binamusla qarın-qarına bağlatdırıb Dəvəboynundan atdırmasam, dədəmin qızı deyiləm.

Bütün bu sözləri qayanın daldasına qısılmış Qaraca eşidirdi. Mən onun yanına gedib dinməz dayandım. O da mismar deşiklərinə oxşayan gözlərilə üzümə baxıb heç bir söz demədi. Biz xeyli dinməz-söyləməz dayandıq. Sonra atam alaçığın qabağına çıxıb məni səsilədi:

– Gəl, körəyin soyuyur.

Bilirdim ki, bizdə bu gün nahara kəklikli plovla dağ pencərindən dovğa bişirilib. Mən Qaracaya baxıb susurdum, xəcalət çəkirdim. Mənə elə gəlirdi ki, Qaracanı burada çiskinləşməyə başlayan yağışın altında ac qoyub, kəklikli plov yeməyə getsəm, çox ayıb bir iş görmüş olaram. Qaracanın uzun, əyri burunlu üzü sakit və tutqun idi. Mənə elə gəlirdi ki, onun mismar deşiklərinə bənzəyən balaca gözlərinin dərinliyində mənə məlum olmayan qorxulu bir aləm var. O ağlamırdı, ona görə də, o, mənə yazıq görünmürdü, amma sirli görünürdü, ha baxırdımsa, ondan bir şey başa düşmürdüm.

– Səni nahara çağırmırlar? – deyə atam məni acıqlı-acıqlı səslədi.

Qaraca dönüb bərk çiskinləyən yağışın altında uzaqlaşdı, yaylaqda tez-tez yağış-çiskin olduğu üçün və Qaraca da eyzən çöldə-bayırda olduğu üçün köhnə şal pencəyi, tumansız geydiyi köhnə şalvarı həmişə nəm olardı və onun bu yaş paltarda heç bir zaman xəstələnməməyi məni təəccübləndirirdi.

Axşamçağı anam Firuzəni xəlvətcə çağırıb, iri bir kasanı nahardan qalmış plovla doldurараq ona verib dedi:

– Apar, Qaraca ilə yeyin.

Firuzə də kasanı yaylığının altında tutaraq apardı öz komalarına.

Yağış yağdığı üçün anam məni bayıra buraxmırdı. Mən qapının ağzında dayanıb gözümü dikmişdim Qaracagilin komasına. Qaranlıq düşəndə gördüm ki, Qaraca o yan-bu yana baxa-baxa oğru kimi gəlib girdi öz komalarına. (Sonralar da, biz yaylaqda olduğumuz müddətdə bişən xörəklərdən anam həmişə bir qab dolusu verirdi Firuzəyə, o da xəlvətcə aparırdı öz komalarına).

Səhəri gün Bayram babam Qızılbaşoğlu Alı ilə elatı gəzməkdən qayıdıb gəldi.

– Qancıq bizim papağımızı yerə vurdu,– deyə Eyvaz əmi əhvalatı ona danışdı.

Səkinə nənə də qəzəblə dedi:

– Aləm səni tanıyır, Bayram! Hər dərəyə bir od vur, bic Gülmalının qızını tapdır, çarmıxa çəkdir!

Amma Bayram babam heç bir söz deməyib papiros yandıraraq çıxdı bayıra.

Mən təəccüb edirdim ki, nə üçün Eyvaz əminin, Səkinə nənənin Qaracaya yazıqları gəlmir? Mən həyatımda birinci dəfə olaraq adamların qəddarlığını vahimə ilə hiss edirdim və bunun səbəbini anlamırdım.

MÖHNƏT QOCANIN SÖYLƏDİKLƏRİ. QIZYETƏRLƏ ÇOBAN MAHMUDUN ƏHVALATI NECƏ NAĞIL OLDU?..

Möhnət qoca uzun demisindən dərin nəfəs alıb dedi:

– Sarıyataqlı Dəlisoy Gülmalının altı qızı olmuşdu. Yeddinci qızı olanda Gülmalı arvadını o ki var kötəkləyib dedi:

– Köpəyin qızı, tay doğma! Qız yetər!

O gündən də yeddinci qızın adı qaldı Qızyetər. Allah Qızyetərə bir gözəllik vermişdi: böyüyüb ərgən yaşa çatanda Aya deyirdi, sən çıxma, mən çıxıram, günə deyirdi, sən çıxma, mən çıxıram. Qarılar ona rast gələndə deyərdilər: «Ay batmış, laləni niyə yanaqlarına sürtüb qızartmısan?!» Amma Qızyetərin yanaqları elə qüdrətdən lələtək alışıb-yanırdı, boyu təzə pöhrələnmiş sərv ağacı idi. El Qızılboğaz yaylağına qalxanda, Qızyetər səhəng götürdü, Eşşək bulağına enəndə deyirdin, bəs, o yandan bəri maral gəlir.

Elçilər bir-birinin dalına düzülürdü, amma anası heç kəsə «hə» demirdi. «Mənim qızım xanlara, bəylərə layiqdi» deyirdi. Axırda Dəlisoy Gülmalı arvadını o ki var əzişdirib dedi:

– Köpək qızı, görmürsən qız yetişib, hədə-qadağadan çıxıb? Nəyi gözləyirsən?

Dəlisoy Gülmalı bunu deyib qızın «hə»sini verdi dövlətli qardaşı oğluna. Gülmalının evinə bir dəvə yükü sarı buğda unu, bir dəvə yükü akula düyüsü, yeddi erkək gəldi. Qızyetəri nişanladılar əmisi oğluna. El yaylağa köçəndə əmisi oğlu əkin-biçini yığıb-yığışdırmaq üçün aranda qalıb, nişanlısına söz verdi ki, «peşqurd qurtaran kimi gələcəm yaylağa, sənə zərxara paltarlıq, ay-ulduzlu çarqat alıb gətirəcəyəm!»

Amma ala yaylaqda, güllər-çiçəklər arasında Qızyetər hey gözlədi, əmisi oğlu gəlmədi. O vaxt Qızyetər bir namə yazıb göndərdi nişanlısına; aşıqlar da o nəməyə hava qoşub oxudular:

Əmim oğlu, məndən heç utanmadın?
Üç ay keçdi, bir yaylağa gəlmədin!
Yüz min cəfa ilə kökс ötürdüm mən,
Ordan endik Ağbulağa, gəlmədin?!

Mən səni istədim hamıdan əziz,
Neyləyim, yanında oldum bir kəniz.
Ətir can bəslədim, güllərdən təmiz,
Namərd oğlu, kef-damağa gəlmədin!

Sonra Qızyetər xəbər tutdu ki, əmisi oğlu aranda dəyirmançı Şirinin qızı qısır Narıngüllə bərk alışıb. Qızyetər yandı tökküldü, ürəyində dedi: «Ay gədə xislət! Mənə də Qızyetər deyərlər! Səndən də yaxşı oğlana getməsəm, dədəmin qızı deyiləm!»

Qızyetər belə qərar verəndən sonra, günlərin birində Kərbəlayı İbixan nəvəsi Almənmədə qoşulub qaçdı. Üç gün, üç gecə toy vuruldu, otuz erkək, yeddi cöngə kəsildi. Cəmi elat axışıb Məşədi Gülməhəmməd oğlu Almənmədin toyuna gəldi. Amma Qızyetərin əmisi oğlu da qabağından yeyən oğlanlardan deyildi, and içdi ki, «mən bu qisası yerdə qoymuyacağam! Almənməd Kərbəlayı İbixanın nəvəsidirsə, mən də tayqulaq Həsənin törəməsiyəm!»

Günlərin birində aranda Qızyetərin əmisi oğlu ilə Almənməd çöldə qəfil rastlaşdılar. İkisi də atlı-tüfəngli idi. Qızyetərin əmisi oğlu Almənmədən cəld tərpənib ona üç güllə vurdu. Çox çəkmədi ki, Almənmədin maması oğlu Dadaş da Qızyetərin əmisi oğluna üç güllə vurdu. Sonra ağsaqqallar tökülüşüb barışıq elədilər. Amma kin-küdurət qaldı. Obada Qızyetərin günü göy əsgiyə düyüldü. Qarımış qarılar ona baxıb deyirdilər: «Bu qızıxmış qancığın üstündə iki igid güdaza getdi». Qaynı Eyvaz onu dindirmirdi. Qayınanası Səkinə onun qanını içərdi. Amma Qızyetərə də Qızyetər deyərdilər. Ərinin qohum-əqrəbası onu söyüb-danladıqca, o da gündən-günə lalətək qızarıb gözəlləşirdi. Çoxdan doğmayan madyan kimi qızışıb ərsəyə gəlirdi. Yeriyəndə yer tərpənirdi. Təhlə-Muğan elindən olan çoban Mahmud Qızılboğaz yaylağında onu görüb bir könüldən min könülə aşiq oldu. Qızyetər Eşşək bulağından səhəngini doldurub çıxanda gördü ki, çoban Mahmud qayanın üstündə dayanıb ona baxır. Qızyetər neçə dəfə onun belə baxdığını görmüşdü, ona görə də qız-gəlindən ayrılıb təkləndi ki, görsün bu qəşəng oğlanın mətləbi nədi. O zaman çoban da o yan-bu yana baxıb, ona yan aldı:

– Ay gəlin, – dedi, – bilirəm, dulsan, amma aşiqəm sana, mana gələrsənmi?

Qızyetər gülümsünüb dedi:

– Buy, başıma xeyir, oğlanın yalanına bax...

Çoban dedi:

– Yalanı yoxdu, düz sözümdü.

Qızyetər dedi:

– Sən belə cavan, gözəl oğlansan, üç uşağın anasına necə aşiq ola bilərsən?

Çoban dedi:

– Lap doqquz uşağın da olsa, keçməyəcəyəm səndən.

Çoban bunu deyib, iri səhəngi Qızyetərin çiynindən alıb qoydu yerə, Qızyetər gülüb dedi:

– Buy, oğlanın üzünə bax ey...

Çoban onun ağ biləklərindən yapışıb özünə tərəf çəkdi. Qızyetər gülə-gülə dedi:

– Yavaş, görən olar...

Amma o yan-bu yana baxıb gördü ki, heç kəs yoxdu, o zaman neçə vaxt ərsiz qalmış gəlin özü cavan çobana girişdi, nə girişdi.

Hə... aşıq da burada vəcdə gəlib dedi:

Gözəl, səndə nə qaydadır,
Gedəni yoldan eylərsən?

O gündən ala yaylaqların daldalarında, soyuq bulaqların baldırğanlıqlarında Qızyetərlə çoban Mahmud gecə demədilər, gündüz demədilər, hey bir-birlərinə sarılıb kam aldılar. El ağzı, çuval ağzı. Elin gözü, tərlan gözü. Aşiqlər nə qədər pünhan görüşürdülərsə də, yenə də aləmə car olurdu, qarımış qarılar yenə də içlərini çəkib deyirdilər:

– Bu qızıxmış qancıq yenə də dünyanı qana çalxayacaq!

Ərgən qızlar çoban Mahmudun qarasına qəzəblənib deyirdilər:

– Bu tanrısız gözəl oğlan, anası yerində qatırda nə görüb?

Amma çoban Mahmud da Qızyetəri yüz ərgən qıza dəyişməzdi.

Qızyetərin qaynı Eyvazın el içində bir sözü iki deyildi, gülləsi havayı getməzdi. Onun arvadı Qızyetəri daldaya çəkib dedi:

– Ay tanrısız, əl çək o çobandan! Qaynın bilər, səni tikə-tikə doğrayar.

Səhəri gün Dəvəuçan dağın pünhan yerində Qızyetər sevgilisinə baxıb yanıqlı-yanıqlı dedi:

Dağların üstündə qar nişanası,
Gül üstə görünür xar nişanası,
Ölürəm, qəlbimdə yar nişanası,
Gözüm yolda, intizara yetmədin...

Çoban Mahmud gördü ki, nəsə, Qızyetərin dərdi tərpənib, dedi:

– Nə olub? Niyə yaralı-yaralı danışırsan?

Qızyetər dedi:

– Fələk bizi bir-birimizdən ayıracaq!

Çoban dedi:

– Fələklərin gücü aciz-avaralara çatar.

Qızyetər «ah» çəkib dedi:

– Yox, canım-ciyərim, məni aparmasan, biz bir də görüşməyəcəyik, sən tək oğlan Kərbəlayı İbixan tayfasına neyləyə bilərsən?

Çoban dedi:

– Yaxşı, hara aparım səni?

Qızyetər yanıqlı-yanıqlı dedi:

Şamamanın gülü sarı,
Üzməmişəm, gülü sarı.
Apar məni, canım çoban,
Gün çıxmamış aran sarı.

Çoban dedi:

– Sənin sözün sınınca, qoy düşmənin boynu sınsın.

Birdən Qızyetər şübhəyə düşüb soruşdu:

– Bəlkə, – dedi, – sən getmək istəmirsən?

Çoban dedi:

– Sən daş qoyan yerə, mən baş qoyaram.

Gündüz Qızyetər uşaqlarını çimizdirdi, paltarlarını yuyub-yamadı, iki teşt çörək bişirib yanlarına qoydu. Gecə el yatandan sonra qalxıb, şirin yuxuda olan uşaqlarına baxıb ağladı, ürəyini boşaldandan sonra onları Allaha tapşırıb çiskinli qaranlıqda komadan çıxdı.

... Gündüzlər daşda-qayada, kol-kosda gizlənib, gecələr yol getdilər. Az getdilər, çox getdilər, axır gəlib çıxdılar Arazın kənarına. Tanrıya tabe olmayan Xan Araz göylə gedib «qan-qan» deyirdi. Çoban Mahmud iki qoyun dağarcığı götürmüşdü, paltarlarını onların içinə yığdılar, sonra üfürüb hava ilə doldurub bağladılar bellərinə.

Çoban dedi:

– Suda məndən aralanma.

Qızyetər dedi:

– Məndən arxayın ol.

Qərəz, Arazı keçib çıxdılar o taya. Yenə də xeyli yol gedib, Aslandüz mahalında çatdılar bir xanın mülkünə. Eşikağası soruşdu:

– Nə istəyirsiniz?

Çoban Mahmud dedi:

– Əgər iş olsa, xana qulluq edərik.

Xan ahıl adam olub günlərini ovda, eyş-işrətdə keçirirdi. Amma arvadı şorgöz, cavan bir fars qızı idi. Xanın başına ip salıb oynadırdı. Çoban Mahmudu görən kimi ağzının suyu axdı. Amma özünü onda qoymayıb, eşikağasına tapşırdı ki, gəlin sağıcı olsun, oğlan da evdə xidmətçi.

Çoban Mahmud dedi:

– Xanım, mən çobanam, ev işi bacarmaram.

Cavan xanım işvə ilə gülümsəyib dedi:

– Öyrədərlər, bacararsan.

Xanımın gülüşünü, işvəsini görəndə Qızyetərin dalağı sancdı, amma bu barədə sevgilisinə bir söz demədi. Bir günün içində Mahmudu bəy balası kimi elə geyindirib-gecindirdilər ki, Qızyetər məəttəl qaldı. Bu təzə libasda çoban Mahmud, Həzrət Yusif kimi gözəl görünürdü, özünün də kefi daha bu sözdən deyildi.

... Onlar sarayın nökər-naib olan hissəsində balaca bir otaqda olurdular, bayır nökərlərinin də, Qızyetərin də xanla arvadı yaşayan hissəyə girməyə ixtiyarı yox idi, amma Mahmud bütün günü orada olurdu. Qızyetər məğrur gəlin idi, ona görə də Mahmuddan soruşmurdu ki, «sarayda, eyzən xanımın hüzurunda neyləyirsən?»

Mahmud da bir söz demirdi, özü də Qızyetərə əvvəlki kimi sarılmırdı. Qızyetər için-için yanırdı, amma yenə üzə vurmurdu.

Günlərin birində xan ovçularını, itlərini götürüb Savalan dağının ətəklərinə ova getdi. Xanın belə ovu neçə gün çəkirdi.

Xan gedəndən sonra Mahmud Qızyetərə dedi ki:

– Mən gecə sarayda qalacağam.

Qızyetər soruşdu:

– Niyə?

Mahmud dedi:

– Xanım yatan otağın qapısında dayanacam.

Qızyetər soruşdu:

– Bəyəm, səndən başqa ayrı xidmətçi yoxdu?

Mahmud acıqlanıb dedi:

– Ay tanrısız, nə məni sorğu-suala tutursan? Görünür, xanım ancaq mənə etibar eləyir, dayna.

Qızyetər hesabı içəri verib dedi:

– Neynək, vaxta ki, xanım sənə etibar eləyir, get.

Düzdür, Qızyetər belə dedi, amma bütün bədəni uçunurdu. Gecə ilan vuran yatdı, Qızyetər yatmadı; gördü xeyir, dayana bilmir. Durub geyindi, çıxdı bayıra. Hamı qəflət yuxusundaydı. Qızyetər xanım olan evə qalxıb gördü ki, otaqların hamısı qaranlıqdı, içəridən içəriyə bir neçə otaq keçib, çatdı xanım yatan otağa, dayanıb nəfəsini dərdi. Sonra qapını usdufca aralayıb nə gördü? Xanımla Mahmud qol-boyun olub şirin-şirin yatırlar. Qızyetər bir xeyli baxdı. Sonra dinməz-söyləməz öz qaldıqları otaqdan çoban Mahmudun xəncərini götürüb geri qayıtdı. İstədi əvvəl xanımı vursun. Amma fikirləşdi ki, birdən Mahmud oyanar, qoymaz, ona görə də əvvəl xəncəri var gücü ilə sancdı sevgilisinin ürəyinə. Mahmud gözünü açıb pəncərədən düşən Ay işığında onu gördü, nə isə demək istədi, amma nitqi olmadı. Sonra Qızyetər xəncəri çəkib sancdı xanımın sinəsinə, sonra da qapıdan çıxıb düşdü bağa. Bağın dəmir darvazası gecələr qıfıllı olurdu. Qızyetər bağbanın nərdivanını barıya söykəyib aşdı o biri üzə. Aydınlıq çöllərlə getdi, hey getdi... O gecədən sonra Qızyetəri bir bəni-insan görmədi. Amma izin verin, Möhnət qoca desin, bəs o yiyəsiz çöllərdə Qızyetərin başına nə gəldi?

Möhnət qoca uzun demisindən bir-iki qullab vurandan sonra nağılına davam etdi:

– Qızyetər özü də bilmirdi ki, hara gedir. Birdən dünya durduqca yaşayan Xızır peyğəmbər çıxdı onun qabağına, dedi ki, «ay gəlin, bu yiyəsiz çöllərdə səni qurd-quş basıb yeyər. Yum gözünü, açanda, özünü obada görərsən».

Qızyetər dedi:

– Mən nə üzlə obama qayıdım?

O zaman Xızır peyğəmbər dedi:

– İndi ki, öz obana getmirsən, ayrı obaya apararam səni.

Qızyetər dedi:

– Yox, mən tay insan üzü görmək istəmirəm.

– Onda babalın öz boynuna.

Xızır peyğəmbər bunu deyib yox oldu. Qızyetər bir qədər getmişdi ki, qabağına bir toy məclisi çıxdı. Gördü, vallah, burada bir dəsgahdır ki, gəl görəsən. Məleykə kimi bir qız əyləşib qızıl taxtın üstündə, sazəndələr çalır, qızlar oynayır... Ortalıqdakı süfrənin üstündə də dünyanın hər cürə naz-neməti var. Taxt-rəvanda əyləşən qız onu görüb soruşdu:

– Ey bəni-adəm, necə olub ki, sən bura gəlib çıxmısan?

Qızyetər soruşdu:

– Sən kimsən?

Qız dedi:

– Mən pərilər padşahıyam.

Qızyetər başına gələn əhvalatı, zalım sevgilisinin vəfasızlığını açıb pərilər padşahına nağıl elədi, pərilər padşahı olan o gözəl qız soruşdu:

– İntiqamını alandan sonra ürəyin soyudumu?

Qızyetər dedi:

– Nə qədər bu dünyada sevgililərinə xəyanət eləyən oğlanlar var, ürəyim soyumaz. Dünya durduqca, mən onlardan intiqam almaq istərdim.

Pərilər padşahı olan o gözəl qız, Kor Şeytanı çağırtdırıb dedi:

– Bu gündən sən bu arvadın ixtiyarındasan, nə əmr etsə, yerinə yetirərsən!

İndi o vaxtdan bəri Qızyetər dəmir çarıq geyib, dünyanı gəzir, sevgililərinə xəyanət eləyən namərd oğlanlardan intiqam alır!

Möhnət qoca dağlara baxıb ağır-ağır dedi:

Dərdim çoxdur, dindirməyin, həzarat,
Məni bir alagöz ceyran öldürür.
Qılıncsız, tüfəngsiz alır canımı,
Kimsə bilmir, pünhan-pünhan öldürür.

Heç bilmirəm neyləmişəm, neyləyim,
Xəncər alım, qara bağrım teyləyim.
Bir canım var, yara qurban eyləyim,
El də desin, aşiq qurban öldürür...

MURADIN SÖYLƏDİKLƏRİ

Möhnət qocanın söylədiyi bu misraların «Qızyetərlə çoban Mahmud» nağılına nə dəxli vardı? Nə üçün Möhnət qoca bu misraları heylə ürəkdən, heylə dərdli-dərdli deyirdi? Və bu sözləri söylərkən tamaşa elədiyi dağlarda nə görürdü? Kimləri görürdü? Yoxsa dağlardakı dumanda yox olub gedən cavanlığını, cavan sevgilisini görürdü?

Mən birinci dəfə olaraq Möhnət qocanın və dumanlı dağların nisgilini duyurdum, amma anlaya bilmirdim ki, bu nisgil, bu qəribə kədər nədən ibarətdir? Sonralar da bu nisgil, bu kədər həmişə mənimlə idi. Sonralar da mən uzaq dağlara baxanda, aşıqların sazına, xanəndələrin muğamına qulaq asanda o kədəri, o nisgili hiss edirdim, amma mənasını anlaya bilmirdim, doğrusu, heç anlamağa da cəhd eləmirdim. Axşamlar gün batıb çıraqlar yananda da, el bir yurddan o biri yurda köçəndə də mən eyni kədəri, eyni nisgili hiss edirdim.

Səhər gün çıxanda Altıntaxtanın lələləri sevinclə parıldaşırdı, gün batanda isə onlar sanki hər şeyə qarşı biganə olub, çox uzaq xatirəyə dalırdı, axşamın alatoranında dağlara duman gələndə sanki Yer üzünə qəm-qüssə çökürdü. Bəzən mənə elə gəlirdi ki, o dağlarda Altıntaxtanı bürüyən o qırmızı lələlər də, yosunlu qayadan çıxıb mərcan kimi rəngbərəng xırda daşların üzərilə axan Eşşək bulağı da canlıdırlar və nə üçünsə dinib danışmırlar. Xaynamazın, otlaya-otlaya, sakit halda məni üstündə gəzdirən kor madyanı da heç kəsə, heç nəyə fikir verməyən ən biganə məxluq idi. Onun heç bir qüssəsi, heç bir xatirəsi yox idi. Sanki igid oğlanlar, igid atlar görmüş dağlar ona acı bir kədərlə baxırdı. Və mənə elə gəlirdi ki, Qaracanın dərdini insanlar yox, dağlar, ayaqyalın gəzdiyi şehli çiçəkli otlaqlar, bir də axşam kədərlə qürub eləyən günəş hiss edir. Və bəlkə Qaracanın xəbəri yoxdur ki, onun insanlardan incimiş anası o uzaq dağlarla, o yiyəsiz çöllərlə ünsiyyət bağlayıb. Həqiqətən də, dünya durduqca yaşayıb, çoban Mahmud kimi namərd sevgililərdən intiqam alacaq?! Kaş bircə dəfə də olsa, o, xəlvətcə gəlib Qaracanı görəydi. Qaraca da inanaydı ki, anası sağdır və dünya durduqca yaşayacaqdır! Yəqin ki, onda Qaraca heç nəyin dərdini çəkməzdi və indiki kimi, adamlardan uzaq olmağa çalışmazdı.

Qaracanın anası qaçandan sonra dünya mənim gözümdə, elə bil, sarı, soyuq bir rəngə bürünmüşdü. Mən artıq nə sapand atmaqla maraqlanırdım, nə də cələ qurub quş tutmaqla.

... Daha dağların başından çən-duman çəkilmirdi. Çobanların cürcənəsi, igidlərin yapıncısı çiyinlərindən düşmürdü. Axşamlar alaçıqlarda, komalarda ocaq qalanırdı. Hər səhər otların üstünə şeh-qırov düşürdü. Nəhayət, bir axşam alaçıqlar, komalar söküldü. Keçələr, alaçıq çubuqları, dolu fərməşlər, motallar, yağ çirişləri dəvələrə yükləndi. Atlar yəhərlənib dayandılar. Ay doğanda el tərpəndi arana.

Mən axşamdan anama yalvardım ki, qoysun dəvəyə minim. Əhmədalı da anama dedi:

– Qoy gəlinlə otursun bizim dəvənin üstündə.

Əhmədalının gəlini mindiyi dəvə balaca güzgülərlə, əlvan qotazlı gözlüklərlə, mis zınqırovlarla bəzənmişdi, sinəbəndinə qırmızı, firuzə rəngli muncuqlar düzülmüşdü. Babam, atam, anam yəhərlənmiş atlarda gedirdilər. Dəvələr yırğalana-yırğalana yeridikcə boyunlarındakı zınqırovların səsləri, elə bil, Ayla, ulduzlarla işıqlanmış çöllərin sükutu içində uzaqlardan gələn, mənə məlum olmayan bir musiqiyə çevrilirdi. Əhmədalı tez-tez atını bizim dəvənin yanına sürüb məndən soruşurdu:

– Qaqaş, üşümürsən ki?

Cavan gəlin də Ay işığında gülümsəyib deyirdi:

– Xalasının qucağında niyə üşüyür.

Çox cavan olduğu üçün onun özünü xala adlandırması mənə gülməli görünürdü. Ondan təzə süd qoxusu gəlirdi.

Köç hündür dağın döşündən salınmış el yolu ilə getdikcə mənə elə gəlirdi ki, ulduzlu göyün bir parçası da aşağı dərədədir. Qaranlıq dərədə görünən işıqlar, elə bil, ulduzlar idi. Zınqırovların səsi, bizdən aşağıda görünən ulduzlu göy parçası, dəvənin yırğalana-yırğalana getməsi, fərməşin üstündə uzanıb başımı dizinin üstünə qoyduğum gəlindən gələn təzə süd qoxusu mənə yuxu gətirirdi, yarımürgü içində mənə elə gəlirdi ki, elə həmişə bu cür gedirik. Haradan gəlirik?.. Hara gedirik?.. Bilinmirdi... Biz elə hey gedirik... Həmişə də gedəcəyik... Həmişə də zınqırovlar belə eyni ahənglə səslənəcək. Bizdən aşağıdakı ulduzlar da göydəki ulduzlar kimi həmişə uzaqdan, qaranlıqdan işıq verəcək. Biz həmişə belə gedəcəyik.

Birdən köçün qabağınca nərin üstündə gedən Səkinə nənə bu ulduzlu göyün altında, bu ulduzlu dərənin üstündə uca səslə bayatı çağırdı:

Aşıq gecələr gələr,
Yatıb dincələr, gələr.
İllər mübah keçəndə,
Karvan gecələr gələr...

Səkinə nənə ilə yaşıd olan Mustafaoğlu da köçün arxa tərəfindən başqa bir bayatı çağırdı:

Ay doğdu pərli-pərli,
Qapılar qoşa nərli.
Girəydim yar qoynuna,
Çıxaydım tərli-tərli.

Sonra dərin sükut içində zınqırov səsləri sanki asta-asta Çahargah muğamına çevrilərək mənim xəyalımı çəkib dərk eləmədiyim, ancaq əsrarlı şirinliyini hiss elədiyim uzaqlara aparırdı və bu naməlum uzaqlarda, eynilə belə aylı-ulduzlu qaranlıqda gah çöllərlə gedən Qızyetəri, gah qızıl taxtda əyləşən, özü də mənim anam kimi gözəl olan pərilər padşahını və onun qabağında rəqs eləyən çılpaq qızları görürdüm. Mən Qızyetərin öz sevgilisi ilə həmşəri xan arvadını necə öldürdüyünü xəyalıma gətirmək istəmirdim, daha doğrusu, gətirməkdən qorxurdum, ancaq o dəhşətli mənzərə lap zehnimin yan-yörəsində hərlənirdi... Birdən gözümün qarşısında Qaraca dayandı və mən hövlnak başımı qaldırıb gəlindən soruşdum:

– Haradadı Qaraca?

Cavan gəlin Ay-ulduz işığında gülümsəyib yavaş səslə dedi:

– Qaraca qoyunla gəlir.

Mən eyni həyəcanla soruşdum:

– Piyada?

Gəlin arxayın, təbii bir ifadə ilə təsdiq etdi:

– Hə, əmisigilin çobanlarına kömək eləyir, inəkləri, buzovları gözləyir. Sən başını qoy yat, qaqaş!

Mən indi başımı onun dizinə deyil, fərməşin üstünə qoydum və Qızyetərin xəncəri öz namərd sevgilisinin sinəsinə necə endirdiyi bütün aydınlığı ilə xəyalımda zahir oldu və mən bu mənzərəyə tamaşa etdikcə elə bilirdim ki, Qaracanın dərdi azalır, elə bil ki, Qaraca yazıqlıqdan çıxıb güclü, zirək olur... Və birinci dəfə olaraq mən intiqamın ürək soyutmağını hiss edirdim, mühakiməsiz, təhtəlşüur olaraq hiss edirdim.

Qozlu çay dərəsində biz köçdən ayrılıb, atamgilin kəndi Güney Güzdəyə getdik. Anam getmək istəmirdi. Atam təkid elədi. Bayram babamla Fatma nənəm isə köçlə Kürdobaya getdilər. Qızılbaşoğlu da onlarla idi.

Atamgilin daşdan tikilmiş, üstü qırmızı dəmirli ikimərtəbə evlərinin geniş artırmasına çıxanda məni qabıqdan çıxmış təzə qoz iyi vurdu və bu iy məndə indiyəcən duymadığım xoş bir təsir doğurdu. Elə bil ki, mən tamam təzə bir aləmə daxil oldum.

Yaşı çoxdan səksəni keçmiş Xəlsə nənəm yel kimi artırmaya çıxıb:

– Ay qadanızı alım, nə yaxşı gəldiniz,– deyə mənimlə bacımın üzündən öpdü.

Xəlsə nənəmin həmişə quş kimi qıvraq olması, heç bir zaman ayaqqabı geyinməməsi, dabanlarının dərisinin gön kimi bərk olması, səhər ha eləyib biz durana qədər kəndin ayağından girərək başından çıxıb bütün xəbərləri toplayıb gətirməsi məni ən çox maraqlandıran işlərdəndi. Mən təəccüb edirdim ki, «niyə Xəlsə nənəmin ayağına tikan batmır?»

Xəlsə nənəmin əynində həmişə tünd parçadan uzun tuman, arxalıq, uzun döşlük olardı. Qış-yay başına qalın şal dolayardı. Mən ondan soruşdum ki:

– Nənə, niyə ayaqqabı geymirsən?

– Ay qadan alım, – dedi, – ayaqqabı geyəndə hövsələm daralır.

Sonra yaşca atamdan böyük olan Qubad əmim, onun arvadı Şahxanım gəlib bizə «xoş gəldin» elədilər. Şahxanım əmimin ikinci arvadı idi. Onun birinci arvadından olan oğlu Bəhlul da təxminən mən yaşda idi. Qubad əmimgil aşağı mərtəbədə olurdular. Üst mərtəbədəki evləri də döşəyib qonaq üçün saxlayırdılar. Üst mərtəbədə böyük bir zalı da barama qurutmaq üçün düzəltmişdilər ki, kənd arasında buna «barama maşını» deyirdilər. Qubad əmim ucaboylu, enlikürək, ayağı çarıqlı bir kəndli idi. Xəlsə nənəmin əri rəhmətə gedəndə uşaqları balaca imiş. Ancaq arvad mənim atamı bizim kənddən

səkkiz kilometr aralıda, Qarğabazar kəndindəki beşillik rus-tatar məktəbində oxuda bilmişdi. Atam da çox zehinli imiş. Cəmi beş il oxusa da, rus dilini yaxşı öyrənə bilmişdi. Anamın qayınları ilə o qədər də arası yox idi, amma Xəlsə nənəmlə dost idi. Arvadın diribala olması, xüsusi əda ilə tez-tez danışması, bir saatın içində kəndin ayağından girib başından çıxması anamın xoşuna gəlirdi. Anam həmişə onunla danışanda gülümsəyirdi. Xəlsə nənə yeməklərin içində ən çox kələm dolmasını xoşladığı üçün bizə gələndə həmişə anam kələm dolması bişirərdi. Atamın, anamın ona çox hörmət eləmələrinə baxmayaraq, bizdə az qalardı. Üç-dörd gündən sonra deyərdi:

– Mənciyəz tay gedim.

Atam da ona paltarlıq parça, ayaqqabı alardı. Özünə də tapşırardı ki:

– Əşi, ana, bax, bu ayaqqabılarını geyin!

Nənəm də söz verərdi ki, «geyəcəyəm», amma geyməzdi. Xəlsə nənəm Fatma nənəm kimi nağıl-zad bilən deyildi. Keçib-keçəcəkdən də danışmazdı. Onu kənddə olan gündəlik hadisələr, əhvalatlar maraqlandırardı.

GÖDƏK NİSƏ QIRX ADAMI BİR-BİRİNƏ NECƏ QIRDIRDI...

Güney güzdəklilər Qayaburnu bağlarından dördtəkərli öküz arabalarında hey üzüm daşıyırdılar. Qayaburnu bağları uzun yalın o biri üzündə olub, kənddən bir kilometr aralıda idi. Bu bağlarda, demək olardı ki, Güney güzdəklilərin hamısının yeri vardı və bu yerlərin arasında çağ-çəpər qoyulmamışdı. Mən də həmişə təəccüb edirdim ki, meşə kimi qalın olan bu bağlarda hər kəs öz yerini necə tanıyır? Ancaq elə tanıyırlar ki, heç kəs heç kəsin bir ağacını belə səhv salmırdı. Qocaların danışdığına görə, Güney Güzdəyi də, burdakı bağları da atamgilin ulu babası Əhməd xoca salıb. Ona görə də bağların çoxu Əhməd xocanın törəmələri olan Əfəndi uşağına mənsub idi, yəni bizim tayfaya. Əhməd xoca əslən Ərzurumdan imiş. Necə olub ki, heylə uzaq məmləkətdən gəlib çıxmışdı bura? Heç kəs bilmirdi.

Yəqin ki, bu bağlar bu dağdan burun kimi irəli uzanan qayanın qabağında olduğu üçün ona Qayaburnu bağları deyiblər.

Qayaburnu bağlarının əsas meyvəsi üzüm idi. Qol yoğunluğunda tənəklər, uca ərik, alma-gavalı ağaclarına sarılıb yuxarı qalxaraq, enli yarpaqlı qol-budaqları ilə bir-birlərinə elə sarılmışdılar ki, torpağa gün düşmürdü. Ağacların dibi tər otlarla örtülü olurdu. Mənə o da təəccüb gəlirdi ki, mən yaşda olan əmim oğlu Bəhlul o meşə kimi bağda heç zaman azmırdı. Öz bağlarının sərhədlərini heç vaxt dəyişik salmırdı.

Əmimgil uzun, nazik ağac budaqlarından ucu haça koxa qayıraraq ağaclara çıxıb onun köməyilə üzümü dərib özləri toxuduqları cəvərənlərə dolduraraq iplə aşağı sallayırdılar. Yerdəki arvadlar da cəvərənləri böyük səbətlərə boşaldırdılar. Səbətlərsə arabalara yüklənib kəndə daşınırdı. Mənim üçün ən maraqlı tamaşalardan biri də Qubad əmimin şalvarını çırmayıb ayaqlarını tərtəmiz yuduqdan sonra çardağın üstünə qalxıb çubuqlardan toxunmuş çətənlərə yığılan üzümü ayaqlayıb şirəsini çıxarmağı idi. Qubad əmim üzümü ayaqladıqca şirəsi tökülürdü çardağın altında qoyulmuş iri tiyanlara. Bu tiyanlar dolduqda aparıb qoyurdular ocağın üstünə ki, bişib bəhməz olsun. Sonra təzə qozun ləpəsini sapa düzüb salırdılar bəhməzin içinə, bəhməzin içində bişən ləpələr çox ləzzətli olurdu. Sonra bəhməzin bir hissəsinə gavalı, ya tut, ya ərik salıb irçal da bişirirdilər. Bu da bizim mürəbbələrə oxşayırdı. Üzüm yığılması, bəhməz bişirilməsi kənddə bayrama çevrilirdi. Hamı məmnun görünürdü.

Lakin birdən xəbər çıxdı ki, Vəli uşağından olan Vəliş, Əfəndi uşağından olan Cəbini Qayaburnu bağlarında doğrayıb öldürüb. Həmin saat aləm dəydi bir-birinə. Bizim qohum-qəbələdən olan kişilər – kimi xəncər, kimi tapança götürüb çıxdılar Yal deyilən meydana. Qubad əmim də işini yarımçıq qoyaraq, ayağını yuyub, geyinib getdi meydana. Axşamçağı məlum oldu ki, əhvalat Aynanın üstündə olub. Ayna Güney Güzdəkdə birinci gözəl idi. Mən əmim oğlu Bəhlulla tez-tez Şahbulaq adlanan kəhrizə gedərdim və burada su doldurmağa gələnlər arasında Aynanı görəndə ağzımı əngəldib heyran-heyran ona tamaşa edərdim. Əmimgilin qonşusu zarafatcıl gəlin Xasa da mənə sataşıb deyirdi:

– Ayna, vallah, Xəlsə qarının bu şəhərli nəvəsi sana aşiq olub.

Mən də utanıb qaçırdım. Amma səhər yenə də əmim oğlu ilə kəhrizin üstünə gəlib Aynanı görməyincə getməzdim. Əlbəttə, mən aşiqliyin nə demək olduğunu bilmirdim. Amma Aynanın gözəlliyinə tamaşa eləmək mənim xoşuma gəlirdi. Əri Pullu Fəttahı Bəhlul mənə göstərmişdi. Gödək, fındıqburun bir kişi idi. Əmimgilin evinin yaxınlığında olan ikimərtəbə evinin altında dükanı vardı. Papiros, kibrit, qənd, saçaqlı konfet, nöyüt satardı. Mənim ondan zəhləm gedərdi. Bəhlulu da öyrədərdim, xəlvətcə dükanına daş atıb qaçardıq. Kişi də məni görəndə gülə-gülə deyərdi:

– Başına dönüm, adam əmisinin dükanına daş atmaz.

Kənd arvadlarının anamgillə danışıqlarından eşitdim ki, Cəbi boylu-buxunlu gözəl bir oğlan imiş. Özü də hələ Ayna ərə getməmişdən ona bənd imiş. Amma Aynanın ata-anası qızı ona deyil, Pullu Fəttaha veriblər. Deyirlər, Aynanın da gözü Cəbidə imiş. Kənd arasında söz çıxarıblar ki, «Ayna Cəbi ilə oynayır». Axırda Vəli uşağının ağbirçəyi gödək Nisə Fəttahın əmisi oğlanları olan Murtuza ilə Vəlişə deyir:

– Siz də adınızı kişi qoyub ortada gəzin, əminiz oğlunun arvadı da saman mərəklərində, Qayaburnu bağlarında Cəbi ilə kef çəksin. Əfəndi uşağı da sizi lağa qoyub gülsün. Əminiz oğlu biqeyrətdir, hər şeyi vurur boynunun ardına, siz də durub baxırsınız!

Vəliş bağda Cəbiyə rast gəlib onu ovxarlanmış dəhrə ilə doğradı.

Bu əhvalatdan üç gün sonra Əfəndi uşağından olan Ağgöz Cabbar gecə bacadan Vəlişi güllə ilə vurub öldürdü. Ağgöz Cabbar ucaboylu, arıq, enlikürək bir adam idi. Adama, xüsusən də arası olmadığı, ya kin bəslədiyi adama baxanda gözünün ağı həddindən artıq böyük görünüb, onun sərt üzünə qorxunc bir ifadə verirdi. Ağgöz Cabbara kənd arasında «adamcıl»da deyirdilər. Mən eşitmişdim ki, «adamcıl» canavara deyərlər. Danışırdılar ki, bəzən elə canavarlar olur ki, onlar ən çox insan əti xoşlayırlar. Ona görə də Ağgöz Cabbarın «adamcıl» olması mənə çox dəhşətli görünürdü. Mən qapı-bacada ona rast gəlməkdən qorxurdum. Heç bir zaman onun gülümsədiyini görməmişdim. O, atamgilin qohumlarından olduğu üçün hərdən əmimgilin evlərinin həndəvərində də görünərdi. Atam da həmişə ona «xalaoğlu» deyib zarafat edərdi. Bu zaman Ağgöz Cabbarın üzündəki qorxunc ifadə bir qədər yumşalsa da, atamın zarafatlarına heç vaxt zarafatla cavab verməzdi.

Vəlişin xalası oğlu Bəşir gecə tövlədə heyvana ot verdiyi yerdə, Ağgöz Cabbar əmisi oğlu Şahmarla qəfil girib onu da doğradılar. Sonra Vəlişin qohumları Şahmarı öz qapısında uzaqdan sərrast güllə ilə vurub öldürdülər. Daha heç kəs, hətta biz də gecə çıraq yandırmırdıq.

Sonra günəşli bir gün idi, bir dəstə qız-gəlin çöldən pencər yığmaqdan gəlirdi, mən də uzun, enli artırmada dayanıb onlara tamaşa edirdim. Gözəl Ayna da onların arasında idi. Onlar çöl pencəri ilə dolu torbalarını qoltuqlarına vurub gəlirdilər. O ili taxıl yaxşı olmadığından çörək qıtlaşmışdı. Ona görə də kənd əhli çöl pencərinə-zada güc verirdi. Bir də gördüm, ucaboylu, cavan bir oğlan olan Murtuza əlində tüfəng kənddən çıxıb, pencərdən qayıdan qız-gəlinə tərəf gedir və bir də gördüm, o, tüfəngini üzünə götürüb, Aynanı tuşlayaraq atdı. Ayna ağacda vurulmuş quş kimi səssizcə düşdü torpağa. Murtuza tüfəngin gilizini çıxararaq tələsmədən yoluna davam etdi və yerlərində quruyub qalmış qız-gəlin birdən hərəkətə gələrək, Aynanı otların üzərinə sərilmiş qoyub kəndə qaçdılar və Murtuza, yalın o biri üzünə aşmamış Aynanın dayısı oğlu Sərdar kənddən çıxıb yüyürərək, dizini yerə qoyub dalbadal Murtuzaya iki güllə atdı. Murtuza da ayaq üstə çevrilib ona güllə ata-ata aşdı yalın o biri üzünə və bu zaman kəndin kişiləri qasırğa kimi töküldülər meydana.

Sonra Əfəndi uşağı ilə Vəli uşağının arasında dəhşətli bir dava düşdü. Kimi xəncərlə, kimi yaba ilə, kimi daşla, kimi tapança ilə bir-birinin harası gəldi, vururdu. Qan su yerinə axırdı. Atamgilin

əmizadələrindən olan Əziz tapança ilə üç adam vurub öldürmüş, dördüncüsünü də yaralamışdı. Heç üç gün keçmədi ki, Əziz gecə dostları ilə damda kart oynadığı zaman Vəli uşağından oğurluqda ad çıxarmış Vahid bacadan güllə ilə onu vurub öldürdü. Hökumət olmadığından bu qırğının qabağı alınmırdı. Artıq bizim də kənddə qalmağımız qorxulu idi, yəni mən bunu atamla anamın söhbətindən hiss edirdim. Atam, demək olardı ki, evdən bayıra tək çıxmırdı. Həmişə də özü ilə tapança gəzdirirdi. Bir də gördük Bayram babamgil əhvalatı eşidib bizi şəhərə köçürmək üçün Qızılbaşoğlu Alı ilə birlikdə beş tüfəngli atlı göndərib. Mən Əhmədalı ilə Hacını da onların arasında görüb xeyli sevindim. Əhmədalı ilə Hacı əvvəlki kimi kefi kök olub, anamla zarafatlaşıb gülüşürdülər, elə bil ki, Güney Güzdəkdəki bu dəhşətli hadisə onlar üçün tamam adi bir iş idi. Yalnız Qızılbaşoğlu qırğın barədə, kimin kimi öldürməyi barədə atamın dediklərinə diqqətlə qulaq asırdı. Əhmədalı ilə Hacı isə «doşab satan güzdəkililər» deyə, kənd camaatını lağa qoyurdular. Mən hiss elədim ki, tərəkəmələr oturaq kəndlilərə yuxarıdan aşağı baxırlar, onları atıb-vurmaqda, igidlikdə əli olmayan adamlar hesab edirlər. Buna görədir ki, hərəsinin döşündə üç kəmər patron, böyürlərində də tapança olan Əhmədalı ilə Hacı özlərini kəndin arasında elə tuturdular ki, elə bil, yüz kənd əhlini bir qoz hesab eləmirdilər, kənd cavanları da onlara kinli-kinli baxırdılar.

BAĞÇAMIZDAKI PAYIZ MEYVƏLƏRİNİN MƏNƏ DİKİLƏN XOŞHAL BAXIŞLARI...

Biz babamın dostu olan Hacı Yüzbaşının faytonunda Qızılbaşoğlu Alıgilin müşayiətilə getdik şəhərə. Evimizdə ilk qabağımıza çıxan adam, çiynində hansı qonşununsa səhəngi kəhrizdən gələn İman kişi oldu. O gülüb dedi:

– Xoş gəldiniz!

Sonra aşağı evdən paltarı da, özü də, saçı-kirpikləri də dümağ Kəklik xala çıxıb, mənimlə bacımın üzündən öpdü:

– A başınıza dönüm, – dedi, – Allaha şükür ki, sağ-salamat gəlib çıxdınız.

Evimiz, bağımız mənə elə təzə göründü ki, elə bil, birinci dəfə görürdüm. Mən bacım Mahtabla bağa qaçdım. Cavan alma, heyva, gavalı ağaclarının tər yarpaqları arasında təzə yetişmiş meyvələr görünürdü. Əncir ağacının üstündəki əncirlərin hər biri bir nəlbəki boyda olmuşdu. Partlamış əncirlərin qırmızı içi görünürdü.

Çəpərlərin dibində bitən böyürtkən kollarının meyvəsi yetişib şəvə kimi qaralmışdı. Mənə elə gəlirdi ki, bağımızdakı bu tər payız meyvələri xoş bir sükut içində mənə baxır. Elə bil ki, mən onların xəfif təbəssümünü də görürdüm.

Ağacların dibindən yaşıl otlar qalxmışdı. Atam bağçanı diqqətlə nəzərdən keçirərək dedi:

– Sağ ol, Kəklik. Uşaqlar bağa yaxşı baxıblar.

Kəklik xala da, adəti üzrə, bərkdən danışaraq cavab verdi ki:

– Amanata xəyanət olmaz, başına dönüm! Uşaqlar bağın suyunu bir həftə də gecikdirməyiblər. Yay bərk isti keçirdi. Ağacları hər gün suvarırdıq, səhərisi dibi mismar kimi bərkiyirdi.

Qabaq dediyim kimi, Kəklik xala dörd oğlu ilə bizim altdakı evlərdən birində olurdu. Özləri də çox yoxsul idilər. Ancaq onların həyatında mən qəribə bir cazibə hiss edirdim. Mən baxıb görürdüm ki, yoxsulluq nə Kəklik xalanı, nə də onun oğlanlarını kədərləndirir, əksinə, Kəklik xala həmişə bərkdən, gümrah danışır. Oğlanlarının hərəsi şəhərdə bir işdən yapışırdı. Kimi orada-burada yer belləyirdi, kimi gedib bağlardan-bostanlardan ucuz qiymətə meyvə, tərəvəz alıb bazarda bir-iki qəpik artığına sataraq pul qazanırdı, o biri də nə bilim, nə iş görürdü, axşamlar da hamısı təmiz torpaq döşəməyə salınmış köhnə palazın üstündə oturaraq Kəklik xalanın çəkib qabaqlarına qoyduğu dovğanı, ya əriştəni böyük bir iştaha ilə yeyirdilər. Mən bir dəfə də olsun onların üzündə bizim naz-nemət içində yaşamağımıza həsəd nişanəsi hiss eləmirdim. Elə bil, onlar heç bu barədə düşünmürdülər də. Bu da onlarla rəftarımda məni ürəkləndirirdi, görünür, bu ona görə idi ki, mən onlarla öz aramızda mənəvi bir sədd duymurdum. Onların lap kiçiyi olan Kazım məndən üç-dörd yaş böyük olduğundan hərdən mənimlə oynayırdı, qarpız qabığından mənə araba qayırırdı, mən də heç bir zaman ona yekəxanalıq satmırdım. Onların həyatı mənə öz həyatımızdan şirin görünürdü.

İman kişi də öz aləmində idi, hər gün qonşulara su verəndən sonra Ayı Temirin çörəkxanasından yumurtalı, xaşxaşlı bir təndir çörəyi alıb gələrdi evinə. Ya qonşuların, ya bizim verdiyimiz payı yeyəndən sonra vərəqləri cırıq-cırıq olub saralmış kitabını balaca pəncərədən düşən zəif işığa tutub başlayardı mütaliəyə:

«Quranın quran olsun... Yer oğlu qıy vurdu, çıxdı göyə... Gülbəs qara toyuqlara cadu eləyib...»

Bacım Mahtab yenə də tez-tez anamın gözündən oğurlanıb qaçırdı İman kişinin yanına. İman kişi də onu dizinin üstündə oturdub:

– Papılı balam, ye! – deyə saxsı çanağındakı xörəkdən ona da yedirdirdi.

EVİMİZDƏKİ GECƏ MƏCLİSLƏRİ

«Hürriyyətlik» davam edirdi. Lap şəhərin ortasında, günün-günorta çağında soyğunlar olurdu. Sayılan adamların hərəsinin başında bir dəstə atlı-tüfəngli adam hərlənirdi.

Sonra Bayram babamgil də gəldi şəhərə. Anamla mən getdim onlara. Gördük Bayram babam əsəbi halda otaqda var-gəl edir, Fat-

ma nənəm də bayırda taxtın üstündə oturub dərd içində papiros çəkir. Məlum oldu ki, Nuru dayım yaylaqdan gələn kimi evlərində olan xalı-gəbəni, bütün qiymətli şeylərin hamısını satıb-sovub, özü də harasa əkilib gedib.

Bayram babam heç bir söz deməyib, hey əsəbi halda var-gəl eləyirdi. Nuru dayımın belə şuluq çıxmasının təqsirini anam yenə də Fatma nənəmdə görürdü.

– Sən, – deyirdi, – onun bütün hərəkətlərini kişidən gizləyirdin, kişinin göndərdiyi puldan əlavə, hər ay sən də Şuşaya ona xəlvətcə pul göndərirdin, o da Şuşanın həllə-huşlarına qoşulub gününü eyzən ümumxanalarda, klublarda keçirirdi...

Anam bu cür danladıqca, Fatma nənəm də müştüyü əlində tüstülənə-tüstülənə, vaxtilə igidləri yoldan eləyən ala gözlərilə key kimi tamaşa eləyirdi, üzündə heç bir ifadə hiss olunmurdu.

Atamgil nə qədər soraqlaşsalar da, dayımı «gördüm» deyən olmadı. Bayram babam atamgilə acıqlanırdı ki, axtarmasınlar dayımı.

Fatma nənəmsə bu əhvalatdan sonra hər gün namaz qılıb gecə-gündüz oğluna dua eləyirdi, şəhərdəki seyidlərə nəzir verirdi.

Atam böyük həvəslə öz ticarət işlərinə başlamışdı, Hadrutda yaşayan böyük keşiş köçüb getdiyi üçün onun xaricdən gətirilmiş qiymətli mebellərini, çoxlu gümüş-qızıl qablarını satın alıb, otaqların hamısını Avropa qaydasında döşətdirirdi. Bizim tərəflərdə olan qaçaqların, dəstələrlə gəzən dərəbəylərin hamısı Bayram babamı tanıdıqları üçün atama toxunmurdular. Ona görə də atam öz tacir dostları olan Ədil bəylə, Nərimanla sərbəstcə Arazı keçib, İrandakı həmkarları ilə ticarət edirdi. Bizim yerdən ipək aparıb, oradan cürbəcür parça-filan gətirirdilər. Bizim şəhərdə yaşayan malakanlardan bəziləri ölkədəki qarmaqarışıqlığa görə köçüb gedirdilər. Atam onlardan birinin neçə otaqdan ibarət firuzə rəngli kürsülü evini də böyük bağı ilə birlikdə satın aldı... Tikinti və kənd təsərrüfatı mallarından ibarət mağazasını böyüdüb, yanına bir parça dükanı da əlavə edərək, Rüstəm adlı bir oğlanı satıcı təyin etdi.

Son günlərdə bizim böyük zalımıza gecələr şəhərin hörmətli adamlarından tez-tez qonaqlar gəlirdi. Bayram babam, mahal qazısı Mirzəli, qəssab Məşədi Qurban da onların arasında olurdu. Mən onların Bakıda qurulan təzə müsavat adlı hökumət barədəki söhbətlərini eşidirdim. Bayram babam izah edirdi ki, nə üçün bu təzə hökumət adını müsavat qoyub?

– Ona görə ki, – dedi, – bu hökumət istəyir bərabərlik olsun. Hökumətin seçilməsində, işində hamı bərabər hüquqda iştirak eləsin, özü də bu hökumət müstəqil olsun. Azərbaycan ayrı bir hökumətə tabe olmasın.

Həmin məclislərdə atamın dostu, məşhur dəyirman ustası Mahmud da iştirak edirdi. O, şübhə ilə dedi:

– Yəni siz inanırsınız ki, divan-dərədə, məsələn, Cavad ağa ilə dəmirçi Musanın hörməti bir olsun?

– Niyə inanmaq olmaz? – deyə qəssab Məşədi Qurban ötkəm cavab verdi – Cavad ağa göydən-zaddan düşməyib ki?

Usta Mahmud dedi:

– Düzdü, Məşədi Qurban, bizim nə varımız Cavad ağanınkından əskikdi, nə də camaat arasındakı hörmətimiz. Amma divan-dərədə yenə görəcəksən bəyləri keçirdilər yuxarı başa, rəiyyət də qaldı rəiyyətliyində...

Babam etiraz elədi:

– Bəlkə əvvəllər heylə oldu, çünki böyük dəyişikliklər birdən eləmək çətindir. Amma vaxta ki, bu firqənin məramı bərabərlikdir, demək gərəkdi əvvəl-axır belə olsun.

Qazı Mirzəli də qırmızı tubulklu ağacından qayrılmış müştüyünə dalbadal papiros qoyub deyirdi:

– Peyğəmbər özü də bərabərlik tərəfdarı idi. Həzrət Əlinin bir arıq dəvəsindən başqa heç nəyi yox idi.

Atam da əlavə elədi ki:

– Peyğəmbər ticarəti halal sənət hesab elədiyi üçün özü də ticarətlə məşğul olurdu.

Böyük sövdəgər Məşədi Qara da inamla təsdiq elədi ki:

– Bəyliyin bayatısı çağrılıb... Gələcək ticarətindir!

Bizdə olan məclislərdə əsil bəylər iştirak eləmirdilər. Lakin mən anamda onlara qarşı böyük bir maraq hiss edirdim. Anam şəhər pristavı İsmayıl bəyin arvadı Zəhra xanımla, Cavad ağanın qızı Bikə xanımla, hamamçı Məşədi Həbibin qızı Məhbub xanımla dost idi. Bunların hərəsi bir cür gözəl idi. Özləri də tez-tez bizə qonaq gəlirdilər. Anam da tez-tez onlara qonaq gedirdi və çox vaxt məni də özü ilə aparırdı. Bəylərin ev-eşikləri heç də bizimkindən artıq zinətli deyildi, qonaqlıqları da bizimkindən yaxşı olmurdu. Amma, bununla bərabər, bəylər və onların xanımları da, uşaqları da tacirlərə, adi peşə sahiblərinə qarşı özlərini çox yekəxana aparırdılar. Onların mənimlə yaşıd uşaqları bir-birinə «bəy» deyirdi. Buna görə də mən onlarla oynamırdım. Məsələn, bizim alt evimizdə yaşayan kasıb Kəklik xalanın oğlu Kazımla və ya qonşumuz çörəkçi Ayı Temirin qardaşı oğlu Əyyubla oynamaq mənə daha çox xoş gəlirdi, nəinki Cavad ağanın oğlu Davudla oynamaq. Anam da bunun üstündə məni danlayıb deyirdi:

– Zor deyil ki, çəkir atası tərəfə. Nənəsi Xəlsənin ayaqları ömründə tufli üzü görməyib. Əmisi Qubadın da ayağından çarıq çıxmır.

Anam bilmirdi ki, bəy uşaqlarının yekəxana hərəkətləri mənim izzəti-nəfsimə toxunur.

MÜSAVAT HÖKUMƏTİ VƏ NƏCƏF BƏYİN ÇOMAĞI

Bir gün atam bazardan həyəcanla gəlib dedi:

– Təzə hökumət qurulub, adına da «müsavat hökuməti» deyirlər.

Anam soruşdu:

– Nə deməkdi müsavat hökuməti?

Atam dedi:

– Yəni bu hökumətdə hamı bərabər hüquqda olacaq.

Anam soruşdu:

– Nə cür yəni bərabər hüquqda?

Atam gülümsədi:

– Daha bəyləri yuxarı başa keçirməyəcəklər. Rəiyyət necə, onlar da heylə.

Anam kəskin istehza ilə soruşdu:

– Deməli, cındırından cin ürkən keçəl Şirinlə İbrahim bəyə hökumətdə fərq qoyulmayacaq?

Atam eyni məmnun ifadə ilə dedi:

– Yox.

Mən həyəcanla soruşdum:

– Daha bəy uşaqlarına «bəy» deməyəcəklər?

Atam mənə qəribə bir maraqla baxıb dedi:

– Bəy desələr də, daha əvvəlki forsları olmayacaq.

Ancaq açıq hiss edirdim ki, «müsavat hökuməti»nin qurulması xəbərini, hamının bərabər hüquqda olacağı xəbərini anam şadlıqla qarşılamır, nəyə isə şübhə edir, ancaq bu narazılığının səbəbi heç özünə də məlum deyil.

Sonra Bayram babamı Gəncə qubernatorunun yanına çağırdılar. O vaxt bizim yerlər Gəncə mahalına daxil imiş.

Bayram babam bir neçə gündən sonra gəlib xəbər verdi ki, yeni hökumət onu bizim Qarabulaq qəzasının «N» nahiyəsinə pristav təyin etmişdir.

Qubernator babama deyib ki: «Biz, sizi daha böyük vəzifə üçün nəzərdə tutmuşuq. Güney Güzdəkdəki qanlılığın qabağını siz ala bilərsiniz. Araz qırağında hörmətiniz çoxdur. Ona görə də, hələlik gedin oranı düzəldin».

Özü də Bayram babamın pristav təyin edildiyi nahiyə, mahalda ən böyük nahiyə hesab olunurdu. Başqa nahiyələrdə olan dələduz kəndlər də həmin nahiyəyə əlavə olunmuşdu. Babama ixtiyar verilmişdi ki, strajnikləri özü seçib qəbul eləsin.

Babam da Qızılbaşoğlu Alıdan başqa öz elatından bir neçə qoçaq oğlan seçib, özünə strajnik götürdü.

Sonra Fatma nənəmlə babam getdilər Güney Güzdəyə. Nahiyənin mərkəzi əslində Güney Güzdək deyildi, ancaq Bayram babam hələlik orda oturmağı qərara almışdı. Yəqin bunun da səbəbi o kənddə düşmənciliyi yatırtmaq idi. Kişi gecə-gündüz onların içində olmaq istəyirdi.

Nikolay taxtdan yıxılandan sonrakı «hürriyyətlik»də köçüb gedən dövlətli malakan, sarısaqqal Vasilinin şəhərin mərkəzində olan böyük evini kənd mülkədarı Nəcəf bəy almışdı. Bu, uca, yoğun, enlikürək, qarabığlı bir kişi idi. Özünün də zoğal ağacından başı dəmir toppuzlu qırmızı bir çomağı var idi. Camaat arasında «Nəcəf bəyin çomağı» məşhur idi. Hətta bu çomağın haqqında cürbəcür nağıllar da düzəltməyə başlamışdılar. Bakıda qoçu Nəcəfqulunun keçisi necə ərköyün idisə, Qarabulaqda da Nəcəf bəyin çomağı heylə ərköyün idi. Bəy şəhərə gəzməyə çıxanda çomağını hansı dükana qoysaydı, o dükanın sahibi toxunulmaz hesab olunurdu. Nəcəf bəy hökumətsizlik zamanı şəhərin bir neçə təzə ağasından biri idi. Bu ağalardan hər birinin dalında bütöv bir elatın dəliqanlı atlıları dayanırdı. Yəni onlardan hər biri bir ağa idi. Müsavat hökuməti qurulandan sonra da bu cür ağalar qətiyyən ipə-sapa yatmırdılar. Deyəsən, müsavat hökuməti də heç bununla maraqlanmırdı. Atamgil danışırdılar ki, Nəcəf bəy malakandan aldığı evinin eyvanında var-gəl edərək, acıqlı-acıqlı deyirmiş: «Ə, bu nə Azərbaycandı? Sən öləsən ona bir çomaq vuraram, darmadağın olar».

Belə görünür ki, qırmızıçomaq Nəcəf bəy «Azərbaycanın», «Azərbaycan hökuməti»nin nə demək olduğunu heç bilmirmiş. Əlahəzrət çar hökumətinin siyasəti nəticəsində, demək olar ki, «Azərbaycan» sözü heç işlənmirmiş. Əlahəzrət çar üsuli-idarəsi tərəfindən edilmiş inzibati bölgü əsasında Azərbaycan ölkəsi mahallarının adı ilə adlanırmış. «Gəncə quberniyası», «Qazax», «Şəmkir quberniyası»... Ona görə də Nəcəf bəy kimi bisavad, qırmızıçomaq sahiblər öz vətənlərinin adını belə unutmuşdular.

Atamgilin söhbətlərindən onu da hiss edirdim ki, bu yeni hökumət atamda və onun məclisində iştirak eləyənlərdə, nəsə yeni bir əhvali-ruhiyyə doğurmuşdur. Birinci dəfə olaraq mən onların söhbətlərindən tez-tez «milli azadlıq», «milli Azərbaycan hökuməti» kimi ifadələr eşidirdim. Mən birinci dəfə olaraq atamın dilindən «vətən» sözü eşidirdim. Mənə elə gəlirdi ki, bu söz indiyə qədər haradasa unudulub qalmışdı və yalnız indi çıxırdı meydana, mənim anam indi, yalnız indi bu sözün mənasını başa düşürdü. Mən sonralar, ağlım bir şey kəsən vaxtlarda təkrar-təkrar bu xatirələrə qayıdırdım, başa düşürdüm ki, xarici istilaların hakimiyyəti: ölkənin ayrı-ayrı xanlıqlara parçalanması, xüsusən Arazın o tayında İran şahlarının, bu tayında isə çarizmin qəddar siyasəti nəticəsində mənim həmvətənlərim, hətta öz vətənlərinin adını, hansı millətə mənsub olduqla-

rını belə unutmuşlar. Təsadüfi deyildi ki, o zaman hər hansı bir kəndlidən soruşsaydılar: hansı millətdənsən? Cavab verərdi ki, «müsəlmanam».

Müsavat hökuməti qurulandan sonra uşaqlardan dəstələr düzəldib, onlara milli mahnılar öyrədirdilər. Mən böyük bir maraqla həmin dəstələrdə iştirak edirdim. Yaşca bizdən böyük oğlanlardan bizə başçılar təyin edirdilər və biz onların köməyi ilə əsgər kimi sıraya düzülüb, addımlaya-addımlaya mahnı oxumağı öyrənirdik. Lakin mən uşaq da olsam, görürdüm ki, bizim dəstələrdə bəy uşaqları daha hörmətli, daha əziz tutulur. Mənim kimilər isə, atamız nə qədər varlı olsa da, yenə rəiyyət hesab olunurdu. Bu da mənim izzəti-nəfsimə toxunurdu. Mən bəy uşaqlarının lovğalıqlarını hiss edirdim və ürəyimdə onlara kin bəsiləyirdim. Demək, müsavat hökumətində də onlar əziz-xələf idilər.

BAYRAM BABAMA GÜLLƏ ATILMASI VƏ QOCA QAÇAQ

Atamın ticarət işləri də gündən-günə tərəqqi etməkdəydi. O, mal gətirmək və ya mal aparmaq üçün tez-tez Bakıya gedib-gəlirdi.

Həmin bu dövrdə anamın malyariyası yenə də başlamışdı. Hər gün bərk titrədib-qızdırırdı. Vurulan iynələrin yerləri də çirk eləmişdi. Həmin yaralar sağalandan sonra doktor Quliyev məsləhət gördü ki, anam bir-iki ay kəndə gedib havasını dəyişsin. Bizim kənd də havası, suyu yaxşı olan, yaylaqsayaq bir yer idi.

Ona görə də anam, mən, bacım Mahtab, bir də qulluqçumuz Zinyət faytona əyləşib getdik Güney Güzdəyə.

Bayram babamgil yenə də bizim kənddəki evdə qalırdılar. Babamın idarəsi isə Nikolay vaxtında tikilmiş, üstü qırmızı dəmirli «dəftərxana»da (camaat binanı belə adlandırırdı) yerləşmişdi.

Əlbəttə, mən yenə hiss edirdim ki, Vəli uşağından olan əmim arvadı bizim gəlişimizdən və babamgilin də onların binasında olmasından heç də xoşhal deyil. Ancaq, şübhəsiz ki, o, bunu üzə vurmağa cəsarət eləmirdi. Anam da həmişə qulluqçumuz Zinyətə bərk-bərk tapşırırdı ki, sərvaxt olsun, əmim arvadı suyun, bişmişin içinə zəhər atar.

Babam işə çox kəskin başlamışdı, bütün ağsaqqalların dilindən kağız almışdı ki, hər kəs öz tayfasına cavabdeh olsun, lakin ədavət, kin o qədər şiddətli idi ki, adamların orada-burada gizlənib, bir-birilərini vurub-doğramalarının qabağını almaq mümkün olmurdu. Babamın ad-sanına baxmayaraq, strajnikləri əsaslı bir iş görə bilmirdilər.

Sonra bir gecə qəribə hadisə oldu. Bayram babam kəndin sayılan, saytal adamlarından hesab olunan yüz əlli-yüz altmış kilo, bəlkə də, bundan artıq ağırlığı olan Hacıoğlu Almənmədlə qonaq otağında, stol ətrafında əyləşib söhbət edirdi. Ortada otuzluq neft çırağı yanırdı, mən də xalının üstündə oturub onların söhbətinə qulaq asa-asa oynayırdım. Birdən yaxında güllə səsi gurladı və eyni anda da çırağın şüşəsi çiliklənib yerə töküldü, babam cəld qalxıb açıq qapının qabağından geri çəkildi, Fatma nənəm, anam o biri otaqdan hövlnak gəldilər.

Bayram babam sakit səslə dedi:

– Yaxşı, səs-küy salmayın, çırağı yandırın.

Anam stolu daldaya çəkərək təzə şüşə gətirib çırağı yandırandan sonra Hacıoğlu Almənməd babama dedi:

– Çıraq düz sənin qabağında idi, demək, açıq qapıdan düz səni nişan alıb atıblar.

Babam papiros yandıraraq kişinin sözünü təsdiq elədi:

– Elədir.

Almənməd dedi:

– Vəli uşağının işidir.

Fatma nənəm qəzəblə əlavə etdi:

– O gödək ilanın hiyləsidi!

Mən bilirdim ki, Fatma nənəm «gödək ilan» dedikdə, mamamın əri Əbdüləzizi nəzərdə tutur.

Bayram babam dinmədi.

Almənməd babama dedi:

– Arvadın sözünü qəribliyə salma.

Bu zaman iribığlı uryadniklə strajniklər tələsik gəldilər.

Uryadnik əlini gözünün üstünə qoyub dedi:

– Cənab pristav, kəndin arasını gəzib nəzarət edirdik. Güllə səsi eşidib yüyürdük.

Hacıoğlu Almənməd uryadnikdən soruşdu:

– Damın üstündən düşüb qaçan adam görmədiniz ki?

Uryadnik cavab verdi:

– Ora baxmaq ağlımıza gəlməyib.

Atamgilin həmin böyük daş evlərindən savayı həyətdə çox qədimdən qalmış və indi də içində barama becərilən bir damları var idi, belə damların üstü günbəz kimi yumru olurdu.

Almənməd dedi:

– Gülləni damın üstündən atıblar. Damın üstündən baxanda açıq qapıdan otağın içi aydın görünür.

... Bu əhvalatdan iki gün sonra Qaçaq Xanmurad bütün dəstəsilə Bayram babamgilə qonaq gəldi. Qoyun kəsildi. Böyük artırmaya salınmış xalının üstündə oturub yeyib-içdilər.

Sonra anam Qaçaq Xanmuraddan soruşdu:

– Niyə daha üzə çıxmırsan?

Qaçaq Xanmurad da gülümsəyib zarafatyana dedi:

– Ay Yaqut bacı, qartal dağda-daşda hərlənməyə adət eləyib. Onu gətirib əhliləşdirmək uzun işdir.

Əgər bir ayrı adam özünü mənim ən çox sevdiyim igid qartala bənzətsəydi, bu, mənə lovğalıq kimi görünərdi, amma Qaçaq Xanmuradın belə deməsi, elə bil ki, mənim xəyalımı çəkib qartallar oylağı olan yuxarı Qızılboğaz, Salvartı dağlarına apardı və sanki Qaçaq Xanmurad da həmin alapaça ürgənin üstündə o dağlara qalxıb çən-duman içində yox oldu.

Vəli uşağından olan adamlar uzaqda dayanıb, Əfəndi uşağı ilə qohum olan pristavla qaçaqların bu yaxınlığına kinli-kinli tamaşa eləyirdilər.

... Qaçaq Xanmuradın dəstəsi getməmişdi ki, Qaçaq Məşədi Təhməzin dəstəsi gəldi. Bu, uzunsaqqallı, ortaboylu bir qoca idi. Saqqalı, bığı, yəqin ki, xınadan qırmızı idi. Başı azca əsirdi, diaqonal çuxasının altından iki patrondaş bağlamışdı. Amma tüfəngini atlılarından biri götürmüşdü. Ayaqlarında qısaboğazlı çəkmə, başında iri tüklü papaq vardı. O gələn kimi Qaçaq Xanmurad və yoldaşları ayağa durdular, yalnız kişi keçib döşəkcənin üstündə əyləşəndən sonra oturdular. Bayram babam evdə olmadığı üçün Fatma nənəm gəlib ehtiramla dedi:

– Xoş gəlmisən, Məşədi Təhməz.

Kişi də təmkinlə cavab verdi:

– Xoş günün olsun, Fatma xanım.

Sonra Bayram babam gəldi. O, içəri girəndə Məşədi Təhməz ayağa durmaq istədi, babam cəld irəliləyib, çiyinlərindən yapışaraq onu qalxmağa qoymayıb, hörmətlə dedi:

– Məşədi Təhməz, xoş gəlmisən.

Qoca qaçaq başını xəfifcə tərpədib dinmədi. Bayram babam həmişə stulda oturardı. Amma bu dəfə, yəqin ki, qoca qaçağa hörmət əlaməti olaraq onun yanında, döşəkcənin üstündə əyləşdi. Qaçaq Məşədi Təhməzin haqqında çox eşitmişdim. Kürdobalılar onu «xoşbəxt qaçaq» adlandırırdılar, çünki əlli ilə yaxın idi ki, qaçaqlıq edirdi, nağıllara çevrilən atışmalarda, vuruşmalarda olmuşdu, neçə dəfə güllə dəymişdi, amma hamısından da sağ-salamat qurtarmışdı. İki oğlu da özü ilə qaçaqlıq edirdi.

Babam qonaq yanında dayanmağıma acıqlanmadığı üçün pəncərəyə söykənib qoca qaçağa tamaşa edirdim. Onun bu yaşda necə at çapdığına, başı əsə-əsə necə güllə atdığına təəccüb edirdim. Onun igidlikləri haqqında eşitdiklərim indi məni heyrətə salırdı. Elə bil ki, belində qoşa patrondaş olan uzunsaqqallı, başı əsən bu qoca təəccüblü bir əfsanədən çıxıb zahir olmuşdu. Mən cavan Qaçaq Xanmuradın da, hökumət adamı olan babamın da ona necə ehtiram

etdiklərini görürdüm. O, qabağındakı çaydan elə qaynar-qaynar götürüb bir qurtum alaraq:

– Bayram, – dedi (mən birinci dəfə olaraq babama «Bayram bəy» deyil, «Bayram» deyə müraciət edildiyini eşidirdim), – sən bizi üzə çıxmağa çağırırsan, yəni bu təzə hökumətdən əqlin bir şey kəsir?

– Nə barədə, Məşədi? – deyə babam soruşdu.

Qoca qaçaq dedi:

– Yəni bu axıracan duruş gətirib dayana biləcək?

Bayram babam bir qədər fikirləşib dedi:

– Əgər xaric kömək eləsə, duruş gətirər.

Qoca qaçaq çayını arxayın içib, stəkanı nəlbəkiyə qoyaraq soruşdu:

– Axı bu təzə hökumətin məramı nədi?

Babam bu sualı gözləyirmiş kimi dərhal cavab verdi:

– Bərabərlik!

– Nə cür bərabərlik?

– Yəni dövlətlinin də, kasıbın da, bəyin də, rəiyyətin də hüququ bərabər olacaq.

Qaçaq Xanmurad qızğın şəkildə dedi:

– Ay dayı (o, babama «dayı» deyirdi), yenə də bəy bəydi, rəiyyət də rəiyyət.

Qaçaq Xanmuradın bu sözləri məndə qəribə bir ruh düşgünlüyü yaradırdı. Doğrudanmı, bəy uşaqları yenə də əvvəlki iddialarında olacaqlar?

Sonralar mən o günləri xatırlayanda başa düşdüm ki, Qaçaq Xanmurad haqlı imiş. Məsələ onda idi ki, müsavat hökumətinin bərabərlik ideyası əslində mücərrəd bir şey imiş və onun real fəaliyyətində bu «bərabərlik» hiss olunmurmuş. Onlar zəhmətkeş xalqın gözüaçıq, qabaqcıl adamlarını dövlət işlərinə nəinki cəlb etməmiş, hətta bu barədə heç düşünməmişlər. Müsavat partiyasının üzvü olan mülkədarların heç biri öz mülkündən əl çəkməmişdi. Əksinə, Qaçaq Xanmurad deyən kimi, bəylər yenə də öz bəyliklərində qalıb, adi camaata yuxarıdan aşağı baxırdılar. «Müsavat», «bərabərlik» sözləri kağız üzərində qalmışdı.

Qoca qaçaq soruşdu:

– Yaxşı, onda, bununla Rusiyada qurulan təzə hökumətin nə fərqi var? Deyir, onların da məramı bərabərlikdir.

Bayram babam dedi:

– Rusiyada qurulan bolşevik hökumətinin məramnaməsi bəylərin, dövlətlilərin qəti ziddinədir.

Qoca qaçaq qəribə bir gümrahlıqla soruşdu:

– Bəs, onda bu necə bərabərlik oldu?

Babam dedi:

– Onlar bərabərliyi ancaq yoxsul kəndlilərlə fəhlələrin birliyində görürlər.

Qoca qaçaq soruşdu:

– Bəs dövlətlilər, tacirlər, bəylər nə olsun?

Babam dedi:

– O quruluşda dövlətli, bəy, ağa olmamalıdır.

Qaçaq Xanmurad babama dedi:

– Dayı, canınçün o elə əsil mənim kimilərinin hökumətidir. Bizi düzlərə salan bəylər, ağalar olmayıb?!

Məşədi Təhməz dinmədi. Babam dedi:

– Məsləhətdir ki, siz daha qaçaqlığı yerə qoyasınız.

Uzun bir sükut keçdi. Nəhayət, Məşədi Təhməz soruşdu:

– Yaxşı, bəs Arazın o tayındakıların işi necə olacaq?

Babam dedi:

– Hələlik, o barədə bir söz demək olmaz, Məşədi! Ancaq, əgər biz bu yeni hökumətimizi möhkəmləndirib saxlaya bilsək, bəlkə gələcəkdə elə bir vəziyyət yarandı ki, birləşə bildik.

Mən Fatma nənəmdən eşitmişdim ki, Qaçaq Məşədi Təhməzin arvadı otaylı qızıdır, yəni Cənubi Azərbaycandandır. Ümumiyyətlə, Araz boyunda yaşayan Şimali azərbaycanlıların çoxu o taydakı azərbaycanlılarla qohum-qardaş idi.

Yenə də araya uzun sürən sükut çökdü. Qoca qaçaq təmkinlə dedi:

– Bayram, sən daş qoyan yerə biz baş qoyarıq. Ancaq izin ver, bir az gözləyək. Sular durulsun, görək dünya nə cür olur...

Bu sözləri deyəndə, mən, qoca qaçağın gözlərində bir parıltı gördüm. Babam daha bir söz demədi.

Yeyib-içəndən sonra Qaçaq Xanmurad ilə yoldaşları artırmanın baş tərəfinə gələrək gözəl Aynanın vurulduğu yerdə nişana qoydurub atmağa başladılar. Mən böyük bir təəccüblə gördüm ki, Qaçaq Xanmuradın atlıları arasında ondan da sərrast atanlar var və Qaçaq Xanmurad bundan heç də pərt olmur. Mən elə güman edirdim ki, dünyada Qaçaq Xanmuraddan yaxşı güllə atan olmaz.

Bayram babamla Qaçaq Məşədi Təhməz evdən çıxıb gəldilər. Qoca qaçaq nişanaya baxıb, öz adamlarından birinə dedi:

– Mənim tüfəngimi gətir.

Mən lap irəli yeriyərək gözümü dikmişdim onun üzünə. O, ayaq üstündə tüfəngi üzünə götürüb, başı və əlləri əsə-əsə atdı. Birinci nişana göyə sovruldu. Tüfəngin gilizlərini çıxarıb, yenə də atdı. İkinci nişana da göyə qalxdı. Sonra tüfəngi yanında dayanmış cavan qaçağa vermək istəyəndə, Qaçaq Xanmurad zarafatyana dedi:

– Ərənlər üçəcən deyib, əmi!

Qoca qaçaq tüfəngi təkrar üzünə götürüb atdı və üçüncü nişananı vurandan sonra Qaçaq Xanmurada tərəf dönüb dedi:

– Təhməzin başı əssə də, gözləri hələ işıqlıdır.

Qaçaq Xanmurad dedi:

– Əmi, Allah sənə bundan sonra da yüz il ömür versin, yüzündə də belə atasan!

Kişi gözlərini göyə dikərək, salavat çevirirmiş kimi, əlini üzünə çəkib, qəribə bir inamla səsləndi:

– Amin!

Sonra Qaçaq Xanmurad aşağıda qaçaqların toplaşıb nişana atmasına tamaşa eləyən adamlar eşitsin deyə, bərkdən dedi:

– Əşi, Bayram dayı, deyirlər Güney güzdəklilər gecə qaranlıqda gizlənib sənə güllə atıblar. İzin ver, biz də aşkarda onlarla haqq-hesab çəkək.

Bayram babam da bərkdən dedi:

– Elə şey olmaz, güllə atan bir qələtdi eləyib.

Qaçaq Xanmurad dedi:

– Dayı, vallah, bir də heylə şey eşitsək, heç sənin xəbərin olmadan gəlib güllə atan tayfanın «məmə» deyəndən «pəpə» yeyənə – hamısını güllədən keçirəcəyik!

Atamgil əbəs yerə mənə «əllamə» demirdilər, mən çox balaca olsam da, hiss edirdim ki, müsavat hökumətinin pristavı olan Bayram babam öz strajniklərindən, öz hökumətindən daha çox qaçaq dostlarının gücünə arxalanır. Öz yaxın adamları olan Əhmədalıya, Hacıya, Qızılbaşoğlu Alıya arxalanır, onlara ürək qızdırır. Babama güllə atılandan sonra onlar gecə səhərə qədər növbə ilə keşik çəkdilər. Sonra Bayram babam bundan xəbər tutub qadağan elədi.

Sonra qaçaqlar atlanıb getdilər. Onların babama güllə atılandan sonra bu cür dəstə ilə gəlib-getmələri, görünür, yeni hökumətin bir nümayəndəsi olan babamın mövqeyini bütün rayonda möhkəmləndirdi, babam əmr verdi ki, kənddə gecə bütün evlərdə çıraqlar yansın. Onu da bildirdi ki, bütün evlər nəzarət altında olacaq. Qaranlıq düşəndə Güney Güzdəyin bütün evlərində dalbadal çıraqlar yandı. Lakin Bayram babamın strajnikləri xəbər gətirdilər ki, dörd evdə çıraq yandırmaqdan boyun qaçırırlar. Babam da əmr etdi ki, əgər çıraq yandırmasalar, ev sahiblərini gətirib dama salsınlar. Bundan sonra onların da çırağı yandı.

... Bunların hamısı mənim üçün anlaşılmaz əhvalatlar idi. Mən işığı sevirdim. Parlaq günəş işığı məndə sevinc doğururdu. On beş günlük qaranlıqdan sonra təzə çıxan oraq şəkilli Ay da məndə sevinc doğururdu. Dağları, çölləri süd kimi aydınlıq eləyən on beş günlük Ay mənə xoş mürgü gətirirdi. Şəhərdəki evimizin zalında yanan böyük qaz çırağı məni fərəhləndirirdi. Amma indi Güney güzdəklilər çıraq yandırmağa cürət etmirdilər. Çünki hərə öz düşməninin bu işıqdan istifadə edərək qaranlıqda güllə atıb onu öldürəcəyindən qor-

xurdu. İndi babamgilin yandırdığı otuzluq lampanın işığı məni də qorxudurdu, çünki mən babamı çox istəyirdim...

GÜNEY GÜZDƏKDƏ NƏLƏR DÜŞÜNÜRDÜM...

Mən ürəyimin dərinliklərində Qaçaq Xanmurad kimi bir qəhrəman olmağı arzulayırdım. Gecələr yerimə girəndən sonra da bu barədə uzun xəyallara dalırdım. Özümü, neçə atlı-tüfəngli adamı təkbaşına qoyun sürüsünün içindən çıxmağa məcbur eləyən Qaçaq Xanmurad kimi bir igid təsəvvür edirdim. Lakin Qaçaq Xanmuradın bu dəfə anama danışdığı bir əhvalat mənim bu şirin xəyallarımı alt-üst elədi. Qaçaq Xanmurad o tayda (yəni Arazın o tayında) bir düşmənindən necə qisas aldığını nağıl edirdi. O, nəşə ilə danışırdı ki, çiskinli, qaranlıq bir gecədə öz dəstəsilə qəfildən həmin düşməninin alaçığını mühasirəyə alaraq, uşaqdan böyüyə hamını necə gülləbaran eləyib qırıblar...

Anam həssas qadın idi. Kiçik bir sarsıntı onun bənizini dərhal soldururdu. İndi bu əhvalatı eşidəndə də rəngi ağardı və o, həyəcanla soruşdu:

– Yazıq arvad-uşağın nə təqsiri vardı?

Qaçaq Xanmurad eyni nəşə ilə dedi:

– Düşmən düşməndi, kimdi arvad-uşağa baxan?!

Amma bu söhbətdən qabaq mən xəyala dalırdım ki, əgər Qaçaq Xanmurad kimi bir igid olsam, yeddi gün, yeddi gecə at sürərək gedib ağ divi necə öldürərəm və onun oğurlayıb apardığı gözəl qızı necə xilas edib, anasının yanına qaytararam və anası da sevincindən ağlayaraq mənə «sağ ol» deyər...

Qaçaq Xanmuradın o dəhşətli əhvalatı və o əhvalatı danışarkən gözəl, solğun üzündə duyduğum nəşə məndə anlaşılmaz qüssə doğurdu, birdən-birə mən özümü, nə isə, qiymətli bir şey itirmiş kimi hiss elədim. Nurani saqqallı, başı əsən və əlli ildən artıq qaçaqçılıq eləmiş Qaçaq Məşədi Təhməzin nişana atdığı zaman balaca gözlərində gördüyüm parıltı məndə indi qəribə bir vahimə doğurdu. Mənə elə gəldi ki, qəfil öz ovunun üzərinə tullanıb, onu bir anda parçalayan pələngin də gözlərində yəqin belə vəhşi parıltı olur. Mən tərəkəmə qohumlarımdan eşitmişdim ki, yırtıcı heyvanlardan ən xaini canavardır. Ancaq nə üçünsə, qoca qaçağın gözündəki parıltı mənə canavarı deyil, məhz pələngi xatırladırdı. Artıq Qaçaq Xanmurad mənim xilaskar qəhrəmanım ola bilmirdi. Yəni mən daha onu o cür təsəvvür eləyə bilmirdim və buna görə də məyus olurdum. Mən belə anlarda özümü yalqız və köməksiz hiss edirdim. Sonralar Qaçaq Xanmuradın babamgilə gəlişi, yoldaşları ilə eyvandan nişana atmaları daha məni əvvəlki kimi fərəhləndirmirdi.

Qırx adamı bir-birinə qırdıran gödək Nisə isə hər dəfə qabağıma çıxanda mən Fatma nənəmin nağıllarında eşitdiyim ana divi xatırlayırdım. Bu arvadın ana div kimi sarı balta dişləri, buynuzu yox idi. Bu arvad ana div kimi nəhəng deyildi və onun kimi dəhşətli dərəcədə eybəcər görünmürdü. Bu arvad insan idi, özü də mənim hər gün gördüyüm Xəlsə nənəm kimi, başqa qarılar kimi insan idi. Demək, bu ana div insan cildinə girmişdi. İnsan cildinə girdiyi üçün də bütün evlərə asanlıqla yol tapıb, uşaqları anasız, anaları uşaqsız qoya bilərdi. Kim bilir, bəlkə əmim oğlu Bəhlulun anasına cadu eləyib sill azarına salan elə həmin bu Nisə qarı imiş... Axı, deyirlər, gödək Nisə Vəli uşağından olan Əbdüləzizin böyük bacısıdır. Beli əyri, boynu qısa, başı çiyinlərinin arasına girmiş və deyilənə görə, son dərəcə hiyləgər bir adam olan Əbdüləzizin özü də, məgər insan cildinə girmiş div deyilmi?!

Analığı əmim oğlu Bəhlula gün vermirdi. Hey döyüb ağladırdı, Bəhlul daim ac olurdu. Mən evimizdən yağlı çörək, kişmiş aparıb verirdim ona və onun, içində adam yaşamayan damlarının dəhlizində bu şeyləri necə acgözlüklə yediyinə tamaşa edirdim. Yağlı çörəkdən mənim zəhləm gedirdi. Çox konfet yediyim üçün şirin şey də ürəyimi vururdu. Mən fikirləşirdim ki, əgər anam ölərsə, mənim də atam ayrı bir arvad alar və o da məni Bəhlulun gününə salar. Qubad əmi hər axşam tarladan, ya Qayaburnu bağlarından qayıdaraq çarığını çıxarıb, dəstəmaz alaraq iri ayaqlarını yuyub namaz qılardı. Sonra da yerdə, palazın üstünə salınmış köhnə döşəkcənin üstündə bardaşqurma əyləşərək, arvadının dinməz gətirib qoyduğu qatıq-çörəyi və ya şomu dovğasını şirin-şirin yeyərdi. Bir dəfə də olsun, oğlu Bəhlulun əhvalını soruşmazdı, ac və ya tox olub-olmadığı ilə maraqlanmazdı. Elə bil ki, o, Bəhlulun yeyib-içmiş olduğuna, tox olduğuna əmin idi. Demək, əgər anam olmasaydı, mənim də atam bu cür edərdi.

Bu nəticələr anamın üstündə mənim yarpaq kimi əsməyimə səbəb olurdu. Anamın başı ağrıyanda və ya qızdırması gələndə mən özümü olduqca bədbəxt hiss edirdim. Hətta, xəlvətə çəkilib ağlayırdım da.

Beləliklə, ögey ana dünyada mənə ən qəddar məxluq kimi görünürdü.

Mənim qapalı aləmimdə bir tutqunluq hökm sürməkdəydi. Əlbəttə, bu tutqun aləm barəsində mən heç kəsə bir söz demirdim, yəni demək heç ağlıma da gəlmirdi, çünki bu tutqunluğu yalnız mən hiss edirdim, mahiyyətini, səbəblərini aydın dərk eləmirdim, elə bil ki, xaricdən aldığım təsirlər bu tutqunluğu getdikcə tündləşdirirdi.

Fatma nənəm dərdini heç kəsə söyləməsə də, öz-özünə olan danışıqlarından görürdüm ki, bütün fikri-zikri, kim bilir, indi haralarda olan Nuru dayımın yanındadır və öz-özü ilə olan danışığında o,

daim Bayram babamı günahlandırırdı. Evdə tək olduğum zaman nənəm (nənəm məni uşaq hesab elədiyi üçün yanımda öz-özünə danışmaqdan çəkinmirdi) taxtın üstündə əyləşərək gözlərini qarşısında bir nöqtəyə zilləyib müştükdə papiros çəkə-çəkə hey deyirdi: «Cavanın beyni qan olar... Gərək başına ağıl qoyasan. Kişi yaylaqda qardaşının günahını tökdü yazıq uşağın üstünə, ta demədi ki, tək oğlumdu...»

Fatma nənəm bu cür sözləri bəlkə gündə yüz dəfə yana-yana təkrar edirdi, hər dəfə namaz qılanda oğluna dua edirdi və nənəmin oğlu sarıdan olan bu ümidsiz dərdi məndə qüssə doğururdu. Gözəl Aynanın vurulub yaşıl otlar üstünə sərilməsi, sonra onu palazın arasına qoyub aparmaları gözlərim önündən çəkilmirdi. Yaylaqdakı Qaraca ilə buradakı əmim oğlu Bəhlul mənim xəyal aləmimin daimi iştirakçıları idilər. Biri gözümün qabağında canlanan kimi, o biri də böyürdən çıxırdı.

Bayram babam da bütün günü öz işində olurdu, başqa kəndlərə gedirdi. Mənə elə gəlirdi ki, Bayram babam dünyanın ən mərhəmətli adamıdır. Ancaq bir gün dəhşətli bir əhvalat oldu. Yasavullar ortaboylu, cantaraq bir kişi tutub gətirmişdilər. Bayram babam həyətdə onu üzü üstə yerə yıxdırdı. İki yasavul bir tərəfində, ikisi də o biri tərəfində duraraq pencəyini, köynəyini yuxarı sivirib, çılpaq belinə şallaqla döyməyə başladılar. Adamlar tamaşa edir, yasavullar şallaqlayırdılar. Kişinin beli qıpqırmızı qızarmışdı. Nəhayət, o, davam gətirməyərək qışqırdı. Yalnız bu zaman babam yasavullara əmr etdi ki:

– Dayanın!

Yasavullar onu qaldırıb yenə də qollarını arxadan bağladılar. Sonra babam oraya yığılan adamlara xitabla dedi:

– Bu adam Hacı Fərzəlinin bir erkəyini oğurlayıb kəsib. Kim oğurluq eləsə, bunun kökünə düşəcək!

Birdən qolları arxasında bağlı olan həmin döyülən kişi həyəcanla:

– A bəy, – dedi, – erkəyi kefimdən oğurlamamışam. Beş körpə uşağım, budur, iki aydır ki, pencərlə dolanır. Hacı Fərzəlinin dörd-beş min qoyunu var.

– Bəs səninki niyə yoxdu? – deyə babam acıqlandı. – Niyə uşaqlarının haqqında vaxtında fikirləşməmisən? Hacı Fərzəli o dövləti başqalarına çoban olmaqla qazanıb, amma sən günortayacan yatıb, gözünü dikmisən onun-bunun varına, Allahın yolundan çıxıb, oğurluğa qurşanmısan.

Həqiqətin nədə olduğunu aydınlaşdıra bilməsəm də, babamın bu adamı döydürməsi mənə pis təsir elədi. Mən fikirləşdim ki: «Əgər bu kəndlinin beş balaca uşağı acdırsa, dövlətli Hacının bir qoyununu kəsəndə dünya dağılmaz ki?..» Kişinin görkəmi məni inandırdı ki, onun körpə uşaqları acdırlar! O körpə uşaqlar müxtəlif şəkillərdə gözlərim qarşısında canlanırdılar. Mən onların qapıdan içəri girən

atalarına dikilmiş ac baxışlarını, arıq, solğun bənizlərini görürdüm və bu məni o qədər mütəəssir edirdi ki, babamın onların atasına elədiyi töhmət haqqında düşünə bilmirdim, mən ancaq gözləri qapıdan içəri girən atalarının əlinə dikilmiş balaca uşaqların ac üzlərini görürdüm və o günü mən anamın, Fatma nənəmin təkidinə baxmayaraq, səhərdən axşamacan heç nə yemədim. Mən aclığın necə murdar, xoşagəlməz şey olduğunu gördüm. Mən o gecə, həmişə olduğu kimi, yatmazdan əvvəl Bayram babamın yanında uzanıb onun məni güldürmək üçün elədiyi məzəli söhbətlərə, nağıllara qulaq asmadım, daha doğrusu, qulaq asa bilmədim. Mən indi də səbəbini özümə izah eləyə bilmirəm ki, nə üçün o günü özümü o qədər bədbin, o qədər kədərli hiss edirdim? Özü də sanki mənim kədərim qara bir bulud kimi bütün dünyanın üzərinə çöküb hər şeyi pərişan eləmişdi. Güney Güzdəyi bürüyən aclığın dəhşətini mən indi hiss edirdim. Gecə acların fəryadını eşidərək uzun zaman yuxuya gedə bilmirdim. Onlar bizim olduğumuz evin ətrafına toplaşaraq: «Ay bəy uu...» deyə tükürpədən bir səslə qışqırırdılar. Onlar çörək istəyirdilər.

Mən Bayram babamgillə bir otaqda yatdığım üçün kişinin qaranlıqda, yerinin içində dalbadal çəkdiyi papirosların közərtisini görürdüm.

Sonra yasavulların müşayiəti ilə babamgilin qapısına bir neçə araba un gətirdilər. Anamgil deyirdilər ki, «bu unu Hacı Zeynalabdin Tağıyev göndərib».

Sonra aclar tökülüb gəldilər və babamın əmri ilə həmin unu paylamağa başladılar. Əvvəl adamlar elə basabas, elə qışqırıq salırdılar ki, az qalırdı hücum eləyib un yığılan anbarı dağıtsınlar. O zaman Bayram babam eyvana çıxıb bərkdən dedi:

– Camaat, əgər belə eləsəniz, anbarın ağzını möhürlətdirəcəyəm! Strajniklərə də əmr verəcəyəm ki, yaxına gələnləri güllə ilə vursunlar!

Bütün səs-küy bir anda kəcildi. Acından quyunun dibinə düşmüş gözlər dəhşətlə kişiyə zilləndi. Daha heç kəs cınqırını çıxarmağa cəsarət eləmədi.

YENƏ ŞƏHƏRDƏ

Bir neçə gündən sonra babam anamgilə xəbər verdi ki, onu «A» qəzasına rəis təyin eləyiblər. Ona görə də köçüb gedik şəhərə, evimizə...

Sonra Bayram babam kürkünün üstündən iki patrondaş çəkdi, gödək beşatılanını doldurdu, ağac qoburlu onatılanını belinə bağlayaraq məşhur kəhər atına minib, Qızılbaşoğlu Alının müşayiətilə «A» qəzasına yollandı. Fatma nənəm babamın ardınca su atdı. Babamı yola salmağa atamla anam da gəlmişdilər. Novruz bayramından

кеçməsinə baxmayaraq, çöllər hələ кi, qar idi. Anam babamın ardınca baxaraq dedi:

– Kişiyə soyuq olacaq.

Atam dedi:

– Soyuq olmaz. Kəhər at onu isti aparacaq, ancaq Allah eləsin кi, qaçaq-quldura rast gəlməsin.

Anam qayğısız cavab verdi:

– Dədəmlə Qızılbaşoğlu yüz adamın qabağıdırlar. Qaçaq-quldur nə qələt eləyə bilər?

Atamla ulduzu barışmayan Fatma nənəm də üzünü başqa səmtə çevirərək кinli-кinli dedi:

– Bəyəm, qaçaq-quldur Bayramı tanımır?!

Mən heç vaxt Bayram babamla Fatma nənəmin qabaq-qabağa oturub danışdıqlarını görməmişdim. Mənə elə gəlirdi кi, bu, elə belə də olmalıdır. Ona görə də, Fatma nənəmin indi babamın ardınca su atmağı mənə qəribə görünürdü.

... Bir azdan havalar qızdı, qar əridi. Çöllərdə yüz cürə çiçəklə dolu göy ot dizə çıxdı. Bizim şəhərin şimal tərəfindən axan Quruçay daşıb göylə getdi. Atam həmişə mənimlə sərt rəftar elədiyi üçün mən yenə də Fatma nənəmin yanında qalırdım. Mən özümü tamam sərbəst hiss elədiyim üçün nadincliyimlə Fatma nənəmi tez-tez cinləndirirdim. O, mənə qışqıraraq:

– Ay irtməкli köpəкoğlu, çıx get dədənin evinə dayna! – deyib əlinə кeçəni mənə tolamaz atırdı. Mən də qəhqəhə ilə gülüb кənara qaçırdım. Ancaq yarım saatdan sonra arvadın hirsi sovuşurdu və mən onun dizinin dibini кəsdirərək yalvarırdım кi, nağıl desin. O da yüz dəfə dediyi nağıllardan birini yenə də danışmağa başlayırdı.

Nağıllar həmişə məni öz aləminə çəкib aparırdı. Mən gecələr Quruçayın qıjıltısına qulaq asaraq Məliкməmməd, Əmir Arslan, Koroğlu haqqında düşünürdüm. Əvvəllər daşmış Quruçayın haкim qıjıltısı bu qəhrəmanların mübarizəsindəкi igidliyə sanкi fövqəladə bir ahəng verirdi. Ancaq mən indi daha Qaçaq Xanmurad haqqında düşünmürdüm. Zərif, solğun təbəssümlü Qaçaq Xanmuradın anama danışdığı amansızlıqlar, arvad-uşağa rəhmsizcəsinə basqını – çadırı atəşə tutmağı onun igidliyini gözümdən salmışdı. Mən xilasкar qəhrəmanlar haqqında düşünürdüm. Mən belə qəhrəmanlar haqqında xəyala dalmaq üçün gecə tez yerimə girmək istəyirdim. Fatma nənəmin gecə-gündüz dua elədiyi Nuru dayımın şahidi olduğum igidliкləri indi məndə xoşagəlməz hisslər oyadırdı. Mən indi hər dəfə, məni dünyada hamıdan çox istəyən Bayram babam haqqında düşünərкən, onun döydürdüyü adamın dəhşətlə alacalanmış gözlərini görürdüm. «Beş кörpə uşağım iкi aydır pencərlə dolanır...» sözləri qulağımda aramsız səsiləнirdi.

Bir dəfə Kəкliк xalanın oğlu Həşimin toyu idi. Anam da ən gözəl paltarlarını geyib, qızıllarını, daş-qaşlarını taxaraq məclisdə, qız-gəlin arasında əyləşmişdi. Onun mirvari tacı altından çıxan хurmayı saçları, enli qızıl кəmər çəкilmiş incə beli, durna boynu кimi uzun, ağ boğazı mənə o qədər gözəl görünürdü кi, mən məclisdəкi başqa qadınlara deyil, ancaq anama tamaşa edirdim. Bütün qadın toylarında qız-gəlini dartıb oyuna salan, qəribə qaravəlilər söyləyən, gülməli rəqslər eləyən Gülbəs xala anamı nə qədər oyuna çəкdisə də, anam qalхıb oynamadı. Sonra biz evə gələndə anam hirslənib məni o кi var danladı кi, nə üçün məclisdə eyzən ona tamaşa edirdim. «Xalqın uşaqları oynayıb-gülür, sən də oturub gözünü dıкmisən mənə». Sonralar başa düşdüm кi, anam məhz mən ona tamaşa elədiyim üçün oynamayıb. Amma anamın o danlağı heç bir zaman yadımdan çıxmadı, çünкi mənim heç кəsə məlum olmayan fərəhim təhqir olunmuşdu.

NURU DAYIMIN QAYITMAĞI...

Bir dəfə atam mal gətirmək üçün Bакıya getmişdi. Qayıdanda gördük кi, Nuru dayım onunla gəldi. Sonra atam anama danışırdı кi, neft mədənlərində işləyən qohumlarını görmək üçün Binəqədiyə gedibmiş. Birdən cır-cındır içində olan Nuru dayım çıхır qabağına. Qərəz, məlum olur кi, dayım atasının evindən satdığı şeylərin pulunu кefə sovurandan sonra lüt qalıb, gəlir neft mədəninə, Fatma nənəmgilin кürd qohumlarından olan fəhlələrin yanına. Fəhlələr də onu yedirib-içirdirmişlər.

İndi dayım elə şən idi кi, elə bil, Parisdən кefdən gəlmişdi. Laкlı uzunboğaz çəкmə, qalife şalvar, qiymətli buхara dərisindən təpəsi gen qabardin papaq, qolları enli üst köynəyi, кörpüləri qızıl Qafqaz кəməri, nazıк, qumral bığları, onsuz da, gözəl olan dayıma fövqəladə yaraşıq verirdi. O, Tiflisdə, Bакıda, daha nə bilim haralarda çəкdiyi кeflərdən anama səhnələr danışırdı. Ən maraqlı söhbətlərdən biri də anamgilin ögey qardaşı, yəni Fatma nənəmin qabaqкı ərindən olan oğlu Cəlilə rast gəlməsi idi. Nuru dayımın danışmağına görə, Cəlil indi Bакının adlı-sanlı mühərrirlərindən, ziyalılarındandır. Fatma nənəm onun bu söhbətinə кənardan diqqətlə qulaq asaraq, Cəlil barədə heç nə soruşmurdu. Mən də buna təəccüb edirdim. Mən başa düşmürdüm кi, Fatma nənəm Nuru dayımı bu qədər istədiyi halda, nə üçün öz dualarında, söhbətlərində bir dəfə də olsun o vaхt atasının üstünə atıb getdiyi oğlu Cəlilin adını dilinə gətirmir?

Nuru dayım hər gün Fatma nənəmdən, anamdan pul alır, öz dostları ilə yeyib-içir, кef çəкirdi. Bir gün dedilər кi, qubernator Хosrov bəy şəhərimizə gələcəк. Hamı qubernatora tamaşa eləmək üçün Ağdam – Gəncə yolunun кənarına axışdı. Anam mənimlə bacı-

mı da apardı. Gördük ki, şəhərimizdə olan müsavat əsgərləri şose yolun hər iki tərəfində cərgəyə düzülüblər. Zabitlər də aşağı-yuxarı qaçaraq hər şeyin öz yerində olmasına, əsgərlərin geyim-geciminə diqqət yetirirdilər. Birdən uzaqdan dalbadal gələn iki avtomaşın göründü. Zabit farağat komandası verdi. Maşınlar gəlib əsgərlərin qarşısında dayandı. Gəncə qubernatoru doktor Xosrov bəy maşından düşüb əsgərlərə salam verdi. Ucaboylu, enlikürək, yaraşıqlı bir adam idi. Gözünün biri kor idi. Əynində çərkəzi çuxa, ayaqlarında uzunboğaz çəkmə, belində nazik Qafqaz toqqası, başında təpəsi gen buxara papaq vardı. O, sıranın qarşısında irəliləyərək əsgərləri diqqətlə nəzərdən keçirdi. Sonra zabitlərə nə isə dedi. Sonra da maşına əyləşərək şəhərə getdi.

Bu əhvalatdan bir neçə gün sonra Nuru dayım çiyinlərində paqon gəlib anama sevinclə xəbər verdi ki, qubernatorun əmri ilə onu müsavat ordusuna zabit təyin eləyiblər. Mən dayımın necə zabitlik elədiyini bilmirəm. Ancaq hər axşam onun öz yoldaşları ilə Bayram babamgilin bağçasında yeyib-içib kef çəkdiklərini, sonra faytona minərək şəhərin malakanlar yaşayan hissəsinə getdiklərini görürdüm.

Nuru dayım gözəl malakan qızı Tanya haqqında anama gülə-gülə danışırdı. Mən də sövq-təbiilə hiss edirdim ki, belə söhbətlərə qulaq asmaq mənə yaramaz. Ona görə də anamın acıqlanmasını gözləməyib əkilirdim. Atamın dediyinə görə, içməkdə heç kim dayıma çatmazdı. Onun zabit yoldaşları da özü kimi cavan, kefcil bəy oğlanları idi. Həmin bu vaxtlar bir neçə zabit, o cümlədən Nuru dayım, restoranın xüsusi otağında kef çəkdikləri zaman yaxın dostlarından biri – Alay bəy böyük mülkədar Həsən ağanın oğlunu tapança ilə vurub öldürərək eyvandan tullayıb, özünü şəhərin ortası ilə axan Çərəkən arxının qamışlığına salıb qaçmışdı. Vurulan çox gözəl oğlan imiş. Anam öz rəfiqələrilə onun haqqında yana-yana danışırdı.

Sonra Nuru dayım anama deyirdi ki, Alay bəyi tutub gözəl xalı-gəbə ilə döşənmiş bir otaqda, guya dustaq eləyiblər. Atasının aşpazı da hər gün ona cürbəcür xörəklər gətirir. Sonra da gördüm ki, dayımla gözəl (o da Nuru dayım kimi ucaboylu, yaraşıqlı bir oğlan idi) geyinmiş Alay bəy Bayram babamgilin bağında gur çiçək açmış yasəmən gülləri arasında qoyulmuş stolun arxasında əyləşib içirlər (mən Alay bəyin həbsdən necə buraxıldığının təfsilatını bilmədim) və dayım da pəsdən muğamat oxuyur.

Dayımgilin bu bitməz-tükənməz nəşəsilə mənim həyatım arasında intəhasız bir məsafə vardı... Anamın malyariyası qurtarmadığı üçün mən qapalı bir dərd içindəydim. Qonşumuzda Abbas bəy adlı, təxminən mən yaşda bir uşaq var idi. Neçə il qabaq onun anası vəfat etmişdi, biz bir gün bir yerdə oynadığımız zaman Abbas bəy danışırdı ki, hər gün gedib anasının qəbrinin yırtıq-deşiyini tutur ki, ilanlar girib onu yeməsinlər. Bu da məni dəhşətə gətirirdi və mən

Abbasın bu əhvalatı necə sakit danışdığına təəccüb edirdim. Mən Nuru dayımın da, atamın da, hətta Fatma nənəmin də anamın xəstəliyindən heç də mənim qədər mütəəssir olmadıqlarına da təəccüb edirdim.

Atamın məni fərsiz saydığını hər dəqiqə hiss eləyəndən sonra, anamın xəstəlikləri ilə aylarla dərd-kədərə batandan sonra, heç kəsdən (yalnız Bayram babamdan savayı) tərifli bir söz eşitməyəndən sonra (yalnız anamın rəfiqələri mənim çox gözəl olduğumu, gələcəkdə qızları heyran edəcəyimi söyləyirdilər ki, belə sözlərdən də nə üçünsə acığım gəlirdi) uşaq oyunlarına marağım söndü. Mən saatlarla evimizin küçəyə açılan dal qapısında oturub qonşu uşaqlarının hay-həşirlə «toqqa-toqqa», «gizlənqaç», «eşşəkbeli» oynamalarına tamaşa edərdim. Bu uşaqların içində də anası xəstə olanlar var idi. Lakin bacım Mahtab kimi, analarının xəstəliyi onların da vecinə deyildi. Mən getdikcə qapalı və çəkingən olurdum. Məni son dərəcə bədbinləşdirən işlərdən biri də atamla anamın lap sarsaq şeylər üstündə tez-tez dalaşmaları idi. Belə dava-dalaşdan sonra onlar aylarla küsülü qalırdılar və bu vaxtlar atam daim qaşqabaqlı olur, xüsusən, mənimlə daha sərt rəftar edirdi. Elə bil ki, bunların dalaşmalarında mən təqsirkar idim. Mən qonşularımızdakı başqa ataların öz uşaqları ilə necə gülərüzlə, necə şən rəftar elədiklərini, onları necə tərifləmələrini gördükcə özümü daha da bədbəxt hesab edirdim.

Mən Fatma nənəmdən dəfələrlə eşitmişdim ki, bütün insanları, heyvanları, bütün dünyanı Allah yaradıb. Ona görə də tez-tez bağımızın qaranlıq yerində olan, mənim həmdərdim tut ağacının altına qaçaraq, iri yarpaqlar arasından görünən mavi göyə baxıb:

– Ay Allah, – deyirdim, – nə üçün sən mənim də atamı o biri uşaqların ataları kimi yaratmamısan?

Anam heç vaxt namaz qılmaz, Quran oxumazdı, oruc tutmazdı. Atam isə, cavanlığına baxmayaraq, bütün dini ayinlərə riayət edərdi. Müəyyən vaxtlarda namaz da qılardı, oruc da tutardı. Mən buna təəccüb edərdim. Çünki o, namaz qılanda və ya avazla Quran oxuyanda üzü, baxışları olduqca mehriban bir ifadə alırdı. Elə bil ki, o birdən-birə bu dünyadan ayrılaraq dönüb başqa adam olurdu. O da mənim nəzərimdən qaçmırdı ki, yoxsullara, dilənçilərə qarşı anam atamdan daha çox mərhəmətli idi. «Nə üçün gedib işləmirsən» deyə atam şikəst olmayan yolçulara acıqlanırdı. Anam isə qapıya gələn yolçunu, kim olursa-olsun, əliboş qaytarmazdı, xüsusən, yetim uşaqlara çox acıyardı.

... Dayım xəlvətcə gəlib anama dedi ki, onunla Alay bəyi göndərirlər Bakıdan hərbi sursat gətirməyə, özü də bu, çox məsuliyyətli işdir.

İki gündən sonra dayımgil getdi. Sonra da gözlədik dayımgil gəlib çıxmadı. Atam dəfələrlə Bakıya ticarətə gedəndə dayımı soraqlaşırdı. Lakin heç yerdə «gördüm» deyən olmamışdı. Yenə də Fatma nənəmin təlaşlı günləri, duaları başladı. Yenə də hər axşam eyvandakı taxtın üstündə oturub, gözünü dikirdi Yevlağa gedən şose yola.

ANAMIN BİR RƏFİQƏSİ VARDI...

Atam hər dəfə Bakıya gedib-gələndə Müsavat hökumətinin ideoloqu Məhəmməd Əmin Rəsulzadənin nitqlərindən danışardı. Küçələrdə uşaqlar Azərbaycan haqqında, vətən haqqında nəğmələr oxuyardılar, anamla rəfiqələri eyzən zabitlərdən söhbət edərdilər. Bizim şəhərimizdə müsavat zabitləri ilə bərabər, türk zabitləri də var idi. Bunlar Azərbaycana gələn türk hərbi hissəsinin zabitləri idi. Onlardan Hatəm bəy və Tofiq bəy adlı iki nəfəri bizim qonşuluğumuzdakı ikimərtəbəli binada yerləşmişdilər, yazın gur vaxtı olduğu üçün axşamçağılar bağçadakı qızılgüllükdə stul qoydurub, orada əyləşərdilər. Bəzən çay, bəzən şərab içərək bərkdən danışıb gülərdilər. Anam və rəfiqələri bizim bağımızda gəzib söhbət edərdilər.

Anamın Məhbub xanım adlı çatmaqaş, qaraşirin, uzun qarasaç, incəbel bir rəfiqəsi var idi. O, bizə gələn bütün cavan qadınlardan gözəl və zinətli geyinərdi. Mən həmişə ona baxanda nağıllarda eşitdiyim şahzadə gözəllər yadıma düşərdi. Şən, deyib-gülən bir gəlin idi. Onun da tumanı anamınkı kimi uzun idi. Tumanının ayağına əşrəfi deyilən qızıl, qanavuz arxalığının yaxasına isə qızıl düymə düzülmüşdü. Belində enli, qızıl kəmər vardı. Atası Məşədi Həbib şəhərimizdəki böyük hamamın və motorla işləyən un dəyirmanının sahibi idi. Anam bizi hamama aparanda qabaqcadan xüsusi nömrə hazırlanardı. Biz çimib çıxandan sonra gəlib Məhbub xanımgildə çay içərdik (onların evləri hamamın böyründə idi). Məhbub xanımın anası Xurşid xanım iricüssəli, kök, yaraşıqlı bir qadın idi, həmişə Novruz bayramında üç-dörd vedrə sututan iri mis qazan dolusu səməni bişirib, bütün qonşulara paylayardı. Qışda da iki-üç dəfə hədik, ya da əriştə bişirib yenə də qonşulara paylayardı. Anam atama deyirdi ki, «Xurşid xala bundan həzz alır». Məhbub xanımı Aşqabadda yaşayan əmisi oğlu Talıba vermişdilər, ancaq anamın söhbətlərindən bilirdim ki, oğlan qıza qarşı soyuq imiş, ona görə də tezlikla ayrılmışdılar.

Məhbub xanım indi bizə tez-tez gəlirdi və həmişə də o gələndə, türk zabiti Tofiq bəy olduqları evin bağçasında görünürdü.

Məhbub xanım gülə-gülə anama nə isə deyər və zabitə baxardı. Əlbəttə, mən bütün bunların nə demək olduğunu aydın dərk eləməsəm də, onların arasında nə isə bir hiss yarandığını duyurdum. Bu mənə fövqəladə dərəcədə gözəl görünürdü. Mən eyni hissləri qızıl-

güllər açılanda bağçamıza gəlib təzə yarpaqların arasında şənlikla qışqırışan bülbüllərin, sığırçınların səsində də duyurdum. Yəni mənim dil ilə ifadə eləyə bilmədiyim gözəlliyi duyurdum. Məhbub xanımın gözəl təbəssümü, anamın gözəlliyi, bağçamızın gözəlliyi mənim ruhi aləmimdə, elə bil ki, ayna kimi əks olunurdu. Atam indi başqa şəhərlərə tez-tez getdiyi üçün mən çox vaxt öz evimizdə olurdum. Ancaq gündə bir neçə dəfə bağlardan keçərək Fatma nənəmə dəməyi unutmurdum. Fatma nənəm eyvandakı ağac taxtın üstündə əyləşərək Bayram babamın qardaşı Eyvaz əmi haqqında öz-özünə daha qəzəbli danışırdı. Mən yanında dayanaraq qulaq asıb eşidirdim ki, Eyvaz əmi Kürdobadan çölləmə yolla tez-tez Bayram babamın naçalnik olduğu qəzaya gedir, babam da ona hər dəfə ya bir at, ya bir dəvə, ya da başqa bir şey verib xeyli sovqatla yola salır. Nənəm yenə də ona görə hirslənirdi ki, nə üçün babam əlinə düşən hər şeyi qardaşına verir? Niyə öz evinə heç nə göndərmir? Niyə gözünün ağı-qarası bircə oğlu olduğunu nəzərə almır?

... Bir gün də anam atama xəbər verdi ki, hamamçı Məşədi Həbibin qızı Məhbub xanım həmin türk zabiti Tofiq bəyə qoşulub qaçıb.

Bu əhvalatdan bir neçə gün sonra anam Məhbub xanımın görüşünə gedəndə məni də özü ilə apardı. O, Məhbub xanımdan xoşum gəldiyini bilirdi, hətta bir dəfə bunu onun özünə deyib məni utandırmışdı da. Ancaq mən özüm də bilməmişdim ki, niyə utanıram?! İndi Tofiq bəy bizim qonşuluğumuzda deyil, ayrı binada yaşayırdı.

Anam Məhbub xanımın boynunu qucaqlayıb, üzündən öpdü. Sonra ona baxıb:

– Ay qız, – dedi, – sən öl, ərə getmək sənə yaman düşüb. Əvvəlkindən də qəşəng olmusan...

Sonra mən eşitməyim deyə, əyilib onun qulağına nə isə dedi və hər ikisi qəhqəhə ilə güldü. Həqiqətən, mənə elə gəlirdi ki, bu qəşəng gəlini təzə görürəm. Mən onun sevincinin, fərəhinin yerə-göyə sığmadığını hiss edirdim və qəribə idi ki, bu, mənim özümü də sanki xoşbəxt edirdi. Məhbub xanım təzə ərinin onu necə istədiyini zərif təbəssümlə anama danışırdı.

Sonra çox yaraşıqlı bir zabit olan Tofiq bəy gülümsəyə-gülümsəyə pəncərənin qabağından keçərək o biri otağa getdi. O vaxtlar qadının yad kişiylə danışmağı məqbul olmadığı üçün Tofiq bəy anamla salamlaşmadı, ancaq bizim gəldiyimizdən xoşhal olduğunu təbəssümlə hiss etdirdi.

NARAHAT QOCALARIN MƏŞVƏRƏTİ

Həmin bu vaxtlarda Bayram babam öz bağlarında tikdirməyə hazırlaşdığı evin işi üçün gəlmişdi. (Özü faytonda əy-

ləşmişdi, iki nəfər strajniki və Qızılbaşoğlu onu müşayiət edirdi). Babam istəyirdi ki, indiki birmərtəbəli evi söküdürüb yerində ikimərtəbəli, böyük evlər tikdirsin. Bunun üçün qapıya guşə daşı, qum daşınırdı. Bayram babamın gəldiyini eşidib qazı ağa ilə şəhərimizdə məhkəmə sədri olan Balaş bəy görüşə gəlmişdilər. Onlar yeni hökumətin taleyi ilə maraqlanırdılar. Söhbət bu barədə gedəndə Bayram babamın üzü qayğılı göründü və o, papiros yandıraraq dedi:

– Bilirsiniz, əgər xaricdən kömək olmasa, Müsavat hökumətinin işi çətin olacaq. Düzdür, indi biz əsgər toplayırıq, qoşun təşkil edirik, ancaq bununla iş qurtarmır. Qoşuna silah lazımdı, hərbi işi yaxşı bilən adamlar lazımdı. Bu saat biz köməksiz uşaq kimiyik.

Balaş bəy dedi:

– Müsavat hökuməti çox ləng tərpənir, sizi inandırıram ki, bu saat Azərbaycanın hər yerində kommunistlər gizli iş aparırlar. Özləri də Rusiyada qurulan bolşevik hökuməti ilə əlaqədədirlər.

Mən bütün bu söhbətlərdən heç nə başa düşməsəm də, onlar öz-özünə beynimə həkk olunurdu. Məni ən çox maraqlandıran uzun, kök, qırmızısaqqal, qırmızısifət qazı ağa idi. Qazı ağa balaca stəkanda tünd rəngli çay içib, uzun, qırmızı müştüyündə dalbadal eşmə papiros çəkirdi və arabir məzəli sözlər deyirdi.

Qazı ağa yoğun papiros bükərək müştüyə qoyub yandırdı və dərin bir nəfəs alıb:

– Yaxşı, – dedi, – peyğəmbər özü də bərabərlik təbliğ eləyib, birinin o birinin haqqını tapdaladığını günah buyurub, belə olan tərzdə, bəs niyə kommunistlər dinin düşmənidirlər?

Balaş bəy dedi:

– Kommunistlər deyirlər ki, din bəylərin, kapitalistlərin köməkçisidir, din zəhmətkeşləri onlara tabe olmağa çağırır.

Qazı ağa dedi:

– Yəqin məsələdir ki, insan gərək öz vəli-nemətinin üzünə ağ olmasın. Əgər bir şəxs ki sənə çörək verir, niyə gərək ona təpik atasan?

Bayram babam dedi:

– Məsələ orasındadır ki, kommunistlər deyirlər ki, tacirlər, dövlətlilər zəhmətkeşlərin hesabına varlanırlar.

Qazı ağa dedi:

– Məgər Hacı Zeynalabdin cənablarının əvvəli ona-buna günəmuzd işləyən bənna deyildimi? Hər şey insanın öz fərasətindən asılıdır.

Sonra babama müraciətlə əlavə etdi:

– Sənin yeznən kənddən şəhərə gələndə kasıb bir oğlan idi, amma indi, maşallah, əməlli-başlı güzəran sahibidir. Filan tacir oturub gözləyə bilməz ki, görsün keçəl Şirin nə vaxt gəlib ona çatacaq.

Mən bu yaşlı adamların rəftarında qəribə ziddiyyətlər hiss edirdim və onları başa düşmək üçün məndə şiddətli bir maraq olsa da, heç nə soruşmurdum. Bu ziddiyyətlər mənim aləmimdə getdikcə bir xaosa çevrilirdi, məndə adamlara qarşı şübhə doğururdu. Mən nəyin yaxşı, nəyin pis olduğunu, nəyin günah, nəyin günah olmadığını aydınlaşdıra bilmirdim. Bilmirdim ki, Nuru dayım yaxşı adamdı, yoxsa qazı ağa? «Yaxşılıq», «pislik» məfhumları getdikcə mənim üçün anlaşılmaz olurdu.

YOLDA YAXALANMIŞ NAMƏLUM ŞƏHƏRLİ

Bayram babam Qarabulağa gəlməsindən istifadə eləyərək indi qışlaqda olan anası Səkinəni gedib görmək istədi. Mən həvəsə düşərək babama yalvardım ki, qoysun mən də gedim, babam heç bir zaman mənim sözümü, xahişimi rədd etməzdi.

Dedi:

– Yaxşı, gedək.

Anamgil də etiraz eləmədi.

Biz səhər tezdən Həbibin faytonunda, Qızılbaşoğlunun müşayiəti ilə yola düşdük.

Biz yetişib qılçıqlanmaqda olan buğda zəmilərinin, yaşıl darı tarlalarının arası ilə irəliləyərək dərəyə endiyimiz zaman gördük ki, yolun ortasında bir fayton durub. Bir az aralıda üç nəfər atlı-tüfəngli adamın qarşısında gözünün biri azca qıyıq ortayaşlı bir adam dayanıb. Atlılardan sarıbəniz kişi babama dedi:

– Xoş gördük, Bayram bəy!

Babam qaçaqların qabağında dayanmış adama işarə ilə soruşdu:

– Kimdi bu binəva keçib sizin girinizə, Rzaqulu bəy?

Mən Rzaqulu bəy adlı amansız, qəddar bir qaçaq olduğunu eşitmişdim. Qaçaq Rzaqulu bəy cavab verdi ki:

– O, binəva deyil, əşi, bolşevikdir. Güllələyəcəyik köpəkoğlunu!

Babam soruşdu:

– Nə bilirsiniz bolşevikdir?

– Uşaqlar tanıyıblar. Budur, cibindən də kağız-kuğuz çıxıb,- deyə Qaçaq Rzaqulu bəy əlindəki kağızları babama verdi.

Babam kağızları diqqətlə nəzərdən keçirib zarafatyana dedi:

– Nə olar bolşevik olanda?!

Qaçaq Rzaqulu bəy təəccüblə cavab verdi:

– Necə nə olar, əşi? Bunlar nə Allah tanıyırlar, nə peyğəmbər... nə ana, nə bacı, nə dost! Bu köpəkoğlu kəndləri gəzib camaatı dilə tutarmuş ki, «öldürün naçalniki, idarəsini dağıdın, bəyləri qırın...»

Əlində papiros dayanıb bizə baxan kişi sakit səslə dedi:

– Yalandır, biz terror tərəfdarı deyilik.

Babam soruşdu:

– Haralısınız?

Kişi dedi:

– Əslim Gəncə tərəfdəndi. Ancaq uşaqlıqdan Bakıda olanam.

Babam soruşdu:

– İndi haradan gəlib, hara gedirsiniz?

Kişi dedi:

– Bakıya gedirəm.

Mən çox maraqlanırdım ki, babam ondan soruşsun kimdi, nəçidi, buralarda nə gəzir?

Amma babam heç nə soruşmayıb, Qaçaq Rzaqulu bəyə dedi:

– Buraxın, getsin!

Qaçaq Rzaqulu bəy yenə də təəccüblə babama baxaraq dedi:

– Nə danışırsan, Bayram bəy, bu ilanın əlinə belə girəvə düşsəydi, səni salamat buraxardı?

Bayram babam gülümsədi:

– Onsuz da, – dedi, – əgər bolşeviklər hökumət başına keçsələr, yəqin ki, mənim kimi naçalnikləri sağ qoymazlar. Tək bu kişini siz öldürməklə nə olacaq?

Qaçaq Rzaqulu bəyin sarı bənizi qıpqırmızı oldu:

– Bayram bəy, – dedi, – özün bilirsən ki, sənin bizim yanımızda xətrin əzizdir, ancaq bu dinsizi sağ buraxmayacağam!

Babamın bənizi soyuq, ciddi bir ifadə aldı. Gördüm ki, Qızılbaşoğlu da sağ əlini yavaşca qoydu onatılanın üstünə.

Babam sükut içində gözünün birini qıyıb baxan bolşevikə dedi:

– Gedin! Azadsınız!

Kişi Qaçaq Rzaqulu bəyə ani bir nəzər saldı. Sanki bir an yerindən tərpənməyə qorxdu. Sonra çevrilib iti addımlarla gedərək gəldiyi faytona mindi. Faytonçu atları dördəmə çapdı.

Qaçaq Rzaqulu bəy yana-yana babama dedi:

– Gördünmü, sən onu ölümdən qurtardın, amma o sənin kimi kişiyə, heç olmazsa, bir «sağ ol» da demədi. Qoymadın o haramzadanın başına bir güllə ilişdirək!

Babam faytonçuya dedi:

– Sür!

Biz bir qədər aralanandan sonra mən babama dedim:

– Qaçaqlar dalınca gedib o adamı yenə də tutarlar.

Babam papiros çıxarıb yandıraraq dedi:

– Tutmazlar.

Atını faytonun yanınca sürən Qızılbaşoğlu babama dedi:

– Əgər sənin sözünə baxmasaydılar, üçünü də atacaqdım.

ÇARVADAR HƏBİB

Bayram babam bu söhbətin üstündən keçərək zarafatyana soruşdu:

– Həbib, yenə dörd aşıqla aran sazdı?

Həbib güldü:

– Bəy, məni utandırırsınız...

Mən atamgildən eşitmişdim ki, Çarvadar Həbib bərk qumarbazdı. Özü də toylarda məzəli oyunları ilə məşhurdur. Onu da bilirdim ki, atam anamı götürüb qaçanda həmin bu Həbibin faytonunda (bəlkə də elə bu faytonda) gediblər.

Bir vaxt Həbibin üç faytonu var imiş. Onda adına «Çarvadar Həbib» deyərmişlər. İndi faytonun ikisini atları ilə uduzmuşdu, qalmışdı biri. Ona görə də indi adına aradabir «Faytonçu Həbib» deyirdilər.

Biz sükut içində yolumuza davam edirdik. Ucsuz-bucaqsız Qarabağ çölləri ilə faytonda getmək mənə ləzzət verirdi. Bayram babam dedi:

– Həbib, deyirlər, sənin pəsdən yaxşı oxumağın var, yavaş-yavaş de gəlsin.

– Mənə sataşırlar, bəy, oxuyan deyiləm.

Mən başa düşdüm ki, Həbib babamın yanında təvazökarlıq eləyərək belə deyir.

Babam dedi:

– Yaxşı... Yaxşı... Bir-iki ağız de görək.

Həbib pəsdən oxumağa başladı:

Nə mən olaydım, ilahi, nə də bu aləm olaydı,
Nə də bu aləm dil müğəyyədi-qəm olaydı.

Doğrusu, bu qədər həzin, bu qədər təsirli oxumaq faytonçu Həbibin uzun burnuna, bir az pörtdə gözlərinə, atların cilovundan yapışan, günəşdən, ayazdan yanıb qaralmış iri əllərinə heç yaraşmırdı.

Yönü o yana olduğu üçün mən onun üzünün indi nə cür ifadə aldığını görmürdüm. Amma onun ürəyindən gələn kədəri, qəmi hiss edirdim. Bu kədərlə, onun toylarda məzəli hərəkətlərlə oynayıb tay-tuşunu güldürməyi mənim xəyalımda anlaşılmaz bir mənzərə təşkil edirdi. Mən onu da anlaya bilmirdim ki, faytonçu Həbibin bu qədər qəmli, bu qədər həzin oxumasına səbəb nədir?

O, oxuyub qurtaranda babam soruşdu:

– Deyəsən, Xurşidbanunun sözləridi...

Həbib dərindən nəfəs alıb dedi:

– Bəli, Xan qızının sözləridi... Allah rəhmət eləsin... Mənim atam onun mehtəri olmuşdu. Atamın yeddi qızı var idi. Hamısını

Xan qızı özü cer-cehizlə ərə verdi. Onun sayəsində hərəsi bir ev-eşik sahibi oldu. Yoxsa rəhmətlik atamın nəyi vardı ki?

Həbib şallağını havada şaqqıldadaraq atları tərpədib sözünə davam etdi:

– Mən balaca uşaq idim, hər bayramda Xan qızı hərəsi səkkiz-doqquz vedrə su tutan böyük mis qazanlarda zəfəranlı plov paylayardı. Novruz bayramında yoxsulların evinə un, düyü, şirniyyat göndərərdi. Allah rəhmət eləsin, bu sözdən deyildi Xan qızı. Atam danışardı ki, Xan qızı o suyu Şuşa qalasına çəkdirənə qədər camaat şirin suya həsrət idi.

Babam dedi:

– Deyirlər, Xan qızı cavanlıqda çox gözəlmiş.

– Bəli, atam danışardı ki, çox zərif zənən idi.

Lotuluqda, qumarbazlıqda ad çıxaran Çarvadar Həbibin şairə haqqında bu cür hərarətlə, ədəblə danışması sonralar (yəni mən şeirin nə demək olduğunu anlayanda) yadıma düşəndə mənə çox təsir eləyirdi, mən hiss edirdim ki, ömrü bu tozlu yollarda fayton sürməklə, atlara arpa-saman verməklə keçən Çarvadar Həbibin ürəyində heç onun özünün də dərk etmədiyi, bir dərdmi deyim, sirmi deyim, var və bu dərd, bu sirr bütün insanlara məxsusdur. Yoxsa bizim muğamlarımızda, dahi bəstəkarlarımızın əsərlərindəki o anlaşılmaz, əbədi kədər haradandı? Son dərəcə gözəl, şən bir oğlan olan məşhur xanəndə Xanın səsindəki o nəhayətsiz, o əsrarəngiz kədər, həsrət haradandı? Nə üçün təbiətin şən bir qadını olan anam dan üzü xoruzun banladığını eşidəndə qüssələnir? Nə üçün atam Quran oxuyanda üzü o qədər həlim, dərdli ifadə alır? Axı o, təbiətən çox sərt bir adamdır! İncə-mincə işlərlə də arası yoxdur. Necə olur ki, atın qızğın qaçarağında bir gülləyə iki ceyran vuran Bayram babam Çarvadar Həbibin astadan oxuduğu həzin muğama qulaq asanda o cür qəmli görünür? Mən öz qapalı, balaca həyatımda bunları hiss edirdim və bu anlaşılmazlıqlar mənim təbiətimdəki məyusluğu artırırdı. Anamın dediyi kimi, məni «cümləqayğı» edirdi, ancaq bu sözün nə demək olduğunu bilmirdim, bilmirdim ki, anam nəyə görə mənə «cümləqayğı» deyir? Mən sonralar, böyüyəndə, bu qəribə ifadənin dürüst mənasını bilməsəm də, başa düşürdüm ki, məsələ heç də təkcə mənim təbiətimdəki qəribəlikdə və ya hər kədərli hadisədən mütəəssir olmağımda deyil. Məsələ, bizim qəlbimizin harasındasa, hansı səbəbdənsə yaranmış gizli, anlaşılmaz əbədi kədərdə idi...

QARA DAMIN VAHİMƏSİ

Biz Kürdoba qışlağına çatanda toran qovuşurdu, yeraltı damların qapılarında qalanmış ocaqlardan gərmə tüstüsünün iyi duyulurdu. Mal-qara kəndə qayıdırdı, inəklərin, buzovların səsi bir-birinə qarışmışdı, itlər hürüşürdü. Qışlağın böyründəki sarıtikanlı düzdə çılpaq dəvələr otlayırdı. Qoyun-quzu isə, yəqin ki, qışlaqdan on beş-iyirmi kilometr aralıdakı Haramılarda idi.

Fayton babamgilin dədə-baba damına çatıb dayandı. İtlər qəzəblə hürə-hürə faytonu dövrəyə aldı. Eyvaz əmigilin alabaşı Bayram babamı tanıyıb, quyruğunu buladı. Eyvaz əmi və qonşu damlardakı kişilər yüyürüb: «Ay it! Ay it!» – deyə itləri qovdular. Səkinə qoca da, Fatma nənəm də, Eyvaz əminin arvadı da, tanımadığım başqa yaşmaqlı qonşu gəlinləri də mənim üzümdən öpdülər.

Səkinə qoca qalın kişi səsilə bərkdən dedi:

– Ay Bayram, bircə de görüm, qadasın aldığım Nurudan nə xəbər var?

Bayram babam soyuq ifadə ilə dedi:

– Xəbərim yoxdu, ana.

Gördüm Fatma nənənin üzünə məyusluq çökdü. Sonra o, pıçıltı ilə məndən soruşdu:

– Anangil də dayından bir xəbər bilmir?

Mən tutqun halda, «yox» mənasında başımı buladım. Fatma nənəm bu adamların arasında yenə də qərib, onlardan ayrı görünürdü. Birdən-birə, babamın və Fatma nənəmin orada olmalarına baxmayaraq, bu adamların arasında mən də özümü yad, yalqız hiss elədim. Biz asma fənərlə işıqlanan dama girdik. Arvadlar yerdə keçələrin üstünə döşəkcələr saldılar, söykənmək üçün mütəkkələr qoydular. Biz əyləşdik. Eyvaz əmi ayaq üstündə dayanıb mismar deşiyinə bənzəyən xırdaca gözlərilə bizə tamaşa eləyən Qaracaya dedi:

– Gəl, Bayram əminin çəkmələrini çək.

Qaraca, görünür, bu buyruğa şad olaraq, cəld irəlilədi, ancaq babam razı olmayıb, uzunboğaz çəkmələrini bir-bir özü çıxarıb kənara qoydu.

Damın içi meydan kimi geniş idi. Otaqda yorğan-döşəkdən, xalı-gəbədən böyük yük yığılmışdı. Mən başımı qaldırıb tavana baxanda, elə bil ki, dərin və yarıqaranlıq sükut içində olan vahiməli bir aləm gördüm. Başımızın üstündəki tavan və yerdən qalxan dirəklər üzərindəki nəhəng tirlər ortalıq ocağının hisindən qaralmışdı (kim bilir, bəlkə də, buna görə bu damlara «qara dam» deyirdilər...), onların arasında hörümçək torları görünürdü. Bir an mənə elə gəldi ki, bu nəhəng tirlərdən o yanda, mənim görüb tanımadığım bu dünya ilə əlaqəsi olmayan başqa, qorxulu bir dünya var. Elə bu zaman Eyvaz əmi Bayram babama neçə gün əvvəl başına gəlmiş qəribə bir hadisə danışdı. Eyvaz əmigilin neçə pud götürən məşhur bir nəri var idi, neçə gün imiş həmin nər qızıb çöldə qalırmış, heç kəs də qorxusundan yaxın gedə bilmirmiş. Eyvaz əmi nağıl eləyirdi ki:

– Günortaüstü əynimdə yapıncı aşağı qışlaqdan gəlirdim, bir də gördüm nər Cin dərəsinin qırağında dayanıb harasa baxır. Mən ya-

vaşca sivişib qaçmaq istəyəndə nər başını döndərib məni gördü, bildim ki, cumacaq üstümə. Keçən il yerə xıxmadığı üçün acıqlanıb bir ağac vurmuşdum dizinə. Mən qaçdım, o qovdu. Gördüm ki, az qalıb haqlasın məni, nəfəsim də kəsilirdi, yapıncını çiynimdən atdım yerə.

Qoca Mustafaoğlu dedi:

– Yaxşı ki, yapıncını yerə atmaq ağlına gəlib.

– Hə, – deyə Eyvaz əmi davam etdi, – qaça-qaça qanrılıb gördüm ki, nər yerə çökүb yapıncını dizləyir, sonra qalxıb yenə də dalımca cumdu. Bayramın canı üçün, əgər əmioğlu Zülfüqargilin pəyəsi yaxında olmasaydı, əlindən qurtara bilməyəcəkdim, elə məni haqla-haqlada özümü saldım pəyəyə. Gəlib pəyənin qapısında yerə xıxıb başını qoydu pəyənin qapısının düz ağzına. Axırda uşaqlar pəyənin dalından külfəni genişləndiriblər, oradan çıxmışam.

Səkinə qoca dedi:

– Dəvə qisas almayınca, ona toxunanı yaddan çıxarmaz.

Mustafaoğlu dedi:

– Gör necə işdir ki, cinlər gecə atları minib çapırlar, qaranəfəs eləyirlər, amma dəvə qisminə yaxın gəlmirlər.

Bayram babam gülümsəyib dedi:

– Cinlər yenə heylə iş eləyirlər?

Səkinə qoca dedi:

– Onların adını tutanda «bismillah» de, Bayram.

Hacı dedi:

– Əmimgilin kəhər ürgəsini hər gecə minib qaranəfəs eləyirlər. Səhər durub görürəm ki, at qan-tər içindədi, yalını da xırda-xırda hörüblər.

Bayram babamın üzü ciddi bir ifadə aldı, ancaq heç bir söz demədi. Mən Zinyətdən eşitmişdim ki, Mustafaoğlu Mehdi qarlı bir gecədə Haramıdan tək qışlağa gələndə həmin bu Kürdobanın böyründəki Cin dərəsində cinlərin yığıncağına düşüb. İndi mən bunu ondan soruşmaq istədim, amma cəsarət eləyib cinlərin adını tuta bilmədim. Çünki indi mən anlaşılmaz bir vahimə içindəydim. Bu vahimə məni doğuran cinlər haqqındakı söhbətlər deyildi, başımızın üstündəki qapqara, nəhəng tirlər idi.

Sonralar anamgil deyirdilər ki, guya mən fikirləşmişəm ki, gecə bu nəhəng tirlər uçub tökülər üstümüzə. Atam da məni qorxaqlıqda təqsirləndirirdi. Amma məsələ heç də belə deyildi, tirlərin uça biləcəyi heç mənim ağlıma da gəlmirdi. Yuxarıda dediyim kimi, onlara baxdıqca mənə elə gəlirdi ki, onlardan o yana qaranlıq, nəhayətsiz bir dünya var və o aləm, nə isə əcaib məxluqlarla doludur, mən onların nə şəkildə olduqlarını, eləcə də üzlərini aydın təsəvvür eləyə bilmirdim, mən ancaq vahimələnirdim və o da qəribə idi ki, mən yarıqaranlıq damın tavanına, nəhəng tirlərə baxıb xoflandıqca sanki yanımda oturub söhbət eləyən adamlar, hətta Bayram babam da, zarafatcıl Əhmədalı, ayaq üstə dayanıb damın yarıqaranlığında işıldayan gözlərilə baxan Qaraca da məndən uzaqlaşırdı, elə bil ki, onlar yuxuya çevrilirdilər və mən qorxulu, ümidsiz bir yalqızlıq hiss edirdim və mən buraya gəlməyimə peşman olurdum.

Söz-söhbətdən, yemək-içməkdən sonra qonşu kişilər getdilər. Torpaq döşəmənin üstünə sərilmiş keçələrin üstündə yerlər salındı. Mənim yerim Fatma nənəmin yanındaydı. Fənəri söndürdülər, soyunub girdik yerimizə. Damı zülmət bürümüşdü, dibsiz, vahiməli bir zülmət. Birdən məni ağlamaq tutdu. Fatma nənəm soruşdu:

– Nə olub, bala?

Mən cavab verməyib, içimi çəkə-çəkə ağlayırdım, damın yuxarı başından Bayram babamın səsi eşidildi:

– Nə olub, Murad, niyə ağlayırsan?

Mən yavaş səslə dedim:

– Yatmıram bu damda.

Babam soruşdu:

– Niyə?

Mən cavab verməyib, için-için ağlamağa davam etdim. O zaman babam acıqlanıb Fatma nənəmə dedi:

– Dur, apar, Şirinin çavıstanında yatırt.

Şirin Eyvaz əmigilin dəyirmançısı idi, yerin üstündə qarğıdan tikilmiş çavıstanı da onların damının yanında idi, arvadı, qızı və oğlu da Eyvaz əmigilin heyvanlarına, qapı-bacalarına xidmət eləyirdilər.

Biz dəyirmançı Şirinin çavıstanında Fatma nənəmlə yanaşı yerimizə uzananda və mən balaca pəncərədən ulduzlu göyü görəndə, elə bil ki, yenidən bu işıqlı dünyaya qayıtdım və tezliklə məni yuxu apardı.

Səhər babam kasıb qohumlarından Zülfüqar adlı oğlanı çağırıb dedi:

– Zülfüqar, bu qoçaq oğlanı mindir eşşəyə, apar evlərinə.

Mən hiss edirdim ki, babam «qoçaq» sözünü mənim axşamkı hərəkətimə görə istehza ilə deyir. Birinci dəfəydi ki, babamın mənə acığı tutmuşdu. Sonralar da mən başa düşdüm ki, bizim xalq hər şeyi bağışlayır, ancaq qorxaqlığı yox. Bilirdim ki, mənim gecəki qorxum babamgilin düşündüyü qorxaqlıqdan deyil. Ancaq mən onun nədən ibarət olduğunu da izah eləyə bilməzdim.

Zülfüqar məni mindirdi at boyda boz eşşəyin belinə, babam eşitməsin deyə Fatma nənəm mənə pıçıldadı ki:

– Anana de, soraqlaşsın, bəlkə dayından bir xəbər tuta bildi.

Biz yola düşdük. Zülfüqarın qıpqırmızı üzü fındıq boyda yumrularla dolu idi. Səsi də batmışdı, danışanda güclə eşidilirdi. Zülfüqarın bir bacısı da onun kimi idi. Ancaq yol uzunu mən hiss edirdim ki, Zülfüqar çox yaxşı oğlandı, mənimlə olduqca mehriban

danışırdı. Özü piyada yeriyirdi, neçə dəfə dedim ki, eşşək yeкədi, gəl sən də min, razı olmayıb dedi:

– Sən rahat otur.

Sonra yolda pendir-çörək çıxarıb özü də yedi, mənə də verdi. Nəhayət, biz gəlib çatdıq Qarabulağa, evimizə. Qapı-bacamızda heç кəs görünmürdü, o saat ürəyimə damdı ki, yəqin anam yenə xəstədir. Artırmaya çıxıb, pəncərədən baxıb gördüm ki, anam çarpayıda yatır, bacım Mahtab da yerdə oynayır. Birdən-birə özümü son dərəcə məyus hiss elədim.

Səhəri gün atam bazardan gəlib şadlıqla anama xəbər verdi ki, «malaкan Juкovun bizim mağazanın dalındakı evini satın almışam». Elə bil ki, bu xəbərlə anamın xəstəliyi də birdən-birə yox oldu. Axşamçağı bacımla məni də götürüb getdi təzə mülкümüzə baxmağa.

Dörd otaq və bir mətbəxdən ibarət, firuzə rəngli кürsülü bina anamın çox xoşuna gəldi. Evin qabağında böyүк bağ var idi.

Mən anamdan soruşdum:

– Bəs o biri evlərimizi neyləyəcəyiк?

Atamın кefi кök olduğu üçün zarafatyana dedi:

– O biri evləri də verəcəyiк sənin o biri qardaşlarına.

Mən təəccüblə soruşdum:

– Haradadı o biri qardaşlarım?

Atam eyni nəşə ilə cavab verdi:

– Sən gəldiyin yerdə.

Mən marağımı saxlaya bilməyib soruşdum:

– Mən haradan gəlmişəm ki?

Anam güldü. Atam mənə məzəmmətlə baxıb ciddi dedi:

– Bu qədər böyüyüb, hələ heç nədən başı çıxmır... Bilmirəm bunun axırı necə olacaq? Bunun tayları gözdən tүк seçirlər.

Mənə elə gəlirdi ki, doğrudan da, xeyli yaşım var, amma heç nə bilmirəm. Bu, məndə özümə qarşı olan inamsızlığı bir az da artırırdı. Ümumiyyətlə, atamın belə məzəmmətləri mənə ağır bir zərbə кimi dəyib, özümü öz gözümdə, həqiqətən də, acizləşdirirdi. Mən getdiкcə bədbinləşirdim. Birdən mən ürəyimdə Allahdan soruşdum: «Axı məni nə üçün yaratmısan?»

Bu sualın sözaltı mənası məlum idi. Madam ki, mən, atamın dediyi кimi, acizəm, кarsalayam, başqa uşaqlar кimi zirəк, vurub-tutan deyiləm, bəs onda, Allah məni nə üçün yaradırdı?

Belə suallar məni getdiкcə yalnız atamdan deyil, hamıdan uzaqlaşdırırdı və mən daim кədərli olurdum. Özümə inamım olmadığı üçün uşaqlarla oynayanda hərəкətlərim yöndəmsiz, кüt çıxırdı. Elə bil ki, gözəgörünməz bir qüvvə məni azad surətdə, cəsarətlə əl-qol açmağa, qoçaqlıq göstərməyə qoymurdu. Ona görə də, uşaqlar, məsələn, «dava-dava» oynamaq üçün tərəf-tərəf olduqda dəstəbaşçıların-

dan heç biri məni öz dəstəsinə götürməк istəmirdi. Bu da mənim izzəti-nəfsimi yaralayırdı. Atam bütün məhəllə uşaqlarının heç bir sevincində, heç bir oyununda iştiraк eləmədiyimi gördүкcə, əsəbiləşib məni daha da bərк danlayırdı.

Bu vaxtlar mənim həyatımda başqa bir кədərli hadisə oldu. Nuru paşanın Azərbaycana gəlmiş qoşunu çəкilib getdiyi üçün anamın rəfiqəsi Məhbub xanım da öz əri – türк zabiti Tofiq bəylə getdi. Mən çox sonralar da özümdən soruşurdum: «Məhbub xanım sənin anan deyildi, bacın deyildi, heç uzaq bir qohumun da deyildi, nə üçün onun ata-anasından, sənin anandan ayrılıb uzaq ellərə getməyini eşidəndə bağınızın qalınlığındakı tut ağacının altına qaçıb gizli-gizli ağlayırdın?» Halbuкi Məhbub xanım özü çox şən görünürdü. Getməкlərindən bir gün qabaq o, anamla görüşmək üçün bizə gəlmişdi, həmişəкi кimi gözəl geyinib, bütün daş-qaşlarını taxmışdı. İri, qara gözləri çatmaqaş altından həmişəкi кimi gülümsəyirdi. Anam mütəəssir bir səslə soruşdu:

– Ay Məhbub, ürəyin necə dözür, hamıdan ayrılıb heylə uzaq yerə gedirsən?

Məhbub xanım dedi:

– Mən onunla lap o biri dünyaya da gedərəm.

Anam dərindən nəfəs alaraq bir an nə isə düşündü və mənə elə gəldi ki, bu «nə isə» onun öz həyatı ilə əlaqədardır.

Onlar, nəhayət, öpüşüb ayrılanda mən səssizcə bağa qaçıb, dediyim кimi, tut ağacının yanında xəlvətcə ağladım. O gündən sonra da hər cürə ayrılıq mənim həyatımda ən кədərli hadisə oldu. Kim bilir, bəlкə də o ayrılığı mənim üçün bu qədər кədərli eləyən Məhbub xanımın həmişə məni görəndə gülümsəməsi, «nə gözəl oğlandır, nə ağıllı gözləri var» deyə məni tərifləməsi idi. Həyat hər gün mənim zehnimdə, təbiətimdə bir iz buraxaraq кeçirdi.

İman кişi, həmişəкi кimi, qonşulara mis səhənglə кəhrizdən su daşıyırdı. Beкar vaxtlarında da vərəqləri saralmış cındır кitabını pəncərədən düşən işığa tutub, «Quranın Quran olsun» deyə oxuyurdu. Ya da «Yer oğlu qıy vurub çıxdı göyə» deyə hey öz-özünə danışırdı. Ya da iri, mis səhəngdə su daşıdığı zaman yenə də acıqlı-acıqlı öz-özünə Kəкlik xalanın qarasına deyirdi:

– Zalım qızına deyirəm, sidiyini çəк gözünə, gözün açılsın! Eləmir ki, eləmir də!

Yenə də harada qabağına qara toyuq çıxsaydı, heç vaxt əlindən yerə qoymadığı ağacı ilə vurub öldürmək istəyirdi. İman кişi hələ də o fiкirdəydi ki, bütün qara toyuqlara çörəкçi Məşədi İbrahimxəlilin arvadı Gülbəs xala cadu eləyib, ona görə də Gülbəs xala İman кişini кüçədə görən кimi qaçıb girirdi evlərdən birinə. Bütün evlər isə, Gülbəs xalanın üzünə açıq idi. Gülbəs xala yenə də arvad toylarının ruhverəni idi. Onun əri çörəкçi Məşədi İbrahimxəlil bir az varlanan-

dan sonra özünə ikimərtəbə, qəşəng daş ev tikdirmişdi. Evin qabağını da eləmişdi qızılgüllük. Məşədi varlanandan sonra daha özü təndirə çörək yapmırdı. Bunu muzdla tutduğu adamlar edirdilər. Məşədi özü isə səliqə ilə geyinib, tərəzinin dalında əyləşirdi. Özü də ləzzətli körəklər yeməyi sevirdi. Hər cümə axşamı cücəli plov bişirtdirirdi. Deyirdilər ki, Məşədi plovun altına qoyulan çolpanı götürüb arvadından soruşarmış:

– Gülbəs, harası? (Yəni toyuğun harası ləzzətlidir?)

Gülbəs də, misal üçün, deyərmiş:

– Məşədi, budu!

Məşədi acıqlanıb deyərmiş:

– A köpəkqızı! (Yəni düz demədin!)

Qərəz, Gülbəs toyuğun bütün yerlərini sadalayıb, hərəsində də Məşədidən bir «köpəkqızı» alandan sonra deyərmiş:

– Məşədi, toyuğun dərisi!

Arvad yalnız indi Məşədinin ürəyindən xəbər verdiyi üçün kişi nəşə ilə deyərmiş:

– Ay bərəkallah!

... Fatma nənəm indi öz-özünə danışığında iki məsələ ilə məşğul idi. Birincisi bu idi ki, indi harada olduğu bilinməyən, çox adamın itmiş hesab elədiyi Nuruya daima dua edirdi. İkincisi də, indi Eyvaz əmi haqqında qəzəblə danışırdı. Çünki Eyvaz əmi Bayram babamın böyük bir sahədə rəis olmağından istifadə edərək dövlətini artırırdı.

Bizim alt evlərdən birində olan Kəklik xalanın oğlanları da yavaş-yavaş işlərinin ucunu tapırdılar. Böyük oğlu Ələsgər tərəvəz alveri edirdi. Haşım mənim atamdan borc pul götürüb, balaca bir əttar dükanı açmışdı. Qasım isə məşhur sünnət ustası, dəllək Ələsgərə şagird olmuşdu. Kazım da hələ balaca idi. Kəklik xala da anamın yorğan-döşək salmaq, ip əyirmək, yun çırpmaq kimi işlərinə kömək edirdi, sacda bizə yuxa bişirirdi. Yəqin məsələdir ki, anam da onu razı salırdı.

Atamın da işləri yağ kimi gedirdi. İndi o, dövlətlilər sırasında birinci olmağa can atırdı. İşlərinin yaxşı getməsinin onu necə fərəhləndirdiyini mən hiss edirdim. O, Rusiyada, İran tacirlərinin ona necə etibar elədiklərindən, nisyə nə qədər mal buraxdıqlarından anama iftixarla danışırdı. Ancaq bütün bunlar məni heç də şad eləmirdi. Çünki atam bir dəfə də olsun, mənim həyatıma müdaxilə eləmirdi. Bir dəfə də olsun, mənə tərifli söz demirdi. Sonralar başa düşdüm ki, yazıq kişi bu yolla məni hərəkətə gətirmək, mənim də başqa uşaqlar kimi, deyib-gülən, zirək, açıqtəbiətli bir məxluq olmağımı istəyirmiş. Daha haradan biləydi ki, mənim daxilimdə tamam başqa bir aləm var. Özüm üçün də anlaşılmaz, qaranlıq olan bu aləm məni bütün xarici mühitdən və birinci növbədə atamın özündən ayırır, məni onlara uyuşmağa qoymur.

... Bizim evdən yuxarı yalda hər gün müsavat əsgərlərinə təlim keçirdilər. Təlimdən sonra onlar nəğmələr oxuyurdular. Çox qəribə idi ki, bu nəğmələr, əsasən, hərbi ruhda olsa da, məndə kədərli bir hiss doğururdu. Elə bil ki, mahnıların özündə nə isə pərişan bir şey vardı.

Yeniyetmə, cavan oğlanlar balaca uşaqlardan əsgərsayağı dəstələr düzəldərək, onlara komanda verə-verə küçələrdə gəzir, türk və müsavat əsgərlərindən öyrəndikləri mahnıları oxuyurdular. Belə dəstələrdən birinin də komandiri Məhbub xanımın kiçik qardaşı Qulam idi. Bir dəfə o, anası Xurşid xanımla bizə gəldiyi zaman anam dedi ki, Qulam məni də aparıb öz dəstəsinə qoşsun.

Səhəri gün Qulam bizə gəldi. Anam mənə təzə paltar geyindirdi. Biz getdik şəhərin Murğuzlu adlanan tərəfindəki düzənliyə. Gördüm ki, burada uşaqlar dəstə-dəstə göy otluqda oturub mahnı oxuyurlar. Qulam da məni öz dəstəsinə daxil elədi. Sonra Qulam uşaqlara dedi ki, biz də gərək əsgərlər kimi təlim keçək, onlar kimi mahnılar öyrənək.

Sonra hansı bir mahnını isə oxudular.

Sonra dəstəbaşçıları bir yerə yığıldılar. Bunlar hamısı yaxşı geyinmiş oğlanlar idi. Ancaq arıq, qarabəniz oğlan hamıdan yaxşı geyinmişdi. Hiss edirdim ki, o biri oğlanlar da onunla çox hörmətlə danışırlar. O, bir növ, yoğun səslə yoldaşlarına dedi:

– Mənim dəstəmdəki uşaqlar çox balacadırlar. Onlara hərbi şeyləri nə cür öyrətmək olar?.. Çoxu hələ əlifbanı da bilmir.

Sonra mən Qulamdan öyrəndim ki, bu oğlan Cavanşir xanlığının axırıncı nəsli olan Qafar ağanın oğludur. Qulam mənim marağımı görüb, o biri dəstəbaşçılarını da mənə tanıtdı. Məlum oldu ki, onlar da bəy oğlanlarıdı. Gördüm ki, bu «komandirlərin» içində bir nəfər də fəhlə, kəndli, sənətkar, ya tacir oğlu yoxdur. Heç mənasını özüm də dərk eləmədiyim halda, bu, mənim izzəti-nəfsimə toxundu. Mənə elə gəldi ki, bu bəy oğlanları burunlarını çox dik tuturlar, öz bəyliklərilə açıq-açığına fəxr edirlər. Mən Qaçaq Xanmuradın «yenə də bəy oğlanları meydan sulayırlar» sözlərini xatırladım və məndə kasıblara, adi adamlara qarşı bir qəhmərlik hissi baş qaldırdı. Sonralar o günləri xatırlayanda başa düşdüm ki, sinfi ziddiyyət insanla birgə doğulan bir sövqi-təbiilikdir, insanın özünümüdafiə instinkti kimi bir şeydir. Sonra Qulam yenə də məni aparmağa gələndə getmədim. Səbəbini də heç kəsə demədim. Atam da məni adamdan qaçmaqda təqsirləndirərək danladı.

Bayram babamgilə gələn tərəkəmələrlə deyib danışmaq mənə daha çox xoş gəlirdi, nəinki bəy oğlanları ilə. Mən adi adamların yanında özümü daha sərbəst, daha azad hiss edirdim. Onlar mənə daha yaxın, daha səmimi görünürdülər. Əlbəttə, o zaman səmimiyyətin, yekəxanalığın nə demək olduğunu aydın mühakimə eləyə bilməsəm

də, hiss edirdim. Kürdobalı Xaynamaz həftəbazarına gələndə babamgilə düşərdi. (Ümumiyyətlə, Kürdobadan atını minən – kasıb, dövlətli – gəlib Bayram babamgilə düşərdi. Hamı da bunu təbii bir hal hesab edərdi). Mən də onun köhnə Qafqaz yəhərli ağ yabısının üstündən düşməzdim. Yabı da bunu vecinə almayaraq, bağda addım-addım gəzib özü üçün otlayardı. Əlbəttə, əgər Xaynamazın əvəzinə bir ağa, məsələn, dayımın dostlarından biri olsaydı, mən onun atına minib bu cür sərbəst gəzməzdim, bu cür ləzzət almazdım.

Dayımdan heç bir xəbər-ətər yox idi. Atam yenə də Bakıya, Rusiya şəhərlərinə ticarət üçün gedəndə onu axtarırdı. Bayram babam isə nə onu axtarırdı, nə də barəsində bir kəlmə söz danışırdı. Bu da Fatma nənəmi yandırıb-tökürdü.

– Kişi olan kəs, – deyirdi, – o cür oğulun itkin düşməyini vecinə almır.

Fatma nənəm, «o cür oğul» dedikdə, mən təəccüb edirdim. Çünki dayımın Fatma nənəmi necə incitdiyi yadımda idi. Amma, elə bil, onlar arvadın zehnindən tamam silinib getmişdi. O, gündə üç dəfə namaz qılıb, oğluna dua eləyirdi. Onun sağ-salamat qayıtması üçün Allaha yalvarırdı, belə anlarda nənəmə yazığım gəlirdi.

Atam da nənəmə deyirdi:

– Qorxma, ay arvad, Nurunu dəyirmanın boğazından ölü salsalar, ayağından diri çıxar.

Nənəm də uzun müştükdəki papirosundan dərin qullab alaraq, nə üçünsə, atama kinli-kinli baxıb bir söz demirdi.

Mən yenə də girəvə düşən kimi babamgilə qaçırdım. Bir dəfə də onlarda olduğum zaman babamgilin nökəri Bünyad yüyürə-yüyürə gəlib, Fatma nənəmi muştuluqladı.

– Nuru qağa gəlib, odur, Yaqut xanımgildədi.

Yazıq nənəm sevindiyindən bilmədi nə desin. Haçandan-haçana Bünyaddan soruşdu:

– Azarlı-zad döyül ki?

Bünyad dedi:

– Azarlı nədi, əşi, maşallah, laçın kimidi.

Başqa vaxt dayımdan qorxub çəkinməyimə baxmayaraq, onun gəldiyini eşidən kimi yüyürdüm evimizə. Gördüm ki, dayım başında İran qaçaqlarının geydiyi keçə araqçın, əynində sərdari çuxa artırmada oturub çay içir. Məni görəndə gülümsədi.

Anam mənə tapşırdı ki, dayının gəlməyini heç kəsə danışma. Mən bu sözə təəccüb elədimsə də, səbəbini soruşmadım.

NURU DAYIMIN QƏRİBƏ MACƏRASI

Anamın bişirdiyi cücəli plovu, ətirli dovğanı böyük bir iştaha ilə, ləzzət çəkə-çəkə yeyəndən sonra dayım, balaca armudu stəkandakı çayın rənginə zövq ilə nəzər yetirib anamla, atamla danışmağa başladı:

– Biz, yəni mən və dostum Alay müsavat ordusunun hesabına ələ keçirdiyimiz tüfəngləri, patronları, tapançaları aparıb İranda satmaq qərarına gəldik. Bunu bizə İranda yaşayan kontrabandaçı bir türkmən məsləhət gördü. Onun xüsusi qayığı vardı. Bakıya, Həştərxana, İrana gizli mal aparıb gətirirdi. Bizi inandırdı ki, onun köməyi ilə bütün silahları xatasız, əngəlsiz aparıb İran kürdlərinə sata bilərik.

Qaranlıq bir gecədə qayıq İrana doğru yol aldı. Türkmənin özündən başqa da iki nəfər yoldaşı vardı.

Mən Alaya dedim ki:

– Ayıq ol, bunlarda balaca bir kələk duyan kimi üçünü də öldürmək lazımdır.

Alay dedi:

– Doğrudu. Bunu mən də sənə deyəcəkdim.

Bizimlə danışıb sövdələşən türkmən ucaboylu, yaraşıqlı bir oğlan idi. İkincisi də cavan idi.

Onlar bizimlə elə danışıb gülürdülər ki, elə bil, çoxdanın yoldaşlarıydıq. Amma onlardan bir qədər yaşlı olan üçüncüsü isə bizimlə bir kəlmə də danışmırdı. Eyzən bir gözünü qıyıb, papiros çəkirdi, bizim qızıl vəznələrimizə qəribə bir kinlə baxırdı. Qayıq açıq dənizdə xeyli uzaqlaşandan sonra mən çamadandan iki şüşə araq, yemək çıxarıb türkmənlərə təklif elədim ki, bizimlə vursunlar. Cavanlar təklifimizi məmnuniyyətlə qəbul elədilər. Üçüncüsü – yaşlısı yeyib-içmək zamanı nə bir kəlmə danışırdı, nə də bizim üzümüzə baxırdı. Orası da qəribə idi ki, bizimlə sövdələşən cavan türkmən tez-tez öz dillərində ona nə isə deyirdi, amma o, yenə də susub bir kəlmə cavab vermirdi. Biz xeyli içib dəmlənmişdik. Birdən yaşlı türkmənin hərəkəti məni hirsləndirdi. Mənə elə gəldi ki, gözünü qıyıb bizim arağımızı yekəxana bir əda ilə içən bu hərif bizim başımızı nə vaxt kəsəcəyini gözləyir.

Mən qəddimi düzəldib ona dedim:

– Ey dost, niyə ağzına su almısan? Sən ali cəmiyyətdən olan zabitlərin məclisindəsən!

O, gözünü qıyıb, mənə iti bir nəzər saldı, amma yenə dinmədi. Əlindəki qədəhi içəndən sonra qalxıb aralandı. Mən birinci türkməndən soruşdum:

– Sizin bu yoldaşınız niyə dinmir, laldır?

Cavan türkmən dedi:

– Yox, lal deyil, xasiyyəti belədi, fikir verməyin.

– Bu qayığın sahibi odur?

– Xeyir. Bu qayıq bizim üçümüzündü.

Mən çox içmişdim, gözünü qıyıb bizi saymayan o hərifin baş-gözünü əzmək istəyirdim. Əlimi belimdəki onatılanın dəstəsinə qoyub cavan türkməndən soruşdum:

– Yoxsa, o bizim haqqımızda başqa xəyaldadı?

– Xeyir! – deyə cavan türkmən tələsik cavab verdi. – Nə danışırsan, ağa? Sizinlə biz qardaşıq! Siz azərbaycanlı, biz türkmən. Mənim xalaqızımın əri azərbaycanlıdır, Aşqabadda yaşayırlar.

Alay fransızca mənə dedi:

– Çox ağartma.

(Dayım fransız dilini yaxşı bilirdi. Ümumiyyətlə, onda dil öyrənməkdə iti bir yaddaş vardı. Rus, fransız dillərini ana dili kimi bilirdi, fars dilini öz-özünə öyrənib «Şahnamə»ni o dildə oxumuşdu).

Sonra biz Alayla «Süsən sünbül» mahnısını oxuduq. Sonra mən çamadandan iki şüşə də şərab çıxarıb, cavan türkmənləri yenə də dəvət elədim. Onlar gözüqıyıq türkmənlə nə barədəsə mübahisə edirdilər. Mən təklif eləyən kimi söhbəti kəsib, bizə yaxınlaşdılar.

Mən onların stəkanlarını doldurandan sonra qəsdən amiranə bir tonla gözüqıyıq türkmənə dedim:

– Ey, sən də gəl!

Mən o biri türkmənlərlə olduğu kimi, onunla da rusca danışırdım. Lakin o, mənə təmiz Azərbaycan dilində cavab verdi.

– Sağ ol, ağa. Mən şərab içmirəm.

Mən cavan türkməndən soruşdum:

– Bəyəm, o, azərbaycanlıdır?

Oğlan cavab verdi ki:

– Xeyir, tatdı, Balaxanıdandı.

Külək bizim getdiyimiz istiqamətə əsdiyi üçün qayıq sürətlə gedirdi. Hava yavaş-yavaş işıqlanırdı. Dənizin sakit şırıltısı adama ləzzət verirdi. Alayı yuxu aparmışdı. Özünüz bilirsiniz ki, mən nə qədər içsəm də kefli olmuram. Yatmaq da istəmirdim. Əgər Alayı yuxu aparmasaydı, səhərə qədər içərdim. Mən birinci dəfəydi ki, dənizdə, özü də açıq qayıqda yol gedirdim. Mən arxası üstə uzanıb, gözlərimi yumaraq, İranda necə kef çəkəcəyimiz haqqında düşünürdüm. Bir də gördüm ki, gözünü qıyıb baxan tat səssiz addımlarla bizə yaxınlaşıb dayandı. Alay bərk xoruldayırdı. Mən də xoruldamağa başladım. Özü də bunu elə elədim ki, hərif mənim qəsdən xoruldamağımı başa düşməsin. O, bir xeyli, guya dənizə baxırmış kimi dayandıqdan sonra yoldaşlarının yanına qayıdıb dedi:

– Piyandılar, ölü kimi düşüb qalıblar.

Birinci cavan türkmən acıqlı-acıqlı:

– Lazım deyil, – dedi. (Türkmən dili bizim dilə çox yaxın olduğu üçün mən onun nə dediyini başa düşürdüm).

Gözüqıyıq dedi:

– Sən nə vaxtdan belə molla olmusan?

Sonra əlavə etdi:

– Oğrudan oğruya halaldı.

Qan başıma vursa da, özümü saxlayıb qulaq asmağa davam elədim.

Gözüqıyıq dedi:

– O sarının (yəni mənim) təkcə barmağındakı brilyant üzüyünün azı dörd-beş yüz qızıl qiyməti var. Çamadanları da yəqin doludur.

Araya sükut çökdü. Mən usdufca əlimi aparıb onatılanın dəstəyindən yapışdım. Birinci türkmən bu dəfə yavaş səslə dedi:

– Yox... lazım deyil.

Elə bil ki, o, indi tərəddüd keçirirdi. Yenə də qısa bir sükutdan sonra o, əlavə elədi...

– Namərdlik olar!

O biri cavan türkmən də nə isə dedi. Lakin mən onun sözünü başa düşmürdüm. Gözüqıyıq hərarətlə dedi:

– Nə namərdlikbazlıqdı?! İki bəy oğlunu cəhənnəmə vasil eləmək namərdlik niyə olur?! Yaxşı, siz əlinizi tərpətməyin, onların işlərini mən özüm bitirərəm.

Sonra pıçıltı ilə dedi:

– Gəlin bəri, vaxt keçir!

Birinci türkmən bu dəfə sanki yuxudan ayılaraq qəti səslə gözüqıyıq kişiyə bozardı:

– Sənə dedim ki, olmaz!

Mən artıq dayana bilməyərək gözümü açıb dikəldim. Guya indicə yuxudan ayılıram kimi dedim:

– Deyəsən, biz yaman çox yatmışıq...

Onların heç biri dinmədi. Mən birinci türkməndən soruşdum:

– Görəsən, yolu yarılamışıq?

– Yarıdan keçmişik, ağa! – deyə o, cavab verdi.

Mənim səsimə Alay da oyanıb dikəldi. Mən yavaşca Alaya dedim:

– Əlin silahında olsun.

O, fransızca soruşdu:

– Nə olub?

Mən dedim:

– Gözüqıyıqda xəyanət var.

Bu zaman bizim qayıq balaca bir adanın təxminən üç-dörd yüz metrliyindən keçirdi. Mən qayığın kənarına söykənib papiros çəkən gözüqıyıqdan zarafatyana soruşdum:

– Buradan o adaya üzüb çatmaq olar?

O, görünür, mənim axmaq sual verdiyimi düşünüb istehza ilə gülümsədi:

– Ora uşaq da üzüb çata bilər.

– Yəni neçə metr olar ora ki? – deyə mən yenə də sadəlövhlüklə soruşaraq ona yaxınlaşdım. O, adaya sarı baxıb saymazyana dedi:

– Neçə olacaq?.. Çox olsa, dörd-beş yüz metr...

– Doğrudan?! – deyə mən qəfil ondan yapışaraq bir anda qaldırıb tulladım dənizə və həmin anda da onatılanı çıxarıb cavan türkmənlərə tuşlayaraq qışqırdım:

– Əllər yuxarı!

Onlar özlərini itirmiş halda əllərini qaldırdılar. Alay da tapançasını onlara tuşlamışdı.

Mən cavan türkmənlərə dedim:

– Əlinizi tərpətsəniz, vuracağam ikinizi də!

Sonra bir gözüm onlarda olduğu halda, qayığa sarı üzən gözüqıyığa dedim:

– Nahaq zəhmət çəkmə, yaxşısı budur, vaxt itirmə, qayıt üz o adaya! Özün də Allahına şükür elə ki, səni quduz it kimi güllələmirəm!

O, ilan dili çıxarıb yalvardı. Dedim:

– Qayıt! Qayıtmasan, öldürəcəyəm.

O, yenə də qayığa sarı üzməyə davam eləyəndə düz qabağına güllə atdım. Gördü, xeyir, işin orası deyil, üzünü çevirdi adaya tərəf və bir qədər aralanandan sonra başını geri döndərib, türkmənlərə qışqırdı:

– Ehey, Durdu! Əgər mənim bir qəpiyimi o yan-bu yan eləsəniz, əlimdən qurtarmazsınız!

Birinci türkmən mənə dedi:

– Ağa, vur onu!

Mən birinci türkmənə dedim:

– İkiniz də silahlarınızı çıxarın, qoyun bura!

O dedi:

– Ağa, hamısı qayıqdadı.

Dedim:

– Yeri göstər!

O, tapançanın qabağında gedib silahlarını çıxarıb qoydu stolun üstünə!

Sonra mən Alaya dedim:

– Bunların ikisinin də qolunu daldan bağla.

Alay başqa şey tapmadığı üçün əl-üz məhrəbasını bıçaqla iki yerə bölərək onların qolunu arxadan möhkəm bağladı.

Birinci türkmən dedi:

– Ağa, vallah, bizdə təqsir yoxdur.

Mən dedim:

– Oturun! Tərpənsəniz, ikinizi də güllələyəcəyik.

– Bəs sövdəmiz?

Mən dedim:

– Necə danışmışıqsa, eləcə də olacaq.

O, təkrar dedi:

– Ağa, vallah, bizdə təqsir yoxdur.

Mən sərt səslə dedim:

– Oturun, gözləyin!

Sonra dönüb gözüqıyığın ardınca baxdım. O, artıq adanın üstündə durub bizə tərəf baxırdı. Biz adadan xeyli uzaqlaşmışdıq...

İran sərhədinə yaxınlaşdıqda, biz dənizdə dayanıb gecənin düşməsini gözlədik.

Gecə zil qaranlıq idi. Sahilə bir neçə mil qalmış mən Alaya dedim:

– Aç bunların qolunu.

Sonra özlərinə yenə təkrar etdim ki, əgər başqa xəyala düşsəniz, öləcəksiniz.

Qərəz, nə başınızı ağrıdım, İranda türkmənlərin tapıb gətirdikləri kürdlərə silahların hamısını qızıl pula satdıq. Türkmənləri danışdığımızdan da artıq razı saldıq. Birinci türkmən haqlarını alıb bizdən ayrılanda yenə dedi:

– Ağa, vallah, biz sizə əl qaldırmaq fikrində olmamışıq.

Mən ona dedim:

– Bilirəm, o gecə tat sizi dilə tutanda mən hamısını eşidirdim, yatmamışdım.

... Alayın əmisi oğlu İstanbulda yaşayır. Deyilənə görə, çox dövlətli bir adamdır. Alay mənə də təklif elədi ki, gedək İstanbula. Bu gün-sabah Azərbaycanda Şura hökuməti qurulacaq, onda qayıdarıq Azərbaycana. Mən də təklif elədim ki, əvvəlcə gedək Tehranı-zadı gəzək. Alay razı olmadı. Dedi:

– Pulumuz-zadımız qurtarar, qalarıq belə. Yaxşısı budur, buradan xalı-gəbə alıb aparaq Türkiyəyə, həm ziyarət, həm ticarət.Mən dedim:

– İldə-əyyamda əlimizə bu qədər pul düşüb, qoy əvvəl gedək Tehranı görək.

Xülasə, Alaydan ayrıldım, Tehrana gedib Laləzar xiyabanında ən bahalı mehmanxanaya düşdüm. Əvvəl özümə bir neçə dəst paltar aldım, sonra başladım Tehranın əfsanəli həyatı ilə tanış olmağa... Eh... Bu dünyada əsil kef çəkmək istəyən Tehrana getsin. Elə işlərə rast gəlirsən ki, sonra adama yuxu kimi görünür...

– Nə cür işlərə? – deyə anam maraqla soruşdu.

Atam mənə acıqlandı:

– Dur get o yana... Sənə deməmişəm ki, böyüklərin söhbətinə qulaq asma.

Doğrudur, atam mənə bunu dəfələrlə demişdi, lakin böyüklərin söhbəti mənə həmişə uşaqların söhbətindən maraqlı görünürdü, böyüklərin söhbəti hər zaman mənim üçün təzə idi, mənə məlum olmayan aləmdən idi. Mən durub çıxdım. Xəlvətcə o biri otağa keçib, qulağımı açar yerinə dirəyərək yenə də qulaq asmağa başladım.

Dayım öz şirin bəlağətilə söhbətinə davam edirdi:

– Bir gün Sədi xiyabanında gəzdiyim zaman hiss elədim ki, çarşablı, rübəndli bir qadın məni izləyir. Birdən qəfil dayanıb geri çevrilərək ondan soruşdum:

– Sizə nə lazımdır?

O, yavaş və çox nəzakətli səslə mənə dedi:

– Ağa, əgər özünüz kimi gözəl, ceyran bir xanımı siğə eləyib bir gecə vaxt keçirmək istəyirsinizsə, ardımca gəlin.

Onun xanımı mənə oxşatmasına hirslənib soruşdum:

– Kimdi o xanım, siz özünüzsünüz?

– Xeyr, ağa, – dedi, – görərsiniz, təşrif buyurmağınıza heyifsilənməyəcəksiniz.

Mən Tehran küçələrində belə aradüzəldən qadınlar olduğunu bilirdim. Düzü, bu mənə maraqlı bir macəra kimi göründü, ona görə də razılıq verdim.

Biz bir neçə tin keçib, qədim, dar bir küçəyə düşüb bir xeyli gedəndən sonra arvad balaca bir darvazanın qabağında dayanıb, diqqətlə o tərəf-bu tərəfə baxdı. Sonra dəmir toxmağı üç dəfə usdufca vurdu. Qapını on altı-on yeddi yaşında bir qız açdı. Zalım qızı o qədər gözəl idi ki, mən yerimdə donub qaldım. Heç ağlıma da gəlməzdi ki, mənim siğə eləyəcəyim xanım budur. O da dayanıb mat-mat üzümə baxırdı. Onun alnının ortasında süni bir xal vardı. Başı açıq idi. Uzun, qara hörükləri daldan ayaqlarına qədər uzanmışdı. Biləklərində iri gümüş bilərziklər, başında, yəqin ki, süni olan mirvari tac vardı. Biz gül-çiçəklə dolu balaca bir bağçaya girdik. İki-üç otaqdan ibarət birmərtəbə evin ətrafında bişmiş kərpicdən barı vardı. Barı o qədər hündür idi ki, küçədən ancaq evin taxtapuşu görünürdü. Biz çiçəklərin arasındakı cığırdan keçib, balaca otağa girdik. Yerə əlvan xalılar döşənmişdi. Mavi şüşə örtüyün içində neft çırağı yanırdı. Biz içəri girəndən sonra məni gətirən arvad çadra ilə rübəndi çıxartdı. Gördüm bu, təxminən qırx-qırx beş yaşında sağlam, enlikürək, iri gözləri sürməli, qırmızısifət bir arvaddır. Mənalı-mənalı mənə baxıb gülümsədi. Dişləri balta kimi sağlam idi. O, mənim yadıma nağıllardakı cadugərləri saldı. Yanına mütəkkə-yastıq qoyulmuş ipək döşəkcəyə işarə ilə farsca mənə dedi:

– Əyləşin, ağa.

Sonra gözəl qıza dedi:

– Ağaya xidmət elə.

Bayaqdan qızın gözü məndəydi. Arvad ona müraciət eləyəndə mənə elə gəldi ki, qız nəyə görəsə diksinib qorxmuş halda əvvəl qadına, sonra mənə baxdı. Arvadın üzü mənə təəccüblü dərəcədə soyuq, qəddar göründü. Ancaq o, gözünü qızdan çəkib mənə baxanda üzündə yenə yaltaq bir təbəssüm zahir oldu.

– Siz bir qədər məşğul olun, ağa, mən qonşudan mollanı çağırım, siğənizi oxusun.

Mən ondan soruşdum:

– Hanı mənə siğə edilən xanım?

O, qızı göstərib dedi:

– O, sizin qulluğunuzdadır, ağa.

Doğrusu, bu siğə əhvalatı mənə çox maraqlı görünürdü.

– Yaxşı, – dedim, – çağır mollanı.

Qız mənim qabağıma qısaayaqlı, balaca bir stol qoyaraq o biri otaqdan qədim kuzədə şərab, qədəh və balaca bir boşqabda da xuşgəbər gətirdi. Qadın qıza məndən oğrun, mənalı bir nəzər salıb getdi. Qız isə ayaq üstündə qabağımda dayanıb mənə baxırdı. Mən gülümsəyib dedim:

– Gəl, əyləş.

Ancaq o, yerindən tərpənmədi, mən gülə-gülə ondan soruşdum:

– Sən farssan?

O, başını bulayıb:

– Yox, ağa, – dedi, – mən kürdəm.

Mən öz qədəhimi şərabla doldurub təkrar ona təklif elədim:

– Gəl, əyləş...

O, yenə də yerindən tərpənmədi. Ancaq mən qədəhi qaldırıb ağzıma aparanda o, özünü irəli atıb, əlimdən yapışdı:

– İçməyin, ağa!

Mən dərhal qədəhi yerə qoyub soruşdum:

– Nə olub?

O, mənim sualıma cavab verməyib, həyəcanla pıçıldadı:

– Durun burdan qaçın, ağa. Siz çox cavansınız. Tez olun, qaçın!

Mən qeyri-şüuri hərəkətlə əlimi, həmişə pencəyimin altında, belimdə gəzdirdiyim balaca tapançanın üstünə qoyub sərt səslə soruşdum:

– Nə olub?

O, rəngi ağappaq olmuş halda yenə də dedi:

– Qaçın, tez olun, onlar bu saat gələcəklər.

Doğrusu, «qaçın» sözü mənə toxundu. Belimdə tapança ola-ola, bu gözəl qızın gözləri qabağında qorxub qaçmaq mənə ar gəldi.

Mən ondan soruşdum:

– Neçə nəfərdi onlar?

Qız pıçıldadı:

– İki nəfərdirlər, ağa.

Mən dedim:

– Sən sakit dur. Onlar gələndə heç nə büruzə vermə.

O da vahimə içində pıçıldadı:

– Oy, ağa!

Mən acıqlı-acıqlı əmr elədim:

– Sakit!

Özüm də keçib əyləşdim. Elə bu vaxt əvvəlcə arvad, ardınca da iki kişi gəldilər. Kişilərdən birinin əynində əba vardı, ancaq mollaya oxşamırdı. İkisi də ortayaşlı, sağlam adam idi. İçəri girib məni görəndə onlar da, arvad da, elə bil, bir an nəyə isə təəccüb elədilər. Arvad qəribə bir ifadə ilə əvvəl qıza, sonra da mənim qabağımdakı dolu qədəhə baxdı. Ancaq hərif özünü onda qoymayıb mənə dedi:

– Ağa, icazə verin kəbininizi kəssinlər.

Mən ayağa durdum, tapançanı onlara tuşlayıb sakit səsilə dedim:

– Əllər yuxarı! Üçünüz də! Ey, ifritə! Sən də!

Araya ani bir sükut çökdü, mən təkrar etdim:

– Əllər yuxarı!

Onlar əllərini yuxarı qaldırandan sonra əbalı kişi dedi:

– Ağa, bu nə zarafatdı?

Mən qəzəblə onun sözünü kəsib əmr etdim:

– Əlinizi tərpətsəniz, üçünüzü də güllələyəcəm. Çıxın bayıra!

Əbasız kişi dedi:

– Ağa, axı biz nə günahın sahibiyik?

Mən onların başının üstündən bir güllə ataraq qışqırdım:

– Bayıra! Nə günahın sahibi olduğunuzu zindanda bilərsiniz!

Əbasız kişi dedi:

– Ağayi ajan, haqqınızı alın, gedin. Axı bizi divanın əlinə verməkdən sizə nə xeyir?

Arvad da, əbalı kişi də bir-birinə macal vermədən yalvarırdılar. Axırda mən dedim:

– Yaxşı, sizdən əl çəkməyim üçün mənə nə verirsiniz?

Kişilərin ikisi də dönüb arvada baxdı. Arvad dedi:

– Ağa, icazə ver, sandığa yaxınlaşım.

– Gəl! – dedim.

O, əsə-əsə irəliləyib sandıqdan on qızıl çıxarıb mənə uzadanda əlini geri itələyib dedim:

– Bu nədi? Sizin kimi caniləri on qızıla? Heç vaxt!

Sonra alacalanmış gözlərilə üzümə baxan arvada dedim:

– Yüz qızıl!

O, yenə də yalvarmağa başladı:

– Ağa, fəqir adamıq. Məndə o qədər qızıl nə gəzir?

Mən dedim:

– Yüz qızıl! Biri əskik olsa, götürməyəcəm!

O, balaca pul kisəsini gətirib, mənim qabağıma əlavə yetmiş qızıl sayaraq and içdi ki, bundan savayı heç nəyim yoxdur.

Mən qızılları cibimə qoyub, arvada dedim:

– Otağın bayırdan bağlanan açarını ver!

– Nə üçün, ağa!

– Ver!– deyə mən qışqırdım.

– Ağa, açar qapının üstündədir.

Mən qıza dedim:

– Çıx bayıra!

Qız qorxmuş halda üzümə baxıb tərpənmədi. Mən mülayim səslə ona dedim:

– Qorxma, çıx bayıra.

Qız bayıra çıxandan sonra onlara dedim:

– Hələlik! Allahınıza şükür eləyin ki, sizi salamat buraxıram. Ancaq bilin ki, həmişə nəzarət altındasınız. Əgər bir də belə işlə məşğul olsanız, sizi buraxmayacağam.

Bunu deyib, cəld bayıra çıxaraq qapını daldan bağladım. Sonra qıza dedim:

– Gəl gedək!

– Hara, ağa?– deyə o, həyəcanla soruşdu.

Mən dedim:

– Sən qalsan, bunlar səni öldürərlər. Gedək, neyləmək lazım olduğunu sonra fikirləşərik.

Gəldik mən yaşadığım mehmanxanaya...

Dayım susdu. Bir azdan anam soruşdu:

– Axı bu kürd qızı orada nə gəzirmiş?

Dayım dedi:

– Özünün nağıl elədiyinə görə, İran kürdlərindən kasıb bir kişinin beş qızından biri imiş... On dörd yaşı olanda kəndləri gəzib vergi yığan bir nəfər onu görüb, elçi düşüb. Evlənəndən sonra fars onu özü ilə Tehrana gətirib, beş-altı ay saxlayandan sonra boşayıb, qovub. Qız Tehranın küçələrində avara-sərgərdan qaldığı zaman həmin arvada rast gəlib...

Dayım yenə də susdu... Anam soruşdu:

– Sonra nə oldu?

– Sonra mən qızdan soruşdum ki, öz yerlərinə getmək istəyirmi?

O:

– Ah, ağa,– dedi,– əgər siz məni özünüzə bir kəniz eləsəydiniz, heç yerə getmək istəməzdim...

Mən də dedim ki, tezliklə İranı tərk eləyib gedəsiyəm. Onu özümlə apara bilmərəm. O, çox məyus oldu, hələ ağladı da. Mən onu başa saldım ki, Tehranda qalsa, məhv olar. Qayıdıb öz yerlərinə getsə

yaxşıdır. O da naəlac qalıb razı oldu. Mən ona üç-dörd dəst paltar, ayaqqabı aldım. Özünə də xeyli pul verib, yola saldım evlərinə.

Bir qədər sükutdan sonra atam dedi:

– Gərək o arvadla kişiləri verəydin polisə.

Dayım dedi:

– Siz elə bilirsiniz ki, onları cəzalandıracaqdılar? Şahın məmurları rüşvət alıb buraxmayacaqdılar?

Sonra atam zarafatyana dayımdan soruşdu:

– İndi danış görək, necə oldu ki, əlinə bir o qədər pul keçə-keçə bura qəpiksiz gəlib çıxdın?

Deyəsən, atamın sözü bir az toxundu dayıma. O dedi:

– Nə olacaqdı, tacirlik eləməyəcəkdim ki?.. Tehran elə bir kef yeridir ki, bir milyonun da olsa, bir ilin içində çıxıb gedər işinə.

Sonra dayım nəşə ilə söhbətinə davam eləyib dedi:

– Qərəz, nə başınızı ağrıdım, bir də baxdım ki, cəmi beş-altı tümən pulum qalıb, bununla da heç yerə gedib çıxa bilmərəm. Oturub fikirləşirdim ki, neyləyim? Birdən yadıma düşdü ki, atam Şuşada gimnaziyada oxuyanda bizim Kürdobadan onunla bir yerdə Tağı adlı bir oğlan da oxuyurmuş. Bir gün Tağı atamı öyrədir ki, «nə var Şuşada, gəl qaçaq gedək Bakıya. Orda özümüz üçün bir iş tapıb kef çəkərik». Özü də Tağı atamdan iki-üç yaş böyük imiş. Onlar Bakıya qaçandan sonra orası yadımda deyil, nə cür olursa, atam Bakıda Tağını itirir, bir neçə gün orda gəzəndən sonra qayıdır yenə Şuşaya. Hamı Tağını itib-batmış hesab eləyir. Ancaq neçə il sonra Tehrandan kağız gəlir. Məlum olur ki, orda ticarətlə məşğuldur. Bunu xatırlayan kimi getdim Tehrandakı «Qarabağlılar» məhəlləsinə. Bu məhəllədə yaşayanlar vaxtilə Qarabağdan köçüb gələnlər idi. Xeyli soraqlaşandan sonra mənə dedilər ki, parça-çit bazarında Tağı adlı dövlətli bir sövdəgərin mağazası var, bəlkə, o ola. Gedib mağazanı tapdım, gördüm cavan satıcılar alver eləyir, amma uzun, qırmızısaqqallı, nurani bir kişi də balaca kətilin üstündə əyləşib, qabağında balaca stəkanda çay, təsbeh çevirir. Satıcılardan birindən yavaşca soruşdum: «Ağayi Tağı budur?» Dedi: «Bəli.» Yaxınlaşıb ədəblə, özü də azərbaycanca dedim:

– Salam-əleyküm, Tağı əmi.

Kişi təəccüblə soruşdu:

– Kimsən, bala, hardan gəlmisən?

Dedim:

– Qarabağdan.

Bir qədər diqqətlə üzümə baxıb birdən soruşdu:

– Olmuya Bayramın oğlusan?

Dedim:

– Özüdür.

– Gözlərindən tanıdım,– deyib, kişi qalxıb boynumu qucaqladı.

Bütün qohum-əqrəbadan hal-əhval tutdu, hiss elədim ki, kişiyə qürbət yaman təsir eləyib.

Sonra məni apardı evinə, gördüm məndən də böyük oğlanları var. Dövlət də ki, aşıb-daşır... Qərəz, düz on beş gün məni qonaq saxlayandan sonra soruşdu:

– İndi neyləmək fikrindəsən?

Dedim:

– Heç bilmirəm.

Dedi:

– Məsləhət görürəm ki, qayıdıb gedəsən Qarabağa. Vətəndən həmişəlik ayrı düşmək yaman dərddir, mənim kimi ilişib qalarsan, ata-ananın da, yəqin ki, gözü yoldadır.

Mən özüm də qayıtmaq istəyirdim, ancaq bayaq dediyim kimi, pullar çıxıb getmişdi, ona görə də kişiyə yalan satmalı oldum, dedim:

– Tağı əmi, var-yoxumu mehmanxanada oğurlayıblar.

Qərəz, kişi bəsdir deyincə mənə yol pulu verdi, özümü də təntənə ilə yola saldılar ki, guya vətənə gedirəm.

Nuru dayım burada bərkdən güldü. Anam soruşdu:

– Bəs gəlmədin?

– Yox,– dayım nəşə ilə cavab verdi.– Əyləşdim faytona, «Qarabağlılar» məhəlləsindən aralanandan sonra faytonçuya əmr elədim:

– Sür Laləzar mehmanxanasına.

Atam dedi:

– Başladın təzədən vur-çatlasına?

Dayım bərkdən güldü:

– Bir də onda ayıldım ki, pulum lap az qalıb. Fikirləşdim ki, daha bu dəfə Tağı əminin yanına getmək olmaz. Vətənə sarı yola düşdüm. Pulum tezliklə lap qurtardı. Saqqalım da xeyli uzanmışdı, baxıb gördüm hamı məni rus bilir. Kimdənsə eşitmişdim ki, İran kimi müsəlman ölkələrində ayrı dindən dönüb müsəlman olana maddi yardım eləyirlər. Mən harada gəldi, dedim ki, rusam, dinimi dəyişib olmuşam müsəlman... «Dinə gəlmisən, ay kafər, behiştə gedəcəksən» deyə məni tərifləyib pul verirdilər, mən də əllərimi göyə qaldırıb onlara dua eləyirdim. Soruşurdular ki, rus olanda adın nə idi? Deyirdim: «Aleksandr». Deyirdilər: «Bəs, indi döndərib nə qoymusan?» Deyirdim: «İsgəndər». Öz adımı qəsdən demirdim. Elə ki, bərkdən ərəbcə dua oxuyurdum, başıma toplaşan adamlar elə təəccüblə qulaq asırdılar ki, elə bil, dünyada görünməmiş bir şey eşidirdilər.

Bu minvalla dinə gəlmiş təzə müsəlman gəlib çıxdı Təbrizə. Bir qədər də orada pul yığandan sonra kirayə bir at tutub gəldim İran Şahsevəninə, orada da ki, atamgilin köhnə qonaqlarını tapdım. Onlar da məni pələ ilə keçirdilər bu taya. Bilirsiniz ki, bu saat Arazın daşmış vaxtıdır, pələdə hər dəqiqə batacağımı gözləyirdim.

Əhd elədim ki, bu taya salamat çıxsam, düz bir ay oruc tutub, namaz qılacağam...

O zaman orucluq təzə başlayırdı. Dayım, doğrudan da, hər gün oruc tutub, namaz qılırdı. Bu mənə də, atamgilə də çox qəribə görünürdü. Mən həmişə dayımı yoldaşları ilə səhərdən axşamacan orada-burada şərab içib kef çəkən görmüşdüm. İndi onun belə mömin olması çox gülməli idi. O, namaz qılanda Fatma nənəm də arxadan təəccüblə tamaşa eləyirdi. Dayımın iftarı üçün cürbəcür şeylər hazırlanırdı. Babamgilin nökəri onun iftarı üçün ağ tut yığırdı. Dayım bütün günü təsbeh çevirib, namaz qılırdı, dua oxuyurdu, sarı, qıvrım saqqalı da getdikcə uzanırdı.

Ancaq bir gün babamgilə gəlib gördüm ki, dayım saqqalını tərtəmiz qırxdırıb, uzunboğaz çəkmələrini, qalife şalvarını geyib, olub əvvəlki kimi gözəl bir oğlan, özü də iki nəfər dostu ilə bağda, ağacların altında qoyulmuş stolun ətrafında oturub, təzə quzu ətinin soyutması ilə şərab içirlər. Möminlik, saqqal, təsbeh də çıxıb gedib işinə...

Sonra mən fikirləşirdim: demək, dayım o kürd qızını xilas eləyib, demək, dayım yaxşı iş görüb. Kürdə pul da verib! O günü də qəribə bir hadisə olmuşdu, dayım bizə gəlib anama dedi:

– Mənə bir az pul ver, indi bazardan gələndə yanında iki körpə uşağı olan dilənçi bir arvada rast gəldim, ürəyim birtəhər oldu, cibimdəki pulun hamısını çıxarıb verdim arvada, uşaqlar üzümə elə baxdılar ki, gözüm yaşardı...

Əgər dayım belə yaxşı adamdısa, bəs nə üçün Fatma nənəmi incidir? Nə üçün o vaxt İmaşı o cür döyürdü? Nə üçün Kürdoba cavanlarını başına yığıb gecə başqa obaya hücum edirdi? Nə üçün Əhmədin üç arvadı öldürməyindən o cür kefikök danışırdı? Hər şey bir tərəfə, axı o arvadlardan biri bizim qoca nənəmiz idi... Nə üçün Əhmədin arvadları məhz onun tapançası ilə öldürməyi dayıma vicdan əzabı vermirdi?

Mən bu suallara cavab tapa bilmirdim, ona görə də mənim təsəvvürlərim alt-üst olurdu, başımda tamam bir xaos yaranırdı, mən fikirlərimin bu qarmaqarışıqlığı içində eyzən bir dəstə quldura çomaqla hücum eləyən Məşədi Gülməmməd babanı, cavan ömrünü uşaqlarına həsr eləyən Səkinə qocanı, Xəlsə qocanı, Xanım nənəni xatırlayırdım, mən, eyni zamanda, öz kefi üçün uşaqlarını başsız qoyaraq çoban Mahmuda qoşulub qaçan, sonra onu o cür öldürən Qızyetəri də xatırlayırdım. Bir tərəfdən, dağ yolunda bizim o cür harayımıza çatan, bizi otaylı quldurlardan xilas eləyən, kasıblara əl tutan, o biri tərəfdən də, özü anama nağıl elədiyi kimi, arvad-uşaqla dolu alaçığı gülləyə basan Qaçaq Xanmuradı xatırlayırdım...

Ancaq mən dumanlı halda əqlimə gələn, mənə xoşagəlməz təsir eləyən bu suallar barəsində heç kəsdən bir şey soruşmurdum, çünki bir dəfə belə bir sual üstündə atam məni danlayıb demişdi:

– Uşaqsan, get uşaq işinə.

Sonra anama xitabən əlavə eləmişdi:

– Bu uşaq çoxbilmişliyindən kökəlib-eləmir də.

HƏYƏCANLI XƏBƏRLƏR, KÖÇHAKÖÇ VƏ SANDIQ ƏHVALATI

Atamgil Rusiyada qurulmuş fəhlə-kəndli hökuməti barədə indi daha tez-tez söhbət edirdilər. Mən də bu söhbətlərə böyük bir maraqla qulaq asırdım. Mən eşidirdim ki, orada ağalara, böyük tacirlərə divan tuturlar. Hökuməti kasıblar, fəhlələr, kəndlilər idarə edirlər.

Çox qəribə idi ki, kasıbların, Xaynamaz kimi kəndlilərin Rusiyada hökumət başına keçmələri məndə fərəh doğururdu. Elə bil ki, mən özüm yekəxana bəy balalarından nəyinsə qisasını alırdım. Doğrudanmı, bu, həmin bəy oğlanlarının hər yerdə öz bəyliklərini hiss etdirmələrinin nəticəsi idi? Kim bilir, bəlkə buna səbəb ata-babadan, lap ulu babalarımızdan bəri bizim nəslin damarlarında axan rəiyyət qanı idi? Mən anama dedim:

– Yəqin ki, burada da fəhlə-kəndli hökuməti qurulsa, tay bəy oğlanları heylə lovğalanmazlar.

Atam təəccüblə mənə baxıb dedi:

– Bu uşaq ya gicdi, ya əllamə!

Anam dedi:

– Uşağa ad qoyma, gic niyə olur?!

– Görmürsən, yaşından böyük elə danışır ki, elə bil, anadangəlmə bolşevikdi. Tay xəbəri yoxdu ki, burada fəhlə-kəndli hökuməti qurulsa, bunun atasını, babasını güllələyərlər.

Mən də gözlənilməyən bir ötkəmlikla dedim:

– Sizi nə üçün güllələyirlər? Siz bəy-xan nəslindən döyülsünüz ki?

Atam yenə də təəccüblə baxdı, anam bərkdən güldü. Atam bu dəfə, nə üçünsə həmişə olduğu kimi acıqlanmayaraq, mülayim səslə izah elədi:

– Bolşeviklər təkcə bəylərin, xanların deyil, bütün varlıların düşmənidir. Deyirlər, heç kəs dövlətli olmasın! Hamı Fətiş kimi lüt olsun. (Fətiş atamgilin kəndində ən yoxsul adam idi).

Mən atamın bu axırıncı sözlərində dərin bir kin hiss elədiyim üçün, ürəyimdə ona inanmayaraq, daha heç nə soruşmayıb, bağçaya endim.

Mən dayımla dostluq eləyən cavan bəylərin atama necə yuxarıdan-aşağı baxdıqlarını hiss edirdim və bu, mənim izzəti-nəfsimə toxunurdu. Eyni halı mən Məşədi Qara kimi milyonerlərin atamla rəftarında da duyurdum. Ona görə də uzaq Rusiyada Xaynamaz kimi, Fətiş kimi, dayımın döydüyü İmaş kimi yoxsulların hökumət olmaları məndə qəribə, təravətli, hətta sevincli hisslər doğururdu.

... Bir neçə gündən sonra, axşamçağı artırmada oturub çay içirdik, böyük darvaza döyüldü. Zinyət yüyürüb açdı. Bayram babam, Qızılbaşoğlu Alının və kürdobalı Hacının müşayiəti ilə həyətə daxil oldu. Qızılbaşoğlu ilə Hacı tüfəngli, patrondaşlı idilər. Onlar atlardan düşüb artırmaya qalxdıqda, həmişə mənimlə gülüb-zarafatlaşan Bayram babamın bu dəfə çox tutqun olduğunu hiss elədim.

O, tapançasını açıb pəncərənin qabağına qoyaraq, stul çəkib əyləşdi. Papiros çıxarıb yandıraraq hal-əhvaldan sonra atamgilə dedi:

– Sabah şəhərdən çıxmaq lazımdır.

Atam həyəcanla soruşdu:

– Nə olub, əşi?

Babam papirosundan dərin bir nəfəs alıb dedi:

– Bolşeviklərin on birinci ordusunun hissələri gəlib çatıb Bərdəyə. İki-üç günəcən burada olarlar.

Araya ağır sükut çökdü. Nəhayət, atam soruşdu:

– Düzdür ki, deyirlər, boyu bir metrdən yuxarı olanları qırırlar?

Babam hələm-hələm acıqlanan adam deyildi, sərt ifadə ilə atama dedi:

– Siz də belə axmaq-axmaq sözlərə inanırsınız?!

Yenə də ağır sükut çökdü. Babam bir neçə nəfəs papiros çəkəndən sonra, öz-özü ilə danışırmış kimi, kimsənin üzünə baxmadan acıqlı-acıqlı davam etdi:

– Kəhrizli Ayna xanıma dedim ki, farağat oturun. Camaatı qırğına verməyin, bu selin qabağında durmaq mümkün deyil. Arvad beş yüz atlı ilə Bərdəni kəsdi ki, mən «Qızıl ordunu Qarabağa qoymayacam». Heylə eləyəndə, əlbəttə, qoşun acığa düşər. Böyük-böyük dövlətlər bolşeviklərlə bacarmır, amma bu arvad beş yüz atlı ilə onun qabağını saxlamaq istəyir...

... Çay-çörəkdən sonra Bayram babam atama dedi:

– Əhmədalını dünən göndərmişəm Kürdobaya ki, sizi şəhərdən çıxarmaq üçün üç-dörd at gətirsin, elə hazırlaşın ki, dan üzü çıxa biləsiniz. Atlar bu gecə burada olacaq.

Atam soruşdu:

– Bəs mağaza, ev-eşik nə olsun?

Babam dedi:

– Qiymətdə ağır, vəzndə yüngül nəyiniz varsa, götürün. Bu qədər şey-şüyü daşımağa vaxt çatmaz. Hələlik gedərsiniz Şehliyə, görək işlər nə göstərir.

– Bəs sənin özün neyləmək fikrindəsən, dədə?– anam soruşdu.

Babam dedi:

– Özüm, hələlik Fatmanı aparıb Kürdobada qoyub qayıdacağam Alxaslıya, Qazı Mirzəgilə. Ora Araza yaxındı.

Atam soruşdu:

– Bəlkə o taya keçdiniz?

Babam dedi:

– İş bərkə düşsə, başqa neyləmək olar?

Bir neçə il bundan qabaq öz kəndliləri ilə Rusiyaya fəhləliyə gedən kiçik əmim Zəbi təzəcə gəlib çıxmışdı. O, Rusiyadakı inqilabdan qəribə şeylər danışırdı. Deyirdi, knyazları, burjuyları arabaya qoşurlar (mən sonralar bildim ki, əmim bir az şişirdirmiş), adamlar bir-birinə «tavariş» deyirlər.

Atam anamla məsləhətləşib qərara aldılar ki, Zəbi əmim qalsın bizim evlərdə. Fəhlə olduğu üçün bolşeviklər ona dəyməzlər. Əmim də razı oldu.

Sonra atamla-anam gecə pərdələri salıb qiymətli nələri vardısa, yığdılar böyük dəmir sandığa. Səhər də dolu bir xurcunla həmin sandığı yüklədilər Kürdobadan gələn atlardan birinə. Biz də yəhərli atlara minərək düşdük yola. Evlərimizin hamısı xalı-gəbə ilə, gümüş qab-qacaqla dolu qaldı, həmçinin, atamın mağazası da dolu idi.

Biz şəhərdən çıxanda dan yeri təzəcə söküldü. Amma yollar qaçan adamlarla dolu idi. Kimi şey-şüyünü şəllənib, uşağının əlindən tutaraq pay-piyada gedirdi, kimi atlı, kimi arabada.

Atam təəccüblə anama dedi:

– Balam, bütün şəhər bolşeviklərin gəlməyini bilirmiş ki...

Anam piyada qaçanlara diqqət yetirib dedi:

– Qəribədir ki, kasıb-kusub da şəllənib qaçır.

Atam dedi:

– Çox ola bilsin ki, hamı küyə düşüb qaçır, dünən eşitmədinmi kişi nə dedi? Mən də bilirdim ki, bolşeviklər haqqında deyilənlər şayiədir.

Mən atamın izah eləməyinə baxmayaraq, başa düşə bilmirdim ki, bolşeviklər nə üçün, hətta bəy, xan olmayan tacirlərlə, dövlətli kəndlilərlə də düşməndirlər?

... Biz şəhərin səkkiz-doqquz kilometrliyindəki Şehli adlı kəndə çatıb, Bayram babamın köhnə dostu Həmid yüzbaşının evinə düşdük. Bu, daşdan tikilmiş, bir neçə otaqdan ibarət, kürsülü, üstü qırmızı dəmirli bir bina idi; Həmid yüzbaşı özü evdə olmasa da, adamları bizi çox hörmətlə qarşıladılar.

... Yenə də orada-burada silahlı atlılar peyda olmuşdu. Həmid yüzbaşının qohum-əqrəbasından olan tüfəngli-tapançalı adamlar onun evinə dalbadal gəlib-gedirdilər. Tezliklə mən bu sirrə də vaqif oldum; gördüm atam ev sahiblərindən xəlvət anama danışır ki, Həmid yüzbaşının adamları evlərinə qayıdan müsavat əsgərlərini orada-burada soyub tüfənglərini, patronlarını alırlar, deyəsən, hələ özlərini də öldürürlər.

Anam da həyəcanla deyirdi:

– Yaxşı, tüfənglərini, patronlarını alırlar-alsınlar, bəs özlərini niyə öldürürlər? Yəqin ki, Həmid yüzbaşı özü burada olsaydı, qoymazdı.

(Biz gələndən bir neçə gün əvvəl Həmid yüzbaşı qoyunlarına baş çəkmək üçün bir neçə atlı ilə yaylağa getmişdi).

Anam papiros yandırıb əlavə elədi:

– Bəs onlar yazıq deyillər?

Atamla anam evdə belə danışdıqları zaman Həmid yüzbaşının yaxın qohumlarından olan və qızdırma xəstəliyindən təzə qalxdığı üçün rəngi qaçmış uzun, arıq bir oğlan belində iki patrondaş, əlində tüfəng, iki başqa oğlanla pəncərənin qabağından yüzbaşının külfəti olan hissəyə keçdi. Atam həmin rəngi saralmış oğlana işarə ilə anama dedi:

– Bax, o oğlan yanındakı yoldaşlarıyla dünən gecə bir at yükü əsgər paltarı, tüfəng, patron gətirmişdi. Kim bilir, yazıqların neçəsini öldürüblər, yolda gizlənib pusurlar, əsgərlər gəlib keçəndə qəfil gülləyə tuturlar.

Anam yana-yana dedi:

– Yazıq əsgərlər.

Atam da dərindən nəfəs alıb dedi:

– Bizim millətimizdir də...

Bu əhvalat mənim daxili aləmimə anlaşılmaz bir dərd kimi daxil oldu. Mən hey evlərinə qayıdan cavan əsgərlər haqqında, tüfəngdən, paltardan ötrü onları öldürən rəngi saralmış qızdırmalı oğlan barədə düşünürdüm. Mən evlərində anaları yollarını gözləyən cavan oğlanları qəfil gülləyə tutan həmin rəngi saralmış oğlanın qəddarlığını dərk eləyə bilmirdim. Mən yalquzaq canavarların qəfil hücum eləyib adamları parçaladıqlarını, obadan körpə uşaq apardıqlarını çox eşitmişdim. İnsanın insanı öldürməyi, özü də pul, paltar üstündə öldürməyi məndə yalnız dərin qüssə deyil, eyni zamanda, ikrah hissi doğururdu. Bu, mənə insanın insanı yeməyi kimi dəhşətli və iyrənc görünürdü. Rəngi qızdırmadan saralmış oğlan mənə ilan kimi zəhərli və soyuq görünürdü. Mən ilandan həm qorxur, həm də iyrənirdim. Mənə elə gəlirdi ki, ilan bütün vəhşi heyvanların ən namərdidir.

... Nə üstündə isə balaca bacım Mahtabı vurub ağlatdığım üçün anam məni tutub döymək istəyəndə qaçıb artırmanın təkyəsindən

yerə tullandım və sağ qolumda şiddətli ağrı hiss edərək qışqırdım. Məlum oldu ki, qolum altımda qalıb sınıb. Bu kənddə sınıqçı yox idi, ona görə də atam məni yeddi-səkkiz kilometr aralıdakı Xələfli kəndində olan məşhur sınıqçı Məşədi Mahmudun yanına aparmalı oldu. Həmid yüzbaşının arvadı atama dedi:

– Sən zəhmət çəkmə, uşaqlar apararlar.

Ancaq atam razı olmayaraq, qaçarağı ilə məşhur boz atımızı yəhərləyib minərək, məni də qucağına alıb özü apardı. Qolumun boynumdan asılı olmasına baxmayaraq, at silkələdikcə bərk ağrıyırdı, ona görə də atam məcbur olurdu, bir əli ilə cilovdan yapışsın, digər əli ilə sınmış qolumun altından tutsun. Yəqin ki, qaçaq-quldura rast gəlməmək üçün atam əsas yolla deyil, dərə-təpədən keçərək çölləmə gedirdi.

– Qolun ağrımır ki?– deyə atam tez-tez soruşurdu.

Mən kiçik həyatımda birinci dəfə olaraq atamın səsində özümə qarşı təsirli mehribanlıq və qayğı hiss edirdim və bu, mənim ürəyimi kövrəldirdi.

Biz Xələfli kəndinə girib Məşədi Mahmudun həyətinə daxil olduq. Altmış beş-yetmiş yaşlı bir adam olan Məşədi Mahmud artırmada böyük taxtın üstündə əyləşərək mitəkkəyə söykənib təsbeh çevirirdi, bizi görərkən dikəlib:

– Ay uşaq, qonağın atını tut!– deyə səsiləndi.

Atam əvvəl məni usdufca yerə qoydu, sonra da özü aşırılıb düşdü. Cavan bir oğlan uşağı yüyürüb bizim atı tövləyə çəkdi. Əynində atlas arxalıq, başında gümüşü papaq olan Məşədi Mahmud taxtdan düşərək qabağımıza yeriyib, köhnə tanış kimi atamla görüşdü və bizi də taxtın üstündə əyləşməyə dəvət elədi. Atamla ordan-burdan söhbət elədilər. Bolşevikların gəlişindən danışdılar. Məşədi Mahmud sakit və qayğılı səsilə:

– Gəlsinlər, görək nə deyirlər?

Həmin cavan oğlan bizə çay gətirdi. Sonra Məşədi Mahmud zarafatyana mənə dedi:

– Qoçaq oğlan, göstər görüm qolunu.

Atam mənim qolumu açdı. Məşədi qolumu əli ilə yoxlayanda mən şiddətli ağrı hiss eləsəm də, səsimi çıxarmadım. Dişlərimi bir-birinə bərk sıxıb dözdüm. Məşədi nələrdənsə təpitmə qayırıb qolumu sarıyandan sonra gülümsəyib dedi:

– Bu, doğrudan da, dözümlü oğlanmış...

Sonralar... çox sonralar mən həyatımın kəskin əzablarına dözəndə həmişə sınıqçı Məşədi Mahmudun o sözlərini xatırlayırdım. Görünür, tale mənim gələcəkdə nələr çəkəcəyimi bildiyi üçün mənim lap kiçiklikdən hər cür ağrı-acıya alışmağıma kömək edirmiş. Əlbəttə, birinci növbədə, mənəvi ağrılara...

Biz sınıqçı Məşədi Mahmudun həyətindən çıxanda axşam sərini qalxmışdı. Biz yenə də çölləmə gedirdik. Boz at yaxşı yeyib dincəldiyi üçün (bizim yerlərdə qonağın özünə olduğu qədər də atına qulluq edərdilər) dərələri, təpələri yel kimi çıxıb enirdi. Atam soruşdu:

– İndi necədi ağrısı?

Hələ bərk ağrısa da, dedim:

– Yaxşıdır.

– Məşədi dedi ki, bir az ağrıyıb kəsəcək.

Atamın mülayim danışığı və onun səsində özümə qarşı hiss elədiyim qayğı məni xoşbəxt edirdi və mən öz-özümə fəxrlə deyirdim: «Bax, mənim də atam məni çox istəyir...»

Atam hey ev-eşiyin, mağazanın başına nə gələcəyi barədə danışırdı. Narahat olurdu. Belə anlarda anam ya papiros çəkib biganə bir ifadə ilə ərinin sözlərini təsdiq edirdi, ya da ona qulaq asa-asa tamam ayrı bir şey barədə fikirləşirdi. Mənə isə anamın belə hərəkəti daha şirin, daha cazibədar təsir bağışlayırdı. Mən öz var-dövləti barədə atamın büruzə verdiyi qayğıda, nə isə, soyuq, tutqun bir şey hiss edirdim. Halbuki mən uşaq olsam da, var-dövlətin nə demək olduğunu bilirdim. Ancaq mənə elə gəlirdi ki, anamın sağlamlığı, şənliyi, qayğısızlığı mənim üçün dünyada hər cür dövlətdən, qızıldan, puldan sevinclidir.

On birinci ordunun hissələrinin şəhərə çatdığını eşitdiyimiz günün səhəri gördük ki, vaxtilə Bayram babamgilin nökəri, indi isə adlı qaçaqlardan biri Bahadur öz dəstəsilə gəldi. Anam Qaçaq Bahadur haqqında çox həvəslə danışardı. Onun necə sədaqətli, üzügülər, gözəl oğlan olduğunu söyləyirdi. Mən isə onu ilk dəfə görürdüm. Ucaboylu, əsmərbənizli və çox yaraşıqlı oğlan idi. Qızılbaşoğlu kimi, Qaçaq Xanmurad kimi birçək saxlamırdı. Qara sıx saçlarını şəhərlilərsayağı vurduraraq geriyə daramışdı. Ayaqlarında təmiz silinmiş uzunboğaz çəkmə vardı. Belinə üç patrondaş bağlayıb, ikisini də çiyinlərindən çalın-çarpaz aşırmışdı.

O, anamla köhnə bir dost kimi görüşüb gülə-gülə onun kefini soruşdu. Atamla, bir növ, rəsmi görüşdü.

Məlum oldu ki, Bayram babam onları göndərib ki, bizi Alxaslı kəndinə aparsınlar. Atam getmək istəmirdi, o istəyirdi biz, heç olmazsa, öz kəndimizə– Güney Güzdəyə gedək. Anam iki ayağını bir başmağa dirəyib qəti razı olmadı. Anamın Güney güzdəkililərdən zəhləsi gedirdi, onları namərd, qəddar hesab edirdi.

Nəhayət, biz atlanıb Alxaslıya gedəsi olduq. Anam mənə işarə ilə dedi:

– Gərək bir adam sarıqlı qolundan ehmal tutsun.

Qaçaq Bahadur dedi:

– Qaqaş bir yaşında olanda həmişə Bahadur dayısının qucağına minərdi, yəqin, indi də minər.

Qaçaqlardan biri məni qaldırıb qoydu Qaçaq Bahadurun qucağına. Qaçaq Bahadur da mənim sarıqlı qolumdan yapışaraq atını mahmızlayıb düşdü qabağa.

Yollar atlı-tüfəngli adamlarla dolu idi. Hər yerdə hökumətsizlik bilinirdi.

... Biz Alxaslı kəndində babamın köhnə dostu, Qazı Mirzəlinin evinə düşmüşdük. Alxaslı da Kürdoba kimi tərəkəmə idi. Əhalinin çox hissəsi hələ mayın on beşindən yaylağa köçmüşdü. Qazının da qoyun-quzusu yaylaqda idi, ancaq, görünür, son hadisələrlə əlaqədar olaraq, özü və arvad-uşağı hələ yaylağa köçməmişdi. Qazının dörd oğlu var idi. Qızı isə bizim şəhərin lap yaxınlığındakı Şahbabalı kəndində Ədil bəy adlı oğlana ərə getmişdi. Ədil bəy də atamın yaxın dostu olub, ticarətlə məşğul idi.

Qazının böyük oğlu Mirzə Sadıq mollalığa hazırlaşırdı. Qısa vurulmuş qara saqqalı və molla papağı vardı. Ayaqlarına qədər uzanan arxalığının üstündən ağ qurşaq bağlamışdı. Kiçik oğlu Sərdar isə məndən üç-dörd yaş böyük olardı. Qazının evi kənddə, daşdan tikilmiş yeganə üstü dəmirli, böyük, ikimərtəbəli bina idi. Evin alt tərəfindən Köndələn çayının bir qolu axırdı. Qazı ağanın üç yüzə qədər inəyi sağılırdı. Bütün Arazboyu kəndləri kimi, Alxaslı da çox isti yer idi. Bütün günü isti çəkirdik. Qazının kiçik oğlu Sərdar məni aparırdı arxın qırağına. Arxın üstünə bir tir qoyulmuşdu. Sərdar məni də qucağına götürüb tirin üstü ilə yüyürə-yüyürə o tərəf-bu tərəfə keçirdi. Bir dəfə məni yerə qoyub dedi:

– İndi özün tirin üstüylə yeri görüm.

Mən özümü nə qədər bərkişdirdimsə də, tirin üstü ilə arxı keçməyə cəsarət etmədim. Sərdar qəhqəhə ilə gülüb:

– Ə, bu şəhər uşaqları nə qorxaq olurlar,– dedi və bir neçə dəfə tirin üstü ilə yüyürə-yüyürə o tərəf-bu tərəfə keçdi.

... Başda babam olmaqla, Arazqırağı kəndlərinin, obalarının, demək olar ki, bütün adlı-sanlı adamlarını gündüzlər «Şıpartı» deyilən çöldə daldalanıb, gecələr qasid vasitəsilə hələlik bolşevikləri Alxaslı tərəfə üz qoymadıqlarını öyrənib, gəlirdilər Qazı Mirzəlinin evinə. Burada qoyunlar kəsilir, samovarlar qoyulurdu. Onların içində necə olmuşdusa, Nuru paşanın ordusundan ayrılıb qalmış Kazım bəy adlı bir zabit də vardı. Dəstənin sayı getdikcə artırdı. Hər gün qazının evində iki-üç erkək kəsilirdi. Gecələr kəndin aşağı tərəfində, şəhərə gedən yolun üstündə qarovolçu qoyub, həyətdə salınmış xalı-gəbənin üstündə əyləşərək, yeyib-içir və eyzən bolşeviklər barədə həyəcanla danışırdılar.

Qazının böyük oğlu Molla Sadıq isə gündüzlər uzun bir ağacın başına bir parça ağ bağlayaraq bayraq qayırıb, səhərdən axşamacan evin qabağındakı təpənin üstündə əyləşirdi ki, bolşeviklər gələndə lap uzaqdan görsünlər ki, kənd əhli ağ bayraq qaldırıb onları gözlə-

yir. Cavan Molla Sadığın bu hərəkəti anama çox gülməli görünürdü. Anam ona sataşaraq deyirdi:

– Bolşeviklər mollalarla da düşməndirlər, gərək saqqalını qırxdırıb, paltarını da dəyişəsən.

Molla Sadıq da fasıq-fasıq gülümsəyib, heç bir söz demirdi və onun bu təbəssümü ikiüzlü bir hərəkət kimi mənə pis təsir eləyirdi. Ona görə də, mən cavan mollanı sevmirdim, istəyirdim ki, bolşeviklər gəlib onu məhşər ayağına çəksinlər, görək onda da belə fasıq-fasıq güləcəkmi?!

Mən ikiüzlü gülüşü, ikiüzlü hərəkəti, danışığı hiss edirdim, bəzən mənasını başa düşməsəm də, hiss edirdim. Məhz bunun üçündür ki, atam bəylərlə, böyük vəzifə sahibləri ilə hörmətlə danışanda acığım tuturdu. Mən bilirdim ki, atam bəyləri sevmir. Daldada onları «ciblərində siçan oynayan, yekəxana, müftəxor cənablar» adlandıraraq lağa qoyurdu. Mən onu da hiss edirdim ki, anamın bəylərlə hüsn-təvəccöhi atama qətiyyən xoş gəlmir.

Alxaslıya gələndən bir neçə gün sonra Bayram babam gecə bizim yanımıza gələrək atama dedi:

– Məsləhət belədir ki, Güney Güzdəyə gedəsiniz. Ora sizin üçün buradan qorxusuz olar.

Atam soruşdu:

– Nəyə görə?

Babam dedi:

– Ona görə ki, bura Qazı Mirzəlinin evidir. Amma Güney Güzdəkdə sənin qardaşın ayağı çarıqlı kəndli babadır. Bolşeviklər ona toxunmazlar. Siz də paltarlarınızı dəyişib sadə kəndli paltarı geyərsiniz. Aralıq sakit olana qədər orada qalarsınız.

Anam soruşdu:

– Bəs siz neyləyəcəksiniz?

Babam qaşlarını çatıb, artırmadan görünən Cənubi Azərbaycan dağlarına baxaraq dedi:

– Biz o taya keçəcəyik.

Anam soruşdu:

– Hamınız?

Babam gözlərini o taydan çəkməyərək dedi:

– Hamımız.

Sonra əlavə etdi:

– Hazırlaşın, Qaçaq Bahadur səhər tezdən sizi aparsın Güney Güzdəyə.

... Qaçaq Bahadurla üç yoldaşı qabaqda, biz də onların ardınca hər yerdə şose yoldan kənar, çölləmə gedərək axşamçağı çatdıq Güney Güzdəyə.

Qubad əmim:

– Hə, deyəsən, «yoldaşlar»dan ürküb yayınmısınız,– deyə zarafat elədi.

Mən onda qəribə bir ruh yüksəkliyi hiss elədim.

Anam istehzalı təbəssümlə dedi:

– Deyəsən, «yoldaşlar»ın gəlməyinə sevinirsən?

Qubad əmim dedi:

– Niyə sevinməyim, «yoldaşlar» mənim kimi ayağı çarıqlıların höküməti deyil?!

Anam ona kinli bir nəzər salıb dedi:

– Yoxsa elə bilirsən onların vaxtında əfsər çəkməsi geyəcəksən?

Qubad əmim eyni ruhla dedi:

– Mən geymərəm, oğlanlarım geyərlər.

Anamın dodaqları ağardı. O, həmişə bərk acıqlananda belə olurdu, atam zarafata salıb dedi:

– Qubad çoxdanın bolşevikidir.

Mən düşünürdüm:

«Qubad əmimin də, Zəbi əmimin də dövlətlilərlə arası yoxdur. Nə üçün bunlar da atam kimi dövlətli olmağa çalışmayıblar? Fatma nənəm həmişə deyir ki, Allah birinə dövlət verib, birinə zillət... Nə üçün atamgilin yeznəsi– başı çiyinlərinin arasına girən, balaca gözləri hiylə ilə baxan gödək Əbdüləzizə Allah dövləti versin, amma atamgilin başqa qohumu– İdris adlı ucaboy, xoşsifət, yaraşıqlı oğlana verməsin?»

Bu, mənim həyatda hiss elədiyim birinci böyük ziddiyyət idi. Mən bu ziddiyyətin mənasını başa düşmədiyim üçün bir şübhə, key bir anlaşılmazlıq içində olurdum. Düşünürdüm ki, bəlkə Əbdüləziz kişi eybəcər dona girmiş mələkdir? Axı bizim nağıllarda mələk kimi gözəl, günahsız qızlar, oğlanlar bəzən meymun, qurbağa donuna girirlər. Ancaq onlar bu donda istədikləri adama yaxşılıqlar edirlər. Əbdüləzizdən isə kim bir yaxşılıq görüb?

Biz təzə paltarlarımızı çıxarıb köhnə paltar geyindik ki, kənd əhlindən seçilməyək. Anam nimdaş kəndli paltarında mənə çox qəribə görünürdü. Atam da gümüşü papağını saçaqlı kəndli papağı ilə əvəz eləmişdi. Bahalı şibilit çəkmələrini çıxarıb ucuz çust və köhnə kəndli arxalığı geymişdi, bununla belə, o, gecə evdə yatmağa cəsarət eləməyərək, yeznəsi Əbdüləziz ilə qohumları Məhəmməd bəylə və kəndin başqa varlıları ilə gedib kəndin kənarındakı bağlarda qalırdı. Bizə xəbər çatdı ki, Bayram babamgil də keçiblər Arazın o tayına.

Bizim kəndin yoxsulları dəstə-dəstə orada-burada toplaşıb, nə haqdasa hərarətlə danışırdılar. Anam onlara acıqlı-acıqlı baxıb dedi:

– «Yoldaşlar»ı gözləyirlər.

Nəhayət, bir gün kimsə şəhərdən xəbər gətirdi ki, «yoldaşlar» gəlirlər!

Kəndin kasıb cavanları şəhərdən gələn şose yolun alt tərəfindəki yola yığılaraq, səs-küylə danışıb gözləyirdilər. Atamgil əkilmişdilər bağlara. Anam evimizin yola baxan arxa eyvanında oturaraq, papiros çəkib yola tamaşa edirdi. Birdən atlar qoşulmuş balaca arabalar, onların da ardınca bir dəstə əsgər göründü. Ayaqyalın, başıaçıq, cındır paltarlı kənd uşaqları şən səs-küylə yüyürürdülər onlara tərəf. Doğrusu, bolşeviklər haqqında çox qorxulu söhbətlər eşitməyimə baxmayaraq, mən də onların qabağına yüyürmək istəyirdim. Onlar gəlib bizim arxa eyvanın qabağından keçdikcə, mən görürdüm ki, heç kəsə kinli, acıqlı baxmırlar, gülümsəyə-gülümsəyə kənd uşaqlarına kişmiş verirlər. Birdən kəndin ən kasıb adamlarından olan və qoluna qırmızı parça bağlamış Cavad bərkdən qışqırdı:

– Yaşasın Şura hökuməti!

İki zurna-balaban çalan da, nağara vuran da çala-çala əsgərlərin qabağına yeridilər. Uşaqlarını aclıqdan pencərlə yaza çıxaran Səadət arvad ortalığa düşüb oynadı. Muzdur Veysəl süzə-süzə onun qabağına yeridi, uzun zaman Rusiyada fəhləlik eləmiş Cavad da, nə isə başqa bir hava çaldırıb ruslar kimi oynadı. Bunu belə görən cavan əsgərlər də ona qoşuldu. Bütün kənd axışıb gəlirdi. Qoluna qırmızı bağlamış Cavad daşın üstünə çıxıb bərkdən dedi:

– Camaat, görürsünüz ki, qırmızı ordunun əsgərləri adam kəsən-zad döyüllər! Onlar da bizim kimi yoxsul kəndli-fəhlə oğlanlarıdı!

Amma burjuylar onların haqqında yüz cür söz çıxarırdılar!

Kimsə qışqırdı:

– Məhv olsun burjuylar!

Sonra ortaboylu, enlikürək bir komandir danışdı, Cavad onun sözlərini kəndlilərə tərcümə elədi:

– Yoldaş komandir deyir ki, biz sizin qardaşlarınızıq. Biz gəlmişik ki, sizin torpağınızın yiyəsi olmağınıza, azad yaşamağınıza kömək eləyək. Bizim rəhbərimiz yoldaş Lenin demişdir ki, torpaq kəndlinindir!

Bunu deyəndə bütün izdiham hərəkətə gəldi. Veysəl qışqırdı:

– Yaşasın Şura hökuməti!

Əsgərlərdən biri Leninin şəklini yuxarı qaldırdı. İzdiham bir saniyə sakit olub şəklə baxdı.

– Sonra komandir deyir ki, qoy hər kəs öz təsərrüfatı ilə məşğul olsun. Biz fəhlə-kəndli hökumətiyik, heç kəs öz halal zəhmətilə yaşayan adama gözün üstə qaşın var deyə bilməz! Hökumət adamlarını siz özünüz öz içinizdən seçəcəksiniz!

Sonra əsgərlər bizim evin yaxınlığında olan keçmiş dəftərxana binasına tərəf getdilər, camaat da onların ardınca.

Qızıl ordu hissəsi bizim kənddə kiçik bir dəstə qoyaraq Cəbrayıl nahiyəsinə tərəf yoluna davam etdi. Bu hissə kənddə olan müddətdə atamgil gündüz də evə gəlmirdi.

Arabaları, yemək sursatları bizim evin yanında dayanan əsgərlərin yanına mən də gedirdim. Onlar öz dillərində bizimlə zarafatlaşırdılar, bizə kişmiş verirdilər. Mən başqa zaman öz evimizdə bahalı konfetləri, şokoladları yemək istəmədiyim halda, indi bu tozlu-torpaqlı kişmişi həvəslə yeyirdim. Mən, kim bilir, haralardan gələn bu zarafatcıl oğlanlara qarşı özümdə qəribə bir səmimiyyət duyurdum və atamgilin bunlardan qorxub evə gəlməmələri mənə pis təsir edirdi. Çünki mən də özümü bu kəndli uşaqları kimi onlara yaxın hiss eləyə bilmirdim. Mənə elə gəlirdi ki, mən bu cavan əsgərlərdən də, onların başına toplaşan bu uşaqlardan da tamam ayrıyam. Elə bil ki, mən azıb bura düşmüş yad bir quş idim. Elə bilirdim ki, onlar atamın onlardan qaçıb bağda gizlənmiş olduğunu eşitsələr, mən xəcalətimdən ölərəm.

Atamgil bütün qiymətli şeylərini, qızıl-mızıllarını yığdıqları böyük dəmir sandığı Qubad əminin məsləhətilə, ulu babamgildən qalmış və indi içində barama saxlanan qədim damda gizlətmişdilər. Əldə elə bir qiymətli şey qalmamışdı ki, anam bu kənddə yemək şeylərinə dəyişsin. Qubad əmimin arvadının anamı görməyə gözü olmadığı üçün inəklərinin, camışlarının yavanlığından bizə bir tikə də vermirdi. Ona görə də mən birinci dəfə olaraq yoxsul yaşamağın zərbəsini hiss eləməyə başlayırdım. Bacım ağlayıb konfet istəyirdi, ət körəyi istəyirdi. Anam bütün günü əsəbilik keçirirdi. Atam da bütün günü bağda gizləndiyi üçün heç bir şey eləyə bilmirdi. Bayram babamgildən də heç bir xəbər yox idi. Rəng-rufu sapsarı, arıq, azardar bir qadın olan əmim arvadı, demək olar ki, hər gün bir şeyi bəhanə eləyib anamla dalaşırdı. Bizi kənddə olan əsgərlərlə hədələyirdi:

– Çox oyan-buyan elərsiniz,– deyirdi,– gedib bolşeviklərə xəbər verərəm ki, bunlar burjuydular, gəlib burada paltarlarını dəyişib gizləniblər.

Əgər mənim anam bu əmim arvadına bir pislik eləmiş olsaydı, fikir edərdim ki, o, qisas alır. Çünki mən qisasın, intiqamın nə demək olduğunu artıq bilirdim. Ancaq anam ona heç nə eləməmişdi. Elə isə, bu əmim arvadının hərəkətini nə ilə izah eləmək olardı? Atamgil məni hər nə qədər «əllamə» adlandırsalar da, mən əmim arvadının anama qarşı qəzəbinin sirrini anlaya bilmirdim.

... Nəhayət, aralıq tamam sakit oldu. Hamı bildi ki, dinc duran adamla bolşeviklərin işi yoxdur. Bir gün biz də hazırlaşdıq ki, gedək şəhərə, evimizə. Atam da artıq üzə çıxmışdı. Atamın xahişilə Qubad əmim gedib damdakı sandığımızı gətirəndə gördük ki, sandıq tamam boşdur. Sındırıb içində nə varsa, hamısını aparıblar. Atamla anam qorxu və təəccüblə bir-birinə baxdılar. Anam Qubad əmimdən soruşdu:

– Hanı bunun içindəkilər?!

Qubad əmim dedi:

– Mən nə bilim hanı?

– Sandığın yerini səndən başqa bilən yox idi.

Qubad əmim dedi:

– Mənim heç nədən xəbərim yoxdu!

Atam çıxarıb papiros büküdü.

Anam rəng-rufu qaçmış halda əmimə dedi:

– Şeyləri necə götürmüsənsə, heylə də gətir!

Qubad əmim bozardı:

– Sənə dedim ki, bizim xəbərimiz yoxdu!

Anam dedi:

– Başın bədəninə ağırlıq eləməsin, Qubad, get şeyləri gətir!

Birdən əmim özündən çıxdı:

– Kimi hədələyirsən, məni, az?! Getdi Bayram bəyin qaçaq-qulduru başına yığıb meydan suladığı vaxtlar! Allaha and olsun, oyan-buyan elərsən, gedib əsgərləri gətirərəm, hamınızı qılıncdan keçirərlər. Cəhənnəm olun, çıxın gedin xarabanıza!

Qubad əmim belə deyib getdi.

Anam qəzəblə atama dedi:

– Axı bütün var-yoxumuz o sandıqdaydı! Qardaşın bizi dilənçi köküne saldı. Niyə dilini tərpətmirsən?

Atam təmkinlə dedi:

– Dinməyin mənası yoxdur. Eşitmədin nə dedi?

Sonra atam başqa qohumlarından birinin öküz arabasında bizi gətirdi şəhərə.

Yol uzunu mən eyzən atamla Qubad əmim barədə fikirləşirdim. Həyatımda birinci dəfəydi ki, mən qardaşlar arasında belə münasibət görürdüm. Fatma nənəm qardaşlarının Məlikməmmədi aldadıb qırx arşın quyuya saldıqlarını nağıl eləyəndə mən inana bilmirdim. «Adam da qardaşını quyuya salarmı?» deyirdim. Fatma nənəm də uzun müştüyündəki papirosundan dərin bir qullab alıb deyirdi: «Vələdüzna qardaş salar!» Sonra da başlayardı Eyvaz əminin Bayram babamı dilə tutub, kişinin qazancını «kamına çəkməsi» barədə yana-yana danışmağa.

Atamla Qubad əmimin qardaş olmaqları da mənə təəccüblü görünürdü. Fikirləşirəm ki, görəsən, bunlar uşaqlıqda bir-birilə necə rəftar edirmişlər? Onda da Qubad əmim öz qardaşının şeylərini belə götürürmüş? Mən «oğurlayırmış» deyə bilmirdim, çünki qardaşın qardaşdan oğurluq eləməyi mənə Məlikməmmədi qardaşlarının qırx arşın quyunun dibinə salmaları kimi dəhşətli və ağlasığmaz görünürdü. Mən onu da hey fikirləşirdim ki, bəlkə anam səhv edir? Bəlkə sandığın yarılmasından, doğrudan da, əmimgilin xəbəri yoxdur? Ancaq bir həqiqət vardı ki, sandıqdakı şeylərin getməyi, anam deyən kimi, bizi tamam yoxsul bir vəziyyətə saldı.

TƏZƏ GÜNLƏRİN TƏZƏ ƏHVALATLARI

On birinci ordunun bir batalyonu bizim evlərdə yerləşmişdi. Otaqların ancaq birini vermişdilər bizim, guya «nökərimiz» olan Zəbi əmimə. Biz də həmin otaqda yerləşdik. Evdə qoyub getdiklərimizdən heç bir əsər-əlamət qalmamışdı. Atamın keşişdən aldığı mebelləri də sındırıb dağıtmışdılar.

Qərəz, demək olar ki, biz lat-lüt qalmışdıq. Mağazadakı şeylərdən də əsər qalmamışdı. Zəbi əmim deyirdi ki, «kəndlilər gəlib şeyləri müftə aparıblar». Bunun nə dərəcədə doğru olub-olmadığını aydınlaşdırmaq mümkün deyildi.

Anam deyirdi ki, Zəbi yalan danışır. Heç kəs atama görə bizim şeyimizi müftə aparmaz. Mağazanın şeylərini də, evdəki xalı-gəbələri də Zəbi yeyib, üstündən su içib.

Batalyon komandiri yaxşı oğlan idi. Bizə düyü, çörək, kişmiş verirdi. Mənimlə, bacımla zarafat edirdi. Bəzən bizi özləri ilə bir stolda oturdub «kaşaya» qonaq edirdi. Vaxtilə anam cücə-plovu, ceyran ətinin kababını bizə zorla yedirdirdi. Amma indi bu duzsuz-dadsız çovdar aşını biz elə şirin-şirin yeyirdik ki, komandir aşpaza əmr edirdi ki, boşqabımıza bir az da əlavə eləsin.

Mən bu komandirin də, cavan əsgərlərin də yanında indi özümü olduqca sərbəst və necə deyərlər, ruhlu hiss edirdim. Batalyon komandiri ortaboylu, enlikürək və çox sağlam bir oğlan idi. Biz gələndən bir neçə gün sonra malyariya tutmuşdu, bərk titrədib-qızdırırdı. Titrədəndə şineli, adyalı üstünə töküb, dişləri bir-birinə dəyə-dəyə zarafatla mənə deyirdi:

– Bir gör ha... Sizin yer necə yerdi... Heç Sibirdə– əlli dərəcə soyuqda mən belə titrətmirdim, amma bu istidə titrədirəm.

Anam çay dəmləyib çayniki mənə verirdi, mən də aparıb stəkana tökərək qoyurdum onun qabağına. O da qızdırmaya düşəndə bu çayı ləzzətlə içib tərləyirdi.

Bizim köhnə dostumuz doktor Quliyev gəlib ona iynə vururdu. Komandirin gözündə eynək olan, qısaboylu, arıq bir yoldaşı da vardı ki, onunla bir otaqda qalırdı. Bir gecə iki nəfər əsgər gəlib atamı apardı. Gözlədik, atam gəlmədi. Səhər anam komandirdən soruşdu ki:

– Bu nə əhvalatdı?

Komandir dedi:

– Bu, Voronov yoldaşa (yəni həmin eynəkli komandirə) aid işdir.

Zəbi əmim öyrənib bildi ki, kimsə atamı şeytanlayıb ki, guya o, böyük kapitalist olub, zülmkar olub. Bizim dostumuz doktor Quliyev həmişə komandirə iynə vurmağa gələndə bizə də baş çəkirdi. Bu dəfə də gələndə anam əhvalatı ona nağıl elədi. Doktor da həmin ey-

nəkli komandiri inandıra bildi ki, tutduğunuz adam, bir az varlı olsa da, nə kapitalist olub, nə də zülmkar. Eynəkli komandir də doktorun sözünə inanıb, atamı buraxdı.

Mən birinci dəfəydi ki, «şeytanlamaq» sözünü eşidirdim və təəccüb edirdim ki, nə üçün insan şeytana çevrilir? Fatma nənəm kor şeytan haqqında mənə çox nağıllar danışmışdı. Fatma nənəm demişdi ki, şeytan da bir zamanlar mələklərdən biri imiş. Bir gün Allahın ona qəzəbi tutur və şeytanı lənətləyərək qovur. İndi o vaxtdan bəri şeytan da Allahın yaratmış olduğu insanlara daim pislik eləməklə ondan intiqam alır. Mən təəccüb edirdim ki, nə üçün hər şeyə qadir olan Allah şeytanın bu qədər pis işlər görməsinə yol verir? Nə üçün bir ildırım çaxdırıb şeytanı kül eləmir?! Mən bunu soruşanda Fatma nənəmin acığı tuturdu: «Allahın işinə əl aparmaq olmaz!» deyə məni qovlayırdı.

Fatma nənəm deyirdi ki, şeytan insan qəlbinə girib, onu yoldan çıxarır. İnsan da pis işlər görür.

Mən şeytanın yorulmaq bilməyən bu hərəkətlərində axmaq bir mənasızlıq hiss edirdim və bunu heç kəsə demirdim. Mən başqasını incitməkdə heç bir ləzzət görmürdüm. Əksinə, belə hərəkətlər, mənim duyduğum xarici aləmə bir soyuqluq, bir qüvvət verirdi. İndi mən fikirləşirdim ki, bəlkə atamı mənimlə həmişə sərt rəftar eləməyə, məni danlamağa sövq eləyən şeytandır? Axı mənim qolum sınanda və ya mən xəstələnəndə atam mənimlə mehriban olurdu? Mənə təzə paltar alırdı. Mən bu lənətə gəlmiş şeytana nə pislik eləmişəm?! Mənim atam, onu qırmızı komandirə şeytanlayıb tutduran adama nə pislik eləyib? Bilirdim ki, o, heç kəsə pislik eləyən adam deyil. Mən fikirləşirdim ki, yəqin, şeytan uşaqlıqda heç də pis işlər görməyib. Yadımdadır, bacım Mahtab yeddi-səkkiz aylıq körpə olanda bir dəfə yuxuda gülümsədi. Anam dedi ki, «körpə yuxuda mələkləri gördüyü üçün xoşallanıb gülümsəyir...» Mən Leninin gülümsəyən şəkillərinə maraqla baxırdım. Mən artıq bilirdim ki, padşahı taxtdan çəkib salan (mən o inqilabı belə də təsəvvür edirdim) Lenindir. Padşahın qoşunları ilə dava eləyən fəhlə-kəndli ordusunun komandiri də Lenindir. Şəklini görənə qədər mən Lenini, Fatma nənəmin nağıllarındakı yenilməz nəhəng Rüstəm Zal kimi bir qəhrəman təsəvvür edirdim. Sən demə, bu da doktor Quliyev kimi qalstuk bağlayan, gülümsər üzlü bir kişi imiş... (Doktor Quliyev də həmişə məni görəndə, bax, bu cür, Lenin kimi gülümsəyirdi). Bu, məndə mənasını dərk eləmədiyim bir fərəh doğururdu. Mən də anamdan bir parça ipək qırmızı lent alıb, bolşevik kimi sol döşümə sancırdım. Atam mənim qırmızı lentimə baxıb gülümsəyirdi və öz dostlarına zarafatyana deyirdi ki, bizim bu oğlumuz bolşevikdir! Səhərdən axşamacan Leninin şəklini çəkir. Mən də bu sözlərlə fəxr edirdim. Bolşeviklər kimi geyinməyə çalışaraq, evimizdə olan həmin komandirin dolağından

xəlvətcə kəsib qılçama dolayırdım. (O zaman əsgərlərin də, komandirlərin də çoxu boğazlı çəkmə əvəzinə kobud ayaqqabı geyib, dolaq dolayırdılar). Sonra anamdan xahiş elədim ki, əsgərlər kimi mənə də şişpapaq tikdirsinlər. O özü mənə ot rəngli parçadan şişpapaq tikdi. Mən dedim:

– Qırmızı parçadan beşguşəli ulduz kəs, tik papağın qabağına.

Anam bu dəfə mənə acıqlanıb dedi:

– İtil o yana.

Atam ömründə birinci dəfə olaraq mənim tərəfimi saxlayıb, anama dedi:

– Yaxşı də... tik deyir, tik!

Anam mənim şişpapağıma beşguşəli ulduz da kəsib tikdi. Mən komandirin dolağından kəsdiyim parçanı doladım qılçama, qırmızı ipək lent sancdım döşümə, şişpapağı da qoydum başıma. Oldum qırmızı komandir. Bu, mənim həyatımda yeni bir həvəs idi. Mən özümdə fərəh və gümrahlıq hiss edirdim. Mənim üçün bu aləmdə ən maraqlı cəhət bir də o idi ki, atam mənim bu cür «qırmızı komandir» olmağımdan xoşhal görünürdü. Hətta sərrac Qafara mənim üçün enli bir komandir kəməri də tikdirdi.

Burası da qəribə idi ki, bütün otaqlarımızda, mağazalarımızda, qoyub getdiyimiz şeylərin tamam dağılıb getməsinə baxmayaraq, mənə elə gəlirdi ki, atam bolşeviklərə heç də düşmən kimi baxmır. Mən onda bolşeviklərə dərin kin hiss eləmirdim. Axşamlar atam həmin malyariya tutan komandirlə saatlarca oturub söhbət edirdi. Mənə elə gəlirdi ki, atamın bolşeviklərə kin bəsiləməməyinini əsas səbəbi onun böyük kapitalistlərə, xüsusən bəylərə qarşı düşmən münasibəti idi. Kim bilir, bəlkə o zaman sovet idarələrində atama bir qulluq təklif eləsəydilər, o, buna məmnuniyyətlə razı olardı... Bəlkə lap kommunist partiyasına da daxil olardı. Lakin belə bir təklif heç kəsin ağlına da gəlmirdi. Atam isə daim qorxu içində idi. Daim özünün bu gün-sabah həbsə alınacağı barədə düşünürdü. Atam anamla eyzən bu barədə söhbət edirdi. Anam sovetlərə qarşı tam barışmaz idi. Bir vaxt ona-buna paltar yuyan, çörək bişirən Töhfə arvadın indi şəhər sovetinin sədri seçilməsi, naxırçı gödək Tapdığın Muzdurlar Komitəsinin sədri olub, varlılara qan uddurması anamı yandırıb tökürdü. Anam atama deyirdi ki:

– Sifariş elə, Qızılbaşoğlu xəlvətcə, gecə iki-üç at gətirib bizi keçirsin Arazın o tayına. Atamgil də oradadır.

Ancaq atam razı olmurdu.

– Bəs,– deyirdi,– bu ev-eşik nə olsun?

Anam deyirdi:

– Şura hökuməti gedər, yenə də qayıdıb gələrik.

Anam qəti inanırdı ki, bolşeviklər gəldikləri kimi də qayıdıb gedəcəklər.

Anam deyirdi:

– Padşahsız məmləkət olmaz.

Atam da deyirdi ki:

– Bolşeviklər Nikolay padşahı bütün əhli-əyalı ilə güllələyiblər.

Atam gecə-gündüz ustaların başının üstündə durub tikdirdiyi ev-eşiyi, böyük bir həvəslə saldığı bağ-bağçanı qoyub getmək istəmirdi. O bu ağacların, güllərin toxumunu, qələmini cürbəcür yerlərdən gətirtmişdi və hamısını da öz əlilə əkib-becərmişdi. Atamın təbiətində tacirliklə kəndlilik birləşmişdi, o, mahir tacir olduğu qədər də həvəskar kəndli idi. Sonralar, yəni on iki-on üç yaşına çatdığım zaman da o, məni ona görə «fərsiz» hesab edirdi ki, mənim nə ticarətə, nə də kənd işlərinə, fiziki zəhmətə həvəsim olmadığını hiss edirdi. O, tez-tez anama deyirdi: bilmirəm bunun axırı nə olacaq?!

Anam isə mənim haqqımda atam qədər bədbin deyildi. Anam ticarətə də, adi təsərrüfat işlərinə də həmişə biganə idi. Anam da, atam kimi, heç bir zaman mənim haqqımda özümə tərifli söz deməzdi. Ancaq anamın məni heç də fərsiz hesab eləmədiyini duyurdum və bu hiss məni anama daha möhkəm bağlayan gözəgörünməz bir qüvvəyə çevrilirdi. Mən anamı itirməkdən qorxurdum. Düşünürdüm ki, bizim küçədə mən yaşda olan Abbas bəyin anası kimi, mənim də anam ölə bilər. Belə fikirlər məni dəhşətə gətirirdi. Mən Abbasın öz anasının ölümünü heç də vecinə almadığına təəccüb edirdim. Onun əvəzinə mən özüm dərin bir kədərə dalırdım. Mən onu son dərəcə yazıq hesab edirdim. Halbuki onu bir dəfə də bikef görmürdüm. O, tamam dərdsiz-qəmsiz halda uşaqlarla ora-bura qaçır, oynayıb hay-küy salırdı.

Həyatda mənim bütün varlığıma hakim olan, bir dəqiqə də olsa, məndən uzaqlaşmayan ilk qorxu hissi bu cür peyda oldu.

... Bizlərdə hökumət orqanları qurulandan sonra on birinci ordunun hissələri, o cümlədən, bizim evdə olan hərbiyəlilər də tərpənib getdilər.

Biz, demək olar ki, tamam yoxsul vəziyyətdə qalmışdıq. Zinyət də çıxıb getmişdi obalarına. Şəhərdə çörək-filan da qıt olmuşdu. Anam indi gündə bir dəfə, özü də ucuz başa gələn bişmiş bişirirdi, özü xəstə olanda isə Bəyim xala və ya anama çox uzaq qohumluğu çatan Nabat xala gəlib bişirirdi. Nabat xala qırx beş-əlli yaşlarında qozbel, olduqca xoşsifət bir qadın idi. Ərə getməmişdi. Özündən böyük bacısının ailəsində yaşayırdı. Bacısının əri, əsli Arazın o tayından olan bir tacir idi.

Nabat xalanın bişirdiyi xörəklər qeyri-adi dərəcədə ləzzətli olurdu. Bir dəfə də olsun, mən onu qaşqabaqlı və ya qəmgin görməmişdim. Və mən düşünürdüm ki, kaş mənim anam da Nabat xala kimi qozbel olaydı, amma onun kimi heç bir zaman xəstələnməyəydi! Əlbəttə, mən ürəyimin dərinliyində anamın qozbel olmasına heç də dözməzdim, ancaq anam o qədər tez-tez xəstələnirdi və mən bu barədə o qədər gizli dərd çəkirdim ki, deyirdim, hər nə olurdusa-olaydı, amma anam azarlamayaydı. Mən görürdüm ki, Nabat xala heç bir zaman öz taleyindən şikayətlənmir, həmişə təmiz-tarıq, səliqə ilə geyinir, zarafat eləyib anamı güldürür. Hiss edirdim ki, arvad öz söhbətindən, bişirdiyi ləzzətli xörəklərdən də zövq alır. Ancaq özünün yeməyi dörd-beş yaşında uşağın yeməyi qədər olurdu. Başa düşə bilmirdim ki, Allah belə yaxşı bir qadını niyə qozbel yaradıb?

... Sonra gördüm atam anamın qalan daş-qaşlarından, qızıl zinətlərindən nə isə satıb yaxşı qaçan bir at aldı, ingilis yəhəri aldı. Bir gecə də gördüm ki, iki qatar patronla beşaçılan alıb, xəlvətcə gətirdi evə.

Bundan bir neçə gün sonra isə, qaranlıq bir gecədə atam boğazlı çəkmə geyib, patrondaşları bağladı belinə. Göydəmir atı yəhərləyib minərək anama:

– Allah amanatında olasınız!– deyib hara isə getdi.

Mən anamdan soruşdum ki:

– Hara gedir atam?

Anam da ancaq onu dedi ki:

– İşi var, özgə yerə gedir.

Ancaq səhəri gün Fatma nənəmlə danışıqlarına gizlincə qulaq asıb bildim ki, atam dörd yoldaşı ilə Təbrizdən qaçaq mal gətirməyə gedib.

Fatma nənəm dedi:

– Bəlkə o tayda kişini də (yəni Bayram babamı) gördülər.

Anam dedi:

– Ağlım kəsmir... Onlar yiyəsiz yerlərlə çölləmə gedəcəklər.

Bir neçə gündən sonra yenə də qaranlıq bir gecədə atam gəldi. Atın tərkinə bağladığı keçə xurcunu açıb, qaldırdı evimizə. Anam soruşdu:

– Bəs satmağa bir şey gətirməmisiniz?

Atam da cavab verdi ki:

– Gətirmişik. Ədil bəyin evindədir.

Ədil bəy atamın yaxın dostu idi. Üzündə tək-tük çopuru olan yoğun, yaraşıqlı bir kişi idi. Tez-tez bizə gələrdi, bəzən stulda, ya divanda bardaş qurub oturardı, mən də təəccüb edərdim, Ədil əmi bu qədər yoğun qılçalarını necə qatlayıb bardaşqurma otura bilir? Həmişə bizə gələndə gülümsəyib, məndən soruşardı:

– Kişi oğlu, necəsən? Həsən döyər, yoxsa sən?

Həsən onun, məndən iki-üç yaş böyük oğlu idi. Bizim şəhərin lap yaxınlığındakı kəndin kənarında Ədil əmigilin neçə otaqdan ibarət mavi taxtapuşlu böyük evləri var idi. Biz tez-tez onlara qonaq gedərdik. Onun arvadı da Bayram babamın dostu qazı ağanın qızı idi. Arıq, sağlam bir qadın idi.

Atam anama dedi:

– Xurcunu aç, uşaqlara xuşgəbər ver.

Sonra mənə məlum oldu ki, atamgil Təbrizdən cürbəcür parça-filan gətiriblər... Və onlar gətirdiklərini satıb qurtaran kimi, yenə də gizli surətdə Təbrizə getdilər.

Bu əhvalat da mənə çox maraqlı görünürdü. Çünki yaz vaxtı olduğundan bütün çaylar, o cümlədən, Araz daşıb göylə gedirdi. Atamgil özləri Arazı pələdə keçirdilər. Atlar isə üzgüçülərin müşayiətilə Arazı üzüb keçirdilər. Bizim şəhərdən Təbrizə atla üç-dörd günlük yol idi. Bütün bunları mən atamın anamla olan söhbətindən bilirdim, bilirdim ki, pələ çox təhlükəli şeydir. Beş-altı ağacı yan-yana bir-birinə bənd eləyib, altına üç-dörd qoyun dağarcığını üfürüb bağlayırlar, adamlar da otururlar üstündə. Pələçi kürəkləyib keçirir çaydan...

Sonra atamgil yollarda hər saat, dəstə ilə gəzən qaçaq-quldura rast gələ bilərlər. Bütün bu qorxulara baxmayaraq, atam yavaş-yavaş bizim ailə vəziyyətimizi babatlaşdırırdı. Bu da məni sevindirirdi, çünki mən bu az zamanda yoxsulluğun nə demək olduğunu hiss eləmişdim.

... Sovet hökuməti qurulandan sonra Qəza İcraiyyə Komitəsinin sədri bizim mahala gəlmişdi. Evimizdə olan söhbətlərdən eşitmişdim ki, köhnə inqilabçılardandır, Bakıda çox hörməti var. Bizim mahala gələndən sonra da az vaxt içində xeyli hörmət qazanmışdı. Hamı deyirdi: «Yaxşı adamdı...»

Bir gün atam bazardan həyəcanlı gəlib anama dedi ki:

– Qəza İcraiyyə Komitəsinin sədri məni çağırtdırmışdı...

Anam maraqla soruşdu:

– Nəyə görə?

Atam dedi:

– Məndən soruşdu ki, «sənin qayınatan Bayram bəy nə üçün qaçıb İrana?» Mən də düzünü dedim... Dedim, yəqin ki, tutulmaqdan-zaddan qorxub. Dedi: «Sən ona mənim adımdan sifariş göndərə bilərsənmi ki, qorxmasın, gəlsin, çıxsın üzə?»

Anam soruşdu:

– Bəs sən nə cavab verdin?

– Dedim, mənim heylə imkanım yoxdur.

Anam dedi:

– Yaxşı demisən.

Sonra anam sədrin qarasına acıqlı əlavə etdi:

– Sifariş göndərək gəlsin, sən də tutub güllələdəsən...

Atam dedi:

– Axı o, qəribə bir söz də dedi...

– Nə dedi?– Anam soruşdu.

– Dedi ki, Bayram bəyə sifariş göndərin, mən onu tanıyıram, qorxmasın!

Anam yana-yana başını buladı:

– Sən də onun sözünə inandın? Deyirlər, o, gəncəlidi, haradan tanıyacaq dədəmi? Heylə aldillə gətirdib tutmaq istəyir.

Atam dinmədi. Mən hiss edirdim ki, atam sədrin sözünə inanır.

O, papiros büküb yandırandan sonra:

– Ancaq,– dedi,– xoşsifət adamdı... Mərdimazara oxşamır.

Anam yenə də acıqlandı:

– Sən də söz danışdın. Bunlara inanmaq olar?

... Ancaq bir gün anam evdə oturub maşında nə isə tikirdi. Mən də artırmada bacımla oynayırdım. Hava soyuq və çiskinli idi. Bir də gördüm çöl tərəfdən həyətimizə atın üstündə, ucaboylu, əynində saçaqlı yapıncı, başında gümüşü papaq bir adam gəldi. Mən diqqətlə baxıb, birdən:

– Babam gəldi! Babam gəldi!–deyə sevinclə qışqırdım, anam da mənim səsimə yüyürdü bayıra. Bayram babam düşüb, atı ağaca bağlayaraq çıxdı artırmaya. Mənim və bacımın üzündən öpüb anamın kefini soruşdu. Sonra yapıncısını çıxarıb kətilin üstünə ataraq anamın verdiyi stulda əyləşdi. Onun yanağında qoşa xal olan yaraşıqlı üzü gündən, ayazdan yanıb mis kimi qızarmışdı. Anam soruşdu:

– Ay dədə, bəyəm, üzə çıxmısan?

(Həmişə anam babamla danışanda, elə bil ki, utanıb çəkinə-çəkinə danışırdı. Bu da mənə qəribə görünürdü. Çünki anam, kiminlə olursa-olsun, danışanda onun səsində həmişə ötkəmlik hiss olunurdu).

Babam:

– Yox,–dedi,– sədr o taya yanıma adam göndərmişdi.

Anam hərarətlə dedi:

– Sən də onun sözünə inandın?

Babam köz kimi qızaran yaqut qaşlı gümüş qutusunu açıb, papiros bükə-bükə dedi:

– İnansam da, inanmasam da gəldim. O tayda yaşamaq mümkün deyil. Gərək orada da qaçaq yaşayasan. Şah ərəblarının əlindən insan təngə gəlir. Çox rəzil olurlar.

Anam dedi:

– Bunlara da etibar yoxdur, dədə.

Babam dedi:

– Ondan keçib... gedəcəyəm...

Babamın pencəyinin altından tapançasının lüləsi görünürdü.

Anam çay-çörək hazırladı. Babam yeyib-içəndən sonra qalxıb yapıncısını çiyninə salıb, anama dedi:

– Sən narahat olma. Mən heç bir yoxsulu-kəndlini incitməmişəm. Görsəm ki, məni aldillə gətiriblər, sədrin özü üçün də yaxşı olmayacaq...

Mən başa düşmədim ki, bu sözlərlə babam nə demək istəyir. Onu tutandan sonra sədrin nə vecinə olacaq?

Babam ağır, təmkinli addımlarla həyətə enərək atını minib getdi.

Anam dinməz-söyləməz onun ardınca baxa-baxa papiros yandırıb çəkdi. Sonra atam gəldi. Anam əhvalatı ona danışdı, atam da heç bir cavab verməyib papiros yandırdı.

Aradan nə qədər keçdi, bilmədim, sonra bayırda at ayağının tappıltısını eşidərək yüyürdük artırmaya. Babam atdan düşüb, gümrah addımlarla çıxdı yuxarı.

Atam onun qabağına yeriyib:

– Allaha şükür, əşi,– dedi,– sağ-salamat qayıtdın.

Babam yapıncısını çiynindən götürüb stolun üstünə ataraq dedi:

– Əşi, dünyada qəribə işlər olur.

Anam soruşdu:

– Nə məsələdi?

Babam dedi:

– Atı İcraiyyə Komitəsinin həyətində bağlayıb çıxdım sədrin otağına, özü də söz verdim ki, qarınınkı Qurandan keçib, əgər görsəm ki, məni tutmaq istəyir, o saat vurum. Ancaq kişi məni görən kimi qalxıb gülə-gülə qabağıma yeridi. Mənimlə əl tutuşub soruşdu: «Bəy, məni tanıdınız?» Dedim: «Xeyr». Zarafatla dedi: «Heylə şeyi yaddan çıxarmaq olar, bəy? O vaxt siz Şıpartı dərəsində məni qaçağın əlindən almasaydınız, indi sümüyüm də sürmə olmuşdu».

Atam həyəcanla dedi:

– Odur ki, atalar deyib: «Yaxşılıq itməz». Sonra nə oldu?

Babam dedi:

– Sonra da bildirdi ki, məni qəza milis rəisi təyin edirlər. Doğrusu, olmaq istəmirdim, dedim, axı mən firqəçi deyiləm. Özüm də sizdən qaçmışdım. Deyir, biz sizə etibar eləyirik. Deyir, sizdən birinci xahişim budur ki, hansı yolla olur-olsun, banditizmi ləğv eləməkdə bizə kömək eləyəsiniz. Nüfuzlu adamsınız, deyir, sizin sözünüzü eşidərlər.

Bu xəbər hamıdan çox məni sevindirdi, mən şəhərimizdə təzə peyda olmuş milisləri görürdüm. Demək, mənim babam bütün o milislərin naçalnikı olacaq! Bu, mənim izzəti-nəfsimi oxşayırdı...

MƏKTƏB, UŞAQLAR VƏ MƏN

Sentyabrın on beşində babam məni üstü qırmızı dəmirli, böyük kürsülü binada yerləşən məktəbə apardı.

Və orada mənim anlaşılmaz, daimi kədərimə yeni bir hiss də əlavə olundu: mən uşaqların şən çığır-bağırı içində birdən-birə özümü yalqız hiss elədim və bu hiss sonralar da eyzən mənimlə oldu.

Uşaqlar arakəsmədə, sinif otağında oyan-buyana yüyürüşür, bir-birilərilə gah öcəşir, gah zarafatlaşır, gah masanın üstünə çıxıb yerə tullanırdılar. Mən isə bir tərəfdə divara söykənərək, dinməz-söyləməz onlara tamaşa edirdim. Mən onlara qarşı özümdə bir yadlıq hiss edirdim. Mənə elə gəlirdi ki, onlar bir-birlərini çoxdan tanıyırlar, bir-birlərilə qohumdurlar. Onu da bilirdim ki, bu, belə deyil. Onlar mənə əhəmiyyət vermirdilər, heç mənə tərəf baxmırdılar da...

Həmin bu günlərdə anamın malyariyası yenə də başlamışdı. Yenə də şiddətli titrədib-qızdırırdı. Yenə də mən həyətimizdəki böyük tut ağacının altına qaçıb xəlvətcə dərd çəkirdim. Bəlkə mənim məktəbdəki uşaqların şənliyində iştirak eləməməyimin bir səbəbi də bu idi... Ancaq, axı bizim qonşumuz Yaqubun da anası bərk xəstə idi. Bəs nə üçün o, sinifdə hamıdan çox səs-küy salırdı, hamıdan çox nadinclik edirdi?

Bizim ilk müəllimimiz Mirzə Camal yarısaqqallı, yarımolla geyimli bir şəxs idi. Bizə papaqlarımızı çıxarmağı əmr etdiyi halda özü sinifdə dəri papaqla dərs deyirdi. Bilmirəm dərsə başladığımızın neçənci günü idi, anamı evdə yenə bərk xəstə qoyub gəlmişdim. Yenə də uşaqların şən səs-küyünə dərin qüssə içində qulaq asırdım. Yenə də bu şənlik mənə təəccüblü görünürdü. Zəng vuruldu. Biz keçib masalarda əyləşdik. Mirzə Camal ağır addımlarla içəri daxil olub dedi:

– Durun!

Biz qalxdıq.

Dedi:

– Oturun!

Biz əyləşdik.

Dedi:

– Nəğmə öyrənəcəyik.

Uşaqlar sevinclə tərpənişdilər və Mirzə Camal müəllim başladı öz yavaş, nazik səsilə nəğməni öyrətməyə. Uşaqlar hamısı oxuyurdu, məndən başqa. Anamı evdə xəstə qoyub gəldiyim üçün nəğmə oxumaq heç mənim ağlıma da gəlmirdi. Mən məyus-məyus qulaq asırdım. Birdən mənimlə bir masada oturan oğlan əlini qaldırıb dedi:

– Müəllim, bu oxumur!

Müəllim mənə yaxınlaşıb soruşdu:

– Niyə oxumursan?

Mən dinmədim. Mirzə Camal müəllim hirsləndi, mənim qolumdan dartıb masadan çıxararaq:

– Rədd ol!– deyib, itələyib saldı bayıra.

Mən arakəsmədən keçib çıxdım məktəbin həyətinə. Ətrafda heç kəs yox idi. Hamı siniflərdə idi. Mən divara qısılıb dayandım. Mənə elə gəldi ki, Mirzə Camal müəllim məni itələməklə bütün insanlardan, insanlar yaşayan bütün aləmdən ayrı saldı. Mən bir də heç zaman daxilən bu insanların içinə qayıtmadım. Bir də heç zaman

daxilimdəki aləm barədə onlara bir kəlmə də söz demədim. Evimizə gələndə olduqca gonbul, ağıldan bir az kəm, Rəşid adlı oğlan atamı küçədə görüb demişdi ki:

– Müəllim oğlunu nəğmə oxumadığı üçün sinifdən qovub çıxardı.

Atam bərk hirslənib məni o ki var danladı. Anam da elə xəstə-xəstə ona qoşuldu. İkisi də məni maymaq, bişüur, daha bilmirəm nə adlandırırdı. Sonra ikisi bir-birilə dalaşmağa başladı. Atam anamı ittiham edib deyirdi:

– Bunu sən belə eləmisən.

Anam da atamı məzəmmət eləyib deyirdi:

– Oxşayıb sənin qardaşlarına.

Mən söyülüb təhqir olunmağıma baxmayaraq, özümdə qəribə bir gümrahlıq hiss edirdim, çünki anamın xəstə-xəstə bu cür canlı, qızğın dava eləməsi, hələ desən, atamın onunla bacarmaması ürəyimin dərinliklərində məni sevindirirdi. Amma anamın, məni atamın qardaşlarına oxşatması izzəti-nəfsimə toxundu. Çünki atamın «qardaşları» deyəndə, birinci növbədə, Qubad əmim gözümün qabağına gəlirdi. Mənsə Qubad əmimə oxşamaq istəmirdim.

Beləliklə, ətrafımdakı insanlarla mənim aramdakı gözəgörünməz sədd möhkəmlənirdi. Mən özümü bu insanlar arasında yalqız hiss eləyirdim.

Mənim daxili aləmimdə fərəhli heç nə olmadığı üçün daima küskün, dumanlı bir ruhla böyüyürdüm. Xarici aləmin ancaq dərdi-kədəri mənim daxili aləmimə nüfuz edirdi. Anamın xəstəlikləri, atamın mənimlə getdikcə daha sərt rəftarı, bizim inqilabdan sonrakı yoxsul həyatımız...

Mən ikinci sinifdən çox yaxşı oxumağa başlamışdım. Rüstəm adlı cavan müəllimimiz, demək olar ki, hər gün məni tərifləyirdi, hətta atama da demişdi ki, oğlunuz çox istedadlı uşaqdı. Mən öz istedadımın nədən ibarət olduğunu bilməsəm də, onun məni lap «heç nə» hesab eləyən atama tərifləməsi və atamın gəlib bunu evdə anama danışması məni çox mütəəssir etmişdi. Mən həyətimizdəki böyük tut ağacının altına qaçaraq xəlvətcə, nə üçünsə yana-yana ağladım. Rüstəm müəllimə qarşı ürəyimdə isti bir məhəbbət hiss eləyirdim. O, mənim xəyalımda getdikcə yüksəlirdi. Ancaq bir yaz günü qəribə bir hadisə oldu. Rüstəm müəllim dedi: «Sabah çölə gəzməyə gedəcəyik. Orada kükü bişirəcəyik». Ona görə də kükü bişirmək üçün hər uşağa bir şey tapşırdı. Mən yağ və çörək gətirməli idim. Mənim yoldaşım yumurta... və sairə. Bizim yerlərdəki baharın dünyada misli yoxdur. Gül-çiçəklə dolu ot dizə qədər qalxır. Ağaclar çiçəkləyir... Çaylar daşır...

Və bizdə ən gözəl bahar xörəyi– təzə göyərib qalxmış yabanı şomudan, quzuqulağından, gicitkəndən bişirilmiş kükü sayılırdı.

Lakin səhəri gün hava pis olduğu üçün biz gəzməyə gedəsi olmadıq. Məktəbdən çıxıb evlərimizə gedəndə, yolda Rüstəm müəllim bir daşın üstündə oturub mənə dedi:

– Gətir sənin yağından bir yaxmac götürüm.

Və o mənim heybəmi açıb oradakı təndir çörəyindən, yağdan özü üçün yaxmac düzəldəndə yuxarı sinif şagirdləri yanımızdan gəlib keçirdilər. Anamın türk zabitinə qoşulub Türkiyəyə gedən rəfiqəsi Məhbub xanımın kiçik qardaşı Bəşir də onların arasında idi.

Birdən Bəşir qışqırdı:

– Müəllimə baxın, şagirddən rüşvət alır. Müəllimə baxın.

Yoldaşları qəhqəhə ilə gülüşdülər. Rüstəm müəllim də Bəşirə dedi:

– Ay sənin boyunu yerə soxum!

Özü də, pərt olmayaraq, yaxmacını iştaha ilə yeməyə başladı. Doğrusu, heç mənim ağlıma gəlməzdi ki, «müəllim də ac olarmış... Müəllimin də evində yeməyə şey olmazmış». Bizim şəhərdə camaatın hələ aclıq çəkdiyini bilirdim. Ancaq müəllimin da ac olması...

Mən Məhbub xanımın qardaşı Bəşirin hərəkətini anama danışanda gözləyirdim ki, o, Bəşiri məzəmmət eləyəcək. Ancaq belə olmadı, anam Rüstəm müəllimi məzəmmət elədi:

– Dabbax Abdullanın oğlundan nə olacaq,– dedi.

MƏN VƏ KİTABLAR

Mən anamın oxuduğu qalın cildli kitablara dərin bir maraqla baxırdım, anamın o kitablardan oxuyub bizə nağıl elədiyi Rüstəm Zal ilə oğlu Söhrabın əhvalatı, «Hind racisi», «Armanusiya» macəraları xəyalımda təəccüblü bir aydınlıqla canlanırdı. Mən Rüstəm Zal pəhləvanın əvvəl tanımadığı oğlu cavan Söhrabla vuruşaraq, ölümcül yaralayandan sonra qolundakı bazubənddən onun öz oğlu olduğunu bilib necə sarsıldığını unuda bilmirdim. Elə bil ki, o faciə mənim gözümün qabağındaca olmuşdu. Cavan Söhrabın onu məğlub eləyib ölümcül yaralayan bu qüdrətli pəhləvanın öz atası olduğunu biləndən sonra keçirdiyi hissləri mən öz hisslərim kimi duyurdum və mənə elə gəlirdi ki, diyarbadiyar gəzib öz atasını axtaran Söhrab onu bağışlayır, ona olan məhəbbətilə ölür və bu, cahan pəhləvanı Rüstəm Zal üçün sağalmaz bir dərd olur. Mən onların hər ikisində yüksək bir alicənablıq hiss edirdim, əgər Söhrabın yerinə mən olsaydım, mən də atamı bağışlayardım. Onların hər ikisində olan mərdlik və qəhrəmanlıq məni izah eləyə bilmədiyim fövqəladə hisslərlə qanadlandırırdı. Mən bütün qəhrəmanları zahirən də yaraşıqlı, gözəl təsəvvür edirdim. Cıdırlarda ad çıxaran Qarabağ atları da, qüdrətli uca çinar da, bizim sıldırımlı dağlardakı qartallar da mənə gözəl və alicənab görünürdü. Mən Şuşa qalasının

qorxunc uçurumlu Xəzinə qayasına baxanda da eyni hissləri keçirirdim. Bu əzəmətli qayanın sükutu mənə əsrarəngiz görünürdü, elə bil ki, o öz sükutu ilə nəyi isə gözləyir.

Anamın oxuduğu kitablara baxdıqca mənə elə gəlirdi ki, onlarda məhz mənim sezib duyduğum, məhz mənə qarşı bir məhəbbət sükut edir. Bu məhəbbətin nədən ibarət olduğunu bilmirdim, ancaq o kitablara qarşı fövqəladə bir doğmalıq hiss edirdim. Hələ məktəbdən əvvəl anam mənə oxuyub-yazmağı öyrətməyə başlayanda görürdüm ki, sözlər hərflərdən düzəlir və mən dərhal bu hərfləri öyrənib sözləri oxuyanda sanki yeni bir aləmə daxil olurdum. Bu aləm də insanlardan, onların taleyindən, işlərindən ibarət olsa da, tamam başqa idi. Sanki burada hər şey, hər hiss təzə idi və bu hisslər mənə çoxdan məlum idi. Elə bil ki, mən özüm hansı zamanda isə o hisslə yaşamışam. Mən birinci dəfə kiçik bir hekayə oxudum. Orada təsvir olunurdu ki, balaca Murad qonşuluqlarındakı bağın yanından keçəndə qoca bağban Qədir baba ona yetişmiş sulu bir armud bağışladı. Murad armudu yemək istəyəndə birdən yadına düşdü ki, balaca bacısı evdə xəstə yatır, ona görə də Murad armudu yeməyərək aparıb bacısına verdi. Mənə elə gəldi ki, bu Murad mən elə özüm olmuşam. Ancaq xəstə bacım deyil, anam olmuşdur. Və mən ürək sərinlədən sulu armudu yeməyib, qızdırma içində ürəyi yanan anama gətirməyimdən təsəlli alırdım.

Sonra mən «Bir şahının qurbanı» adlı balaca bir hekayə oxudum. Bu hekayədə kasıb bir kişi on dörd-on beş yaşlı oğlunu bir tacirə satıcı verir. Oğlan vəzifəsini çox ləyaqətlə yerinə yetirir, ancaq bir gün görür ki, yekəpər bir kişi çiynində bir məcməyi paxlava gəzdirib qışqırır:

«Paxlava badamdı,
Yeyənə candı...»

Zəfəranlı paxlavanın ətri satıcı oğlana o qədər xoş gəlir ki, özünü saxlaya bilməyərək daxıldan bir şahı götürüb, bir paxlava alıb yeyir. Fikirləşir ki, bir şahı götürməklə tacirə ziyan olmaz. Paxlava ona çox ləzzətli görünür. Gələn dəfə həmin yekəpər kişi paxlava ilə bərabər peşmək də satır. Oğlan bu dəfə tacirin daxılından iki şahı götürüb həm paxlava alır, həm də peşmək... Beləliklə, oğlan dadanır daxıldan gizli pul götürməyə... Bir gün də yoldaşları görür ki, bir polis nəfəri oğlanı qabağına qatıb aparır həbsxanaya. Oğlanın görmədiyim, tanımadığım ata-anasının halı gəlib durdu gözümün qabağında. Mən oğullarının oğurluq üstündə tutulmasını eşidəndə onların nə vəziyyətə düşdüyünü aydınca görüb, hiss edirdim və oğlanın xudpəsəndliyi məndə təəccüb doğururdu. Və mən birinci dəfə qəlbimdə yaranan fədakarlıq duyğularının gözəlliyini hiss edirdim.

əlbəttə, fədakarlığın nə demək olduğunu soruşsaydılar, mən cavab verə bilməzdim. Ancaq mən heç vaxt armudu yeməzdim, anamgildən ayrı paxlava da yeməzdim və bu halı özümdə hiss etmək məni fərəhləndirirdi.

Mən kitabları oxuduqca, elə bil ki, hər gün içində olduğum həyatdan, gördüyüm insanlardan uzaqlaşırdım. Mən daha qapalı, daha sosur olurdum.

Mən dərslərimi öyrənməyə çox az vaxt sərf edirdim, özüm də müəllimlərimin dediyinə görə hamıdan yaxşı oxuyurdum. Qalan vaxt əlimə keçən kitabları acgözlüklə oxuyurdum. Hər yeni kitab mənə yeni bir aləm kimi görünürdü və mən o aləmə daha tez daxil olmağa can atırdım.

Robinzon Kruzonun macərası isə mənim üçün tamam fövqəladə bir aləm oldu. Mən Robinzonun keçirdiyi yalqızlığı qəribə bir aydınlıqla hiss edirdim. Və mən daima özümü onun yerinə qoyub o həyatla həm kədərlənir, həm də ondan zövq alırdım. Axırda Robinzonun öz adasını və o həyatı tərk etməsi məndə anlaşılmaz bir inkisarı xəyalı doğurdu. Nə üçün? Yoxsa mən istəyirdim ki, Robinzonun o yalqız həyatı əbədi olsun?

DÜNYANIN KƏDƏRİ

Bayram babam qəza milis rəisi olandan sonra Qızılbaşoğlu Alı kimi, Hacı kimi, Əhmədalı kimi atıb-vurmağı, yaxşı at minməyi bacaran igid oğlanlardan başına toplayıb dağlarda, meşələrdə yurd salan oğru-əyri qaçaqlarla mübarizəyə başlamışdı. İnqilabdan əvvəl bizdə iki cür qaçaq olurdu. O adamlar ki, hökumətin, yerli bəylərin, ağaların zülmündən qaçıb qaçaq olurdu, onların kasıb-kusubla, camaatla işi olmurdu. Əksinə, Nəbi kimi, Süleyman kimi qaçaqların, yeri gələndə, kasıblara köməkləri də dəyirdi. Amma elələri də olurdu ki, oğurluq üstündə, başqalarına haqsız ziyan vurmaq üstündə qorxub qaçaq olurdular. Belələrinə hamı nifrətlə baxırdı. Birinci növ qaçaqları babam sülhlə üzə çıxarmağa çalışırdı. İkinciləri isə dağda-dərədə hərləyib, nəhayət, tuturdular. Bir dəfə Bayram babam pul üstündə bir seyidi öldürdükləri üçün iki nəfəri tutub gətirmişdi. Sonra dedilər ki, onları camaatın qabağında güllələyəcəklər. Həmin gün Fatma nənəmlə birlikdə mən də getmişdim tamaşaya. Şəhərin ortasındakı meydana çoxlu adam yığılmışdı. Yeddi-səkkiz nəfər əlitüfəngli hazır dayanmışdı. Fatma nənəm arvadların içində, yerdə oturmuş qoca bir qarını göstərib dedi:

– Həmin öldürülən seyidin anasıdı bu arvad.

Bir azdan gördük gözləri bağlı iki dustağı milis nəfərləri gətirirlər. Onların ayaqları yalın idi. Meydanda çoxlu sarı tikan vardı. Birinci fikrimdən keçən o oldu ki, «bunlar bu tikanlı yerdə ayaqya-

lın necə yeriyəcəklər?» Onlar izdihama çatıb dayandı. Biri ortayaşlı, o biri cavan idi, həmin cavan:

– Ay camaat,– dedi,– razı olmayın ki, bizim nahaq qanımızı töksünlər.

Əlbəttə ki, camaatdan səs çıxmadı. Sonra milislərin başçısı komanda verdi. Milislər silahı üzə götürəndə bir nəfər sarıbəniz, qaraköynəkli adam irəli yeriyib həmin milislərdən birinin tüfəngini alaraq onu geri itələyib özü tüfəngi üzünə götürdü. Bu da mənə çox təsir elədi. Mən sonralar da hey fikirləşirdim ki, «görəsən, nə üçün o adam, dustaqları məhz özü vurmaq istədi?»

Qərəz, dustaqları güllələdilər, mən də nə onlara baxa bildim, nə də arvadların içində oturan qoca qarıya. Mən cavan dustağın dediyi axırıncı sözləri xatırlayaraq hey fikirləşirdim ki, «görəsən, doğrudanmı, onların günahı yox idi? Kim bilir, bəlkə də, günahları yoxmuş...»

Mən uzun zaman o dəhşətli əhvalatın təsirindən xilas ola bilmirdim. Birinci dəfə olaraq mənə elə gəlirdi ki, adamlar üçün bir-birini öldürmək də bir heyvanı öldürmək kimi asandır. O dustaqlar seyidi öldürmüşdülər. Bu adamlar da onları öldürdülər. Demək, əvəz-əvəz oldu. Necə ki, bizim kənddə bu onu öldürürdü, onun da qohumu gəlib bunu öldürürdü. Mən alınan intiqamın təsəllisini heç vəchlə təsəvvür eləyə bilmirdim. Bu da məndə insanlara qarşı şübhəli, soyuq bir hissin yaranmasına səbəb olurdu. Adamlar mənə yad və anlaşılmaz görünürdü. Hətta mənə elə gəlirdi ki, Bayram babam da mənə xeyli yad olmuşdur.

Bizim evimizdə getdikcə tutqun bir ab-hava yaranırdı. Görürdüm ki, atam da, anam da bütün günü qaşqabaqlı olurlar, bir-birlərilə nə barədəsə hey danışırlar. Tezliklə o biri otaqdan xəlvətcə qulaq asıb bildim ki, söhbət «necə dolanmaq» barədə gedir. Atam deyirdi ki, yeni hökumət sərhədləri bağlayıb, daha İrandan qaçaq mal gətirmək mümkün deyil. Anam da əsəbi halda deyirdi ki, əgər var-yoxumuzun başına qardaşın Qubad daş salmasaydı, niyə bu günə qalırdıq ki? Atam da dalbadal papiros çəkərək deyirdi ki, Allah Qubada lənət eləsin.

Atamla qardaşı arasındakı bu münasibət yenə də mənə Məlikməmmədlə qardaşları arasındakı əhvalatı xatırlatdı. Mən heç vəchlə başa düşə bilmirdim ki, necə olur ki, bir anadan doğulan qardaşlar bir-birlərinə düşmən olurlar?

Bayram babam qəza milis rəisi olduğunun ikinci ili bərk xəstələnərək vəfat etdi. O zaman anam da xəstə yatırdı. Tutqun bir qış günü idi. Atam gəlib anama ürək-dirək verərək dedi:

– Özünü toxtaq tut. Bütün yaranan gedəcək.

Anam heç bir söz demədi. Amma gözlərindən sakit yaş axırdı. Sonra o, mənə dedi:

– Get, babanı gör.

Mən də elə bil ki, tamam qeyri-şüuri bir hərəkətlə babamgilə gedib gördüm ki, Fatma nənəmlə Gülbəs arvad yerdə, yorğan-döşəyin içində, səssiz, xəfifcə bir yuxuya getmiş kimi görünən babamın yanında oturublar. Babamın gözəl üzü çox arıqlayıb göyərmişdi. Çal saçları əvvəlki təki yana daranmış kimi idi. Mən ayaq üstündə durub ona baxırdım. Gülbəs arvad mənə dedi:

– Gəl, babanı öp.

Lakin mən, nə üçünsə, yerimdən tərpənmədim. Mən ağlamırdım da, tamam şüursuz olaraq babama tamaşa edirdim. Sonra çevrilib, səssiscə gəldiyim kimi, səssizcə də çıxıb getdim. Mən bağın içi ilə dizə qədər qalxmış qarı ayaqlaya-ayaqlaya evimizə tərəf gedərkən birdən üç il bundan qabaq belə bir qarlı qış günündə babamın ayaqlarında uzunboğaz çəkmə, əynində xəz kürk, belində onatılan tapança, məşhur kəhər atının üstündə Qızılbaşoğlu Alının müşayiətilə Ağdama getdiyi yadıma düşdü. Gözümün yaşı sel kimi axmağa başladı. Mən bağın səssizliyi içində budaqlarını qar əyən ağaca söykənib yana-yana ağlayırdım. Babam dünyada məni əzizləyən yeganə adam idi. Lakin mən bu barədə düşünmürdüm. Mən adamların soyuq, yabançı münasibətinə alışmışdım.

Məni ağladan o idi ki, bir də heç zaman babam kəhər atı minməyəcək. Bir də heç zaman qırmızı ağac qoburlu onatılanı belinə bağlamayacaq, bir də heç zaman bu dünyanı görməyəcək. Demək, bu dünyanın kədəri əbədidir!

Birdən ağacın budağına bir sərçə gəlib qondu və budağın qarı silkələnib üzümə tökülərək məni dikindirdi, elə bil ki, mən ağır, çox ağır bir yuxudan ayılıb, məyus halda ona baxırdım. Sərçə də tələşlə ora-bura və mənə baxaraq həyəcanla səslənirdi. «Yəqin acdır, yem axtarır» deyə mən düşündüm. Neçə gün idi qalın qar hər yeri örtmüşdü. Demək, bu dünyanın dərdi əbədidir!

Mən bəlkə çörək qırıntısından-zaddan bir şey tapdım deyə ciblərimi axtardım, amma heç nə tapmadım. Sərçə uçub getdi və mən onun ardınca baxaraq nə üçünsə Qaracanı xatırladım. «Görəsən, bu soyuq qış günündə o, atasız-anasız neyləyir? Görəsən, acdı?» Sonra mən o zaman yaylaqda Bayram babamın Qaracaya pul verdiyini xatırladım. «Görəsən, Bayram babamın vəfatını biləndə Qaraca ağlayacaq?» Amma anası onları qoyub qaçanda, heç ağlamadı. Qonşumuz, mənim yaşıdım Abbas bəy də anasının vəfatından danışanda heç ağlamırdı. Heç bikef də olmurdu. Demək, bu dünyanın dərdi əbədidir!..

Mən gözümün yaşını qolumla silərək ağacdan aralanıb evimizə getdim.

Səhəri gün atam bir araba tutaraq, babamı öz atasının, əcdadının yanında dəfn etmək üçün Fatma nənəmlə və bir molla ilə Kürdobaya apardı.

... İndi anamın bu tutqun qış günündə xəstə yatmağı məni əvvəlkindən də çox qorxudurdu. Mən məktəbdə daim qaşqabaqlı olurdum. Mən tənəffüslərdə uşaqlardan ayrılıb bir yerə çəkilərək eyzən anama dua edirdim. Bununla belə, mən öz sinfimizdə ən yaxşı oxuyan şagird idim. Evimizdə, xüsusilə anam xəstə olduğu zaman çox tutqun, kədərli bir vəziyyət yaranırdı. Demək olar ki, heç kəs heç kəslə danışmırdı. Həyatımız da xeyli yoxsul keçirdi. Səhər qara çovdar unundan bişirilmiş yavan çörəklə əvəlik dadı verən çay, günortalar da çox kasıb bir nahar. Lakin, əgər anam tez-tez azarlamasaydı, bunların heç biri mənim gözümə görünməzdi.

... Bayram babamın təziyəsi sovuşandan sonra Fatma nənəm qayıdıb gəldi öz evlərinə. O zaman Bayram babamgil yaylaqda olanda Nuru dayımın arana gəlib, pula gedən nə vardısa, hamısını satıb-sovduğundan, inqilab zamanı biz qaçandan sonra yerdə qalan şeyləri də o-bu apardığından Fatma nənəmin dolanacağı üçün daha bir şey qalmamışdı. Anam bişmişdən-zaddan hərdən mənə verirdi ki, apar nənənə. Ancaq mən babamdan sonra daha Fatma nənəmgildə qala bilmirdim. Fatma nənəm tək-tənha qalmışdı. Atamla arası olmadığı üçün bizə də gəlmirdi. Nuru dayım da yenə yoxa çıxmışdı. Harda olduğu məlum deyildi. Ancaq babamın vəfatından üç-dörd gün sonra atam şəhərdən xəbər gətirdi ki, deyirlər Nuru, Şuşada yaxşı qulluqdadı. Kefi də yaman kökdür. Mən qaça-qaça gedib bu xəbəri Fatma nənəmə dedim. Elə bil ki, arvadın gözünə işıq gəldi. Doğrusu, bu xəbər mənim özümü də sevindirirdi. Dayımın yeni hökumətdə «yaxşı qulluqda olması» məni fərəhləndirirdi.

YENƏ DƏ NURU DAYIM

Bir yaz günü bir də gördük Nuru dayım üç tüfəngli milislə, atlı gəldilər bizə. Atam bazardaydı. Anam dayımı görəndə, yəqin ki, Bayram babama görə gözləri yaşardı. Nuru dayımın gözlərindən bir-iki damcı sakit halda üzüaşağı yuvarlanırdı. Mən yüyürüb dayımın gəldiyini Fatma nənəmə xəbər verdim. Arvad qılçaları bir-birinə dolaşa-dolaşa mənimlə gəldi bizə, Nuru dayımın bir neçə saniyə arvadın üstündə dayanan baxışlarında buz kimi soyuq bir şey hiss elədim. Yəqin buna görədir ki, arvad özünü itirib bir söz demədi. Oğlu da bir söz demədi. Mən pərt oldum. Fatma nənəmə yazığım gəldi. Dayımın «yaxşı qulluqda» olmağı da, üç atlı milislə, tüfəngli gəlməyi də gözümdən düşdü. Dayım mənə yad və qəddar göründü.

Hamısından betəri də bu oldu ki, səhəri gün Fatma nənəmgilə gedəndə içəridə dayımın qəzəbli səsini eşidərək ayaq saxladım. O, nənəmə deyirdi:

– Dur, hər nə var gətir!

Fatma nənəm də and içib deyirdi ki:

– Bunlardan savayı heç nə qalmayıb!

Açar yerindən baxıb gördüm ki, babamın iri qızıl saatı, üç-dörd üzük, üç-dörd qızıl pul stolun üstündə dayımın qabağındadır. O, vahimə içində dayanıb and içən nənəmi ağır sözlərlə danladıqda mən orada dayana bilməyib qayıdıb qaçdım. Fatma nənəmin köməksizliyi, dayımın hərəkəti məni dəhşətə salmışdı.

Səhəri gün dayım çıxıb getdi.

Bu əhvalatdan bir neçə ay sonra bir də gördük dayım, təxminən, on yeddi yaşında, Anahid adlı bir erməni qızıyla gəldi. Məlum oldu ki, evlənib.

Atam, yəqin ki, borc pulla gəlinə paltarlıq parçalar aldı, anama da tapşırdı ki, hər gün yaxşı xörəklər bişirsin.

Ancaq dayımgil gəldiklərinin üçüncü-dördüncü günü bizi də, bütün qonşuları da təəccübə salan qəribə bir əhvalat məlum oldu. Quruçaya oynamağa, çimməyə gedən uşaqlar mənə xəbər gətirdilər ki, dayın hər gün arvadını aparıb Quruçayın qırağında döyür. Mən inanmadığım üçün bu barədə anama heç nə demədim. Səhər yenə də dayım arvadı ilə gəzməyə getdi. Mən hiss elədim ki, dayım gəzmək adı tutanda qızın gözlərinə bir vahimə çökdü. Onlar gedəndən sonra mən də Əyyub adlı yaşıdımı dilə tutub onunla Quruçaya getdim. Bir xeyli aralıdan gördük ki, dayımla arvadı çayın dikdirində yanaşı dayanıb söhbət edirlər. Mənim nə üçün gəldiyimdən Əyyubun xəbəri yox idi. Rezin sapanda daş qoyub quşlara atırdı. Mənim gözüm isə dayımgildə idi. Dayım əlini ölçə-ölçə qəzəblə nə isə dedi, sonra qıza dalbadal iki sillə vurdu. Qız çevrilib qaçdı. Dayım yetirib qızın saçlarından yapışaraq çaya tərəf sürüdü, qız ətürpədən qışqırıq qopardı. Əyyub çevrilib baxaraq həyəcanla mənə dedi:

– Ora bax! Ora bax! Dayın arvadını gör neynəyir!

Mən yerimdə donub qalaraq Əyyuba cavab vermədim. Dayım qızı çaya tərəf sürüyür, qız da bağırırdı. Bu zaman o biri sahildəki dikdirdən çaya bir atlı endi. Dayım qızı buraxdı, mən dönüb şəhər tərəfə qaçdım, Əyyub da mənim ardımca.

Anam maşında tikiş tikirdi. Mən əhvalatı danışdıqda anam təəccüb etmədi və gözünü maşının tikişindən çəkməyərək dedi:

– Xalqın qızını döyə-döyə dəli eləyəcək.

Hiss elədim ki, anam əhvalatı bilirmiş. Mən ondan soruşdum:

– Axı niyə döyür onu?

– Nə bilim niyə döyür?– deyə anam yenə də gözünü tikişindən çəkməyərək cavab verdi.

Orası da mənə çox qəribə gəlirdi ki, onlar Quruçaydan qayıdıb gələndə elə şirin danışıb-gülürdülər ki, elə bil heç nə olmamışdı.

... Mən böyüdükcə daima kədərli, qaşqabaqlı olmağımın səbəbini hiss etməyə başlayırdım. Hiss edirdim ki, mən bu dünyada həmişə

fərəhli hadisələr, əhvalatlar görmək istəyərdim. İnsanları həmişə şad, alicənab görmək istəyərdim. Lakin mən daim bunun əksinə rast gəlirdim. Ona görə də, özümü xoşbəxt hiss eləyə bilmirdim. Mənim əhvali-ruhiyyəm termometrdəki civəyə bənzəyirdi; civə isti-soyuqdan qalxıb endiyi kimi, mənim əhvali-ruhiyyəm də ətrafımdakı insanların ləyaqət və sevincindən asılı idi. Məsələn, mən istəyirdim ki, anam həmişə sağlam, sevincli olsun, amma o, tez-tez azarlayırdı. İstəyirdim ki, atam başqa atalar kimi məni çox istəsin, mənimlə xoş rəftar eləsin, məni danlamasın, anamla da həmişə yaxşı dolansın. Amma atam həmişə mənimlə sərt rəftar eləyirdi, məndə heç bir fərəhli cəhət görmürdü. (Bəlkə də, görürdü, bəlkə də, məni istəyirdi, yəqin ki, istəyirdi, amma mən bunu hiss etmirdim). Anamla sözləri düz gəlmirdi, tez-tez dalaşırdılar.

Mən Nuru dayımın yaxşı at minməyinə, çox sərrast güllə atmağına, gözəlliyinə valeh olurdum. Amma onun Fatma nənəmlə rəftarı, İmaşla olan əhvalatı, təzə evləndiyi cavan arvadını hər gün aparıb Quruçayda döyməsi onun haqqındakı yaxşı hisslərin hamısını yuyub aparırdı. İlk dəfə mən məktəbə böyük bir fərəhlə, fərəhli xəyallarla getmişdim. Amma lap birinci gün, birinci dərsdə Mirzə Camal müəllim mənim dərdimi bilməyə-bilməyə uşaqlarla birlikdə mahnı oxumadığım üçün məni kobud tərzdə itələyib bayıra saldı. Uşaqların gözü qarşısında təhqir etdi. Evdə bu məsələni bilən atam, anam mənim nə üçün mahnı oxumamağımın səbəbini öyrənib dərdimə qalmaq əvəzinə, məni «maymaq», «filinti» deyə danlayırdılar və sairə... və sairə...

... O vaxt Bayram babam bərk xəstə olanda bir gün anam mənə dedi ki, «keç, o biri evdə babana dua elə. Deyirlər, Allah günahsız uşaqların duasını tez eşidir». Mən də o biri otağa keçərək Fatma nənəm kimi əllərimi göyə qaldırıb Allahdan iltimas elədim ki, babama şəfa versin.

Doğrudur, babam sağalmadı, lakin mən yenə də Allahdan əlimi üzmədim. O vaxtdan sonra mən, demək olar ki, hər gün Allahdan xahiş edirdim ki, anamı xəstələnməyə qoymasın. Sonra mən özümə həmdərd tapdığıma sevinərək, eyzən həyətimizdəki böyük tut ağacının altında təklənərək, gözlərimi göyə dikib incikliklərimi, kədərlərimi Allaha söyləməyə başladım. Və mənə elə gəlirdi ki, Allah məni dinləyir və nə vaxtsa iltimasıma əncam eləyəcək.

... Dayımgil gələndən on-on beş gün sonra Anahidin anası Zaro gəldi. Bu, ucaboylu, enlikürək, üzündə xal, təmkinli bir arvad idi. O, anamgilə dedi ki, «Nuru mənim qızımı dilə tutub götürüb qaçıb. Gəlmişəm qızımı qaytarıb aparım».

Anam da cavab verdi ki:

– Qızın öz xoşu ilə gəlib. Aparmağa ixtiyarın yoxdur.

Lakin Zaro dediyindən dönmürdü. Qızını kənara çəkib erməni dilində hərarətlə nə isə deyirdi.

Sonra atam Zaronu başa salmağa çalışırdı ki, «daha işdir olub, bir-birlərini istəyirlər».

Mən birinci dəfə olaraq, atamı tamam başqa adam kimi görürdüm. Birinci dəfə olaraq, atamın ağıllı, təmkinli, hörmətkar, xoşsifət bir adam olduğunu görürdüm və nə üçün onun mənə qarşı da belə olmadığına yanırdım.

Dayım Zaroya nə qədər dil tökdüsə də olmadı. Axırda Zaro şikayət elədi. Qızı çağırıb danışdırdılar. Soruşdular ki, «qayıdıb ananla getmək istəyirsənmi?» Dedi: «İstəyirəm».

Zaro qızını götürüb getdi Şuşaya.

Bir neçə gündən sonra başqa bir hadisə oldu. Nuru dayımın qəza hökumətində mühüm vəzifədə olan bir dostu ona xəlvətcə deyir: «Əgər lap bu saat qaçmasan, səni keçmiş işlərinə görə tutacaqlar. Üçlüyün qərarı var».

Bir gün əvvəl Qızılbaşoğlu Alı da bizə gəlmişdi. Gündüz saat on bir-on iki olardı. Bir də gördük ki, dayım tələsik gəlib anamı qırağa çəkərək, həyəcanla nə isə dedi. Sonra Alını çağırıb ona nə isə dedi. Sonra balaca tapançasını cibinə qoyaraq, Alı ilə birlikdə evdən çıxıb bazara tərəf deyil, bizim evin üst tərəfindən yola tərəf getdilər. Özləri də elə yeriyirdilər ki, elə bil, gəzməyə gedirdilər. Onlar yavaş-yavaş gedib yalı aşdılar o biri tərəfə. Sonra haçandan-haçana Alı tək qayıdıb gəldi. Anama dedi ki, «Nurunu lap Qaraxanbəylinin altına qədər aparıb ötürdüm».

Və elə bu zaman bir nəfər hökumət adamı iki nəfər milislə gəldilər bizə, həmin adam anama dedi:

– Haradadı Nuru?!

Anam da cavab verdi:

– Bilmirəm. Səhərdən gedib şəhərə.

Gələnlər dayımın beşatılan tüfəngini və patronla dolu iki kəmərini götürüb getdilər.

... Fatma nənəm indi öz evlərində təkcə olurdu. Oğlunun qaçdığını eşidəndə arvadın dərdi yenə də birə-on artdı. Yenə də saatlarla oğluna dua eləyirdi. Babamdan sonra onların evləri mənə olduqca tutqun və kədərli görünürdü, mən bu binadakı otaqların necə darısqal olduğunu yalnız indi hiss edirdim. Mən Fatma nənəmin keçirdiyi iztirabları da indi daha dərindən duyurdum. Görürdüm ki, heç kəsin, o cümlədən ata-anamın da Fatma nənəmin nələr çəkdiyindən xəbərləri yoxdur. Görürdüm ki, hamı Fatma nənəmə biganədir. Və bu, mənim təbiətimdəki məyusluğu artırırdı. Mən adamların məndən də beləcə daxilən uzaq olduqlarını acı bir kədərlə düşünürdüm. Sonra mənim bu barədəki hisslərimin, düşüncələrimin miqyası getdikcə böyüyürdü. Qonşuluğumuzdakı qoca qarı nənələrə bedahat gəlinlə-

rin necə divan tutduqlarını və ərlərinin onlara qahmar çıxdıqlarını eşitdikcə bütün mühit mənə babamgilin evi kimi tutqun və kədərli görünürdü.

Birinci dəfə olaraq, yalnız özümün deyil, ümumiyyətlə, insanların həyatındakı dərdləri hiss edirdim. Qonşumuzda bir kişi üç uşağı ilə arvadını ataraq gedib dövlətli dul bir arvadla evlənib, onun evinə girmişdi. Mən bu əhvalatı eşidəndə Kürdobadakı Qaracanı və onun çobana qoşulub qaçan anasını xatırladım. Birinci dəfə olaraq insanların nəyi, hansı ləzzəti isə öz övladlarından çox istədiklərini dərk etməyə başladım, bu mənə son dərəcə qəddarlıq kimi göründü. Arvad-uşaqlarını atıb gedən kişiyə bəzən küçədə-zadda rast gəlirdim. Onun başqa kişilərlə zarafatlaşdığını, qəhqəhə ilə güldüyünü də görürdüm və onun bu şadlığı mənə iyrənc təsir bağışlayırdı. Mən heç vəchlə anlaya bilmirdim ki, uşaqlarını yiyəsiz atıb gedən, onların ac-susuzluğundan xəbəri olmayan adam başqa bir şeydən necə zövq ala bilər?! Bu cür adamlar da mənə Nuru dayım kimi anlaşılmaz, müəmmalı görünürdülər. Amma bütün bədəni, saçları, kirpikləri ağ olan Kəklik xalanın bizim alt evdə, torpaq döşəmənin üstündə oğlanları ilə əyləşib göy-soğanla şor-çörək yemələri və heç birinin də üzündə narazılıq, kədər-filan əlamətləri görünməməsi mənə olduqca xoş təsir bağışlayırdı. Kəklik xala kimi anaları olduğu üçün mən onun oğlanlarını xoşbəxt hesab eləyirdim. Onların lap körpə vaxtlarından atasız qaldıqları barədə isə düşünmürdüm.

... Nuru dayım Qarabulaqdan qaçandan bir neçə ay sonra bir gün atam günorta naharına gələndə, bir növ, istehza ilə dedi:

– Qardaşın Bakıdadı, evi də satıb Muxtar bəyə.

– Hansı evi?– deyə anam təəccüblə soruşdu.

Atam eyni ifadə ilə dedi:

– Neçə eviniz var?.. Buradakı ata evinizi.

Anam acıqlı-acıqlı dedi:

– Ev anamındı. Nurunun nə ixtiyarı var evi satsın?

Atam dedi:

– Onu qardaşından soruşmaq lazımdı. Ağlına nə gəlir eləyir. Tutaq ki, onun da pulunu üç-dörd aya xərcləyib qurtardı, sonra?!

Anam papiros yandıraraq daha bir söz demədi. Atam nahar eləyib gedəndən sonra anamla getdik Fatma nənəmgilə. Nənəm eyvandakı taxtın üstündə oturub müştükdə papiros çəkirdi. Anam dedi:

– Məşədi Qulunun oğlu Nurunu Bakıda görüb.

Arvadın indi tez-tez sulanan ala gözləri birdən-birə canlandı və o, həyəcanla soruşdu:

– Deyir, nə təhərdi, naxoş-zad döyül ki?

Anam acıqlı-acıqlı dedi:

– Naxoş niyə olur?.. Özü də evi satıb...

Nənəm də təəccüblə soruşdu:

– Hansı evi?

Anam yenə acıqlı-acıqlı dedi:

– Budey, bu içində olduğun evi.

Nənəm müştüyünü dərindən sümürüb düşkün səslə soruşdu:

– Kimə satıb?

– Qaradonlu Muxtar bəyə.

Fatma nənəm neçə ildən bəri onda birinci dəfə gördüyüm bir qızğınlıqla dedi:

– Bəyəm, Bayram Muxtardan əskik kişi idi ki, onun qoyub getdiyi evi Muxtara satıb, yurdunu kor qoyurdu?!

Anam dedi:

– Sən onu oğluna de!

Elə bil ki, anamın bu sözü nənəmin bütün cəsarətini əlindən alıb, onu yenə də əvvəlki halına qaytardı. Nənəm müştüyündən dərindən bir nəfəs alıb dinmədi. Anam dedi:

– Qanunla ev sənə düşür! Nurunun ixtiyarı yoxdu özbaşına onu satsın. Qoy sənin adından bir ərizə yazaq, verək, hökumət qaytarsın.

Mən həyəcanla nənəmə baxdım. Bayram babamdan qalan evi başqa adama satdığı üçün mən də dayımın qarasına əsəbiləşirdim. Vaxtilə babamın məni istədiyi, mənə xoş sözlər dediyi bu evdə indi kimlərinsə gəlib olacaqları məndə acı bir ruh düşkünlüyü yaradırdı, məni təhqir edirdi. Ancaq nənəm dinmirdi.

Anam soruşdu:

– Nə deyirsən, ərizə yazaq?

Nənəm qorxa-qorxa, yavaş səslə dedi:

– Tay satandan sonra nə ərizə?..

Anam acıqlı-acıqlı dedi:

– Səni başa saldım ki, ev sənə çatır. Oğlunun ixtiyarı yoxdu satsın!

Nənəm müştüyünü sümürə-sümürə qarşısında bir nöqtəyə baxıb dinmədi.

Anam:

– Sənin kimi arvada bu da azdı!– deyib qalxdı.– Onu əvvəldən o cür eləyən sən olmusan.

Mən heç cürə təsəvvür eləyə bilmirdim ki, nənəmi gəlib bu evdən çıxara bilərlər. Ancaq bir aydan sonra Muxtar bəyin adamları gəlib nənəmi xəbərdar elədilər ki, on beş günəcən evi boşaltsın.

Nənəmin getməyə başqa yeri olmadığı üçün köçüb gəldi bizə.

Sonra mən təkcə gəlib babamgilin boş qalmış evinə, yiyəsiz qalmış bağına baxdım; hər şeydə– kirəmit taxtapuşlu evin sükutunda da, ağacların duruşunda da, Bayram babamın təzə ev tikdirmək üçün vaxtilə həyətə tökdürdüyü daşların görünüşündə də dərin bir pərişanlıq görüb kövrəldim. Mən kürdobalıların Dəliçay yaylağını xatırladım. Elə bil ki, el köçüb, yurdu qalmışdı. O vaxt biz kürdoba-

lılarla o yaylaqdan köçüb arana tərəf yol alanda Mustafaoğlu qanrılıb boş qalmış yurda baxıb, dağlarda əks olunan səslə bayatı çağırmışdı:

Dağlar marala qaldı,
Otu sarala qaldı.
Soyuq bulaq, göy çəmən,
O da marala qaldı.

Amma mən bilirdim ki, gələn yay Mustafaoğlu da, o el-oba da yenə gedəcək yaylağa. Amma nə Fatma nənəm, nə Bayram babam bir də bu evə, bu bağa qayıtmayacaq. Elə buradaca mənim yadıma İmaş düşdü. İmaş da bir daha bura qayıtmayacaq... İmaşı da buradan qaçırdan dayım oldu. İmaş o yandan şah ərbabının zülmündən qaçdı, buradan da Nuru dayımın... Nə üçün bu dünya belə qurulub?

MƏNİM CƏNNƏTİM

Mən bu azca ömrümdə birinci dəfə olaraq insanların rəftarında, bu dünyaya gəlmələrində anlaşılmaz bir uyğunsuzluq və bu uyğunsuzluğu daim müşayiət eləyən acı, biganə bir kədər hiss edirdim. Və başa düşmürdüm ki, nə üçün adamların gülüşü, sevinci mənə süni görünür? Mənə sirayət eləmir?

Mən bu aləmə qaynayıb-qarışa bilmirdim. İman kişi gündüz qonşulara kəhrizdən su daşıyıb, gecələr öz aləmi ilə məşğul olduğu kimi, mən də gündüz məktəbə gedir, dərslərimi öyrənir, anamla atamın söhbətlərinə qulaq asıb, gecələr öz otağımda tək qaldıqda öz aləmimlə məşğul olurdum. Bu aləm isə qəribə idi. Fatma nənəm mənə nağıl eləmişdi ki, Firon qərara gəlib ki, gərək yer üzündə də Allahın behişti kimi bir behişt düzəltsin. Firon həmin behiştin torpağını mirvari, ləl-cəvahirat elətdirir, meyvə ağaclarının yarpaqlarını qızıl elətdirir, ab-kövsər kimi şirin bulaq düzəltdirir. Bir sözlə, əsil cənnət yaradıb, dünyanın gözəl qızlarından da gətirdib, huri elətdirir. Və bu cənnət Allahın o qədər xoşuna gəlir ki, əmr edib onu göyə çəkdirir.

Mən də nənəmə sual verirdim:

– Nə üçün Allah qoymurdu o cənnət də bu dünyadakı insanların olsun?

Nənəm dedi:

– Allah-taala bilirdi ki, o cənnət yerdə qalsa, ora getməkdən ötrü adamlar dava salıb bir-birini qıracaq.

– Nə üçün Allah qoyur adamlar bir-birini qırsın?

Burada nənəm hirslənib deyirdi:

– Qələtini elə, Allahın işinə əl aparma!

Mən də nənəmə dedim:

– Sən həmişə söz tapmayanda deyirsən «Allahın işinə əl aparmaq olmaz»... Niyə olmur?

Nənəm özündən çıxıb dedi:

– Ay irtməkli sünnünün oğlu, olmaz! Günahdı!

Amma mən Fironun cənnətini xəyalımda yerə endirib, özüm də ora daxil olurdum və orda mənim üçün əfsanəli bir həyat başlayırdı. Orada daim yaz idi. Nə qış olurdu, nə sis-duman, eyzən günəşli idi. (Mən qışı, sis-dumanlı payız günlərini sevmirdim. Elə bil ki, mənim, səbəbini heç özüm də aydın dərk eləyə bilmədiyim, dərdimi-kədərimi soyuq, sisli-dumanlı günlər daha da artırırdı). Mənim cənnətimdə isə həmişə tabaq boyda ağ, qırmızı çəhrayı qızılgüllər, ağ, qırmızı qərənfillər günəşin sevincli parlaq ziyası içində parıldayırdı. Ancaq mənim cənnətimdə sarı gül, sarı çiçək olmurdu, çünki mən sarı rəngi sevmirdim. Sarı rəng daim mənə anamın xəstəliyini, atamın danlaqlarını xatırladırdı. Gözəl nərgizgülü, bənövşə mənə kədərli təsir bağışlayırdı. Çünki onlar hələ qış tamam qurtarmamış qarın içindən baş qaldırırdılar və mənə elə gəlirdi ki, onlar da mənim kimi üşüyürlər. (Mən çox üşüyən olduğum üçün soyuğu, qarı, buzu sevmirdim).

Mənim cənnətimdə gözəl, şən oğlanlar olurdular. Mənim cənnətimdə hər şey gözəl idi.

Mən o cənnətdən çıxıb, evimizdəki adi həyata qayıdıb atamı qaşqabaqlı və yenə nə üstündəsə anamla küsülü görəndə, sonra bazardan alınmış, çovdarqarışıq, pis bişmiş çörəklə əvəlik dadı verən dişləmə çay içəndə özümü son dərəcə məyus hiss edirdim. Bununla belə, mən həyatımızın indi xeyli yoxsul keçməsinə anamdan, atamdan tez alışmışdım. Yemək-içməyimizin, paltarlarımızın indi xeyli yoxsul olması, mənim köhnə paltoda, yamaqlı ayaqqabıda məktəbə getməyim gözümə görünmürdü. Anam həmişə mənim haqqımda deyərdi:

– Murad gözütox uşaqdı.

Məktəbə gedəndə atamgil mənə iyirmi qəpik verə bilmirdilər ki, mən də yoldaşlarım kimi, tənəffüslərdə həmşəri Əlinin məktəbimizin yanındakı dükanından meyvədən-zaddan alım. Bu da mənə pis təsir eləmirdi. Məni həmişə içində dolaşdığım mühit, adamların bir-birilə və mənimlə rəftarı sıxırdı. Hiss edirdim ki, atam Fatma nənəmin bizə köçməsindən razı qalmayıb. Hər dəfə atamı görəndə, Fatma nənəmin üzündə yaranan çəkingən, bir növ, günahkar ifadə, atamın nənəmlə kəlmə kəsib danışmamağı, soyuq rəftarı ağır bir qüssə kimi ürəyimə çökürdü. Hiss edirdim ki, nənəm bizdə çox sıxıntı çəkir və bununla belə, yenə də hər gecə oğlu Nuruya dua edirdi.

Mən gecələr yatağıma girəndə gözümü pəncərədən bayırdakı qaranlığa zilləyərək Fatma nənəmi öz cənnətimdə, qızıl taxt-rəvan

üstündə əyləşdirib, qabağına qızılgül ətri verən çay və qızıl qutuda, Bayram babamın vaxtilə çəkdiyi zəfəran kimi sapsarı, ipək kimi saçaqlı tütün qoyurdum, nənəm də indiki kimi qarğı müştükdə deyil, qızıl müştükdə bu tütündən çəkib nəşə ilə güllərə, çiçəklərə tamaşa edirdi. Mənim cənnətimdə bütün hurilər, mələklər, adamlar və mən özüm həmişə bir sevinc içindəydik. Xoşbəxt idik...

SƏRİYYƏ VƏ DÜNYANIN ƏN GÖZƏL DUYĞULARI

Vəziyyətimiz çətin keçirdi. Ancaq xüsusi ticarətə hökumət icazə verdikdə atam anamın üstündəki qızıl şeylərdən satıb əlində maya eləyərək yenə də xırda dəmir-dümür alverinə başladı. (Mən sonradan bildim ki, bu ticarətə-filana da icazə verilməsi yeni iqtisadi siyasətin nəticəsində imiş...)

Vəziyyətimiz bir ara babatlaşdı. Mən dördüncü sinfə keçdiyim ilin yayı bərk isti olduğundan atam bizi Şuşa qalasına apardı. Fatma nənəm isə evimizdə qaldı. Biz anamın xalası Bəyaz xanımgilə düşdük.

Bəyaz xanımgilin evi, əvvəl təsvir elədiyim kimi, Şuşanın «Cıdır düzü» adlanan ən hündür və səfalı yerindəydi. Evin qabağında böyük bağ var idi. Bu bağı Bəyaz xalanın xalq arasında «Hacı Axund» adı ilə məşhur olan mərhum əri öz əlilə salmışdı. Axund rəhmətə gedəndə yaşı yüzə yaxın olub. Onun özünün də, qızının da, Əhmədin öldürdüyü arvadı Yasəmənin də məzarı bağın içində idi. Ətrafında cürbəcür güllər, çiçəklər əkilmişdi. Deyirdilər, Axund hələ sağlam, qıvraq olduğu zaman bağın içində öz məzarını özü hazırlayıbmış... Bağın Cıdır düzünə açılan darvazasının yanında böyük bir qoz ağacı var idi, bu ağacı da o biriləri kimi Axund özü əkmişdi. Ağacın, deyilənə görə, indi yetmiş yaşı var idi. O qədər qollu-budaqlı idi ki, kölgəsində yüz adam otura bilərdi. Gövdəsi sağlam, yarpaqları yamyaşıl idi. Onun ümumi görünüşündə mən qeyri-adi bir gümrahlıq hiss edirdim və bu hiss bir an məndə elə bir təsir yaradırdı ki, elə bil bunu əkib gedən rəhmətlik Hacı Axund heç ölməmişdi. O da, hardasa, bu ağac kimi sağlam və gümrahdır. Hündür gilas ağaclarının üstü kəhrəba kimi sarı gilasla dolu idi. Almalar, armudlar hələ yetişməmişdi. Ağacların arası yasəmənlə, qızılgüllə dolu idi. Bu güllər ipək kimi yumşaq dağ otlarının arasından qalxıb, elə bil ki, mənə sevinclə baxırdılar. Ancaq mənə hamıdan xoş gələn Mirzə Məhəmməd dayının böyük qızı Səriyyə idi. Qara, çatmaqaş, qaragöz, gözəl, zərif bir qız idi. Məni görəndə gülümsədi. Mən də onun dümağ sədəf kimi dişlərini, təbəssümünü görüb indiyə qədər heç bir zaman özümdə hiss eləmədiyim qəribə bir sevinc duydum. Mənə elə gəldi ki, indiyə qədər üzərimdə ağır bir bulud varmış və bu bulud bütün bağların, çöllərin üzərinə tutqun, kədərli bir kölgə salırmış, indi elə bil ki, bu qızın mənə baxıb gülümsəməsilə o bulud çəkilib getdi. Bütün dünya işığa, sevincə qərq oldu. Elə bil ki, indiyə qədər mənim bədənimdə ağır bir kəsafət varmış və bu qızı görməyimlə o kəsafət yox oldu. Mən özümü təəccüblü dərəcədə yüngül, şad hiss edirdim. Mən həyəcanla düşünürdüm ki, bu dünyada necə gözəl hisslər varmış...

Sonra mənim fikrimdən keçən ilk şey o oldu ki, «Əlibaba və qırx quldur» kitabımı ona bağışlayım. Çünki mənim yeganə qiymətli şeyim o kitab idi. Yaxşı oxuduğum üçün onu mənə müəllimim bağışlamışdı. Mən ondan soruşdum:

– Sən də üçüncüdən dördüncüyə keçmisən?

O, pərişan bir təbəssümlə dedi:

– Mən oxumuram.

– Nə üçün?

– Atam qoymur. Deyir, qız uşağısan.

Mən dedim:

– Nə olsun qız uşağısan?! Bizim sinifdə neçə qız oxuyur.

O dedi:

– Amma mən çox oxumaq istəyirəm.

Mən onun səsində bir həsrət hiss elədim və bu, mənə toxundu.

Sonra mən anamdan soruşdum:

– Nə üçün Mirzə Məhəmməd dayı Səriyyəni qoymur məktəbə getsin? Bizim şəhərdə qızların hamısı oxuyur.

Anam dedi:

– Xalaoğlu belə adamdır də... Özü gimnaziya qurtarıb, amma qızlarını qoymur oxusun.

Mən soruşdum:

– Axı niyə?

Anam dedi:

– Şəhərdə Mirzənin düşməni çoxdur. Ona görə də qızını məktəbə buraxmır.

Mən soruşdum:

– Axı qız uşağına nə olacaq ki?

Anam qaşlarını çatıb dedi:

– Fikir eləyir ki, düşmənləri qızı oğurlayarlar.

Mirzə Məhəmməd dayı ortaboylu, əsmərbənizli, qısa vurduruğu saçları çallaşmış bir adam idi. Qızının birinə güllə dəydiyindən azca axsayırdı, Qarabağda adlı-sanlı qoçulardan hesab olunurmuş. Atası nə qədər xeyirxah, camaat dərdinə qalan imişsə, Mirzə Məhəmməd dayı o qədər amansızmış, sözünün qabağına söz demək olmazmış. İndi də yanında gizlin tapança gəzdirirdi. Danışırdılar ki, Nikolay vaxtı Kürdüstan tərəfdə çar naçalniki olanda, bir dəfə bir neçə strajniklə atlı gəlirmiş. Görür ki, yolda bir kəndli ayaq üstə pəşov eləyir. Mirzə Məhəmməd dayı atının başını çəkib soruşur ki:

– Niyə ayaq üstə pəşov eləyirsən? Müsəlman deyilsən?

Kəndli də qabağındanyeməz adam imiş, deyir:

– Sənə nə var, yaxşı eləyirəm.

Mirzə Məhəmməd dayı da, eləmə tənbəllik, tapançanı çıxarıb kişini vurub öldürür.

Biz özümüzlə Misir adlı nökərimizi də aparmışdıq. Bu, gödək, yumru, özü də pəltək bir oğlan idi. Hər kəlmənin ancaq birinci hissəsini deyə bilirdi.

Bir dəfə armud salmaq üçün Misirin ağaca selbə atmağını Mirzə Məhəmməd dayı gördü, gözlənilməz bir cəldliklə Misiri tutub yerə yıxaraq acıqlı-acıqlı dedi:

– Bıçağı gətirin, bu köpəkoğlunun başını kəsəcəyəm.

Misir də «və...» deyə əcaib bir səslə bağırdı.

Sonra mən anamdan soruşdum:

– Bağın meyvələrini eyzən qonşulara paylayırlar. Bəs niyə Mirzə Məhəmməd dayı Misirin başını kəsmək istəyirdi?

Anam gülüb dedi:

– Ona görə ki, Mirzənin ağacına daş atmaq olmaz!

Mirzə Məhəmməd dayı, deyilənə görə, çox igid adam idi, amma boydan çox gödək görünürdü. Onun nahaq yerə kəndlini o cür vurmağı, Səriyyəni məktəbə buraxmamağı məni dəhşətə gətirirdi.

Biz Səriyyə ilə bütün günü bağda oynayırdıq. Hətta gecələr də, bir-birimizdən ayrılmaq istəmirdik. Bir dəfə də biz onunla əl-ələ tutub bağda gəzdiyimiz zaman anası Yasəmən xala görüb qıza acıqlandı:

– Qız uşağı oğlanla əl-ələ gəzməz!

Mən utandım, ancaq nə üçün utandığımı bilmədim. Sonra biz, yalnız heç kəs görməyəndə, yəni ətrafımızda adam olmayanda əl-ələ tutub gəzirdik. Biz ikimiz də bundan hədsiz bir zövq alırdıq. Xəzinə qayasına yüyürərək sarp qayalı uçurumun dibində qarğa kimi qaralan adamlara, qıjıltı ilə axan Daşaltı çayına, onun o biri sahilindəki Topxana meşəsinin altındakı daş divarları, barıları görünən xaraba Xan sarayına tamaşa edirdik.



Fatma nənəm mənə nağıl eləmişdi ki, Xan bu qalanı ona görə tikdirib ki, başqa padşah Şuşaya hücum eləyəndə qaçıb orada daldalansın.

Mən də fikirləşirdim ki, vaxta ki, xan bərkə düşəndə öz adamlarını qoyub, bu qalada gizlənirmiş, demək, qorxaqmış. Əlbəttə, mən bu düşüncələrimi Səriyyəyə demirdim. Mən ona yaxşı şeylər haqqında danışmaq istəyirdim. Mən ona «Əlibaba və qırx quldur»u nağıl edirdim, Zümrüd quşunun Məlikməmmədi öz belində zülmət dünyasından işıqlı dünyaya necə gətirib çıxardığını danışırdım. Uçurumun o tərəfindəki meşələrdən gələn xəfif yel Cıdır düzünün yumşaq otları ilə bərabər, onun da ağ alnında qıvrılan xurmayı saçlarını tərpədib oynadırdı və bu hal mənə heyrətli dərəcədə gözəl görünürdü. Bəzi anlarda mənə elə gəlirdi ki, Səriyyə ilə mən tamam başqa aləmdəyik. İndiyə qədər mənə məlum olmayan nağıl kimi gözəl bir aləmdə...

Mən Robinzon Kruzonun macərasını böyük bir həvəslə ona nağıl eləyəndən sonra onu da demək istəyirdim ki, biz də, yəni Səriyyə ilə mən də heylə bir adada olsaydıq nə gözəl olardı... Amma demədim. Çünki mən danışıb qurtarandan sonra o dedi:

– Yazıq Robinzon tək-tənha o adada necə yaşayırmış, darıxmaqdan adamın bağrı çatlar...

Nəhayət, avqustun axırları gəldi və mən Səriyyədən də, o əfsanəli aləmdən də ayrılmalı oldum.

Atamın bacısı oğlunun ailəsi də Şuşada yaylaqlanırdı. Atamın bacısının əri Əbdüləziz də on gün olardı ki, atamla gəlmişdi Şuşaya.

Atam mənə dedi:

– Əbdüləziz, Molla Nəsrəddin yolu ilə atlı gedir Qarabulağa, sən də bizim atı minib onunla gedərsən, biz faytonla Ağdam yolu ilə gedəcəyik.

Mən başı çiyinlərinin arasına girmiş gödək Əbdüləzizi sevmirdimsə də, dinmədim.

Anam dedi:

– Uzun, narahat yoldu, uşaq yorulub əldən düşər.

Atam acıqlanıb anama dedi:

– Sən bunu gülməşəkər eləmə, qoy bərkə-boşa düşüb öyrənsin.

Mən qaşqabaqla dedim:

– Yorulmaram.

Səhər atam bizim atımızı yəhərləyib tapqırlarını möhkəm çəkdi, anamın mənim üçün yemək qoyduğu keçə xurcunu bağladı atın tərkinə. Səriyyə içəridə, pəncərənin qabağında dayanıb tamaşa edirdi.

Sonra atam cilovu yəhərin üstünə qaytararaq mənə dedi:

– Min görək.

Mən ayağımı üzəngiyə qoyub atın üstünə qalxaraq qanrılıb Səriyyəyə baxdım. O da mənə baxıb gülümsədi. (Sonralar da... Lap sonralar da mən dünyada o qədər riqqətli təbəssüm görmədim). Mən də

gülümsədim. Ancaq bilmirəm ki, necə gülümsədim. Onu bildim ki, ayrılıq çox kədərli şeydir. Yəni mən, bu böyük dünyada birinci dəfə ayrılıq acısının nə demək olduğunu dərindən hiss elədim. Bir an mənə elə gəldi ki, bütün vücudum və bu böyük dünya ancaq kədərdən ibarətdir. Mən Hacı Axundun bağındakı sarı gülləri xatırladım. Bir dəfə Səriyyə qara gözləri ilə gülümsəyib mənə dedi:

– Bax, bu sarı güllərdən qırmayasan...

Mən soruşdum:

– Nə üçün?

– Ona görə ki, sarı gül ayrılıqdır.

Mən də dedim:

– Qırmaram. Mənim sarı rəngdən xoşum gəlmir.

Və mən heç bir zaman sarı gülü üzmədim, amma yenə də biz ayrıldıq.

Qabaqda atamın fasıq yeznəsi, arxasınca da mən Şuşa qalasının böyük qapısından çıxıb kəsmə yolla uzun yoxuşu enməyə başladıq. Fikirləşdim ki, görəsən, mən həyətdən çıxandan sonra Səriyyə hara getdi? Neylədi? Kiminlə danışdı?

Şuşa qalasından Qarabulağa gedən əlli verstlik yol daim üzü enişə idi. Nə üçün bu yola «Molla Nəsrəddin» yolu deyirdilər? Bilmirdim. Biz eyzən uçurumlu dağların, qalın meşələrin arası ilə gedirdik. Mən tək qalmaq istədiyim üçün kişini irəli buraxıb özüm ondan xeyli aralı, arxasınca gedirdim. Mənə elə gəlirdi ki, yalnız Səriyyədən deyil, yanlarından keçdiyim bu palıd ağaclarından da, yarpaqların arasından başlarını çıxarıb ürkək nəzərlərlə bizə baxan quşlardan da, meyvələri qaralan böyürtkən kollarından da həmişəlik ayrılıram. Biz alaçığa çatanda mən qanrılıb Şuşa qalasına baxdım. Elə bil ki, indi üstünə duman çökən dərin uçurumlu, sıldırımlı qayaların üstündəki o qədim qala nağıllarda deyilən tamam başqa bir dünyadır. Sonralar da eyzən mənim xəyalımda həmin o dumanlı qala, bir də onun içində ancaq Səriyyə canlanırdı. Amma mən son dəfə onun üzündə gördüyüm təbəssümü daha görmürdüm. Mənə elə gəlirdi ki, indi Səriyyə o duman içində hara isə məchul bir aləmə baxır və heç bir zaman gülümsəmir və elə bil, mən bunu yuxuda görürəm.

Biz Qəcər deyilən kəndin bağlarının yanından keçəndə Əbdüləziz kişi atının başını çəkərək dayandı, yol gəldiyimiz bu neçə saatdan bəri birinci dəfə mənə müraciətlə dedi:

– Düşək, burda bir az çörək yeyək.

Biz düşüb, atları qolbənd eləyib buraxdıq otlamağa.

Əbdüləziz kişi bağbanı çağırıb, pul verib dedi:

– Bizə bir az üzüm dər, gətir.

Sonra öz xurcunundan pendir-çörək, mən də anamın qoyduğu kotletləri, çörəyi çıxardım. Otun üstündə oturub bağbanın gətirdiyi

təzə üzümlə yeməyə başladıq. Mənim heç iştaham yox idi. Bir balaca salxım üzümlə bir tikə pendir-çörək yeyib qalxdım.

Əbdüləziz kişi xoş ifadə ilə mənə baxıb soruşdu:

– Niyə yemirsən?

Mən dedim:

– Ürəyim istəmir.

Mən onun yanında özümü daha yalqız, daha kədərli hiss edirdim. Ona görə də qalxıb atımın yanına getdim.

Biz Qarabulağa çatanda gün batmışdı. Mən atamın yeznəsindən ayrılaraq anamın tapşırığı ilə onun rəfiqəsi Bilqeyis xalagilə getdim. Bilqeyis xalanın əri Abdulla bəy Qarğabazar məktəbində atamın rus dili müəllimi olmuşdu. Bu, anasının məzarı haqqında mənə qəmli şeylər danışan həmin Abbas bəyin atası idi. Abbasın anası rəhmətə gedəndən sonra Abdulla bəy öz baldızı Bilqeyis xanımla evlənmişdi. Mən atı onların tövləsinə bağlayıb, Abbasla birlikdə yəhərini götürüb, axuruna arpa-saman tökəndən sonra çıxdıq ikinci mərtəbədə olan evlərinə. Bilqeyis xala da, Abdulla bəy də məni çox mehribanlıqla qarşıladılar. Anamgildən hal-əhval tutdular. Sonra biz şüşəbənddə oturub günorta yeməyindən qalmış boyat sousla, qarpızla şam elədik. Şamdan sonra Abdulla bəylə Abbas bəy başladılar qarpız dənələrini çırtlamağa. Bu da məni lap dilxor elədi. Çünki həmişə biri yanımda qarpız dənəsi çırtlayanda ətim ürpəşirdi. Abdulla bəy qarpız dənələrini çırtlaya-çırtlaya atamın uşaq vaxtı öz kəndlərindən Qarğabazara səkkiz kilometr yol gəldiyinə baxmayaraq, bir dəfə də olsun dərsə gecikməməyindən, Bilqeyis xala da Nuru dayımın öz yerimizdəki bu qədər gözəl qızlardan heç biri ilə evlənməməyindən danışırdı. Burada mənim üçün maraqlı olan və eyni zamanda təəccüblü olan Abbasın öz atası ilə qabaq-qabağa oturub qarpız dənəsi çırtlamağı və onun söhbətinə tamam sərbəstliklə müdaxilə eləməsi idi. Bir dəfə atam mənim günəbaxan dənəsi çırtladığımı görüb, o ki var, danlamışdı. Mən də bir daha onun yanında günəbaxan dənəsi çırtlamamışdım. Mən heç bir zaman atamla belə sərbəst söhbət eləməmişdim. Ona görə də mən Abbasın öz atası ilə bu cür açıq-saçıq rəftarına qibtə eləyirdim. Mənə elə gəlirdi ki, əgər atam da mənimlə belə rəftar eləsəydi, mən özümü bəlkə bu qədər yalqız hiss eləməzdim. Mən bunu düşünüb kədərlənirdim. Atamın mənimlə rəftarında heç bir ataya oxşamadığını hiss elədiyim kimi, özümün də heç bir yaşıdıma bənzəmədiyimi duyurdum. Bu ayrılıq heç də mənim izzəti-nəfsimi oxşamırdı. Əksinə, bu, mənim özümə, öz bacarığıma inamımı getdikcə azaldırdı, mənim daxili aləmimdə bir bədbinlik yaradırdı. Sinifdə hamıdan yaxşı oxumağım da, anamın rəfiqələrinin mənim haqqımda dedikləri təriflər də artıq məni şad eləmirdi. Mən həyətimizdəki böyük tut ağacının altında saatlarla oturub öz haqqımda, özümün bu dünyada lazımsızlığım haqqında düşünürdüm. Və

mən gözlərimi tut ağacının enli yarpaqları arasından görünən mavi göylərə dikərək tez-tez Allahdan soruşurdum: «Məni nə üçün yaratmısan?!»

Yəqin məsələdir ki, mən heç bir cavab almırdım. Və o zaman dərin bir ümidsizliklə gözümü göylərdən çəkib, tut ağacına baxırdım və mənə elə gəlirdi ki, tut ağacı mənim nə soruşduğumu eşidir və dərdimə şərik olur, amma cavab verə bilməyərək mehribanlıqla sükut edir.

MƏN VƏ YENİ HƏYAT

Mən görürdüm ki, şəhərimizin cavanlarından bir hissəsi qırmızı komandirlər kimi ot rəngli parçadan köynək-şalvar geyinib, enli kəmər bağlayırlar. Dəstə-dəstə gəzərək bərkdən danışıb-gülürlər. Hələ desən, tüfəng götürüb milislərlə birlikdə dağlara, meşələrə qaçaq-quldur dalınca da gedirlər. İclas eləyib bəylərin, kapitalistlərin əleyhinə qəzəbli nitqlər söyləyirlər. Bu cavanlara «komsomol» deyirdilər. Elə bil ki, mənim özümdə də bəylərə, kapitalistlərə qarşı gizli bir kin varmış və bu kin indi zahirə çıxırdı. Komsomollarda hiss etdiyim mübariz ruh məni həvəsləndirirdi, sanki məni o axına qoşulmağa çağırırdı. Elə bil ki, məndə həyata potensial halında olan fəal müdaxilə qüvvəsi birdən-birə hərəkətə gəlib özünü göstərmək istəyirdi. Bir gün mən də cəsarətlə atama dedim:

– Komsomol olmaq istəyirəm.

Gözləyirdim ki, atamın acığı tutacaq, amma belə olmadı. O gülümsəyib anama dedi:

– Deyəsən, bu elə anadangəlmə kommunistmiş...

Sonra atam məni, Qəza Partiya Komitəsində hansı böyük vəzifədəsə olan həmkəndlisinin yanına aparıb gülə-gülə dedi:

– Bizim oğlan da komsomol olmaq istəyir.

Cavan, xoşsifət bir adam olan həmin vəzifəli şəxs gülümsəyib zarafatyana dedi:

– Görünür, bu qəşəng oğlan atası kimi burjuy olmaq istəmir. Ancaq komsomola keçməsi hələ tezdir. Yaşı düşməz.– Və o, yəqin ki, mənim pərt olduğumu görüb, elə xoş əhvalla əlavə etdi. – Qoy hələlik pioner olsun, sonra keçər komsomola.

Ordan çıxandan sonra atam mənə ürək-dirək verib dedi:

– Eybi yoxdur, sonra keçərsən. Görünür, komsomolun qaydası belədi.

... Mənim pioner olmağım atamın da, anamın da xoşuna gəlirdi, elə bil ki, bununla onlar özlərinin də yeni həyat tərəfindən rədd edilmədiklərini hiss edib, sevinirdilər. Pioner təşkilatından bizə göy qədəhdən qısa tuman, ağ köynək və qırmızı qalstuk vermişdilər. Ancaq anam mənə özü qırmızı ipək parçadan qalstuk tikdi. Mən də hər gün

dərsdən sonra böyük bir həvəslə bu paltarı geyib, qırmızı qalstuku da bağlayıb gedirdim dəstəmizin məşğələsinə. Həmin ipək qalstukumun yaz vaxtı bizim çölləri bürüyən lalə tək qıpqırmızı olmağı, parçasının lalə yarpağıtək zərifliyi məndə qəribə, təravətli bir ruh yüksəkliyi yaradırdı.

Bizim dəstəmizə bir komsomol oğlan rəhbərlik edirdi. O, bizə ən çox Sovet hökumətinin düşmənlərindən danışırdı. O deyirdi:

– Atası, qardaşı da Sovet hökumətinin düşməni olsa, pioner gərək onu bağışlamasın. O saat gedib çekaya xəbər versin. Bəylər, kapitalistlər istəmirlər ki, biz sosializm quraq, istəmirlər ki, hamı varlı yaşasın.

Mən soruşdum:

– Nə üçün istəmirlər? Hamının varlı olmağının onlara nə ziyanı var?

Dəstə rəhbəri dedi:

– Onlar kasıbların əməyi ilə varlanırlar, fəhlələri, kasıb kəndliləri istismar eləyə-eləyə dövlətlənirlər.

Mən soruşdum:

– Nə üçün fəhlələr, kəndlilər özləri də pul qazanıb dövlətli olmurlar ki, o biri dövlətlilər də onları istismar eləyə bilməsinlər?

Mən bu sualı səmimi verirdim. Kasıb, yoxsul insanlara acıdığım üçün verirdim. Mən özümü onların tərəfində hiss eləyirdim. Ancaq pinəçi bir kişinin oğlu olan həmin dəstə rəhbərimiz qırmızı Fətiş (onun üzü qıpqırmızı olduğu üçün uşaqlar ona «Qırmızı Fətiş» deyirdilər) mənə qəzəblə baxıb acıqlı-acıqlı dedi:

– Sənin baban kimi, atan kimi bəylər, əfəndilər, burjuylar fəhlələrin, kəndlilərin qazancını tutub əlindən almasalar, əlbəttə ki, onlar da dövlətli olarlar.

– Düzdür!.. Düzdür!..– deyə bir neçə uşaq yerindən səsləndi.

Muzdur Şirinin oğlu Fərəc ayağa durub, məni göstərərək dedi:

– Bunun babası nəçərnik olanda mənim əmimi tutub dustaq eləmişdi.

Qonşumuz Sənəm xalanın oğlu da ona bağırıb dedi:

– Sənin əmin oğrunun bir idi.

Fərəc də ona hücum eləyib:

– Oğru sənin atandı!

Fərəclə Əyyub tutaşdılar. Dəstə rəhbərimiz Qırmızı Fətiş onları güclə aralaşdırdı. Mən babalarımın zülmkar olmadıqlarını, atamın da kapitalist olmadığını bilirdim. Bilsəm də, özümü bu uşaqların yanında suçlu hiss elədim. O gündən sonra mən bu pioner yoldaşlarımın məşğələlərində ürəklə, daxili sərbəstliklə iştirak eləyə bilmədim. Elə bil ki, onların yanında bir günahım vardı.

Həmin bu vaxtlar atamın ticarət işləri tamam iflasa uğramışdı. Tikinti materialları mağazası üçün lazım olan şeyləri keçmişdə atam

gedib Moskva, Petroqrad, Xarkov, daha bilmirəm, hansı böyük şəhərlərdənsə alıb gətirirmiş. Amma indi o şəhərlərdə bütün fabrik-zavodlar milliləşdirildiyindən xüsusi alverçilərə heç nə satılmırdı. Ona görə də atam öz mağazasında satmağa bir şey tapmırdı. O biri tərəfdən də atam anama deyirdi ki:

– Xüsusi tacirlərə o qədər vergi qoyurlar ki, altından çıxmaq olmur.

Qərəz, bütün bunlara görə də atam mağazadakı olub-qalan şeyləri dəyər-dəyməzinə satdı, ticarəti yığışdırıb başladı özünə bab bir qulluq axtarmağa.

Atamın ticarətdən əlini çəkməyi məni sevindirirdi. Fikirləşirdim ki, daha pioner yığıncaqlarında Muzdur Şirinin oğlu Fərəc, «alverçi oğlu» deyib mənə sataşmayacaq. Qırmızı Fətiş də «tacir oğlu» deyib məni hədələməyəcək.

Amma atama heç yerdə iş vermirdilər. Ona görə də bizim dolanacağımız çox çətinləşirdi. Mən ibtidai məktəbin üçüncü-dördüncü sinfində oxuyanda Əvəz adlı oğlanla dostlaşmışdım. Onun da atası tacir idi. Özləri də bizim kimi varlı-hallı idilər. Amma Əzizin atası bic tərpənib Şura hökuməti qurulandan iki-üç il sonra ticarəti yığışdırıb, girmişdi dərzi artelinə. (Onun əvvəli də dərzi imiş, elə dərzilikdən də dövlətlənib tacir olmuşdu).

Dərsdən sonra Əvəzlə bir yerdə gəzib dolanırdıq. Yaz-yay vaxtı gedib Quruçayda, Köndələnçayın üstündəki Şırranda çimirdik. Bizim şəhərimizdə olan malakanlar Quruçayın qırağında böyük bostanlar əkib-becərirdilər. Əvəz bu bostanlardan tər xiyar alardı. (Məndə heç bir zaman pul olmazdı, məni belə şeylərə həmişə Əvəz qonaq eləyərdi). Biz ucsuz-bucaqsız çəmənliklərdə xiyar yeyə-yeyə gəzib söhbət edərdik, bəzən bu geniş düzənliklərin ortasında ən uca zirvə olan Qarı dağına çıxıb, ta Arazın o tayındakı başı qarlı Savalan dağınadək uzanıb gedən mənzərələrə tamaşa edərdik. Dünyanın genişliyi, buludsuz mavi göy altındakı çöllərin intəhasız görünüşü, gələcək haqqındakı xəyallarımız bizim qəlbimizdə xoş hisslər oyadırdı. Bu hisslər sanki bizim ürəklərimizi birləşdirirdi. Biz əvvəl komsomola, sonra kommunist partiyasına keçib böyük adamlar olacağımız barədə, bizim Qəza Partiya Komitəsinin katibi kimi ot rəngli parçadan qalife şalvar, boynuqatlama köynək, uzunboğaz çəkmə geyib komandirlər kimi enli kəmər bağlayacağımız haqqında qəribə sevincli söhbətlər edirdik.Bizim ikimizin də bəy oğlanlarından, Məşədi Qara kimi böyük dövlətlilərin oğlanlarından zəhləmiz gedirdi. Onlar bizə həddindən artıq lovğa görünürdülər. Mən təbiətən nə qədər bədbin idimsə, Əvəz bir o qədər nikbin idi. Ancaq bununla belə, gələcək haqqında xəyallarımız birləşirdi. İkimiz də yaxşı oxuyurduq. Əxlaq barədə, dərsləri mənimsəmək barədə müəllimlər həmişə bizi nümunə göstərirdilər. Biz ikimiz də riyaziyyatçı hesab olunurduq. Üstəlik

mən çoxlu kitab oxumağımla da məşhur idim. Əvəzgil bizə nisbətən indi yaxşı yaşayırdılar. Həftələrlə evimizdə ət xörəyi bişmirdi. Amma yoxsulluq mənim gözümə görünmürdü, mənim arzu-xəyal aləmimə təsir eləmirdi. Mənim qapalı daxili aləmimə ancaq tanıdığım və ya haqqında eşitdiyim insanların ağır taleyi daxil olub, onu sarsıdırdı. Məsələn, bir gün anam atama nağıl elədi ki, hamamçı Məşədi Həbibin o vaxt türk zabitinə qoşulub gedən qızı Məhbub xanım İstanbulda vərəm xəstəliyinə tutulub vəfat etmişdir. Özündən bir neçə vaxt sonra da əri vəfat etmişdir. Məhbub xanımın üç uşağı, burdan qulluqçu apardığı qızın ümidinə qalmışdır və bütün bu kədərli əhvalatı da Məhbub xanımın anası Xurşud xanıma həmin qulluqçu qız yazmışdır. Mən heç kəsə bu barədə bir söz demədən, hiss etdirmədən qərib ölkədə o cür vəfat eləyən gözəl Məhbub xanım haqqında, onun qərib ölkədə anasız-atasız qalmış balaları haqqında dərin bir hüznlə düşünürdüm. Halbuki Məhbub xanımın mənimlə yaşıd qardaşları, deyəsən, o ağır dərdi heç veclərinə də almırdılar.

Məhbub xanımın anası da dərdli qadına oxşamırdı. Mənsə insanların dərdinə biganə qala bilmirdim. Ancaq heç bir zaman nəyə acıdığımı, kimin dərdinə biganə qaldığımı büruzə vermirdim. Mən adamlara bu qədər yaxın ikən onları özümdən uzaq hiss edirdim.

Mən pioner təşkilatına daxil olduğum ilk vaxtlarda elə bilirdim ki, səmimi, hərarətli yoldaşlar tapmışam. Elə bilirdim ki, indiyə qədər mənə məlum olmayan yeni sevincli bir aləmə daxil oluram. Amma Qırmızı Fətiş atamı, babalarımı, «burjuy» adlandırıb mənə qəzəblənəndə, Muzdur Şirinin oğlu da ona dəm tutanda, elə bildim, məni döşümdən vurub, geri itələyib dedilər:

– Sən bizdən deyilsən!

Mənsə geri durmaq istəmirdim. İstəyirdim ki, mən də bu pioner yoldaşlarımla qaynayıb-qarışım... Mən sevincə, dostluq hərarətinə qarşı özümdə bir aclıq hiss edirdim. Ona görə də Qırmızı Fətişin, Muzdur Şirinin oğlu Fərəcin sözlərini yaddan çıxarmağa çalışaraq, pioner dəstəmizdə fəal iştirak edirdim. Dəstəmizdə divar qəzeti çıxarmağa başlamışdıq. Tezliklə məlum oldu ki, mən pioner həyatımız barədə, məktəbdə özümüzü aparmağımız barədə, gözəl məqalələr yazmağı bacarıram. Hətta, Qəza Pioner Təşkilatının sədri Cəbrayılov yoldaş özü məqalələrimi tərifləyib məsləhət gördü ki, məni divar qəzetimizə redaktor seçsinlər. Ancaq dəstə rəhbərimiz komsomol Fətiş etiraz eləyib dedi:

– Yoldaş Cəbrayılov, o, burjuy balasıdır!

Muzdur Şirinin oğlu Fərəc də yerindən təsdiq etdi.

Nazik, cavan, xoşsifət bir oğlan olan Cəbrayılov gülümsəyib dedi:

– Yaxşı, bəs kimi redaktor seçmək istəyirsiniz?

Qırmızı Fətiş məndən bir-iki yaş böyük olan Savalanı göstərib dedi:

– Bax bunu! Atası da kasıb qəssabdı.

Muzdur Şirinin oğlu Fərəc yenə də etiraz eləyib dedi:

– Onun atasının qəssab dükanı var.

Yoldaş Cəbrayılov bu sözə də gülümsəyib dedi:

– Yaxşı! Savalan olsun redaktor, Murad da olsun məsul katib.

Fərəc soruşdu:

– Yoldaş Cəbrayılov, burjuy oğlundan məsul katib olar?

Cəbrayılov eyni xoş sifətlə dedi:

– Olar. Siz çalışın burjuy balalarını öz tərəfinizə çəkin.

Doğrusu, bu anlarda «burjuy» sözü özü əsil mənasından çıxıb mənim təsəvvürümdə az qala əcaib bir divə çevrilmişdi. Muzdur Şirinin oğlu Fərəc də məni çox yandırmışdı. Ona görə də bir gün girəvələyib küçədə o ki var əzişdirib ağzının, burnunun qanını qatdım bir-birinə.

Sonra atası Muzdur Şirin əlində yaba, axşam bizim evə hücum eləyib bağıra-bağıra deyirdi:

– Burjuy köpəkuşağı! Bu da keçmiş vaxtdır?!

Atam pilləkənləri düşüb sakit səslə ona dedi:

– Yaxşı, Muzdur Şirin, uşaqlar dalaşıblar, yenə də barışarlar. Söyüş söymə.

Muzdur Şirin daha bərkdən bağıraraq:

– Qışqıraram da, canınızı da alaram!– deyib yabanı atama endirəndə atam havada yabanı tutub, onun əlindən aldı. (Mən atamın bu qədər qüvvətli olduğunu bilməzdim). Sonra itələyib darvazadan çıxardaraq, yabanı da ardınca tulladı.

Mən fikir elədim ki, Muzdur Şirin yabanı götürüb təzədən atama hücum eləyəcək. Ancaq belə olmadı. Muzdur Şirin yabanı götürüb, iti addımlarla getdi və bir az aralanandan sonra geri dönüb dedi:

– Köhnə iyiniz burnunuzdadı! Qəzəmətdə ağlın başına gələr!

Ancaq Muzdur Şirin şikayət eləmədi. Atam da mənə heç nə demədi. Anam o qədər qəzəblənmişdi ki, üzündə bir damcı qan qalmamışdı. Dalbadal papiros çəkərək atama deyirdi:

– Gərək yabanı alıb soxaydın o köpəkoğlunun qarnına, hücum çəkib evin üstünə gəlir!

Mən aydın dərk edirdim ki, Muzdur Şirin kimi adamlar bizi düşmən hesab edirlər. Bəlkə ona görə də atam hökumət idarələrində qulluq tapa bilmir. Mən onu da fikirləşirdim ki, əgər bizim təqsirimiz atamın bir zaman varlı olmasıdırsa, artıq bu var-dövlət çıxıb gedib işinə. İndi Muzdur Şirinin külfəti bizdən yaxşı dolanır. Qırmızı Fərəc hər gün tənəffüsdə otaylı Rəhimin dükanından alma-armud, qoz alıb yeyir. Amma mənim dəftər almağa da pulum olmur. Evdə də, demək olar ki, həmişə yarıac oluruq. Bir dəfə atam anama dedi:

– O vaxt adam bilsəydi ki, tacirləri də bu cür düşmən hesab eləyəcəklər, cütün dəstəsindən əl çəkməzdi.

Mən görürdüm ki, bu saat atamın çörəkpulu qazanıb bizi babat dolandırmaqdan başqa bir fikri yoxdur. Ona görə də Muzdur Şirinin, komsomol Fətişin bizi düşmən hesab eləmələri məni ağrıdırdı. «Axı bizim nəyimiz «burjuy»dur?!– deyə mən qəzəblə düşünürdüm.

Bir dəfə atamgilin kənddəki keçmiş düşmənləri şeytanlıq eləmişdilər ki, guya, bizdə bir pud qızıl var. Bakıdan gəlmiş sarıbəniz, cavan bir çeka işçisi iki nəfərlə gecənin yarısı gəlib mülayim tərzdə anama (atam kəndə getmişdi) dedi:

– Xanım, deyirlər, sizdə çoxlu qızıl var. Xahiş eləyirəm, gətirin görək nədir onlar...

Yəqin məsələdir ki, bizdə «çoxlu qızıl» yox idi. Anam boyunbağılarını, iki-üç üzüyünü, qızıl qol saatını, balaca bir medalyonunu, bir neçə xırda-xuruş arvad zinətini gətirib tökdü çeka işçisinin qabağına.

O, yenə mülayim səslə soruşdu:

– Bəlkə yenə var?

Anam acıqlı cavab verdi:

– Olanı budur! İnanmırsız, axtarın.

Mən fikirləşdim ki, anamın sərt cavabına çeka işçisinin acığı tutacaq.

Ancaq acığı tutmadı. O, eyni mülayim ifadə ilə anama dedi:

– Bu zinətləri nə üçün gizləyirsiniz? Niyə özünüz, qızınız taxmırsınız?

Anam dinmədi. O zaman həmin oğlanla gələn və bizim yerli adamlardan olan Dəllək Əmrah:

– Yoldaş Cəmilov,– dedi,– bu arvad yalan deyir, icazə verin, evi axtaraq.

– Lazım deyil axtarmaq!– deyə çeka işçisi ona sərt cavab verdi.– Özü də qadın barədə bu nə cür danışıqdır?!

Anam bunu gözləyirmiş kimi rəngi qaçmış halda dəlləyə işarə ilə dedi:

– Buna bizlərdə «mərdimazar keçəl Əmrah» deyərlər, peşəsi eyzən ondan-bundan danos verməkdir.

Çeka işçisi bu söhbətin üstündən keçərək anamdan soruşdu:

– Əriniz nə iş görür?

Anam dedi:

– Heç bir iş. Qulluq vermirlər.

– Niyə?

– Niyəsini bundan soruşun,– deyə anam qəzəblə keçəl Əmrahı göstərdi.

Çeka işçisi yenə soruşdu:

– Özünüzün savadınız var?

Anam dedi:

– Bəli, var.

Çeka işçisi ciddi ifadə ilə dedi:

– Əriniz də, siz də işləyə bilərsiniz. Bəs indi nə ilə dolanırsınız?

Anam acıqlı dedi:

– Heç nə ilə. Nəyimiz vardı, hamısı bu hökumət gələndə, kənddə oğurlandı.

– İşləmək lazımdır!– deyə çeka işçisi təkrar etdi. – Bizim dövlətdə hər bir düz adam üçün iş var.

Onlar gedəndən sonra anam papiros çəkib, nə barədə isə xeyli düşündü. Sonra öz-özü ilə danışırmış kimi dedi:

– Görürsünüz, o Bakıdan gələn oğlan necə insaniyyətli adamdı? O adam mənim də heç bir zaman yadımdan çıxmadı.

Mən keçəl Əmrahın bir zaman dəllək olduğunu bilirdim.

Neçə dəfə atam saçlarımı düzəltdirmək üçün məni onun dükanına aparmışdı. Dəllək Əmrah da həmişə atamı böyük hörmətlə qarşılayardı.

Mən heç başa düşə bilmirdim ki, həmin o Dəllək Əmrah indi şəhər sovetinin üzvü olandan sonra nə üçün bizimlə düşmən kimi rəftar edir? Bizdən nəyin qisasını alır? Niyə birdən-birə belə amansız adam olub?

... Biz ibtidai məktəbin beşinci sinfini bitirəndən sonra Əvəzi atası apardı Bakıya ki, təhsilini orda davam etdirsin. Mən də çox istəyirdim ki, atam məni də Bakıya aparsın, mən də Əvəz kimi orda oxuyum, bizim bu balaca şəhərdə kimin imkanı vardısa, uşağını ibtidai məktəbi bitirəndən sonra aparıb Bakıda oxumağa qoyurdu. Ancaq atam məni aparmadı. Başa düşdüm ki, məni Bakıda oxutmağa atamın gücü çatmır. Ona görə də çox məyus olub dinmədim. Əvəzdən ayrılmağım da mənə yaman təsir elədi. Biz söz verdik ki, bir-birimizə məktub yazaq.

... Mən şəhərimizdəki iki dərəcəli məktəbə daxil oldum.

1980.

KİTABIN İÇİNDƏKİLƏR

Ön söz *(Yaşar Qarayev)* 5

Hekayələr

Gözlənilməyən sevgi 39
Apardı sellər Saranı 48
Su dəyirmanı 51
Yun şal 86
Qırçı və qırmızı çiçək 95
Daş hasar 104

Pyeslər

Sən həmişə mənimləsən 115
Hökmdar və qızı 171

Povestlər

Körpusalanlar 219
Xanqızı Gülsənubərlə
tarzən Sadıqcanın nağılı 331

Roman

Geriyə baxma, qoca 349

İlyas Əfəndiyev

SEÇİLMİŞ ƏSƏRLƏRİ

Nəşriyyatın direktoru	Eldar Əliyev
Mətbəənin direktoru	Səhraf Mustafayev
Texniki redaktoru	Fərid Kərimov
Kompüter operatorları	Eldəniz Xocayev
	Günay Yusifova
Redaktoru	Həqiqət Eldarova
Korrektorlar	Könül Zamanova
	Ofelya İsmayılova
	Nərgiz Ələkbərova
Rəssam	Kəmalə Ələkbərova

Yığılmağa verilib 16.11.2004. Çapa imzalanıb 22.03.2005.
Formatı 70×100 $^{1}/_{16}$. F.ç.v. 36,5. Ş.ç.v. 47,09. Ofset çapı.
Sifariş № 289. Sayı 5000 nüsxə. (Birinci buraxılış 500 nüsxə).
Qiyməti müqavilə ilə.

"Çaşıoğlu" nəşriyyatı.
"Çaşıoğlu" mətbəəsi.
Bakı ş., M.Müşfiq küç., 2a.
Tel. 447-49-71

AR 2005
680